Məzunu olmağımla və orada çalışmağımla qürur duyduğum Bakı Dövlət Universitetinin 90 illiyinə ithaf olunur.

İsmayıl Musa

AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ

Universitetlərin Beynəlxalq münasibətlər fakültələri üçün

DƏRSLİK

Üç hissədə

Azərbaycan Respublikası Təhsil Nazirinin 4 fevral 2008-ci il tarixli, 158 saylı əmri ilə təsdiq edilmişdir.

Bakı – 2011

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

«Diplomatiya və müasir inteqrasiya prosesləri» kafedrası

İsmayıl Musa

Üçüncü hissə

CAĞDAŞ BEYNƏLXALQ MÜNASİBƏTLƏR VƏ AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ

- 15393 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı – 2011

Elmi redaktoru: **Dos. A.Hacıyeva**

Rəyçilər: **Prof. C.Həsənli, prof. X.İbrahimli, dos. A.Məmmədli, dos. K.Məmmədov, dos. V.Cəfərov**

Musa İ.M. Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. – Bakı: "Bakı Universiteti" nəşriyatı, 2011. – 776 səh.

Bu kitab "Azərbaycanın xarici siyasəti" adlı dərsliyin üçüncü hissəsidir. Kitabda, tərəfimizdən hazırlanan tədris proqramına uyğun olaraq, çağdaş dövlətlərarası münasibətlər və Azərbaycanın xarici siyasəti məsələlərindən bəhs edilir. Dərslikdə aşağıdakı mövzular əhatə olunur: SSRİ-nin süqutu şəraitində Azərbaycanın beynəlxalq durumu; Şimali Azərbaycanın beynəlxalq və regional inteqrasiya proseslərinə qoşulması; Ermənistan–Azərbaycan münaqişəsinin nizamlanmasına dair beynəlxalq səylər; AR-in "neft-qaz diplomatiyası"; Azərbaycanın Qərb dövlətləri ilə münasibətləri; AR postsovet geosiyasi məkanı dövlətlərarası əlaqələr sistemində; Azərbaycanın türk dünyasına inteqrasiya prosesi; AR-ın xarici siyasətinin Asiya istiqaməti.

Dərslik universitetlərin Beynəlxalq münasibətlər və Tarix fakültələri üçün nəzərdə tutulmuşdur. Kitab elmi-siyasi ictimaiyyət üçün də faydalı ola bilər.

$M\frac{0802000000-03}{M-658(07)}-2011$

© 2-ci nəşri, 2011

© İsmayıl Musa, 2011

© «Bakı Universiteti» nəşriyyatı, 2011

Ön söz

Azərbaycanın zəngin dövlətçilik, xarici siyasət, diplomatiya təcrübəsinin və çağdaş problemlərinin, inkişaf perspektivlərinin öyrənilməsi təhsilimizin mühüm vəzifələrindən sayılır. Bu baxımdan da "Azərbaycanın xarici siyasəti" fənninin tədrisi xüsusi əhəmiyyət kəsb edir.

Fənnin tərəfimizdən hazırlanan proqramı əsasında yazılan bu dərslik Quzey Azərbaycanın XX əsrdə – XXI yüzilliyin əvvəllərindəki xarici siyasəti məsələlərini əhatə edir. Dərslikdə XX yüzillikdə Güney Azərbaycandakı azadlıq hərəkatlarının beynəlxalq əks-sədası məsələlərinə və Təbrizdə yaranan Milli hökumətlərin xarici siyasətinə də geniş yer verilmişdir.

Dərslik üç hissədən ibarətdir. Onun üç hissəyə ayrılması müəyyən məntiqi mülahizələrə əsaslanır. Belə ki, bu zaman Azərbaycanın son dövr tarixi və xarici siyasətinin üç başlıca mərhələsi əsas götürülmüşdür: **1.** Azərbaycan Xalq Cumhuriyyəti – Birinci Respublika. **2.** Azərbaycan Sovetlər İttifaqının tərkibində – İkinci Respublika. **3.** Hazırkı istiqlal dövrü – Üçüncü Respublika. 1920-1922-ci illərin, yəni formal müstəqillik dönəminin də ayrıca dövr sayılmasına dair mövqelər vardır. Bizcə, 1920-1922 və 1923-1991-ci illər eyni siyasi-ideoloji məzmunlu ictimai quruluşun mərhələləri olduğundan onların vahid dövr (1920-1991) çərçivəsində birləşdirilməsi daha məqsədəuyğundur.

Kitab yazılarkən qaynaqlar (xüsusilə də diplomatik sənəd və materiallar), elmi baxış və konsepsiyalar əsas tutulmuşdur. Azərbaycanın dövlət xadimləri, diplomat və siyasətçilərin əsərlərindəki fikir və mülahizələrə mühüm önəm verilmişdir. Dərslik çoxsaylı elmi araşdırmaların nəticələrinin təhlili və ümumiləşdirilməsi əsasında yazılmışdır. Fənnin tərəfimizdən Bakı Dövlət Universitetində tədrisi təcrübəsi və həmkarlarımızın tövsiyələri də nəzərə alınmışdır.

Hər bir hissənin "Giriş"ində onun əhatə etdiyi dövrün

başlıca problem və məsələlərinə tezisvari şəkildə diqqət yetirilir. Onlara dair qaynaqlar və ədəbiyyatdan isə müvafiq surətdə hissələrin "Giriş"lərində bəhs olunur. Qaynaqlar və ədəbiyyatın geniş siyahısı tədris proqramında verildiyindən onların dərsliyin hissələrinə də əlavə edilməsi məsləhət bilinməmişdir. Ancaq bəzi mühüm diplomatik sənəd və materiallar, xəritə və s. dərsliyin hissələrinə əlavə olunur. Onların bir qismi arxivlərdə aşkarlanmış, digərləri isə ayrı-ayrı tədqiqatçıların əsərlərindən əldə olunmuşdur.

Fənnin tədrisinə son vaxtlardan etibarən başlanılmasını, onun çoxlu yeni problemləri əhatə etməsini və dərsliyin bu sahədəki ilkin cəhdlərdən olmasını nəzərə alaraq məsələlərin daha geniş şəkildə açıqlanması məqsədəmüvafiq sayılmışdır.

Giriş

Çağdaş beynəlxalq münasibətlər çoxlu tarixi hadisə və proseslərlə zəngindir. "Soyuq müharibə"nin sona yetməsi və SSRİ-nin süqutu, sosializm sisteminin dağılması nəticəsində formalaşan təkqütblü dünya müasir dövlətlərarası əlaqələrə xeyli yeni çalarlar və prioritet yönlər gətirmişdir. Mərkəzi və Şərqi Avropada, postsovet məkanında bir sıra müstəqil dövlətlərin yaranması hazırkı beynəlxalq siyasəti xeyli dərəcədə rəngarəng etmişdir.

ABŞ-dakı məlum və məşhur 11 sentyabr hadisələri isə müasir beynəlxalq münasibətlərdə olduqca yeni məzmunlu və keyfiyyətli bir tarixi mərhələ açmışdır. Bu, yeni dövr Avrasiya məkanında mühüm geostrateji mövqeyə malik olan Azərbaycanın dünya siyasətindəki önəmini daha da artırmışdır. Bütün bunlarsa **çağdaş beynəlxalq münasibətlərin və Azərbaycan Respublikasının (AR-in) xarici siyasəti məsələlərinin** tədrisini və elmi cəhətdən öyrənilməsini zəruri edir. Bu kimi çoxsaylı mühüm məsələlərin sırasından isə aşağıdakıları önə çəkmək olar:

- Sovetlər İttifaqının çökməsində Quzey Azərbaycandakı milli-demokratik hərəkatın yeri və rolu;
- müstəqil Şimali Azərbaycan dövlətinin xarici siyasətinin dövrləşdirilməsi, onun başlıca istiqamətləri və əsas prinsipləri;
- AR Xarici İşlər nazirliyinin (XİN-in) strukturu və onun fəaliyyətinin təşkili;
- müstəqilliyimizin dövlətlər tərəfindən tezliklə tanınmasının səbəbləri və bu prosesi əngəlləyən məqamlar;
- dünya inteqrasiya proseslərinə qatılmanın zəruriliyini şərtləndirən amillər;
- Quzey Azərbaycanın beynəlxalq və regional təşkilat, struktur, proqramlara qoşulmasının səciyyəvi xüsusiyyətləri, fərqli cəhətləri və nəticələri;

- Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair beynəlxalq sənədlər və planlar;
- "Dağlıq Qarabağ problemi" və etnosiyasi münaqişələrin tənzimlənməsinə dair modellər;
- AR-in "neft və qaz diplomatiyası"nın aparıcı yönləri və məqamları, onun ilkin nəticələrinə dair başlıca elmi-siyasi baxışlar və mövqelər;
- dövlətimizin xarici siyasətinin Qərb istiqaməti və onun üstün xətləri;
- respublikamızın Qərbin böyük dövlətləri ilə münasibətlərinin xarakteri, səciyyəvi cəhətləri və ilkin nəticələri;
- AR-in Mərkəzi və Şərqi Avropa dövlətləri ilə əlaqələrini şərtləndirən amillər və onların formaları;
- Azərbaycan Respublikası – Rusiya Federasiyası münasibətləri yeni tarixi şəraitdə: problemlər və perspektivlər;
- Azərbaycan diplomatiyası və Müstəqil Dövlətlər Birliyi (MDB);
- "Qafqaz birliyi (evi)" məsələsi və AR-in mövqeyi;
- GUAMdaxili inteqrasiya və Azərbaycanın milli maraqları;
- Türk dünyasıdaxili inteqrasiya prosesləri: əsas istiqamətlər, vasitələr, əngəllər;
- Türk dünyasıdaxili inteqrasiyada Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasındakı əməkdaşlığın yeri və rolu;
- AR-in Mərkəzi Asiyanın türk dövlətləri ilə münasibətlərinin durumu və səciyyəvi cəhətləri;
- AR-in xarici siyasətində İranın yeri və dövlətlərarası əlaqələrin başlıca yönləri, perspektivləri;
- respublikamızın Yaxın Şərqin ərəb dövlətləri ilə münasibətlərinin vəziyyəti və gələcəyi;
- Azərbaycan-İsrail əlaqələrinin xarakteri, durumu və perspektivləri;
- AR-in Cənubi və Şərqi Asiyanın aparıcı dövlətləri ilə əməkdaşlığı: başlıca xətlər, vasitələr, ilkin nəticələr;
- Azərbaycan Respublikasının xarici siyasətinin uğurları və dərsləri;
- yeni dünya düzəni, Avrasiya məkanında təhlükəsizlik-inteqrasiya və Azərbaycanın maraqları, mövqeyi;

Dərslik yazılarkən **çağdaş beynəlxalq münasibətlərə və Azərbaycan Respublikasının xarici siyasətinə aid bir sıra diplomatik sənəd və materiallardan** istifadə olunmuşdur. Onların ən önəmlilərinin burada qeyd olunmasını məqsədəmüvafiq hesab edirik:

- Azərbaycan Respublikasının Konstitusiyası;
- "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitutsiya Aktı" (18.X.1991);
- "Azərbaycan SSR-in suverenliyi haqqında" Konstitusiya Qanunu (23.IX.1989);
- "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə" (30.VIII.1991);
- Azərbaycan Respublikası Prezidentinin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 1997-ci il 18 dekabr tarixli fərmanı;
- Azərbaycan Respublikası prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli fərmanı;
- Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM-in) "Yeni Avropa üçün Xartiyası ("Paris xartiyası" – 1.X.1990);
- ATƏT-in Budapeşt sammitinin "Yeni dövrdə əsl tərəfdaşlığa doğru" Bəyannaməsi (XII.1994);
- BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri;
- ATƏT-in Lissabon sammitinin sənədlərinə əlavə: ATƏT-in fəaliyyətdə olan sədri F.Kottinin 1996- cı il 3 dekabr tarixli Bəyanatı;
- AŞ PA-nın "Dağlıq Qarabağdakı münaqişəyə dair" 1994-cü

il 10 noyabr tarixli, 1047 (1994) saylı qətnaməsi;

- AŞ PA-nın "Cənubi Qafqaz münaqişələrinə dair" 1997-ci il 22 aprel tarixli, 1119 (1997) saylı qətnaməsi;
- Avropa Birliyinin (AB-nin) Dağlıq Qarabağa dair bəyanatları (3.IX, 9.XI.1993);
- İslam Konfransı Təşkilatının (İKT-nin) Kasablanka sammitinin (13-14.XII.1994) "Ermənistan və Azərbaycan arasında münaqişə üzrə qətnaməsi";
- İKT Xarici İşlər nazirlərinin 24-cü konfransının (Cakarta, 9-13.XII.1996) "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında qətnaməsi";
- "Xəzər dənizi Azərbaycan sektorunun "Azəri", "Çıraq" və dərinsulu "Günəşli" yatağında neftin birgə işlənməsi və pay bölgüsü haqqında beynəlxalq müqavilə ("Əsrin müqaviləsi" – Bakı, 20.IX.1994);
- İpək Yolunun bərpası üzrə beynəlxalq Bakı konfransının Bəyannaməsi (8.IX.1998);
- "Avropa-Qafqaz-Asiya" dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli saziş (8.IX.1998);
- Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Neft Kəməri haqqında İstanbul sazişi (XII.1999);
- Türk dövlətləri başçılarının VI (Bakı) sammitinin materialları (IV.2000);
- Türk dövlətləri başçılarının IX (Naxçıvan) sammitinin materialları (X.2009);
- Amerika-Azərbaycan münasibətləri haqqında Birgə Bəyanat (1.VIII.1997);
- Birləşmiş Ştatlar ilə Azərbaycan arasında müdafiə və hərbi sahələrdəki gələcək münasibətlər haqqında Birgə Bəyanat (31.VII.1997);
- Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş krallığı arasında dostluq və əməkdaşlıq haqqında Birgə Bəyannamə (23.IV.1994);
- Azərbaycan Respublikası və Norveç Krallığı arasında Birgə Bəyanat (24.IV.1994);
- AR ilə Rumıniya arasında dostluq münasibətləri və əməkdaşlıq haqqında müqavilə (27.III.1996);
- Çin Xalq Respublikası ilə Azərbaycan arasında dostluq münasibətlərinin inkişaf etdirilməsinin əsasları haqqında Birgə Bəyanat (III.1994);
- Azərbaycan ilə Rusiya arasında qarşılıqlı təhlükəsizlik haqqında müqavilə (12.X.1992);
- Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılqlı təhlükəsizlik haqqında müqavilə (3.VII.1997);
- Türk xalqlarının XI "Dostluq, qardaşlıq və işbirliyi" qurultayının (Bakı-XI.2007)
- "Yekun hesabatı" və "Erməni soyqırımı" iddiaları ilə bağlı Bəyanatı";
- Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında fəaliyyət planı (XI.2006);
- Minsk Qrupu həmsədrlərinin "Madrid sənədi" (29.XI.2007);
- ATƏT-in Minsk Qrupu (MQ) həmsədrlərinin Bəyanatı (22.VI.2006) — "Nizamlamanın prinsiplərinə dair həmrəylik Memorandumu" ("Çərçivə sənədi"-"Vyana prinsipləri");
- İKT Parlament Assambleyasının Qahirə Bəyannaməsi və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnaməsi (2008);
- BMT Baş Assambleyasının "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" qətnaməsi (14.III.2008);
- Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin "Moskva Bəyannaməsi" (2.XI.2008);
- "Naxçıvan Bəyannaməsi" (3.X.2009);
- "Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması barədə saziş" (3.X.2009).

Dərslik yazılarkən **Azərbaycan Respublikası prezidentlərinin** (A.Mütəllibov, Ə.Elçibəy, H.Əliyev, İ.Əliyev) müasir beynəlxalq münasibətlərə və dövlətimizin xarici siyasətinə dair **baxış və mövqeləri** nəzərdən keçirilmişdir. Respublikamızın

diplomat-politoloqlarından V.Quluzadə, R.Musabəyov, E.Namazov və digərlərinin elmi tədqiqatları dərsliyin hazırlanması üçün çox faydalı olmuşlar.

Z.Bjezinskinin "Böyük şahmat lövhəsi" (rusca), E.Nəsirovun "Azərbaycan nefti və beynəlxalq müqavilələr (1991-1999)" və "Azərbaycan - ABŞ" münasibətləri", Ə.Həsənovun "Azərbaycanın xarici siyasəti: Avropa istiqaməti və ABŞ (1991-1996)" və "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti", E.Əhmədovun "Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar", İ.Musanın "Böyük dövlətlər və "erməni məsələsi" (I hissə) və "Şimali Azərbaycanda milli-demokratik hərəkat və müstəqillik uğrunda mübarizə (1980-ci illərin sonu – 90-cı illərin əvvəli)", V.Quluzadənin "Gələcəyin üfüqləri (AR-in xarici siyasəti barədə mülahizələr, müsahibələr, şərhlər)", H.Hüseynovanın "Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində (1991-1997)", M.Feyqinin "Zaqafqaziya düyünü" (rusca), T.Adamsın "Xəzər nefti və Azərbaycanın siyasəti" (rusca), F.Rzayevin "907-ci düzəliş: tarix və perspektivlər", N.Nəsiblinin "İranda Azərbaycan məsələsi","Bölünmüş Azərbaycan, Bütöv Azərbaycan", "Azərbaycanın geopolitikası və neft", Ə.Tahirzadənin "Prezident Elçibəy", E.Məmmədlinin "Azərbaycan-Böyük Britaniya münasibətləri (1991-2003)", müəlliflər kollektivinin "Prezident İlham Əliyev", Q.Quliyevin "Azərbaycanın neft strategiyasının mifləri və reallıqları" (rusca), A.Vəliyevin "Azərbaycan-Avropa Şurası: demokratiya və insan hüquqları sahəsindəki əməkdaşlıq", F.Benna-Romer və H.Klebesin "Avropa Şurası hüququ: Pan-avropa hüquqi məkanına doğru", K.Məmmədovun "Xəzərin Azərbaycan hissəsində neft yataqlarının işlənməsi problemi və Rusiyanın mövqeyi", R.Məmmədovun "Xəzər dənizinin neft yataqlarının mənsubiyyəti ilə bağlı Azərbaycan-Türkmənistan mübahisəsi" (rusca), V.Cəfərovun "Diplomatik xidmət haqqında" qanundakı bəzi dəyişikliklər haqqında", P.Hüseynin "Varlıq", T.Arının "Uluslararası İlişkiler ve Dış Politika", M.Sarayın "Azerbaycan

Türkleri tarixi", S.Ruintənin "Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində", X.İbrahimlinin "Yeni Avrasiya Qafqazı" və digər **elmi araşdırmaların** nəticələri dərslikdə ətraflı əhatə olunmuşdur.

Dərslikdə R.Abutalıbov, E.Muradəliyeva, C.Həsənli, İ.Şükürov, Ü.İrfan, A.Demir, E.Poluxov, İ.Qəmbər, A.Mirzəzadə, P.Hüseyn, Q.İbadoğlu, V.Cəfərov, H.Rəcəbli, Z.Nəcəfov, İ.Şaban, V.Bayramov, A.Hacıyeva, A.Qeqeşidze, M.Güləliyev, F.Məmmədov, Q.Hüseynli, H.Quliyev, A.Yunus, Ə.Abasov, M.Oruclu, V.Əhmədov, M.Şərifov, A.Güləliyeva, R.İbadov, L.Əliyeva, O.Qafarlı, K.Məmmədov, C.Eyvazov, M.Əliyeva, Z.Səfəroğlu, C.Qaraşova, M.Babazadə, N.Dünyamalıyeva, S.Zeynalov, Y.Vəliyev, G.Abdürrəhmanova, L.Bakayev, A.Qrozin, T.Qaffarov, M.Qasımlı, A.Əzimli, S.Çernyavski, N.Axundov, N.Miri, Ş.Akmakov, R.Mirzəyev, F.Fətəliyev, F.Qasımlı, M.Məmmədli, V.İbayev, N.Əlibəyova, E.Əliyev, D.Malışeva və digərlərinin **elmi fikir, mülahizələrindən** də istifadə edilmişdir.

"Qarabağ dünən, bu gün və sabah", "Azərbaycan-Avropa əlaqələri: mövcud problemlər və əməkdaşlığın əsas istiqamətləri" kimi elmi konfransların materiallarından da dərslikdə faydalanılmışdır. "Azərbaycan", "Yeni Müsavat", "Reytinq", "Zerkalo" "Аргументы и факты", "Коммерсант", "Независимая газета" və b. qəzetlərdə, "Dirçəliş-XXI əsr", "Beynəlxalq həyat", "Tarix və onun problemləri", "Центральная Азия и Кавказ", "Region plus", "Международная жизнь" və s. jurnallarda dərc edilən analitik yazılar, çoxsaylı internet səhifələrində özünə yer alan məlumatlar da dərsliyin yazılmasında çox gərəkli olmuşdur.

BİRİNCİ BÖLÜM

ŞİMALİ AZƏRBAYCANIN BEYNƏLXALQ VƏ REGİONAL İNTEQRASİYA PROSESLƏRİNƏ QOŞULMASI

XX əsrin 80-ci illərinin sonlarından etibarən SSRİ-də ciddi siyasi proseslər getdi və köklü ictimai dəyişikliklər üçün şərait yarandı. Sovetlər İttifaqının müxtəlif regionlarında güclü sosial-siyasi mübarizə və milli-demokratik hərəkat başladı. Şimali Azərbaycan bütün bu hadisə və proseslərin əsas mərkəzlərindən birinə çevrildi. SSRİ-nin süqutunda ölkəmizdəki milli-demokratik hərəkatın danılmaz xidməti və rolu oldu. Buna görə də Şimali Azərbaycanda milli dövlətçiliyimizin bərpasını sadəcə Sovetlər Birliyinin dağılmasının nəticəsi kimi dəyərləndirən baxış və mövqelərlə razılaşmaq mümkün deyildir.

Beynəlxalq inteqrasiya proseslərinə qatılmanı şərtləndirən amillər

Şimali Azərbaycanda milli-demokratik hərəkatın yetişməsi və geniş vüsət almasına SSRİ-də gedən ümumsiyasi proseslərlə yanaşı Ermənistanın ölkəmizə qarşı əsassız ərazi iddiaları və hərbi təcavüzü ciddi təsir göstərdi. Ermənistanın əzəli türk torpağı sayılan Dağlıq Qarabağa iddiaları ölkəmizdəki milli-demokratik hərəkatı daha da gücləndirməklə onu strateji məqsədlərin gerçəkləşməsinə yönləndirdi. **"Meydan hərəkatı"** (17.XI-5.XII.1988), **"20 yanvar hadisələri"** və **"Xocalı faciəsi"** respublikada yeni tarixi-siyasi şərait yaratdı. "Meydan hərəkatı" milli dirçəliş üçün təkan oldu. O, millətimizin ümummilli maraqlar naminə mücadilədə birləşmək bacarığını göstərdi və xalqımızın mənəvi dəyərlərini, potensialını üzə çıxardı. Bizcə, faciə deyil, müstəqillik və demokratiya naminə qəhrəmanlıq kimi

qiymətləndirilməli olan "20 yanvar hadisələri" milli-siyasi təfəkkürümüzdə və mübarizəmizdə yeni mərhələ açdı.

Rusiyanın SSRİ-ni saxlamaq və milli hərəkatları boğmaq, xalqları qorxutmaq planlarına uyğun olaraq törətdiyi "20 yanvar hadisələri" Sovetlər İttifaqının çökməsinə təsir göstərən həlledici amillərin ən başlıcalarından oldu. SSRİ-nin demokratikləşdirilməsi və onun tərkibində Şimali Azərbaycanın hərtərəfli inkişafının təmin olunması uğrunda mübarizədən milli dövlətçiliyin bərpası naminə mücadiləyə keçildi. (Sözgəlişi, milli-siyasi qüvvələrimiz 1917-ci il fevral inqilabından sonrakı ilk çağlarda da demokratik federativ Rusiya qurulması və onun daxilində Şimali Azərbaycanın muxtariyyət qazanmasına çalışmışdılar. Yalnız 1918-ci ilin mart-aprel aylarında Rusiya və ermənilər tərəfindən ölkəmizdə törədilən türk-müsəlman soyqırımlarından sonra Şimali Azərbaycanın müstəqilliyinə nail olunması yolu tutulmuşdu).

Rusiyanın 366-cı alayı (onun qərargah rəisi S.Ohanyan hazırda Ermənistanın Müdafiə naziridir) və erməni silahlı qüvvələrinin törətdikləri qanlı "Xocalı faciəsi" Azərbaycandakı siyasi proseslərə ciddi təsir göstərdi. O həm də Dağlıq Qarabağ ətrafında oynanılan beynəlxalq oyunların mahiyyətini bir daha açıqladı. Özünün strateji maraqlarına uyğun olaraq qatı ermənipərəst mövqe tutan Rusiya "Xocalı faciəsi"ni törətməklə Azərbaycanın digər torpaqlarının tezliklə işğalı üçün zəmin hazırladı.

Şimali Azərbaycanda müstəqilliyin qazanılması və dövlətçiliyin bərpası bir sıra siyasi-hüquqi sənədlərin qəbulundan və hadisələrdən keçməklə gerçəkləşdirildi. Yaradılması 1989-cu ilin iyulunda rəsmiləşdirilən Azərbaycan Xalq Cəbhəsinin (AXC; sədri Əbülfəz Elçibəy) ciddi səyləri və xalqın təzyiqi ilə respublika Ali Sovetinin sessiyaları tərəfindən bir sıra tarixi sənədlər qəbul edildi. Öncə "Azərbaycan SSR-in suverenliyi haqqında" Konstitusiya Qanunu qəbul olundu (23.IX.1989). O, SSRİ məkanında bu növ ilk qanun idi. Ali Sovetin sessiyasında

(5.II.1991) "sovet sosialist" sözlərindən imtina edilməklə ölkəmizin şimalındakı dövlət "Azərbaycan Respublikası" adlandırıldı. Habelə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi təsdiq olundu.

AR-in kommunist iqtidarı SSRİ-nin saxlanılması mövqeyini tutduğundan respublikada gərgin siyasi mübarizə getdi. Ali Sovetin sessiyası (5.II.1991) üzvlərinin 254-ü lehinə, 43-ü əleyhinə səs verməklə, 6-sı tərəfsiz qalmaqla Sovetlər İttifaqının saxlanması üçün keçirilən referendumda Azərbaycanın iştirakına dair qərar qəbul etdi. Referendumun nəticələri saxtalaşdırıldı, yəni əslində "ümumxalq səsverməsi" keçirildi. (Guya "səsvermə" iştirakçılarının 95 faizi SSRİ-nin saxlanılmasına tərəf çıxdı).

Xalq hərəkatının təzyiqi ilə Ali Sovetin növbədənkənar sessiyası (30.VIII.1991) "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə" qəbul etdi. Bəyannamədə 1918-1920-ci illərdəki respublikamızın beynəlxalq birlik tərəfindən tanınmış müstəqil dövlət olması vurğulanırdı. Habelə onun bərpası xalqımızın dövləti maraqlarının rəhbər tutulması və iradəsinin ifadəsi kimi dəyərləndirilirdi. Sənəddə həmçinin Şimali Azərbaycanda dövlətçiliyin bərpasını zəruri edən səbəb-amillər (xalqın müqəddəratı və ölkənin ərazi bütövlüyü üçün yaranan təhlükənin aradan qaldırılması; dövlətin suverenliyi, təhlükəsizliyi və sərhədlərinin toxunulmazlığının təminatı; bütün vətəndaşların hüquqları və azadlıqlarının bərqərar olması) da göstərilmişdi.

Ölkəmizin şimalında dövlətçiliyin bərpası prosesinin siyasi-hüquqi rəsmiləşdirilməsi yolunda daha bir mühüm addımsa Ali Sovetin sessiyasında (18.X.1991) "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbulu ilə atıldı. AR-in ilk prezidenti A.Mütəllibov Rusiyapərəst mövqeyi və özünün bəzi mülahizələri üzündən SSRİ-nin "Suveren Dövlətlər İttifaqı" ilə əvəzlənməsinə dair Novo-Oqaryovo danışıqlarına qatıldı. Sovetlər İttifaqının 7 respublikasının

təmsil olunduğu bu müzakirələr də nəticəsiz qaldı. SSRİ-nin saxlanılması mümkünsüz oldu.

Belə bir şəraitdə Rusiya, Ukrayna və Belarus dövlətlərinin başçıları B.Yeltsin, L.Kravçuk, S.Şuşkeviç Brest şəhəri yaxınlığında — Belovej meşəsindəki "Viskuli" mehmanxanasında SSRİ-nin taleyi ilə bağlı müzakirələr apardılar(8.II.1991). Bu danışıqların nəticəsində imzalanan "Brest üçlüyü"nün Belovej ("Viskuli") sazişi ilə SSRİ-nin ləğvi və Müstəqil Dövlətlər Birliyinin (MDB-nin) yaradılması qərara alındı. Tezliklə "Aşqabad beşliyi" (Orta Asiya respublikaları) da "Brest üçlüyü"nə qoşulmaq istədiklərini bildirdilər. Nəticədə Belovej sazişinə əlavə Almatı Protokolu və Bəyannaməsi imzalandı (21.XII.1991).

"Brest üçlüyü", "Aşqabad beşliyi" dövlətlərinin başçıları və Azərbaycan, Ermənistan, Moldova prezidentlərinin imzaladıqları bu sənəd respublikamızın parlamenti tərəfindən ratifikasiya olunmadı. 1991-ci il dekabrın 29-da ölkəmizdə keçirilən ümumxalq səsverməsi ilə AR-in dövlət müstəqilliyi tam olaraq təsdiqləndi. Yəni səsvermə hüququna malik olan əhalinin 95 faizindən çoxunun iştirakı ilə keçirilən referendumda xalq "AR-in dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"na tərəfdar oldu. Bununla da AR-in dövlət müstəqilliyi qəti şəkildə və həm də beynəlxalq hüquqi prinsiplərə, qaydalara uyğun olaraq rəsmiləşdirildi.

AR-in dövlət müstəqilliyinin qətiləşməsi və beynəlxalq birliyin mühüm hissəsi tərəfindən tanınması ilə respublikamızın xarici siyasət fəaliyyətinə başlanıldı. Xarici İşlər nazirliyinin (XİN-in) işi və strukturu yeni şəraitin tələbləri kontekstində qurulduu. Bu və digər məsələlər "Diplomatik əlaqələr haqqında" Vyana konvensiyasına (1961) uyğunlaşdırıldı. "AR-in xaricdəki diplomatik nümayəndəliklərinin başçıları üçün dərəcələrin və diplomatik rütbələrin müəyyən edilməsi haqqında" (25.VI.1992), "Diplomatik xidmət haqqında" (21.V.1994) və digər qanunlar qəbul edildi, müvafiq təlimatlar və s. hazırlandı. Dövlətlərarası əlaqələrin qurulması və diplomatik xidmətin təşkili ilə əlaqədar

15393

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

müəyyən işlərin görülməsinə başlanıldı. Hazırda respublikamızın 65 ölkədə səfirlirliyi, konsulluğu və s. fəaliyyət göstərir. Onların saxlanması üçün 2008-ci ildə 45,70 mln. manat və 2009-cu ildə 42,25 mln. man.ayrılmışdı.2010-cu ilin dövlət büdcəsində isə bu rəqəm 50,98 mln. man. (2009-cu illə müqayisədə 20,7% çox) təşkil edəcəkdir. Tezliklə daha 10 ölkədə diplomatik nümayəndəliklərin təşkili planlaşdırılır.

AR-in xarici siyasətinin başlıca vəzifələri sırasında aşağıdakıları önə çəkmək lazım gəlir:

- müstəqilliyin (dövlətçiliyin) möhkəmləndirilməsi;
- aləmdə tanınma və beynəlxalq birlikdə dövlətimizin mövqelərinin möhkəmləndirilməsi;
- ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi və Ermənistanın Azərbaycana hərbi təcavüzünün nəticələrinin aradan qaldırılması;
- respublikamızın iqtisadi-enerji təhlükəsizliyinə nail olunması, uğurlu "neft siyasəti"nin aparılması və s.

Azərbaycanın xarici siyasətinin aparıcı istiqamətlərindən isə bunları qeyd etmək olar:

- beynəlxalq və regional təhlükəsizlik sistemlərinin yaradılmasında iştirak;
- beynəlxalq və məhəlli inteqrasiya proseslərinə qoşulma;
- bütün dövlətlərlə normal münasibətlər yaratma və onlarla hərtərəfli sıx əməkdaşlıq;
- dünyanın qlobal problemlərinin həllində iştirak (terrorçuluğa qarşı mübarizə, ekologiyanın qorunması və s.).

Dövlətimizin xarici siyasətində üstünlük verilən prinsiplərdən bəzilərini vurğulamağa da ehtiyac vardır:

- beynəlxalq hüquq normalarına hörmət və riayət;
- dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə ehtiram;
- dövlətlərarası çoxşaxəli əlaqələrdə bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq və s.

Şimali Azərbaycanın yeni geosiyasi durumu, yəni onun müstəqilliyinin bərpası və beynəlxalq birliyin subyektinə çevrilməsi respublikamızın dövlətlər tərəfindən tanınmasını, dünyada gedən inteqrasiya proseslərinə qoşulmasını şərtləndirdi. AR-in siyasi-hüquqi tanınması və beynəlxalq inteqrasiyaya qatılması aşağıdakı **yönlərdə** getmişdir:

1. Şimali Azərbaycanın müstəqilliyinin dövlətlər tərəfindən tanınması.
2. AR-in beynəlxalq və regional qurumların, təşkilatların və s. fəaliyyətində iştirakı.

AXC-dən fərqli olaraq AR-in beynəlxalq birliyin subyekti olaraq dövlətlər tərəfindən tanınması sürətlə baş verdi. Belə ki, qısa müddətdə, yəni 1992-ci il yanvarın sonlarınadək AR 63 dövlət tərəfindən rəsmən tanındı. Aşağıdakı **amillər** belə sürətli tanınmaya ciddi təsir göstərdilər:

a) yeni (o zamankından fərqli) beynəlxalq şəraitin şərtləri, öncəliklə Qərb dövlətlərinin, xüsusilə də ABŞ-ın maraqları;
b) ölkəmizin geosiyasi mövqeyi (coğrafi yerləşməsi);
c) zəngin yanacaq-enerji ehtiyatları ("neft amili").

Yeni müstəqil dövlətimizin beynəlxalq aləmdə tanınmasını **əngəlləyən səbəblər** də oldu:

- Ermənistanın AR-ə hərbi təcavüzü ("Dağlıq Qarabağ problemi") ilə əlaqədar məqamlar;
- Rusiya, İran və s. dövlətlərin mövqeyi;
- ölkədaxili proseslər (insan hüquqları və s.) ilə bağlı cəhətlər.

AR-in müstəqilliyini tanıyan ilk "üçlük"ə Türkiyə, Rumıniya və Pakistan daxildirlər. Türkiyə hökumətinin 1991-ci il 9 noyabr tarixli qərarı ilə AR müstəqil dövlət kimi tanındı. Bununla əslində dövlətimiz üçün dünya birliyinə bir növ pəncərə açılmış oldu. (Siyasi-diplomatik ədəbiyyatda Türkiyənin bu addımının ABŞ tərəfindən tələskənlik — Sovetlər İttifaqının mövcudluğu şəraitində beynəlxalq gərginliyi artıra biləcək bir hərəkət kimi dəyərləndirilməsinə dair mülahizələr də mövcuddur). İki dövlət arasında diplomatik münasibətlərin bərpası

haqqındakı protokolla (14.I.1992) Azərbaycan-Türkiyə əlaqələri və əməkdaşlığı yeni bir mərhələyə qədəm qoydu (Protokolda dövlətlərarası diplomatik əlaqələrin yaradılması deyil, bərpasının yazılması xüsusilə önəmli idi). Respublikamızın müstəqilliyini tanıyan (11.XII.1991) ilk Avropa dövləti isə Rumıniya oldu. AR-i tanıyan (13.XII.1991) üçüncü dövlət Pakistandır.

AR-in dünya inteqrasiya proseslərinə qatılmasını önəmli və zəruri edən bir sıra amillər mövcuddur. ("İnteqrasiya" anlayışını elmi dövriyyəyə görkəmli alman riyaziyyatçısı və filosofu Leybnits gətirmişdir. Latınca "inteqratio" olub "bərpaetmə", "tamamlama" deməkdir və müxtəlif elementlərin tamda birləşdirilməsi mənasını verir). Həmin **amillər**dən bəzilərini aşağıdakı kimi ifadə etmək olar:

- dünyada gedən proseslərdən kənarda qalmağın zərərli və əslində mümkünsüz olması;
- dövlət suverenliyinə təminat əldə edilməsi;
- beynəlxalq-regional təhlükəsizliyin yaradılmasında və bəşəriyyətin qlobal problemlərinin həllində iştirak imkanı qazanılması;
- ölkəmizin ərazi bütövlüyünün təmin olunması və Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üçün beynəlxalq dəstəyə nail olunması;
- "Qafqaz birliyi" ideyasının gerçəkləşdirilməsi;
- ölkədaxili sosial və iqtisadi problemlərin həllinə beynəlxalq birlik tərəfindən müxtəlifyönlü yardımlar göstərilməsi;
- cəmiyyətimizdə insan haqları və s. müdafiəsi.

Çağdaş beynəlxalq inteqrasiya proseslərində iştirakın çoxlu istiqamətləri, vasitələri və formaları mövcuddur. Onların başlıcalarından birini beynəlxalq və regional təşkilat, qurum, struktur, proqram, layihə və s. qatılma təşkil edir. Bu baxımdan AR-in fəaliyyəti də diqqətçəkicidir və mühüm əhəmiyyət kəsb edir, onun öyrənilməsinə böyük ehtiyac vardır.

AR-BMT əlaqələri: əsas məqamlar və nəticələr

AR-in BMT-dəki fəaliyyəti onun beynəlxalq birliyə inteqrasiyasında mühüm yer tutur. Dövlətimizin BMT-yə qəbulu müstəqilliyin ilk çağlarında bu kimi **səbəblərə** görə xüsusi əhəmiyyət kəsb edirdi:

- AR-in beynəlxalq birliyin tamhüquqlu üzvü və subyekti olaraq təsdiqlənməsi;
- ölkəmizin müxtəlif qlobal proseslərin fəal iştirakçısı imkanını qazanması;
- Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsinə yönəlik beynəlxalq səylərin artırılmasına nail olunması;
- Şimali Azərbaycana beynəlxalq humanitar və digər səciyyəli yardımların göstərilməsinə təminat alınması;
- ölkədaxili demokratik proseslərin genişlənməsinə təkan verilməsi və s.

BMT-yə üzvlüklə özünün milli maraqlarını gerçəkləşdirməyə çalışan AR bu beynəlxalq birliyə qəbul üçün ciddi səylər göstərdi və müəyyən proseduraları keçməli oldu. Belə ki, öncə BMT Təhlükəsizlik Şurasının (TŞ-nin) daimi üzvü olan beş dövlətin razılığı əldə olundu, yəni respublikamızın onlar tərəfindən "de-yure" olaraq tanınması təmin edildi. BMT-yə üzvlük qaydalarına müvafiq surətdə — vasitəçi üzv dövlət kimi — Türkiyənin namizədliyi razılaşdırıldı.

AR 1991-ci il oktyabrın 30-da BMT-yə və dünya dövlətlərinə müraciət edərək təşkilatın fəaliyyətinə qoşulmaq istəyini açıqladı və bunu əsaslandırdı. Ölkəmizin BMT-yə qəbulla bağlı rəsmi müraciətinə (22.I.1992) TŞ-nin iclasında (14.II.1992) baxıldı. Üzvlüyə qəbulun Baş Məclisin 46-cı sessiyasının iclaslarından birində (28.II.1992) tövsiyə olunması qərara alındı. Ancaq "Xocalı faciəsi" ilə əlaqədar olaraq regionda gərginliyin artması və respublikada daxili siyasi vəziyyətin ağırlaşması üzündən AR-in BMT-yə qəbulu 1992-ci il martın 2-də gerçəkləşdirildi. Tezliklə BMT-də AR-in daimi nümayəndəliyi açıldı

və H.Həsənov ona başçı təyin olundu.

AR-in BMT-dəki fəaliyyəti müxtəlif istiqamətlərdə müəyyən vasitə və üsullarla həyata keçirilir. Bu fəaliyyətin başlıca ağırlıq mərkəzi isə, təbii olaraq, BMT-nin ali-rəhbər orqanlarının (Baş Assambleyanın sessiyaları və s.), çeşidli komitələrinin və ixtisaslaşmış təşkilatlarının işində iştirakın üzərinə düşür. Habelə BMT çərçivəsində və onun himayəsi ilə gerçəkləşdirilən bir sıra layihə, proqram və s. qatılmaq kimi vasitə-üsul-formalardan da istifadə olunur. Azərbaycan müstəqil dövlət kimi ilk dəfə BMT Baş Assambleyasının 47-ci sessiyasında (X.1992) təmsil olunmuşdur. Ermənistanın hərbi təcavüzü və ölkədaxili problemlər üzündən Baş Assambleyanın 47-ci (1992) və 48-ci (1993) sessiyalarında dövlət başçıları (Ə.Elçibəy, H.Əliyev) iştirak edə bilmədilər. 47-ci sessiyada çıxış edən Xarici İşlər naziri T.Qasımov dövlətçiliyini yenidən bərpa etmiş Azərbaycanın üzləşdiyi problemləri açıqladı. Əsas diqqəti isə Ermənistanın ölkəmizə qarşı əsassız ərazi iddialarına, onları gerçəkləşdirmək üçün törətdiyi hərbi təcavüzə, "Xocalı faciəsi"nə və digər məsələlərə yönəltdi.

BMT Baş Assambleyasının sonrakı sessiyalarında AR dövlət başçıları (H.Əliyev, İ.Əliyev) və Xarici İşlər nazirləri (H.Həsənov, T.Zülfüqarov, V.Quliyev, E.Məmmədyarov) səviyyəsində təmsil olunmuşdur. H.Əliyev 49-cu (1994) və 50-ci (1995), habelə yubiley ("Minilliyin sammiti"-2000) sessiyalarında iştirak və çıxış etdi. Onun Baş Assambleyadakı ilk çıxışında (49-cu sessiyada) BMT-nin çağdaş beynəlxalq münasibətlər sistemindəki yeri və rolu məsələləri nəzərdən keçirildi. Bununla yanaşı AR-in bu, beynəlxalq təşkilatın fəaliyyətində iştiraka verdiyi önəm də vurğulandı.

Azərbaycan Respublikası BMT çərçivəsindəki çoxtərəfli əməkdaşlıq sisteminə də qatılmışdır. AR BMT-nin bir sıra mühüm sənədlərinə qoşulmuş və onun keçirdiyi çoxsaylı müxtəlif səciyyəli beynəlxalq tədbirlərin iştirakçısı olmuşdur. AR hökumətinin xüsusi məktub-müraciətilə (21.X.1994) ölkəmiz "İnsan

hüquqları üzrə ümumdünya Xartiyası"na (10.XII.1948) qoşuldu. BMT-nin insan hüquqları üzrə Mərkəzinin nümayəndə heyətinin respublikamıza səfəri (VI.1994) zamanı bəzi çoxönəmli məsələlər müzakirə edildi. Azərbaycan BMT-nin 1994-cü ilin sentyabrında Qahirədə "Əhali və inkişaf" mövzusunda keçirdiyi beynəlxalq konfransın da iştirakçısı oldu. Bu toplantının gedişində H.Əliyevin BMT Baş katibi B.Qali ilə görüşü zamanı yenə də Ermənistanın Azərbaycana hərbi təcavüzünün nəticələrinin aradan qaldırılması, habelə Sumqayıtda azad iqtisadi zonanın yaradılması və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AR-BMT əlaqələri və əməkdaşlığında təşkilatın Baş katibi B.Qalinin respublikamıza rəsmi səfərinin (X.1994) əhəmiyyəti danılmazdır. Ölkəmizi öz sıralarına qəbul edən BMT bu tarixi hadisədən bir qədər sonra AR-də nümayəndəliyini yaratmışdı (İlk başçıları M.əl-Səid, M.Tezcan və b. olmuşdu). Baş katibin Bakıya missiyası birgə çoxtərəfli əməkdaşlığın genişləndirilməsi cəhətdən faydalı sayıla bilər. "Bakı müzakirələri"ndə əsas yeri "Dağlıq Qarabağ problemi"nin həlli məsələsi tutdu (Bu barədə və, ümumiyyətlə, BMT-nin Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsinə dair səyləri haqqında 2-ci bölümdə ətraflı bəhs olunur).

BMT-nin Azərbaycanda vəziyyət və onun problemləri ilə əlaqədar vaxtaşırı təşkil etdiyi tədbirlərdən biri də 2009-cu ilin iyulunda keçirilmişdir. Burada söhbət BMT İnsan Haqqları Komitəsinin AR-də insan hüquqlarının durumuna dair Cenevrədə düzənlədiyi dinləmələrdən gedir. Avropa İttifaqına üzv olan dövlətlərdən 27-nin səfirlərinin də iştirak etdikləri dinləmələrdə Azərbaycanda insan haqları və azadlıqlarının vəziyyətindən ciddi rahatsızlıq ifadə olunubdur. Dinləmələrdə XİN-in müavini X.Xələfovla təmsil olunan AR tərəfi Komitənin bir çox iradlarını rədd edibdir. Ölkədəki müəyyən problemlərin mövcudluğu isə Azərbaycan cəmiyyətinin və onun ədliyyə sisteminin sovet diktaturası rejimindən yenicə qurtulması ilə əla-

qələndirilib və bunların "bir gecəyə yox olmadığı" vurğulanıbdır. Bakıda ofisləri olan QHT-lərin təmsilçiləri dinləmələrlə eyni vaxtda Cenevrədə mətbuat konfransına toplaşaraq məsələyə münasibətlərini açıqlayıblar. "Human Rights House Foundation"un nümayəndəsi F.İrminger "öz nefti olan" ABŞ-la Norveçin AR-dəki insan haqları probleminə daha ciddi yanaşmalarını lazım bilibdir. Burada habelə Aİ-nin Azərbaycanla münasibətlərdə neft-qaz maraqlarına üstünlük verməsi siyasətinin dəyişdirilməsi önə çəkilibdir.

Azərbaycanın BMT ilə əlaqələrinin və bu qurum çərçivəsindəki çoxtərəfli əməkdaşlığın böyük bir qolu onun ixtisaslaşmış təşkilatlarıyla işbirliyi vasitəsilə həyata keçirilir. Bu yöndə YUNESKO və YUNİSEF ilə əlaqələr daha sistemli, səmərəli olmasıyla fərqlənir. YUNİDO, İMF, FAO və digər ixtisaslaşmış təşkilatlarla da müxtəlif səviyyələrdə işgüzar münasibətlər yaradılmışdır.

BMT-nin təhsil, elm və mədəniyyət məsələləri üzrə təşkilatı olan **YUNESKO** ilə işbirliyi və onun çərçivəsində əməkdaşlıq sahəsində fəallıq, ilkin faydalı nəticələr daha da diqqətçəkicidir. Şimali Azərbaycan hələ Sovetlər İttifaqının tərkibində olarkən, yəni XX əsrin 60-70-ci illərindən etibarən də YUNESKO-nun fəaliyyətində imkanlar daxilində iştirak etmişdi (Sözgəlişi, soydaşımız R.Abutalıbov SSRİ-nin həmin təşkilatdakı təmsilçilərindən olmuşdu. AR-in YUNESKO-ya qəbulunadək olan dövrdə respublikamızın bu ixtisaslaşmış təşkilatla əməkdaşlığı məsələləri dərsliyin ikinci hissəsində nəzərdən keçirilmişdir).

Respublikamızın YUNESKO-ya qəbul edilməsi (3.VI.1992) ilə onlar arasındakı qarşılıqlı əlaqələrdə keyfiyyətcə tam yeni bir mərhələ başladı. AR qurumun Baş konfransının sessiyalarında təmsil olundu. İlk təmsilçilik onun 27-ci sessiyasında (Paris – XI.1993) gerçəkləşdirildi. Təşkilatın Baş direktoru F.Mayorun YUNESKO-nun "Mədəniyyət və gələcək" proqramı çərçivəsində AR-ə rəsmi səfərə gəlməsi (7-9.XI.1996) ölkəmizin

təşkilatla əməkdaşlığını xeyli intensivləşdirdi. Bu səfər zamanı qəbul edilən birgə əməkdaşlığa dair Memorandumda işbirliyinin və qurumun ölkəmizə yardımının bir sıra istiqamətləri, sahələri müəyyənləşdirildi: təhsilin inkişafına yardım olunması; dünya bilgisayar şəbəkəsinə çıxışın təmin edilməsi; qaçqın və yetim uşaqların problemlərinin həlli; Haaqa konvensiyasına (1954) əsasən, habelə Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı mədəni sərvətlərin mühafizəsinə birgə səylər göstərilməsi; Xəzərin təbii ehtiyatlarından istifadə olunmasına dair müvafiq proqramların hazırlanması və s.

AR-in "Avropada mədəni əməkdaşlıq haqqında" Konvensiyanı imzalaması (IV.1997) ölkəmizin Qərbdəki humanitar inteqrasiya proseslərinə qatılmasına əlavə imkanlar yaratdı. YUNESKO-nun "Böyük İpək Yolu" layihəsində iştirakla respublikamızın beynəlxalq turizm əlaqələri genişləndirildi. Qurum — respublika əməkdaşlığı çərçivəsində həyata keçirilən tədbirlər ölkəmizin dünyada tanınması baxımından faydalı oldu. Bu kimi tədbirlərə M.Füzulinin 500, "Dədə Qorqud dastanı"nın 1300 illik yubileylərinin keçirilməsi, Şirvanşahlar sarayı ilə İçərişəhərin (Qız qalası daxil) YUNESKO-nun "Dünya mədəniyyəti irsi" siyahısına salınması, təşkilatla əlaqələrin möhkəmləndirilməsi üzrə Azərbaycan Milli Komitəsinin yaradılması, qurumun rəsmi nəşrlərində ("Unesso Sources", "Kuryer YUNESKO") Azərbaycana aid materialların dərc olunması misal ola bilər.

Azərbaycan – YUNESKO əməkdaşlığının mühüm tədbirlərindən biri də qlobal savadlılığın dəstəklənməsi proqramı çərçivəsində keçirilmişdir. Bakının evsahibliyi etdiyi bu tədbirdə (konfransda – V.2009) Avropanın 31 ölkəsi təmsil olunmuşdu. O, qlobal savadlılığın dəstəklənməsinə yönəlmiş regional və subregional YUNESKO konfranslarının davamı sayılır. Bakı qlobal savadlılıq konfransının ardınca keçirilən (VI.2009) "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusundakı beynəlxalq toplantı da əhəmiyyətli olmuş-

dur. YUNESKO və İSESKO-nun dəstəyi ilə baş tutan bu, beynəlxalq konfransa 300-dən çox ölkənin nümayəndələri qatılmışdılar.

Avropa Şurasına üzv dövlətlərin Mədəniyyət nazirlərinin ilk dəfə Bakıda konfrans keçirmələri də faydalı olmuşdur. 2008-ci ilin sonunda olan həmin toplantıda mədəniyyətlərarası dialoqun inkişafı məsələləri müzakirəyə çıxarılmışdı. 48 ölkənin, 14 beynəlxalq təşkilatın və QHT-lərin 250 nəfərlik nümayəndə heyətinin qatıldığı bu konfransda "Mədəniyyətlərarası dialoqa dair Bakı prosesi"nin əsası qoyulmuşdur. Müzakirələrin sonunda "Bakı Bəyannaməsi", "Avropa memarlıq irsinin qorunmasına dair Qrenada Konvensiyası", "Mədəniyyət nazirlərinin 6-cı İslam Konfransının keçirilməsi barədə Razılaşma" və digər sənədlər imzalanmışdır.

YUNESKO-nun müxtəlif qurum, layihə və proqramları arasında Xoşməramlı səfirlər institutu xüsusilə seçilir (Bu fəxri ad bəşəriyyətin mədəni irsinin mühafizəsi və inkişafı sahəsində səmərəli fəaliyyətə görə verilir. Onların sırasında müxtəlif peşə sahibləri-iqtisadçı, balerina, heykəltaraş, futbolçu, aktrisa və s. vardır). AR-in Birinci xanımı, millət vəkili, "Azərbaycan Mədəniyyətinin Dostları Fondu"nun sədri, "Azərbaycan-İRS" jurnalının baş redaktoru M.Əliyeva da 2004-cü ildə YUNESKO-nun Xoşməramlı Səfiri (şifahi və musiqili xalq yaradıcılığı irsinin qorunması üzrə) təyin edilmişdir. (O həm də İSESKO-nun Xoşməramlı səfiridir). Bu da, öz növbəsində, YUNESKO-Azərbaycan əməkdaşlığının genişlənməsinə təsir göstərmişdir. Qurumun Paris Zirvə görüşü (III.2005), onun Baş direktoru K.Matsuuranın AR-ə səfərləri və təhsil, elm, mədəniyyətin inkişafı ilə bağlı ölkəmizdə son vaxtlarda keçirilən birgə tədbirlər çoxşaxəli əməkdaşlığın səmərəli perspektivlərə malik olduğunu göstərir (AR-in YUNESKO yanındakı daimi nümayəndəliyinə hazırda E.Hüseynova başçılıq edir).

Ölkəmizin sıx əməkdaşlıq etdiyi ixtisaslaşmış təşkilatlardan biri də **YUNİSEF**-dir. BMT-nin Uşaq fondu olan bu təşki-

latın İdarə Heyətinə üzvlüyümüz 1994-cü ilin fevralından başlamışdır. İdarə Heyətinə üzvlüyə dair yeni seçkiləri də (IV.1994 – alternativi Polşa idi) qazanan respublikamız YUNİSEF ilə əlaqələrini artırdı. AR-YUNİSEF əməkdaşlığında aşağıdakı başlıca məqamları qeyd etmək olar: AR-ə müvafiq yardım proqramlarının hazırlanması və reallaşdırılması; qarşılıqlı informasiya mübadiləsi; "Uşaq hüquqlarına dair Konvensiya" çərçivəsində fəaliyyətin koordinasiyası və s.

AR-YUNİSEF əməkdaşlığındakı mühüm tədbirlərdən birini respublikamızın parlamentində aparılan müzakirələr təşkil edir. Belə ki, 2009-cu il noyabrın 20-də Milli Məclisin xüsusi iclasında YUNİSEF-in Uşaq Hüquqları Konvensiyasının qəbulunun 20-ci ildönümünə həsr olunan hesabatı müzakirə edildi (Bu Konvensiya 1989-cu ildə qəbul olunubdur. İndiyədək 193 dövlət tərəfindən ratifikasiya edilibdir. AR onu 1992-ci ildə imzalayıbdır). Parlamentdəki müzakirələrdə Azərbaycanda indiyə qədər uşaq hüquqlarına aid 10-dan çox qanun və s. qəbulu təqdirəlayiq hal kimi qeyd olunubdur. Ölkəmiz həmçinin uşaq hüquqları ilə bağlı müxtəlifyönlü beynəlxalq sənədlərə də qoşulubdur. Müzakirələrdə iştirak edən UNİSEF-in AR-dəki nümayəndəliyinin başçısı M.Herevard başlıca diqqəti uşaqlara ayrılan sərmayə (vəsait) məsələsinə, müvafiq qanunların icrasına, uşaq alverinə tamamilə son qoyulmasına yönəltmişdir. Deputatlar habelə YUNİSEF-in digər bir hesabatında vurğulanan faktdan, yəni doğulan 1000 uşaqdan 36-nın ölməsindən irəli gələn rahatsızlığı önə çəkiblər (Hesabata görə, ümumilikdə dünyada hər 1000 uşaqdan 65-i, o cümlədən Afrikada 132-si, Gürcüstanda 30-u, Ermənistanda 23-ü, Baltikyanı ölkələrdə isə 6-9-u beş yaşınadək ölür. 2008-ci ildə planetdə beşyaşadək 8.8 mln. uşaq vəfat edibdir). Respublikada Uşaq parlamentinin təşkili, H.Əliyev Fondunun tədbirləri və müvafiq qanunvericiliyin təkmilləşdirilməsi müsbət təcrübə kimi dəyərləndirilir. Bütövlükdə isə, AR-YUNİSEF əməkdaşlığının daha genişləndirilməsi, yeni forma və üsullardan yararlanması və s. lazım gəlir.

BMT-nin ixtisaslaşmış təşkilatlarından YUNİDO, İMF, UB və digərləri ilə əməkdaşlıq da Azərbaycanın beynəlxalq iqtisadi-maliyyə əlaqələrində önəmli yer tutur. 1966-cı ildən fəaliyyət göstərən YUNİDO (Sənayenin İnkişafı Təşkilatı) ilə AR arasında əlaqələr 1992-ci ilin mayında yaradılmışdır. Bu da respublikamızın BMT-nin inkişaf proqramına qatılmasıyla baş tutmuşdur. YUNİDO-nun ekspert və məsləhətçilərinin AR-ə 1994-1995-ci illərdəki səfərləri zamanı təşkilatın respublikamızla əlaqələri genişləndirməsinə dair qərar qəbul olundu. YUNİDO-AR əməkdaşlığında Sumqayıtda azad iqtisadi zona yaradılmasına dair səylər qeyd olunmalıdır. Ancaq bu layihə həyata keçirilmədi. Təşkilatın ekspertləri bunu AR-in müvafiq qurumlarının azad iqtisadi zonanın yaradılmasında maraqlı olmamaları, ölkədəki korrupsiya və s. hallarla əlaqələndirdilər.

Azərbaycanın BMT-nin aparıcı maliyyə qurumları sayılan **Beynəlxalq Valyuta Fondu (BVF) və Ümumdünya Bankı (ÜB)** ilə əlaqələri diqqətçəkicidir. Respublikamız 1992-ci ilin ikinci yarısında BVF-yə rəsmən daxil olaraq həmin qurumlarla bilavasitə əməkdaşlığa başlamışdır. Mütəxəssislərin qarşılıqlı səfərləri və təcrübə mübadiləsinin gedişində bu kimi məsələlərin müzakirəsi, ən başlıcası da, həlli önə çəkilmişdi:

- AR-də iqtisadi şərait və onun maliyyə potensialı, imkanları;
- ölkəmizə kreditlər verilməsi və onlardan məntiqi-səmərəli istifadə;
- vergi siyasətində yeniləşmə (təkmilləşmə);
- inflyasiyanın səviyyəsinin aşağı salınması və səmərəli özəlləşdirmə;
- qiymətli kağızlar bazarının inkişafı və s.

BVF-in təmsilçilərindən T.Yaprak (qurumun ölkəmizdəki təmsilçisi), R.Abraams, P.Keller və b. ilə ötən əsrin 90-cı illərində AR-ə rəsmi səfərləri zamanı qarşılıqlı əməkdaşlığın forma və üsulları, ilkin nəticələri ətrafında fikir mübadilələri aparıldı. Qurumun Azərbaycanla bağlı hesabatları isə qarşılıqlı əlaqələrin genişləndirilməsi və mövcud problemlərin aradan qaldırılması cəhətdən əhəmiyyətlidir. 2008-ci ilin oktyabrında açıqlanan növbəti hesabatda Azərbaycanda inflyasiyanın durumu təhlil edilmişdir. Sənəddə 2009-cu ilə dair inflyasiya proqnozları nəzərdən keçirilməklə yanaşı qlobal maliyyə böhranının ölkəmizin iqtisadiyyatına (tikinti sektoru və digər sahələrə) təsiri, neftin qiymətinin aşağı düşməsinin ehtimal olunan nəticələri və s. önə çəkilmişdir. Hesabatla bağlı ekspert-mütəxəssis dəyərləndirmələri ölkədə sağlam rəqabət mühitinin yaradılması, azad sahibkarlığa yol açılması, qiymətlərin inhisarçıların asılılığından qurtarılması və s. tələb edir.

BVF-nin AR-dəki daimi nümayəndəliyini 2009-cu ilin sonunda bağlayacağı da məlum olmuşdur. Hazırda rəhbəri K.Qvenetadze olan nümayəndəliyin "Turan" agentliyinə açıqlamasına görə, bu, "tərəflər arasında maliyyə proqramlarının olmaması və xərcləri azaltmaq zərurəti" ilə əlaqədardır. (Bu halda fond AR-də daimi nümayəndəliyini bağlayan ilk iri beynəlxalq maliyyə qurumu olacaqdır). 1992-ci ildən başlanan əməkdaşlıq prosesində BVF ölkəmizə 363 mln. dollar vəsait, o cümlədən 248 mln. dollar güzəştli kredit ayırıbdır. Kredit tranş qaydası ilə, yəni respublika hökumətinin iqtisadi islahatlara dair öhdəliyinə əsasən müxtəlif proqramlar çərçivəsində verilibdir. Axırıncı belə kredit 2005-ci ildə gerçəkləşdirilibdir. AR maliyyə cəhətdən möhkəmləndiyini əsas tutaraq həmin vaxtdan etibarən fondun kredit təkliflərini qəbul etməyərək, yalnız onun texniki yardımlarından faydalanıbdır. Hazırda AR-in fonda öhdəliyi 40 mln.dollar təşkil edir və onun 2014-cü ilədək tamamilə ödənilməsi nəzərdə tutulur.

AR-in maliyyə qurumları Ümumdünya Bankı ilə də çoxşaxəli əlaqələrə malikdirlər. Bu əlaqələrdə tərəflərin təmsilçilərinin qarşılıqlı səfirləri və danışıqları önəmlidir. Belə səfərlərdən biri də 2009-cu ilin oktyabrında olmuşdur. ÜB-nin icraçı direktoru xanım N.Okonco-İvela Güney Qafqaz turnesi çərçivəsində Bakıya gəldi. Turnedə başlıca məqsədi dünya maliyyə böhranının region ölkələrini təsirini öyrənmək təşkil edirdi. O.

Ermənistanda ÜB-nin maliyyələşdirdiyi layihələrin benefisiarları ilə görüşüb və Gürcüstanda məcburi köçkünlərin məskunlaşdırıldığı yerlərə baş çəkibdir. Bakıda isə yüksək səviyyəli iqtisadi Siyasət Forumuna həmsədrlik edib və habelə bir sıra tədbirlərə qatılıbdır

Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın üzləşdiyi qaçqınlar və köçkünlər probleminin həlli də AR-BMT əlaqələrində prioritet istiqamətlərdən biri olaraq müəyyənləşdirildi. 1992-ci ilin dekabrında Bakıda BMT-nin qaçqınların işləri üzrə Ali komissarlığının nümayəndəliyi fəaliyyətə başladı. Həm bu nümayəndəlik, həm də BMT-nin Humanitar məsələlər üzrə Departamentinin təmsilçiləri qaçqın-köçkünlərin (təxminən 1 mln. nəfərə yaxın insanın) şəraitini və onlara yardım imkanlarını öyrəndi. Bu araşdırma və təhlillərə əsasən də AR-ə müəyyən yardımlar ayrıldı. Digər yandan da, BMT-nin müvafiq qurumları erməni təbliğatı, onların diaspora və lobbisinin səyləri, habelə ölkəmizin (qaçqın və köçkünlərimizin) vəziyyətinə dair obyektiv məlumatların yetərsizliyi üzündən Azərbaycanla Ermənistana yardımlar göstərilməsində ədalətli mövqe tuta bilmədilər. Müxtəlif səpkili yardımların çox hissəsi Ermənistana edildi.

Sonda **BMT-nin çağdaş beynəlxalq siyasət – həyatdakı yeri və rolu məsələləri ətrafında gedən diskussiyalara** da qısaca nəzər salmaq lazımdır. Hazırda "BMT-siz dünya və beynəlxalq münasibətlər", onun NATO ilə əvəzlənməsi, " Qlobal Demokratiya Liqası" ("DQL") ideyası və s. barədə müxtəlif mübahisələr getməkdədir (Bunlar barədə dərsliyin digər bölümlərində də yerinə uyğun olaraq bəhs edilir). Bu, stajlı beynəlxalq təşkilatın **Baş Assambleyasının 64-cü sessiyasında (IX.2009)** yaşananlar da onun gələcəyi ilə bağlı dialoqa-mübahisələrə rəvac vermişdir.

Bütövlükdə, 149 ölkənin dövlət və hökumət başçısının iştirak etdiyi bu sessiya orada bir sıra yeni mülahizə, müddəa və yanaşmaların ortaya çıxması ilə səciyyələndirilir. Belə ki, 120-

dən çox prezident, monarx və Baş nazir, 3 vitse-prezident, 8 Baş nazir müavini, 55 Xarici İşlər naziri və b. sessiyadakı çıxışlarında müasir qlobal siyasətin, habelə regional problemlərin ən vacib məsələlərinə toxunulmuşdur. **BMT Baş katibi** sessiyanın açılışındakı nitqində diqqəti çağdaş aktual-qlobal problemlərin həllinə cəmləməyə çalışıbdır. ABŞ prezidentinin çıxışı "birqütblü dünya arxada qaldı" kimi ümidlər yaratmışdır: "İndi bizim hər birimizin üzərinə məsuliyyət payı götürməsinin vaxtı çatıb və dünyanın problemlərinə görə hər kəs cavabdehlik daşıyır" **(B.Obama)**. Rusiyanın dövlət başçısı BMT-ni gücləndirməyə çağırmaqla yanaşı ABŞ-ın raketdən müdafiə sistemləri ilə bağlı planlarında edilən (gözlənilən) dəyişiklikləri alqışlamışdır: "Biz bir-birimizi eşitməyə başlamışıq" **(D.Medvedyev)**.

Sessiyada **"GUAM ölkələrində dondurulmuş münaqişələr haqqında" qətnamənin** səsverməyə qoyulacağı da ehtimal olunurdu. GUAM dövlətləri tərəfindən hələ 2008-ci ildə təqdim edilən bu qətnamə layihəsi ötən (63-cü) sessiyada müzakirəyə çıxarılmamışdı. 64-cü sessiyada habelə Gürcüstanın Abxaziya və Cənubi Osetiya bölgələrindən olan qaçqınlar və məcburi köçkünlərin vəziyyəti barədə qətnamə qəbul edilibdir. Sessiyanın gündəliyindəki "GUAM məkanında həlli uzanan münaqişələr və onların beynəlxalq sülh, təhlükəsizlik və inkişafa təsiri" maddəsi çərçivəsində Gürcüstanın təşəbbüsü ilə təqdim edilən qətnamə layihəsi Rusiyanın kəskin etirazı ilə üzləşibdir. Onun BMT-dəki Daimi nümayəndəsi V.Çurkin sənədi siyasi motivli sayaraq müzakirə və səsverməni əngəlləməyə cəhd göstəribdir. Lakin 78 ölkə tərəfsiz qalmaqla, 19-u əleyhinə və 48-i isə lehinə səs verməklə sənəd qəbul edilmişdir. Rusiya ilə yanaşı İran, Venesuela, Ermənistan qətnamənin əleyhinə səs veriblər. Avropa İttifaqına üzv olan bütün dövlətlər sənədi dəstəkləyiblər (Gürcüstan qətnamənin qəbulunu diplomatik qələbə və **Rusiyanın "biabırçı məğlubiyyəti"** kimi qiymətləndiribdir). Azərbaycan da layihəyə səs verənlərin sırasında olubdur.

AR-i sessiyada E.Məmmədyarov təmsil etmişdir. Sessiyanın proqramında çıxış edəcək dövlət başçıları sırasında adı yer alan İ.Əliyev Nyu-Yorka getməmişdir. Bununla bağlı rəsmi açıqlama verilməsə də, ekspertlər belə bir halı onun Nyu-Yorkda (sessiya və digər tədbirlərdə) Dağlıq Qarabağla bağlı müəyyən sürpriz-qalmaqallarla üzləşə bilməsi ehtimalı ilə əlaqələndirirlər. AR-in baş diplomatı sessiyadakı çıxışından əvvəl Kaliforniya universitetində məruzə etmişdir. Universitetdə "Rusiyanın son vaxtlar Qarabağ danışıqlarında ən çox fəallıq göstərən dövlət olması və hətta müzakirələrdə işçi dilin ingiliscədən ruscaya keçməsi" ilə bağlı verilən suallara cavablar belə olmuşdur: S.Sərkisyanın ingiliscə bilməməsi və D.Medvedyevin danışıqlara çox yaxından cəlb olunmasından məmnunluq. Görüşdə azərbaycanlı gənc bloggerlərin həbsinin səbəbləri ilə bağlı və AR barədə yayılan mənfi məlumatların "düşmənlərimizin işi" olması kimi açıqlama verilmişdir.

Sessiya ərəfəsi və sonrası keçirilən bir sıra tədbirlər diqqətçəkicidir. Baş Assambleyadakı siyasi diskussiyaların başlanmasından bir gün əvvəl Nyu-Yorkda ABŞ-ın sabiq prezidenti B.Klintonun təşəbbüsü ilə xeyli dövlət və hökumət başçısının iştirakıyla **qlobal iqlim dəyişiklikləri barədə konfrans** keçirildi (Bu zaman da B.Obamanın mühafizəçilərinin Türkiyənin Baş nazirinin toplantıya qatılmasını "əngəlləmələri krizi" yaşandı). "İqlim sammiti"nin açılışında çıxış edən BMT Baş katibi iqlim dəyişikliklərinin yaradacağı təhlükənin önlənməsi üçün birgə çalışmağı məsləhət görübdür. Bu sahədə "fəaliyyət göstərməməyi əxlaqi baxımdan bağışlanmaz" sayan Baş katib 2009-cu ilin dekabrında Danimarkada keçirilməsi planlaşdırlan konfransda beynəlxalq müqavilələrin əldə olunmasını önə çəkmişdir.

Baş Assambleyanın bu sessiyasının gedişində BMT TŞ-nin də iclası (24.IX.2009) oldu. **B.Obamanın ilk dəfə olaraq sədrlik etdiyi** bu iclasda başlıca müzakirə obyekti İranın nüvə proqramı idi. Sözgəlişi, ABŞ-ın təqdim etdiyi sənəddə Pakistanla İsrail nüvə tərksilahına əməl etməmələrinə görə ilk dəfə olaraq tənqidə məruz qaldılar. 2009-cu il sentyabrın 24-də ABŞ-ın Pitsburq şəhərində həm də **"20-lər"in sammiti** keçirilibdir. Hazırda dünya iqtisadiyyatının 90 faizə yaxın hissəsinə nəzarət edən 20 ən iri ölkənin, o cümlədən Türkiyə, Braziliya, Səudiyyə Ərəbistanı və digərlərinin dövlət-hökumət başçıları qlobal maliyyə böhranı, BMT-nin fəaliyyəti və b. məsələləri müzakirəyə çıxarıblar. Sammitdə "20-lər"in "Böyük səkkizlər"i əvəzləyəcəyinin elan ediləcəyinə dair proqnozlar özünü doğrultmayıbdır. Bu əvəzləmənin yeni dünya reallıqlarına əsaslandığı barədəki ekspert təhlillərindən habelə BMT-yə diqqətin azaldığını da sezmək olur. Hələlik "Böyük səkkizlər"in qlobal təhlükəsizlik məsələləri ilə məşğul olacaq klub səviyyəsində davam edəcəyi gözlənilir. Ancaq onun-artıq ənənə halını alan – illik sammitlərinin keçirilməyəcəyi də razılaşdırılmışdır.

64-cü sessiyada və onun ətrafında **siyasi-diplomatik səciyyəli qalmaqallar,** özünəməxsus demarşlar və s. baş vermişdir. Sessiyada ciddi "reqlament pozuntusu halı" yaşanmışdır. Qaydalara əsasən 15 dəqiqəlik çıxış müddətinə bəzi dövlət və hökumət başçıları tərəfindən təsadüfən və ya qəsdən əməl olunmayıbdır. Belə ki, D.Medvedyev 22, B.Obama 40 dəqiqə, Venesuela prezidenti U.Çaves 1 saat, Liviya lideri M.Qəddafi isə düz 1 saat 35 dəqiqə çıxış ediblər. Sessiya barədə yayılan məlumatlardan bu da məlum olur ki, xoşagəlməz hallardan ötrü B.Obamanın çıxışı zamanı İran prezidenti ilə Liviya liderinin iclas salonunda olmamalarına çalışılıbdır. Onların hətta iclas salonundan kənarda belə qarşılaşmamaları üçün mümkün olan hər bir iş görülübdür. ABŞ-ın BMT-dəki Daimi nümayəndəsi Syuzan Rays da Ağ Evin başçısının onlarla heç bir təmasının olmayacağını təsdiqləyibdir.

M.Əhmədinejad, U.Çaves, M.Qəddafi və b. çıxışları kəskin ahəngləri ilə fərqlənib və bəzi qeyri-etik hərəkətlərlə, lağlağı-ələsalmalarla müşayiət olunubdur. İran prezidenti ad çəkmədən ABŞ və İsrailin ünvanına kin və nifrətlərlə dolu

iradlar söyləmişdir. Fransalı diplomatlar bu çıxışı "yəhudi düşmənçiliyinin nümunəsi" kimi dəyərləndirmişlər. Bu cür çıxış xeyli nümayəndə heyətinin iclas salonunu tərk etmələri ilə cavablandırılmışdır. İİR prezidenti bu dəfə ki, çıxışında "sionist rejim" ifadəsini işlətməsə də İsrail dövlətini tanımadıqlarını bir daha biruzə vermişdir (Sözgəlişi, Tehran Təl-Əvivi rəsmən tanımadığından İİR tərəfindən heç vaxt "İsrail dövləti" ifadəsi dilə gətirilmir).

U.Çaves çıxışına salonda olmayan və dəhlizdə gəzişən liderləri adbaad iclasa dəvət etməklə və salamlamaqla başlayıbdır. Sonra da ABŞ-ın siyasətinə müxalif mövqedə olduğunu növbəti dəfə bəyan edibdir. Üç il əvvəlki sessiyadakı çıxışında C.Buşu (oğul) "şeytan" adlandırdığını və onun siyasətindən "kükürd, barıt" qoxusu gəldiyini söyləyən Venesuela prezidenti habelə B.Obamanın çıxışına işarə edərək BMT salonunda artıq "ümid qoxusu"nu hiss etdiyini bildiribdir. Çıxışının uzandığını özü də duyan U.Çaves yenə də eks-prezident C.Buşa "ilişmək"dən qalmayıb "mənə də ayaqqabı atmayın, görürəm ki, Kubanın səfiri artıq başmaqlarını çıxarır" kimi cümlələrlə salonda gülüşmələrə səbəb olubdur.

64-cü sessiyadakı çıxışların "zirvəsi"ni M.Qəddafi "fəth edibdir". Sessiya öncəsində Nyu-Yorkda "çadır qurmaq qalmaqalı" yaradan Liviya lideri BMT tribunasından açıq mətnlə çıxış edibdir. O, ABŞ-dakı məlum 11 sentyabr hadisələrində "Talibanı" əsla günahkar saymadığını söyləyibdir: "Taliban" da bizim üçün təhlükə yaratmayan Vatikan təki, dini dövlət qurmaq istəyir; onun qurduğu dövlət niyə təhlükəli sayılır?" "Yəhudilərlə ərəbləri qohum millət" sayan M.Qəddafi onlar arasında düşmənçiliyin olmadığını və yəhudilərin Qərbdə krematoriyalarda yandırıldığını vurğulayıbdır. Reqlamentə əməl edilməsinə dair ikinci xəbərdarlıqdan sonra onun əlindəki kitabı iclasın rəyasət heyətinə tullaması sessiyada heyrət yaradıbdır.

Əslində M.Əhmədinejad, U.Çaves, M.Qəddafi və digərlərinin bu cür çıxışları, hərəkətləri BMT üçün heç də yeni və

yad deyildir. Təşkilatın artıq belə demarşlara alışması göz önündədir. SSRİ rəhbəri N.Xruşşov, Kuba lideri F.Kastro və b. BMT tribunasında söylədikləri və etdikləri xatirələrdən silinməyibdir. Xüsusilə də "Biz kapitalizmi dəfn edəcəyik" deyən N.Xruşşova BMT sessiyası iştirakçılarının etirazına qarşı onun ayaqqabısını mikrofona döyməsi hadisəsi Qərb mətbuatının və siyasi dairələrinin gündəmində xeyli vaxt mühüm yer tutubdur.

Amma 64-cü sessiyada və onun ətrafında baş verən hadisələri, cərəyan edən prosesləri, habelə çağdaş dünyanın reallıqlarını nəzərə alan ekspert-analitiklərin mühüm bir hissəsi "BMT-nin artıq öz dövrünü yaşaması"na dair qənaətlərində israrlı görünürlər. Hələlik təşkilatın belə bir durumundakı AR-BMT əməkdaşlığını dəyərləndirərkən bu yöndə keçilən tarixi mərhələnin ilkin nəticələrini məqbul saymaq mümkündür. Amma qarşılıqlı əlaqələrin potensialının tam açılması, daha önəmli və yetərli yekunlara yetişilməsi üçün çoxşaxəli birgə fəaliyyət tələb olunur.

AR-ATƏT əməkdaşlığı: problemlər, perspektivlər

Ölkəmizin Qərbə inteqrasiyasının sürətli və səmərəli şəkildə həyata keçirilməsində və Ümumavropa təhlükəsizliyi sisteminə qatılmasında AR-in ATƏT (ATƏM) ilə əlaqələrinin ayrıca yeri vardır. Respublikamız müstəqillik əldə etdikdən dərhal sonra bu təşkilatla münasibətlər yaradılmasına çalışdı. ATƏT də "Helsinki Yekun aktı"na (1.VIII.1975) və "Yeni Avropa üçün Xartiya"ya ("Paris xartiyası"na-1.IX.1990) əsasən AR ilə əlaqələrin qurulmasına və birgə əməkdaşlığa maraq göstərdi.

Belə bir qarşılıqlı anlaşma şəraiti AR-in tezliklə ATƏT-ə qəbuluna (20.I.1992) rəvac verdi. Respublikamız bu mötəbər təşkilatın ali toplantılarında ilk dəfə ona üzv dövlətlərin başçılarının sammitində (Helsinki-VII.1992) təmsil olundu. AR prezidenti Ə.Elçibəy Zirvə toplantısında ana dilində (türkcə) çıxış etdi

və "Helsinki Yekun aktı"nı, habelə "Avropada adi silahların məhdudlaşdırılması haqqında Müqavilə"ni imzaladı (10.VII.1998) (Yeri gəlmişkən, prezidentin həmin sənədlərin, üzərində milli gerbimiz olan, dövlət möhürüylə təsdiqlənməsi üçün Milli Məclisdən onun qəbulunu sürətləndirməyi xahiş etməsinə dair də məlumatlar vardır. O həmin vaxtlar həm də türk dilinin BMT, ATƏT və digər təşkilatların işlək dilinə çevrilməsinə çalışmışdı).

Ə.Elçibəyin sammitdəki çıxışının Ümumavropa təhlükəsizliyi və inteqrasiya prosesləri ilə əlaqədar başlıca tezislərinin burada qeyd olunmasına ehtiyac vardır (Ermənistanla münaqişəyə dair fikirlər və ümumiyyətlə, ATƏT-in "Dağlıq Qarabağ problemi"nin həlli sahəsindəki fəaliyyəti 2-ci bölümdə təhlil olunur):

- "Soyuq müharibə"dən sonra dünyanın seçdiyi yolun yeganə ümumi amili insandır;
- bəşəriyyət ümumi dəyərləri bölüşdürən xalqların və dövlətlərin həqiqi inteqrasiya yoluna yenicə qədəm qoymağa başlamışdır və ATƏM həmin prosesin kamil nümunəsidir;
- Ümumavropa məkanının yaradılması kimi çətin proses onun bütün iştirakçılarının ümumi qanun-qaydalara əməl etməməsi halında uğursuzluqla nəticələnəcəkdir;
- indi milli təhlükəsizlik regional və beynəlxalq təhlükəsizliklə qarşılıqlı vəhdətdədir;
- Azərbaycan da ATƏM-ə daxil olduqdan etibarən özünü Ümumavropa təhlükəsizliyi sisteminin və prosesinin tamhüquqlu üzvü hesab edir;
- Avropa qarşısında yeni təhlükələr, partlayışlar durur və qaynar nöqtələrin qızışdırılması yaxşı hazırlanmış ssenari əsasında baş verir, bu təhlükəli meyl beynəlxalq qaydaların və prinsiplərin pozulmasına, mənafelərin sıxışdırılmasına gətirib çıxara bilər;
- Azərbaycan ATƏM-də iştirakdan çox şey gözləyərək qarşılıqlı fayda əsasında bütün maraqlı dövlətlərlə ikitərəfli və

çoxtərəfli əlaqələr çərçivəsində əməkdaşlığa hazırdır.

AR-ATƏM əməkdaşlığının genişlənməsinə bir sıra birgə tədbirlərin, qarşılıqlı səfərlərin və s. ciddi təsiri olmuşdur. ATƏM-in o vaxtkı sədri M.Uqlasın AR-ə səfəri (X.1993), dövlətimizin təmsilçilərinin təşkilatın Parlamentlərarası Assambleyasının Vyana sessiyasında iştirakı (VII.1994) zamanı aparılan iki(çox)tərəfli müzakirələr qarşılıqlı əlaqələrin inkişafına yeni imkanlar açdı. Respublikamızın təşkilatın Budapeşt, Lissabon, İstanbul və digər sammitlərində iştirakı AR-in Ümumavropa proseslərinə qatılması işinin əsas istiqamətlərindən biri hesab olunur. Bir sıra diplomat və politoloq dəyərləndirmələrinə görə, Budapeşt Zirvə görüşü (XII.1994) ATƏM-in ATƏT-ə transformasiyası və s. cəhətdən təşkilatın tarixində yeni bir mərhələnin başlanğıcı sayılır. Burada o, Ümumavropa institutuna çevrilmişdir.

Azərbaycan rəhbərliyi bu sammit ərəfəsi və dövründə belə bir mövqe tutdu. H.Əliyev bunları bəyan etdi: yeni Avropanın yaranması və inkişafı üçün ATƏM-in fəaliyyəti daha da artıq olmalıdır; biz bir Avropa dövləti və Avropa birliyinə daxil olan dövlət kimi bu təşkilatın genişlənməsinin tərəfdarıyıq; yeni Avropaya məsləhət forumu deyil, təkmilləşdirilmiş ATƏM lazımdır. Öz işini "Yeni dövrdə əsl tərəfdaşlığa doğru" adlı Bəyannamənin, "ATƏT-in BMT ilə əməkdaşlığı" və digər qətnamələrin qəbulu ilə yekunlaşdıran Budapeşt sammiti AR-in təşkilatın fəaliyyətinə daha yaxından və sıx inteqrasiyası baxımından faydalı oldu.

AR-ATƏT münasibətləri qurumun Lissabon Zirvə görüşündə (XII.1996) inkişaf etdirildi. İşinə 54 üzv dövlətin (52-si Avropa; ABŞ, Kanada) və Afrika ilə Asiyanın 10 ölkəsinin (müşahidəçi sifətilə) başçılarının qatıldığı bu sammit də Azərbaycan üçün bir çox cəhətlərdən yaddaqalan olmuşdur. Onun qəbul etdiyi "XXI əsr Avropa evi üçün ümumi və hərtərəfli təhlükəsizlik modeli haqqında Bəyannamə" respublikamız tərəfindən bəyənildi. "Vankuverdən Vladivostoka qədər" uzanan

coğrafi məkandakı Avratlantik və Avrasiya birliklərinin vəhdəti kimi səciyyələndirilən ATƏT-in bu sənədində belə bir önəmli məqam önə çəkildi: sammit iştirakçıları "vahid təhlükəsizlik məkanının yaradılmasında maraqlıdırlar və onlar dövrün "ciddi çağırışları"na münasibətdə birlikdədirlər. AR-in həmin sənədə qoşulmasında da məhz elə bu niyyət, məqam, habelə təhlükəsizliyin bölünməzliyi və s. prinsiplər əsas tutulmuşdu.

Azərbaycan Respublikası ATƏT-in İstanbul sammitində, bir növ, "Paris Xartiyası"nın davamı sayılan, (XI.1999) "Avropa təhlükəsizliyi Xartiyası"na da qoşuldu. Sammitin gedişində Azərbaycan, Gürcüstan, Türkiyə arasında Bakı-Tiflis-Ceyhan Əsas İxrac Neft Kəməri haqqında saziş bağlandı. Azərbaycan prezidenti Güney Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının yaradılması təklifini irəli sürdü (Diplomatik-siyasi ədəbiyyatda həmin təklifin ilk dəfə Türkiyə Cümhuriyyətinin prezidenti S.Dəmirəl tərəfindən səsləndirildiyi də qeyd olunur).

AR-NATO əməkdaşlığının xarakteri və gələcəyi

Azərbaycan Qərbə (Avratlantik məkana) həm də beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq vasitəsilə inteqrasiya taktikasını seçməklə düzgün mövqe tutmuşdur. Bu kontekstdən yanaşdıqda dövlətimizin NATO kimi çox güclü, nüfuzlu və geniş təsir imkanlarına malik olan bir hərbi-siyasi blokla əlaqələr qurması və onları genişləndirməyə çalışması məqbul sayılmalıdır.

AR-in NATO ilə əməkdaşlıq etməsi və böyük-qonşu dövlətlərdə birmənalı qəbul olunmur. Yəni məsələyə dair iki baxış-mövqe mövcuddur.

Birincisi, respublikamızın bu təşkilatla əlaqələr yaradıb onunla sıx işbirliyinə getməsini (hətta ona üzvolmasını) düzgün sayan siyasi-elmi yanaşmalar. Onların AR-NATO əməkdaşlığının lehinə olaraq əsas tutduqları başlıca dəlillərdən ən önəmliləri belə ifadə oluna bilər:

- NATO-nun çağdaş beynəlxalq münasibətlərdəki aparıcı yeri və rolu;
- təşkilatın Güney Qafqazdakı proseslərə təsir imkanları;
- AR-in milli-dövlət təhlükəsizliyinə təminat;
- "Dağlıq Qarabağ problemi"nin ədalətli həlli zərurəti;
- neft hasilatı və nəqlinin təhlükəsizliyi;
- Xəzərin statusuna dair diplomatik-siyasi mübahisələrin həllində iştirak etmək imkanı;
- Ordumuzun bu hərbi qurumun standartlarına uyğunlaşdırılmasına ciddi ehtiyac və s.

İkincisi, bu qurumla əməkdaşlığa qarşı çıxan (ona üzvlüyü isə qəti olaraq rədd edən) siyasi-eimi baxışlar. Onların əsas dəlil və mülahizələrindən bəziləri aşağıdakılardır:

- NATO ayrı-ayrı xalqların təhlükəsizliyinin deyil, təkcə ABŞ-ın geostrateji maraqlarının təminatçısıdır (Onun Balkanlara, Əfqanıstana, İraqa hərbi müdaxilələri də buna sübut olaraq dəyərləndirilir);
- hərbi alyans kimi formalaşan NATO-nun "demokratiya keşikçisi" və "kollektiv müdafiə vasitəsi" kimi qiymətləndirilməsi yanlışlıqdır;
- bu təşkilat (ələlxüsus da onun genişlənməsi) "qloballaşaraq" ABŞ-ın "müştəri ölkəsi"nə çevrilməyən (bunu istəməyən) dövlətlərin parçalanması və ya məhvinə xidmət edir;
- qurum ABŞ-ın müxtəlif regionlardakı neftin "qalan hissəsi" uğrunda böyük müharibəsinin zərbə qüvvəsidir və s.

Azərbaycanda birinci qrup baxış və mövqenin üstünlük qazanmasının NATO-nun maraqları (qarşılıqlı addımları) ilə üst-üstə düşməsi respublikamızla təşkilatın əməkdaşlığını şərtləndirdi, ona yol açdı. NATO özünün "Şimali Atlantika Alyansı dəyişikliklər prosesində" adlı London (1990), "Sülh və əməkdaşlıq haqqında" Roma (1991) bəyannamələri də ikitərəfli əlaqələrə şərait yaratdı. Respublikamızın NATO ilə əməkdaşlığını şərti olaraq hələlik iki dövrə də ayırmaq olar: **1-cisi,** AR-in

NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" ("SNT") proqramına qoşulmasına qədərki dönəm. **2-cisi,** onun həyata keçirilməsində iştirak mərhələsi. Şərti birinci mərhələnin, yəni "SNT"-yə qoşulanadək olan müddətin başlıca hadisə və tədbirlərindən bunları qeyd etmək olar:

1. AR-NATO əməkdaşlığının başlanması. Bu iş təşkilatın Brüssel toplantısının (20.XII.1991) Azərbaycan da daxil olmaqla bir sıra dövlətlərə Şimali Atlantika Əməkdaşlıq Şurasındakı (ŞAƏŞ-dəki) görüşə dəvət olunmağıyla bağlı Müraciətinə AR-in razılığı ilə ərsəyə gəldi.

2. NATO ilə AR arasında ilk birbaşa əlaqənin yaradılması. Bu isə respublikamızın nümayəndələrinin təşkilata üzv dövlətlərin ekspertlərinin görüşündə (Brüssel-10.I.1992) iştirakı ilə baş tutdu.

3. AR Baş naziri H.Həsənovun NATO-nun iqamətgahında qurumun rəsmiləri (Baş katib M.Verner və b.) ilə müzakirələri (Brüssel-19.II.1992). Həmin danışıqlarda mərkəzi yeri AR-in Qərbə inteqrasiyası, onun MDB-yə dair mövqeyi və Rusiya ilə münasibətləri, Cənubi Qafqazda durum, dövlətimizin ŞAƏŞ-in fəaliyyətinə qatılmasının zərurəti, önəmi və s. məsələlər özünə yer aldı.

4. Respublikamızın ŞAƏŞ-ə üzv qəbul olunması (10.III.1992). Bununla da AR-in ŞAƏŞ-dəki fəaliyyətinə rəvac verildi.

5. Azərbaycan nümayəndə heyətinin NATO-nun seminarında iştirakı (Antalya-X.1992). Respublikamızın təmsilçiləri seminara Türkiyənin dəvəti və vasitəçiliyi ilə qatılmışdı. Ümumiyyətlə, AR-NATO əməkdaşlığının ərsəyə gəlməsində Türkiyə diplomatiyasının böyük əməyi olmuşdur.

AR-in məlum "SNT" proqramına qoşulması qarşılıqlı faydalı əməkdaşlığa ciddi və müsbət təsir göstərən amillərdən biri oldu. Bununla bağlı "SNT" proqramı və AR-in də ona qatılmasına dair bəzi elmi-siyasi yanaşmalara qısaca nəzər salmağa da ehtiyac vardır. ABŞ tərəfindən 1993-cü ilin ortalarında təklif edilən və ŞAƏŞ-in Brüssel sessiyasında (10-11.I.1994)

qəbul olunan bu proqramın zəruriliyi və məqsədləri müxtəlif yönlərdən səciyyələndirilir:

a) NATO-nun hərbi-siyasi dairələrinin (proqramın müəlliflərinin) nəzər nöqtəsinə görə, bu sənədə əsasən həyata keçiriləcək tərəfdaşlığın başlıca məqsədi bütün Avropada sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsindən ibarətdir. Devizi "Tərəfdaşlıq vasitəsilə təhlükəsizlik" olan bu proqramla əlaqədar qəbul edilən "Çərçivə sənədi"nin və "Tərəfdaşlığa dəvət (Müraciət) sənədi"nin NATO-nun təkamül prosesi ilə genişlənməsini hədəfə almasına dair də mövqelər mövcuddur. Bir sıra diplomat-ekspert dəyərləndirmələrinə görə, 1991-ci ilin dekabrında ŞAƏŞ-in yaradılması və "SNT"-nin qəbulundan bir az sonra (V.1997) Şimali Atlantika Tərəfdaşlıq Şurasına (ŞATŞ-a) çevrilməsi də NATO-nun genişlənmə planına xidmət edir. NATO-nun sabiq Baş katiblərindən Y.Sxefferin fikrincə isə, təşkilatın genişlənməsi onun sülh, demokratiya, ümumi dəyərlərin xas olduğu azad, vahid və təhlükəsiz Avropanın yaradılması məqsədini güdür;

b) İdeya müəllifi və təşəbbüskarı ABŞ olan "SNT" proqramını "Ağ Ev"in (Pentaqonun) Avropada daha uzunmüddətli, genişəhatəli və möhkəm iştirakı planı sayan yanaşmalar da vardır. Ən çoxu da Rusiya, İran və s. dövlətlərdən qaynaqlanan bu kimi baxışlara görə isə sosializm sisteminin (SSRİ-nin) süqutu nəticəsində yaranan yeni geosiyasi şəraitdən faydalanmağa çalışan ABŞ NATO-nun "SNT" proqramı kimi bir aləti (vasitəni) düşünmüşdür.

AR-in "SNT"-yə qoşulmasına dair baxışlar və mövqelərə gəldikdə isə bu kimi məqamları önə çəkmək lazımdır. Bəzi politoloji təhlillərin əsasında gəlinən qənaətlər respublikamızın həmin proqrama qatılmasını belə səciyyələndirir:

- NATO üzvü dövlətlərlə ikitərəfli əlaqələrin genişlənmə imkanı;
- Avratlantik məkana inteqrasiyada sürətlənmə;
- bloka üzvlük yolunda ara (keçid) mərhələ;

- Ermənistanla Azərbaycan arasında hərbi əməliyyatların bərpa olunmaması qarantı;
- AR-ə birbaşa vəd edilməyən NATO hərbi yardımı;
- "16+1"(NATO dövlətləri + AR) formatı əsasında "Dağlıq Qarabağ poblemi"nə dair müzakirələri "qloballaşdırma" və Rusiya-Ermənistan tərəfdaşlığına qarşı "Avrasiya (NATO) sipəri" yaratma və s.

Azərbaycanın "SNT"-yə qoşulması prosesi də müəyyən proseduralardan keçməklə gerçəkləşdi. Proqrama qatılma mexanizmi və qaydalarına uyğun olaraq öncə "Çərçivə sənədi"ni qəbul etmək lazım gəldi. Çünki həmin sənəd NATO ilə əməkdaşlıqda hər bir iştirakçının, yəni "Tərəfdaşlığa dəvət" sənədini qəbul edən dövlətin aşağıdakı konkret əməli öhdəliklərini nəzərdə tutur:

1. Milli hərbi planlaşdırma və hərbi büdcənin formalaşdırılması proseslərində "şəffaflığın" inkişafı.

2. Silahlı qüvvələr üzərində demokratik nəzarətin təminatı.

3. BMT-nin himayəsi və (yaxud) ATƏT-in cavabdehliyi ilə keçirilən əməliyyata töhvə verilməsi üçün potensialın və döyüş hazırlığının saxlanması.

4. "SNT" proqramı iştirakçılarının sülhyaratma, xilasetmə və humanitar, habelə əlavə saziş üzrə digər əməliyyatlarından ötrü qabiliyyətinin artırılması üçün birgə planlaşdırma, döyüş hazırlığı və təlimlər məqsədilə NATO ilə əməkdaşlığa əsaslanan münasibətlərin yaradılması;

5. Uzunmüddətli perspektivdə Şimali Atlantika İttifaqı qüvvələri ilə optimal birgə fəaliyyət qabiliyyətli qüvvələrin təşkili.

NATO-ya qəbul zamanı əsas tutulan prinsiplərdən (kollektiv təhlükəsizlik; demokratiya; konsensus; qarşılıqı təhlükəsizlik) irəli gələn bu öhdəliklərə ardıcıl və birmənalı əməl olunması "SNT" proqramı çərçivəsində əməkdaşlığın təməl sütunlarını təşkil edir.Proqrama qoşulma prosedurası müəyyən

diplomatik aktlara riayət olunmasını da zəruri sayır. Yəni "Tərəfdaşlığa dəvət"in qəbulu proqramın "Çərçivə sənədi"nin imzalanmasını nəzərdə tutur. Bunun üçünsə "SNT"-yə qoşulmağa razılıq verən dövlətin "Təqdimat sənədi"i hazırlaması lazım gəlir. AR-ə NATO rəsmilərinin missiyası və digər tədbirlər vasitəsilə "Təqdimat sənədi"nin bir çox məqamları və, ümumiyyətlə, respublikamızın "SNT"-yə qatılması məsələləri nəzərdən keçirildi. Respublikamız bu proqrama H.Əliyevin Belçikaya rəsmi səfəri zamanı "Çərçivə sənədi"nin onun tərəfindən imzalanması (4.V.1994) ilə qoşuldu. "Təqdimat sənədi" isə təxminən bir il sonra (23.IV.1995) yenə də prezident tərəfindən NATO-nun o zamankı Baş katibi X.Solanaya təqdim olundu.

"Təqdimat sənədi" 6 bölümdən ibarət olmaqla AR-NATO əməkdaşlığının "SNT" proqramı çərçivəsindəki əsas konturlarını və perspektivlərini əhatə edir. Sənədin başlıca məqamları aşağıdakı tezis-müddəalarda və birgə fəaliyyətə dair tədbir-öhdəliklərdə ifadə olunmuşdur:

Birinci bölümdə — Azərbaycanın Ümumavropa proseslərində iştirakı zərurəti; Avratlantik məkanda sülh və təhlükəsizlikliyin təminatında NATO-nun önəmi; Ermənistanın ölkəmizə hərbi təcavüzünün nəticələri və "Dağlıq Qarabağ problemi"nin ədalətli həlli yolları; AR-NATO əlaqələrinin durumu və "16+1" formatı əsasında dialoq.

İkinci bölümdə — tərksilah və kütləvi qırğın (nüvə və digər) silahlarının yayılmaması siyasətinə dəstək; milli müdafiə və hərbi fəaliyyətdə (büdcə və s. daxil) şəffaflıq.

Üçüncü bölümdə — silahlı qüvvələr üzərində demokratik nəzarətin təminatına dair öhdəliklər.

Dördüncü bölümdə — birgə hərbi fəaliyyət, sülhyaratma, böhranların nizamlanması, standartlaşma, ətraf mühitin mühafizəsi sahələrində əməkdaşlıq.

Beşinci bölümdə — "SNT" proqramına AR-in insan və maddi ehtiyatlar təminatı.

Altıncı bölümdə — Azərbaycanın proqramın həyata keçi-

rilməsinə yönəlik fəaliyyəti: hərbi və siyasi məsələlərə dair məsləhətləşmələr; NATO mənzil-qərargahı ilə sıx əlaqə; hərbi təhsil sahəsində əməkdaşlıq və s.

AR "SNT" proqramına qatılmaqla NATO ilə və ona üzv dövlətlərlə əlaqələrini genişləndirdi. NATO və AR təmsilçilərinin (hərbi siyasi və digər sahələr üzrə mütəxəssislərin) birlikdə hazırladıqları "Fərdi Tərəfdaşlıq Proqramı"nın da qəbulu qarşılıqlı faydalı əməkdaşlığı intensivləşdirdi. "Sükut proseduraları" ilə (dəyişiklik və əlavələr edilmədən) təsdiqlənən (14.XI.1996) bu proqrama müvafiq olaraq bir sıra tədbirlər həyata keçirildi.

Burada öncə AR XİN-in ölkəmizin NATO ilə əməkdaşlığı ilə bağlı "Azərbaycan Respublikasının mövqeyinə dair" tezislərini qeyd etmək lazımdır. Beş bölmədən ibarət olan tezislərdə bu kimi çoxönəmli və köklü məsələlərə toxunulurdu: **1.** Azərbaycanın Avropa və Avratlantika strukturlarına inteqrasiyası. **2.** NATO-nun Şərqə doğru genişlənməsi və AR-in mövqeyi. **3.** AR-in "SNT" proqramında iştirakı və bunun əsas fəaliyyət istiqamətləri. **4.** "Avropada Adi Silahlı Qüvvələr ("AASQ") haqqında Müqavilə" çərçivəsində Cinah Sazişləri Paketi və AR-in maraqları, mövqeyi. **5.** XXI əsr Avropasının ümumi təhlükəsizlik modeli.

Bu tezislər Azərbaycan tərəfinin öz maraqları əsasında gəldiyi aşağıdakı qənaətləri və tutduğu mövqeni də öyrənməyə imkan verir: Avratlantik məkana və NATO strukturlarına inteqrasiyanın AR üçün taleyüklü önəmi; blokun genişlənməsinə dəstək və Rusiyanın antiNATO fəaliyyətinə qoşulmamaq; Azərbaycanın bloklara qatılmamaq — hərbi müttəfiqlərsiz və xarici bazalarsız dövlət olmaq istəyi; NATO-Rusiya münasibətlərində digər (ən əsası da kiçik) xalqların mənafelərinə zidd güzəştlərin (kompromisslərin) yolverilməzliyi; Bakıda NATO idarəsinin təşkili; "AASQ" Müqaviləsi çərçivəsində əməkdaşlıq; Ümumavropa təhlükəsizliyi modelinə müsbət yanaşma və s.

NATO-nun o zamankı Baş katibi X.Solananın Cənubi

Qafqaza səfərlərinin gedişində AR-də apardığı danışıqlar (II.1997 və IX.1998) da respublikamızın blokla əməkdaşlığında (xüsusilə də "SNT" proqramı çərçivəsində) xüsusi yer tuturdu. Başlıca məqsədi NATO-nun Şərqə doğru genişlənməsinə Rusiyanın münasibətini və davranış ehtimallarını öyrənməkdən ibarət olan bu missiyalar zamanı region dövlətlərinin (o cümlədən də AR-in) blokun genişlənməsinə dair mövqelərini müəyyənləşdirmək niyyətləri olmuşdu. (Yeri gəlmişkən, Rusiyanın rəsmi dairələri bu səfərləri və, bütövlükdə, NATO-nun Madrid sammiti ərəfəsi fəaliyyətini MDBdaxili hərbi-siyasi inteqrasiyanı əngəlləmək kimi qiymətləndirirdilər).

AR-in "SNT" proqramında iştirakının səmərəli formalarından biri də NATO seminarlarıdır. "Azərbaycanın təhlükəsizliyi Ümumavropa təhlükəsizlik sisteminin bir hissəsidir" mövzusundakı Praqa (VI.1997), "SNT" proqramı çərçivəsində 9-cu regional (Bakı, IV.2000) və s. seminarları, habelə Avratlantika siyasəti üzrə Məsləhət Qrupunun paytaxtımızdakı yığıncağı (V.1999) bu baxımdan diqqətçəkicidir. Bakı seminarı NATO-Azərbaycan yaxınlaşmasında xüsusilə faydalı olmuşdur.

Azərbaycan Respublikası özünün "Təqdimat sənədi"nə müvafiq olaraq və ölkəmizə edilən məlum hərbi təcavüzün nəticələrinin tezliklə aradan qaldırılması zərurətini əsas götürərək NATO-nun hərbi təcrübəsinin öyrənilməsi və ordumuzun blokun standartlarına uyğunlaşdırılması sahələrində fəaliyyətə də diqqət yetirir. AR-in baş diplomatının NATO-nun Nordvik toplantısına (1995) qatılması, əsgər və zabitlərimizin blokun "SNT" proqramı çərçivəsində təşkil etdiyi Norfolk (ABŞ-1997-ci ilin yayı) sülhməramlı təlimlərində və Balkanlarda (Kosovoda), Əfqanıstanda, İraqda həyata keçirilən sülhyaratma missiyalarında iştirakı bu cəhətdən təqdirəlayiqdir. (Sözgəlişi, "AR-in sülhməramlı əməliyyatlarda iştirakı haqqında" qanun layihəsi parlamentin plenar iclasında (25.XII.2009) ikinci oxunuşa çıxarıldı və müzakirələrdən sonra qəbul edildi). Əməkdaşlıq prosesində "NATO və Azərbaycan: Koordinasiya və Əməkdaşlıq

Mərkəzi"nin təşkili (VII.1997), AR-in NATO yanında nümayəndəliyinin yaradılması (V.1998; il rəsmi təmsilçi M.Əfəndiyev olubdur, hazırda isə K.Xasıyevdir) və başqa tədbirlər də respublikamızın blokla əlaqələrinə daha sistemli ahəng verdi.

2005-ci və 2008-ci illərdə AR ilə NATO arasında "Fərdi Əməkdaşlıq üzrə Fəaliyyət Planı" imzalandı. Bu sənədlərlə silahlı qüvvələrə vətəndaş nəzarəti, hərbi planlama və müdafiə büdcəsinin tərtibi, AR ordusunda NATO standartlarına uyğun dəyişikliklər və s. ümumi xətləri müəyyənləşdirilirdi. Respublikamızın NATO ilə əməkdaşlığı "Planlaşdırma və analiz prosesi" proqramı çərçivəsində də həyata keçirilir. AR Müdafiə nazirliyinin xarici dövlətlərin ölkəmizdə akkreditə olunmuş hərbi attaşeləri üçün keçirdiyi brifinqə (11.XII.2009) bu kimi plan-proqramlar çərçivəsindəki əməkdaşlığın ilkin nəticələri barədə məlumatlar verilibdir: nazirlər səviyyəsində 10 rəsmi və işçi görüşün Azərbaycanda, 8 bu cür tədbirinsə xarici dövlətlərdə baş tutması; sülhyaratma əməliyyatlarında iştirak edən kontingentimizin sayının 2 dəfə artırılması; 54 dövlətlə hərbi sahədə əməkdaşlıq edilməsi və onlardan 27-si ilə 102 müqavilə bağlanması; AR-in xarici ölkələrdə akkreditə olunan hərbi attaşelərinin Bakıda ilk toplantısının keçirilməsi.

Azərbaycanın bir çox dövlətlərlə bağladığı müqavilələrdə hərbi əməkdaşlıq məsələlərinə də diqqət yetirilmişdir. NATO ilə son vaxtlarda əldə edilən razılaşmaya əsasən alyans-Azərbaycan əməkdaşlığında üçüncü mərhələyə başlanılacaqdır. Bu dönəmdə 170-ə yaxın birgə tədbirin keçirilməsi planlaşdırılır; onların da 119-nun Müdafiə nazirliyi vasitəsilə reallaşdırılması nəzərdə tutulmuşdur.

Qloballaşma və kollektiv təhlükəsizlik məsələlərinin daha böyük önəm kəsb etdiyi və xeyli önə çıxdığı hazırkı tarixi dönəmdə NATO sammitlərinin dəyəri danılmazdır. Onlardan Madrid, İstanbul, ələlxüsus da, Buxarest sammitləri çağdaş beynəlxalq münasibətlərə və dövlətlərarası problemlərin həllinə təsir cəhətdən fərqlənirlər. Bu və digər səbəblər üzündən Azər-

baycan diplomatiyası da həmin Zirvə görüşlərində iştirakda maraqlı olmuşdur. Respublikamızın dövlət başçısı səviyyəsində təmsil olunduğu **Madrid sammiti (VII.1997)** blokun növbəti genişlənmələrinə yaxşı perspektivlər açdı. Regional (o cümlədən də Qafqazdakı) münaqişələrin Ümumavropa sülh prosesinə ciddi mənfi təsirini vurğulayan bu sammitin işində yaxından iştirak AR-in Avratlantik məkana inteqrasiyaya üstünlük verdiyini bir daha təsdiqlədi.

NATO-nun İstanbul sammiti (VI.2004) də Azərbaycanın blokda əməkdaşlıqla əlaqədar maraqları baxımından mütləq nəzərdən keçirilməlidir. Zirvə toplantısında qəbul edilən "İstanbul bəyannaməsi: yeni erada bizim təhlükəsizliyimiz" sənədi Şimali Atlantika blokunun 2002-ci ildə keçirilən Praqa sammitindən başladılan dəyişikliklər prosesini xeyli irəlilətməyə təkan oldu. Bununla həm də "SNT" proqramı çərçivəsindəki əməkdaşlığı yüksək səviyyəyə çatdırmaq üçün yeni imkanlar qazanıldı.

Bu sammitdən az öncə (III.2004) özünün 5-ci və hələlik *ən böyük genişlənməsini* (7 dövlətin üzvlüyə qəbulu prosesini) yaşayan NATO-nun "**İstanbul bəyannaməsi**"nin bir çox məqamları AR-in maraqları baxımından diqqəti cəlb edir. Bunu **"Əməkdaşlıq haqqında İstanbul təşəbbüsləri"** çərçivəsində NATO-nun strateji əhəmiyyətli Qafqaz və digər regionlardakı tərəfdaşlarla işbirliyinə xüsusi diqqət yetirməsinin sammitdə və onun sənədlərində vurğulanmasından da görmək olar. Sammit həmçinin Azərbaycanın NATO ilə əməkdaşlıq fəaliyyətinə dair fərdi plan hazırlamaq barədəki qərarını da təqdir etmişdi.

Buxarest sammiti (IV.2008) NATO-nun indiyəqədərki tarixində ən geniş tərkibli Zirvə görüşü hesab olunur. Bloka üzv dövlətlərin, habelə MDB-yə daxil olan 7 ölkənin (hətta neytral Türkmənistanın) başçılarının qatıldığı – Avropada ən böyük və dünyada isə Pentaqondan sonra ikinci nəhəng bina olan Çauşesku sarayında keçirilən — bu sammitdə 3500 nümayəndə (700-ü ABŞ-dan), habelə 49 ölkədən 3000-dən çox jurnalist

iştirak edirdi. Xorvatiya və Albaniyanın bloka qəbulu ilə öz genişlənməsnin 6-cı raundunu yaşayan NATO-nun bu sammitində Makedoniya, Ukrayna, Gürcüstanın üzvlüyünün perspektivləri də nəzərdən keçirildi.

Bu, **iki postsovet respublikasının NATO-ya üzvlüyü** ilə bağlı mövqelər sammitdə qalmaqal yaratdı. ABŞ onların tezliklə bloka qəbuluna çağırsa da Fransa, Almaniya, Rusiya və digərləri tərəddüdlü (əksinə) mövqe tutdular. Fransa "yaşıl işıq olmayacaq" kimi yanaşmaya üstünlük verdi. Almaniya "Ukrayna əhalisinin fikri bölünmüşdür" və "Gürcüstanda etnik münaqişələr vardır" tezislərindən çıxış etdi. Şantaj (təxribat) siyasətinə sadiq qalan Rusiya "Ukrayna parçalana bilər", "Abxaziya və Cənubi Osetiyanı tanımaqla "bufer zona"yaradılması" təki hədələrini səsləndirdi: (Sözgəlişi, Rusiya 2008-ci ilin avqustunda Gürcüstana hərbi təcavüz edərək Abxaziya, Cənubi Osetiya ərazilərinə qoşun yeritdi və onların "müstəqilliklərini tanıdı").

Bu və digər hadisə-proseslər, Cənubi Qafqazdakı hazırkı durum, Rusiyanın yaxın xaric (postsovet) dövlətlərinə qarşı təcavüzkar niyyətlərinin və hərəkətlərinin güclənməsi NATO-nun Şərqə doğru genişlənməsi və Azərbaycanın mövqeyi məsələsini bir daha aktuallaşdırmış, ciddi şəkildə gündəmə gətirmişdir. Ukrayna və Gürcüstanın NATO-ya üzvlük məsələsində birmənalı strateji seçim etmələri, yəni bloka qəbul olunmaq istəmələrindən fərqli olaraq Azərbaycan hələlik tərəddüdlü mövqe tutur. O, bir növ, dilemma — üzvlük, yoxsa neytrallıq — qarşısındadır.

AR-in NATO-ya daxil olması məsələsi ətrafında respublikada fərqli yanaşma-mövqelər mövcuddur və bu da təbiidir. Bununla bağlı bir sıra politoloq-diplomat dəyərləndirmələri diqqət mərkəzindədir. Azərbaycanın yaxın gələcəkdə NATO-ya üzvlüyünü imkansız sayan və respublikamızın bloka daxil olmasının onu xeyli problemlərlə, təhlükələrlə üzləşdirəcəyini iddia edənlərin istinad etdikləri **səbəb-dəlillərdən** bəzilərinə nəzər salaq.

Birincisi, NATO-ya üzvlüyün elə onun qəbul qaydaları-prinsipləri və nizamnaməsi tərəfindən əngəllənməsi. Nizamnaməyə görə, "digər ölkələrə ərazi iddiaları olan və ya digər ölkələr tərəfindən ərazi iddialarının obyekti olan ölkələr bloka qəbul edilə bilməz". Bu hal-hazırda və yaxın perspektivdə AR-in NATO-ya yolunu bağlayan əsas maneə (tıxac) hesab olunur. Çünki Azərbaycan digər dövlətlərə qarşı ərazi iddialarında olmasa da, özü Ermənistanın əsassız torpaq iddiaları ilə üzləşmişdir; habelə onun tərəfindən hərbi təcavüzə məruz qalmışdır. Belə bir şəraitdə AR-in NATO ilə əməkdaşlıqda başlıca (son) məqsədi, Ə.Həsənov və digər hakimiyyət təmsilçilərinin, habelə bəzi politoloqların fikrincə, blokun "...fəal iştirakı ilə yaradılacaq hər hansı etibarlı təhlükəsizlik sistemində özünə yer tapmaqdan ibarətdir". Fikrimizcə isə, buna NATO üzvlüyündən kənarda tam nail olunması çox problemli görünür.

İkincisi, Azərbaycanın NATO-ya üzv olmasının ölkəmizi bəzi qonşu dövlətlərdən qaynaqlanan təhlükələrlə üzləşdirməsi. Burada söhbət NATO-nun Şərqə doğru genişlənməsinə və AR-in də ona daxil olmasına qarşı çıxan "Rusiya-İran-Ermənistan üçbucağı" dövlətlərindən gedir. Bu sırada əsas yeri ölkəmizə çoxlu təsir imkanlarına malik olan Rusiya tutur. Bununla bağlı başqa bir yanaşmaya görə isə Azərbaycanın NATO-ya meyllənməsinə və onunla əməkdaşlığı alyansa üzvlük səviyyəsinə çatdırmaq istəməsinə də "Rusiya amili" ciddi təsir göstərmişdir. Yəni onun Azərbaycana yönəlik planları,Ermənistan vasitəsilə (onun adı altında) torpaqlarımızı işğala məruz qoyması, respublikamızın "neft siyasəti"nə əngəllər törətməsi və s. ölkəmizin Qərbə inteqrasiyasını, NATO-ya meyllənməsini şərtləndirmişdir. Qərbli tədqiqatçılardan C.Rilger "Gizli tapşırıq" əsərində yazır ki, dünyadakı "sülhyaratma əməliyyatları" 1996-cı ildən etibarən BMT-dən NATO-ya ötürülmüşdür və **Rusiya ətrafında "NATO dairəsi"**nin daralması onu adekvat hərəkətlərə sövq etdirəcəkdir. (Bizcə, Rusiyanın Gürcüstana hərbi təcavüzü bunu təsdiqləməklə yanaşı, həmçinin onun nəinki adekvat,

hətta preventiv tədbirlər gördüyünü də isbat edir).

Rusiya və İranın NATO ilə ABŞ-a qarşı olmaları və bu kontekstdə də öz qonşularına vaxtaşırı təzyiq göstərmələri **Ağ Evin (B.Obama Administrasiyasının) "yeni Əfqanıstan strategiyası"yla** bağlı da üzə çıxmışdır. Əfqanıstanla bağlı yeni siyasət bu ölkəyə əlavə hərbi qüvvələrin, texnika və döyüş sursatının göndərilməsini nəzərdə tutur. Belə bir zərurətsə "Taliban"ın silahlı qüvvələrinin yenidən fəallaşmasından irəli gəlir. Hərbi ekspertlər ABŞ-ın Əfqanıstanda müharibəyə başlamasından sonra ən ağır vəziyyətə 2009-cu ildə düşdüyünü yazırlar. Pentaqon çıxış yolunu Əfqanıstandakı 68 min nəfərlik qoşuna daha 30 min əsgərin əlavə edilməsində görür.

Qərbin (ABŞ-ın) Əfqanıstanda **"SSRİsayağı ilişməsi"** Əfqanıstana dair beynəlxalq konfransda da (London, 1.2010) etiraf olundu. İngiltərənin Baş naziri Q.Braun 2009-cu ilin koalisiya qüvvələri üçün son dərəcə ağır keçdiyini rəsmən açıqladı. BMT Baş Katibi Pan Gi Mun,H.Klinton, S.Lavrov, E.Məmmədyarov və b. qatıldığı bu konfransda başlıca diqqət aşağıdakılara yönəldildi: beynəlxalq əməkdaşlığın əfqan xalqına kömək göstərməyə qadir olması; "Əfqanıstan missiyası"nın hər bir ölkənin milli təhlükəsizliyi, bu mühüm regionun sabitliyi və bütövlükdə, dünyanın dincliyi üçün həyati önəm kəsb etməsi; ölkədə vətəndaş hakimiyyətinin mövqelərinin möhkəmləndirilməsi, korrupsiyalaşmamış idarəçiliyin yaradılması və s.

ABŞ-ın "yeni Əfqanıstan strategiyası" onu və NATO-nu bir sıra problemlərlə-çətinliklərlə qarşılaşdırıbdır. Burada başlıca söhbət canlı qüvvə ilə hərbi texnikanın Əfqanıstana çatdırılması marşrutlarından, yəni hava dəhlizindən gedir. Habelə NATO üzvlərinin və ABŞ ilə tərəfdaşlığı olan qeyri-alyans dövlətlərinin də Əfqanıstana hərbi kontingent göndərmələri (əvvəlcədən yollayanlarınsa əlavələr etmələri) lazım gəlir. NATO-nun (ABŞ)-ın əvvəllər istifadə etdiyi marşrut,yəni Pakistanla Əfqanıstanın sərhədindəki aşırım artıq "Taliban"ın nəzarətindədir. Pentaqonun Əfqanıstana çıxışından ötrü yeni

(alternativ) yollar axtarışı Azərbaycanın hava məkanı ilə bağlı məqamları da əhatə edibdir.

B.Obamanın 2009-cu ildə Moskvaya səfəri zamanı Rusiya vasitəsilə daşınma ən münasib marşrut bilinib və hətta bu barədə razılaşma da əldə olunubdur. Ancaq bu anlaşma da **NATO-Əfqanıstan tranzitində Azərbaycana olan ehtiyacı** aradan qaldırmayıbdır. Ölkəmizin hava məkanından bu məqsədlə istifadə yenə gündəmdədir. Amma bu yöndə müəyyən problemlər də mövcuddur. Və həmin problemlər NATO-nun hələ 2009-cu ilin yayında xəbərdarlıq sistemli AWACS təyyarələrini Əfqanıstana yollamaq istərkən ortaya çıxdı. Belə ki, alyansın qoşunlarının hərbi nəqliyyat təyyarələri vasitələri ilə Azərbaycanın hava məkanından istifadə edilməklə daşınmasına dəfələrlə icazə verilibdir. Lakin döyüş aviasiyasının (AWACS-ların AR-in hava məkanından keçməsi əngəllənibdir. Nəticədə bazaları Almaniyada yerləşən AWACS-ların Türkiyənin İncirlik hərbi bazasına gəldikdən sonra Əfqanıstana uçmaları Azərbaycan və Türkmənistanın hava məkanlarından yararlanma imkanlarının olmaması üzündən alınmayıbdır. Alternativ marşrut kimi Birləşmiş Ərəb Əmirlikləri ilə aparılan danışıqlar da nəticəsiz qalıb. Onların İncirlikdə 3 həftə gözlədikdən sonra öz bazalarına qayıtmaları ilə AWACS-larla bağlı plan-əməliyyat iflasa uğrayıbdır.

NATO və ABŞ Əfqanıstana "hava dəhlizi problemi" ilə yanaşı oraya əlavə hərbi qüvvələr göndərilməsi sahəsində də çətinliklərlə qarşılaşmışlar. B.Obama Əfqanıstanla bağlı yeni strategiyasına əsasən NATO üzrə avropalı müttəfiqlərindən 5-7 minlik əlavə hərbi qüvvə istəyibdir. ABŞ-ın strateji tərəfdaşlarından sayılan və NATO-ya üzvlükdə israrlı olan Gürcüstan 2009-cu ilin əvvəlində Əfqanıstana göndərdiyi 170 hərbçiyə daha 900 nəfərin də əlavə olunacağını bildirmişdir. Bununla da o, MDB dövlətləri arasında "ABŞ-ın Əfqanıstan missiyası"na ən ciddi dəstək verən dövlət olacaqdır. Hazırda Azərbaycanın Əfqanıstandakı sülhyaratmada iştirak edən 90 əsgərinin sayının

200 nəfərədək artırılması ehtimal olunur. Maraqlıdır ki, NATO-nun "SNT" proqramının başqa bir iştirakçısı Ermənistan da Əfqanıstana kontingent göndərmək niyyətində olduğunu bildiribdir. Bu barədə Müdafiə naziri ("Xocalı cəlladı-qatili") S.Ohanyan Bratislavada NATO-nun Əfqanıstana dair konfransında (X.2009) açıqlama veribdir.

Pentaqon hava dəhlizi və əlavə hərbi kontingent problemləri ilə yanaşı həmçinin aviasiya yanacağı çətinliyini yaşayır. "Washington Post" un məlumatına (15.XII.2009) görə, Əfqanıstandakı NATO kontingenti üçün hər gün təkcə 300 min qallon (1 qallon = 4 litr) aviasiya yanacağı göndərilir. Dənizə çıxışı olmayan Əfqanıstanın mürəkkəb landşaftı da oradakı qoşunların təchizatını çətinləşdirir. ABŞ Müdafiə nazirinin müavini A.Karterin fikrincə, ABŞ qoşunları İkinci Dünya müharibəsindən bəri ən ciddi təchizat problemi ilə üzləşibdir. B.Obama 18 ay sonra oradakı hərbi kontingentin azalacağını bildirsə də, hələlik çoxsahəli təchizatın artırılması lazım gəlir. "Taliban" yaraqlılarının əməliyyatları üzündən Pakistan vasitəsilə yanacaq daşınması artıq mümkün deyil. Podratçıların neft məhsullarını Rusiya, Azərbaycan və Orta Asiyanın bəzi respublikalarından alaraq Xəzərdən keçirib tankerlərlə Əfqanıstana daşımaları təhlükəsiz olsa da, çoxlu vaxt aparır. Bütün bunlara görə də Pentaqon Azərbaycanı əsas alternativ tranzit marşrut seçərək Bakıdan artıq həcmdə yanacaq alıb onu Xəzər-Orta Asiya vasitəsilə Əfqanıstana daşıtdırmaq niyyətindədir.

Vəziyyətin (problemlərin) ciddiliyi NATO-nun (Pentaqonun) yüksək rütbəli hərbçilərinin və dövlət adamlarının – diplomatlarının hərəkətə keçmələrini şərtləndirmişdir. ABŞ Müdafiə nazirinin Avropa və Avrasiya üzrə müşaviri, habelə Pentaqonun Avropadakı Hərbi Hava Qüvvələrinin Komandanı, general R.Bred bir-birinin ardınca Bakıya gələrək (XII.2009) AR rəsmiləri ilə danışıqlar aparmışlar. Danışıqlarda hər üç problem, yəni hava dəhlizinin verilməsi, əlavə kontingent göndərilməsi və artıq aviasiya yanacağı satılması məsələləri nəzərdən keçirilmişdir.

Həmçinin **Əfqanıstan üçün Beynəlxalq Sülhməramlı Qüvvələr (İSAF-İnternationale Schutrztuppe für Afganistan)** komandanı olan R.Bredin Gürcüstandakı danışıqları əlavə hərbi kontingent, hava məkanı və s. baxımından səmərəli sayılsa da, Bakıdakı müzakirələrin əməli nəticələri qənaətbəxş hesab olunmur. Belə rəy, bir tərəfdən, amerikalı generalın Gürcüstanda həm Müdafiə naziri, həm də prezidentlə məsləhətləşmələr apardığı halda, Azərbaycandakı danışıqların yalnız S.Əbiyevlə olması əsasında formalaşmışdır. R.Bredin İ.Əliyevlə görüşə bilməməsi isə prezidentin iş qrafiki və, xüsusilə də, Fransaya səfərə hazırlaşması, habelə komandanın Bakıya qısamüddətə - "dövlətlərarası strateji tərəfdaşlıq məsələlərinin müzakirəsi"ndən ötrü gəlməsi ilə əlaqələndirilir (Ekspertlərsə belə bir halın iki-üç əvvəl də baş verdiyini xatırladırlar. O zaman İranla bağlı məsələlərin müzakirəsi üçün Bakıya gələn Müdafiə naziri D.Ramsfeld elə aeroportdaca Baş nazirlə görüşərək Azərbaycanı tərk etmişdi. Çünki onun gəlişindən az əvvəl prezidentin Pakistana səfərə yola düşdüyü bəlli olmuşdu).

Əfqanıstana uçuşlar üçün davamlı hava dəhlizi məsələləri ABŞ-ın vitse-prezidenti C.Baydenin NATO Şurasının Brüsseldə keçirilən toplantısı çərçivəsində AR-in alyansdakı səfiri K.Xasıyevlə qısasürən görüşündə də özünə yer alıbdır. Problemin həlli ilə bağlı NATO-nun Baş katibi A.Rasmussenin AR prezidentiylə (VII.2009), habelə xanım H.Klintonun Əfqanıstanda hərbi qüvvələri – koalisiya tərəfdaşları olan dövlətlərin XİN-ləri ilə telefon danışıqları da olubdur. Əfqanıstana əlavə kontingentin göndərilməsi ilə bağlı məsələlərin yerindəcə müzakirəsindən ötrü ABŞ-ın Müdafiə naziri R.Geyt 2009-cu il dekabrın əvvəlində Kabilə səfərə gedibdir.

B.Obamanın Əfqanıstana dair yeni strategiyasında yeri olan Azərbaycanın mövcud böhranlı durumla bağlı ortaya qoyduğu mövqe də maraq doğurur. "AWACS"-ların Əfqanıstana keçməsi üçün AR-in hava məkanından istifadəyə rəsmi Bakının

icazə verməməsi ən sensasiyalı və çox da xoşagəlməyən hadisələrdən biri olmaqla bərabər, müxtəlif prizmalardan səciyyələndirilmişdir. Bakı ilə Aşqabadın AWASC-ların Əfqanıstana uçuşlarını əngəlləmələrinin Rusiya və İran mövqelərinin nəzərə alınmasından irəli gəldiyi mülahizə edilir. Çünki uçduqları hava dəhlizi ətrafında ən azı 5-7 min km sahəni izləyə və oradan informasiya ötürə bilən "AWACS"-ların yolüstü Rusiya ilə İranın da hava məkanlarına "göz gəzdirəcəkləri" Moskvayla Tehranı narazı sala bilər. Zahirən ziddiyyətli görünsə də, Rusiya rəhbərliyi NATO (ABŞ) qüvvələrinin özünün hava dəhlizi ilə daşınmalarına icazə verməklə yanaşı, Azərbaycan və Türkmənistanın əli ilə Qərbə " tranzit təzyiqi" edir.

Buna görə də analitiklər arasında AR-in bu məsələ ilə bağlı ABŞ-a "yox deməsinin" Rusiya ilə İranı qıcıqlandırmamaqdan ötrü düşünülmüş oyun olduğunu iddia edənlər də az deyil. Məsələnin mahiyyətində sırf siyasi səbəblərin dayandığı da ehtimal olunur; yəni bəziləri AR-in mövqeyini ABŞ-ın qlobal siyasəti üçün gördüyü işlərin qarşılığında Ağ Evdən yetərli və haqqıçatan dəstəyi ala bilməməsiylə bağlayırlar. Bu kontekstdə də bir çox ekspertlər S.Əbiyevin son vaxtlar Moskvaya intensivləşən səfərlərin, AR-in Əfqanıstandakı kontingentinin geri çağırılmasına dair müxtəlif səviyyələrdə səsləndirilən fikirləri Azərbaycanın NATO-dan uzaqlaşması və Rusiyaya meyllənməsi kimi qiymətləndirirlər.

Əksmövqedə olanlarsa, alyans üzvlərindən bir çoxunun da Rusiya ilə ikitərəfli hərbi əməkdaşlıq etmələrini önə çəkirlər. (AR-in baş əsgərinin Rusiya səfərlərinin səbəblərini "işğal edilən rayonların boşaldılması ilə əlaqədar aparılan işdə axtarmaq lazımdır" mülahizəsini irəli sürənlər də var). Ekspert təhlillərinin digər bir hissəsi rəsmi Bakının məlum qadağasını "antiterror koalisiyası ilə müvafiq razılaşmanın "AWACS" tipli təyyarələrə aid edilməməsi" ilə əsaslandırmağa çalışırlar.

Çoxşahəli rəy və yanaşmalar arasında **Azərbaycanın Türkiyənin "böyük səhvini təkrarlamamasını"** məsləhət bilənlərə də dəyər verilməlidir (Burada ABŞ-ın təklifinin qəbul edilməməsi, yəni İraqın şimalına hərbi qüvvələr göndərilməsinə "xeyr" deyilməsi nəzərdə tutulur. Ziyanın yarısından da olsa geri qayıtmağa çalışan rəsmi Ankaranın Türkiyə qoşunlarının Şimali İraqda yerləşdirilməsi barədə ABŞ ilə son vaxtlar müəyyən danışıqlar aparması məlumdur). Çünki beynəlxalq terrorçuluğa qarşı əməliyyatlar prosesindən kənarda qalma bir o qədər də məqbul sayılmır.

Qeyd edilən problemlər üzündən sanki **"Azərbaycanda ilişən ABŞ-ın"** darmacal şəraitdə AR rəhbərliyi ilə anlaşacağı gözlənilməndir. Ancaq hələ ki, Azərbaycan rəsmilərinin açıqlamalarından bəlli olduğu kimi, AR hökuməti Əfqanıstana hərbi qüvvələr göndərməyə həvəsli görünmür: "Biz əlimizdən gələn dəstəyi vermişik. Azərbaycan artıq bunu iki dəfə edib və öz töhfəsini verib" (A.Əzimov). AR diplomatının digər bir fikrinə görə isə Azərbaycan tərəfi "AWACS"-lara hava dəhlizi verilməsi məsələsinə yalnız Əfqanıstanla həmsərhəd dövlətlərin razılığından sonra baxa bilər. Ancaq problemlərin həllini tapacağına ümid çoxdur. 2010-cu ilin başlanğıcında açıqlanan bəzi məlumatlar da bunu söyləməyə əsas verir. Belə məlumatlardan biri Əfqanıstandakı qoşunların (əməliyyatların) yetərincə dəstəklənməsindən ötrü Pentaqonun Cənubi Qafqazın və Mərkəzi Asiyanın 9 dövlətinin ərazisində təchizat bazalarını yaradacağı barədədir. Bu işin "Federal satınalmalar haqqında qaydalar"a edilən düzəlişlərə əsasən reallaşacağı gözlənilir.

Əfqanıstan tranziti üzərindəki bir sıra ölkədə açılması planlaşdırılan təchizat bazaları xeyli üstünlükləri ilə (təbii, öncəliklə ABŞ üçün) diqqəti cəlb edir. ABŞ-ın aparıcı düşüncə mərkəzləri tərəfindən **"Northern Distribution Network" ("NDN"; "Şimali Paylayıcı Şəbəkə")** adlandırılan həmin təchizat bazaları eyni zamanda uzunmüddətli azad ticarət dəhlizi kimi nəzərdə tutulur. Çağdaş " İpək Yolu"nun yaradılması üçün ABŞ-a nadir imkanlar açа biləcək bu dəhlizin onun keçdiyi regionlarla bağlı strateji hədəflərə çatmaq vasitəsi təki düşünül-

düyü də ağlabatandır. B.Obamanın qənaətinə əsasən ABŞ-ın yaxın illərdə qoşunlarını Əfqanıstandan çıxarması ehtimalı da yeni dəhlizin uzunmüddətə planlaşdırılmasını şərtləndimişdir. Bununla həm də təchizat bazalarının yerləşdiriləcəyi tranzitboyu dövlətlərin sərfəli ticarət marşurutuna və nəticə etibarı ilə də Əfqanıstandakı əməliyyatların dəstəklənməsinə həvəsləndirilməsi məqsədi güdülür. Başqa sözlə, azad ticarət marşrutunun qısamüddətliliyi halının ABŞ-ın Əfqanıstandakı uğurlarının uzunmüddətliliyi perspektivi ilə tərs mütənasibliyi şübhə doğurmur.

Hərbi xarakterli malların saxlanmayacağı həmin təchizat bazalarında Əfqanıstandakı qoşunlar üçün lazım olan ərzaq, yanacaq və s. yerləşdiriləcəyi planlaşdırılır. Bu zaman daha bir həvəsləndirici tədbirə əl atılması, yəni lazımi mal-məhsulların azad ticarət tranzitini təmin edəcək dövlətlərdən müqavilələrlə alınması düşünülür. Hazırda təhlükəli sayılan Pakistan yolu ilə hələ də davam etdirilən daşımalara nisbətən 2,5 dəfə baha başa gələcək yeni tranzit strateji fayda və s. baxımından ABŞ-ı qane edir. Təkcə hərbi yüklərin daşınması üçün deyil, habelə uzunmüddətli qarşılıqlı faydalı ticarətdən ötrü planlaşdırılan təchizat bazalarının Gürcüstan və Azərbaycanla yanaşı Ermənistanda da açılacağı vacib bilinibdir.

İki xətt üzrə nəzərdə tutulan **yeni dəhliz (marşrut)** Azərbaycandan da keçməlidir. **"Cənub marşrutu"** Poti limanından quru yolu ilə Bakıya və oradansa bərə yoluyla Aktauya, ardınca da Özbəkistan vasitəsilə Əfqanıstana yetişməlidir. **" Şimal marşrutu"** isə Latviya-Rusiya-Özbəkistandan keçməklə Əfqanıstana uzanmalıdır. Marşrutların ABŞ-a hərtərəfli fayda gətirməklə yanaşı Əfqanıstanın və Orta Asiya respublikalarının sosial-iqtisadi inkişafına müsbət təsir göstərəcəyi də ehtimal olunur. Habelə yeni dəhlizin Pentaqonun Gürcüstan və Azərbaycanla hərbi əməkdaşlığını genişləndirəcəyi də güman edilir.

Ancaq ABŞ-ın hərbi yüklərinin təyyarələrlə Rusiya üzərindən Əfqanıstana daşınmasına dair Ağ Ev-Kreml razılaşmasının işləməməsi yenə də müəyyən çətinliklər yaratmışdır.

B.Obamanın hərbi müşaviri M.Markoffun hesablama-açıqlamasına görə Kreml ilə bu sahədəki əməkdaşlığa əsasən ildə 1.333 mln. dollarlıq qənaəti olacaq ABŞ razılaşmadan sonra cəmi bir dəfə Rusiya vasitəsilə Əfqanıstana yük daşıya bilibdir. Halbuki gündə 12 ağır hərbi-nəqliyyat təyyarəsinin Rusiyanın hava məkanı vasitəsilə yükləri Əfqanıstana daşıması planlaşdırılırdı.

Məlum anlaşmanın işləməsi müxtəlif yönlərdən əngəllənir. Bunun səbəbləri sırasında bir sıra ciddi məqamlar və maraqlar diqqəti cəlb edir. Prosesin gedişindən göründüyü kimi **Rusiya məsələyə "böyük siyasətin bir hissəsi"** kimi yanaşır. Rusiya rəsmilərinin və ekspertlərinin açıqlama-təhlillərinə əsasən bunları vurğulamaq olar: anlaşmanın Rusiya tərəfindən əngəllənməsində ABŞ-ın da Əfqanıstanda məğlubiyyətinə çalışmaq məqsədi güdülür. Kreml Əfqanıstanda SSRİ kimi ilişən ABŞ-ın (NATO-nun) orada məğlub olmasından faydalanmaq planını düşünmüşdür. Yəni SSRİ Əfqanıstandakı uğursuzluqdan sonra dağıldığı kimi, NATO-nun da orada aparılan "yeni, hazırkı müharibə"ni uduzaraq parçalanması və ABŞ-ın mövqelərinin zəifləməsi istənilir.

NATO-nun (ABŞ-ın) qarşısından geri çəkilmək Rusiya hətta alyansı NATO-nu özünün MDB daxilində yaratdığı **Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını (KTMT-ni)** tanımağa çağırıbdır. 1992-ci ildə formalaşdırılan (KTMT-yə Rusiya ilə yanaşı Qazaxıstan, Özbəkistan, Tacikistan, Qırğızıstan, Ermənistan və Belarus daxildirlər). Kreml onu genişləndirərək NATO-ya qarşı hərbi alyansa çevirmək məqsədini güdür. Rusiyanın NATO yanında Daimi nümayəndəliyinin rəhbəri D.Roqozin 2009-cu ilin sentyabrındakı açıqlamasında NATO-nun KTMT-nin mövcudluğunu görməməzliyə vurmasını gülünc və qeyri-ciddi münasibət kimi dəyərləndirmişdir. Rusiyalı diplomat tərəflər arasında saziş imzalanacağına ümidvar olduğunu da bildirmişdir. Rəsmi Moskvanın NATO qarşısında qoyduğu tələbə qurumun yeni Baş katibi A.Rasmussenin münasibəti isə belə olmuşdur: "Hərbi alyans KTMT-ə daxil olan dövlətlərlə

əlaqələr qurub və təşkilatın nümayəndəsi NATO-Rusiya Şurası çərçivəsində Brüsseldə keçirilən görüşlərə dəvət edilir. İki təşkilat arasında münasibətlərin rəsmiləşdirilməsi ilə bağlı isə NATO daxilində konsensus yoxdur".

Azərbaycanın qüvvətlənməsini, onun NATO ilə əməkdaşlıq vasitəsilə əlavə imkanlar əldə etməsini əsla istəməyən İran və Ermənistan da dövlətimizə vaxtaşırı problemlər yaradırlar. Ona görə də bunları mütləq nəzərə almaq lazımdır: İran AR-in NATO-ya üzvlüyünü ABŞ-ın onun sərhədlərinə çıxması, Xəzərə gəlməsi kimi qiymətləndirir. Digər yandan, Ermənistan-Azərbaycan münaqişəsi hələ də tənzimlənməyibdir və onlar arasında müharibə şəraiti davam etməkdədir. Məlum üçbucaqdan Azərbaycana edilən güc nümayişi vəziyyətdən çıxış yolunu AR-in NATO-ya inteqrasiyasında görməyə əsas verir.

Üçüncüsü, NATO-nun ABŞ-ın geostrategiyasının və iqtisadi maraqlarının gerçəkləşdirilməsi aləti (vasitəsi) olması. Bu yöndə bəzi ekspertlər belə hesab edirlər ki, blokun genişlənməsi ABŞ-ın hərbi-sənaye kompleksi üçün yeni bazarların açılmasına yönəlik korporativ maraqdır. Və Azərbaycan da alyansa daxil olmaqla öz neft gəlirlərini lüzumsuz hərbi xərclərə sərf etməklə ağır duruma düşə bilər.

Dördüncüsü, elə Qərbin (ABŞ-ın) bəzi siyasətçi və analitiklərinin NATO-nu vaxtı keçən alyans — "Soyuq müharibə"nin qalığı kimi — səciyyələndirmələri. Belə ki, ABŞ konqresmenlərindən R.Raul 2004-cü ildə Parlament çıxışlarından birində demişdi ki, **NATO** başqa dövrün, yəni **"Soyuq müharibə"nin mirasıdır** və indi mövcud ola bilməz; onun genişlənməsi isə ABŞ-ın dövlət maraqlarına xidmət etmir və gələcəkdə ölkənin milli təhlükəsizliyinə problemlər yarada bilər. Qərbdəki bu kimi antiNATO baxışlar, təbii olaraq, Azərbaycandakı bəzi mövqelərə də təsir göstərir.

Bu cür baxışlardan fərqli (onların əksinə) olaraq AR-in NATO-ya qəbulunu dəstəkləyən və bunu çox zəruri (strateji əhəmiyyətli) sayan mövqelər və yanaşmalar üstünlük təşkil

edir. Onların nöqteyi-nəzərincə, Azərbaycan alyansın strateji proqramlarında (layihələrində) fəal iştirak edərək ona üzvlük məsələsinə ehtiyatlı və həssaslıqla yanaşmaqla son nəticədə bloka daxil olmalıdır. Belə bir yanaşmaya dünyanın ən böyük və güclü hərbi-siyasi alyansının yeni Baş katibi A.Rasmussenin mövqeyi də yetərli əsaslar verir. Onun qənaətinə görə, NATO Güney Qafqaz ölkələri də daxil olmaqla bütün tərəfdaşlarına dair prinsiplərinə daima sədaqətli olacaqdır. Baş katib habelə alyansın genişlənməkdə israrlı olacağını—Ukrayna ilə Gürcüstanın və digərlərinin gələcəkdə üzvlüyə qəbul ediləcəklərini, onlara lazım gələn dəstəyin veriləcəyini vurğulamışdır.

NATO-nun üzərində işlənilən yeni konsepsiyası da Azərbaycanın alyansa qoşulması zərurətini gücləndirən dəlillərdən sayıla bilər. Yeni konsepsiya NATO-nun XXI əsrdəki vəzifələrini müəyyənləşdirməklə yanaşı, qlobal təhlükəsizliyə çağdaş baxış, kibertəhlükəsizlik, iqlim dəyişikliklərindən irəli gələ biləcək ümumi problemlərlə mübarizə və s. məsələləri də əhatə edir. Müasir beynəlxalq siyasətdə cərəyan edən bir sıra proseslər "BMT-siz dünya düzəni"nə, yəni yaxın gələcəkdə onun NATO ilə əvəzlənəcəyinə dair mülahizə və qənaətlərin ərsəyə gəlməsinə imkan vermişdir. Diplomatik təhlil və araşdırmaların bəzilərində ABŞ-ın yeni konsepsiya əsasında — inqilabi dəyişikliklər sayəsində — təzədən formalaşdırmağı planlaşdırdığı hərbi alyansın BMT-ni əvəzləyəcəyinə işarələr edilir. Bu məqam 2008-ci il seçkilərində prezidentliyə namizəd, senator **C.Makkeynin "Qlobal Demokratiya Liqası"**nın yaradılması layihəsində də özünə yer almışdır. BMT-nin saxlanmasının əleyhinə olan və "yeniləşmiş NATO"ya daha çox ümidlər bəsləyən **baxış-mövqelərə** görə:

- qlobal maliyyə böhranı və digər əsaslı səbəblər üzündən BMT kimi nəhəng və səmərəsiz qurumun saxlanılması bədxərclikdir, lüzumsuzdur;
- BMT-yə üzv dövlətlərin çoxunda avtoritar rejimlərin mövcudluğu onun demokratiyanı və beynəlxalq sabitliyi mü-

dafiə səylərini ciddi şəkildə əngəlləyir. Qurumun Təhlükəsizlik Şurasının daimi üzvlərindən qeyri-demokratik Rusiya ilə Çinin veto hüququndan yararlanıb qlobal demokratik proseslərin inkişafına maneə olmaları və İranla digər "qırğı dövlətlər"in beynəlxalq təhlükəsizliyi təhdid etmələri, "stajli" və yeni etnosiyasi konfliktlərin artması da BMT-nin daha təsirli, effektli dövlətlərarası təşkilatla (güclə) əvəzlənməsini aktuallaşdırır;

- hazırda özünü beynəlxalq hərbi-siyasi təhlükəsizlik sistemi ilə müdafiə etməyə çalışan dövlətlər (o cümlədən və xüsusilə də Azərbaycan) üçün NATO ən etibarlı gücdür. MDB-nin KTMT-si və s. fərqli olaraq o, demokratik sistemdir və öz üzvlərinin maraqları-hüquqlarını yetərli müdafiə mexanizminə malikdir;
- yeni konsepsiya əsasında formalaşdırılacaq "təzə NATO" Yaponiya, Cənubi Koreya, Avstraliya, Hindistan, İsveç, Braziliya, Cənubi Afrika Respublikası və b. əhatə etməklə məhdud sayda üzvlü hərbi-siyasi blokdan dünya təşkilatına çevrilə və beləliklə də, BMT-ni əvəzləyə bilər. Belə bir perspektivsə Avropanın enerji təhlükəsizliyi və siyasətinə ciddi əngəl olan, postsovet məkanında (vaxtılə özünün törətdiyi) etnosiyasi konfliktlərdə haqsız tərəflərə (əlalxüsus da, ermənilərə) ardıcıl "atalıq qayğı"sı göstərən, KTMT-yə qoşulmayan keçmiş müstəmləkələrini (o cümlədən Azərbaycanı) daima sıxışdıran Rusiyanın, habelə Çin, İran və b. avtoritar dövlətlərin qlobal proseslərə təsir imkanlarını xeyli məhdudlaşdırardı;
- "Ramsfeld doktrinası"na, senator C.Makkeynin "Qlobal Demokratiya Liqası" ideyasına. ABŞ-ın tanınmış ekspertlərindən onun NATO-dakı hazırkı səfiri İ.Dalderin qənaətinə görə, BMT dünyada demokratiyanı müdafiə edə bilmədiyindən zərurət olarsa bu məqsədlə hərbi güc tətbiqini də mümkün sayan (reallaşdıra bilən) təşkilatın yaranmasına ciddi ehtiyac vardır. Sonuncunun fikrincə, hərbi güc tətbiqi

üçün qərarı demokratik qüvvələr birliyi verməlidir və "bu zaman NATO bütün məsuliyyəti üzərinə götürə bilər". (Sözgəlişi, "Ramsfeld doktrinası" etnosiyasi münaqişələrin anındaca önlənməsindən, yaxud da onların həllinin sürətləndirilməsindən ötrü "hərbi müdaxilə-güc tətbiqi vasitəsi"nin səmərəsiz diplomatiyanı (nəticəsiz danışıqlar prosesini) arxa plana keçirməsini, yəni əvəzləməsini nəzərdə tutur. NATO artıq Balkanlarda belə bir təcrübəni qazanmışdır, yəni "Kosovo problemi"nin çözülməsi üçün Serbiyaya hərbi müdaxilə etmişdir);

- nəinki NATO-nun BMT-ni əvəzləməsi ideya-planı, hətta alyansın son vaxtlardakı ardıcıl genişlənməsi belə Rusiyanı hiddətləndirir və onu daha da aqressivləşdirir. Alyansa və Qərbə inteqrasiya xəttini yeridən postsovet dövlətlərinə — özünün "yaxın xarici"nə (qonşularına) — qarşı hədə və şantaj siyasəti aparan Rusiya ABŞ-la və onun müttəfiqləri ilə "əsəb savaşı"nın miqyasını böyüdür. Kreml NATO-nun genişlənməsini və gələcəkdə hətta BMT-ni əvəzləyə bilmə ehtimalını (perspektivini) ABŞ-ın hegemonluq siyasəti, qlobal Amerika sisteminin (təkqütblü dünyanın) fəsadlarından biri kimi dəyərləndirir. O, habelə arxayınlaşmayaraq dinc oturmur, yəni Qərbin (ABŞ-ın) planlarını pozmağa, heç olmazsa, ləngitməyə çalışır. Avtoritar dövlətlərdən (Çin, İran və s.) ibarət alternativ blok yaradılması səyləri, Avropaya qarşı "neft-qaz şantajı" və s. bu qəbildəndir. Ancaq hazırkı qlobal böhran üzündən Qərbdən maliyyə asılılığı artan, müxtəlif regionlardakı əvvəlki mövqe-nüfuzunu itirən Rusiyanın NATO-nun planlarını əngəlləməyə müvəffəq ola bilməsi problemli görünür. Onun əsasən müqavimət (müdafiə), qismən də hücum səciyyəli səyləri Qərb-NATO-ABŞ ilə "çeşidli bazarlıqlar çarəsi" kimi də səciyyələndirilir.

Azərbaycan-Avropa Şurası əlaqələri: mərhələlər, çətinliklər, nəticələr

AŞ — on təsisçi, yəni ilkin üzv dövlətin imzaladığı (5.V.1949), London müqaviləsi (Şuranın nizamnaməsi) əsasında yaradılmışdır. Hazırda təşkilata 46 ölkə daxildir. Onun təşkili və mövcudluğunun başlıca səbəbi nizamnamənin 1-ci maddəsinin "a" bəndində belə təsbit olunmuşdur: "Avropa Şurasının məqsədi öz üzvləri arasında, onların ümumi mirası olan idealların, prinsiplərin qorunması və həyata keçirilməsi, eləcə də onların iqtisadi və sosial tərəqqisinə əlverişli imkan yaradılması üçün daha sıx birliyə nail olmaqdır".

Təşkilatın bu prinsipial müddəasını və qarşılaşdığı problemləri nəzərə alan Azərbaycan da öz müstəqilliyini bərpa etdikdən dərhal sonra onunla əlaqələr yaradılması xəttini götürdü. AR-in AŞ ilə əməkdaşlığını,müəyyən məntiqi mülahizələrə əsasən, bəzi mərhələlərə ayırmaq olar:

1-cisi, onlar arasında ilkin təmasların qurulmasından AR-in AŞ-nin **"xüsusi qonaq" statusunu** almasına qədərki müddət.

2-cisi, "xüsusi qonaq" statusundan tamhüquqlu üzvlüyə qəbuladək olan mərhələ.

3-cüsü, AŞ tərkibində birgə fəaliyyət dönəmi.

AR-AŞ münasibətlərinin ilkin mərhələsi respublikamızın təşkilata müraciəti (24.I.1992) ilə başlayaraq "xüsusi dəvət edilmiş qonaq" statusunun alınmasıyla (28.VI.1996) yekunlaşdı. Amma bu statusa nail olunması heç də asanlıqla baş vermədi. Belə ki, "xüsusi qonaq" statusu almaq üçün göstərilən ilkin səylər — ilk rəsmi müraciət (24.I.1992) nəticəsiz qaldı. AŞ-nin tutduğu bu mövqe bir sıra məqamlarla izah oluna bilər:

a) bu məsələyə "avropalı", "avropalılıq" anlayışları, habelə "Avropa harada qurtarır və Şura hara qədər genişlənə bilər?" sualı ətrafında Qərbdə gedən diskussiya-mübahisələrin, sözsüz ki, ciddi təsiri olmuşdu. Avropa Şurası Parlament Assambleyasının (AŞ PA-nın) 1994-cü ildə qəbul etdiyi 1247 saylı "Tövsiyə"sində təşkilatın genişlənməsinə dair məhdudiyyətlər müəyyənləşdirilərkən bunlar əsas tutulmuşdu: coğrafi meyarlar – Avropanın hamılıqla qəbul edilmiş coğrafi hüdudlarına əsaslanma, yəni qitənin bir hissəsi olma. "Tövsiyə"də yazılırdı ki, "prinsipcə, Şura milli ərazisinin hamısı və ya bir hissəsi Avropada yerləşən dövlətlər üçün açıq ola bilər"; qeyri-coğrafi kriteriya, yəni Avropaya məxsus olma ruhu və s. Məhz bu kontekstdə də AR-in Şuranın "xüsusi qonaq" statusunu alma müraciətinə və ona qəbula dair ümumi prinsiplərlə bağlı belə bir açıqlama verilmişdi: "Avropa ilə mədəni əlaqələri baxımından Azərbaycan, Ermənistan və Gürcüstan üzvlük üçün müraciət edə bilərlər, bu şərtlə ki, onlar "Avropanın bir hissəsi kimi qəbul olunma arzularını aşkar surətdə bildirsinlər";

b) Cənubi Qafqazdakı etnik-ərazi münaqişələri, regionda demokratik dəyişikliklərin yetərsizliyi, AŞ ilə əməkdaşlığın mexanizminin olmaması və s. amillər də Gürcüstan və Ermənistanla yanaşı Azərbaycanın da "xüsusi qonaq" statusunu tezliklə almasını çətinləşdirirdi. Bunları nəzərə alan AŞ rəhbərliyi də Güney Qafqaz respublikalarının "xüsusi qonaq" statusu almağa dair müraciətlərinə eyni vaxtda və həm də regiondakı münaqişələrin dinc yollarla həlli şəraitində baxılmasını qərarlaşdırmışdı.

"Xüsusi qonaq" statusunun əldə edilməməsi AR-in AŞ ilə sıx əlaqələr yaratmasına, gələcək qarşılıqlı faydalı əməkdaşlığa sipər olmadı. Əksinə, tərəflər arasında siyasi dialoqa və səmərəli birgə fəaliyyətə önəm (üstünlük) verildi. Bu səmərəli proses AŞ-nin yüksək vəzifəli şəxsləri, ekspert-mütəxəssislərinin (E.-Harremus, Q.Fürer, D.Atkinson, Şurada təqribən 60 illik karyeraya malik olan H.Klebes, J.Bomel və b.) AR-in təmsilçiləri ilə 1992-1995-ci illərdə keçirilən çoxsaylı görüş-müzakirələri vasitəsilə gerçəkləşdirildi. Tezliklə Cənubi Qafqaz respublikalarının, o cümlədən də Azərbaycanın "avropalılığı" məsələsi öz həllini, qismən də olsa, tapdı.

"Reddeman məruzəsi" ilə ("AŞ-nin genişləndirilməsinə dair" sənədlə) Qafqazın Avropaya coğrafi aidiyyatı barədəki diskussiyaların hələlik qurtarmadığı vurğulansa da, region respublikalarının qitə ilə əlaqələrinə görə Şuraya qəbulu mümkün sayıldı; bu zaman habelə onların fərqləndirilməməsi qeydi edildi. Azərbaycanlı ekspert-mütəxəssislər AŞ-nin fəaliyyətində müşahidəçi statusu ilə iştirak hüququ əldə etdilər (Sözgəlişi, bu status demokratiya, qanunun aliliyi və insan hüquqlarına hörmət prinsiplərini qəbul edən və AŞ ilə əməkdaşlıq arzusunda olan istənilən dövlətə Şuranın Nazirlər Komitəsi tərəfindən verilə bilər). Müşahidəçi statusu 26 (93) saylı Qətnamə ilə tənzimlənir. Həmin sənədin "v" bəndinə görə, bu status onu daşıyana AŞ-nin Nazirlər Komitəsi və Assambleya kimi orqanlarında təmsil olunmaq səlahiyyəti vermir. Ancaq müşahidəçi dövlətlər ekspert komitələrinə (səsvermə hüququ olmamaqla) öz nümayəndələrini göndərə və habelə Şura yanında daimi müşahidəçilər də təyin edə bilərlər.

Respublikamızın AŞ-nin fəaliyyətində müşahidəçi statusu ilə iştirak hüququ qazanmasına bunlar mühüm təsir göstərdi:

- Güney Qafqaz respublikalarına "xüsusi qonaq" statusu verilməsi ilə əlaqədar olaraq yerlərdəki vəziyyəti öyrənmək üçün regiona göndərilən (XI.1994) komissiyanın mülahizə və tövsiyələri;
- Azərbaycan dövlətinin yüksək vəzifəli şəxslərinin Şuranın mənzil-qərargahına (Strasburqa) səfərinin yekunları;
- bu səfərin nəticələri əsasında dövlətlərarası əlaqələrin bir sıra aparıcı sahələrində fəaliyyətə dair hökumətlərarası əməkdaşlıq proqramı.

AR Hüquq vasitəsilə Demokratiya uğrunda Avropa Komissiyasına (Venesiya Komissiyasına) assosiativ üzv qəbul edildi (V.1996). Bununla da Şuranın çox mötəbər bir ixtisaslaşmış qurumunun fəaliyyətinə qatıldı (AŞ Nazirlər Komitəsinin yaratdığı (10.V.1990) bu quruma təşkilata üzv olmayan dövlətlər, yəni müşahidəçi statuslular da qoşula bilərlər. Avropada

böyük təsirə sahib olan Venesiya Komissiyası beynəlxalq nüfuza malik müstəqil ekspertlərdən ibarətdir. O, əsasən, konstitusiyaların hazırlanması və yenidən işlənməsi sahəsində ixtisaslaşmışdır).

Venesiya Komissiyasında ilk vaxtlarda respublika Ali məhkəməsinin sədriylə (X.Hacıyevlə) təmsil olunan AR-də qurumun prinsiplərinə uyğun bəzi işlərin görülməsinə başlanıldı. Lakin ölkədaxili siyasətdəki bir sıra çatışmazlıqlar və s. üzündən Azərbaycanda müvafiq fəaliyyətin Komissiyanın tələblərinə tam cavab verdiyi qənaətinə gəlmək mümkünsüzdür. Bu hal dəfələrlə Komissiyanın müəyyən toplantılarında (X.1996 və digər), habelə sənədlərində xüsusi olaraq vurğulanmış və vaxtaşırı respublikanın rəhbərliyinə, müvafiq orqanlara ciddi iradlar bildirilmiş, xeyli tövsiyələr verilmişdir.

Azərbaycanın Şurada "xüsusi qonaq" statusu alması prosesin yekunlaşmasına AŞ PA Bürosunun təşəbbüsü (3.II.1995) təkan oldu. Büro Güney Qafqazın üç dövlətinin AŞ-yə üzvlüyə qəbul üçün müraciət hüququnu nəzərdə tutan 1247 saylı "Tövsiyə"yə (1994) uyğun olaraq AR-in "xüsusi qonaq" statusu olmaq barədəki müraciətinin nəzərdən keçirilməsini məsləhət bildi. AR XİN-i H.Həsənovun Strasburqa, yəni "Yollar şəhəri"nə (VI.1996) və AŞ-nin yüksək vəzifəli rəsmilərindən J.Setlenjin Bakıya (VI.1996) səfərləri də prosesə təsirsiz ötüşmədi. Birinci missiyanın nəticəsində Şura ilə Azərbaycan arasında Əməkdaşlıq Proqramı tərtib edildi. Nəhayət, 1996-cı il iyunun 28-də AŞ PA-nın Bürosu Azərbaycana "xüsusi dəvət edilmiş qonaq" statusunun verilməsi barədə qərar qəbul etdi. (Bu status isveçli liberal deputat, tanınmış antikommunist P.Sagerin ideyasıdır. O, 1989-cu ildə Assambleya tərəfindən təsis edilmişdir. "Xüsusi qonaq" statusu hüquqi formasının tətbiqində məqsəd "*keçid* dövrü"nü yaşayan ölkələrə Assambleyanın sessiyalarında iştirak edərək parlamentli demokratiya ilə yaxından tanış olmaq imkanı yaratmaqdan ibarətdir. Status Büronun qərarı ilə verilir. Belə statuslu nümayəndə heyətlərinin üzvləri Assam-

bleyada səsvermə hüququ olmadan iştirak edirlər. Onlar komitələrin iclaslarına da çıxış etmək və səs vermək hüquqları olmadan qatıla bilərlər. Bu statuslu dövlətlər AŞ-yə üzv qəbul olunduqlarından, demək olar ki, artıq belə ölkələr qalmayıbdır. Daxili vəziyyəti və siyasəti Şuranın prinsiplərinə zidd olduğundan Belarus aldığı statusu 1997-ci ildə itirmişdir).

AR-in "xüsusi qonaq" statusu onun AŞ ilə münasibətlərində **yeni (2-ci) mərhələnin** başlanğıcı oldu. Təşkilata tamhüquqlu üzvlüyə qəbulla sona yetən bu dönəm də bir sıra səciyyəvi cəhətləri ilə seçilir. AŞ PA Bürosunun məlum qərarından sonra AR prezidenti "Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında" sərəncam imzaladı (8.VII.1996). AŞ rəhbərlərindən — Nazirlər Komitəsinin sədri S.Kelas və Baş katib T.Tarşisin başçılıq etdikləri nümayəndə heyəti Bakıya rəsmi səfərə gələrək (VII.1996) burada müzakirələr apardılar. Azərbaycan AŞ Baş katibinə məktub yollayaraq (13.VII.1996) Şuraya tamhüquqlu üzv qəbul olunmaq və İnsan hüquqları haqqında Avropa Konvensiyasına qoşulmaq niyyətini açıqladı.

AŞ Nazirlər Komitəsinin 573-cü iclasında (11.IX.1996) qəbul edilən 96(32) saylı qətnamədə Azərbaycanın Şuraya qəbulu və ölkədə demokratiyaya keçid prosesinin sürətləndirilməsi məsələləri nəzərdən keçirildi. Bu məqsədlə də aşağıdakılar tövsiyə olundu:

- Azərbaycan hakimiyyəti ilə müzakirələrin intensivləşdirilməsi;
- respublikaya əməkdaşlıq proqramları formasında yardım edilməsi;
- parlamentarilər arasında əlaqələr yaradılması, onların birgə fəaliyyətinin gücləndirilməsi və s.

Parlamentimiz 1996-cı ildən etibarən AŞ PA-da Azərbaycanı təmsil etməyə başladı (AŞ-nin nizamnaməsinə görə, Parlament Assambleyası Nazirlər Komitəsindən sonra təşkilatın ikinci əsas orqanı hesab olunur. Hələ ki, Avropanın geniş səlahiyyətli məclisinə çevrilə bilməyən **Assambleya hər halda qitənin ilk — və hələlik ən böyük — məclisidir.** Onun ilkin adı Məşvərətçi Assambleya olubdur. 1974-cü ildən isə "Parlament Assambleyası" adlandırılır. Nazirlər Komitəsindən səlahiyyətlər qoparmaq səyləri və NK-nın ona əsl parlament kimi yanaşması istəyi orqanlar arasında ziddiyyətlər yaratmış və mübarizəyə səbəb olmuşdur. Bu üzdən Nazirlər Komitəsi onun təzə, yeni Parlament Assambleyası adını yalnız 1994-cü ildə qəbul etmişdir. Və, maraqlıdır ki, bununla bağlı Nizamnaməyə düzəliş olunmayıb və yeni ad hələ də ona daxil edilməyibdir. Həm də əslində yeni adına baxmayaraq Assambleya elə əvvəlki kimi sırf məşvərətçi orqan olaraq qalır. Bir sözlə, o, sadəcə Avropanın taleyüklü problemlərinin müzakirəsi meydanı-tribunası hesab olunur. Hazırda AŞ PA-nın prezidenti türkiyəli M.Çavuşoğludur).

Azərbaycan Milli Məclisinin (MM-in) üzvlərindən ibarət nümayəndə heyəti (M.Məmmədquliyevin başçılığıyla) "xüsusi dəvət olunmuş" sifətilə AŞ PA-nın plenar iclaslarında iştirak etdi. AR MM ilə AŞ PA arasındakı işgüzar əlaqələrin inkişafında parlamentarilərimizin spikerin başçılığı ilə Assambleyanın "Qafqaz problemlərinə dair" seminarında (I.1997) iştirakı əməkdaşlığın yeni forması kimi faydalı sayıla bilər. MM üzvləri, habelə AŞ PA-nın Güney Qafqaz münaqişələri ilə əlaqədar 1119 saylı qətnamə qəbul edən, yaz sessiyasına (IV.1997) da qatıldılar.

AŞ PA-nın sədri xanım L.Fişerin Bakıya missiyası (IV-V.1997) zamanı "xüsusi qonaq" statuslu Azərbaycandakı siyasi proseslər və qarşılıqlı əlaqələrin yaxın perspektivləri müzakirə edildi. Bu zaman həm də AR-in Şuranın "Femida", "Demosfen", "Yerli demokratiya" və digər proqramlarının həyata keçirilməsində iştirakının imkanları və formaları nəzərdən keçirildi. Bu və digər proqram-layihələrdə daha yaxından, səmərəli iştirak, həmçinin başqa niyyətlər üzündən AR "Avropa Mədəniyyət Konvensiyası"na da qoşuldu (25.IV.1997; O, 1954-cü ildə

qəbul edilmişdir).

AR-AŞ əməkdaşlığının yeni formalarından biri də respublikamızın rəhbərliyinin təşkilatın sammitilərində iştirakı oldu. **İlk bu cür diplomatik hadisə** Şuranın 2-ci Zirvə görüşündə (X.1997) təmsil olunmaqla baş verdi. Sammitin işinə qatılan H.Əliyev həm də AŞ rəhbərləri ilə ölkədəki yeniləşmə proseslərini və respublikanın Avropa strukturlarına inteqrasiyası məsələlərini müzakirə etdi. (Zirvə toplantısının kuluarlarında həmçinin GUAM-ın ("Dördlər qrupu"nun) təşkili, Xəzər neftinin nəqli marşrutları, Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizinin yaradılması, Ümumavropa təhlükəsizliyində Qafqazın yeri və rolu, "Dağlıq Qarabağ problemi"nin həlli ilə bağlı Azərbaycanın mövqeyi və digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı; bunlar barədə növbəti bölümlərdə bəhs olunur).

Azərbaycanın Şuranın standartları və meyarlarına uyğunlaşmasında 1998-ci ildə gerçəkləşdirilən qarşılıqlı (birgə) tədbirlərin də önəmi olmuşdur. Azərbaycanda ölüm hökmünün və senzuranın ləğvi, Konstitusiya məhkəməsinin yaradılması, habelə AŞ Baş katibi D.Tarşisin, Venesiya Komissiyası nümayəndə heyətinin respublikamıza səfərləri bu baxımdan seçilirlər. Dövlət başçısının növbəti ("AR ilə AŞ arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında") sərəncamı da diqqətçəkicidir.

Avropa Şurası 1999-cu ilin aprelində Gürcüstanı üzvlüyə qəbul etsə də Azərbaycanla Ermənistanın təşkilata daxil olmasına razılıq vermədi. Bu, bir tərəfdən, onlar arasındakı münaqişə ilə əlaqələndirildi. Digər yandan da, AŞ Azərbaycana bir sıra iradlarını bildirdi. Həmin iradlara görə, AR təşkilatın Vyana Bəyannaməsinin (1993) Şuraya qəbulla bağlı 2 şərtinə (Nizamnamənin 4-cü bəndinə) tam əməl etməyən dövlət hesab olunmuşdu (Şərtlərsə bunlardır: **a)** hüquqi quruculuğun demokratik tələblərə cavab verməsi və **b)** xalq nümayəndəliyinin azad,

bərabər, ümumi seçki yolu ilə seçilməsi).

Bu və digər səbəb-amillər üzündən "xüsusi qonaq" statusundan tamhüquqlu üzvlüyə keçid ərəfəsində AR-AŞ əlaqələri daha da sıxlaşdırıldı. Bunu AŞ PA sədri lord Rossel-Constonun Azərbaycana (IX.1999) və AR Xarici İşlər nazirinin müavini A.Əzimovun Strasburqa (III.2000) səfərləri, həmçinin respublikamızın prezidentinin Şurada ölkəmizin təmsilçiliyinin təşkilati təminatı və qarşılıqlı əməkdaşlığa dair məlumatların yayılması haqqında sərəncamları (21.X.1999; 18.III.2000) da təsdiqləyir.

Bu çağlarda həm də **"Azərbaycanın AŞ-yə qəbulu üçün öhdəliklər" sənədi** respublikada müzakirə edildi (III.2000). AŞ Siyasi Komitəsinin AR-in Şuraya tamhüquqlu üzvlüyə qəbuldan sonra yerinə yetirəcəyi öhdəliklərin siyahısından ibarət olan bu sənəd ətrafında ciddi mübahisələr də getdi. Ölkənin başlıca müxalifət partiyaları (Müsavat, AXCP, ADP, ALP) Azərbaycanın tezliklə Şuraya üzv olması mövqeyindən çıxış edərək bu sənədin Milli Məclisdən keçməsinə imkan yaratdılar (Onlardan parlamentdə təmsil olunanların nümayəndələri sənədi imzaladılar). Azərbaycanın "Öhdəliklər siyahısı" onun AŞ-nın 8 konvensiyasına qoşulmasına dair ratifikasiya sənədləri ilə birlikdə təşkilatın Baş katibinə təqdim edildi (III.2000). Bununla yanaşı AR MM rəhbərliyi Avropa dövlətləri parlament başçılarının konfransında (Strasburq-V.2000) təmsil olundu. Öz növbəsində AŞ Azərbaycanın təşkilata qəbulu ilə əlaqədar olaraq bir sıra təşkilati işlər gördü.

Şuranın Siyasi Komitəsinin Dublin (V.2000) və Roma (VI.2000) toplantılarında Azərbaycanın Şuraya qəbulu ilə bağlı müsbət rəy verildi. AŞ-nin AR üzrə məruzəçisi J.Bomelin hesabatının dinlənildiyi Dublin toplantısında respublikamıza müəyyən tövsiyələr də edildi. Təşkilatın Hüquq Məsələləri və İnsan Hüquqları Komitəsinin Limasol (Kipr-V.2000) görüşündə də Azərbaycanda sərbəst toplaşma azadlığı, siyasi məhbuslar və s. ilə bağlı məsələlər qaldırıldı. AŞ PA-nın 2000-ci ilin iyunundakı sessiyasında da 126 nəfər parlamentarinin iştirakı ilə

keçirilən səsvermə (lehinə-120, əleyhinə-1, tərəfsiz-5 olmaqla) nəticəsində Azərbaycanın Şuranın tamhüquqlu üzvlüyünə müsbət rəy verildi.

AŞ Nazirlər Komitəsinin Nümayəndələr səviyyəsində keçirilən 719-cu görüşü (IX.2000) və Demokratik Sabitlik üzrə Məruzəçilər Qrupunun (GR-EDS) iclaslarındakı (IX.2000) müzakirələrdən, AR XİN-i V.Quliyevin Strasburqda Nazirlər Komitəsinin toplantısındakı (10.X.2000) çıxışından sonra Azərbaycanın Şuraya qəbulu məsələsi daha da qətiləşdi. Şuranın Nazirlər komitəsinin 107-ci sessiyasında (7-9.XI.2000) AR-in AŞ-yə üzvlüyə dəvət edilməsinə dair 14 saylı Qətnamə qəbul olundu. Bu qətnaməyə əsasən Azərbaycan Şuraya üzv olmağa və onun Nizamnaməsinə qoşulmağa dəvət edilir, onun AŞ PA-dakı nümayəndəliyinin sayı (6 nəfər) və habelə AR-in AŞ-yə müxtəlif bölgülü maliyyə ödəmələrinin həcmi müəyyənləşdirilirdi. Həmin sessiyada həmçinin "Ermənistan və Azərbaycan: Avropa Şurasının üzvlüyünə dəvət" adlı qərar da qəbul edildi. Sənəddə Azərbaycanla bağlı bəzi müddəalar da təsbit olundu: ölkəmizin demokratik yolla inkişafının ardıcıl olaraq izlənməsi; seçkiləri müşahidə sahəsində beynəlxalq missiya tərəfindən edilən ilkin qeyd və yekunlarda göstərilən saxtakarlıqların düzəldilməsi; təşkilata qəbulla əlaqədar məruzə edəcək Monitorinq qrupunun yaradılması; Venesiya Komissiyasının Azərbaycanın hakimiyyət orqanlarına bir sıra müvafiq məsələlərdə yardım göstərməyə dəvət edilməsi.

AŞ Nazirlər Komitəsinin Nümayəndələr səviyyəsindəki 730-cu görüşündə isə Azərbaycanla bağlı bunlar qərara alındı: AŞ PA-nın 2001-ci ilin yanvarında keçiriləcək sessiyasınadək Avropada Demokratik Sabitlik üzrə Məruzəçilər Qrupunun bütün iclaslarının gündəliyinə "Ermənistan və Azərbaycanın demokratik inkişafının müşahidə edilməsi" bəndinin (məsələsinin) salınması; "Monitorinq Qrupu"nun ("AQO qrupu"nun) İtaliyanın Daimi nümayəndəliyinin sədrliyi ilə — 13 dövlətin təmsilçilərindən ibarət tərkibdə—təşkil olunması. (GR-EDS-ə

sədrlik edən Almaniya da qatılmaqla).

Nəhayət, AŞ Nazirlər Komitəsinin iclasında (17.I.2001) AR-in Şuraya tamhüquqlu üzv qəbul edilməsi barədə qərar qəbul edildi. (Nazirlər Komitəsi AŞ-nin Nizamnaməsinə əsasən onun iki əsas orqanından — Məşvərətçi (Parlament) Assambleyası ilə yanaşı — biridir. O, Şuranın ali hökumətlərarası orqanıdır. Komitədə iştirak səlahiyyətləri AŞ-yə üzv dövlətlərin Xarici İşlər nazirlərinə məxsusdur. (Onların başqa şəxslə əvəzlənməsi halı da mümkündür). Şuraya üzv dövlətlərin hər biri 6 ay müddətinə, ingilis əlifbasındakı ardıcıllıqla, Komitəyə sədrlik edirlər. Bəzi üzv dövlətlərin (İngiltərə və s.) AŞ-nin əsas sütunu etmək istədikləri NK-nin bürosu, Katibliyi, habelə digər strukturları vardır, sessiyaları keçirilir. Nazirlər Komitəsi AŞ-nin məqsədlərinin həyata keçirilməsindən ötrü Nizamnamənin 15-ci maddəsinin "b" bəndinə uyğun olaraq, üzv dövlətlərin hökumətləri üçün məcburi səciyyə daşımayan tövsiyələr qəbul edir. Şuraya yeni üzvlərin (Azərbaycanla Ermənistanın) qəbulu ilə əlaqədar olaraq **Strasburqda keçirilən rəsmi mərasimdə (25.I.2001) AR prezident səviyyəsində təmsil olundu.**

Bununla da, AR-AŞ əlaqələrinin ikinci mərhələsi, yəni "xüsusi qonaq" statusundan üzvlüyə qəbul dönəmi başa çatdı. Azərbaycanın Şura ilə əməkdaşlığında yeni keyfiyyət halına malik olan **3-cü mərhələ** başladı. AŞ üzvü olaraq fəaliyyətə (birgə əməkdaşlığa) posedura-təşkilati işlər müstəvisində bir sıra tədbirlərlə rəvac verildi. Öncəliklə AŞ-nin 222 saylı Rəyi ilə Azərbaycan üçün müəyyənləşdirilən öhdəliklərin (ümumilikdə 29) həyata keçirilməsinin yolları və vasitələri nəzərdən keçirildi. Yeni üzv dövlətlərə şamil edilən monitorinq proseduru respublikamıza da tətbiq olundu. Tezliklə, AR-in qoşulduğu AŞ konvensiya və protokollarının sayı 50-yə yaxınlaşdı. Ən başlıcası da, Azərbaycan Şuraya üzvlüyün ilk şərtinə, yəni "İnsan hüquqları haqqında Avropa Konvensiyası"nın ratifikasiyasına əməl etdi (AŞ PA-nın 1031 (1994) saylı Qətnaməsinə görə də, Avropa Şurasına üzvlük həmin konvensiyaya qoşulma

ilə müşayiət olunmalıdır. Ratifikasiya proseduru normal halda yeni üzvün nizamnaməyə qoşulmasından və bu konvensiyanı imzalamasından sonrakı bir il müddətində başa çatdırılmalıdır).

Azərbaycanın Avropa Şurasının üzvlüyünə qəbulu ilə AR-in MM-i və AŞ PA arasındakı əməkdaşlıq da yeni müstəviyə qədəm qoydu. AR MM AŞ PA-da 12 deputatdan (6 əsas+6 əvəzedici) ibarət nümayəndə heyəti ilə təmsil olunur. Missiyaya 2001-ci ildən 2003-cü ilin oktyabrınadək İ.Əliyev rəhbərlik etmişdir. Ondan sonra isə heyətin başçısı S.Seyidovdur. Respublikamızın parlamentariləri AŞ PA-nın komitələrində (Siyasi İşlər; Hüquqi İşlər və İnsan Hüquqları və s.), habelə onun partiyalılıq üzrə bölünən siyasi qruplarında da təmsil olunurlar. Hazırda AR-in Şura yanındakı daimi nümayəndəsi A.Məmmədovdur.

AR-in AŞ PA-dakı nümayəndə heyəti Assambleyanın fəaliyyətində iştiraka tamhüquqlu üzv kimi ilk dəfə onun plenar sessiyasına (24-27.IV.2001) qatılmaqla başladı. AŞ PA Bürosunun iclasında (27.IX.2003) İ.Əlyev onun üzvü və Assambleyanın proseduraşına əsasən həm də AŞ PA Prezidentinin müavini seçildi. X.Hacıyev insan hüquqları üzrə **Avropa Məhkəməsinə üzv seçilən (2.IV.2003) ilk azərbaycanlı** oldu. İ.Əliyevin Azərbaycanın dövlət başçısı olaraq Strasburqa səfəri (IV.2004) və orada AŞ PA-nın fəxri üzvü diplomunu, medalını alması, AŞ üzvü olan dövlətlərin 3-cü sammitində (Varşava-V.2005) iştirakı da qarşılıqlı əlaqələrin genişlənməsi üçün faydalı oldu.

AR XİN-in (V.Quliyevin) AŞ Nazirlər Komitəsinin 108-ci sessiyasında (V.2001) iştirakı respublikamızın Şuranın ali orqanlarına inteqrasiyası baxımından əhəmiyyətli idi (Bu, NK-da tamhüquqlu üzv kimi ilk təmsil olunmağımızdır). Qarşılıqlı faydalı əməkdaşlıqda Azərbaycanın baş diplomatları V.Quliyev və E.Məmmədyarovun AŞ Nazirlər Komitəsinin sonrakı sessiyalarında iştirakı, respublikanın Təhsil nazirinin (M.Mərdanovun) Avropa Təhsil nazirləri Daimi Komitəsinin 21-ci sessiyasına (Afina-XI.2003), Mədəniyyət nazirinin (P.Bülbüloğlunun) Şuranın Mədəniyyət nazirlərinin kollokviumuna (Strasburq-II.2003), habelə qitənin Mədəniyyət nazirlərinin konfransına (Xorvatiya-X.2003) qatılmaları və digər çoxsaylı belə tədbirlərin mühüm rolu olmuşdur.

AR MM-in sədrlərindən M.Ələsgərovun Avropa parlamentləri başçılarının "Vətəndaş Avropası — parlamentlər və vətəndaşların iştirakı" konfransına qatılması (V.2004) və O.Əsədovun Strasburqa (Şuranın mənzil-qərargahına) rəsmi missiyası da Azərbaycan-Şura əməkdaşlığına müəyyən təsir göstərdi. O.Əsədovun səfərinin gedişindəki müzakirələrdə "Dağlıq Qarabağ problemi"nin həllinin Güney Qafqazın Avratlantik məkana inteqrasiyası üçün önəmi və AR-in AŞ PA, Venesiya Komissiyası, "AQO" qrupu, Regional və Yerli Hakimiyyətlər Konqresi ilə əməkdaşlığı məsələləri nəzərdən keçirildi. Avropa Şurasının –özünü "Azərbaycanın dostu" adlandıran— Baş katibi T.Devislə, AŞ PA-nın sədri R.Lindenlə, AŞ PA-nın Siyasi İşlər Komitəsinin sədri Ə.Atəşlə, habelə digər rəsmilərlə danışıqlarda AR-in Avropa strukturlarına inteqrasiyasının daha da sürətləndirilməsi, respublikanın Şura qarşısındakı öhdəliklərinin yerinə yetirilməsi, bu sahədəki problemlər və s. toxunuldu. Bu zaman öhdəliklərin bir qisminin bütövlükdə yerinə yetirilməsi qeyd edilməklə yanaşı onların bəzilərinin qismən gerçəkləşdirilməsi vurğulandı. Qismən həyata keçirilənlərlə bağlı sərbəst toplaşma azadlığı, siyasi məhbuslar, regional dillər və azlıqların dilləri haqqında Avropa Xartiyasının ratifikasiyası, alternativ xidmət haqqında qanunun qəbulu və digər məsələlər önə çəkildi.

Azərbaycanın Şuraya üzvlüyə qəbulundan sonra təşkilatın Nazirlər Komitəsi, AŞ PA və digərlərinin respublikamızla əlaqələri xeyli genişləndi. AŞ PA tərəfindən Azərbaycanla bağlı 1305 (IX.2002), 1358 (I.2004), 1398 (X.2004), 1456 (VI.2005), 1545 (IV.2007) və s. qətnamələr qəbul edildi. Onun Monitorinq (IV.2005) və Siyasi işlər (XII.2006) komitələrinin Bakıda

toplantıları keçirildi. AŞ rəsmilərindən — Baş katiblər V.Şvimmer (IV.2004) və T.Devis (IX.2005), AŞ PA prezidenti L.Puç (VII.2008), Şuranın İnsan Hüquqları üzrə Komissarı T.Hammerberq (V.2006) və digərlərinin Azərbaycana rəsmi səfərləri zamanı əlaqələrin vəziyyəti və perspektivləri müzakirə olunmuşdur (İnsan Hüquqları üzrə Komissar vəzifəsi 1999-cu ildə təsis olunmuşdur. İlk komissar ispan A.Gil-Robles seçilmişdir. Komissarın statusu AŞ NK-nin 104-cü sessiyasında qəbul edilən (7.V.1999) sənədlə, yəni 50 (99) saylı Qətnamə ilə təsdiqlənmişdir. O, Parlament Assambleyası tərəfindən —Nazirlər Komitəsinin təqdim etdiyi 3 nəfər namizədin sırasından — səs çoxluğu ilə seçilir. Səlahiyyət müddəti 6 ildir və təkrarən seçilə bilməz. Rolu preventiv səciyyə daşıyır. Mühakimə etmək səlahiyyətinə malik deyil).

Həm L.Puçun, həm də AŞ-nin Azərbaycanda 2005-ci ildə keçirilən parlament seçkilərini izləyən Müşahidə Missiyasının rəhbəri L.Platvoetin müəyyən irad və tövsiyələri olmuşdur. L.Platvoetin hesabatında AR-də seçkilərlə əlaqədar gedən pozitiv proseslərlə yanaşı bir sıra ciddi qüsurlardan da bəhs edilir. Müsbətyönlü dəyişikliklər sahəsində bunlar vurğulanmışdı: İ.Əliyevin seçkilərlə bağlı sərəncamları; seçkiöncəsi müəyyən səpkili irəliləyişlər; "Seçki məcəlləsi"nə bəzi faydalı düzəlişlər; səsvermənin ümumilikdə sakit keçməsi və s.

L.Platvoetin hesabatındakı qənaətlərə görə isə aşağıdakı hüquq pozuntularına yol verilmişdi: demokratik seçkilər keçirmək üçün mövcud imkanlardan istifadə olunmaması (Bu məqam AŞ PA-nın "Azərbaycanda demokratik təsisatların fəaliyyəti haqqında" 1456 saylı (2005) qətnaməsində də vurğulanmışdı); vətəndaşların sərbəst toplaşmaq azadlığının məhdudlaşdırılması; prezidentin "Seçki təcrübəsinin təkmilləşdirilməsi haqqında"kı 1-ci sərəncamına (11.V.2005) əməl olunmaması və bəzi rəsmi səviyyələrdə ona etinasızlıq; seçki sahəsində səhvlərin və çatışmazlıqların olduğunun etiraf edildiyi 2-ci sərəncamınsa gecikdiyindən səmərəli olmaması; seçki komissiyalarının

hakimiyyətin tam nəzarəti altında saxlanması; hərbiçilərin səsverməsinin tamamilə qeyri-şəffaf keçməsi; polisin mitinqçilərlə qəddarlıqla davranması; büdcədən maliyyələşən idarə, təşkilat və s. çalışanların hakimiyyətin namizədlərinə səs verməyə məcbur edilmələri; AzTV, Lider, ATV və digər televiziya kanallarının iqtidarın xeyrinə aşkar mövqe tutması; səslərin hesablanması və protokolların tərtibində kobud qanun pozuntularının baş verməsi; bütün bunların da nəticəsində seçkilərin AŞ ilə ATƏT-in öhdəliklərinə və beynəlxalq standartlara cavab verməməsi. AŞ-nin müxtəlif orqan və strukturlarının rəsmiləri Azərbaycanda 2008-ci ildə keçirilən prezident seçkiləri ilə bağlı da bəzi iradlarını bildirdilər. Ancaq seçkilərin nəticələri, bütövlükdə, AŞ tərəfindən rəsmən tanınıbdır.

AŞ təmsilçilərinin iştirakı ilə keçirilən bir sıra toplantılarda Azərbaycanda vətəndaş cəmiyyətinin qurulması ilə bağlı məsələlər də nəzərdən keçirilibdir. 2009-cu ilin dekabrında "XXI əsrdə demokratiya ilə bağlı problemlərin həlli" mövzusunda Bakıda təşkil olunan beynəlxalq konfrans bu baxımdan səciyyəvidir. AŞ Baş katibinin xüsusi nümayəndəsi V.Kotekin də iştirak etdiyi həmin toplantıda demokratiyaya və inkişafa nail olunması üçün hökumətlərlə QHT-lərin birgə fəaliyyətinin lazım gəldiyi vurğulanıbdır. Azərbaycanda ikinci ən böyük investor olan Norveçin ölkəmizdəki səfiri Y.Ramberq insan haqlarına riayət və hörmət olunması məsələlərini önə çəkərək təhsil sahəsində bir sıra layihələri dəstəklədiklərini bildiribdir

Hazırda AR-AŞ əməkdaşlığı müxtəlif sahələrdə davam etdirilir. Azərbaycanla Şuranın birgə fəaliyyətində yeni imkanlar yaranır. Bu sahədə əsas diqqətin qarşılıqlı əməkdaşlığa dair qazanılan təcrübənin sərf-nəzər edilməsinə və əlaqələrin genişləndirilməsinə yönəldilməsi lazım gəlir.

Azərbaycan Respublikasi və Avropa İttifaqı: münasibətlərin xarakteri və perspektivləri

Azərbaycanın beynəlxalq və regional təşkilatlara inteqrasiyası prosesində Avropa İttifaqı ilə əlaqələr mərkəzi yerlərdən birini tutur. Bu **təşkilatın başlanğıcı** əslində 1950-ci il mayın 9-dan ("Avropa günü"ndən)) götürülür. Həmin gün Fransanın Xarici İşlər naziri — "Avropanın birliyi ideyasının atası" sayılan R.Şumanın raportu (məruzəsi) ilə açıqlanmışdır. Raportun ətrafındakı müzakirələr Avropa Kömür və Polad Birliyinin (AKPB-nin) yaradılmasına dair Paris müqaviləsinin (18.IV.1951) bağlanması ilə nəticələndi. "Mesina görüşü"nün (VII.1955) qərarına əsasən isə, müəllifi Belçika XİN-i P.Spak olan, Roma müqaviləsi (25.III.1957) imzalandı. 248 maddədən ibarət olan bu müqavilədə qeyd edilirdi ki, əsas məqsəd "Avropa xalqlarının sıx ittifaqını" yaratmaqdır.

Həmin müqavilə ilə də qitənin 6 dövləti (Almaniya, Fransa, İtaliya, Benilüks ölkələri) Avropa İqtisadi Birliyini (AİB; ona "Ümumi bazar" və ya "Müştərək bazar" da deyirdilər) və Avropa Atom Enerjisi Birliyini (AAET-Avroatom) yaratdılar. 1967-ci ildə AKPB, AİB və AAET bir araya gələrək "Avropa birlikləri" adı altında birləşdilər. "Avropa tək sənədi"nə (1.VII.1987) əsasən "Avropa birlikləri" Avropa Birliyi (AB) adlandırılmışdır. 1992-ci il fevralın 7-də imzalanan və bir qədər sonra (1.XI.1993) qüvvəyə minən Maastrixt (Niderland) müqaviləsinə uyğun olaraq "Avropa Birliyi"nin Avropa İttifaqı (Aİ) adlandırılması qərara alınmışdır. Hazırda ona 27 dövlət daxildir. Mənzil-qərargahı Brüsseldədir.

Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əlaqələr yaratması və onunla əməkdaşlıq etməsi **ölkəmizin strateji maraqlarının təminatı zərurətindən** irəli gəlir. Bu aşağıdakılarla ifadə oluna bilər:

- AR-in milli təhlükəsizliyinə Avropa təhlükəsizlik sistemində möhkəm təminat;

- çoxtərəfli güclü potensiala malik olan Avropa İttifaqı ilə sıx əməkdaşlıq vasitəsilə Rusiya, İran və digər dövlətlərin təsir dairəsindən çıxmaq imkanı;
- Qərbə (Avratlantik məkana) inteqrasiya prosesinin intensivləşdirilməsi vasitəsi və s.

Aİ-də, öz növbəsində, Azərbaycanın "Avropa evi" quruculuğuna qoşulmasında və onunla əməkdaşlıqda maraqlıdır (Azərbaycanın müstəqilliyinin elanından sonrakı 2 ay ərzində *onu tanıyan 88 dövlətdən* 28-nin elə Avropanın payına düşməsi də bunu təsdiqləyən dəlillərdəndir). Qarşılıqlı faydalı işbirliyini labüd edən **amillər** isə belə formulə oluna bilər:

- respublikanın coğrafi şəraiti və ələlxüsus da, "Böyük ipək yolu" üzərində yerləşməsi;
- AR-in Avropa dövlətlərinin yanacaq-enerji ehtiyaclarının ödənilməsinin başlıca təminatçılarından birinə çevrilməsi (Qərbi Avropa hazırda dünyada çox neft işlədənlərin ikincisidir (ABŞ-dan sonra). Aİ ona lazım olan enerji ehtiyatlarının artıq yarısını idxal edir. 2020-ci ildə bu göstəricinin 75%-ə çatacağı gözlənilir. Bunu da nəzərə almaq lazımdır ki, Şimal dənizinin ehtiyatlarının 70-90%-i artıq tükənmişdir. Bütün bunlara görə də, Qərb (Aİ) yanacaq-enerji ehtiyatlarının stabil mənbəyi axtarışındadır);
- Azərbaycanın İttifaqın Şərqə doğru genişlənməsində maraqlı olması və s.

Tərəflərarası səmərəli əməkdaşlığın bir tarixi zərurət olması onlar arasında münasibətlər yaradılmasını şərtləndirdi. Azərbaycanın şimalında dövlət müstəqilliyi bərpa ediləndən bir müddət sonra AR ilə Aİ arasında diplomatik əlaqələr quruldu. Aİ Azərbaycanla Ermənistanı eyni gündə (31.XII.1991) tanıdı və eyni tarixdə də (10.VII.1992) onlarla diplomatik münasibətlər yaratdı. AR-Aİ münasibətlərini də şərti olaraq hələlik **iki mərhələyə** bölmək olar: **1-cisi,** ilkin əlaqələrin qurulmasından Azərbaycanın İttifaqın "Genişlənmiş Avropa: yeni (yaxın) qonşular" proqramına qoşulmasınadək. **2-cisi,** 2004-cü ilin iyu-

nundan, yəni AR-in adıçəkilən proqrama qəbulundan etibarən.

Birinci dönəmdəki (1992-2004-cü illərdəki) əməkdaşlığı və əlaqələri səciyyələndirən başlıca fəaliyyət sahələri əsasən, aşağıdakılardan ibarətdir:

a) qarşılıqlı münasibətlərin ilkin çağlarında iqtisadi əlaqələrin daha üstün xüsusi çəkiyə malik olması;

b) Aİ-nin AR-ə humanitar yardımlar etməsi;

c) Azərbaycanın tədricən İttifaqın proqram və layihələrinin həyata keçirilməsinə qoşulması və s.

AR ilə Aİ arasındakı əməkdaşlığın lap erkən çağlarında öncəliklə bir sıra təşkilati-hüquqi məsələlər həll olundu. İttifaqın rəsmilərinin Bakıya səfəri zamanı (X.1995) Avropa İttifaqı Komissiyası ilə AR arasında qarşılıqlı anlaşma Memorandumu imzalandı. (Avropa Komissiyası Aİ-nin icraedici orqanıdır.Bu orqan Aİ daxilində inteqrasiya proseslərini irəli aparan lokomotiv rolunu oynayır və "Müqavilələrin təşkilatçısı" funksiyasını yerinə yetirir. Onu şişmiş (20 mindən çox işçisi var) "Brüssel bürokratiyası" da adlandırırlar. Komissiyanın hazırkı komissarı M.Barossodur). 1995-ci ilin noyabrında Respublika Tərəfdaşlıq Fondunun yaradılmasına dair Memorandum ərsəyə gəldi.

Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında bağlanan "Tərəfdaşlıq və əməkdaşlıq haqqında" sazişlə (22.IV.1996) qarşılıqlı əlaqələrin konkret yönləri müəyyənləşdirildi, bəzi ilkin nəticələr qeyd edildi: AR MM-i ilə Avropa Parlamenti arasındakı əməkdaşlığın perspektivləri; Parlament Əməkdaşlığı Komitəsinin yaradılması imkanları; respublika qanunlarının Avropa standartlarına uyğunlaşdırılması üçün gərəkən hüquqi və maddi-texniki özülün qoyulması və s. 1999-cu il iyunun 1-dən etibarən qüvvəyə minən bu sazişin 2006-cı ilə qədər davam etməsi nəzərdə tutulmuşdu. Çoxtərəfli əməkdaşlıq 2006-cı ilin əvvəlindən isə Aİ-nin "Yeni qonşular" proqramı çərçivəsində həyata keçirilir.

İlkin qarşılıqlı iqtisadi əməkdaşlıqda Aİ-nin Azərbaycanın təbii (əsasən yanacaq-enerji) ehtiyatlarını öyrənməsi, habelə

respublikamızın da özünün müvafiq imkanlarını (potensialını) sərf-nəzər etməsi və digər bu kimi məsələlər mühüm yer tutmuşdu. Qısa müddətdə iqtisadi-ticarət əlaqələrinin inkişafında müəyyən addımlar atıldı. AR ilə Aİ-yə üzv dövlətlər arasındakı əmtəə dövriyyəsinin həcmi az vaxt ərzində 2,5 mlrd. dollara çatdı. 1992-2003-cü illərdə Aİ tərəfindən ölkəmizə 90 mln. avro yardım göstərildi.

Əməkdaşlığın ilkin çağlarında qarşılıqlı əlaqələrdəki üstün *istiqaməti* isə AR-in Aİ-nin proqram və layihələrinə qoşulmağa hazırlaşması, onlara qatılması təşkil edirdi. Bu istiqamətdəki birgə fəaliyyətdə də başlıca yeri TACİC, TRACECA, TEMPUS kimi proqramlarda iştirak tuturdu. Aİ-nin TACİC (MDB üzvü olan dövlətlərə texniki yardım) proqramı çərçivəsində AR ilə birgə fəaliyyəti də faydalı sayıla bilər. Belə ki, 1993-cü ilin sonlarında Bakıda proqramın nümayəndəliyinin açılması və digər tədbirlər ölkə iqtisadiyyatının Avropa nümunəsində yenidən qurulması, elmi-texniki fəaliyyətin Qərb standartlarına yaxınlaşdırılması və s. işlər üçün önəmli özül oldu. *Proqramın reallaşdırılması* ilə bağlı Aİ tərəfindən keçirilən (VII.1997) Paris seminarı və Brüssel müşavirəsində Azərbaycanda energetika sənayesi, aqrar bölmə və başqa sahələrin inkişafına yardım məsələləri də müzakirə edildi.

Avropa İttifaqının regional inkişafa yardım siyasətinə uyğun olaraq TEMPUS, SOKRATES, SEDEFOP kimi proqramlar çərçivəsində təhsilin maliyyələşdirilməsi prosesinə Azərbaycan da cəlb olundu. TACİC və TEMPUS proqramları Bakı Dövlət Universitetinin Fransanın Nitsa və İtaliyanın Genuya universitetləri ilə əlaqələr qurmasına şərait yaratdı. Bu kontekstdə BDU-ya müəyyən texniki yardım göstərildi, adları çəkilən universitetlərlə tələbə-müəllim heyətləri arasında təcrübə, habelə elmi ədəbiyyat mübadiləsi və s. həyata keçirildi.

İttifaqın daha çox beynəlxalq əks-səda doğuran, diskussiyalara səbəb olan və reallaşdırılmasına Azərbaycanın da yaxından qoşulduğu başlıca proqram TRACECA-dır. Onun anla-

yışı, mahiyyəti və perspektivlərinə dair müxtəlif mövqelər, baxışlar mövcuddur. Bu məqamın və proqramın doğurduğu böyük elmi-siyasi marağı nəzərə alaraq onun barəsində bir qədər ətraflı məlumat vermək lazım gəlir. YUNESKO hələ 1987-ci ildə BMT-nin mədəni inkişaf üzrə dekadası çərçivəsində "İpək Yolunun-dialoq yolunun kompleks öyrənilməsi" adlı beynəlxalq proqram qəbul etdi. Proqram o vaxt başqa məqsədlər güdmüşdü. Həmin proqrama əsasən bir sıra elmi ekspedisiya və konfranslar keçirildi, Şərqin bəzi ölkələrində xüsusi elmi institutlar yaradıldı.

"Soyuq müharibə"nin sona yetməkdə olduğu bir şəraitdə Şərq-Qərb münasibətlərinin köklü olaraq nəzərdən keçirilməsi zərurəti yarandıqda gələcək dünya düzəninin gövdəsinin qurulmasına xidmət edəcək yeni geosiyasi konstruksiya axtarışı gündəmə gəldi. Gürcü politoloqlarının (A.Qeqeşidze və b.) açıqladıqları məlumata görə, E.**Şevardnadze** hələ SSRİ XİN-i olarkən Vladivostokda keçirilən (IX.1990) "Asiya-Sakit okean regionu: dialoq, təhlükəsizlik, əməkdaşlıq" mövzusundakı beynəlxalq konfransda **Transavrasiya magistralının bərpası ideyasını** səsləndirmişdi. Bir qədər sonra isə o, Gürcüstanın dövlət başçısı olaraq, Aİ-nin mənzil-qərargahında bu ideyanı irəli sürmüş və məsələ ilk dəfə olaraq orada müzakirə obyektinə çevrilmişdi (Gürcü lideri, həmçinin Şərq və Qərb arasındakı münasibətlərin modernləşdirilməsi ideyasının təşəbbüskarı hesab olunur). Onun "Böyük İpək Yolu" əsərində Avrasiya magistralının yeni təsəvvürü verilmişdir. Müəllifə görə, "Yeni İpək Yolu" boyu yerləşən dövlətlər, "mədəniyyətlərin toqquşmaları" kimi çağdaş nəzəriyyələrin əksinə olaraq, Avrasiyanın yeni hüquqi məkanını, iqtisadi diplomatiyasını, arxitekturasını yaratmalıdırlar. Onun fikrincə, "Yeni İpək Yolu" məkanı indi nəinki "pozitiv dinc yanaşıyaşama", habelə "müsbət tərəfdaşlıq əməkdaşlığı" üçün lazım olan bütün şəraitə malikdir .

Cənubi Qafqazla Mərkəzi Asiyanın 8 dövlətinin ticarət və nəqliyyat nazirlərinin, Avropa Birlikləri Komissiyası tərəfindən

Brüsseldə keçirilən (V.1993), konfransında xüsusi Bəyannamə qəbul edildi. Həmin sənəddə Avrasiya nəqliyyat dəhlizinin yaradılması və bu məqsədlə də texniki yardım miqyasında xüsusi regional proqramın (TRACECA-nın) həyata keçirilməsi razılaşdırıldı. Beləliklə, 1993-cü ildən etibarən TACİC proqramları çərçivəsində TRACECA regional layihəsi formalaşdırıldı. TRACECA proqramı əvvəllər Güney Qafqaz və Orta Asiya ölkələri üçün nəzərdə tutulmuşdu və Avropa ilə Asiya arasında nəqliyyat dəhlizi (körpüsü) rolunu oynamalı idi. (Boru kəməri infrastrukturunun inkişafı məqsədilə TACİC çərçivəsində habelə digər məhəlli proqram, yəni İNOGATE (İnterstate Oil and Gas Transport to Europe) də planlaşdırılmışdır. Amma onun çərçivəsindəki əməkdaşlıq TRACECA üzrə əməkdaşlıq miqyasında deyildir).

TRACECA proqramı çərçivəsindəki əməkdaşlığın genişləndirilməsində Böyük (tarixi) İpək Yolunun bərpasına dair beynəlxalq Bakı konfransının (IX.1998) da mühüm əhəmiyyəti olmuşdur. H.Əliyev və E.Şevardnadzenin təşəbbüsü ilə keçirilən bu toplantıya 32 ölkənin və 13 beynəlxalq təşkilatın təmsilçiləri qatılmışdı. Müzakirələr Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafı üzrə Əsas çoxtərəfli sazişin imzalanması ilə nəticələndi.Avrasiya nəqliyyat-kommunikasiya dəhlizinin yaradılmasının hüquqi bazası sayılan bu sənədin əsas məqsədi TRACECA ölkələrinin nəqliyyat siyasətinin əlaqələndirilməsi təşkil edir; o, nəqliyyatın bütün növlərini (hava çıxılmaqla) əhatə edir. Bu layihənin həyata keçirilməsinə dair hökumətlərarası komissiyanın katibliyinin Bakıda mənzil-qərargahının açılması Azərbaycanın proqram çərçivəsində əməkdaşlıqda fəal iştirakına əlavə imkanlar yaratdı. "Qırmızı körpü"nün bərpası, habelə Azərbaycan-Gürcüstan sərhədində yeni "TRACECA körpüsü"nün inşasına dair layihələr reallaşdırıldı. Respublikamız azad tranzit rejiminə dair Sərəxs müqaviləsinin (Türkmənistan – 13.V.1996) iştirakçısı olaraq da Transavrasiya nəqliyyat dəhlizindən faydalanmağa çalışır.

TRACECA proqramının coğrafiyasının genişlənməsi ona dair yeni konsepsiya, mövqe və layihələrin də ərsəyə gəlməsini şərtləndirir. Buna görə də Yaponiya hökuməti İpək Yolu ölkələri ilə münasibətlərin konsepsiyasını ("Yeni Avrasiya diplomatiyası"nı) hazırladı. ABŞ konqresi "İpək Yolu strategiyası-97" qanun layihəsini qəbul etdi. Konqressmen S.Braunbek tərəfindən təqdim olunan bu sənəd, yəni **"İpək Yolu haqqında Akt"** (S-1344 layihəsi) və Yaponiyanın konsepsiyası "Yeni İpək Yolu"nun gerçəkləşdirilməsini və müvafiq sərmayə ayrılmalarını nəzərdə tutur.1998-ci ildə Helsinkidə keçirilən 3-cü Panavropa nəqliyyat konfransının TRACECA-nı Avropa nəqliyyat sisteminin üstün istiqamətlərindən biri kimi qəbul etməsi də proqramın perspektivləri baxımından diqqətəlayiqdir. TRACECA çərçivəsində yalnız XX əsrin sonlarına yaxın 63 mln.ekyü həcmində 35 layihə reallaşdırılmışdı. Avropa Yenidənqurma və İnkişaf bankı, Ümumdünya bankı tərəfindən müvafiq tikinti işləri üçün 250 mln. dollar vəsait ayrılmışdı.

Minilliklərin qovşağında Aİ Cənubi Qafqaz dövlətləri ilə əlaqələrə və regionun problemlərinə diqqəti xeyli artırdı. Bu, bir tərəfdən, İttifaqın genişlənmə strategiyasından, digər yandan da, onun regionla bağlı iqtisadi maraqlarından irəli gəlirdi. Belə bir şəraitdə İttifaqın Güney Qafqaz respublikaları ilə əlaqədar xüsusi Bəyannaməsi açıqlandı (VI.1999). Avropa İttifaqı 2003-cü ilin dekabrında Güney Qafqaz ölkələrini Birliyin "yeni qonşuları" elan etdi. Tezliklə (14.VI.2004) onlar Aİ-nin "Genişlənmiş Avropa: yeni qonşular" proqramına qəbul olundular. Bununla da **AR-Aİ münasibətlərində yeni (2-ci) mərhələ** başladı.

Hələ 2004-cü ilin martında Bratislavada keçirilən "Genişlənmiş Avropaya doğru: yeni gündəm" beynəlxalq konfransda Aİ-nin Cənubi Qafqaz dövlətləri, o cümlədən də AR ilə əlaqələrinin "modernləşdirilməsi" məsələləri çağdaş reallıqlar və yeni tarixi şərait axarında müzakirə olundu. İttifaqın genişlənmə üzrə komissarı G.Verhaugenin, habelə İ.Əliyevin də qatıldığı

(Ermənistanınsa dəvət olunmadığı) bu toplantıda "yeni qonşular"ın Birliyə inteqrasiyasının perspektivləri nəzərdən keçirildi. Almaniyanın F.Nauman fondunun **"Beynəlxalq siyasi dialoq"** çərçivəsində Brüsseldə keçirilən seminarında (VI.2004), onun bir sıra "Dəyirmi masa" və görüşlərində İttifaqın "Yeni qonşular siyasəti"nin Cənubi Qafqaz istiqamətinə aid problemlər ətrafında fikir mübadiləsi aparıldı. Avropa Komissiyasının təmsilçisi A.Herdina və prof.V.Kopputersin "Avropanın Azərbaycan, Ermənistan və Gürcüstanla qonşuluq siyasəti" mövzusundakı məruzəsində region dövlətlərinin İttifaqa daha da yaxınlaşdırılmaları vurğulandı.

Bakıda təşkil edilən (VI.2004) **"Daha geniş Avropa: problemlər və imkanlar"** beynəlxalq konfransında da İttifaqın Cənubi Qafqazla (Azərbaycanla) əməkdaşlığının gələcəyi araşdırıldı. Avropadan (P.Şanyo, De Luz, Makkaf və digər), Azərbaycandan isə (N.İmanov və b.) xeyli ekspert-mütəxəssisin iştirak etdiyi toplantıda "regional kommunikasiya problemi"nin tənzimlənməsi prosesinin çətinlikləri və perspektivləri məsələləri ətrafında mövqelər açıqlandı. Aİ-nin Cənubi Qafqaz üzrə rəsmi təmsilçisi H.Talvityenin regiona (III.2004), Avropa Komissiyasının Azərbaycan üzrə Xüsusi məruzəçisi De Vrisin Bakıya (V.2004) səfərləri və o dönəmdə İttifaqı ölkəmizdə təmsil edən Almaniya səfirliyinin müvafiq tədbirləri də qarşılıqlı əməkdaşlığın səmərəliliyinin artırılması cəhətdən faydalı oldu. Müxtəlif layihələrin gerçəkləşdirilməsinə göstərilən yardımlar çərçivəsində tezliklə Azərbaycana 400 mln. avro maliyyə vəsaiti ayrıldı. 2006-cı ilin noyabrında AR ilə Aİ arasında "Yaxın qonşuluq siyasəti"nə dair "Fəaliyyət Planı"nın təsdiqlənməsi qarşılıqlı münasibətlərdəki problemlərin nizamlanması yolları, əlaqələrin başlıca yeni yönlərinin, vasitə və formalarının müəyyənləşdirilməsi baxımından çox diqqətçəkicidir.

Aİ-nin **"Yaxın Qonşuluq Proqramı"**nın elan olunmasından ötən beş ildə real nəticələr verməməsi, Rusiyanın regionda fəallaşması və s. İttifaqın Güney Qafqaza dair yeni təşəbbüslə

çıxış etməsini şərtləndirdi. Polşa Cənubi Qafqaz dövlətlərini də əhatə etməli olan "Şərq Tərəfdaşlığı" təşəbbüsünü gündəmə gətirdi. Məsələ **Aİ-nin Praqa sammit**inin (V.2009) müzakirəsinə çıxarıldı. **"Şərq Tərəfdaşlığı" təşəbbüsünə** Güney Qafqaz ölkələri və Ukrayna, Belarus, Moldova daxil ediliblər. Təşəbbüs həmin dövlətlərdə çoxşaxəli islahatların aparılmasının əvəzində onların Aİ-yə inteqrasiyasını və Birlikdən maliyyə yardımları almalarını nəzərdə tutur. Çexiyanın o vaxtkı Baş naziri M.Topolanek sammitin yekunları və Bəyannaməsi ilə bağlı açıqlamasında təşəbbüsə daxil edilən ölkələrə ("Avropa İttifaqının Şərq tərəfdaşları"na) keçirəcəkləri islahatların qarşılığında 600 mln. avro həcmində yardımlar ediləcəyini bildirmişdi.

Praqa sammiti və Aİ-nin "Şərq Tərəfdaşlığı" təşəbbüsü ilə bağlı da **fərqli yanaşmalar** vardır:

a) bəzi təhlilçi-ekspertlərə görə, sammit sönük keçmiş və məyusluq yaratmışdır. Bunun da İttifaqın aparıcı dövlətlərinin (İngiltərə, Fransa, İtaliya, Avstriya və s.) liderlərinin Zirvə görüşünə qatılmamalarından irəli gəldiyi bildirilir. Sammitdə iştirakdan yayınmanı isə həmin dövlətlərin "Şərq Tərəfdaşlığı"na, konkret olaraq da ona daxil edilənlərin həqiqətən islahatlar aparacaqlarına şübhə ilə yanaşmalarıyla əlaqələndirirlər;

b) Bəyannamənin qəbulu ilə bağlı hətta sammitin işinin pozulmaq təhlükəsiylə üzləşdiyi də məlumdur. Belə ki, Azərbaycanla Gürcüstanın həmin sənədə "Şərq Tərəfdaşlığı" dövlətlərinin bir-birlərinin ərazi bütövlüklərinə hörmət etməli olduqlarına dair bəndin salınması təklifi Ermənistanın kəskin etirazı ilə qarşılaşıbdır. Nəticədə də təklif geri götürülübdür;

c) "Şərq Tərəfdaşlığı" və Praqa sammiti Rusiyanı xeyli rahatsız etmişdir. Kremlin mövqeyi bu Zirvə görüşündən az sonra (V.2009) Rusiya-Avropa İttifaqı əməkdaşlığı çərçivəsində **Xabarovskda keçirilən təhlükəsizlik, ticarət və enerji sammit**ində açıqlanmışdır. Aİ-nin 6 postsovet respublikasına edilən daha sıx əməkdaşlıq təklifi D.Medvedyevin bu toplantıdakı çıxışında Avropada "yeni parçalayıcı sərhədlər cızmaq"

kimi səciyyələndirilmişdir. O, "Şərq Tərəfdaşlığı" planının antiRusiya meylli respublikaları Avropa dövlətləri ilə birləşdirməsini istəmədiyini də gizlətməmişdir. Bütövlükdə isə, bu tərəfdaşlığın Rusiyaya qarşı çevrilməsinə imkan verilməyəcəyi ifadə olunmuşdur (Sözgəlişi, 6 "Şərq Tərəfdaşı"ndan 5-i MDB-nin üzvüdür. Onlardan 2-nin, yəni Belarus və Maldova prezidentlərinin Praqa sammitində iştirak etməmələri Rusiyanın mövqeyinə qarşı çıxmamaq kimi də başa düşülə bilər. Çünki Kremlin "6-lara" MDB ilə "Şərq Tərəfdaşlığı" arasında seçim etmələri barədə xəbərdarlıq olunduğu da məlumdur);

ç) Şərqi Avropa dövlətlərinin (Polşa və digərlərinin) səylərinə baxmayaraq Aİ ilə tərəfdaşlığa dəvət edilən 6 ölkə arasında sadələşdirilmiş viza rejiminin tətbiqinə razılıq verilməyibdir. Bu məsələdə Almaniyanın əksmövqeyi-onun gələcəyin işi olması "dəlil"i əsas tutulmuşdur. Yalnız həmin dövlətlərdən olan diplomatların və biznesmenlərin viza almaları üçün sadə şərtlərin müəyyənləşdirilməsi razılaşdırılmışdır;

d) Avropa Komissiyasının "Avropa Qonşuluq Siyasəti"nin *fəaliyyət planının tətbiqi* üzrə əlaqələndiricisi K.Unqur Aİ ilə tərəfdaş ölkələr arasındakı münasibətlərin gələcəyinə nikbinlik ifadə etmişdir. Eyni zamanda onun fikrincə, İttifaq üçün tərəfdaş ölkələrdə sabitlik çox vacibdir: "Bu isə demokratiya, insan hüquqlarına hörmət, söz azadlığı, qanunun aliliyi, müstəqil məhkəmə sistemi olmadan mümkün deyil";

e) belə bir qənaəti də nəzərə almamaq mümkün deyil: Aİ-nin bu təşəbbüsü də hələ ki, Praqa sammitini keçirməkdən və bəyanatlar qəbul etməkdən irəli getməyibdir.

Bütövlükdə, "Şərq Tərəfdaşlığı" planı Güney Qafqazda sabitliyi möhkəmləndirmək məqsədini güdən region dövlətlərinə Aİ üzvlüyünü vəd etmir (Yeri gəlmişkən, Gürcüstan istisna edilməklə, "6-lar"ın digərlərinin, o cümlədən Azərbaycanın Aİ-yə üzvlüyə maraq göstərmədikləri qənaətində olanlar da vardır. Fransanın ölkəmizdəki səfiri Q.Keller AR Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzində keçirilən (X.2009)

debatda bu kimi yanaşmaları ifadə edərək demişdir: "Azərbaycan Avropa İttifaqına doğru can atmır və gələcəkdə də bunu etməyə hazırlaşmır"). Ancaq İttifaqın Cənubi Qafqaz dövlətlərini assosiativ üzv kimi öz tərkibinə almaq kimi israrlı niyyətistəyi də şübhə doğurmur. Bir çox politoloji təhlillərdə, diplomat dəyərləndirmələrində bunlar xüsusi olaraq vurğulanır: Qərb—ABŞ və Avropanın azad dünyası—Güney Qafqazın, Mərkəzi Asiyanın, hətta Rusiyanın, ümumiyyətlə, bütün postsovet respublikalarının da əsl vətəndaş cəmiyyətləri yaradılması yoluna düşəcəkləri qənaətindədir; qərblilər habelə bunun tədrici proseslə gerçəkləşməsinə üstünlük verirlər; postsovet dövlətlərinin Avropa strukturlarına üzvlüyə qəbul (AŞ və NATO-ya) və çeşidli proqram-layihələrə (Aİ və başqalarınınkına) cəlb olunmaları da bu məqsədlərə xidmət edir.

"Şərq Tərəfdaşlığı"na aid bir sıra tədbirlər də keçirilir. Onlardan biri F.Nauman fondu tərəfindən 2009-cu il sentyabrın sonu-oktyabrın əvvəlində Brüsseldə "Yeni Şərq Tərəfdaşlığı: Aİ və onun şərq qonşuları arasında yeni səmərəli kooperasiya strategiyası" mövzusunda təşkil olunan seminardır. İttifaqın koordinatorlarından K.Unqurun məlumatına görə, Aİ 2009-cu ilin oktyabr-noyabr aylarında Brüsseldə "Şərq Tərəfdaşları"yla görüşlər keçirməyi də planlaşdırır. Həmin görüşlərdə "Şərq Qonşuluğu siyasəti" çərçivəsində 2010-2011-ci illər üçün əməkdaşlıq proqramının işlənib hazırlanması da nəzərdə tutulmuşdur.

Tərəfdaş ölkələrdəki proseslərdə iştirakını dərinləşdirməyi və yüksək səviyyəli səfər-görüş-müzakirələri çoxaltmağı planlaşdıran Aİ bu məqsədlə də **İttifaqla partnyorlar arasındakı ikitərəfli münasibətlərin platformasını** da müəyyənləşdirmişdir:

1. Söz azadlığı, korrupsiyaya qarşı mübarizə və kadr islahatları.

2. Sosial inkişaf, səhiyyə, libëral bazar, azad ticarət, ekologiya və s. əhatə edən iqtisadi inteqrasiya.

3. İxracatın (nəqlin) və infrastrukturun daxil edildiyi enerji təhlükəsizliyi.

4. Tələbə mübadiləsi, QHT-lərin fəaliyyəti, mədəni əlaqələr və digər sahələrdə şəxslərarası ünsiyyət.

Platforma ilə bağlı açıqlama verən K.Unqur "Şərq Tərəfdaşlığı" təşəbbüsü-siyasətini möhtəşəm, ancaq çox şeyin (işin) partnyorlardan asılı olduğu bir proqram kimi qiymətləndirmişdir. Onun fikrincə, tərəfdaş ölkə "kağız üzərində deyil, real olaraq dövlət sisteminin demokratikləşdirilməsi, bazar iqtisadiyyatının və sabit inkişafın təmin edilməsi üzrə işə cəlb edilməlidir".

Son vaxtlar **Aİ-nin Güney Qafqaz ölkələri ilə bağlı yeni strategiya** üzərində işləməsinə dair məlumatlar yayılmaqdadır. Bu hal İttifaqın həmin regionu da əhatə edən "Avropa Qonşuluq siyasəti" və "Şərq Tərəfdaşlığı" proqram-layihələri ilə kifayətlənməməsi, konkret olaraqsa aşağıdakılarla əsaslandırılır:

- Rumıniya ilə Bolqarıstanın Aİ-yə qəbulundan sonra Qara dəniz regionunun önəminin xeyli artması;
- Azərbaycanla Gürcüstandan karbohidrogen ehtiyatlarının təchizatçı-tranzit ölkələri kimi istifadə olunması;
- Güney Qafqazdakı siyasi proseslərdə fəal iştirak edilməsi və s.

Yeni strategiya İttifaq üzvü olan dövlətlərin Xarici İşlər nazirlərinin **Brüssel toplantısında** (16.IX.2009) nəzərdən keçirilmişdir. Aİ-nin, İsveç tərəfindən təklif edilən, yeni proqramı bunları nəzərdə tutur: İttifaqa assosiativ üzvlüyü, yəni region ölkələri ilə müddətsiz əlaqələrə dair razılaşmanı; Aİ ilə münasibətlərdə həmin dövlətlərə yeni imkanlar, xüsusilə də azad ticarət və asan səyahət şəraitinin yaradılması və s. Aİ-yə sədrlik edən İsveç, Güney Qafqaza xüsusi diqqət yetirilməsini vacib sayırdı. Bu, bir tərəfdən, İttifaqa gələcəkdə sədrlik edəcək İspaniya və Belçikanın digər prioritetlərə önəm vermələri, digər yandan da, Rusiyanın regionda möhkəmlənmək səylərinin əks-hücumla əngəllənməsi siyasəti ilə əlaqəlidir. İsveçin Xarici İşlər naziri K.Bildtin fikrincə, Cənubi Qafqaz ölkələri suveren dövlətlər olduqlarından: öz gələcəklərini seçmək hüququna

malikdirlər; Aİ ilə daha yaxın əlaqələr yaratmaq istədiklərini bildiriblər; heç kim onların hüquqlarını məhdudlaşdıra-Avropaya inteqrasiya meyllərinin qarşısını ala bilməz.

Brüssel rəsmiləri region dövlətlərində demokratiyanın inkişafı, qanunun aliliyinin təmin edilməsi, Avropa standartlarına uyğun idarəetmənin yaradılması və s. sahələrdə işlərin getdiyini ümumi şəkildə dəyərləndirərək onlar arasında fərq qoymamağa çalışırlar. Aİ-nin rəsmi mövqeyi belədir: "Əməkdaşlıq arzulayan hər bir ölkə buna imkan əldə edəcək. Onların heç birinə üstünlük verilməyəcək və proses də hər bir ölkənin nəticələrindən asılı olacaqdır". Belə bir yanaşma şəraitində Gürcüstan qonşuları ilə (Azərbaycan və Ermənistanla) deyil, Ukrayna ilə eyni pillədə nəzərdə tutulmasını istədiyini gizlətmir. Bunu isə onların NATO və Aİ-yə qoşulmalarının qeyri-müəyyənliyi və Rusiya ilə sıx əlaqələrə üstünlük vermələri ilə izah edirlər.

Ancaq Qərbdəki bəzi təhlillərə görə, Gürcüstan prezidenti Rusiya ilə ötənilki müharibə və müxalifətlə zorakı davranışları üzündən Avropa liderləri yanında nüfuzunu xeyli itirib:"O indi iddialar irəli sürmək deyil, Aİ dövlətlərinin paytaxtlarına səfər etmək üçün dəvətnamə ala bilmək haqqındadır". Bu baxımdan da bir sıra təhlilçilər yeni strategiya ilə bağlı yaxın vaxtlardakı müzakirələrdə başlıca çətinliyin rəsmi Tiflisin "imtiyaz iddiası"na görə yox, Aİ-nin daxilində məsələyə bədgüman yanaşma üzündən ola biləcəyi qənaətindədirlər. Avropa Komissiyası nazirlərinin görüşündə aparılacaq müzakirələr ərəfəsində İttifaqın Güney Qafqazla münasibətlərinə dair məlum mövqeyi bir daha vurğulanmışdır: Aİ ilə yaxın əlaqələri onlar özləri qazanmalıdırlar; bunun üçün də siyasi hazırlıq nümayiş etdirilməlidir; onlara qazanmadıqları imtiyazları vermək "Şərq Tərəfdaşlığı" proqramına daxil olan dövlətlərin əldə etdikləri uğurları da dəyərdən sala bilər.

Bunu da qeyd etməyə lüzum var ki, 2009-cu ilin sonlarına doğru Aİ (AP)-AR münasibətlərində müəyyən gərginlik anı da yaşandı. Belə hal Avropa Parlamentinin plenar sessiyasında

(17.XII.2009) "Azərbaycanda ifadə azadlığı haqqında" qətnamə qəbul etməsiylə əlaqədar olaraq baş verdi. Qətnamədə ölkəmizdə söz və ifadə azadlığının vəziyyəti kəskin tənqid edilibdir. Eyni zamanda respublika hökuməti qarşısında bir sıra tələblər qoyulubdur. AP-nin İnsan Haqları üzrə alt komitəsinin sədri xanım H.Hoytalanın "BBC"-yə verdiyi açıqlamadan sənədin parlamentdə təmsil olunan bütün qüvvələr tərəfindən dəstəkləndiyi də bəllidir.

Gənc bloggerlərin həbsinin xüsusilə vurğulandığı qətnamənin həmmüəlliflərindən olan alman deputat B.Rosselt AR-in "Avropa Şurasının üzvü kimi insan haqlarına hörmət etməyə məhkum olduğunu" bəyan edibdir. Alt komitə sədri isə " hansısa düşmən qüvvə dəlilini Azərbaycan hökuməti də, Çin də, Rusiya da işlədir, bu üsul avtoritar rejimlərin çox xoşladığı müdafiə taktikasıdır" fikrini söyləmişdir. Qətnamənin əleyhinə çıxan yeganə parlamentari, italiyalı F.Provera sənədin əksnəticə verəcəyinə, yəni Azərbaycanın Aİ ilə münasibətlərindəki mövqeyini sərtləşdirə biləcəyinə diqqət yetirmişdir. B.Rosseltsə vaxtılə " SSRİ-ni tənqid edəndə də bunun əksnəticəli olacağını" söyləyənlərin ehtimallarının özünü doğrultmadığını xatırlarmışdır.

Qətnaməyə AR Milli Məclisinin xüsusi bəyanatı ilə etiraz edilmişdir. AR parlamentindəki müzakirələrdə qətnamənin erməni lobbisinin təsiri ilə ərsəyə gəldiyi vurğulanmışdır. Həmçinin sənədin birtərəfli və qərəzli səciyyə daşıdığı qeyd olunubdur. Onu Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin həllinə dair mövqeyini sərtləşdirməsinə qarşı növbəti təzyiqlərdən biri kimi də dəyərləndiriblər.

Aİ-nin Azərbaycanla bağlı mövqeyinə dair məqamlar özünü İttifaqın Türkiyə ilə münasibətlərində də təzahür elətdirir. Belə ki, son vaxtlarda **Avropa İttifaqı-Türkiyə münasibətlərində "Azərbaycan amili"** deyilən bir məsələ də müxtəlif yönlərdən gündəmə gətirilmişdir.Türkiyənin Aİ ilə münasibətlərində AR ilə bağlı məqamların mövcudluğunun inkarı müm-

künsüzdür. İttifaqın Türkiyənin ona qatılmasını əngəlləyən bəhanələri sırasına hazırda daha biri, yəni "Azərbaycan faktoru" da daxil edilmişdir. Bu da Türkiyənin Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı tutduğu ədalətli və prinsipial mövqe ilə izah edilir.

Məlumdur ki,"erməni soyqırımı" və Türkiyəyə ərazi iddialarına görə rəsmi Ankara Ermənistan dövlətini tanımamaqda davam edir və Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarının qeyd-şərtsiz azad olunması mövqeyində dayanır. Türkiyənin Aİ-yə qəbulu məsələsində "ikili standart"dan çıxış edən İttifaq rəsmi Ankaranın Ermənistan-Azərbaycan münaqişəsindəki obyektiv mövqeyini də onun üzvlüyünə maneə olan bir problemə çevirmişdir. Aİ-nin ayrı-ayrı strukturları, bəzi ekspertləri Türkiyə ilə Azərbaycanı birləşərək Ermənistanı iqtisadi təcrid olunma vəziyyətinə salmaqda, birincini onunla sərhədləri ticarət və s. üçün açmamaqda qınayırlar.

Qərbin bir sıra tanınmış elmi mərkəzlərinin mütəxəssislərinin fikrincə, **Aİ-nin Şərqə doğru genişlənməsi planı və onun "Yeni (yaxın) qonşular" siyasəti** Ermənistanın Rusiyanın təsirindən çıxaraq (habelə İrandan aralanaraq) qəti şəkildə Avratlantik məkana inteqrasiyasını tələb edir. Bu isə yalnız Türkiyə ilə Azərbaycanın Ermənistanla yaxınlaşması şəraitində mümkün ola bilər. Aİ-nin belə bir yanaşmasına dair mülahizələr Avropa Parlamentinin (AP-nin) iki mühüm sənədində, yəni **"Ostlander layihəsi" və "Qarton məruzəsi"**ndə ifadə olunmuşdur.(AP 1952-ci ildən etibarən AKPB-nin Parlament Assambleyası kimi fəaliyyət göstərirdi. Qurum Avropa Parlamenti olaraq isə 1979-cu ildən mövcuddur. Onun ilk prezidenti xanım S.Veyl olubdur. AP-nin aylıq plenar sessiyaları Strasburqda, digər toplantıları isə Brüsseldə keçirilir. Baş katiblik Lüksemburqda işləyir. AP əsasən Aİ-yə siyasi nəzarəti həyata keçirir. Onun üzvləri milli qruplarda deyil, səkkiz siyasi fraksiyada təmsil olunurlar).

Hollandiyalı parlamentari A.Ostlanderin hazırladığı sə-

nəddə Türkiyə-Ermənistan münasibətlərinin tənzimlənməsi önə çəkilir. Sənəddə Güney Qafqazla Anadoludan (Kiçik Asiyadan) ibarət iqtisadi məkanın formalaşmasının perspektivinə də toxunulur. Bunlar da, təbii olaraq, Azərbaycanla bağlı bəzi məsələləri gündəmə gətirdi. Belə ki, fransız parlamentari P.Qartonun hazırladığı məruzə Avropa Parlamentinin Xarici İşlər, Təhlükəsizlik və Müdafiə komitələrinin birgə iclasında (27.I.2004), müzakirəyə çıxarıldı. İttifaqın Güney Qafqazla bağlı yeni strategiyasını açıqlayan "Qarton məruzəsi"ndə **Aİ-nin belə bir formulu** təklif edilmişdi: **"Beş rayonun azad olunması= kommunikasiya probleminin həllinə"**. Bu diplomatik formulun açıqlanması Azərbaycanın Ermənistan tərəfindən tutulan ərazilərindən beş rayonun (Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan) azad edilməsini və əvəzində isə Ermənistanla kommunikasiyaların, öncəliklə də Bakı-Naxçıvan-İrəvan dəmiryolunun işə salınmasını, habelə Türkiyə-Ermənistan sərhədlərinin açılmasını nəzərdə tuturdu.

Aİ-nin "Yeni qonşular" proqramı çərçivəsində İttifaqın fəaliyyətinə qoşulan AR özünün Milli Məclisi vasitəsilə də Avropa Parlamenti ilə əlaqələr saxlayır. AR MM-in AP-də təmsilçiləri vardır. İttifaqın Güney Qafqazdan olan digər "yeni qonşular"ı kimi, Azərbaycanın da Aİ-yə üzvlüyü yaxın perspektivdə mümkünsüz görünür. Avropa Siyasət Mərkəzinin analitiki A.Missirolinin Azərbaycanın "Turan" informasiya agentliyinin Brüsseldəki xüsusi müxbirinə verdiyi (XI.2008) məlumata görə, Cənubi Qafqaz ölkələrinin İttifaqa üzvlüyü 2020-2025-ci ildən tez olmayaraq və özü də yalnız Türkiyənin ona qəbulundan sonra baş tuta bilər.

Bizcə, burada konkret müddət göstərilməsi mümkün deyil. Güney Qafqaz dövlətlərinin, o cümlədən də Azərbaycanın Aİ-yə qəbul edilməsi, bir tərəfdən onların daxili-siyasi durumu, bu ölkələrdə demokratiya, insan hüquqları və s. problemlərin tam həllini tapması ilə şərtlənir. Digər yandan da, bu, Azərbaycan və digərlərinin Qərbə inteqrasiyasındakı ardıcıl xətləri, bir

sıra regional problemlərin (ərazi-etnik münaqişələr və b.) həlli, ən başlıcası isə, beynəlxalq siyasətin reallıqları, güc mərkəzlərinin maraqları ilə sıx bağlıdır. Bu zaman Aİ-nin genişlənmə perspektivlərinə dair baxışların, Avroskeptik ölkələrin (Böyük Britaniya və s.) mövqelərinin, yəni İttifaqın gələcəyinə aid bədbin-şübhəli yanaşmaların təsiri də nəzərə alınmalıdır.

AR və İKT: əməkdaşlığın istiqamətləri, nəticələri

Azərbaycanın şimalında dövlətçiliyin bərpasından sonra onun üzv qəbul olunduğu (8.XII.1991) **ilk qurum** İslam Konfransı Təşkilatıdır (İKT-dir). (O, "İslam həmrəyliyi" hərəkatı və "Müsəlman millətləri birliyi" prosesinin məhsulu hesab olunur. Səudiyyə Ərəbistanının təşəbbüsü ilə yaradılmışdır. Belə ki, kral Feysəl hələ 1965-ci ildə İrana səfəri və şahla danışıqları zamanı "İslam paktı"nın, yəni müsəlman ölkələrinin hərbi-siyasi ittifaqının yaradılması ideyasını irəli sürmüşdü. Feysəlin bu təklifi onun 1966-cı ildə Yaxın və Orta Şərqin, habelə Afrikanın müsəlman dövlətlərinə səfərləri gedişində yalnız İordaniya tərəfindən qeyd-şərtsiz qəbul edilmişdi.

Bu ideya-təklif bir vaxtlar İngiltərənin "Bağdad paktı"nı genişləndirmək planı və dərin böhran keçirən SENTO-nun təbii varisi kimi dəyərləndirilmişdi. İKT-nin əsası müsəlman ölkələrinin dövlət və hökumət başçılarının Mərakeşin Rabat şəhərində keçirilən (IX.1969) konfransında qoyulmuşdur. Artıq 40 yaşı olan İKT BMT-dən sonra ikinci böyük beynəlxalq təşkilatdır. Üzvlərinin sayı 1969-cu ildə 25 idisə, hazırda 57-dir. Ona "müsəlman BMT-si" də deyirlər. Qurum 1975-ci ildə BMT yanında müşahidəçi statusuna malikdir. **Ali orqanı** ona daxil olan 60-a yaxın ölkənin rəhbərlərinin **Zirvə görüşüdür**. İcraçı orqanı isə Baş katiblikdir. İqamətgahı Ciddə şəhərindədir. Qüds Komitəsi,İslam tarixi, İslam İnkişaf Bankı və digər strukturları fəaliyyət göstərir).

AR-İKT əlaqələrində təşkilat-ölkə rəhbərlərinin qarşılıqlı səfərləri, birgə tədbirlər, bu qurum çərçivəsində müsəlman dövlətləri ilə əməkdaşlıq faydalı olmuşdur. **İKT Baş katibi H.əl-Qabidin Azərbaycana səfəri (XI.1994)** ölkəmizin təşkilatla münasibətlərinin yaxınlaşdırılması yönümdə xüsusi təsirə malik hadisə kimi dəyərləndirilə bilər. Respublikamızın İKT ilə əməkdaşlığının ən başlıca vasitəsi isə onun Zirvə görüşlərində və digər toplantılarında iştirak sayılmalıdır. Qurumun VII (Kasablanka, XII.1994) Zirvə toplantısı bu baxımdan xüsusilə fərqlənir. AR burada dövlət başçısı səviyyəsində təmsil olunmuşdu. H.Əliyevin İKT rəsmiləri, toplantıda iştirak edən dövlət başçıları (Türkiyə və Misir prezidentləri, Küveyt əmiri) ilə görüş-müzakirələrində Azərbaycanın üzləşdiyi problemlərlə bağlı konkret məsələlərə toxunuldu.

İKT-nin 25 illiyinə təsadüf edən Kasablanka sammitində AR ilə bağlı qəbul edilən qətnamələr Ermənistan-Azərbaycan münaqişəsi, ölkəmizə iqtisadi-humanitar yardım göstərilməsi və s. barədə idi. Bu və digər qətnamələrin (Doha sammiti-XI.2000) əsasında respublikaya göstərilən yardımlar artırıldı. Bu sahədə xeyli iş isə Beynəlxalq İslam Xilası Təşkilatı (BİXT) tərəfindən görüldü. (BİXT 1978-ci ildə Ciddədə yaradılmışdır və 90-dan çox ölkədə fəaliyyət göstərir). BİXT-in MDB ölkələri üzrə regional ofisinin Moskvadan AR-in paytaxtına köçürülməsi və onun Bakı bürosunun təşkili (1993) çox faydalı oldu. Bu qurum ölkədəki qaçqın və məcburi köçkünlərə hərtərəfli yardım edilməsi (çadır şəhərciklərinin salınması, humanitar yüklər göndərilməsi) işində xeyli fəallıq göstərdi. İKT xəttilə, xüsusilə də Səudiyyə Ərəbistanı vasitəsilə AR-ə göstərilən iqtisadi-humanitar yardıma dair digər baxışlar da mövcuddur. Bir çox təhlilçilərə görə, belə yardımlar həm də ölkəmizdə bəzi ekstremist dini qrupların (vəhhabilər və s.) təsirinin yayılması ilə müşayiət olunmuşdur.

"Müsəlman BMT-si"nin Tehran Zirvə görüşü (XII.1997) də Azərbaycana aid bəzi sənədlərin qəbulu ilə yadda qalmışdır.

Sammitin Bəyannaməsinin 8-ci bəndi və AR-ə dair xüsusi qətnamə bu baxımdan təqdirəlayiqdir. Toplantının sənədlərində və oradakı müzakirələrdə ölkəmizə yardım məsələləri yenə də gündəmdə oldu. İKT Parlament Assambleyasının 2008-ci ildə Qahirədə keçirilən sessiyasında da AR-in problemlərinə toxunuldu. Bu öz ifadəsini Qahirə Bəyannaməsində tapdı. Sessiyada Azərbaycan nümayəndə heyətinin təklif etdiyi iki qətnamə də qəbul olundu. Milli Məclisin üzvü G.Baxşəliyeva İKT Parlament Assambleyasının İcraiyyə Komitəsinə üzv seçildi.

AR-in İKT ilə əməkdaşlığının inkişafı Bakının müsəlman dövlətlərinin və bu təşkilatın beynəlxalq tədbirlərinin mərkəzlərindən birinə çevrilməsini şərtləndirdi. Son vaxtlar "Sammitlər şəhəri"nə çevrilən paytaxtımızda 1998-ci ilin dekabrında keçirilən "Qafqazda islam sivilizasiyası", İKT Xarici İşlər nazirlərinin Bakı konfransı (VII.2006) və s. belə tədbirlərə misal ola bilər. Müsəlman dövlətləri baş diplomatlarının bu toplantısında qəbul olunan Bakı Bəyannaməsi (22.VII.2006) beynəlxalq və regional problemlərin həllinə diqqətin artırılması cəhətdən diqqətçəkicidir.

İKT çərçivəsində əməkdaşlıq sahəsində Bakıda da bir neçə beynəlxalq tədbir keçirilmişdir. Buna Bakının 2009-cu il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması da mühüm təsir göstərmişdir. Bu barədə qətnamə İslam ölkələri Mədəniyyət nazirlərinin 2007-ci ilin payızında Liviyanın Tripoli şəhərində keçirilən V konfransında qəbul edilmişdir. Həmin qətnaməyə əsasən Bakıda həm də İslam ölkələri Mədəniyyət nazirlərinin VI konfransı (13.X.2009) keçirildi. Dünyanın 45-dən çox ölkəsinin, İSESKO, Avropa Şurası, " TÜRKSOY" və digər beynəlxalq qurumların 200-dən çox nümayəndəsi konfransda iştirak etdi.

İSESKO-nun Baş direktoru Ə.əl-Tuveycri, habelə Azərbaycan, İraq, Əlcəzair və digər dövlətlərin Mədəniyyət nazirləri konfransda bir sıra təkliflər irəli sürmüşlər. **"Bakı İslam mədəniyyətinin paytaxtı-2009"** çərçivəsi və müstəvisində çoxlu tədbirlər keçirilmişdir. Onlardan Beynəlxalq muğam, Şərq-Qərb Beynəlxalq kino, "İslam mətbəxi" I Beynəlxalq kulinariya festivalları, Beynəlxalq ibn Ərəbi simpoziumu və s. xüsusilə qeyd olunmalıdır. Bu kontekstdə bəzi tədbirlər İKT-nin Dialoq və Əməkdaşlıq Uğrunda Gənclər Forumu tərəfindən keçirilmişdir.

Azərbaycan İKT-yə üzv dövlətlərin İqtisadi Əməkdaşlıq Daimi Komitəsinin (İSEDAK-ın) dövlət və hökumət başçıları səviyyəsində keçirilən toplantılarında da iştirak edir. AR hökumətinin rəsmiləri 2009-cu il noyabrın 9-da keçirilən iclasa da qatılıblar (İSEDAK 1984-cü ildə yaradılıbdır). İKT-yə üzv dövlətlər arasında 25-nin dünyanın ən yoxsul ölkəsi olduğunun açıqlandığı həmin toplantıda iqtisadiyyatın neft və digər təbii sərvətlər üzərində qurulmasının fəsadları, korrupsiyaya qarşı mübarizə və digər məsələlər müzakirəyə çıxarılıbdır

AR-İKT əlaqələrinin və respublikamızın ona daxil olan ayrı-ayrı dövlətlərlə əməkdaşlığının inkişafına Azərbaycanın Birinci xanımı M.Əliyevanın **İSESKO-nun Xoşməramlı səfiri** seçilməsinin də müsbət təsiri vardır. AR-İKT əlaqələri genişlənməkdədir və ümidverici perspektivlərə malikdir. Bu isə Azərbaycanın müsəlman dünyasına da sıx inteqrasiyası cəhətdən çox gərəklidir.

Azərbaycanın beynəlxalq və regional iqtisadi qurumlarla işbirliyi

AR-in xarici əlaqələrinin başlıca istiqamətlərinin birini də beynəlxalq-məhəlli iqtisadi təşkilatlarla əməkdaşlıq və onların fəaliyyətində yaxından iştirak təşkil edir. Bu baxımdan İqtisadi Əməkdaşlıq Təşkilatı, Ümumdünya Ticarət Təşkilatı, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ilə əlaqələr və Davos Ümumdünya iqtisadi, Bertelsman forumlarında, habelə "Avrasiya-2000" simpoziumunda fəal iştirak xüsusi əhəmiyyətə malikdir.

Azərbaycanın **İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT,** yəni

EKO) ilə əlaqələri 1991-ci ilin avqustunda başlamışdır. (İƏT-XX əsrin 60-cı illərinin ortalarından başlayaraq Türkiyə, İran və Pakistan tərəfindən formalaşdırılmışdır. Belə ki, SENTOdaxili ziddiyyətlərin kəskinləşdiyi bir şəraitdə həmin ölkələr özlərinin müdafiə qabiliyyətinin möhkəmləndirilməsini işini milli vəzifə sayaraq regional iqtisadi inkişafı və mədəni əməkdaşlığı ön plana çıxardılar. **"Üçlük"** bu məqsədlə də 1964-cü ildə İstanbulda "İnkişaf üçün Regional Əməkdaşlıq" təşkilatını təsis etdi. Bu əsasda sonralar (1985-ci ildə) İƏT formalaşdı. Hazırda Əfqanıstan, Azərbaycan, və Mərkəzi Asiya dövlətləri də onun üzvüdürlər. Təşkilat beynəlxalq birlik tərəfindən tanınır. BMT yanında müşahidəçi statusu almışdır (1995) və onun qurumlarıyla birgə fəaliyyət üçün Əlaqə Qrupuna malikdir). İƏT-in İstanbul müşavirəsində (II.1992) Türkiyənin təklifinin nəzərə alınması ilə AR də ona üzv oldu. Respublikanın MM-i tezliklə (3.IX.1993) İƏT-in təşkilinə dair İzmir müqaviləsini və Azərbaycanın da həmin sənədə qoşulmasını ratifikasiya etdi.

İƏT-nin **II (İstanbul, iyul 1993) Zirvə görüşündə** Ermənistanın Azərbaycana təcavüzünə dair bəyanat qəbul edildi. Ancaq Türkiyə, İran, Əfqanıstan, Pakistanın həmin sənədə Ermənistana iqtisadi sanksiyalar tətbiqi ilə əlaqədar ayrıca bəndin salınması təklifi Mərkəzi Asiya dövlətləri tərəfindən dəstəklənmədi. Onlar öz mövqelərini Ermənistanla birlikdə MDB üzvü olmaları və bu dövlətlə müəyyən müqavilə münasibətlərindən irəli gələn məqamlarla əsaslandırdılar.

Təşkilatın 1996-cı ilin mayında Aşqabadda **keçirilən növbəti Zirvə toplantısında** H.Əliyev də iştirak etdi. Onun çıxışında "tarixi kökləri, ənənələri, mədəniyyətləri" eyni (və ya yaxın) olan ölkələrin sıx iqtisadi və siyasi əməkdaşlığının zərurəti vurğulandı. Təşkilatın Nazirlər Şurasının 9-cu toplantısında (Bakı, 21.V.1999) neft ixracına aid məsələlər müzakirə edildi. Respublika rəsmiləri İƏT-in VIII.Tehran sammitinə (XII.1997) də qatılaraq müəyyən məsələlərlə bağlı Azərbaycanın mövqeyini açıqladılar. Bu arada Azərbaycan diplomatiyası ölkəmizin

İƏT-ə üzvlüyünə Rusiya tərəfindən göstərilən mənfi münasibətin zərərsizləşdirilməsinə yönəlik də tədbirlər görməli oldu.

Müzakirə edilən və barələrində uzlaşılan məsələlərin əhatə dairəsinin genişlənməsi baxımından Tehranda keçirilən 10-cu sammitin əhəmiyyəti böyükdür. Toplantıda regional inteqrasiya, yəni birgə iqtisadi layihələrin həyata keçirilməsi, tranzit daşımalar, enerji təhlükəsizliyi, qlobal maliyyə böhranının yaratdığı problemlərin həlli və s. məsələlər ətrafında müzakirələr aparıldı. **Tərəflərin mövqelərinə** gəldikdə isə:

- **İ.Əliyev** İƏT-in regionda və dünyada tanınmış quruma çevrildiyini və qarşılıqlı faydalı əməkdaşlığa dair danışıqların səmərəliliyini vurğuladı;
- **İran prezidenti** "ABŞ-ın dünyaya sırımaq istədiyi beynəlxalq ədalətsiz iqtisadi sistemin artıq çökdüyü"nü bildirdi. Dünyanı bürüyən maliyyə böhranına görə ABŞ-ı qınayan M.Əhmədinejad həmçinin bəzi təkliflərini də açıqladı: İƏT-in vahid valyutasının yaradılması; "EKO bank"ın təşkili; quruma üzv ölkələr arasındakı idxal-ixrac əməliyyatlarında rüsum və vergilərin ləğvi ;
- **Türkiyənin dövlət başçısı** isə "qloballaşan dünyada problemlərin təkbaşına həllinin mümkünsüzlüyü" fikrini önə çəkdi. O həm də təşkilata üzv ölkələrin öz aralarında gömrük xərclərini azaltmalarını məsləhət bildi.

Respublikamızın beynəlxalq iqtisadi əlaqələrində **Ümumdünya Ticarət Təşkilatı (ÜTT)** ilə əməkdaşlığa da xüsusi önəm verilir. (ÜTT 1995-ci ilin yanvarında yaradılıbdır). O, əsası 1947-ci ildə qoyulmuş Tariflər və Ticarət üzrə Baş Sazişin (GATT) davamıdır. Qərargahı Cenevrədə yerləşir. Ali Orqanı Nazirlər Konfransıdır. Onda təşkilatın bütün üzvləri təmsil olunurlar. Nazirlər Konfransı ən azı iki ildə bir dəfə çağırılır. ÜTT-nin Baş direktorunu təyin etmək və s. səlahiyyətlərə malikdir. İndiyədək bir neçə belə konfrans (Sinqapur – XII.1996; Cenevrə - may 1998; Sietl (ABŞ) – XI/XII.1999; Doha (Qətər) – XI.2001; Kankun (Meksika) – IX.2003; Honkonq –

XII.2005) keçirilmişdir.

Bu konfranslarda **Uruqvay raundu** (1986-1994) və **Doha (İnkişaf) raundu** (2001-2010)) prosesindəki fəaliyyət, sazişlər və s. müzakirə edilmişdir. Nazirlər Bəyannaməsi və başqa sənədlər qəbul olunmuşdur. ÜTT-nin digər bir qurumu Baş Şuradır. O, Nazirlər Konfransına tabedir və cari işlərə cavabdehdir. Orada üzv dövlətlərin nümayəndəliklərinin başçıları təmsil olunurlar. Hazırkı sədri malayziyalı M.Nurdur. Katiblik – təşkilatın icraçı orqanıdır. Ona Nazirlər Konfransı tərəfindən təyin olunan Baş direktor (2005-ci ilin sentyabrından P.Lami) rəhbərlik edir.

Təşkilat müəyyən normariv-hüquqi baza, yəni çoxtərəfli ticarət sazişləri əsasında dövlətlərarası ticarət əlaqələrini tənzimləyir. Bəzi sazişlərə qoşulmaq məcburi deyil. ÜTT-nin başlıca məqsədi beynəlxalq ticarətin maksimum dərəcədə liberallaşdırılması və onun möhkəm əsaslarının yaradılması, nəticə etibarı ilə iqtisadi inkişafın, xalqın həyat səviyyəsinin yüksəldilməsindən ibarətdir. Əsas prinsiplərindən bəziləri bunlardır: " ən əlverişli rejim" (üzv ölkələrdən ötrü eyni ticarət şəraitinin yaradılması); " milli rejim" (idxal edilən əmtəə və xidmətlərlə yerli mal və xidmətlər arasında ayrı-seçkiliyə yol verilməməsi); ticarət siyasətinin şəffaf olması; azad rəqabətə əlverişli şəraitin təmin edilməsi; ticarət mübahisələrinin danışıqlarla aradan qaldırılması və s.

Qlobal ticarət sisteminə (ÜTT-yə) qatılma çox önəmli və zəruridir. Hazırda qlobal ticarətin təxminən 95-97%-i ÜTT üzvü olan dövlətlər tərəfindən aparılır. İndi onun 153 üzvü vardır. 31 ölkə, o cümlədən Azərbaycan namizədlər sırasındadır. Təşkilata üzvlüyə qəbul mürəkkəb və uzunsürən prosesdir. MDB ölkələrinin Avropa Şurasında təmsil olunanlarından Azərbaycanla yanaşı Rusiya da hələlik quruma dəvət almayıbdır. Rusiya müvafiq müraciəti 1993-cü ildə etmişdir. Çinin ÜTT-yə tam inteqrasiyası üçün 14 il lazım gəlibdir. Ermənistan 10 il, Moldova 8, Gürcüstan 4, Qırğızıstan 2 ildən sonra quruma qatıla biliblər. Gürcüstan 2000-ci, Ermənistansa 2003-cü ildə quruma üzv qəbul ediliblər. Güney Qafqazın ən iri və inkişaf etmiş iqtisadiyyatlı ölkəsi sayılan Azərbaycan bu sahədə regionun üç dövləti arasında geriyə (sona) qalanıdır. (Bu halın onlarla müqayisədə Azərbaycanın iqtisadiyyatının iri və çoxsahəli olmasından irəli gəldiyi də qeyd olunur).

Məlumdur ki, ölkələr ÜTT-yə müəyyən statusla və lazımi proseduranı keçməklə qəbul olunurlar. Status ölkələrin iqtisadi inkişaf səviyyələri ilə əlaqədardır. Qəbulun şərtləri müəyyənləşdirilərkən ölkələrin əsasən 4 qrupu fərqləndirilir: inkişaf etmiş; inkişaf etməkdə olan; tranzit iqtisadiyyatlı; az inkişaf edən. Həmin qruplar sırasında isə inkişaf etmiş dövlətlər və inkişaf etməkdə olan ölkələr xüsusilə qeyd olunmalıdır; sonuncular 2/3-ni təşkil edirlər.Qəbul prosesinin özünəməxsus xüsusiyyətləri vardır. Burada əsas yeri danışıqlar tutur (Bundan fərqli olaraq digər beynəlxalq institutlara, məsələn BVF və b. qəbul ani baş tutur, yəni avtomatik səciyyə daşıyır).

ÜTT-yə qəbul prosesi bir sıra **mərhələ-məqam-sənədləri ilə fərqlənir**: rəsmi ərizə; ölkənin xarici ticarəti haqqında Memorandum; qəbul şərtləri; təşkilatın marağı olan üzvləri ilə iki(çox)tərəfli danışıqlar; "qəbul paket"nin tərtibi; onun Baş Şura tərəfindən təsdiqi; paketin yerli səviyyədə (ölkədə) ratifikasiyası və qəbulu haqqında Protokolun imzalanması. Qəbul prosesinin əsas orqanı sayılan işçi qrupu ilkin mərhələdə Baş Şura tərəfindən yaradılır. İşçi qrupunda təşkilatın bütün üzvləri təmsil oluna bilərlər. Ancaq qeyri-iri ölkələrlə, o cümlədən, Azərbaycanla bağlı qruplara adətən "böyük dördlərin, yəni qurumun nüfuzlu üzvlərinin (ABŞ, Aİ, Kanada və Yaponiyanın) nümayəndələri daxil olurlar. Qurumun bütün maraqlı tərəfləri – üzv ölkələr danışıqlar prosesində onların fərdi məsələlərinin həll edildiyini təsdiqləməlidirlər. Yalnız bu halda namizəd tamhüquqlu üzv ola bilər.

Azərbaycan keçid iqtisadiyyatlı ölkə sayılsa da, təşkilata inkişaf etməkdə olan dövlət statusu ilə daxil olmaq niyyətin-

dədir (Sözgəlişi, AR rəhbərliyinin son açıqlamalarına görə, ölkəmiz tranzit iqtisadiyyatlı mərhələni artıq arxada qoymuşdur). Məsələ burasındadır ki, indiyə qədər ÜTT-yə üzv olan MDB dövlətləri bunu "tranzit iqtisadiyyatlı ölkələr" statusu ilə reallaşdırmışlar. Bu da onların xeyli güzəştlərə getməsini şərtləndirmişdir. Az inkişaf etmiş ölkə statusu da Azərbaycan üçün məqbul variant ola bilməz. Çünki onun iqtisadiyyatı möhkəmlənməkdədir və gələcək inkişafdan ötrü güclü potensiala malikdir. Bu status həm də sanballı xarici sərmayələr üçün fəsadlar verə bilər. İnkişaf etməkdə olan ölkə statusu ilə qəbulla AR-in kənd təsərrüfatı üçün 10 faizli maliyyə yardımını təmin etməsi də mümkündür.

AR təşkilata qəbul üçün 1997-ci ilin iyununda rəsmi müraciət etmişdir. Bundan dərhal sonra işçi qrup yaradılmış və ona ÜTT-də müşahidəçi statusu verilmişdir. İşçi qrupuna dalbadal alman ekspertləri (Xenk, Levalter) başçılıq etmişlər. Azərbaycan 1999-cu ilin aprelində təşkilata ticarət siyasəti (rejimi) barədə Memorandum vermişdir. "Suallar və cavablar" sessiyalarınadan (mərhələsindən) sonra, nəhayət ki, 2002-ci ildə işçi qrupunun ilk iclası keçirildi. İndiyədək onun bir neçə toplantısı baş tutmuşdur (Həmin iclas-müzakirələrə qatılan **nümayəndə heyətimizə AR XİN-in müavini M.Məmmədquliyev** başçılıq edir). AR hökuməti ÜTT-yə üzvlüyə hazırlıq işləri üzrə ayrıca Komissiya da yaratdı (2003). Habelə 2006-cı ilin avqustunda quruma üzv prosesi ilə bağlı qanunvericiliyin onun tələblərinə uyğunlaşdırılmasına dair "Tədbirlər planı" da təsdiqləndi.

Azərbaycan indi ÜTT ilə münasibətlərinin ən ciddi və məsuliyyətli mərhələsində, yəni danışıqlar dövründədir. Heç bir üzv dövlət onun təşkilata inkişaf etməkdə olan ölkə statusu ilə daxil olmasına etiraz etmir. Onun quruma üzvlüyü artıq Türkiyə, Yaponiya, Kanada, Gürcüstan, Norveç, Pakistan və b. tərəfindən bəyənilmişdir. ABŞ-la Aİ dövlətləri ölkəmizə xeyli texniki-maliyyə yardımı göstərmişlər. Vaşinqtondakı **Corctaun universitetində ABŞ-Azərbaycan strateji tərəfdaşlığı məsələləri ilə bağlı keçirilən (XI.2009) beynəlxalq konfransda** Dövlət katibinin müavini U.Berns bunu da vurğulamışdır: "ABŞ Azərbaycana ÜTT-yə üzv olmaqda köməklik etməyə hazırdır". AR-in xarici sərmayə axınının həvəsləndirilməsinə yönəlmiş tədbirləri, quruma üzv ölkələr üçün lazım gələn yetərli liberal ticarət rejiminə (idxala 9,4 faizlik orta rüsum və s.) malik olması da Azərbaycanın təşkilata qəbuldakı üstünlüklərini səciyyələndirir.

Ölkəmizin ÜTT-yə qəbulunun məqsədəuyğunluğuna dair yanaşma və mövqelər fərqlidir. Ancaq əksəriyyət (dominant baxış) AR-in təşkilata qəbulunun iqtisadiyyatımızın inkişafına xeyirli olacağı qənaətindədir. Quruma üzvlük uzunmüddətli planda qazancla yanaşı, qısamüddətli planda müəyyən itkilərə, problemlərə də səbəb ola bilər Məsələn, yerli sahibkarların güclənən idxal rəqabətindən çətinliklərlə üzləşməsi, sənaye sahələrində ixtisassız fəhlələrin müvəqqəti işsizliklə qarşılaşması, dövlətin gömrük rüsumlarından gələn gəlirin müəyyən hissəsindən məhrum olması və s. Bütövlükdə isə **ÜTT-də üzvlükdən qazanc (uduş) əsasən üç yöndə** öz ifadəsini tapır:

1-cisi, *milli iqtisadi sistemi* qüvvətləndirmə. (Buraya islahatlar və beynəlxalq texniki-maliyyə yardımı sayəsində iqtisadi sistemin modernləşdirilməsi, nəticədə qlobal iqtisadiyyata sürətli inteqrasiyaya nail olunması, korrupsiyanın səviyyəsinin aşağı salınması və s. aid edilir).

2-cisi, ticarət mübahisələrinin həlli mexanizminə çıxış. (Aİ-nin Ticarət üzrə komissarı P.Mandelsonun fikrincə, ÜTT-də üzvlük "qarşılıqlı iqtisadi əlaqələrdəki ayrı-seçkilikdən özünəməxsus müdafiə" deməkdir).

3-cüsü, beynəlxalq ticarətdən yeni imkanlar (Burada liberallaşmış ticarət, yerli sahibkarların modernləşməyə səfərbər olunması, xarici şirkətlər üçün ticarət-iqtisadi mühitin yaxşılaşması, beynəlxalq ticarətə inteqrasiya, xarici sərmayələrin birbaşa axını, özəl sektorun güclənməsi, əmək bazarının genişlənməsi və s. nəzərdə tutulur).

Azərbaycanın ÜTT-yə qəbulunu **əngəlləyən (ləngidən) problemlər** də çoxdur:

1. AR-in Dağlıq Qarabağ bölgəsinin və onun ətrafındakı 7 rayonunun işğalı və yüz minlərlə məcburi köçkünün mövcudluğu. Bu ərazilər çox məhsuldar torpaqlar olub, sovet dövrünün sonlarına yaxın respublikanın kənd təsərrüfatı məhsullarının 35-40 faizini istehsal edirdi. Postişğal dönəmində həmin ərazilərimizdə iqtisadiyyatın (kənd təsərrüfatı və digər sahələrin) bərpası külli miqdarda maliyyə vəsaiti ayrılmasını və s. tələb edir.

2. Ölkədə rüşvətxorluğun və inhisarçılığın geniş miqyas alması. ÜTT-yə qəbul həm də idxal-ixracda inhisarçılığa qarşı mübarizəni və onun səviyyəsinin minimuma endirilməsini, xarici ticarətdə diskriminasiyanın aradan qaldırılmasını, şəffaflığın təmin olunmasını tələb edir. Bir sıra ("Transperoney international", "Amnesty international" və s.) hesabat-təhlillərə görə isə Azərbaycanın bəzi iqtisadi qurum və strukturlar qəsdən, bilərəkdən – korporativ maraqlardan çıxış edərək-ölkəmizin təşkilata üzvlüyünə maneə olur, ən azından bu prosesi ləngidirlər. Beynəlxalq qurumların hesabatlarında AR-də gömrük gəlirlərinin 50 faizinin toplanmadığı qeyd edilir. Bir çox malların ölkəyə gətirilməsindəki "qeyri-rəsmi icarə sistemi"nin gəlirlərin təmərküzləşməsi, inhisarçılığın güclənməsi və s. şərait yaratması da əsas problemlərdən biridir. Bu kontekstdə ÜTT-yə üzvlüyün ölkəmizdə yerli istehsalı (sahibkarlığı) tənəzzülə uğradacağı təhlükəsinə dair bəzi açıqlamaların da müəyyən maraqlara xidmət göstərdiyi bəllidir.

Ekspert-mütəxəssis təhlillərinin də təsdiqlədiyi kimi, bütün bu cür neqativ hallar və yanaşmalar üzündən AR-in ÜTT-yə üzvlüyü prosesində elə bir ciddi irəliləyiş yoxdur. İşçi Qrupun Cenevrədə keçirilən 7-ci iclasında (VII.2009) və digər toplantılarda aparılan müzakirələr də əməli nəticə verməyibdir.

3.Azərbaycanın ÜTT-yə üzvlüyü yubandıqca təşkilatın günü-gündən ağırlaşan şərtləri ilə qarşılaşma. Onun Honkonq

konfransından (2005) sonra təşkilata qəbul prosesi daha da çətinləşmişdir. Üzvlüyə qəbul üçün orta müddət son illərdə artmaqdadır. Bu isə üzvlərin sayının xeyli çoxalmasının qərarların qəbulunda ləngimələrə səbəb olması ilə bağlıdır. Təşkilata qəbul şərtlərinin 2011-ci ilədək daha da şərtləşəcəyi gözlənilir.

4.Hələ də təşkilata daxil ola bilməyən Rusiya ilə İranın Azərbaycana müəyyən təsir və təzyiqi.

Bütün bu və digər məqamlar AR-in təşkilata üzvlüklə bağlı danışıqlarının intensivləşdirilməsini zəruri edir. Bu zaman ÜTT-dəki çağdaş prosesləri və meylləri də mütləq nəzərə almaq lazım gəlir. Belə ki, onun strukturu və kompleksində dəyişikliklər edilməsi, ümumiyyətlə isə, bütün sistemi əhatə edən islahatlar aparılması zəmanənin tələbi olaraq dəyərləndirilir. Təşkilatın Baş direktoru P.Laminin nəzər nöqtəsinə görə, "dünyanın başqa cür" olduğu dövrdə formalaşan sistem lazımi səmərəli fəaliyyəti təmin etmir.

Qurumun əhəmiyyətli dərəcədə genişlənməsi və bu prosesdə çağdaş dünyanın nüfuzlu aktorlarının ona üzv olması ÜTT-də ciddi dəyişiklikləri şərtləndirir. Xüsusilə də, **"Böyük 20-lər"i ("G 20"-ni)** təmsil edən ölkələrdən Çin, Hindistan, Braziliya, İndoneziya və b. təşkilata qəbul olunmaları və Rusiya, Azərbaycan, habelə digərlərinin gözlənilən üzvlükləri " oyun qaydalarını yeniləşdirməyi", qurumun genişlənməsinin reallıqlarından irəli gələn təzə balansın yaradılmasını önə çəkir. "Doha böyük raundu" çərçivəsində aparılan çoxtərəfli müzakirələrdə də bu məqsədlərin mühüm yer tutduğu bəllidir.

AR-in ÜTT-yə qəbulunun 2009-cu ildə baş verə biləcəyi barədəki ekspert-mütəxəssis qənaətləri özünü doğrultmadı. Bunun qarşıdakı 2-3 il ərzində reallaşacağı güman edilir. **ÜTT-nin VII Nazirlər konfransında (Cenevrə, XI-XII. 2009)** quruma üzvlüyə namizəd ölkələrə qəbulu tezləşdirmək tövsiyyə olundu. Təşkilatın prezidentinin dəvəti ilə toplantıya qatılan iqtisadçı V.Bayramov mətbuata açıqlamasında bu konfransı **"Azərbaycan üçün ciddi siqnal"** kimi səciyyələndirmişdir.

Konfransın **"Doha böyük raundu"**nun 2010-cu ildə başa çatdırılacağına dair qərarı da ölkəmizin tezliklə quruma qəbulunu zəruri edir. Çünki xarici ticarətin tam liberallaşması prosesini başa çatdırmaqda israrlı olan ÜTT-yə üzvlüyün alternativsizliyi şübhə doğurmur. Belə bir şəraitdə ölkəmizin ÜTT çevrəsindən kənarda qalması gələcəkdə xarici ticarətimizdə ciddi problemlər yarada bilər. Üzvlüyə qəbulun yubanması və quruma üzvlüyün şərtlərinin daha sərtləşməsi perspektivi də yaxşı nəticələr vəd etmir. Yəni xeyli ləngimə və sərt şərtlər müstəvisindəki üzvlük AR-i idxalçı ölkəyə çevirməklə onun ixrac imkanlarını məhdudlaşdıra bilər.

Ümumiyyətlə, AR-in təşkilata üzvlük xətti israrla yürüdülməlidir. Bununla əlaqədar əsas tutulan strategiyada mütləq nəzərə alınası və yetərli önəm verilməsi məsələlər özünə yer almalıdır. **Bu strategiya:**

- ölkəmizin milli maraqlarına tam uyğun olmalı və ümidverici iqtisadi tərəfdaş kimi dünya iqtisadiyyatına inteqrasiyanı təmin etməlidir;
- güclü milli iqtisadi sistemin başlıca özüllərindən biri kimi qeyri-neft sektorunun inkişafına üstünlük verməlidir. (Xammal (neft-qaz) emalı və ixracatından ciddi asılılıqdan birdəfəlik qurtulma önə çəkilir);
- yerli sahibkarların və milli bazarların (mal-məhsul, əmək-işçi qüvvəsi və digər) müdafiəsinə və onların, ÜTT-nin prinsiplərini pozmadan, liberal beynəlxalq ticarətə açılmasına şərait yaratmalıdır. (Burada qeyri-enerji sahələrinə və ixrac potensiallı sektorlara xüsusi diqqət yetirilməlidir);
- artıq quruma üzv olan ölkələrin (ələlxüsus da, MDB dövlətlərinin) təcrübəsini nəzərə almalıdır;
- təşkilata qəbul zamanı Azərbaycan üçün inkişaf etməkdə olan ölkə statusunu daha optimal saymalı və ÜTT mühitinə uyğunlaşma-alışmadan ötrü keçid (tranzit) dövrünün yetərincə uzun sürməsini önə çəkməlidir.

Azərbaycan Respublikası **Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT)** ilə əməkdaşlıqda da çox maraqlıdır (QDİƏT—Qara dəniz hövzəsi ölkələrinin, Türkiyənin təşəbbüsü ilə təşkil olunan, İstanbul Zirvə görüşündə (VI.1992) təsis edilmişdir. 11 dövlətin liderlərinin qatıldığı bu toplantıda çıxış edən E.Şevardnadze "Qara dəniz işbirliyi layihəsinin bütün dünyada Özal doktrini olaraq tanındığını" bildirdi. (Sözgəlişi, həmin dövrdə Türkiyə mətbuatı **"Özal hazırladı, Dəmirəl imzaladı"** yazmaqla ikincinin birincinin əməyinə sahib çıxdığına və prezidentin bu səbəbdən də Zirvə toplantısına qatılmadığına işarə etmişdi. AR prezidenti Ə.Elçibəyin də imzaladığı QDİƏT-ə dair anlaşma bərpa edilən Azərbaycan dövlətinin qoşulduğu ilk çox önəmli beynəlxalq sənədlərdən biridir. Toplantıda qəbul edilən **"Bosfor sənədləri"**ni **("İstanbul Bəyannaməsi"** — 25.VI.1992 və s.) Rusiya ilə Ermənistan da imzalamışlar).

AR QDİƏT çərçivəsində sənaye-ticarət, maliyyə-bank, nəqliyyat-rabitə, təhsil-elm, kənd təsərrüfatı, turizm və başqa sahələrdə əməkdaşlıqda iştirak edir. QDİƏT problemlərli təşkilat hesab olunur. Çünki ona üzv dövlətlər (Türkiyə-Yunanıstan, Ermənistan-Azərbaycan, Rusiya-Ukrayna və s.) arasında münaqişələr və mübahisələr mövcuddur. Təşkilatdaxili inteqrasiyaya yetərli maraq göstərən Azərbaycan bu problemlərin həllinə də çalışır.

Respublikamız QDİƏT üzvü olaraq onun "Yalta Bəyannaməsi"nə (5.VI.1998) qoşulmuşdur. AR MM-i təşkilatın Parlament Assambleyasının Baş məclislərində və digər tədbirlərdə fəallıq göstərir. **BDU** Qara dəniz hövzəsi ölkələrinin bir sıra universitetləri ilə sıx əlaqələr saxlayır. QDİƏTdaxili problemlərə baxmayaraq tarixi-siyasi proseslər təşkilata üzv olan dövlətlər arasındakı əlaqələrə nikbin perspektivlər vəd edir. Bununla bağlı məsələlər təşkilata daxil olan dövlətlərin Xarici İşlər nazirlərinin 2008-ci ilin noyabrında İstanbulda keçirilən iclasında da müzakirə olunmuşdur.

Azərbaycan dövləti müəyyən iqtisadi-maliyyə problemlərinin həlli məqsədilə **Davos Ümumdünya İqtisadi forumla-**

rının işində də yaxından iştirak edir (**Forumların təşəbbüskarı** Cenevrə universitetinin professoru K.Şvab hesab olunur. Hazırda qurumun icraçı prezidenti olan K.Şvab hələ 1970-ci ildə Avropa dövlətlərinin liderlərini İsveçrənin Davos şəhərində toplaşaraq qlobal biznes təcrübəsi ilə əlaqədar məsələləri müzakirə etməyə çağırmışdı. Belə bir ilk toplantı 1971-ci ildə Davosda baş tutdu. İsveçrəli professor tezliklə Avropa İdarəetmə Forumunu yaratdı. Həmin qurum 1987-ci ildən Ümumdünya İqtisadi Forumu (ÜİF) adlandırılır. 1988-ci ilsə isə onun baş mənzil-qərargahı Davosdan Cenevrəyə köçürülür. ÜİF hazırda BMT-nin İqtisadi və Sosial Şurası yanında qeyri-hökumət təşkilatı kimi məşvərətçi statusa malikdir).

Azərbaycanın ÜİF ilə əlaqələri genişlənməkdədir. AR prezidentlərinin forumlarda iştirakı faydalı əməkdaşlığa müsbət təsir göstərir. H.Əliyev Forumun 2002-ci ildə Nyu-Yorkda keçirilən illik toplantısında çıxış etmişdi. Bu dəfə ki, toplantı ənənəvi qaydaya uyğun olaraq Davosda deyil, beynəlxalq terrorçuluğa qarşı mübarizədə həmrəylik əlaməti kimi Nyu-Yorkda keçirilmişdi. İ.Əliyev indiyədək forumlardan 4-nün işinə qatılmışdır. 2009-cu ilin yanvar-fevral aylarında **39-cu illik Davos Forumunda** 41 dövlətin rəhbəri təmsil olunmuşdu. AR-in hər il dəvət olunduğu forumların 2008-ci ildəki toplantısına isə 27 lider gəlmişdi.

ÜİF qlobal iqtisadi proseslərə müəyyən təsir imkanlarına malik olan Azərbaycanla əməkdaşlığa maraq göstərir. Qurumun Qlobal Rəqabət İndeksinə görə AR 2008-2009-cu illərdə 61-ci yeri tutmuşdur. Qlobal rəqabətqabiliyyətlilik reytinqində ilk onluğa ABŞ, İsveçrə, Yaponiya və s. daxildirlər. Postsovet dövlətlərdən Rusiya 51-ci, Gürcüstan 90-cı, Ermənistansa 97-ci yerdədirlər. Bu reytinq statistik məlumatlar və şirkət rəhbərlərinin sorğusu əsasında müəyyənləşdirilir. (2008-ci ildəki sorğu 134 ölkənin 12 min şirkət başçısını əhatə etmişdi. Reytinqin əsas göstəricisi qlobal rəqabətqabiliyyətlilik indeksi, yəni GCİ hesab olunur. 2004-cü ildə Kolumbiya universiytetinin profes-

soru H.Martin tərəfindən ÜİF üçün yaradılan 12 göstəricili GCİ "Makroiqtisadi sabitlik", "Ali təhsil və peşə hazırlığı", "Əmək bazarının səmərəliliyi", "Texnoloji səviyyə" və digər elementlərdən ibarətdir).

39-cu Davos Forumunda 100-ə qədər ölkədən 2500-dən çox nümayəndə (41 dövlət və hökumət başçısı) iştirak etmişdir. 300-dək iclasın keçirildiyi bu forumda Azərbaycanın da maraq dairəsində olan məsələlər müzakirəyə çıxarılmışdı. iclas **"Enerji Outlook-2009"** mövzusundakı bu cəhətdən diqqətçəkicidir. Onun "Neft və qaz siyasəti - xəritə dəyişikliyi", "Böyük oyun" təkrarlanır" kimi bölmələrində aparılan müzakirələrə ciddi maraq göstərilmişdir. Diskussiya səciyyəli bu görüş-müzakirələrdə aparıcı AR prezidentinə bir sıra maraqlı və düşündürücü suallar ünvanlamışdır: "Avropada ikili standartlar mövcuddurmu?", "Nabucco" layihəsinin gələcəyinə necə baxırsınız və indi Azərbaycandan, Xəzər regionundan həmin kəmər üçün hasilatın vaxtıdırmı?, "Böyük oyun"dan bəhs edərkən enerji məsələsindən qaçmaq olarmı?" və s. Cavabların başlıca məqamları (tezisləri) belə ifadə edilə bilər:

- ikili standartlar hər yerdə var və AR-Aİ əlaqələri müsbətdir;
- hazırda 7 neft və qaz boru xəttinə malik olan Azərbaycan özünün zəngin enerji ehtiyatlarının nəqlinin diversifikasiyasına üstünlük verir;
- Avropanın dəstəklədiyi "Nabucco"nun gələcəyi parlaqdır və eyni zamanda onun: siyasi iradə, siyasi dəstək, maliyyə öhdəliyi və tranzit məsələəri kimi problemləri mövcuddur, layihəyə bir çox iştirakçılar cəlb olunmalıdır;
- qonşu Gürcüstana 3 mlrd. dollar sərmayə yatıran AR onu bacardığı qədər dəstəkləyəcəkdir.

Azərbaycan **40-cı Davos Forumunda** da (1. 2010) təmsil olunubdur.100-dək ölkədən 2500-dən çox nümayəndənin iştirak etdiyi bu foruma AR prezidenti də qatılıbdır. ABŞ, Rusiya, Almaniya, Türkiyə və digər ölkələrin dövlət və hökumət başçıları Foruma gəlməyiblər. Böyük dövlətlərdən yalnız Fransa pre-

zidenti toplantıya qatılıbdır. Iri banklardan "JP Morgan Chase" və "Golgman Sach" Davosa gəlməyə maraq göstərməyiblər. Nüfuzlu biznes təmsilçilərindənsə bp şirkətinin direktoru T.Heyvord, "Royal Datch Shell"in prezidenti P.Vozer Forum iştirakçıları arasında olublar.

40-cı Davos Forumu **"Dünyanın vəziyyətini yaxşılaşdır: yenidən düşün, yenidən planlaşdır və yenidən qur" devizi** altında keçiribdir. Toplantıda bu məqsədlə də qarşıdakı 40 il üçün qlobal gündəliyin formalaşdırılması məsələsinin müzakirəsinə geniş yer ayrılıbdır. Bu Forumda həmçinin **"Qlobal enerji mənzərəsi"** mövzusunda iclas keçirilmişdir. Kembric Enerji Tədqiqatları Assosiasiyasının sədri D.Yerginin aparıcılığı ilə keçən müzakirələrə İ.Əliyev də qatılıbdır. Onun çıxışında əsas diqqət qlobal enerji təhlükəsizliyində AR-in yeri və rolu, Azərbaycan qazının nəqlinin şaxələndirilməsi siyasəti, ölkəmizin hətta bizdəkindən çox "mavi yanacaq" hasil edən qonşu dövlətlərə də qaz satması və digər məqamlara yönəldilmişdir.

Bütövlükdə, forumların qlobal iqtisadi inteqrasiya proseslərinə müsbət təsiri şəksizdir. AR-in forumlarda iştirakı ölkəmizin iqtisadi problemlərinin həlli baxımından faydalıdır. Bu işdə forumların toplantılarında Azərbaycan üzrə qarşılıqlı biznes əlaqələri qrupunun iclaslarının keçirilməsi mühüm rol oynayır.

İKİNCİ BÖLÜM

ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİNİN NİZAMLANMASINA DAİR BEYNƏLXALQ SƏYLƏR

XX əsrin 80-ci illərinin sonlarında Ermənistan növbəti dəfə Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürdü. Ölkəmizin tarixi (əzəli) hissəsi olan Dağlıq Qarabağ bölgəsində Rusiyanın hərtərəfli himayəsi ilə - yeni erməni seperatçılığına (Azərbaycandan ayrılma prosesinə) rəvac verildi. Bu zəmində Ermənistanla Azərbaycan arasında münaqişə yarandı.1988-1993-cü illərdə, Yuxarı Qarabağ da daxil olmaqla, Şimali Azərbaycanın 13.210 km^2 ərazisi Rusiya və Ermənistan qoşunları tərəfindən işğal olundu (Ümumiyyətlə, ermənilər öz havadarlarının himayəsilə indiyədək 43 min km^2 torpağımızı tutmuşlar). İşğalçılarla müharibədə Azərbaycan 24 min nəfər insan itkisinə, *külli miqdarda* maddi zərərə və böyük mənəvi ziyana məruz qalmışdır. Ölkəmizdə 1 milyondan çox qaçqın və məcburi köçkün ordusu əmələ gəlmişdir. Ermənistanın silahlı qüvvələri Rusiyanın 366-cı alayı ilə birlikdə xalqımıza qarşı dəhşətli Xocalı faciəsini (25-26.II.1992) törətmişlər.

Ermənistanın Azərbaycana hərbi təcavüzü hələ də davam etməkdədir. Belə ki, bu təcavüzün nəticələri aradan qaldırılmamışdır, yəni işğalçı qoşunlar ölkəmizdədir, tutulan ərazilər geri qaytarılmamışdır və qaçqın-köçkünlər öz yerlərinə dönməmişlər. AR-in münaqişənin tənzimlənməsinə və işğalın nəticələrinin aradan qaldırılmasına dair birtərəfli cəhdləri əməli nəticə verməmişdir. Bütün bunlar da, təbii olaraq, Ermənistan-Azərbaycan *münaqişəsinin həlli məsələsini beynəlxalq münasibətlərin gündəminə gətirmiş*, müəyyən və müvafiq səyləri zəruri etmişdir.

"Dağlıq Qarabağ problemi"nin ortaya atılmasından indiyədək onun həllinə yönəlik **çoxlu beynəlxalq səylər və cəhdlər**

olmuşdur. Xeyli sayda beynəlxalq və regional təşkilat münaqişənin tənzimlənməsi istiqamətində çalışmışdır. Bu sahədə əsas ağırlıq isə BMT və ATƏT-in üzərinə düşmüşdür. Problemin həllinə ilk cəhdlər əvvəllərdə əsasən BMT tərəfindən göstərilmişdir. Sonra isə bu proses sakitcə ATƏT-ə ötürülmüşdür. Münaqişəyə hələ də son qoyulmaması isə onun "ATƏT, yoxsa BMT müstəvisində həlli", habelə "yenidən BMT-yə qaytarılması", yaxud bu dəfə də "Avropa Şurasına verilməsi" kimi sual-problemləri ortaya çıxarmışdır.

BMT-nin münaqişənin tənzimlənməsi sahəsində fəaliyyəti

Azərbaycanın dünya birliyinə, beynəlxalq və regional təşkilatlara inteqrasiyasında qarşıya qoyulan məqsədlərdən biri də məcburən qarşılaşdırıldığımız "Dağlıq Qarabağ problemi"-nin ədalətli həllinə dəstək əldə etməkdir. Bu niyyətlə də BMT-nin imkanlarından istifadə olunması lazım gəlirdi. Və ilkin səylər də elə bu yöndə göstərildi. Hələ 1992-ci ilin əvvəllərində münaqişənin tənzimlənməsi və Ermənistanın ölkəmizə hərbi təcavüzünün qarşısının alınması üçün BMT Baş Katibinə və TŞ sədrinə müraciətlər edildi.İlk müraciətsə 1992-ci il fevralın 13-də oldu. Habelə AR-in BMT-yə qəbul edildiyi gündə (2.III.1992) respublikamızın XİN-i təşkilatın Baş Assambleyasına "Xocalı faciəsi" ilə bağlı məlumatlar verdi və onu Dağlıq Qarabağ münaqişəsinin tezliklə, ədalətli qaydada həll etməyə çağırdı.

Təşkilatın rəsmilərinin məsələyə çevik reaksiya və diqqəti Baş Katibin təmsilçisi (ABŞ-ın keçmiş Dövlət katibi) S.Vensin regiona missiyası ilə (III.1992) nəticələndi. Daha çox regionla (münaqişə) ilə tanışlıq və məlumatlan(dır)ma səciyyəsi daşıyan **"Vens missiyası"** elə bir ciddi əməli nəticə vermədi. Səfərin yekunlarına dair təhlillər və BMT-nin ilkin yanaşması onun yalnız ekspertlər göndərmək və humanitar yardım göstərmək məramını (güc-imkanını), habelə ATƏM-i qabağa vermək

qəsdini açıqladı.

Bu arada Ermənistan silahlı qüvvələrinin Şuşanı tutaraq (8.V.1992) Dağlıq Qarabağın işğalını faktiki olaraq başa çatdırması münaqişə ətrafındakı diplomatik qarşıdurmanı daha da qızışdırdı. Belə bir şərait BMT strukturlarının çoxlu intensiv müzakirə və bəyanatlarını şərtləndirdi. **İlk belə müzakirə Türkiyənin təklifiylə TŞ-də keçirildi** (12.V.1992). Şuranın iclasında "Dağlıq Qarabağda vəziyyətə dair" başlıqlı bəndin müzakirəsi əsasında TŞ sədrinin bəyanatı elan edildi. Bəyanatın başlıca məqamları bu fikirlərdə ifadə olunmuşdu: atəşkəsə dair razılaşmaların pozulması və tərəflərin böyük insan tələfatına, xeyli maddi zərərə məruz qalmaları (burada ikili yanaşma vardır); tərəflərə sülh yolu ilə nizamlanma əldə edilməsi tövsiyəsi; ATƏM çərçivəsindəki səylərə tezliklə kömək edilməsi,habelə humanitar yardım göstərilməsi üçün regiona missiya göndərilməsi.

Münaqişə tərəfləri BMT TŞ-nin xüsusi iclasının keçirilməsi müraciəti ilə çıxış etdilər. Azərbaycan qonşu dövlətin ona hərbi təcavüzü, Ermənistansa Dağlıq Qarabağla əlaqədar məsələnin müzakirəsini istədi. Nəticədə BMT TŞ-nin iclaslarında (3127; 3194; 3264; 3525 saylı) "Dağlıq Qarabağda vəziyyətə dair" bəndin müzakirələri, Şuranın sədrinin müəyyən məsləhətləşmələrinin əsasında onun bəyanatları (26.VIII.) və (27.X.1992; 29.I., 6.IV və 18.VIII.1993; 26.IV.1995) elan olundu. Bu bəyanatlar münaqişənin ədalətli həllinə yönəlik bir sıra pozitiv və habelə ziddiyyətli, qeyri-obyektiv məzmunlu neqativ yanaşmalarla səciyyələnir. **Pozitiv yanaşmalar** aşağıdakılarda ifadə olunur:

- bölgənin bütün dövlətlərinin suverenliyinin, ərazi bütövlüyünün və onların sərhədlərinin pozulmazlığının təsdiqlənməsi, ərazi zəbti üçün gücdən istifadənin yolverilməzliyi;
- ATƏM-in Minsk konfransının "Dağlıq Qarabağ məsələsi"-nin həllinə dair səyləri və habelə Romada keçirilən hazırlıq danışıqlarına (VI.1992) yardım göstərilməsi;

- münaqişəyə cəlb olunmuş bütün rayonlarda mülki əhaliyə humanitar yardım edilməsi;
- işğalçı qüvvələrin Azərbaycanın tutulan rayonlarından dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması;
- münaqişə tərəflərinin BMT TŞ-nin məlum qətnamələrinə tamamilə razı olmaları və əməl etmələrinin təmin edilməsi;
- konflikt bölgəsinə ATƏT-in çoxmillətli sülhməramlı qüvvələrinin yerləşdirilməsinə TŞ-nin lazımi qətnamələrlə davamlı siyasi dəstək verilməsinə hazır olması və s.

Bəyanatlarda özünə yeralan **neqativ məzmunlu və ruhlu mövqelərə** isə bunları misal göstərmək olar:

- münaqişə tərəflərindən hansının daha böyük insan tələfatına və xeyli maddi ziyana məruz qalmasının vurğulanmaması;
- Soçidə atəşkəs barədə bağlanan sazişə (21.IX.1992) riayət etməyən tərəfin açıqlanmaması;
- münaqişənin "bütün tərəfləri və bu məsələyə aid olan digərləri", "blokadanın bütün növləri", "yerli erməni qüvvələrinin müdaxiləsi" kimi ikibaşlı, mücərrəd fikirlər və s.

BMT TŞ Ermənistanla Azərbaycan arasındakı münaqişənin ("Dağlıq Qarabağ problemi"nin) həllinə dair 4 qətnamə də qəbul etmişdir. Qətnamələr əsasən Azərbaycanın rayonlarının Ermənistan ordusu tərəfindən işğalıyla bağlı AR-in təklifi (Türkiyənin dəstəyi) ilə BMT TŞ-də keçirilən müzakirələrin nəticəsi olaraq ərsəyə gəlmişlər. Bu sənədlərin də bir sıra müsbət (ədalətli) tərəfləri və qüsurlu (qeyri-obyektiv) məqamları vardır.

Kəlbəcər rayonunun tutulmasıyla bölgədə yaranan yeni hərbi-siyasi şəraitlə əlaqədar olaraq qəbul edilən **822 saylı (30.IV.1993) qətnamənin müsbət cəhətlərini** aşağıdakılar təsdiqləyir:

- son təcavüz aktının pislənməsi;
- onun bölgədəki təhlükəsizliyə yaratdığı qorxudan irəli gələn rahatsızlığın bəyan edilməsi;
- bütün işğalçı qüvvələrin Kəlbəcər və başqa tutulan rayonlardan dərhal çıxmalarının tələb olunması;
- sərhədlərin toxunulmazlığının və ərazi əldə edilməsi üçün qüvvə tətbiqinin yolverilməzliyinin bir daha təsdiqlənməsi;
- tərəflərin sülh danışıqlarının bərpasına və dinc yolla tənzimlənməni çətinləşdirən fəaliyyətdən imtinaya dəvət olunması.

Qətnamənin mənfi məqamlarına bunlar aid edilə bilər:

1."Yerli erməni qüvvələri" və "bütün işğalçı qüvvələr" *kimi ümumi ifadələrlə Ermənistanın Azərbaycanla münaqişədə başlıca tərəf (səbəbkar)* olmasını təsdiqdən yayınma. Bu hal, əsasən, Rusiya ilə Fransanın ermənipərəst mövqe tutmasından irəli gəlmişdi. Belə ki, qətnamənin qəbulu ərəfəsində TŞ-də aparılan məsləhətləşmələrdə onlar Azərbaycana təcavüzün Ermənistan tərəfindən edildiyini qeydə alacaq qətnaməni öz vetoları ilə hədələmişdilər. Bu sənəddə "yerli erməni qüvvələri" ifadəsi isə Fransanın təkidi ilə yazılmışdı.

2.Sənəddə, Kəlbəcər çıxılmaqla, tutulan digər rayonlarımızın adlarının çəkilməməsi və işğalçı qoşunların zəbt etdikləri ərazilərdən çıxarılma müddətinin göstərilməməsi.

3.*Qətnaməyə əməl etməyən tərəfə qarşı tədbirlər görülməsi* (ona sanksiyaların tətbiqi və s.) kimi mühüm şərtin sənəddə ifadə olunmasının "unudulması".

822 saylı qətnamənin ardınca sülhyaradıcı təşəbbüslə çıxış edən (3.V.1993) ABŞ, Rusiya və Türkiyənin hazırladığı **"Təxirəsalınmaz tədbirlərin dəqiqləşdirilmiş cədvəli"** açıqlandı. Azərbaycan və Ermənistanın müzakirəsinə verilən bu sənəddə aşağıdakıların həyata keçirilməsi nəzərdə tutulurdu: **a)** erməni ordu hissələrinin 1993-cü il mayın 14-dək Kəlbəcərdən çıxarılması; **b)** bu aktın ATƏM-in müşahidəçiləri tərəfindən təsdiqlənməsi; **c)** hərbi əməliyyatların dayandırılması.

AR-in imzaladığı (6.V.1993) "Cədvəl" Ermənistanı "qane etmədi". Rəsmi İrəvan özünün bu diplomatik demarşını "qoşunların beynəlxalq müşahidəçilərin münaqişə zonasında yerləşdirilməsindən sonra çıxarılmasının məqsədəuyğunluğu" ilə əsaslandırdı. Ermənistan Türkiyəni təşəbbüsçülər sırasında gör-

mək istəmədiyini də gizlətmədi. Azərbaycan "Cədvəl"in qismən genişləndirilmiş variantına qeydlə, yəni onun bəzi bəndlərinin 822 saylı qətnaməyə bir qədər uyğun gəlməməsi fikri ilə razılıq verdi (26.V.1993). Rəsmi Bakı həmçinin hərbi əməliyyatların bütün cəbhəboyu dayandırılmasına dair özünün birtərəfli qaydada qəbul etdiyi qərarını reallaşdıracağını bildirdi. Ermənistan tərəfi bu dəfə Dağlıq Qarabağ ermənilərinin "Üçlük"ün təşəbbüsü ilə ("Cədvəllə") razılaşmadıqlarını qeyd etdi. Habelə Türkiyənin bu prosesdə iştirakının məqbul sayılmamasına dair məlum mövqe də təkrarlandı. "Cədvəl"in imzalanmasına arada (10.VI.1993) razılıq verilsə də tezliklə bundan vaz keçildi. Ardınca da daha bir böyük hərbi təcavüz aktı, yəni Ağdam rayonunun işğalı həyata keçirildi (23.VII.1993).

AR-in BMT Baş Katibinə və TŞ sədrinə müraciəti-Ermənistanın hərbi əməliyyatlara son qoyması və qoşunlarını tutduğu ərazilərdən çıxarması tələbləri – Şuranın 3259 saylı iclasında (29.VII.1993) təkcə bir (ayrıca) məsələnin ("Dağlıq Qarabağda vəziyyət") müzakirəsi ilə nəticələndi. Müzakirənin yekunları öz ifadəsini **853 saylı (29.VII.1993) qətnamədə** tapdı (Sözgəlişi, bu qətnamənin qəbuluna həmin vaxtlarda TŞ-yə sədrlik edən Pakistanın ədalətli və ardıcıl mövqeyi ciddi təsir göstərdi. Halbuki BMT TŞ-nin daimi üzvlərindən bəziləri bu sənədin qəbulunun təxirəsalınmasına çalışmışdılar).

Bu qətnamənin müsbət (uğurlu) məqamları sırasında bunları önə çəkmək lazım gəlir:

- Dağlıq Qarabağın Azərbaycan Respublikasının bölgəsi (ərazisi) olmasının qeyd edilməsi;
- döyüş əməliyyatlarının güclənməsinə və növbəti işğal hadisəsinə (Ağdamın tutulmasına) daha çevik münasibət bildirilməsi;
- iki respublika arasında münasibətlərin gərginləşməsinin vurğulanması ilə Ermənistanın münaqişədə iştirakının təkrarən etiraf edilməsi;
- münaqişə bölgəsindəki dinc əhalinin (mülki şəxslərin)

bombalanması və top atəşinə tutulmasının pislənməsi;
- hərbi əməliyyatların təxirə salınmadan dayandırılması və AR-in işğala məruz qalan bütün rayonlarının dərhal, tamamilə və qeyd-şərtsiz azad olunmasının tələb edilməsi;
- konfliktlərdən (hərbi əməliyyatlardan) zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardım göstərilməsinin və didərginlərin öz evlərinə qayıtmalarına kömək etmələrinin Baş Katibdən və müvafiq beynəlxalq idarələrdən xahiş olunması.

Qətnamənin mənfi (qüsürlu) cəhətləri kimi səciyyələndirilə bilən hallarsa bunlardır:

- respublikalar arasındakı gərginliyin səbəblərinin açıqlanmaması;
- "münaqişədə iştirak edən işğalçı qüvvələrin" kimliyinin konkret olaraq göstərilməməsi;
- Ermənistanın "Cədvəl"i və atəşin dayandırılmasına dair razılaşmaları dəfələrlə pozmasının qeyd edilməməsi;
- yenə də "əlaqədar tərəflər", münaqişənin dayandırılması üçün "Ermənistanın Dağlıq Qarabağ ermənilərinə təsirini davam etdirməsi", adları çəkilməyən hansısa "dövlətləri silah və ləvazimat göndərməkdən çəkinməyə təkidli çağırış" kimi ümumi ifadələrlə diqqətin yayındırılması və s.

Azərbaycanın rayonlarını dalbadal tutaraq ardınca atəşkəs razılıqlarına gəlib sonra da onları pozaraq işğalları davam etdirmək taktikasını yeridən ermənilər BMT-nin bu qətnamələrinə və TŞ sədrinin bəyanatlarına məhəl qoymadılar. Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının işğallarından az sonra BMT daha bir (3-cü) qətnaməni qəbul etdi. **874 saylı (14.X.1993) qətnamə** də, əvvəlkilər kimi, müəyyən obyektiv məqamları və bəzi çatışmayan cəhətləri ilə diqqəti çəkir.

Bu sənədin obyektiv məqamlarını əvvəlki qətnamələrdə qeyd olunan bəzi ədalətli yanaşmaların bir daha təsdiqlənməsində (təkrarlanmasında) görmək olar:

- Dağlıq Qarabağın Azərbaycan torpağı olması;
- münaqişənin dərinləşməsinin regionda təhlükəsizliyə qorxu

yaratması;

- AR-in ərazi bütövlüyünün təsdiqlənməsi;
- güc tətbiqi ilə ərazi əldə etməyin yolverilməzliyi;
- Azərbaycanda böyük sayda mülki şəxslərin köçkün vəziyyətinə düşməsi;
- səmərəli və daimi atəşkəsə nail olunması;
- beynəlxalq humanitar hüququn pozulmasından çəkinilməsi;
- münaqişənin tənzimlənməsi ilə fəal məşğul olmağın davam etdirilməsi və s.

Əvvəlki qətnamələrlə müqayisədə daha çox qüsurlu və zəif olan **bu sənədin çatışmazlıqları** isə bunlar sayıla bilər:

- Ermənistanın münaqişənin tərəfi-təcavüzkar olmasının birmənalı bildirilməməsi, "Dağlıq Qarabağ bölgəsində və onun ətrafında münaqişə" kimi ümumi yanaşma ilə kifayətlənilməsi;
- ermənilərlə havadarlarının planlarına uyğun olaraq tez-tez razılaşdırılan və elə onların özləri tərəfindən də pozulan atəşkəslərdə Rusiyanın köməyini vurğulamaqla münaqişənin həllinin rəsmi Moskvanın ixtiyarına verilməsinə (öhdəsinə buraxılmasına) meyllənilməsi;
- ATƏM-in Minsk Qrupunun-AR tərəfindən haqlı və əsaslı olaraq məqbul sayılmayan - "Cədvəl"ini Azərbaycanın qəbul etməsinə çalışılması;
- Ermənistanın yeni təcavüzkar hərəkətlərinin qınanmaması və təzəliklə tutulan rayonların (Füzuli, Cəbrayıl, Qubadlı) adlarının sənəddə çəkilməməsi;
- təcavüzün nəticələri aradan qaldırılmadan, yəni Azərbaycanın işğal olunan torpaqları azad edilmədən kommunikasiya və nəqliyyat üçün maneələrə son qoyulmasının istənilməsi;
- işğalçı qoşun hissələrinin tutulan ərazilərimizdən çıxarılmaları üçün konkret vaxtın qoyulmaması və qətnamələrin şərt-tövsiyələrinə əməl etməyən tərəfə sanksiyalar tətbiqinin nəzərdə tutulmaması və s.

Böyük güclərin "ərköyün övladı"na çevrilən Ermənistanın Azərbaycana hərbi təcavüzünə qarşı əməli beynəlxalq səylərin olmaması onun AR-in Zəngilan rayonunu və Horadiz şəhərini də işğal etməsi ilə nəticələndi. Artıq ənənəvi şəkil alan prosesə, yəni Ermənistanın yeni işğal aktına+Azərbaycanın xahişinə əsasən+BMT TŞ-də keçirilən müzakirəyə müvafiq surətdə **884 saylı (11.XI.1993) qətnamə** qəbul edildi.

Onun ədalətli (Azərbaycanı qaneedici) cəhətləri:

- münasibətlərdəki gərginliyin Ermənistanla Azərbaycan arasında yaşanmasının (davam etməsinin) qeyd olunması;
- həddindən artıq güc tətbiqiylə AR-in Zəngilan rayonu ilə Horadiz şəhərinin işğalının məhkum edilməsi və onun təşviş yaratmasının vurğulanması;
- böyük sayda mülki şəxsin ən sonuncu yerdəyişməsinin Azərbaycanın cənub sərhədlərində fövqəladə humanitar şəraitin yaranmasına gətirib çıxarması;
- hərbi əməliyyatların və düşmənçilik aktlarının dərhal dayandırılmasının, işğalçı qüvvələrin yenicə tutulan ərazilərdən birtərəfli surətdə, habelə qəsbkar qüvvələrin AR-in bu yaxında ələ keçirilən rayonlarından çıxarılmalarının tələb edilməsi;
- ATƏM MQ-nin 9 üzvünün bəyanatında (4.XI.1993; № 9/26718 saylı) əks olunan – atəşin dayandırılmasına dair birtərəfli bəyannamələrə aid – təkliflərin yüksək qiymətləndirilməsi;
- zərərçəkmiş bütün mülki əhaliyə, o cümlədən yenicə işğal edilən ərazilərin və AR-in cənub sərhədlərinin camaatına təcili humanitar yardım göstərilməsinə, qaçqınların və məcburi köçkünlərin öz evlərinə layiqincə və təhlükəyə məruz qalmadan qayıtmalarına kömək edilməsi.

Bu qətnamənin mənfi cəhəti isə əvvəlki müvafiq sənədlərdə özünə yeralan ədalətsiz mövqeləri yenidən təkrarlaması hesab oluna bilər:

- Ermənistanın Azərbaycana hərbi təcavüzünün yalnız "Dağ-

lıq Qarabağda və onun ətrafında münaqişə" kimi səciyyələndirilməsi;

- Ermənistanın sadəcə "Dağlıq Qarabağ ermənilərinin hərbi kampaniyaya cəlb olunmuş qüvvələrini əməliyyatları davam etdirmək üçün vəsaitlə təchiz edən" tərəf kimi qiymətləndirilməsi;
- bu kimi yanaşmalarla da Dağlıq Qarabağın ayrıca bir tərəf olaraq nəzərdən keçirilməsi;
- atəşkəsin pozulmasının və bu əsasda da hərbi əməliyyatların yenidən başlamasının səbəbkarının, yəni Ermənistanın adının çəkilməməsi;
- "Rusiyanın yardımı ilə yaradılan birbaşa əlaqələrin nəticəsində əldə olunan atəşkəs" və s. fikirlərlə münaqişənin tənzimlənməsində onun vasitəçiliyinə üstünlük verilməsi;
- yenə də işğalçı qoşunların Azərbaycan torpaqlarından çıxarılma vaxtının göstərilməməsi və qətnamələrə əməl etməyən tərəfə sanksiyaların tətbiqindən bəhs edilməməsi;
- "işğalçı qüvvələr", "maraqlı tərəflər", "atəşkəsin pozulmasıyla hərbi əməliyyatların yenidən başlaması", "bu yaxında işğal olunmuş rayonlar", "regionun bütün dövlətlərinin münaqişənin böyüməsinə yönəlik müdaxilədən çəkinməyə çağırılması" və digər belə çoxlu üstüörtülü, ikibaşlı, ziddiyyətli ifadələrin (fikirlərin) önə çəkilməsi.

Ermənistan-Azərbaycan münaqişəsinin həlli BMT Baş Katibinin də diqqət mərkəzində olan məsələlərdən sayılır. Münaqişənin tənzimlənməsinə dair məqamlar onun bir sıra sənədlərində və müxtəlif səviyyəli görüşlərində vaxtaşırı nəzərdən keçirilir. Belə sənədlərdən biri də TŞ sədrinin bəyanatındakı (6.IV.1993) müraciətə əsasən hazırlanan ayrıca məruzə (14.IV.1993) hesab olunur. Baş Katib B.Qalinin məruzəsi münaqişə bölgəsindəki real durumu dürüst (obyektiv) əks etdirmirdi və ziddiyyətli məqamlara malik idi. Ən başlıcası da, sənəddə rəsmi İrəvanın mövqeyinə istinadən Ermənistanın münaqişədə tərəf olmadığı, o cümlədən də Kəlbəcər rayonunun

işğalında iştirak etmədiyi bildirilirdi. Məruzə habelə BMT təmsilçilərinin regiona (münaqişə bölgəsinə) göndərilməsini nəzərdə tuturdu.

B.Qalinin AR-ə rəsmi səfəri (X.1994) zamanı da H.Əliyevlə görüşündə "Dağlıq Qarabağ problemi" ilə əlaqədar müzakirələr oldu. Baş Katib BMT-nin məlum qətnamələrinin prinsipləri və münaqişənin tənzimlənməsi sahəsində qarşıda duran vəzifələri açıqladı, müəyyən tövsiyələr verdi. Onun nəzər nöqtəsinə görə, **qətnamələrdə əsas tutulan başlıca prinsiplər** bunlardı: **1.** AR-in ərazi bütövlüyü. **2.** Azərbaycanın sərhədlərinin toxunulmazlığı. **3.** Ərazi əldə edilməsi üçün qüvvə tətbiqinin yolverilməzliyi. **4.** İşğal olunan torpaqlardan qoşunların danışıqsız və təcili çıxarılması.

Baş Katibin fikrincə, problemin həlli ilə bağlı qarşıda üç mühüm vəzifə dururdu: **a)** BMT TŞ-nin məlum qətnamələrinin yerinə yetirilməsinin təmin edilməsi; **b)** ATƏM-in səylərinə maksimum dəstək verilməsi; **c)** əməli nəticələr qazanılması və təkrarçılıqdan qaçılması üçün bütün sülh təşəbbüslərinin (təkliflərinin) BMT vasitəsilə koordinasiya olunması. (O, çoxsaylı və razılaşdırılmamış təşəbbüs və planların regionda sülh yaradılmasına maneə törətdiyi qənaətində idi. Yeri gəlmişkən, Vaşinqtondakı Ceymstaun Fondunun prezidenti Q.Hovard da son zamanlarda (X.2008) "Amerikanın səsi"nə müsahibəsində bu mövqeni təkrarlayan belə fikirlər söyləmişdi: Qarabağla bağlı sülh təşəbbüslərinin çoxluğu təhlükəlidir, indi regionda sülh təşəbbüslərinin koordinasiya edilməsinə böyük ehtiyac var; əks halda vəziyyət qaş düzəldən yerdə gözün çıxarılmasına dönəcəkdir). Bakıdakı BMT-AR müzakirələrinin gedişində Baş Katib həmçinin regiona ya BMT, ya da MDB, yaxud bu iki təşkilatın birgə sülhyaradıcı qüvvələrinin göndərilməsi fikrini söyləmişdi.

Ermənistanın Azərbaycana təcavüzünə son qoyulması və "Dağlıq Qarabağ problemi"nin ədalətli həlli məsələləri **BMT Baş Assambleyasının sessiyalarında** da AR rəsmiləri tərəfindən

bu və ya digər səpkilərdə qaldırılmışdı. **AR XİN-i T.Qasımov 17-ci (IX.1992) və dövlət başçısı H.Əliyev 49-cu** (IX.1994) sessiyalarda çıxış edərək beynəlxalq birliyin diqqətini münaqişənin təxirəsalınmadan tənzimlənməsinə yönəltmişdilər.

BMT, onun ali orqanları, o cümlədən də Baş Assambleya Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı məsələlərə vaxtaşırı diqqət ayırsa da arada elə bir ciddi nəticə olmadı və ayrıca önəmli sənədlər qəbul edilmədi. **Yalnız 2008-ci ilin martın 14-də keçirilən 62-ci sessiyada "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamə** qəbul olundu. AR-in BMT-dəki Daimi nümayəndəsi A.Mehdiyevin çıxışı və müzakirələr əsasında ərsəyə gələn bu qətnamə 9 bənddən ibarətdir. Onun qəbulu ilə bağlı keçirilən səsvermənin nəticələri və bəzi dövlətlərin Ermənistan-Azərbaycan münaqişəsində tutduqları mövqe də diqqətçəkicidir. **Səsvermənin nəticələri** belə olmuşdur: qətnamənin qəbulunun lehinə-39, əleyhinə-7, tərəfsiz-100.

Səsvermənin təhlili belə bir mənzərəni ortaya çıxardı. BMT TŞ-nin daimi üzvlərindən 3 dövlət (həm də ATƏT-in MQ-nun həmsədrləri: Rusiya, ABŞ, Fransa) qətnamənin qəbulunun əleyhinə səs verdilər. Digər 2 daimi üzv (Böyük Britaniya və Çin) bitərəf qaldılar. Böyük (aparıcı) dövlətlərdən Hindistan qətnaməyə qarşı çıxıbdır (Sözgəlişi, bununla bağlı AR ona nota vermişdir. Ekspert və analitiklər rəsmi Dehlinin bu cür mövqeyini Kəşmir problemi ilə bağlı rahatsızlıqla izah edirlər). Qətnamənin əleyhinə səs verən digər iki dövlət isə Anqola və Vanuatudur (Birincinin keçmiş prezidentlərindən E.Duş Santuş Azərbaycan Neft və Sənaye institutunun ("Azi"nin) məzunu olubdur. Vanuatu Melaneziyada sakitokean dövlətidir. 1980-ci ildə müstəqillik əldə etmişdir. Dünyanın ərazicə (12336 km^2) 157-ci, əhalicə (215446 nəfər) 184-cü, ÜDM-ə görə isə (699 mln.) 182-ci dövlətidir). ATƏT-in Minsk Qrupunun üzvlərindən isə 2-si: Azərbaycan və Türkiyə qətnamənin lehinə, 4-ü (həmsədr dövlətlər+ Ermənistan) əleyhinə səs vermiş, 4-ü (Almaniya, İtaliya, İsveç, Çexiya,) tərəfsiz mövqe tutmuş, 1-i

(Belarus) isə, ümumiyyətlə, səsverməyə qatılmayıbdır. ABŞ-ın BMT-dəki Daimi nümayəndəsinin müavini D. Vulf ATƏT MQ adından qətnaməni rədd edibdir. Pakistan İKT-nin mövqeyindən və Ukrayna da GUAM-ın tərəfindən çıxış edərək onu bəyəniblər. İran da qərtnamənin lehinə səsverənlər sırasında olubdur.

Qətnamənin əsas məqamları və tələbləri sırasında bunların önə çəkilməsi lazım gəlir: **1.** AR-in ərazi bütövlüyünün təkrarən tanınması. **2.** Ermənistanın hərbi hissələrinin işğal edilmiş ərazilərdən qeyd-şərtsiz və dərhal çıx(arıl)ması. Sənədə dair çoxlu politoloji-diplomatik dəyərləndirilmələr mövcuddur. Onu **təqdir edən yanaşmalara** görə bu sənəd:

- BMT TŞ-nin məlum 4 qətnaməsini və AR-in ərazi bütövlüyünü təkrarən (növbəti dəfə) təsdiqləyir.(Bu məqam rusiyalı həmsədr Y.Merzlyakovun hələ 2001-ci ildə söylədiyi "BMT-nin qətnamələrinə ümid etməyin, onlar köhnəlibdir" kimi fikirlərin dəyəri və təsirini heçə endirir ;
- orada erməni deyil, Ermənistan hərbi qüvvələri fikrinin işlədilməsi baxımından çox önəmlidir (Bizcə, "Ermənistan" ifadəsinin qətnamənin adında da yazılması daha düzgün olardı);
- "Praqa prosesi"nin və "Madrid sənədi"nin arxivə göndərilməsinə imkan yaratmaqla münaqişənin tənzimlənməsində "**Sıfır variantı**"na qayıdışı şərtləndirir;
- AR XİN-in rəsmisinin (A.Əzimovun) fikrincə, "Ermənistana ismarıc, həmsədrlərə isə xəbərdarlıqdır";
- ABŞ-ın NATO-nu Qafqaza doğru genişləndirmək planına təkan ola bilər;
- AR-in diplomatiyasının mənəvi və nəzəri uğuru, bir növ, "BMT-də Azərbaycan fırtınası"dır (Burada 1919-cu il noyabrın 23-də ABŞ təmsilçisi, polkovnik C.Reyin vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında bağlanan sazişlə bağlı ölkəmizdəki pafoslu dəyərləndirilmələr yada düşür- İ.M.).

Qətnaməni **məqbul saymayan mövqelərə** görə isə bu sənəd:

- BMT TŞ-nin məlum qətnamələrindən aşağı pillədir və onlarla eynihüquqlu, məcburedici deyil;
- Azərbaycan diplomatiyası üçün **"Pirr qələbəsi" və ya "Lissabonsayağı uğur**"dur;
- AR-in 15 il əvvəlki mövqeləri ilə müqayisədə geriyə addımdır;
- Minsk Qrupu həmsədrlərinin (M.Brayza, Y.Merzlyakov və B.Fasyenin) nöqteyi-nəzərincə, "Qarabağ danışıqlarının ruhuna və son vaxtlarda əldə edilən müsbət nəticələrə ziddir, çünki orada Dağlıq Qarabağın statusuna dair referendum keçirilməsi öz əksini tapmamışdır" (Yeri gəlmişkən, həmsədrlərin bu cür yanaşması "vasitəçilərə etimadımızı zədələmişdir, onlar Azərbaycan əleyhinə lobbiçilik edirlər" kimi fikirlərin yaranmasına əsas verir. Bu hal hətta Azərbaycanda MQ-dən imtina və ya, heç olmazsa, həmsədrlərin sırasında Fransanın Türkiyə ilə əvəzlənməsi fikirlərini gündəmə gətirmişdi. Amma həmsədrlər bu qətnamə ətrafında gedən diplomatik söz-söhbətlərə münasibətlərini açıqlayarkən AR-in ərazi bütövlüyünü tanıdıqlarını bildirdilər);
- Rusiya XİN-in açıqlamasına görə, rəsmi Bakının maraqlarına uyğundur və s.

Lap son vaxtlarda ortaya çıxan məlumata görə, Azərbaycan həmin sənədin layihəsini BMT-dən geri götürüb. Bununla sənədin 2009-cu il dekabrın 3-də keçiriməli olan müzakirəsindən imtina edilibdir. Təşkilatın mətbuat xidmətindən "Turan" agentliyinə verilən məlumatda sənədin müzakirəsinin qeyri-müəyyən müddətə təxirə salındığı təsdiqlənibdir. Habelə bu təşəbbüsün AR tərəfindən edildiyi bildirilibdir. (AR XİN-in rəsmisi E.Poluxov "dinləmələrin texniki səbəblərdən təxirə salındığını"deyibdir). Ekspertlər bu, diplomatik qərarın AR XİN-in müavini A.Əzimovun ABŞ ilə Azərbaycan arasındakı təhlükəsizlik dialoqunda (Vaşinqton - XII.2009) iştirakından sonra qəbul edilməsinə diqqət yetirirlər.

Burada BMT-nin ümumi səciyyəvi bir sənədindən də bəhs etmək lazım gəlir. 2009-cu ilin dekabrında BMT Baş Assambleyasının 64-cü sessiyasında "Xalqların öz müqəddəratını təyinetmə hüququnun ümumi reallaşması" adlı qətnamə səsvermə-siz qəbul olunubdur. BMT üzvü olan 50-dən çox dövlətin, o cümlədən də Azərbaycanla Ermənistanın müəllifləri olduqları həmin sənəd bir neçə cəhətdən maraq doğurur. Qətnamədə milli müqəddəratı təyinetmə hüququnun həyata keçirilməsinin və onun pozulması hallarına xüsusi diqqət yetirilməsinin vacibliyi vurğulanır. Ermənistan bu sənədə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində əldə edilən uğur kimi yanaşır. Ancaq qətnamədə xalqların təyin müqəddərat hüququnun konkret münaqişələrin nizamlanmasında tətbiqi nəzərdə tutulmur. Sənəddə yalnız tövsiyə səciyyəli bəzi məqamlar vardır. Azərbaycanın bu məsələ ilə bağlı dəfələrlə açıqlanan-xatırladılan mövqeyi isə məlumdur: ermənilərin öz müqəddəratını təyinetmə hüququ adı altında Azərbaycan torpaqlarında özlərinə ikinci dövlət qurmaları yolverilməzdir və mümkünsüzdür. Çünki **həmin "hüququn məntiqi" ilə dünyanın xeyli ölkəsində çoxlu erməni dövlətləri qurulmalıdır.**

Bütün yuxarıda qeyd edilənlərdən bəlli olduğu kimi, BMT Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi sahəsində müəyyən səylər göstərmişdir. Amma digər problem və münaqişələrdə (Əfqanıstan, Yaxın Şərq, Kipr, Kəşmir və s.) olduğu kimi bu məsələdə də BMT yalnız çoxlu qətnamə, bəyanat, təklif və s. ilə diqqəti cəlb etmişdir. (Elə təkcə **Fələstin problemi ilə bağlı 1400 qərar** qəbul edilmişdir). Yəni münaqişələrin həllində əməli nəticələrə nail olunmamışdır. "Dağlıq Qarabağ problemi"nin tənzimlənməsini isə BMT, bir növ, ATƏT-in ixtiyarına buraxaraq bu prosesdən, demək olar ki, kənarda qalmışdır.

ATƏT-nin konfliktin həllinə dair səyləri

Azərbaycan Respublikasını öz sıralarına alan ATƏM (ATƏT) də, təbii olaraq, "Dağlıq Qarabağ problemi"ni həll

etməyə çalışır. Onun müvafiq səyləri 1992-ci ilin əvvəllərindən etibarən başlamışdır. Bu prosesə ATƏM-in AR-ə xüsusi missiya göndərməsi (II.1992) və habelə təşkilatın müəyyən strukturlarındakı müzakirələrlə rəvac verildi.

ATƏT-in münaqişənin tənzimlənməsinə dair **ilkin səyləri** əsasən çoxsaylı müzakirələr, regiona missiyalar və xeyli "Cədvəl"lərin qəbulu ilə əlamətdardır. Belə müzakirələr öncə təşkilatın Yüksək Vəzifəli Şəxslər Komitəsinin (YVŞK-nın) və Xarici İşlər Nazirləri Şurasının (XİNŞ-in) toplantılarında aparıldı (YVŞK-təşkilatın Nazirlər Şurasına yardımçı struktur olub, 1994-cü ilin dekabrından Ali Rəhbər Şura adlanır). YVŞK-nın Praqa ilə Helsinkidə keçirilən 7-11-ci (II-V.1992) iclaslarındakı, XİNŞ-in toplantısındakı (III.1992) müzakirələr, qurumun o vaxtkı sədri Y.Kubişin münaqişə bölgəsinə səfərləri (II-III.1992), bütün bunların əsasında hazırlanan məruzələr və çıxarılan qərarlar ATƏM-in rəhbər strukturlarının gəldikləri bu kimi qənaətləri (tövsiyələri) qeyd etməyə əsas verir:

- Dağlıq Qarabağın Azərbaycan torpağı olması;
- münaqişənin sülh yolu (sərhədlərin dəyişdirilməməsi şərti) ilə tənzimlənməsi;
- bu məqsədlə də Dağlıq Qarabağa dair Minsk Sülh konfransının çağırılması və onun Yekun sənədinin qəbul olunması;
- həmin kontekstdə də Minsk Qrupunun yaradılması və s.

Bu dövrdən, yəni 1992-ci ilin martından etibarən (ta indiyədək) ATƏM (ATƏT) "Dağlıq Qarabağ problemi"nin həlli ilə məhz **Minsk Konfransı (MK)-Minsk Qrupu (MQ)** çərçivəsində məşğul olur (MK və MQ Azərbaycan, Ermənistan, Türkiyə, ABŞ, Rusiya, Fransa, Almaniya, İtaliya, Belarus, İsveç, Çex-Slovak Federativ Respublikasının təmsilçilərindən formalaşdırılmışdı. Minsk Konfransı – Minsk Qrupuna əvvəllərdə M.Rafaelli, Y.Eliasson, A.Bürner sədrlik etdilər. ATƏM-in Budapeşt sammitində (5-6.XII.1994) isə həmsədrlik institutu təsis olundu. Öncə həmsədrlik Rusiya və Finlandiyaya tapşırıldı, birinciyə hətta Daimi status verildi (Bu da, bir yandan, ATƏM-

Rusiya münasibətlərindəki gərginliyin yumşaldılması, digər tərəfdən də, rəsmi Moskvanın münaqişənin həlli sahəsindəki "fərdi sülhpərvərlik" məramının əngəllənməsi ilə izah olunur). MK-ya V.Lozinski və H.Talvitye, MQ-yə isə V.Kazimirov və R.Niberq həmsədrlik etməyə başladılar. 1997-ci ilin lap əvvəllərində isə Finlandiya Fransa və ABŞ ilə əvəz edildi. Rusiyadan Y.Yukalov, Fransadan J.Blo və ABŞ-dan isə S.Talbott Minsk Qrupunun həmsədrləri oldular. Hazırkı həmsədrlər Y.Merzlyakov, B.Fasye və R.Bradtkedir.

Minsk Qrupunun ilkin fəaliyyətinin öyrənilməsi və təhlili əsasında aşağıdakıları önə çəkmək lazımdır:

1.Minsk Konfransının 1992-ci il iyunun 23-də və 1993-cü il avqustun 7-dən gec olmayaraq rəsmən açılmasına dair ilk iki cəhd nəticə vermədi. Minsk Qrupunun çoxmərhələli Roma danışıqlarında (VI.1992; II,IV.1993) AR-in işğalçı qoşunların Şuşa ilə Laçından çıxarılması və məcburi köçkünlərin yerlərinə qayıtmaları tələbi ermənilərin Goranboy-Ağdərəyə dair iddialarıyla qarşılaşdı. Münaqişə tərəfləri həmçinin Dağlıq Qarabağın Minsk Konfransında təmsil olunması məsələsində də razılığa gələ bilmədilər. Ermənilər müşahidəçi statusu ilə razılaşmayıb tamhüquqlu iştirakçı tələbi ilə çıxış etdilər. Onlar həm də Türkiyənin konfransda iştirakına qarşı çıxdılar. Azərbaycan tərəfi isə DQ icmaları təmsilçilərinin yalnız AR nümayəndə heyətinin tərkibində konfransa qatıla biləcəklərini mümkün saydı.

2.Minsk Konfransının ilk sədri M.Rafaellinin münaqişə bölgəsinə səfərləri zamanı (V,VIII.1992; VII.1993) edilən-hərbi əməliyyatların dayandırılması, müşahidəçilərin ilkin qrupunun cəbhə xətti boyu yerləşdirilməsi və s.- təkliflər də ermənilər tərəfindən birmənalı qarşılanmadı. Yəni atəşkəsin tətbiqinə dair Alma-Ata Memorandumu (27.VIII.1992) və onun əsasında imzalanan İcevan protokolu (3.IX.1992) ermənilərin pozucu hərəkətləri üzündən həyata keçirilmədi.

3.Ermənistan nizami ordu hissələrinin AR-in Kəlbəcər rayonunu işğal etmələri **ATƏM-in rəhbər qurumlarının və**

MQ-nin bir sıra sənədlərinin ərsəyə gəlməsini şərtləndirdi. Onlardan bəzilərinin qısaca nəzərdən keçirilməsi bunları açıqlamağa imkan verir:

a) YVŞK-nın Praqada keçirilən fövqəladə iclasında (IV.1993) qəbul edilən bəyanat. O, münaqişə bölgəsindəki real durumu dəqiq və tam əks etdirə bilmədi. Rusiyanın müdafiə etdiyi Ermənistanın konsessusdan imtina hüququndan iki dəfə yararlanması nəticəsində:

- Azərbaycan torpaqlarını tutan silahlı qüvvələrin oralardan çıxarılması tələbi bəyanatda öz ifadəsini tapmadı;
- habelə sənəddə qeyd edilən "işğalçı qüvvələr"in kimliyi açıqlanmadı (Ermənistan Kəlbəcərin DQ erməniləri tərəfindən tutulduğunu bildirdi).

b) MK və MQ-nin iştirakçılarından "Doqquzlar"ın (Azərbaycanla Ermənistandan savayı dövlətlərin) Roma toplantısında (VI.1993) qəbul edilən "Təxirəsalınmaz tədbirlər cədvəli". ("Roma cədvəli" adlandırılan bu tədbirlər bir qədər sonra yeniləşdirildi və diplomatiya dairələrində "Paris cədvəli", "Vyana cədvəli" kimi tanınan sənədlərlə tamamlandı).

"Roma cədvəli" nəzərdə tuturdu:

- münaqişə tərəflərinin onu dərhal və qeyd-şərtsiz qəbul etmələrini;
- erməni qoşunlarının iyunun 21-dək Kəlbəcərdən çıxarılmalarını;
- MQ üzvü olan dövlətlərin təmsilçilərinin Cenevrədə qeyri-formal məsləhətləşmələr keçirmələrini;
- cəbhə bölgəsində beynəlxalq müşahidəçilərin yerləşdirilməsini;
- Minsk konfransının 1993-cü il avqustun 7-dən gec olmayaraq işə başlamasını.

"Doqquzlar"ın ilk (Roma) "cədvəl"i müxtəlif dəyərləndirmələrə səbəb olmaqla yanaşı münaqişə tərəflərinin fərqli mövqelər tutduqlarını göstərdi. Bəzi analitiklərə görə, "Roma cədvəli" əslində üçtərəfli (ABŞ, Rusiya, Türkiyə) planın – Ermənistanın rədd, Azərbaycanınsa qəbul etdikləri-üçüncü variantının (V.1992) təkrarı idi. AR-in bəyəndiyi bu "cədvəl" ilə Ermənistan razılaşmadı. Bu da ermənilərin Dağlıq Qarabağın münaqişə tərəfi kimi tanınmasına və Minsk Konfransının tamhüquqlu iştirakçısı olmasına yönəlik səyləri ilə bağlı idi.

"Roma cədvəli"nin yeniləşdirilməsi, yəni müəyyən müzakirələr, əlavələr, düzəlişlər əsasında **"Paris cədvəli" (IX.1993) və "Vyana cədvəli" (XI.1993)** hazırlandı. Həmin iki "cədvəl"in başlıca məqamları, onlara dair **dəyərləndirmələr- mövqelərlə** bağlı aşağıdakıları ümumiləşmiş qaydada (tezisvari) belə qeyd etmək olar:

1. Paris-Vyana "cədvəl"lərində BMT-nin sənədlərinin (ilk üç məlum qətnamə və s.) tələblərindən geriçəkilmə hallarına yol verilmişdi. Belə ki, Azərbaycan tərəfinin təkliflərinin nəzərə alınmaması üzündən BMT-nin işğalçı qoşunların tutduqları ərazilərdən qeyd-şərtsiz çıxarılmaları barədə tələbinə məhəl qoyulmadı, yəni bu sahədə müəyyən ilkin şərtlər (öncə kommunikasiyaların açılması və s.) irəli sürüldü. "Cədvəl"lər güc (zor) vasitəsilə *ərazi əldə edilməsi* və ona hüquqi statusa nail olunmasına çalışılmasını pisləyərək rədd etsə də, işğalçı qüvvələrin Şuşa və Laçından çıxarılmaları tələbini qoymurdu. Bu sənədlər habelə münaqişənin əslində mərhələlərlə həllini nəzərdə tuturdu. Yəni atəşkəs-işğalçı qoşunların çıxarılması-status sxemi (sistemi) əsas götürülürdü (Status məsələsi Minsk Konfransında müzakirə edilməli idi).

2. "Cədvəl"lər də, BMT qətnamələri kimi, "münaqişə iştirakçısı olan tərəflər", "tutulan ərazilər" və digər üstüörtülü ifadə-fikirlərdən xali deyildi. Onlarda da Ermənistanın Azərbaycana hərbi təcavüzün birbaşa tərəfi və səbəbkarı olması açıqca yazımırdı. Bunun üzündən də, Dağlıq Qarabağın erməni *icması* münaqişə tərəfi adına və bunun ardınca isə beynəlxalq siyasi- hüquqi statusa iddia edirdi.

3. Bu sənədlər də, ATƏM-in fəaliyyət prinsipləri və mexanizmindən irəli gələn səbəblərə görə, əməli təsir gücü və

imkanlarına malik deyildi. Onlar məsləhət (tövsiyə) səciyyəli olduqlarından razılaşmaları pozan tərəfə təzyiq göstərmə, heç olmazsa sanksiyalar tətbiqi və s. imkanlara malik deyildilər. Əslində "cədvəl"lər yalnız münaqişə bölgəsinə müşahidəçilər qrupu (o da tərəflərin qarşılıqlı razılığına əsasən) göndərmək səlahiyyəti verirdi (Ayrıca 1993-cü il 1 mart tarixli mandat da mövcud idi). Təşkilatda tətbiq edilən "qarşılıqlı güzəşt" qaydası-prinsipi də razılaşmalara əməl etməyən tərəfin məsuliyyətdən yayınmasına şərait yaradırdı.Müvafiq məsləhətləşmələr əsasında gəlinən razılaşmaları "pozan tərəfin məsuliyyət daşıyacağı"na dair xəbərdarlıq və tələblərə Ermənistan əsla məhəl qoymurdu. BMT qətnamələrinin prinsiplərini pozan və "cədvəl"lərin tələblərinə əməl etməyən Ermənistan hətta beynəlxalq hüququn qaydalarına kobudcasına etinasızlıq göstərdi. Yəni diplomatiyada nonsens sayıla biləcək hərəkət etdi: ATƏM sədri xanım M.Uqlasın 1993-cü il oktyabrın sonlarında münaqişə bölgəsinə səfəri zamanı AR-in Zəngilan rayonunu tutdu (Beynəlxalq diplomatiya və hüquqa belə hörmətsizlik halları Ermənistan üçün səciyyəvidir. Azərbaycan və Ermənistanın dövlət başçılarının İranın vasitəçiliyi ilə Tehranda keçirilən danışıqları zamanı (V.1992) da Şuşa işğal olunmuşdu).

4. Azərbaycan-təkliflərinin nəzərə alınmaması və bununla bağlı BMT TŞ-yə, ATƏM-in strukturlarına etdiyi müraciətlərə məhəl qoyulmamasına görə-"cədvəl"lərin bir sıra prinsip və tədbirlərini ədalətsiz, gerçəklikdən uzaq sayaraq bu sənədlərlə haqlı olaraq tam razılaşmadı. Beynəlxalq hüquqa, BMT və ATƏM-ə, digər təşkilatlara, onların sənədlərinə kobudcasına saymazlıq edən Ermənistan isə Azərbaycanı "cədvəl"lərlə razılaşmamaqla sülhyaratma prosesini əngəlləməkdə (pozmaqda) təqsirləndirdi.

Roma+ Paris+Vyana "cədvəl"lərindən ATƏM-in Budapeşt Zirvə toplantısına qədərki dönəmdə də "Dağlıq Qarabağ problemi"nin həllinə dair müzakirə-məsləhətləşmələr aparıldı, xeyli sənədlər (protokol, tədbirlər planı və s.) qəbul edildi, bə-

yanatlar verildi. Bu şərti **yarımmərhələ də bir sıra proses və hadisələrlə** səciyyəvidir. Onların başlıcaları sırasında isə aşağıdakıların qeyd edilməsi gərəkir:

- münaqişənin tənzimlənməsi ilə bağlı ATƏT-Rusiya qarşılaşması (ixtilafları);
- ATƏM-in Parlamentlərarası Assambleyasının Vyana sessiyası (VII.1994)-Minsk Qrupunun "Azərbaycanın işğal olunmuş torpaqları" ifadəsi (etirafı);
- MQ-nin Praqa görüşü (IV.1994)- "Etimadı möhkəmləndirmək tədbirləri" planının qəbulu;
- "Bişkek danışıqları (protokolu)" və Rusiyanın "Böyük Siyasi Sazişi" ətrafında diplomatik mübahisələr və s.

Ermənistanın Azərbaycana hərbi təcavüzünü təşkil və himayə edən Rusiya münaqişənin bütün beynəlxalq təşkilatlar, o cümlədən də ATƏT vasitəsilə tənzimlənməsini əngəlləyir. Minsk Qrupunda daimi həmsədrlik statusuna malik olan Rusiya münaqişənin "həlli"ndə tək sözsahibi olmağa çalışır. Ümumiyyətlə, "Dağlıq Qarabağ problemi"nin həllimdəki **ATƏT-Rusiya ixtilaflarının (fikir ayrılıqlarının) başlıca məqamları** özünü bunlarda təzahür etdirir:

- ATƏT çoxtərəfli vasitəçilik və beynəlxalq sülhyaratma qüvvələrinin formalaşdırılması, bununla həm də Qafqazın yenidən tamamilə Rusiyanın nüfuz dairəsinə keçməsinə imkan verilməməsi mövqeyindən çıxış edir;
- Rusiya isə bu təşkilatı sülh prosesindən kənarlaşdırmağa, münaqişənin (beynəlxalq nizamlama görüntüsü olaraq) MDB çərçivəsində - özünün təklikdəki missiyası vasitəsilə "həllinə çalışır". Bunlara görə də cəbhə bölgəsinə yalnız öz qoşunlarının göndərilməsinə səylər göstərir. Bununla da, Cənubi Qafqazda təsir (nüfuz) dairəsini genişləndirmək və möhkəmləndirmək məqsədini güdür (Yeri gəlmişkən, onun öz hərbi hissələrini yenidən Azərbaycana qaytarmaq cəhdi 1994-cü ilin mayında respublikada xalqın güclü etiraz çıxışlarına və Milli Müqavimət Hərəkatının yaranmasına rəvac verdi).

Rəsmi Moskva hələ münaqişənin nizamlanmasına dair ilkin beynəlxalq səylər mərhələsində bir sıra təşəbbüs, plan, saziş layihələri və s. ilə çıxış etdi. Bunlar həm də ATƏM-in vasitəçilik missiyasını əngəlləmək, təşəbbüsü ondan qoparmaq məqsədlərini güdürdü. ATƏM də öz növbəsində vasitəlikdəki missiyasını davam etdirməkdə israrlı olaraq bəzi yeni sənədlər hazırladı. Nəticədə **ATƏM-Rusiya qarşılaşmasının ifadəsi olan planlar** ortaya çıxdı: **a)** Moskva, Bakı və İrəvanın təmsilçilərinin RF paytaxtındakı görüşündə (II.1994) müzakirə edilən Rusiya planı; **b)** Minsk Qrupunun Praqa toplantısında (IV.1994) hazırlanan "Etimadı möhkəmləndirmək tədbirləri" planı və "Doqquz"ların yeni bəyanatı.

Rusiyanın planı, yəni "Silahlı münaqişəyə son qoymaq və onun nəticələrini ləğv etmək haqqında" saziş nəzərdə tuturdu:

- tərəflərin BMT-nin məlum qətnamələrinin reallaşdırılmasına kömək etmələrini;
- Ermənistanla yanaşı Dağlıq Qarabağın erməni icmasının da münaqişə tərəfi kimi tanınmasını və ona-azərbaycanlı icmasından fərqli olaraq – müzakirə edilən sənədləri imzalamaq hüququnun verilməsini;
- Dağlıq Qarabağın hüquqi statusunun sonralar və qarşılıqlı güzəştlər əsasında müəyyənləşdirilməsini;
- işğal olunmuş torpaqların azad edilməsini və boşaldılan ərazilərdə, lokal təhlükəsizlik zonalarında Rusiya hərbiçilərinin başçılıq etdikləri Birləşmiş Qərargah hərbi qüvvələrinin yerləşdirilməsini (Onların tərkibi açıqlanmırdı.Habelə Şuşa məsələsinə münasibət bildirilmirdi. Laçın rayonunun isə Ermənistanla Dağlıq Qarabağ arasındakı yolun ("Dəhliz"in) təhlükəsiz işləməsini təmin edən beynəlxalq nəzarət rejiminin yaradılması ilə eyni vaxtda azad olunması nəzərdən keçirilirdi).

ATƏM-in Minsk Qrupunun "Praqa sənədləri" ("Etimadı möhkəmləndirmək tədbirləri" və "Doqquzlar"ın bəyanatı) ilə Rusiyanın planı arasında **uyğun gələn və uzlaşmayan məqamlar** vardı. Belə ki, **üst-üstə düşən hallarla** bağlı, hər iki plan BMT-nin məlum qətnamələrinin "işğalçı qoşunların tutulan ərazilərdən qeyd-şərtsiz çıxarılması" tələbinin əvəzində zəbt edilən torpaqlarımızınn ilkin şərtlərlə (Azərbaycanın Ermənistanla və Dağlıq Qarabağla bütün kommunikasiyaları açması və s.) boşaldılmanı əsas götürürdü. **Toqquşan mövqelərə** gəldikdə isə Rusiya planı Minsk Konfransının mandatıyla, habelə MQ-nin Dağlıq Qarabağı münaqişə tərəfi kimi tanımamasına dair mövqeyi ilə uzlaşmırdı. Bunlara görə də Rusiya planı yetərli (məqbul) sayılmadı (Sözgəlişi, "Doqquzlar"ın "Praqa bəyanatı"nda münaqişə bölgəsində hərbi şəraitin yenidən kəskinləşməsindən rahatsızlıq bildirilsə də, bu halın səbəbkarı və atəşkəsin mexanizmi açıqlanmırdı).

Bişkek danışıqları (protokolu) və "Böyük Siyasi sazişlə" ("BSS") bağlı da ATƏM-Rusiya mübahisələri (ixtilafları) oldu. Minsk Qrupuna üzv olan dövlətlərin-MDB Parlamentlərarası Məclisinin (əslində Rusiyanın) təşəbbüsü ilə-Bişkek görüşünün (V.1994) sənədi, yəni Yekun protokolu birmənalı qarşılanmadı. AR sənədlə elan olunan atəşkəslə razılaşsa da, onu bütövlükdə qəbul etmədi (imzalamadı). Çünki Yekun protokolu "qoşunların tutulmuş ərazilər"dən (yenə də üstüörtülü, ümumi ifadələr) çıxarılmasını vacib saysa da erməni icmasını münaqişə tərəfi kimi qəbul edərək ona sənədi imzalamaq hüququ verirdi (Əvvəlkilərdəki kimi, bizim icma "unudulurdu").

Rusiyanın "Böyük Siyasi Saziş"ə dair təklifi və sənədi də ATƏM tərəfindən birmənalı qəbul olunmadı.Öncə Rusiya, Azərbaycan və Ermənistan Müdafiə nazirlərinin Moskva (V.1994) və Minsk Qrupunun Vyana (VII.1994) toplantılarında müzakirə edilən bu sənəd **("BSS") fərqli rəylər və yanaşmalar** doğurdu. Onları qısaca-ümumiləşdirilmiş qaydada belə formulə etmək mümkündür:

a) Minsk Qrupunun o vaxtkı rusiyalı həmsədri V.Kazimirovun nəzər nöqtəsinə görə, Dağlıq Qarabağ münaqişəsi üç

mərhələli tədbirlər prosesi ilə tənzimlənməli idi: I- davamlı atəşkəs rejiminə nail olunması. II-"Böyük Siyasi Saziş"in imzalanması. III- qoşunların tutulan ərazilərdən çıxarılması. (Bu rus diplomatı sonralar, yəni 2007-ci ildə "Realnıy Azerbaydjan" qəzetində dərc etdidiyi seriya yazılarında Minsk Qrupunun ilkin fəaliyyətinə dair çoxlu sensasiyalı, maraqlı, mübahisəli açıqlamalar etmişdi). Rusiya tərəfinin fikrincə, ciddi hüquqi sənəd olan " BSS" Minsk Qrupunun planı ilə müqayisədə çox sadə idi və ümumiyyətlə, ATƏM sülhyaratma mexanizminə malik deyildi. Moskva müzakirələrinin (V.1994) MQ təmsilçilərisiz aparılması isə ayrıca müvafiq ATƏM-Rusiya görüşünün keçirilməsinin nəzərdə tutulması ilə izah olunurdu. Rusiya, həmçinin "BSS"-yə əsasən münaqişə bölgəsinə göndərəcəyi hərbi hissələrə BMT-nin sülhməramlı qüvvələri statusunun (mandatının) verilməsinə səylər göstərirdi.

b) Minsk Konfransı-Qrupunun yeni sədri Y.Eliasson MQ-nin Vyana toplantısında (VII.1994) "Azərbaycanın işğal edilmiş torpaqları" ifadəsini işlətməklə bərabər təzə sülh təşəbbüsü irəli sürərək əslində münaqişənin tənzimlənməsinə dair danışıqlarda növbəti mərhələnin əsasını qoydu. Sədrin "BSS"-yə dair açıqlamasına görə isə ona-Rusiya ilə ATƏM arasında müəyyən kompromisləri ifadə edən -bəzi əlavə və dəyişikliklər olunmaqla ortaq bir sənəd münaqişə tərəflərinə verilməli idi. Başqa sözlə, münaqişənin tənzimlənməsi prosesində ATƏT ilə rəsmi Moskvanın vasitəçilik missiyalarının, yəni MQ-nin "Vyana cədvəli"ylə (1993) Rusiya planının uzlaşdırılması istənilirdi.

Amma MQ-nin Vyanadakı daha bir iclasının (X.1994) çoxmillətli sülhməramlı qüvvələr yaradılması qərarı ATƏM-Rusiya uzlaşmasına yer qoymadı. O, Rusiyanı nəinki qane etmədi, hətta narazı saldı. Çünki ATƏM-in tarixində və fəaliyyətində bu sayaq ilk qərar (tədbir) kimi səciyyələndirilən həmin diplomatik akt münaqişə bölgəsinə 3 min nəfərə yaxın (tərkibində heç bir dövlətin 30%-dən artıq hərbçiyə malik olmaması şərtiylə) sülhməramlı qüvvələrin göndərilməsini və habelə bu

işin bütün məsuliyyətini MQ-nin daşıyacağını nəzərdə tuturdu.

Bunları özü üçün münaqişənin tənzimlənməsi prosesindən kənarlaş(dırıl)ma kimi dəyərləndirən rus diplomatiyasının yarıgerçək-yarıəsassız dəlillərinə görə ATƏM-in bu cür münaqişələri nizamlama təcrübəsi və MQ-nin müvafiq mandatı yox idi. Halbuki, əslində Rusiyanın özünün yaratdığı münaqişələrin (Dağlıq Qarabağ, Dnestryanı, Abxaziya, Cənubi Osetiya) həllində əsla maraqlı deyildir. O, həmçinin MQ-yə belə bir mandat verilməsini əngəlləmişdi. Digər yandan, Minsk Konfransının müvafiq mandatı olduğundan onun MQ-yə də verilməsinə lüzum görülmürdü. Və, ATƏM-in münaqişə bölgəsinə sülhyaradıcı qüvvələr göndərmək planı Azərbaycan tərəfindən dəstəklənsə də, Ermənistan (əslində Rusiya) onu rədd etdi. Minsk Qrupunun yeni sədri A.Bürnerin regiona turnesi və məlum qərarı müdafiə etməsi də nəticəsiz qaldı.

ATƏT-in Ermənistan-Azərbaycan münaqişəsinin həlli sahəsindəki fəaliyyətində onun sammitlərində (Budapeşt, Lissabon, İstanbul və s.) müvafiq müzakirələrin, diplomatik çəkişmələrin, qəbul edilən sənədlərin xüsusi yeri vardır. Sammitlər səviyyəsində ilkin müzakirə və sənədlərin qəbulu **Budapeşt Zirvə görüşündə (5-6.XII.1994)** oldu. Bu Zirvə görüşünün dəyərləndirilməsi zamanı aşağıdakıları önə çəkmək lazımdır:

1. Bir sıra mühüm sənədlərin qəbul olunması.
2. Minsk Konfransı və Minsk Qrupunun həmsədrlik institutunun təsis edilməsi.
3. Beynəlxalq sülhməramlı qüvvələrin yaradılması və Ermənistan-Azərbaycan münaqişəsi zonasına göndərilməsinə dair qərar çıxarılması.

Sammitin sənədləri sırasında öncə "Yeni dövrdə əsl tərəfdaşlığa doğru" Bəyannaməni qeyd etmək lazım gəlir. Dağlıq Qarabağ və digər münaqişələrlə əlaqədar problemlərin də müzakirə edildiyi bu toplantıda habelə bəzi başqa sənədlər də qəbul olundu. Bəyannamənin "Regional münaqişələr" hissəsində isə ayrıca bir bölüm özünə yer aldı: "Dağlıq Qarabağ müna-

qişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi". Onun ATƏT-in bu münaqişə ilə bağlı ilk- yüksək səviyyədə (Zirvə görüşündə) qəbul edilən- ali sənədi olmasını və bir sıra məqamlarını nəzərə alaraq ətraflı səciyyələndirilməsinə ehtiyac vardır. Bu sənədin başlıca məqamları (qənaət, prinsip və təklifləri) aşağıdakı şəkildə tezisvari ifadə oluna bilər:

- münaqişənin və onun nəticələrinin pislənməsi;
- Rusiyanın vasitəçiliyi və MQ ilə əməkdaşlığı əsasında razılaşdırılan (12.V.1994) atəşkəsin bəyənilməsi;
- BMT TŞ-nin münaqişənin sülh yolu ilə həll edilməsinə yönəlmiş səylərinə ATƏM-in verdiyi siyasi dəstəyin təqdir olunması;
- konflikt tərəflərinin (onlar konkret göstərilmir-İ.M.) birbaşa əlaqələrə, yəni intensiv daimi danışıqlara dəvət edilmələri;
- MQ-nin vasitəçilik səylərinin və Rusiyanın yardımının (?!-İ.M.) yüksək qiymətləndirilməsi, bütün bunların ATƏM çərçivəsində uzlaşdırılması, mövcud atəşkəsin davamlılığına kömək edilməsi, silahlı münaqişə bitdikdən sonra siyasi sazişin imzalanması üçün intensiv danışıqların keçirilməsi;
- siyasi sazişin gerçəkləşdirilməsinin münaqişənin başlıca nəticələrinin aradan qaldırılmasına və Minsk Konfransının çağırılmasına imkan verməsi;
- MK (MQ) həmsədrləri institutunun təsisi və onların təyin edilməsi;
- sazişin imzalanmasının və onun reallaşdırılmasının mühüm elementi olan çoxmillətli sülhməramlı qüvvələrin yerləşdirilməsinə şərait yaratması (Bu qüvvələr BMT Nizamnaməsinə və ATƏM-in Helsinki sənədinin (1992) üçüncü bəndinə uyğun olaraq yaradılmalı, onların tərkibi və hərbi əməliyyatlarına dair plan hazırlanmalı, müəyyən təşkilati-texniki məsələlərlə bağlı tövsiyələr verilməsi üçün Vyanada planlaşdırma qrupu təşkil edilməli idi);
- MK sədrlərinin münaqişə tərəfləri arasında inam yaratmalarına, beynəlxalq təşkilatlar çərçivəsində regionun əhalisinə humanitar yardım göstərilməsinə, qaçqınların vəziyyətinin yüngülləşdirilməsinə xüsusi diqqət yetirilməsinin vacibliyinin qeyd olunması və s.

Bu sənədə müvafiq olaraq MK-nın (MQ-nin) həmsədrləri (Rusiya və Finlandiya) təsdiq olundu. Bəzi analitiklərə görə, bununla Rusiyanın Dağlıq Qarabağ münaqişəsi"nin "tənzimlənməsi"nə təklikdə gerçəkləşdirmək səylərinin qarşısı alınmış oldu. Ancaq, digər tərəfdən də, bu hal münaqişənin həllinin ləngidilməsinə (uzadılmasına) əlavə imkan və şərait yaradılması demək idi. Az öncə qeyd edildiyi kimi, ATƏM-in tarixində ilk dəfə MQ-nin Vyana toplantısında (X.1994) təşkilatın sülhyaradıcı qüvvələrinin formalaşdırılması qərara alınmışdı. Budapeşt sammitində isə ilk dəfə Ermənistan-Azərbaycan münaqişə zonasına göndərilmək üçün 3 min nəfərdən ibarət sülhməramlı qüvvələrin yaradılmasına dair qərar qəbul edildi.

Sammitdə Ermənistan prezidenti L.Ter-Petrosyan Dağlıq Qarabağın erməni icmasının münaqişə tərəfi kimi tanınmasına yönəlik uğursuz cəhdlər göstərdi. Erməni tərəfinin xahişi ilə keçirilən ikili görüşdə və sammitdəki digər müzakirələrdə H.-Əliyev bu sayaq cəhdləri dəf etdi. O, habelə Dağlıq Qarabağ ermənilərinə yalnız genişformalı (yüksək) muxtariyyətin verilə biləcəyini vurğuladı. Sammitin sülhyaradıcı qüvvələrlə bağlı qənaəti elə qərar (söz) olaraq da qaldı. Çünki Rusiya və onun öz alətinə, yəni "Qafqaz dəyənəyi"nə çevirdiyi Ermənistan Zirvə görüşünün bu tarixi qərarının reallaşdırılmasına imkan vermədilər. Bunu müxtəlif səviyyələrdə (miqyaslarda) keçirilən uğursuz, nəticəsiz görüşlər və aparılan danışıqlar (məsləhətləşmələr) də təsdiqlədi. Budapeşt və Lissabon Zirvə görüşləri arasındakı bu müzakirələr seriyasından, təbii, öncə Minsk Qrupu çərçivəsindəkilərə qısaca nəzər salmaq gərəkir.

MQ-nin Stokholm (IV.1995;VII.1996), Moskva (IX-X.1995; I, VI,X.1996), Baden (VII.1995), Bonn (XI.1995), Helsinki (VI.1995; XI.1996) məsləhətləşmələrində və təşkilatın XİNŞ-nin görüşündə (XII.1995), üçtərəfli (Azərbaycan, Erm-

nistan, Dağlıq Qarabağ) Moskva (II.1995) müzakirələrində, habelə ATƏM-in rəhbərlərinin (onun sədri F.Kottinin, MQ həmsədrləri və b.) regiona səfərləri zamanı yaranan diplomatik çəkişmələrdə daha çox mübahisə doğuran bir sıra məsələlər oldu. Onlardan ən başlıcaları da "Böyük Siyasi Saziş"in hazırlanması və imzalanması kontekstində (münaqişə tərəfləri; Şuşa ilə Laçının azad edilməsi; "Laçın dəhlizi"; Dağlıq Qarabağın gələcək statusu və s.) idi. Bununla bağlı münaqişə tərəflərinin və MQ üzvü dövlətlərindən bəzilərinin, ATƏT rəhbərliyinin aşağıdakı **fərqli mövqeləri** ortaya çıxdı.

Ermənistanın yanaşması və şərtləri: sərtlilik, kompromislərsiz uzlaşma, arada diplomatik demarş, yəni hətta Minsk prosesində iştirakın dayandırılmasının elanı; öncə Şuşa və Laçın məsələsinin, sonra isə Dağlıq Qarabağın gələcək statusunun müzakirəsinə razılıq, ardınca da bundan yayınma; məsələlərin müzakirə ardıcıllığını pozmaq məqsədilə Goranboy rayonunun onlara qaytarılması tələbi; təhlükəsizlik bəhanəsilə Laçın yolunun ATƏM-in sülhyaradıcı qüvvələrinin deyil, erməni (əslində rus) hərbi hissələrinin nəzarəti altında fəaliyyət göstərməsinin istənilməsi; Dağlıq Qarabağın erməni icmasının imzalamadığı sənədlərin hüquqi yetərsizliyi.

Azərbaycanın mövqeyi və tələbləri: AR daxilində Dağlıq Qarabağa yüksək muxtariyyət verilməsinə razılıq; Ermənistanın işğal etdiyi bütün ərazilərin (Şuşa, Laçın da daxil) azad olunması və "Laçın dəhlizi"nə ATƏT-in sülhməramlı qüvvələrinin nəzarəti; münaqişənin həllinin "dondurulması"nın, habelə Dağlıq Qarabağ ermənilərinin danışıqlarda ayrıca tərəf kimi tanınmasının yolverilməzliyi.

Rusiyanın baxışı və təklifləri: Şuşa və Laçın məsələsinin önə çəkilməsi; Ermənistanla Azərbaycan arasında birbaşa danışıqların nəticəsizliyi qənaəti; münaqişə bölgəsinə onun qoşun kontingentinin yerləşdirilməsinin məqsədəuyğunluğu.

ABŞ-ın qənaətləri və təşəbbüsləri: MQ-dəki nümayəndəsinə (C.Mareska, C.Pressel və b.) xüsusi səlahiyyətli səfir

statusunun verilməsi (Almaniya və Türkiyə kimi); münaqişə tərəflərinin (konkret deyilmir) birbaşa danışıqları; Azərbaycanın güzəştə getməsi, yəni "xüsusi arzuları"ndan əl çəkərək, Şuşa-Laçın məsələsində israr etməməsi; münaqişənin davam etməsinin və onun həllinin ləngiməsinin atəşkəsin pozulmasını şərtləndirməsi; yalnız MQ çərçivəsində tənzimlənmə; bağlanacaq sazişin reallaşdırılması üçün konflikt bölgəsinə ATƏT-in sülhməramlı qüvvələrinin yerləşdirilməsi; təşkilatın münaqişə tərəflərini sülh müqaviləsini bağlamağa məcbur edə bilməməsi.

ATƏT-in mövqeyi və tövsiyələri: Stokholm bəyanatı (IV.1995) və digər sənədlərə görə, siyasi sazişlə bağlı danışıqların və münaqişənin nəticələrinin aradan qaldırılmasının ilkin şərtlərsiz həyata keçirilməsi;Azərbaycanın ermənilər tərəfindən tutulan ərazilərinin azad olunması cədvəlinə Laçının da əlavə edilməsi; regionun hərbsizləşdirilməsi; ABŞ və Rusiyanın "qarşılıqlı güzəştlərin zəruriliyi" yanaşmasının dəstəklənməsi; "BSS"-nin indilərdə bağlanmamasının münaqişənin həllini daha 2-3 il uzatması; F.Kottinin ATƏT-in vasitəçilik missiyasını dayandırması ehtimalına dair xəbərdarlığı; təşkilatın məcburetmədən imtina və qarşılıqlı güzəştlər prinsipinə üstünlük verməsi.

Onun **Lissabon Zirvə görüşündə (2-3.XII.1996)** də münaqişənin tənzimlənməsi yönündə müəyyən cəhdlər edildi. Sammitdə Azərbaycanla Ermənistan arasında kəskin diplomatik qarşıdurma baş verdi. Toplantıya, aralarında heç bir razılaşma olmayan şəraitdə, qatılan tərəflərin diplomatik çəkişməsi onun bütün işinə (nəticələrinə) ciddi təsir göstərdi. Avropada təhlükəsizlik, müxtəlif etnik-ərazi münaqişələri, qaçqınlar və digər məsələləri müzakirə edən sammitdə 27 maddədən ibarət yekun sənədi, yəni "Avropada XXI əsrdə ümumi və hərtərəfli (qlobal) təhlükəsizlik modeli" adlı Bəyannamə qəbul olundu.

Lissabon Zirvə görüşündə digər münaqişələrlə yanaşı "Dağlıq Qarabağ problemi" də (ilk dəfə olaraq daha ətraflı) müzakirə edildi. Buna H.Əliyevin sammitöncəsi ATƏT üzvü olan dövlətlərin başçılarına ünvanladığı "Dağlıq Qarabağ problemi-

nin həllinə Lissabonda ciddi yanaşmaq zərurəti haqqında" məktubu və ona müsbət reaksiyalar da mühüm təsir göstərdi. Azərbaycanın haqlı və Ermənistanınsa ədalətsiz tələbləri sammitdə diplomatik gərginlik yaratdı və kəskin mübahisələrə səbəb oldu. AR Dağlıq Qarabağın müstəqillik qazanması, Azərbaycanın tarixi ərazilərində ikinci erməni dövlətinin yaranması, yaxud da onun Ermənistana birləşdirilməsi ilə əsla razılaşmayacağını bildirdi. Dövlətimizin rəhbərliyi habelə Dağlıq Qarabağa öz tərkibində ən yüksək status verməyə dair mövqeyini də bir daha təsdiqlədi. Ermənistan isə "Dağlıq Qarabağ Azərbaycanın tərkibində qala bilməz, problem yalnız öz müqəddəratını təyinetmə hüququ ilə həll olunmalıdır, təhlükəsizlik məsələsi isə təkcə bölgənin erməni icmasına aid edilməlidir" kimi əsassız tələblərini təkrarladı.

Azərbaycanın mövqeyi (formulu)-Ermənistanın konsensus verməməsi üzündən-sammitin işçi qrupunun hazırladığı layihədə öz əksini tapmamışdı. H.Əliyevin inadlı tələbləri nəticəsində Lissabon sammitinin yekun sənədinin 20-ci maddəsində Azərbaycanın ərazi bütövlüyü və onun tərkibində Dağlıq Qarabağa yüksək statuslu muxtariyyət verilməsi formulu qeyd olundu. Elə məhz bu maddə də Zirvə görüşündə kəskin diplomatik çəkişmələrə səbəb oldu. Ermənistanın həmin maddəyə "veto"su Azərbaycanın bütün yekun sənədinə "veto"su (diplomatik demarşı) ilə cavablandırıldı. Bu zəmində də sammitdə diplomatik böhran şəraiti yarandı. Xeyli iki(çox)tərəfli müzakirələrdən sonra Zirvə toplantısını diplomatik böhrandan çıxarmaq və onu uğursuzluqdan xilas etmək üçün ATƏT-in fəaliyyətdə olan sədrinin sammitin sənədlərinə əlavə Bəyanat verməsi qərara alındı.

Sədr **F.Kottinin Bəyanatında aşağıdakı məqamlar** ifadə olunurdu (vurğulanırdı):

- Dağlıq Qarabağ münaqişəsinin həlli sahəsində son ikiillik fəaliyyətin nəticəsizliyi;
- Minsk Konfransı həmsədrlərinin tərəflərin mövqelərini yaxınlaşdırmağa yönəlik səylərinin uğursuzluğu;
- Bəyanatın sammitin sənədləri sırasına daxil ediləcəyi;
- münaqişənin dinc yollarla tənzimlənməsinin tərkib hissəsi olacaq üç prinsip (Ermənistan (?!-İ.M.) və Azərbaycan respublikalarının ərazi bütövlüyü. Dağlıq Qarabağın Azərbaycanın tərkibində — öz müqəddəratını təyin etməyə əsaslanan — ən yüksək özünüidarəsini təmin edən hüquqi statusu. Dağlıq Qarabağın və onun bütün əhalisinin təminatlı təhlükəsizliyi);
- həmin prinsipləri MQ üzvü olan bütün dövlətlərin dəstəkləməsi;
- Ermənistanın prinsiplərlə razılaşmamasından təəssüflənmə.

F.Kottinin, ABŞ-ın vitse-prezidenti A.Qor tərəfindən "sülh yolundakı axtarışlarda dəyərli bir nailiyyət" kimi qiymətləndirilən, bu bəyanatı da Ermənistan tərəfindən qəbul olunmadı. Prezident L.Ter-Petrosyan bəyanatın Dağlıq Qarabağın statusunu bəribaşdan haqsızlıqla müəyyənləşdirdiyini qeyd etdi. O habelə status məsələsinin Helsinki "Yekun aktı"nın prinsipləri-xalqların öz müqəddəratlarını təyin etmələri əsasında- həyata keçirilməli olduğunu bildirdi.

Lissabon sammitinin Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi ilə bağlı müzakirə və nəticələrinə dair bir sıra **fərqli (əksmövqeli) yanaşmalar** olmuşdur.

Birincisi, Azərbaycan diplomatiyasının Zirvə görüşündə böyük uğur (qələbə) qazandığı qənaətində olan baxışlar. Onların başlıca dəlil-tezislərinə görə:

- AR prezidenti sammitə xüsusi taktika ilə getmişdi. Bu taktika Ermənistanın sülh prosesini pozmasının (qeyri-konstruktiv mövqeyinin) ifşa olunmasını, onun gözlənilən "veto"sundan özünə qarşı istifadə edilməsini və ATƏT-in fakt qarşısında qoyulmasını nəzərdə tuturdu;
- Azərbaycan diplomatiyası münaqişənin nizamlanmasına dair əsas təməl prinsiplərin sammitin sənədlərinə (sədrin bəyanatına) daxil edilməsinə nail olmuşdu;

- Respublikamız Ermənistana güzəştləri deyil, onunla kompromisi əsas tutan, yəni Azərbaycanın mənafelərini təmin edən üç elementli formulla razılaşmışdı;
- "sammitin ərəfəsində və başlanğıcında unudulan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ, münaqişəsi onun gedişində bir nömrəli məsələyə çevrilmişdi" (H.Əliyev);
- L.Ter-Petrosyan ATƏT-in icra üçün məcburi səciyyə daşımayan çoxmaddəli bir sənədinin diqqəti xüsusi olaraq cəlb etməyən kiçik bir bəndinə veto qoymaqla prezidentliyi müddətində ən böyük səhvə yol verdi. Bununla da, Ermənistan tam diplomatik məğlubiyyətə uğrayaraq təkləndi;
- H.Əliyevin ədalətli və konstruktiv sülh diplomatiyası Ermənistanın konfliktin uzanmasına yönəlik taktikası üzərində parlaq qələbə idi;
- "Azərbaycan nümayəndə heyəti Lissabonda çox faydalı nəticə əldə etmişdir" (P.Qobl).

İkincisi, bu kimi təhlil-qənaətlərlə uzlaşmayan (razılaşmayan) mövqe-yanaşmalar da mövcuddur. Onların nəzərnöqtəsincə isə:

- Budapeşt və Lissabon sammitləri arası dönəmdə münaqişənin tənzimlənməsi yolunda ciddi əməli nəticələr əldə edilməmişdi. "ATƏT-in MQ çərçivəsində indiyə qədər gedən proses sarsıdıcı dərəcədə ləng olub" (ABŞ-ın o vaxtkı Dövlət katibi M.Olbrayt);
- Azərbaycanın təkidli tələbləri Lissabon Zirvə görüşünün yekun sənədinin layihəsinə belə salınmamışdı;
- onlar 20-ci maddə şəklində yekun sənədinə daxil edilsə də, Ermənistanın həmin bəndi oradan çıxarmasını əngəlləmək mümkün olmamışdı;
- prinsiplərin ATƏT sədrinin ayrıca bəyanatındansa, sammitin yekun sənədində ifadə olunması daha məqsədəmüvafiq (üstün təsirə) malik olardı. Bu halda Azərbaycanın ərazi bütövlüyü məsələsi sammitin yekun sənədində təsbit edilərdi;
- 20-ci maddənin yekun sənədində qalması üçün "konsensus

minus bir" variantından (ATƏT-in prinsiplərini kobudcasına pozan dövlətin razılığı olmadan qərar çıxarılmasının mümkünlüyü, yəni Yuqoslaviyaya 1992-ci ildə iki dəfə tətbiq edilən qayda) və təşkilat sədrinin müəyyən qərarları konsensussuz qəbuletdirmə hüququndan da istifadə oluna bilərdi;
- üç prinsipdən ibarət formul Azərbaycanın dövləti maraqlarının təminatının əksinə olan güzəştlərdən ibarətdir;
- Zirvə görüşünün Azərbaycan üçün nəticələri (əhəmiyyəti) ilə bağlı respublikada aparılan müzakirələr zamanı 11 mindən çox yığıncağın keçirilməsi, onlarda 100 mindən artıq çıxış edilməsi, prezidentə 12 mindən çox müraciət və s. göndərilməsi kimi "göstəricilər" münaqişənin həllinə gerçəkçi diplomatik yanaşmanın deyil, sırf təbliğati şounun ölçüləridir və s.

Lissabon Zirvə görüşündən sonrakı ilk vaxtlarda da ATƏT-in Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması sahəsində fəaliyyətində diqqətiçəkən bir sıra hadisələr oldu. Belə ki, bəzi dövlətlər arasında MQ-də həmsədrlik uğrunda mübarizə getdi. Habelə "konsensus minus bir" prinsipinə dair müzakirələr aparıldı. MQ-nin Moskva danışıqları və həmsədrlərin münaqişə bölgəsinə növbəti səfərləri oldu. Ən başlıcası, MQ-nin təklifləri-planları (**"Paket həll modeli", "Mərhələli plan", "Ümumi dövlət"**) diplomatik dövriyyəyə çıxarıldı.

Rusiyaya Minsk Qrupunda daimi həmsədrlik statusu verildiyindən digərinin (Finlandiyanın) boşalan yerini tutmaq üçün dövlətlər (Almaniya, Fransa, ABŞ) arasında üstüörtülü çəkişmə oldu. Ermənistan Almaniyanın namizədliyinə etiraz etdi. Azərbaycan isə Fransanın həmsədrliyinə qarşı açıq şəkildə çıxmadı. Habelə ABŞ-ın namizədliyinə də tərəfdar oldu. Sonuncu ilə bağlı razılıq Rusiya-Fransa cütlüyünə tarazlıq əldə edə bilmək marağından irəli gəlirdi. Bu işdə ABŞ-ın Qafqazdakı maraqları ("Əsrin müqaviləsi" və digər neft sazişlərinin bağlanması), regiondakı proseslərə müdaxilədə fəallaşması, bunlara

və digər səbəblərə görə MQ-də təmsilçiliyini C.Presselin əvəzinə S.Talbott kimi diplomatla (özü də həmsədr statusuyla) davam etdirməsi də mühüm rol oynadı. Nəticədə üç həmsədr (Rusiya, Fransa və ABŞ) barədə kompromis qərar qəbul olundu (14.II.1997).

Azərbaycan Ermənistanla münaqişənin tənzimlənməsindəki maraqlarını da əsas tutaraq ATƏT XİNŞ-in Kopenhagen toplantısında (XII.1997) Avropanın təhlükəsizliyində təşkilatın rolunu əks etdirən sənədə qoşuldu. Həmin iclasda Almaniyanın qərarların qəbulunda "konsensus minus bir" qaydasının tətbiqinə dair təklifi də AR-in maraqlarının təminatına uyğun idi. Ancaq məlum "veto qaydası" onun qəbulunu da əngəllədi. Yeni qaydanın, yəni "konsensus minus bir"in qəbulu və tətbiqi üçün də səsvermə proseduru tələb olunurdu. Və, Rusiyanın "vetosu" ilə yeni prinsip-qaydanın qəbuluna imkan verilmədi.

Minsk Qrupu həmsədrləri münaqişənin sülhlə həlli ilə bağlı 1997-1998-ci illərdə 3 dəfə təkliflərlə (plan-modellərlə) çıxış etdilər. **Ümumiyyətlə, indiyə qədər 4 həll modeli olubdur. İlk üç model bunlardır: "Paket həll"(18.VII.1997); "Mərhələli həll" (2.XII.1997); "Ümumi dövlət" (7.XI.1998). Axırıncısı (4-cüsü), ATƏT-in Daimi Şurasının Vyana toplantısında (22.VI.2006) MQ həmsədrlərinin Bəyanatı, yəni "Nizamlamanın prinsiplərinə dair həmrəylik Memorandumu" sayılır.** Əvvəlki üç modellə bağlı başlıca məsələləri nəzərdən keçirərkən bunları vurğulamaq lazım gəlir.

Birinci plan - "Paket həll" modeli – Minsk Konfransı (Qrupu) həmsədrlərinin Lissabon sammitindən sonrakı ilk görüşündə (Moskva, IV.1997) və onların münaqişə tərəfi olan dövlətlərə səfəri (VI.1997) zamanı aparılan müzakirələr nəticəsində hazırlandı. Hələ 1996-cı ilin fevralında Rusiyanın münaqişə tərəflərinə təklif etdiyi "paket variantı" həmin vaxt qəbul olunmadığından həmsədrlər 1997-ci ilin may və iyul aylarında müəyyən əlavələrlə onu yeniləşdirdilər. Nəhayət, həmsədrlərin 1997-ci il 18 iyul tarixli son təkliflərinin xülasə toplusu olan

"paket variantı" ərsəyə gəldi. O, iki hissədən ibarət idi: **a)** I saziş- qoşunların çıxarılması, məcburi köçkünlərin qaytarılması, sülhməramlı qüvvələrin yerləşdirilməsi daxil olmaqla münaqişəyə son qoyulması; **b)** II saziş-Dağlıq Qarabağın qəti statusunun müəyyənləşdirilməsi. Bütövlükdə, bu model aşağıdakıları nəzərdə tuturdu:

- bütün mübahisəli məsələlərə dair ilkin razılığı;
- Dağlıq Qarabağın statusu da daxil olmaqla bütün problemlərin bir "paketdə" toplanmaqla eyni zamanda həllini.

Mahalın statusu məsələsini də önə çəkən bu plan Ermənistanı qane edirdi. Amma o, Azərbaycan üçün tam da məqbul deyildi (Baxmayaraq ki, onun Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həyata keçirilməsi təklif edilirdi). Bu plan Ermənistandakı iqtidardaxili müxalifət (Baş nazir R.Koçaryanla ətrafı) və onların yönləndirdiyi "DQR" tərəfindən əngəlləndi. Çünki Azərbaycanın bu vaxtlardan etibarən "neft diplomatiyası" və s. hesabına tədricən güclənməyə başladığı bir şəraitdə Ermənistan prezidenti L.Ter-Petrosyan da münaqişənin tezliklə tənzimlənməsinə artıq praqmatik münasibət nümayiş etdirirdi. Ermənistanın iqtisadiyyatı ilə "Dağlıq Qarabağ problemi"nin həlli arasındakı üzvi əlaqəni (bağları) yaxşı görən və dərk edən L.Ter-Petrosyan belə bir kompromis formulun tərəfdarı idi:

Dağlıq Qarabağ hüquqi cəhətdən Azərbaycanın tərkibində qalır, ancaq münaqişə ərəfəsindəkindən yüksək status alır; habelə Azərbaycan nəqliyyat kommunikasiyalarının blokadasını götürür və iqtisadi əlaqələri bərpa edir; AR həm də təhlükəsizliyə etibarlı təminat, Ermənistana "Laçın dəhlizi"nə nəzarət etmək və Dağlıq Qarabağın statusu ilə ərazisinin müdafiəsi hüququna malik olmaq imkanı verir. Özünün bu mövqeyini o, belə bir fikir-tezislə əsaslandırmışdı: "Əgər biz Dağlıq Qarabağ məsələsini həll etməsək, bu həm Ermənistan, habelə Qarabağ üçün pis olacaqdır. Zaman bizim əleyhimizə işləyir..."

İkinci variant - "Mərhələli həll"planı- öncəki modelin əvəzi olaraq 1997-ci il dekabrın 2-də tərəflərə təqdim edildi.

(Belə ki, "paket variantı"nın uğursuzluğu üzündən həmsədrlər hələ həmin ilin sentyabrında yeni təkliflərini-"mərhələli həll" planını - ortaya çıxardılar). İki mərhələdən ibarət nizamlamanı əsas tutan bu plana görə isə:

- öncə I saziş imzalanmalı və Azərbaycanın Dağlıq Qarabağ mahalı ilə sərhədboyundakı tutulan əraziləri (Laçın çıxılmaqla digər altı rayonu) azad edilməli, oraya sülhyaradıcı qüvvələr göndərilməli, qaçqınlar yerlərinə qaytarılmalı və Ermənistanın blokadası götürülməli idi;
- sonra da II saziş bağlanmalı və Dağlıq Qarabağı Ermənistanla birləşdirən "Laçın dəhlizi" məsələsinə baxılmalı, habelə Dağlıq Qarabağın statusu qəti olaraq həll edilməli idi (Qəti statusadək isə Dağlıq Qarabağa- beynəlxalq miqyasda tanınan- "aralıq statusu" verilməli idi).

Azərbaycan tərəfi onu təmin edən bu, əsasən, ədalətli və düzgün hüquqi-siyasi yanaşmanı dəstəklədi. Bu planla əsla razılaşmayan Ermənistan isə "paket həll"də israr etdi. Buna münaqişənin tənzimlənməsi yolları ilə bağlı Ermənistan rəhbərliyi və cəmiyyəti, erməni diaspora və lobbisi daxilindəki fikir ayrılıqları da ciddi təsir göstərdi. Azərbaycanla kompromisə gedilməsinə dair mövqeyində təkid edən L.Ter-Petrosyan "Müharibə, yoxsa sülh? Fikirləşmək vaxtıdır" adlı məqaləsində (1.XI.1997) bu kimi tezisləri önə çəkdi: ermənilər müharibəni deyil, döyüşü udduqlarını dərk etməlidirlər; bu gün rədd etdiyimizi, tariximizdə bir neçə dəfə olduğu kimi, gələcəkdə xahiş edəcəyik, amma ala bilməyəcəyik; dünya birliyi Dağlıq Qarabağın müstəqilliyini və ya onun Ermənistana birləşməsini heç vaxt tanımayacaqdır; hazırkı status-kvonun gələcəkdə saxlanması yolverilməzdir və s.

R.Koçaryan və ətrafı (güc strukturları, erməni diaspora və lobbisinin müəyyən dairələri) isə qələbə eyforiyasından və belə bir şüardan çıxış etdilər: "Qalib məğluba heç vaxt güzəştə getmir. Biz qalib gəlmişik və Azərbaycan öz məğlubiyyətini etiraf etməlidir". Onlar həmçinin ATƏT vasitəçilərinin "tövsiyəsi"nə əməl olunmasını, yəni Bakı-Stepanakert birbaşa danışıqlarının

aparılmasını "məsləhət bildilər". Bəzi analitiklərə (A.Yunus və b.) görə, bununla da münaqişənin həlli yönündəki ikinci imkan da gerçəkləşmədi (Yenə də bir sıra ekspertlərin fikrincə, birinci belə bir imkan isə 1992-ci ildə Azərbaycan tərəfinin tutduğu mövqe, yəni analoji qələbə eyforiyası üzündən reallaşmamışdı. "Saray çevrilişi" və L.Ter-Petrosyanın R.Koçaryanla əvəzlənməsi (II-III.1998), bununla Ermənistanın "qarabağlılaşdırılması" Azərbaycanla münaqişənin nizamlanması prosesini daha da nəticəsiz etdi. Yeni prezidentin Osmanlı dövlətində "erməni soyqırımı" məsələsindəki haqsız-əsassız kəskin mövqeyi və ermənilərin münaqişədəki qələbəsinin məntiqi yekunu kimi Azərbaycanı kapitulyasiyaya məcbur etmək siyasəti sülh danışıqlarını az qala pozulmaq həddinə çatdırdı.

Lakin 1998-ci ildə də davam etdirilən müzakirələrin gedişində **üçüncü plan - "Ümumi dövlət" modeli** – ortaya çıxdı. O, həmsədrlərin hazırladığı "yeni" sənədin "Dağlıq Qarabağın statusu haqqında saziş" başlıqlı bölümündə ifadə olunmuşdu. 1998-ci il noyabrın 7-də açıqlanan bu sənəd (plan) əslində Rusiyanın o vaxtkı Xarici İşlər naziri E.Primakovun ideyası, yəni rəsmi Moskvanın Dnestryanı və Abxaziya "problemləri" ilə bağlı danışıqlarda istifadə etməyə çalışdığı "təcrübə"nin digər bir - "Dağlıq Qarabağ forması"idi. O, habelə Rusiyanın Cənubi Qafqazdakı etnik-ərazi münaqişələri ilə bağlı yürütdüyü siyasətdə rəhbər tutduğu prinsiplərdən birinin, yəni federalizm konsepsiyasının gerçəkləşdirilməsinə xidmət edirdi.

Bu plan-model bərabərhüquqlu tərəflər, yəni "Azərbaycan və Dağlıq Qarabağ" tərkibli konfederativ və ya ittifaq dövlətinin yaradılmasını nəzərdə tuturdu. Konkret məqamlara gəldikdə isə **"ümumi dövlət" planına əsasən aşağıdakıların** həyata keçirilməsi lazım gəlirdi:

- Dağlıq Qarabağın respublika formalı dövlət (ərazi) qurumu olaraq Azərbaycan sərhədləri daxilində onunla ümumi, yaxud konfederativ dövlət yaratması;
- buna uyğun olaraq da tərəflərin prezident, Baş nazir, parla-

ment sədrlərinin təmsilçilərindən ibarət Komitənin və Bakı ilə Stepanakertdə müvafiq nümayəndəliklərinin təşkili;

- Dağlıq Qarabağın-müvafiq nümayəndəlikləri olmaqla – xarici dövlətlərlə və beynəlxalq, resional təşkilatlarla birbaşa əlaqələr saxlaması. Habelə özünün xüsusi maraqları olduğu dövlətlərdəki Azərbaycan səfirliklərinə (konsulluqlarına) təmsilçilər və beynəlxalq danışıqlarda isə AR nümayəndə heyətinin tərkibində ekspertlər göndərməsi;
- Dağlıq Qarabağın statusunun bu kimi hüquqlara və imtiyazlara malik olması: **1)** Onun hüdudlarının keçmiş DQMV sərhədlərinə uyğun şəkildə qalması; onların dəyişdirilməsinin tərəflərarası xüsusi qarşılıqlı razılaşma əsasında gerçəkləşdirilməsi və mübahisə-fikir ayrılıqları zamanı isə ATƏT sədrinin məsləhətçi rəyinin soruşulması, qəti qərarların qəbulu vaxtı nəzərə alınması. **2)** Dağlıq Qarabağın referendum vasitəsilə öz xalqı (?!-İ.M.) tərəfindən konstitusiya qəbul etməsi. Həmçinin DQ-nin statusu barədəki sazişin həm onun, həm də AR-in konstitusiyalarında nəzərə alınması. Digər yandan da, DQ-də onun konstitusiya və qanunlarının işləməsi, Azərbaycan qanunlarının isə-onlara zidd gəlmədiyi halda-orada qüvvəyə malik olması. **3)** DQ-nin öz bayrağı, gerbi, himninə malik olması və bütün hakimiyyət orqanlarını müstəqil surətdə formalaşdırması, onun əhalisinin Azərbaycandakı parlament və prezident seçkilərində iştirak etmək hüququ əldə etməsi, erməni dilinin Dağlıq Qarabağın rəsmi, Azərbaycan dilinin isə ikinci rəsmi dil sayılması. **4)** DQ vətəndaşlarına şəxsiyyət vəsiqəsi olaraq üzərində "Dağlıq Qarabağ" yazılacaq AR pasportlarının (özü də onların yalnız DQ hökuməti tərəfindən) verilməsi. Habelə DQ-nin, Ermənistana köçən (yaxud da mühacirət edən) erməni əhalisinin, Ermənistan vətəndaşlığı da ala bilmələri. **5)** Dağlıq Qarabağın könüllülük əsasında formalaşdırılan milli qvardiya, yəni təhlükəsizlik qüvvələri və polisə malik olması. Həm də onların, AR hökumətinin razılığı olmadan,

DQ-dən kənarda fəaliyyət göstərməmələri. Habelə AR-in ordusu və digər növ qoşun hissələrinin, DQ hökumətinin razılığı olmadan, onun ərazisinə girə bilməməsi. **6)** DQ-nin azad iqtisadi zonaya çevrilməsi, orada AR-in pul vahidi ilə yanaşı öz pulunun da işləməsi, Azərbaycanın və xarici dövlətlərin şirkətlərinə (iş adamlarına) regiona sərmayə qoymalarına təminat verilməsi, onun büdcəsinin öz qaynaqları hesabına tərtib olunması, Dağlıq Qarabağın həm Azərbaycanla və həm də Ermənistanla sərbəst nəqliyyat-rabitə əlaqələri saxlaya bilməsi.

Bütövlükdə, "ümumi dövlət" planı "paket variantı" ilə müqayisədə geriyə doğru böyük bir addım idi. O əslində hansısa bir "ölü doğulmuş ümumi ittifaq dövləti" olaraq Azərbaycanla Dağlıq Qarabağ arasında "mədəni və mərhələli ayrılmanı" rəsmiləşdirmək üçün düşünülmüşdü. Buna görə də o, Ermənistan və Dağlıq Qarabağ ermənilər tərəfindən, təbii olaraq, məlum səbəblər üzündən, böyük razılıqla qarşılandı. Bu variant — Azərbaycanın ərazi bütövlüyünə və suveren hüquqlarına ciddi təhlükə yarada biləcəyi üzündən onun tərəfindən haqlı olaraq rədd edildi. AR, özünün bu haqlı mövqeyini, "ümumi dövlət"in elə ATƏT-in öz normalarından geriçəkilmə, Azərbaycanın mövqelərinin zəiflədilməsinə yönəlmə və bu vasitəçilik missiyasının səmərəsizliyinin günahını rəsmi Bakının üzərinə yıxma cəhdi olması ilə əsaslandırdı.

Bir dönəm "Ümumi dövlət" modeli ilə yanaşı **"assosiayalaşmış dövlət" konsepsiyası** da nəzərdən keçirildi. ABŞ-ın danışıqlardakı təmsilçisi **C.Mareska** tərəfindən təklif edilən bu variant Dağlıq Qarabağın "DQR adlandırılmasını (artıq bu baş vermişdi – İ.M) və onun suveren AR dövlətində tam özünüidarə edən qanuni qurum" olmasını əsas tuturdu. (Çağdaş hüquq doktrinasına görə, "assosiayalaşmış dövlət" dedikdə dövlətlərarası münasibətlərin xüsusi forması başa düşülür. Bu formaya əsasən "assosiasiyalaşmış dövlət" öz suverenliyinin bir hissəsini (müdafiə, xarici siyasət əlaqələri, pul tədavülünün təş-

kili üzrə səlahiyyətləri könüllü olaraq digər dövlətə verir).

C.Mareskonun konsepsiyası isə "assosiyalaşmış dövlət"də "DQR"-ə suverenlik nəzərdə tuturdu. Belə ki, bu halda "DQR"-in daxili və xarici suverenliyi AR qanunvericiliyi ilə deyil, beynəlxalq hüquqa əsasən məhdudlaşdırıla bilərdi. Plan "DQR"-in İrəvanda və Moskvada Daimi nümayəndəliklərinin açılmasını nəzərdə tuturdu. "DQR" habelə hücum əməliyyatları aparmaq qabiliyyətinə malik hərbiləşdirilmiş birliklər deyil, yerli təhlükəsizlik qüvvələri yarada bilərdi. Azərbaycan da yerli təhlükəsizlik qüvvələrini "DQR"-də yerləşdirə bilərdi. Bütövlükdə, C.Mareskanın nizamlama planı əslində "ümumi dövlət"in "zəiflədilmiş" forması idi. O da AR-in DQ üzərindəki suverenliyinə tam təminat vermirdi. Həm də AR-in Konstitusiyasının 2 və 7-ci maddələrinin (xalqın suverenliyi və unitar dövlət tələblərinin) pozulması anlamına gəlirdi.

"Paket variantı"ndan fərqli olaraq qəti şəkildə iflasa uğrayan "ümumi dövlət" planından sonra sülh prosesində qısamüddətli çıxılmaz şərait yarandı. Amma o, tezliklə qısasürən **"Vaşinqton prosesi"** ilə əvəz olundu. Belə ki, ABŞ-ın o zamankı Dövlət Katibi M.Olbraytın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan prezidentlərinin (H.Əliyev ilə R.Koçaryanın) Vaşinqtonda görüşü (IV.1999) keçirildi. Analitik-ekspertlər "Vaşinqton prosesi" ni, əsasən, **iki cəhətdən** səciyyələndirirlər:

1-cisi, əməli nəticələr verməyən bu görüş danışıqlar prosesinin, həmin vaxtdan etibarən, prezidentlər səviyyəsində yürüdülməsi şəraitini yaratdı (Bununla da həmsədrlər görüş, müzakirə və s. sadəcə qeydə alanlara çevrilmiş oldular).

2-cisi, Vaşinqton görüşü (prosesi) **"ərazi mübadiləsi" prinsipini** gündəmə gətirdi (əslində, qaytardı) və onu prezidentlərin danışıqlarının başlıca obyektinə çevirdi. Bu prinsip köhnə, məlum **"Qobl planı"**na, yəni hələ 1992-ci ildə ABŞ Dövlət Departamentinin əməkdaşı, Qafqaz üzrə ekspert-bir müddət Bakıdakı Diplomatiya akademiyasında çalışan-P.Qobl tərəfindən təklif olunan "ərazi mübadiləsi" ideyasına əsaslanırdı. Həmin **ideya ilk dəfə** hələ 1998-ci ildə **akademik A.Saxarovun** başçılıq etdiyi hüquq müdafiəçiləri qrupu tərəfindən irəli sürülmüşdü.

Sonradan ABŞ tərəfindən "Pol Qobl planı" olaraq ortaya çıxarıldı. Plan bir neçə şərtə əməl olunmasını tələb edirdi: keçmiş DQMV-nin ərazisinin bir hissəsinin Azərbaycana axan çayların mənbələrinin əraziləri ilə birlikdə Ermənistana verilməsi; AR ilə onun bir hissəsi olan Naxçıvanı birləşdirən erməni ərazisinin (Mehri rayonunun) Azərbaycanın nəzarətinə keçməsi; beynəlxalq qüvvələrin yerləşəcəyi Mehri vasitəsilə Ermənistan-İran nəqliyyat dəhlizinin yaradılması.

"Qobl planı" bir ara müzakirə obyektinə çevrilsə də, tərəflər həmin nizamlama variantından imtina etdilər. Belə bir planın həyata keçirilməsi AR-in Konstitusiyasının kobud şəkildə pozulması demək olardı. Onun 11-ci maddəsinə görə, "AR-in ərazisi özgəninkiləşdirilə bilməz. AR öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız AR MM-in qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər"

Plana yenidən qayıdış cəhdi R.Koçaryanın Dağlıq Qarabağın və üstəlik də "Laçın dəhlizi"nin Ermənistana birləşdirilməsi tələbini H.Əliyevin Ermənistanın Mehri rayonunun müəyyən – Naxçıvanı Azərbaycanın digər ərazilərindən ayıran-hissəsinin respublikamıza verilməsi (əslində qaytarılması) şərti ilə qarşılaşdırdı. Öncə bu sövdələşmə ilə razılaşan R.Koçaryan az sonra Azərbaycanın yalnız Ermənistan ərazisindən keçmək hüququnu qəbul edə biləcəyini bəyan etdi.

Ümumiyyətlə isə, **köhnə-yeni "Qobl planı"("ərazi mübadiləsi") ideyası** hər iki respublikanın hakimiyyət və siyasi dairələrində birmənalı (müsbət) qarşılanmadı. Əksinə, təxminən *eyni vaxtda* (X.1999) Azərbaycanda və Ermənistanda "ərazi mübadiləsi"nin perspektivinə ciddi təsir edən hadisələr baş verdi. Bakıda-Xarici İşlər naziri T.Zülfüqarov, prezidentin xarici

siyasət üzrə müşaviri V.Quluzadə və Prezident Administrasiyası katibliyinin rəhbəri E.Namazov vəzifələrindən getdilər. İrəvanda isə, münaqişənin həllini istəməyən (yaxud da, özünə lazım olan qaydada xoşlayan) Rusiyanın vasitəsi ilə daha dəhşətli qanlı hadisə törədildi; parlamentin üzvləri iclas zamanı güllələbaran edildi və nəticədə tanınmış erməni siyasi xadimləri (K.Dəmirçiyan və b.) öldürüldü.

Bu və digər hadisələrin ucbatından danışıqlar prosesində növbəti fasilə yarandı. ATƏT-in təxminən bu vaxta təsadüf edən **İstanbul Zirvə toplantısı (XI.1999)** da Ermənistan-Azərbaycan münaqişəsini xüsusi olaraq müzakirə etmədi. Yalnız H.Əliyevin Güney Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının yaradılmasına dair təklifləri regiondakı münaqişələrin, o cümlədən də "Dağlıq Qarabağ problemi"nin həllini əhatə etmiş oldu (Yeri gəlmişkən, siyasi-diplomatik dairələrdə həmin təkliflərin öncə Türkiyə prezidenti S.Dəmirəl tərəfindən irəli sürülməsinə dair də fikirlər mövcuddur).

2000-ci ilin sonunda bərpa olunan və 2002-ci ilin avqustunadək vaxtaşırı baştutan **H.Əliyev-R.Koçaryan danışıqlarında "Paris prinsipləri" adlandırılan variant** müzakirə edildi. Bu müzakirələr əvvəlcə ikilikdə (Paris-III.2001) və sonra da həmsədrlərin iştirakı ilə ABŞ-ın Ki-Uest şəhərciyində (IV.2001) aparıldı. Diplomatik dairələrdə və ədəbiyyatda "**Ki-Uest (Paris) prinsipləri**" kimi də nəzərdən keçirilən qənaət və variant özündə "Qobl planı" ilə "ümumi dövlət" konsepsiyasının elementlərini birləşdirirdi. Bu prinsiplər DQ-nin formal olaraq AR-in tabeçiliyinə qayıtmasını nəzərdə tuturdu. Ancaq DQ ərazisində - erməni icması tərəfindən həyata keçirilən – özünüidarə sistemi yaradılmalı idi. Həmin model formal olaraq "DQR"-ə suverenlik vermirdi. Amma bu halda ciddi konstitusion-hüquqi ziddiyyət ortaya çıxırdı. Belə ki, icma özünüidarəsinin formalaşdırılması erməni əhalisini hakimiyyət mənbəyi və konstitusion-beynəlxalq hüququn subyekti edirdi. Bu da Konstitusiyamızın 1-ci maddəsinə ("AR-də dövlət hakimiyyətinin

yeganə mənbəyi Azərbaycan xalqıdır") ziddir. "Ki-Uest prinsipləri" Laçın rayonuna DQ ilə Ermənistan arasında "birləşdirici dəhliz" statusu verilməsinin AR qanunvericiliyinə uyğun gəlməməsi cəhətdən də qeyri-məqbul idi. Çünki bu halda AR-in Laçın rayonu üzərindəki hakimiyyətinin aliliyi minimuma enir. Bununla da AR-in Əsas qanununun 11-ci maddəsi pozulmuş olur.

Paris və Ki-Uest danışıqlarından az öncə isə Azərbaycan parlamentində respublikanın ictimai-siyasi dairələrinin iştirakı ilə, "Dağlıq Qarabağ məsələsi"nə dair iki gün sürən (23-24.II.2001) müzakirələr oldu (Bu, 1993-cü ilin ortalarından indiyədək münaqişə ilə bağlı məxsusən keçirilən **yeganə parlament müzakirəsi** hesab olunur). Diplomatik ədəbiyyatda və bəzi siyasi dəyərləndirmələrdə vurğulandığı kimi, H.Əliyev həmin debatlarla həm də ictimaiyyətin, yəni siyasət və elm adamlarının, ədəbiyyat və incəsənət xadimlərinin münaqişənin həlli yollarına münasibətini öyrənmək, bir növ, onların "nəbzini yoxlamaq" istəmişdi.

Təfərrüatları tam açıqlanmayan və bir sıra mübhəm məqamlara malik olan Paris və Ki-Uest danışıqlarının nəticələrini, diplomatik dairələrə və politoloji mərkəzlərə sız(dırıl)an məlumatlara əsasən, "ərazi mübadiləsi" variantının ("Qobl planı"nın) davamı kimi də qiymətləndirmək mümkündür. Çünki həmin müzakirələrin ərsəyə gətirdiyi "Paris prinsipləri" də AR-in Dağlıq Qarabağın müstəqilliyini tanımasını və üstəlik "Laçın dəhlizi"nin ermənilərin nəzarətinə keçməsi ilə razılaşmasını nəzərdə tuturdu. Bunun qarşılığında isə Azərbaycanın işğal olunan 7 rayonundan 6-sı (yəni, Laçın çıxılmaqla) özünə qaytarılmalı və habelə ona Naxçıvanla əlaqə saxlamaq üçün Mehri rayonundan keçən dəhliz verilməli idi.

Azərbaycan rəhbərliyinin bu varianta qəfil razılığı 2001-ci ilin iyununda İsveçrədə yeni görüş keçirilməsi və həmin ilin sonunda isə sülh müqaviləsinin bağlanmasını gündəmə gətirdi. Ancaq ölkədaxili əksmövqeni nəzərə alan H.Əliyevin bu plan-

dan imtinası ilə onların üzərindən, birdəfəlik olmasa da, xətt çəkildi. Habelə ABŞ-dakı "11 sentyabr hadisələri"ndən sonra yaranan yeni beynəlxalq şərait, yəni dünya siyasətində və Qafqazdakı proseslərdə ABŞ-ın rolunun, habelə onun Azərbaycan üçün önəminin daha da artması "Paris prinsipləri"nin də "Dağlıq Qarabağ məsələsi"nin arxivinə göndərilməsi ilə nəticələndi. (Və, bununla bağlı, hətta beynəlxalq diplomatik qalmaqal da yarandı. Belə ki, AR prezidentinin fransalı həmsədrlə görüşdəki (14.VI.2002) bəyanatı Fransa XİN-in kəskin ahəngli etiraz notası ilə cavablandırıldı. Çünki "Paris prinsipləri"nin mövcudluğunu əvvəllər açıqlamayan H.Əliyev bu görüş-bəyanatla onları etiraf etməklə yanaşı, habelə AR-ə (şəxsən özünə) göstərilən təzyiqləri də açıqlamış oldu).

H.Əliyevin R.Koçaryanla 1999-cu ildən başlayaraq keçirilən **görüşlərinin sonuncusunun (21-cisinin,VIII.2002)** da uğursuzluqla sona yetməsi ilə dövlət başçıları səviyyəsindəki danışıqlar Azərbaycandakı 2003-cü il prezident seçkilərindən sonraya saxlanıldı. İ.Əliyevin Azərbaycana rəhbərlik etməyə başlaması ilə **sülh danışıqları prosesində yeni mərhələ** yarandı. O, prezidentlik fəaliyyətinə başlayarkən öncə münaqişənin tənzimlənməsilə əlaqədar bir sıra tezislərlə çıxış etdi:

- sərt mövqe-yanaşma (**"əzələ nümayişi diplomatiyası"**, yəni bəzi ekspertlərə görə, **"R.Koçaryan təcrübəsi"**);
- bütün əvvəlki danışıqlardan və, ələlxüsus da, "paket həll"dən qəti imtina və "sıfırdan başlama";
- Ermənistanın işğalına son qoyulması tələbi,başqa sözlə, münaqişənin hərbi yolla həllinə (güc tətbiqinə) istinad edilməsi (H.Əliyevin 1993-cü ilin sonu – 1994-cü ilin əvvəlində əl atdığı nəticəsiz çarə tədbiri).

Azərbaycan-Ermənistan sülh danışıqlarının bu, yeni mərhələsi "Praqa prosesi" də adlandırılır. Bir sıra diplomat, politoloqlara (Ə.Abasov və b.) görə, ATƏT-in gözlədiyi məlum konfransla nəticələnməyən "Minsk prosesi" əslində digəri, yəni "Praqa prosesi" ilə tamamlandı (əvəzləndi). **Sonuncu prosesin**

başlanğıcı AR-in yeni XİN-i E.Məmmədyarovun Ermənistanın baş diplomatı V.Oskanyanla Praqada keçirilən görüşündən (16.IV.2004) hesablanır. Bu proses münaqişənin həllinin "mərhələli açarı"nı tapmağa yönəlik formatlardan hesab olunur. Nazirlərin 2005-ci ilin yayınadək olan müddətdə keçirilən 11 görüşündəki müzakirələrin nəticəsində münaqişənin nizamlanmasının yeni planı, yəni "mərhələli-paket" variantı üzərində dayanıldı.

"Praqa prosesi"nə dair təhlillər əsasında aparılan ümumiləşdirmələr onun aşağıdakı **məqamları və hadisələri** əhatə etdiyini söyləməyə əsas verir:

- danışıqların (sülh prosesinin) davam etdirilməsinin "zəruriliyi" - "tərəflərin daxili auditoriyanı sakitləşdirmək üçün düşündükləri gözəl yarlıq" (V.Kazimirov);
- "DQR"-i münaqişə tərəfi kimi tanıtdırmaq cəhdi: "Atəşkəs sazişini DQR-in Müdafiə nazirliyi də imzalayıbdır" (Y.Merzlyakov);
- qarşılıqlı kompromislər-konsensus məsələsi;
- vasitəçilikdə "BMT missiyası"na qayıdış, yəni ATƏT-in onunla əvəzlənməsi;
- "Laçın və Kəlbəcər problemi";
- **"Referendum və onun variantları məsələsi"** ətrafında informasiya savaşı;
- **Rambiye görüşü (gizlinləri), "Vyana prinsipləri" və "Madrid sənədi";**
- ərazi-etnik münaqişələrin həllinə dair müxtəlif modellərin (Aland, Kosovo və s.) Dağlıq Qarabağa tətbiqi imkanları;
- artıq üçüncü onilliyini başa vurmaqda olan hazırkı "Qarabağ müharibəsi" tarixinin 2006-cı ilinin **("Qarabağ ili" və "İmkanlar pəncərəsi"nin (M.Brayza)** nəticəsizliyi;
- "Moskva Bəyannaməsi" (2.XI.2008) və, bütövlükdə, sülh danışıqlarının, konkret olaraqsa" Praqa prosesi"nin perspektivləri.

"Praqa prosesi"ndə bir sıra diqqətçəkici sənədlər də

qəbul edilmişdir:

1) AŞ PA-nın 2005-ci ilin yanvarında qəbul edilən **qətnaməsi** (Ona aid təhlil və dəyərləndirmələr irəlidə-Avropa Şurasının "Dağlıq Qarabağ münaqişəsi"nin həlli sahəsində fəaliyyəti ilə əlaqədar hissədə nəzərdən keçirilir).

2) "Çərçivə sənədi", yəni ATƏT-in Daimi Şurasının Vyana toplantısında (22.VI.2006) həmsədrlərin Bəyanatı. ("Nizamlamanın prinsiplərinə dair həmrəylik Memorandumu", başqa sözlə, **"Vyana prinsipləri"**).

3)"Madrid sənədi"-həmsədrlərin Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinə təqdim etdikləri təkliflər paketi (29.XI.2007).

4) BMT Baş Assambleyasının "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" başlıqlı **qətnaməsi** (14.III.2008; o, əvvəldə, yəni BMT-nin münaqişənin tənzimlənməsi sahəsində fəaliyyəti şərh olunarkən təhlil edilmişdir).

5) Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin Moskva Bəyannaməsi (2.XI.2008).

E.Məmmədyarovla V.Oskanyanın 11 görüşü və həmsədrlərlə aparılan müzakirələr nəticəsində ortaya çıxarılan **"mərhələli- paket" variantına görə:**

- Ermənistan DQ ətrafında işğal etdiyi beş rayonu (Laçın və Kəlbəcər çıxılmaqla) AR-ə qaytarmalı və onların azərbaycanlı əhalisi mərhələlərlə, sülhməramlı qüvvələrin müdafiəsi altında, öz yerlərinə dönməli idi;
- Ermənistanın Azərbaycan və Türkiyə ilə sərhədləri açılmalı, habelə bütün kommunikasiyalar da bərpa olunmalıydı (işə salınmalıydı);
- bunlardan sonra isə (hardasa 10-15 keçdikdə) Dağlıq Qarabağda, onun statusunu aşağıdakı nəticələrdən biri ilə müəyyənləşdirəcək, referendum keçirilməliydi: **a)** Ermənistana birləşmə; **b)** müstəqil dövlət olma; **c)** Azərbaycanın tərkibində qalma.

Həmsədrlərin formaca yeni, mahiyyətcə isə köhnə ("paket

variantı" ilə "mərhələli həll"in mexaniki sintezi-calağı-hibridi) olan bu planı Ermənistanda ehtiyatla və Azərbaycanda isə kəskin etirazla (qəti rədd ilə) qarşılandı. İşğalçı dövlətin rəsmi dairələri və ictimaiyyəti bu planı, ələlxüsus da, onun referendum ideyasını müsbət qarşılayıb **"ərazi əvəzində müstəqillik"** kimi dəyərləndirsə də, Azərbaycanın məlum haqlı mövqeyi üzündən ümidli ola bilmədilər.

Azərbaycan cəmiyyətinin həmsədrlərin referendum təklifinə kəskin etirazına biganə qalmayan respublika rəhbərliyi (XİN rəsmiləri və b.) ölkədaxili gərginliyin artmaması məqsədilə dərhal bu kimi ziddiyyətli-sakitləşdirici açıqlamalar verdilər: "referendum məsələsi danışıqların predmeti deyildir və ona dair məlumatlar təxribat səciyyəlidir"; "biz yalnız Azərbaycanın ərazi bütövlüyü daxilində hər hansı bir əməkdaşlığa hazırıq"; 15-20 ildən sonra nə olacağı məlum deyildir; "azərbaycanlılar da Qarabağa dönəcəklər"; "referendum Azərbaycanın ərazi bütövlüyünə toxunmur, çünki ümummilli səciyyə daşıyır və ölkənin bütün əhalisini əhatə edəcəkdir".

Həmsədrlər, ən çoxu da amerikalılar (S.Mənn, M.Brayza) tərəfindən "Qarabağ *ili*" və "İmkanlar pəncərəsi" kimi dəyərləndirilən 2006-cı il münaqişənin nizamlanma prosesi tarixinə yalnız İ.Əliyevlə R.Koçaryanın iki uğursuz görüşü və mübahisəli "Vyana prinsipləri" ilə düşdü. **Prezidentlərin görüşlərindənsə** çoxdan gözlənilən və xeyli reklam olunan **birincisi (Rambuye, 10-11.II.2006)** tam iflasa uğradı. Buna isə görüşöncəsi və onun gedişindəki hadisələr, bütövlükdə, tərəflərin qarşılıqlı ittihamları səbəb oldu.

Görüş ərəfəsində tərəflər arasındakı "İnformasiya müharibəsi"ndə Ermənistanın rəsmi dairələri və KİV-nin dövriyyəyə çıxardığı məsələlər (əkstəbliğat tezisləri) **Rambuye danışıqlarının** nəticəsizliyinə ciddi təsir göstərdi. Belə ki, referendum, *DQ-nin "Laçın-Kəlbəcər təhlükəsizlik kəməri" məsələləri və R.Koçaryanın onlara dair açıqlamaları bu baxımdan çox diqqətçəkicidir: "İ.Əliyev parlament vasitəsilə konstitusiyanı dəyi-*

şə və referenduma gedilə bilər"; "dəmiryolunun açılması bizə lazım deyil, Azərbaycana lazımdırsa açarıq". (Sözgəlişi, onun bu fikri vaxtilə H.Əliyevə də bildirdiyi qeyd olunur); "Azərbaycanın hərbə xərclədiyi 3 manatın nəticəsi bizim 1 manatla gördüklərimiz işlərə bərabərdir" və s. Bütün bunlarınsa Azərbaycan tərəfinin Rambuye görüşündən yayınması-imtinası səylərinə səbəb olduğu da məlumdur. Habelə fransızların-həmsədr B.Fasye ilə Azərbaycandakı səfir Blatmanın İ.Əliyevi görüşdə iştirakın vacibliyinə inandırma cəhdləri də olmuşdu.

Görüşərəfəsi siyasi təxribatlar azmış kimi onun gedişində də diplomatik qalmaqal baş verdi. Bunu da R.Koçaryanın görüşdəki müzakirələr zamanı "qalib ahəngli" davranışı və demarşı, nəticədə də danışıqları yarımçıq kəsməsi şərtləndirmiş oldu (Sözgəlişi, bu demarşı, bir yandan, **"tualet diplomatiyası"**, digər tərəfdən də, dəfn-yasda iştirakla bağlı İrəvana qayıtma bəhanəsi, habelə rus və fransız həmsədrlərin planlı oyunu kimi də səciyyələndirirlər. Bütövlükdə isə, Rambuyedəki danışıqları "ölüdoğulmuş sülh prosesinin növbəti nəticəsiz prosedur-tədbiri" kimi qiymətləndirmək daha düzgün olardı.

Prezidentlərin 2006-cı ildəki ikinci görüşü də (Buxarest, 5 iyun) nəticəsiz qaldı. Bunun ardınca da həmsədrlər, "qumarda banka gedilməsi"nə bənzər hərəkətə yol verdilər. Amerikalı o vaxtkı yeni həmsədr M.Brayza, ATƏT-in Daimi Şurasının Vyana toplantısında (22.VI.2006), digər həmkarlarının da adından qəfil bəyanatla çıxış etdi. Beynəlxalq diplomatik-siyasi çevrələrdə qalmaqal, ziddiyyətlər və mübahisələr yaradan həmin bəyanatla **"Çərçivə sənədi"**, yəni **"Vyana prinsipləri"** açıqlandı. "Nizamlamanın prinsiplərinə dair həmrəylik Memorandumu" adlandırılan bu sənədə **"Prinsiplər paketi"** də deyirlər.

Həmsədrlərin bu bəyanatının, yəni "Çərçivə sənədi"nin ("Vyana prinsipləri"nin) başlıca məqamları, lehinə və əleyhinə olan dəlillər, yaratdığı problemlər ("Referendum və onun variantları məsələsi") beynəlxalq-regional diplomatik dairələrdə,

elmi mərkəzlərdə müxtəlif mübahisələr, rəylər doğurdu. Bu kimi məsələlərə Azərbaycanda da dövlət rəsmilərinin (E.Məmmədyarov, A.Əzimov, Ə.Həsənov və b.), habelə tanınmış politoloqların (V.Quluzadə, E.Namazov, R.Musabəyov, A.Yunus və digərlərinin) fərqli yanaşmaları oldu.

"Vyana prinsipləri" Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsinə yönəlik **variant-planların hələlik sonuncu "çərçivə sazişi"** hesab olunur. Azərbaycan üçün verə biləcəyi mənfi nəticələrinə görə o, hətta "Ümumi dövlət" modelindən də təhlükəlidir. Çünki "Ümumi dövlət" variantı AR-in ərazi bütövlüyünü rəmzi (formal) olaraq əsas tutsa da, bu, yəni 4-cü "çərçivə sənədi" (model) ölkəmizin iki dövlətə bölünməsinə xidmət edir. Bunu həmsədrlərin (M.Brayza vasitəsilə açıqlanan) məlum bəyanatı və Ermənistan XİN-in ona təcili (bir gün sonrakı-23.VI.2006) rəsmi münasibəti, orada ifadə olunan əlavələri (təklifləri) də təsdiqləyir.

Həmsədrlərin bəyanatı- "Müzakirələrin prinsiplərinə dair həmrəylik Memorandumu" ilə əslində **"Praqa prosesi"nin başlıca məqamları (elementləri)** açıqlanmış oldu:

1) Ermənistan öz qoşunlarını Dağlıq Qarabağın ətrafındakı işğal olunan beş rayondan çıxarır, Kəlbəcər və Laçın üçünsə "xüsusi yanaşma" lazım gəlir.

2) Azərbaycanla Ermənistan arasında diplomatik və iqtisadi əlaqələr normallaşdırılır.

3) Münaqişə zonasına sülhməramlı qüvvələr yerləşdirilir və dinc sakinlər oraya qayıdırlar.

4) Regionun bərpasına beynəlxalq iqtisadi yardım göstərilir.

5) Dağlıq Qarabağın statusuna dair referendum keçirilir.

Ermənistan XİN-in bu açıqlamaya, yəni sənədə dair rəsmi bəyanatında özünə yeralan **bənd-təkliflərsə** bunlar idi:

a) Ermənistan və Dağlıq Qarabağ arasında dəhliz (Laçın rayonu) məsələsi;

b) referendum keçirilənədək Dağlıq Qarabağa "aralıq statusu"nun verilməsi.

Rəsmi İrəvanın bu bəyanatında habelə "Dağlıq Qarabağın statusunun onun xalqı (?!-İ.M.) tərəfindən referendum vasitəsilə həll edilməsi" tələbi və "bu məsələnin Azərbaycanla Ermənistan prezidentləri arasında artıq razılaşdırılması" iddiası da ifadə olunmuşdu. Bunlarsa, təbii olaraq, Azərbaycanda (rəsmi dairələr də daxil) geniş əks-səda doğurdu, kəskin etirazla qarşılandı. Ölkə rəhbərliyi belə bir razılaşmanın olmadığını bəyan edərək onu respublikada gərginlik yaratmağa yönəlik təxribat kimi dəyərləndirdi.

M.Brayzanın və Ermənistan XİN-in məlum açıqlamalarına dair **çoxsaylı mövqe-rəylərlə bağlı məqamları** da diqqətdən kənarda saxlamaq olmaz. Bəzi analitiklərə görə, rəsmi İrəvanın həmsədrlərin bəyanatına və M.Brayzanın açıqlamasına təcili reaksiyası müəyyən maraqlı çevrələrin "ehtiyatsızlığı" yox, "Praqa prosesi"nin Ermənistan və Azərbaycan rəhbərliyinin inhisarından çıxarılmasına, xüsusilə də hər iki ölkənin ictimaiyyətinin sülhə hazırlanmasına yönəldilən düşünülmüş hərəkəti idi. Bu cür yanaşma həmsədrlərin bəyanatının sonunda əks olunan bir fikirlə də əsaslandırılır: onlar (yəni həmsədrlər-İ.M.) "öz imkanlarını tükətmişlər" və bundan sonra "vasitəçilik diplomatiyasının davam etdirilməsində məna görmürlər". Diplomatik dillə ifadə olunan bu fikrin açıqlaması isə "bir halda ki, prezidentlər ümumi razılığa gələ bilmirlər, onda indi təklif edilən prinsipləri xalqların özlərinin müzakirə etmələrinin zamanı gəlmişdir" kimi də başa düşülə bilər.

Həmsədrlərin şərhlərinə görə, problemin *dinc yolla həlli* proseduru və mexanizmi belə bir sxem üzrə olmalıydı: öncə sülhün əsasını təşkil edən prinsiplər müzakirə olunub müəyyənləşdirilməliydi; ümumi razılıq olduğu halda sülh müqaviləsi işlənib hazırlanılmalıydı; sonra da müqavilənin imzalanması və icrası prosesi getməli idi. Bunlardan çıxış edən təhlillərin və elmi araşdırmaların nəticələrində M.Brayzanın açıqlamalarının danışıqların "Paket həll" modelinə kökləndiyini təsdiqlədiyi iddia olunur. Çünki bu, ermənilərin **"ərazi əvəzinə status"**

şərtinə ("alış-veriş şəraitinə") üstünlük verilməsi və Azərbaycanın **"ərazi əvəzinə kommunikasiya"** təklifinə ("qarşılıqlı məqbul kompromis axtarışı durumu"na) önəm verilməməsi demək idi. Azərbaycan tərəfinin bu təklifi **üç səviyyədə qarşılıqlı məqbul uzlaşma (kompromis)** əldə olunmasını şərtləndirirdi: geopolitik (ABŞ ilə Rusiya arasında); münaqişə tərəflərinin dövlət başçıları; Ermənistanla Azərbaycanın siyasi elitası və ictimaiyyəti.

"Paket həll" formulu əsasındakı sülh danışıqları və bu əsasda imzalana biləcək müqavilə əhatə etdiyi **məsələlərin həll olunma dərəcəsi** cəhətdən də səciyyələndirilə bilər: **a)** nisbətən sadə (kommunikasiyaların açılması, münaqişə zonasındakı ərazilərdə bərpa işləri); **b)** bir qədər mürəkkəb (DQ-yə bitişik işğal olunmuş rayonlardan neçəsinin azad edilməsi + "dəhliz"in statusu + sülhməramlı qüvvələrin tərkibi); **c)** daha mürəkkəb və çətin, yəni başlıca (Dağlıq Qarabağın gələcək statusu və başqa).

"Vyana prinsipləri"nin əsas mahiyyətinə, onların **Azərbaycanın maraqları** və haqlı tələblərinin təminatının **lehinə və əleyhinə olan məqamlarına** gəldikdə isə burada sənədin *daha əhatəli təhlilinə ehtiyac* vardır. E.Namazov və b. təhlillərinə görə, **8 prinsipdə ifadə olunan başlıca şərtlər, problemlər** aşağıdakılardan ibarət idi:

1) İşğal edilən rayonların azad edilməsi— Laçın və Kəlbəcərin taleyi ("Ermənistan hərbi kontingentinin DQ ətrafındakı Azərbaycan ərazilərindən mərhələlərlə çıxarılması və Kəlbəcər ilə Laçın rayonlarına münasibətdə "xüsusi yanaşma"). İşğala məruz qalan rayonların boşaldılmasının "7-5" formulunu əsas tutan bu prinsipin Azərbaycan üçün məqbul sayıla bilən və onu qane etməyən tərəflərini belə ifadə etmək mümkündür:

a) müsbət məqamlar—tutulan torpaqların qaytarılması prioritet olduğundan dəyərli idi; suverenliyimizi birbaşa mübahisə predmetinə çevirmir və təhlükə altına salmırdı;

b) mənfi hallar— "xüsusi yanaşma" anlayışı mücərrəddi və açıqlanmırdı; dinc tənzimləmə proseduru vaxtı həmin rayon-

lardan Ermənistanla Dağlıq Qarabağın kommunikasiya əlaqələrində istifadə olunmasına etiraz imkanı vermirdi.

Tərəflərin prinsipə münasibətlərinə gəldikdə isə Azərbaycana görə, Kəlbəcər və Laçın da azad edilməli və bunun dəqiq vaxtı isə "Çərçivə sənədi"ndə göstərilməliydi. "Xüsusi yanaşma" isə bu rayonların boşaldılması zamanı kommunikasiyaların təhlükəsiz fəaliyyətindən ötrü mümkün ola bilərdi. Mücərrəd "xüsusi yanaşma"dakı erməni marağı isə bu iki rayonun ya DQ-yə birləşdirilməsini, ya da status məsələsində öz xeyirlərinə sövdələşmədə onlardan istifadəni nəzərdə tuturdu.

2. Demilitarizasiya. Hərbi münaqişələrin nizamlanmasının vacib elementlərindən olan bu prinsip **AR üçün,** sözsüz ki, **məqbuldu.** Onun **mənfi cəhəti** isə yalnız azad edilmiş rayonlara aid olunması və DQ ərazisini əhatə etməməsindən ibarət idi. Çünki Ermənistan qoşunlarının tutduqları ərazilərdən çıxarılmaması halında davamlı və möhkəm sülh mümkünsüzdür.

3. Referendum. (Bu prinsip barədə az sonra bir qədər ətraflı bəhs olunur. Buna görə də burada yalnız bunları qeyd etmək olar: həmin prinsip DQ-nin yekun hüquqi statusunun müəyyənləşdirilməsi üçün gələcəkdə referendum keçirilməsini nəzərdə tuturdu. Onun vaxtı sənəddə konkret olaraq göstərilmirdi. Bu üzdən də tərəflərin onun vaxtı və formatına dair danışıqların davam etdirilməsi ilə bağlı öhdəlik götürmələri istənilirdi).

4. Dağlıq Qarabağın müvəqqəti statusu. Sənədə əsasən, beynəlxalq yardım göstərəcək tərəflərlə DQ-nin əlaqələrinin təmin edilməsi üçün müəyyən "aralıq razılaşmaların (statusun)" əldə olunması lazım gəlirdi. ("Aralıq status" məsələsi münaqişənin tənzimlənməsinə dair Dortmund konfransında (2001) amerikalı və rusiyalı həmsədrlərlə "Dağlıq Qarabağ problemi" üzrə işçi qrupu tərəfindən birgə işlənmişdi). Bu prinsipin mahiyyətinə vardıqda belə bir prosedur - şəraitlə qarşılaşma halını görmək olar. Yəni: **a)** sülh müqaviləsinin imzalandığı; **b)** tutulan ərazilərin boşaldıldığı; **c)** qaçqınların öz yerlərinə döndüyü; **ç)** kommunikasiyaların açıldığı vəziyyətdə yekun status hələlik müəyyənləşdirilməmiş olaraq qalırsa (başqa sözlə, "Mərhələli həll"), onda DQ ilə bağlı hüquqi vakuum intervalı yarana bilər.

Belə olduqda isə bu müddətə hesablanan aralıq razılaşmalar, yəni "müvəqqəti status" məsələləsi ortaya çıxır. Çünki aralıq proses, yəni Ermənistan qoşunlarının çıxarılması, təhlükəsizlik və digər məsələlər üçün müəyyən səlahiyyətlərə malik məsuliyyət daşıyanların (qurumlar, şəxslər və s.) olması gərəkir. Bütün bunlara görə də prinsipin məntiqi, hüquqi zərurəti vardır və Azərbaycan tərəfindən qəbul edilə bilərdi.

5. Sülhməramlı qüvvələr. (Münaqişə zonasına beynəlxalq sülhyaradıcı qüvvələrin (BSQ) yerləşdirilməsi). Burada öncə belə bir vacib məqamın xatırlanmasına ehtiyac vardır: hələ ATƏT-in Budapeşt sammitində - Azərbaycanın səyləri (tələbi), Ermənistanın müqaviməti (ancaq son anda onun da razılığı) və Rusiyanın açıqlanmayan etirazı (narazılığı) şəraitində - münaqişə bölgəsinə bu təşkilatın sülhməramlı qüvvələrin göndərilməsi barədə qərar qəbul edilmişdi.

Münaqişə tərəflərinin bu prinsiplə əlaqədar tutduqları mövqelər də düşündürücü və ziddiyyətlidir. AR-də BSQ-nin separatçıları Azərbaycandan qoruyacağından qayğılanırdılar. Amma politoloqların bəzilərinin (E.Namazov) fikrincə isə BSQ ermənilərlə yanaşı, habelə əvvəlki yaşayış yerlərinə qayıdacaq qaçqın və köçkün azərbaycanlıların da təhlükəsizliyinə təminat verəcəkdi. Çünki sülhyaratma mexanizminə görə, bu işlərlə ayrıca komissiyanın məşğul olacağı və qərarların birlikdə qəbul ediləcəyi bir şəraitdə BSQ-dən birtərəfli qaydada istifadə mümkünsüzdü (Bizcə, zaman-beynəlxalq şərait fərqli olsa da, bu məsələdə ingilislərin 1918-1920-ci illərdə Azərbaycanın Qarabağ, Zəngəzur, Naxçıvan bölgələrində "həyata keçirdikləri sülhyaratma missiyası"nın gedişində başverənləri, yaradılan problemləri də nəzərdən qaçırmaq olmaz). Bütövlükdə, prinsip

AR üçün məqbuldu. Habelə prinsipdən yayınma ATƏT-in bizim tələbimizlə qəbul edilən məlum qərarından imtina kimi də başa düşülə bilərdi.

Ermənilərsə bu prinsipin sənəddən çıxarılmasında maraqlı idilər. Ona görə ki, onlar BSQ-yə münaqişənin yenidən başlayacağı halda həmin ərazilərin təkrar tutulmasına ciddi əngəl kimi baxırdılar. BSQ-nin tərkibinin Rusiya və İranda (rəsmi Tehran bunu həm də ABŞ-a görə edir) mənfi reaksiya doğuracağı da Ermənistanın siyasi-hərbi dairələrinə əlavə əsas ola bilərdi. Burada mütləq nəzərə alınmalıdır ki, Rusiya Ermənistana hərtərəfli yardım göstərir. Bunu 2009-cu ilin əvvəlində onun Ermənistana təxminən 800 milyon-1 milyard dollar civarında çoxlu hərbi texnika, silah-sursat verməsi bir daha təsdiqləyir.

6. Birgə komissiya. O, razılaşmanın icrası üzrə birlikdə fəaliyyəti nəzərdə tuturdu. AR üçün problemi yoxdu. Bir tərəfdən, sülhyaratma prosesindəki problemlərin yerində və operativ həlli baxımından faydalı idi. Digər yandan, bu da istənilən sülhyaratma mexanizminin vacib elementlərindən hesab olunur.

7. Beynəlxalq maliyyə dəstəyi. Bu isə münaqişənin nizamlanması, qarşıdurma zonasındakı bərpa işləri, qaçqınların öz yerlərinə qayıtmaları və digər tədbirlərin beynəlxalq maliyyə təminatı cəhətdən çox zəruridir. AR üçün nəinki məqbuldur (problemsizdir), əksinə, onun daha böyük həcm və miqyasda olmasına ciddi ehtiyac duyulur.

8. Güc və hədədən imtina. Bu prinsipin əsasında Azərbaycanla Ermənistanın gücdən istifadədən və güc tətbiqi ilə hədədən imtinası, habelə təhlükəsizliyin ikitərəfli və beynəlxalq təminatına çalışmaları dayanırdı. Beynəlxalq münasibətlərin nəzəriyyə və praktikasına görə, bütün dövlətlərarası razılaşmalar ya bu prinsiplə başlayır, ya da sona yetir. Ancaq münaqişə tərəfləri belə bir prinsip (maddə) olmadan da yaxşı bilirlər ki, ya qarşılıqlı qaneedici sülhyaranacaq, ya da onlardan birinin sülhü pozması digərinə öz hüquqlarını hər yolla (hərbi daxil) müdafiəetmə imkanı verəcəkdir. Yaranmış şəraitdə yeganə çıxış yolu isə bundan ibarət ola bilər: gerçəkçi və qarşılıqlı məqbul kompromisə əsaslanan sülh razılaşması və onun qətiyyətlə, ardıcıllıqla həyata keçirilməsi.

Həmsədrlərin bəyanatından da göründüyü kimi, "Vyana prinsipləri" əslində və, bütövlükdə, paket yanaşma deyil, mərhələli həlldir. (Azərbaycan da daima buna israr edibdir). **Tərəflərin "Vyana prinsipləri"nə dair ümumiləşmiş təklif və qənaətləri** baxımından isə bunları qeyd etmək lazımdır.

Birincisi, Ermənistanın mövqeyinə görə: **a)** DQ ətrafındakı beş rayon boşaldılır; **b)** BSQ gətirilir; **c)** azad edilən rayonlar beynəlxalq maliyyə dəstəyi ilə bərpa edilir və qaçqınlar qaytarılır; **ç)** DQ müvəqqəti status alır; **d)** bunlardan sonra da yekun (qəti) statusla bağlı keçiriləcək referendumun vaxtı və formatına aid danışıqlara başlanılır. (Beləliklə, iki rayonla, yəni Kəlbəcər və Laçınla bağlı "siyasi-diplomatik alver planı" işə salınır).

Ermənistanda "Vyana prinsipləri"ndən razı qalmayanlar da olmuşdu. Onların nəzər nöqtəsinə görə: **1)** bu "Çərçivə sənədi" Rambuye və Buxarestdə təklif edilən sənədlərdən (?!-İ.M.) imtina, geriçəkilmədir, **2)** rayonlarla alver problemliçətindir, **3)** azərbaycanlıların Şuşaya və DQ-nin daha 50 yaşayış məntəqəsinə (vilayətin 30 faizinə) qayıtması narahatedicidir (Sonuncu məqamla əlaqədar olaraq bunları da vurğulamağa ehtiyac vardır. Ermənilər bununla razılaşmağa məcburdurlar. Az öncə də qeyd edildiyi kimi, hələ L.Ter-Petrosyanın prezidentliyinin sonuna yaxın Ermənistan mərhələli həllə razı idi və o bununla bağlı özünün bəzi fikirlərini də açıqlamışdı. Həmin vaxtda hətta paralel surətdə bəzi beynəlxalq diplomatik dairələrdə Ceyhan (neft) və Ərzurum (qaz) kəmərlərinin Ermənistandan keçməsinə dair məsləhətləşmələr aparıldığı da məlumdur. Artıq "kəmərlərin Ermənistandan keçməsi məsələsi" də arxada qalmışdır, necə deyərlər, qatar getmişdir. Digər tərəfdən, azərbaycanlılar əvvəlki yaşayış yerlərinə qayıtmadığı halda səsvermə legitim sayıla bilməz. Çünki çağdaş beynəlxalq hüquqa

görə, etnik təmizləmə şəraitində keçirilən referendum nonsensdir (yetərsizdir). Bunlara əsasən də belə bir qənaətə gəlmək olar ki, Ermənistan—Laçınla Kəlbəcəri özünə saxlamaqla, referendumla bağlı öz mövqeyində (format məsələsində) israr etməklə, vilayətin 30 faizinin (azərbaycanlıların) səsvermədə iştirakı ilə razılaşmamaqla əslində sülh prosesini tenidən çıxılmaz duruma salır. Bununla da, münaqişənin həll yolu yenə də tapılmır.

İkincisi, Azərbaycanın mövqeyi isə belə ola bilirdi: **1)** işğal olunan yeddi rayonun hamısı qaytarılır, **2)** onların ərazisində demilitarizasiya aparılır, 3) Ermənistanın hərbi korpusu DQ-dən çıx(arıl)ır, **4)** BSQ gəlir, **5)** Kəlbəcər-Laçın kommunikasiya xətlərinin təhlükəsizliyi təmin edilir, **6)** DQ adminstrasiyası müvəqqəti status alır, 7) azad olunan rayonlar bərpa olunur, **8)** qaçqınlar yerlərinə dönürlər, **9)** nəhayət, tərəflərin razılaşdığı statusun tapıldığı vaxtda Azərbaycanın bütün ərazisində ümumi səsvermə keçirilir və nəticə AR-in Konstitusiyasında təsbit edilir. Bunların yekununda da münaqişənin təzələnməsinin (bərpasının) səbəbləri aradan qalxır, Azərbaycan öz ərazisinin işğalı halından xilas olur və status barədə danışıqlar imkanı qazanır. Beləliklə, münaqişənin ədalətli nizamlanması baş tutur.

"Vyana prinsipləri"nin, ümumiyyətlə isə, "Praqa prosesi"nin başlıca və ya mərkəzi məsələlərindən birini də referendum təşkil edir. Politoloqlar (E.Namazov və b.) referendum problemini "Praqa prosesi"nin "boğazından asılan daş" və sülh prosesini "bataqlığa aparan yol" kimi də səciyyələndirirlər. Onu "mif-tələ-reallıq üçbucağı" sayanlar da vardır. Barəsində müxtəlif fikirlər dolaşan, detalları çeşidli üsullarla diplomatik və digər dairələrə sız(dırıl)an **referendumun variantları** da mübahisəlidir. Onların **inkişaf ssenarilərinə görə referendum:**

- yalnız Dağlıq Qarabağda, yəni hazırda orada yaşayan ermənilər arasında keçirilir;
- təkcə DQ-də, amma qaçqın azərbaycanlıların Şuşaya və vilayətin digər 50 yaşayış məntəqəsinə qayıdaraq səsvermədə iştirakı şərtilə baş tuta bilər;

- Dağlıq Qarabağ da daxil olmaqla Azərbaycanda keçirilməlidir;
- AR-in bütün ərazilərində (DQ də daxil) keçirilir. Bu zaman yalnız rəsmi Bakı ilə mahalın erməni icması arasında razılaşdırılan konkret status modeli səsverməyə çıxarılmalıdır. Yəni əslində artıq danışıqların nəticəsində müəyyənləşdirilən statusun uğurlu (qarşılıqlı məqbul) olduğu və münaqişə tərəflərinin qəbul etdikləri halda müvafiq saziş bağlanır, beləliklə, nəticə AR-in Konstitusiyasında təsbit üçün ümumi səsverməyə çıxarılır.

Referendumun bu kimi variantları Azərbaycanın maraqları və haqqına sahib çıxa bilməsi baxımından aşağıdakı səpkidə nəzərdən keçirilə bilər:

I variant tam ermənilərin xeyrinədir və onların maraqlarına uyğundur. Nəticə AR-dən tamamilə ayrılmadan və onun ərazi bütövlüyünü de-yure pozmadan ibarətdir. Bunlara görə də AR tərəfindən əsla qəbul edilə bilməz. Variantın (modelin) müsbət tərəfi isə onun müasir beynəlxalq hüquqa zidd olmasıdır. Yəni "etnik təmizləmə" şəraitində (qaçqınlar öz tarixi torpaqlarına qayıtmadan) keçirilən istənilən səsvermə nonsensdir və onun yekunları əsla tanına bilməz. (Ermənilər status məsələsini referenduma bu suallarla çıxarmağı planlaşdırırlar: "Necə hesab edirsiniz, Dağlıq Qarabağ - **a)** Azərbaycanın tərkibində qalmalıdır, **b)** yoxsa müstəqil dövlət olmalıdır?").

II variant Azərbaycanın rəsmi dairələrinin bir hissəsi tərəfindən açıq olaraq qəti şəkildə rədd edilmir və hətta müəyyən qədər də dəstəklənir. Ancaq Azərbaycanlı qaçqınların Dağlıq Qarabağa qayıtmaları oradakı 70-30 nisbətini qətiyyən dəyişmir. 1989-cu ilə dair rəsmi statistikaya (siyahıyaalma materiallarına) görə, DQMV-də 145,4 min nəfər (77,0%) erməni və 40,6 min nəfər (21,2%) isə azərbaycanlı yaşayırdı). Belə bir demoqrafik şəraitdə AR diplomatiyasının istinad etdiyi (üstünlük verib ümid bəslədiyi) dəlillərə, mülahizələrə diqqət yetirmək lazım gəlir:

a) haradasa inandırıcı görünən bir müddəa: ermənilər "7-dən 5-i" şərtində israr edərək Kəlbəcərlə Laçını qaytarmır və azərbaycanlıların Şuşaya, DQ-nin 30 digər yaşayış məntəqəsinə dönmələri ilə razılaşmırlar. Nəticədə referendumun bu variantı onların qeyri-konstruktiv mövqeyi üzündən baş tutmur;

b) müəyyən məntiqi olan bir baxış — hazırda münaqişə şəraiti belədir: Azərbaycan milli azlıq (DQ ermənilər). Qaçqınların qayıtmasıyla vilayətdə yeni demoqrafik vəziyyət yaranır, yəni üçüncü element (DQ-də milli azlıq-azərbaycanlılar) məsələsi ortaya çıxır ("AR-DQ ermənilər — vilayətin azərbaycanlı icması" formatı (sxemi) bərpa olunur. "Azərbaycandakı azlığın (ermənilərin) azlığı", yəni DQ-nin azərbaycanlı icması da statusun müəyyənləşdirilməsində iştirak hüququ qazanır (istəyir). Belə olduqda özlərini etnik azlıq sayıb hüquqlqr tələb edən ermənilər digər milli azlığın (DQ-dəki azərbaycanlıların) da qanuni azadlıqlarını tanımaq istəmirlər. ("Müstəqil" DQ-dəki milli azlığa, yəni azərbaycanlılara daxili muxtariyyət vermirlər). Bununla da, yenə də ermənilərin qeyri-səmərəli mövqeyi ucbatından, referendum olmur, ardınca isə status verilmir. Nəticədə ənənəvi (tipik) durum-bataqlıq (çıxılmazlıq şəraiti) davam edir, saxlanılır;

c) bəsit və qeyri-real bir yanaşma: irimiqyaslı neft gəlirlərinin Azərbaycandakı sosial-iqtisadi vəziyyəti xeyli yaxşılaşdırdığını görən DQ ermənilər AR-dən ayrılmaqdan vaz keçəcəklər ("DQR"-də keçirilən son rəy sorğularında əhalinin yalnız 1,5 faizinin Azərbaycandan ayrılmaq istəmədikləri məlum olubdur).

III variantı erməni tərəfi və vasitəçilər ciddi qəbul etmirlər. O, birinci variantın antitezisi sayılır. Yəni AR-in hazırkı demoqrafik durumu-etnik tərkibi amilinin referendumun nəticəsini bəribaşdan Azərbaycanın xeyrinə həll etməsi anlamına gəlir. (AR-dəki "ifrat ehtiyatlılar" respublikada keçirilən bəzi referendumların "nəticələri təcrübəsi"ni də unutmamağı tövsiyə edirlər).

IV variant, yəni Dağlıq Qarabağın statusunun Azərbaycanı qane edən danışıqlar nəticəsində müəyyənləşdirilməsi, bunun müvafiq sazişdə ifadə olunması və nəticənin AR-in Konstitusiyasında təsbit edilməsinə görə formal referendum keçirilməsi ölkəmiz üçün məqbuldur. Göründüyü kimi, bu zaman statusla bağlı maraqlarımızın müdafiəsinin 2 xətt (mərhələ) üzrə imkanı yaranır: **1)** statusa dair danışıqlar, **2)** konkret statusa və sazişə razılığımızın vacibliyi. Burada hətta əlavə (3-cü) müdafiə xətti də var, yəni statusla bağlı uğursuz saziş Ümumazərbaycan referendumu ilə rədd edilə bilər.

Referendumun variantlarının bu ssenariləri ilə bağlı belə bir xülasə də vermək olar. **Variantların 1-ci və 3-cüsü** beynəlxalq vasitəçilər tərəfindən eyni səviyyədə mənasız (əhəmiyyətsiz) hesab olunur. Çünki onların reallaşdırılması birinci halda ermənilərin və ikincidə isə Azərbaycanın bəribaşdan, şəksiz qazanması deməkdir. Münaqişə tərəflərinin də bu iki variantla razılaşmamaları onların mif olduğunu təsdiq edir. Belə olduqda ***qalır 2-ci və 4-cü variantlar.*** Və, məhz onlar da, danışıqlar prosesinin başlıca predmetini real göstərir. Belə ki, ermənilərə görə, statusla bağlı referendum hüququ onlar üçün Azərbaycandan ayrılmaq deməkdir.

Azərbaycan rəsmilərinin qənaətincə isə,"qaçqınların yerlərinə qayıtmalarından sonra referendumun reallaşma imkanı azdır" (Yəni DQ-nin azərbaycanlı əhalisinin hüquqlarının da nəzərə alınması şərti baxımından). Elə azərbaycanlıların Ermənistandan sonuncu deportasiyası da məhz onların qanuni təyin müqəddərat hüququnun təmin olunması tələbindən qurtulmaq üzündən baş vermişdi. Vaxtilə akademik A.Saxarovun DQ-də ermənilər, Ermənistanda isə azərbaycanlılar arasında plebissit keçirilməsi və sonra əhali mübadiləsi təklifinin ortaya çıxması *ilə Qərbi Azərbaycandan* soydaşlarımızın deportasiyasına başlanılmışdı.

Referendum və onun variantları ilə əlaqədar olaraq bir məqam da əsla unudula bilməz. Bu zaman AR konstitusiyasının

3-cü maddəsinin 2-ci bəndi mütləq nəzərə alınmalıdır. Belə ki, DQ ilə bağlı referendumdan ötrü, yəni AR konstitusiyasında dəyişiklik edilməsi üçün də bir ümumxalq səsverməsi olmalıdır (Başqa sözlə, referendum üçün referendumlazım gəlir).

"Praqa prosesi"nin çıxılmaz duruma düşmək üzrə olduğu bir şəraitdə **"Madrid sənədi" məsələsi** ortaya çıxdı və bu dəfə də onun ətrafında diplomatik qalmaqal yaşandı. Belə ki, ATƏT XİNŞ-in 2007-ci il noyabrın 27-də keçirilən iclasından öncə baştutan (əvvəlcədən planlaşdırılmayan) görüşdə həmsədrlər Ermənistan və Azərbaycanın Xarici İşlər nazirlərinə birgə yazılı təkliflərini təqdim etdilər. Rusiya (S.Lavrov) və Fransa (B.Kuşner) baş diplomatlarının, habelə ABŞ Dövlət katibinin müavini U.Bernsin də qatıldıqları həmin görüşdə münaqişə tərəflərinin Xarici İşlər nazirlərinə verilən təkliflər (müzakirələrsiz təqdimat) sənədi öncə tam açıqlanmadı, hətta "gizlədildi".

Həmsədrlərin təkliflər paketi ("Madrid sənədi") onun müəlliflərinə görə, münaqişənin dinc yolla tənzimlənməsinin - axırıncı fikir ayrılıqlarını aradan qaldırmalı olan - ədalətli, qarşılıqlı məqbul, qərəzsiz və tarazlaşdırılmış baza prinsipləridir. Buradan da göründüyü kimi, həmsədr dövlətlər və ATƏT baza prinsipləri haqqındakı sənədi "gələcək nizamlama üçün daha real əsas" hesab edirlər. Bir sıra politoloq-ekspertlər isə sənəddə yeniliklərin olmadığını vurğulayaraq, onun sadəcə əvvəlki danışıqların tezislərini özündə cəmləşdirdiyini bildirirlər. Onların nəzər nöqtəsinə görə, həmin təkliflər paketinin təqdimatında (özü də müzakirələrsiz) başlıca məqsədlər bunlar olmuşdur:

1. Tərəflərin məsuliyyətdən yayınmalarının önlənməsi.

2. Hər iki dövlətdə 2008-ci ildə keçiriləcək prezident seçkilərindən sonra da danışıqların davam etdirilməsinə əvvəlcədən təminat alınması.

Bu məqsədlərin detallarına varıldıqda həmsədrlərin (bütövlükdə, ATƏT-in) təklif edilən baza prinsiplərinin qəbulu ilə danışıqların hazırkı mərhələsini bitirib yeni dönəmə-hərtərəfli

sülh sazişinin layihəsinin işlənilib hazırlanılmasına-keçirilməsini istədikləri bəlli olur. Sənəd habelə həmsədrlərin bu kimi niyyətlərini də açıqlamağa imkan verir. Yəni prezidentlərin: **a)** mümkün olan bütün sahələrdə tərəflərarası etimadın möhkəmləndirilməsinə yönəlik tədbirləri davam etdirmələri; **b)** öz ölkələrinin əhalilərini sülhə hazırlamaları; **c)** müharibənin münaqişənin həlli vasitəsi olmasına dair bəyanatlarla çıxışlara təcili son qoymaları və s.

Həmsədrlər seçkidən sonrakı dönəmdə danışıqlar prosesinin "ağ vərəq" dən, yəni "sıfır"dan başlanılması durumunun yaranmaması üçün prezidentlərin baza prinsipləri ilə bağlı "şifahi razılaşmaları"nı əldə etməkdə də maraqlı olmuşdular. Tələsdikləri gözönündə olan həmsədrlərin prezidentlərin seçkilərə qədər həmin sənədi birgə bəyanat olaraq (guya ki, status-kvonun saxlanması üçün) elan etmələrinə cəhd göstərmələri də alınmadı. Yəni belə bir birgə bəyanat verilmədi. Bu tələskənlik prezidentlərdən birinin (Ermənistanda) və habelə həmsədrlərin dəyişməsi ehtimalı ilə də izah olunurdu. (S.Sərkisyanın birgə bəyanatın elanına razı olması da məlumdur).

Çoxlu mübahisəli və ziddiyyətli məqamlara malik olan və bir müddət açıqlanmayan **"Madrid sənədi"** hələ o vaxt da maraqlı **diplomatik çevrələrdə müxtəlif mövqelər** yaratmışdı:

- sülh danışıqlarının "Praqa formatında davamı" imkanı (E.Məmmədyarov);
- Azərbaycan üçün "kapitulyasiya aktı", başqa sözlə, təslimçi sülh (ölkədaxili bəzi qeyri-rəsmi dairələr);
- Ermənistanın uğuru və onun maraqlarının ən çox təmin edilməsi və mövqelərinin möhkəmlənməsi (V.Oskanyan);
- konfliktin nizamlanması üçün "qızıl şans" (Q.Lenmarker);
- "kompromislər üçün ən optimal variant"-"yeni təşəbbüs deyil, təşəbbüslərin sonu" (M.Brayza);
- "münaqişənin həlli üçün indiyədək əldə edilən bütün müsbət elementlərin ilk dəfə olaraq bir yerə toplanıldığı və gələcək addımları asanlaşdıracaq sənəd" (S.Lavrov);

- "referendum razılaşması" (Beynəlxalq Böhran Qrupu-S.Frayzer);
- "status-kvo sənədi", "kövrək ümidlər" (Qərb mətbuatı: İngiltərənin "Ekonomiks" qəzeti və s.).

Bu kimi konkret tezislərin arxasındakı mövqelərin bir qədər ətraflı açıqlanması "Madrid sənədi" ətrafında yaranan diplomatik mənzərənin (qalmaqal və s.) anlaşılması baxımından faydalıdır. Həmsədrlərin təklif (təqdim) və münaqişə tərəflərininsə inkişaf etdirdikləri **bu paketlə bağlı haçalanmış mövqelər** mövcuddur.

Ermənistanda da hakimiyyətlə qeyri-rəsmi dairələrin yanaşmaları fərqli olmuşdur. "Madrid sənədi" ilə bağlı açıqlamalarında o vaxtkı Xarici İşlər naziri V.Oskanyan bunları bildirmişdi: bu sənəd bizim uğurumuzdur; ermənilər indiki kimi heç vaxt uğur qazanmayıblar; hazırkı baza prinsipləri mövqeyimizi möhkəmləndirir; diplomatiyamızın mövqeyi indi "müqayisə edilməz dərəcədə" möhkəmdir; Azərbaycan tərəfinin sərt bəyanatlarının xeyri yoxdur və həllə mane olur: biz danışıqlardan çəkilsək, sülh prosesinə ciddi zərbə dəyər; prosesdən imtina və "sıfır vəziyyəti"nə qayıdış Azərbaycana əlavə şans olardı; münaqişənin həllinin əsas prinsipləri sənəddə öz əksini tapıbdır, yəni əsas (açar) məsələ, birinci dərəcəli problem Dağlıq Qarabağın statusudur; Azərbaycan əvvəllər ərazilərin boşaldılmasını və qaçqınların qayıtmalarını başlıca problem sayırdısa, indi statusun aparıcı məsələ olması ilə razılaşmışdır; DQ-nin AR-dən ayrılmaqla öz müqəddəratını təyinetmə hüququ vardır; öz müqəddəratını həlletmə və yekun statusun səsvermə ilə müəyyənləşdirilməsi danışıqların əsas prinsipləridir.

"Madrid sənədi"ni Ermənistan üçün uğurlu sayan ölkə və diaspora-lobbi daxilindəki fikirlərlə əsla razılaşmayan keçmiş prezident L.Ter-Petrosyan isə bu təkliflər paketi ilə onun prezidentliyi vaxtındakılar arasında ciddi fərqlərin olmadığını iddia edir. Əlavə olaraq habelə Ermənistanın danışıqlar prosesindəki mövqeyinin onun zamanında indikindən qat-qat üstün

olduğu da bildirilir.

Azərbaycan iqtidarı ilə ölkənin qeyri-rəsmi dairələri (siyasətçiləri, politoloqları,ekspertləri) də həmsədrlərin bu **təkliflər paketinə münasibətdə həmrəy deyillər. Azərbaycan Xarici İşlər nazirliyi:**

- "Madrid sənədi"nə normal yanaşdığını bəyan edərək danışıqların Praqa formatında davamını mümkün (faydalı) sayır;
- sənədin münaqişənin "mərhələli həll"ə üstünlük verdiyini iddia edir (Bu zaman başlıca dəlil kimi , 5 və ya 7 rayondan işğalçı qoşunların çıxarılması, demilitarizasiya tədbirləri, bərpa-tikinti işləri, sülhməramlı qüvvələrin yerləşdirilməsi, kommunikasiyaların açılması, qaçqınların qayıtmaları və yalnız bunlardan sonra statusun müəyyənləşdirilməsi ardıcıllığı gətirilir. Dövlət rəsmisi N.Məmmədov tərəfindən habelə statusa qədər görüləcək işlərin 15-20 il vaxt aparacağı da qeyd olunur);
- DQ-yə AR daxilində status (Tatarıstan, Başqırdıstan və s. kimi) verilməsinə problem olmadığını bildirir (Bununla yanaşı rəsmi İrəvanın sənəddə əksini tapdığını iddia etdiyi məsələlər, yəni Azərbaycanın da statusu birinci dərəcəli problem və danışıqların əsas prinsipi sayması təkzib olunur);
- ATƏT Xarici İşlər nazirlərinin bu (Madrid) toplantısında E.Məmmədyarovun vurğuladığı kimi, "Azərbaycanın bir sm torpağını da verməyəcəyi"nə dair mövqeyini təkrarlayır.

Respublikamızın qeyri-rəsmi dairələrinin yanaşmasına görə isə "Madrid sənədi"-Azərbaycan üçün "kapitulyasiya aktı, yəni təslimçi ("ədalətli") sülh deməkdir. DQ-yə de-yure müstəqillik vəd edən bu sənəd əslində "Kosovo həll modeli" deməkdir. Belə bir mövqe isə bu kimi dəlillərlə əsaslandırılır:

- yalnız 5 rayonun, özü də tədricən boşaldılması;
- məhdud erməni silahlı qüvvə kontingentinin bir müddət Kəlbəcərdə qalması;
- DQ-də bir müddət beynəlxalq idarəçiliyin tətbiq edilməsi;
- Ermənistanın nəqliyyat blokadasının bəribaşdan götürülməsi;

- Azərbaycan ordusunun işğaldan azad edilən rayonlara dərhal daxil olmaması və həmin ərazilərə sülhməramlı qüvvələrin gətirilməsi (Bunun da AR-in statusdan yayınmaması üçün edildiyi vurğulanır);
- ermənilərin referendum hüququndan faydalanması və DQ-nin Azərbaycandan ayrılması, bununla da, AR-in suverenliyi prinsipinə riayət olunmaması (Ermənilər referendumu Azərbaycandan ayrılma kimi qəbul edirlər);
- AR-in ərazi bütövlüyünün və BMT-nin Dağlıq Qarabağa dair məlum qətnamələrinin sənəddə əksini tapmaması və orada "işğal" ifadəsinin işlənməməsi. (Bu da geriyə doğru addım sayılır, çünki bu məsələ Lissabon sammitinin sənədində qeyd edilmişdi).

ATƏT rəhbərliyi və strukturlarının həmsədrlərin təkliflərinə münasibətinə gəldikdə **Parlament Assambleyasının sədri Q.Lenmarker** Madrid toplantısında onları münaqişənin tənzimlənməsi üçün "qızıl şans" kimi dəyərləndirmişdi. Baza prinsipləri haqqındakı bu sənəd ATƏT, rəsmi Moskva, Paris və Vaşinqton tərəfindən həm də "nizamlanmanın həyat qabiliyyətli təməli" olaraq səciyyələndirilmişdi. **ABŞ-dan olan təmsilçi M.Brayza** "Dağlıq Qarabağ problemi"ni "zərif, kövrək məsələ" olaraq səciyyələndirərək "Madrid sənədi"ni belə dəyərləndirmişdi: "kompromislər üçün ən yaxşı, optimal variant", "yeni təşəbbüs deyil, təşəbbüsün sonu". (Bu iki mənada başa düşülə bilər: indiyə qədərki işlərin (təkliflərin) yekunu və ya danışıqların davamının önəmsizliyi, yəni sona (özü də uğursuzluqla) yetməsi). "Hər hansı tərəfin hərbi uğuru məğlubun qisas almaq niyyətilə törədə biləcəyi növbəti müharibə üçün əsas yaradır" mülahizəsini söyləyən amerikalı həmsədr də seçkilər öncəsi yürüdülən "məkik diplomatiyası" vasitəsilə prezidentlərin şifahi razılığının alınması mövqeyində olmuş, özü də buna çalışmışdı."Seçkilərə qədər heç bir fasilə olmayacaqdır, biz iki ölkə prezidentləri arasında şifahi razılaşmaların əldə olunacağını gözləyirik".

M.Brayza "Madrid sənədi"nin ortaya çıxmasından bir il sonra (XI.2008) APA-ya müsahibəsində "prinsiplər üzərində işi sona çatdırmağa çalışacaqlarını" bildirmişdi. O habelə danışıqlarda başlıca məsələ və diskussiyaların əsas məğzinin Azərbaycanın ərazi bütövlüyü ilə Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratını təyinetmə prinsiplərini uzlaşdırmaqdan ibarət olduğunu açıqlayıbdır. Amerikalı diplomat bunu da vurğulayıbdır ki, onun həmsədrliyi müddətində prezidentlərin razılığa gəlməyə bu dərəcədə hazır-yaxın olduqlarını heç bir zaman xatırlamır və onlar konstruktiv dialoqa çox meyllidirlər.

Fransalı həmsədr B.Fasyenin yanaşmasına görə, təklif olunan prinsiplər razılaşdırılardısa, onların detalları seçkilərdən sonra da müzakirə edilə və konkretləşdirilə bilərdi."Gəlin, münaqişənin həlli üçün 50 il gözləməyək" deyən B.Fasye onların təkliflərində heç bir tələ və ikimənalılıq olmadığının tərəflərə izah edildiyini də bildirmişdi. O, xülasə səciyyəli açıqlamasında həmsədrlərin "yeni" paketini, yəni "Madrid sənədi"ni "bizim ölkələrin Qarabağ münaqişəsinin tənzimlənməsi prosesində kompromis əldə olunması üçün təklif edə biləcəyi yaxşı tövsiyə kimi" qiymətləndirmişdi. Fransalı həmsədrin şərhləri "Madrid sənədi"nin Qarabağ danışıqlarının baza razılaşdırılması çərçivəsində "əsas prinsiplər üzrə kompromislər layihəsi" olduğunu da söyləməyə əsas verir.

Rusiyanın mövqeyini onun Xarici İşlər naziri S.Lavrov belə ifadə etmişdi: həmsədrlərin təkliflərinə münaqişənin həlli yolunda indiyədək əldə olunan bütün müsbət nəticələrin toplu (ümumiləşdirilmiş) ifadəsi və gələcək fəaliyyəti asanlaşdıran sənəd kimi baxmaq lazımdır. Həmin ölkədən olan həmsədr Y.Merzlyakov isə baza prinsiplərinin razılaşdırılmasından sonra bütün münaqişə tərəfdarlarının müzakirələrə cəlb olunmasının zəruriliyini bildirmişdi: "Əgər Azərbaycan istəyərsə, azərbaycanlı icması da müzakirələrlə iştirak edə bilər".

Beynəlxalq Böhran Qrupu (S.Frayzer) də həmsədrlərin Madriddə tərəflərə təqdim etdikləri sənəddə zor tətbiqindən im-

tina, erməni qoşunlarının tutulan ərazilərdən çıxarılması, məcburi köçkünlərin (azərbaycanlıların) yerlərinə qayıtmaları, müvəqqəti status, sülhməramlı qüvvələr də daxil olmaqla əhəmiyyətli beynəlxalq yardım, qəti status haqqında referenduma dair qarşılıqlı razılaşma və digər məsələlərin özünə yer aldığını iddia edirdi.

Bir müddət məqsədli olaraq "gizlədilən" və bu üzdən də ətrafında müxtəlif şərh-izahlar verilən, barəsində çoxlu məlumatlar yayılan "Madrid sənədi", nəhayət ki, açıqlandı, rəsmən elan edildi. Bu, diplomatik hərəkət (akt) **"Böyük səkkiz"lərin İtaliyanın Akvila şəhərində keçirilən sammitində (VII.2009)** razılaşdırıldı (Həmin razılaşmaya dair ilkin anlaşmanın hələ B.Obamanın Rusiyaya rəsmi səfəri zamanı (IV.2009) əldə edildiyi bildirilir). Belə ki, həmsədr dövlətlərin prezidentləri **(D.Medvedyev, B.Obama, N.Sarkozi) Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair birgə bəyanat** qəbul (10.VII.2009) etdilər.

Üç prezidentin bəyanatı ilə "Madrid sənədi"nin "mövcudluğu barədəki şübhələr"ə ziddiyyətli inkar və təsdiqlərə son qoyuldu. Yəni həmin bəyanatla "Madrid prinsipləri"nin mövcudluğu rəsmən etiraf edildi. Orada "2007-ci il noyabrın 27-də tərəflərə təqdim olunmuş "Madrid sənədi"ndən bəhs olunurdu. **Birgə bəyanatın əsas qayəsini və məzmununu** bunlar təşkil edirdi:

- həmsədrlərin "Madrid sənədi"nin münaqişənin nizamlanmasının baza prinsiplərinə dair son təkliflər əsasında yeniləşdirilmiş variantını Ermənistan və Azərbaycan prezidentlərinə vermələri;
- Azərbaycan və Ermənistan prezidentlərinin konfliktin tənzimlənməsinə dair həll edilməmiş qalan bir neçə məsələni də öz aralarında razılaşdırmaları və baza prinsipləri ətrafında danışıqları başa çatdırmaları.

"Madrid sənədi"nin açıqlanmasının AR rəhbərliyi ilə də razılaşdırıldığı barədə məlumatlar yayılmışdır. Bunu həmsədr

dövlətlərin başçılarının birgə bəyanat qəbul etdikləri gün (10.VII.2009) qəfildən Bakıya gələn ABŞ Dövlət katibinin birinci müavini C.Steynberqin prezident İ.Əliyevlə axşam apardığı danışıqlarla əsaslandırırlar. Danışıqların bitməsindən dərhal sonra, yəni gecəyarısı Ağ Evin mətbuat xidməti Vaşinqtonda "Madrid baza prinsipləri"nə dair rəsmi bəyanatla çıxış edibdir.

Artıq rəsmən açıqlanan **"Madrid prinsipləri" aşağıdakılardan** ibarətdir:

1. Dağlıq Qarabağ ətrafındakı rayonların Azərbaycanın nəzarətinə qaytarılması.

2. Dağlıq Qarabağa keçid statusu verməklə onun təhlükəsizliyi və özünüidarəsinə təminat verilməsi.

3. Ermənistanla Dağlıq Qarabağı birləşdirən dəhlizin yaradılması.

4. Dağlıq Qarabağın yekun statusunu müəyyənləşdirəcək hüquqi səlahiyyətli iradəni ifadə etmək hüququ.

5. Bütün qaçqın və köçkünlərin münaqişədən əvvəl yaşadıqları ərazilərə qayıtmaq hüququ.

6. Sülhməramlı əməliyyatları nəzərdə tutan beynəlxalq təhlükəsizlik təminatının verilməsi.

Bu, bənd və şərtlərdən açıqca göründüyü kimi, "Madrid sənədi-prinsipləri" Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair sülh prosesinin belə bir prosedurunu (mexanizmini) əsas tutur: **ilk mərhələdə** — hələlik beş rayonun boşaldılması+ qaçqınların qayıtması+ sülhməramlı qüvvələrin yerləşdirilməsi+ bərpa işlərinə başlanılması və kommunikasiyaların açılması; **ikinci mərhələdə isə** — digər iki rayonun qaytarılması və "Laçın dəhlizi məsələsi"nin həlli + yekun statusunun referendumla razılaşdırılması.

Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesində keçilən yola nəzər saldıqda aydın şəkildə bunu görmək olar: baza prinsipləri sayılan "Madrid sənədi" əslində ermənilərin daima irəli sürdükləri üç şərt əsasında qurulubdur. Yəni həmin

məlum şərtlərlə Madrid prinsiplərini qarşılaşdırdıqda belə bir siyasi-diplomatik mənzərə ortaya çıxır. Belə ki, ermənilərin **birinci şərti** ("DQ ilə AR arasında hər hansə bir şaquli idarəçilik – tabeçilik və asılılıq ola bilməz") "Madrid sənədi"nin **ikinci və dördüncü prinsipləri**,yəni müvafiq surətdə "keçid statusu" və "referendum hüququ" məsələlərində ifadə olunubdur. Onların **ikinci şərti** ("Dağlıq Qarabağla Ermənistan arasında quru yolu ilə əlaqələrin təmin edilməsi") Madrid prinsiplərinin **üçüncüsü** ilə ("dəhliz yaradılmasıyla") səsləşir. **3-cü şərtsə** ("DQ-nin beynəlxalq təhlükəsizliyinə beynəlxalq təminatın verilməsi") həmsədrlərin təkliflərinin **altıncı** bəndində ("beynəlxalq təhlükəsizlik təminatlı sülhməramlı əməliyyatlar") öz əksini tapmışdır.

"Madrid sənədi"nin üzərindən "məxvi"liyin götürülməsi və onun "yeniləşdirilmiş" variantının tərəflərə təqdim ediləcəyinin elanı da müxtəlif yönlü diskussiyalara və xeyli sayda mövqe-yanaşmanın ərsəyə gəlməsinə rəvac vermişdir. Yəni açıqlanan sənədin ayrı-ayrı bəndləri (müddəaları) barədə çoxlu diplomatik və elmi dəyərləndirmələr ortaya çıxmışdır. Onların yığcam xülasəsi aşağıdakılarda ehtiva olunur:

1) Dağlıq Qarabağ ətrafında işğal olunan 7 rayonun "5+2" formulu üzrə boşaldılması planlaşdırılır. Buna əsasən gerçəkləşdirilən boşaldılma prosesi əvvəlcə beş rayonun qaytarılmasını nəzərdə tutur və işğalçı qoşunların Kəlbəcərlə Laçını tərk etmələrini isə sazişin imzalanmasından 5 il sonraya saxlayır. (Azərbaycandakı bəzi yanaşmalara görə isə, bu halda ermənilər DQ-nin 7 rayonu da daxil olmaqla işğal etdikləri 14 rayonumuzun yalnız yarısını qaytarmış olurlar). Burada M.Brayzanın açıqlamalarından birində özünə yer alan müddəaya istinad olunur. İrəvanda verilən (VII.2009) həmin açıqlama-bəyanatdan məlum olur ki, həmsədrlər "ərazi bütövlüyü" dedikdə BMT-nin Azərbaycan ərazisi kimi tanıdığı torpaqları, yəni DQ-ni nəzərdə tutmurlar. Onlar yalnız DQ ətrafındakı 7 rayonun qaytarılmasına AR-in ərazi bütövlüyünün təmin olunması kimi yanaşırlar.

2) Azərbaycan tərəfi, dəfələrlə bildirildiyi kimi, AR-in

tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət və onun təhlükəsizliyinə təminat verilməsinə etiraz etmir. (AR prezidentinin Dağlıq Qarabağ danışıqları üzrə xüsusi nümayəndəsi, XİN-in müavini A.Əzimov bununla bağlı baxışını belə ifadə etmişdir: Azərbaycan prinsipial mövqeyində dayanaraq hansısa kompromisə gedə bilər və Dağlıq Qarabağa (orada yaşayacaq iki icmaya) ölkəmizin ərazi bütövlüyü çərçivəsində ən yüksək səviyyəli idarəetmə statusu verməyə hazırdır; AR öz kompromis yolunu gələrək körpünün ortasında dayanıbdır və Ermənistan da maksimalist mövqeyindən çəkilərək körpünün ortasına gəlməli, məsələlərin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə razılığını qəti bildirməlidir. Diplomatın bu yanaşma-mövqeyi dövlət başçısının "Rossiya" telekanalının "Vesti v Subbotu" proqramına (4.VII.2009), Kişinyovda "AzTV" televiziyasına (9.X.2009) verdiyi müsahibələrdə də dəstəklənmişdir). Ancaq **"keçid-aralıq statusu"** və ondan sonrakı referendum məsələsinin ölkəmizdə doğurduğu rahatsızlıq gözönündədir. (Proseslərin belə inkişaf ssenarisinin verə biləcəyi nəticələrlə bağlı burada "Kosovo təcrübəsi"xatırlanır).

3) "Laçın dəhlizi məsələsi" münaqişənin nizamlanmasında **"açar problem"**lərdən biri olmaqla yanaşı Azərbaycan tərəfini daha çox qayğılandıran məqamlardandır. O, Ermənistanın konfliktin tənzimlənməsinə dair şərtləri sırasında mərkəzi yerlərdən birini tutur. "Madrid prinsipləri"ndən Kəlbəcərlə Laçının taleyinin müəyyənləşdirilməsinin (qoşunların çıxarılması, "dəhliz məsələsi"nin rəsmiləşdirilməsi və s.) sülh sazişindən, hətta ola bilsin ki, referendumdan sonraya saxlanılması mexanizmi görünür. Konfliktoloqlardan A.Yunus və digərlərinin ehtimallarına görə, Kəlbəcər qaytarılsa da, Laçın formal olaraq AR-in, faktiki olaraqsa ermənilərin nəzarətində qalacaqdır. Onun fikrincə, Laçının 30-40 illiyə ermənilərə icarəyə verilməsi də mümkün ssenarilərdən biri ola bilir.

4) "Madrid prinsipləri" nizamlama prosesinin ikinci mərhələsində Dağlıq Qarabağın yekun statusunun müəyyənləşdiril-

məsini nəzərdə tutur. Bu şərt sənədin hazırda başlıca mübahisələrə səbəb olan 4-cü bəndində (prinsipində) əks olunmuşdur. AR-də müəyyən çevrələr bunu Azərbaycana qarşı qurulan hiylə təki səciyyələndirirlər (Belə bir hal beynəlxalq diplomatiyada evfemizm sayılır. Yəni qarşı tərəfin narazılığına səbəb ola biləcək hansısa arzuolunmaz ifadə və ya termin mənası onunla eyni anlama gələn digər ifadə ilə (anlayışla) əvəzlənir). Bununla əlaqədar olaraq da yenə M.Brayzanın Ermənistan mətbuatına açıqlamasında (VII.2009) özünə yer alan izaha dayanılır: "öz iradəsini ifadəetmə anlayışı ilə "referendum" və ya "plebissit" terminləri arasında heç bir fərq yoxdur. Bu isə teferendumla bağlı diskussiya, mübahisə və s. yeni təkan olmuşdur.

Azərbaycan tərəfi belə hesab edir ki, Dağlıq Qarabağın yekun statusu—"Madrid prinsipləri"nin 4-cü bəndindəki kimi—öz müqəddəratını təyinetmə yolu ilə deyil, yalnız danışıqlarla və özü də azərbaycanlıların DQ-yə, o cümlədən də Şuşaya qayıtmalarından sonra müəyyən edilə bilər. İ.Əliyev son vaxtlardakı çıxışlarında Dağlıq Qarabağın heç vaxt, hətta 100 ildən sonra belə müstəqilliyə çıxmayacağını, yəni bunun gülünc və perspektivsiz ideya olduğunu dəfələrlə vurğulamışdır. Bəzi yanaşma və təhlillərə görə isə, "Madrid sənədi"nin yekun statusa dair ibarəli (üstüörtülü) **referendum təklifi əslində DQ-yə verilən "müstəqillik vədi"**dir.

"Madrid sənədi"nin açıqlanmasından sonrakı dönəmdə, xüsusilə də MDB-nin Kişinyov sammiti və Türkiyə-Ermənistan protokollarının imzalanması öncəsi referendumun detalları ilə bağlı da yeni nüanslar ortaya çıxmışdır. Bəzi ekspertlərin fikrincə, referendum məsələsi danışıqlar prosesinin başlıca əngəllərindən biridir və münaqişənin özündən də mürəkkəbdir. **Azərbaycan üçün referenduma razılıq, bir tərəfdən, Dağlıq Qarabağı "mübahisəli ərazi" kimi qəbul etmək, digər yandansa, artıq DQ-nin müstəqilliyinin tanınması deməkdir.**

Ermənistanda isə referendum, təbii olaraq, tam dəstəklənir. Referenduma ermənilər əvvəlcə (hələlik) "bir millət, iki

dövlət" edəcək tarixi imkan kimi yanaşılır. Ancaq referendumla bağlı onların da müəyyən "problem və qayğıları" yox deyil. Keçiriləcəyi hələlik ehtimal olunan referendumda uğur qazanmaq üçün ermənilər neçə illərdir ki, DQ-də öz "saylarını artırmaqla" məşğuldurlar. Bundan ötrü də, bir tərəfdən, rəqəmlər şişirdilir, digər yandansa, xaricdə və Ermənistanda yaşayan ermənilər Dağlıq Qarabağda və işğal edilən ətraf ərazilərdə məskunlaşdırılır (Ermənistan belə bir məskunlaşdırma ilə bağlı da problemlə üzləşmişdir. Ermənilərin işğal olunan rayonlarımızda məskunlaşmaları müşkülə çevrilmişdir. Onların çoxu həmin ərazilərdə qalmaq istəmirlər. Təkcə Laçın rayonuna yerləşdirilən 10 min ailədən 3 mini oranı tərk edibdir.

Ermənistan hökuməti bu prosesi (geriyə qayıdışı) əngəlləmək üçün müxtəlif üsul və vasitələrə əl atır. Məsələn, hər bir sakinə min dollarlıq səhm paketinin verilməsi və s."DQR rəhbərliyi" 2009-cu ildə Qarabağa erməni köçünü gücləndirmək məqsədilə xüsusi konsepsiyanın həyata keçirilməsinə başlamışdır. Bu konsepsiya Qarabağa köçən erməni ailələrinə edilən birdəfəlik əvəzsiz yardımın həcminin iki dəfə artırılaraq təqribən 3275 dollara çatdırılmasını nəzərdə tutur. Fransa, Argentina və digər ölkələrdəki erməni diasporası da DQ-yə köçən hər ailəyə 10 min dollar ayıracaqlarını bildirmişlər. Sözgəlişi, Azərbaycanla həm də "İnformasiya müharibəsi" aparan Ermənistan KİV-i və bütün təbliğat maşını azərbaycanlı qaçqınların da öz yerlərinə dönməkdə maraqlı olmadıqlarına dair fikirlər yayırlar .

Rəsmi İrəvanın digər bir rahatsızlığı da var. Bu da Dağlıq Qarabağın erməni və hazırda qaçqınlıq həyatı yaşayan azərbaycanlı əhalisinin artım dinamikasındakı göstəricilərin onların xeyrinə olmaması ilə əlaqədardır. Bunu nəzərə alan rəsmi İrəvan DQ azərbaycanlılarının referendumda iştirakına tərəfdar olsa da, belə bir hüququn yalnız münaqişəyədək orada yaşayan soydaşlarımıza verilməsində israr edir. Bu halda "gözlənilən referendum"adək səsvermə hüququna malikolma yaşına ça-

tacaq, ancaq DQ-dən kənarda doğulmuş qarabağlı azərbaycanlılar həmin hüquqdan məhrum edilmiş olurlar. (Münaqişə ərəfəsində, yəni 1989-cu il siyahıyaalmasına əsasən DQ-nin erməni və azərbaycanlı əhalisinin nisbəti 70-30% olaraq götürülmüşdür). Ehtimal edilən referendumun nəticəsinin legitimliyi üçün çoxluq faizinin nə qədər olacağının bilinmədiyi bir şəraitdə xeyli rahatsız olan ermənilər "orijinal" təkliflər irəli sürüblər: statusun müəyyənlşdirilməsi (bunun üçün tələb olunan referendumun keçirilməsi) azərbaycanlılar DQ-yə qayıtmazdan əvvəl reallaşdırılsın; azərbaycanlılar hazırda yaşadıqları yerlərdən səs verməklə də referendumda iştirak edə bilərlər. Bu "üsul" Ermənistana ikiqat sərfəlidir. Ona görə ki, DQ ermənilərinin də nəzərəçarpacaq hissəsi vilayətdən kənarda yaşayır.

5) Regionun təhlükəsizliyinə beynəlxalq təminat verilməsi adı altında oraya sülhməramlı qüvvələrin göndərilməsi də "Madrid sənəsi"nin sütun prinsiplərindən sayılır. Diplomatik çevrələrdə yayılan məlumatlar artıq Ermənistanla Azərbaycanın münaqişə bölgəsində beynəlxalq sülhyaradıcı qüvvələrin yerləşdirilməsi ilə razılaşmalarını təsdiqləyir. Bu işdə hələlik uzlaşma olmayan məqamsa həmin qüvvələrin tərkibi ilə bağlıdır. Ortalıqda olan mülahizə və variantlardan birinə görə, sülhməramlı qüvvələrin tərkibinə həmsədr ölkələrin heç birinin hərbi kontingenti daxil edilməyəcəkdir. Bu halda sülhyaratma missiyasının Avropa İttifaqının təhlükəsizlik qüvvələrinin üzərinə düşəcəyi (qoyulacağı) gözlənilir.

Sülh razılaşmasının qarantı olmağa iddia edən Rusiya münaqişə bölgəsinə MDB ölkələri qoşunlarının, xüsusilə də KTMT-nin Çevik Reaksiya Qüvvələri kontingentinin yerləşdirilməsi niyyətini gizlətmir. Bunu isə, bir yandan, münaqişə tərəflərinin (Ermənistanla Azərbaycanın) hər ikisinin razılığının problemli görünməsi və habelə birincinin KTMT-nin üzvü olması bəribaşdan istisna (mümkünsüz) edir. Digər tərəfdən də, Ermənistanın beynəlxalq sülhməramlı qüvvələrin tərkibinə rus qoşun hissələrinin daxil edilməsində israrı Azərbaycanın orada

türk əsgərlərinin də özünə yer almaları tələbi ilə üzləşə bilər.

Ekspertlərin bir qismi belə hesab edir ki, DQ-də qonşu dövlətlərin yox, ABŞ-ın və Avropa ölkələrinin sülhməramlılarının yerləşdirilməsinə dair təkliflər təxribat səciyyəlidir və Rusiyanı qıcıqlandırmağa yönəlik (özü də əsla yolverilməz) addımdır. Politoloq V.Quluzadənin qənaətinə görə: Kremlin iştirak etdiyi bütün danışıqlarda təhlükə var və onun əsas planı Azərbaycanı Ermənistanın gününə salmaqdır; Kreml bir neçə rayonun boşaldılmasının əvəzində DQ-nin Ermənistana verilməsində və regiona Rusiya sülhməramlılarının yerləşdirilməsində imperiya durduqca onların orada qalmasında maraqlıdır; Rusiya ilə oyun oynamaq təhlükəlidir və ona taleyüklü güzəştlərə getmək (təslimçilik) bağışlanılmaz hərəkət olardı.

"Madrid prinsipləri"nin rəsmən elan edilməsi ilə həm də onun — həmsədr dövlətlərin başçılarının məlum birgə bəyanatında (10.VII.2009) nəzərdə tutulan—**"yeniləşdirilməsi prosesi - (dönəmi)"**nə başlanıldı. Bu sırada Azərbaycan və Ermənistan prezidentlərinin "baza prinsiplərinin əsas elementləri üzrə indiyəcən ən detallı, dərin məzmunlu və konstruktiv müzakirələrinin aparıldığı" (M.Brayza) Moskva görüşü (17.VII.2009) və sonra D.Medvedyevin də iştirakı ilə keçirilən qeyri-rəsmi danışıqlar diqqət mərkəzində olmuşdur. Bunu E.Məmmədyarovun həmin danışıqlara dair açıqlamalarında özünə yer alan bu fikirdən də görmək olar: "Rusiya prezidenti D.Medvedyev öz təşəbbüsü ilə Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı ən xırda detalları belə müzakirə edir". Müxtəlif siyasi-diplomatik çevrələrdən Rusiya, Azərbaycan, Türkiyə və Ermənistan KİV-lərinə sız(dırıl)an məlumatlara görə isə, həmin detallar "ərazilər=referendum" variantını, bu kontekstdə də "aralıq statusu" və yekun statusdan ötrü keçirilməli olan səsvermə proseduru, sülhməramlı qüvvələrin konkret tərkibi, habelə digər məqamları əhatə etmişdir.

Y.Merzlyakovun "prezidentləri konstruktiv mövqedə və nəticə əldə etməyə meylli" gördüyü Moskva danışıqlarının nə-

ticələri — "Madrid prinsipləri"nin yeniləşdirilməsinə dair yanaşma və təkliflər **həmsədrlərin Krakov görüşündə (25-26.VII.2009)** intensiv müzakirə olundu. "Madrid sənədi"nin təzələnməsi səyləri **MDB-nin Kişinyov sammiti** (X.2009) çərçivəsindəki **"ikili" (Əliyev-Sərkisyan) və "üçlü" ("ikilik" + D.Medvedyev) formatlarda** baş tutan rəsmi və qeyri-formal görüşlər, danışıqlar vasitəsilə də davam etdirildi.

"Madrid prinsipləri"nin yeniləşdirilməsi prosesi Ermənistanda köhnə-təzə bir çox maddə və şərtləri gündəmə gətirmiş və qarışıq reaksiyalar, **çoxçalarlı rəylər doğurmuşdur.** Bu ölkənin bəzi siyasi-hərbi-diplomatik dairələrində "Madrid prinsipləri"- antiErmənistan, antiQarabağ prinsipləridir", "Koçaryanla Oskanyan buna görə məsuliyyətə cəlb olunmalıdır" kimi fikirlər səsləndirilməkdədir. (Yeri gəlmişkən, **M.Brayza həmsədrlərin "Madrid prinsipləri"nin əsasını qoyduqlarına görə R.Koçaryanla V.Oskanyana təşəkkür** etdiklərini bildirmişdi. Azərbaycanda isə bəzi ekspertlər prinsipləri Ermənistanın keçmiş prezidentinin, yəni R.Koçaryanın "arzularının həll modeli statusu alması" kimi səciyyələndirir). Prinsiplərin yeniləşmiş variantı üzərində işin getdiyi bir şəraitdə "onlar Sərkisyanın sonu ola bilər" kimi mülahizələrin də ortaya çıxdığı Ermənistanda hazırkı baş diplomat E.Nalbəndyanın açıqladığı mövqe maraq doğurur: rəsmi İrəvan "Madrid sənədi"ni heç vaxt qəbul etməyibdir, amma onun ətrafında və əsasında danışıqların aparılmasının əleyhinə deyil.

Yeniləşməkdə olan "Madrid sənədi" ilə əlaqədar **Ermənistandakı köhnə-təzə yanaşmalar (şərtlər) arasında onun 4-cü bəndi**nə aid "qayğı, rahatsızlıq" diqqəti çəkir. Ölkənin başlıca müxalifət qüvvəsi sayılan Erməni Milli Konqresinin təmsilçilərindən keçmiş Xarici İşlər naziri A.Arzumanyan həmin bənddə əks olunan "hüquqi səlahiyyətli iradəni ifadə etmə" anlayışını şübhəli, danışıqların gedişindən asılı olaraq müxtəlif yönlərdə yozula-şərh oluna bilən yanaşma sayır. Erməni diplomatının fikrincə, beynəlxalq hüquqda "referendum" anlayışı var

və onun "Madrid sənədi"ndə öz əksini tapmamasıyla, habelə Azərbaycanın yekun statusuna dair ehtimal edilən gələcək səsvermə prinsipi ilə razılaşmaq olmaz. (Az öncə də qeyd edildiyi kimi, M.Brayza "öz iradəsini ifadə etmə" ilə referendumun arasında fərq olmadığını bildirmişdi). Sabiq baş diplomat həmçinin "Madrid prinsipləri"nin DQ ətrafındakı regionlardan çıxarılan erməni qoşunlarını kimin əvəzləyəcəyi, Azərbaycana həmin ərazilərə silahlı qüvvə yerləşdirmək hüququnun verilib-verilməyəcəyi və digər məsələlərə konkret aydınlıq gətirmədiyini də bildirirdi.

Ermənilərin maraqlarını təmin edən "Madrid prinsipləri"nə Ermənistandakı etirazlara (onları diplomatik gediş, məqsədyönlü hərəkətlər sayan yanaşmalar da vardır) Dağlıq Qarabağ separatçıları da qoşulmuşlar. "DQR" Ermənistanı indiyədək "rəsmi Xankəndi"ni sülh danışıqları prosesinin üçüncü tərəfi etməyə müvəffəq olmamaqda "günahlandırır". Separatçılar Ermənistandan ətraf rayonların boşaldılması və referendum barədə uzunsürən müzakirələr aparmaqdansa, Dağlıq Qarabağın *da danışıqların* (münaqişənin) tərəfi kimi tanınması şərtini qoymasını istəyirlər. DQ-nin danışıqlarda tərəf kimi tanınmayacağı şəraitdə əldə olunacaq hər hansı bir razılaşmanı qəbul etməyəcəkləri ilə hədələyən qarabağlı ermənilər "rəsmi Xankəndi"nin AR-lə birbaşa müzakirələrində israrlıdırlar.

Onların bu israrı, bir sıra digər amillərlə yanaşı, habelə həmsədrlərin "sözdəki dəstəyi-açıqlamaları"ndan qaynaqlanır. Vaxtılə V.Kazimirov, son zamanlarsa Y.Merzlyakov, artıq sabiq həmsədr olan M.Brayza vaxtaşırı Azərbaycan tərəfini bu məsələdə də güzəştə getməyə "dəvət ediblər". M.Brayzanın qənaətinə görə, "Dağlıq Qarabağ hakimiyyətinin (?!-İ.M.) danışıqlarda birbaşa iştirakına ehtiyac vardır". Amerikalı diplomat "DQ ermənilər nümayəndələrinin bir neçə il əvvəl danışıqlar masası arxasında oturduqlarını" bildirmişdi. Həm də əlavə etmişdi ki, rəsmi İrəvanın danışıqlarda onları da təmsil etməsinə dair öz qərarı üzündən müzakirələrə qatılmayan qarabağlı er-

məni nümayəndələrinin yenidən danışıqlar masası arxasına dönmələri üçün qarşılıqlı razılıq olmalıdır. **"Uğursuz həmsədr"** kimi də səciyyələndirilən M.Brayza onların gec-tez danışıqlarda birbaşa iştirak edəcəklərinə ümidli olduğunu da söyləmişdi.

Həmsədrlərin (M.Brayzanın) bu dəyərləndirmə-ümidi AR XİN-in rəsmisi (mətbuat katibi) E.Poluxov tərəfindən belə şərh edilibdir: "Minsk Qrupu vasitəsilə həyata keçirilən danışıqlarda Azərbaycan və Ermənistan tərəfləri iştirak edir. DQ erməni icmasının hansısa mərhələdə bu məsələyə qatılması həmişə gündəmdə olub. Ümumi prinsiplər razılaşdırıldıqdan sonra icmaların bir-biri ilə gələcəkdə həyatlarını qurması üçün görüşləri, sözsüz ki, olasıdır. Bu prosesdə hər iki icmanın görüşləri, nəzərdə tutulub. Ancaq formatın dəyişdirilməsi məsələsi hazırda gündəlikdə deyil". "Rəsmi Bakı heç vaxt Qarabağ ermənilərı ilə bir masa arxasında oturmaz" fikrini söyləyən V.Quluzadə isə keçmiş amerikalı həmsədrin açıqlamalarını "ABŞ siyasətinin saralmış səhifələri, köhnə bayatılar" kimi qiymətləndirmişdir. Bununla bağlı o, habelə ABŞ-ın AR-dəki keçmiş səfiri S.Eskuderonun vaxtında amerikalıların "Siz gərək xalqınızı güzəştli sülhə hazırlayasınız" kimi "məsləhəti"ni də xatırlatmışdır.

"Madrid prinsipləri"nin yeniləşdirilməsinə dair yayılan məlumatlar rəsmi İrəvanı və "DQR"-i Azərbaycanın "erməni xalqı Ermənistanın timsalında artıq öz müqəddəratını təyin edib" təki əksdəlilinə qarşı da fəallaşbırılıbdır. Ermənilər Türkiyə Cümhuriyyəti ilə Şimali Kipr Türk Respublikasının mövcudluğu (ikincisi beynəlxalq birlik tərəfindən— Ankara çıxılmaqla rəsmən tanınmasa da), albanların iki (Albaniya və Kosovo), ərəblərinsə xeyli müstəqil dövlətlərinin olduğu bir şəraitdə (zəmanədə) onlara belə bir hüququn (imkanın) verilməməsini dövlətlərarası hüquqda nonsens sayırlar. (Sözgəlişi, erməni ekspertləri İranın parçalanması perspektivində Güney Azərbaycanda da müstəqil dövlətin qurulması ehtimalına AR-in ermənilərə qarşı irəli sürdüyü məlum dəlili baxımından necə yanaşılacağını da nəzərə almağı vacib bilirlər). Erməni tərəfinin bu kimi dəyərləndirmə-izahı onun **"Madrid prinsipləri"nin Dağlıq Qarabağın müstəqilləşməsinə və ya Ermənistana birləşməsinə "yaşıl işıq"** yandıracağına ümidli olduğunu təsdiqləyir.

"Madrid sənədi"nin üzərində "təkmilləşdirmə" işlərinin getdiyi bir şəraitdə Azərbaycanda onun qəbulunu Dağlıq Qarabağla ətrafındakı iki rayonun (Kəlbəcərlə Laçının) itirilməsi kimi dəyərləndirən yanaşma və mövqelər üstünlük təşkil etməkdədir (Digər yandan, həmin sənədin qəbulunun Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həllini təmin edəcəyini düşünənlər də yox deyil). Vəziyyətdən çıxış yolu olaraq müxtəlif təkliflər irəli sürülür. Bəzi siyasi-elmi çevrələr Qərbi azərbaycanlıların Ermənistanda (Zəngəzur və Göyçə mahallarını əhatə edən ərazilərdə) assimmetrik dövlət yaratmaları (muxtariyyət qazanmaları) məsələsinin danışıqların mövzusu edilməsinə çalışılmasını məsləhət bilirlər. Bir çoxlarına isə müəyyən qədər qeyri-real görünən bu mövqe-təklifin tərəfdarlarının *(V.Quluzadə, Q.Hüseynli və b.)* fikrincə, "Qarabağ problemi"nin *həlli üçün təkcə beynəlxalq amillə işləmək kifayət deyil.*

Bundan çıxış edən siyasilərin və ekspert-analitiklərin qənaətinə görə, danışıqlar prosesindəki durumu Azərbaycanın xeyrinə dəyişmək, başqa sözlə, müzakirələri yeni şərtlərlə davam etdirmək üçün "diplomatik masa" arxasındakı Ermənistandan ötrü çəkindirici ola biləcək amil işə salınmalıdır. Yəni AR **"savaşmamaq öhdəliyi"**ndən imtina – müharibə haqqını önə verməlidir (Əkshal BMT-nin DQ-yə dair məlum qətnamələrinin avtomatik sıfırlanması, işğalın rəsmiləşdirilməsi, Dağlıq Qarabağın itirilməsi və bütün bunlar razılaşma kimi səciyyələndirilir). Öz növbəsində, bunu olduqca riskli sayan yanaşmaların müəllifləri ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini T.Kaydenaunun regiona səfərini və Bakıda AR rəhbərliyi ilə danışıqlarını (X.2009) həm də Azərbaycanın "müharibəyə gizli hazırlıqları"nı əngəlləməyə

yönəlik diplomatik xəbərdarlıq (təzyiq) tədbiri təki nəzərdən keçirirlər (AR-in ehtimal edilən "müharibə hazırlıqları" beynəlxalq siyasətdə təklənməkdə olan Azərbaycanın vəziyyətdən çıxış yolu, yəni durumu dəyişdirmək üçün əl atdığı vasitə kimi də dəyərləndirilir).

"Madrid prinsipləri"nin yeniləşdirilməsi prosesi ilə əlaqədar hazırkı durumun başlıca cizgiləri bunlardan ibarətdir:

- prinsiplərə dair fundamental konsepsiya öz əksini həmsədr dövlətlərin prezidentlərinin məlum bəyanatında (Akvila, VII.2009) tapıbdır;
- həmsədrlərin Krakov görüşündə (VII.2009) prinsiplərə yalnız texniki düzəlişlər edilib və müəyyən detallar əlavə olunubdur;
- danışıqlar və prinsiplərin yeniləşdirilməsi prosesi barədə olduqca məhdud bir dairə məlumatlıdır;
- yekun statusu məsələsi danışıqların dalana dirənməsinin başlıca səbəbidir. Bu kontekstdə də hələ ki, həllini tapmayan problem – hələlik razılaşdırılmayan məqam isə DQ-də referendumun keçirilmə vaxtının müəyyənləşdirilməməsindən ibarətdir;
- "Madrid sənədi"nin yeniləşdirilmiş variantının artıq hazır olduğunun bildirilməsinə baxmayaraq müvafiq müzakirələr 2009-cu il oktyabrın axırlarında Lüksemburqda Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin danışıqlarında və həmsədrlərin məsləhətləşmələrində də aparılmışdır. Həmsədrlər ATƏT-in münaqişələrin qarşısının alınması Mərkəzinin Vyanada keçirdiyi (X.2009) konfransda da iştirak etmişlər;
- həmsədrlər Azərbaycanla Ermənistana növbəti səfərdə (XII.2009) oldular və ATƏT XİNŞ-in toplantısı çərçivəsində (Afina, XII.2009) Dağlıq Qarabağ münaqişəsinin müzakirəsini apardılar;
- bütövlükdə isə, öncə Azərbaycan və Ermənistan prezidentlərinin "Madrid sənədi"nin yeniləşmiş variantını — "baza prinsipləri"ni razılaşdırmalarına müvəffəq olunmasına və sonra da detallar üzrə danışıqların aparılmasına çalışılır.

Ermənistanla Azərbaycan arasındakı Dağlıq Qarabağ münaqişəsinin Minsk Qrupu çərçivəsində tənzimlənməsi prosesində bir sıra **nizamlama modellər**inin də tətbiqi nəzərdən keçirilmişdir. Onlardan da "Aland", "Triyest", "Kipr", "Deyton (Çeçen)", "Dnestryanı", "Tatarıstan-Başqırdıstan", "Kosovo" və digərlərini qeyd etmək olar. Həmin modellərin konstitusion-hüquqi səciyyəsinə və "DQ problemi"nin həllinə ehtimal olunan tətbiqinin nəticələrinin təhlilinə keşməzdən öncə-bəribaşdan belə bir önəmli qənaəti vurğulamaq lazımdır: Bu iş Azərbaycanın ərazi bütövlüyünün və dövlət quruluşunun əsaslarının ciddi şəkildə pozulmasına gətirib çıxara bilər.

"Aland modeli" və onun Ermənistan-Azərbyacan münaqişəsinin nizamlanmasına tətbiqinin perspektivləri, gözlənilə bilən nəticələri ilə əlaqədar olaraq aşağıdakıları nəzərə almaq lazımdır:

1-cisi, Aland təxminən 6757 adadan ibarət olan arxipelaqdır. "Skandinaviya Qarabağı" da adlandırılan bu adalar Baltik dənizində İsveçlə Finlandiya arasında "nifaq alması"na çevrilmişlər. Hazırda təqribən 27 min nəfərin yaşadığı bu adalar vaxtılə İsveç-Rusiya-İngiltərə münaqişələri üçbucağında da önəm daşımış və mübahisələrə səbəb olmuşdur. Onlar 1809-cu ildə Finlandiya ilə birlikdə Rusiya imperiyasına qatılmışdır. 1856-cı ildə keçirilən Paris konqresinin qərarı ilə hərbsizləşdirilmiş zona elan edilmişdir. 1917-ci ildə Finlandiya müstəqillik əldə edərkən əhalisinin 96 faizi isveçli olan Aland adaları da ondan ayrılıb "ana İsveç"ə (burada ermənilərin "Miatsum"u və yunanların "Enozis"i yada düşür) birləşmək istəmişdi.

Alandlıların bu istəyi Finlandiya tərkibində adaların özünüidarəsi haqqında qanunla (1920) rədd edilmişdi. Millətlər Cəmiyyətinin qətnaməsi ilə (24.VI.1921) Finlandiyanın adalar üzərindəki suverenliyi birmənalı olaraq tanındı. 1922-ci ildə isə

adaların hərbsizləşdirilmiş (neytral) zonaya çevrilməsi barədə Konvensiya imzalandı; Finlandiya habelə adalarda İsveç dilinin işlənməsi və s. barədə öhdəliklər götürdü, onların əhalisinin təhlükəsizliyinə təminat verdi. Hazırda adaların əhalisinin 5 faizi müstəqillik tərəfdarıdır, qalanı isə "muxtariyyətin yüksək statusu"ndan bəhrələnməyə üstünlük verir. Yəni özlərinə əlverişli, xeyirli olmaqla həm İsveç, həm də Finlandiya ilə normal münasibətləri var (Necə deyərlər, "əzizlənən buzov iki inəyi əmər").

2-cisi, "Aland modeli" beynəlxalq vasitəçilər tərəfindən Azərbaycan Respublikası ilə Dağlıq Qarabağ arasındakı münasibətlərin gələcək variantı kimi təklif olunmuşdu. Bu tənzimləmə model-variantı AR tərkibində DQ-yə muxtariyyət verilməsini nəzərdə tuturdu. Konstitusion-hüquqi nizamlama mexanizmi bunları əsas götürürdü: muxtariyyətin qanunvericilik aktlarının AR-in hüquqi bazasının tərkib hissəsini təşkil etməsi; muxtar qurumun aktlarının hüquqi qüvvəsinin AR Konstitusiyasına uyğun olması; AR-in muxtariyyətin erməni əhalisinin dili və mədəniyyətinin inkişafına təminat verməsi; muxtariyyətin qanunverici və icra strukturlarına sosial-iqtisadi, mədəni, ekoloji məsələlərin həllində geniş səlahiyyətlər verilməsi, ancaq xarici siyasət, müdafiə, maliyyə və s. sahələrdə müstəsna hüququn AR-in mərkəzi orqanlarında saxlanılması. Bütün bunlarsa AR parlamenti tərəfindən-Azərbaycanın tərkibində Dağlıq Qarabağa muxtariyyət statusunun verilməsini rəsmiləşdirən-qanunverici aktın qəbulunu şərtləndirirdi.

3-cüsü, bu modelin "Dağlıq Qarabağ problemi"nin həllinə tətbiqinin mümkünlüyü ilə əlaqədar olaraq onlar arasında müəyyən paralellər aparan analitik-ekspertlər bunları da önə çəkirlər:

a) "Aland problemi" qansız ötüşübdür, Ermənistan-Azərbaycan münaqişəsi isə müharibə həddinədək böyüyübdür;

b) Aland adaları arxipelaq olaraq həm İsveçdən, həm də Finlandiyadan ərazi cəhətdən ayrı-aralıdır. Halbuki, DQ Azərbaycandadır, yaxud ən son halda isə AR-ə yaxındır, nəinki Ermənistana (dağlar və s. üzündən). (Hərçənd ki, hələ 1920-ci illərin əvvəlində A.Mikoyan və b. Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanılması mövqeyindən çıxış edərkən vilayətin ölkəmizin tarixi hissəsi olmasını deyil, onun İrəvandan çox Bakı ilə iqtisadi əlaqələrə malik olmasını vurğulamışdılar);

c) İsveç iqtisadi və s. cəhətlərdən Finlandiyadan daha üstün səviyyədə inkişaf etmiş dövlətdir. Və məsələ "İsveç inkişaf etdiyindən Aland adaları ona qatılmalıdır" məntiqinə qalarsa da Azərbaycan Ermənistanla müqayisədə inkişaf etmiş ölkə olduğundan DQ onun tərkibində saxlanılmalıdır. (Azərbaycandakı müəyyən çevrələrdə belə bəsit yanaşma da mövcuddur ki, "Aland təcrübəsi"nin bir məqamı, yəni ayrılma tərəfdarlarının sayının minimuma enməsi DQ-də də baş verə bilər. Yəni, AR-in iqtisadi potensialını və inkişafını (neft amili və s.) dəyərləndirən ermənilər DQ-nin Azərbaycandan ayrılması niyyət və planlarından imtina edərlər).

4-cüsü, DQ-yə tətbiq ediləcəyi şəraitdə AR-in ərazi bütövlüyünü pozmayan "Aland modeli" ermənilər tərəfindən qəti etirazla qarşılandı. Onlar öz mövqelərini həmin modelin "Qarabağ-Azərbaycan münaqişəsinin və DQ-nin AR-dən ayrılması uğrunda müharibənin tarixi əsaslarını və psixoloji nəticələrini nəzərə almaması" ilə əlaqələndirirdilər.

"Kipr modeli"— Dağlıq Qarabağ münaqişəsinin həllinə münasibətdə həmsədrlər tərəfindən bir nizamlama variantı olaraq təklif edilməyibdir. Onu 2001-ci ildə ermənilər irəli sürüblər. Həmin modelə görə, separat rejim dövlət qurumu kimi heç kəs tərəfindən tanınmır, amma de-fakto mövcud olur və fəaliyyət göstərir. Onun DQ-yə tətbiqi isə belə bir inzibati-siyasi mənzərəni yarada bilər. Yəni ki, "DQR" dünya birliyi tərəfindən beynəlxalq münasibətlər sisteminin (hüququn) subyekti kimi de-yure tanınmasa da, Dağlıq Qarabağ dövlətçiliyin (təbii, ermənilərin) bütün atributlarına de-fakto malik olur, suveren dövlət qurumu təki fəaliyyət göstərir.

"Nə müharibə, nə də sülh" vəziyyətinin xeyli müddət davam etməsinin, yəni status- kvonun "dondurulması"nın Cənubi Kiprin son anda beynəlxalq birlik tərəfindən tanınması ilə nəticələnməsi təcrübəsi bu modellə bağlı Azərbaycanda haqlı ciddi əks yanaşmalara səbəb olmuşdur. Belə ki, "müddətsiz status-kvo" AR-ə sonda "Kipr modeli"nin gerçəkləşməsi təhlükəsini yaradar. Yaxud da ən azından Azərbaycanın Dağlıq Qarabağ üzərindəki suveren hüquqlarının pozulmasını (hakimiyyətsizliyini) hədsiz uzatmaqla AR-in sülh prosesindəki mövqelərinin əsaslı şəkildə zəifləməsinə gətirib çıxara bilər. Azərbaycanda həmçinin belə hesab edirlər ki, Kipr və Dağlıq Qarabağ "problemləri" tarixi kökləri, onların yaradılmasındakı beynəlxalq maraqlar və həllərinə yönəlik səylər baxımından da çoxlu fərqli məqamlara malikdirlər. Bütün bunlara görə də həmin modelin Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsinə tətbiqi imkansız və perspektivsizdir.

"Triyest modeli" də maraqlı nüanslara malik olmaqla "Dağlıq Qarabağ münaqişəsi"nin tənzimlənməsinə tətbiqi baxımından müxtəlif rəylər doğurmuşdur. Öncə Triyest şəhəri ətrafındakı mübahisələrlə bağlı bəzi məsələlərə diqqət yetirilməsi lazımdır. Əvvəllər Yuqoslaviyanın tərkibində olan şəhər İkinci Dünya müharibəsindən dərhal sonra iki hissəyə bölünübdür. Paris müqaviləsi (1947) ilə onun bir hissəsi Yuqoslaviyaya verilibdir. 1975-ci ildə isə tam olaraq İtaliyanın tərkibinə qatılıbdır. Bu zaman iki amil nəzərə alınıbdır: əhalisinin çoxunu italyanların təşkil etməsi və Avstriya-Macarıstan imperiyası zamanı da İtaliyanın tərkibində olması. Hazırda Venesiya-Culiya muxtar vilayətinin mərkəzi olan Triyestin azad iqtisadi zona statusuna dair beynəlxalq saziş vardır. Onun muxtariyyətini (müstəqilliyini) BMT TŞ təmin edir. Şəhər hərbsizləşdirilmişdir, onun bayrağı, gerbi, qubernatoru, qanunverici, icra qurumları mövcuddur. Orada həm italyanlar, həm də serblər sərbəstdirlər, hər iki dövlətin pulu işləyir və s.

"Dağlıq Qarabağ problemi"nin həllinə dair sülh prosesində **"Triyest modeli"ndən istifadə məsələsi aşağıdakı mövqeləri** ortaya çıxarmışdır:

- O, "Aland modeli"nə bənzəyir və "Avropadakı münaqişələrin tənzimlənməsinin kosmopolit variantlarından biridir";
- bəzi istisnalarla modelin "yüksək status" sayılaraq DQ-yə tətbiqi mümkündür, ancaq bu zaman azərbaycanlı icmasının da maraqları nəzərə alınmalıdır. Bu yanaşmaya əks olan fikir (dəlil) də mövcuddur: "Onda da DQ "ortaq ərazi" anlamına gəlir";
- bu model bir şəhər (burada 1920-ci ildə Batumla bağlı mübahisələr yada düşür) üçün nəzərdə tutulubdur və onun DQ-yə tətbiqi yolları bilinmir. AR üçün başlıca prinsipial məsələ vilayətin Azərbaycanın suveren ərazisi kimi Ermənistan və beynəlxalq birlik tərəfindən qəti, əməli olaraq tanınmasıdır;
- Triyest inzibati cəhətdən İtaliyanın tabeçiliyində olsa da, onunla Serbiyanın "ortaq şəhəri" kimi görünür. Və, DQ ilə bağlı, belə bir inzibati-siyasi şərait AR-i əsla qane edə bilməz;
- "biz işğalçı deyilik ki, torpaqlarımızın taleyi beynəlxalq arbitraja çıxarılsın. Dağlıq Qarabağ da mübahisəli ərazi deyil. Ermənistan onu işğal edibdir. AR isə bu işğalla və DQ-nin mübahisəli ərazi olması ilə razılaşmır. Bu halda "Triyest modeli"nin həll variantı kimi qəbulu DQ-ni mübahisəli ərazi durumuna gətirir" (V.Quluzadə). Necə ki, DQ-nin gələcək statusu ilə bağlı hər hansı bir referendum da onun mübahisəli ərazi sayılmasına əsas verə bilər.

"Dnestryanı model"— millətlərarası münaqişənin həlli vasitəsi kimi federallaşmaya üstünlük verir. Bu modelə görə Moldova və onun özünü "müstəqil" elan edən Dnestryanı bölgəsi demokratik federativ dövlət yarada bilərlər. (Hər iki bərabərhüquqlu subyektin ondan çıxma hüququna malikolma şərtilə). Xeyli müddət diplomatik dövriyyədə qalmasına, vaxtaşırı aktuallaşıb müzakirə obyektinə çevrilməsinə baxmayaraq

"Dnestryanı model" də Minsk Qrupu (həmsədrlər) tərəfindən "Dağlıq Qarabağ problemi"nin həlli variantı olaraq rəsmi şəkildə irəli sürülməyibdir. Bu model "Ərazi mübadiləsi", "ümumi dövlət", "assosiativ dövlət", "Kipr presedenti", "Deyton variantı" və s. fərqli olaraq müəyyən müsbət səciyyə daşıyır. Belə ki, o, simmetrik federasiyanın təşkilini, yəni federal mərkəzlə subyektlərin səlahiyyətlərinin dəqiq bölgüsünü və aydın müəyyənləşdirilməsini əsas tutur. Azərbaycan diplomatiyası isə, yenə də haqlı və təbii olaraq, "Dağlıq Qarabağ münaqişəsi"nin ədalətli tənzimlənməsi üçün əsla yaramadığını nəzərə alaraq onun müzakirəsinə vaxt ayırmağı belə məsləhət bilmir.

"Deyton (Çeçen) variantı" keçid dövrünü, yəni "təxirə salınmış siyasi status mexanizmi"ni nəzərdə tutur. Bu zaman qarşıdurmanın kəskinliyini azaltmaqla mübahisəli məsələlərin hüquqi tənzimlənməsinin təxirə salınması məqbul sayılır. Bu variant diplomatik dövriyyəyə Balkanlardakı ərazi-etnik münaqişələrin bir hissəsinin nizamlanmasına dair Deyton sülh sazişi (21.XI.1995)ilə əlaqədar olaraq gətirilmişdir. Bosniya və Hertseqovinada müsəlman soyqırımları törədən serb əhalisinə həmin sazişə əsasən 9 ildən sonra öz müqəddəratını təyin etməyə "təxirə salınmış hüquq" verilirdi. Balkanlarda "sınaq"dan keçirilən bu modelin ("təcrübə"nin) Xasavyurd sazişləri ilə çeçen-Rusiya qarşıdurmasının aradan qaldırılmasına tətbiqi cəhdi də əməli nəticə verməmişdi.

Variantın Ermənistan-Azərbaycan münaqişəsinin həllinə tətbiqi halı isə Dağlıq Qarabağın erməni icmasının təhlükəsizliyinə beynəlxalq təminatın verilməsi şərtilə onun siyasi statusunun müəyyənləşdirilməsinin minimum beş illiyə təxirə salınmasını əsas götürən keçid mərhələsini nəzərdə tutur. Bu da faktiki olaraq separatçı rejimin tədricən leqallaşdırılması mexanizminin işə salınması anlamına gəlir. (Sözgəlişi, Rusiya da bu məqama görə Xasavyurd müqavilələrinin reallaşdırılmasından yayınmışdı. Hərçənd ki, çeçen-Rusiya münaqişəsi tam fərqli tarixi köklərə, elementlərə və s. malikdir). Bütövlükdə isə, bu

variantın Dağlıq Qarabağa tətbiqi "DQR-in" suverenliyinin defakto tanınması və onun sonrakı beynəlxalq hüquqi təsbiti imkanı olardı. Nəticədə isə AR-in DQ üzərindəki hakimiyyətinin aliliyi birdəfəlik aradan qalxardı.

"Tatarıstan-Başqırdıstan modeli" də Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi prosesində nəzərdən keçirilibdir. Bu zaman da həm Azərbaycanda, həm də Ermənistanda müxtəlif yanaşmalar olmuşdur.

Azərbaycanda fərqli mövqelərdə dayanan siyasi-elmi çevrələr belə hesab edirlər ki:

- bu modeldən DQ-nin statusunun demokratik yolla müəyyənləşdirilməsi məqsədilə, yəni bölgənin azərbaycanlı icmasının rəyi və maraqlarının nəzərə alınması şərtilə faydalanmaq olar (E.Məmmədyarovun fikrincə, Dağlıq Qarabağ Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Tatarıstan səviyyəsində ən yüksək status (muxtariyyət) ala bilər);
- Tatarıstanla Başqırdıstanın indiki statusu Rusiyanın federativ dövlət quruluşundan irəli gəlir, yəni qanlı münaqişələrsiz təsbit olunubdur;
- AR unitar dövlətdir və DQ-nin statusu istənilən halda referendumla müəyyənləşməlidir;
- Tatarıstanın bir sıra xarici dövlətlərdə nümayəndəlikləri olsa da, bütün hallarda mərkəzdən (Moskvadan) asılıdır;
- AR-in bu modelin tətbiqi ilə razılaşması ölkənin federallaşmasına yol açа bilər ki, buna da əsla yol vermək olmaz. DQ ilə yalnız səlahiyyət bölgüsü (üfüqi yox, şaquli idarəçilik) barədə razılaşma mümkündür. (Sözgəlişi, vaxtılə Gürcüstan da Cənubi Osetiya və Abxaziya ilə bağlı səlahiyyət bölgüsünə razı olub, H.Əliyevin müvafiq təklifini isə ermənilər qəbul etməyiblər).

Ermənistanın siyasi elitası və elmi mərkəzlərinə -ekspertlərinə görə isə:

- AR Konstitusiyasında "DQR" inzibati-ərazi vahidi (dövlət qurumu) mövcud deyil və buna görə də "Tatarıstan-Baş-

qırdıstan modeli" ilə paralellər üçün hüquqi əsaslar yoxdur. (İrəvan Qafqaz Problemləri Analitik Mərkəzinin rəhbəri Roza Qabrielyan);

- federasiya quruluşu ermənilərin təhlükəsizliyinə, iqtisadi inkişafına və s. imkan vermir, şərait yaratmır. Azərbaycan DQ üçün bir qarant rolunu oynamalıdır, ancaq bu da mümkünsüzdür.

"Kosovo modeli" son vaxtlarda diplomatik dövriyyədə və gündəmdə özünə daha çox yer aldığından onunla əlaqədar məsələlərin əhatəli izahına ehtiyac vardır. Vaxtılə Yuqoslaviya Federasiyasında muxtar statusa malik olan Kosovo ötən əsrin 90-cı illərində serblərlə albanların "nifaq almasına" ("Qarabağı"na) çevrildi. BMT ilə Qərbin (NATO-nun) bu inzibati ərazidəki etnik qarşıdurmaya yetərli (təsirli) müdaxiləsi albanların irimiqyaslı soyqırımlarının qarşısını aldı və hətta onların serblərdən asılılığını tamamilə aradan qaldırdı.

Deyton sülh sazişinə (1995) görə, atəşkəs əldə edildi və qaçqınların geri qayıtmaları razılaşdırıldı. Habelə Kosovoya BMT-nin nəzarəti altında "aralıq statusu" verildi. Bölgənin yekun statusunun isə 5 il sonra və həm də 2007-ci ilin axırınadək aparılmalı olan danışıqlarda müəyyənləşdirilməsi qərara alındı. Serbiya ilə Kosovo arasında aparılacaq danışıqların nəticəsizliyi halında albanlar öz müstəqilliklərini elan edə bilərdilər. BMT Baş katibinin xüsusi nümayəndəsi, yəni Finlandiyanın keçmiş prezidenti "M.Ahtisarinin planı"na əsasən 2006-cı ildən aparılan danışıqlar Kosovonun müstəqillikdə birmənalı israrı üzündən nəticə vermədi. De-fakto müstəqilliyə çıxan Kosovo bir müddət BMT-nin xüsusi himayəsi (mandatı) altında oldu. Habelə BMT, AB və ABŞ tərəfindən onun de-yure müstəqilliyə ("nizamlanan", "tənzim edilən" suverenliyə) yetişməsi siyasəti yürüdüldü. Nəticədə Kosovo müstəqilliyini elan etdi (II.2008) və beynəlxalq birliyin bir hissəsi (öncə, təbii olaraq, Albaniya, ardınca isə ABŞ, İngiltərə, Fransa, Almaniya, Türkiyə, habelə digərləri) tərəfindən tanındı.

NATO silahlı qüvvələrinin 1999-cu ildə Kosovoya hərbi müdaxiləsindən (onu təcavüz sayanlar da vardır) sonra bu ərazi faktiki olaraq 7 il Serbiyanın idarəçiliyindən kənarda qaldı. (Necə ki, Dağlıq Qarabağ artıq 20 ildir Azərbaycana tabe deyildir). Bu müdaxilə zamanı Kosovo Azadlıq Ordusu NATO tərəfindən açıqca dəstəkləndi. (Halbuki, iki il əvvəl o, terrorçu təşkilat kimi tanınmışdı). Sözgəlişi, belə bir mühüm məqama da diqqət yetirmək lazım gəlir ki, Kosovoya NATO müdaxiləsi "xristian-islam qarşıdurması" məsələsi (mövzusu) ətrafında diskussiyalara da yeni çalar verdi. Belə ki, Kosovoya AB-NATO-ABŞ strateji maraqları dalğasında gerçəkləşən hərbi müdaxilə, yəni "albanlara görə serblərin bombalanması" etnosiyasi konfliktlərin və onlara yanaşmaların heç də hər zaman "xristian-müsəlman müstəvi"sində getmədiyini təsdiqləyir.

"Kosovo kazusu" geniş əhatəli və kəskin diplomatik gərginlik yaratdı. Onun müstəqilliyinin elanı və tanınması bu "kazus"un lehinə və əleyhinə tərəfləri ortaya çıxarmaqla yanaşı, çoxsaylı fərqli dəyərləndirmələrə də səbəb oldu. Bu, ***əksqütblü tərəf və mövqeləri*** isə aşağıdakı kimi qruplaşdırmaq və formulə etmək olar. "Kosovo problemi"nin həlli:

- ABŞ-NATO cütlüyünün Balkanlardakı diplomatik-hərbi fəaliyyətinin zirvəsidir;
- Rusiyanın böyük uğursuzluğu və onun ərazilərində separatizmin qüvvətlənməsi, parçalanması amilidir;
- Balkanlarda ABŞ-ın qüvvətlənməsi faktorudur;
- "müstəqilliklə"rin ABŞ və NATO vasitəsilə "sırınması" siyasətidir;
- kvazidövlətçiliyin – dövlətəoxşar qurumların daha da çoxalması vasitəsidir;
- ATƏT məkanında yeni geosiyasi şərait yaratma imkanıdır;
- Qərbi və Şərqi Avropanın (Balkanlar daxil) bir coğrafi, eyni universal dəyərlərli, ortaq hərbi kontingentli və siyasi – iqtisadi maraqlarlı, vahid sərhəd-gömrük rejimli məkanın qurulmasının, yəni hələ XIX əsrdən ortaya atılan "Avropa

Birləşmiş Ştatları" ideyasının, bu kontekstdə də **Rusiyasız "yeni Avropa" layihəsinin** gerçəkləşdirilməsinin yollarından biridir. Hərçənd ki, 45-ci Münhen təhlükəsizlik konfransında (II.2009)-**"Münhen Davosu"**nda Almaniya, Fransa liderləri (A.Merkel, N.Sarkozi) "Rusiyasız Avropa"nın mümkünsüzlüyünə işarə etdilər (Rusiya-**D.Medvedyev** hətta **46-cı Münhen konfransında** (II.2010) **yeni Avropa təhlükəsizliyi konsepsiyasını** müzakirəyə çıxarmışdır). Analitiklər bu işdə hazırkı dünya iqtisadi-maliyyə böhranının, həmin axarda Avropada yaşanan "qaz krizi"nin və Ukrayna ilə Rusiya arasındakı "qaz müharibəsi"nin təsirsiz ötüşmədiyi qənaətindədirlər;

- xarici qüvvələrin dəstəyi və təhriki, Serbiyanın qərbyönümlü prezidenti Tadiçin "xeyir-duası" (müqavimət göstərməməsi) ilə baş tutubdur;
- "Soyuq müharibə"nin sona yetməsi prosesində və ondan sonra yaranan "münaqişəli bölgələr problemi"nin çözülməsi, "müstəqilliklər"in tanınması üçün misli olmayan model (presedent) rolunu oynaya bilər.

"Kosovo sindromu" beynəlxalq birlikdə birmənalı qarşılanmadı. Bu **ərazinin müstəqilliyini tanımayan dövlətlər** də (öncə, təbii olaraq, Serbiya və ardınca isə Rusiya, Çin, Ermənistan, Azərbaycan, həmçinin digərləri) öz mövqelərini açıqlayıb əsaslandırmağa çalışdılar. Ekspertlər **"tanımayanlar"ın önündə gedən Rusiyanın mövqeyinə** aşağıdakı amillərin təsirini qeyd edirlər:

1.Balkanlardakı tarixi maraqlar və regionda nüfuzunu saxlama.

2.Çağdaş slavyan "həmrəyliyi".

3."Tarixi yardımın (yaxşılığın) əvəzi" (Burada İkinci Dünya müharibəsində Balkan dövlətlərinin, yəni Bolqarıstan, Rumıniya və s. Hitler Almaniyasına yardım etdikləri halda, Yuqoslaviyanın (Serbiyanın) isə SSRİ-nin (Rusiyanın) tərəfində olması nəzərdə tutulur).

4.Avropadakı tək müttəfiqinin (Yuqoslaviyanın) NATO tərəfindən parçalanması.

5. Serbiyanın itirilmə ehtimalı və təhlükəsi. (Qərbin diplomatik dairələrində və KİV-lərində yayılan məlumatlara görə, Kosovonu tanıyacağı təqdirdə Serbiyaya NATO-ya üzvlük vədi verilmişdir). Rusiyanın postsovet "müstəqillikləri" ilə birbaşa hüquqi münasibətlər yaratmaq, yəni onları tanımaq hədəsi, hətta Gürcüstana 2008-ci ilin yayındakı hərbi təcavüzdən az sonra Abxaziya ilə Cənubi Osetiyanı "dövlət sayması" da Serbiyanın itirilməməsi üçün əməli nəticə vermədi. Bir tərəfdən, Gürcüstanın muxtar qurumlarının müstəqilliklərinin tanınması prosesinin genişlənməsi alınmadı. Hətta ABŞ (NATO) tərəfindən Kosovoda çökdürülən və Gürcüstanda isə dayandırılan Rusiyanın satellitləri olan Ermənistan və Belarus da buna getmədilər. Qatı ABŞ əleyhdarı olan **Venesuela** prezidenti U.Çaves **və Nikaraqua** Kremlin istəyi ilə onları tanıdı.

Rusiya öz satelliti olan separatçı bölgələrin rejimlərini müstəqil dövlət kimi tanıtdırmaq üçün müxtəlif üsullara əl atır. Onlardan birini də "siyasi-diplomatik rüşvət", yəni məqsədli kreditlər və humanitar yardımlar təşkil edir. Ekvadorla gözlənilən sövdələşmə - 200 mln. dollarlıq kredit əvəzində həmin separatçı rejimlərin tanınması hələlik nəticəsiz qalıbdır. Daha bir "**diplomatik alver**" səyi **Nauru adlı cırtdan dövlətlə** bağlı göstərilibdir. Nauru rəsmisi K.Kekenin Sxinvali və Moskvada apardığı "danışıqlar"da Rusiya Cənubi Osetiyanı tanıması şərtilə ona 50 mln. dollarlıq humanitar yardım ayrılmasını vəd edibdir. Öz növbəsində Nauru rəsmisi Sakit okeanda onunla qonşu olan ada dövlətlərinin də Cənubi Osetiyanı tanımalarına çalışacaqlarını bildiribdir (Sakit okeanın eyni adlı adasında yerləşən Naurunun əhalisi 12-14 min civarındadır. Hazırda dünyanın ən kiçik ölkəsi – rəsmi paytaxtı olmayan yeganə dövlətdir. 1968-ci ildə müstəqilliyini elan edibdir. O, 1999-cu ildən BMT-nin üzvüdür. Sözgəlişi, Nauru **"tanıma alveri"** ilə məşğuldur. Belə ki, 2002-ci ildə Tayvanı tanımaq hədəsi ilə Çindən 130

mln. dollar yardım qoparmışdır. 2005-ci ildə isə Tayvandan iri məbləğdə yardım alaraq onun müstəqilliyini tanımışdır).

Sözgəlişi, Abxaziyanın separatçı lideri S.Baqapşın Türkiyəyə səfər edəcəyinə dair 2009-cu ilin lap sonunda yayılan məlumatlar da rəsmi Tiflisdə ciddi rahatsızlıq yaradıbdır. Onun Suxumidə verdiyi açıqlamadan Türkiyədəki abxaz diasporası və qeyri-hökumət təşkilatları ilə mümkün ola biləcək görüşlərdən bəhs edilmişdir. Bu gözlənilən səfərin Rusiya ilə Türkiyə arasında Güney Qafqaza dair üstüörtülü anlaşmanın tərkib hissəsi kimi - rəsmi Ankaranın məlum separatçı rejimləri tanıyacağına şübhələr yaradıbdır. Məsələ ilə bağlı hələlik rəsmi açıqlama verməyən Türkiyənin ehtimal olunan belə bir hərəkəti regiondakı vəziyyəti mürəkkəbləşdirə bilər. Regionda əsas aktorlardan-sözsahiblərindən olan Türkiyənin "separatçı rejimləri tanıma prosesi"nə qoşulması digərlərinin də mövqelərini möhkəmləndirər və Azərbaycanın da xeyrinə olmaz (Bu arada Türkiyə Abxaziya probleminin həlli üçün də təşəbbüs göstərəcəyini bildirmişdi. Hətta XİN-in müavininin Suxumiyə gedəcəyi açıqlanmışdı).

İran da diplomatik manevrlə Abxaziya və Cənubi Osetiyanı tanıma hədəsi etmişdir. Digər yandan da, **Rusiyanın özü üçün əksprosesin (bumeranq zərbəsinin)** yaşanması, yəni Çeçenistan, Tatarıstan və digərlərinin beynəlxalq aləmdə tanınması rahatsızlığı yarandı. "İki alban dövlətinin olduğu, 2 milyonluq əhaliyə malik Kosovonun müstəqilliyə qovuşması halında 10 milyon nəfərdən ibarət Tatarıstan niyə öz dövlətini yarada bilməsin?" və s. suallar ortaya çıxdı. Habelə 45-ci Münhen təhlükəsizlik konfransında ("Münhen Davosu"nda) ABŞ-ın yeni vitse-prezidenti C.Bayden Abxaziya və Cənubi Osetiyanın Rusiya tərəfindən "tanınmaları"nı beynəlxalq birliyin əsla qəbul etməyəcəyini bildirdi.

Qısaca bunu da qeyd etməyə ehtiyac vardır ki, Çinin Kosovonun müstəqilliyini tanımaması uyğurların yaşadığı ərazinin müstəqilləşmə perspektivi vəbu prosesin ABŞ-ın mövqelərini

qüvvətləndirməsindən irəli gələn rahatsızlıq (qayğılar) ilə izah oluna bilər.

Rusiyanın yedəyində gedən Ermənistan Kosovonun müstəqilliyini tanımasa da, presedentdən faydalanmağa çalışdı. Bunu AŞ PA-da lord R.Constonun "Kosovonun gələcək statusuna dair vəziyyətin inkişafı" adlı, 11472 saylı hesabatın müzakirəsi (22.I.2008) zamanı açıqlanan mövqelərdən də aydın şəkildə görmək olur. **Məruzəçinin nəzər nöqtəsinə** görə:

- "Kosovo problemi" dondurulmuş münaqişə olaraq regionda və Avropada sabitliyə maneədir";
- ərazinin müstəqilliyi münaqişənin tənzimlənməsinin yeganə yoludur;
- bu nizamlama modeli digər münaqişələrin həlli üçün presedent ola bilməz;
- Rusiyanın **"ayı xidməti"** göstərərək separatçı rejimləri dəstəkləməsi yol verilməzdir və s.

Məruzə və, ələlxüsus da, orada ifadə olunan bəzi fikirlər Rusiya nümayəndəsi tərəfindən kəskin etirazla qarşılandı. Erməni deputat Q.Ovanesyan isə şəraitdən yararlanaraq Kosovo ilə Dağlıq Qarabağ arasında paralellər aparıb oxşarlıqlar tapmağa səy göstərdi. İsveçrəli parlamentari D.Martenin "Kosovo təcrübəsi"nin digər münaqişələrin də tənzimlənməsi üçün presedent ola biləcəyi ehtimalı erməniləri xeyli ümidləndirdi və fəallaşdırdı. Azərbaycanlı xanım parlamentarilərdən G.Hacıbəyli və b. bu modelin MDB məkanındakı münaqişələrin həllinə tətbiqini mümkünsüz və yolverilməz olduğunu bildirdilər.

Kosovonun müstəqilliyinin elanı və tanınması ilə əlaqədar **Azərbaycan diplomatiyasının tutduğu mövqe** də müxtəlif yanaşmalara səbəb olmuşdur. Öncə artıq ortalıqda olan nəticəni qeyd etmək lazım gəlir: AR Kosovonun müstəqilliyini tanımayıb və hətta oradakı beynəlxalq sülhməramlı qüvvələrin tərkibində olan kontingentini geri çağırmışdır. "Kosovo modeli"nin Dağlıq Qarabağ üçün presedent olmayacağına dair yanaşma və mövqelərin qarşılıqlı müqayisəli təhlili belə bir mənzərəni

ortaya çıxarır.

Öncə bu iki münaqişəni səciyyələndirərkən onlar arasındakı bəzi **fərqli cəhətlərə** diqqət yetirilməsi çox önəmlidir. Kosovo münaqişəsi zamanı qonşu Albaniya: **a)** münaqişəyə qatılmadı; **b)** Serbiyanın əsasən albanlar yaşayan bu bölgəsinə qoşun yeritmədi; **c)** qonşu dövlətin ərazisini tutmadı və s. Amma "Dağlıq Qarabağ problemi" isə: **1)** dövlətdaxili münaqişə deyil, dövlətlərarası (Ermənistan-Azərbaycan) müharibədir, **2)** Onun gedişində Ermənistan hətta DQ ətrafı Azərbaycan torpaqlarını da tutdu, **3)** tənzimləmə prosesində Ermənistan danışıqların digər tərəfinə çevrildi və s.

AR XİN-in Kosovonun müstəqilliyinin tanınmaması ilə əlaqədar verdiyi bəyanatda qeyd edilir ki, DQ və Kosovo problemləri fərqli olduqlarından ikincinin təcrübəsi birinciyə presedent ola bilməz. Politoloqlardan A.Mirzəzadəyə görə, Kosovonun müstəqilliyinin tanınmaması Azərbaycan üçün hətta faydalı da ola bilər. Yəni Ermənistan Kosovonun müstəqilliyini tanımağa tələsmirsə, onda "DQR-i" də tanımağa səy göstərməyəcəkdir. Habelə Ermənistan Kosovonu tanımaqla Rusiyaya qarşı çıxmış olar. Bu da mümkünsüz olduğundan Ermənistanın Dağlıq Qarabağın müstəqilliyini tələb etməsi hazırkı şəraitdə real görünmür.

Amma Ermənistan parlamentində keçirilən (28.IV.2008) bir müzakirənin materialları və nəticələri əksyanaşma halını üzə çıxardı. Müxalifətçi "İrs" partiyasının lideri, keçmiş Xarici İşlər naziri R.Ovanesyanın təklif etdiyi "DQR-in tanınması haqqında" qətnamə layihəsi 15 səsə qarşı 64 səslə rədd olundu. O vaxtkı spiker T.Torosyanın "Ermənistan üçün əsas olan DQ-nin beynəlxalq tanınmasıdır. Bizdə bunun əleyhinə olan yoxdur, bu tanınmanın vaxtı var. Zərurət olarsa, 7 dəqiqəyə səs çoxluğu yığar və tanınma qərarını qəbul edərik" açıqlaması çox mətləblərdən xəbər verir. Parlamentin bəyanatında habelə Azərbaycan yeni müharibə təbliğatı aparmaqda, atəşkəsi pozmaqla təxribat törətməkdə, Minsk Qrupunu şantaj etməkdə, nizamlama prin-

siplərinin yarımçıq açıqlanması dərcində "günahlandırıldı". Sənəddə həmçinin Azərbaycanın təcavüzü şəraitində DQ-nin özünün tam təhlükəsizliyini təminetmə hüququna malik olması "əsaslandırıldı".

Azərbaycanın elmi-siyasi dairələrindəki başqa bir yanaşmaya görə, Kosovo xeyli müddət Serbiyanın tabeçiliyində olmadığı kimi, DQ də AR-in idarəçiliyində deyil; müstəqil, yaxud da ən düzü Ermənistanın tabeşiliyindədir və bu status-kvo ermənilər hələlik qane edir. Prosesin belə davamı Kosovodakı kimi "DQR"-ə də müstəqilliyin sırınmasına aparır. Bununla razılaşmayan bir əksmövqe isə ABŞ-ın Cənubi Qafqazda separatçı rejimlərin qalmasında əsla maraqlı olmadığını önə çəkərək DQ-ni müstəqilləşmək perspektivini gözləmədiyini bildirir; ABŞ Azərbaycanın ərazi bütövlüyünü tanıyır və buna görə də Kosovo Dağlıq Qarabağ üçün presedent ola bilməz. (Sözgəlişi, bu cür yanaşmanı isə "ABŞ Serbiyanın da ərazi bütövlüyünü tanımışdı" dəlili ilə rədd edən baxışlar mövcuddur). Fərqli tərəfləri üzündən Kosovonun Qarabağa presedent ola bilməyəcəyini əsas tutanların əksinə onların eyniliyinə dair də fikirlər vardır. İkincilərə görə, bu eynilik özünü hər iki münaqişənin "etnik təmizləmə" ilə müşayiət olunmasında, onların gedişində "dini amil"dən yararlanılmasında və s. göstərir.

AR-in Kosovonun müstəqilliyini tanımamasının səbəbləri də müxtəlif yönlərdən şərh edilir. Analitiklər bunu "DQR"-in də tanınmasından qayğılanma ilə yanaşı və, ən əsası da, Rusiyanın təzyiqi ilə əsaslandırırlar. Gürcüstana hərbi müdaxilə ərəfəsində Rusiya prezidenti D.Medvedyevin etdiyi çıxışlardan birində (30.IV.2008) onun AR-in rəsmi Tiflisi dəstəkləməsinə üstüörtülü işarəsi və s. də bu kimi mülahizələrə əsas olmuşdur. Bunun qarşılığında isə bəzi ekspertlər Rusiyaya münasibətdə Gürcüstandan fərqli olaraq Azərbaycanın bir o qədər də kəskin mövqe tutmadığını önə çəkir və bu halda Kremlin "DQR"-i tanımasını mümkünsüz sayırlar. Yəni bu tanınmanın yalnız AR-in birmənalı olaraq NATO (Qərb-ABŞ)

xəttini götürməsi şəraitində ola biləcəyi vurğulanır.

Kosovo dövlətinin AR tərəfindən tanınmaması onun **Türkiyə ilə münasibətlərində müəyyən inciklik** yaratdı. (Bu iki türk dövləti arasında belə bir hal Azərbaycan deputatlarının AŞ PA-da Şimali Kipr Türk Cümhuriyyəti ilə bağlı səsvermədə iştirakdan yayınmaları ilə bağlı da baş vermişdi). AR hətta Türkiyənin Kosovonun tanınmasına dair – İKT sammitinin (13-14.III.2008) yekun sənədinə salınması üçün-həmin təşkilatın XİN-lərinin Dakardakı toplantısında (10.III.2008) etdiyi təklifi də dəstəkləmədi (Sözgəlişi, Kosovonun müstəqilliyini hələlik beş müsəlman dövləti, yəni Türkiyə, Albaniya, Malayziya, Əfqanıstan, Seneqal tanıyıbdır).

"Kosovo modeli" ilə bağlı məsələlərə xülasə verərkən bir neçə məqama da diqqət yetirmək lazımdır. Əksəriyyət analitiklərin qənaətlərinə görə, bu kimi məsələlərdə yenə də ABŞ-ın mövqeyi aparıcıdır; AR-in də onun tərəfini tutması düzgün və faydalı olardı. ABŞ-da 2008-ci ildə keçirilən prezident seçkiləri ərəfəsində Respublikaçılar partiyasının namizədi C.Makkeynin ideyası da bu kimi mövqelərə təsir etmişdi. Həmin ideya NATO-nun başçılığı ilə "Qlobal Demokratiya Liqa"sının ("DQL"-in) təşkilini və avtoritar rejimləri dəstəklədiyinə görə Rusiyanın "Böyük səkkizlər"dən çıxarılmasını nəzərdə tuturdu. BMT-yə alternativ olaraq planlaşdırılan "DQL" həmçinin Rusiya və Çinin "vaxtaşırı vetolar təhlükəsi"ndən qurtulma vasitəsi sayılırdı. Bəzilərinin qənaətincə, "DQL" BMT-yə nisbətən daha çevik ola bilər və o artıq de-fakto mövcuddur. (Bu zaman NATO-nun Balkanlara məlum hərbi müdaxiləsinə və Kosovoya qarşı zora əl atacaq Serbiyanın qarşısında həmin təşkilatı görəcəyinə işarə olunur).

"Kosovo təcrübəsi"nin AR üçün yarada biləcəyi təhlükənin önlənməsi ilə bağlı bu məqamın üzərində xüsusi olaraq dayanılmalıdır: "Kosovo variantı"nın tətbiqinə aparan referendum məsələsindən əsla söhbət ola bilməz. "İkS" ildən sonrakı vəziyyət, üzləşə biləcəyimiz digər problemlər (özümüzün də

xaricdən neft-qaz asılılığına düşməyimiz və s.) üzündən "Kosovo modeli" (referendum və s.) AR-ə sırına bilər. Çünki Qarabağ və Kosovo ilə əlaqədar şəraitlərdə eyni (üst-üstə düşən) məqamlar çoxdur: Kosovo da öncə BMT-nin protektoratı altında olub; bölgəyə beynəlxalq sülhməramlı qüvvələr gəlib; NATO silahlı qüvvələrinin orada yerləşməsindən təxminən 10 il sonra plan reallaşıb, yəni Kosovo müstəqilləşibdir.

"Dağlıq Qarabağ münaqişəsi" ilə bağlı Azərbaycan üçün rahatsızlıq yaradan və onu maksimum ehtiyatlı olmağa sövq edən bir məsələ də Qərbdə və Rusiyada hazırda ən çox bölgə ermənilərinin təyin müqəddərat hüququ üzərində dayanılmasıdır. Bunu həmsədrlərin vaxtaşırı səsləndirdikləri fikirlərdə diqqəti açıqca çəkən eyhamlardan da görmək olar. Rusiyalı həmsədr "Dağlıq Qarabağ problemi"nin çağdaş (mövcud) münaqişələrdən tamamilə fərqləndiyindən bəhs edərək ona əlahiddə (xüsusi) yanaşma metodunun tətbiqini zəruri saymışdır; bu zaman DQ ermənilərinin öz müqəddəratını təyinetmə hüququna işarə edilmişdir. Amerikalı keçmiş həmsədr M.Brayza isə **ərazi bütövlüyü və təyin müqəddərat hüququnun sintesi əsasında tapıla biləcək formula**dan danışırdı. Burada da alt qatda öz müqəddəratını təyinetmə hüququnun üstünlüyünə çalışılacağı şübhə yaratmır. Və belə bir şəraitdə "Kosovo modeli" həmsədrlərin əlahiddə yanaşma metoduna əlavə xal qazandırır, "dəlillər" vermiş olur. Ən başlıcası da referendum, böigədə sülhyaradıcı qüvvələrin yerləşdirilməsi və digər hallar Kosovonun Qarabağ üçün presedentə çevrilmə ehtimallarını (imkanlarını) artıra bilər.

Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə əlaqədar olaraq birbaşa nəzərdən keçirilməsə də **"Honkonq modeli"** və **"Andorra variantı"** da yada salınmışdır. Böyük Britaniyanın 1898-ci ildə icarəyə götürdüyü Honkonq 1997-ci ildə Çinə qaytarılmışdır. Qarşılıqlı razılaşmaya görə, Honkonq hələ 50 il ərzində daxili özünüidarəyə, yəni öz hökumətini və iqtisadi sistemini saxlamaq hüququna malik olacaqdır. Ancaq onun

təhlükəsizliyi Çin silahlı qüvvələri tərəfindən təmin edilcəkdir. Andorra da daxili müstəqilliyə malikdir, ancaq onun üzərində İspaniya və Fransanın suverenliyi davam etməkdədir.

Çağdaş münaqişə modellərinin "Dağlıq Qarabağ problemi"nin həllinə tətbiqi məsələləri ilə bağlı sonda bunu qeyd etmək lazımdır. AR diplomatiyasına görə, bu məsələdə hansısa modelin bütünlüklə DQ-yə tətbiqi mümkünsüzdür və müzakirə obyekti deyildir. Yalnız ayrı-ayrı modellərin bəzi mütərəqqi elementlərindən faydalanma ola bilər. Azərbaycanın münaqişənin həlli, yəni əslində Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinin nəticələrinin aradan qaldırılmasına dair öz konsepsiya-modeli olmalıdır.

"Praqa prosesi" münaqişə tərəfləri olan dövlətlərin prezidentlərinin intensiv görüş və müzakirələri ilə də səciyyələnir. **İ.Əliyevin S.Sərkisyanla MDB-nin qeyri-rəsmi sammiti (Sankt-Peterburq, 6.VI.2008) çərçivəsində başlayan danışıqları olan müddətdə 9 mərhələdə** aparılıbdır. **Sonrakı görüş-müzakirələr bunlardır**: II-Moskva (XI.2008), III-Sürix (I.2009), IV-Davos (I.2009), V-Sankt Peterburq (VI.2009), VI-Moskva (VII.2009), VII-Kişinyov (X.2009), VIII-Münhün (XI.2009), IX-Soçi (I.2010). Əslində, bir növ, **"diplomatik tanışlıq" səciyyəsi daşıyan 1-ci görüş** elə bir diqqətçəkici məqama malik olmadı. Sadəcə onların sonrakı intensiv görüşləri və danışıqları üçün başlanğıc olaraq dəyərləndirilə bilər.

İ.Əliyev-S.Sərkisyan danışıqlarının 2-ci mərhələsi bir neçə cəhətdən maraq doğurur. O, "Praqa prosesi"nin diplomatik sənədlər seriyasını "Moskva Bəyannaməsi" ilə tamamlamışdır. Həmin sənəd 2008-ci il noyabrın 2-də Moskva ətrafındakı Mayndorff qəsrində aparılan üçtərəfli danışıqların nəticəsində Azərbaycan, Ermənistan və Rusiya prezidentləri (İ.Əliyev, S.Sərkisyan, D.Medvedyev) tərəfindən imzalanmışdır. Həm də "Qarabağ Bəyannaməsi"adlandırılan həmin sənədin məzmununun və onun doğurduğu siyasi-diplomatik rezonansın təhlilinə keçməzdən öncə "Moskva danışıqları"ilə əlaqədar bəzi

önəmli nüanslara nəzər salınması vacibdir.

Danışıqlar ərəfəsi durum Beynəlxalq Böhran Qrupu (S.Frayzer) və digərləri tərəfindən münaqişənin həlli üçün "nadir şans" kimi səciyyələndirilirdi. Bu qurumun təhlillərinə görə, Rusiya Ermənistanın təhlükəsizliyinin (ən düzü isə təcavüzkarlığının – İ.M.) qarantı olsa da, rəsmi İrəvan mövcud durumun onun xeyrinə olması ilə arxayınlaşmamalı, Azərbaycansa öz hərbi büdcəsinin artması ilə öyünməməlidir; **"riskli mərhələni" uzatmaq (Ermənistanın mövqeyi)** və **"İkinci Qarabağ müharibəsi"nə getmək (Azərbaycanın yanaşması)** ən pis seçim, "nadir şans"ın itirilməsi olardı. Ermənistan XİN-i E.Nalbəndyan isə "BBC" Azərbaycan xidmətinin London studiyasına müsahibəsində (X.2008) "Dağlıq Qarabağın statusu məsələsində tərəflər arasında razılaşma əldə edilməsinə bir addım qalır" söyləmişdi. O, "Novosti Armeniya" Xəbərlər agentliyinə açıqlamasında isə Moskva görüşünün DQ probleminin həllinə gətirib çıxaracağını demişdi. Habelə status məsələsinin Dağlıq Qarabağ xalqının iradəsinin azad ifadəsi yolu ilə həll edilməli olduğunu vurğulamışdı.

Baş diplomat **"Dağlıq Qarabağ xalqı"** deyəndə isə orada münaqişədən əvvəl və indi yaşayanları, yəni ermənilər nəzərdə tutduğunu gizlətməmiş, bu zaman da bölgənin əhalisinin 1988-ci ilə qədərki siyahıya alınmasının nəticələrinin (nisbətinin) əsas tutulmalı olduğunu bildirmişdi. Bunlarla yanaşı Dağlıq Qarabağda prezident S.Sərkisyanın iştirakı ilə keçirilən hərbi təlimlər zamanı "DQR"-in "Müdafiə naziri" M.Akopyan isə Azərbaycana qarşı preventiv savaş əməliyyatlarına hazırlaşdıqlarından bəhs etmişdi. AR XİN-i E.Məmmədyarov isə Moskvaya gəlişi öncəsi DQ-yə Azərbaycan tərkibində (Tatarıstanın muxtariyyətinə bənzər) yüksək status verilməsinin mümkünlüyünü vurğulamışdı.

Moskvadakı Beynəlxalq Humanitar – Siyasi Araşdırmalar institutunun direktoru V.İrqunov Moskva görüşü ərəfəsində "İnfox.ru" saytına açıqlanmasında münaqişənin həllinə dair Er-

mənistanda mövcud olan ideya və təkliflərdən bəhs etmişdi. Bir ideyaya görə, Qarabağın Azərbaycana qaytarılmasının əvəzində Ermənistanın Türkiyəyə yolunun açılmasına nail oluna bilər. (Ancaq əksər ermənilər belə "radikal həll"ə qarşıdır). Digər bir ideya ərazilərin dəyişdirilməsini nəzərdə tutur. Yəni AR-in DQ-nin müstəqilliyini tanımasının qarşılığında ətraf rayonlar və Zəngəzur ona qaytarılır. Ekspertin fikrincə, bu variant tərəfləri əsla qane edə bilməz: Azərbaycan "DQR"-i heç vaxt (heç bir halda) tanımaz və Ermənistan da İranla həmsərhəd ərazilərinin Azərbaycana verilməsi ilə əsla razılaşmaz. Politoloq habelə belə hesab edir ki, "Dağlıq Qarabağ müstəqilliyin İsrail variantına üstünlük verə bilər". Yəni DQ ətrafındakı tutulan ərazilərin qaytarılmasından imtina və onlardan ibarət təhlükəsizlik zonasının yaradılması. Bütün bunlara görə də, V.İrqunov "Moskva danışıqlarında münaqişənin həllinə dair ümumi müzakirələrin aparılacağı və konkret həlldən söhbət belə gedə bilməyəcəyi" qənaətində olduğunu bildirmişdi.

Belə bir dolaşıq-ziddiyyətli mövqe və baxışlar şəraitində D.Medvedyev İ.Əliyevin Moskvaya və özünün isə İrəvana səfərləri zamanı üçtərəfli görüş təklifini səsləndirmişdi. Rusiya diplomatiyasının "Qarabağ nizamlaması"ndakı bu (növbəti) fəallaşması elə həmin ölkənin özündə fərqli rəylər doğurmuşdu. Moskvadakı MDB ölkələri institutunun ekspert-şərhçilərinin (V.Yaruxin) fikrincə bu fəallaşma, bir tərəfdən, Rusiyanın post-sovet məkanındakı münaqişələrin dondurulması ("daimi status-kvo") strategiyasının müəyyən mərhələ-məqamadək məqsədəuyğun olması, hazırda isə həmin yanaşmanın köhnəlməsi qənaətinin ifadəsidir. Yeri gəlmişkən, bəzi rusiyalı ekspertlərə görə isə rəsmi Moskva status-kvoda hələ də maraqlıdır və buna görə də real — başlıca vasitəçi missiyasından çəkinir.

Digər yandan da, bu fəallaşma rəsmi Moskvanın müəyyən "təbliğat effekti cəhdi" kimi dəyərləndirilir (S.Markedonov); bu zaman görüş-danışıqların Rusiyanın təklifi və vasitəçiliyi, həm də onun paytaxtında keçirilməsi önə çəkilir. Amma elə rusiyalı

analitiklərin əksəriyyəti də görüşöncəsi açıqlamalarında qarşıdakı danışıqlarda fövqəladə uğura-irəliləyişə nail olunmayacağını vurğulayırdılar. Onlar bunu daha çox ciddi güzəştlər qarşısında qoyulan tərəflərdən birinin, yəni Azərbaycanın DQ-yə nəzarətdən imtinasının mümkünsüzlüyü ilə əsaslandırırdılar. Bu zaman habelə statusla bağlı kəskin fərqli (ziddiyyətli) mövqelər də əsas tutulur.

Üçgünlük (31.X-2.XI.2008) Moskva danışıqları hissələrlə və müxtəlif müstəvilərdə aparılıbdır. Öncə Xarici İşlər nazirlərinin üçlükdə və sonra isə həmsədrlərin də iştirakı ilə birgə müzakirələri keçirilibdir (Ardınca həmsədrlərin nazirlərlə birgə görüşlərinin olub-olmaması mübahisəlidir). Sonda isə prezidentlərin (nazirlərsiz və həmsədrlərsiz) "Moskva Bəyannaməsi" (2.XI.2008) ilə yekunlaşan danışıqları olubdur.

"3+3", yəni prezidentlər + həmsədrlər formatında keçirilməyən **"Mayndorff danışıqları"**, AR XİN-in açıqlamasına görə, ATƏT-in sənədləri (Madrid təklifləri paketi) əsasında aparılmışdır. **Danışıqların başılca fərqli cəhəti və yekunu** təxminən *15 ilə yaxın* davam edən sülh prosesində ilk dəfə olaraq münaqişə tərəfləri arasında birgə rəsmi sənədin imzalanmasından ibarətdir. Həmin sənədin **("Qarabağ Bəyannaməsi"nin) əsas məqamlarını** tezisvari şəkildə aşağıdakı kimi ifadə etmək olar:

- münaqişənin dinc (siyasi) yolla həlli;
- nizamlamanın bütün mərhələ və səpkilərinin beynəlxalq hüquqi təminatı;
- açıq mətnlə yazılmasa da, Madrid təklifləri paketi-prinsiplərinin nəzərə alınmasının vurğulanması;
- tərəflərarası qarşılıqlı etimadın möhkəmləndirilməsinə yönəlik səylərin gerçəkləşməsi üçün şəraitin yaradılması və s.

Beş bənddən ibarət olan **"Moskva Bəyannaməsi"** istər Azərbaycanda, istərsə də Ermənistanda, habelə Rusiya və Qərbdə **müxtəlif yönlərdən səciyyələndirilmişdir. Azərbaycan rəsmiləri** sənədi ümumilikdə müsbət dəyərləndirirlər. Pre-

zident İ.Əliyev "Rossiya" telekanalının "Formula vlasti" ("Hakimiyyət formulu") proqramına müsahibəsində (II.2009) bəyannamənin münaqişənin Azərbaycanın ərazi bütövlüyü əsasında həllini nəzərdə tutduğunu və konfliktin həllinin tapılması imkanının mümkünlüyü fikrini söyləmişdi. Baş diplomatımız E.Məmmədyarov da danışıqlardan sonra erməni jurnalistlərinin sualına cavabında "öz müqəddəratını təyinetmə hüququ ərazi bütövlüyünə hərbi müdaxilə yolu ilə gerçəkləşdirilə bilməz müddəasını önə çəkmişdi". O habelə DQ-nin erməni icmasının münaqişə (danışıqlar) tərəfi kimi tanınmasını mümkünsüz saymışdı. Bunu da Ermənistanın keçmiş prezidenti R.Köçəryanın özünün onların adından çıxış edəcəyini bildirməsi ilə əsaslandırmışdı.

Azərbaycanın siyasət adamlarının (partiya liderləri və b.), politoloq-ekspertlərinin "Moskva Bəyannaməsi"nə münasibəti fərqlidir: "kifayət qədər təhlükəli (İ. Qəmbər); "müsbət siyasi addım səciyyəli, ancaq münaqişənin həllində yeni mərhələnin başlanğıcı sayıla bilməyən"(A.Mütəllibov); "problemin həlli demək olmayan, amma Rusiyanı sülhdə maraqlı tərəf kimi göstərən" (Y.Məmmədov)"; "boş kağız parçası olan" (V.Quluzadə); "xoş məramdan xəbər verməyən"(A.Yunus); "heç bir hüquqi nəticə yaratmayan" (R.Musabəyov); "tərəflərin üzərinə heç bir öhdəlik qoymayan" (Ə.Oruclu); "ümumi sözlərdən ibarət, hər hansı yeniliyi olmayan" (Ə.Kərimli) sənəd və s. Bu fikirlərin arxasında dayanan izah-dəlillər də yetərincə maraqlı və düşündürücüdür.

"Qarabağ Bəyannaməsi"ni Azərbaycan üçün təhlükəli hesab edənlərin mülahizə və dəlilləri bunlardır: Moskvada "əldə olunan" heç bir razılıq Azərbaycanın xeyrinə ola bilməz; rus imperiyası çökməyənədək münaqişənin həllində heç bir irəliləyiş gözlənilmir; Kremlin nizamlama təşəbbüsünü tam ələ keçirməyə yaxınlaşması; onun "qarant"olaraq sülhməramlı qüvvələr adı altında öz qoşunlarını bölgədə yerləşdirmək imkanı qazanması; Madrid prinsipləri əsas tutulduğundan referendum

perspektivi; münaqişənin həlli variantı kimi yeni müharibəyə yol verilə bilməməsi; Rusiyanın Ermənistana "bir addım da geriyə yox" göstərişi; işğal faktının və BMT-nin məlum qətnamələrinin adının belə çəkilməməsi; "Madrid sənədi"ni dəstəkləyən Moskva ilə Vaşinqtonun uzlaşma ehtimalı; təslimçi sülhə yol açılması; münaqişənin *sırf diplomatik-siyasi-dinc yolla həlli* öhdəliyi; Rusiyanın Azərbaycana qurduğu tələ (sülhməramlı qüvvələr adı altında bölgəyə öz qoşununu yerləşdirmək və bu *kimi digər hallar).*

Bəyannamə ilə bağlı digər yanaşma və təkliflərin müəlliflərinin önə çəkdiyi məqamlar-dəlillər isə aşağıdakılardan ibarətdir: "nə hərb, nə sülh" vəziyyətinin qarantı olan Rusiyanın regionda Qərbə (ABŞ və Aİ-yə) "nüfuz (güc) nümayişi";münaqişənin hərbi yolla həllinin istisnasının ermənilərı qane etməsi; Moskva danışıqlarının əməli (real) nəticələrsizliyinin gözəgörünən pərdələnməsi; "mərhələli həll" planının müzakirəsi; Kremllə Ağ Evin "hərəyə bir muncuq" siyasəti; münaqişə Moskva görüşü (bəyannaməsi) ilə deyil, ABŞ-ın sülh *variantı ilə həll ediləcəkdir.* (AR-in işğal olunan ərazilərinin azad edilməsi + DQ ermənilərinin təhlükəsizliyinə muxtariyyətdən artıq olmaycaq hüquqların verilməsi müstəvisində); Azərbaycanın ərazi bütövlüyünü formal da olsa özündə əks etdirməsi; yeni-köhnə "həll" variantı; Rusiyanın regionda mövcudluğunu sübut cəhdi və s.

Münaqişənin "yalnız sülhlə"nizamlanması öhdəliyindən qayğılanmanı yersiz sayan bir sıra ekspertlər bu kimi halları (faktları) da diqqətdə saxlamağı məsləhət bilirlər: "dinc yolla həll" qənaəti atəşkəs sazişində (Bişkek protokolunda-V.1994) *də nəzərdə tutulmuşdu;* Bəyanatda ifadə olunan bu və digər fikirlər vaxtaşırı həmsədrlər tərəfindən də söylənilibdir; belə bir məqam AR-in Avropa Şurasına qəbulu zamanı (I.2001) imzalanan sənəddə də özünə yer alıbdır; 53 dövlətin dəstəklədiyi Lissabon sənədi (Kottinin bəyanatı) heç bir dəyişikliyə səbəb olmadığı və yerinə yetirilmədiyi kimi "Moskva Bəyannamə-

si"nə də əhəmiyyət verilməməsi mümkündür.

Ermənistanın hakimiyyət-siyasi dairələri, media və ekspertləri də "Moskva Bəyannaməsi"nə müxtəlif yönlərdən yanaşmışlar. Öncə bunu qeyd edək ki, həmin sənədi imzalayan prezident S.Sarkisyan (sabiq dövlət başçısı R.Köçəryanla birlikdə **"Xocalı faciəsi"nin təşkilatçısı)** bir müddət sonra, yəni 2009-cu ilin fevralında "Böyük Ermənistan" uğrunda mübarizəsini davam etdirəcəyinə dair mövqeyini təkrarladı. Digər tərəfdən isə,o, Bəyannaməni imzalamaqla DQ məsələsində Azərbaycana güzəştə (?!-İ.M.) getməkdə təqsirləndirildi. "Vətən xaini" hesab edilən S.Sərkisyana "sui-qəsd şousu" da təşkil olundu. Bəzi ekspertlər Moskva danışıqlarından dərhal sonrakı davamlı atəşkəs pozulmasını — cəbhə zonasında erməni hərbi fəallaşmasını da bu kimi hallarla əlaqələndirirdilər.

Ölkədə ən çox R.Köçəryan və ətrafının (keçmiş baş diplomat V.Oskanyanla digərlərinin), habelə "Daşnaksütyun" partiyasının "Moskva Bəyannaməsi"ndən narazı olduqları bildirilir. Münaqişənin danışıqlar yolu ilə və Minsk Qrupu çərçivəsində həllinə üstünlük verməsini müsbət cəhət kimi səciyyələndirən V.Oskanyan bu sənədin Ermənistan üçün təhlükəli olduğunu da vurğulamışdır. O, "Svoboda" radiostansiyasına açıqlamasında (XI.2008) öz mövqeyini bunlarla izah etmişdir: güc tətbiqinin yolverilməzliyinin sənəddə birmənalı bildirilməməsi; münaqişənin beynəlxalq hüquq prinsipləri, əvvəllər qəbul edilən sənədlər və qərarlar əsasında nizamlanmasının vacibliyinin orada ifadə olunması və Azərbaycanın da bundan hökmən faydalanacağı.

Daşnak liderlərindən K.Manoyan "Qarabağ Bəyannaməsi"nin Rusiyanın regiondakı təsiri və rolunun gücləndirilməsinə yönəldiyini bəyan edibdir. O, DQ ətrafındakı ərazilərin qaytarılmasını da ehtiva edən "Madrid prinsipləri"nin bu Bəyannamədə nəzərə alınmasını xatırladaraq bölgə ermənilərinin mövqeyinə önəm verilməsini istəmişdi (Sözgəlişi, V.Kazimirov da "Novosti Armeniya" agentliyinə müsahibəsində özünün dəfələrlə söylədiyi bir fikri təkrarlamışdı: "...Bakı və ya İrəvan Dağlıq Qarabağın (yəni erməni əhalisinin-İ.M.) mövqeyini nəzərə almadan bu münaqişəni həll edə bilməz".

L.Ter-Petrosyan sənədin bəzi müddəalarının Ermənistana təhlükə yaratdığını qeyd edərək onun "DQR"-in danışıqlar tərəfi kimi tanınması şanslarını heçə endirdiyini bildiribdir. O, Ermənistanın "A1+" telekanalına müsahibəsində (XI.2008) maraqlı açıqlamalar etmişdir: Bəyannamə sülh danışıqları prosesində vacib mərhələdir; Moskva görüşü prosesin başlanğıcıdır, hazırda Avropada davam etdirilir və dekabrda ABŞ-da yekunlaşacaqdır; danışıqlar Rusiyanın təşəbbüsü ilə başlasa da, nöqtəni Qərb qoyacaqdır (Sözgəlişi, Azərbaycanda V.Quluzadə də münaqişənin Amerika sülh variantından bəhs etmişdir).

Bəzi erməni saytları ("Armeniya Today" və s.) Moskva danışıqlarının detallarına dair sensasiyalı və ziddiyyətli məlumatlar da yayıblar. Yüksək rütbəli erməni hərbçisi, Qarabağda vuruşan, Fransa mənşəli S.Atspanyana istinadən DQ ətrafındakı ərazilərin boşaldılması və münaqişə zonasına sülhməramlı qüvvələrin yerləşdirilməsinə aid **üç variantın** mövcudluğu açıqlanmışdır. Bu məlumat-materiallara görə, həmin variantlarda tutulan ərazilərin qaytarılması və sülhməramlı qüvvələrin bölgəyə yerləşdirilməsi məsələləri ətrafında **ABŞ, Aİ və Rusiya arasında razılaşma** əldə olunubdur; **hər üç tərəf (variant) referendumla bağlı anlaşmaya** çalışır.(Yeri gəlmişkən, S.Sərkisyanın Moskva danışıqlarından dərhal sonra o vaxt Avropa İttifaqına sədrlik edən Fransaya səfəri zamanı Parisdə Aİ rəhbərliyi və ardınca da Brüsseldə NATO rəsmiləri ilə apardığı müzakirələrdə də sülhməramlı əməliyyatların təşkili məsələsi nəzərdən keçirilmişdi. Bunu da əlavə etməyə ehtiyac vardır ki, İ.Əliyev isə "Moskva Bəyannaməsi"nin nizamlanmasından az sonra Türkiyəyə rəsmi səfərə getmişdi).

Rusiyanın variantı – 7 rayonun boşaldılmasını nəzərdə tuturdu. Habelə münaqişə bölgəsinə, Rusiya hərbçilərinin komandanlığı altında olacaq, beynəlxalq sülhyaradıcı qüvvələrin

gətirilməsi təklif olunurdu. Üstəlik də rəsmi Moskva bufer zonada — Horadiz də daxil olmaqla İranla sərhədboyu ərazidəözünün təxminən 12-14 və ya 10-15 minlik hərbi kontingentinin yerləşdirilməsini istəyirdi (Ancaq bu təklif "Abxaziya və Cənubi Osetiya ssenarisi"nin təkrarlanmasına imkan yarada biləcəyi ehtimalı üzündən ABŞ tərəfindən bəyənilmir). Rusiya həmçinin referendumun 10 ildən sonra keçirilməsini məsləhət görürdü.

ABŞ-ın variantı – Rusiya qoşunlarının Ağdamdan Gəncəyə qədər şərq istiqamətində yerləşdirilməsini, Arazboyu əraziyə (Mehriyədək) isə Pentaqonun hərbi hissələrinin gətirilməsini əsas götürürdü (Bu plansa İranla gərginlik üzündən real görünmür). Ağ Ev 7 rayonun azad edilməsinə və referendumun isə 15 il sonra keçirilməsinə tərəfdardı.

Avropanın (Aİ-nin) variantına görə, ilkin mərhələdə 5 rayonun (əvvəllər 6-dan bəhs olunubdur) qaytarılması və münaqişə bölgəsində (o cümlədən də DQ-də) Birliyə üzv 10-11 dövlətin hərbi hissələri ilə jandarma bölmələrindən ibarət məhdud kontingentin yerləşdirilməsi, referendumun isə 20 ildən sonra keçirilməsi vacib bilinirdi.

Göründüyü kimi, referendumdan vaz keçməyən hər üç variant əslində bölgədə hərbi iştirakın təminatı planlarından başqa bir şey deyildi. Daha konkret söyləniləsi gərəkirsə, bununla Rusiya regionda öz təsirini artırmağa, ABŞ isə İran sərhədlərinə yaxınlaşmağa (çıxmağa), Aİ-də özünün enerji təhlükəsizliyinə təminat almağa çalışırlar. Polşadakı Şərq Tədqiqatları mərkəzinin rəhbəri M.Folkovski də Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına maneələr sırasında Rusiya, ABŞ və Aİ-nin toqquşan maraqlarını önə çəkir. Onun fikrincə, Qərb Rusiyanın "sülhün təminatçısı" olmasını istəmir, Kreml isə "sülhün qarantı" statusuna can atır.

Moskva görüşü-danışıqları- bəyannaməsi Rusiyanın maraqları, onun Güney Qafqaza dair siyasətinin yeni çizgiləri, perspektivləri və digər səpkilərdən də diqqəti çəkir.

"Moskvanın başlatdığı münaqişə "Moskva Bəyannaməsi" ilə də (və ya ümumiyyətlə Moskvada da) qurtaracaqmı?" kimi tarixi-ritorik sualla Rusiyanın özünün siyasi dairələrində, elmi mərkəzlərində müxtəlif yönlərdən dəyərləndirilmişdir. Bir sıra analitiklər Bəyannaməni "prezidentlər + həmsədrlər formatı"nın D.Medvedyev tərəfindən pozulması və habelə sonrakı sülh prosesinin Rusiyanın nəzarəti altında gedəcəyinə dair ABŞ-a mesaj təki səciyyələndirirlər.

Bu zaman sənəddəki bir müddəaya, yəni danışıqların bundan sonra Rusiyanın və Minsk Qrupunun vasitəçiliyi ilə davam edəcəyinə istinad olunur. Rusiyalı həmsədr Y.Merzlyakov Bəyannaməni münaqişə tərəflərinin ilk dəfə olaraq imzaladıqları birgə, yəni problemin həllinə dair sonrakı danışıqlara təkan verə biləcək mühüm sənəd kimi qiymətləndirmişdir. Onun fikrincə, "indi danışıqların dalandan çıxması istiqamətində zəif də olsa ümid yaranıb. Rusiya xeyli vaxt ərzində Gürcüstanın belə bir sənədi imzalamasına nail ola bilmədi".

Rusiyalı bəzi ekspertlərin fikrincə, rəsmi Moskva **"həll reseptləri"**nin münaqişə tərəflərinə "kənar"dan (söhbət ABŞ və Aİ-dən gedir) sırınmasının əleyhinədir. Onlara görə, **özünü "kənar" saymayan Rusiya** münaqişənin tərəflər üçün qarşılıqlı məqbul (?!-İ.M.) həllinə səy göstərir. Şərhçi-ekspert V.Yarixin isə BBC-yə müsahibəsində (XI.2008) olduqca önəmli bir məqamla bağlı bu cür açıqlama vermişdi: öncə xarici oyunçular (Rusiya, ABŞ, Avropa) öz aralarında bir razılığa gəlməli və sonra da vahid mövqe-fikirlərini münaqişə tərəflərinə bildirməlidirlər; "Üçlər"in hər biri sənin uduşun – mənim məğlubiyyətimdir" prinsipindən əl çəkməlidirlər (Bizcə, sülh prosesinin gedişi bunun əsla mümkün olmadığını təsdiqləyir).

Kremlə yaxınlığı ilə tanınan politoloq-deputat S.Markov Moskva danışıqlarının nəticələrindən bəhs edərkən iki məsələni önə çəkmişdir. O, "Moskva Bəyannaməsi"ndə "hüquqi baxımdan məcburedici beynəlxalq zəmanətlər"dən bəhs olunduğu qənaətindədir (Azərbaycanda da bu fikri təsdiqləyən ekspertlər

az deyildir). Bu qənaət sülh sazişinin təkcə Ermənistanla Azərbaycan arasında deyil, Rusiyanın beynəlxalq qarantlığı ilə Türkiyə, Aİ, ATƏT, BMT və digərlərinin də imzalamasıyla bağlanacağı anlamına gəlir. Adıçəkilən politoloq Türkiyənin də "Qarabağ razılaşması"nın qarantı ola biləcəyini mümkün sayırdı (Bunu Moskvanın Ankaranı öz tərəfinə çəkmək planları ilə əlaqələndirən mövqeləri də bir kənara qoymaq olmaz).

S.Markov habelə **"Moskva Bəyannaməsi" müharibəni mümkünsüz edir" müddəasının** da müəllifidir. ABŞ-ın regionda fəallaşması, Azərbaycanın iqtisadi inkişafı və s. müharibə təhlükəsini artıran amillər kimi qeyd edən politoloq münaqişə tərəflərinin Bəyannamədəki "bir-birinə qarşı gücdən istifadə etməmək" öhdəliyinin üzərində dayanmağı lazım bilir (Yenə də sözgəlişi, bu məqam 2008-ci ilin sonu-2009-cu ilin əvvəlində AR ilə həmsədrlər arasında müəyyən gərginlik yaratdı. Belə ki, AR-in BMT-dəki Daimi mümayəndəsi A.Mehdiyevin təşkilatın Baş katibinə 2008-ci ilin dekabrında ünvanladığı sənədlər (Ermənistanın Azərbaycana təcavüzünün hərbi nəticələri barədə hesabat və ona əlavə) həmsədrlərin bəyanatı ilə (19.II.2009) cavablandırıldı. Daimi nümayəndəliyimizin bu sənədlərini Azərbaycanın münaqişənin sülh yolu ilə nizamlanmasından müharibə vasitəsilə həllinə meyllənməsi istəyi kimi səciyyələndirən həmsədrlərin bəyanatında açıq mətnlə bildirilirdi: "...Qarabağ problemi hərbi yolla həll edilə bilməz". Vasitəçilərdən biri (M.Brayza) öz bəyanatlarını şərh edərkən xəbərdarlıq ahəngli belə bir fikri də vurğulamışdı ki, "...tərəflər Minsk Qrupunun apardığı sülh prosesinin davam etməli olduğunu və davam edəcəyini anlasınlar".

Əslində konkret detalları özündə əks etdirməyən "Moskva Bəyannaməsi" ABŞ-ın Cənubi Qafqaz siyasəti və Rusiya ilə münasibətlərinin çağdaş durumu, perspektivləri cəhətdən də müəyyən rəylər doğurmuşdur. M.Brayzanın sənədə dair dəyərləndirməsində özünə yer alan ziddiyyətli fikirlərdən bunlar diqqəti daha çox cəlb edir: "sürpriz, həmsədrlərə prezidentlərin

dəstəyi, çox mühüm hadisə, uğur"; "imzalanan Bəyannamədə ABŞ və Fransa iştirak etməyib"; "Rusiya Bəyannaməni hazırlamağa kömək etdi, lakin bu nəticə bütün həmsədrlərin səyləri ilə mümkün olub" və s.

Moskva görüşünün yekunları ilə bağlı dünyanın tanınmış elmi mərkəzlərində və analitik-ekspertləri arasında bir məsələ ətrafında kəskin fikir ayrılıqları mövcuddur. Əksəriyyət ABŞ-ın danışıqlar prosesindən kənarda qalması və təşəbbüsün Rusiyaya keçməsi qənaətindədir (Ancaq az öncə qeyd etdiyimiz kimi, V.Quluzadə, L.Ter-Petrosyan və başqaları isə münaqişənin həllinə nöqtənin məhz Qərbdə (ABŞ-da) qoyulacağını bildirirlər). Elə rusiyalı politoloq S.Markov da Moskva danışıqları və Bəyannaməsinin xarici oyunçuların, xüsusilə də ABŞ-ın Güney Qafqazdakı proseslərə təsir imkanlarını məhdudlaşdırdığını qeyd etmişdir.

Bəzi analitiklərsə Rusiyanın Gürcüstana hərbi müdaxiləsindən sonra ABŞ-ın onu "Dağlıq Qarabağ münaqişəsi"nin tənzimlənməsinə dair sülh prosesindən kənarlaşdırmağa uğursuz cəhd göstərdiyini yazırlar. Buna dəlil kimi də amerikalı həmsədrin o vaxt İrəvanla Bakıya təklikdə səfər etməsini və məlum münaqişənin nizamlanmasındakı ABŞ-Rusiya əməkdaşlığını sual altında qoyan açıqlama verməsini göstərirlər. Amma hələlik əksinə oldu və ABŞ Moskva danışıqlarını qapı arxasından izləmək məcburiyyətində qaldı. Buna baxmayaraq ABŞ Dövlət Departamenti öz mətbuat xidmətinin rəsmisi M.Tonerin "diplomatik dili" ilə Moskvada tərəflərin danışıqları davam etdirmək öhdəliklərindən məmnun olduğunu bildirdi.

Müxtəlif yönlərdən dəyərləndirilən Moskva danışıqları və Bəyannaməsi bəzi beynəlxalq diplomatik çevrələrdə yeni sənədin imzalanmasına da ümidlər yaratdı. Belə ki, o vaxt ATƏT-ə sədrlik edən Finlandiya XİN-i A.Stabb təşkilata üzv dövlətlərin Xarici İşlər nazirlərinin Helsinkidə keçirilən illik toplantısı (4.XII.2008) ərəfəsində "Röyter" agentliyinə müsahibəsində Ermənistanla Azərbaycanın yeni bəyannamə imzalamalarının

mümkünsüzlüyündən bəhs etmişdi (Ancaq bu fikir-iddia rəsmi İrəvan tərəfindən dərhal təkzib olunmuşdu). "Dağlıq Qarabağ problemi" ətrafında işlərin yaxşı getdiyini (?!-İ.M.), irəliləyişə nail olunduğunu qeyd edən ATƏT sədri sülh prosesindəki bu mərhələni "dondurulmuş münaqişədən həll edilməkdə olan münaqişəyə keçid" kimi səciyyələndirmişdir. A.Stabb habelə Rusiyanın Gürcüstana hərbi təcavüzünün regiondakı proseslərə öz damğasını vurduğuna toxunaraq ATƏT-in "dövlətlərin ərazi bütövlüyü", "münaqişələrin həllində gücdən istifadənin yolverilməzliyi" və digər prinsiplərindən əsla vaz keçilməyəcəyini söyləmişdi.

Azərbaycan və Ermənistan prezidentləri **İ.Əliyevlə S.Sərkisyanın danışıqlarının 3-cü və 4-cü mərhələlərini** onların 2009-cu ilin yanvarında keçirilən **Sürix və Davos görüşləri** təşkil edir. Bu dövlətlərin baş diplomatlarının həmsədrlər ilə Helsinkidə (XII.2008) apardıqları danışıqlarda səsləndirilən fikirlər prezidentlərin həmin müzakirələrində nəzərdən keçirilmişdir. Xüsusilə də Davos Ümumdünya İqtisadi Forumu çərçivəsində baş tutan İ.Əliyev-S.Sərkisyan görüşü analitik və diplomatların diqqətini çəkmişdir. "Moskva Bəyannaməsi"ndən sonrakı ilkin çağın XİN-lər və prezidentlər səviyyəsində aparılan danışıqların **(Helsinki-Sürix-Davos) detalları və nəticələri ilə bağlı aşağıdakı ümumiləşdirmələri** qeyd edə bilərik.

Helsinkidə XİN-lərin görüşündə münaqişə tərəfləri arasında etimadın möhkəmləndirilməsinə xidmət edən tədbirlər planının hazırlanmasına və yeni müharibə riskinin azaldılmasına imkan yaradacaq səylər göstərilmişdir. ATƏT XİN-lərinin toplantısı çərçivəsində həmsədr dövlətlərin baş diplomatlarının birgə bəyanat verərək "Moskva Bəyannaməsi"nin yaratdığı əlverişli imkanlardan istifadəyə çağırışları da diqqətə yetirilibdir. Helsinkidə habelə nizamlamanın əsaslarının başlıca prinsiplərinin müəyyənləşdirilməsinə dair işin başa çatdırılmasına da çalışıldığı bildirilir.

"Azərbaycanda və Ermənistanda jurnalistlər mənim açıq-

lamalarımın onların mövqelərinə uyğun hissəsini verirlər" deyən M.Brayza münaqişə tərəflərinin başlıca prinsiplərin elementlərinə dair fərqli yanaşmaları məsələsini də önə çəkmişdir. Balanslaşdırılmış və davamlı sülhə aparan yolun qarşılıqlı güzəştlərdən keçdiyini bildirən amerikalı diplomat **Helsinki Yekun Aktının (1975) "prinsiplər üçbucağı"nı (ərazi bütövlüyü+ öz müqəddəratını təyin etmə+ güc tətbiqindən imtina)** bir daha xatırlatmaqla belə bir mənzərəni təsvir etmişdir: Azərbaycan ərazi bütövlüyünün təmin olunmasını tələb edir; Ermənistansa öz müqəddəratını təyinetmədə israrlıdır; güc tətbiqinin yolverilməzliyi də mütləq nəzərə alınmalıdır.

Bu müzakirələrdən sonra da həmsədrlərlə AR XİN-i arasında müəyyən fikir uyuşmazlığı baş veribdir. E.Məmmədyarovun "Madrid sənədi"nə bəzi düzəliş və dəyişikliklər edilməsi və ya ediləcəyi barədəki açıqlaması həmsədrlər (yenə də M.Brayza) tərəfindən təsdiqlənməyibdir. Helsinki görüşü danışıqların - müzakirəsi israrla davam etdirilən və məhz referendum məsələsinə görə də Azərbaycan ictimaiyyəti tərəfindən təslimçi sülhə aparan model kimi qəbul olunan -"Madrid sənədi" əsasında getdiyini bir daha isbatlayıbdır.

Sürix görüşünün (I.2009) nəticələri həmsədrlərin birgə bəyanatında açıqlanıbdır. Burada isə üç məqam ifadə olunmuşdur:

a) münaqişənin həllinin tərəflər üçün mövcud status-kvodan daha sərfəli olması;

b) fikir ayrılığı olan məsələlərdə orta məxrəcə gəlməbilmə ehtimalı;

c) prezidentlərin həmsədrlərdən baza prinsiplərinə dair fikir ayrılıqlarının aradan qaldırılmasından ötrü formullar hazırlanmasında onlara yardım göstərmələri xahişi.

Davosda (I.2009) isə Qarabağ müzakirələri S.Sərkisyanın Rusiyanı (D.Medvedyevi) və İ.Əliyevinsə Türkiyəni (R. Ərdoğanı) Sürix danışıqlarının detalları ilə məlumatlandırmaları müstəvisində getmişdir. Tarixə həm də **"qalmaqallı debat"ıyla**

(İsrail prezidenti Ş.Pereslə R.T.Ərdoğan arasında) düşən 2009-cu ilin Davos forumunda həmçinin Qafqaz dövlətləri (Azərbaycan və Ermənistan), habelə Türkiyə ilə İranın yüksək vəzifəli təmsilçilərinin diskussiyası keçirilibdir. Bu tədbirdə Xarici İşlər naziri E.Nalbəndyanla təmsil olunan (S.Sərkisyanın açıq debatlara qatılmaması onun nitqinin qüsurlu olması ilə də izah edilir) Ermənistan tərəfinin "ölkəsinin regional enerji-nəqliyyat layihələrindən kənarda qalması (saxlanması)" iddiasını İ.Əliyev onun Azərbaycan torpaqlarını işğal etməsiylə cavablandırmışdır. İ.Əliyev AR-in mövqeyinin başadüşülən olduğunu bildirərək Ermənistanın: beynəlxalq hüquq normalarına əməl etməsinin, BMT TŞ-nin məlum qətnamələrini yerinə yetirməsinin, öz qoşunlarını Azərbaycan ərazilərindən çıxarmasının lazım gəldiyini vurğulamışdı (Sözgəlişi, ABŞ Dövlət Departamentinin 2008-ci ildə dünyada insan haqlarının vəziyyətinə dair illik hesabatının AR-ə aid hissəsində deyilir ki, "etnik erməni separatçıları Ermənistanın dəstəyi ilə Azərbaycanın Dağlıq Qarabağ regionunu və daha 7 rayonunu nəzarətdə saxlamaqda davam edir").

Həmsədrlər prezidentlərin növbəti görüşünü razılaşdırmaq məqsədilə 2009-cu il fevralın sonu- martın əvvəlində də regionda oldular. Onlar özlərinin **"məkik diplomatiyası"**nın bu növbəti tədbiri zamanı –"DQR-in lideri" B.Saakyanla görüşdən sonra - "Xankəndinin iştirakı olmadan yekun razılaşma əldə edilməyəcək"qənaətini açıqladılar. Buna görə də DQ-nin gec-tez danışıqlara qatılması zərurətinin yaranacağını bildiriblər. "Həmsədrlər üçlüyü"nü vahid komanda kimi dəyərləndirən M.Brayza onlar arasında ziddiyyətlərin olmasına dair fikirləri də təkzib edibdir (Bu ziddiyyətlərin B.Fasyenin 2008-ci ilin payızında regiona təklikdə gəlməsi və s. öz ifadəsini tapdığı söylənilir. Sözgəlişi, digər həmsədr – Y.Merzlyakov bunu onlardan kiminsə xəstələnməsi, vaxtının olmamasıyla əsaslandırmağa çalışıbdır). Sonda prezidentlərin növbəti görüşünə ümid etdiklərini bildirən həmsədrlər belə bir nəticədə yekdil olduqlarını da

açıqlayıblar: munaqişənin nizamlanmasına obyektiv şərait yaranıb, ancaq subyektiv şərtlər, yəni qərar qəbulu üçün siyasi iradə isə hələ yoxdur.

İ.Əliyev—S.Sərkisyan danışıqlarının 2009-cu ilin iyununda **Sankt-Peterburqdakı "Baltikskaya zvezda"** otelində gerçəkləşdirilən **5-ci mərhələsi** də elə bir ciddi nəticələr vermədi. Bu görüş Sankt-Peterburqda keçirilən beynəlxalq iqtisadi forum çərçivəsində baş tutmuşdu. Onu həm də "rus çətiri-Kremlin patronajlığı" ilə aparılan növbəti "Qarabağ müzakirələri"ndən biri hesab edirlər (2009-cu ilin sonunadək 8 mərhələsi olan bu danışıqların 4-ü elə Rusiyada, yəni Sankt-Peterburq və Moskvada, 2-si Sürix və Davosda, 1-i isə yenə də Kremlin (MDB-nin) məsləhət-vasitəçiliyi ilə Kişinyovda, axırıncısı da Münhendə keçirilibdir). Çünki Azərbaycan və Ermənistan prezidentləri əvvəlcə təkbətək, ardınca isə üç prezident qeyri-formal şəraitdə, yəni Neva çayında yaxtada birgə şam yeməyi və gəzintisi zamanı Dağlıq Qarabağ münaqişəsinin nizamlanması barədə də müzakirələr aparıbdır (Sözgəlişi, bu, İ.Əliyevlə S.Sərkisyanın ilk birgə yeməyi sayılır).

Bütün bu müzakirələrin də "Madrid sənədi" bazasında aparıldığı və başlıca diqqətinsə razılaşdırılmamış elementlərə yönəldildiyi bildirilir. Görüş-müzakirələrdə həmsədrlərdən "məkik diplomatiyası"nın davam etdirilməsi istənildi. Kreml rəsmilərinin (prezidentin köməkçisi S.Prixodkonun) görüşə dair açıqlamaları da maraq doğurur. Onun fikrincə, Rusiya: münaqişənin həllində maraqlıdır; tərəfləri hansısa həll modelinə məcburetmədən uzaqdır; onun vasitəçiliyini tərəflərin qəbul etməsini dəyərləndirir; prezidentlərin ikitərəfli görüşlər formatını dəstəkləyir və s. (Sözgəlişi, S.Sərkisyanın D.Medvedyevlə təklikdə görüşü zamanı Rusiyanın—dünya maliyyə böhranı şəraitində — Ermənistana ayırdığı 500 mln. dollarlıq kreditə görə təşəkkür etməsi də məlumdur).

Arada iki prezidentin Triyestdə görüşəcəklərinə dair yayılan məlumatlar təsdiqlənmədi. **Danışıqların növbəti (6-cı)**

mərhələsinə MDB-nin Moskvada keçirilən (VII.2009) "sammiti" zamanı müvəffəq olundu (Bu görüşün vaxtı **MDB-nin "atüstü, qeyri-formal sammiti"**nə, "qeyri-formal ünsiyyət" tədbirinə təsadüf etdi. D.Medvedyevin təşkil etdirdiyi at yarışına təşrif buyuran prezidentlər həm də "Qarabağ müzakirələri"ni sürdürmək imkanı qazandılar). Moskvadakı "Prezident Hotel"in "Yaşıl salon"unda aparılan ikitərəfli danışıqlar da həmsədrlərin iştirakı ilə keçirilibdir. Sonra isə müzakirələr "ziyafət diplomatiyası" ilə, yəni restoranda D.Medvedyevin də qatıldığı "konstruktiv" naharda "üçlük" tərəfindən davam etdirilmişdir. İki və üç tərəfli danışıqların bu mərhələsi öncəkindən də uğursuz olmuşdur. Barələrində KİV-ə nəinki prezidentlərin, heç XİN-lərin də açıqlamalar verməyi bu dəfəki Moskva müzakirələrini həmsədrlər həmişəki kimi ümumi şəkildə səciyyələndirdilər.

Rusiya XİN-indən mətbuata sız(dırıl)an məlumatlara görə, bu danışıqların sonunda yeni qərarlar qəbul edilməsə də, konfliktin tənzimlənməsinə dair indiyədək açıq qalan (toxunulmayan) məsələlər nəzərdən keçirilibdir. Yenə də "*Madrid prinsipləri*" əsasında aparılan danışıqların D.Medvedyevin iştirakıyla olan hissəsində başlıca müzakirə obyektini DQ-də keçiriləcək səsvermənin proseduru (mexanizmi) və referenduma qədərki dönəmdə bölgəyə veriləcək aralıq statusunun detalları təşkil edibdir. Rusiya mətbuatı ("Kommersant" qəzeti və s.) belə təfərrüatların müzakirəsi halını Azərbaycanın DQ-də referendum keçirilməsinə razılıq verdiyinə dair şübhələrə yol açdığını da yazırdı. Digər mənbələrsə DQ-nin Ermənistanla quru dəhlizinə malik olması və bölgəyə təhlükəsizlik təminatı verilməsi ilə razılaşan Azərbaycan tərəfinin Dağlıq Qarabağın statusunun müstəqilliyə yol açacaq formada müəyyənləşdirilməsini qəbul etməyəcəyini bu görüşdə bir daha vurğuladığını bildirir. Bu dəfəki "Moskva danışıqları" da sülh prosesində Rusiyanın "eksklüziv vasitəçilik missiyası"nın üstünlüyünü təsdiqlədi.

Bu arada həmsədrlərdən ikisinin (M.Brayza ilə Y.Merz-

lyakovun) əvəzlənməsi barədə yayılan məlumatlar Azərbaycanda, bir tərəfdən, rahatsızlığa və digər yandan da, müxtəlif yanaşmaların ortaya çıxmasına səbəb oldu. Öncə M.Brayzanın T.Kaydenau ilə əvəz ediləcəyinə dair xəbərlər gündəmə gəldi. Amma ATƏT MQ-nin həmsədrləri arasında özünün ziddiyyətli, qalmaqallı müsahibə-açıqlamalarıyla fərqlənən və Orta Şərq mətbuatında **"kürdlərin kürəkəni" adlandırılan M.Brayzanın** dəyişilməsi təsdiqlənsə də, onun T.Kaydenau ilə əvəzlənməsi barədəki xəbərlər özünü doğrultmadı. Amerikalı yeni həmsədr R.Bradtke oldu.

T.Kaydenaunun adının hallanmasının və R.Bradkenin təyinatının Azərbaycanda müəyyən rahatsızlıq yaratması səbəbsiz deyildi. Bu hal həmin diplomatların Kosovo və Xorvatiyada etnosiyasi konfliktlərin nizamlanmasına dair vasitəçilik missiyalarının nəticələri-"təcrübəsi" ilə əlaqədardır. ABŞ-ın diplomatik xidmət korpusunun peşəkar əməkdaşlarından olan T.Kaydenau öz fəaliyyəti-karyerasının xeyli hissəsini Balkanlardakı etnik konfliktlərə həsr edibdir. Kosovonun müstəqilliyində "fövqəladə xidmətlərinə görə" 2008-ci ilin iyulunda ölkəsinin oradakı (yeni dövlətdəki) ilk səfiri təyin olunubdur. Xanım diplomat M.Brayzanı həmsədr kimi əvəz etməsə də, Dövlət katibinin Avropa və Avrasiya işləri üzrə köməkçisinin müavini təyin olunmaqla onun digər vəzifəsini tutmuşdur (M.Brayzanınsa Azərbaycana səfir göndəriləcəyinə dair təsdiqlənməmiş məlumatlara rast gəlinməkdədir).

Balkanlar üzrə sanballı mütəxəssis, **"konfliktlər ustası"** sayılan T.Kaydenaunun gerçəkləşməyən həmsədrliyinin ölkəmizdə doğurduğu ciddi rezonans və diskussiyalarla bağlı **bəzi təhlillər-dəlillər** vardı. Bir çox ekspert-politoloqlar belə düşünürdülər ki, Kosovonun Serbiyadan ayrılaraq (qopardılaraq) müstəqil dövlətə çevrilməsində müstəsna rol oynayan xanım diplomatın "Qarabağ müzakirələri"nin intensivləşdiyi bir şəraitdə həmsədrliyə gətirilməsi təhlükəli olardı. Belə hesab edilirdi ki, ABŞ-ın Balkanlarda ikinci alban dövlətinin yaradılması

planını məharətlə gerçəkləşdirən diplomatın həmsədr təyinatı Ağ Evin Kosovo və Dağlıq Qarabağ münaqişələri arasında analoqlar görməsindən də irəli gələ bilərdi. Yəni bununla "Madrid prinsipləri"ni Azərbaycana tezliklə sırımaq (qəbul etdirmək) məqsədi güdülür — Qarabağı Azərbaycandan qoparmaqdan ötrü son həmləyə hazırlıq görülürdü (Yeri gəlmişkən, **T.Kaydenaunun "gözlənilən, lakin reallaşmayan"** həmsədrliyi məsələsi Ermənistanda da müxtəlif rəylərə səbəb olmuşdu).

Artıq amerikalı yeni həmsədr olaraq fəaliyyətə başlayan R.Bradtkenin təyinatı da, demək olar ki, eyni yöndən müəyyən rahatsızlıq yaradıbdır. R.Bradtke Bosniyanın bölünməsini rəsmiləşdirən və münaqişəyə son qoyan Deyton sazişinin (1995) ərsəyə gəlməsinin, habelə Kosovonun müstəqilliyi ilə yekunlaşan "status danışıqları" prosesinin iştirakçı-memarlarından biridir. Bir çox analitiklərin fikrincə, yeni həmsədrin **"Balkan təcrübəli"** olması ABŞ-ın müəyyən siqnal-ismarıcı kimi də başa düşülə bilər. Onlar bunu Dağlıq Qarabağın da müstəqilləşdirilməsi (sonradan da Ermənistana rəsmi birləşdirilməsi) prosesinə başlanılması ilə izah edirlər. T.Kaydenaunun hazırda tutduğu vəzifəyə əsasən də bu prosesə fəal cəlb olunma ehtimalı ölkəmizdə Dağlıq Qarabağla əlaqədar nigaranşılıq və rahatsızlıqları daha da artırır. O, ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini statusunda Ermənistanda və Azərbaycanda oldu (X.2009). Bu, onun **ölkəmizə ilk səfəridir**.

R.Bradtkenin həmsədrliyinə fərqli yöndən yanaşan politoloqlar (R.Musabəyov və digərləri) isə onun Xorvatiyadakı vasitəçilik missiyasını nəzərə almağı lazım bilirlər.Bu zaman həmin missiyanın — Azərbaycan üçün də yetərli olan — nəticəsinə diqqət yetirilməsi məsləhət bilinir: o vaxt Xorvatiya hökuməti ABŞ-ın çox şeylərə qadir olan xeyir-duası ilə separatçı Serb Krainasını bir həftə ərzində güc yolu ilə ləğv etmişdi (Bununla razılaşmayanlarsa Dağlıq Qarabağla bağlı şəraitin xeyli fərqli olmasını önə çəkirlər. Onların fikrincə, istənilən

sülh prosesində başlıca sözsahibi ayrı-ayrı təmsilçilər (DQ ilə əlaqədarsa həmsədrlər) deyildir. Diplomatlar nə qədər səriştəli olsalar da, sadəcə vasitəçi-icraçıdırlar. Başlıca və həlledici təsir imkanına malik olanlarsa onların dövlətləridir. Burada belə bir vacib məqamı da qeyd etmək lazım gəlir: dövlətlərin bir-birlərində səfir təyinetmə prosedurundakı aqreman vermə qaydası Minsk Qrupunun həmsədrlərinə tətbiq olunmur. Yəni münaqişə tərəfinin və ya tərəflərinin həmsədr təyinatına icazəsi şərti yoxdur).

ABŞ-ın ardınca Rusiyanın da öz həmsədrini daha təcrübəli diplomatla əvəzləyəcəyinə dair məlumatlar yayıldı. Rusiya mənbələrinə görə, Y.Merzlyakovun Q.Karasinlə əvəzlənməsi nəzərdən keçirildi. Q.Karasin Rusiya Xarici İşlər nazirinin müavini olaraq MDB ölkələri ilə əlaqələr, ərazi-etnik münaqişələrin tənzimlənməsi və s. sahələri kurasiya edir. Y.Merzlyakovun və "Qarabaq problemi" ilə məşğul olan digər rusiyalı diplomatların onun təlimatı ilə işlədikləri də məlumdur. Gerçəkləşəcəyi təqdirdə **Rusiya diplomatiyasının "şah gedişi"** ola biləcək bu əvəzlənmə Dağlıq Qarabağ münaqişəsinə dair nizamlama prosesinin daha həssas mərhələyə qədəm qoyduğunu (və ya lap yaxınlaşdığını) göstərir. Rusiyalı politoloqların (V.Zaxarov və b.) fikrincə, həmsədrlərin dəyişdirilməsi Minsk Qrupundakı ziddiyyətlərdən və münaqişə tərəflərinə ciddi təzyiqlərin göstəriləcəyindən də xəbər verir. Onun digər bir qənaətinə görə isə, qüvvələrin yenidən qruplaşdırılması və həmsədrlərin əvəzlənməsi Rusiyanın "yumşaq qarınaltısı" sayılan Cənubi Qafqazda nüfuza sahib olma və Xəzərin karbohidrogen ehtiyatlarının Qərbə nəqlinə nəzarət uğrunda mübarizənin yeni mərhələyə daxil olması deməkdir. Habelə Dağlıq Qarabağ üstündə Ermənistanla Azərbaycan arasındakı qarşıdurmanın tam olaraq Rusiya-ABŞ konfliktinə çevrildiyini bildirir.

S.Sərkisyanla İ.Əliyevin birbaşa danışıqlarının 7-ci mərhələsi MDB-nin Kişinyov sammiti (X.2009) çərçivəsində mümkün oldu. Yeri gəlmişkən, Kişinyov görüşü ərəfəsində

sülh-danışıqlar prosesiylə bağlı müəyyən dəyərləndirmələr də açıqlandı. AR prezidenti "Qarabağ danışıqları"nın həlledici fazaya-final mərhələsinə daxil olduğunu bildirdi. Ermənistan XİN-i E.Nalbəndyansa "Frans press"ə açıqlamasında danışıqlar prosesində hansısa irəliləyiş (sıçrama) gözləməyə yetərli əsasların olmadığını söylədi (Burada Beynəlxalq Böhran Qrupunun "Dağlıq Qarabağ – problemin həllində sıçrayış" sənədinə işarə olunurdu).

ABŞ Dövlət katibinin Avropa və Avrasiya işləri üzrə köməkçisi F.Qordon isə,"prezidentlərin danışıqlarında nəzərə çarpan irəliləyişin olması" qənaətində idi.Rusiya rəsmiləri də Moldovadakı "Qarabağ müzakirələri"ndən əməli bir nəticə gözləmədiklərini gizlətmirdilər. Onlar bunu sadəcə konfliktin nizamlanması prosesində "növbəti addım" sayırdılar.Belə bir fərqli (ziddiyyətlərli) yanaşmalar şəraitində həmsədrlər İrəvan, Xankəndi və Bakıya səfər edərək (1-6.X.2009) tərəflərin "nəbzini bir də yoxladılar".

Kişinyov (Moldova) müzakirələri də artıq ənənəyə, yəni sanki bir "protokol qaydası"na çevrilməkdə olan formada aparıldı. Belə ki, öncə iki prezidentin XİN-lərin və həmsədrlərin iştirakıyla görüşü keçirildi. Sonra da üçlü formatda, yəni D.Medvedyevlə birlikdə qeyri-rəsmi məsləhətləşmələr oldu. Rusiyalı həmsədr Y.Merzlyakovun görüşdən sonra mətbuata verdiyi açıqlamada danışıqlarda həm yeni, həm də əvvəldən mübahisəli qalan məsələlərin müzakirə olunduğunu bildiribdir. Konkret hansı məqamların nəzərdən keçirilməsi isə açıqlanmayıbdır. Amerikalı yeni həmsədr (R.Bradtke) isə danışıqlar prosesində müsbət dinamikanın davam etdiyini, müzakirələrin ciddi və konstruktiv olduğunu, prezidentlərin yenidən görüşmək qərarına gəldiklərini vurğulayıbdır.

Danışıqlarda Ermənistanın tutduğu rayonlardan 2-ni (Ağdamla Füzulini) boşaltmasına dair anlaşma barədə də müzakirələrin getdiyi məlumdur. Bu müzakirələrin Türkiyə hökumətinin israrları ilə baş tutduğu bildirilir. Rəsmi Ankara Türkiyə-

Ermənistan protokollarının imzalanması ərəfəsində Azərbaycanı daha da küsdürməməkdən ötrü ona mümkün olan ən minimal güzəştlərin edilməsinə çalışmışdır. Bunun da AR-i Türkiyə - Ermənistan anlaşmasının reallaşdırılmasına razı salmaq məqsədilə edildiyi bildirilir. Müzakirələr vaxtı Ermənistan yalnız 1, Azərbaycansa 3 rayonun boşaldılmasını istəmişdir. Türkiyənin işə qoşulması ilə 2 rayonun qaytarılması barədə razılaşma əldə edilibdir. Ancaq həmişəki kimi diplomatik cığallıq edən Ermənistan son anda anlaşmanı pozubdur.

"Kişinyov danışıqları"nın da uğursuzluğu gözönündədir. Belə bir nəticə bəzi başqa amillərlə yanaşı "Moldova görüşü" dönəmindəki Türkiyə- Ermənistan anlaşması (Sürix protokolları və s.) ilə sıx əlaqədardır.Azərbaycan tərəfinin (İ.Əliyevin) qənaətinə görə, bu, yeni geosiyasi hal Ermənistanın danışıqlar prosesində daha sərt mövqedən çıxış etməsinə səbəb olacaqdır. Həmin qənaət-mövqenin diplomatik açmasını isə Xarici işlər naziri E.Məmmədyarovun bildirdiklərinə əsasən tezisvari belə ifadə etmək olar:

- Kişinyov görüşü konstruktiv sayıla bilməz;
- Ermənistan tərəfinin ən azı hələ iki-üç il əvvəl razılaşdırılan məsələlərin müzakirəsinə yenidən qayıtması ilə irəliləmək mümkün deyil;
- rəsmi İrəvan Türkiyə ilə yaxınlaşmanı əsas tutaraq digər proseslərin dondurulmasını lazım bilir;
- həmsədrlər Kişinyovda eşitdiklərini başa düşməli və təqdir edilən obyektiv dinamikanı necə dəstəkləməyi fikirləşməlidirlər;
- ən başlıcası da artıq razılaşdırılmış məsələlərə yenidən qayıtmamağı Ermənistana başa salmaq üçün obyektiv dəlillər tapmalıdırlar;
- əks halda, bu, sonsuz bir proses olacaqdır.

Həmsədrlərin "Madrid baza prinsip"lərinin 2009-cu ilin sonuna kimi razılaşdırlması proqramının və bu kontekstdə də "prezidentlərin görüşləri marafonu"nun nəticəsizliyi danılmaz-

dır. Bunlardan qurtulmaqdan ötrü də həmsədrlər prezidentlərin görüşlərinin növbəti (8-ci) mərhələsinin 2009-cu il noyabrın ilk öngünlüyündə Parisdə baş tutmasına çalışdılar.

Səkkizinci görüş 1938-ci ildə Avropanın dörd böyük dövlətinin liderlərinin sövdələşməsinə evsahibliyi edən **Münhendə** oldu.Həmin görüş ərəfəsi və sonrası dönəm bir sıra tədbirlər silsiləsi ilə də səciyyələndirilə bilər: İ.Əliyevin Goranboyda məcburi köçkünlər qarşısında çıxışı; Türkiyənin Minsk Qrupuna mesajları; AR prezidentinin Münhen danışıqlarından dərhal sonra Rusiyanın Ulyanovsk şəhərində D.Medvedyevlə məsləhətləşmələri; ATƏT XİN-lərinin illik (Afina) toplantısı çərçivəsində "3+2" formatında müzakirələr.

AR prezidentinin Münhen danışıqları öncəsi çıxışı müharibə ritorikası ilə diqqəti çəkdi."Bu müzakirələr də nəticə verməsə, onda danışıqlara ümidlərimiz tükənəcək...o zaman bizim başqa yolumuz qalmır...hərbi yol qaçılmaz olacaq.Bizim tam hüququmuz var ki, torpaqlarımızı hərbi yolla azad edək". ABŞ-dakı kəşfiyyat araşdırmaları ilə məşğul olan "Stratfor Mərkəzi" rəsmi Bakının müharibə ultimatumu ahəngli bəyanatını "Münhen görüşü ərəfəsində Qarabağ danışıqlarına verilən yeni istiqamət " kimi dəyərləndirdi. Mərkəz habelə diqqəti AR-in hərbi büdcəsinin son 15 ildə 250 mln. dollardan artaraq 1mlrd. dolları keçməsinə yönəltmişdir (sözgəlişi 2010-cu ilin dövlət büdcəsində müdafiə xərclərinə 1.205.827.744.0 man. ayrılması nəzərdə tutulur. Bu da 2009-cu ildəkinə nisbətən 0,7 faiz çoxdur və bödcə xərclərinin 10,7 %-i deməkdir.

Ermənistanda isə hərbi xərclərə 2009-cu ildə 131 mlrd. dram (1 dollar = 376 dram) ayrılmışdır. 2010-cu ildə isə bu göstəricinin azalması, yəni 112 mlrd. dram (təqribən 300 mln. dollar) təşkil etməsi nəzərdə tutulur. Hərbi ekspertlərə görə, Azərbaycanla Ermənistanın hərbi xərcləri arasında belə böyük fərqdən danışarkən bu məqamı da mütləq nəzərə almaq lazımdır: AR hərbi texnikanı və sursatı bazar qiymətlərinə uyğun aldığı halda, ER onları Rusiyadan ya ucuz qiymətlərlə, yaxud

da havayı əldə edir.

Türkiyənin MQ-yə ismarıclarında özünə yer alan məqamlar da maraq doğurur: **1)** Ermənistan tutduğu 7 rayondan çəkiləcək və azərbaycanlı məcburi köçkünlər yenidən həmin ərazidə məskunlaşacaq. **2)** Rayonların beynəlxalq miqyasda təhlükəsizliyi və statusu üçün danışıqlar aparılacaq. **3)** Dağlıq Qarabağın gələcəyi və statusu məsələləri nəzərə alınmamaqla, indiyədək əldə edilən razılıqlara əsasən, bir **"Ara razılaşması" ("İnterim Agreement")** imzalanacaq.

Azərbaycan və Ermənistan prezidentlərinin Münhendə - Fransanın oradakı Baş konsulluğunda – keçirilən (22.XI.2009) bu görüşü ilə bağlı da diqqətçəkici məqamlar vardır. Prezidentlər Türkiyə ilə Ermənistanın imzaladıqları **"Sürix protokollar"ından sonra ilk dəfə olaraq** bir araya gəldiklərindən bu görüş xüsusi maraq yaratmışdı. Ancaq onların ümumilikdə 8-ci və 2009-cu ildə isə 6-cı olan bu danışıqlarına ümidlər də özünü doğrultmadı. Hərçənd ki, 4 saatlıq görüş-söhbət B.Fasye tərəfindən " irəliyə doğru addım " və bəzi diplomatik-siyasi çevrələrə görə isə, "konstruktiv müsbət irəliləyiş" təki səciyyələndirilibdir.

KİV-lərə sız(dırl)an məlumatlar danışıqlarda "aralıq status"un detalları, "Laçın dəhlizi", işğal edilən rayonların boşaldılması formulu və s. məsələlərin müzakirə olunduğunu söyləməyə əsas verir (Həmsədrlərin - tərəflərin yanaşmalarındakı kəskin fərq və ziddiyyət üzündən - referendum məsələsini bu dəfə gündəliyə daxil etməmələri də bildirilir). Qərb mənbələri işğal olunmuş rayonların **"2+3+2" formulası** üzrə qaytarılmasının nəzərdən keçirildiyini iddia edirlər. Burada söhbət öncə 2 (Ağdam, Füzuli), sonra 3 (Cəbrayıl, Qubaadlı, Zəngilan) və sonda da digər 2 (Kəlbəcər, Laçın) rayonun boşaldılması mexanizmi – sxemindən gedir. "Euronews" telekanalı Münhen danışıqlarında münaqişənin nizamlanmasının baza prinsiplərinə dair çərçivə anlaşması ətrafında da müzakirələr aparıldığını vurğulamışdır.

Görüşdən bir qədər sonra Türkiyənin iqtidarının israrları qarşısında Ermənistanın iki rayonun (Ağdamla Füzulinin) qaytarılmasına razılaşmasına aid məlumatlar yayıldı. Türkiyədə bəzi dairələrsə Ermənistanın 2009-cu ilin sonunadək bir rayondan (Kəlbəcərdən) geri çəkiləcəyini iddia etdi (Ekspertlərə görə, AR prezidentinin Münhenə getməzdən əvvəl məhz Kəlbəcər qaçqınları ilə görüşü təsadüfi deyildi və müəyyən məna kəsb edirdi. Ancaq bu hal hələlik tamamilə qeyri-realdır. Çünki Kəlbəcər strateji önəmi üzündən ermənilərin ən sonda boşaltmağa razı olduğu, yaxud da heç qaytarmaq istəmədiyi rayondur. İndiyə qədər nəzərdən keçirilən bütün variantlarda Kəlbəcərin Laçınla birlikdə lap axırda qaytarılması məsələsi özünə yer alıbdır. Habelə Ermənistan Dağlıq Qarabağın yekun statusuna dair təminat almadan rayonları qaytarmaqdan imtina edir. Əgər belə bir razılaşma olsaydı həmsədrlər onu çox ciddi uğur kimi təntənə ilə elan edərdilər.

Bir çox analitiklər Kəlbəcərin qaytarılmasının bölgədə yaranan gərgin şəraiti səngitməyə hesablandığını və bunun da Ermənistanın xeyrinə işləyə biləcəyini qeyd edirlər. Yəni bu halda "Sürix protokolları" ratifikasiya edilə, sərhədlər açıla və bölgədə yeni qüvvələr nisbəti formalaşa bilər. Bu kimi məlumat - iddialar da "İ.Əliyevin ultimativ bəyanatı erməni tərəfinin mövqeyini yumşaldıbdır" qənaətinə gələnlərə əsas oldu. Digər yandan da, onların öz təsdiqini tapmaması və bu görüşün də nəticəsizliyi danışıqların dayandırılması məsələsinin, yəni müharibə ritorikasının gündəmdə qalacağı təəssüratını yaratdı (Həmsədrlərin bəyanatından da bəlli olduğu kimi, Münhen danışıqlarında tərəflərin baş diplomatlar səviyyəsində, yəni - ATƏT XİNŞ-in illik toplantısı çərçivəsində - görüşə razılıq vermələri "mühüm məqam"dır. Ancaq prezidentlərin növbəti görüşü barədə razlaşmanın olmaması Azərbaycanın dövlət başçıları səviyyəsində danışıqlardan çəkilməsi kimi də başa düşülə bilər. Çünki, əvvəlki 7 görüşün sonunda adətən danışıqların prezidentlər səviyyəsində davam etdirilməsi razılaşdırılırdı).

Bəzilərinin qənaətincə, AR prezidenti Münhen görüşünün ardınca dərhal Rusiyada (Ulyanovsk, 24.XI.2009) D.Medvedyevlə müəyyən müzakirələr apardı. Həmin görüş üçün formal səbəb – H.Əliyevlə bağlılığı olan - bir abidənin və körpünün açılışında iştirak hesab edilsə də, diqqət mərkəzində Münhen danışıqlarının nəzərdən keçirilməsinin dayandığı sirr deyil. Təfərrüatları tam açıqlanmasa da, **"Ulyanovsk məsləhətləşmələri"**ndə danışıqlar prosesinin Münhendən sonrakı durumu və perspektivi məsələləri mühüm yer tutmuşdur. Rusiyalı analitiklərə (A.Krılov, A.Vlasov və b.) görə, Kremlin daxili dilemma qarşısında qaldığı gözönündədir. Belə ki, bir tərəfdən, regiona yetərli təsir imkanı verən hazırki status-kvo Rusiyanı ümumən qane edir. Digər yandan da, Rusiya səmərəli və əlverişli vasitəçi olduğunu göstərməyə və ciddi imtiyazlar, güzəştlər qazanmağa çalışır.

Bir sıra həmahəng ekspert rəylərinə görə, "Ulyanovsk məsləhətləşmələri"ndə Kremlin əsas məqsədi rəsmi Bakını münaqişənin həlli üçün hərb yoluna əl atmaqdan çəkindərməyə çalışmaqdan ibarət olubdur. Çünki AR-in lokal hərbi əməliyyatlara Rusiyadan sanksiya almağa və rəsmi Moskvanın neytral qalmasına yönəlik səyləri **Kremli Güney Qafqazda ona " həlledici ayaqqoyma yeri" verən Ermənistanla** bağlı da dilemma ilə üzləşdirir. Gürcüstanla müharibənin ona xeyli (hərbi, diplomatik və s. yönlərdən) baha başa gəlməsinin fərqində olan Rusiyanın yeni (Azərbaycanla) silahlı münaqişəyə həvəs göstərmədiyi də şübhə doğurmur. KTMT-nin Baş katibi N.Bordyuja İrəvana səfəri zamanı (24.XI.2009) AR prezidentinin Münhen öncəsi hərbi ritorikalı bəyanatına mənfi yanaşdığını dilə gətirərək demişdi ki, D.Medvedyevin güc tətbiqini istisna edən Avropa təhlükəsizlik modelinə dair müqavilə bağlamaq təklifi çox yerinə düşür (Rusiya güc tətbiq edəndə isə belə anlaşmanın vacibliyi heç xatırlanmır – İ.M.); məsələlərin hərbi yolla həlli mümkün deyil, İ.Əliyevin bəyanatı Ermənistanı razılaşmaya sövq etməyə hesablanıbdır (Yeri gəlmişkən, Y.Merzlyakovsa

həmin bəyanatın daxili auditoriya üçün olduğunu bildirirdi).

ABŞ-ın **"Stratfor Mərkəzi"** də Azərbaycanın hərbi əməliyyatlara başlayacağı halda üzləşə biləcəyi dəhşətli və ciddi itkiləri unutmamağı tövsiyyə edir: Rusiyanın müharibəyə qatılaraq Dağlıq Qarabağı da Abxaziya və Cənubi Osetiya təki tutması. Habelə AR-in regiondakı əsas iqtisadi əməkdaşlıq tərəfdaşı olan Rusiyanı itirməsi. Qərbin də AR-in hərbi ritorikasından məmnun olmadığı və hətta orada bəzi dövlətlərin, siyasi qurum və çevrələrin bu halda "DQR"-in tanınması ilə hədələmələri yetərli mürəkkəb durumdan xəbər verir (Separatçı – işğalçı rejimin tanınması ilə bağlı Qərbdən, xüsusilə də ABŞ-dan gələn hədələrə isə AR-də V.Quluzadə və digərləri tərəfindən bu cür münasibət bildirilir: "Azərbaycan müharibə etməsə də, Vaşinqton " DQR"-in müstəqilliyini tanımış kimidir).

Rus hərbçi - diplomatlarının bu kimi dəyərləndirmələri ilə eyni vaxtda Azərbaycanın Müdafiə naziri S.Əbiyev də müharibə bəyanatı verdi. Həmin müddətdə Polşanın Milli Müdafiə naziri B.Klixlə görüşən S.Əbiyev Minsk Qrupunun vasitəçiliyi ilə aparılan danışıqların nəticəsizliyinə işarə edərək demişdir: "Belə vəziyyətdə Azərbaycanın öz torpaqlarını azad etməsi üçün hərbi yoldan istifadəsi qaçılmaz olacaqdır". Bəzi ekspertlər AR Müdafiə nazirliyi rəsmilərinin xarici dövlətlərin ölkəmizdə akkreditə olunmuş hərbi attaşeləri üçün keçirdikləri xüsusi brifinqi (11.XII.2009) təsadüfi saymırlar. Belə bir toplantının AR-in xarici dövlətlərdəki səfirliklərinin hərbi attaşelərinin iştirakı ilə keçiriləcəyi də güman edilir.

Bütövlükdə isə, AR və ER prezidentlərinin görüşlərindən çoxuna birbaşa vasitəçilik edən Rusiyadan ötrü Azərbaycanın danışıqlardan geri çəkilməsi Kremlin patronajlığı ilə aparılan sülh prosesinin də iflası, **"Moskva (Mayndorf) Bəyannaməsi"**nin qüvvədən düşməsi demək olardı.

Sülhyatarma prosesində vaxtaşırı əldə edilən anlaşmaları və razılaşdırılan məsələləri dəbbələyən Ermənistanın yenə də öz ənənəsinə sadiq qalması Münhensonrası danışıqları qəlizləşdirdi. E.Nalbəndyanın azərbaycanlı köçkünlərin Qarabağa dönməsi məsələsinin yalnız münaqişənin tam həllindən və "DQR"-ə müvafiq təhlükəsizlik təminatı verildikdən, habelə 400 mindən çox erməni qaçqının da Azərbaycana qayıtmasından sonra müzakirə edilə biləcəyinə dair bəyanatı XİNŞ-in Afina toplantısı ərəfəsində diplomatik gərginliyi xeyli yüksəltdi.

Azərbaycanın da Ermənistandan qovulan türk-müsəlmanların qaytarılmasına və onlara yüksək muxtariyyət statusu verilməsinə dair tələblə çıxış edə bilmə ehtimalı rəsmi İrəvanın tutulan rayonların boşaldılmasını arxa plana keçirəcəyinə şübhələri daha da artırır (Bir çox ekspertlərə görə, İrəvanla Zəngəzurun ermənilərə verilməsi barədə sənədlərin qüvvədən salınması və Qərbi Azərbaycanın türk-müsəlman əhalisinə də Ermənistanda yüksək muxtariyyət verilməsinə dair tələblərə ehtiyac vardır.

Belə bir şəraitdə 2009-cu ilin sonuncu aylarının kəsişməsində, **XİNŞ-in Afinada keçirilən illik toplantısı çərçivəsində, "3+2" formatında aparılan danışıqlara** bəslənilən ümidlər də özünü doğrultmadı. Toplantı ərəfəsində bir sıra nikbin ruhlu bəyanatlar verilmiş və məlumatlar yayılmışdı. Onların ümumi ahəngi belə idi: "Qarabağ razılaşması Afinada elan oluna bilər". Bütün diqqətin yönəldiyi "3+2" formatı həmsədr dövlətlərin və münaqişə tərəflərinin Xarici İşlər nazirlərini əhatə edirdi (Müzakirələrdə ABŞ-ı Dövlət katibinin müavini C.Steynberq təmsil edirdi). **Qarabağa dair ilk "3+2" formatlı toplantı sayılan "Afina danışıqları"**nda da əməli nəticə olmayıbdır. "Beşlər"in danışıqlarından öncə (30.XI-1.XII.2009) AR və ER XİN-ləri öz aralarında müəyyən "işgüzar müzakirələr" aparıblar. Sonra isə baş diplomatlarla həmsədrlərin birgə qapalı danışıqlarında AR və ER XİN-ləri səviyyəsində qəbul ediləcək birgə bəyanatla bağlı məsələlər nəzərdən keçirilibdir. Nəhayət, "3+2" formatında davam etdirilən müzakirələr ümumi bəyanatın qəbulu ilə başa çatıbdır.

Əslində isə Afinada daha konkret məzmunlu, yəni danı-

şıqlar prosesində indiyədək əldə edilən irəliləyişləri vurğulayacaq bir sənədin qəbulu gözlənilirdi. Fransa XİN-i B.Kuşner də bunu etiraf edərək "danışıqlarda müəyyən sənəd üzərində müzakirələrin getdiyini, ancaq ortaya problemlər çıxdığından onların razılaşdırılmasının mümkün olmadığını" bildirdi. Rusiyanın baş diplomatı S.Lavrov tərəfindən elan edilən ümumi bəyanatda yenə də köhnə qayda ilə " mühüm irliləyişlər"dən bəhs olunurdu. Bütövlükdə isə, **Afina danışıqlarının əsas yekunu** bundan ibarət oldu: həmsədrlərin *ilin (dekabrın)* sonuna qədər yenidən regiona səfər etmələri və prezidentlərin növbəti görüşünü hazırlamaları. Bəyanatdan da **danışıqların "pozitiv dinamikası**"nın davam etdirilməsi qənaəti ortaya çıxır. Bu isə, öz növbəsində, Azərbaycan tərəfinin müharibə ritorikasının qüvvədən düşməsi anlamına gəlir.

AR Nazirlər Kabinetinin 2009-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunan iclasındakı (18.1.2010) çıxışında İ.Əliyev Afinada qəbul edilən sənədi belə dəyərləndirmişdir: münaqişənin həlli işində 2009-cu ildə praktiki nəticələr əldə edilməsədə, müəyyən irəliləyişin olması; artıq məsələnin hansı yolla həll olunmasının daha da dəqiqləşməsi; açıq-aydın göstərilməsi; məsələ ölkələrin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır; bütün beynəlxalq sənədlər, 1975-ci ildə Helsinkidə qəbul edilən və hazırda da əsas olan məhz bu yanaşmanı müdafiə edir və məsələnin bu yolla həllini göstərir. AR, ER və RF prezidentlərinin "Moskva Bəyannaməsi"ndə də (XI.2008) məhz bu yanaşma qeyd olunmuşdur. İlk dəfə olaraq Ermənistanın belə bir sənədə qoşulması önəmli məqamdır; beləliklə, o, məsələnin ərazi bütövlüyü çərçivəsində həll olunmasını etiraf etmişdir.

Həmsədr dövlətlərin baş diplomatları **"Afina Bəyannaməsi**"nə dair açıqlamalarında mövqe həmrəyliyi göstərmişlər. Onlar həmsədr dövlətlərin başçılarının "Böyük səkkizlər"in sammiti (İtaliya-Akvila-10.VII.2009) çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı verdikləri birgə bəyanatdakı yanaşmanı təkrarlamışlar: "Madrid sənədi"ni açıqlayan (etiraf edən) və onun yeniləşdirilməsini vacib bilən "Akvila Bəyanatı" baza prinsipləri üzrə razılaşmanın başa çatdırılmasını nəzərdə tuturdu. ATƏT XİNŞ-in 17-ci (Afina) toplantısının özündə də Ermənistan – Azərbaycan münaqişəsinə dair birbaşa və bilvasitə müəyyən ismarıclar verilibdir. ABŞ təmsilçisi (C.Steynberq) münaqiçənin nizamlanmasının regionda sabitliyə və iqtisadi inkişafa pozitiv təsirini vurğulayaraq həmsədr ölkələrin səylərinin artırılmasını vacib sayıbdır.

Fransa XİN-i Avropadakı **"dondurulmuş münaqişələr"-in nizamlanması sahəsindəki işlərin fəallaşdırılmasını** məsləhət bilibdir. O, Dnestryanı ilə yanaşı, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq üçün tutarlı əsasların mövcudluğuna toxunub və AR ilə ER prezidentlərinin 2009-cu ildə 6 dəfə görüşmələri faktını xüsusilə qeyd edibdir. S.Lavrov isə ATƏT məkanında münaqişələrin dinc yolla nizamlanması üçün vahid prinsip tətbiqinin vacibliyini önə çəkibdir. Bu kontekstdə Rusiya Azərbaycanın güc tətbiqindən imtina barədə öhdəlik götürməsini istədiyini də açıqlayıbdır.

Münhen və Afina danışıqları ilə yekunlaşan 2009-cu ilin "Qarabağ sülhyaratma marafonu" növbəti il üçün təskinləşdirici vədlər versə də, problemin tezliklə həlli perspektivi çox da inandırıcı görünmür. Hərçənd ki, həmsədr dövlətlərin rəsmiləri nikbin proqnozlar verməkdədirlər. Məsələn, B.Kuşner elə ATƏT-in (2009-cu ildə ona Yunanıstan sədrlik etmişdir) XİN-lərinin Afina toplantısındakı çıxışında "Qarabağ anlaşmasına bir neçə ay qaldığını" bəyan etmişdir. ABŞ rəsmisi F.Qordon Senatın Xarici Əlaqələr Komitəsindəki dinləmələrdə çıxışı zamanı "Dağlıq Qarabağ münaqişəsinin həllində sürətli irəliləyiş əldə olunacağına" ümid etdiklərini söyləyibdir.

Həmsədr dövlətlərin rəsmilərinin nikbin ruhlu dəyərləndirmələri münaqişə tərəflərinin müvafiq yanaşmaları ilə tamamlanmır. Ermənistanın destruktiv mövqeyi özünü çox da gözlətmədən elə E.Nalbəndyanın ATƏT XİNŞ-in Afina toplantısındakı çıxışındaca (2.XII.2009) ortaya qoyulubdur. Onun çı-

xışında AR-dəki müharibə ritorikası, Azərbaycanın "AASQ" müqaviləsini pozaraq sürətlə silahlanması, Türkiyə - Ermənistan protokollarının ratifikasiyasını əngəlləməsi və s. bəhs olunmuşdur. Erməni nazir münaqişənin nizamlanmasından ötrü razılaşdırılmalı olan bir çox məsələlərin qaldığını, danışıqların Madrid prinsipləri əsasında getdiyini, **Azərbaycanın ilk dəfə** olaraq xalqların öz müqəddaratını təyinetmə prinsipinin bu münaqişədə nəzərə alınmasını mümkün saydığını (?! – T.M), problemin həllinə aid qərarın sonda Dağlıq Qarabağın iştirakı ilə verilməsinin vacibliyini də vurğulayıbdır.

B.Kuşner və digərlərinin nikbin notlu açıqlamaları Azərbaycanda birmənalı qarşılanmayıbdır. Ekspert - politoloq dəyərləndirmələrində **əksqütblü təhlil və qənaətlər** özünü göstərməkdədir: "Mümkündür ki, 2010-cu il sülh sazişinin imzalanması ili olsun" (R.Musabəyov); "Nəinki bir-iki rayon, heç yarım kənd də azad olunmayacaq" (V.Quluzadə); "Qarabağ münaqişəsinə dair çərçivə cızılıb" (N.Miri) və s. XİN rəsmiləri danışıqların Madrid prinsipləri əsasında aparıldığını əsasən etiraf etsələr də, "hər şey razılaşdırılmayana qədər heç nə razılaşdırılmayıb" (E.Poluxov) prinsipinə üstünlük verdiklərini vurğulayıblar. İ.Əliyevin qənaətinə görə isə, Ermənistan vaxtı uzatmaq istəyir, ancaq "Dağlıq Qarabağa 100 ildən sonra da müstəqillik verilməyəcək".

2010-cu ilin yanvarında münaqişə ətrafındakı **danışıqlarda bir diplomatik hərəkətlilik** yaşandı. Belə ki, Türkiyə Baş nazirinin Rusiyaya səfəri vaxtı ABŞ Dövlət Katibinin siyasi məsələlər üzrə müavini N.Berns və Ermənistanın Müdafiə naziri S.Ohanyan da Moskvada danışıqlar aparıblar. R.Ərdoğanın Moskvaya səfərinin ardınca S.Lavrov İrəvana gedibdir. Az sonra Ermənistan prezidenti DQ separatçılarının indiki başçısı B.Saakyan Rusiya paytaxtına çağırılıbdır. Bu arada amerikalı həmsədr R.Bradtke İrəvanda və Xankəndində olubdur. Həmsədrlər İrəvanda və Bakıda müzakirələr aparıblar. AR prezidenti Soçidə D.Medvedyevin iştirakı ilə S. Sərkisyanla görüşübdür.

Soçi görüşündən dərhal sonra İran XİN-i M.Mottaki İrəvana səfər edibdir. Rusiya XİN-i S.Lavrov isə Əfqanıstana yardımla bağlı beynəlxalq konfrans (London, 28.I.2010) çərçivəsində digər həmsədr dövlətlərin baş diplomatlarını (H.Klinton və B.Kuşneri) Soçi görüşünün nəticələri barədə məlumatlandırıbdır.

Soçi görüşü (25.I.2010) Azərbaycan və Ermənistan prezidentlərinin **9-cu** və 2010-cu ildə isə 1-ci görüşüdür. O həm də Rusiya prezidentinin də iştirak etdiyi 5-ci üçtərəfli görüşdür. Kreml rəhbərinin Soçi ətrafındakı "Krasnaya polyana" iqamətgahında aparılan danışıqlar da ənənəvi sxem əsasında aparılıbdır. Öncə üç prezident müzakirələr aparıb və sonra da üç baş diplomat danışıqlara qoşulublar. Soçidə olan həmsədrlər müzakirələrə qatılmayıblar. Görüşdən sonra prezidentlər və XİN-lərin KİV-lərlə ünsiyyəti olmayıbdır. Rusiyanın XİN-i S.Lavrovun qısa məlumatında baza prinsiplərinə dair sənədin preambulasının razılaşdırıldığı və danışıqların konkret məcraya daxil olduğu bildirilibdir. Bir qədər sonra Rusiya XİN-i danışıqlar barədə rəsmi məlumat yayıbdır. Müzakirələrin rəsmi hissəsi əməli nəticəsiz yekunlaşıbdır. Görüşüm qeyri-rəsmi qismində prezidentlər dağ xizək kompleksində olublar. Sonda isə Adler aeroportunun VİP salonunda İ.Əliyevlə S.Sərkisyanın həmsədrlərin iştirakı ilə görüşü də keçirilibdir.

"Krasnaya polyana"dakı "Qarabağ danışıqları"nın yekunları ətrafında da müxtəlif mülahizə və rəylər yaranmışdır. Onların başçıları aşağıdakı tezislərlə ifadə edilə bilər:

- tərəflərin özləri üçün qəbul edilməz saydıqları bəndlərə yenidən baxmağa (redaktəyə) razılıq vermələri "hər şey razılaşdırılmayana qədər heç nə razılaşdırılmır" prinsipi əsasında aparılan danışıqların əsas nailiyyəti hesab olunur;
- münaqişənin nizamlanma şərtlərinə dair ümumi anlaşma var və tərəflər danışıqların davam etdirilməsində maraqlıdırlar;
- müzakirələrin Rusiyanın vasitəçiliyi ilə aparıldığını və ABŞ-ın yenə də "qapı arxası"nda saxlanıldığını nümayiş etdirmək məqsədilə təşkil olunan Soçi görüşündə dönüş ya-

ranmayıbdır;

- razılaşdırılan preambulanın "sirri"nin sonradan "açıqlanması" sənəddə heç nəyin razılaşdırılmadığını və formal səciyyəli bəzi fikirlərin ifadə olunduğunu təsdiqləyibdir. "Kommersant" qəzetinin diplomatik mənbələrdən "qopardığı" məlumatlarsa preambulada DQ-nin gələcəkdə danışıqlarda birbaşa iştirakının mümkünlüyündən də bəhs olunduğunu iddia edir;
- Kremlin Soçi danışıqlarını uduzduğunu bildirənlərlə yanaşı, Rusiyanın vasitəçiliyinin qalacağını və müzakirələrin davam edəcəyini uduş sayanlar da vardır. Prezidentlər səviyyəsindəki üçtərəfli formatın 2010-cu ilin mayında Moskvada faşizm üzərində qələbənin 65 illiyi və iyununda isə Peterburqda növbəti iqtisadi forum çərçivəsində işə Salınacağı da sirr deyil;
- Rusiyanın təşəbbüsü ilə keçirilən üçtərəfli Qarabağ danışıqlarında (Moskva, Soçi və s.) Kremlin məqsədi Azərbaycanı onun müstəqilliyinə son qoyacaq işlərə məcbur etməkdən ibarətdir (Yəni "Qarabağ məsələsi"nin AR-in KTMT-yə qoşulması, enerji ehtiyatlarını Rusiyaya təhvil verməsi və digər şərtlərin gerçəkləşməsinin qarşılığında həll edilməsi);
- Ermənistan XİN-in "münaqişənin həllində 2010-cu ildən heç nə gözləməyin" xəbərdarlığı (hədəsi) müəyyən ümidlər bəslənilən Soçi danışıqlarını da "növbəti təbii nəticəsiz görüş" seriyasına daxil etməyə əsas verir.

ATƏT-in "Dağlıq Qarabağ münaqişəsi"nin həlli sahəsindəki fəaliyyətinə dair təhlilləri yekunlaşdırarkən aşağıdakıları da qeyd etmək lazım gəlir. Yəni ki, təşkilatın nizamlama səyləri nəticəsiz qalmışdır. Bu, **"labüd" nəticəsizliyə isə bir sıra amillər** ciddi təsir göstərmişdir:

- təcavüzkarların hərbi uğuru siyasi-hüquqi nəticə ilə tamamlamaq planı;
- konsensus prinsipi;
- həmsədrlərin "ikili standartı" (ard-arda Ermənistana güzəştlər və Azərbaycana yeni – ilkin şərtlər);

- işğalçıya, sülh prosesini ləngidən (əngəlləyən) tərəfə sanksiyalar tətbiqetmə mexanizminin yoxluğu;
- Dağlıq Qarabağın erməni icmasını tərəf kimi tanıtdırmaq səyləri.

Çoxsaylı şəhərlərdən (dövlətlərdən) start götürən danışıqlar seriyasının uğursuzluğu Azərbaycan cəmiyyətində dəfələrlə bir sıra **təkliflərin** ortaya çıxmasını şərtləndirmişdir:

1) Sülh prosesinin dayandırılması və danışıqların kəsilməsi. Bu kontekstdə də Minsk Qrupundan imtina və ya həmsədr dövlətlərin dəyişdirilməsi, müzakirələrdə sıfır variantına qayıdılması. V.Quluzadə və digər politoloqlarımızsa mövcud beynəlxalq şəraitdə MQ-dən imtinanı və həmsədrlər dövlətlərin hər hansı bir şəkildə əvəzlənməsini əsla real və sərfəli saymırlar. Belə bir şəraitdə yenə də ATƏT-in sülhyaratma missiyasına ümidlərin bərpasına çalışılması və təşkilatın potensialından istifadə olunması istənilir.

2) Münaqişənin dondurulmuş şəkildə saxlanılması ("konservləşdirilməsi"). Bu halda bütün postsovet ərazi-etnik münaqişələrinin, o cümlədən də "Dağlıq Qarabağ problemi"nin həllinə yönəlik səylərdəki ümumi yanaşmanın, yəni siyasi səviyyədə tənzimləmənin ictimaiyyətlərin (xalqların) iştirakı olmadan yetərsizliyi (nəticəsizliyi) əsas götürülür. Bəzi ekspert-analitiklərə (Ə.Abasov və b.) görə, hətta ağlasığmaz halda, yəni xalqların təklif olunan sülh müqaviləsi ilə razılaşdıqları bir şəraitdə münaqişənin ikinci mərhələsi, yəni həmsədrlərin: Rusiya, ABŞ, Fransanın (Aİ-nin) maraqlarının birbaşa toqquşması dönəmi başlaya bilər (Həmin maraqlar münaqişənin həllinin hər hansı bir planına regionda öz geosiyasi dominantlığının təminatı vasitəsi kimi yanaşır). Belə bir durumda münaqişənin yeganə-real-ədalətli-qəti həlli yolu qalır: xalqların öz ölkələrində şəraiti demokratik islahatlarla dəyişdirməklə, başqa sözlə, xarici qüvvələrin müdaxiləsi olmadan əməkdaşlıq və qarşılıqlı etimad yoluna gəlmələri. Azərbaycanın münaqişənin bundan sonra daha 15 və çox il ərzində dondurulmuş vəziyyətdə saxlanma-

sı ilə razılaşmaması **AR prezidentinin "Euronews" telekanalına müsahibəsində (II.2010)** təkrarən bəyan edilmişdir. İ.Əliyev bölgənin müstəqilliyinə aparacaq heç bir mexanizmin qəbul edilməyəcəyini bildirmişdir. O habelə Dağlıq Qarabağa aralıq statusunun verilməsini və bundan sonra yekun statusun müəyyənləşdirilməsini mümkün saymışdır.

3) Münaqişənin hərbi yolla həlli. Bu zaman belə bir müddəaya istinad edilir ki, vasitəçilərin nəyin bahasına olursa-olsun ***yeni* ("2-ci Qarabağ") müharibəsinin** *başlanmasına* imkan verməmək naminə çalışmaqla kifayətlənmək xətti (prinsipi) yetərsizdir. "Nə sülh, nə müharibə" şəraiti həm münaqişə qurbanlarına, həm də onun oyunçularına, yəni bəşəriyyətin bu (ərazi-etnik münaqişələr) "xəstəliyinə qarşıpanaseyanın tapılmasınadək problemin real (ədalətli) həllini sonsuzluğa qədər təxirə salaraq donduran"qüvvələrə də sərfəli deyildir. Problemin hərbi yolla çözülməsi ilə bağlı da nonsens şərait mövcuddur.

Bir yandan, "Madrid sənədi" və, xüsusilə də, "Moskva Bəyannaməsi" Ermənistan-Azərbaycan münaqişəsinin hərbi yolla tənzimlənməsi yolunu istisna edir. Digər tərəfdən də, beynəlxalq hüququn norma və prinsipləri, habelə BMT-nin Nizamnaməsi işğala məruz qalan dövlətə (indiki halda AR-ə) itirilmiş torpaqlarını hərbi yolla qaytarmaq və, beləliklə də, ərazi bütövlüyünü təmin etmək imkanı verir (Yeri gəlmişkən, **ABŞ MKİ-nin direktoru** 2010-cu ilin fevralında verdiyi açıqlamalarından birində **Azərbaycanla Ermənistan arasında müharibənin yenidən başlanması ehtimalı barədə xəbərdarlıq** edibdir).

Avropa Şurasının strukturlarında "Dağlıq Qarabağ müzakirələri"

"Köhnə dünya"nın stajlı təşkilatlarından sayılan və BMT ilə İKT-nin ardınca Ermənistanı işğalçı kimi tanıyan üçüncü mötəbər təşkilat – Avropa Şurası da "Dağlıq Qarabağ problemi"nin həlli məsələlərinə diqqət yetirir. AŞ-nin münaqişənin

tənzimlənməsinə dair səyləri onun ayrı-ayrı strukturlarının müxtəlif tədbirlərində ifadə olunur. Bu cəhətdən bir sıra məsləhətləşmələri, seminarları, bəyanatları, qətnamələri, Dağlıq Qarabağ üzrə məruzəçilərin münaqişə bölgəsinə səfərləri və s. qeyd etmək mümkündür.

AŞ strukturlarının münaqişə ilə bağlı mövqeyinə dair ilk açıqlama qurumun təşkilata üzv olmayan ölkələrlə əlaqələr Komitəsinin bəyanatında (5.II.1992) əks edildi. Həmin bəyanatda *özünə yer alan başlıca fikir* və təkliflər bunlar idi: münaqişə tərəflərinin hərbi əməliyyatların dayandırılması və problemin sülh yolu ilə həllinə üstünlük vermələri, BMT TŞ-nin Ermənistanın tələbinə əsasən (?!-İ.M.) DQ-yə beynəlxalq sülhməramlı qüvvələrini göndərməsi. Bu sənədin ardınca AŞ-nin rəhbər orqanının, yəni Nazirlər Komitəsinin (NK-nin) bəyanatları açıqlandı. **NK-nin birinci bəyanatı (12.III.1993) əsasən tərəfsiz səciyyəli** idi. Sənəddə əsas diqqət bölgədə hərbi qarşıdurmanın genişlənməsinin yaratdığı təşviş, DQ-nin azərbaycanlı əhalisinə qarşı törədilən zorakılıqların pislənməsi, münaqişənin *zor gücünə nizamlanmasının* yolverilməzliyi, sərhədlərin toxunulmazlığı, yaxud dinc yolla-qarşılıqlı razılaşma əsasında dəyişdirilməsi və s. məsələlərə yönəldilmişdi.

AŞ NK-nin digər bəyanatı (16.IV.1993) isə münaqişənin daha da dərinləşməsi ilə bağlı verildi. Onun **obyektiv tərəfləri:** BMT TŞ sədrinin hərbi əməliyyatlara son qoyulmasına aid çağırışının dəstəklənməsi; bölgədə sülhə təhlükə yaradan silahlı qüvvələrin oradan çıxarılması. Sənədin **səthi yanaşma səciyyəli məqamları:** Kəlbəcər rayonunda döyüş əməliyyatlarının güclənməsi səbəblərinin açıqlanmaması; adıçəkilən ərazinin işğalından əsla bəhs edilməməsi; regionda sülh üçün təhlükə yaradan qüvvələrin kimə məxsusluğunun və onun tərkibinin qeyd olunmaması; işğal-təcavüzkar məsələsinin üstündən tamamilə yan keçilməsi, Ermənistanın adının belə çəkilməməsi və s.

Təşkilata üzv olmayan ölkələrlə əlaqələr Komitəsi həm münaqişə tərəfləri ilə müzakirələrin keçirilməsinə çalışdı və

həm də bölgəyə təmsilçilərini göndərdi. Strasburqda 1994-cü ilin yanvarındakı müzakirələr AR-in və DQ-nin azərbaycanlı icmasının nümayəndələrinin iştirakı olmadan aparıldı. Belə bir hala da DQ-nin erməni icmasının münaqişə tərəfi kimi görüşə dəvət edilməsi səbəb oldu. Həmin ilin iyulunda Strasburqda baş tutan görüşə qatılan AR nümayəndə heyəti ermənilərin ölkəmizə qarşı ərazi iddiaları, hərbi təcavüzü və bu aktın nəticələri kimi məsələləri önə çəkdi. Bu komitənin sədri D.Atkinsonun başçılığı ilə AR-ə səfər (XI.1994) zamanı Ermənistanın Azərbaycana hərbi təcavüzünün nəticələrinin aradan qaldırılmasının yolları və vasitələri nəzərdən keçirildi. Üzv olmayan Avropa ölkələri ilə əlaqələr Komitəsinin Strasburqda keçirdiyi (26.I.1996) "Zaqafqaziyada münaqişələrə dair" seminar da faydalı tədbirlər sırasına daxil edilə bilər.

AŞ strukturlarının münaqişə ilə bağlı sənədləri sırasında **üç qətnamə** mühüm yer tutur. **İlk belə qətnamə AŞ PA** tərəfindən qəbul edilmişdir (10.XI.1994). Altı bəndlik "Dağlıq Qarabağda münaqişəyə dair" 1047 saylı bu qətnamə bir çox cəhətlərdən diqqəti çəkir. O, AŞ-nin münaqişə ilə bağlı ilk hüquqi-siyasi sənədi olması baxımından qiymətləndirilə bilər. Sənəddə atəşkəsə (12.V.1994) nisbətən yaxşı riayət olunduğu qeyd edilir. Habelə BMT TŞ-nin, ATƏM MQ-nin, MDB PA-nın, Rusiyanın (?!-İ.M.), AŞ-nin adı az öncə çəkilən Komitəsinin müharibə edən tərəfləri sülh müqaviləsini imzalamağa inandırmaq cəhdləri vurğulanırdı. 5-ci bənddə isə maraqlı tərəflərin parlament nümayəndələri arasında dialoqun həvəsləndirilməsinə yardıma hazırolma öz əksini tapmışdı.Amma bəyanatda diqqəti ən çox məsələlərə **səthi (birtərəfli) yanaşma** cəlb edir. Belə ki, orada:

- münaqişənin "20 min nəfərin ölümünə və 1 milyondan artıq adamın qaçqın olmasına gətirib çıxarması" kimi məchul (mücərrəd) dəyərləndirmə ilə təcavüzkarın kimliyi, daha çox itki verən tərəf göstərilmirdi;
- konflikt DQ çərçivəsi ilə məhdudlaşdırılır və Ermənistanın

işğallarının miqyasının genişlənməsi, yəni 7 rayonumuzun tutulması qeyd olunmurdu;
- "müharibə edən tərəflər" açıqlanmırdı;
- Ermənistan və Azərbaycan Müdafiə nazirlərinin, Dağlıq Qarabağ ordu komandanının atəşkəsin gözlənilməsi öhdəliyi və siyasi müqavilənin imzalanmasının sürətləndirilməsi barədəki sazişinin (26.VI.1994) qeyd olunmasıyla DQ münaqişə tərəfi kimi təqdim edilirdi;
- "müharibə edən tərəflərin 1251 saylı tövsiyəyə uyğun olaraq birinci dərəcəli vacib iş kimi qaçqınların doğma torpaqlarına qayıtmaları üçün şərait yaratmaları və azlıqların hüquqlarına hörmət etmələri" kimi ümumi (tam da açıqlanmayan) fikirlər özünə yer alırdı;
- Azərbaycanla Türkiyənin Ermənistana qarşı kommunikasiyaların blokadasına son qoymalarına çağırış kimi birtərəfli yanaşma vardı.

AŞ PA-nın "Zaqafqaziyada münaqişələrə dair" 1119 saylı qətnaməsində də (22.IV.1997) Ermənistan-Azərbaycan konflikti ilə bağlı məqamlara toxunulurdu. 11 bəndlik qətnamədə ümumi məsələlərlə yanaşı - "B) Dağlıq Qarabağ barəsində" – başlıqlı bölümdə bu münaqişə ilə əlaqədar problemlərə yer ayrılmışdı. Ümumi səciyyəli problemlərin və "Dağlıq Qarabağ münaqişəsi"nə dair məsələlərin **başlıca tezisləri** belə formulə oluna bilər:

- münaqişələrin siyasi yolla nizamlanmasına ümid;
- Zaqafqaziya dövlətlərinin münaqişələrin tənzimlənməsinə yönəldilmiş əsl siyasi iradəsi və onların AŞ-yə qəbulu prosedurasını sürətləndirməsi;
- etnosiyasi konfliktlərə cəlb olunmuş bütün tərəflərin BMT, MDB və ATƏT-in yerlərdəki vasitəçilik fəaliyyətində əməli iştirakı;
- siyasi yolla nizamlamanın münaqişələrin bütün tərəfləri ilə razılaşdırılmasının başlıca prinsipləri: sərhədlərin pozulmazlığı; regionun bütün xalqlarının əsasən çoxmillətli sülh-

yaratma qüvvələri tərəfindən təmin edilən təhlükəsizliyi; bütün tərəflərin geniş muxtariyyət statusu barədə razılaşması; qaçqın-köçkünlərin geri qayıtma hüququ və onların yenidən inteqrasiyası;

- Ermənistan və Azərbaycan parlamentarilərinin davam edən dialoqunun və Minsk Qrupunun yenidən fəaliyyətə başlamasının bəyənilməsi;
- qarşıdurmanın bütün tərəflərinin *işğal olunmuş ərazilərin* azad edilməsi, qaçqınlarla köçkünlərin geri qayıtması və DQ üçün qənaətbəxş alternativ (?!-İ.M.) status, təhlükəsizliyə təminat yaradılması məqsədilə birbaşa danışıqlar aparmaları;
- Güney Qafqaz dövlətləri birliyinin və Parlament Assambleyasının yaradılmasının mümkünlüyü məsələsinə baxılması.

İşğalçı ilə (Ermənistanla) təcavüzə məruz qalanın (Azərbaycanın) eyni vaxtda AŞ-yə qəbul edilmələri bu təşkilatın onlar arasındakı münaqişənin tənzimlənməsinə yönəlik səylərini müəyyən qədər intensivləşdirdi. AŞ NK-nın, 43 dövlətin Xarici İşlər nazirlərinin iştirakı ilə keçirilən, növbədənkənar 108-ci iclasındakı müzakirələrin nəticəsi olaraq qəbul edilən rəsmi məlumat AR üçün çox dəyərli idi. Orada yazılırdı ki, "AŞ Avropa dövlətlərinin beynəlxalq səviyyədə tanınmış sərhədlərini, müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləyir" (Sözgəlişi, Ermənistan XİN-i həmin sənədin bu bəndi ilə razılaşmadığına dair rəsmi bəyanat verdi. Ancaq bəyanatı heç bir dövlət dəstəkləmədi). AŞ PA-nın sessiyalarından birində qəbul edilən (24.IX.2001) sənəddə Azərbaycanın ərazi bütövlüyü tanındı. Onun digər bir sənədində isə (27.VI.2003) **Ermənistanın torpaqlarımızı işğal etməsi faktı ilk dəfə olaraq rəsmən açıqlandı.**

2001-ci ilin mayında AŞ PA-nın Miqrasiya, Qaçqınlar və Demokratiya Komitəsi Güney Qafqaz dövlətlərinin təmsilçilərinin iştirakıyla Bakıda "Cənubi Qafqazda qaçqınlar və məcburi köçkünlər" mövzusunda konfrans keçirdi. Bu toplantıda qaçqınlar probleminin işğala məruz qalmış AR üçün yaratdığı çə-

tinliklər açıqlandı. AŞ PA-nın sədri lord R.Conston regiona turnesi (IX.2002) zamanı Ermənistan parlamentindəki çıxışında "Dağlıq Qarabağ hökuməti"ni işğalçı rejim kimi səciyyələndirdi. Habelə orada keçirilən qeyri-legitim seçkilərin nəticələrinin tanınmayacağı bildirildi. AŞ-nin Dağlıq Qarabağ üzrə məruzəçisi T.Devisin regiona səfəri (IV.2003) oldu.

AŞ PA-nın daha bir, yəni 1416 saylı qətnaməsi (I.2005) qəbul edildi. Bu strukturun sayca 3-cü (hələliksə sonuncu) qətnaməsində də önə çəkiləsi və üzərində dayanılası məsələlər çoxdur. Onların **əsas məqamlarını** aşağıdakı konkret müddəalarda ifadə etmək olar:

- AŞ-nin bir üzvünün digər üzv dövlətin ərazisini işğalda saxlaması (Təşkilata qəbul zamanı götürülən öhdəliyin pozulması). Azərbaycanın ərazisinin xeyli hissəsinin Ermənistanın silahlı qüvvələrinin işğalı və DQ separatçılarının nəzarətində olması;
- müstəqil (?!-İ.M.) və regional ərazilərin dövlətdən ayrılmasında güc deyil, ərazi əhalisinin demokratik şəkildə ifadə olunmuş iradəsinə üstünlük verilməsi;
- qaçqınların qayıtması;
- BMT-nin məlum qətnamələrinə əməl olunması;
- atəşkəsin davamlılığı və Ermənistanla Azərbaycanın AŞ-yə qəbul zamanı münaqişənin dinc yolla həllinə dair götürdükləri öhdəliklərə əməl olunması;
- Minsk Qrupunun səylərinin artırılması və ona üzv ölkələrin nümayəndə heyətlərinin rəhbərlərindən ibarət xüsusi komitənin təşkili (Onun mahiyyəti açıqlanmır);
- kompromislər (konsensus) axtarışı;
- Azərbaycan hakimiyyətinin DQ-nin statusu ilə bağlı erməni icmasıyla ilə qeyd-şərtsiz danışıqlara başlaması (Vilayətin azərbaycanlı icmasındansa heç söhbət getmir);
- konflikt tərəflərinin mətbuatındakı qarşılıqlı nifrət və düşmənçilik mövqeyindən çəkinmə;
- "Xalq diplomatiyası"nın gücləndirilməsi (Ermənistan və

Azərbaycanda bu məsələdə birmənalı mövqe yoxdur);

- münaqişə tərəfləri arasında qarşılıqlı etimadın yaradılmasının dəstəklənməsi;
- problemin həlli mexanizminin axtarışının davam etdirilməsi.

Ermənilər AŞ PA-da dəfələrlə Azərbaycanın ədalətli mövqeyinə qarşı çıxdılar. Bununla bağlı qurumda hətta bəzi siyasi qalmaqallar da yaşandı. Məsələn, erməni lobbisi Kosovo presedentindən yararlanmağa çalışaraq AŞ PA-nın plenar iclasında (22.I.2008) "DQR"-in tanınması məsələsini qaldırmağa cəhd göstərdi. 2009-cu il dekabrın 14-də AŞ PA Bürosunda təşkilatın Parlament Assambleyasının Dağlıq Qarabağ münaqişəsi barədə vaxtılə (I.2005) qəbul etdiyi 1416 saylı qətnamənin icrası müzakirəyə çıxarıldı.

AŞ-nin "Dağlıq Qarabağ münaqişəsi"nin həllinə dair fəaliyyətindən bəhs edərkən son vaxtlarda vaxtaşırı gündəmə gətirilən bir məsələyə də diqqət yetirmək lazımdır. Belə ki, münaqişənin ATƏT-in vasitəçiliyi ilə nizamlanması səylərinin nəticəsizliyi onun AŞ-nin sülhyaratma missiyası ilə tənzimlənməsinə dair təklifləri ortaya çıxarmışdır.Yəni problemin həllinin vaxtilə BMT-dən ATƏT-ə ötürüldüyü kimi, indi də AŞ-yə ötürülməsi ətrafında bəzi cəhdlər mövcuddur.

Avropa İttifaqı və Ermənistan-Azərbaycan münaqişəsi

Dağlıq Qarabağ münaqişəsinin dinc yollarla həlli məsələsi Aİ-nin də diqqət mərkəzindədir. Bunu həmin təşkilatın bəzi sənədləri (bəyanatlar və s.) də təsdiqləyir. Hələ 1993-cü ildə (7.IV;3.IX; 9.XI) qəbul edilən **üç bəyanatda** onun münaqişəyə dair mövqe və yanaşması açıqlandı. Digər qurumların müvafiq sənədləri kimi, Aİ-nin bu bəyanatları da **müəyyən obyektiv dəyərləndirmə hallarına,** habelə **bir sıra qüsurlu cəhətlərə** də malik idi.

Aİ-nin münaqişə ilə bağlı **obyektiv yanaşma və mövqeyi** həmin bəyanatlardakı bu kimi müddəalarda ifadə edilmişdi:

a) Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağ üstündə münasibətlərin pisləşməsindən təşviş. Həmçinin Kəlbəcər və s. ərazilərdə hərbi əməliyyatların genişlənməsindən təəssüflənmə;

b) Dağlıq Qarabağın yerli erməni qüvvələrinin Azərbaycan ərazisinin içərilərinə doğru getdikcə daha çox hücum etməsinin Birlik tərəfindən pislənməsi. Habelə bu cür hərəkətlərin getdikcə daha çox Azərbaycan ərazisini əhatə edən silahlı münaqişənin sərhədlərini genişləndirməsi, AR-də qaçqınlarla bağlı ciddi problem yaratması və bunlarla da qonşu dövlətlərin məhəlli təhlükəsizlik üçün daim artan qorxudan münaqişəyə cəlb edilmələrinin vurğulanması;

c) BMT TŞ-nin qətnamələrinə əməl olunacağına ümid və bölgə dövlətlərinin (AR də daxil) ərazi bütövlüyü, suverenliyi prinsiplərinin təsdiqi (Bunlara əsasən də yerli erməni qüvvələrinin öz qoşunlarını Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarından çıxarmaları tələb olunurdu);

d) Minsk Qrupunun münaqişənin siyasi vasitələrlə nizamlanmasına, Dağlıq Qarabağın hakimiyyət orqanları ilə Azərbaycan hökuməti arasındakı qərara (31.VIII.1993) əsasən əldə olunan atəşkəsin möhkəmləndirilməsinə dair səylərinin dəstəklənməsi (Həm də ikitərəfli dialoqun əlavə formasına başlanılması çağırışı);

e) qaçqınlar probleminin münaqişənin beynəlxalq miqyas alması təhlükəsini artırması və bütün regionun sabitliyinə qorxu törətməsi (Bununla bağlı zərər çəkmiş əhaliyə humanitar yardımın davam etdiriləcəyi bildirilir).

Bəyanatların qüsurlu cəhətlərinə gəldikdə isə həmin sənədlərdə:

- münaqişənin kökləri və səbəbləri, qəsbkarın kimliyi açıqlanmır və Ermənistanın ölkəmizə təcavüzü birmənalı göstərilmirdi;
- "Dağlıq Qarabağın yerli erməni qüvvələri", "Ermənistanın DQ ermənilərinə öz həlledici təsirindən istifadə etməsi və

yerli erməni qüvvələrinə Azərbaycan ərazilərinə hücumları genişləndirmək üçün maddi vasitələr verməyəcəyini təsdiq etməsi" və s. fikir-ifadələrlə münaqişənin əsl mahiyyətinin açıqlanılmasından yayınılırdı;

- bunlarla da Ermənistan münaqişə tərəfi kimi deyil, neytral subyekt olaraq qəbul edilirdi (Bu isə onunla DQ-nin ayrıca tərəflər olmaları anlamına gəlir).

Münaqişə ilə əlaqədar məsələlər Avropa Parlamentindəki bir sıra məsləhətləşmələrin də mövzularından olmuşdu. AP-nin "erməni soyqırımı"nın tanınmasına dair qətnaməsi Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesinə də təsirsiz ötüşmədi. Belə bir təsirin nəticələri özünü Avropa İttifaqı — Türkiyə münasibətlərində "Azərbaycan amili" məsələsində açıqca göstərdi. Aİ-nin "Yaxın (Yeni) Qonşular Siyasəti"nin (proqramının) elanı da "Dağlıq Qarabağ problemi"nin həlli ilə bağlı bəzi yeni məqamları ortaya çıxardı. Bu iki məsələnin ayrı-ayrı tərəfləri Avropa Parlamentinin sənədlərində, yəni **"Ostlander layihəsi" və "Qarton məruzəsi"ndə** açıqlandı. Həmin açıqlamalarda ifadə olunan **mülahizə-təklif-dəlillər** isə bu şəkildə ümumiləşdirilə bilər:

1-cisi, layihə və məruzədə Türkiyənin "Dağlıq Qarabağ problemi"nin həlli ilə bağlı tutduğu mövqe Aİ-nin "Yaxın Qonşular Siyasəti" kontekstində nəzərdən keçirilirdi. AP üzvləri A.Ostlanderlə P.Qartonun təhlilləri əsasında Türkiyənin həm də Azərbaycana görə Ermənistanla əlaqələr qurmaması və onu çoxtərəfli təcridolunma şəraitində saxlaması qənaətinə gəlmişdilər.

2-cisi, Qərbdəki araşdırma – təhlillərə görə, Aİ-nin Şərqə doğru genişlənməsi perspektivinin və onun "Yeni Qonşular Siyasəti"nin uğurunun yollarından biri də Rusiya-Ermənistan-İran "üçlüyü"nün pozulmasından keçir. Yəni Ermənistanın birmənalı olaraq Qərbə (Avropa ilə ABŞ-a) üztutması və onların təsiri altına salınması lazım gəlir. Bu missiyada aparıcı yerlərdən biri də Türkiyəyə ayrılmışdır. Bunun üçünsə rəsmi

Ankaranın Ermənistanla bağlı öz şərtlərindən, o cümlədən də onun işğal etdiyi Azərbaycan torpaqlarını qeyd-şərtsiz qaytarması tələbindən imtinası istənilir.

3-cüsü, rəsmi İrəvanla yaxınlaşma Türkiyəyə bir sıra üstünlüklər və imkanlar verə bilər: regionda nüfuzun artması, statusun genişlənməsi və Ermənistana təsir imkanları; Türkiyə və Güney Qafqaz dövlətlərinin vahid iqtisadi məkan perspektivi; Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasının sürətlənməsi yolu və s. (Hərçənd ki, bunların əksəriyyəti qeyri-real görünür və əksəriyyət diplomat-politoloqlar tərəfindən mümkün hesab olunmur).

Aİ (AP-nin) "Azərbaycanın beş rayonunun açılması= kommunikasiya probleminin həllinə" formulu ilə rəvac verilən "Türkiyə-Ermənistan yaxınlaşmasının zərurəti" müddəası çoxlu fərqli reaksiya-rəylər yaratmışdır. Bu kimi məsələlər elə Türkiyə siyasəti və cəmiyyətində yanaşma-mövqelərin bölünməsinə səbəb olmuşdur. Baş nazir R.T.Ərdoğan hələ ABŞ-ın G.Marşall Fondu tərəfindən Ankarada keçirilən beynəlxalq konfransda (VI.2004), həmin ildə Vaşinqtona və Parisə rəsmi səfərlərində verdiyi açıqlamalarda "Ermənistanla münasibət yaratmaqdan imtina etmirik" fikrini söyləməklə yanaşı, bunun üçün tələb etdikləri üç şərtdən birini, yəni Azərbaycan torpaqlarının qeyd-şərtsiz boşaldılmasını xatırlatmamışdı. Digər yandan da, o habelə Almaniyada Ermənistanın o vaxtkı Xarici İşlər naziri V.Oskanyana kəskin şəkildə "Qarabağdan çıxın" demişdi. Prezident A.Güllə S.Sərkisyanın iki taymlı "futbol diplomatiyası" ilə təkan alan "Türkiyə-Ermənistan yaxınlaşması müzakirələri" belə bir taleyüklü (tarixi məsuliyyətli) prosesin-aktın lehinə və əleyhinə xeyli sayda dəlilləri ortaya çıxarmışdır (Burada onlardan yalnız "Dağlıq Qarabağ problemi" ilə bağlı olanlara yer ayrılması lazım gəlir. Türkiyə-Ermənistan münasibətlərinə dair protokollarla bağlı məsələlər geniş şəkildə altıncı bölümdə şərh olunur).

Ermənistanla münasibətlər yaradılmasını və sərhədlərin

açılmasını **məqbul (zəruri) sayanların dəlilləri:**

- ikitərəfli əlaqələrin qurulmasında işğal edilən Azərbaycan torpaqlarının azad edilməsinin ön şərt kimi irəli sürülməsi özünü doğrultmamış və müsbət (əməli) nəticə verməmişdir. (Sözgəlişi, "Dünden Bugune Tezcüman" qəzetinin məlumatına (10.V.2004) görə, hətta hələ 1985-ci ildə Baş nazir T.Çillərin AR-ə rəsmi səfəri zamanı onun "beş bölgənin azad olunması əvəzində Türkiyə-Ermənistan sərhədlərinin açılması" təklifi Azərbaycan tərəfindən qəbul edilmişdi. Habelə NATO-nun İstanbul Sammitində (2004) sərhədlərin açılacağının bəyan ediləcəyinə dair təsdiqlənməmiş məlumatlar da yayılmışdı);
- sərhədlərin açılması blokada spekulyasiyalarına son qoyar və bununla da Türkiyənin Minsk Qrupunun həmsədrliyinə gəlişini asanlaşdırar;
- Türkiyənin Azərbaycana yardımının bir yolu da Ermənistanla münasibətlər yaradılmasından keçir. Belə ki, sərhədlərin açılması Ermənistanın Rusiyanın təsirindən çıxmasını, nəticə etibarı ilə də "Qarabağ problemi"nin həllini sürətləndirə bilər və s.

Ermənistanın məlum üç şərtə əməl etməməsi şəraitində onunla münasibətlər yaradılmasını (sərhədlərin açılması və s.) **yanlış-təhlükəli hesab edənlərin əks dəlilləri:**

- Türkiyə ilə münasibətlər yaradılması Ermənistanın mövqelərini möhkəmləndirər və,beləliklə də, onun "Dağlıq Qarabağ münaqişəsi"ni öz xyrinə həll etməsinə (yaxud da, nizamlamanı xeyli yubatmasına) şərait yaradar;
- "Dağlıq Qarabağ problemi" həll edilməmiş sərhədlər açılmamalıdır və sərhədlər açılarsa, "Qarabağ məsələsi" həll olunmaz;
- sərhədlərin açılması bu, iki türk dövlətinin ciddi siyasi-diplomatik uğursuzluğu olar;
- Ermənistanla "dostluq və əməkdaşlıq" qardaş Azərbaycanın itirilməsi anlamına da gələ bilər və s.

Bu məsələ ilə bağlı Azərbaycanda rəsmi dairələrin qənaətləri və politoloji təhlillər də üst-üstə düşür. Bunu, bir tərəfdən, İ.Əliyevin hələ bir neçə il əvvəl söylədiyi "Türkiyə Ermənistanla sərhədləri açsa, Dağlıq Qarabağ probleminin həlli imkanı sıfıra enəcək" mülahizəsi təsdiqləyir. Digər yandan da, diplomat-politoloqlardan bir çoxu belə hesab edir ki, Türkiyə ilə əlaqələrin yaradıldığı və kommunikasiya probleminin həll edildiyi halda möhkəmlənən Ermənistan tutduğu Azərbaycan torpaqlarını qaytarmayacaqdır; sərhədlərin açılması AR üçün Dağlıq Qarabağın de-yure itirilməsi demək olardı, habelə Türkiyə-Azərbaycan münasibətlərində silinməz mənfi izlər qoya bilərdi və s.

Bəzi beynəlxalq araşdırma mərkəzlərinin təhlilləri isə Ermənistanın Aİ-nin "beş rayon əvəzinə kommunikasiya xətlərinin açılması" təklifi ilə bir ara razılaşdığı qənaətini ortaya çıxarmışdı. Beynəlxalq Valyuta Fondunun hələ 2003-cü ilə dair hesabatında qeyd olunduğu kimi, Ermənistanın illik Ümumi Daxili Məhsulunun həcmi yalnız "kommunikasiya problemi"nin həlli hesabına 30% arta bilər.

Aİ-nin "Dağlıq Qarabağ münaqişəsi"nin tənzimlənməsinə dair mövqeyi və fəaliyyəti ilə əlaqədar məsələdə maraqlı dairələrdə müəyyən müzakirələrə səbəb olan bir məqam da vardır. Belə ki, Aİ ilə AR arasındakı "Fəaliyyət Planı"nda (2006) Azərbaycan tərəfinin münaqişənin hərbi yolla həllindən imtinasına aid öhdəliyi də özünə yer almışdır. "Dağlıq Qarabağ problemi"nin həlli ilə bağlı məsələlər Aİ-nin sədri, İsveçin XİN-i K.Blidtin Cənubi Qafqaz dövlətlərinə turnesi zamanı (VII.2009) aparılan danışıqlarda mühüm yer tutdu. Aİ "üçlüyü" (əvvəlki, hazırkı və sonrakı sədrlər) çərçivəsindəki bu turne-danışıqlar da əməli nəticə vermədi. E.Məmmədyarovun Nyu-Yorkda Avropa Komissiyasının xarici Əlaqələr və Avropa qonşuluq siyasəti üzrə komissarı B.Valdnerlə görüşündə (IX.2009) də müzakirə edilibdir.

Bütövlükdə isə, AR Birliyin üzv olmasa da, bu təşkilatla

dövlətimiz arasındakı münasibətlərdə "Dağlıq Qarabağ münaqişəsi"nin tənzimlənməsi məsələsi önəmli yer tutur. Burada Aİ-nin geostrateji (genişlənmə və s.), həmçinin iqtisadi (yanacaq-enerji və digər) maraqlarının üstün tutulması ilə yanaşı Birliyin həm də bir sıra münaqişələri həll etməklə öz mövqelərini gücləndirmək məqsədləri də diqqəti çəkir.

NATO və "Dağlıq Qarabağ problemi"

Özünün çoxşaxəli fəaliyyətində beynəlxalq və regional təhlükəsizliyə geniş yer ayıran NATO ərazi-etnik münaqişələrin həlli məsələlərini də diqqətdən kənarda saxlamır. Onun Balkanlarda –Yuqoslaviyadakı münaqişələrin nizamlanması sahəsində yeritdiyi siyasət (proseslərə hərbi müdaxilə yolu ilə "qazanılan Kosovo təcrübəsi") bu cəhətdən diqqətçəkicidir. (Bir sıra politoloji qənaətlərə görə, bu zaman "Ramsfeld doktrinası", yəni "münaqişələrin tənzimlənməsində uzun-uzadı diplomatik müzakirələrdənsə, çevik və ədalətli hərbi müdaxiləyə üstünlük verilməsi" əsas tutulmuşdu).

Şərqə doğru genişlənməkdə olan NATO Güney Qafqazdakı münaqişələrin, o cümlədən də "Dağlıq Qarabağ problemi"nin həllinin tərəfdarı kimi çıxış edir. Bu məqsədlə də hələ 1992-ci ilin fevralında təşkilatın qərargahında AR təmsilçiləri ilə **"ilkin Qarabağ məsləhətləşmə-müzakirələri"** aparılmışdı. NATO Şurasının Brüssel Bəyannaməsi ilə (I.1994) Cənubi Qafqaz dövlətlərinin ərazi bütövlüyü rəsmən tanınmışdı. Bəzi diplomatlar bunu qurumun münaqişələrin dinc yolla həllinə dair mövqeyi kimi qəbul edirlər.

Azərbaycanın NATO-nun irimiqyaslı genişlənməsinin "üvertura-proloqu" sayıla biləcək "SNT" proqramına qoşulması bir çox amillərlə şərtlənir. Onların sırasında "Qarabağ amili" də vardır. Yəni AR diplomatiyası bu proqrama qatılmağa həm də Ermənistanın ölkəmizə təcavüzünün nəticələrinin tezliklə aradan qaldırılmasının bir yolu (vasitəsi) kimi yanaşır. Bu zaman həm də "SNT" proqramının 8-ci maddəsində ifadə olunan belə bir müddəaya istinad edilirdi: "Hansı iştirakçı ölkə hesab etsə ki, onun ərazi bütövlüyünə, siyasi müstəqilliyinə və təhlükəsizliyinə qarşı birbaşa qorxu mövcuddur, onda NATO həmin tərəfdaşla məsləhətləşmə keçirəcəkdir".

Əvvəlki bölümdə də qeyd edildiyi kimi, NATO-nun genişlənməsi Azərbaycanda da birmənalı qarşılanmır, yəni bu sahədə *fərqli* (əksqütblü) baxışlar mövcuddur. Ancaq "NATO-nun Şərqə doğru genişlənməsi Azərbaycanın ərazi bütövlüyünün təminatının şərtidir" yanaşmasına dair mövqelər üstünlük təşkil edir. Həmin yanaşmanı Rusiyanın son vaxtlardakı bir tədbiri daha da qabartmışdır. Belə ki, MDB-yə üzv dövlətlərdən bir qismini (Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan və Ermənistanı) özündə birləşdirən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT-nin) Moskva sammitində (II.2009) onun Kollektiv Çevik Qüvvələrinin yaradılması qərara alınıbdır. Artıq həyata keçirilməkdə olan bu qərar isə KTMT-yə daxil olmayan dövlətlərdə, o cümlədən AR-də haqlı və əsaslı rahatsızlıqlar yaratmışdır. Yəni Azərbaycan artıq "yeni sovet ordusu" kimi səciyyələndirilən Kollektiv Çevik Qüvvələrin Qarabağa yeridilməsi təhlükəsi ilə üzləşə bilər. Bütün bu reallıqlarsa AR-in həm NATO-nun Şərqə doğru genişlənməsində, həm də onunla sıx əməkdaşlıqda (ona üzvlük perspektiviylə) yaxından maraqlı olmasını şərtləndirə bilər. Bəzi ekspertlərin təhlillərinə əsasən demək olar ki, NATO-nun BMT-ni əvəzləməsi perspektivinə dair mülahizələrin də (bu barədə irəlidə ətraflı bəhs olunur) respublikamızın alyansla əməkdaşlığının intensivləşməsinə təsir göstərməsi mümkündür.

Dağlıq Qarabağ münaqişəsinin həlli sahəsindəki NATO - AR əməkdaşlığı müxtəlif vasitə və formalarda həyata keçirilir. Bu işdə də respublikamızla həmin təşkilatın rəsmilərinin müzakirə və məsləhətləşmələri mühüm yer tutur. Xüsusilə də AR-in dövlət başçılarının NATO Baş katibləri (M.Verner, X.Solana,

Y.Sxeffer) ilə Brüsseldə və Bakıda keçirilən çoxsaylı görüş-müzakirələrdə "Dağlıq Qarabağ problemi"nin həlli yolları da aranmışdı. Son zamanlarda təşkil olunan birgə seminarlar, NATO rəsmilərinin regiona səfərləri və s. də münaqişə ilə bağlı məsələlərə aydınlıq gətirilməsi baxımından çox faydalı olmuşdur.

Avropanın təhlükəsizliyi kontekstindəki hazırkı "NATO fəallaşması", sübhəsiz, Güney Qafqazda sabitlik və s. təminatına müsbət təsir göstərəcəkdir. Belə bir proses də, yəqin ki, Ermənistan-Azərbaycan müharibəsinə ədalətli sülhlə son qoyulmasında təsirsiz ötüşməyəcəkdir.

Dağlıq Qarabağ münaqişəsi və İKT-nin mövqeyi

Azərbaycan Respublikasının **daxil olduğu ilk beynəlxalq qurum** (İslam Konfransı Təşkilatı) ölkəmizin üzləşdiyi problemlərə əsla biganə qalmır. Əksinə, İKT Ermənistanın Azərbaycana təcavüzünü rəsmən pisləyən və Dağlıq Qarabağ münaqişəsinin tezliklə ədalətli həllini istəyən, bu yöndə ardıcıl ciddi səylər göstərən təşkilatdır. **İlk belə bir diplomatik dəstək** İKT XİN-lərinin V Fövqəladə konfransında (İstanbul,VI.1992) verildi. Burada BMT Baş Katibi və TŞ sədrindən AR-in ermənilər tərəfindən tutulan ərazilərinin azad olunmasını tələb edən qətnamənin qəbulu istənildi. İKT-nin BMT yanındakı qrupu Kəlbəcərin işğalını pisləyən və təcavüzə son qoyulmasını zəruri sayan bəyanatla çıxış etdi.

İKT-nin Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı qəbul etdiyi sənədlər sırasında təşkilatın XİN-lərinin XXI konfransının **(Kəraçi, IV.1993) qətnaməsinin** mühüm əhəmiyyəti vardır. Həmin qətnamədə ifadə olunan **başlıca müddəa- tələb-təkliflər** bunlardır:

- Ermənistanın Azərbaycan ərazilərini işğal etməsinin (onun son hücumunun) qətiyyətlə pislənməsi və münaqişənin kəskinləşməsindən narahatçılıq;

- Azərbaycanın Ermənistanın təcavüzü ilə əlaqədar üzləşdiyi humanitar problemlərin dözülməz vəziyyəti;
- ermənilərin yeni hərbi hücumunun beynəlxalq sülhə, təhlükəsizliyə ciddi problemlər yaratması və ATƏM çərçivəsində aparılan sülh prosesinə pozucu təsir göstərə bilməsi;
- erməni qüvvələrinin işğal edilən Azərbaycan torpaqlarından təcili çıxarılması və Ermənistanın AR-in suverenliyinə, ərazi bütövlüyünə hörmət bəsləməsi;
- *Qarabağ məsələsinin dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət əsasında ədalətli sülh yolu ilə həlli;*
- etnosiyasi konfliktin tərəflərinin ATƏM-in sülh prosesində işğüzar mövqe tutmaları və problemin dinc yolla həllini çətinləşdirən əməllərdən çəkinmələri;
- Azərbaycan hökumətinin (xalqının) öz ölkəsinin müdafiəsi cəhdləri ilə tam həmrəylik;
- yaşayış yerlərini tərk edənlərin təhlükəsizlik, hörmət və qayğı ilə öz evlərinə qayıtmalarının asanlaşdırılması;
- İslam İnkişaf Bankı və digər müsəlman təsisatlarının AR-ə təcili maliyyə-humanitar yardım göstərmələrinin istənilməsi;
- BMT rəhbərliyinin TŞ-də Ermənistanın Azərbaycana təcavüzünü pisləyən və erməni qüvvələrinin işğal olunan ərazilərdən çıxarılmasını tələb edən qətnamənin qəbuluna çalışması.

Bu cür ruhda və məzmunda **digər bir qətnamə isə İKT-nin Fövqəladə sessiyasında (İslamabad, IX.1994)** qəbul edildi. Əvvəlki sənədlərdən fərqli olaraq bu qətnamədə Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan torpaqlarından "dərhal və qeyd-şərtsiz" çıxarılmaları ifadə olunmuşdu. Ermənistan-Azərbaycan münaqişəsinin diplomatik vasitələrlə nizamlanması məsələsi İKT Baş Katibi Həmid əl-Qabidin AR-ə səfəri (XI.1994) zamanı ölkə rəhbərliyi ilə aparılan müzakirələrdə də ətraflı nəzərdən keçirildi.

Təşkilatın, **AR-İKT əlaqələrində yeni (mühüm) bir mərhələ sayılan, VII Zirvə konfransı (Kasablanka, XII.1994)** "Ermənistan-Azərbaycan münaqişəsi üzrə" qətnamə qəbul etdi. Bu qətnamədə öncə erməni işğalının Azərbaycan üçün verdiyi nəticələr (yaratdığı problemlər) vurğulanırdı: ərazinin 20%-dən artığının itirilməsi; 1 milyondan çox qaçqın; humanitar durumun dözülməzliyi və s. Sonra sənəddə BMT, ATƏM, Türkiyə, İran (?!-İ.M.) və digərlərinin münaqişənin tənzimlənməsinə yönəlik səyləri göstərilirdi:

Qətnamə 11 bəndi əhatə edən dəyərləndirmə-tələb-xahişlərlə tamamlanır. Zirvə konfransının qənaətinə görə: təcavüz nəticəsində AR-in mülki vətəndaşlarına qarşı törədilənlər bəşəriyyətə qarşı cinayətdir; ərazinin zor işlətməklə əldə edilməsi tanına bilməz; dövlətlərin ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlər pozulmazdır. Qətnamədə münaqişə tərəflərinin sülh prosesini əngəlləməkdən çəkinmələri, qaçqınların beynəlxalq hüquq normaları əsasında öz yerlərinə qayıtmalarına imkan yaradılması, AR-ə humanitar-maliyyə yardımının göstərilməsi istənilir və Azərbaycanın özünümüdafiə cəhdlərinin dəstəklənməsi önə çəkilirdi.

İKT XİN-lərinin 24-cü konfransı (Cakarta,XII.1996) da "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" qətnamə qəbul etdi. Təşkilatın, əvvəlki sənədlərdə ifadə olunan, mövqe və prinsipləri bu qətnamədə bir daha təkrarlandı. **"Cakarta qətnaməsi"ndə** habelə bir sıra müəyyən qədər **yeni məqamlar** da özünə yer almışdı:

- **ilk dəfə olaraq Ermənistanın təcavüzkar elan edilməsi;**
- təşkilata üzv olan dövlətlərin AR-in ərazi bütövlüyü və suverenliyinə ehtiram göstərməsi;
- ermənilərin işğal etdikləri Azərbaycan torpaqlarının (Laçın və Şuşa daxil olmaqla) dərhal, tamamilə, şərtsiz qaytarılması;
- bütün üzv dövlətlərin Ermənistana silah, hərbi sursat verilməsindən imtina etmələri və onların ərazisindən bu kimi

yüklərin tranziti üçün istifadə olunmasına imkan verilməməsi (İranın təcavüzkara hərtərəfli yardımı kontekstində belə bir tələb çox zəruridir – İ.M.);
- Azərbaycanın ona dəymiş ziyanın əvəzini tələb etmək (almaq) hüququna malik olması və Ermənistanın zərərin qarşılığının ödənməsi üçün tam məsuliyyət daşıması və s.

Cakarta konfransında həm də İKT-nin və ona üzv olan dövlətlərin AR-ə iqtisadi-humanitar yardım göstərilməsi barədə qətnamə qəbul edildi. Toplantının Yekun sənədində isə ATƏT sədrinin (F.Kottinin) Lissabon sammitindəki məlum bəyanatının dəstəklənməsi ayrıca bəndlə ifadə olundu. Bütün bunlar təşkilatın münaqişənin tənzimlənməsi ilə bağlı mövqeyindəki ardıcıllığa, prinsipiallığa və s. sübut ola bilər.

Belə bir mövqeyə daha bir sübut isə İKT-nin VIII Zirvə konfransında (Tehran, XII.1997) qəbul edilən sənədlər oldu. **Ayrıca bir qətnamə** ilə Ermənistanın AR-ə təcavüzü təkrarən pisləndi. Başqa bir sənədin, yəni **"Tehran bəyannaməsi"nin 8-ci bəndində** məlum təcavüz faktı bir daha təsdiqləndi, Ermənistan qoşunlarının AR torpaqlarından çıxarılması istənildi və münaqişənin ləngidilmədən, dinc yollarla tənzimlənməsi çağırışı edildi. Həmin bəyannamənin 56-cı bəndində isə "F.Kottinin Bəyanatı" (onun məlum üç prinsipi) Azərbaycana təcavüzün nəticələrinin aradan qaldırılmasının təminatı kimi dəyərləndirildi. İKT-nin **Doha sammiti (XI.2000) də müvafiq qətnamə** qəbul etdi. Təşkilatın Parlament Assambleyasının Qahirədə 2008-ci ildə keçirilən sessiyasında qəbul olunan bəyannamədə isə Ermənistanın AR-in ərazi bütövlüyünə hörmət etməsi və qoşunlarını tutduğu ərazilərdən çıxarması *vacib bilindi*. **"Qahirə Bəyannaməsi"** ilə həmçinin (və yenə də təkrarən) işğal aktının tezliklə dinc yollarla aradan qaldırılması məsələsi önə çəkildi.

İKT Xarici İşlər nazirlərinin 36-cı konfransında (Dəməşq, 23-25.V.2009) müzakirə edilən 80-ə yaxın məsələ arasında Ermənistanın Azərbaycana təcavüzünün aradan qaldırılması da özünə yer almışdı. Konfrans AR-in baş diplomatı E.Məmməd-

yarovun məlumatını və məsələ ətrafındakı müzakirələri əsas tutaraq Ermənistanın ölkəmizə təcavüzünü pisləyən **üç qətnamə** etdi. Qətnamələrdə Azərbaycan torpaqlarının tezliklə və qeyd-şərtsiz boşaldılması tələb olunurdu. Təşkilatdan ölkəmizə daha bir dəstək 2009-cu ilin əvvəlində verildi. **"Bakı-İslam mədəniyyətinin paytaxtı: 2009" mədəniyyət ilinin** açılışında çıxış edən İKT Baş katibinin müavini A.Bakhit bunları bildirdi: müsəlman dünyası olaraq DQ məsələsində Azərbaycanın arxasında dayanmışıq; AR-in ərazisi olan DQ daim qorunmalıdır; Azərbaycanın ərazi bütövlüyünün tezliklə bərpası vacibdir; bunun üçün lazım olan hər şey həyata keçiriləcəkdir.

Lap son dönəmlərdə də İKT-nin Azərbaycanın haqq işinə dəstək verməsi ilə bağlı bir sıra işlər görülmüşdür. Bu baxımdan İslam Konfransı Gənclər Forumunun (İKGF-nin) "Müsəlman gənclərinin prezident **Barak Obamaya müraciəti"** adlı məktubu (IV.2009) diqqətçəkicidir. Müraciət-məktubda 1915-ci ildə Osmanlıda baş verən hadisələri "böyük fəlakət" (ifadə ermənicə söylənilmişdir: "meds yeğren") adlandıran B.Obamanın ermənilərin Vanda, Xocalıda və digər yerlərdə törətdikləri türk-müsəlman soyqırımlarına diqqət yetirməsi istənilir. İKÇF həmçinin "İKT Xatirə Günü" çərçivəsində "Xocalıya ədalət" və s. beynəlxalq kampaniyaların təşkilini planlaşdırır. İKT-nin Parlamentinin Uqandada (Kambalada) keçirilən sessiyasında (I.2010) da Ermənistan bir daha işğalçı ölkə elan olunubdur.

Ermənistanın Azərbaycana təcavüzü məsələsinə yanaşmada **İKT üzvü olan dövlətlər arasında fərqli mövqelər** də mövcuddur. Belə ki, Pakistan və Səudiyyə Ərəbistanı bu təcavüzə görə hələ də Ermənistanla diplomatik münasibətlər yaratmayıblar. İran isə AR-in mövqeyini sözdə (sənədlərdə) dəstəkləməsinə, vaxtaşırı məqsədli, uğursuz vasitəçilik missiyalarına baş vurmasına baxmayaraq, əslində Ermənistanın tərəfini tutur. Rəsmi Tehranın geostrateji maraqları, AR-in güclənməsi ehtimalından (perspektivindən) irəli gələn rahatsızlıq və s. ilə izah oluna biləcək bu tərəfdaşlıqsa hələlik İKT-nin hər hansı bir

qınağı (iradı) ilə üzləşməyibdir.(İranın Ermənistana hərtərəfli yardımını elə L.Ter-Petrosyanın bu kimi açıqlamaları da yetərincə təsdiqləyir: "Mehri dəhlizi bizim üçün oksigen deməkdir; bu yol olmasaydı Ermənistan boğulardı"və s.). Bu kimi nüanslara baxmayaraq, bütövlükdə, İKT-nin Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair səyləri təqdir olunasıdır. Ən başlıcası da, bunu əsla unutmaq olmaz ki, o, Ermənistanın ölkəmizə təcavüzünü açıq-ardıcıl və qətiyyətlə-rəsmən bəyan edən, kəskin şəkildə pisləyən **yeganə təşkilatdır**.

Ümumiyyətlə isə, xeyli sayda beynəlxalq və regional təşkilat Ermənistan-Azərbaycan münaqişəsinin həlli sahəsində müəyyən səylər göstərmişlər. Çoxsaylı səbəblər üzündən onlar hələ ki, ciddi əməli nəticələr verməyibdir. Təşkilatların münaqişənin tənzimlənməsinə "bəyanatlar və qətnamələrlə dəstək siyasəti"ndən uzağa getməyən mövqeləri "Dağlıq Qarabağ problemi"nin də yetərli stajlı hərbi-diplomatik qarşıdurmaya çevrilməsində rol oynayan amillərdən biri olmuşdur.

Xeyli proseslər (Minsk, Paris, Praqa, Vyana, Madrid və s.), münaqişənin həlli üçün elan edilən "qızıl imkan"lar, "qızıl pəncərə"lər, bir neçə "Qarabağ ili", həmsədrlərin çoxseriyalı "məkik diplomatiyası" və s. nəticəsizliyi Azərbaycanın siyasi-elmi dairələrində, bütün ictimaiyyətində ciddi, haqlı raharsızlıq, saysız-hesabsız suallar doğurmuşdur. Fikrimizcə, Azərbaycan dünya birliyinin üzvü kimi, beynəlxalq və regional təşkilatlardan onların münaqişənin həlli yönündə daha təsirli və səmərəli çalışmalarını tələb etmək haqqına malikdir. Belə bir tələbin təsirliliyinin yollarından bəziləri (yetərli iqtisadi-hərbi qüdrət, möhkəm və güclü milli birlik-vətəndaş həmrəyliyi, beynəlxalq aləmdə demokratik dövlət imici və s.) isə Azərbaycanın özündən (içindən) keçir.

ÜÇÜNCÜ BÖLÜM

AZƏRBAYCANIN "NEFT-QAZ DİPLOMATİYASI": PROBLEMLƏR, İLKİN NƏTİCƏLƏR, PERSPEKTİVLƏR

Müasir dünyada enerji təhlükəsizliyi və "neft-qaz siyasəti" məsələləri mühüm əhəmiyyət kəsb edir. Bir sıra aparıcı elm araşdırma mərkəzləri dünyada hazırda yürüdülən "neft və qaz siyasəti" ilə əlaqədar müəyyən qənaətlərə və müddəalara malikdirlər.

Beynəlxalq enerji təhlükəsizliyi problemi və neft tariximizin qısa səciyyəsi

Qlobal enerji təhlükəsizliyinə dair çağdaş elmi-siyasi **yanaşma və mövqeləri** tezisvari belə ifadə etmək mümkündür:

- beynəlxalq münasibətlərin indiki düzənində, yəni təkqütblü dünyada "neft-qaz amili"nin yeri və rolu yüksələn xətt üzrə inkişaf etməkdədir;
- neft və qaz "yeni böyük beynəlxalq oyunlar"ın qaynağıdır;
- yanacaq-enerji ehtiyatları (xüsusilə də neft və qaz yataqları) "dünyada ən böyük maddi nemət və strasteji güc mənbələri"dirlər;
- dünyada enerji-yanacaq, ələlxüsus da, karbohidrogen ehtiyatlarının azalması (tükənməsi) müxtəlif səpkili münaqişələri daha da şiddətləndirə bilər. Tarixi məlumatlardan bəlli olur ki, 1859-cu ildən son vaxtlaradək dünyada 60 mlrd.ton neft və 24 trilyon m^3 qaz çıxarılmışdır. Son təxmini hesablamalara görə, qarşıdakı 10-15 ildə dünyada gündəlik yalnız neft istehlakı 80 mln.barreldən 120 mln.barrelədək artacaqdır; onun da təqribən 25 %-i ABŞ-ın payına düşür. ABŞ-ın keçmiş vitse-prezidenti D.Çeyni hələ "Hallibarton" şirkətinin icraçı direktoru olarkən-London Neft institutunda 1999-cu

ildə – etdiyi çıxışı zamanı bildirmişdi ki, ABŞ 2010-cu ildən etibarən hər gün daha 5 mln. barrelə ehtiyac duyacaqdır;

- neft regionlarında, o cümlədən Yaxın Şərqdə və Qafqazda nüfuz dairələri uğrunda mübarizə XIX-XX əsrlərdəki kimi, indi də böyük dövlətlərin, öncəliklə ABŞ-ın beynəlxalq siyasətinin prioritet istiqamətlərindəndir. Həmin siyasətin başlıca hədəflərindən birini də Qərbin Rusiyanın asılılığından çıx(arıl)ması təşkil edir. Burada Avropanın onun enerji ehtiyatlarına olan ehtiyacdan, ABŞ-ın isə rəsmi Moskvanın "neft-qaz amili ilə təzyiqi"ndən qurtulması nəzərdə tutulur; bu kontekstdə də ayrı-ayrı regionlara "sabitlik və demokratiya" gətirmək adı altında onların neftinə yiyələnmək siyasəti yeridilir (Bu kontekstdə İraqa təcavüz və İranla qarşıdurmada da "neft amili" üzə-önə çıxır. İraq neft ehtiyatlarına görə, dün-yada 3-cü yerdədir. O, 200 mlrd. barrel və ya 17-18 mlrd.ton neftə, yəni dünyadakı ehtiyatların 10%-nə malikdir. Heç də təsadüfi deyildir ki, hələ İraqa təcavüz ərəfəsində keçirilən (2000) ABŞ-İngiltərə "Enerji Dialoqu"nda Yaxın Şərq neftinin tamamilə nəzarətə götürülməsi nəzərdən keçirilmişdi);
- Asiya və Sakit okean neft konfransında da (XI.2009) qeyd olunduğu kimi, enerji ehtiyatlarının azalması, əhali artımı və inkişaf etməkdə olan ölkələrdə istehlakın miqyasının genişlənməsi xeyli problemlər (ərzaq və s.) yaradır.

Azərbaycan Respublikasının **xarici siyasətinin ən başlıca yönlərindən birini də onun neft strategiyasının gerçəkləşdirilməsi** təşkil edir. Ölkəmizin "qara qızılı" zaman-zaman onun həyatının bütün sahələrində mühüm rol oynamışdır. Xüsusilə də XIX-XXI əsrlərdə "neft amili" Azərbaycanı dövlətlərarası münasibətlərin mərkəzində saxlayan əsas faktorlardan hesab olunur. M.Rəsulzadə, AXC-nin Paris Sülh konfransındakı nümayəndə heyətinin üzvü, M.Mehdizadənin "Beynəlmiləl siyasətdə petrol" əsərinə yazdığı "Bir-iki söz"də neftimizi belə dəyərləndirmişdi: "Azərbaycan xaricə ehtiyac duymadan, öz iqtisadi imkanları ilə

müstəqil bir həyat yaşamaq istedadı olan müstəsna məmləkətlərdəndir. Ona bu müstəsna mövqeyi bəxş edən ən mühüm amillərdən biri bütün cahan miqyasında çox dəyərli qiyməti olan neftə malik olmasıdır. Petrol, dünya siyasətinin ən təsirli amili olan bu axar altun, bu gün Azərbaycanın talesizliyinə səbəb olmuşsa da, sabah digər bir şəkildə, səadət və rifahının təminatına namizəddir". O, Azərbaycanın öz neftinə görə, "beynəlmiləl siyasət silsiləsində ən mühüm bir həlqəni təşkil" etdiyini də önə çəkirdi. Habelə yazırdı ki, neft məsələsini ətraflı öyrənmək və ondan Azərbaycanın mənafeyi-milli dava naminə istifadə etmək səhlənkarlıqla yanaşılmayası, mühüm bir vəzifədir.

Azərbaycan dövlətinin çağdaş "neft siyasəti"nin məqsədləri bir neçə yöndən dəyərləndirilə bilər: respublikanın iqtisadi maraqlarının təminatı; dövlətimizin hərbi potensialının gücləndirilmə vasitəsi; Ermənistanın ölkəmizə təcavüzünün aradan qaldırılmasına təsir imkanı; beynəlxalq çoxşaxəli inteqrasiya proseslərinə qatılma yolu və s.

Tarixçilər, iqtisadçılar və politoloqlar – müəyyən məntiqi mülahizə və faktorlara dayanaraq – Vətən neftinin tarixini (Azərbaycanın "neft siyasətini") **üç dövrə bölürlər: 1-cisi,** 1872-ci ildən başlayan "neft inqilabı (bumu)". **2-cisi,** 1920-ci il aprel çevrilişindən sonrakı Sovet Azərbaycanı dönəmi ("Yeni neft yüksəlişi"). **3-cüsü,** Şimali Azərbaycanda dövlətçiliyin yenidən bərpasından (18.X.1991) etibarən hesablanan mərhələ ("Üçüncü neft bumu"). Axırıncını da iki daxili mərhələyə ayırırlar: **a)** 1991-1994-cü illər, yəni xarici kapitalın (şirkətlərin) Azərbaycan neftinə yeni (növbəti) gəlişi-axını; **b)** AR-in ilk beynəlxalq neft müqaviləsindən (20.IX.1994), yəni "Əsrin kontraktı"ndan sonrakı dönəm.

Birinci dövrəncəsinin və ilk iki dövrün başlıca nəticələri qısaca aşağıdakılarla ifadə edilə bilər:

- dünyada mexaniki yolla (qazma üsulu ilə) ilk neft quyusu 1848-ci ildə Bakıda (Bibiheybətdə) qazılmışdır. Neft emalı sənayesinin (ağ neft istehsalı və s.) əsası da Bakıda (1859) qoyulmuşdur;

- neft sənayemizə "Nobel qardaşları şirkəti" ilə (1879) başlanan xarici kapital axını qısa müddətdə xeyli genişlənmişdi. H.Z.Tağıyev, M.Nağıyev, M.Muxtarov, Ş.Əsədullayev, C.Məlikov və b. timsalında yerli-milli neft kapitalı (sənayeçi-sahibkarları) təşəkkül tapmışdı;
- 1891-ci ildə dünyada çıxarılan 22,5 mln.ton neftdən Rusiya imperiyasının payına düşən 11,4 mln.tonun 95%-i Azərbaycanda hasil olunmuşdu. XIX-XX əsrlərin qovşağında neft çıxarılmasında Bakı dünyada birinci yeri tuturdu. O, 1901-ci ildə dünya neftinin təxminən yarısını verirdi;
- Birinci Dünya müharibəsi ərəfəsində Rusiya imperiyasında hasil edilən neftin 83 faizi Azərbaycanın payına düşürdü;
- 1897-1907-ci illərdə çəkilən Bakı-Batum neft kəməri o dövrdə dünyada ən böyük neft kəməri sayılırdı (O, 883 km uzunluğunda olmaqla, ildə 900 000 ton neftin nəqli imkanına malik idi);
- Almaniya-SSRİ müharibəsi zamanı Azərbaycan SSR-də 75 mln. ton neft (Sovetlər İttifaqındakının 70-75 faizi, yəni ¾ hissəsi) çıxarılmışdı (O vaxtaqədərki neft tariximizdə ən böyük göstərici, yəni 23,5 mln.ton 1941-ci ildə olmuşdur);
- dünyada ilk dəfə açıq dənizdə neft-mədən estakadaları (məşhur "Neft daşları") 1948-ci ildə Azərbaycanda (Xəzərdə) qurulmuşdu (1949-cu ildə isə orada ilk dəniz neft quyusu işə salınmışdı; İndiyədək orada 1940 quyu qazılıb və 160 mln. ton neft, 12,3 mlrd.m^3 qaz hasil edilibdir. Dünyanın "8-ci möcüzəsi" də sayılan "Neft daşları"nın işə salınması ilə "Xəzər neft erası" başladı);
- Bakıda sənaye üsulu ilə neft emalının başlamasından XX əsrin sonlarınadək Azərbaycanda təxminən 1 mlrd 350 mln.ton neft və 435 mlrd. m^3 qaz çıxarılmışdır. Çox-çox təəssüflər olsun ki, bu həcmdəki təbii sərvətlərimizdən gələn gəlir ölkəmizə qismən fayda vermişdir və bu işdən başlıca mənfəəti isə Rusiya, digərləri götürmüşlər.

Xarici şirkətlərlə ilkin danışıqlar: problemlər və nəticələr

Ölkəmizin quzeyinin yenidən müstəqillik qazanması ilə onun nefti uğrunda gedən **dövlətlər(şirkətlər)arası tarixi mübarizənin daha bir mərhələsi – "Xəzərin yeni neft erası"** başladı. "Nişanlısı çox olan Bakı neft gözəli" (ifadə SSRİ-nin dövlət xadimlərindən olan Q.Ordconikidzeyə məxsusdur) yenidən beynəlxalq güclərin və iri şirkətlərin (*maqnatların*) diqqətini çəkdi. Buna da Azərbaycanın (*Xəzər hövzəsinin*) böyük enerji ehtiyatlarına malik olması çox ciddi təsir göstərdi. Azərbaycanın **neft-qaz ehtiyatlarına dair mütəxəssis rəyləri** müxtəlifdir. Onların həcmi ilə bağlı fərqli dəyərləndirmələr mövcuddur. Yəni bir sıra **nikbin qiymətləndirmə** və bəzi **bədbin (şübhəli) yanaşmalar** ortaya çıx(arıl)mışdır (Ümumiyyətlə, son hesablamalar dünyanın neft ehtiyatlarının təxminən 318-399 mlrd.ton olduğunu göstərir. Ən çox ehtiyatın isə Səudiyyə Ərəbistanı (34-35 mlrd.ton) ilə İraqın (17-18 mlrd.ton) payına düşdüyü bildirilir).

Bəzi elmi araşdırmalarda Azərbaycan Sibir və İran körfəzindən sonra dünyanın "üçüncü enerji anbarı – böyük neft mərkəzi" kimi qeyd olunur. Qərb tədqiqatçılarından C.Kemp və R.Harveyin "Strateji coğrafiya və dəyişən Yaxın Şərq" adlı əsərində Xəzərdəki ehtiyatların 8,8 mlrd. barrel olması ehtimal edilir. Fransız jurnalı "Ekspress"in məlumatına görə isə, Xəzərdə 70-250 mlrd. barrel neft mövcuddur. Tanınmış neft mütəxəssislərinin "Foregin Affaris" jurnalındakı açıqlamalarında Xəzərin 100 mlrd.barreldən az olmayan neft ehtiyatı ilə İran körfəzindən sonra 2-ci yeri tutması bildirilir. ABŞ Dövlət Departamentinin açıqladığı məlumatlarsa Xəzərin-kəşf edilən yataqların (163 mlrd. barrel) və ehtimal olunan ehtiyatların (15,6 mlrd.barrel)-cəm halında 30 mlrd. ton neftlə zənginliyindən xəbər verir. Həmin dövlətin Energetika nazirliyi isə Xəzər hövzəsindəki 200 mlrd. barrel neftin 1/4-nin (50 mlrd.) Azərbaycan

sektorunda olmasını bildirir. AR-in 178 mlrd. barrel neft ehtiyatına sahib olduğunu yazanlar da vardır.

Rusiya ekspertlərinin hesablamaları isə Xəzərin enerji ehtiyatlarının 7-8 mlrd. ton neftdən və 5 trilyon m^3 qazdan ibarət olduğunu göstərir; neft ehtiyatının təbii bölgüsü nisbəti isə belədir: Azərbaycan-3600 mln.ton, Qazaxıstan-3400 ton, Türkmənistan-600 mln.ton, Rusiya-400 mln.ton. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin ("ARDNŞ"-in) proqnozları ölkənin 4 mlrd. ton neft ehtiyatına malik olduğunu ehtimal edir. AMEA Geologiya institutu əməkdaşlarının hesablamalarından bəlli olur ki, Azərbaycanda qədim (köhnə) kompleksləri nəzərə almaqla 10-12 mlrd. ton və dərin yataqları əsas götürməklə isə 20 mlrd. ton neft ehtiyatı vardır.

Xəzərin (Azərbaycanın) enerji ehtiyatlarının həcminə dair göstəricilərə **bədbin (şübhəli) rəylər** də istisna deyil. Məsələn, hələ 1994-cü ilin oktyabrında "The Middle East" jurnalında açıqlanan məlumatlarda AR-in o dövrdə 7,5 mlrd. barrel, yəni 1 mlrd. ton neftə malik olduğu qeyd edilirdi. Aşqabadda keçirilən bir toplantıda (V.1997) vurğulanan mütəxəssis rəyi isə belə olmuşdu: regionun ümumi ehtiyatları 1,5-30 mlrd. ton təşkil edir və Xəzərdə neft potensialı, BP-nin məlumatlarına görə, "Amoko"-nun proqnozları ilə müqayisədə 20 dəfə azdır.

London Strateji Araşdırmalar üzrə Beynəlxalq institutunun bir raportunda (IV.1998) ABŞ Energetika nazirliyinin iddia etdiyi göstəricinin (200 mlrd. barrel) şişirtmə olduğu bildirilir və Xəzərin neft ehtiyatlarının ən son həddinin 25-35 mlrd. barreli təşkil edə biləcəyi yazılırdı. Raportda habelə Xəzərin neft ehtiyatlarının İran körfəzinin deyil, Şimal dənizinin petrol potensialı ilə müqayisə edilməsi məsləhət görülürdü. Yeri gəlmişkən, İran da özünün geostrateji və iqtisadi-maliyyə maraqlarını əsas tutaraq Azərbaycanın "neft diplomatiyası"nı, başqa sözlə, onun "Xəzər siyasəti"ni əngəlləməyə çalışarkən ölkəmizin enerji ehtiyatlarına dair göstəricilərin şişirdilməsindən bəhs edir.

Azərbaycanın **"fantastik enerji ehtiyatları əfsanəsi"** ilə

bağlı müxtəlif yönlərdən qaynaqlanan iddialar ölkə rəhbərliyi və mütəxəssis-ekspertləri tərəfindən təkzib olunur. Belə rəsmi təkziblərdən biri hələ Qərb (Bakı-Supsa) neft kəmərinin açılışı (17.IV.1999) zamanı prezident H.Əliyev tərəfindən edilmişdi: "Azərbaycanın düşmənləri minimal "neft ehtiyatları" barədə yalan məlumatlar yayaraq neft strategiyamızın uğurla reallaşdırılmasına qarşı əbəs cəhdlər göstərirlər. Onlar bildirirlər ki, rəsmi Bakı neft ehtiyatları haqqında bilərəkdən şişirdilən məlumatlar yaymaqla dünya birliyini aldadır... Azərbaycanda neft çoxdur. Təkcə elə imzalanmış 16 neft müqaviləsi 4 mlrd.ton ehtiyatları olan yataqları əhatə edir. Bundan əlavə Azərbaycanda öz istismarını gözləyən çoxlu yataqlar (həm dəniz, habelə quru) vardır".

"ARDNŞ"-in o vaxtkı prezidenti N.Əliyev 6-cı beynəlxalq "CASPİAN OİL GAS-99" konfransında Xəzər hövzəsindəki aşkarlanmış (təsdiq edilmiş) neft və qaz ehtiyatlarının 27,5 mlrd. ton və ehtimal edilən həcmin isə 70-100 mlrd. ton olduğunu bildirmişdi. O, 19 neft müqaviləsinin təxminən 4 mlrd.ton ehtiyata hesablandığını da vurğulamışdı. Respublika mütəxəssislərinin hələ 1997-ci ildəki hesablamaları Azərbaycanın 25 ildə 210 mlrd. dollarlıq neft gəlirinə sahib olacağını nəzərdə tuturdu. Bütövlükdə isə, "ehtiyatlar əfsanələri" ətrafındakı mübahisələrdə mənzərə belədir: Azərbaycan 10 mlrd. tondan artıq neftə malik olduğunu bildirir, əks tərəfsə hətta 4 mlrd.tonluq ehtiyata da şübhə ilə yanaşır.

XX əsrin 80-ci illərinin sonuna yaxın, yəni SSRİ-nin süqutu ərəfəsində beynəlxalq kapital yenidən Azərbaycan neftinə nüfuz etməyə başladı (Birgə müəssisələr haqqındakı qanunvericiliyə 1987-ci ildə edilən düzəliş və s. bu işdə önəmli rol oynadı). Bu prosesə Azərbaycan neft sənayesinin-Sovetlər İttifaqında yenidənqurma şəraitindəki – müstəqilləşmə səyləri də ciddi təsir göstərdi. Belə ki, 1988-ci ildə Azərbaycan SSR Dövlət Yanacaq Komitəsi yaradıldı. 1990-cı ildə "Azneft" istehsalat birliyi müstəqilləşdi və onun bazasında xarici firmalarla birgə müəssisələr yaradılması qərara alındı, xaricə neft satan "Dəniz" assosiasiyası təşkil edildi və s.

Bu dövrdə Azərbaycan neft sənayesinə gələn (V.1989) **ilk xarici neft şirkəti "Remko"** (İngiltərə) oldu. Ardınca (XI.1991) ABŞ-ın "Amoko", bir müddət sonra isə "Britiş Petroleum" "BiPi"- (Böyük Britaniya), "Yunokal"la "Penzoyl" (Amerika), "Statoyl" (Norveç) və s. şirkətlər ölkəmizdə özlərinin iqtisadi-maliyyə layihələrini gerçəkləşdirmək üçün ilkin tədbirlərə başladılar. Azərbaycan nefti ilə bağlılığı olan xarici şirkətlərin doğurduğu elmi-siyasi marağı nəzərə alaraq burada onları E.Nəsirov və digər tədqiqatçıların müxtəlif qaynaqlardan əldə etdikləri məlumatlar əsasında qısaca səciyyələndirməyə də ehtiyac vardır. Öncə, neftin sənaye üsulu ilə çıxarılmasına 1859-cu ildən başlayan, **ABŞ-ın ən iri (aparıcı) şirkətlərinin tarixi-iqtisadi göstəricilərinə** nəzər salaq.

"Standart oyl": 1870-ci ildə C.Rokfeller tərəfindən yaradılmışdır. Uzun müddət ölkədə yeganə neft çıxarılması, emalı və satışı firması olmuşdur. Qısa vaxt ərzində iri inhisar birliyinə çevrilmişdir. XX əsrin əvvəlində dünya neft biznesinin 70%-ni öz əlində cəmləşdirmişdi. Bir neçə tanınmış şirkət ondan törəmişdir.

"Ekson":"Standart oyl"dan ayrılmışdır. 1972-ci ildən belə adlanır. XX əsrin sonlarında ölkə şirkətləri arasında ümumi gəlirinə görə 2-ci, xalis gəlirinə görə isə 1-ci yeri tuturdu. 1993-cü ildə dünyanın 4-cü iri şirkəti olmuşdu.

"Amoko":1899-cu ildə "Standart oyl"dan ayrılmaqla yaranmışdır. "Amoko" adı ilə 1985-ci ildən tanınır. Ötən əsrin sonlarında illik gəliri 25 mlrd.dolları keçmişdi.Azərbaycanın üç neft yatağının işlənməsinə dair tenderin (1991) qalibidir.

"Penzoyl":"Standart oyl"dan törəmədir (1889). Dünyanın bir çox regionlarında fəaliyyət göstərir. XX əsrin sonlarında illik gəliri 2,5 mlrd.dollar təşkil edirdi.

"Yunokal": tarixi 1890-cı ildən başlanır. Ən müasir texnologiyaya malikdir. İndoneziyada, Meksika körfəzində, Azər-

baycanda və s. yerlərdə geniş fəaliyyət göstərir.

"Şevron":1879-cu ildə təşkil edilmişdir. Yüzdən çox ölkədə neft-qaz hasilatı və satışı ilə məşğul olur. 13 min mil uzunluğunda neft kəmərinə malikdir.

"Mobil":maliyyə göstəricilərinə görə XX əsrin axırında, "Ekson"dan sonra, 2-ci yeri tuturdu. Geniş coğrafiyada neft-qaz hasilatı rayonlarına malikdir. 20-dən artıq neft emalı zavodunun sahibidir. (Ən əhəmiyyətlisi Sinqapurdadır).

"Mak Dermott": keçən əsrin 20-ci illərində fəaliyyətə başlamışdır. 1970-ci illərin sonundan etibarən möhkəmlənmişdir. Əsasən, texniki-tikinti işləri ilə məşğuldur.

Böyük Britaniya şirkətlərinin qısaca dəyərləndirməsi belə bir mənzərə ilə tanış olmağa imkan verir.

"Britiş Petroleum": İranda çalışmaq üçün 1909-cu ildə yaradılmışdır. 1935-1954-cü illərdə İngilis-Fars Neft Kompaniyası adı altında fəaliyyət göstərmişdir. 1954-cü ildən isə "Britiş Petroleum" adlanır. Neft axtarışlarının səmərəliliyinə görə dünyada "Şell" və "Ekson"la birlikdə "üçlük" təşkil edir. Ötən əsrin sonlarında illik gəliri 57 milyard dollara çatmışdı. Tərkibinə xeyli beynəlxalq şirkət daxildir. Geniş coğrafiyada ənənəvi istehsal və satış rayonlarına (o cümlədən Azərbaycanda) malikdir. "Amoko" ilə birləşmək barədə müqavilə imzalamışdır (11.VIII.1998). 1990-cı ildə "Statoyl" ilə alyans yaratmışdır. 1999-cu ildə isə ondan ayrılıb "Amoko" ilə alyansda birləşmişdir.

"Remko": 1977-ci ildə təşkil edilmişdir. Müasir dövrdə Azərbaycanda fəaliyyətə başlayan ilk xarici şirkətdir. Bir müddət "Penzoyl"la alyansda olmuşdur. Şotlandiyanın ən iri müstəqil şirkətidir.

Digər dövlətlərin şirkətlərinin qısaca səciyyəsi aşağıdakıları öyrənməyə imkan verir:

"Statoyl" (Norveç): tarixi 1972-ci ildən hesablanır. Şimal dənizinin Norveç sektorunda ən iri neft-qaz istehsalçısıdır. 20-yə yaxın xarici ölkədə fəaliyyət göstərir. 1990-cı ildən "BiPi" ilə alyansdadır.

"LUKoyl" (Rusiya): 1993-cü ildə yaradılmışdır. Tərkibinə Qərbi Sibirin 3 nəhəng neftayırma müəssisəsi daxildir. (Adı da onların baş hərflərindən götürülmüşdür). 16 xarici ölkədə fəaliyyət göstərir. Keçən əsrin 90-cı illərinin ortalarında dünyanın neft şirkətləri arasında 38-ci yeri tuturdu. Prezidenti azərbaycanlı V.Ələkbərovdur.

"TPAO" (Türkiyə): 1954-cü ildə təşkil edilmişdir. 10-a yaxın ölkədə neftin kəşfi və hasilatı sahəsində işlər görür.

"NİOS" (İran): ölkədə sənaye neft mədəni 1908-ci ildə açılmışdır. İranın neft ehtiyatları uzun müddət Böyük Britaniya və ABŞ şirkətləri tərəfindən hasil və nəql olunmuşdur. "NİOS" ("İran Milli Neft Kompaniyası") XX əsrin 90-cı illərinin əvvəlində dünyanın ən iri neft şirkətləri arasında 3-cü yerdə dayanırdı. Hazırda ölkənin neft-qaz sənayesi onun vasitəsilə inkişaf etdirilir. (Ötən yüzilliyin sonlarına aid məlumatlara görə İranda kəşf edilən qaz ehtiyatlarının həcmi 22,2 trln.m^3 (Rusiyadan sonra 2-ci yer) təşkil edirdi; İran Səudiyyə Ərəbistanı, İraq, Birləşmiş Ərəb Əmirlikləri, Küveytlə birlikdə 644 mlrd. barrel neft ehtiyatına (dünyadakının 65%-nə) malik idi).

"ACİP" (İtaliya): əsası 1926-cı ildə qoyulmuşdur. Hazırda 4 qitədə (24) ölkədə onun törəmə şirkətləri çalışır. Dünyada enerji daşıyıcılarının ən böyük istehlakçılarından biri olan İtaliyanın bu şirkəti güclü maliyyə imkanlarına və iqtisadi potensiala malikdir. Azərbaycanın "Qarabağ" yatağının işlənməsi üçün "LUKoyl" ilə "LUKACİP" yaratmışdır.

"İtoçu" (Yaponiya): 1972-ci ildə fəaliyyətə başlamışdır. Dünyanın çoxlu neft rayonunda kəşfiyyat və istismar işləri ilə məşğul olur. Ölkəmizdə iki konsorsiumun, yəni "Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti"nin ("ABƏŞ"-in) və "Şimali Abşeron Əməliyyat Şirkəti"nin üzvüdür.

"Total" (Fransa): dünyanın ən iri neft-qaz şirkətlərindən sayılır. Azərbaycanda Lənkəran-dəniz / Talış-dəniz və Abşeron dəniz yataqlarına dair layihələrin həyata keçirilməsində iştirak edir.

"Elf Akiten" (Fransa): vaxtilə dünyada 8-ci iri neft şirkəti olubdur. 30 ölkədə təmsilçiliyi vardır. XX əsrin sonları üçün pul dövriyyəsi 42 mlrd. dollara bərabər idi. "Lənkəran-dəniz / Talış –dəniz" yatağının işlənməsinə dair müqavilənin payçısıdır.

"Delta-Nimir" (Səudiyyə Ərəbistanı): 1994-cü ildə yaradılmışdır. Azərbaycanın bir sıra neft yataqlarının işlənməsində paylara malikdir.

Azərbaycan rəhbərliyinin Bakı (Xəzər) neft və qazının çıxarılması, emalı, nəqli məsələlərinə dair beynəlxalq şirkətlərlə əsasən 1990-cı ildən etibarən aparmağa başladığı uzunsürən və çətin danışıqlar prosesi bir sıra məntiqi mülahizələrə əsasən **müəyyən şərti mərhələlərə** bölünə bilər. Bu mülahizələrin sırasına isə Azərbaycanın xarici siyasətindəki fərqli oriyentasiyaları, strateji iqtisadi-maliyyə hədəflərini, müzakirələrin nəticələrini və s. aid etmək olar.

Birinci dönəmə danışıqların başlanmasından (1990) AR-in ilk beynəlxalq neft müqaviləsinin, yəni "Əsrin kontraktı"nın bağlanmasınadək (20.IX.1994) olan müddət aid edilə bilər. Onu da –A.Mütəllibov, Ə.Elçibəy və H.Əliyevin prezidentlikləri zamanı yürüdülən fərqli "neft siyasətləri"nə əsasən daxili mərhələlərə bölmək olar.

İkinci mərhələni "Əsrin müqaviləsi"ndən beynəlxalq neft sazişləri ilinin (1998) sonunadək olan zaman kəsiyi təşkil edir.

Üçüncü dövrün başlanğıcını şərti olaraq Azərbaycan (Xəzər) neftinin Əsas İxrac Kəməri (Bakı-Tiflis-Ceyhan) vasitəsilə nəqlinə dair İstanbul sazişindən (1999) hesablamaq gərəkir. O əsasən həmin kəmər və Xəzərin hüquqi statusu ətrafındakı diplomatik danışıqların daha da intensivləşdirilməsi ilə səciyyələnir.

Birinci dönəmin ilk çağında (A.Mütəllibovun respublikaya rəhbərliyi zamanı) xarici şirkətlərlə aparılan **"neft danışıqları"nın əsas məqamları və nəticələrini** belə dəyərləndirmək olar (Bu müddət də "sovet dövrünün sonu" və "müstəqilliyin lap əvvəli" kimi hissələrə ayrılır):

- dağılmaqda olan SSRİ şəraitində Bakı neftinə dair məsələlərin hələ də Moskvada "həll olunması". Bu baxımdan da "ilkin beynəlxalq neft müzakirələri" Moskvada aparılır və müvafiq qərarlar da (tenderlə bağlı və s.) orada qəbul edilirdi;
- əməkdaşlığın daha səmərəli variantı kimi tenderə üstünlük verilməsi. Buna əsasən də Azərbaycan hökumətinin Xəzərdə hələ sovet dönəmindən istismar edilən "Çıraq", "Azəri", "Günəşli" neft yataqlarının xarici şirkətlərlə birgə işlədilməsinə dair qərarından (I.1991) sonra keçirilən tenderi "Amoko" uddu;
- qalib şirkətin tenderin digər iştirakçıları ("Yunokal", "BP-Statoyl" alyansı və s.) ilə neft konsorsiumu yaratması (Tezliklə (X.1992) layihənin iqtisadi-texniki əsaslandırılmasına dair sənəd də hazırlandı). Bununla da xarici şirkətlərin (kapitalın) ölkəmizə axınına rəvac verildi. Bu hal ölkəmizin böyük neft ehtiyatlarına malik olması, SSRİ-nin süquta uğraması və xarici şirkətlərin işgüzarlığı (inadkarlığı) ilə əsaslandırılır);
- müəyyən razılaşmalara nail olunması. Həmin razılaşmalarsa bunları nəzərdə tuturdu: **1)** "ARDNŞ"-in "Amoko" ilə vahid müştərək müəssisə yaratmalarını (Birincinin payı 85-88%, ikincininki isə 12-15% olmalıydı). 2) Neft yataqlarının geoloji kəşfiyyatına Azərbaycanın "tarixi (əvvəlki) məsrəfləri"nin nəzərə alınmasını (Ölkəmiz 1,5-1,7 mlrd. dollarlıq vəsait qoyulmasından azad edilməli idi). **3)** "Amoko"nun AR-in iqtisadiyyatına 650 mln. dollarlıq vəsait qoyulmasına dair öhdəliyini (Müqavilənin layihəsinin hazırlanması və texniki-iqtisadi cəhətdən əsaslandırılması həmin şirkətin üzərinə düşürdü).

Birinci dönəmin ikinci mərhələsində — Ə.Elçibəyin birillik prezidentliyi müddətində — əsas tutulan neft strategiyasının və yürüdülən **"enerji siyasəti"nin aparıcı yönləri, cə-**

hətləri və nəticələri isə aşağıdakılardan ibarətdir:

Birincisi, dövlət başçısının demokrat ictimai xadim imici, qərbyönümlü xarici siyasəti və s. ölkənin neft sənayesinə xarici sərmayə axınına təkan oldu. İngiltərənin keçmiş Baş naziri, "BiPi"nin məsləhətçisi M.Tetçerin Bakıya səfəri (IX.1992) bu işi daha da sürətləndirdi. Azərbaycan hökuməti də xarici neft şirkətləri ilə milli maraqlara uyğun səmərəli əməkdaşlığa üstünlük verdi.

İkincisi, əvvəlki hakimiyyətin bağladığı müqavilələr AR-in beynəlxalq siyasətinə, milli maraqların dolğun təminatına uyğun gəlməməsi və s. izahla ləğv edildi. Az zaman ərzində xarici neft şirkətləri ilə 6 memorandum (müqavilə) imzalandı. Belə ki, "ARDNŞ" 1992-ci ilin payızı ilə 1993-cü ilin mayı arasında "Çıraq", "Azəri", "Günəşli" yataqlarının və "Şahdəniz" perspektiv sahəsinin birgə işlədilməsi barədə "BiPi/Statoyl" və "Penzoyl-Remko" alyansları ilə sazişlər bağladı.

Konsorsiumla "ARDNŞ"-in V Memorandumu (9.XI.1992) "Çıraq", "Azəri" və "Günəşli" yataqlarına dair vahid infrastrukturun yaradılmasını nəzərdə tuturdu. Mühüm strateji önəm daşıyan bu iş vahid-boru kəməri sistemini, terminalı və neft donanmasını əhatə edirdi. Həmin Memorandumun daha bir dəyərli və fərqli cəhətini "Türkiye Petrolleri Anonim Ortaqlıq" ("TPAO") şirkətinin də konsorsiuma qoşulmasına dair "ARDNŞ" ilə razılaşma imzalanması təşkil edirdi. Bu isə AR-in o vaxtkı rəhbərliyinin Türkiyə ilə strateji tərəfdaşlıq və səmərəli əməkdaşlıq xəttini təkrarən təsdiqləyən fakt sayıla bilər. "ARDNŞ" ilə konsorsiumun VI Memorandumu (6.V.1993) yataqların istismarının vahid proqramının hazırlanması və bunun üçün də müvafiq işçi qruplarının təşkili barədə idi.

Azərbaycan dövlətçiliyinin möhkəmlənməsini əsla istəməyən bəzi xarici və daxili qüvvələrin təşkil etdiyi hərbi-siyasi qiyam da Qərb şirkətlərini "ARDNŞ" ilə əməkdaşlığa dair israrlı mövqedən daşındırmadı. Belə ki, qiyamın genişləndirildiyi bir şəraitdə "ARDNŞ" ilə konsorsiuma üzv şirkətlərin bəziləri

("Amoko", "BiPi", "Statoyl", "Mak Dermott", "Yunokal", "TPAO") arasında üç neft yatağının birgə işlədilməsinə dair Bəyannamə imzalandı (10.VI.1993). Buna əsasən də şirkətlər güzəştə gedir, yəni "ARDNŞ"-in 16,7 mln. dollar ilkin üzvlük haqqı almasına razılıq verirdilər. Hətta Qərb şirkətləri təxminən on gün sonra (21.VI.1993) "ARDNŞ"-ə 81 mln. dollarlıq bonus verəcəklərini açıqladılar. AR-in rəsmi mətbuatının şərhlərinə görə, bu kimi güzəştlər hakimiyyətə gəlməkdə olan qüvvələri maraqlandırmaq, onları şirkətlərin səmimiliyinə, ciddiliyinə inandırmaq məqsədi güdürdü. "Günəşli" qazının emalı və istifadəsi ilə bağlı birgə işə dərhal başlanıldı. Habelə "ARDNŞ"-in, konsorsium üzvü olan şirkətlərin neft mütəxəssislərindən və beynəlxalq, nüfuzlu hüquq firmalarının məsləhətçilərindən ibarət işçi qrupları yaradıldı (Onlar Londonda və Hyustonda fəaliyyət göstərirdilər).

Üçüncüsü, neft kontraktları, yəni əsas müqavilənin şərtləri ətrafında danışıqların Londonda davam etdirilməsi (VI.1993) razılaşdırıldı. Həmçinin onun həmin ilin sentyabrında (bəzi məlumatlara görə isə elə iyunda da) imzalanması planlaşdırıldı - (Araşdırmaçılardan N.Nəsibli və b. işçi qruplarda Əsas İxrac Neft Kəmərinə, yəni BTC-yə dair ilkin müzakirələrə də elə bu vaxtdan başlanıldığını qeyd edirlər).

Dördüncüsü, Azərbaycanın neft mütəxəssislərindən "ARDNŞ"-in o zamankı prezidenti S.Bağırov və digərlərinə görə, həmin dövrdə aparılan danışıqlarda ölkəmizin çoxşaxəli maraqlarını nəzərə alan müddəalar barədə artıq müəyyən razılıqlar əldə edilmişdi. Belə ki, "ARDNŞ":

- gələcək kontraktda ən çox pay alırdı;
- öz payını maliyyələşdirməkdən ötrü vəsait tapması üçün əlavə vaxt da qazanırdı;
- əməliyyatlarla bağlı son söz haqqına sahib olurdu: o razılıq vermədən (təsdiqləmədən) heç bir şirkət öz payını sata bilməzdi;
- müqavilədən çıxan şirkətin payına yiyə dura bilərdi;

- nümayəndəsi Birləşmiş Rəhbər Komitədə həmişə sədrlik etməli idi və s.

Beşincisi, Rusiya və İranın (onların neft şirkətlərinin) danışıqlarda iştirakına imkan verilmədi. Bəzi ekspert-mütəxəssislər hətta ABŞ şirkətlərinin də ("Penzoyl"un "Remko" ilə alyansı nəzərə alınmazsa) ilkin neft müzakirələrindən kənarlaşdırıldığını və İngiltərə kompaniyaları ilə bigə fəaliyyətə üstünlük verildiyini qeyd edirlər. (Bunun ABŞ-ın "Azadlığı Müdafiə Aktı"na edilən "907-ci düzəliş"in qəbulunda mühüm rol oynadığını önə çəkən yanaşmalar da mövcuddur). Əksmövqelərə görə isə, "Azərbaycan Xalq Cəbhəsi-"Müsavat" iqtidarının devrilməsində "BiPi"nin də iştirakına (razılığına) dair Qərbdə yayılan məlumatlar bunu təkzib edir.

Ə.Elçibəyin qısamüddətli prezidentliyi dönəmində dövlətçiliyin başlıca strateji sahələrində görülən taleyüklü işlər (1992-ci ilin payızında Ermənistanla müharibədə qələbəyə xeyli yaxınolma, Rusiya qoşunlarının ölkəmizdən çıxarılması, manatın dövriyyəyə buraxılması, təhsildə test sisteminin tətbiqi, uğurlu neft danışıqları və s.) Azərbaycanın düşmənlərini daha da fəallaşdırdı. Dövlətçiliyimizə qənim kəsilən Rusiya, Ermənistan və İranın geostrateji maraqları ölkə daxilindəki hakimiyyət hərislərinin, revanşa can atan qüvvələrin və Qərbin müxtəlif dairələrinin "ikili standart"ı ilə üst-üstə düşdü. Nəticədə milli-demokratik qüvvələrin hakimiyyəti devrildi. H.Əliyev yenidən Azərbaycanın rəhbəri oldu. Bununla habelə AR-in "neft siyasəti"ndə də bir ayrı çağ başlandı.

Birinci dönəmin bu, son və ya 3-cü çağında (H.Əliyevin respublika rəhbərliyinə qayıdışının-prezidentliyinin əvvəlində) yürüdülən "neft siyasəti"mizin əsas məqsədləri, yönləri və nəticələri belə səciyyələndirilə bilər:

1-cisi, H.Əliyev öncə dərhal (25.VI.1993) "ARDNŞ" ilə Qərb şirkətləri arasındakı danışıqları dayandırdı (dondurdu). Bununla həm də əslində əvvəlki hakimiyyətin müəyyən neft razılaşmalarının üzərindən xətt çəkilmiş oldu. Respublikanın

yeni rəhbərliyinin bu qənaəti araşdırmaçılar və ekspertlər tərəfindən fərqli yönlərdən şərh olunur. Bəzilərinə görə, bu addım hazırlanması artıq başa çatmaqda olan (hətta iyunda imzalanması gözlənilən) müqavilə layihəsinin qüsurlu cəhətləri, yanlışlıqları və bununla da milli maraqlarımızı tam təmin etməməsi üzündən atılmışdı. Digər yanaşmalarsa bunu yeni hökumətin balanslaşdırılmış xarici siyasətə üstünlük verməsi, "Dağlıq Qarabağ problemi"nin ədalətli həllində "neft amili"ndən faydalanmağa (ən azından manevr imkanları qazanmağa) çalışması ilə əlaqələndirirlər.

Bizcə, danışıqların dondurulmasında başlıca məqsədlərdən birini də ölkədəki iqtidar dəyişikliyinin-yeni hakimiyyətin legitimləşdirilməsinə ola biləcək bir sıra əngəlləri zərərsizləşdirməkdən ötrü "neft amili"ndən faydalanmaq, yəni bəzi xarici şirkətlərə (dövlətlərə) təzyiq göstərmək təşkil edirdi. "Neft məsələsi"nin həllinin uzun müddətə təxirə salınmaması, yəni danışıqların qısa zaman kəsiyində dondurulması, müqavilənin bağlanmasının xeyli yubadılmasının yeni hakimiyyət üçün verə biləcəyi fəsadlardan, təhlükədən rahatsızlıq əlamətləri və s. də fikrimizə sübut ola bilər.

2-cisi, yeni hökumətin neft danışıqlarının dayandırılmasına dair sensasiyalı qərarı bu müddətədək artıq 400 mln. dollarlıq vəsait xərcləyən konsorsiuma üzv şirkətlərin ciddi narazılığına səbəb oldu.Çünki neft müqaviləsinin razılaşdırılmış variantı artıq tam hazır, yəni imzalanma ərəfəsində idi. Hələ indi də müəyyən mübahisələr doğuran bəzi məqamları nəzərə alaraq, bağlanması hərbi-siyasi qiyam və iqtidar dəyişikliyi üzündən alınmayan, **"iyun müqaviləsi"nin layihəsinin bəzi göstəricilərinə** burada nəzər salmağa ehtiyac vardır:

a) bu layihənin, yoxsa "Əsrin müqaviləsi"nin pay bölgüsünün ölkəmizə faydalılığı ilə bağlı qeyd edək ki, "ARDNŞ" birincidə 30%-ə, ikincidə isə 10%-ə malik idi.Ən böyük payçı şəraiti onun konsorsiuma rəhbərliyini də təmin edirdi. (Əksmövqe-dəlillərə görə, bizim şirkət "Əsrin kontraktı"nda da 20%

ilkin paya sahib olmuş, amma sonradan müəyyən səbəblər (siyasi dividend, maliyyələşdirmə vəsaitinin çatışmaması və s.) üzündən onun 10%-ni (hərəsinə 5% olmaqla "Ekson"a və "TPAO"-ya güzəştə getmişdi). Digər tərəfdən, ümumi gəlirin, yəni mənfəət neftinin (gəlirli neftin) nisbətinə dair göstəricilər hər iki müqavilədə eyni (Azərbaycan 80%, xarici şirkətlərsə 20%) idi;

b) ABŞ şirkətlərinin iyun layihəsindən (variantından) tam kənarda saxlanılması fikri də həqiqətdən uzaqdır. Buna əmin olmaq üçün layihənin pay bölgüsünə dair göstəricilərinə ani diqqət də yetərlidir: "Amoko"-17,01%, "Penzoyl"/"Remko"-12,83%, "Yunokal"-9,02%, "Mak Dermott"-2,45%. Aşağıdakı göstəricilərin qarşısında isə İngiltərə şirkətlərinə üstünlük verilməsinə dair mülahizə-mübahisələrə də yer (əsas) qalmır: "BiPi"/"Statoyl"-25,69% və üstəgəl "Remko"nun "Penzoyl"la alyansdakı payı (Sözgəlişi, bu layihədə "TPAO"-ya da 2,5% ayrılmışdı).

3-cüsü, xarici şirkətlərin danışıqların dayandırılmasından ciddi rahatsızlıq və narazılıq ifadə etmələri AR rəhbərliyini təşvişə saldı. H.Əliyev xüsusi bəyanatla çıxış edərək danışıqların dayandırılmasının müvəqqəti hal olduğunu və ölkədəki gərgin şəraitdən irəli gəldiyini bildirdi. Nəticədə "ARDNŞ" danışıqlardan kənarlaş(dırıl)sa da, ABŞ, Kanada və s. dövlətlərin müstəqil ekspertlərinin də cəlb olunmasıyla Londonda müəyyən müzakirələr aparıldı. Müzakirələrin yekunu sayılan "London layihəsi"də "respublikamızın milli mənafeyinə uyğun gəlməməsi izahı" ilə qəbul edilmədi.

4-cüsü, iyun qiyamının əsas müəllifinin (Rusiyanın) və digər təşkilatçısının (İranın) "neft məsələsi"ndə razı salınmasına səylər göstərildi. Rusiyaya bir sıra ciddi güzəştlər edildi: gələcək konsorsiumda "ARDNŞ"-in 30 faizlik payından "LUKoyl"a)10% ayrılması razılaşdırıldı. (Əkstərəf 20%-ə israr edir və bu konsorsiumun fəaliyyətinin yalnız iki yataqla məhdudlaşdırılmamasına çalışırdı); energetika və neft maşınqayırması sahəsində ölkələrarası birgə əməkdaşlığa dair sənədlər

imzalandı; ABŞ-ın "Nyusuik" jurnalının da vurğuladığı kimi, Türkiyədən keçəcək neft kəmərinin layihəsi təxirə salındı.

Politoloq-diplomatlar (N.Nəsibli və b.) bu kimi **əsaslı (tarixi-taleyüklü) güzəştləri şərtləndirən səbəblər və hədəflər** sırasında aşağıdakıların üzərində daha çox dayanırlar:

- rəsmi Moskvaya münasibətdə Elçibəy iqtidarından fərqli siyasət yeridiləcəyinin açıqca nümayiş etdirilməsi (Yubadılmadan MDB-yə qatılma bunu təsdiqləyir);
- Rusiyanın yanacaq-enerji kompleksinin (dairələrinin) vasitəsi ilə onun hökuməti yanında respublikamızın maraqlarını müdafiə edən lobbi mərkəzlərinin yaradılmasına nail olunması;
- işğal edilən torpaqlarımızın tezliklə hərbi yolla azad olunmasına cəhddə Rusiyanın tərəfsizliyinin təminatına ümid bəslənilməsi və s.

AR-in yeni rəhbərliyi İranın, yəni "NİOC"-in də ölkəmizin neft ehtiyatlarının işlənməsinə cəlb olunmasında maraqlı idi. Ancaq ABŞ-ın (onun şirkətlərinin) açıq müqaviməti-əngəlləri üzündən "NİOC"-in Azərbaycanın ilkin beynəlxalq neft müqavilələrində iştirakı alınmadı (O, öncə yalnız 3-cüdə ("Şahdəniz"də) təmsil oluna bildi).

5-cisi, prezidentin "AR-də dəniz neft və qaz yataqlarının işlənilməsinin sürətləndirilməsi haqqında" fərmanından (4.II.1994) sonra xarici şirkətlərlə danışıqların yeni mərhələsinə başlanıldı. Fərmanda 7 şirkətlə ("Amoko", "BiPi", "Statoyl", "Penzoyl", "Remko", "Yunokal", "Mak Dermott", "TPAO" ilə) "Azəri"və "Çıraq" yataqlarının kəşfinə və işlənilməsinə dair danışıqların aparılması, müqavilələrin hazırlanması və bağlanması, habelə "Günəşli"də neft hasilatının sabitləşdirilməsi proqramının hazırlanması nəzərdə tutulurdu. İlham Əliyevin "ARDNŞ"-in Birinci vitse-prezidenti təyin olunmasıyla danışıqların aparılması (davam etdirilməsi) səlahiyyətləri yenidən dövlət şirkətinə verildi. Bununla əslində danışıqlarda yeni mərhələ başladı.

Yeni neft danışıqları 4 raunddan ibarət oldu. Konsorsiumun təklifi ilə **ilk raund** Bakıda gerçəkləşdirildi (III.1994). Bu danışıqlarda tərəflərin başlıca şərtləri, xüsusilə də müqavilənin maliyyələşdirilməsi və texniki problemləri müzakirəyə çıxarıldı. **İstanbulda** baş tutan **sonrakı iki raundda** (V-VI.1994) müzakirə edilən məsələ-problemlərsə bunlardan ibarət idi: yataqlarda neft istehsalının optimal səviyyəsi; maliyyələşmə mexanizmi; xərclərin ödənilməsi prinsipləri; hüquqi tənzimləmə işləri; ilk sərmayələrin əvəzinin – ilkin istehsal hesabına- ödənilməsi yolları və s.; ilkin neftin nəqlinin münasib kəməri və s. İstanbul danışıqlarındakı qarşılıqlı anlaşma müqaviłə layihəsini hazırlanmağa başlanılmasına dair **Bakı protokolunun** imzalanması ilə (VII.1994) tamamlandı. Danışıqların **Hyustondakı (ABŞ) raundunda** (iyulun sonu-sentyabrın əvvəli) müqavilənin layihəsi razılaşdırıldı. **"Hyuston layihəsi"**, yəni Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlənilməsi və hazır məhsulun pay bölgüsünə dair razılaşma AR prezidentinin xüsusi fərmanı ilə (14.X.1994) bəyənildi.

AR-in ilk beynəlxalq neft müqaviləsi ("Əsrin kontraktı") və sonrakı sazişlər

Azərbaycanın neft tarixində ilk beynəlxalq müqavilə 1994-cü il sentyabrın 20-də Bakıdakı "Gülüstan" sarayında keçirilən neft sammitində bağlandı (Böyük dəyəri və önəminə görə onu "Əsrin kontraktı"da adlandırırlar). Müqavilədə Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının, yəni "Azəri" ilə "Çıraq"ın bütövlükdə və "Günəşli"ninsə qismən müştərək işlədilməsi və hazır məhsulun pay bölgüsü təsdiqləndi.

Dörd dildə olan 400 səhifəlik **"Əsrin müqaviləsi" çoxşaxəli iqtisadi-maliyyə-texniki göstəricilərə** malik idi. Müqavilə:

- 7 dövlətin 11 şirkətini əhatə edirdi. (Az sonrakı sövdələşmələrin nəticəsində həmin rəqəmlər müvafiq olaraq 8-ə (12-

yə) çatdı);
- 30 illik müddətə bağlanmışdı və təxminən 432,4 km^2 ərazinin işlənilməsini nəzərdə tuturdu;
- 7,4 mlrd. dollar kapital qoyuluşuna (80%-ni xarici şirkətlər, 20%-ni isə "ARDNŞ" ödəməklə) və 5,9 mlrd. dollarlıq istismar xərclərinə hesablanmışdı;
- 511mln.ton (4mlrd.barrel) neftin hasilatını proqnozlaşdırmışdı (Sonralar bu göstərici 630 mln.ton olaraq qeyd edilmişdi);
- mənfəət neftinin nisbətini (bölgüsünü) belə müəyyənləşdirmişdi-Azərbaycana 80%, xarici şirkətlərə 20% (Respublikamızın müqavilədən götürəcəyi xalis gəlirin 94 mlrd.dollar həcmində olacağı hesablanmışdı);
- xarici şirkətlərin iştirak payının hər bir faizi üçün mərhələlərlə ödəyəcəkləri 300 mln.dollar həcmində bonus müəyyənləşdirilmişdi (Onun da 80 mln.dolları müqavilə imzalanmazdan öncə ödənilmişdi. Habelə "BiPi" müqavilənin AR-in parlamenti tərəfindən vaxtında paraflanması üçün konsorsiumun adından respublika hökumətinə 5 mln.dollar vəsait də vermişdi);
- "Prodakşn şeərinq" ("hazır məhsulun bölgüsü") prinsipinə əsasən şirkətlərarası payları bu qaydada bölmüşdü: "ARDNŞ"-20% ; "BiPi"-17,12%; "Amoko"-17,01%; "LUKoyl"-10%; "Penzoyl"-9,81%; "Yunokal"-9,52%; "Statoyl"-8,6%; "Mak Dermott"-2,45%; "Remko"-2,08%; "TPAO"-1,75%; "Delta/Nimir"-1,68%;
- ayrı-ayrı konkret mərhələlərdə yerinə yetiriləcək bütün işlərin dəqiq müddətlərini də müəyyənləşdirirdi. Belə ki, müqavilənin qüvvəyə minməsindən sonra: I mərhələdə (18 aydan gec olmayaraq) ilkin neft hasil edilməli idi. II mərhələdə (48 ay ərzində) ilk platforma və quyu istifadəyə verilməli, neft layının işlənməsinə başlanılmalıydı. III mərhələdə isə (54 aydan sonra) xam neft əsas ixrac boru kəmərinə verilməliydi.

- yataqların işlənməsini Rəhbər Komitəyə həvalə edirdi (Onun sədri AR tərəfindən təyin olunurdu);
- görüləcək birgə işlərlə bağlı hüquqi tənzimləmə məsələlərini konkretləşdirir və dəqiqləşdirirdi (Bu zaman hüquqi tənzimləmənin AR ilə İngiltərə qanunları üçün ümumi olan prinsiplər əsasında və bu hal olmadıqda isə Kanadanın Alberta əyalətinin ümumi hüquq sisteminə görə həyata keçirilməsi nəzərdə tutulurdu);
- Azərbaycanda neftə daxili tələbatın ödənilməsi zərurəti yarandığı halda xarici şirkətlərin onlara məxsus neftin 10%-ni respublikaya sata bilmələrini şərtləndirirdi (Habelə "ARDNŞ"-ə Əsas İxrac Kəmərinin son məntəqəsində xam neftin podratçıya məxsus payından daha 10%-ə qədərini satın almaq hüququ verilirdi).

"Əsrin kontraktı"nın imzalanmasından az sonrakı **şirkətlərarası sövdələşmələr** hazır məhsulun pay bölgüsü nisbətində müəyyən dəyişikliklər etdi. Belə ki, "ARDNŞ" özünün 20 faizlik payından 5%-ni "Ekson"a və daha 5%-ni isə "TPAO"-ya güzəştə getdi (Sonuncunun payı 6,75% oldu). Bu, "ARDNŞ"-in öz payını maliyyələşdirməkdə çətinlik çəkməsi ilə əsaslandırıldı. Belə güzəştinin qarşılığında "Ekson"la "TPAO" birlikdə "ARDNŞ"-ə 173,2 mln.dollar həcmində bonus ödəməyi və yerdə qalan 10 faizlik payını maliyyələşdirə bilməyi üçün ona kredit verməyi öhdəsinə götürdülər. "İtoçu" "Mak Dermott"un 2,45 faizlik payını və "Penzoyl"un satdığı 5%-in 1,47%-ni aldı. Habelə "Penzoyl" 5%-in digər hissələrini "Ekson"a (3,00%) və "Yunokal"a (0,53%) satdı. Bununla "Ekson" və "İtoçu" da konsorsiuma qatıldılar (Nəticədə iştirakçı ölkələrin sayı 8-ə və şirkətlərinki isə 12-yə çatdı).

Azərbaycan neftinə aid ilk dövlətlər(şirkətlər)arası müqaviləyə dair **ölkədaxili rəylər və beynəlxalq yanaşmalar** müxtəlif oldu. Respublikamızdakı toqquşan rəylər,əsasən, birbirinə uyuşmayan **iki müddəa (tezis)** ətrafında formalaşmışdır: AR-in "neft diplomatiyası"nın ilk böyük uğuru, yoxsa Azərbaycanın milli maraqları və əvvəlki mövqeləri (üstünlükləri) baxımından geriləmə?

AR-in **rəsmi dairələrinin qənaətinə və bir sıra elmi araşdırmaların nəticələrinə** görə "Əsrin müqaviləsi: ölkəmizdə siyasi vəziyyətin sabitləşməsinə müsbət təsir göstərəcəkdi; ABŞ ilə Avropanın ölkəmizin tərəfdaşı olmasına şərait yaradacaqdı; Azərbaycanın geosiyasi təhlükəsizliyini təmin edəcəkdi; sonrakı-digər beynəlxalq neft və habelə qaz müqavilələrinə əsas (stimul) olacaqdı; Xəzəri ilk dəfə olaraq beynəlxalq əməkdaşlığa açacaqdı; dünyada ilk ən böyük transmilli korporasiyanın yaradılmasına imkan verəcəkdi; neftimizin sonralar Əsas İxrac Kəməri vasitəsilə dünya bazarına çıxarılmasını təmin edəcəkdi; neft-qaz istehsalını, respublikamızın kredit qabiliyyətini artıracaqdı və investisiya qoyuluşu riskini azaldacaqdı; onun valyuta ehtiyatlarını zənginləşdirəcəkdi və ölkəmizə sərmayə axınını gücləndirəcəkdi; dünyaya iqtisadi inteqrasiyamızı sürətləndirəcəkdi; AR-ə Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində beynəlxalq təminat əldə edilməsi imkanı verəcəkdi və Ermənistanı ölkəmizə yeni hərbi müdaxilədən çəkindirəcəkdi və s. Müqavilə H.Əliyev tərəfindən "suveren hüquqlarımızın bərqərar olmasının, müstəqil dövlətçiliyimizin , sərvətlərimizə sahib çıxmağımızın dünyaya nümayişi" kimi dəyərləndirilmişdi.

"Əsrin müqaviləsi"ni Azərbaycanın milli maraqlarının dolğun təmin olunmasında **geriləmə və əvvəlki mövqelərin (danışıqlardakı üstünlüklərin) itirilməsi kimi səciyyələndirən baxışlar** da mövcuddur. Bu cür **baxışların istinad etdiyi amillər-dəlillərin** sırasında Rusiyanın maraqlarının təminatına üstünlük verilməsi, "ARDNŞ"-in 30%-lik payının 10%-ə düşməsi, ilkin neft gəlirlərindən qeyri-səmərəli istifadə və s. önə çəkilir. "ARDNŞ"-in payının əvvəlki həcmi, mənfəət neftinin gəlirləri və s. baxımından 1993-cü il (London), xüsusilə iyun və əsasən də noyabr layihələrinin "Əsrin kontraktı" ilə müqayisədə AR üçün daha yüksək faydalılıq əmsalına malik olduğu vurğulanır.

Bu, çoxmilyardlıq layihəyə dair **baxışlar sırasında belə rəylər** də mövcuddur: "neft qoxulu şirin yuxular"; "neft pulları ilə yanaşı, ölkəyə irimiqyaslı korrupsiya və inhisarçılığın gəlişi"; "Avropanın enerji maraqlarının Azərbaycanda demokratik dəyərləri arxa plana keçirməsi və ondan irəli çıxması; "Dağlıq Qarabağ problemi"nin ədalətli həllinə təsir edə biləcək amil olmaması" və s.

Bu kimi baxışlar-dəlillərlə **razılaşmayanlarsa öz qənaətləri və sübutlarını** belə şərh edirlər. Onların fikrincə, əvvəlki iki layihə "kənarda" hazırlanmışdı və baxılmaq üçün "ARDNŞ"-ə verilmişdi (Buna əksmövqeyə görə isə, "Əsrin müqaviləsi"nin layihəsi də, "ARDNŞ"-in iştirakı ilə olsa da, yenə kənarda, yəni danışıqların 2-4-cü raundlarında (İstanbul və Hyustondakı müzakirələrdə hazırlanmışdı). "Əsrin müqaviləsi"ni milli maraqların təminatında geriləmə saymayanlar həm də belə hesab edirlər ki, əksinə, Azərbaycanın neftlə qazancdakı payı 1993-cü il layihəsində az, yəni iyun variantında 62,7%, noyabrdakında isə 53,42% olubdur.

"Əsrin müqaviləsi"nə dair **beynəlxalq mövqelər sırasında isə dörd məqam-yanaşma** diqqəti daha çox çəkir: **1-cisi,** Qərbin (xüsusilə də ABŞ ilə İngiltərənin) məmnunluğu, **2-cisi,** Rusiyanın ziddiyyətli münasibəti, **3-cüsü,** Türkiyənin incikliyi, **4-cüsü,** İranın onu tanımaması.

Müqavilə **ABŞ-ın təmsilçisi** Y.Uayt tərəfindən "Cənubi Qafqazda yeni dövrün başlanğıcı" kimi dəyərləndirilmişdi. "BiPi"nin o vaxtkı prezidenti C.Braunsa müqaviləni "beynəlxalq neft şirkətlərinin Azərbaycana təkrar qayıdışı" saymışdı. İngiltərənin "İndependent" qəzeti yazırdı ki, "Azərbaycan regionda geopolitik balansı saxlamaq üçün öz neftini bir neçə xarici kompaniya arasında bölmüşdür. Amerika tərəfi bunu regionda böyük dönüş və yeni tarixin mühüm bir anı adlandırmışdır".

Rusiyanın siyasi-diplomatik və iqtisadi-maliyyə dairələri müqaviləyə münasibətdə bir-birilə uyuşmayan mövqelər

nümayiş etdirdilər. Belə ki, onun təmsilçisi S.Puqaç sənədin imzalanması mərasimində çıxış edərək müqaviləni "beynəlxalq aləmdə mühüm hadisə və dost Azərbaycan xalqının gələcək tərəqqisinin təminatı" kimi səciyyələndirdi. Halbuki, müqavilənin bağlanmasından dərhal sonra Rusiya XİN-in müavini Q.Karasın bildirdi ki, "birtərəfli hərəkətlər, xüsusilə təbii ehtiyatlar və Xəzər dənizi məsələsindəki işlər beynəlxalq hüquqa ziddir və dənizin ekoloji sistemini təhlükəyə salır; Rusiya bu kontraktı tanımayacaq" (Maraqlıdır ki, Rusiya Xəzərin neft və qazının təksahibi olanda ekologiya heç bir o qədər də yada düşmür və rahatsızlıq yaratmırdı).

Kontraktın imzalanmasının ardınca (22.IX.1994) Rusiya XİN-i A.Kozırev də xüsusi bəyanatla çıxış etdi. Bəyanatda Rusiya hökumətinin "Əsrin müqaviləsi"ni tanımayacağı bildirildi. Belə bir mövqe müqavilənin beynəlxalq hüquqa zidd olması ilə "əsaslandırılırdı". Habelə Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsinədək oradakı yataqların istismarına aid hər hansı bir müqavilənin hüquqi əsasa malik olmayacağı bəyan edilirdi. Rusiyalı (gürcü mənşəli) başqa bir diplomatın, yəni Azərbaycandakı səfir V.Şoniyanın hədə ahəngli açıqlamaları oldu: "Rusiyanın hüquqları barədə gerçəkliyi inkar edən hər hansı bir siyasətçi uzun müddət hakimiyyətdə qala bilməz... Rusiyanı təcrid etmək halları olarsa, bu, xoşagəlməz nəticələr verəcək".

Digər yandan da Rusiyanın Yanacaq və Energetika Naziri Y.Şafrannik "müqavilədə iştirak etməyərək ondan kənarda qalmağın öz dövləti üçün böyük səhv ola biləcəyini" vurğuladı. Müqavilənin payçısı "LUKoyl"un prezidenti V.Ələkbərov Xəzərin statusunun qəti müəyyənləşdirilməsində israr edən dairələrə bunun "son dərəcə mürəkkəb və xeyli vaxt aparacaq məsələ" olduğunu xatırlatmışdı. O, həmçinin yataqların işlənilməsinə artıq başlanılmış olan hazırlıq mərhələsini dayandırmağın çətinliyini də nəzərə almağı vacib saymışdı.

Rusiyanın hakimiyyət dairələrindəki belə bir ziddiyyətli mövqe həmin dövlətin Qafqaza dair imperiya iddialarının (tə-

fəkkürünün) onun iqtisadi maraqlarının təminatı zərurəti ilə toqquşmasının məhsulu kimi də dəyərləndirilir. Bizcə, bu məqam geostrateji planlarla (imperiya iddiaları ilə) vaz keçilməsi mümkün olmayan real iqtisadi maraqlar arasında seçim edilməsi, onlardan hansına üstünlük verilməsi çətinliyi olaraq başa düşülməlidir (Bu halı rəsmi Moskvanın Azərbaycana münasibətdəki növbəti oyunlarından biri də saymaq olar).

Türkiyənin "Əsrin kontraktı"ndan – bir arada hətta ciddi narazılıq səviyyəsinədək yüksələn – **incikliyi** "TPAO"nun müqavilədəki ilk payının azlığı (1,75%) ilə əlaqədar yaranmışdı. Nümayəndəsinin (N.Cövhərinin) müqaviləni "Azərbaycan tarixində dönüş mərhələsi" saydığı Türkiyə kontraktdakı payından məmnun qalmadığını gizlətmədi. Konsorsiuma sonradan daxil olan "LUKoyl"un da "TPAO"-dan dəfələrlə çox mənfəət əldə etmək imkanı qazanması Türkiyə ilə Azərbaycan arasında qısamüddətli soyuqluğa da səbəb oldu. Amma ikitərəfli müzakirələrin nəticəsində "ARDNŞ" öz payının 5%-ni "TPAO"-ya güzəştə getdi. Qardaş dövlətin o zamankı Baş naziri T.Çillərin AR-ə səfəri (12.IV.1995) zamanı Azərbaycanla Türkiyə arasında neft sahəsində əməkdaşlığa dair imzalanan sazişlə bu güzəşt rəsmiləşdirildi.

İranın "Əsrin müqaviləsi"nə qarşı çıxması da maraqlı və təəccüblü görünən **məqamlarla** diqqəti çəkdi. Məlum olduğu kimi, İran ABŞ-ın (onun konsorsiuma üzv olan şirkətlərinin) ciddi müqaviməti üzündən bu müqavilədən kənarda qaldı (saxlanıldı). Buna baxmayaraq, müqavilənin bağlanmasından bir az sonra imzalanan Azərbaycan-İran protokoluna (15.XI.1994) görə, AR Xəzərin ölkəmizə aid sektorunda "İranneft" şirkəti ilə birgə fəaliyyətə əvvəlcədən razılıq verdi və qonşu dövlətə güzəştli şərtlər vəd etdi. Ancaq İran hökumətinin "Əsrin müqaviləsi"nə sonradan qatılmaq səyləri, yəni "ARDNŞ"-in satmaq istədiyi paya sahib olmaq cəhdləri alınmadıqda rəsmi Tehran bu kontraktı tanımadığı barədə xüsusi bəyanatla (IV.1995) çıxış etdi. AR rəhbərliyi bir sıra diplomatik tədbirlərlə İranın kəskin

mövqeyinin qismən yumşalmasına çalışdı. Onun sonrakı (3-cü və 5-ci) beynəlxalq neft müqavilələrində iştirakına müvəffəq ola bilməklə rəsmi Tehranla münasibətlərin daha da gərginləşməsi təhlükəsi hələlik sovuşduruldu.

Müqavilə ətrafındakı müxtəlifyönlü söz-söhbətlərə onun AR-in Milli Məclisi tərəfindən təsdiqlənməsi ilə (15.XI.1994) son qoyuldu. Respublika prezidentinin fərmanıyla isə (2.XII.1994) onun həyata keçirilməsinə rəvac verildi. Konsorsium üzvləri arasındakı "Əməliyyatların birgə aparılması haqqında razılaşmaya" uyğun olaraq tezliklə (I.1995) "Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti" ("ABƏŞ") yaradıldı. Dünyanın 11 neft şirkətinin iştirakı ilə yaradılan bu qurum müqaviləyə əsasən görüləcək işlərin operatoru elan olundu və birgə fəaliyyətin koordinasiyası ona həvalə edildi.

"Əsrin kontraktı" ilə AR-in digər beynəlxalq neft müqavilələrinə də yol açıldı. Qısa müddətdə, yəni 1998-ci ilin sonunadək daha 15 müqavilə bağlandı (1995-1; 1996-2; 1997-5; 1998-7). Həmin **müqavilələrin (konsorsiumların) başlıca səciyyəli cəhətləri, iqtisadi-maliyyə-texniki göstəriciləri** aşağıdakılardan ibarətdir.

İkinci konsorsium — "Qarabağ" müqaviləsi: imzalanması – 10.XI.1995; parlamentdə ratifikasiyası-13.II.1996; konsorsiumun adı "Xəzər Beynəlxalq Əməliyyat Şirkəti" ("XBƏŞ"); iştirakçı şirkətlərin sayı-5; müddəti-25 il; yataq Bakıdan 120 km aralıdadır; müqavilə ərazisi-427 km^2; ehtimal olunan ehtiyatlar: neft-hesablamalar müxtəlifdir, yəni 100-120, 85-152, 80-120, 85-180 mln.ton və qaz 18 mlrd. m^3; sərmayə qoyuluşu-1,7 (və ya 2,0) mlrd. dollar; "Prodakşn şeərinq" tiplidir; pay bölgüsü: "ARDNŞ"-7,5%, "LUKoyl"-12,5%, "ACİP"-5%, "LUKACİP"-45%; "Penzoyl"-30%; "ARDNŞ"-in müqavilədən gəliri-65/80% və alacağı bonusun həcmi-135 mln.dollar; kəşfiyyat işləri yataqdakı güman edilən neft ehtiyatlarını təsdiqləməmişdir; əslində konsorsium ləğv edilmişdir.

Üçüncü konsorsium—"Şahdəniz" müqaviləsi: imzalan-

mışdır—4.VI.1996; paraflanmışdır—4.X.1996; iştirakçıların sayı-6; Bakıdan məsafəsi-55km; yatağın ərazisi-800 km^2; müddəti-30 il; ehtiyatlar: neft-190 və ya 200 mln.ton, qaz-500 mlrd m^3 (1999-cu ildə tamamlanan kəşfiyyat işləri sonuncu göstəricinin 700 mlrd.m^3olduğunu təsdiqləmişdir); dəyəri-3 və ya 4 mlrd.dollar; bonus həcmi-141mln.dollar (37 milyonu ratifikasiyadan 30 gün sonra); yataqda ilkin neftin çıxarılma vaxtı-2004; "Hazır məhsulun bölgüsü" tiplidir; paylaşma nisbəti: "BiPi"/"Statoyl"-51%, "ARDNŞ"-10%, "TPAO"-9%, "LUKoyl"-10%, "Elf Akiten"-10%, "NİOC"-10%; AR-in, İranın da iştirak etdiyi, ilk beynəlxalq neft müqaviləsi; Azərbaycanın siyasi-diplomatik maraqlarına dair məqamlar: **a)** Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesiylə əlaqədar Fransanın ("Elf Akiten"ə pay ayrılmasıyla) və **b)** Xəzərin hüquqi statusuyla bağlı isə Rusiya ("LUKoyl"la əməkdaşlığı davam etdirməklə) ilə İranın (nəhayət ki, "NİOC"un da neftimizə yaxın buraxılmasıyla) zərərsizləşdirilməsi taktikası.

Dördüncü—"Şimali Abşeron" konsorsiumu-"Dan ulduzu/Əşrəfi" müqaviləsi: imzalanmışdır-14.XII.1996; ratifikasiya edilmişdir-26.II.1997; üzvlərin sayı-5; yataqlar hələ 1970-ci illərdə kəşf edilsə də, işlənməmişdi; sahildən 70 km məsafədə-Xəzərdə yerləşir; ümumi sahəsi-453 km^2; ehtimal edilən ehtiyatları: neft-150 mln.ton və qaz-60 mlrd.m^3; sərmayə qoyuluşu-2 mlrd. dollar; müqavilədən olacaq ümumi gəlirdə "ARDNŞ"-in payı-65%; bonusun həcmi-75 mln.dollar; ilkin neftin çıxarılması-2003; "Prodakşn şeərinq" tiplidir; pay bölgüsü: "Amoko"-30%, "Yunokal"-25,5%, "İtoçu"-20%, "ARDNŞ"-20%, "Delta/Nimir"-4,5%; "Qarabağ" yatağı ilə birləşdirilməli idi; fərqli cəhətləri-**a)** digər müqavilələrin əhatə etdiyi yataqlara nisbətən sahilə daha yaxın (70 km) və daha dayaz (suyun dərinliyi 75-200 m) ərazidə yerləşdiyindən gerçəkləşməsini əngəlləyən geosiyasi riskləri sıfra endirir, **b)** "ARDNŞ"-in payı ilk dəfə olaraq 20%-ə çatmışdı, **c)** ABŞ şirkətlərinin 50%-dən çox payla iştirakçı olduqları ilk müqavilədir; **ç)** "LUKoyl"

konsorsiuma qatılmamışdı; **d)** irihəcmli yapon sərmayəsinə yol açırdı; bu yataqlar da ehtiyatlar baxımından ümidləri doğrultmamış və konsorsium ləğv edilmişdir.

Beşinci—"Lənkəran-dəniz"/Talış-dəniz müqaviləsi: H.Əliyevin Fransaya rəsmi səfərinin ilk günündə (13.I.1997) bağlanmışdır; iştirakçıların sayı-6; müddəti -25 il; yataqlar Xəzərin Azərbaycana məxsus sektorunun –Bakı arxipelaqının cənubunda yerləşir; 80-100 (və ya 100-110 mln.ton, yaxud 250 mln.barrel) neft ehtiyatına malikdir; sahilədək məsafə-30 km və suyun dərinliyi isə 10-120 m; dəyəri-2 mlrd.(1,5 də göstərilir) dollar; "Hasilatın pay bölgüsü" tiplidir; ilkin olaraq Fransa şirkətləri ilə ("Elf Akiten"-40% və "Total"-10%) "ARDNŞ" (25%.) tərəfindən imzalanmış, podratçısı əvvəlcədən müəyyənləşməyən 25%-lik pay isə sonralar Almaniya ("Demineks"-10%), İran ("NİOC"-10%) və Belçika ("Portofina"-5%) kompaniyaları arasında bölüşdürülmüşdür; səciyyəvi xüsusiyyətləri-**1)** Azərbaycanın (Xəzərin) "neft kökəsi"ndən Fransaya daha çox (50%) pay ayrılması və "Elf Akiten"in kontraktın operatoru olması. Habelə əvvəlki müqavilələrin ənənəvi qaydada Bakıda ("Gülüstan" sarayında) bağlanmasından fərqli olaraq ilk dəfə ölkəmizdən kənarda-Parisdə ("Yelisey"sarayının "Miyurat" salonunda) imzalanması. Bütün bunlarsa siyasi maraqlardan, yəni erməni diaspora (400 min nəfərdən çox) və lobbisinin güclü olduğu Fransanın Azərbaycana münasibətini yaxşılaşdırmasına nail olmaq mülahizəsindən irəli gəlmişdi. **2)** Karbohidrogen ehtiyatlarımızın kəşfi və hasilatına cəlb olunan xarici şirkətlərin sırasının və onların təmsil etdikləri dövlətlərin (Almaniya və Belçikanın müqavilədə iştirakıyla) coğrafiyasının genişlənməsi. **3)** Xarici şirkətlərin iqtisadi-mənfəət riskinə getmələri, yəni hələ kəşf olunmamış yataqlarla bağlı konsorsium yaratmaları.

Altıncı—"Yalama"/D-222"müqaviləsi: AR prezidentinin Rusiyaya ilk rəsmi səfəri zamanı bağlanmışdır (3.VII.1997); yataq Xəzərin Azərbaycan sektorunun şimal hissəsində yerləşir (Rusiyada "D-222" adlandırılır); "ARDNŞ" ilə "LUKoyl" ara-

sında 40 və 60 faiz pay bölgüsü nisbətində imzalanmışdır; sonradan "LUKoyl" öz maraqlarının (səhmlərinin) müəyyən hissəsini LukArko (Rusiya-ABŞ, 1998-ci ildə yaradılmışdır), şirkətinə güzəştə getmişdir; kapital qoyuluşu 1,5 mlrd.dollar həcmində müəyyənləşdirilmişdir; hesablanmış ehtiyatları-100 mln.tondan çox neft və 15 mlrd.kubmetrdən yuxarı isə qaz; fərqli məqamları:**a)** "ARDNŞ"-in 40 faizlik payla iştirak etdiyi ilk müqavilədir; **b)** Rusiyanın maraqları dolğun təmin edilmişdir.

AR prezidentinin ABŞ-a ilk rəsmi səfərinin (VII-VIII.1997) gedişində "Energetika sahəsində dövlətlərarası dialoqun yaradılmasına dair saziş" (1.VIII.1997) imzalandı. Habelə bu səfər zamanı **"ARDNŞ" ilə ABŞ şirkətləri ("Şevron", "Ekson", "Mobil")** arasında ölkəmizdə neft-qaz emalına dair **üç müqavilə** bağlandı (Azərbaycan tərəfindən onları dövlət şirkətinin vitse-prezidenti İ.Əliyev 1997-ci il avqustun 1-də imzaladı). Vaşinqtonda-"Ağ ev"in "Ruzvelt otağı"nda bağlanan həmin müqavilələr AR parlamenti tərəfindən təsdiqləndikdən (5.XII.1997) sonra qüvvəyə mindi. ABŞ-dakı ikitərəfli neft danışıqları prosesində həm də "ARDNŞ" ilə "Amoko" arasında tərəfdaşlıq müqaviləsi razılaşdırıldı (Buna əsasən, "Amoko"ya 2 mlrd.barrel neft ehtiyatlarına malik olduğu ehtimal edilən "İnam" strukturu (perspektivli sahəsi) ilə bağlı danışıqlar aparmaq üçün müstəsna hüquqlar verildi). Müqavilələr üzrə görüləcək işlərin dəyəri 10 mlrd.dollardır.

Azərbaycanın **beynəlxalq neft kontraktlarının, ABŞ-da bağlanan müqavilələrlə davam etdirilən, silsiləsinin (seriyasının)** qısaca şərhi aşağıdakıları açıqlamağa imkan verir.

Yeddinci müqavilə: onu "ARDNŞ" ilə "Şevron" bağlamışlar; kontrakt Xəzərin cənubundakı "Abşeron" (keçmiş "Tağıyev") neft yatağının istismarını nəzərdə tutur; ümumi sahəsi-300 km^2-dən çoxdur, suyun dərinliyi isə 250-6000 metrdir; ehtiyatları: 150 mln.ton neft; pay bölgüsü: "ARDNŞ"-50%, "Şevron"30% (qalan 20% isə "Total"a verilmişdir); operatoru "Şevron"dur; ilk kəşfiyyat quyusunun 1999-cu ilin axırlarında qazılması planlaşdırılırdı.

Səkkizinci kontrakt: "Ekson"la imzalanmışdır; Xəzərin cənubundakı "Naxçıvan" (keçmişdə "D-3") geoloji strukturunun-perspektivli sahəsinin işlənməsinə aiddir; sahəsi-180 km^2, suyun dərinliyi isə 90-480 metrdir; ehtiyatları-150 mln.ton neft və 200 mlrd m^3 qaz; tərəflərin payı faizlə yarıbayarı, yəni 50-50-yədir; operatoru "Ekson"dur.

Doqquzuncu müqavilə: "Mobil"lə bağlanmışdır; Xəzərdə-Bakıdan 19 km məsafədə yerləşən-"Oğuz" blokunun perspektiv geoloji strukturunun işlənməsini nəzərdə tutur; yatağın sahəsi-225 km^2; ehtiyatları-120 mln.ton neft; tərəflər yenə də bərabər paya malikdirlər; operatoru "Mobil"dir.

AR-in 1997-ci ilin sonunadək bağladığı **9 beynəlxalq neft müqaviləsi ilə bağlı bəzi ümumiləşdirmələr** də aparmaq mümkündür. Müqavilələrin:

- həyata keçirilməsi nəticəsində yaxın 25-30 il ərzində 1 mlrd.tona yaxın neftin istehsal edilməsi və illik hasilatın 2005-ci ildə 40-46 mln.tona çatdırılması planlaşdırılmışdı;
- müddəti 25-30 illik dövr üçün nəzərdə tutulmuşdu. (Dünya təcrübəsində bu müddət 66-99 ilə hesablanır);
- tipi "Prodakşn şeərinq"dir ("Hasilatın pay bölgüsü"dür; onun əsas cəhətləri: **a)** investisiya qoyuluşu; **b)** hazır məhsulun bölüşdürülməsi; **c)** vergilər);
- gerçəkləşdirilməsi prosesində "ABƏŞ"-in "Əsrin müqaviləsi"nə əsasən "Çıraq" yatağında ilkin nefti çıxarması və onun Bakı-Novorossiysk ("Şimal") ixrac kəməriylə nəqli ilə **Azərbaycanda 3-cü neft bumunun başlanğıcı** qoyulmuş oldu.

Azərbaycan neftinin tarixində 1998-ci ilin ayrıca yeri vardır. Çünki həmin ildə "ARDNŞ" xarici şirkətlərlə 7 müqavilə (10–16-cı) bağlamışdır. Buna görə **1998-ci ili "neft diplomatiyamızın beynəlxalq müqavilələr ili"** kimi də dəyərləndirirlər. Həmin ildə bağlanan 7 müqavilənin ilki AR-in beynəlxalq kontraktlarının say etibarı ilə 10-cusu hesab olunur.

Onuncu müqavilə: Bakıda keçirilən 5-ci beynəlxalq "Xə-

zərneftqaz" sərgisi müddətində (2.VI.1998) imzalanmışdır; Xəzərin Azərbaycan sektorundakı "Kürdaşı" blokunun işlənməsi barədədir; yataq 3 perspektiv strukturdan ibarətdir: I ("Kürdaşı")-100 mln.tondan çox neft ehtiyatına malikdir, dəyəri 2,5 mlrd.dollar həcmində müəyyənləşdirilmişdir, Bakıdan 130-140 km cənub-şərqdə yerləşir, suyun dərinliyi 10-60 m olmaqla, sahəsi 550 km^2-dir, 1948-ci ildə kəşf edilmiş və sonralar orada müəyyən geofiziki tədqiqatlar aparılmışdır; II ("Araz dəniz")-sahildən 45 km aralıdır, 1955-ci ildə kəşf olunmuşdur, suyun dərinliyi 70-200 metrə çatır; III ("Hirkan dəniz") - sahildən 50 km məsafədədir, suyun dərinliyi 150-500 metrdir, 1985-ci ildə aşkar edilmişdir; operatoru İtaliyanın ENİ/ACİP şirkətidir, onun müqaviləyə qatılması və ümumiyyətlə, bu kontraktın əsası əslində H.Əliyevin Romaya səfəri zamanı imzalanan (25.IX.1997) "Niyyət Memorandumu" ilə qoyulmuşdur; pay bölgüsünün nisbəti: "ARDNŞ"-50%, "ENİ/ACİP"-25%, "Mitsui"(Yaponiya-15%), "TPAO"-5%, "Repsol" (İspaniya - 5%, sonradan qoşulmuşdur).

On birinci müqavilə: imzalanmışdır – 2.VI.1998; quruda yerləşən "Cənub-Qərbi Qobustan" yatağını əhatə edir; ehtiyatları – 20 mln.ton neft; sərmayə qoyuluşu-800 mln.dollar; yataq üç blokdan ibarətdir-"Şimal" 1905-1960-cı, digərləri ("Mərkəz"lə "Sahil") isə 1949-1965-ci illərdə kəşf olunmuşlar; şirkətlərin iştirak payı: "ARDNŞ"-20%, "Komonvels" (Kanada)-40%, "Yunion Teksas" (ABŞ)-40%, o həm də operatordur).

On ikinci müqavilə: Azərbaycanın qurudakı 2-ci neft yatağının ("Kürsəngi/ Qarabağlı"nın) işlənməsi barədədir; baza prinsipləri 1998-ci il iyunun 2-də razılaşdırılmış, müqavilənin özü isə həmin ilin 15 dekabrında "Frontera Resoyrses"lə (ABŞ-30%) və 1999-cu il yanvarın 23-də "Delta/Hess"lə (Səudiyyə Ərəbistanı/ABŞ-20%) bağlanmışdır; ARDNŞ-in payı 50%-dir; ehtiyatları-20 mln.ton neft; investisiya həcmi-800 mln.dollar.

"ARDNŞ" daha üç müqaviləni AR prezidentinin İngiltərəyə rəsmi səfəri zamanı (21.VII.1998) bağlamışdır. **"London müqavilələri"** də adlandırılan bu kontraktlar Xəzərin Azərbaycan sektorundakı bir sıra perspektiv strukturların işlənməsini nəzərdə tutur. AR-in qanunu (26.XII.1998) ilə qüvvəyə minmişlər. Onlardan birincisi ümumi say etibarı ilə beynəlxalq neft müqavilələrimizin 13-cü hesab olunur.

On üçüncü müqavilə: "İnam" perspektiv strukturunun istismarını nəzərdə tutur; yataq (dəniz bloku) Bakıdan 160 km cənubdadır; sahəsi-225 km^2-dir; ehtiyatları-1,4 mlrd. barrel (190 mln.tondan çox) neft; dəyəri-1,5 mlrd.dollar; müddəti-25 il (daha 5 ilə uzadıla bilər; pay bölgüsü: "ARDNŞ"-50%, "Amoko" (1-ci və 4-cü müqavilədən sonra 3-cü iştirakdır, o həm də operatordur)-25%, "Monument Resorsez" (İngiltərə)-12,5%, "Sentral Fyuel" (Rusiya-12,5%).

On dördüncü müqavilə: üç perspektiv sahəni ("Araz", "Alov", "Şərq") əhatə edən kəşfiyyat blokunun işlənməsi barədədir; Bakıdan 120 km cənub-şərqdə yerləşir; sahəsi-1400 km^2, suyun dərinliyi isə 300-800 metrdir; ehtiyatları-900 mln.ton olmaqla, dəniz səthindən 2500-6500 m dərinlikdədir; müddəti-25 il; sərmayə qoyuluşu-3,5 mlrd.dollar; ilk quyunun 1999-cu ildə qazılması planlaşdırılırdı; pay bölgüsü: "ARDNŞ"-40%, "BiPi"(o həm də operatordur) və "Statoyl"-hərəsi 15% (onlar "Əsrin kontraktı"nda və "Şahdəniz"də də iştirak etmişlər), "TPAO"-10% (onun qatıldığı 4-cü müqavilədir), qalan 20%-in sahibi isə hələlik müəyyənləşməmişdi.

On beşinci müqavilə: quru ərazisində istismara aid 3-cü kontraktdır; üç perspektiv strukturun daxil olduğu "Muradxanlı" blokunun (ümumi sahəsi-565 km^2, neft ehtiyatları-13 mln.ton, dəyəri-800 mln.dollar) işlənməsini nəzərdə tutur: I ("Muradxanlı")-Bakıdan 240 km cənub-qərbdədir, 1971-ci ildən istismar olunur, əvvəllərdə qazılan 125 quyudan 75-i işləkdir, 2 mln.673 min ton neft çıxarılıb, ehtiyat qalığı-524 min ton, II ("Cəfərli")-İmişlidən 18 km şimaldadır, 1974-cü ildə aşkarlanıbdır, çıxarılan neftin həcmi -337 min ton, ehtiyat qalığı -274 min ton; III ("Zərdab"-Bakıdan 273 km cənub-qərbdə yerləşir, 1981-ci ildən işlənir, ehtiyatı-639 min ton;pay bölgü-

sü: "ARDNŞ"-50%, "Remko"-50% (o, həm də operatordur, neftimizə müasir dövrdə nüfuz edən ilk xarici şirkətdir, "ABƏŞ"-in yaradıcılarındandır).

On altıncı müqavilə: Bakıda ("Gülüstan"sarayında) imzalanmışdır – 25.XII.1998; tərəfləri – "ARDNŞ" və Yaponiyanın 4 şirkəti ("İtoçu" və s.); Xəzərin Azərbaycan sektorundakı "Yanan tava", "Atəşgah", "Muğan-dəniz" blok/yatağının istismarını nəzərdə tutur; sahəsi-510 km^2; neft ehtiyatları 75-90 mln.ton həcmində hesablanmışdır; sərmayə qoyuluşu-2,3 mlrd.dollar; pay bölgüsü: "ARDNŞ"-50%, Yaponiya neft şirkətləri-50% ("İtoçu" birinci konsorsiumda-"Əsrin müqaviləsi"ndə də iştirak edibdir); xərclərin hamısının xarici şirkətlər tərəfindən ödənilməsi planlaşdırılırdı.

Beləliklə, qısa müddətdə, yəni 5 il (1994-1998) ərzində 14 dövlətin 30 şirkəti ilə 16 beynəlxalq neft-qaz müqaviləsi bağlandı. Həmin müqavilələr əsasında ölkəmizin iqtisadiyyatına (neft və digər sahələrə) 47,2 mlrd.dollar sərmayə qoyuluşu nəzərdə tutulur. Kontraktlar 2,5-3,5 mlrd.ton neft çıxarılmasını planlaşdırır. Artıq 2009-2010-cu illərdə 50 mln.ton neft və 25 mlrd. m^3 qaz hasilatı ehtimal edilir. Digər məlumatlara görə isə 2002-ci il üçün "ARDNŞ" 15 dövlətin 33 kompaniyası ilə 22 müqavilə bağlamışdı. Bunlar da yaxın 20 ildə neft ixracını gündəlik 1 mln.barreldən 2 mln. barrelə çatdırmağı nəzərdə tutur. Respublikamızın müqavilələrdən əldə edəcəyi minimum gəlirin 147-215 mlrd. dollara yetişəcəyi gözlənilir. Dövlət başçısı İ.Əliyev ölkəmizin neft gəlirlərinin qarşıdakı 20 ildə 140 mlrd.dollar təşkil edəcəyini bildirmişdir.

Xəzərin hüquqi statusu ətrafında diplomatik çəkişmələr

Postsovet dönəmində **Xəzər regionunda da yeni geosiyasi durum** yaranmışdır. Belə ki, Xəzəryanı ərazilərdəki dövlətlərin (Rusiya və İran) siyahısına yeniləri də (Azərbaycan, Qazaxıstan, Türkmənistan) əlavə olunmuşdur. Özlərinin tarixən mövcud olan dövlətçiliklərini növbəti dəfə bərpa etməklə onlar yenidən beynəlxalq münasibətlərin (hüququn) subyektlərinə çevrilmişlər. Digər tərəfdən də, region həm geosiyasi önəminə, həm də zəngin enerji ehtiyatlarına görə böyük və qonşu dövlətlərin nüfuz dairələri uğrundakı çəkişmələrinin obyekti olmuşdur. Belə bir şərait Xəzərin hüquqi statusu və onun yanacaq-enerji ehtiyatlarının istismarı, nəqli məsələlərini çağdaş dövlətlərarası münasibətlərin gündəminə gətirmiş, müasir diplomatik qarşıdurmanın başlıca "nifaq alması" etmişdir.

Bütövlükdə, "Xəzər və onun hüquqi statusu problemi" beynəlxalq – regional güclərin iqtisadi maraqlarının toqquşmasından daha çox onların nüfuz dairələri uğrunda savaşı məsələsidir. Buna görə də Xəzər hövzəsindəki çağdaş beynəlxalq qarşıdurma, bir tərəfdən, **"Neft soyuq müharibəsi"**, digər yandan da, çoxşaxəli güclərin geostrateji maraqların gerçəkləşdirilməsinə yönəlik **"Böyük oyun-əzələ nümayişi"** kimi səciyyələndirilir. Hələ 1556-cı ildə Həştərxan xanlığının ilhaqı ilə Xəzərin şimal sahillərində möhkəmlənən Rusiya XIX yüzillikdəki işğalları ilə hövzədə tam (şəriksiz) sözsahibi oldu. Belə vəziyyət cüzi istisnalarla (çarlığın dağılması nəticəsində yaranan qısamüddətli yeni regional geosiyasi şərait çıxılmaqla) XX əsrin 90-cı illərinin əvvəlinədək davam etdi.

Bu zaman kəsiyində **Xəzərin hüquqi statusu,** əsasən, **Rusiya-İran münasibətləri müstəvisində** həllini tapmışdı. Yəni onlar arasında bağlanan (1881) müqavilə ilə Xəzər Astara-Həsənqulu xətti üzrə bölüşdürüldü. Sovet Rusiyasıyla İranın bağladıqları digər bir müqavilə ilə (26.II.1921) əslində Türkmənçay, 1881 ci il və s. sazişlər qüvvədən düşdü. Ancaq Sovet Rusiyası, özünün geostrateji maraqlarını və müəyyən siyasi mülahizələri əsas tutaraq, elə həmin müqavilə ilə də İranın Xəzərin cənub sahillərindən istifadə hüququ almasıyla razılaşdı. Bu hüquq SSRİ-İran sazişiylə (III.1940) təkrarlansa da,

1953-cü ilədək Xəzərin cənub zonasındakı neft ehtiyatları yalnız Sovetlər İttifaqı tərəfindən istismar edildi. Həmin ildə Xəzərin İran sektoru Astara-Həsənqulu xətti üzrə təsdiqləndi. SSRİ-nin dağılması və Xəzər hövzəsində dövlətçiliklərin bərpası onun yeni hüquqi statusunun müəyyənləşdirilməsini zəruri etdi. Və bu zaman Xəzəryanı dövlətlərin və hövzədə maraqlı olan **beynəlxalq-məhəlli güclərin** məsələyə dair **fərqli baxışları, mövqeləri** ortaya çıxdı.

Xəzəryanı dövlətlərin mövqeləri və yanaşmalarındakı format-qütbləşmə prosesi belə bir axarla getdi: öncə-2 ("İkilik" -Azərbaycan, Qazaxstan) +3 ("Üçlük": Rusiya, Türkmənistan, İran); sonra-3 (Azərbaycan, Qazaxıstan, Rusiya)+1(Türkmənistan)+1(İran); hazırda isə- 4 (Azərbaycan, Qazaxıstan, Rusiya, Türkmənistan; sonuncu ilə bağlı bəzi məqamlar istisna edilməklə)+1(İran). Problemin mahiyyətinin tam aydınlaşdırılması üçün tərəflərin mövqelərini açıqlayan müddəa-prinsip-dəlillərin nəzərdən keçirilməsi lazım gəlir. Öncə, dövlətlərin Xəzəri coğrafi cəhətdən dəyərləndirmələrindəki bu kimi fərqli yanaşmalar qeyd olunmalıdır: Azərbaycan-"millətlərarası sol" və ya "sərhəd gölü"; Rusiya- "xüsusi (daxili) dəniz".("Açıq dəniz" də hesab edilirdi); Qazaxıstan-"qapalı dəniz"; Türkmənistan-"açıq dəniz"; İran-"açıq dəniz".

Azərbaycan "Xəzər göl, yoxsa dənizdir?" mübahisəsində birinci yanaşmanı əsas tutaraq onun orta xətt üzrə milli sektorlara bölünməsini təklif edir. Bu zaman habelə son əsrlərin tarixi təcrübəsinə, yəni vaxtilə bağlanan Rusiya/SSRİ-İran müqavilələrinə istinad olunur. Belə ki, həmin müqavilələrin (1924, 1925, 1927, 1957, 1963, 1972, 1980) heç birində Xəzərin bərabər hissələrə bölünməsi və buna əsasən də onun ortasında ümumi istifadə üçün neytral zona yaradılması nəzərdə tutulmamışdı. Hətta SSRİ hökumətinin 1970-ci ildən tətbiq etdiyi iş təcrübəsi və bölgü də sahilyanı respublikaların coğrafi hüdudlarına uyğun, yəni bir növ milli sektorlar üzrə aparılmışdı. Nəticədə Azərbaycana 80 min km^2, Türkmənistana təxminən bi-

zimki qədər, Qazaxıstana 113 min km^2, Rusiyaya isə 64 min km^2 ayrılmışdı. Hazırda Xəzərin (sahillərinin) 29 faizi Qazaxıstana, 21 faizi Azərbaycana, 20 faizi Türkmənistana, 16 faizi Rusiyaya, 14 faizi isə İrana məxsusdur. Digər məlumata görə isə, İrana 13%, Türkmənistana 19% düşür. AR tərəfinin məntiqinə görə, artıq mövcud siyasi reallıqlara və beynəlxalq hüquqa uyğun gələn bölgü (təcrübə) olduğundan sahilyanı dövlətlər rəsmi statusun müəyyənləşməsini gözləmədən də öz sularında (milli sektorlarında) sərbəst şəkildə işlər görə bilərlər.

Qeyd etmək lazımdır ki, su səthi 437000 km^2 olan Xəzər-dəniz və ya "qapalı dəniz" kimi qəbul edilərsə, onda ona müasir beynəlxalq hüququn normaları tətbiq olunmalıdır. Bu halda bölgüyə dair xüsusi (ayrıca) sazişə ehtiyac qalmır. Yəni dənizlərin BMT-nin məlum konvensiyasının müddəalarından irəli gələn bölünmə qaydası mexaniki (avtomatik) olaraq Xəzərə də şamil edilə bilər. Yerin ən iri qapalı su hövzəsi sayılan Xəzərin göl sayıldığı təqdirdə (və, çağdaş beynəlxalq normalara görə, bütün belə hallarda) sahilyanı dövlətlər arasında hüquqi status və bölgü ilə əlaqədar xüsusi müqavilənin bağlanması tələb olunur.

Araşdırmaçı-ekspertlərin (E.Nəsirov, R.Məmmədov və b.) fikrincə, hətta Xəzərin yeni hüquqi statusunun onun dəniz sayılması halında təsdiqlənməsi də orta xətt üzrə bölünmə prinsipinin tətbiqini zəruri (tələb) edir. Çünki Xəzərin dəniz statusu əsasında bölünməsi ciddi problemlər yarada bilər. Bu zaman "Dənizin statusu, ərazi suları və ona yaxın zona haqqında "Cenevrə" (1958) və "Dəniz hüququ haqqında" BMT (1982) konvensiyalarının başlıca şərt-prinsiplərinin Xəzərin "dəniz statusu"na uyğunlaşmayacağı ortaya çıxır. Yəni adıçəkilən sənədlərdə müəyyənləşdirilən nəzarət zonaları bölgüsü okean dənizlərindən çox kiçik olan Xəzərdə anlaşılmazlıq və qarma-qarışıqlıq törədər. Belə ki, bu cür "dəniz statusu" şəraitində Xəzəryanı dövlətlərin daxili suları (24 mil) + ərazi suları (12 mil) + ərazi sularına yaxın zonaları (24 mil) + kontinental şelfi (200 m

dərinliyədək sular) + xüsusi iqtisadi zonaları (200 mil) bölgüsündə onların milli sektorları qarışır (iç-içə olur). Bu hala isə Cenevrə konvensiyasının 12-ci maddəsi də imkan vermir: "Bir neçə dövlətin zonaları toqquşduqda heç bir dövlət öz ərazilərini orta xətdən o tərəfə keçirə bilməz".

Azərbaycan tərəfi Xəzərin bir "millətlərarası göl" və ya "sərhəd gölü" olması, buna görə də sahil dövlətləri arasında orta xətt üzrə milli sektorlara bölünməsinə dair mövqeyini dəfələrlə müvafiq toplantılarda (X.1993, X.1994 və s.) ortaya qoydu. Həmin dövlətlərin XİN-lərinin Xəzərin hüquqi statusuna dair Aşqabad konfransında (XI.1996) bu təklif bir daha və qəti olaraq müdafiə edildi. **(Xəzərin göl sayılmasına dair gətirilən əsas dəlillər:** okeana çıxışı yoxdur, yəni qapalı su hövzəsidir; hövzənin heç bir çayı xariclə dəniz əlaqələrini təmin etmir, Volqa-Don kanalı süni kanalı olub, daxili sulara aiddir. (Sözgəlişi, SSRİ dönəmində Xəzərdə suyun səviyyəsinin azalmasının qarşısını almaq üçün Ob, Yenisey və s. çayların əks istiqamətdə axıdılmasına dair təklif irəli sürülmüşdü). Bunu da xatırlatmağa ehtiyac vardır ki, tarixdə xeyli göl mübahisələri və razılaşmaları olmuşdur. Məsələn, Konstans və ya Baden gölünə aid Bavariya, İsveçrə, Baden arasında 1867-ci il, Cenevrə gölü ilə bağlı İsveçrə-Sardiniya (1818) sazişləri olmuşdur, ABŞ və Kanada Böyük göllərlə əlaqədar razılığa gəlmişlər).

Xəzəri "qapalı dəniz" sayan və BMT-nin məlum 1982-ci il Konvensiyasının ona da aid edilməli olduğunu bildirən **Qazaxıstan** Azərbaycanla təxminən eyni (qismən də özünəməxsus) mövqedə dayanaraq bu məsələdə **AR ilə "İkilik"** təşkil etdi. Onun diplomatlarının hələ 1993-cü ildə hazırladıqları müqavilə layihəsində Azərbaycanın maraqları və mövqeyi ilə uzlaşan müddəalar öz əksini tapmışdı. Öncə qeyd edilən Aşqabad konfransında isə Qazaxıstan beynəlxalq norma və qaydalara uyğun olaraq Xəzərdə ərazi sularının və balıqçılıq zonalarının sərhədlərinin müəyyənləşdirilməsini, onun təkinin (dibinin) isə milli sektorlara bölünməsini təklif etdi.

Rusiya isə Türkmənistan və İranla "Üçlük" təşkil etdiyi müddətdə Xəzərdə özünün əvvəlki üstün mövqelərini saxlamağa yönəlik siyasət yürütməkdə israrlı oldu (Kreml bir müddət İranla birlikdə əsas tutduğu **"kondominium prinsipi"**nə üstünlük verdi). Onun **mövqe-yanaşmasını** səciyyələndirən və açıqlayan **başlıca müddəalar (tezislər)** bunlardır:

- Xəzər "xüsusi (daxili) dəniz"dir, unikal (xüsusi) qapalı su hövzəsidir;
- sahil dövlətlərinin ümumi sərvətidir və onlar arasında paylaşdırıla bilməz;
- milli sektorlar 45 millik zonalarda mümkün ola bilər. Yəni "qoğal" prinsipinə əsasən həmin məsafələrdən kənarda qalan orta sahə- "qoğal"ın ortasına düşən hissələr - birgə istifadə üçün ümumi əmlak hesab olunmalıdır;
- orta hissədəki yanacaq-enerji ehtiyatları sahil dövlətləri tərəfindən birlikdə istismar edilməlidir;
- hüquqi statusun müəyyənləşməsinədək aparılan geoloji kəşfiyyat, qazma işləri və s. yanlışdır,yolverilməzdir.

Bu kimi **müddəa və şərtlərin "sübut-isbatı" üçün istinad olunan "dəlillər"** də əsla inandırıcı görünmür:

1-cisi, Xəzərin yeni dünya düzənindəki-regional geosiyasi durumdakı indiki hüquqi statusunu Rusiyanın (SSRİ-nin) İranla bağladıqları Türkmənçay, 1921-ci və 1940-cı illər müqavilələri əsasında tənzimləmə istəyi beynəlxalq hüquqla, sahilyanı dövlətlərin heç də hamısının maraqları ilə uyuşmur. Habelə Türkmənçay müqaviləsi vaxtılə qüvvədən düşmüş elan olunmuşdur. SSRİ də artıq mövcud deyildir. Daha sonra burada qeyd edilən və həmçinin göstərilməyən sazişlər ticarət, balıqçılıq və s. məsələləri nizamlamış, karbohidrogen ehtiyatları yataqlarının işlənməsini əhatə etməmiş, yalnız o zamankı iki sektoru (Sovet və İran) nəzərdə tutmuşdur.

2-cisi, az öncə də vurğulandığı kimi, SSRİ dönəmində Sovet sektorunun respublikalar arasındakı bölgüsü postsovet dövründə də problemlərsiz fəaliyyətə (hüquqi statusun razılaş-

dırılmasınadək) yarayır. Yəni sahilyanı dövlətlərin Moskva konfransında (X.1994) Rusiya XİN-i təmsilçisinin "birtərəfli hərəkətlər qarşıdurmaya və ziddiyyətlərə səbəb olacaqdır" xəbərdarlıq-hədəsi yaşanan (keçilən) mərhələ prizmasından baxdıqda özünü çox da doğrultmadı. Çünki artıq xeyli müddətdir ki, hər bir sahilyanı dövlət hüquqi statusu hələ də müəyyənləşdirilməmiş Xəzərdə öz işlərini görməkdədir.(Rusiyanın bəzi təhdidləri, Türkmənistanla müəyyən anlaşılmazlıqlar, İranın vaxtaşırı demarşları istisna edilərsə tərəflər arasında elə bir ciddi qarşıdurma baş verməyibdir).

3-cüsü, Rusiya bu cür çoxlu müddəa-"dəlil"-bəhanələrlə əslində Xəzərin yanacaq və digər ehtiyatlarından istifadənin yalnız onun iştirakı və nəzarəti ilə olmasına çalışır. Həmçinin "Xəzərin hüquqi statusu oyunu" ilə Qərbin, yəni ABŞ ilə Avropanın (Aİ-nin) hövzəyə nüfuz etməsini, regiondakı proseslərə təsir göstərməsini əngəlləmək məqsədini güdür.

Azərbaycanın ilk beynəxalq neft müqaviləsinin "Hyuston variantı"nın artıq "Əsrin kontraktı"na çevrilməkdə olduğu bir zamanda xeyli fəallaşan **Rusiya tədricən reallıqları** (qatarın yola düşdüyünü) **nəzərə almaq məcburiyyətində** qaldı. Yavaş-yavaş əvvəlki inadkar mövqedən geri çəkilmə, "İkilik"ə "güzəştlərə gedilməsi" və onun tərəfini tutma hiss olinmağa başladı. Bu diplomatik akt özünü Kremlin Xəzəryanı dövlətlərin Xarici İşlər nazirlərinin Aşqabad konfransında (XI.1996) açıqlanan mövqeyində ifadə etdirdi. Rusiyanın o zamankı baş diplomatı Y.Primakov konfransda Xəzərdə ərazi sularının 40-50 mil enində müəyyənləşdirilməsini (milli sektorlara qismən bölünməni) və dənizin belə bir paylaşmadan kənarda qalan böyük (orta) hissəsinin isə sahil dövlətlərinin ümumi mülkiyyəti hesab olunmasını məqbul saydıqlarını bildirdi.

Rəsmi Moskvanın, qismən yeni görünən, bu mövqeyinin "Üçlük"ün digər tərəflərinin, yəni İranla Türkmənistanın da dəstəkləmələrinə baxmayaraq Aşqabad toplantısında Xəzərin hüquqi statusuna dair ümumi razılıq olmadı. Belə ki, Xəzəryanı

dövlətlərin müvafiq konvensiyasının imzalanması zəruri sayıldı. Habelə "Üçlük" XİN-lərinin Xəzərin çoxşaxəli təbii ehtiyatlarından birgə istifadə barədəki əməkdaşlığa dair Memorandumа "İkilik" qoşulmadı. Bu, inadlı mövqedə, yəni Rusiyanın təzyiqləindən müdafiədə isə ABŞ-ın "İkilik"ə ciddi dəstəyi mühüm rol oynadı. Rəsmi Vaşinqton Xəzərin təbii ehtiyatlarının mülkiyyətçiləri məsələsinə tam və obyektiv yanaşacaq müqaviləni müdafiə edəcəyini bəyan etdi.ABŞ həmçinin Rusiyanın Xəzərin ehtiyatlarından birgə istifadəyə dair təklif-layihəsini də məqbul saymadı (Bu cür yanaşma birgə istifadənin İran və digər sahil dövlətlərinə verə biləcəyi "veto" hüququnun sonralar əngəlləyici amilə çevrilmə ehtimalı ilə izah olunurdu) .

Türkmənistan öncə "Üçlük"də olsa da özünəməxsus (qismən fərqli) mövqe tutdu. O, "sovet boşanma prosesi"ndən sonra Qərbin transmilli şirkətləri vasitəsilə hamıdan əvvəl Xəzərin neft ehtiyatlarının istismarına başlayan (əslində bu işi davam etdirən) Azərbaycanın göldəki bəzi yataqlarına iddia etdi. Başqa sözlə, ölkəmizə qarşı ərazi iddiaları irəli sürdü. Konkret olaraq da Azərbaycanın Xəzərdəki şelf yataqlarına: "Çıraq"ın (keçmiş "Kaveroçkin"in; türkmən adı-"Osman") qismən və "Azəri"nin (əvvəlki "26 Bakı komissarı"nın; türkmən adı-"Xəzər", "Ömər" də deyirlər) tamamilə onunku olduğunu bildirdi. Habelə "Kəpəz" (türkmən adı-"Sərdar") yatağına dair AR-in Rusiya şirkətləri ("LUKoyl", "Rosneft") ilə hasilatın bölgüsünə dair kommeriya prinsiplərinin əsasları barədəki sazişinə (1997) kəskin etiraz edildi (Sözgəlişi, Rusiya özünün "Üçlük"dəki tərəfdaşının həmin yatağın SSRİ dönəmindəki respublikalararası bölgüyə görə Aşqabadın mülkiyyətində olmasına dair dəlilini əsas tutaraq müqaviləni birtərəfli qaydada qüvvədən saldı (31.VIII.1997).

Adıçəkilən yataq Xəzərin türkmən şelfinin mənimsənilməsinə dair keçirilən beynəlxalq tenderin ilk raundunda "Mobil" şirkəti (ABŞ) tərəfindən udulsa da, kompaniya "Azərbaycanla körpüləri yandırmamağa" üstünlük verdi; yəni müvafiq

müqavilə bağlanmadı. Bu məsələlərlə bağlı İƏT-in Aşqabad sammitinin (1996) gedişində Türkmənistan prezidenti S.Niyazov (Türkmənbaşı) Azərbaycanın dövlət başçısı H.Əliyevlə apardığı müzakirələrdə "Azəri" və "Çıraq"ın guya respublikamızın tabeliyindəki zonalardan kənarda qalmasına dair sovet delimitasiya xəritəsini göstərsə də yeni təklif irəli sürmüşdü. Türkmənbaşının qənaətinə görə, kompromis səciyyəli həmin təklif ixtilafları nizamlamaya hazır olmanı və kompensasiya almağı əsas tuturdu.

S.Niyazovun təşəbbüsü ilə Qazaxıstan prezidenti N.Nazarbayevlə aparılan ikitərəfli danışıqlarda (II.1997) da Türkmənistanın mövqeyində diqqətçəkici dəyişiklik (obyektivliyə doğru irəliləyiş) olmuşdu. Türkmənbaşı ilə N.Nazarbayev verdikləri birgə bəyanatda və imzaladıqları sənəddə bunları razılaşdırdılar: Xəzərin Sovet dönəmindəki respublikalararası (milli) sektorlara bölünmə prinsipi rəhbər tutulur; dənizin statusunu tənzimləyən ümumi konvensiyanın qəbulunadək onun orta xətdən delimitasiyası qəbul edilir; tərəflər öz sektorlarının hüdudlarında neft hasilatı ilə məşğul ola bilərlər və s.

Göründüyü kimi, Türkmənistan Xəzərin mineral ehtiyatlarının sektorlara bölünmə əsasında mənimsənilməsinə dair xeyli müddət ərzində yaranan təcrübədən yayınmağın (onu inkarın) mümkünsüzlüyü ilə razılaşmalı oldu (Bu zaman habelə sahilyanı digər dövlətlərin, o sıradan da Azərbaycanın öz sektoru ilə bağlı müəyyən işləri gördüklərini nəzərə almaq lazım gəldi). Beləliklə, Türkmənistanın Xəzərin statusuna (delimitasiya, mülkiyyət və s. məsələlər) dair mövqeyində köklü dəyişiklik baş verdi: **"kondominium konsepsiyası"ndan "orta xətt prinsipi"nə** keçildi. Türkmənistan XİN-in müavininin bununla bağlı rəsmi açıqlamasından birində bildirilirdi: kondominium əvvəllər qaneedici idi; Xəzəryanı dövlətlərin müvafiq əməli fəaliyyəti üzündən o, məna və önəmini itirmişdir; 1998-ci ilin başlanğıcından dənizin milli sektorlara bölgüsünə tərəfdarıq; mövcud beynəlxalq təcrübəyə uyğun olaraq həm dib,

həm də suyun səthi bölünməlidir; sahilyanı dövlətlərin müvafiq milli sektorları onların suverenliyi altında olmalıdır; sektorlar hövzədəki yanaşı və qarşı dövlətlər arasında orta və yan xətlərlə müəyyənləşdirilir (yaradılır).

Ancaq bu mövqe dəyişikliyi **Türkmənistan-Azərbaycan arasında** tam anlaşma və uzlaşma yaratmadı. Əksinə, mövcud mübahisələr vaxtaşırı diplomatik qarşıdurma həddinə çatdı. Dövlərlərarası dəniz sərhədlərinin-orta xətt koordinatlarının müəyyənləşdirilməsi üçün yaradılan (I.1998) ikitərəfli komissiyanın (ekspertlər qrupunun) fəaliyyəti də problemləri aradan qaldırmadı. Hətta ölkəmizə aid "Kəpəz" yatağında bütün işlər dayandırıldı və Türkmənistanın hərbi təyyarələri onun üzərində keşik çəkməyə başladılar. Bütün bunlar isə rəsmi Aşqabadın "orta xətt" ("mediana") prinsipinə özünəməxsus yanaşması və bu əsasda da Xəzərin Azərbaycana aid sahillərinin çıxış baza xətlərini tanımaqdan imtinasından irəli gəlirdi.

Rusiyanın "Xəzər məsələləri üzrə" özəl təmsilçisi V.Kalyujnının Bakı, Aşqabad və Tehrana **turnesi (2000)** də Türkmənistanın "status siyasəti"ndəki qeyri-obyektiv, anlaşılmaz məqamların davam etməkdə olduğunu təsdiqlədi. Missiyanın gedişində rusiyalı diplomat **bir sıra təkliflər** irəli sürdü: Xəzəryanı dövlətlərin vahid strateji enerji mərkəzinin yaradılması; Xəzərin problemləri (gəmiçilik, ekologiya, bioresurslar, sahil xətti koordinatının müəyyənləşdirilməsi) düyününün mərhələlərlə açılması; mübahisəli neft yataqlarına münasibətdə "50-50-yə" prinsipindən istifadə olunması; postsovet məkanında (yəni İransız) Xəzərin təkinin və səthinin delimitasiyası vəs.).

V.Kalyujnının bu səfəri Rusiya ilə Türkmənistanın Xəzər siyasətindəki uzlaşmadan aralanmanı - fərqli yanaşmaların mövcudluğunu təsdiqlədi. Belə ki, o, Bakı danışıqlarında Türkmənistanın Azərbaycana məxsus "Azəri","Çıraq","Günəşli" yataqlarını mübahisəli saymasını əsla dəstəkləmədi. Habelə mübahisəli neft-qaz yataqlarının, o cümlədən də Azərbaycanla

Türkmənistanın iddia etdikləri – ehtiyatları təqribən 1 mlrd. barrel olan- "Kəpəz"in birgə işlənməsini istədi.

Gərginliyi ilə diqqətçəkən **Aşqabad müzakirələrində** isə Türkmənistanın az öncəki tərəfdaşını (Rusiyanı) "başa düşməməsi" ortaya çıxdı. Belə ki, "50-50-yə" prinsipinə məhəl qoyulmadı (R.Məmmədovun araşdırmalarına əsasən qeyd etmək olar ki, onun tətbiqi belə bir şəraiti formalaşdıra bilər: neft yatağına iddia edən ölkələrdən ikincisi (Türkmənistan) birinciyə (Azərbaycana), yəni Xəzərin dibində karbohidrogen ehtiyatlarının tapılması və çıxarılması ilə əvvəldən məşğul olan qonşu dövlətə artıq çəkilmiş olan xərclərin yarısını ödəyir. Türkmənistan bu prinsipi qəbul edəcəyi halda "Çıraq" yatağından nefti axıdan Azərbaycana və onun sərmayədarlarına sanballı məbləğ ödəməli olardı. Sözsüz, həmin prinsipin müəyyən qüsurları da vardır. Başlıcası isə o, kompromis variant olaraq tərəfləri yanaşmanın ədalətinə inandıra bilmir. Çünki "50-50-yə" beynəlxalq hüququn nəzəriyyə və praktikasında yeni müddəadır, əvvəllər heç vaxt tətbiq olunmayıbdır, buna görə də hətta doktrinal əsasa da malik deyildir. Amma bu qayda beynəlxalq hüquqa zidd olmadığından onun tətbiqi hardasa müsbət səmərə verə bilər. Digər yandan da, hər hansı bir yenilik aralarında ərazi mübahisələri olan dövlətlər tərəfindən pis qarşılanır. Buna görə də hələlik presedenti olmayan bu cür beynəlxalq hüquqi müddəanın öyrənilməsi, dərk olunması və əməli tətbiqinin nəticələrinin aydınlaşdırılması üçün müəyyən zamana ehtiyac vardır).

Türkmənistanda həmin qaydanı (normanı) V.Kalyujnının "Bakı danışıqlarının məhsulu" saydılar və Azərbaycanın xeyrinə ola biləcəyini önə çəkdilər. Bunun yanlış olduğunu Qazaxıstanla oxşar problemli Rusiyanın-Türkmənistandan fərqli olaraq-münaqişəyə deyil, kompromis həllə üstünlük verməsi də sübut edir. Həmçinin Rusiyanın Xəzəryanı postsovet ölkələrin dənizin gələcək statusuna dair vahid platformasının yaradılması ideyası Türkmənistanla İranın mövqelərinin sıxışdırılması kimi qarşılandı. Rusiyalı diplomatın "Xəzərin bölüşdürülməsi- hər

şeydən əvvəl MDB üzvü olan dörd sahilyanı dövlətin problemidir" fikrinə rəsmi Aşqabad İranın da bəzi "istəkləri"nin nəzərə alınması təklifi ilə qarşılıq verdi. Bununla da, bir növ, Xəzərə dair vahid platformanın formalaşdırılması məsələsində İranla birləşən Türkmənistan V.Kalyujnının təşəbbüslərini dənizin "problemlərinin mürəkkəb kompleksini bir sıçrayışla həll etməyin həddən ziyadə gecikmiş cəhdi" kimi səciyyələndirdi.

Bütün bunlara görə də o dövrdə Rusiyanın rəsmi dairələrində və KİV-lərində "Mobil" şirkəti iki stulda oturmaq, yəni Azərbaycanla münasibətlərə ziyan vurmadan Türkmənistanla əməkdaşlıq niyyətindədir", "Kəpəz" kimə məxsusdur?", "Moskva ilə Aşqabad arasında qarşıdurmanın yeni mərhələsi", "Türkmənbaşı səbatsız oldu", "Xəzər beşliyi" yaradılacaqmı?", "Moskvanın blokadası", "Xəzərin iti sahilləri: Aşqabad və Tehran Moskvanın dənizin problemlərinin tənzimlənməsinə dair təklifləri ilə razı deyillər", "Xəzərdə təkcə nefti deyil, həm də siyasi nüfuzu bölürlər", "Aşqabad Bakı ilə mübahisə edir və Tehranı dəstəkləyir", "Xəzəri ədalətlə bölmək lazımdır", "Rusiya Türkmənistan-Azərbaycan ziddiyyətlərinin girovu ola bilməz" və s. bu kimi **mövqelər tutulmuş, fikirlər səsləndirilmişdi**.

Bu kimi məqamları da nəzərə alan R.Məmmədov və digər beynəlxalq hüquq mütəxəssisləri Türkmənistanın Xəzərdə Azərbaycana qarşı əsassız iddialarının dəf olunmasının, onlar arasındakı "status mübahisələri"nin həllinin mövcud dünya təcrübəsinə istinadən gerçəkləşməsini məsləhət görürlər. Və, bu zaman da, **tarixboyu formalaşan dünya təcrübəsinin əsaslandığı** "hüququn ümumi prinsipləri" rəhbər tutula bilər. Qədim Roma hüququna dayanan bu prinsiplər- "uti possidetis uta possideatis" və ya "uti possidetis sic possideatis", "ərazinin keçmişdə (daha əvvəl) əldə olunması və mənimsənilməsi", "sahibliyin qədimliyi", "ərazinin mənsubiyyətinə susqun razılıq", onu dinməzcə tanıma (etiraf), "estoppel" və s.- dövlət sərhədləri olan göl, dəniz, çaylarla bağlı ikitərəfli və lokal təcrübədə

tətbiq olunmuş, sınaqdan çıxarılmışdır.

Beynəlxalq hüquqda ərazi mənsubiyyətinin müəyyənləşdirilməsinin əsas amilləri sayılan həmin prinsiplərin Xəzərin bölünməsi sahəsindəki mübahisələr, xüsusilə də Türkmənistanın ölkəmizə iddiaları baxımından şərhi də önəmlidir."Uti possidetis uta possideatis" hərfi mənada "madam ki, sən sahib olmusan, demək sən indi də sahib ola bilərsən" kimi tərcümə edilir. "Uti possidetis sic possideatis" isə "nəyə sahibsinizsə, ona da sahiblik edin" mənasını verir. XIX əsrin əvvəllərindən-ispan imperiyasının dağılmasından sonra başlanan Amerikanın müstəmləkəsizləşdirilməsi prosesindən-etibarən müntəzəm tətbiq olunan **"uti possidetis"** prinsipindən o vaxtlar (Qvatemala-Honduras, 1821) və (Kolumbiya-Peru, 1829), habelə sonralar (Seneqal-Qvineya Bisau; 1989) və (Salvador-Honduras, 1992) geniş istifadə olundu. Ümumiyyətlə, imperiyaların çökməsi prosesində daha çox ortaya çıxan ərazi-sərhəd mübahisələrinin həllində işə yarayan bu prinsip SSRİ-nin dağılması və postsovet məkanı şəraitində də nəzərdən keçirilməkdədir.

Bir çox ekspert-mütəxəssislərin fikrincə, Türkmənistanla Azərbaycanın sovetdənqalma xəritələrinin, yəni SSRİ hökumətinin Xəzərdə 1970-ci ildən tətbiq etdiyi bölgünün müəyyənləşdirdiyi sərhədlərin qarşılıqlı qəbul olunmazlığı halında son söz beynəlxalq hüquq doktrinasına və təcrübəsinə qalır. Çünki həmin bölgü də dövlətlərarası təcrübədəki "orta xətt qaydası"nın tətbiqi ilə həyata keçirilmişdir (Doğrudur, o zaman sərhədlər tam dəqiqliyi ilə müəyyənləşdirilmədiyindən və xəritə şərti tərtib olunduğundan postsovet məkanı müstəvisində Rusiya ilə Qazaxıstan, Türkmənistanla Azərbaycan arasında məlum mübahisələr ortaya çıxdı. Birincilər arasındakı mübahisələr çox tezliklə anlaşma ilə (kompromislə) yekunlaşdığı halda, ikincilərin ixtilafları hələ də davam etməkdədir).

Amma Xəzərdə sərhədayırmanın tam dəqiqliklə aparılmasının mürəkkəbliyi (ən peşəkarcasına bölgünün belə yenə də mübahisələr doğuracağı) üzündən beynəlxalq hüquq mütəxəssisləri "uti possidetis"ə müraciəti çıxış yolu sayırlar (Hərçənd ki, V.Kalyujnının "50-50-yə" prinsipi də bu niyyətlə təklif edilmişdi. Həmin prinsip-qaydaya görə isə ərazi-yatağı "kim birinci işlətmişsə o, əvvəllərdə çəkilən bütün xərclərin 50 %-nin tələbi hüququna malikdir və yalnız bundan sonra sahib dəyişə bilər". Az öncə də qeyd edildiyi kimi,"50-50-yə" yanlış yanaşma olmayıb, kompromis səciyyə daşıyır, amma tam ədalətli görünmür. Buna görə də, mütəxəssislər "uti possidetis"ə üstünlük verirlər).

"Sahibliyin qədimliyi" prinsipi -"qədimliyin fasiləsizliyi" anlayışı da nəzərə alınmaqla – Türkmənistanla Azərbaycan arasındakı "Xəzər mübahisələri"nin nizamlanmasında faydalı ola bilər. Bunun yetərli əsasları var. Yəni Xəzərdəki neft ehtiyatlarının, demək olar ki, hamısı 1940-cı illərin sonundan başlayaraq Azərbaycan tərəfindən kəşf edilmişdir. Həm də onlar aşkarlandıqları vaxtdan etibarən öncə Sovet Azərbaycanının, sonradan isə müstəqil dövlətimizin daimi sahibliyində olmuşdur. (Burada "sahibliyin fasiləsizliyi" də gözönündədir).

"Susqun tanıma-razılıq" prinsipindən də vaxtilə ərazi mübahisələrinin həllində yararlanılmışdır. Bu prinsipin mahiyyəti bir dövlətin müəyyən ərazidəki bəzi fəaliyyətinə digər, yəni həmin əraziyə hansısa hüququ olan, əgər belə hüququ yoxdursa da, onu əldə etməyə çalışan dövlətin "susqun razılığı"ndan ibarətdir. Xəzərin karbohidrogen ehtiyatlarının istismarına dair tarixi təcrübə Türkmənistanın özününkü saydığı ərazidə Azərbaycanın neft axtarışı və çıxarılması sahəsindəki fəaliyyətini, bəzi istisnalarla, susqunluqla etiraf etdiyini (tanıdığını) təsdiqləyir. Yəni Azərbaycan yarım əsrdən artıq bir müddətdə (və indi də), necə deyərlər, "türkmən suları"nda neft yataqlarının mənimsənilməsi ilə məşğuldur (Doğrudur, bu zaman sovet dönəmindəki xüsusi hal, yəni ümumi bir dövlətin tərkibində olma nəzərə alınmalıdır).

Çağdaş beynəlxalq hüququn ümumi prinsiplərindən biri də qədim Roma hüququndan qaynaqlanan **"estoppel"**dir. Onu

və "susqun razılıq"ı "bir atanın uşaqları", yəni bir-birlərini qarşılıqlı şərtlənmiş olaraq tamamlayan prinsiplər kimi səciyyələndirən elmi yanaşmalar mövcuddur. "Estoppel" qaydasına görə, bir dövlət beynəlxalq hüququn digər subyektinə aid əvvəllər tanıdığı mülkiyyət hüququ faktını inkar etməməlidir və buna ixtiyarı yoxdur (Vyana konvensiyasının 12-ci maddəsinə və çağdaş beynəlxalq hüququn normalarına əsasən də, dövlətlər arasındakı əvvəlki müqavilələr dəyişməyənə (yeniləriylə əvəzlənməyənə) qədər keçmiş razılıqlar etibarlı sayılır). Bütün bu cəhətlərdən də Xəzərdəki hər bir yatağa xüsusi sertifikat verilməsi, lisenziyaların və quyuların nömrəsinin müəyyənləşdirilməsi, kəşf edənin zəmanətilə ona müvafiq ad qoyulması qaydası Azərbaycana xeyli sübutlar, dəlillər verir.

Bütün bu yuxarıda yazılanlardan göründüyü kimi, Türkmənistanın Azərbaycanın "Azəri","Çıraq","Kəpəz" yataqlarına iddiaları heç bir hüquqi-faktiki və tarixi-mənəvi əsaslara (dəlil-sübutlara) söykənmir.Bunlara məhəl qoymayan Türkmənistanın bəzi hərəkətləri gərginliyi daha da artırdı. **İlk Xəzər sammitində (Aşqabad, IV.2002)** S.Niyazov Azərbaycanı Xəzərdə onun ölkəsinə "aid olan" yataqları mənimsəməkdə (Türkmənistana meydan oxumaqda) təqsirləndirdi. Onun "Xəzərdən qan iyi gəlir" ifadəsi dövlətlərarası hərbi münaqişə törətməyə getməkdən belə çəkinilmədiyini göstərirdi. Bir ara hətta dövlətlərarası diplomatik münasibətlər də kəsildi və sonradan bərpa edildi).

Xəzəryanı dövlətlərin başçılarının növbəti (Tehran, X.2007) sammiti də mübahisələr şəraitində keçdi. Sammitdə bir **sıra fikirlər səsləndirilib** və təkliflər irəli sürülübdür. **V.Putin** Xəzərdə güc tətbiqini yolverilməz sayaraq dialoq yolunu önə çəkibdir. Bu kontekstdə də sahil dövlətlərinin hər hansı birinə təcavüz zamanı digərinin öz ərazisindən istifadəyə imkan verməməsi qeyd edilibdir. Rusiya prezidenti Xəzərin dibinin milli sektorlara bölünməsinə razılıq versə də, su səthinin paylaşdırılmasına qarşı çıxıbdır (Bu hal mümkünsüzdür, çünki suyun səthindən birgə istifadə gərəksiz əngəllər, çətinliklər və

s. yarada bilər).

İran əvvəlki kimi yenə də Xəzərin bərabər bölgüsündə israr edibdir. **Türkmənistan** Xəzərdə birtərəfli işlər görmək təcrübəsinə (bununla da Azərbaycana) qarşı çıxıbdır. AR prezidenti Xəzərin su səthinin də bölüşdürülməsini məqsədəmüvafiq bilibdir. **Qazaxıstan prezidenti** Xəzərin bölüşdürülməsinə dair öz modelini təklif edibdir: 12 mil ərazi suları və 25-30 mil balıqçılıq zonası + ümumi su məkanı. Bu zaman ərazi sularının xarici hüdudlarının dövlət sərhədləri kimi götürülməsi məsləhət bilinibdir. N.Nazarbayev habelə "nərə kvotası"nın dəyişdirilməsinin vacibliyini vurğulayıb və İİR-ə 45 faiz, Rusiyaya 27% və digər 3 dövlətə isə yerdə qalan hissəni, yəni 28% bölgüsünü ayrı-seçkilik kimi dəyərləndiribdir.

Sammitdə Xəzərdəki neft-qaz qurğularının mühafizəsi, terrorçuluğa qarşı birgə mübarizə məqsədilə də müəyyən təkliflər səsləndirilibdir. Qazaxıstan **" Xəzərdə stabillik paktı"**nın yaradılmasını problemin həlli yollarından biri kimi təklif edibdir. İran stabillik və qarşılıqlı etimad barədə razılaşma əldə olunmasını zəruri tədbir sayıbdır. M.Əhmədinejad tərəfləri Xəzəryanı dövlətlərin **İqtisadi Əməkdaşlıq Şurasının yaradılmasına** çağırıbdır. Rusiya isə **"Kasfor" birgə hərbi-dəniz qüvvələrini yaratmağa** üstünlük verdiyini açıqlayıbdır (Bununla o, heç olmazsa, Xəzərin su səthini özünün iqtisadi-hərbi nüfuz dairəsinə çevirməyə çalışır. Bunun habelə ABŞ-ın **" Xəzərin mühafizəsi" ("Caspian Guard") təhlükəsizlik proqramına** qarşı olduğu da məlumdur. İran buna razı olsa da, məsələnin Xəzərin hüquqi statusunun həlli müstəvisində razılaşdırılmasını istəyir. Zirvə görüşündə Xəzəryanı dövlətlərin başçılarının və XİN-lərinin müntəzəm görüşləri barədə təklif bütün iştirakçılar tərəfindən dəstəkləndi. Habelə növbəti sammitin Bakıda keçirilməsi razılaşdırıldı. **Azərbaycan** tərəfi isə İİR, Rusiya və Qazaxıstanın irəli sürdüyü bölgü planlarının ümumiləşdirilmiş variantını hazırlayıb **Bakı sammitində** müzakirəyə çıxarmağı vacib bildi.

Tehran sammitindən sonra **Azərbaycanın kompromis variant**, yəni mübahisəli "Kəpəz"("Sərdar") yatağının birgə işlədilməsinə dair Türkmənistana etdiyi təklifin müzakirələri də nəticəsiz qaldı. (Bu müzakirələrin alınmasında Türkmənbaşıyla nisbətən konstruktiv mövqe tutan — mübahisələrin danışıqlar yolu ilə həllinə üstünlük verən — indiki prezident Q.Berdımuhammedovun da səyləri də rol oynadı). Danışıqlarda konsensusa gəlinməməsinin günahını da Azərbaycanda görən Türkmənistan Xəzərin dibinin bölünməsi, yəni mübahisəli neft-qaz yataqları ilə bağlı uzunçəkən (on ildən bəri) və çoxsaylı (16 dəfə) ikitərəfli müzakirələri dayandırmışdır.

Türkmənistan Nazirlər Kabinetinin xüsusi iclasında (23.VII.2009) müzakirədən sonra **Beynəlxalq Arbitraj Məhkəməsinə (BAM-a) müraciət** edilməsi qərara alınıbdır. Qərarın əsaslandırılması və məqsədi ilə əlaqədar olaraqsa bu kimi açıqlamalar edilmişdir: öncə AR-in iradlarının (hüququnun), həmçinin xarici neft-qaz şirkətlərinin yataqların mənimsənilməsində iştirakının qanuniliyinin beynəlxalq ekspertlərlə aydınlaşdırılması; sonra da BAM-a müraciət olunması. (Onun istənilən qərarının tanınacağı bildirilir. Həmçinin qərarın mübahisələrin danışıqlar yolu ilə həllinin mümkünsüzlüyü və son variant (çıxış yolu) kimi məhkəməyə müraciət olunması zərurəti üzündən qəbul edildiyi dəaçıqlanır).

Bəzi analitik yazılarda qeyd edilir ki, Türkmənistanın BAM-a müraciət etməklə ən çoxu danışıqlarda hansısa əlavə üstünlük qazana bilər. Ancaq eyni zamanda məhkəmənin onun xeyrinə qərar çıxarması danışıqlar prosesinə əlavə problemlər yaradar və Azərbaycan-Türkmənistan münasibətlərindəki arzu olunmayan – soyuqluğu daha da artırar.

Hazırda bir neçə başlıca beynəlxalq arbitraj məhkəmələri fəaliyyət göstərdiyindən Türkmənistanın Beynəlxalq Ticarət Palatası yanındakı BAM-a üstünlük verəcəyi güman olunur. Tanınmış ekspertlərin fikrincə isə, hazırkı şəraitdə hətta BAM-ın da Xəzərdəki mübahisəli yataqlarla bağlı qərar çıxarması çox

mürəkkəb məsələdir. Çünki bu məsələ indiki halda beynəlxalq məhkəmənin deyil, ikitərəfli siyasi danışıqların müzakirə predmeti ola bilər.

Buna görə də, ən azından, Xəzərin statusu ilə bağlı sahilyanı dövlətlərin siyasi danışıqlarının nəticələrini gözləmək lazım gəlir. Xəzərlə bağlı mövcud (hələ ki) beynəlxalq sənədlər SSRİ-nin hüquqi-normativ aktları qəbul olunur. Həmin aktlara görə, "Azəri" və "Çıraq" yataqları Xəzərin AR-ə aid sektorunda yerləşir. Mübahisəli "Kəpəz" yatağı isə, bir yandan, vaxtilə Azərbaycan neftçiləri tərəfindən kəşf edilmişdir. Digər tərəfdən də, Türkmənistanın AR-in ərazisi olaraq tanımadığı hüdudlarda, yəni milli sektorların kəsişməsində yerləşir. Bu məqam da mütləq nəzərə alınmalıdır ki, arbitraj məhkəməsi məsələyə yalnız hər iki tərəfin razılığı ilə baxa bilər (Sovetlər İttifaqının bölgü sənədlərində "Aralıq" adlandırılan "Kəpəz" yatağı da Azərbaycanın sektorunda idi). Bütün bunlar da belə bir qənaətə gəlməyə əsas verir ki, BAM-a müraciət təhdidi Q.Berdımuhammedovun siyasi gedişidir. Və, o, Qərbin "Nabucco"nun zərbə almaması, əksinə, gerçəkləşməsi üçün tərəfləri (ən çoxu da, Azərbaycanı) kompromislərə yönləndirməsinə, bu əsasda AR-dən güzəştlər qoparılmasına hesablanmışdır.

Arada Türkmənistan rəhbərliyi ölkədə "casus ovu"na da çıxmışdır. "Casus qalmaqalı"na əsasən ölkənin "neft-qaz sirlərini Azərbaycana satan" kəşfiyyat şəbəkəsi aşkar edilmişdir. Bütün bunlarla kifayətlənməyən **rəsmi Aşqabad hətta Xəzərdə iki hərbi baza yaratmağı** planlaşdırır. (Son məlumatlara görə, onun hərbi-dəniz qüvvələri təxminən 2 min nəfərdən (600 dənizçi), 12 katerdən və 1 tral gəmisindən ibarətdir). Türkmənistan Təhlükəsizlik Şurasının genişləndirilmiş iclasında (27.VII.2009) ölkənin dəniz sərhədlərinin mühafizəsinin möhkəmləndirilməsi tədbirləri müzakirə və müəyyən edilmişdir. Onların sırasına dövlətin dəniz akvatoriyasının lokator və optik sistemlərlə müdafiəsi mexanizminin qurulması, torpedo tipli raketlərlə silahlandırılacaq müasir hərbi katerlərin alınması,

vaxtaşırı hərbi-dəniz təlimlərinin keçirilməsi və s. daxildir. 2015-ci ilədək başa çatdırılması nəzərdə tutulan başlıca tədbirlər planı, başqa sözlə, Xəzərdə hərbi gücə malik olmaq proqramı bir sıra reylər yaratmışdır.

1-cisi, bunun Türkmənistanın "neytral dövlət statusu" ilə uyuşmadığı qeyd olunur.

2-cisi, Türkmənistanın Xəzərdə (sahildə) hərbi-dəniz bazası yaradılması ideyası yeni olmamaqla yanaşı, dövlətin bəzi niyyətlərinin reallaşdırmasına hesablanıbdır. Xəzər hövzəsində Türkmənistanla qonşuları (o cümlədən Azərbaycan) arasında hərbi münaqişə ehtimalının çox aşağı olduğunu vurğulayanlar (Rusiyanın "Kommersant" qəzetinin baş redaktoru A.Mirzəliyev və b.) B.Muhammedovun hərbi-dəniz bazasının yaradılmasına dair bəyanatını "ciddi danışıqlar ərəfəsi diplomatik gediş" kimi dəyərləndirirdilər (Burada, öncəliklə, MDB-nin 4 Xəzəryanı dövlətinin Aktauda keçiriləcək (X.2009) sammiti nəzərdə tutulurdu).

3-cüsü, rəsmi Aşqabadın son hərəkətlərinin arxasında İranın dayandığını iddia edənlər də az deyil. Həmçinin bu addımların - "Nabucco"nun gerçəkləşdirilməsində əsla maraqlı olmayan- Rusiya ilə də uzlaşdırıldığını düşünənlər vardır.

4-cüsü, Q.Berdımuhammedovun bəyanatplanına soyuqqanlı yanaşan Azərbaycan tərəfi bu kimi addımların rəsmi Aşqabadın Xəzərlə (yataqlarla) bağlı iddialarını qarşıdurma müstəvisinə keçirməyə hazırlaşmasından xəbər verdiyini bildirir. AR Xəzərin hərbiləşdirilməsinin əleyhinədir. Məlumdur ki, Xəzərdə indiyədək yalnız Rusiyanın daimi hərbi-dəniz bazası vardır. Keçmişdə Rusiya (SSRİ) ilə bağladığı müqavilələrə əsasən Xəzərdə hərbi qüvvə saxlamaq hüququna malik olmayan İranın da son zamanlarda müəyyən proqramlar hazırladığı bəllidir. Azərbaycanla Qazaxıstan da Xəzərdə daimi hərbi baza statuslu dəniz qüvvələrinə malik deyillər. Onların Xəzərdəki sərhədlərinin mühafizəsi ABŞ-ın NATO-nun dəstəyi ilə gerçəkləşdirilən bir sıra proqramlar vasitəsilə təmin olunur.

NATO **Qazaxıstanı "Şimali Atlantika Alyansının Cənubi Avropa donanmasının məsuliyyət zonası"**na daxil etməklə onun hərbi-dəniz qüvvələrinin sürətli inkişafına rəvac vermişdir. BTC (neft) və BTƏ (qaz) kəmərlərinin təhlükəsizliyi, İranla hərbi qarşıdurma ehtimalı və Rusiya ilə çoxşaxəli rəqabət üzündən ABŞ Xəzər hövzəsinə diqqəti artırmışdır. Bu kontekstdə də Pentaqonun 2005-2010-cu illəri əhatə edən "Xəzərin mühafizəsi" ("Caspian Guard") proqramına əsasən Azərbaycanın sərhədlərinin radioelektron lokasiya müdafiəsinin gücləndirilməsi və hərbi-dəniz qüvvələrinin sərhəd qoşunlarının NATO standartları səviyyəsinə çatdırılmasına yönəlik tədbirlər həyata keçirilir. Mütəxəssislər Azərbaycanın da Xəzərdə hərbi mövcudluğunun möhkəmləndirilməsinin tərəfdarıdırlar. Onlar AR-in Xaçmaz-Dəvəçi və Lənkəran-Astara zonalarında orta dəniz bazalarına malik olmasını vacib sayırlar. Habelə ölkəmizin dəniz akvatoriyasının yetərli qorunması məqsədilə Bayıl'da və ya başqa yerdə hərbi dəniz gəmi tərsanəsinin qurulmasının da zərurət olduğu bildirilir.

Arbitraj məhkəməsinə müraciət qərarından sonra Türkmənistan həmçinin Xəzərin bölünməsinə dair rəsmi mövqeyini bir daha açıqlayıbdır (əslində təkrarlayıbdır). XİN-in açıqlamasında Xəzərin bölünməsində orta xətt prinsipindən istifadə olunması və bu zaman Abşeron yarımadası ilə Çilov adasının nəzərə alınmaması istənilmişdir. Türkmən diplomatiyasına görə, həmin ərazilərin nəzərə alınması ilə Azərbaycanın payına Xəzərin daha çox hissəsi düşə bilər. Türkmənistanın bu yeni üsulu-iddia-şərtinin əsassızlığı Azərbaycan XİN-i tərəfindən yetərli dəlil və sübutlarla təkzib olunubdur. AR-in Xəzərin statusu ilə bağlı danışıqları aparan nümayəndəsi, XİN-in müavini X.Xələfovun məlumatları və qənaətinə görə:

- Türkmənistanla ikitərəfli danışıqlar çərçivəsində Xəzərin dibinin bölünməsi (əsas prinsiplər, orta xəttin koordinatlarını müəyyənləşdirən elementlər, bazis nöqtələri və s.) müzakirə olunur;

- Abşeron yarımadası və Çilov adası Xəzərdə dövlətlərarası orta xəttin koordinatlarını müəyyənləşdirən vacib coğrafi-hüquqi elementdir. Belə ki, Abşeron yarımadası 60 km uzunluğunda Xəzərə girir və orada AR-in paytaxtı yerləşir, ölkə əhalisinin üçdə birindən çoxu yaşayır. Bunlar da yarımada üçün dominant coğrafi xüsusiyyət yaradır. O, əhəmiyyətli sahil xüsusiyyəti göstəricisi kimi də Xəzərin delimitasiyası cəhətdən zəruri coğrafi elementdir. Türkmənistanın iddia etdiyi kimi təsadüfi və ya xüsusi *hal deyil*, ölkəmizin təbii ərazisinə xas səciyyəvi cəhətdir. Çilov adası 7 km uzunluğa və 5 km enə malik olmaqla, sahildən 8 mil məsafədə (Xəzərdə) yerləşir. Adada əhali yaşayır və iqtisadi fəaliyyət var. O, coğrafi yerləşməsinə görə dövlətimizin materik sularının tərkib hissəsi və davamıdır. Bu cəhətdən də, Türkmənistanla orta xəttin qurulmasının əsasını təşkil edən düz bazis xətləri sisteminin bir hissəsidir və AR-in sahil konfiqurasiyasına aiddir;
- nüfuzlu beynəlxalq məhkəmələrin (Haaqa və digər) mövqelərinə əsasən də, coğrafiya təftiş oluna bilməz və təbiətin yaratdığı səciyyəvi cəhətlərə görə güzəştlər məsələsinə baxıla bilməz. Bütün, bu, yuxarıda sadalananlara görə də, orta xəttin müəyyənləşdirilməsi və çəkilməsində onların təsirinin azaldılması (şübhə altına salınması) və, ümumiyyətlə, nəzərə alınması beynəlxalq hüquqa və dünya təcrübəsinə ziddir;
- Türkmənistanın iddiaları, başqa sözlə, Xəzərin bölgüsü prinsipləri və üsullarına yenidən baxılması tələbi tamamilə əsassızdır.

Azərbaycan diplomatı AR hökumətinin "Kəpəz"lə bağlı mövqeyini bir daha təkrarlayaraq bildirmişdir ki, hələ sovet dövründə tətbiq olunan orta xətt prinsipinin tətbiqinə əsasən orta xətt yatağın ərazisini kəsərək keçir. Buna əsasən də o, iki dövlətin sərhədlərinin qovşağına düşübdür. Sovet dönəminin "Aralıq" (indiki "Kəpəz") yatağı da Azərbaycanın sektoruna daxil idi.

Türkmənistanın yataqlarla bağlı BAM-a müraciət hədəsi, Q.Berdımuhammedovun Xəzərdə hərbi baza yaradılacağına dair bəyanatı, XİN-in dənizdə orta xəttin "yeni metodika" ilə müəyyənləşdirilməsinə dair təklifini rəsmi Aşqabadın zəifliyi kimi səciyyələndirən yanaşmalara da rast gəlinir. Nyu-Yorkdakı "Platts" analitik-informasiya mərkəzinin enerji təhlükəsizliyi üzrə eksperti C.Roberts belə hesab edir ki, rəsmi Aşqabadın yataqlarla bağlı mübahisələri BAM-a çıxarmağa razılaşmasının özü elə "ilk və ən mühüm element"dir. Onun qənaəti belədir ki, "Aşqabad əslində güzəştə gedib və bunu beynəlxalq məhkəmə ilə pərdələyir" (Türkmənistanın bu və digər sərt ruhlu tədbirlərinin, ölkə rəhbərliyinin kəskin ahəngli bəyanatlarının sırf daxili səbəblərdən irəli gəlməsi və iç auditoriya üçün nəzərdə tutulması da ehtimal olunur).

Amerikalı ekspertin fikrincə, Türkmənistan orta xəttin müəyyənləşdirilməsinə dair öz "prinsip-metod"unu Azərbaycana qəbul etdirə bilməyəcəkdir; "orta xətt hüquqi düstur deyil". C.Roberts dünya təcrübəsində orta xətlərin cari şəkildə sahildəki mövcud dəyişikliklərin və kompasdakı cəhətlərin hamısının nəzərə alınmasıyla çəkildiyini vurğulamışdır. O, həmçinin Türkmənbaşının vaxtında yalnız şərq və qərb cəhətlərinin əsas götürüldüyünü və digərlərinə isə məhəl qoyulmadığını da xatırladaraq belə yanaşmanın heç bir arbitraj tərəfindən qəbul edilməyəcəyi fikrini önə çəkmişdir.

Hansısa arbitrajın Abşeron kimi əhəmiyyətli ölçüdəki quru ərazini nəzərə almamasını təsəvvürünə belə gətirmədiyini bildirən ekspert rəsmi Aşqabadın beynəlxalq hakimlərin qərarına (hökmünə) əməl edəcəyinə dair vədini isə müsbət və çox vacib məqam sayır. Onun xülasəsi-qənaəti isə belədir: **rəsmi Aşqabad beynəlxalq arbitraja getməklə** yataqlar uğrunda axıradək mübarizə aparacağını nümayiş etdirir və "özünün pərtlikdən xilasına" çalışır; bu addım rəsmi Aşqabadın güzəştə getməsi də sayıla bilər; Türkmənistan rəhbərliyi amerikalıların və son vaxtlarda orada fəallaşan alman şirkətlərinin də tövsiyəsi

ilə arbitraj məhkəməsinə üz tutmaqla zəif görünməkdən də yayına bilər.

C.Roberts və digərlərinin bu kimi həmahəng təhlilləri və qənaətləri bir ara Türkmənistanla Azərbaycanı barışdıracaq vasitəçilik missiyaları məsələsini də gündəmə gətirdi. N.Nazarbayevlə D.Medvedyevin Xəzər hövzəsinin postsovet respublikaları prezidentlərinin Aktau görüşündə Aşqabadla Bakının ortaq mövqeyə gəlməsi üçün çalışacaqlarına dair məlumatlar yayıldı (Sözgəlişi, Qazaxıstan prezidenti vaxtılə rusiyalı həmkarı B.Yeltsinlə birlikdə Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında da vasitəçilik etmişdi).

Türkmənistan prezidentinin Aktau görüşü ərəfəsində mübahisəli məsələlərin danışıqlar yolu ilə həlli məqsədilə məsləhətləşmələrdən ötrü AR-in dövlət başçısını ölkəsinə dəvət etməsi də rəsmi Aşqabadın qazın nəqlinin şaxələndirilməsinə üstünlük verdiyinə dəlalət edir. Belə ki, 2009-cu ilin sonu üçün 7 min km uzunluğundakı **Türkmənistan-Çin qaz boru kəmərinin** istifadəyə verilməsi nəzərdə tutulur. Bu kəmərlə ildə Çinə 40 mlrd.m^3 türkmən qazının ixracı planlaşdırılır. Habelə ölkəni İranla birləşdirən qaz boru kəmərinin ildə 14 mlrd.m^3 "mavi yanacaq" nəql etmək gücünə malik olacaq yeni hissəsi də işə salınacaqdır. Hökumət Xəzərdə neft və neft məhsulları daşınmasının intensivləşdirilməsi üçün ticarət donanmasının yaradılmasını da qərara almışdır.

Bu kimi diversifikasiya tədbirləri və həmin kontekstdə də "yumşalıb rəsmi Bakı ilə kompromislərə getmək- dil tapmaq" xətti həm də Türkmənistan rəhbərliyinin ölkənin inkişafının daha da sürətləndirilməsi siyasəti ilə əlaqələndirilir. Hökumətin **"Dövlət insan üçün"** adı altında həyata keçirdiyi islahatlara güclü maliyyə təminatı (dəstəyi) əldə edilməsinə səylər göstərdiyi bildirilir. Ölkədəki sosial problemlərin həll edilməsində neft-qaz gəlirlərindən faydalanma istiqamətində bəzi irəliləyişlər gözönündədir. Hazırda əhaliyə işıq, qaz, su və duz pulsuz, hər bir maşın sahibinə isə ayda 120 litr benzin havayı

verilir. Çörəyin qiyməti və bir sıra sosial xidmət xərcləri rəmzi səciyyə daşıyır, təhsil, tibbi xidmət və s. də pulsuzdur.

Digər bir Xəzəryanı dövlət, yəni **İran** Rusiya və Türkmənistanla birlikdə quraşdırdıqları "Üçlük"lə Azərbaycanın "Xəzər (neft) siyasəti"ni əngəlləməyə xeyli səylər göstərdi. Rəsmi Tehranın belə bir mövqeyi, N.Nəsiblinin qənaətinə görə, əsasən **üç səbəbdən** irəli gəlir:

1. İran Şimali Azərbaycandakı dövlətin (AR-in) güclənməsini əsla istəmir və **"Bütöv Azərbaycan" perspektivindən** ciddi rahatsızlıq duyur (Onun Rusiya və Ermənistanla qütbləşməsində, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində üzdə- sözdə Azərbaycanın, altda-işdə isə rəsmi İrəvanın tərəfini tutmasında da bu amilin yetərli rolu vardır).

2. Rəsmi Tehran AR-in "Xəzər-neft siyasəti"ni Qərbin, xüsusilə də ABŞ-ın regiona gəlişi vasitəsi kimi dəyərləndirir.

3. İİR çox neft ixrac edən dövlət olaraq perspektivli Xəzər hövzəsindən (Azərbaycanın da buradan faydalanması daxil) ona problemlər yaranacağı qənaətindədir. Bu zaman həm də İranın son vaxtlarda neft yataqlarının işlənməsinə sərmayə qoyuluşu, neft-qaz ixracı ilə bağl qarşılaşdığı problemlər və Xəzərin onun payına düşən hissəsində karbohidrogen ehtiyatlarının digər sahilyanı dövlətlərin (həmçinin Azərbaycanın) ərazilərindəkindən azlığı da nəzərə alınmalıdır.

Xəzəri "açıq dəniz" sayan İİR onun sahilyanı dövlətlər arasında bərabər, yəni 20% nisbətində bölünməsini təklif edir. Bu dövlətin Xəzər məsələləri üzrə danışıqlara başçılıq edən diplomatı, XİN-in müavini M.Səfəri lap son vaxtlarda belə bir açıqlama vermişdir: Xəzərdə İİR-ə "20 faiz pay" düşməlidir və bu hüç də onun beş bərabər hissəyə bölünməsini nəzərdə tutmur. Milli sektorlara bölgü şəraitində İrana 13% düşür (Azərbaycan hətta bunun 14% olmasını da təklif edir). İran Xəzərin statusu ilə bağlı mübahisələrin lap əvvəlində, yəni Azərbaycanın beynəlxalq neft müqavilələrinin bağlanması ərəfəsində kontraktlarda payçı olmağa çalışarkən AR-in möv-

qeyini dəstəkləyəcəyini vəd edirdi. ABŞ-ın (onun şirkətlərinin) kəskin etirazları və təsiri nəticəsində ilkin kontraktlarda iştirakçı ola bilməyən İran sonrakı müqavilələrdən pay ala bilsə də Rusiyanın tərəfini saxladı.

Xəzərin statusu məsələsində ən kəskin və barışmaz mövqe tutan rəsmi Tehran Azərbaycanın neft siyasətinə də qarşı çıxdı. "Əsrin müqaviləsi"nə əsasən ilkin neftin çıxarılması ("Çıraq" yatağı-XI.1997) İranın Azərbaycan əleyhinə mövqeyini daha da sərtləşdirdi. AR-in Xəzərdəki işlərini 1921-ci və 1940-cı illər Rusiya/SSRİ-İran müqavilələrinə və dənizin statusuna (?!-İ.M.) zidd hərəkət olaraq dəyərləndirən fars diplomatiyası BMT Baş katibi K.Annana xüsusi məktubunda Azərbaycanı **"resurslara haqq iddia etməkdə və birtərəfli qaydada istismara başlamaqda"** suçladı. Həmin sənəddə habelə İranın Xəzərə dair alınmaz haqlarını qoruyacağı və bunun üçün də hər cür hərəkət etmək hüququnu özündə saxladığı bildirilirdi. Rəsmi Tehranın bu məktub-bəyanatı sadəcə sənəd olaraq qalmadı. İran hərbi təyyarələri bir neçə dəfə Azərbaycana məxsus yataqların və hətta ölkəmizin içəri ərazilərinin üzərində uçuşlar etdilər. O, paralel surətdə həmçinin öz sektorundakı yataqların işlənməsi ilə bağlı tender elan etdi və Azərbaycan neftinin İran ərazisindən nəqlinə nail olmağa cəhdlər göstərdi.

AR-ə qarşı **İransayağı "qamçı və kökə" siyasəti** davam etdirilməkdədir. Bu özünü, bir yandan, rəsmi Tehrandan gələn **təhdidlərdə**, digər tərəfdən də, **əməkdaşlıq təkliflərində** təzahür etdirir. "The Tehran Times"də 2009-cu ilin yayında dərc edilən məlumatlara görə, İran Xəzərin Azərbaycan sektorunda yerləşən "Alov" (əkstərəf onu "Alborz" adlandırır) yatağında kəşfiyyat işlərinə başlamışdır. 4 mlrd. barrel neft ehtiyatına malik olduğu güman edilən "Araz"-"Alov" yatağı 2001-ci ildə Azərbaycanın orada axtarış-tədqiqat işləri apardığı vaxt dövlətlərarası gərginlik yaratmışdı. Bu da İİR-in hərbi gəmiləri ilə qırıcı təyyarələrinin ölkəmizin su sərhədlərinə və hava məkanına kobud müdaxilələri üzündən baş vermişdi. Bp şirkətinə

məxsus iki tədqiqat gəmisi oradan qovulduqdan sonra Azərbaycan tərəfi yataqdakı geoloji-kəşfiyyat işlərini dayandırmağa məcbur olmuşdu. Yatağın birgə işlədilməsinə dair təkliflərin müzakirəsi də nəticəsiz qalmışdı. İndi isə İran razılaşmaya qədər gözləmək barədəki razılığa məhəl qoymadan onu təklikdə istismar edəcəyini bildirir.

Bu kimi təhdidlərin fonunda **İran həm də AR-ə enerji sahəsində əməkdaşlıq** təklif edir. Konkret olaraqsa, gündə 300 min barrel neftimizi almaq istəyir. İranı Azərbaycan neftinin nəqli üçün "ən qısa və daha ucuz" marşrut sayan rəsmi Tehran "neft mübadiləsi"ni də mümkün sayır. Bunun üçünsə BTC və Bakı-Supsa kəmərləri ilə ötürülən neftin həcminin azaldılması lazım gəlir (Sözgəlişi, Rusiyanın Gürcüstana hərbi müdaxiləsi zamanı Azərbaycan neftinin İran vasitəsilə qısamüddətli nəqli halı olmuşdur). İİR rəhbərliyi Azərbaycanla Türkiyə arasında yaşanan problemlərdən də yararlanaraq AR-ə neftin BTC kəməriylə nəqlini azaldıb İran vasitəsilə ötürülməsinə üstünlük verməsinə işarələr edir. İran üçaylıq fasilədən sonra yenidən Azərbaycandan qaz idxalına başlayıbdır (Bu fasilə texniki problemlərlə - təmir işləri ilə əlaqələndirilirdi). Gündə 1 mln.m^3 həcmində nəql olunan qazın eyni həcmdə əvəzi Naxçıvana verilir.

Azərbaycanın Xəzərin statusu ilə bağlı haqlı mövqeyinin İranın təzyiq və hədələrindən müdafiəsində, bütövlükdə AR-in neft siyasətinin rəsmi Tehran tərəfindən əngəllənməsinin qarşısının alınmasında Türkiyə ilə ABŞ-ın dövlətimizə dəstəyi təsirli amil oldu.Bu işdə də Türkiyənin Azərbaycanla strateji tərəfdaşlığı və Xəzərin karbohidrogen ehtiyatlarındakı marağı həlledici rol oynadı.Qardaş dövlətin neçə illərdən bəri davam edən müvafiq səyləri gözönündədir. Bir ara Türkiyə İrana qarşı hətta "əzələ nümayişi hərəkəti"nə də baş vurdu. Təsadüfi deyil ki, **"Türk ulduzları" eskadrilyasının Bakı səmasındakı uçuşları** (VIII.2001) bir sıra diplomatik-siyasi çevrələrdə İrana ismarıc kimi də dəyərləndirilir.

"Türk ulduzları"nın bu, hərbi demarşı İranın o vaxtkı XİN-i K.Xərrazi tərəfindən "təxribat", kənar qüvvələrin Xəzər hövzəsinə yersiz və əsassız müdaxiləsi kimi qiymətləndirildi. (Yeri gəlmişkən, son dönəmdə soyuqluq, R.Ərdoğanın Tehrandakı danışıqları zamanı (X.2009) qaz müqaviləsi imzalanması və s. bundan sonra "Türk ulduzları"nın dərhal Bakıya uçmayacaqları, Xəzərin enerji ehtiyatlarına görə rəsmi Tehranla münaqişəyə girməyəcəkləri qənaətini də yaratmışdır).

Xəzərin statusu məsələsindəki İran-Azərbaycan qarşıdurmasının səngiməsində ABŞ-ın dövlətimizə dəstəyinin önəmi danılmazdır. ABŞ **Dövlət Departamentinin "Xəzər hövzəsinin enerji inkişafı" məruzəsi**ndən də göründüyü kimi, Ağ Evin regiona dair siyasətinin dörd istiqaməti sırasında "İranın təcrid olunması" mühüm yer tutur."İranın izolyasiyası"na müvəffəq olunması üçünsə onun gəlirlərinin məhdudlaşdırılması lazım gəlir. Bundan ötrü də ən səmərəli yol və vasitə kimi İranın Xəzərin neft-qaz ehtiyatlarından faydalanmasının əngəllənməsi seçilmişdir. Dövlət Departamentinin bu sənədinin digər bir bəndi ("Dünya enerji təminatının artımı və genişlənməsi") Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsini nəzərdə tutmaqla yenə də İranla bağlı məqamları önə çəkir. Məruzənin qalan iki bəndində ("Regional münaqişələrin həlli"; "Xəzər hövzəsi ölkələrinin müstəqilliyi və suverenliyi") isə İranın Qafqazda və Orta Asiyadakı proseslərə (ərazi-etnik konfliktlərə və s.) nüfuz etməsinin önlənməsinin vacibliyi, xüsusilə də Rusiyadan keçən neft kəmərindən asılılığın aradan qaldırılmasının zəruriliyi, regionun karbohidrogen ehtiyatlarının İran vasitəsilə nəqlinin yolverilməzliyi vurğulanırdı.

Öz növbəsində İran Xəzərin təhlükəsizliyini prioritet məsələ saydığını və Azərbaycanın xarici qüvvələrin (ABŞ nəzərdə tutulur) onun ərazi sularında hər hansı bir mövcudluğuna imkan verməməli olduğunu bildirir. Bu zaman həm də İİR-lə AR arasındakı razılaşmaya əsasən Azərbaycanın öz ərazisindən İrana qarşı istifadəyə şərait yaratmamalı, icazə verməməli olduğu önə

çəkilir. Bəzi ekspertlərin bir düşündürücü qənaətinə görə, ümumiyyətlə, Xəzərin bölünməsinə İran da cəlb edilərkən sistem səhvinə yol verilibdir. Yəni əslində söhbət Xəzərin SSRİ-yə məxsus hissəsinin postsovet (MDB) dövlətləri arasında bölüşdürülməsindən getməli idi (İrana aid hissə onsuz da, yəni əvvəldən də məlum idi. Xəzərdə SSRİ və İranın milli sektorlarının olmasını isə Sovetlər İttifaqının dövlət sərhədi haqqındakı qanuna (1982) əsasən hazırlanan-sovet coğrafi xəritəsi də təsdiqləyir). Rəsmi Tehranın da bölüşdürürmə prosesinə cəlb edilməsi ilə hamını qane edən sistemin-sxemin olmadığı ortaya çıxdı. Ümumi, hamını qane edici variant-model isə yalnız tərəflərin könüllü olaraq öz ərazisini güzəştə getməsi halında tapıla bilər, bu fikrə də hələ ki, heç kəs düşməyibdir.

Sahilyanı ölkələrin və Xəzərin enerji ehtiyatlarının istismarında maraqlı olan digər dövlətlərin onun statusu ilə bağlı **yanaşma-mövqelərinin inkişaf dinamikası** hələlik belə bir durumla nəticələnmişdir:

- **Azərbaycan** Xəzərin həm dibinin, həm də suyunun səthinin bölünməsinin və hər dövlətin öz sektoruna tam nəzarət edə bilməsinin daha düzgün olması qənaətindədir;
- **Qazaxıstan** milli sektorlara bölgüyə dair əvvəlki mövqeyində qalmaqdadır;
- **Rusiya,** mövqeyində diqqətçəkici dəyiçiklik etsə də, dənizin təkinin (karbohidrogen ehtiyatları daxil) milli sektorlara bölünməsi ilə razılaşaraq, suyun səthinin və suyun özünün sahilyanı dövlətlərin naviqasiyası və istifadəsi üçün azad olması fikrindədir;
- **Türkmənistan** da inadından vaz keçərək milli sektorlara bölünməni, xoşluqla olmasa da və yenə də, müəyyən şərtlərlə dəstəkləməkdədir;
- **İran** Xəzərdə "20 faiz paya" sahib olmaqda israr etməkdədir.

Hövzə dövlətləri arasında Xəzərin hüquqi statusu ilə əlaqədar aparılan danışıqlar turunda hələlik sonuncu toplantı 2009-cu ilin sentyabrında Aktauda keçirilmişdir. Xəzəryanı –

MDB üzvü olan — dörd dövlətin prezidentlərinin bu toplantısı (qeyri-rəsmi sammiti) N.Nazarbayevin təşəbbüsü ilə baş tutmuşdur. Onu "İransız-yarımçıq-uğursuz Xəzər sammiti" kimi də səciyyələndirirlər. Görüş ərəfəsində sahilyanı bəzi dövlətlərin liderləri arasında ikitərəfli görüşlər və məsləhətləşmələr də olmuşdu. N.Nazarbayevlə D.Medvedyev Orenburq şəhərində iki ölkənin regionları arasındakı iqtisadi əməkdaşlıq məsələlərini müzakirə ediblər. Rusiya prezidenti habelə Aşqabadda türkmən həmkarı Q.Berdımuhammedovla danışıqlar aparıbdır. Müzakirələrin üzdəki (görünən) predmetini Türkmənistandan Rusiyaya qaz nəql edən kəmərin partlaması ilə bağlı yaranan şəraitin aydınlaşdırılması təşkil edibdir. 2009-cu ilin aprelində "Qazprom"un texniki xətası üzündən dayandırılan qaz nəqlinin bərpası barədə aparılan danışıqlarda tərəflər "texniki xətanın müzakirəsi"ndən yararlanmağa çalışıblar.

Bu hal **müzakirələrin alt qatında olan məqamları** da üzə çıxarıbdır. Rəsmi Aşqabad təchizatın dayandırılmasında Rusiyanı qınayırdı. Kəmərin bərpasına dair danışıqların uzanmasının səbəbi isə Rusiyanın gizli niyyəti ilə əlaqələndirilirdi. Yəni Kremlin idxal etdiyi qazın həcmini bilərəkdən azaltdığı və bu məqsədlə də boru xəttində qəsdən partlayış törədildiyi iddia olunurdu. Bununla da Türkmənistanın ayda 1 mlrd. dollar itirdiyi ehtimal edilir.

Türkmənistan texniki xətanı danışıqlardakı mövqeyini möhkəmləndirmək üçün bəhanə etmişdir. "Türkmənqaz" profilaktik və texniki tədbirlər üzündən "Qazprom"dan taym-aut götürür" deyən Q.Berdımuhammedov qaz ixracında Rusiyanın asılılığından qurtulmağa və nəqlin diversifikasiyasına çalışır. O, qazın Çinə nəqlinə hazırlaşır və Əfqanıstan, Pakistan, Hindistan istiqamətlərinə ixrac imkanlarını araşdırır, habelə "Nabucco"ya da maraq göstərir. Mərkəzi Asiyanın hazırda ən çox (əsasən də, öz ucbatından) təcrid olunmuş ölkəsi sayılan Türkmənistan hətta uzaq Venesuela ilə də "qaz müzakirələri" aparmışdır. Aktau sammiti (IX.2009) ərəfəsində Aşqabada səfərə gələn prezident U.Çaves Türkmənistan rəhbərliyinə təbii qaz istehsalçılarının kartelinə qoşulmağı məsləhət bilibdir (Əslində belə bir təklif-təşəbbüs Rusiyaya məxsusdur. Kreml xeyli müddətdir ki, dünyanın qaz istehsalçısı olan ölkələrinin hamısını bir təşkilatda birləşməyə çağırır. Beynəlxalq qaz karteli modeli kimi isə məlum OPEC təşkilatı münasib sayılır. Rusiyanın təşəbbüsü İran və Qətər tərəfindən dəstəklənsə də, U.Çavesin təklifi Q.Berdımuhammedov tərəfindən dinlənilsə də, cavabsız buraxılıbdır). Habelə "Aktau görüşünün və avtomobil rallisinə tamaşanın sabahısı günü (14.IX.2009) Aşqabada səfərə gələn sabiq prezident V.Yuşşenko ilə Ukraynaya birbaşa qaz satışı məsələsi müzakirə edildi.

Rusiya isə bu danışıqlarda Türkmənistanın qaz ixracı strategiyasındakı yerini, "Qazprom"a 25 il ərzində qaz satmaq öhdəliyinin etibarını müəyyənləşdirmək məqsədlərini güdmüşdür. Bunlarla bağlı da rəsmi Moskva Türkmənistanla bağlanan qaz sazişinə dövlətlərarası müqavilə statusu verilməsinə cəhd edir. Tam açıqlamasa da, danışıqlarda qazın qiyməti məsələsi də müzakirəyə çıxarılmışdır. Həmin danışıqlar nəticəsiz başa çatmışdı.

"Aktau və ya İransız Xəzər sammiti" ən çox rəsmi Tehranla bağlı qalmaqalla yadda qalmışdır. Toplantının təşəbbüskarı və təşkilatçısı olan N.Nazarbayevin İranı toplantıya dəvət etməməsi (unutması) rəsmi Tehranı, nəinki narazı salmış, hətta qəzəbləndirmişdi. O hələ sammit öncəsində diplomatik demarş edərək Xəzəryanı digər dövlətlərin İİR-dəki səfirlərini XİN-ə çağıraraq izahat istəyibdir. Ardınca İranın baş diplomatı M.Mottəki sammitə qatılan dövlətlərin Xarici İşlər nazirləri ilə "telefon müzakirələri" aparıbdır. Bundan sonra yenidən XİN-ə dəvət olunan böyük elçilərə İİR-in yazılı etiraz məktubu təqdim edilmişdir.

Rəsmi Tehranın bu, **üçqat (üçmərhələli) etirazı** ilə açıqlanan mövqeyi bir sıra müddəalarda öz əksini tapmışdı. M.Mottəki bildirmişdi ki, "hansısa idman yarışına baxmaq üçün" ça-

ğırılan Qazaxıstan görüşü İranın maraqlarına ziddir. Onun fikrincə, Xəzərlə bağlı toplantılara "sahilyanı ölkələrdən hansısa birinin dəvət edilməməsi qarşısıalınmaz neqativ münasibətlərə səbəb ola bilər. Bu cür hərəkətlər ortaya çıxan problemlərin birtərəfli həlli üçün presedent yaradır".M.Səfəri bu sahədə İransız əldə edilən istənilən anlaşmanın "əlil olacağını" vurğulayıbdır. İİR-in "Aktau görüşü" ilə bağlı qənaəti belə ifadə olunmuşdu: sammitə çağırılmaması ona xəbərdarlıqdır və Xəzərin İransız bölünməsi əvvəlki razılaşmalara ziddir. Bu əsasda da "Xəzərin ehtiyatları bütün sahilyanı ölkələrə məxsusdur və qərarların hamısı İranın iştirakı ilə qəbul olunmalıdır" xəbərdarlığıdı edilmişdi; "Tehranın Xəzərdəki maraqlarının təhlükə altına alınmasına yol verilməyəcəkdir".

İran diplomatiyasının bu sammitlə bağlı qaldırdığı hayküyə onun iştirakçılarının münasibəti də maraq doğurur. Rusiya XİN-i İranın rahatsızlığına səbəb olmadığını bildiribdir. Bunu başa düşülməyən hərəkət kimi səciyyələndirən Kreml toplantının MDB formatında keçirildiyini və dörd dövlət arasında əvvəllər də belə müzakirələrin aparıldığını xatırladıbdır. "Xəzər mövzusu bütün sahilyanı ölkələrin iştirakı ilə müzakirə olunmalıdır" deyən D.Medvedyev sammitdə ikitərəfli münasibətlərlə yanaşı aktual beynəlxalq və regional məsələlərlə bağlı da məsləhətləşmələrin aparıldığını vurğulayıbdır.

Qazaxıstan prezidenti də sammitdə Xəzərə dair məsələlərin müzakirə edilmədiyini bəyan edərək bu sahədəki danışıqların Bakı sammitində aparılacağını xatırlatmışdı. Azərbaycanın dövlət başçısı da Xəzəryanı dövlətlərin növbəti Zirvə görüşünün — əvvəlki, Tehran sammitinin qərarıyla — Bakıda keçiriləcəyini və ekspertlər səviyyəsində müəyyən hazırlıq işlərinin görüldüyünü bildirmişdi. Bakı sammitinin də Tehran toplantısı kimi irəliyə doğru böyük bir addım olmasına çalışmağın lazım gəldiyini söyləyən İ.Əliyev Xəzərin delimitasiyası məsələlərinin dostluq və mehriban qonşuluq zəminində həllinə ümidli olduğunu da açıqlamışdı.

"Dördlər"in "Aktau sammiti" Azərbaycan-Türkmənistan əlaqələri baxımından da diqqəti çəkibdir. Onların prezidentləri arasında sammitöncəsi telefon danışığı (Q.Berdımuhammedovun İ.Əliyevə zəngi) də müxtəlif şərhlərə səbəb olmuşdur. Bunu rəsmi Bakı sadəcə "ramazan ayı münasibətilə təbrik", Türkmənistan tərəfi isə "ölkəyə səfərə dəvət" zəngi kimi səciyyələndiribdir. Dəvətin səbəbinə dair dəyərləndirmələr də maraqlıdır. Türkmənistanın bir sıra dalbadal sərt tədbirlərdən sonra ortaya çıxan bu dəvəti rəsmi Bakını "təhdidlərlə güzəştlərə məcbur etmək" siyasətinin uğursuzluğu da sayıla bilər. Q.Berdımuhammedovun son vaxtlar xeyli güclənən qarşılıqlı mübahisələrin ikitərəfli danışıqlar yolu ilə həllinə üstünlük verməsi onun "Nabucco" taktikası"nın da özünü doğrultmadığını söyləməyə əsas verir.

"Nabucco"ya qoşulmaq fikrində olan (tərəddüdlü görünsə də) rəsmi Aşqabad türkmən qazının Xəzərin dibi ilə nəqlinin yolunun Azərbaycanla anlaşmadan keçdiyinin fərqindədir. Buna görə də, o, Azərbaycanla Xəzərlə bağlı qarşıdurmaya gedərək gərginliyi artırmaqla "Nabucco"da maraqlı olan Avropa İttifaqının rəsmi Bakıya təzyiqlərinə ümid bağlayırdı. Ancaq bir çox məsələlərdə Rusiya ilə anlaşan AR-in "Nabucco"ya və onun fonunda da "Transxəzər" qaz kəmərinə çox da önəm verməməsi (maraq göstərməməsi) Türkmənistanın kəmərlərlə bağlı hesablamalarına öz təsirini göstərdi. Bu da özünü çox gözlətmədi.

AR prezidenti Aşqabada səfər dəvətini öncə "İpək yolu-2009" avtomobil rallisinin finalına tamaşa etmək çərçivəsində qəbul etsə də, Türkmənistana gedəsi olmadı. Baş tutacağı halda, həmin səfər zamanı, ikitərəfli mübahisəli məsələlərin müzakirəsi də gözlənilirdi. **"Aktau görüşü"ndən dərhal sonra Bakıya dönüş qərarı**nınsa sammitdəki diplomatik təmaslarda Türkmənistan tərəfinin konstruktivlik göstərməməsi və ikitərəfli danışıqların da faydasız olacağı qənaətindən irəli gəldiyi ehtimal olunur. Bu məsələdə habelə Rusiya prezidentinin sam-

mitönçəsi danışıqlarda Türkmənistan lideri ilə anlaşa bilməməsinin də öz işini gördüyünü qeyd etmək olar.

Bəzi ekspertlər (İ.Şaban və b.) Q.Berdımuhammedovun mübahisələrin ikitərəfli danışıqlarla (kompromislərlə) həllinə dair təkliflərinin səmimiliyi ilə razılaşmırlar. Kompromislər dedikdə, onun yalnız öz dövlətinin maraqlarını təmin etməyə çalışdığını bildirirlər. Habelə Qazaxıstanla Rusiyanın öz aralarında asanlıqla və tezliklə anlaşmasını (1998) önə çəkən mütəxəssislər belə bir cəhəti də vurğulayırlar. Onlar arasındakı razılaşmaya görə, delimitasiyada hətta 1 kv. metr torpaq digərinin ərazisinə keçərsə, həmin yataq birgə müəssisə formasında 50-50-yə prinsipi ilə işlənməlidir. Bu cür yanaşma halında isə Türkmənistanın iddiaları daha da böyüyür, yəni hətta "Çıraq"la "Azəri"nin də birlikdə mənimsənilməsi istənilir. Belə mövqe (istək) isə kompromis deyil, reallıqdan məqsədli uzaqlaşma-əsasız iddiaları malalamaqdır.

Analitik-mütəxəssislərin digərləri Q.Berdımuhammedov iqtidarının mübahisələri danışıqlar (kompromislər) yolu aradan qaldırmaq niyyətini Rusiya ilə əlaqədar olan gediş kimi səciyyələndirirlər. Təhlillərə görə, son vaxtlar Türkmənistanla Rusiya arasında bəzi "anlaşılmazlıqlar" yaranmışdır. Onlar özünü qazın qiyməti ilə bağlı uzlaşmamada, Türkmənistanın Rusiya ilə bağladığı sazişə etibarlılığına yaranan şübhələrdə və s. göstərir (Sonuncu hal qazın nəqlinin diversifikasiyasında çox maraqlı olan rəsmi Aşqabadın Kremlə dəqiq (qəti) söz deməməsindən irəli gəlir). Belə bir şəraitdə Türkmənistan Azərbaycanla münasibətləri sahmanlamaqla "Transxəzər" kəmərinə (dolayısı yolla da "Nabucco"ya) yol açmaq üçün bir mühit yaratmağa və bununla həm də Rusiyanı bir az yumşaltmağa çalışır.

Diqqətçəkici bir baxış-mövqe isə bundan ibarətdir ki, bu, iki türk dövləti arasındakı problemlərin həllinə şərait yarada biləcək bütün imkanlardan, xüsusilə yeni yanaşma və təkliflərdən mütləq faydalanmaq lazımdır. Bu zaman hətta "Kəpəz"

("Sərdar") yatağının və onun ehtiyatlarının ölkəmiz arasındakı münasibətləri daima qeyri-normal, gərgin halda saxlayacaq qədər əhəmiyyətli olmaması da vurğulanır. Bir sözlə, danışıqların potensialı hələ ki, tükənməyibdir.

Bütövlükdə, **uğursuz** sayılan **Aktau sammit**ində habelə BMT Baş Assambleyasının sessiyası ərəfəsində məsləhətləşmələr aparılmış, "Böyük 20-lərin" sentyabrın sonlarında ABŞ-da (Pitisburqda) keçiriləcək Zirvə görüşü və MDB-nin oktyabrda Kişinyovda olacaq sammiti ilə bağlı məsələlərə diqqət yetirilmişdi.

Azərbaycan (Xəzər) neftinin Avropaya nəqli (marşrutları) problemi

Xəzərin statusu problemi ilə yanaşı, onun karbohidrogen ehtiyatlarının nəqli (ixracı) marşrutları məsələsi də regional "Neft soyuq müharibəsi"nin və "Böyük neft oyunu"nun tərkib hissələrindən birini təşkil edir. Azərbaycan (Xəzər) neftinin nəqli marşrutları məsələsindəki mübahisələrdə isə başlıca yeri Əsas İxrac Neft Kəməri problemi tuturdu. Xəzərin göl durumu və açıq okeana çıxışının olmaması, Azərbaycanın böyük sulara birbaşa çıxa bilməyən xüsusi statuslu 42 ölkədən biri sayılması, habelə böyük güclərin və region dövlətlərinin toqquşan maraqları neftin nəqli marşrutları məsələsini xeyli aktuallaşdırdı.

Ümumiyyətlə, neftin iri həcmdə ixracı onun tankerlər (donanma) və boru kəmərləri ilə nəqlini nəzərdə tutur. Tankerlərlə nəqlə XVIII-XIX əsrlərdə, boru kəmərləri ilə ixraca isə XX yüzillikdə (ABŞ-da) başlanılmışdır. Bakı nefti də vaxtilə, yəni XIX əsrin 70-ci illərinin sonlarından etibarən "Nobel qardaşları şirkəti"nin İsveçdə hazırlatdıqları "Zoroastr"("Zərdüşt") tankeri vasitəsilə Həştərxana daşınmışdı. Azərbaycan habelə Bakıdan Batuma və Qroznıyadək olan kəmərlər vasitəsilə neftin nəqli təcrübəsinə də malik idi. Ancaq Azərbaycan (Xəzər) neftinin tarixində yeni mərhələnin başlanması və ilk beynəlxalq kon-

traktların bağlanması karbohidrogen ehtiyatlarının nəqlinin optimal marşrutlarının müəyyənləşdirilməsinin zəruriliyini kəskinliyi ilə ortaya çıxardı.

Hələ kəmərlərlə bağlı ilkin müzakirələrdə və məsləhətləşmələrdə, hətta mübahisələrdə belə neftlə qazın Avropaya ixracının yalnız və yalnız Aralıq dənizi vasitəsilə həyata keçirilməsi barədə uzlaşma mövcud idi. "ARDNŞ"-in xarici neft şirkətləri ilə imzaladığı V memorandumda (9.XI.1992) Aralıq dənizinə çıxılmaqla vahid ixrac boru kəmərinin çəkilməsi nəzərdə tutulurdu (Xüsusi işçi qrupu hətta neftin nəqlinin real (mümkün) marşrutlarına dair 7 layihə hazırlamışdı). Ə.Elçibəyin prezidentliyi dönəmində aparılan "Neft danışıqları"nda Azərbaycan tərəfi birmənalı olaraq ixracın başlıca marşrutunun Gürcüstanla Türkiyədən keçməsinə dair marağını gizlətməmişdi. İşçi qrupları və ölkəmizin, Qərbin çoxlu tanınmış neft mütəxəssisləri də 1993-cü ilin yayı üçün Bakı-Ceyhan marşrutunun üs-tünlüyü qənaətində həmrəy idilər.

Beynəlxalq tarixi neft müzakirələrinin əvvəllərində strateji kəmərlə bağlı razılaşma əldə edilməsə də ilkin neftin nəqli marşrutlarının müəyyənləşdirilməsinə nail olundu."Əsrin müqaviləsi"nin iştirakçılarının konsessusa dair protokoluna ("ABƏŞ"-in qərarına—5.X.1995) əsasən ilkin neftin "Qərb" (Bakı-Qroznı-Novorossiysk) və "Şimal" (Bakı-Supsa) marşrutları ilə ixracı razılaşdırıldı. İlkin neftin Xəzərdən (Bakıdan) Rusiyanın Novorossiysk və Gürcüstanın Supsa limanlarına çatdırılmaqla, yəni Qara dəniz vasitəsilə Bosforla Dardanel boğazlarından tankerlərlə keçirilməklə Aralıq dənizinə çıxarılması mümkün (məqbul) sayıldı.

Marşrut-kəmərlərin hüquqi statuslarının təsbit edilməsi 1996-cı ildə H.Əliyevin Moskvaya (yanvarda) və Tiflisə (martda) səfərləri zamanı reallaşdırıldı. Moskvada "İlkin neftin Rusiya Federasiyası ərazisindən keçməklə nəqli haqqında" Azərbaycan-Rusiya müqaviləsi imzalandı. Tiflisdə isə Supsa (Poti) limanınadək neft kəmərinin çəkilməsinə dair beynəlxalq saziş

bağlandı.

"Şimal marşrutu"nun (Bakı-Qroznı-Novorossiysk) texniki-iqtisadi göstəriciləri və onunla bağlı güdülən çoxşaxəli maraqlar, bütövlükdə, neft kəmərinin səmərəli və qüsurlu cəhətləri ilə əlaqədar aşağıdakıları diqqətönünə almaq lazımdır:

1-cisi, marşrutun uzunluğu 1411 km-dir.(174 km-i Azərbaycandan keçir; ona "Azərbaycan-Çeçenistan-Rusiya" marşrutu da deyirlər). Əslində o, sovet dönəmindən qalma və habelə əsaslı təmirə ehtiyacı olan hazır (mövcud) kəmər idi. Bakı nefti hələ 1983-cü ildə Qroznıya çəkilən kəmər vasitəsilə Novorossiyskə çatdırılırdı. İllik ixrac gücü 5-6 mln. ton olan həmin kəmərin təxminən 50 mln. dollarlıq bərpa (yenidənqurulma) işlərinə ehtiyacı vardı. Müəyyən ləngiməyə baxmayaraq 1997-ci ilin sonlarından etibarən işə salınmışdır.

2-cisi, həmin kəmər-marşrutu önəmli sayan baxışlara görə o, Azərbaycana həm də siyasi dividentlər gətirə bilərdi (Onu iqtisadidən çox, "siyasi kəmər" kimi də səciyyələndirən yanaşmalar vardır). Yəni AR bunun qarşılığında Ermənistanın ölkəmizə təcavüzünün aradan qaldırılmasında və Xəzərin statusunun müəyyənləşdirilməsində Rusiyanın dəstəyini (güzəştlərini) qazanardı (Əks mövqedə dayananların fikrincə isə, Rusiyanın uzaqgedən daha böyük strateji maraqları buna ümidli olmağa əsas vermir).

3-cüsü, N.Nəsibli, E.Nəsirov və digər tədqiqatçılara görə, marşrut (kəmər) bu kimi qüsurlara da malikdir: Bosfor boğazının məhdud keçid imkanları; kəmərə rus-çeçen münaqişəsi təhlükəsi; neftimizin digər dövlətlərin keyfiyyətsiz nefti ilə qarışması ehtimalı; Türkiyənin inciməsinin mümkünlüyü; Qara dəniz boğazının hədsiz yüklənməsi, onun texniki imkanlarının yetərsizliyi və s. Bunlara Rusiyanın həmin marşrutu Əsas İxrac Kəmərinə çevirməkdə maraqlı və israrlı olması da əlavə edilə bilər. Kəmərin xərclərinə 2,2 mlrd. dollar ayırmaqla onun illik ixrac gücünü 17 mln. tona çatdırmaq istəyən Rusiya bununla Xəzərin postsovet hövzəsinin enerji ehtiyatlarına tək və tam

nəzarətə (inhisara) nail olmağa çalışırdı.

4-cüsü, marşrutun qüsurlarından birinin tezliklə gündəmə gətirilməsi, yəni Türkiyənin boğazların (xüsusilə də Bosforun; ondan ildə 5 min-hər iki saatdan bir isə 1 gəmi keçir) həddən artıq yüklənməsinin yaratdığı problemləri (İstanbul üçün təhlükəni) önə çəkməsi bu kəmərlə bağlı yeni təkliflər irəli sürülməsinə səbəb oldu. Bolqarıstanla Yunanıstan kəmərin uzadılmasını tərəflər üçün faydalı saydılar. Yunanıstan XİN-i G.Panqalos vasitəsilə səsləndirilən (IV.1997) bu təklif Novorossiyskə axıdılan Bakı neftinin tankerlərlə Bolqarıstanın Burqas və oradan da qədim Elladanın Aleksandropolis limanlarına çatdırılmasını nəzərdə tuturdu.

Təqribən 1 mlrd.dollar xərc tələb edən və təxminən də 300 km olacaq uzantı (Burqas-Aleksandropolis xətti) üç il ərzində çəkilməli idi. Onun ən üstün cəhətini neftin məlum boğazlardan yan keçməklə nəqli təşkil edirdi. Çoxlu problemlərinə isə bunlar aid edilə bilər: neftin üç terminaldan, yəni Novorossiysk, Burqas, Aleksandropolisdən vurulması və birincinin həddsiz yüklənməsi; Azərbaycan-Türkiyə münasibətlərində soyuqluq yaratma ehtimalı; iri həcmli xərclər. Ümumi uzunluğunun təxminən 1711(1411+300) km olması planlaşdırılan Bakı-Aleksandropolis marşrutu, başqa sözlə, Novorossiyskdən sonrakı uzantı (xətt) gerçəkləşmədi. Hətta vaxtaşırı elə Bakı-Novorossiysk kəmərinin işlənməsində də fasilələr baş verir.

Qərb (Bakı-Supsa) marşrutu: uzunluğu-92 6km (onun 480-i Azərbaycanın payına düşür). Ötürmə gücü — ildə 5-7 mln.ton. Dəyəri-1,2 və ya 1,5 mlrd. dollar. Üstünlükləri-**a)** qısa olması; **b)** ən az xərc tələb etməsi. Problemli məqamları-**1)** neft Aralıq dənizinə birbaşa deyil, məhdud imkanlı Bosfor boğazı ilə çıxa bilər; **2)** abxaz separatçılarının kəmərə təhlükə yaratması ehtimalı; **3)** "Oyundankənar"da qalan Rusiyanın təzyiqlərə əl atması və Xəzərlə bağlı mövqeyini sərtləşdirməsi perspektivi; **4)** Qara dəniz bazarının Qazaxıstan nefti ilə ehtimal olunan yüklənməsi üzündən yarana biləcək çoxsaylı texniki

problemlər və bəzi süni maneələrə görə layihənin maddi-texniki təchizatının çətinləşməsi.

1999-cu ildə işə salınan bu – ikinci ilkin neft kəməri ilə bağlı da müxtəlif **niyyətlər və mövqelər** ortaya çıxdı:

- **Türkiyə** onu fəallıqla müdafiə etdi; layihənin təsdiqlənməsini Bakı-Ceyhanın çəkilməsi ehtimalını iqtisadi cəhətdən artıran amil kimi dəyərləndirdi; "Qərb xətti"nin xərclərilə bağlı konkret təkliflər verdi; ixrac neftini yerli istehlak üçün özünə aparmağa, yaxud Bolqarıstan, Ukrayna, Rumıniya limanlarında emal edib satmağa razılıq verdi;
- **Ukrayna** hələ 1995-ci ildə bu marşrut üzrə axıdılacaq nefti Odessadan Qərbi Avropaya daşıyan kəmərin layihəsini təklif etmişdi (Onu "Azərbaycan-Gürcüstan-Ukrayna marşrutu" adlandırırdılar). Həmin təklif-ideya Gürcüstan prezidenti E.Şevardnadzenin Bakı və Kiyevə səfərləri (1997) zamanı təkrarən gündəmə gətirilmişdi. Ukrayna bu xətlə Rusiyadan neft sahəsindəki asılılığını azalda biləcəyini güman edirdi;
- **Rumıniya** isə nefti Supsadan tankerlərlə Konstansa limanına və oradan da illik nəqletmə gücü 35 mln.ton olan kəmər vasitəsilə İtaliyanın Triyest şəhərinə çatdırılması layihəsini (marşrutunu) mümkün sayırdı.

Bakı-Tiflis-Ceyhan (BTC) Əsas İzrac Neft Kəməri: uzunluğu – təqribən 1750 km, müəyyən əlavə işlər üzündən sonda 1768 km-dək artdı. (488 km-i Azərbaycandan, 225 km-i Gürcüstandan, 1037 km-i isə Türkiyədən keçməklə). İllik ötürmə gücü—50-55 mln.ton, gündəlik nəqletmə imkanı isə 1 mln. barreldir və gələcəkdə onun 1,6 mln. barrelə çatdırılması nəzərdə tutulur. Dəyəri-əvvəldə 2,7 mlrd., ortada 3,9 mlrd. həcmində hesablanmış və sonda isə təxminən 5 mlrd. dollar olmuşdur. Üstünlükləri – **1)** məlum, problemli boğazlardan keçmir; **2)** İraq-Türkiyə neft kəmərinə qoşula biləcəyi şəraitdə 600 km qısala bilər; **3)** nəqlin uzunmüddətli perspektivini təmin edir; **4)** neftin Ceyhandan Rotterdama nəqlinin Qara dəniz limanları vasitəsilə daşınmaya nisbətən iki dəfə ucuz başa gəl-

məsi; **5)** seysmikliyi az (4-5 bal) olan zonalardan keçdiyindən təbii fəlakətlərə məruz qalma ehtimalı nisbətən aşağıdır və s.

Kəmərin digər müsbət iqtisadi tərəfləri, habelə siyasi-ideoloji-diplomatik məqamları ilə bağlı dəyərləndirmələrə görə BTC: ən optimal yoldur; AR-in geopolitik maraqlarına uyğundur; Qafqazdan keçən Şərq-Qərb dəhlizinin əsas komponenti kimi regional əməkdaşlığa böyük təkan ola bilər; Azərbaycan-Türkiyə-Gürcüstan tərəfdaşlığının özüllərindən biridir; Xəzəraltı neft (Qazaxıstan) və qaz (Türkmənistan) kəmərlərinin çəkilməsinə əlavə stimul olar, bununla da Orta Asiya ilə yaxınlaşmaya təsir göstərər; Ceyhandan Aralıq dənizinin dibi ilə İsrail sahillərinə qədər uzadıla bilər; dost ölkələrin (Gürcüstan və Türkiyənin) ərazilərindən Avropaya açılan pəncərədir; bəzi qonşu dövlətlərin (Rusiya, İran, Ermənistan) ölkəmizə yaratdığı geopolitik mühasirədən çıxma vasitəsi və imkandır. Onun başlıca çatışmayan (qüsurlu-mənfi) cəhəti isə Rusiya, İran və Ermənistanın kəskin müqaviməti ilə qarşılaşması hesab olunurdu (Bu məqam az sonra ətraflı şərh edilir).

Azərbaycan-Türkiyə marşrutu (kəməri) ətrafında xeyli çəkən gərgin diplomatik mübarizə getmiş və müxtəlif dəyərləndirmələr olmuşdur:

Birincisi, dəyərləndirmələrdə bu kimi yanaşma və mövqelər ortaya çıxmışdır: **a)** "siyasi kəmər", **b)** Avratlantik məkana iqtisadi inteqrasiya vasitəsi; **c)** "siyasi oyunların böyük kəməri", **ç)** "risk layihəsi" və s.

İkincisi, Azərbaycan (Bakı)-Türkiyə (Ceyhan) marşrutunun variantları məsələsi meydana gəlmiş və buna dair baxışlar, təkliflər də fərqli olmuşdur:

- **Azərbaycan-İran-Azərbaycan (Naxçıvan)-Türkiyə.** Onun üstünlükləri ilə bağlı bu kimi dəlillər əsas tutulurdu: iqtisadi cəhətdən daha səmərəli, yəni nisbətən az xərcli (təxminən 1,3 mlrd. dollarlıq) olması. (Buna görə də, Qərb şirkətləri bir müddət ABŞ-İran münasibətlərinin normallaşdırılmasına da çalışmışdılar); Naxçıvanın enerji təminatına müsbət

təsir edə bilməsi; Güney Azərbaycandan keçdiyindən soydaşlarımızın (regionun) iqtisadi, sosial və mədəni inkişafına yaraması. Variantın (xəttin) problemlərinə-əvvəlki yanaşmalara əksdəlillərə-gəldikdə isə bunların nəzərə alınması istənilirdi: ABŞ-ın geostrateji maraqları, İranla münasibətlərindəki ifrat gərginlik və onun dünya neft ehtiyatlarının istismarındakı iştirakını məhdudlaşdırmaq məqsədi; fars rejiminin Güney Azərbaycanın variantdan faydalanmasına imkan verməməsi və s. Yeri gəlmişkən, "İran variantı"nın başqa bir forması da (Azərbaycan-İran-Fars körfəzi) nəzərdən keçirilmişdi. Bu zaman Bakı neftinin kəmərlə İranın şimalına ötürülməsi və əvəzində isə eyni həcmdə İran petrolunun Fars körfəzi sahillərindəki limanlardan Avropaya (Qərbə) daşınması təklifi də olmuşdu;
- **Bakı-Ermənistan-Naxçıvan-Türkiyə variantı.** İqtisadi-texniki göstəriciləri və Ermənistanı Azərbaycandan asılı etmək baxımından üstünlükləri vardı. Amma Azərbaycanın maraqlarına çox zidd idi. Çünki ərazilərimizi işğal edən Ermənistanı iqtisadi cəhətdən gücləndirə, kəmərin işləməsini (taleyini) onun asılılığına sala bilərdi və ondan "Qafqaz dəyənəyi" kimi istifadə edən Rusiyanın AR-ə təsir imkanlarını daha da artırardı. Ermənistan Rusiyanın hərtərəfli yardımı və İranın dəstəyi ilə Azərbaycan torpaqlarını işğal etməklə özü-özünü bir sıra regional layihələrdən, o cümlədən də BTC-nin reallaşmasında iştirakdan məhrum etdi.

Üçüncüsü, BTC Əsas İxrac Kəməri marşrutda maraqlı olan və habelə digər dövlətlərin **üst-üstə düşməyən mövqelər** tutmaları ilə səciyyələnir. Həmin mövqe və yanaşmaların **əsas məqamları** aşağıdakılarla ifadə edilə bilər.

Rusiya öz geostrategiyasına, yəni imperiya təfəkküründə və həmişə "hakimi-mütləq" olma siyasətinə sadiq qalaraq əsas ixrac neftinin onun ərazisindən nəqlini istəyir və Xəzərin enerji ehtiyatlarından istifadədə dominant mövqeyini saxlamağa çalışırdı. Buna görə də vaxtaşırı və davamlı olaraq Əsas İxrac

Kəmərinin sözsahibi sayılan Azərbaycana müxtəlif cür təzyiq və təsirlər göstərirdi (Dağlıq Qarabağ münaqişəsinin ədalətli qaydada tənzimlənməsinin maksimum əngəllənməsi, Ermənistanın dəfələrlə silahlandırılması, Xəzərin statusu məsələsinin şişirdilməsi bunlara misal ola bilər).

Rəsmi Moskva Əsas İxrac Neft Kəmərinin "Rusiya marşrutu"nun daha "təhlükəsiz olmasını isbatlamaq" məqsədilə Çeçenistanda qanlı müharibə də törətdi. Qərb dövlətlərinə (şirkətlərinə) müxtəlif təzyiq-vədlərlə hələ 1995-ci ildə "Şimal marşrutu"nu (Bakı-Novorossiysk xəttini) ilkin neftin nəqli kəməri kimi qəbul etdirməyə müvəffəq oldu. Habelə onun başlıca ixrac yoluna çevrilməsinə çalışdı və buna görə də alternativ layihələrə qarşı çıxdı, öz maraqlarına uyğun təkliflər irəli sürdü.

Amma tarixdə daima olmasa da, bir çox dövrlərdə (hallarda) çevikliyi və praqmatizmi ilə seçilən Rusiya diplomatiyası Əsas İxrac Kəməri ilə bağlı çağdaş reallıqları, başqa sözlə, yeni dünya düzəninin (təkqütblü cahanın) şərtlərini və habelə özünün imkanlarını nəzərə almaq, onlarla hesablaşmaq (razılaşmaq) məcburiyyətində qaldı. Bu, bir yandan, BTC-nin Əsas İxrac Kəməri olmasına ciddi maraq göstərən Qərb dövlətləri ilə qarşılaşmanın yarada biləcəyi problemlərin yetərincə dərk olunması ilə izah edilə bilər. Digər tərəfdən də, Rusiyanın Əsas İxrac Kəmərinə çevirmək istədiyi, yəni ildə maksimum 17 mln.ton neft ötürə biləcək "Şimal (Bakı-Novorossiysk) marşrutu" Azərbaycanla Qazaxıstanın 50-60 mln.tonluq ixrac neftini nəqletmə potensialına malik deyildi.

Son zamanlar hətta Rusiyanın BTC ilə neft nəql etməyə maraq göstərdiyinə dair məlumatlar yayılmışdır. Ölkənin ən iri neft şirkəti (hasilatçısı) sayılan "Rosneft"in prezidenti S.Boqdançikov "Ria-Novosti" agentliyinə verdiyi açıqlamada (IX.2009) BTC ilə neft nəql etmək təklifi aldıqlarını bildiribdir. Təklifin mənbəyini açıqlamayan şirkət rəhbəri onu "iqtisadi cəhətdən sərfəli olarsa, nəql edərik"lə cavablandırmışdır (İşçi qrupunun nəqlin detalları barədə danışıqlar apardığı da məlum olmuşdur).

ABŞ Xəzərin statusu məsələsində onun sahilyanı dövlətlər arasında orta xətt üzrə milli sektorlara bölünməsi təklifini dəstəklədi. Və, Əsas İxrac neft Kəmərinin "BTC marşrutu"na üstünlük verdi. Belə bir qənaət həm də Xəzər regionunu Rusiyanın təsir (nüfuz) dairəsindən qoparmaq kimi geostrategiyadan irəli gəlirdi. Tanınmış diplomat-politoloq Z.Bjezinskinin yazdığı kimi, Əsas İxrac Kəməri də ilkin neftin nəqli borusu təki Rusiyadan keçməklə Qara dənizə çıxarsa, region bütövlükdə yenə Rusiyanın himayəsi altında qalacaq və onun burada güc tətbiq etməsinə ehtiyac olmayacaqdır; yalnız strateji kəmərlərdən birinin Gürcüstan-Türkiyə vasitəsilə Aralıq dənizinə və digərinin isə Əfqanıstandan keçməklə Ərəbistan dənizinə çıxacağı halda regionda təkhakimiyyətlilikdən söhbət gedə bilməz (Sözgəlişi, vaxtılə Xəzər neftinin Əfqanıstan vasitəsilə Pakistana (ya da Hindistana) nəqlinə dair də təkliflər olmuşdu. Müəyyən maraqlı dövlətlər (dairələr) hətta Əfqanıstanın hərbi-siyasi qüvvələri ilə müvafiq danışıqlar da aparmışdılar).

Ağ Ev bəribaşdan **Azərbaycan-Gürcüstan-Türkiyə marşrutunu** seçmiş və müdafiə etmişdi. Baxmayaraq ki, ABŞ və Avropa dövlətlərinin bəzi neft şirkətləri nisbətən baha olduğuna görə BTC-yə qarşı çıxır və azxərcli (təxminən 1,3 milyard dollarlıq) İran xəttinə üstünlük verirdilər (Onların hətta ABŞ-İran münasibətlərinin normallaşdırılması üçün rəsmi Vaşinqtona təzyiq göstərmələrinə dair məlumatlar da mövcuddur). Buna görə də dərhal hərəkətə keçən ABŞ diplomatiyası Azərbaycandakı səfiri vasitəsilə Bakı-İran-Naxçıvan-Ceyhan xəttini qətiyyətlə rədd etdi (I.1995). Türkiyədəki amerikalı böyük elçinin 1995-ci ilin yayındakı açıqlamasıyla isə alternativ marşrut olaraq Bakı-Qarabağ-Ermənistan-Ceyhan marşrutu məsləhət bilindi ("Ermənistan marşrutu"na üstünlük verilərkən onun Dağlıq Qarabağ münaqişəsinin həllinə müsbət təsir edə biləcəyi vurğulanmaqla Azərbaycanı razı salmaq məqsədi güdülmüşdü. Bu marşrutun qəbul olunmazlığına dair dəlillər az öncə şərh edilmişdir).

ABŞ-ın Energetika naziri 1995-ci ilin yayında Azərbay-

cana səfəri zamanı ilk dəfə olaraq "çoxşaxəli neft kəməri" ideyası təklifi ilə çıxış etdi. Ardınca da Ağ Evin digər rəsmiləri (Y.Kalitski, U.Kurtni və b.) Xəzər regionunun enerji ehtiyatlarının Bakıdan Ceyhana ixracı, yəni yalnız Türkiyə vasitəsilə Aralıq dənizinə nəqli məqsədilə müxtəlif boru kəmərlərinin inşası fikrini dəstəklədilər. **Üç xəttin** nəzərdən keçirilməsi təklif olundu: **1.** Bosfor vasitəsilə daşımaların əsas alternativi olaraq Bakı-Tiflis-Ceyhan neft kəməri. **2.** Qazaxıstandan başlanan və BTC-yə birləşən Transxəzər neft kəməri. **3.** Türkmənistandan və başqa ölkələrdən Azərbaycan vasitəsilə Avropaya uzanan Transxəzər qaz kəməri. (Sözgəlişi, gələcəkdəki "Nabucco"nun bir hissəsi, yəni başlanğıcı).

Dövlət Departamentinin "Xəzər hövzəsinin Enerji İnkişafı" adlı-az öncə təfərrüatlarına varılan- məruzəsi (1997) ABŞ-ın BTC-yə dair qənaətini daha da qətiləşdirdi. Avroasiya enerji dəhlizinə qoşulmaları planlaşdırılan dövlətlərin (Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan, Türkmənistan) başçılarının Vaşinqtondakı rəsmi qəbulları və danışıqları da ABŞ-ın BTC seçimini təsdiqlədi. Həmin müzakirələrdə, ABŞ hökumətinin bir sıra sənədlərində "tarixən Rusiya tərəfindən idarə edilən Xəzər bazarında" Kremlin ehtiyac olmadan qıcıqlandırılmasına yol verilməməsi və siyasi-diplomatik təzyiqlərə məruz qoyulmaması kimi mühüm məqamlar özünə yer aldı.

ABŞ hökuməti BTC ilə Transxəzər layihələrinin gerçəkləşdirilməsi üçün bir sıra digər tədbirlər də gördü:

a) mübahisəli "Kəpəz" və ya Sərdar" yatağı haqqında Azərbaycan-Türkmənistan danışıqlarına çağırış edildi. Həmçinin Türkmənbaşı-Bakı (Xəzərdibi) qaz kəməri layihəsinin maliyyələşdirilməsi üçün Aşqabada 750 min dollar qrant verildi;

b) 1988-ci ildə Xəzər hövzəsi üzrə xüsusi müşavir (R.Morninqstar) müəyyənləşdirildi;

c) Konqresdə-əsas müəllifi senator S.Braunbek olan- "İpək Yolu Strategiyası" adlı qanun layihəsinin müzakirəsinə başlanıldı (Sənəd ABŞ-ın Güney Qafqaz dövlətləri ilə əməkdaşlığı genişləndirməsini, regionun iqtisadiyyatına sərmayə qoyuluşunu artırmasını, "907-ci düzəlişi"i ləğv etməsini nəzərdə tuturdu);

ç) BTC Əsas İxrac Kəmərinin çəkilməsini dəstəkləyən Ankara bəyannaməsinə (29.X.1998) qatılma baş verdi və s.

Qərbdəki bəzi diplomatik-politoloji araşdırmaçılar belə bir qənaətlərini də ortaya qoydular: Ağ Ev BTC kəməri naminə hətta Güney Qafqaz və Mərkəzi Asiya dövlətlərindəki seçki saxtakarlıqlarına, insan hüquqlarının kütləvi şəkildə kobudcasına pozulmasına göz yumdu. Yəni xeyli müddətdən bəri Orta Şərqdə yürüdülən "demokratiyanın neftə qurban verilməsi" siyasəti (təcrübəsi) Xəzər hövzəsində də təkrarlandı, tətbiq edildi. Neft kəmərini regiondakı geosiyasi dəyişikliklərin özəyi sayan ABŞ diplomatiyası bu sahədəki mübahisələrlə və öz mövqeyi ilə bağlı belə bir qəti qənaətini açıqladı: "Bakı-Ceyhan neft kəmərinin çəkilib-çəkilməyəcəyi məsələsi yoxdur. Bu kəmərin necə gerçəkləşəcəyi problemi var".

Avropa dövlətlərindən şirkətləri neft konsorsiumuna üzv olanlar da əvvəllərdə əsas ixrac neftinin Qara dəniz vasitəsilə daşınması variantına üstünlük verirdilər. Bu cür mövqe bir neçə iqtisadi (kommersiya) səciyyəli dəlillərlə əsaslandırılırdı: Bakı-Ceyhan kəməri marşrutunun bahalılığı; Azərbaycanın onu ildə 50-60 mln.ton neftlə doldura bilməsinin qeyri-reallığı və s. Burada həmçinin siyasi motiv (maraq) da vardı. Yəni Avropa İttifaqı BTC-nin Türkiyənin mövqelərini qüvvətləndirə bilməsi ehtimalından ciddi rahatsızlıq duyurdu.

Bu kimi "iqtisadi dəlillər"ə əks olan mövqelərə görə isə, Bakı-Supsanın, kommersiya maraqları cəhətdən, BTC-yə nisbətən daha sərfəli olması mülahizəsi əsaslı deyildi. Çünki Türkiyənin iri neft tankerlərinin Bosfordan keçməsinə haqlı olaraq imkan verməyəcəyi şəraitdə Aralıq dənizinə çıxma üçün boğazdan yanötmə variantı xeyli əlavə (izafi) xərclər tələb edəcəkdi (Supsa ilə Burqasda 2 yeni terminal tikilməsi və digər işlərdən ötrü).

İran rəhbərliyi də lap əvvəldən BTC marşrutuna qarşı çıxdı. Rəsmi Tehranın dəlillər bunlardı: kəmərin "bahalılığı"; onun "azsəmərəliliyi"; iqtisadi deyil, "siyasi kəmər" olması; Xəzərdə (o cümlədən Azərbaycan sektorunda) neft ehtiyatlarının elan edildiyindən dəfələrlə azlığı; dənizdibi kəmərin çəkilməsinin Xəzərdəki kəskin seysmik durum cəhətdən böyük ekoloji problemlər yarada bilməsi ehtimalı və s. BTC ilə razılaşmayan İran ixrac neftinin nəqli ilə bağlı alternativ variantları də təklif etdi. Ən səmərəli variant olaraq Azərbaycan neftini özünün daxili istehlakı üçün alıb eyni həcmdəni İran körfəzindən ixracetmə məsləhət bilindi. Habelə Rusiyaya 2010-2016-cı illərdə gerçəkləşdirilməli olan Xəzər dənizi-İran körfəzi superkanal layihəsi təklif edildi (II.1998). Həmin ilin dekabrında, əvvəlki variantlardan imtina edilməməklə, Bakı-Türkmənbaşı-Tehran-Xark marşrutuna dair təklif irəli sürüldü.

Regional güc olmağa iddia edən İran Xəzər (Azərbaycan) neftinin ixracında yetərli imkanlara sahib çıxmağa çalışır. Tarixboyu çox vaxt çeviklik göstərən fars diplomatiyası bu mərhələdə də zəmanənin reallıqlarına uyğun və praqmatik gedişlər etdi. Moskva və İrəvanla "geosiyasi üçbucaq" yaradan Tehran Qərb, o cümlədən də ABŞ şirkətlərilə şirnikləndirici əməkdaşlığa səylər göstərdi. Bu zaman ABŞ-ın siyasi-maliyyə dairələrində (S.Vens, S.Braunbek və b.) İranla münasibətlərin mülayimləşdirilməsinə yönəlik çağırışlara, təkliflərə və s. ümid bəslənilirdi. İranda S.Braunbek və b. Vaşinqtonla Tehran arasındakı gərginliyin aradan qalxacağı şəraitdə Xəzərin enerji ehtiyatlarının mənimsənilməsi sahəsində dəyişikliklərin baş verəcəyinə, Cənubi Qafqazın isə neft istehsalçısı və Şərqlə Qərb yolundakı "açar məntəqə" imkanını itirəcəyinə dair ehtimalları diqqətdə saxlayırdılar.

Gürcüstan da BTC-nin Əsas İxrac Neft Kəməri kimi müəyyənləşdirilməsinə tərəf çıxdı. İqtisadi mənafelərin daha dolğun təminatı və siyasi maraqlar baxımından BTC onun üçün daha sərfəli idi. Buna görə də prezident E.Şevardnadze AR-ə

rəsmi səfəri zamanı (II.1997) Gürcüstan hökumətinin kəmərin təhlükəsizliyinə tam zəmanət verdiyini və bu marşrutun maraqlı dövlətlərin mənafelərinə uyğun olduğunu bildirdi.

Türkiyə Xəzər regionunun zəngin ehtiyatlarından faydalanmaqda çox maraqlı olan dövlətlərdən biridir. O özünün geosiyasi mənafelərinin təminatı da nəzərə alınmaqla Əsas İxrac Neft Kəməri olaraq BTC xəttinə üstünlük verirdi. NATO-nun regiondakı əlaqələndiricisi rolunu oynayan Türkiyə bu məsələdə ABŞ-ın dəstəyini əldə etməklə öz mövqelərini xeyli möhkəmləndirməyi bacardı. Rəsmi Ankara BTC-ni Xəzərin "böyük nefti"nin əsas ixracı üçün ən məqbul və optimal variant kimi dəyərləndirdi. Bundan da çıxış edilərək Rusiya və digərlərinin BTC-yə alternativlərə çevirmək istədikləri Bakıdan Supsaya və Novorossiyskə uzanan kəmərlərə tam müsbət yanaşılmadı. Bu zaman başlıca olaraq Qara dənizi dünya okeanı ilə birləşdirən 27 km-lik Bosfor boğazının həddən artıq yüklənməsi və İstanbula təhlükə yaranması amilinə istinad edildi.

Türkiyə hökumətinin "Qara dəniz boğazları zonasında gəmiçiliklə əlaqədar vəziyyət haqqında" məruzəsində Bakı-Supsa və Tengiz (Qazaxıstan)-Novorossiysk kəmərləri ilə axıdılacaq neftin tankerlərlə daşınmasının vəziyyəti daha da ağırlaşdıracağı vurğulandı. "Ankara bəyannaməsi"ndə (29.X.1998) Bosfor boğazından keçid təhlükəli su yolu kimi səciyyələndirildi. Müvafiq dövlətlərə boğazlarla gəmiçiliyin yeni reqlamentinə əsasən tətbiq ediləcək qaydaların və şərtlərin nəzərə alınması xəbərdarlığı həmin sənədə əsasən edildi. (Bu sənədlə məlum boğazlar "Türkiyə boğazları" adlandırılmalı idi). Doğrudur, Türkiyə Rusiyanın təzyiqlərini, onunla irihəcmli iqtisadi-maliyyə-ticarət əməkdaşlığını (xüsusilə də qazalverini) və s. məqamları nəzərə almalı oldu. Nəticədə ilkin Xəzər (Azərbaycan) neftinin "Qərb " və "Şimal" kəmərləri ilə nəqlinə razılıq verdi. Amma BTC-nin Əsas İxrac Neft Kəməri olmasına dair mövqedən də əsla imtina edilmədi. Əksinə, kəmərin təhlükəsizliyinin təminatına dair təkliflərlə çıxış edildi və əməli işlər gö-

rüldü. Nəhayət, BTC kəmərinə aid "Ankara bəyannaməsi" (29.X.1998) və "İstanbul sazişi" (18.XI.1999) kimi tarixi sənədlərə evsahibliyi etməklə böyük bir missiyaya önəmli təkan (töhvə) vermiş oldu.

Azərbaycan Xəzər neftinin Qərbə nəqlində və, ələlxüsus da, Əsas İxrac Kəmərinin (BTC-nin) müəyyənləşməsində kilid, yəni son sözsahibi ölkə olduğundan bütün gözlər rəsmi Bakıya dikilmiş, başlıca diqqət ona yönəlmişdi. (Bu kəmərin AR üçün dəyəri və önəmi bir az əvvəldə açıqlanmışdır). AR rəhbərliyi hələ 1992-1993-cü illərin "neft danışıqları"nda və "Əsrin müqaviləsi"nin bağlanması prosesində Bakı-Ceyhan xəttinə üstünlük verdiyini dəfələrlə bildirmişdi. Dövlətimizin BTC kəmərinə dair qəti mövqe və qənaəti 1997-ci ildə rəsmən elan olundu. AR prezidenti H.Əliyev fevralda E.Şevardnadzeni Bakıda qəbul edərkən və mayda Ankarada rəsmi səfərdə olarkən Xəzər neftinin Azərbaycan-Gürcüstan-Türkiyə marşrutu ilə dünya bazarlarına (Qərbə) çıxarılacağını bəyan etdi. Bu mövqe onun ilkin neftin Bakı-Novorossiysk kəməri ilə nəqliylə bağlı keçirilən rəsmi mərasimdəki çıxışında bir daha təsdiqləndi.

BTC-yə dair "üçlü (Azərbaycan, Türkiyə,ABŞ) səylər" öncə, "Ankara bəyannaməsi" ni ərsəyə gətirdi. **"BTC üçlüyü"** və Gürcüstan, Qazaxıstan, Özbəkistan 1998-ci il oktyabrın 29-da (Türkiyə Cümhuriyyətinin 75 illiyinə dair tədbirlərin gedişində) **"Ankara bəyannaməsi"ni** elan etdilər. (Onu prezidentlər və ABŞ-ın Energetika naziri B.Riçardson imzaladılar). Sənədin **başlıca müddəa və prinsipləri** aşağıdakılardan ibarətdir:

- Xəzərin nefti və təbii qazının iqtisadi-kommersiya cəhətdən əlverişli olan boru kəməri vasitəsilə nəqli zəruridir və region ölkələri, habelə qonşu dövlətlər üçün böyük əhəmiyyət kəsb edir;
- "Şərq-Qərb dəhlizi"nin (Xəzər boru kəməri şirkəti *daxil*), Transxəzər və Transqafqaz kəmərləri sistemlərinin yaradılması regionun və qonşu dövlətlərin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılmasını təmin edən son dərəcə

mühüm layihədir;
- Xəzər-Aralıq dənizi (BTC) boru kəməri variantının əsas ixrac layihəsinə çevrilməsi qərarına gəlinmişdir;
- istehsalçı və tranzit ölkələr boru kəmərinin lazımi həcmdə neftlə təmin edilməsinin əhəmiyyətini qeyd edirlər. Boru kəməri sisteminin yaradılmasına iştirakçı və digər şirkətlər, habelə beynəlxalq maliyyə qurumları dəvət olunmuşlar;
- Qara və Aralıq dənizləri sahillərinin, həmçinin Türkiyə boğazlarının qorunması olduqca vacibdir və enerji ehtiyatlarının dünya bazarlarına nəqli ətraf mühitə, insanların həyatı və mülkiyyətinə, təhlükəsiz dənizçiliyə təhlükə (problemlər) yaratmamalıdır.

Əsas İxrac Kəməri (BTC) hüquqi cəhətdən **ATƏT-in İstanbulda keçirilən sammiti zamanı bağlanan (18.XI.1999) müqavilə** ilə rəsmiləşdirildi. Bununla da böyük bir diplomatik çəkişmə əsasən başa çatdı. Azərbaycan neftinin tarixində yeni bir səhifə açılmış oldu. **Xəzər neftinə dair beynəlxalq Bakı konfransı (XI.2000)** da BTC kəmərinin inşası və işə salınması məsələlərinin vaxtında həllini tapmasına müsbət təsir göstərdi. Azərbaycan 2001-ci ilin martında Türkiyə və həmin ilin sentyabrında isə Gürcüstanla Bakı-Tiflis-Ərzurum qaz kəmərinin çəkilməsinə dair də saziş imzaladı (Onu "Nabucco" qaz kəməri layihəsinin başlanğıcı- əsası da sayırlar). 2002-ci ilin sonunda isə Qazaxstan neftinin BTC kəməri ilə ixracı barədə razılaşmaya nail olundu.

BTC kəmərinin Azərbaycan hissəsinin təməli 2002-ci il sentyabrın 18-də Səngəçal sahil terminalında qoyuldu. Tarixi hadisə, yəni kəmərin işə salınması (açılışı) 2006-cı il iyulun 13-də baş verdi. Müəyyən əlavə işlər üzündən sonda 1768 km-dək uzanan kəmərin inşası nəticədə təxminən 5 mlrd. dollara başa gəldi (İlkin dəyər 2,7 mlrd. və ortada isə 3,9 mlrd. dollar hesablanmışdı). Kəmərin bahalaşması (əlavə xərclər) bir sıra səbəblərdən irəli gəlmişdi. Belə ki, neftin bahalaşması tikinti işlərinin qiymətinin artmasını şərtləndirmişdi. Digər yandan, Gürcüs-

tana-Borjomi dərəsində "ekoloji mühitin korlanmasına" görə tarif güzəştləri edilmişdi. Həmçinin Türkiyə də tariflərdə müəyyən güzəştlər istəmişdi. Kəmərə vurulan (V.2005) ilkin neft həmin il iyunun 2-də ilk tankerlə dünya bazarına çatdırılıbdır. BTC-nin inşasına başlanılarkənAR-in gündəlik neft hasilatı 200 min barrel idisə, kəmərin işədüşmə çağında ötürmə gücü gündə 400 min barrel olubdur. 2008-ci ildən etibarən isə kəmərlə ildə 50 mln.ton (gündə 1mln. barrel) Azərbaycan neftinin axıdılması nəzərdə tutulmuşdu (Sonrakı bəzi proseslər kəmərin imkanlarının daha da artacağını söyləməyə əsas verir. Belə ki, Azərbaycanla Qazaxıstan arasında 2006-cı ildə imzalanan sazişin 2008-ci ilin aprelində təsdiqlənməsi ilə gələcəkdə ildə 25-30 mln. ton qazax neftinin BTC vasitəsilə nəqli razılaşdırılmışdır).

BTC kəmərinin **açılışı mərasimində** çox maraqlı və **önəmli dəyərləndirmələr** oldu. **AR prezidenti İ.Əliyevin** fikrincə bu kəmər:

- əfsanənin gerçəkliyə çevrilməsi-inamsızlığın sonudur;
- regiona sülh, inkişaf, əməkdaşlıq gətirəcək layihədir;
- "neft həm fəlakət, həm də səadət mənbəyidir" kimi ikili fikrin artıq arxada qaldığını təsdiqləyir.

Hazırda ilk dəfə olaraq Azərbaycan vətəndaşının (R.Cavanşirin) rəhbərlik etdiyi **"BiPi"nin təmsilçisi C.Brauna** görə BTC kəməri:

- dünya neft tarixinin mühüm mərhələsidir;
- XXI əsrin ilk nəhəng mühəndis layihəsidir;
- cahanın enerji xəritəsinin köklü dəyişməsidir.

Türkiyənin Baş naziri R.Ərdoğan BTC neft kəmərini regional mahiyyətli layihə deyil, "Şərq-Qərb enerji dəhlizi", Avropa İttifaqı və ABŞ üçün də çox əhəmiyyətli iş kimi səciyyələndirdi. **Gürcüstan prezidenti M.Saakaşvili** ölkəsinin bu layihədə yalnız (sadəcə) dəhliz funksiyasını yerinə yetirmədiyini və əsas tərəflərdən biri olduğunu bildirdi. O həm də BTC neft kəmərinin gerçəkləşməsinin Gürcüstanın həyat standartlarında əsaslı dəyişikliklər yaradacağı qənaətini açıqladı.

BTC-nin işə salınması **yeni problemləri,** öncəliklə və xüsusilə də onun **"risk layihəsi"nə** çevrilməsinə imkan verilməməsini, yəni təhlükəsizlik məsələlərini ciddiyyətlə gündəmə gətirdi. "BP-Azərbaycan" şirkətinin prezidenti D.Vudvord kəmərin açılışındakı çıxışında hazırda və bundan sonra başlıca problemin (vəzifənin) onun təhlükəsizliyinin, davamlı mövcudluğunun təminatından ibarət olduğunu vurğuladı. Çünki o vaxtlar Qərb mətbuatında ("Qardian", "İndependent" və s.) "BTC marşrutu etibarlı deyil", "kəmərin yetərli təminatı yoxdur" və digər bu kimi mülahizələr özünə yer almaqda idi.

Eyni zamanda bunlara əks olan yanaşma və şərhlər də ortaya çıxdı. Bəzi siyasi-maliyyə dairələrinin açıqlamalarına və media təhlillərinə görə isə, ABŞ kəmərin təhlükəsizliyi üçün gərəkən tədbirləri görür və görəcəkdir də. Bununla bağlı müxtəlif ehtimallar da söylənirdi. Bir sıra analitiklərin fikrincə, ABŞ kəmərin təhlükəsizliyinin təminatından ötrü hətta regionda hərbi bazalar yerləşdirməyə də səylər göstərəcəkdir. Digər ekspertlərin vaxtılə belə bir versiya-qənaəti də olmuşdu: Ağ Ev "Dağlıq Qarabağ problemi"ni Ermənistanın xeyrinə həll etməklə rəsmi İrəvanı Rusiyanın təsirindən çıxarmağa və bununla da "nəzarətsiz ərazilər"dən BTC kəmərinə ola biləcək təxribatların qarşısını almağa çalışacaqdır. Ümumi qənaətsə belədir: ABŞ-ın hərtərəfli himayəsi və dəstəyi ilə ərsəyə gələn BTC kəməri elə onun özü tərəfindən də müdafiə olunacaqdır. Və bu artıq isbat olunmuşdur. Belə ki, məhz ABŞ-ın himayəsinə görə Rusiya 2008-ci ilin yayında Gürcüstana hərbi müdaxiləsi zamanı BTC kəmərini sıradan çıxarmağa cürət etmədi.

Təhlükəli bölgələrdən (Gürcüstanda ermənilərin yaşadıqları, Türkiyədə isə PKK terrorçularının fəal olduqları ərazilərdən) keçməsi, bir sıra geosiyasi-iqtisadi-ideoloji maraqları təmin etməməsi və s. üzündən **kəmər əsasən aşağıdakılardan qaynaqlanan problemlərlə** qarşılaşmışdır: **a)** "Əl-Qaidə"; **b)** PKK; **c)** ermənilər; **ç)** Rusiya və İran; **d)** bəzi hallarda transmilli korporasiyalar və s.

Birinci təhlükə mənbəyi ilə bağlı "Əl-Qaidə"nin 2-ci şəxsi sayılan A.əz-Zəvahirinin üstüörtülü (ad söyləmədən) etdiyi xəbərdarlıq önə çəkilir (Bu məqam Azərbaycan MTN-nin açıqlamasında da özünə yer almışdı). Həmin terrorçu təşkilatdan qaynaqlanan təhlükənin Azərbaycanın İsraillə sıx iqtisadi-ticarət əməkdaşlığı, ən əsası da, BTC kəmərinin onun Aşkelon limanına qədər uzanabilmə perspektivi və başqa məsələlərdən irəli gəldiyi qənaətində olan yanaşmalar mövcuddur. "Əl-Qaidə"nin antiBTC mövqeyi ABŞ-ın kəməri dəstəkləməsi ilə də əsaslandırılır.

Digər təhlükə qaynağı sayılan PKK Türkiyə əleyhinə apardığı mənfur-bölücü siyasətin bir qolunu da BTC kəmərinə qarşı yönəltmişdir. Onun da rəsmilərindən biri vaxtılə xəbərdarlıq etmişdi: Türkiyə İraqın şimalına hərbi müdaxilə edərsə, BTC kəməri də daxil olmaqla, bütün enerji marşrutları hücumlara məruz qalacaqdır. Bu da məlumdur ki, PKK-nın hədə-təhdidləri söz olaraq qalmadı. Yəni kəmərə qarşı vaxtaşırı müxtəlif təxribatlar törədildi (Kəmərin təhlükəsizliyi ilə bağlı arada hətta "BOTAŞ"la "BTC Co" arasında müvafiq xərclərin ödənilməsi ətrafında mübahisələr də oldu. Türkiyə şirkətinin bu xərclərin müəyyən hissəsinin beynəlxalq konsorsiumun hesabına ödənilməsinə dair səyləri nəticəsiz qaldı).

Başqa bir, yəni ermənilərdən gələn məqsədyönlü təhlükənin də kəməri ciddi şəkildə təhdid etməsinə dair mülahizə və qənaətlər mövcuddur. Bu kimi təhlillər və rahatsızlıq da yetərli əsaslara malikdir. BTC kəmərinin Azərbaycanın çoxşaxəli mövqelərini xeyli möhkəmləndirməsindən hədsiz dərəcədə əndişələnən Ermənistan öz ucbatından regional enerji-kommunikasiya layihələrindən kənarda qalmasından daha da hiddətləndi. Onun keçmiş prezidenti R.Koçaryan hələ Dağlıq Qarabağın erməni separatçılarının başçısı olarkən "Azərbaycan neftinin bir damlasının belə Qərbə nəqlinə imkan verməyəcəklərini" bəyan etmişdi. Bu hədə erməni terrorçu təşkilatı ASALA-nın ("Ermənistanın Azadlığı Uğrunda Gizli Ordu"nun) açıqlama və təhdidi

ilə tamamlandı: "Azərbaycan və Gürcüstan ərazilərindən keçib Türkiyəyə gedən neft kəmərini dağıdacağıq".

Ayrı bir təhlükə Rusiya və İrandan gözlənilməndir. Xəzəryanı türk dövlətlərinin (Türkmənistan bəzi istisnalarla) status və enerji ehtiyatlarının nəqli məsələlərində onlardan fərqli mövqe tutmaları Tehranla Moskvanı əsla qane etmir, xeyli qayğılandırır. Rusiya ABŞ-ın Qafqaz-Xəzər regionuna nüfuz etməsini əngəlləmək və Əsas İxrac Neft Kəmərinə təhlükə yaratmaq üçün vaxtaşırı müxtəlif səciyyəli çoxlu tədbirlərə (təxribatlara) əl atır. Buna ən son və bariz misallardan biri elə Gürcüstana 2008-ci ildə edilən hərbi müdaxilə ola bilər. Doğrudur, Rusiya hərbi təyyarələri o vaxt BTC kəmərini və Kulevi terminalını dağıtmasalar da, Kreml onların təhlükəsiz olmadığına da işarə etdi (Həmin obyektlərin bombalanmamasının Azərbaycan rəhbərliyinin xahişi hesabına olduğu da bildirilir).

Amerikalı mütəxəssislər Gürcüstana hərbi müdaxilə zamanı Rusiya tərəfindən ona qarşı kiberhücumların da təşkil olunduğunu iddia edirlər. Bu, haker hücumlarının bir sıra mühüm obyektlərlə yanaşı, BTC-nin də işini əngəllədiyi məlumdur. Belə ki, BTC-nin işindəki üçhəftəlik fasilədə, Gürcüstanın neft-qaz kəmərləri sisteminin iflic olmasında, tranzit xərclərinin ikiqat bahalığına baxmayaraq "BiPi"nin Bakı-Novorossiysk xəttinə üz tutmasında həmin kiberhücumların da rolu olubdur.

İran Pentaqon tərəfindən vurulacağı halda BTC kəmərinə zərbələr endirəcəyini gizlətmir. "İnqilab Keşikçiləri Korpusu"nun ("Pasdaran"ın) kəşfiyyat xidməti olan SEPAH-ın Azərbaycanda fəaliyyət göstərən "Səidin dəstəsi"nə BTC kəmərinin dağıdılmasına dair tapşırıqlar verməsinə dair fakt-məlumatlar vardır (Bunu AR MTN-nin bəyanatı və "Səidin dəstəsi"nin Bakıda keçirilən məhkəməsindəki açıqlamalar da təsdiqləyir). ABŞ-ın "Qlobal Sekurity" təşkilatının saytlarında özünə yer alan çoxlu məlumatlar "Pasdaran"ın "bəsisçilər" adlı könüllü ordusunun (1 mln. nəfər), "Aşura briqadası"nın (20 min nəfərlik), birbaşa dini liderə tabe olduğu ehtimal edilən "Qüds bri-

qadası"nın BTC kəmərinə qarşı müxtəlif təxribat planları hazırlamalarından xəbər verir. "İmam Mehdinin Şimal Ordusu" təşkilatının "Səidin dəstəsi" vasitəsilə BTC kəmərinə aid məlumat əldə edərək İrana ötürməsi halları da olmuşdur. Rəsmi Tehranın BTC-nin "açar ölkəsi" sayılan Şimali Azərbaycanda "siyasi islamı" — "müsəlman fundamentalizmi"ni alovlandırıb AR-də sabitsizlik yaratmaqla kəmərə təhlükə yarada bilməsi ehtimalı da diplomatlar və politoloqlar tərəfindən nəzərdən keçirilən məsələlər sırasındadır.

Daha bir təhlükənin transmilli korporasiyalar (TMK-lar) vasitəsilə törədilə bilməsi də diqqətçəkicidir. Bu da "tarixi təcrübə", yəni transmilli korporasiyaların dövlətlərin daxili siyasətində (həyatında) bir sıra hallarda oynadıqları mənfi rol ilə izah olunur. Yəni maraqları uzlaşmayan və toqquşan transmilli korporasiyaların müvafiq dövlətlərin daxili işlərinə müdaxilələri nəticəsində başverənlər (siyasi sabitsizlik, hərbi çevrilişlərlə həyata keçirilən qeyri-konstitusion hakimiyyət dəyişiklikləri və s.) regional layihələrin (kəmərlər və digərlərinin) davamlı fəaliyyətinə təhlükə yarada bilir (Qərb mətbuatında Ə.Elçibəyin bəzi TMK-ların da iştirakı ilə hakimiyyətdən salınmasının "neft siyasəti"nə təsiri barədə çox bəhs olunmuşdur). 2007-ci ilin noyabrında ABŞ-dakı "SAFE" ("Amerikanın gələcək enerji təhlükəsizliyi") qurumunun dövlət rəsmilərinin də iştirakı təşkil etdiyi "neft şoku" ssenarisində "qara qızılın" bahalaşmasının perspektivlərinə dair modelləşdirmə məsələləri ilə yanaşı, BTC kəmərinin partladılması ehtimalı da gündəmə gətirilmişdi.

"Nabucco" layihəsi: maraqlar, problemlər, perspektivlər

Azərbaycanın enerji təhlükəsizliyi siyasətində "Nabucco" layihəsi və onun bir hissəsi kimi nəzərdə tutulan Transxəzər-Transqafqaz qaz kəmərləri sistemi məsələləri də mühüm yer tutur. Danılmaz həqiqətdir ki, "Nabucco" layihəsi məsələsi

son dövrlərin beynəlxalq münasibətlərində başlıca problemlərdən biridir. Layihə ətrafındakı diplomatik gərginliyi, məsələ ilə bağlı xeyli qəliz (dolaşıq) məqamları nəzərə alaraq kəmərin başlıca iqtisadi-texniki göstəricilərinin, ona dair çoxsaylı dəyərləndirmələrin, maraqlı dövlətlərin mövqe və planlarının əhatəli açıqlanması, geniş şərhi lazım gəlir.

"Nabucco"nun **əsas iqtisadi-texniki göstəriciləri:**

Birincisi, əslində o, Rusiyadan yankeçən, üç qaz boru kəmərinin toplusu olaraq düşünülmüşdür: Transxəzər (Türkmənbaşı-Bakı)+Transqafqaz (Bakı-Tiflis-Ərzurum)+Türkiyə (Ərzurum)-Bolqarıstan-Rumıniya-Macarıstan-Avstriya(Baumqarten).

İkincisi, texniki göstəricilər, maliyyə məsələləri və işədüşmə müddəti ilə bağlı **fərqli** yanaşmalar vardır:

- dünyanın bir sıra bölgələrini birləşdirəcək ilk böyük qaz kəməri hesab olunur;
- Avropaya açılacaq yeni bir "qaz dəhlizi" sayılır;
- Transxəzər kəməri ilə Türkmənistan, Qazaxıstan və Özbəkistan qazı dənizin altı ilə (2 min km) Azərbaycana çatdırılmalıdır;
- "BiPi"nin Güney(trans)Qafqaz boru kəməri (Bakı-Ərzurum; 690 km) ilə Orta Asiya və Azərbaycan qazı Gürcüstan vasitəsilə Türkiyəyə (Ərzuruma) ötürülməlidir;
- "Nabucco"nun özü (3300 km) ilə isə həmin (və ehtimal edilən digər, yəni İran, İraq, Misir) qaz Türkiyədən (əsas tranzit ölkədən-2000 km), Bolqarıstandan (400 km), Rumıniyadan (460 km, Macarıstandan (390 km) keçməklə, nəhayət, Avstriyaya (Baumqartenə-50 km) yetişdirilməlidir;
- Bakı-Tiflis-Ərzurum (Transqafqaz) borusunun dəyəri 1 mlrd.avro həcmində hesablanmışdır. Türkiyə (Ərzurum)— Avstriya (Baumqarten) kəmərinin, yəni bilavasitə "Nabucco"nun özünün inşasına 2007-ci ilin hesablamalarıyla 7,9 mlrd. avro xərclənməsi planlaşdırılmışdı. Sonrakı düzəlişlə isə 12 mlrd. dollarlıq xərc nəzərdə tutulmuşdur. Bu məbləğin 30%-ni Avropa İttifaqı ("Nabucco" konsorsiumu) vəd et-

mişdir. Aİ ilkin xərclərin maliyyələşdirilməsinə 250 mln. avro ayıracağını açıqlasa da, hazırkı maliyyə böhranı üzündən hələlik 50 mln.avrodan söhbət gedir. "Nabucco" kəmərinin maliyyələşdirilməsinin 70%-nin (2/3 hissəsinin) isə Avropa Yenidənqurma və İnkişaf Bankı, Dünya Bankı, Avropa İnvestisiya Bankı tərəfindən həyata keçirilməsi düşünülmüşdür;

- "Nabucco" ilə Avropaya 2019-2020-ci ilə qədər üç mərhələdə ildə 30-31 mlrd. m^3 qaz çatdırılmasına ümid edilir. Layihənin ortaya çıxarıldığı ilkin çağlarda başlıca ehtiyat mənbə olaraq "əsas qaz ölkələri" (Azərbaycan, İran, İraq, Misir) düşünülmüşdü. Sonralar üç türk dövləti (Türkmənistan, Qazaxıstan, Özbəkistan) da həmin siyahıya daxil edildi;
- artıq 5 ildir ki, maliyyə-iqtisadi və diplomatik dövriyyədə (gündəmdə) olan "Nabucco"nun inşasını öncə 2009-cu ildə başlayıb 2013-cü ildə isə başa çatdırmaq planlaşdırılmışdı. Böyük və regional güclərin, qazın sahibləri olan dövlətlərin maraqları və mənafelərinin hələlik uzlaş(dırıl)maması, habelə indiki maliyyə böhranı və digər önəmli səbəb-amillər üzündən müddətlər müvafiq olaraq 2011-ci və 2014-cü illərə keçirilibdir (Hərçənd ki, mövcud gerçəkliklər şəraitində bunlar da hələlik real görünmür).

Üçüncüsü, ideya müəllifləri Avropa İttifaqı (Avstriyanın "OMV" Səhmdar Cəmiyyətiylə Türkiyənin "OTAŞ" şirkəti) və başlıca dəstəkçi-himayədarı isə ABŞ olan "Nabucco"nun adı ilə bağlı Bunları qeyd etmək olar: Aİ-yə üzv olan dövlətlərin Enerji nazirlərinin 2003-cü ildə Vyanada keçirilən toplantısında Xəzər hövzəsindən, İraq və Misirdən, habelə digər regionlardan Avropaya qazın alternativ nəqli ideyası (layihəsi) ilk dəfə olaraq irəli sürülübdür. Həmin toplantıdakı ilkin müzakirələr daha sonra məşhur italyan bəstəkarı C.Verdinin 1842-ci ildə yazdığı "Nabucco" operasına baxmaqla davam etdirilibdir. Orada da layihəyə belə bir ad verilibdir (Adın özü isə operanın başlıca personajı olan qədim Babil hökmdarı Navuxodonosorla bağlı-

dır. Digər bir versiyaya görə, "Nabucco" operanın — qandallarını qırıb atmağa çalışan — baş qəhrəmanının adıdır).

"Nabucco" və Transxəzər-Transqafqaz qaz boru kəmərləri sisteminə dair **başlıca elmi-siyasi dəyərləndirmələr:**

- Xəzər hövzəsində "İkinci kəmər savaşı";
- Avropa İttifaqı ölkələrini Rusiyanın enerji asılılığından xilas etmək planı;
- Avropaya açılan yeni bir "qaz dəhlizi";
- Xəzər regionunun enerji resurslarına nəzarətə sahib olmaq davası;
- ABŞ-ın Rusiyaya qarşı "boru kəməri diplomatiyası"nın hələ ki, nəticəsiz ifadəsi;
- Qərbin (ABŞ və Aİ-nin) Xəzər uğrundakı "Böyük oyunu"-nun Rusiyaya uduzulan yeni mərhələsi;
- Güney Qafqaz və Mərkəzi Asiya regionunda demokratiyanın növbəti dəfə-indiki halda "Nabucco"ya qurban verilməsi;
- Azərbaycanın karbohidrogen ehtiyatlarının Avropa Birliyi üçün alternativ mənbəyə çevrilməsi;
- Azərbaycanı Avropaya möhkəm bağlayan kəmər (vasitə);
- Azərbaycan qazı ətrafında "poker oyunu";
- uzaq perspektiv üçün çox gözəl və səmərəli layihə, yəni Xəzər hövzəsi qazının Avropaya nəqlinin ən yaxın yolu və s.

Böyük qaz kəmərinə dair aparıcı maraqların və dövlətlərin mövqelərinin belə bir prinsip-yanaşma (sxem) əsasında nəzərdən keçirilməsi və təhlili, fikrimizcə, daha düzgün və faydalı olardı: Avropa İttifaqı (ideya müəllifi) və ABŞ (başlıca himayəçi) – Azərbaycan və Mərkəzi Asiyanın üç türk dövləti (istehsalçı və tranzit ölkələr)-Türkiyə (əsas tranzit ölkə)-Rusiya (güclü maneə)-İran(layihəyə qoşulmağa meylli dövlət).

Avropa İttifaqı və ABŞ "Nabucco" layihəsinin gerçəkləşdirilməsində **ən maraqlı tərəflər** sayılırlar. Layihənin kökündə çox irimiqyaslı iqtisadi mənafe, uzaqgedən geosiyasi maraqlar və "Qərb-Şərq" dəhlizi (oxu) boyundakı proseslər dayanır. Burada, təbii olaraq, Avropanın enerji təhlükəsizliyi məsələləri

önə çıxır. Məsələ burasındadır ki, Aİ-ölkələrinin qaza olan tələbatı hazırda 480-490 mlrd.m^3-dir və 2030-cu ildə bu göstəricinin 580 mlrd. m^3-ə çatacağı gözlənilir. Belə bir kəskin və ciddi yanacaq ehtiyacı Avropanın enerji təhlükəsizliyinin etibarlı təminatı üçün alternativlər axtarışını zəruri edir. Çünki mövcud şəraitdə Avropa ölkələrinin Rusiyadan qaza görə asılılığı danılmaz həqiqət və diqqətçəkici problemdir.

Politoloq, neft-qaz mütəxəssislərindən L.Əliyeva, T.Şaban, S.Bağırov və b. araşdırmaları, hesablamaları Avropanın Rusiyadan yanacağa, xüsusilə də qaza görə asılılığının belə bir düşündürücü, ciddi rahatsızlıq doğuran, mənzərəsini izləməyə imkan verir: hazırda Rusiya Avropanın qaza ehtiyacının 42 faizini (Aİ üzvü olan dövlətlərinkininsə 46%-ni), neftə tələbatının isə 30 faizini ödəyir; ayrı-ayrı ölkələrə gəldikdə isə Bolqarıstan, Finlandiya və Slovakiyaya, Baltikyanı dövlətlərə qazın 100%-i, Rumıniyaya-94, Avstriya-Yunanıstan-Macarıstana müvafiq surətdə 82, 81, 80, Çexiyaya-74, Polşaya- 69, Sloveniyaya-52, "Avropa İttifaqının lokomotivləri" sayılan Almaniya və Fransaya uyğun olaraq 44 və 16, İtaliyaya -30, Belçikaya- 4 faizi Rusiyadan gəlir.

Bakıdakı Avropa Modernləşmə Mərkəzi Təhlil qrupunun qənaətinə istinadən Aİ ölkələri qitəyə qazın maneəsiz, iqtisadi cəhətdən sərfəli, ekoloji standartlara uyğun və s. nəqli sisteminin qurulmasına çalışırlar. Burada başlıca problem Rusiyadan Avropaya uzanan qaz kəmərinə davamlı və etibarlı alternativ tapılmasından ibarətdir. 2008-ci ilin sonu-2009-cu ilin başlanğıcında Rusiya ilə Ukrayna arasında başverən "qaz müharibəsi" alternativlər axtarışını daha da aktuallaşdırmış və intensivləşdirmişdir. Avropanın enerji təhlükəsizliyini möhkəm və davamlı özüllər üzərinə oturtmaq və, bunun üçün də öncəliklə, qitəni Rusiyanın "Qazprom" şirkətinin inhisarının, habelə vaxtaşırı özünü göstərən siyasi konyuktura hallarının və ərazi-etnik münaqişələrin üzündən törəyən böhranların asılılığından qəti qurtarmaqdan ötrü "Nabucco"ya üstünlük verilmişdir. Alternativlər arasında ən böyüyü ola biləcək, "Nabucco" ötürmə gücü, əhatə dairəsi, sərmayə həcmi, gözlənilən mənfəət, ölkələrarası əməkdaşlığın çoxtərəfliliyi və s. görə digər layihələrdən çox fərqlənir.

Təxminən 2004-2005-ci illərdən etibarən beynəlxalq aləmin gündəmində özünə yer alan "Nabucco" layihəsinin həyata keçirilməsi üçün ideyanın müəllifi (Aİ) və başlıca dəstəkçi dövlət (ABŞ) tərəfindən hələ ki, elə bir ciddi (uğurlu) işlər görülməmişdir. Hələlik kəmərin marşrutu müəyyənləşdirilmiş, onun keçəcəyi ölkələrdən, yəni Bolqarıstan, Rumıniya, Macarıstan və Avstriyanın təmsilçilərindən ibarət "Nabucco" konsorsiumu təşkil edilmiş və layihənin maliyyə-sərmayə mənbələri axtarışına başlanılmışdır. Konsorsiumun qurucuları Avstriyanın "OMV", Macarıstanın "MOL", Rumıniyanın "Transqaz", Bolqarıstanın "Bulqarqaz" şirkətləridir. Əsas təşəbbüskarı və operatoru "OMV" olan konsorsiumda Türkiyənin "BOTAŞ" və Almaniyanın "RWE" şirkətləri də təmsil olunurlar. Hər bir tərəfdaş şirkətin konsorsiumdakı payı 16,67% təşkil edir. Fransanın "Qaz de Frans" şirkəti də konsorsiuma qoşulmaq niyyətində olduğunu bildirmişdir.

"Nabucco" layihəsinin reallaşmasının yubanması onun **üzləşdiyi** bir sıra **problemlərlə** əsaslandırılır:

1-cisi, lap əvvəldə kəmərin qaz mənbəyi olaraq Yaxın və Orta Şərq nəzərdə tutulmuşdu. Ancaq regiondakı çağdaş durum və orada cərəyan edən proseslər bu variantın gerçəkləşməsini imkansızlaşdırdı (Eyni zamanda İraq qazı diqqətdə saxlanıldı). Belə olduqda Xəzər qazı, ilk növbədə isə Azərbaycanın müvafiq ehtiyatları (2-3 trilyon m^3) məsələsi daha önə çəkildi. Azərbaycan qazı da kəməri doldurmaq üçün kifayət etmədiyindən içi boş qala bilmə ehtimalı çox olan boruya on milyardlarla dollardan artıq sərmayə qoymaq istəməyənlər məsələsi də gündəmə gəldi. Ölkəmizin qazı da yetərsiz olduğundan Xəzər hövzəsinin digər hissəsinin, yəni Orta Asiya respublikalarının qazından faydalanma zərurəti yarandı. Bununla da yeni prob-

lemlər ortaya çıxdı.

2-cisi, hazırkı beynəlxalq maliyyə böhranı da layihənin reallaşmasına yeni çətinliklər doğurmuşdur. Bunu belə bir rəsmi fakt da təsdiqləyir: Avropa İttifaqına üzv olan 27 dövlətin Xarici İşlər nazirləri Brüssel toplantısında (III.2009) qitənin enerji təhlükəsizliyinin təminatına sərf ediləcək 5 mlrd. avroluq (mühüm hissəsi "Nabucco"ya ayrılmaqla) stimul paketi barədə razılığa gələ bilməyiblər. Halbuki, Budapeçtdə keçirilən (I.2009) "Nabucco" sammitində Aİ təkcə özünün layihənin ilkin xərclərinə 250 mln. avro ayıracağını vəd etmişdi; həmin məbləğ indisə hələlik 50 mln.təşkil edir. Qərb mənbələrinin məlumatlarına görə, o, hətta Aİ-nin büdcəsində nəzərdə tutulan xərclənməmiş vəsaitlər hesabına həyata keçiriləcək prioritet layihələr sırasından da çıxarılıbdır. Amma bütün bu cür çətinliklər (250 mln. avroluq kreditin ayrılmaması və s.) əsla "Nabucco"dan imtina demək deyildir.

Digər yandan, özəl sərmayəçilər də hələlik Gürcüstanla bağlı cərəyan edən proseslər və onların ilkin nəticələri üzündən layihəni maliyyələşdirməkdə tərəddüd edirlər. Burada konkret olaraq söhbət Qərbin (ABŞ-ın) Azərbaycan-Gürcüstan dəhlizinin təhlükəsizliyini Rusiyadan yetərli qoruya bilməməsindən və regiondakı (Gürcüstandakı) siyasi-hərbi şəraitin tam da aydın görünməyən perspektivindən gedir. Buna görə də digər alternativlər, yəni "İran variantı" və s., həmçinin yeni "Enerji (yol) xəritəsi"nə dair müzakirələr aparılmışdır.

Aİ "İran variantı"na "Nabucco"nun alternativ mənbəsi kimi yanaşaraq onun hətta bu layihədə iştirakını mümkün sayır. Amma ABŞ hələ də İranın Qərbin enerji-kommunikasiya layihələrində iştirakdan kənar tutulmasına dair mövqeyindən imtina etməmişdir. Hətta Ağ Evin İranla enerji əməkdaşlığını dayandırması üçün vaxtaşırı Türkiyəyə təsir göstərməyə çalışdığı da məlumdur.

3-cüsü, Türkmənistan (Türkmənbaşı)-Avstriya (Baumqarten) qaz kəməri (Transxəzər + Transqafqaz + "Nabucco") layihəsində maraqlı olan və ona qarşı çıxan dövlətlərin mövqelərindəki toqquşan, anlaşılmaz məramlar da çoxlu problemlər yaradır (Bunlar barədə ayrı-ayrı dövlətlərin mövqelərinin təhlili zamanı ətraflı bəhs olunur).

4-cüsü, Aİ daxilində də Asiya qazının Avropaya nəqli məsələsində tam yekdilliyin, yəni vahid siyasi iradənin olmaması gözönündədir (Hərçənd ki, AB-nin enerji məsələləri üzrə komissarı A.Piebalqis Birlikdə energetikanın siyasətlə bağlılığının olmadığını bildirir). Yəni onlardan bəziləri özlərinin enerji təhlükəsizliyini təklikdə, başqa sözlə, ikitərəfli xoş münasibətlər əsasında həll etmək, bir növ, "öz başlarına çarə qılmaq" niyyətindədirlər. Qərb mənbələrinə istinadən demək olar ki, Almaniya, Fransa və İtaliya, ümumiyyətlə, "Nabucco"da çox da maraqlı deyillər. Məsələn, Fransanın qaz şirkəti də "Nabucco"dan yayınaraq Rusiyanın "Cənub axını" layihəsinə maraq göstərir.

Almaniya hazırkı beynəlxalq maliyyə şəraitində vergi ödəyicilərinin pullarının adıçəkilən layihəyə sərf olunmasını qəbul etmir. Hətta kansler A.Merkel Aİ üzrə tərəfdaşlarını da Rusiya qazını Baltik dənizinin dibindən birbaşa Almaniyaya çatdıracaq "Şimal axını" kəməri layihəsini dəstəkləməyə çağırıbdır. Rusiya prezidenti Almaniyaya səfəri zamanı (VII.2009) kansler ilə danışıqlardan sonra mətbuat konfransında diplomatik üsulla "Nabucco"ya qısqanclıqla (paxıllıqla) yanaşmadıqlarını söyləyibdir. Eyni zamanda layihəyə lağ etmək kimi görünən bir fikri də səsləndirmişdir: "Hələ heç kim mənə izah edə bilməyibib ki, bu qaz haradan gələcək". "Şimal axını"nı da Avropanın (enerji) təhlükəsizliyini artıracaq layihə kimi dəyərləndirən Rusiya prezidenti habelə İsveçdən bu kəmərin ekoloji tərəfini dəstəkləməyi istədiklərini açıqlayıbdır. Bu məsələlərə münasibət bildirən AFR kansleri isə bu, iki qaz kəmərinin ("Nabucco" ilə "Şimal axını"nın) bir-birini tamamlaya biləcəkləri fikrini söyləyibdir. Layihələr arasında ziddiyyət görmədiyini vurğulayan xanım Baş nazir həmçinin "Avropanın növ-

bəti onilliklərdəki yanacaq ehtiyaclarını nəzərə aldıqda, Rusiya ilə ticarət əlaqələrinin genişləndirilməsi üçün çoxlu imkanların mövcudluğunu görürük" müddəasını önə çəkmişdir. Bütövlükdə, arxasında İtaliyanın dayandığı "Cənub axını" və Almaniyanın dəstəklədiyi "Şimal axını" layihələri "Nabucco"ya ciddi alternativlər kimi görünürlər.

Rusiyanın Avropa qaz bazarında inhisarçı mövqelərini möhkəmləndirən bir addım İsveç tərəfindən atılmışdır. 2009-cu ilin noyabrında İsveç hökuməti "Şimal axını" qaz kəmərinin tikintisinə qoşulmağa hazır olduğunu bildirmişdir. İnşası 15 mlrd. dollara başa gələcək və ötürmə imkanı ildə 35 mlrd. m^3 olacaq bu kəmərlə qazın Rusiyadan Baltik dənizi vasitəsilə Almaniyaya nəqli planlaşdırılır. İsveç hökuməti layihənin dənizin ekosistemlərinə ziyan vuracağını əsas tutaraq əvvəllər ona qarşı çıxırdı. Kəmərin inşası ilə əlaqədar ətraf mühitlə bağlı tədqiqatları (hesablamalar) İsveç hökumətini qane etdiyindən layihənin gerçəkləşdirilməsinə razılıq verilibdir.

İsveçin bu qərarından bir ay əvvəl Danimarka və sonra da İsveçrə ilə Finlandiya kəmərin çəkilişinə razı olublar. Bununla da Rusiya-Almaniya konsorsiumu tərəfindən Baltik dənizinin dibiylə çəkiləcək kəmərin inşasına heç bir manea və şübhə qalmayıbdır. Siyasi tərəfi ("Nabucco"ya görə Qərblə qarşılaşma baxımından) inkar edilməyən "Şimal axını" layihəsinin sahiblərinin fikrincə, o, "Aİ-nin çoxşaxəli yanacaq təchizatı siyasətinə uyğundur və bu boru xətti əslində Avropa kəmərlər şəbəkəsinin bir hissəsidir". Onlar habelə belə hesab edirlər ki, "Şimal axını" rəqabət yaratmayacaq və "Nabucco"ya əngəl olmayacaqdır, çünki Avropanın gələcəkdəki irimiqyaslı enerji ehtiyatlarının ödənilməsi üçün hələ çox layihələrin həyata keçirilməsi lazım gələcəkdir.

5-cisi, hələlik yalnız **"Nabucco"nun ümumi fəlsəfəsi**, yəni Avropa bazarlarına hardansa (əvvəllər Yaxın və Orta Şərqdən, hazırda isə onunla yanaşı və, əsasən də, Xəzər hövzəsindən) alternativ yolla – Rusiyadan yanötməklə qaz gətirilməsinə dəstək verilməsi kimi ideya mövcuddur. Ancaq hələ də müvafiq geniş əhatəli hökumətlərarası sazişlər imzalanmayıb, layihənin texniki-iqtisadi əsaslandırılmaları aparılmayıb, habelə tranzit və qaz alıcıları ilə satıcıları arasındakı kommersiya şərtləri tərtib olunmayıb, hətta lazımi konsepsiya belə hazırlanmayıbdır. Kəmərin qazı haradan götürüb kimə satacağı da hələlik dəqiq məlum deyildir. Türkiyədən (Ərzurumdan) Avstriyaya – Baumqartendəki qazpaylayıcı şəbəkəyə qədər çəkilməli olan qaz boru kəmərinin necə inşa olunacağı da bilinmir. Kəmərin ötürmə gücünü ildə 31 mlrd. m^3 həcmində müəyyənləşdirən ölkələr onun hamısını istehlak etmək iqtidarında deyillər. Buna görə də daxili istehlakdan kənar qazın satılmalı olacağı şəraitdə onu alacaq dövlətlərin (şirkətlərin) hələ ki, ortaya çıxmamaları problemi də yaranır.

Aİ və ABŞ "Nabucco" ilə bağlı həm ittifaq daxilindəki, həm də bir-birləri arasındakı bəzi uyuşmayan maraq və mövqeləri bir araya gətirmək məqsədilə müəyyən diplomatik turnelər, sammitlər də təşkil edirlər. 2007-ci ilin yanvarında ABŞ senatı Xarici Əlaqələr Komitəsinin üzvü, nüfuzlu senator **R.Luqarın Xəzər regionuna "qaz qoxulu səfəri"** oldu. Leytmotivi **"neft-qaz həm rifah (inkişaf), həm də lənət (bədbəxtlik) gətirə bilər" fikri olan bu turne**də başlıca məqsəd Avropanın enerji bazarında Rusiyanın inhisarçı mövqeyinin aradan qaldırılmasına yönəlik səylər göstərməkdən ibarət idi.

"Enerji təhlükəsizliyini qlobal anlayış" kimi dəyərləndirən Aİ də vaxtaşırı özünün yüksək vəzifəli rəsmilərini regiona göndərir. Təşkilatın enerji məsələləri üzrə komissarı A.Piebalqis "Nabucco" qaz kəməri layihəsinə dair danışıqlar üçün arada Türkiyə, Azərbaycan və Türkmənistana ezam edilmişdi (XI.2008). Turne prosesində aparılan danışıqlarda aşağıdakılar diqqətçəkici olmuşdur: Bakıda-Avropa İttifaqının Azərbaycandan birbaşa qaz alması və həmçinin AR rəhbərliyinin "Nabucco"ya siyasi razılıq verməsi məsələləri önə çəkilmişdi. Ankarada- Türkiyə tərəfindən tranzit qiymətləri və şərtləri ilə bağlı

yaradılan problemlər nəzərdən keçirilmişdi. Aşqabadda-Türkmənistanın kəmərə siyasi razılığı məsələsi gündəmə gətirilmişdi (Bu məqamların ayrı-ayrı detalları bir qədər sonra şərh olunur).

Aİ-nin sədri (Çexiyanın o vaxtkı Baş naziri) M.Topolanekin 2009-cu ilin fevralında Xəzər hövzəsi dövlətlərinin bəzilərinin paytaxtlarına (Almatı, Daşkənd və Bakıya) rəsmi səfəri zamanı da "Nabucco" layihəsinin reallaşdırılması imkanları, problemləri və perspektivləri müzakirə edilmişdi. Avropa Parlamentinin elə həmin vaxtda ortaya çıxarılan "Aİ-nin enerji siyasəti haqqında" məruzəsində (II.2009) Rusiyanın da "Nabucco" layihəsinin tərəfdaşları sırasına daxil edilməsi təklifi özünə yer almışdı. Məruzə müəllifləri öz mövqelərini Xəzəryanı dövlətlərin kəməri qazla təchiz etmələrinə olan şübhələrlə əsaslandırmışdılar (Onlar "Nabucco"ya Rusiyanın "Cənub axını" layihəsinin rəqibi kimi baxmamağı məqsədəmüvafiq saymışdılar). Amma Avropa Komissiyası bu təklifi Aİ-nin Rusiyadan asılılığını yalnız artıra bilən amil kimi dəyərləndirmişdi.

Avropanın enerji təhlükəsizliyi məsələləri dalbadal keçirilən üç "Nabucco" sammitinin gündəmində önəmli yer tutmuşdur. Bu Zirvə görüşləri Aİ-nin "Nabucco" siyasətinin öyrənilməsi baxımından da faydalıdır. **"Birinci "Nabucco" sammiti"** (Budapeşt, 26-27.I.2009) Rusiya ilə Ukrayna arasında davam etməkdə olan "qaz savaşı" üzündən Avropanın 15-dən artıq ölkəsinin "mavi yanacaq"sız qaldığı bir şəraitdə keçirildi. Bu vəziyyət sammitdəki müzakirələrə və onun nəticələrinə də, təbii olaraq, öz təsirini göstərdi. Avropada həmin vaxtda yaşanan "qaz böhranı" "Nabucco"nun daha da aktuallaşdığını təsdiqlədi. Layihəyə o dönəmki artan tələbatı və diqqəti maraqlı tərəflərin ilk dəfə olaraq geniş tərkibdə bir araya gəlməsindən də görmək mümkündür. "Nabucco" konsorsiumunu yaradan dövlətlər baş nazirlər, kəmərin əsas qaz mənbəyi kimi dəyərləndirilən, ən real vədi verən Azərbaycan isə prezident səviyyəsində sammitdə təmsil olunmuşdular. Aİ rəsmiləri, ABŞ (M.Brayza), Birliyin aparıcı dövlətləriindən sayılan Almaniya, əsas tranzit ölkə olaraq nəzərdə tutulan Türkiyə, habelə Gürcüstan, Misir və digərləri Zirvə görüşünə ayrıca nümayəndə heyətləri ilə qatılmışdılar.

Budapeşt "Nabucco" sammitindəki gərgin müzakirələr, əsasən, bu **məsələlər** ətrafında getmişdi:

- siyasi və maliyyə təminatları;
- kəmərlə ötürülməsi planlaşdırılan qazın (ildə 31 mlrd.m^3) mənbələri;
- əsas tranzit ölkəsi kimi düşünülən Türkiyə ilə problemlərin həlli yolları;
- qazın başlıca mənbəyi və Aİ-nin etibarlı tərəfdaşı olaraq nəzərdə tutulan Azərbaycanın qəti siyasi seçimi (mövqeyi-iradəsi);
- "toyuq əvvəl olub, yoxsa yumurta?" dilemmasının çözülməsi (Bu ifadə Macarıstanın konsorsiumdakı xüsusi səlahiyyətli səfiri M.Bayer tərəfindən xatırladılıbdır. Burada söhbət layihənin investorları ilə kəmərin qazla təchizatçıları arasındakı mübahisələrdən gedir. Hər iki tərəf sığortalanmaq, yəni birincilər sərmayə yatırmaq üçün öncə qazı, ikincilərsə qaz verməkdən ötrü pulu görmək istəyirdi).

Birgə bəyannamənin imzalanması ilə yekunlaşan bu sammitdə iştirakçı və tərəfdaş dövlətlərin rəsmiləri (potensial qaz satıcılarından Azərbaycan, Türkmənistan, Qazaxıstan tərəddüdlə və ümumi sözlərlə) layihəyə siyasi dəstəklərini təsdiqlədilər. Amma konkret razılaşmalar və sazişlər ortaya qoyulmadı. Bir sıra məsələlərlə bağlı isə müəyyən uzlaşmalar oldu. Belə ki, şəffaf və qarşılıqlı maraqlara əsaslanan ötürmə rejimi əsas tutulmaqla, kəmərin işə salınma müddətindəki dəyişiklikdə anlaşmaya varıldı (Əvvəlki təklif, yəni 2010-cu ildə işə başlayıb 2013-cü ildə onu yekunlaşdırmaq qeyri-real sayıldı və kəmərin istifadəyə vermək vaxtı 2015- ci ilə dəyişdirildi).

Bəyannamədə qeyd edildiyi kimi, 2009-cu ildə bir neçə "Nabucco" sammitinin, Türkmənistanın təklifinə uyğun olaraq

yüksək səviyyədə enerji konfransının keçirilməsi və habelə Avropa Komissiyası ilə Türkiyənin "Xəzər İnkişaf Korporasiyası"nın yaradılması təşəbbüsü bəyənildi. Kəmərə iqtisadi-maliyyə dəstəyi ilə bağlı müzakirələrdə konkret təkliflər səsləndirildi. Aİ özü layihəyə 2 mlrd. avro ayırmağa hazır olduğunu bildirsə də, bunu hökumətlərarası müqavilənin bağlanması zərurəti ilə əlaqələndirdi. İttifaqın Enerji komissarı A.Piebalqis sammitdə hətta "əgər Aİ ölkələri "Nabucco" ilə bağlı mart ayına (2009-cu ilin – İ.M.) qədər konkret razılaşma imzalaya bilməsələr layihə unudula bilər" xəbərdarlığını etdi. Avropa İnvestisiya Bankı layihənin 25 faizini maliyyələşdirməyə razılığını bildirdi. Avropa Yenidənqurma və İnkişaf Bankı da maliyyə dəstəyini vəd etmişdi. Amma onlar da təminatlar və dövlətlərarası sazişlər istədiklərini gizlətmirdilər.

İlk "Nabucco" Zirvə görüşü bəzi **uğurlu nəticələri** ilə də diqqəti çəkir. **Ən başlıca uğur** hökumətlərarası sazişin razılaşdırılması yolundakı bəzi irəliləyişlər hesab edilir. Belə bir saziş konsorsiumla banklar arasında səmərəli danışıqlara və digər bir vəzifənin (maliyyə paktının tərtib edilməsinin) həyata keçirilməsinə tutarlı əsas ola bilərdi (Bu cür sazişlərdə dövlətlərin maliyyə təminatı üçün zəmanətlər verməsi öhdəliyinə dair şərtlər olur). Digər bir **diqqətçəkici nəticə** kimi Ai-nin (Avropanın) enerji təhlükəsizliyi üçün çox önəmli olan geosiyasi şəraitin əldə edilməsi sayılır.

"İkinci "Nabucco"sammiti" 2009-cu il aprelin 24-25-də Sofiyada "Avropa üçün təbii qaz: təhlükəsizlik və tərəfdaşlıq" mövzusunda keçirildi. Avropa Komissiyası, ABŞ və Aİ-nin təşkilatçılığı ilə gerçəkləşdirilən sammitə 28 ölkənin dövlət və hökumət başçıları, o cümlədən, AR prezidenti dəvət olunmuşdu. İ.Əliyevin qatılmadığı bu Zirvə görüşünün məqsədi Avropanın enerji təhlükəsizliyinin siyasi və iqtisadi yönləri, alternativ təbii qaz mənbələrinə çıxış, "Nabucco"nun reallaşdırılmasında mühüm önəm daşıyan dövlətlərin mövqeləri, bütövlükdə isə, layihənin taleyi məsələlərini müzakirə etməkdən ibarət idi.

Aİ və ABŞ-ın "Nabucco" layihəsinə dair məqsəd və yanaşmalarının təhlilindən sonra kəmərin əsas qaz mənbəyi kimi nəzərdə tutulan **Azərbaycanın mövqe və maraqları** üzərində dayanılması məntiqidir. Hələ ki, "kəmərin açarı" rolunu oynayan Azərbaycanın layihənin həyata keçirilməsi ilə bağlı maraqları və mövqeyi beynəlxalq regional proseslərin ciddi təsiri üzündən vaxtaşırı müəyyən (qismən) təshihlərə məruz qalır.

Azərbaycanın Transxəzər-Transqafqaz-"Nabucco" kəmərləri sistemindəki yeri, layihələrdə iştirakı ilə bağlı maraqları, bu işin forma-vasitələri və digər məsələlərə dair də bir sıra dəyərləndirmələr vardır. "Nabucco" layihəsində iştirak Azərbaycan üçün Qərbə inteqrasiyanın çox önəmli vasitələrindən biri hesab olunur. Azərbaycan bir müddət layihədə yalnız kommersiya şərtləri (kəmərin qazla təchizatçısı və tranzit ölkə olaraq) çərçivəsində iştirak mövqeyini tutaraq bütün maraqlı tərəflərlə (həm Qərblə, həm də Rusiya ilə) fərqli danışıqlar aparırdı. Əslində isə AR-in "Nabucco"da iştirakı, həm də və daha çox, bir siyasi seçim məsələsidir. Bəzi ekspertlərin haqlı qənaətinə görə, Azərbaycanın kimin yanında olmasını rəsmən bildirmədən yürütməyə çalışdığı balanslaşdırma siyasəti, yəni hələ də strateji seçim etməməsi tərəfləri əsla qane etmir və narazı salır.

"Nabucco" layihəsi ortaya çıxarılarkən kəmərin ilkin və real qaz mənbəyi kimi Azərbaycan nəzərdə tutulmuşdu. (Hələ 2006-cı ilin noyabrında Avropanın siyasi paytaxtı sayılan Brüsseldə imzalanmış "AR ilə Aİ arasında enerji məsələləri üzrə strateji əməkdaşlığa dair anlaşma Memorandumu" Azərbaycanın qitənin enerji təhlükəsizliyindəki müstəsna rolunu vurğulamışdı). Bu da Azərbaycanın "Şahdəniz" yatağındakı ikinci faza qazına hesablanmışdı. Xəzərin cənubunda yerləşən "Şahdəniz" ölkəmizin ən böyük təbii qaz yatağı və "Nabucco"nun taleyinin bilavasitə asılı olduğu bir enerji qaynağıdır. Yatağın qaz ehtiyatları 1 trilyon 200 mlrd. m^3 təşkil edir. İşə salındıqdan sonra oradan ildə 8,4 mlrd. m^3 qaz və gündə 40 min barrel kon-

densat (neft-qaz qarışığı) çıxarılması planlaşdırılır.

Bu da artıq 2007-ci ildən etibarən qaz idxalçısından onun ixracatçısına çevrilən ölkəmizin imkanlarını xeyli artırmış olacaqdır. 2006-cı ilə kimi Rusiyadan qaz alan Azərbaycan "Şahdəniz"in birinci fazasının hasilatı hesabına ixracatçı olmuşdur. AR Nazirlər Kabinetinin 2008-ci ilin sosial-iqtisadi yekunlarına həsr olunan iclasında dövlət başçısı tərəfindən açıqlanan rəsmi məlumatlara görə, idxalçı olacağı halda respublikanın 2009-cu ildə qaza olan ehtiyacının (4,5 mlrd.m^3) ödənilməsi üçün Rusiyanın qoyduğu qiymətlərə (1000 kubmetr=450, bəlkə də, 500 dollar) əsasən hesablanmaqla 2,5-3 mlrd. dollar vəsait tələb olunurdu (Sözgəlişi, Rusiya 2007-ci ildə qazın 1000 kubmetri üçün Azərbaycana 235, Ermənistana isə 110 dollar qiymət qoymuşdu).

Rusiyanın "Qazprom" şirkəti də "Şahdəniz"in bütün təbii qazını ən yüksək qiymətlərlə almağa çalışır. İran da "Şahdəniz"in 2-ci fazasından 10 faizlik pay əldə etməyə cəhd göstərir və buna görə də onun istismarına 1,7 mlrd. dollar sərmayə ayırmaq istədiyini bildirir (Son zamanlardakı anlaşmaya əsasən "Şahdəniz-2" yatağından hasil edilən qazdan ildə 5 mlrd. kubmetrinin İrana satılması nəzərdə tutulur; gələcəkdə bu həcm artırıla da bilər). Bütün bunlarsa "Şahdəniz" təbii qaz yatağı ətrafında kommersiya xarakterindən çox geosiyasət səciyyəli proseslərin getdiyini təsdiqləyir (Bu da mütləq qeyd olunmalıdır ki, Azərbaycanın, yəni "Şahdəniz"in bütün təbii qaz ehtiyatı "Nabucco" kəmərinin tam gücü ilə işləməsi üçün yetərli deyildir).

Bir sıra tanınmış neft ekspertlərinin və diplomatların qənaətlərinə görə, Azərbaycanın "Nabucco" layihəsində iştirakla bağlı mövqeyi müəyyən beynəlxalq amillərin təsiri üzündən ardıcıl (birmənalı) dəstəkləmə deyil, tərəddüdlü (bəzi obyektiv və subyektiv səbəblərli) yanaşma səciyyəlidir. Bu işə Rusiyanın 2008-ci ilin avqustunda Gürcüstana hərbi müdaxiləsi və həmin ilin axırlarında Ukrayna ilə apardığı qaz müharibəsi, habelə

Azərbaycan-Türkiyə münasibətlərində son vaxtlarda müxtəlif yönlərdən yaradılan sərinlik, başverən anlaşılmazlıqlar izsiz-təsirsiz ötüşməyibdir.

Azərbaycanın "Nabucco"prosesinin başlanğıcında və gedişində tutduğu mövqenin təhlili zamanı bunların nəzərə alınması və önə çəkilməsi lazım gəlir. Layihə ilə bağlı ilkin müzakirələrdə Azərbaycan iştirakçı -təchizatçı (hətta ola bilsin ki, təşəbbüsçü-təşkilatçılardan biri) və tranzit ölkə kimi nəzərdə tutulmuşdu. Kəmər Azərbaycan üçün Qərbə (Avropaya) inteqrasiyaya əlavə güclü təkan, tranzit gəlirlər vasitəsi və s. olaraq dəyərləndirilirdi. "Şahdəniz" yatağından əldə ediləcək təbii qazın 8-10 mlrd. kubmetrinin Bakı-Ərzurum kəməri ilə "Nabucco"ya ötürülməsiylə Avropaya nəqli planlaşdırılırdı.(Rusiyanı qıcıqlandırmamaqdan ötrü isə 3 mlrd. m^3 qazın "Qazprom"a satılması düşünülürdü).

AR-in "Nabucco" layihəsinə münasibətdə tutduğu mövqenin qismən aydınlaşmasında **4-cü beynəlxalq Enerji sammititnin (Bakı, 13-14 XI.2008)** mühüm rolu oldu. (Bu sammitlər 2006-cı ildən etibarən keçirilir). 21 ölkənin nümayəndələrinin qatıldığı sammit Avropanın enerji təhlükəsizliyi və Azərbaycanın bu layihə ilə bağlı yeritdiyi siyasətin öyrənilməsi baxımındfan da diqqəti cəlb edir. Bu toplantını Avropa İttifaqı-Xəzər hövzəsi nəqliyyat dəhlizinə dair məsələlərin müzakirəsi seriyasından da önəmli tədbir sayırlar. Zirvə görüşü və onun yekunlarına, Azərbaycanın "Nabucco"da iştirakının perspektivlərinə dair başlıca elmi-siyasi təhlillərin önəmli məqamları (tezisləri) sırasından bunlar qeyd edilə bilər. Ölkəmizin evsahibliyi etdiyi **bu sammit:**

- əslində rəsmi Moskvanın Qafqaz siyasətinə və enerji (qaz) inhisarçılığına qarşı çıxanların (ABŞ+AB+GUAM+Türkiyə) bir antiRusiya toplantısı, yəni onun "düşmənlərinin Bakıda birləşməsi" idi (Təbii, burada Azərbaycanın müəyyən ehtiyatlı addımlarını da qeyd etmək lazımdır);
- Xəzər regionunun enerji ehtiyatlarının Avropaya nəqlinin

yollarının şaxələndirilməsi yollarını araşdırdı;

- ABŞ-ın, BTC-ni dəstəklədiyi kimi, "Nabucco"nu da müdafiə etdiyini və bu himayənin layihənin gerçəkləşdirilməsi işinə böyük təsirini təsdiqlədi;
- "Nabucco"nun taleyinin Türkmənistan və Qazaxıstanın qazından, başqa sözlə, onların bu işə "siyasi hə" deməsindən həlledici asılılığını vurğuladı və s.

4-cü beynəlxalq (Bakı) Enerji sammiti "Nabucco"nun tərəfdaşlarının mövqelərinin açıqlanması,dəqiqləşdirilməsi və qəti (bəzi hallarda isə qismən) müəyyənləşdirilməsi cəhətdən də maraq doğururdu. Layihənin baş himayədarı sayılan ABŞ-ın Energetika naziri S.Bodmen Bakı Enerji sammitini önəminə görə "Əsrin müqaviləsi" ilə müqayisə edirdi. O, enerji təhlükəsizliyinin artıq bir sıra dövlətlər üçün milli təhlükəsizlik məsələsinə çevrildiyini vurğulayırdı (Bu zaman, şübhəsiz ki, Rusiyanın təhdid siyasətinin əsasını təşkil edən neft-qaz şantajına işarə edilirdi).

Əsas diqqəti "Nabucco"nun iqtisadidən də çox, siyasi önəminə yönəldən Ağ Ev rəsmisi ABŞ-ın layihəyə üstünlük verdiyini bir daha təsdiqləmişdi. Habelə bu sahədə fəal əməkdaşlıq edəcəkləri dövlətləri (Azərbaycan, Türkiyə, Gürcüstan, Türkmənistan, Qazaxıstan) açıqlamışdı. O, respublikamızın qaz ehtiyatlarının enerji əməkdaşlığı sahəsində qlobal irəliləyişə imkan verəcəyini xüsusi olaraq qeyd etmişdi. Amerikalı nazir "Gürcüstandakı müharibə"nin enerji ehtiyatları nəqlinin şaxələndirilməsini daha da zəruri etdiyini önə çəkmişdi.

Bundan öncəki **(3-cü) Enerji sammitinə (V.2008) evsahibliyi edən Ukrayna** özünü (prezidenti V.Yuşşenkonun timsalında) Bakı Enerji sammitində daha çox marağı olan tərəflərdən biri kimi göstərdi. Sabiq dövlət başçısı ölkəsinin neft-qazla təchizatının diversifikasiyasında (qaynaqların və kəmərlərin yönlərinin dəyişdirilməsində) köklü şəkildə maraqlı idi. O, Ukraynanın Rusiyanın enerji asılılığından çıxa bilməsi üçün maksimum səylər göstərirdi. Bunun çox vacib olduğunu isə

Bakı sammitindən dərhal sonrakı Rusiya-Ukrayna "qaz müharibəsi" (qalmaqalı) da yetərincə təsdiqlədi. V.Yuşşenkonun sammitdəki səyləri və mövqeyinin mühüm məqamlarına bunlar aid edilə bilər:

a) Azərbaycanla neft bazarlığı, konkret olaraq da Odessa-Brodı kəmərinin axın istiqamətinin dəyişdirilməsinə nail olunması (Bu sahədəki ləngimə Baş nazir Y.Timoşenkonun Rusiyapərəst mövqeyi ilə əlaqələndirilir. Adıçəkilən kəmərin 2009-cu ilin ortalarında hazır olacağı bildirilirdi);

b) Rusiya-Gürcüstan müharibəsindən sonra belə bir formatda toplantının (Bakı Enerji sammitinin) baş tutmasının önəmi (V.Yuşşenko beynəlxalq enerji sammitlərinin 1-cisində (Krakovda) layihələrlə əlaqədar ilkin müzakirələrin getdiyi halda, 4-cüsündə isə artıq "səmərəli müfəssəl dialoq" aparıldığını da qeyd etmişdi);

c) "Nabucco" qaz və Odessa-Brodı-Plotsk-Qdansk neft kəmərlərinin reallaşdırılması siyasi iradə ifadə olunmadan mümkün deyildir və kommersiya maraqları-biznes məsələləri ikinci plana (mərhələyə) keçməlidir (Bu siyasi iradənin isə öncə və başlıca olaraq Azərbaycan rəhbərliyindən gözlənildiyi gizlədilmirdi).

Türkiyə "Nabucco" ilə bağlı müəyyən şərtlər (onlar irəlidə açıqlanır) irəli sürməsinə baxmayaraq prezident A.Gül sammitdə Transadriatik qaz kəməri layihələrinin həyata keçirilməsində maraqlı və israrlı olduqlarını bəyan etmişdir. Onun fikrincə, Bakı-Tiflis-Ərzurum təbii qaz kəməri "Şərq-Qərb" enerji dəhlizinin ikinci tərkib hissəsi ola bilər. Prezident rəsmi Ankaranın Özbəkistanın da layihədə iştiraka qatılacağına ümid etdiyini və həmçinin İraq, gələcəkdə isə İran qazının Türkiyə vasitəsilə Avropaya nəqlinə çalışılacağını bildirmişdi.

Azərbaycan prezidenti İ.Əliyev sammitdəki çıxışında "Azərbaycanın neft-qaz resurslarının Avropaya nəqlini tarixi hadisə" kimi qiymətləndirdi. Qərb və Rusiya kütləvi informasiya vasitələrində özünə yeralan bir çox analitik materiallarda

Azərbaycanın (Bakının) 4-cü beynəlxalq Enerji sammitinə evsahibliyinə razılaşması "Nabucco"ya dəstək olaraq səciyyələndirildi. Digər dəyərləndirmələrə görə isə AR bu sammitdə də layihə ilə bağlı qəti siyasi iradə ifadə eləməkdə tərəddüdlü olmuşdur. Gürcüstanın dövlət başçısı M.Saakaşvili "Azərbaycanı dünya dövlətlərini bir araya gətirən mərkəz" adlandırmışdı. O, Avropanın demokratik dövlətlərinin enerji təhlükəsizliyinin gələcəyinin hamı üçün önəmli olduğunu bildirmişdi. "Aİ-Xəzər hövzəsi nəqliyyat dəhlizi hər iki tərəfin xeyrinədir" qənaətini açıqlayan M.Saakaşvili işlərin sürətləndirilməsini vacib saymışdı.

Buna sübut olaraq isə sammitin yekun sənədinin-**"Bakı bəyannaməsi"**nin AR tərəfindən hazırlanan ilkin variantına istinad edilir. Belə ki, "Nabucco" layihəsi ilə bağlı da "siyasi iradə problemi"nə tuş gələn Azərbaycan iqtidarı "balanslaşdırma siyasəti" üzündən Rusiyanı yersiz qıcıqlandırmamaq üçün ilkin mətndə rəsmi Moskvaya açıqca loyallıq göstərmişdi. Yəni orada ümumi şəkildə Avropanın enerji təhlükəsizliyində Xəzərin neft-qaz ehtiyatlarının rolu, "Şərq-Qərb" dəhlizinin inkişafından bəhs edilmişdi, artıq mövcud olan kəmərlərin (BTC, BTƏ) önəmi vurğulanmışdı. Ən başlıcası isə Odessa-Brodı-Plotsk-Qdansk neft kəmərinin adı çəkilsə də, "Nabucco" layihəsindən əsla bəhs olunmamışdı. (Bu halın sammit iştirakçılarında pərtlik yaratdığı və anlaşılmazlığa səbəb olduğu da məlumdur).

Yalnız Rumıniya və Bolqarıstanın təmsilçilərinin təklifi, hətta Qazaxıstanın da dəstəkləməsi və Gürcüstan, Ukrayna, ABŞ rəsmilərinin tövsiyələrindən (S.Bodmenin "gələcək niyyətləri konkretləşdirməyin zamanıdır" çağırışından) sonra "Bakı bəyannaməsi"nə əlavələr edildi. Sənəddə "Şərq-Qərb" enerji dəhlizi çərçivəsində karbohidrogen ehtiyatlarının nəqli layihələrinin dəstəklənməsi, xüsusilə də "Nabucco" qaz nəqli sisteminin və Odessa-Brodı-Plotsk-Qdansk neft kəmərinin yaradılması məsələləri öz əksini tapdı.

Aİ-nin 9 üzvünün və Avropa Komissiyasının qoşulduğu

"Bakı bəyannaməsi"nin belə bir məzmunda qəbulu və Azərbaycanın sammitə evsahibliyi etməsinin Rusiyanı hiddətləndirməsi əsla şübhə doğurmurdu. Qazaxstanla Türkmənistanın bu sənədə qoşulmamaları şəraitində Avropanın Rusiyanın enerji asılılığından qurtulmasına dair layihələrin və planların mərkəzində Azərbaycanın dayanması rəsmi Moskvanı daha da qəyğılandırırdı (Sözgəlişi, Qazaxıstan və Türkmənistan eyni zamanda "Şərq-Qərb" enerji dəhlizinin iştirakçıları olmaqda maraqlarını da gizlətmirdilər. Bunu elə həmin sammit zamanı Qazaxıstanın öz neftini BTC ilə nəql etmək barədə Azərbaycanla bağladığı saziş də təsdiqləyir. Qazax və türkmən təmsilçilərin bəyannaməni imzalamamaları isə "hələlik Rusiyadan çəkinmə və vaxt udmaq" (V.Quluzadə) kimi də başa düşülə bilər. Digər bir politoloq (R.Musabəyov) isə onların bu mövqeyinin yalnız Rusiya təhdidi ilə izah edilməsini düzgün saymır: "Nabucco"nun taleyi Türkmənistan və Qazaxstan qazına bağlıdır. Onlar da hələlik bu məsələyə "hə" deməyə hazır deyillər...o dövlətlərin mövcud qazı ixrac etmək üçün kəmərləri var. Əlavə qaz hasilatı üçünsə hansısa işlərə başlanılmayıb. Elə isə öncədən Rusiyanı qıcıqlandırmağa nə ehtiyac var?").

Azərbaycanın bunlarla yanaşı Gürcüstanla -ona daha beş il ərzində qaz verilməsi barədə - saziş bağlaması rəsmi Tiflislə hərbi və diplomatik qarşıdurma vəziyyətində olan Rusiyanın AR-ə ciddi problemlər yaratma ehtimallarını da gündəmə gətirmişdi. Bu və digər məqamları nəzərə alan M.Saakaşvili sammitin Bakıda keçirilməsini "Azərbaycanın cəsarətli addımı" kimi də dəyərləndirmişdi.

"Bakı Enerji sammiti"ni Qərbin ona qarşı "demarşı" təki səciyyələndirən Rusiya bu tədbirdən məmnun qalmadığını gizlətmirdi. Bəzi ekspertlərə görə, Rusiya diplomatiyası Bakı Enerji sammitinə onun son vaxtlardakı uğurlarından sayıla biləcək "Dağlıq Qarabağ problemi"nin həllinə aid "Moskva bəyannaməsin"ni kölgədə qoymaq cəhdi kimi yanaşırdı. Amma əksər diplomatik təhlillərdən irəli gələn qənaətlər Rusiyanın

Azərbaycanı da Gürcüstan kimi cəzalandıra biləcəyinə dair ehtimalları təsdiqləmir. Bu isə öncəliklə ABŞ-ın "Nabucco"ya (dolayısıyla da Azərbaycana) dəstəyi, habelə AR-in Bakı Enerji sammitinin keçirilməsi üçün xüsusi canfəşanlıq etməməsi, əlavə səylər göstərməməsi və, ən önəmlisi də, "Şahdəniz" qazının dünya qiymətləriylə Rusiyaya satılması ilə əlaqədar olaraq həmin vaxt onunla müzakirələr aparılması və digər amillərlə izah edilə bilər.

Azərbaycanın "Nabucco"ya dair mövqeyi ilə bağlı məsələlər layihə ilə əlaqədar keçirilən ilk sammitdə də (Budapeşt, I.2009) özünə yer aldı. "Rəsmi Bakı "Nabucco"nu seçəcəkmi?" sualı sammitöncəsi və toplantı gedişindəki müzakirələrin başlıca mövzularından birinə çevrilmişdi. Bu hal Azərbaycanın zəngin qaz ehtiyatlarına malik olması ilə yanaşı, həm də Rusiyanın onun hamısını mövcud dünya qiymətləri ilə almaq təklifiylə çıxış etməsindən irəli gəlirdi. Sammitdə AR-in mövqeyini açıqlayan dövlət başçısı bu kimi müddəa-şərt-tövsiyələri önə çəkmişdi: Azərbaycan layihəni dəstəkləyir; kəmərin yaxın 3-4 ildə tikilib işə salınması üçün tərəfdaş dövlətlərin güclü siyasi iradəsi tələb olunur; "Nabucco" rəsmi Bakı üçün siyasi deyil, kommersiya məsələsidir; kəmər üçün təkcə tranzit, yoxsa həm də təchizatçı ölkə olacağımız hələlik qəti müəyyən olunmayıbdır; qazımızın nəqli məsələsindən siyasəti götürməyə çalışırıq; qazı hasiletməzdən öncə satmaq lazımdır; Azərbaycan öz qazını bir neçə istiqamətdə nəql etməkdə maraqlıdır və ölkəmizdən Türkiyəyə, İrana, Rusiyaya, Gürcüstana uzanan kəmərlərin genişləndirilməsi də mümkündür; "Nabucco" ilə "Qazprom"dan (Rusiyadan) təkliflər var və habelə Bolqarıstan (yeri gəlmişkən, ona ildə 1 mlrd.m^3 qaz satılması barədə elə Budapeştdəcə razılaşma əldə edildi), Yunanıstan, İtaliya ilə də danışıqlar aparılır və s.

Azərbaycan tərəfinin bu cür yanaşması İ.Əliyevin **Davos (İsveçrə) İqtisadi Forumunun "2009-cu ilin enerji mənzərəsi" adlı sessiya**sında çıxışı (29.I.2009) zamanı daha da konkretləşdirildi. O, Avropa İttifaqının özündə "Nabucco" ilə bağlı tərəddüdlərə və parçalanmaya işarə edərək kəmərin gerçəkləşməsindən ötrü onun iştirakçılarının lazımi siyasi iradə göstərmədiklərini vurğulamış, layihəyə dəstək verən təşkilatları daha cəsur olmağa çağırmışdı. Həmin çıxışda "Nabucco"nun problemləri də qabardılmışdı: **a)** siyasi iradə və dəstək, iştirakçı ölkələrin səylərinin birləşdirilməsi; **b)** güclü maliyyə öhdəliyi və dəstəyi; **c)** tranzit məsələsi; **ç)** layihəyə həddən artıq iştirakçının cəlb olunması və s. Onun qənaətinə görə, "Nabucco" layihəsinə yalnız mənfəət mənbəyi kimi yanaşılmamalıdır: "Bu, enerji təhlükəsizliyi məsələsidir. Enerji təhlükəsizliyi isə uzun müddətli perspektivdə ümumi təhlükəsizliyə və müstəqilliyə yol açır".

Prezidentlə **40-cı Davos Forumu**nda da (I.2010) təmsil olunan respublikamızın rəhbərliyi toplantının **"Qlobal enerji mənzərəsi"** iclasındakı müzakirələrə də qatılmışdır. Həmin iclasda qlobal enerji təhlükəsizliyində ölkəmizin rolu, AR-in qaz ixracının şaxələndirilməsi siyasətini davam etdirməsi və digər məsələlər diqqət mərkəzində olmuşdur. Forumun gedişində "Bloomberq" agentliyinə və "The Wall Streel Journal" qəzetinə müsahibəsində İ.Əliyev bildirib ki, Azərbaycan öz qazını Türkiyə, Gürcüstan, Rusiya və İran vasitəsilə ixrac edə bilər. Bütün bu istiqamətlərdə qaz ixracının artırılmasını mümkün sayan AR prezidenti "Nabucco" kəmərinin inşasının ləngiməsindən məyus olduğunu da bəyan edibdir: "Türkiyənin təklif etdiyi qiymət bizi qane etmir. "Nabucco" nə qədər çox ləngisə, Rusiyaya o qədər çox qaz satacağıq. "Nabucco" həddən çox siyasiləşdirilib".

Azərbaycanın Budapeştdəki "Nabucco" sammitində layihə ilə əlaqədar tutduğu-birmənalı görünən, amma başadüşülən - mövqeyi müxtəlif rəylər yaratdı. Fikrimizcə, ölkəmizin kəmər üçün tranzit və təchizatçı, yoxsa təkcə tranzit olması ətrafındakı mübahisələr məhz bu Zirvə görüşündən etibarən açıqlığı ilə gündəmə gə(tiri)libdir. "Nabucco" layihəsinin müxtəlif səbəblərdən və yönlərdən Azərbaycan üçün böyük önəm kəsb etməsi

inkar edilməsə də ölkəmizin kəmərin yalnız tranziti olmasına üstünlük verənlər (iqtisadçı-neft ekspertlərindən V.Əhmədov, İ.Şaban və b.) vardır.

Belə bir **yanaşma-tövsiyə bu cür mülahizə və dəlillərlə** əsaslandırılır:

- layihənin reallaşmasının ləngiməsi və şübhəli perspektivi;
- "Qazprom" şirkətinin "Şahdəniz" qazının hamısını dünya (Avropa) qiymətlərinə yaxın, yəni 400-450 dollara almağa hazır olması təklifindən maksimum faydalanılması. (Hazırda Avropa bazarında qazın qiymətini diqtə edən Rusiya onun 1000 kubmetrini Ukraynaya 380, Avropa ölkələrinə isə 450 dollara satır. Azərbaycansa müəyyən məlum səbəblər üzündən qazının min m^3-ni Gürcüstana 180, Türkiyəyə isə 120 dollara verir);
- dünya qaz ehtiyatlarının təqribən 40 faizinə sahib olan Rusiya, İran və Qətərin artıq birgə qaz konsorsiumu yaratmasının Azərbaycanın müvafiq maraq və mənfəətlərinə xələl gətirə bilməsi ehtimalı. (Altı dövlətin şirkətlərinin təmsil olunduqları "Nabucco" konsorsiumu isə hələ də ciddi bir iş ortaya çıxara bilməyibdir);
- yaxın gələcəkdə Ermənistanın da "Nabucco"ya cəlb edilə bilməsinin Azərbaycanı qane etməməsi.(Aİ rəsmilərindən enerji məsələləri üzrə komissar A.Piebalqis və b. Ermənistanın heç bir halda bu layihədə olmayacağını, məsələnin müzakirə edilmədiyini və rəsmi İrəvanın da kəmərə maraq göstərmədiyini dəfələrlə bildirmişlər);
- Türkiyənin "Şahdəniz" qazının ilk alıcısı kimi onu daha baha qiymətlə "Nabucco" ilə nəql etməyə Avropa ölkələrinə satmağa və ixrac qazının 15%-ni özünün daxili tələbatına ayırmağa, qalan hissəsindənsə yüksək tranzit gəlirləri götürməyə nail olmaq istəyinin də bir sıra problemlər doğurması;
- "Nabucco"nun AR üçün bir "olum və ya ölüm məsələsi" hesab edilməməsi və layihədə iştirakdan kənarda qalmanın (yaxud da yalnız tranzit ölkə statusuna üstünlük vermənin)

Azərbaycana ciddi problemlər yaratmayacağı ehtimalı. (Təhlükəsizlik, geosiyasət və s. baxımından qaz kəmərlərinin (hazırda dördü var) çoxluğunun ölkəmiz üçün daha sərfəli olması. AR-in 2020-ci ildən etibarən kəmərlə ildə 30-31 mlrd. m^3 qaz ötürmə öhdəliyi ehtimalının onun gələcəkdə yalnız 1 ixrac borusunun ümidinə qalması rahatsızlığını da yaradır. Habelə "Şahdəniz"in ikinci fazasının qazının "Nabucco"suz da nəqlinin mümkünlüyü);

çağdaş dünya maliyyə-iqtisadi böhranı, neftin qiymətinin 50 dollardan aşağı düşməsi (qazınkının isə 1000 m^3=200-210 dollar səviyyəsinə enmə ehtimalı) və s. üzündən gözlənilən ziyanın "Şahdəniz" qazı vasitəsilə kompensasiya edilməsi imkanından yararlanılması.

Nəticə etibarı ilə bu kimi mülahizə və dəlillər Azərbaycanın "Nabucco"ya qoşulub-qoşulmayacağına dair qərarının "Şahdəniz" qazının qiymətindən asılılığı anlamına gəldiyini söyləməyə əsas verir. Ancaq diplomat-politoloq V.Quluzadə, neft mütəxəssis-eksperti S.Bağırov və digərlərinin təhlilləri isə "varlı və güclü Avropanın (Qərbin) "hədsiz maraq göstərdikləri "Nabucco" layihəsinin gerçəkləşdiriləcəyi və Azərbaycanın da onu dəstəkləyəcəyi qənaətindədirlər (Aİ-nin "Şahdəniz" qazını rekord qiymətlərlə almaq niyyətində olmasını bildirməsi belə qənaətləri daha da möhkəmləndirir).

Bu kontekstdə əsas problemlərin Azərbaycanın layihədə iştirakının səviyyəsinin (dərəcəsinin) müəyyənləşdirilməsi, qiymətlərinsə kəmərin işə salındığı dönəmin dünya bazarında mövcud olacaq qiymətə uyğun razılaşdırılması, "Şahdəniz" qazı kifayət etmədiyindən əlavə **mənbələrin (Türkmənistan, Qazaxıstan, İraq, İran) qətiləşdirilməsi** və s. ibarət olduğu göstərilir. Həmçinin Azərbaycanı Rusiya ilə iqtisadi cəhətdən bağlayan çoxlu amillərin mövcudluğu, ölkəmizin üzləşdi(rildi)yi siyasi problemlərin həlli, yəni "qaz əvəzinə Qarabağ" və s. görə "Şahdəniz" qazının müəyyən hissəsinin (bəzilərinin fikrincə isə, hətta hamısının) "Qazprom"a satılması real görünür.

Bu mülahizənin özünü doğrultması ehtimalına dəlil olaraq **Rusiya-Azərbaycan prezidentlərinin Moskvada aparılan işgüzar danışıqları (16-17.IV.2009)** göstərilir. Regional problemlərin, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin, ikitərəfli əməkdaşlığın ətraflı müzakirəsinin aparıldığı bu danışıqlarda həm də Azərbaycanla Rusiya arasında qaz alğı-satqısı məsələsi diqqət mərkəzində olmuşdur. Rusiya prezidentinin Moskva ətrafındakı Mayndroff iqamətgahında aparılan danışıqların nəticəsində "Şahdəniz" qazının "Qazprom"a satılması barədə müzakirələrə başlanılmasına dair memorandum imzalanıbdır.

Həmin sənəd tərəflər arasındakı irimiqyaslı qaz əməkdaşlığına (alğı-satqıya) 2010-cu ildən başlanılmasını nəzərdə tuturdu. Sonrakı danışıqlarda isə qaz alğı-satqısının kommersiya və texniki şərtləri müzakirə edilmişdir. Belə bir anlaşma Qərbin və Rusiyanın bəzi diplomatik çevrələri, elmi mərkəzlərinin analitikləri, mətbuatı tərəfindən **"Qaz əvəzinə Qarabağ"** siyasəti kimi səciyyələndirilir. Bu kimi dəyərləndirmənin özəyini (əsasını) isə belə bir təhlil təşkil edir: Azərbaycanı tranzit və ilkin təchizatçı kimi "Nabucco" layihəsinin gerçəkləşməməsi işində də başlıca "açar ölkə" (görən Rusiya "Şahdəniz" qazının hamısını Avropa qiymətləri ilə almağa müvəffəq olmaq üçün rəsmi Bakıya ardıcıl təzyiqlər edir və vədlər verir. Bu təzyiq vasitəsi və vədlərdən biri də "*Dağlıq Qarabağ kartı*"dır.

Prezidentlərin görüşdən sonrakı açıqlamalarından da bəlli olduğu kimi, tərəflər "Şahdəniz" yatağının ikinci fazasından hasil ediləcək "mavi yanacaq"ı "Qazprom"un alması təklifi əsasındakı kommersiya danışıqlarını yekunlaşdırmaqda qətiyyətli idilər. Yəni onlar iki ölkə arasında "çox mühüm hadisə" (D.Medvedyev) ola biləcək qaz əməkdaşlığı anlaşmasını, demək olar ki, razılaşdırmışdılar. Azərbaycanın artıq sübut olunmuş qaz ehtiyatlarının 2 trilyon m^3 təşkil etdiyini bildirən İ.Əliyev danışıqlar sonrasında bir sıra diqqətçəkici məqamları vurğulamışdı:

"ölkələrarası qaz əməkdaşlığı üçün bütün başlanğıc mövqeləri çox uduşludur" (Yəni tranzit ölkə problemi yoxdur, mövcud işlək qaz kəmərləri var, yeni kəmərlərin inşasına və bunun üçün də əlavə sərmayə yatırımına ehtiyac qalmır);

"Azərbaycan "Nabucco"da nə təşkilatçı, nə də iştirakçı ölkə deyil" (Bu isə Azərbaycanın kəmərə yalnız tranzit ölkə, yəni Orta Asiya qazının nəqli üçün vasitə ola bilmə, bütövlükdə isə, layihədə birbaşa iştirakdan imtina anlamına gəlir).

İki ölkə arasında elektrik enerjisi sahəsində əməkdaşlığın genişləndirilməsi və Bakı-Novorossiysk kəməri ilə neft nəqlinin artırılması.

Rəsmi Bakının "Nabucco"ya münasibətdə özünü açıqca biruzə verdiyi mövqe dəyişikliyi Rusiyaya meyllənmə və Qərblə tərəfdaşlıqdan çəkinmə göstəricisi, "qaz əvəzinə "Qarabağ" manevri, ölkənin sərvətindən maksimum faydalanma imkanı təki məzmunda yanaşmaları ortaya çıxardı. Belə bir mövqe dəyişikliyi ehtimalının (yaxud da gözlənilən perspektivinin) düzgünlüyü və bununla bağlı istinad edilən **amillər və dəlillərdən** isə bunlar vurğulana bilər:

1. Avropanın özünün heç də az olmayan "günahları"-problemləri ("Nabucco" nun tərəfdaşları daxilindəki parçalanma və hazırkı qlobal maliyyə böhranı ilə bağlı layihəyə sərmayə qoyulmasındakı tərəddüdlər. Aİ-nin Rusiyadan enerji asılılığı və digər səbəblərə görə Kremlin Gürcüstana hərbi müdaxiləsi zamanı tutduğu mövqe ilə regionda öz nüfuzuna xələl gətirməsi).

2. Türkiyənin irəli sürdüyü qəbul olunmaz şərtlər (AKP iqtidarının Ermənistanla sərhədləri açmaq xəttinə və müvafiq hazırlıqlarına cavab).

3. Orta Asiya qazının "Nabucco" ilə nəqlinin şübhəli perspektivi (Kəmərin yalnız Azərbaycan, Türkmənistan və Qazaxıstanın layihəyə birlikdə qoşulacağı halda işləməsi mümkündür. Yəni Azərbaycan və Orta Asiya qaz ehtiyatlarından yalnız birinin nəqli kəmərin tam gücü və maksimum səmərə ilə işləməsini təmin etmir).

4. Azərbaycanın layihənin girovuna çevrilməmək istəyi, bunun Türkiyə və Aİ-yə çatdırılması qənaəti.

Azərbaycan rəhbərliyinin "Nabucco"da iştirak və Rusiya ilə enerji (qaz) əməkdaşlığına dair mövqeyini **başqa yöndən dəyərləndirən baxışlar** da mövcuddur. Leytmotivi "Azərbaycan "Nabucco"dan əsla imtina etməməlidir" olan bu kimi (qrup-blok) yanaşmaların ifadə olunduğu mülahizə və tövsiyələr isə bunlardır:

- AR ilə Rusiya arasındakı məlum "qaz danışıqları" Avropanın öz enerji təhlükəsizliyini Xəzər hövzəsinin qaz ehtiyatları hesabına təmin etmək strategiyasına zərbədir;
- "Nabucco" barədəki fərqli düşüncə hələ Azərbaycanın geopolitik seçiminin (Rusiya ilə Qərb/ABŞ arasında) son variantı deyildir (Bu hal birmənalı olaraq və yenidən rəsmi Bakının Moskvanın yanında yer almasına, yəni Azərbaycanın Rusiyaya meyllənməsinə (üz tutmasına) dəlalət etmir. İ.Əliyevin Moskvaya bu səfəri (17.IV.2009) və **Mayndorff-da Rusiya rəsmiləri ilə apardığı "Qarabağ danışıqları", "qaz əməkdaşlığı müzakirələri"** geosiyasi oyun da ola bilir. Çünki Azərbaycanın NATO-nun Gürcüstanda keçirdiyi (V.2009)- Rusiyanı çox qəzəbləndirən-təlimlərə qatılan tək MDB ölkəsi olması, Cənubi Qafqazın bu iki qonşu dövləti arasındakı hərbi əməkdaşlıq, rəsmi Tiflislə imzalanan yeni qaz sazişi və s. də əsla nəzərdən qaçırılmamalıdır);
- Azərbaycan təbii ki, layihənin təşkilatçılarından deyil, amma iştirakçı (təchizatçı) tərəf və tranzit ölkə ola bilər. Ölkəmizin hətta bilavasitə və birmənalı şəkildə "Nabucco"nun təşkilatçılarından biri olması da lazımdır;
- AR-in Qərb oriyentasiyasından-Transatlantik məkana inteqrasiyadan uzaqlaşması və onun layihələrindən ("Nabucco" və s.) kənarda qalması, bundan irəli gələ biləcək fəsadlarla üzləşməsi yolverilməzdir;
- rəsmi Bakı **"Nabucco" məsələsində də "Rusiya amili"**ni nəzərə almaq məcburiyyətindədir.(Buna son dönəmin prosesləri, yəni Rusiyanın Gürcüstana hərbi müdaxiləsi zamanı Qərbin tutduğu mövqe (göz yumma, hətta bəzən tərəf saxlama), ABŞ-ın B.Obama iqtidarının rəsmi Moskvaya loyal münasibəti, Azərbaycan-Türkiyə-Ermənistan üçbucağındakı hazırkı durum və s. də ciddi təsir göstərir);
- ölkəmizə hərbi təcavüz edən Ermənistanı hərtərəfli müdafiə edən (silahlandıran və s.) Rusiyaya qaz satmaqla rəsmi Moskvaya əlavə siyasi, və digər imkanlar yaradılması əsla məqbul deyildir;
- Azərbaycanın Rusiya vasitəsilə Ermənistanın iqtisadiyyatını stimullaşdırmasının qətiyyən yolverilməzliyi və bu kontekstdə də "Qarabağı pulla qaytarmaq" ideya-təklifinin heç bir vəchlə yaxın buraxılmaması. (Burada söhbət Rusiyanın Ermənistan iqtisadiyyatını böhrandan çıxarmaq üçün müəyyənləşdirdiyi 500 mln. dolları Azərbaycanın verməsi kimi maliyyə məbləğlərindən gedir);
- Rusiya ilə irihəcmli qaz alğı-satqısı onun "Dağlıq Qarabağ problemi"nin ədalətli həllinə çalışmasından əsaslı şəkildə asılıdır;
- "Qazprom"la danışıqlara başlanılması heç də "Şahdəniz" qazının hamısının ona satılması demək deyildir. (Bu halda qazın yalnız bir hissəsinin Rusiyaya satılmasından söhbət gedə bilər. Çünki Azərbaycanın artıq Gürcüstan, Türkiyə, İtaliya və Yunanıstanla müvafiq müqavilələri vardır).

Bir sıra məqamlarla əlaqədar olaraq burada **Azərbaycanla Yunanıstan arasındakı qaz anlaşması və Türkiyə-Yunanıstan kəməri** ilə bağlı bəzi məsələləri nəzərdən keçirmək lazım gəlir. Haqqında 2003-cü ildə saziş bağlanan Türkiyə-Yunanıstan qaz kəmərinin açılışı 2007-ci ilin noyabrında olmuşdur. Bursa yaxınlığındakı İpsala məntəqəsindən Yunanıstana uzanan 285 km-lik kəmərin 209 km-i Türkiyədən keçir. Dəyəri 250 mln. avro olan bu kəmərlə "Şahdəniz" yatağından çıxarılan qazın 250 mln. kubmetrlik ilkin axını nəzərdə tutulmuşdur (Tezliklə bunun 500-700 mln.m^3-dək, gələcəkdə isə 11,5 mlrd.

kubmetrədək artırılması planlaşdırılır).

Türkiyə-Yunanıstan kəmərinin, Adriatik dənizinin dibindən keçməklə, İtaliyayadək uzadılması və ona Orta Asiya qazının da vurulması düşünülməkdədir. Bu, "Cənub dəhlizi"nin bir hissəsi kimi tanınan TGİ (Türkiyə-Greece-İtaliya) kəmərinə dair də müxtəlif **dəyərləndirmələr** olmuşdur. **("Cənub dəhlizi"nə TGİ ilə yanaşı "Nabucco" və TAP ("Transadriatik" boru kəməri) layihələri daxildir).** ABŞ-ın Energetika naziri S.Bodmenə görə, o, "Şərqlə Qərb arasında yeni mühüm enerji körpüsüdür". Onun ən böyük önəmi qaz inhisarçısı Rusiyadan və tələtümlü Yaxın Şərqdən yan keçməsində də görülür. Habelə bu kəmər **Aİ-nin əldə etdiyi ilk alternativ (Rusiyadan keçməyən) enerji nəqli marşrutu** sayılır. Bəzi ekspertlər onu həm də Ankara ilə Afina arasındakı ixtilafları səngidən amil kimi də qiymətləndirirlər.(Doğrudur, kəmərin ara-sıra işləməməsi halları da olur. Məsələn, Türkiyə üzərindən nəql olunan İran qazının 2008-ci ilin yanvarında müvəqqəti olaraq kəsilməsi və s.).

Azərbaycanla Yunanıstan arasındakı qaz anlaşması da **müxtəlif rəylər** doğurmuşdur (Saziş AR prezidentinin Yunanıstana ilk rəsmi səfəri (II.2009) zamanı imzalanmışdır). Onun sayəsində Xəzər hövzəsi qazının İtaliyaya—Qərbi Avropaya nəqli reallaşa bilər. 2011-ci ildə sona yetirilməsi nəzərdə tutulan bu layihə əsasında Yunanıstan Azərbaycandan TGİ kəməriylə birbaşa bilavasitə qaz alan, yəni alıcı olan **ilk ölkə** olacaqdır (Sözgəlişi, Azərbaycan hələ 2007-ci ildən Yunanıstana, çox da böyük olmayan həcmdə, qaz ixrac edir. Ancaq həmin qaz Yunanıstana Türkiyənin "BOTAŞ" şirkəti tərəfindən və özü də Avropa qiymətləri ilə satılırdı. Gürcüstandan ötürülən qaz yenicə istifadəyə verilən (XI.2007) Türkiyə-Yunanıstan kəməri vasitəsilə nəql olunur).

Yunan tərəfinin mövqeyinə görə, Azərbaycanla qaz anlaşması "Şahdəniz" yatağı ehtiyatlarının Avropaya nəqlinə dair iki(çox)tərəfli əməkdaşlıq silsiləsindəndir. Rəsmi Afina Xəzər qazının nəqlinin Türkiyə-Yunanıstan-İtaliya marşrutuna böyük

önəm versə də, Azərbaycanla anlaşmanın özünün Rusiya ilə enerji əməkdaşlığı siyasətini əsla dəyişdirməyəcəyini bildirir. Baş nazir K.Karamanlis Avropanın enerji təminatının çoxşaxəliliyinə və bu kontekstdə də Rusiya ilə əməkdaşlığa üstünlük verdiklərini açıqlamışdı.

Yunanıstanla qaz anlaşmasına Azərbaycanın "enerji qaynaqları hesabına öz maraqlarını qorumaq imkanı" kimi yanaşması və bunu da rəsmi Ankaraya nümayiş etdirməsi təki baxanlar da vardır. Digər yandan, Yunanıstanın bundan sonra qazı birbaşa Azərbaycandan satın almasının Türkiyəni razı salmayacağı qənaəti də diqqətdən kənarda qala bilməz. Belə ki, Türkiyə Azərbaycan qazını aşağı qiymətlə alıb Avropa qiymətləri ilə Yunanıstana satmaqla və onun nəqli üçün tranzit ölkə olmaqla qazandığının müəyyən hissəsini itirə bilər.

"Nabucco"ya ümidlərin hələ ki, özünü doğrultmaması və onun zəif (şübhəli) perspektivi **"Ağ axın" layihəsi** mövzusunu gündəmə gətirmişdir. Layihə Azərbaycanla və Orta Asiya (Türkmənistan) qazının Qara dənizin dibindən keçməklə Ukraynaya və oradansa Avropaya nəqlini nəzərdə tutur. Azərbaycanın-Ukrayna ilə Avropa İttifaqının da dəstəklədiyi – bu layihəyə dair mövqeyi hələlik rəsmən açıqlanmayıbdır. Layihə Ukrayna prezidenti V.Yuşşenkonun AR-ə rəsmi səfəri (IV.2009) zamanı və "Aşqabad qaz konfransı"nda (23.IV.2009) müzakirə edilibdir. Məsələ burasındadır ki, Türkmənistan Almaniyanın "RWE" konserni ilə uzunmüddətli əməkdaşlıq barədə memorandum imzalamaqla "Ağ axına" üstünlük vermişdir. Bu da Türkmənistan qazının, Rusiyadan yan keçməklə, "Transxəzər" kəməri ilə Avropaya ixracını nəzərdə tutur. Bununla bağlı "Qazprom"la müəyyən problemlər yaranmışdır. "Aşqabad qaz konfransı"nda təmsil olunan Rusiya isə "Şahdəniz"in 2-ci fazasından əldə olunacaq "mavi yanacaq"ın müəyyən hissəsini almağa hazırlaşdığı bir vaxtda Türkmənistanla problemlər yaşanmasını istəmir və onu nəzarətdə saxlamağa çalışır (Bu məqsədlə də D.Medvedyevin 2009-cu ilin dekabrında Aşqabada

səfəri zamanı Türkmənistanla yeni qaz sazişi razılaşdırıldı. Həmin sazişə əsasən 2010-cu ilin yanvarından etibarən avropa qiymətləri ilə ildə Rusiyaya 3- mlrd. m^3 qaz satılacaqdır).

"Nabucco" layihəsinin zəif perspektivi özünü onun **2-ci (Sofiya) sammit**ində də (IV.2009) göstərdi. **Azərbaycan rəhbərliyinin Zirvə görüşünə qatılmaması** layihənin gələcəyinə dair şübhələri daha da artırdı. Bu hal rəsmi Bakı ilə Kreml arasında əldə olunan qaz anlaşması ilə əlaqələndirilir. Digər yandansa, belə bir məqam Azərbaycanın "Nabucco" kəməri ilə qaz nəql etmək niyyəti və marağında olmamasının ifadəsi sayıla bilər. Ekspert-politoloqlardan R.Musabəyova görə, AR prezidentinin Sofiya enerji sammitinə qatılmaması gözlənilməz olduğu qədər də, normaldır. Dövlət rəsmilərinin açıqlamalarından da göründüyü kimi, 2-ci "Nabucco" sammitində iştirak etməmək Qərbin maraqlarını təmin edən Azərbaycanın bunun qarşılığında görmədiyi adekvat münasibətə cavab təki də qəbul oluna bilər. Digər ekspertlərsə, sammitdə iştirak etməməni Azərbaycanın Ermənistanı özünün forpostuna çevirən-rəsmi İrəvana "patron"luq edən Rusiya ilə sövdələşməsi sayırlar.

Bu məsələ ilə əlaqədar ortaya çıxan fikir və mülahizələrə dair əsas **ümumiləşdirici mövqelər** isə bunlardır. **Azərbaycanın bu sammitdə təmsil olunmaması**:

- "Rusiyaya sığınma, Qərbə qarşı çıxma və Qarabağın əvəzinə qaz vermə" demək deyildir;
- "Nabucco" kəmərinin təchizatçısı deyil, yalnız tranziti olmağa razılıqdır;
- "Şahdəniz" qazını daha sərfəli qiymətlərlə satmaq, şimal və cənub istiqamətlərdəki axınlarda (ixracda) rəqabət imkanı qazanmaq və tək kəmərin (Bakı-Ərzurumun) ümidinə qalmamaq istəyidir;
- Qərbin Avropa bazarında qaz ixracatçıları arasında rəqabət yaradaraq qiymətləri aşağı salmaq marağından özünü qorumaqdır;
- Qazsatışı-nəqliylə diplomatik gediş və Avropanın enerji təhlükəsizliyində iştirakdan da siyasi dividentlər qazanmaqdır;
- Azərbaycanın öz qazının hamısını "Qazprom"a satmağa hazırlaşması sayıla bilməz və s.

"Nabucco"-Rusiya ilə qaz müqaviləsi-Azərbaycan ərazilərində ikinci erməni dövlətinin qurulması təhlükəsi" kimi bir "Bermud üçbucağı"yla üzləşən rəsmi Bakı **Aİ-nin "Şərq Tərəfdaşlığı" təşəbbüsü" proqramı çərçivəsində keçirdiyi Praqa enerji toplantısında (8.V.2009)** yüksək səviyyədə təmsil olundu. Altı postsovet-MDB ölkəsinin (Güney Qafqaz respublikaları, Ukrayna, Moldova, Belarus) daxil edildiyi bu təşəbbüs də Rusiyanı qıcıqlandırmışdır. Aİ-yə o vaxt sədrlik edən Çexiyanın təşəbbüsü ilə **"Cənub dəhlizi-yeni İpək Yolu" adı altında keçirilən Praqa Zirvə toplantısını "Üçüncü "Nabucco"sammiti"** də adlandırırlar.

Üçüncü "Nabucco" sammitində, artıq bir xeyli vaxtdır ki, geosiyasi mübarizə predmetinə çevrilən və perspektivi sual altına düşən kəmər layihəsi müzakirə edilmişdir. O vaxt Aİ-yə sədrlik edən Çexiyanın rəhbərliyinin təşəbbüsü ilə ərsəyə gələn həmin sammitdə başlıca məqsəd hasilatçı-tranzit-alıcı ölkələrin layihəyə dair birmənalı siyasi razılığını əldə etməkdən və iştirakçı dövlətlərin "boş sözlərdən işə keçmələrinə", öncəliklə də sərmayə ayırmalarına nail olmaqdan ibarət idi. Sammitdəki **müzakirələr və onun nəticələri** ilə bağlı aşağıdakıların diqqətə alınması lazımdır:

1-cisi, Çexiya rəsmilərinin "Nabucco"nun son şansı" kimi dəyərləndirdikləri Praqa sammitində gözlənilən birmənalı və hərtərəfli siyasi dəstək təmin olunmadı. Zirvə toplantısının yekun siyasi bəyannaməsini Aİ ölkələri və Gürcüstan, Azərbaycan, Türkiyə, Misir təmsilçiləri imzaladılar. Kəmərin gerçəkləşməsi taleyinin bilavasitə asılı olduğu Türkmənistan, Qazaxıstan və Özbəkistan nümayəndələri sənədi imzalamaqdan imtina etdilər.

2-cisi, sammitin **yekun sənədi** "Nabucco"nun gerçəkləşməsi yolunda növbəti addım sayılır. Ancaq ümumi məzmunlu həmin bəyannamədə yalnız Avropaya neft və qaz nəqlinə dair

cənub dəhlizinin genişləndirilməsinin perspektivlərinin təqdir olunması ilə kifayətlənilmişdir.

3-cüsü, Zirvə görüşündə **Türkiyədən seçim etmək,** yəni ya tranzit ölkə statusuna qane olmaqla "Nabucco"ya qoşulmaq, yaxud da Xəzər qazının Avropaya nəqlindən tamamilə kənarda qalmaq (Gürcüstan– Ukrayna marşrutuna üstünlük verilməklə) istənilmişdir. (Sözgəlişi, 2009-cu ilin payızında Azərbaycan-Türkiyə münasibətlərində bəzi anlaşılmazlıqların yaşandığı dövrdə İ.Əliyev də "Şahdəniz"in ikinci fazasının qazının nəqli marşrutları sırasında Gürcüstan-Ukrayna xəttinə işarə etmişdi). Rəsmi Ankaranın sənədə qoşulması müəyyən rahatlıq yaratmışdır. Türkiyə təmsilçisinin bəyannaməni imzalaması tranzit qazının qiyməti barədə onunla Azərbaycan arasındakı fikir ayrılıqlarının aradan qaldırılmasına, nəticə etibarı ilə la yihənin reallaşmasının ləngi(dil)məsinə xidmət edən təkliflərdən vaz keçilməsinə işarə kimi də səciyyələndirilir.

4-cüsü, "Nabucco"ya dair Praqa sammitinin nəticələrindən ən çox razı qalan tək-tək dövlətlərdən sayılan Gürcüstanın Avropaya cənubdan qaz nəqli üçün qətiləşmiş tranzit ölkə olması gözönündədir. NATO-nun orada keçirilən hərbi təlimləri də buna inam və ümidin artırılmasına yönəlik tədbirlərdən hesab oluna bilər.

5-cisi, Azərbaycanın sammitin yekun sənədinə qatılması Rusiyadan yankeçən qaz kəmərinə ("Nabucco"ya) yalnız tranzit ölkə olaraq siyasi dəstək vermə kimi qəbul edilir. Çünki "Şahdəniz" qazının bu kəmərlə Avropaya ixracı məsələsi hələ də açıq qalır. Buna görə də siyasi-diplomatik dairələrdə və kütləvi informasiya vasitələrindəki təhlillərdə "imzanı "Nabucco"ya, qazı isə Rusiyaya?" sualı açıqlığı ilə verilməkdədir. (Artıq "Qazprom"la müqavilə bağlayan Azərbaycanın eyni zamanda "Nabucco" (Praqa) bəyannaməsini imzalaması ziddiyyətli görünə bilər).

Amma bu addım da Azərbaycan tərəfinin manevri kimi səciyyələndirilir. Manevr-taktika belə bir xətt üzrə qurulur: Rusiya heç bir vəchlə "Nabucco"nun reallaşmasına imkan verməyəcəkdir. Buna da elə kəmərin "açar"ı sayılan Xəzər hövzəsi (Azərbaycan və Orta Asiya) qazının özündən yan keçməklə Avropaya ixracına veriləcək razılığı maksimum əngəlləməklə müvəffəq ola biləcəkdir. Digər yandan da, Azərbaycan beynəlxalq razılaşma və öhdəliklərə əsasən enerji ehtiyatlarının nəqli üçün tranzit ölkə olmaqdan onsuz da yayına (imtina edə) bilməz. Bunlara görə də AR-in sözügedən sənədə qoşulması formal səciyyə daşımaqla Rusiya ilə qaz danışıqlarına xilaf çıxma kimi yozulmamalıdır.

6-cısı, Qərb ekspertlərinin (nüfuzlu "Enerji İntelicens" jurnalından P.Stimpson və b.) analitik təhlillərinə istinadən demək olar ki, "Praqa sənədi" siyasi motivli layihə sayılan "Nabucco" layihəsinin gerçəkləşməsinə ümidləri müəyyən qədər artırsa da, Aİ-nin ciddi rahatsızlıqları qalmaqdadır. Mövcud şərait Birləşmiş Ştatlarla Aİ-nin Rusiya ilə "enerji savaşı"nın davam edəcəyini söyləməyə ciddi əsaslar verir. Bunu "3-cü "Nabucco" sammiti" ərəfəsində və ondan dərhal sonra qərbli rəsmilər tərəfindən səsləndirilən fikirlərdən də aydın şəkildə sezmək olurdu.

Aİ-nin Təhlükəsizlik və Xarici siyasət üzrə Ali komissarı H.Solananın sözçüsü C.Gallakın "Azadlıq" radiosuna açıqlamasından (IV.2009) bunlar bəllidir: "Nabucco" gündəmdədir; Aİ layihə ilə bağlı niyyətlərinə sadiqdir; onun reallaşması üçün əldən gələn ediləcəkdir; Azərbaycanla Rusiya arasındakı enerji əməkdaşlığı (sövdələşmələri) diqqətlə izlənilir və bu sahədə şəffaflıq istənilir (Açıqlamada ifadə olunan ümid və israrda Rusiya ilə Türkmənistan arasındakı o vaxtkı qaz danışıqlarının heç də uğurla getməməsi kimi ciddi amilin təsiri də görünməkdədir).

M.Brayza "Exo Moskva" radiosuna müsahibəsində "Qazprom" kimi nəhəng şirkətin "cənub dəhlizi"ni də nəzarətə götürməsini istəmədiklərini bəyan etmişdi (V.2009). Onun müsahibəsində bu kimi fikirlər özünə yer almışdı: ABŞ-ın Rusiya ilə

əlaqələri yenidən canlandırmaq niyyəti Kremlin Xəzər hövzəsi enerji ehtiyatlarının Avropaya nəqli üzərində dominantlıq etməsinə qarşı çıxmaqdan imtina anlamına gəlməməlidir; "Qazprom"un "şimal dəhlizi" ilə kifayətlənməyərək cənubdan nəqlə də nəzarət etməsi Avropa enerji daşıyıcıları (qaz) bazarında normal fəaliyyətə, rəqabətə əsla yer qoymur; Rusiya Xəzər hövzəsi ölkələrinin (İran daxil) qazını cənub dəhlizi ilə Avropaya çıxarmaq niyyətindədir (V.Putin hələ 2004-cü ildə rəsmi Tiflisdən qaz kəmərləri sisteminin Rusiyaya verilməsini istəmişdi. Habelə İran qazını Ermənistan vasitəsilə alıb Gürcüstan üzərindən Avropaya nəql etmək niyyətində olduqlarını açıqlanmışdı); Türkmənistan "Praqa bəyannaməsi"nə qoşulmasa da, "Nabucco"dan kənarda qalmaq istəmir və s.

Məqamı (zamanı) gəlmişkən, "Nabucco"nun taleyinin birbaşa asılı olduğu **"Orta Asiya qazı"** ilə bağlı məsələləri də burada qısaca nəzərdən keçirmək məqsədəuyğundur. "Nabucco" kəmərinin təkcə Azərbaycan ("Şahdəniz") qazının nəqli hesabına işləməsinin mümkünsüzlüyü artıq qətiləşmiş qənaətdir. Yəni layihə ən azından onların hər ikisinin (Azərbaycanla Orta Asiyanın) qazının ixracına hesablanmışdır. Bu da Orta Asiya respublikalarının zəngin enerji (neft və qaz) ehtiyatlarına *malik olmalarından irəli gəlir.*

Qazaxıstanın Xəzərdəki milli sektoru digərlərinə nisbətən neftlə daha çox zəngindir. Elə təkcə "Tengiz" yatağının ehtiyatlarının təxminən 4-9 mlrd. barrel təşkil etdiyi bildirilir. Ölkə mütəxəssisləri və rəsmilərinin iddiasına görə, onun neft potensialı hətta Səudiyyə Ərəbistanından (34-35 mlrd. ton) sonra **ikincidir** (Əslində isə 2-ci yerdə 17-18 mlrd.ton neftə malik olan İraq gəlir).

Türkmənistan iri həcmdə təbii qaz ehtiyatları ilə zəngindir.O, təsdiq olunmuş qaz ehtiyatlarına görə (20 trilyon m^3) dünyada 4-cü ölkə hesab edilir. (Bu həcmdə qaz Avropanı 66 il ərzində təmin etməyə imkan verər). Sovet dönəminin sonuna yaxın (1990-cı ildə) təqribən 88 mlrd. m^3 qaz istehsal edən

Türkmənistanda XX əsrin axırlarına doğru (1997) bu göstərici 17 mlrd. kub metrə enmişdi. Məcburiyyət üzündən baş verən bu hala, bir tərəfdən, türkmən qazının daimi alıcılarından sayılan bəzi postsovet respublikalarının onun əvəzini ödəyə bilməmələri, digər yandan da , Rusiyanın inhisarçılığı (qəbul edilməz şərtləri) səbəb olmuşdu ("Qazprom" o vaxtkı qiymətlərlə Türkmənistan qazının 1000 m^3-ni 28-32 dollara alıb digərlərinə 80-104 dollara satmaq istəyirdi). **Türkmənistanın "qaz diplomatiyası"**nın azsəmərəli olmasına bunların da ciddi təsiri olmuşdu: özünü "neytral" elan edən Türkmənistanın Xəzərin statusu məsələsində bir müddət **Rusiya ilə İranın "kondominium prinsipi"ni dəstəkləməsi**; rəsmi Aşqabadın İranla müqaviləyə (1995) əsasən ilkin təbii qazı məhdud ötürmə güclü (ildə 2 mlrd.m^3) kəmərlə oraya ixrac etməsi; Türkmənistanın da çox maraqlı olduğu Qazaxıstan-Çin, Əfqanıstan-Pakistan, İran-Türkiyə istiqamətlərində qaz kəmərlərinin çəkilməsinə dair layihələrin reallaşmaması və s.

ABŞ və Aİ "Nabucco"nun, xüsusilə də onun mühüm *(başlanğıc) hissəsi* sayılan "Transxəzər"in gerçəkləşməsində Türkmənistana da çox böyük önəm verirlər. Buna görə də hələ ötən əsrin lap sonlarından etibarən Türkmənistanın "Moskva-Tehran oxu"ndan *uzaqlaşaraq özünün "tərəfsizlik"* siyasətinə müəyyən dəyişiklik – düzəlişlər etməsinə çalışılırdı. Bu niyyətlə də Türkmənbaşının ABŞ-a, yüksək səviyyədə keçən, rəsmi səfəri (IV.1998) təşkil olundu. ABŞ həm Rusiyanın "Mavi axın" layihəsinin reallaşmasını əngəlləmək, həm də türkmən qazının Avropaya nəqlinin ən təhlükəsiz yolu saydığı, Xəzərin dibi ilə çəkilməli olan, kəmərin gerçəkləşməsinin sürətləndirilməsi üçün (texniki-iqtisadi əsaslandırmadan ötrü) rəsmi Aşqabada 750 min dollar qrant da verdi. (Habelə digər xərclər üçün də 595 min dollar ayrıldı).

Tezliklə beynəlxalq ilkin qazın "Transxəzər"lə nəqlinə dair Türkmənistan-Türkiyə sazişi ərsəyə gəldi. Habelə ABŞ-ın "Evron" şirkəti qaz kəmərinin texniki-iqtisadi əsaslandırılma-

sını hazırlayıb müvafiq tərəflərə təqdim etdi (3,1 mlrd. dollara başa gələ biləcəyi, 2000 km uzunluğunda, 200-300 m dərinliyində olacağı və 2002-ci ildə işə salınacağı nəzərdə tutulan həmin kəmərlə ildə 10-30 mlrd. m^3 qazın ixracı planlaşdırılırdı). Türkmənistan Xəzərin statusu ilə bağlı keçirilən Moskva görüşündə (XII.1998) beş "müstəqil dəniz"ə bölünmə təklifi ilə yeni mövqe nümayiş etdirsə də, Türkmənbaşı məlum Ankara bəyannaməsini (1998) imzalamaqdan yayındı (Bunu Azərbaycanla mübahisəli yataqlarla əlaqədar danışıqların nəticəsizliyi ilə də izah edirlər).

İlkin müzakirələrə əsasən, işə salınması 2002-ci ildə nəzərdə tutulan, "Transxəzər" kəməri ilə bağlı bir məsələdə də Azərbaycanla Türkmənistan arasında uzlaşma olmadı. Rəsmi Bakının kəmərlə öz qazının ixracı üçün 50 faizlik kvota istəyinə Türkmənistan bunun ancaq 5 mlrd. m^3 ola biləcəyinə razılığını bildirdi. Bu da Türkmənistan üçün kəmərlə bağlı görülən ilkin işləri (hazırlıqları) hələ 2000-ci ildə dayandırmağa "əsas", bir növ, bəhanə oldu.

"Nabucco" layihəsinə aid ilk təşəbbüs və təkliflərin ortaya çıxması 2006-cı ildən başlayaraq **"Transxəzər" qaz kəməri** məsələsini yenidən gündəmə qaytardı. Buna Türkiyənin Türkmənistanı *həvəsləndirməsinin* (ümidləndirməsinin), yəni adıçəkilən layihə ilə bağlı müzakirələrə yenidən sövq etdirməsinin də ciddi təsir göstərdiyi bildirilir. "Nabucco"ya dair önəmli toplantılardan birinin , yəni **Türkiyə, Azərbaycan, Türkmənistan prezidentlərinin** iştirakı ilə keçirilən (29.XI.2008) **Zirvə görüşünün** də *rəsmi* Ankaranın təklifi (xahişi) ilə baş tutması məlumdur.

Sammit "Nabucco" kəmərinin əsas hasilatçıları olaraq nəzərdə tutulan Azərbaycanın, ələlxüsus da, Türkmənistanın siyasi qərar vermələri üçün çağırılmışdı. Türkmənbaşı — keçmiş Krasnovodsk — şəhərində keçirilən toplantı bu ölkələrin prezidentlərinin ilk üçtərəfli görüşü də hesab olunur. Nəticələri çox da geniş açıqlanmayan sammiti dair təhlillər sırasında bir sıra

yanaşmalar maraq doğurur. Sammit:

- Avropanın enerji mənbələrinin şaxələnməsində Xəzər hövzəsinin aparıcı yerini bir daha isbatladı;
- "Nabucco" nun gerçəkləşməsinin Türkmənistandan daha çox asılılığını, yəni boru kəmərinin yalnız Azərbaycan qazının hesabına doldurulmasının mümkünsüzlüyünü növbəti dəfə təsdiqlədi;
- Azərbaycanın qismən, Türkmənistanınsa əsasən Xəzərin enerji ehtiyatlarının ixracında Rusiya ilə Qərb arasındakı seçimlərinin hələ də qətiləşməməsini təkrarən göstərdi.(Aİnin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə İqtisadi Mərkəzinin Koordinatoru P.Morell və digərlərinə görə, bütün hallarda "Rusiya marşrutu" Avropaya enerji ehtiyatları nəqlinin yollarından biri kimi qalacaqdır);
- qazın nəqlinin kommersiya qiymətləri ilə bağlı Azərbaycan və Türkmənistan tərəflərinin rahatsızlıqlarını yenidən ortaya qoydu;
- "Transxəzər" layihəsinə "hə"nin kəmərin başlıca qaz təchizatçılarının Rusiyanın təzyiqləri qarşısında duruş gətirib-gətirməyəcəyi kimi tarixi suala cavablar axtardı və s.

"1-ci (Budapeşt) "Nabucco" sammiti" də Türkmənistanın layihəyə qoşulmaqda maraqlı olduğunu aşkarladı. Bəzi neft-qaz mütəxəssislərinin fikrincə, Türkmənistanın öz qazının yalnız Xəzərin dibi ilə çəkilən kəmər vasitəsi ilə "Nabucco"ya ötürülməsinə razılıq verməsi mümkündür. Ancaq bu da Rusiya və İranın "bunun üçün bütün sahil dövlətlərinin razılığı olmalıdır" kimi tələbi üzündən ciddi surətdə əngəllənə bilər. Belə bir şəraitdə isə digər maraqlı təkliflər ortaya çıxmışdır. Məsələn, Macarıstanın "Nabucco" konsorsiumundakı xüsusi səlahiyyətli səfiri M.Bayer türkmən qazının Avropaya ixracından ötrü xüsusi ("Transxəzər") qaz kəmərinin çəkilməsinə ehtiyac olmadığı qənaətindədir. Onun fikrincə, problemi "Şahdəniz"i Türkmənistanın dənizdəki qaz yataqlarıyla birləşdirəcək kiçik bir kəmərin çəkilişi ilə də *həll* etmək mümkündür.

Bütövlükdə isə, əksəriyyət ekspert-mütəxəssislər Qazaxıstanla Türkmənistanın "Nabucco"ya qoşulmalarına ümidli deyillər. Bakıdakı Neft Araşdırmalar Mərkəzinin rəhbəri İ.Şaban və b. görə, Xəzərin siyasi statusu həll edilmədən (və ümumiyyətlə) onun **Orta Asiya sahilindən Avropaya qaz nəqlinə "faktiki rəvayət"** kimi yanaşmaq lazımdır. Bu zaman ən çox Rusiya ilə İranın müqavimət və təzyiqləri əsas tutulur.

Belə bir hal **Qazaxıstanın mövqeyi** ilə bağlı da özünü aydın şəkildə göstərir. Qazaxstan **ABŞ üçün iki məsələdə mühüm geosiyasi nöqtə** hesab olunur: **a)** Mərkəzi və Cənubi Asiyada öz təsir (nüfuz) dairəsini genişləndirmədə; **b)** Çinin regiona çoxşaxəli ekspansiyasının əngəllənməsində. Ancaq bu zaman Qazaxstanın rolu ilə bağlı onun zəif tərəfləri də nəzərə alınır. Burada isə Rusiya ilə "bağlılıq"lar önə çəkilir:

1. Tarixi (rus icması, yəni ölkə əhalisinin təxminən 30%-i və rus dili). **2.** Coğrafi (böyük sərhəd uzantısı). **3.** İqtisadi-strateji (Kremlin Qazaxıstandan Çinin təsir dairəsinin genişlənməsinə qarşı istifadəsi) və s.

Belə bir şəraitdə Qazaxıstan rəhbərliyi aşağıdakı **sistem-sxemlə** fəaliyyət göstərməyə çalışır: beynəlxalq diplomatiyada-çox vektorluluq; milli təhlükəsizlikdə — enerji dəhlizlərinin diversifikasiyası; yeni ixrac marşrutlarında –iqtisadi səmərəlilik və s. Enerji dəhlizləri, yəni neft və qaz ehtiyatlarının nəqli ilə bağlı **aşağıdakı marşrutlar** nəzərdən keçirilməkdədir:

a) İran vasitəsilə nəql ABŞ-ın siyasəti üzündən hələ ki, mümkünsüzdür;

b) Çin marşrutu reallaşa bilər. (Öz qazının nəqlinə görə onu Rusiya da dəstəkləyər);

c) "Transxəzər"lə "Nabucco"ya qoşulma;

ç) Xəzər hövzəsi qazının Rusiyanın "Cənub axını" kəməri vasitəsilə ixracına qatılma.

Göründüyü kimi, Qazaxıstan da "Nabucco" ilə "Cənub axını" arasında seçim dilemması ilə üzləşmişdir. O, bir tərəfdən, "Asiyada birgə fəaliyyət və etimad tədbirləri Müşavirəsi"nin gedişində (Almatı, VI.2006) öz neftinin Xəzər və Azərbaycandan ötürülməklə (BTC) ilə nəqli barədə rəsmi Bakıyla saziş bağlamışdır (Başlanğıcda 7,5 mln. ton, sonralarsa 20 mln.ton. qazax neftinin BTC ilə Avropaya nəqli barədə razılığa gəlinmişdir). Bu müqavilə N.Nazarbayev tərəfindən "BTC-yə qoşulmaqla,Rusiya və Çin marşrutlarından əlavə,üçüncü xətt də qazanılmışdır" kimi qiymətləndirilmişdir. Digər yandan da, Qazaxıstan "Nabucco"ya münasibətdə tərəddüdlüdür. Hətta onun Xarici İşlər nazirliyinin "Transxəzər" layihəsinin gerçəkləşməsini "fantaziya, utopiya, arzu" olaraq səciyyələndirməsi də məlumdur.

Qazaxıstanla Türkmənistanın Rusiya ilə razılığa gələrək (IV-V.2009) öz qazlarını onun "Cənub axını" kəmərilə nəql etmək istəmələri bu iki potensial təchizatçılardan birincinin "Nabucco"da iştirakını sual altında qoymuşdur (Özbəkistan ixrac üçün hasil etdiyi qazı bütövlüklə Rusiyaya satmaq barədə qərar qəbul etmişdir). Rəsmi Almatının Türkmənistanla birlikdə Praqa sammitinin "Nabucco"ya dair yekun bəyannaməsini imzalamamaları müvafiq sualları daha da çoxaltmışdır. Rusiyanın- inşasına "Nabucco" ilə təxminən eyni vaxtda (2013-cü ildə) başlanılacaq, ildə 63 mlrd. m^3 ötürmə qabiliyyəti olacaq, 12 mlrd. dollarlıq-yeni kəməri ilə ("Cənub axını"yla) ildə 10 mlrd.m^3 qazax və eyni həcmdə də türkmən qazının ixracı planlaşdırılır. Son vaxtlarda Rusiya ilə həm də bəzi "enerji problemləri" şəraitində olan Türkmənistansa 2009-cu ildə yeni xətlə Çinə ildə 3 mlrd. m^3 həcmində qaz nəqlinə başlayacağını və habelə planlaşdırılan bütün kəmərlərin ("Nabucco" da başa düşülür) təchizatına hazır olduğunu bildirmişdir.

Belə bir mürəkkəb durumda "Nabucco"nun birinci fazasının Azərbaycan, yoxsa İraq qazının hesabına start götürəcəyi mübahisəli görünürdü. "Nabucco"nun ehtimal edilən başlıca təminatçılarının birmənalı görünməyən mövqeyi şəraitində (təxminən eyni vaxtda-V.2009) layihənin reallaşdırılmasında israrlı olan bəzi Avropa (Aİ üzvü) ölkələri başqa bir mühüm

müqaviləni imzaladılar. Avstriyanın "OMV" konserni ("Nabucco" beynəlxalq konsorsiumunun operatoru), Macarıstanın "MOL" enerji şirkəti və Birləşmiş Ərəb Əmirliklərinin "Crescent Petrolium" və "Dana Gas" kompaniyaları arasında İraqın şimalındakı ("Kürdüstan"dakı) qaz yataqlarının işlənməsinə dair 8 mlrd.dollarlıq saziş imzalandı. Sazişə əsasən birgə hasilat qazı "Nabucco" kəməriylə (Türkiyə vasitəsilə) Avropaya nəql olunmalıdır. Tərəfdaşlar ehtiyatların (hasilatın) boru kəmərini doldurmağa imkan verəcəyi qənaətindədirlər.

Bəzi ekspert-mütəxəssis rəylərinə görə, bu sövdələşmə "Nabucco"nun reallaşmasına ümidləri artıra bilər. Amma o da çox problemlidir. Çünki sazişin bağlanmasından dərhal sonra İraqın mərkəzi hökuməti tərəfindən ona ciddi etiraz olundu. Rəsmi Bağdad ölkənin şimalına nəzarət edən kürd yarımmuxtariyyətinin (administrasiyasının) adıçəkilən xarici şirkətlərlə imzaladığı qaz hasilatı anlaşmasını qətiyyətlə rədd etdi. İraq rəsmisinin "Röyter" agentliyinə açıqlamasına görə, ölkənin təbii sərvətlərindən istifadəyə dair bütün qərarlar mərkəzi hökumətə bağlıdır; onun icazəsi olmadan heç kim İraqda qaz hasil edə və sata bilməz. Ziddiyyətli olsa da, həmin agentliyin digər bir məlumatına görə isə, Bağdad qeyri-rəsmi olaraq "kürd administrasiyası"na neftlə bağlı danışıqlar aparmağa və 2009-cu il iyunun 1-dən gündə 60 min barrellik ixraca da icazə veribdir.

Bu üstüörtülü icazə-razılıqdan maksimum faydalanmağa çalışan "İraq Kürdüstanı" rəhbərliyinin hətta "ARDNŞ"-ə də əməkdaşlıq təklif etdiyinə dair iddialar vardır. İraq Neft nazirliyinin Rusiyanın "LUKoyl" şirkəti ilə "Qərbi Qurnə-2" neft yatağının işlənməsi barədəki müqaviləni "ədalətsiz və yaramaz" sayaraq ləğv etməsi belə mülahizələrə rəvac vermişdir. Məhz 8-10 mlrd. barrel ehtiyata malik olan "Qərbi Qurnə-2" və "Zübeyr" də daxil olmaqla, bütövlükdə, İraqın şimalında əsasən türkmənlərin torpaqları olan Mosul və Kərkükdə 8 yatağın mənimsənilməsi "ARDNŞ"-ə təklif olunmuşdur (Həmin yataqların çox böyük karbohidrogen ehtiyatlarına malik olmalarını İngiltərənin "Heritaq-Oyl" kəşfiyyat şirkətinin tədqiqatları və hesablamaları da təsdiqləmişdir).

"Nabucco" layihəsinin həyata keçməsində **başlıca tranzit ölkə sayılan (nəzərdə tutulan) Türkiyənin kəmərlə bağlı mövqe və maraqları** diqqətçəkici məsələlərdəndir. Ona münasibət Türkiyənin müasir xarici siyasətindəki prioritet problemlərdən biridir. Məlum olduğu kimi, ABŞ və Aİ "Şahdəniz" və Orta Asiya qazının Avropaya nəqlinin Türkiyə vasitəsilə reallaşmasına çalışırlar. Bir çox cəhətlərdən Türkiyə də bunda olduqca maraqlıdır. Amma Türkiyənin bəzi şərt-istəkləri üzündən onunla Aİ və Azərbaycan arasında müəyyən **narazılıqlar və anlaşılmazlıqlar** yaranmışdır.

Türkiyə kəmərlə bağlı öncə iqtisadi şərtlər və sonra da siyasi tələblər irəli sürübdür. Rəsmi Ankaranın **iqtisadi və siyasi şərtləri** aşağıdakılardan ibarətdir:

- kəmərlə ixrac olunan "Şahdəniz" qazının 15 faizinin Türkiyənin daxili tələbatının təminatı üçün (özü də aşağı qiymətlə) ayrılması;
- yüksək tranzit tariflərinin müəyyənləşdirilməsi;
- Türkiyənin həm də Azərbaycan qazının satıcısı olması;
- Avropa İttifaqının Türkiyənin həmin təşkilata qəbulu ilə əlaqədar apardığı danışıqların bərpa edilməsi və s.

Bu kimi şərtlər Azərbaycanla Aİ tərəfindən, təbii olaraq, məqbul sayılmayıb və elə Türkiyənin özündə də birmənalı qarşılanmayıbdır. Aİ və "Nabucco" konsorsiumu Türkiyənin iqtisadi-kommersiya səciyyəli şərtlərinin qəbul olunmasını mümkünsüz hesab etmişdir. Onların qənaətinə görə, tranzit tarifləri Avropa standartlarından yüksək ola bilməz. Habelə kəmərlə nəql olunacaq qazın hamısı Avropaya çatmalıdır, yəni Azərbaycanın özü tərəfindən layihə iştirakçısı olan qitə dövlətlərinə satılmalıdır. R.Ərdoğanın 2009-cu ilin yanvarında Brüsselə səfəri zamanı ortaya qoyduğu siyasi iddia isə Avropada hətta "şantaj" kimi dəyərləndirilmişdir: Aİ üzvlüyü ilə "Nabucco"ya dəstək arasında birbaşa əlaqə axtarılması düzgün deyildir.

"Şahdəniz" qaz yatağının ilkin mərhələsinin əsas alıcısı olan Türkiyənin şərtləri ilə bağlı daha kəskin mövqe onun ikinci fazasının işlənməsi üzrə beynəlxalq şirkətlər konsorsiumunun operatoru olan "Statoyl" tərəfindən açıqlandı. Norveçin ən böyük neft-qaz hasilatçısı sayılan bu şirkətin hətta "Nabucco"dan ("Şahdəniz"in ehtiyatlarının Türkiyə vasitəsilə nəqlindən) imtina etməyə hazırlaşmasına dair məlum xəbərlər yayıldı. Şirkətin beynəlxalq araşdırmalar və hasilat üzrə direktoru P.Mellbinin Londondakı brifinqində (IV.2009) "Nabucco"yla əlaqədar problemlərin əsasən Türkiyə ilə bağlı olduğu vurğulandı. Həmçinin Azərbaycan qazının Avropaya Rusiya və İran marşrutuyla ixracının nəzərdən keçirildiyi bildirildi: "Biz daha yaxşı iqtisadi nəticələr vəd edən alternativlər üzərində işləyirik".

"Şahdəniz"dən hasil olunan qazın 2/3-nə sahiblik edən bu şirkət-operator da Türkiyənin şərtlərini qeyri-real sayır. O, adıçəkilən yataqdan hasil ediləcək 15 mlrd.m^3 qaza indidən müştərilər tapılmasında və nəql (marşrut) məsələsinin tezliklə həllində israrlıdır (Sözgəlişi, şirkət öz mövqeyinin dəyişməsini, yəni İran marşrutunun da nəzərdən keçirilməsini Ağ Evlə rəsmi Tehran arasındakı münasibətlərdə son zamanlarda sezilən müvəqqəti yumşalma ilə deyil, özünün "Şahdəniz"in işlənməsində tərəfdaşlardan biri olmasıyla izah edir). Şirkətin rəsmi açıqlamasına görə, Türkiyənin şərtlər irəli sürməsi və yataqda hasilatın ikinci mərhələsinə sərmayəni ləngitməsi üzündən 2013-cü ildə başlanılması planlaşdırılan işlər 2016-cı ilə təxirə salınıbdır.

Londondakı Qlobal Enerji Araşdırmaları Mərkəzinin baş analitiki C.Li Azərbaycan qazının nəqli ətrafındakı mövcud durumu "poker oyunu"na bənzədir. O bildirir ki, "Türkiyə Avropaya qaz nəqlində əsas oyunçuya çevrilmək istəyirdi. Ancaq Azərbaycan qazı şimala – Rusiyaya nəql edilsə, onda "Nabucco" layihəsinə "vida öpüşü göndərilə bilər". "Nabucco"nun rəsmisi K.Dollzal isə layihənin heç də "Şahdəniz" qazından asılı

olmadığını bəyan edərək ona dair müqavilənin 2009-cu ilin iyununda bağlanacağına ümidlər bəslənildiyini söyləmişdi.

Bütün bunlarsa Aİ rəsmilərinin Praqadakı "Nabucco" sammitində Türkiyəyə seçim etmək təklifi ilə yekunlaşdı: tranzit ölkə statusuna qane olmaqla layihəyə qoşulmaq, yaxud da Xəzərin ehtiyatlarının nəqlindən kənarda qalmaq. Nəticədə isə, İngiltərənin "The Guardian" qəzetinin yazdığı kimi, sammitdə **"İstanbul bazarındakına bənzər sövdələşmə" baş tutub** və layihənin gerçəkləşdirilməsinə dair razılıq əldə olunubdur. Bu işdə Avropa Komissiyasının prezidenti J.Barossonun Türkiyənin dövlət başçısı A.Güllə xüsusi danışıqlar aparmasının da önəmli rol oynadığı qeyd edilir. (Həmin danışıqların başlıca predmetini Türkiyənin Aİ-yə qəbulu ilə onun "Nabucco"ya qoşulması arasında əlaqə məsələsinin təşkil etdiyi bildirilir).

Azərbaycan da Türkiyənin "Nabucco"ya dair şərtləri ilə razılaşmır. Rəsmi Ankaranın (AKP iqtidarının) Ermənistanla sərhədlərin açılmasına dair bəzi açıqlamaları, Türkiyənin rəsmi İrəvanla münasibətlərinə dair "Yol xəritəsi" və s. "Şahdəniz" qazının nəqli məsələsi ətrafında da yeni mənzərə yaratmışdır. Azərbaycan tərəfi qaz əməkdaşlığı sahəsindəki bəzi məqamlara yenidən baxılmasına üstünlük vermişdir. Məsələlərdə aydınlıq olsun deyə **Azərbaycanla Türkiyə arasındakı qaz əməkdaşlığının** bu vaxta (hadisələrə) qədərki durumuna qısa nəzər salmağa ehtiyac duyulur.

Bir millətin bu iki dövləti arasındakı qaz alğı-satqısı son vaxtlarda 2002-ci ildə bağlanan və 2008-ci ilin aprelinədək qüvvədə olan müqavilə əsasında həyata keçirilibdir. Onu Türkiyənin "BOTAŞ" şirkəti ilə, kommersiya operatoru "Statoyl" olan, "Şahdəniz" konsorsiumu bağlamışlar. Həmin kommersiya sazişinə əsasən də "Şahdəniz" qazının 1000 m^3-i Türkiyəyə aşağısı 70, yuxarısı isə 120 dollara satılmalı idi. 2008-ci il aprelin 15-dək maksimum qiymət 120 dollar olubdur. Azərbaycanın rəsmi Ankaranın "Nabucco" ilə bağlı məlum şərtlərinə yanaşması, habelə bu və digər əsaslar üzündən Türkiyə ilə qaz

əməkdaşlığının bəzi məqamlarına yenidən baxması da müxtəlif yönlərdən dəyərləndirilir:

a) AR hökumətinin mövqe dəyişikliyinin səbəbi qismən Türkiyənin şərtlərində və, əsasən də onun Ermənistanla münasibətlərinin perspektivlərinə aid "Yol xəritəsi"ndə görülür.

b) Azərbaycanın Türkiyə ilə qaz əməkdaşlığına, bütövlükdə, özünün qaz *nəqli strategiyasına* yenidən baxması və öz qazını Rusiyaya satmağa üstünlük verməsi qənaətinə gəlməsi Kremlin rəsmi Bakıya üstüörtülü və açıq *təzyiqləri ilə* də əsaslandırılır.

Rəsmi Bakının Türkiyənin şərtlərinə yanaşmada və onunla qaz əməkdaşlığının bundan sonrakı mərhələsində əsas tutduğu **müddəa-mövqe** aşağıdakılardan ibarətdir:

1.Azərbaycan Türkiyəyə satdığı qazın min kubmetrini 2008-ci il aprelin 15-dək 120 dollardan hesablamışdır. Halbuki Türkiyə son vaxtlarda təbii qazın 1000 kubmetrini Rusiyadan 300-400, Əlcəzairdənsə 300 (digər məlumatlara görə isə, İran və Rusiyadan 280-290 dollara) alıbdır. Ancaq burada yenə də belə bir ekspert dəyərləndirməsini təkrarlamağa ehtiyac vardır: Azərbaycan Türkiyəyə qazı onunla bağladığı (az öncə qeyd olunan) müqaviləyə əsasən həmin dövrün tariflərinə - kommersiya qiymətlərinə əsasən satmışdır.

2.Hazırda beynəlxalq təcrübədə qaz alğı-satqısı ilə bağlı birillik, biraylıq və hətta üçaylıq müqavilələrə üstünlük verilir; Azərbaycan təkcə 2008-ci ildə Türkiyəyə 5 mlrd. m^3 qaz satmışdır (Digər məlumatlara görə, ölkələrarası qaz alğı-satqısının illik həcmi 6,6 mlrd. m^3 təşkil edir). "BOTAŞ" şirkəti "Şahdəniz"in ikinci fazasındakı ehtiyatlardan ildə ən azı 8 mlrd. m^3 almaq istəyir. Azərbaycansa ən çoxu 4 mlrd. m^3 qaz verə biləcəyini bildirir. Bu da "Şahdəniz"in 2-ci fazasının istismarına başlamadan mümkün deyil. Çünki bu iş Azərbaycan və ya Türkiyədən yox, beynəlxalq konsorsiumdan asılıdır. Yəni "ARDNŞ" özü "Şahdəniz" layihəsində 10 faiz paya malikdir. Əsas payçılarsa "BiPi" və qazın 2/3-nə sahiblik edən "Statoyl"-

dur. Konsorsiumsa, bir tərəfdən, yatağın işlənməsini 2016-cı ilədək təxirə salıbdır, digər yandan da, onun qazının öncə "Nabucco" kəmərinə getməsini istəyir. Habelə "BiPi" rəsmi Ankaranın qeyri-məqbul şərtləri üzündən hətta başqa alternativlər, yəni Türkiyədən keçməyən marşrutlar axtarır. (Azərbaycan hazırda dörd ölkəyə (Türkiyə, Gürcüstan, İran və Yunanıstana) qaz ixrac edir. Sonuncuya satılan qazın qiyməti "BOTAŞ"la birlikdə — ortaq olaraq müəyyən edilir, yəni gəlirdə şəriklik vardır).

3.Azərbaycan tərəfinə görə, qazın min kubmetrinin qiyməti 250 dollara qaldırılmalıdır. Yeni tarif isə 2008-ci il aprelin 15-dən təxminən 2009-cu ilin sonunadək satılan 7-8 mlrd. m^3-ə də şamil edilməlidir. (Mütəxəssis hesablamalarına əsasən belə olduqda artıq alınan qazdan ötrü aradakı qiymət fərqinə görə 1,3 mlrd.dollar verilməlidir (Min kubmetrin 300 dollardan hesablanacağı təqdirdə fərqin 2 mlrd. dollar olacağı bildirilir. Ən son təhlillərə və məlumatlara əsasən isə "BOTAŞ"ın qiymət fərqinə görə "ARDNŞ"-ə ödəməli olduğu məbləğ 1,2 mlrd. dollardan çoxdur. Həmçinin onun 1 mlrd. dollarının dərhal ödənilməsi istənilir. Türkiyə tərəfi isə fərqin 600-800 mln. dollar təşkil etdiyini bildirir). Ümumiyyətlə isə qiymət artımı olarsa, Türkiyə qarşıdakı beş ildə qaza görə AR-ə əlavə 4,3 mlrd. dollar ödəmək məcburiyyətində qalacaqdır. Deməli, əgər qiymət 1000 m^3=200 dollar olsa belə ödəniləcək məbləğ - "Türkiyənin Ermənistanla yaxınlaşmağa yönəlik uğursuz cəhdin əvəzi"- ildə 500 mln. ABŞ valyutası həcmində artmış olacaqdır. Digər bir hesablamaya görə, Azərbaycan 2001-2002-ci illərdən etibarən Türkiyəyə qazın min kubmetrini 120 dollara satmaqla hər il ona 1,8 mlrd. dollar güzəşt etmişdir. Və, Türkiyənin bu hesaba qazandığı illik gəlir Ermənistanla ehtimal olunan ticarətdən 10 ildə əldə ediləcək mənfəətdən çoxdur. Başqa sözlə, Ermənistanla ticarətdən ildə ən çoxu 200-300 mln. dollar qazanıla bilər.

İqtisadçı-ekspert Q.İbadoğlu Bakıda keçirilən "dəyirmi masa"lardan birində "Türkiyə-Ermənistan-Azərbaycan üçbucağında baş verənlərə iqtisadi baxış" adlı məruzəsində müəyyən

hesablamalarını və bəzi qənaətlərini açıqlamışdı. Həmin hesablamalardan bunlar bəlli olur: 2008-ci ilin aprelində əldə olunan Türkiyə-Azərbaycan razılaşmasına əsasən həmin ilin sonuna qədər 3,5 mlrd. m^3 qaz alqı-satqısı olubdur. Bu da 120 dollardan hesablandıqda 420 mln. dollar və regional bazar qiymətləriylə (250 dollardan) 875 mln. dollar edir. 2009-cu ilin yanvar-sentyabr aylarında isə alqı-satqının həcmi 5,2 mlrd. m^3 təşkil edibdir; ümumi məbləğ 120 dollardan götürüldükdə 624 mln. dollara, 250 dollardan hesablanarsa 1,3 mlrd. dollara çatır. Bu hallarda hər iki il üzrə fərqin ümumi həcmi 1mlrd. 137 mln. dollar təşkil edir. İqtisadçı alimin gəldiyi qənaət də diqqətçəkicidir: "Qazın güzəştli sazişi barədə dövlətlərarası anlaşma olduğundan, bu fərq borc sayılmamalıdır".

Bu və digər təhlillərdən irəli gələn belə bir qənaət də düşündürücüdür: Türkiyə-Ermənistan sərhədlərinin açılacağı təqdirdə ölkələrarası hazırkı 100 mln. dollarlıq ticarət dövriyyəsinin həcmi 450-500 mln. dollar səviyyəsinə çata bilər. Sərhədlərin açılmaması şəraitində isə ticarət dövriyyəsinin mövcud (100 mln. dollarlıq) həcminin artmayacağı şübhə doğurmur. Birinci, yəni sərhədlərin açılacağı halda Ermənistan ticarət dövriyyəsinin həcminin 3 dəfədən çox artımından yetərli mənfəət qazanmaqla yanaşı və, ən başlıcası, qlobal-regional enerji və s. layihələrə çıxış əldə edə bilər. Habelə sərhədlərin açılması Rusiyanın Türkiyə vasitəsilə özünün Cənubi Qafqazdakı forpostuna (Ermənistana) girişini təmin edər, onun maddi-texniki təchizatını gücləndirər, beləliklə, yeni müharibə təhlükəsini artırar (Sərhədlər açılarsa, Ermənistanla Türkiyə vasitəsilə olacaq bütün dəmir yol daşımalarını Rusiya şirkətinin həyata keçirəcəyi, həmçinin işğalçı dövlətə İrandan keçən tranzit yük daşımalarına da imkan yaranacağı ehtimal olunur).

İkinci (sərhədlərin bağlı qalacağı) halda Ermənistanın iqtisadiyyatının tənəzzülünün dərinləşəcəyi ehtimal olunur. Bunun da sosial böhranı gücləndirəcəyi və siyasi hakimiyyət dəyişikliklərini şərtləndirəcəyi güman edilir. Nəticədə daha radikal

qüvvələrin iqtidara gəlişi də yeni müharibə təhlükəsini qaçılmaz edəcəkdir (Yeri gəlmişkən, Türkiyə-Ermənistan ticarət dövriyyəsinin həm genişlənməsi, həm də yerində sayması, yəni hər iki hala aid də bir düşündürücü yanaşma vardır. Bir çox ekspertlərə görə, adambaşına illik gəliri 1000 dollardan da az olan Ermənistanın mövcud iqtisadi potensialı qarşılıqlı ticarət dövriyyəsinin göstərilən həcminə yetişməsi üçün yetərli deyil. Digər yandan, Ermənistandakı ağır iqtisadi durum və onun sosial partlayışlara yol açmasına dair xeyli vaxtdan bəri olan gözləntilər də özünü doğrultmur. Yəni Türkiyə ilə ticarət dövriyyəsinin artmamasıyla Ermənistana elə bir ciddi şey olmayacaqdır).

4.Türkiyənin Ermənistanla anlaşma istəyi və səyləri şəraitində Azərbaycan onun üçün ucuz qaz mənbəyi olmaqla razılaşmır, rəsmi Ankara ilə ("BOTAŞ"la) "Avropayadək uzanan neft-qaz dilində danışır" (Azərbaycanın təklif etdiyi 250 dollar, Türkiyəninsə razılaşdığı 200 dollar Avropa qaz bazarındakı qiymətlərdən də, yəni 350-400 və ya 400-500 dollardan xeyli azdır).

5.Rəsmi Bakı "Nabucco"nun onun üçün siyasi deyil, kommersiya məsələsi olduğunu iddia edir. Qərb və Azərbaycan ekspertlərindən bəzilərinə, habelə bir sıra mətbuat təhlillərinə, məsələn, ABŞ-ın "Cristian Science Monitor" qəzetinin yazdığına görə isə, "region elə kiçik, stavkalarsa elə böyükdür ki, burada siyasəti enerjidən ayırmaq heç vaxt mümkün olmayacaq". Elə Azərbaycanın Türkiyə Hərbi Akademiyalar Komandanlığı Strateji Araşdırmalar institutunun 2009-cu ilin aprelində keçirdiyi enerji konfransını boykot etməsi də buna misal olaraq göstərilir.

6.Türkiyənin **"sərhəd kartı"** AR-in **"neft-qaz kartı"** ilə cavablandırıla bilər. Bəzi diplomatik çevrələrdə, Qərb mətbuatında, Türkiyə KİV-lərində ("Kanal Biz" televiziyası və s.) yayılan belə bir sensasiyalı məlumatdan bu da məlum olur ki, ABŞ prezidenti B.Obamanın Ankaraya rəsmi səfəri (IV.2009)

öncəsi AR rəhbərliyi AKP iqtidarına "sərhədlərin açılması nəticəsində iqtisadiyyatınızın əldə edə biləcəyi gəliri kompensasiya etməyə hazırıq. Ermənilərdən qazanacağınızın iki mislini də verərik, sərhədlərin açılmasını bir-iki il də təxirə salın..." təklifini də etmişdir.

7.Azərbaycan tərəfinin açıqlamasına görə, "Şahdəniz" beynəlxalq konsorsiumu qazın yeni qiymətinin müzakirəsi qərarına gəlibdir: "Bütün müzakirələr müqavilə öhdəlikləri və ədalətli kommersiya prinsipləri, bazar qiymətləri çərçivəsində aparılmalıdır".

Türkiyənin "Nabucco"ya dair şərtləri həmin ölkənin **özünün müxtəlif siyasi-elmi dairələrində** fərqli **yönlərdən** şərh-izah olunur. Layihənin reallaşmasına əngəllərin yalnız Rusiya tərəfindən deyil, habelə Türkiyə vasitəsilə törədilməsi məsələsində fikirlər haçalanmışdır. Bir qrup ekspert Türkiyənin şərtlərini onun Xəzər hövzəsi qazının Avropaya nəqlinin başlıca alternativi-"Nabucco" kəmərinin əsas tranziti olması- durumundan maksimum faydalanma məqsədi kimi səciyyələndirirlər. Habelə həmin şərt-tələblərin perspektivinin davamlı olmayacağı da zənn edilir. Və bu da "Türkiyənin ciddi enerji problemləri ilə əlaqələndirilir. "BOTAŞ" ın qaz müqavilələrinin müddətləri bitdikdən ("Qazprom"la 2 və Əlcəzairlə isə 5 ildən) sonra Türkiyə yaxın perspektivdə il ərzində 10-15 mlrd. kubmetrlik mənbə axtarmalı olacaqdır.

Təxmini hesablamalara görə, "**Şahdəniz"in ikinci fazası** işə salındıqdan sonra ildə 12-15 mlrd. m^3 qaz hasil olunacaqdır; ona da Rusiya müştəri çıxmışdır. Türkiyənin qaza olan ehtiyacının 65-67%-i Rusiyadan alınmaqla ödənilir. Ümumiyyətlə isə, Türkiyə özünün enerji ehtiyaclarının 60%-ni qazla təmin edir. Neftə tələbatın 30-40%-i də Rusiyanın hesabına ödənilir. Yəni hazırda "BOTAŞ" Rusiyadan ("Qazprom"dan) ildə 23 mlrd.m^3 qaz alır. 2009-cu ildə Rusiyadan qaz ixracının daha 2 mlrd. m^3 artırılması planlaşdırılırdı. "Qazprom"un "Mavi axın" layihəsinin 2010-cu ildə reallaşması ilə Türkiyənin tələbatının

təxminən 50%-i Rusiya vasitəsilə ödənilə bilər. Bu cür asılılıqsa olduqca risklidir.

Belə bir şəraitdə **"Nabucco" Türkiyə üçün ağla gələn ilk optimal variantdır**. Buna görə də rəsmi Ankara həmin layihədə tranzit ölkə olmaqla kifayətlənməyərək tərəfdaş statusunu qazanmağa çalışır. Ancaq Aİ-nin israrlı mövqeyi və Azərbaycanın da özünün qaz ixracı strategiyasına yenidən baxması Türkiyənin "Nabucco" kəməri üçün yalnız tranzit ölkə ola biləcəyini söyləməyə əsas verir. Yəni rəsmi Ankara özünün bir sıra məlum şərtlərindən istər-istəməz imtina etmək məcburiyyətindədir. Bunu son dönəmin bəzi proses və hadisələri də təsdiqləməkdədir: "3-cü "Nabucco" (Praqa) sammiti"ndəki müzakirələr, Aİ rəsmilərindən A.Piebalqis və b. açıqlamaları, Türkiyənin Baş nazirinin, yeni Xarici İşlər (Ə.Davudoğlu) və Enerji (T.Yıldız) nazirlərinin Azərbaycana intensiv səfərləri zamanı aparılan danışıqlar və s.

"Böyük qaz oyunu-alveri"nin detallarını üzə çıxaran Praqa sammitində - "Nabucco" tarixində ilk dəfə olaraq-Türkmənistanla Azərbaycanı Xəzərin dibi ilə birləşdirəcək kəmərin tikintisi məsələsi müzakirə edildi. "The Guardian"ın təhlilinə görə, bu və ya digər cəhətləri baxımından, adıçəkilən sammitdə Rusiyanın Xəzər hövzəsinin enerji ehtiyatlarını özünün tam nəzarətinə almaq planlarını pozmağa qismən müvəffəq olundu. Avropanın Orta Asiya qazını ala bilməyəcəyi şəraitdə onun Rusiya və Çinə satılacağından rahatsız olan Aİ sammitdə əsas sövdələşməni Türkiyə ilə apardı. A.Piebalqisin bu Zirvə toplantısının yekunlarına dair açıqlamalarından da bəllidir ki, "Nabucco" konsorsiumu (direktoru R.Mitçek) rəsmi Ankaranın məlum şərtlərinin qəbulunun layihənin kommersiya cəhətdən sərfəli olmayacağı ilə nəticələnəcəyini əsas tutaraq onları rədd etmişdir. Belə olduqda Türkiyə kəmərlə nəql olunacaq qazın 15 faizini özündə saxlamaq şərtindən əl çəkərək 2009-cu il iyunun 25-də Ankarada müqavilə bağlanmasına razılıq verdi.

Məlumdur ki, **Türkiyə Böyük Yaxın Şərqdə təbii enerji**

ehtiyatları ən az olan ölkələrdəndir. Belə vəziyyətsə rəsmi Ankaranı beynəlxalq və regional "neft-qaz oyunları"nın "Axilles dabanı" edir, onların təsirinə daha tez (çox) məruz qoyur. Buna görə də davamlı və təminatlı enerji təhlükəsizliyi dövlətin xarici siyasətində daima üstün yer tutur. Bəzi ekspertlər haqlı olaraq Türkiyə rəsmilərinin son vaxtlarda intensiv şəkildə Bakıya gəlmələrini həm də bununla əlaqələndirirlər. Diplomatik dairələrdə yayılan məlumatlardan bu da bəlldir ki, R.Ərdoğanın **"Bakı danışıqları"nda (V.2009)** digər əsas məsələ "Şahdəniz" yatağının ikinci fazasından hasil ediləcək qazın haraya və hansı şərtlərlə nəqli problemi olubdur.

Türkiyə hökumətinin başçısı hələ 2009-cu ilin əvvəlində "Nabucco"ya Azərbaycanın verəcəyi qazın yetərli həcmdə olmayacağını bildirməsinə, "Bakı danışıqları" ərəfəsində "dünyada neftin qiymətinin düşdüyü bir vaxtda, Azərbaycanın təbii qazın qiymətini artırması düşündürücüdür" söyləməsinə, Ermənistanla münasibətlərə dair "Yol xəritəsi" ilə bağlı Azərbaycanda baş verən etirazlara ("stəkanda fırtına"ya) hiddətlənməsinə baxmayaraq reallıqlarla hesablaşmaq məcburiyyətində qaldı (Bir çox nüfuzlu qəzetlərin, telekanalların, radiostansiyaların və internet saytlarının "Türkiyə ilə Azərbaycan arasında qaz əngəli", **"Bir millət-iki dövlət arasında qaz narazılığı"**, "Türk qardaşlığının sonu", "Türkiyə "Nabucco" layihəsini təhlükəyə soxdu","Ərdoğan hökuməti "Nabucco" layihəsi üçün qeyri-real şərtlər irəli sürür və "Şahdəniz" yatağının işlənməsini ləngidir", "Azərbaycan Türkiyə ilə neft-qaz dilində danışır", "Azərbaycan qazının Avropaya nəqli ləngidilir" və digər başlıqlı materialları, təhlilləri də problemin ciddiliyini göstərirdi).

Ölkələrarası qaz narazılığının, digər amillərlə birlikdə, "bir millətin iki dövləti"nin strateji tərəfdaşlıq münasibətlərində potensial böhran yarada biləcəyindən əndişələnən R. Ərdoğan "Bakı danışıqları" zamanı və səfərsonrası açıqlamalarında belə bir mövqeni vurğuladı. Belə ki, müxtəlif dairələrdə vaxtaşırı səsləndirilən "120 dollara qaz almaq ədalətlidirmi?" sualına

Baş nazirin yanaşması "bu qiymət müqavilə bağlanarkən müəyyənləşdirilmişdir və indiki şəraitdə obyektiv deyil, tərəflərin danışıqlarında ədalətli rəqəm ortaya çıxacaqdır" cavabında ifadə olundu.

Baş nazirin səfəri ilə yanaşı Xarici İşlər (15 gün ərzində 2 dəfə) və Enerji nazirləri də "Nabucco"nu xilas etmək missiyası ilə Bakıda danışıqlar apardılar. Xeyli müddət ərzində Türkiyənin xarici və enerji siyasətlərini **"pərdəarxası- inkoqnito"** olaraq yönəldənlərin artıq dövlət rəsmiləri statusunda AR-ə səfərləri çox diqqətçəkicidir. Türkiyənin Orta Şərq ölkələrinə geniş şəkildə açılması təklifi ilə çıxış edən, AKP-nin "fikir babaları"ndan sayılan "Yeni osmançılığın memarı" kimi səciyyələndirilən hazırkı baş diplomat Ə.Davudoğlunun Bakıya səfərlərindəki danışıqlarında həm qaz, həm də siyasət mühüm yer tuturdu. Dünya Enerji Şurası Türkiyə Milli Komitəsi İdarə Heyətinin üzvü N.Pamirin qənaətincə, "söhbət enerji məsələsindən gedəndə ortaya hökmən siyasət gəlir; bunlar iç-içədir, enerji məsələsinin həm iqtisadi, həm də siyasi tərəfi vardır".

Türkiyənin "Nabucco"ya dair şərtlərindən geriyə çəkilməsi və Xarici İşlər, Enerji nazirlərinin AR-ə missiyaları belə bir həqiqəti təkrarən təsdiqlədi: başlıca problem qiymət deyil, ehtiyacı ödəyəcək qədər qaz almaqdır. Göründüyü kimi, özünün Rusiya və İran qazından asılılığına müsbət yanaşmayan Türkiyənin bu məsələdə Azərbaycanla üzün müddətdən bəri razılığa gələ bilməmələrini onun daha çox qaz alma istəyilə əsaslandıranlar (N.Pamir və b.) haqlıdırlar.Başqa—yenə də haqlı — yanaşmalara görə, "Şahdəniz" konsorsiumunda investor şirkətlərin ("BiPi" və "Statoyl"un) güclü mövqeyi, onların Türkiyənin Azərbaycandan daha az qaz almasına və bu əsasda da özləri önə çıxmadan iki qardaş dövlətin qarşı-qarşıya qoyulmasına yönəlik siyasət yürütmələri də əsla diqqətdən kənarda tutulmamalıdır.

Qardaş ölkənin özündə də Azərbaycanla Türkiyə arasındakı "qaz danışıqları"nın çətinə düşməsinin və "Nabucco"ya

dair müzakirələrin habelə bu əsasda da dalana dirənməsinin rəsmi Ankaranın Ermənistanla yaxınlaşma xətti ilə az əlaqəli olması qənaətinə gələnlər vardır. Onlar da bu durumu, yəni ölkələrarası qaz əməkdaşlığının perspektivinin təhlükə altına düşməsini Türkiyənin "Nabucco" ilə bağlı qəbulolunmaz şərtləriylə ilə izah edirlər. Bu kimi yanaşmaya dəlillər olaraqsa, "BOTAŞ" şirkətinin icraçı direktoru S.Düzyolun başçılıq etdiyi nümayəndə heyətinin Bakıda danışıqlar aparması, enerji məsələlərini H.Gülərin nazir olduğu dönəmdə də həll edən T.Yılmazın "üzə çıxarılması" (nazir təyin edilməsi) və s. göstərilir. Bütün bunlardan bəlli olduğu kimi, xarici siyasətin ardınca enerji təhlükəsizliyi sahəsində buraxıla bilən səhvlərin verəcəyi ciddi, mənfi və əsla arzuolunmaz nəticələri görən rəsmi Ankara (AKP hökuməti) hərəkətə keçmək məcburiyyətində qalmışdır.

Buna 2009-cu ilin mayında Bakıda aparılan dövlətlərarası çoxşaxəli intensiv danışıqlarda Azərbaycan rəhbərliyinin mövqeyi də ciddi təsir göstərdi. Azərbaycan İ.Əliyevin "biz qaz ixracı məsələsində diversifikasiya siyasəti aparırıq. Müqavilələrə uyğun olaraq qiymətlərə vaxtaşırı yenidən baxılır. Qiymətin dəyişməsi dünyada neftin qiymətindən asılıdır" açıqlaması da proseslərə təsirsiz ötüşmədi (Sözgəlişi, axırıncı müddəa R.Ərdoğan tərəfindən, hələ onların görüşməsindən az öncə, "dünyada neftin qiymətinin düşdüyü zamanda, Azərbaycanın təbii qazın qiymətinin artırılması düşündürücüdür" kimi dəyərləndirilmişdi).

Azərbaycan prezidenti Türkiyəyə satılan qazdan bəhs edərkən habelə, bir tərəfdən, məsələni qiymətlərin artırılması deyil, onların dəyişməsi kimi səciyyələndirməyi, digər yandan da, bu işi regiondakı proseslərlə, yaranan və ya yaranmaqda olan yeni vəziyyətlə əlaqələndirməyin doğru olmadığını önə çəkmişdi. Ancaq bəzi ekspert təhlillərində rəsmi Ankaranın Ermənistanla sərhədləri açacağı şəraitdə "Azərbaycan nədən hər il 15 mlrd. kubmetr qazını Türkiyə vasitəsilə ucuz qiymətlə satmalı, üstəlik hər il 2 mlrd. m^3 qazı isə bazar qiymətlərindən

çox aşağı onun əhalisinə verməlidir?" sualı özünə yer alır və cavablarını gözləyir.

Türkiyənin Ermənistanla yaxınlaşması və bu kontekstdə də onunla sərhədlərini açması məsələsi ətrafındakı qalmaqal prosesində rəsmi Ankaranın "Nabucco" ilə bağlı mövqeyinə dair daha bir sensasiyalı mövzu gündəmə gəldi. Belə ki, Ankaradakı Beynəlxalq Strateji Araşdırmalar Mərkəzinin Qafqaz və Xəzər regionları üzrə analitiki G.Özkanın "Amerikanın səsi"nə açıqlamasında özünə yeralan iddiasına görə, Türkiyənin (konkret **R. Ərdoğanın**) təklif etdiyi "**Qafqaz Platforması**"nın da kökündə "Nabucco" layihəsinin gerçəkləşdirilməsi, amma kəmərin Ermənistandan keçməsi ideyası dayanır. Onun fikrincə, "Qafqaz evi"nin qurulması həm də enerji təhlükəsizliyi və əməkdaşlığına əsaslandığından belə bir niyyət (cəhd) gümanediləndir.

Ankaralı təhlilçi bu ideyanın əvvəllərdə, yəni BTC çəkilərkən də amerikalılar tərəfindən gündəmə gətirildiyini- "sınaqdan çıxarıldığı"nı qeyd edir (Sözgəlişi, "Nabucco" layihəsi və Türkiyə-Azərbaycan qaz əməkdaşlığı ətrafında gərginliklərin yaşandığı bir zamanda, sanki bunlar azmış kimi, "BOTAŞ"ın BTC kəməri ilə nəql edilən neftin hər barrelinə görə əlavə olaraq 35 sent tələbi də ortaya çıxdı. Əsassız tələbin BTC konsorsiumu tərəfindən rədd edilməsi "problem"in Beynəlxalq Arbitraj Məhkəməsinə çıxarılacağına dair söz-söhbətlər də yaratdı). Ekspertə görə, Türkiyə, Rusiya, Azərbaycan, Gürcüstan Xarici İşlər nazirləri müavinlərinin toplantısına (İstanbul, I.2009) Ermənistan təmsilçisinin də qatılması və görüşdə Qafqazda Sabitlik və Əməkdaşlıq Platformasının (rəsmi Ankaraya görə, yeni regional təşkilat kimi deyil, sadəcə məşvərətçi statuslu) bir qurum olaraq formalaşdırılması məsələsinin müzakirəsi də diqqətçəkicidir.

G.Özkana görə, "Qafqaz platforması"nın gerçəkləşməsinin – bu *minvalla* da "Nabucco"nun Ermənistan vasitəsilə reallaşmasının başlıca yollarından biri "Dağlıq Qarabağ prob-

lemi"nin ədalətli həllindən keçir. Bu da "Nabucco"nun yalnız Qafqazdakı siyasi problemlərin (etnosiyasi münaqişələrin) həllindən sonra mümkünlüyü qənaətinə gəlməyə əsas verir. Bütövlükdə, R. Ərdoğanın "Qafqaz platforması" ideyası və təklifi "ölü doğulan uşaq" – bünövrəsi xeyli zəif siyasi gediş olduğundan "Nabucco"nun Ermənistan vasitəsilə reallaşmasına dair mülahizələrə əsas vermir.

Rəsmi Ankaranın "Nabucco"ya dair təklifləri ətrafında yaranan Azərbaycan-Türkiyə "qaz narazılığı" tərəflərin öz "kart"larını işə salmalarına da rəvac verdi. Türkiyə KİV-lərində özünə yer alan material-məlumatlarda (köşə yazarı E.Çolaşan və b. təhlillərində) vurğulandığı kimi, rəsmi Ankara Azərbaycanı qaz qarşılığında "sərhəd kartı" ilə yoxladı.**"Qaz anlaşılmazlığı" prosesi**ndə Türkiyənin bəzi rəsmilərinin "əgər Azərbaycan "Şahdəniz" qazının kubmetrini 120 dollara satmağa və onu "Nabucco" kəməri ilə nəql etməyə razı olarsa, onda sərhədlərin açılması planı təxirə salına bilər" kimi təklif-iddiaları aralığı bir müddət daha da qarışdırdı. Qərb mətbuatındakı (ABŞ-ın "Cristian Science Monitor" qəzeti və s.) təhlillərdə isə, məlum "Yol xəritəsi"ndən qəzəblənən Azərbaycan rəhbərliyinin Türkiyənin həmin sənəddən üz döndərməsinə nail olmaq üçün "neft-qaz kartı"ndan yararlandığı önə çəkilir.

Belə bir **şəraitdə hər iki tərəfin qaz məsələsində Rusiyaya üz tutmasını** söyləməyə əsas verən hallar da ortaya çıxdı. Yəni Azərbaycanın "Şahdəniz" yatağının ikinci fazasının qazının hamısını "Qazproma" satmasına razılığı, başqa sözlə, "Nabucco"da iştirakdan imtinası barədə söz-söhbətlər yayılmağa başladı. Bunun ardınca da "Statoyl"un rəsmi Ankaranın ağır tranzit şərtləri üzündən "Şahdəniz" qazının Türkiyə vasitəsilə ixracından yayınmaq cəhdləri bəlli oldu. Daha sonra da "ARDNŞ" Türkiyə ilə neft-qaz əməkdaşlığına dair bəzi plan və layihələrindən ya imtina etdi, ya da onları təxirə saldı. Belə ki, Türkiyənin ən böyük neft-tikinti müəssisələrindən olan "Tekfen"in səhmlərinin 50 faizinin alınmasından vaz keçildi. Halbuki, "ARDNŞ"-in özünün Türkiyədəki törəmə şirkəti vasitəsilə "Tekfen"in səhmlərinin 50%-ni tezliklə 520 milyon dollara alması və onunla ortaq şirkət qurması razılaşdırılmışdı. Habelə Türkiyənin artıq enerji sektoruna yatırılacaq on milyardlarla dollarlıq sərmayə qoyuluşu proqramlarının reallaşmasında bütün tikinti işlərini ona sifariş vermək planlaşdırılırdı.

"ARDNŞ" Ceyhan limanında yeni neft terminalı tikintisinin layihəsini də təxirə salmışdır. "Turcas"la birlikdə 2 mlrd. 50 mln. dollara aldığı "Petkin" zavoduna sərmayə qoyulması proqramını da kəskin şəkildə ixtisar etmişdir. Bunlar "ARDNŞ" tərəfindən qlobal iqtisadi-maliyyə böhranı və s. ilə izah olunsa da, Türkiyənin müxtəlif çevrələrində bu kimi hallara siyasi qərar və Azərbaycanın rəsmi Ankaranın Ermənistanla sərhədlərin açılması istəyinə növbəti cavabı təki yanaşılır.

Türkiyənin də Azərbaycana cavab kimi görünən addımları, yəni Rusiya ilə olan qaz əməkdaşlığını daha da genişləndirmək tədbirləri özünü çox da gözlətmədi. Bakıdakı danışıqlardan (13.V.2009) dərhal sonra R.Ərdoğan Soçidə Rusiyanın Baş naziri V.Putinlə geniş əhatəli "qaz müzakirələri" apardı (16.V.2009). Nəticənin Türkiyə üçün qənaətbəxş olduğu bildirildi. Belə ki, tərəflər iki ölkəni Qara dənizin altından keçməklə birləşdirən "Mavi axın-1" qaz kəməri əsasındakı əməkdaşlığı davam etdirməyi qərara aldılar. Buna görə də Türkiyə ilə Rusiya arasındakı qaz anlaşmasının, yəni müddəti 2011-ci ildə başa çatacaq müqavilənin vaxtının uzadılması barədə danışıqlara başlanılmasına dair anlaşma əldə edildi.

Danışıqların "çox uğurlu" keçdiyini və Türkiyə ilə enerji əməkdaşlığının şaxələndiriləcəyini bəyan edən V.Putinin təklifi ilə "Mavi axın -2" kəmərinin tikintisinin imkanları və perspektivləri barədə də müzakirələr aparılması məqbul sayıldı (Bu layihə isə Qara dənizin altından Türkiyəyə yeni qaz kəmərinin çəkilməsini və onun İsrailə qədər uzadılmasını nəzərdə tutur. Hərçənd ki, kəmərin İsrailə qədər uzadılması indiki vəziyyətdə, yəni onun Türkiyə ilə soyuqlaşmaqda olan münasibətləri şərai-

tində problemli görünür). **"Soçi danışıqları"**nda habelə rusiyalı mütəxəssislərin Türkiyədə 4 iri AES bloku inşa etməsinə dair ilkin razılığa gəlindi. Bunun üçünsə öncə Rusiyanın "Rosatom" şirkətinin Türkiyədə keçirilən tenderlərin qalibi elan olunması lazımdır. Rusiya tərəfi Türkiyədə İES tikməyə də hazır olduğunu bildiribdir.

Rəsmi Ankaranın "Nabucco"nun reallaşmasını Türkiyənin Aİ-yə qəbulu ilə bağlı ilkin müzakirələrin bərpasıyla bağlaması da ölkə daxilində birmənalı qəbul edilməyibdir. Müəyyən siyasi çevrələr və araşdırma mərkəzləri R. Ərdoğanın məlum bəyanatını Aİ-də Türkiyə ilə dialoqa yaradılan süni əngəllərə etiraz kimi dəyərləndirirlər. Digər yanaşma və təhlillərə, məsələn, Ankaradakı STEAM İqtisadi Araşdırmalar Mərkəzinin eksperti F.Dəmirə görə isə "bu etirazı uzatmaq lazım deyil. "Nabucco" Türkiyənin önəmini artıracaq kəmər, onu Avropaya bağlayacaq mühüm bir yoldur. Ankarada bu layihənin reallaşması yönündə əslində heç bir tərəddüd yoxdur". 2009-cu ili **"qaz oyunu üçün son dərəcə kritik bir vaxt"** kimi səciyyələndirən F.Dəmir habelə Baş nazirin "Brüssel bəyanatına" adi gündəm sənədi kimi yanaşaraq onu unutmağı və kəmərin inşası, ilkin ixrac qazının müəyyənləşdirilməsi barədə müzakirələrə başlamağı tövsiyə edibdir.

Türkiyənin "Şahdəniz" qazının tranziti üçün irəli sürdüyü qeyri-məqbul şərtlərdən (o cümlədən də Aİ ilə bağlı) geri çəkilməsi 2009-cu ilin martında enerji məsələləri barədə Brüsseldə keçirilən debatlarda, Ankaradakı konfransda, Vaşinqtondakı Ceymstaun Fondunun eksperti V.Sokorun "Eurasia Daily Monitor" internet saytında özünə yer alan analitik məqalədə və s. vurğulanmışdır. Londondakı Avropa İslahatlar Mərkəzinin direktor müavini K.Bariş Türkiyənin "Nabucco"dan Aİ-yə üzvlük üçün təzyiq kimi istifadə etməyə çalışmasını "öz ayağına atəş açmaq" təki dəyərləndirmişdir.

Bütövlükdə, bir sıra beynəlxalq və regional amillərin təsiri Türkiyənin "Nabucco"ya dair mövqeyinin qətiləşməsində

təsirsiz ötüşmədi. Türkiyə rəsmilərinin, məsələn, keçmiş Enerji naziri H.Gülər və b. çoxsaylı açıqlamalarına görə, "Nabucco" ilə əlaqədar olaraq Azərbaycanla problem yoxdur və rəsmi Ankaranın layihənin reallaşması ilə bağlı mövqeyi heç vaxt dəyişməmişdir. Rəsmi Ankara Qafqaz və Orta Asiya qazının Avropaya nəqlinə aid layihədə təşəbbüskar olduqlarını vurğulamaqla 2009-cu ilin iyununda bağlanması nəzərdə tutulan "Nabucco" - müqaviləsinə də evsahibliyi edəcəklərini bildirdi.

"Röyter" agentliyi hələ 2009-cu ilin mayında "Nabucco" konsorsiumunun icraçı direktoru R.Mitçekə istinadən **Türkiyənin "15 faiz tələbi"ndən əl çəkdiyi** və bu məsələnin artıq danışıqlarda problem olmadığı barədə məlumat yaymışdı (31.V.2009). İcraçı direktorun açıqlamalarında bunlar bildirilirdi: hazırda layihəyə manea törədəcək şərtlərin heç biri danışıqlar masasında yer almır; Türkiyə də Aİ kimi bu layihənin zəruriliyini qəbul edərək kompromisə gedəcəkdir; Ankaranın mövqeyinin qətiləşməsi layihənin həyata keçirilməsi şansını artırır; Aİ ölkələri ilə Türkiyə arasında qazın "Nabucco"yla nəqli barədə müqavilə imzalana bilər; "Nabucco" antiRusiya layihəsi deyil, avropayönlü layihədir; Avropa Rusiya qazına daima ehtiyac duyacaqdır; amma bazarın böyük həcmdə əlavə qaza ehtiyacı vardır; buna görə də Rusiya qazına alternativ yeni mənbələr əldə olunmalıdır.

Türkiyə 2009-cu ilin yayından etibarən — enerji naminə beynəlxalq çəkişmələr şəraitində — özünün qaz nəqli üçün tranzit ölkə olma imkanlarından (üstünlüklərindən) faydalanmaq səylərini intensivləşdirdi. Xüsusilə də tranzit olmanın diversifikasiyası, yəni müxtəlif mənbələrin (ölkələrin) qazının Avropaya ixracının şaxələndirilməsi istiqamətində əməli işlər görüldü. Buna Azərbaycan rəhbərliyinin **ölkə qazının Rusiya və İrana ixracı, habelə Gürcüstandan ötürülməklə Qara dəniz vasitəsilə (Türkiyədən yan ötməklə) Avropaya nəqlinə** dair verdiyi açıqlamalar da ciddi təsir göstərdi. Amma hələ bu açıqlamaların rəsmi elanından əvvəl bir neçə layihəyə, yəni

Qərbin (Aİ ilə ABŞ-ın) "Nabucco"suna, Rusiyanın "Mavi axın-2" və "Cənub axınına", İranın "Cənubi Pars" yatağının qazının ixracına tranzit olma yönündəki danışıqlarda fəallığını artırdı. Bu əsasda da Türkiyənin tərəf olduğu bir sıra müqavilələr və niyyət protokolları imzalandı. Onlardan 1-i çoxtərəflidir ("Nabucco"nun təşəbbüskarı sayılan "Dördlər" lə hökumətlərarası saziş). Digər 4-ü isə təktərəflidir (Rusiya ilə 2 niyyət protokolu və İran, İsveçrə ilə müqavilələr).

Çoxtərəfli müqavilənin bağlanması ərəfəsində "Nabucco" layihəsinin icraçı direktoru R.Mitçekin bəyan etdikləri və Türkiyə XİN-i Ə.Davudoğlunun ABŞ-a səfərinin (VI.2009) gedişindəki müzakirələr də onun imzalanmasını sürətləndirdi. İcraçı direktorun açıqlamalarında eyni zamanda iki hökumətlərarası sazişin bağlanacağından bəhs olunurdu. Yəni Türkiyə ilə Azərbaycan arasında bağlanacaq bir müqavilə ikincinin tranzit ölkə olmasını nəzərdə tuturdu. Digəri isə layihənin təşəbbüskarları sayılan "Dördlər"in (Bolqarıstan, Rumıniya, Macarıstan və Avstriyanın) sazişi olmalı idi (2009-cu ilin iyulunda Ankarada bunlardan yalnız ikincinin bağlanması baş tutdu).

"Nabucco"ya dair "Ankara müqaviləsi"nin imzalanması ərəfəsində ənənəvi neft-qaz sərgisində iştirak üçün Bakıya gələn R.Mitçek **layihənin əməliyyatçısı sayılan "OMV" şirkətinin** ofisindəki mətbuat konfransında bunları vurğuladı:

- layihə ilə bağlı 2009-cu ildə keçirilən toplantılar, yəni yanvarda Budapeştdə və mayda isə Praqada keçirilən sammitlər həlledici əhəmiyyət kəsb edirlər;
- Azərbaycan neft-qaz sahəsində mühüm beynəlxalq aktorlardan biridir və elə "ənənəvi illik Bakı sərgiləri" də bunu təsdiqləyir;
- siyasi əngəllərin aradan qaldırılmasıyla, yəni hasilatçılarla alıcılar arasında müqavilələrin bağlanması ilə layihələrin maliyyələşdirilməsi problemi də həllini tapacaqdır. (Son hesablamalara görə, inşasına 7,9 mlrd. avro tələb olunan kəmər üçün Avropa Komissiyası 200 mln. avro ayırıbdır.

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) layihənin reallaşması üçün lazım gələn sərmayənin 25%-ni ayırmağa hazır olduğunu bildiribdir);

- kəmərə aid mühəndis — texniki tədqiqat və hesablamalar da yekunlaşmaq üzrədir. İnşaata 2011-ci ildə başlanması və onun 2014-cü ildə yekunlaşdırılması planlaşdırılır. (Bundan fərqli illər də göstərilir);
- "Nabucco"nun birinci mərhələsi üçün "Şahdəniz" qazı yeganə real qaynaqdır və Rusiyanın da ona sanballı (əlverişli) müştəri çıxdığı zamanda Azərbaycanla Türkiyə arasında anlaşmanın əldə edilməsi olduqca önəmlidir. "Şahdəniz-2" fazasından ildə təxminən 5-8 mlrd. m^3 qaz almağa ümid vardır. "ARDNŞ"-in təklif etdiyi digər yataqlardan hasil olunan qaz da kəmərlə nəql oluna bilər. İldə 31 mlrd. m^3 ixrac "Nabucco" üçün texniki maksimumdur. Kəmərin sonrakı mərhələlərində, yəni ikincidə İraqla Misirin və üçüncüdə (2020-ci ildə) isə, siyasi problemlərin həllini tapdığı halda, İran və Rusiyanın da layihəyə qoşulmaları mümkündür;
- layihənin reallaşdırılması bütün tərəflər (Aİ: alıcılar+hasilatçılar+tranzit ölkələr) üçün böyük uğur, qələbə olardı.

"Nabucco"nun həyata keçirilməsi işinin sürətləndirilməsi məsələsi Ə.Davudoğlunun xanım H.Klintonla Vaşinqtondakı danışıqlarında da (VI.2009) mühüm yer tutdu.ABŞ onu qayğılandıran yarımçıq layihələrdən saydığı bu kəmərin reallaşmasına Türkiyədən əməli dəstək istədi. Konkret olaraqsa, rəsmi Ankaranın Aİ və Azərbaycanla anlaşmasına çağırış edildi. Ə.Davudoğlu orada ABŞ ilə Türkiyə arasında iqtisadi (enerji sahəsi də daxil) əməkdaşlıq üzrə işçi qrupunun yaradılmasını təklif edibdir. (Baş diplomatların görüşündə Dağlıq Qarabağ münaqişəsi, Yaxın Şərqdə vəziyyət və İranın "nüvə proqramı" məsələlərinin də bu və ya digər dərəcədə regiondakı enerji siyasəti ilə bağlılığı nəzərdən keçirilibdir).

Müqavilələrin bağlanmasına gəldikdə isə, öncə 2009-cu il

iyulun 13-də Ankarada "Nabucco"nun həyata keçirilməsi üçün **beş tranzit ölkənin ("Dördlər" + Türkiyənin) hökumətlərarası sazişi** imzalandı. İmzalanma mərasimində müqavilənin tərəfləri olan dövlətlərin prezidentləri və ya baş nazirləri, habelə Gürcüstandan M.Saakaşvili, "Nabucco" konsorsiumunun, layihəni maliyyələşdirəcək qurumun (AYİB-in) təmsilçiləri və ABŞ-ın, Azərbaycanın (Enerji naziri səviyyəsində), Türkmənistanın, İraqın, Suriyanın, Misirin, Qətərin, Rusiyanın, Almaniyanın (konsorsiumda "RWE" şirkəti vasitəsilə təmsil olunur) rəsmiləri iştirak edirdilər.(Mərasimdə iştiraka rəsmən dəvətli olan İ.Əliyev toplantıya qatılmamasını "orada yalnız layihənin təşəbbüskarlarının imzaları lazımdır" fikri ilə əsaslandırmışdı. Həmin vaxtda o, İngiltərəyə rəsmi səfərə getmişdi).

Bu sazişi həm ümumi şəkildə səciyyələndirən yanaşmalar və həm də ayrı-ayrı dövlətlərin onunla bağlı mövqelərini ehtiva edən baxışlar mövcuddur. **Ümumi səciyyəli dəyərləndirmələr** əsasən aşağıdakı tezislərdə ifadə olunur:

- "Nabucco"nun həyata keçirilməsində ilk real addım;
- enerji geosiyasi savaşında yeni mərhələ;
- Türkiyənin "qaz həmlələri"nin ilki;
- qazın alınacağı ölkələri müəyyənləşdirməyən, buna görə də layihənin gerçəkləşdirilməsinə təminat verməyən sənəd və s.

Layihə ilə bu və ya digər dərəcədə əlaqəli olan **dövlətlərin dəyərləndirmələrinə** gəldikdə isə bunlar qeyd edilə bilər:

1-cisi, Türkiyə üçün "Nabucco" onu Avropaya birləşdirəcək çox önəmli layihədir. Onu BTC ilə müqayisə edən R.Ərdoğan kəmərin çəkilməsini Türkiyəni regional enerji mərkəzinə çevirəcəyini və Avropanınsa alternativ qaz ehtiyatı mənbəyi qazanacağını söyləmişdir. Baş nazirin fikrincə, vaxtılə BTC-ni, indi isə "Nabucco"nu xəyal sayanlar yanılırlar və nəhəng layihələrin reallaşması artıq gözönündədir.O, "Nabucco"nun heç bir dövlətə qarşı yönəl(dil)mədiyini vurğulayaraq Azərbaycan, Rusiya, İran, İraq, Türkmənistan, Qazaxıstan və Misiri də kəmərə qoşulmağa çağırıbdır.

Ekspertlər bu sazişin imzalanmasında rəsmi Ankaranın "15 faiz tələbi"ndən geri çəkilməsinin də önəmini qeyd edirlər. Təfərrüatları tam açıqlamayan bu müqavilə nəql edilən qazın 50 faizə qədərini tranzit ölkələrin özlərinin daxili tələbatlarına yönəltmək imkanı yaradır. Kəmərin maksimum güclə işə salınacağı zaman onunla ötürüləcək 31 mlrd. kubmetr qazın yarısının, yəni 15,5 mlrd. m^3-nin istədikləri halda ortaq ölkələrin istifadəsinə veriləcəyi razılaşdırılmışdır. Ortaq ölkələrin qazın yarısını hansı şərtlərlə əldə edəcəkləri məsələsi hələlik açıq qalsa da, bu variant Türkiyənin "15 faizlik istəyindən faydalıdır. Çünki 15 faizlə ən çoxu 4,5 mlrd. m^3 qaz əldə edilə biləcəyi halda, bu razılaşmaya əsasən daha iri həcmdə "mavi yanacaq"la təmin olunmaq mümkündür. Yeni Enerji naziri T.Yıldız "15 faiz məsələsi" ilə əlaqədar maraqlı açıqlama vermişdir: "Heç kim Türkiyəyə kəmərlə nəql olunacaq qazın 15 faizini əldə etmək hüququ verməmişdi və bu məsələ, sadəcə, danışıqlar predmeti idi".

Rəsmi Ankaranın ixrac qazının 15 faizini ucuz qiymətə daxili tələbata sərf etmək istəyi başqa cür də qəbul olunurdu. Yəni Türkiyənin bununla təkcə tranzit ölkə deyil, həm də qaz biznesi ilə qazanmaq niyyətində olduğu düşünülürdü. Belə bir şərt Aİ ilə Azərbaycanı qane etməməklə yanaşı, həmçinin layihəyə dair hökumətlərarası sazişin bağlanmasını və "Şahdəniz-2" fazasının mənimsənilməsinə aid işlərin görülməsini ləngidirdi.

2-cisi, Gürcüstan prezidenti mərasimdəki çıxışında "Nabucco"nu "bənzərsiz layihə" adlandırdı. O, habelə Rusiya-Ukrayna "qaz müharibəsi"nə və Gürcüstana 2008-ci ilin avqustundakı məlum hərbi müdaxiləyə eyhamlar vuraraq Avropaya "mavi yanacaq" nəqlinin dayandırılmasının yaratdığı çətinliyi xatırlatmış və bu kontekstdə də "Nabucco"nun xüsusi önəmini vurğulamışdır. **Avstriya prezidenti** V.Fayman diqqəti kəmərin Avropanın enerji təhlükəsizliyinə böyük xeyir verəcəyinə yönəldərək başlıca məqsədin təbii qaz mənbələrinin artırılmasına

çalışmaqdan ibarət olduğunu söyləmişdi. **İraqın Baş naziri** N.əl-Malikinin "Nabucco" tədbirinə qatılması da diqqəti çəkmişdi. Çünki onun mərasimə qatılması rəsmi Bağdadla İraqın şimalındakı "kürd regional administrasiyası" arasındakı "qazlı mübahisə"lər şəraitində maraq doğururdu. Belə ki, bir yandan, Baş nazir Ankaradakı saziş imzalanması tədbirinə təşrif buyurmaqla kürd muxtariyyətini hiddətləndirmişdi. Digər tərəfdən də, mərkəzi İraq hökuməti kürd regional qurumunun "Nabucco"nun ortaqları və Almaniyanın "RWE" şirkəti ilə ölkənin şimalındakı qaz yataqlarının işlənməsi və hasilatın həmin kəmərlə nəqlinə dair sazişini "hüquqi qüvvəsi olmayan sənəd" saymışdı.

3-cüsü, layihənin ideya müəllifi və təşəbbüskarı sayılan **Aİ ilə ABŞ** sazişə "buzun yerindən tərpənməsi" kimi yanaşırdılar. Əsas problemin həll edilməmiş qalmasına, yəni alınacaq qazın mənbələrinin (heç olmazsa, ilkin mərhələ üçün) müəyyənləşdirilməməsinə baxmayaraq bu müqavilə həmçinin "toyuq, yoxsa yumurta" dilemmasının təsirini azaltmağa imkan verir. Tranzit ölkələr arasında müqavilə səviyyəsində uzlaşma qaz hasilatçıları ilə alıcıları arasındakı mübahisələri də qismən səngitməlidir. Çünki tranzit ölkələr qaz mənbələri ortada olmasa da, razılığa gəliblər. Bu da hasilatçıların tranzit qeyri-müəyyənliyi və s. üzündən irəli gələn şübhələrini aradan qaldırmağa şərait yaradır.

Ekspertlərin fikrincə, hazırda enerji ehtiyatlarına ildə 300 mlrd. dollar xərcləmək məcburiyyətində qalan Aİ-nin Rusiya qazından tam asılılıqdan birdəfəlik qurtulması dumanlı görünür. Ona görə ki, kəmərlə ilkin mərhələdəki axının həcmi (ildə 8 mlrd. m^3) Avropanın tələbatının yalnız 5 faizini ödəmək iqtidarında ola bilər. (Məsələyə bu prizmadan yanaşdıqda, ABŞ Dövlət Departamentinin Avrasiya enerji məsələləri üzrə yeni təyin olunan (IV.2009) xüsusi nümayəndəsi R.Morninqstarın mərasimdə söylədiyi "iştirakçı ölkələr Rusiyanı da "Nabucco" üçün potensial qaz mənbələrindən biri hesab etməlidirlər və

onun da layihəyə qoşulması mümkündür" müddəasının yetərli dəyərə malik olduğu görünür. Rusiyanın layihədə iştirakına "yaşıl işıq" yandıran Ağ Ev imzalanma mərasimi ərəfəsi və sonrasında İranın kəmərlə ildə 10 mlrd. m^3 qaz nəql etmək arzusuna qarşı olduğunu gizlətməyib, bunu elə özünün enerji təmsilçisinin açıqlamasıyla bildiribdir). Ancaq reallaşacağı təqdirdə layihə Avropaya ilk böyük qaz mənbəyi qazandıracaqdır. Bu zaman həm də kəmərin inşası və sonrakı mərhələlərdə məsələn, təkcə Türkiyədə 5 min nəfər və digər ortaq ölkələrlə birlikdə isə 15 mindən çox adam müxtəlif iş yerlərinə sahib olacaqlar.

4-cüsü, layihədə **iştiraka dəvət olunanlar** da "Nabucco" prosesi"ni və onun ilk əməli addım-aktlarından sayılan bu müqaviləni diqqətlə izləyirlər. Habelə sadəcə müşahidə etməklə kifayətlənmir, müəyyən işlər görürlər. "Nabucco"nu dəfələrlə "dəfn edən" **Rusiya** Ankarada bağlanan müqavilədən sonra böyük enerji savaşında uduzmağa doğru getdiyini düşünərək "Cənub axını"na dair səylərini artırdı. Rusiya "Nabucco"nu qeyri-real layihə kimi təqdim edərək Avropanı "boş, qazsız boru kəməri"nə milyardlar xərcləməməyə çağırmaqla yanaşı, "Cənub axını"nın əhatə dairəsini genişləndirməyə yönəlik cəhdlər göstərməkdədir. Kreml "Nabucco"- "Cənub axını" müqayisəsində ikincinin bu cür üstünlüklərə malik olduğunu önə çəkir: Rusiyanın layihəsi ucuz və tez-asan başa gələ bilər; çünki onun qaz problemi yoxdur; özünün nəhəng ehtiyatları ilə bərabər, Xəzəryanı dövlətlərin (İran çıxılmaqla) qazının sanballı alıcısı imkanını artıq qazanmışdır.

Azərbaycan "Nabucco"dan ötrü təşəbbüskar və hasilatçı deyil, tranzit ölkə olmağa üstünlük verdiyini dəfələrlə bildirsə də, bu sazişin bağlandığı vaxtlarda layihədə hərtərəfli iştiraka da işarələr etmişdir. Həmin dövrdə Böyük Britaniyada rəsmi səfərdə olan dövlət başçısı əlverişli kommersiya şərtləri (tarnzit tarifləri və qiymətlər) şəraitində "Şahdəniz-2" fazasından hasil olunacaq qazın (ildə 10-15 mlrd. m^3) müəyyən hissəsinin "Na-

bucco" ilə nəqlinə baxıla biləcəyini bildirmişdi.(Türkiyə mətbuatı və bəzi ekspertlər İ.Əliyevin Ankaraya deyil, Londona getməyə üstünlük verməsini Azərbaycanın "Nabucco"ya dair tərəddüdləri ilə əlaqələndirirlər. Amma AR rəsmiləri, hətta R.Morninqstar da səfərin əvvəlcədən razılaşdırıldığını və təxirə salınmasının mümkünsüzlüyünü qeyd edirlər).

Göründüyü kimi, AR Rusiyanın əlverişli (cəlbedici) görünən kommersiya şərtlərinə baxmayaraq düzgün olaraq enerji ehtiyatlarının nəqlinin diversifikasiyasının önəmini dəyərləndirir və neft- qaz ixracının şaxələndirilməsinə çalışır. **Qazaxıstanla Türkmənistanın** "Nabucco"ya dair hökumətlərarası sazişin imzalandığı zamandakı dəyərləndirmələri onların da enerji ehtiyatlarının nəqlinin şaxələndirilməsi xəttində israrlı olduqlarını göstərir. Ancaq bu zaman yenə də Azərbaycanla Türkmənistan arasındakı mübahisələrə son qoyulması zərurəti məsələsi gündəmə gəlir.

Türkiyənin "qaz həmlələri" seriyasına Rusiya ilə bağlanan sənədlər də daxildir. Onlar qatı "Nabucco" əleyhdarı V.Putinin Ankaraya qısamüddətli səfəri zamanı (6.VIII.2009) imzalanıbdır. İtaliya Baş naziri S.Berluskoninin də qatıldığı üçtərəfli danışıqlarda enerji siyasəti və Rusiyanın "Cənub axını" layihəsi ilə əlaqədar məsələlər müzakirə edilibdir. **"Üçlük"** enerji əməkdaşlığını genişləndirmək qənaətində olduğunu bəyan edibdir. Türkiyə ilə Rusiya arasındakı **qaz sövdələşmələri-niyyət protokolu (6.VIII.2009)** artıq mövcud olan "Mavi axın" kəmərinin Ceyhan limanına qədər uzaldılmasını, yəni "Mavi axın-2" layihəsinə rəvac verilməsini nəzərdə tutur.

Ancaq onların başlıca nəticəsini Türkiyənin "Cənub axını"nın reallaşdırılmasında iştiraka razılıq verməsi təşkil edir. Bu da Rusiyanın rəsmi Ankaranı "Nabucco" sevdası"ndan uzaqlaşdırmaq səylərinin bir hissəsi hesab olunur. Kreml ildə 63 mlrd.m^3 qaz nəql etməli olacaq "Cənub axını" kəmərinin Türkiyənin ərazi sularından keçməsinə razılıq almaqla layihənin inşasına başlanılmasını sürətləndirməyə çalışır. İnşaat

işlərinə 2013-cü ildə başlanılması planlaşdırılır. Bu isə "Nabucco" kəmərinin tikintisinə başlanılması ilə eyni vaxta "təsadüf edir" ("Nabucco"nun inşasına başlanılması vaxtının indi də 2011-ci ildən 2013-cü ilə keçirilməsi barədə məlumatlar yayılmaqdadır).

Türkiyənin "Cənub axını"nda iştirakının dərəcə və səviyyəsinin detalları tam açıqlanmasa da, kəmərin bir qolunun oradan çəkilməsi təklifi məlumdur. Məsələdəki yeni cəhətlərdən biri də Rusiyanın İran qazının da həmin qolla ötürülməsini istəməsidir. Bu cür yenilik isə İranın "Nabucco"da iştirakına razılıq verə biləcək Qərbin marağında deyildir. Amma indiki şəraitdə "Nabucco" üçün qaz tapmağın müşkilə çevrildiyini görən Türkiyənin də "Cənub axını"na meyllənməsi təəccüb doğurmur.

Bütün bu məsələlər ətrafında Vaşinqtondakı Brukings institutunda 2009-cu ilin iyulunda keçirilən beynəlxalq konfransda da ciddi diskussiyalar aparıldı. "Avropanın enerji təhlükəsizliyində Türkiyə və Rusiyanın rolu" mövzusundakı konfransda gedən müzakirələrdə də "Nabucco"ya üstünlük verildi. R.Morninqstar **"Nabucco"nu Avropaya açılan "yeni qaz dəhlizi"** kimi qiymətləndirir. Ancaq o həm də Avropanın enerji təhlükəsizliyinin təminatı üçün regionlardakı siyasi durumun nəzərə alınmasının vacibliyini vurğulayaraq dolayısı yolla Türkiyə və Rusiyanın mövqelərinə işarə etmişdir. Onun bu arada verdiyi müsahibələrdə isə ABŞ-ın "Cənub axını"na "Nabucco"ya rəqib kimi baxmadığı bildirildi: "Bizcə, rəqabət yox, əməkdaşlıq daha vacibdir". R.Morninqstar "ABŞ-ın siyasəti müxtəlif ehtiyatların köməyi ilə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsindən ibarətdir" və "Türkiyə enerji sahəsində regional əməkdaşlıqda lider olmalıdır" kimi diqqətçəkici müddəalar söyləmişdir.

Ərdoğan-Putin danışıqlarının nəticəsində Türkiyə ilə Rusiya arasında **daha bir niyyət protokolu (6.VIII.2009)** imzalanıbdır. Bu sənədə əsasən tərəflər Samsun-Ceyhan neft kəmərinin inşasında Rusiyanın iştirakını və habelə Ceyhanda bir-

gə neftayırma zavodunun tikintisini qərara alıblar. **Ankara-Moskva enerji əməkdaşlığı** məsələləri **"Üçlük"ün** 2009-cu ilin oktyabrındakı müzakirələrində də nəzərdən keçirilibdir. V.Putinlə S.Berluskoninin **Sankt-Peterburqdakı görüşünə** canlı telekonfrans vasitəsilə R.Ərdoğan da qatılıbdır. Türkiyə-Rusiya qaz sövdələşmələrinin R.Ərdoğanın Moskvaya gözlənilən rəsmi səfərinin rəsmiləşdiriləcəyi güman edilirdi. (O, 2009-cu ilin dekabrında ABŞ-a da rəsmi səfərə getmişdir. *Bütün bu məsələlər bir az irəlidə, yəni Rusiyanın "Nabucco"ya dair siyasəti daha ətraflı açıqlanarkən şərh olunur).*

Göründüyü kimi, Türkiyə qısa zaman məsafəsi ilə, bir tərəfdən, "Nabucco"ya dair hökumətlərarası saziş bağlamışdır, digər yandan da, "Cənub axını" ilə bağlı Rusiya ilə sövdələşmişdir (niyyət protokollarını razılaşdırmışdır). Rəsmi Ankaranın bunların ardınca da öncə İranla irihəcmli qaz müqaviləsi imzalaması (27.X.2009) və bir neçə gün sonra (XI.2009) onun qazının nəqlinə tranzitliyə dair İsveçrə ilə anlaşması beynəlxalq və regional enerji siyasəti mühitinə yeni ab-hava gətirmiş və müəyyən rəylər doğurmuşdur. Rəsmi ***Ankaranın enerji diplomatiyasının*** *bu kimi iddiaları müxtəlif səpkilərdən səciyyələndirilir.* "Nabucco"ya aid saziş Azərbaycanla qaz danışıqlarında mövqelərin möhkəmləndirilməsi vasitəsi, "Cənub axın"nda iştiraka razılıq "Qərbə gözdağı verilməsi", İranla anlaşma müsəlman dünyasına liderliyə canatma olaraq da nəzərdən keçirilir.

İran qazı ilə bağlı iki anlaşma **Türkiyənin "beynəlxalq qaz müharibəsi"ndə 3-cü həmləsi** sayılır. (Diplomatik sənədlərdən biri İranın "Cənubi Pars" yatağının qazının onun "TPAO" şirkəti tərəfindən hasilatına dair sazişdir. Digəri isə İran qazının Türkiyədən ötürülməklə İsveçrəyə nəqli barədə onunla imzalanan müqavilədir). Ankaranın Tehranla enerji uzlaşması Azərbaycanın öz qazını Rusiyaya, İrana ixrac etməsi və Gürcüstandan Qara dəniz vasitəsilə (Türkiyədən keçməməklə) Avropaya çatdırılması barədəki bəyanatının elanından az sonraya təsadüf edir. AR prezidentinin Türkiyə-Ermənistan

protokollarının imzalanmasından (10.X.2009) sonra hökumətin müşavirəsində açıqlanan bu bəyanatının **Türkiyənin də tranzit ölkə olma imkanlarını şaxələndirməsinə** rəvac verdiyi bildirilir. Ekspertlər belə hesab edirlər ki, Azərbaycanın qazı elan etdiyi marşrutlarla ötürməsi, yəni alternativ yollarla nəqlə üstünlük verməsi Türkiyəni irihəcmli iqtisadi itkilərlə üzləşdirə bilər. Habelə BTC kəməri ilə neftin ixracının azaldılması da (bu, artıq baş verməkdədir) Türkiyəyə ciddi maddi zərər vurar. Belə bir arzuolunmaz və xoşagəlməz şəraitdə Türkiyə hökuməti Enerji naziri T.Yılmazın dili ilə onun da "Şahdəniz-2" qazından savayı alternativləri olduğunu bildirmiş və İranla anlaşmaya çalışmışdır.

Nəticədə Türkiyə ilə İran arasında dalbadal **iki qaz sazişi** bağlanmışdır. R.Ərdoğanın (27.X.2009) İİR-ə səfəri zamanı imzalanan müqaviləyə əsasən onun "Cənubi Pars" yatağının qazının (ildə 35 mlrd. m^3) Türkiyə vasitəsilə Avropaya nəqli razılaşdırıldı. 2009-cu il noyabrın ilk günlərində isə Ankarada Türkiyə və İsveçrənin Enerji nazirləri tərəfindən anlaşma imzalandı. T.Yılmazla M.Leunbergerin imzaladıqları həmin anlaşma ildə 5,5 mlrd. kubmetr İran qazının Türkiyə vasitəsilə İsveçrəyə tranzit ötürülməsi barədədir. **Türkiyə-İsveçrə anlaşması** habelə ölkələrarası enerji əməkdaşlığının bir sıra digər məsələlərini də əhatə edir. Türkiyə-İran qaz müqaviləsinin hələ 3 ay əvvəl razılaşdırıldığı və imzalanmanın ABŞ tərəfindən lənglidildiyi də məlum olubdur. Sazişin bağlanmasına Ağ Evin üstüörtülü razılığı Türkiyənin Ermənistanla protokollar imzalamasının əvəzi kimi də qiymətləndirirlər.

İrana öz qazını Avropaya satmaqdan ötrü nadir imkan qazandıra və Azərbaycanın enerji (qaz) ehtiyatlarının əhəmiyyətini azalda bilən bu müqavilənin bilavasitə vasitəçiləri barədə də maraqlı məlumatlar yayılıbdır. Müqavilənin və, ümumiyyətlə, Türkiyənin İranla gizli təmaslarının qurulması Türk-Erməni Biznes Şurasının həmsədri, ABŞ vətəndaşı olan türkiyəli erməni K.Soyakla İİR-in dini rəhbəri Ə.Xamneyinin oğlunun bir-

gə səylərinin nəticəsində baş tutduğu bildirilir. K.Soyakın Türkiyə-Ermənistan yaxınlaşması üçün də səylər göstərdiyi aşkara çıxıbdır. Onun ABŞ, Rusiya, Türkiyə və İranla, habelə rəsmi İrəvanla və erməni diasporası ilə sıx əlaqələrə malik olması da diqqətçəkicidir.

Ankara-Tehran qaz anlaşması ilə Türkiyə həm də İranın "Cənubi Pars" yatağından ildə 35 mlrd. m^3 qaz hasil etmək hüququ alır. Yəni yatağın bir hissəsinin Türkiyənin dövlət şirkəti ("TPAO") tərəfindən istismarı razılaşdırırlır. Həmçinin İranın özünün həmin yataqdan çıxardığı qazın da Türkiyədən ötürülməklə Avropaya ixracı planlaşdırılır. Üstəlik, Türkmənistan qazının da İrandan keçməklə Türkiyə vasitəsilə Avropaya nəqlinin nəzərdə tutulması sazişin dəyərini xeyli artırmış olur. Türkiyənin sazişdən bir uduşu da onun İranda hasil edilən qazın yarısını almaq imkanı qazanmasından ibarətdir. Layihəyə maliyyə dəstəyi Türkiyə tərəfindən Qərbin müvafiq qurumlarının irihəcmli kreditləri vasitəsilə veriləcəkdir. Bu, "qaz sövdələşməsi işi"ndə Rusiyanın da olması qənaəti sazişi yaxşı perspektivlərin gözlədiyindən xəbər verir.

Türkiyənin İran qazı ilə bağlı diplomatik gedişləri və, ümumiyyətlə, Ankara-Tehran əlaqələrindəki fəallıq bir-birilə uyuşmayan kontekstlərdə nəzərdən keçirilir. Belə ki, Türkiyə həm Qərbin İran qazına yolunu açmağa çalışan sanballı vasitəçi kimi görünür (Yeri gəlmişkən, Qərbin İran qazına dair maraqlarının təmin olunması Azərbaycanın mövqelərini zəiflədə biləcək amil kimi də qiymətləndirilir). Eyni zamanda "Türkiyə Qərbi tərk edirmi?" sualı ortaya atılır. İkinci yanaşma Türkiyə Baş nazirinin İİR-ə son səfəri (X.2009) ilə əlaqədar olaraq daha çox qabardılır. Səfər zamanı baş verənlər, yəni R.Ərdoğanın İİR prezidentini dost kimi səciyyələndirməsi və M.Əhmədnejadın da onu İsrailə qarşı sərt mövqeyinə görə tərifləməsi, habelə Baş nazirin Qərbin nüvə məsələsində İrana qarşı təzyiqlərini ədalətsiz sayması müxtəlif dəyərləndirmələrə rəvac vermiş, yol açmışdır. **Türkiyə-İran münasibətlərindəki yeni çalarlara dair rəylər** arasında bu kimi fikirlər düşündürücüdür:

- Türkiyənin xarici siyasətində prioritetlərin dəyişilməsi;
- İranın Türkiyə vasitəsilə Qərbə hərtərəfli yol açmağa çalışması;
- Türkiyənin hazırkı hökumətinin Osmanlı dövlətinin ideologiyası əsasında yeni geosiyasi (coğrafi) birlik formalaşdırmaq niyyətinə düşməsi. Bu kontekstdə də rəsmi Ankaranın Avropa İttifaqına alternativ "Yeni müsəlman birliyi" yaratmağa və islam dünyasına liderlik etməyə can atması, nəticədə isə regional güc olmaqdan çox, dünya dövlətinə çevrilməyə iddialı görünməsi (Sözgəlişi, indiki Papa XVI Benedikt 2004-cü ildə, hələ kardinal olarkən, "Le Fiqaro"ya verdiyi müsahibəsində "Türkiyə gedib ərəblərə liderlik etsin" kimi məqsədli, qərəzli fikir söyləmişdi). Bu yanaşmanın əsaslandırılması üçün gətirilən dəlillər də maraqlı və diqqətçəkicidir: dinçi, islamçı AKP iqtidarının Fələstinyönümlüyü; radikal "Həmas"a rəğbət; İraq, Suriya, İranla strateji tərəfdaşlıq – müttəfiqlik səyləri (Onlarla, habelə Pakistanla və b. ilə viza rejiminin ləğvinə dair anlaşmanın imzalanması və s.); İsraillə münasibətlərdə gərginlik və onunla ənənəvi (neçə illərlik) tərəfdaşlıqdan yayınma, əslində imtina; ən son aktlardan biri kimi soyqırımlarda ittiham olunan- Sudan prezidenti əl-Bəşirin İKT-nin İstanbuldakı tədbirinə dəvət edilməsi və s.;
- Türkiyənin Güney Qafqaz ətrafında "müsəlman qövsü" yaratmağı hədəfə alması.

Yuxarıdakı təhlillər və dəlillərlə **razılaşmayan baxışlara-izahlara** gəldikdə isə onların da yetərli əsaslara malik olması ilə razılaşmamaq mümkün deyil:

- Türkiyənin çoxillik müttəfiq-tərəfdaşlarına münasibətdə köklü dəyişiklər etməsi ehtimal olunmur;
- sadəcə bütün qonşularla "sıfır problem" strategiyası həyata keçirilir;
- regional gücə çevrilmə istəyini gizlətməyən Türkiyə nurçu-

ların lideri-ideoloqu F.Gülənə məxsus olan ideyanın reallaşdırılması, başqa sözlə, Osmanlı nümunəsində yeni geopolitik qurumun yaradılması Türkiyənin çağdaş potensialı baxımından və böyük güclərin maraqları ilə əsla uyuşmaması üzündən mümkünsüzdür;

- "asiyalı NATO-çu"nun regional güc olmaq - "Yeni Osmanlı" statusu qazanmaq siyasəti – Qərbdən çox yaxşı görünür. Buna baxmayaraq Türkiyə böyük güclərin qlobal təhlükəsizliklə bağlı anlaşmasına yaxın buraxılan yeganə müsəlman ölkəsi-aktordur. Güney Qafqazı da tərkib hissələrindən biri saydığı həmin qlobal təhlükəsizlik layihəsinə əsasən Türkiyəyə çevrə ölkələri ilə "sıfır problem"lərsiz mövcudluq və hətta müttəfiqlik münasibətləri yaratmaq imkanı saxlanılır;
- Ermənistan-Türkiyə yaxınlaşması və rəsmi Ankaranın İranla işbirliyi Avrasiyada "balansı dəyişdirəcək böyük oyunlar"ın tərkib hissəsidir;
- NATO üzvü olan Türkiyənin alyansa kəskin əksmövqeli siyasət sahibləri olan Rusiya və İranla strateji tərəfdaşlığı düşünülmür və perspektivsizdir (Alyansın Türkiyəyə son etimadlarından birinə — onun Əfqanıstandakı NATO qüvvələrinə komandanlığı faktına sadəlövhcəsinə yanaşmaq olmaz);
- Türkiyə-İran yaxınlaşmasında qaz sövdələşməsi ön plandadır və, ola bilsin ki, burada da Rusiyanın əli vardır.

2009-cu ilin iyul-noyabr aylarında **"qaz anlaşmaları bolluğu" dövrünü** yaşayan Türkiyə hökumətinin paralel surətdə **Azərbaycanla apardığı "qaz danışıqları"nı onun "4-cü qaz həmləsi"nə hazırlaşması** kimi də dəyərləndirirlər. Hazırda çoxsaylı maraqlı çevrələr **Azərbaycanın "qaz xəbərdarlığı-hədəsi" ilə Türkiyənin "qaz həmlələri marafonu"nun qarşılaşmasının nəticələrini** intizar, nigarançılıq və səbrsizliklə gözləyir. Türkiyənin "qaz həmlələri"nin nəticəsizliyi ümidində olanlar da yox deyil. Çünki "Nabucco"nun marağına uyğun

"birinci həmlə" kəmərlə axıdılmalı olan qazın hələ də tapılmaması üzündən uğursuz ola bilər. **"İkinci və üçüncü həmlələr"**in (Rusiya və İranla anlaşmaların) taleyi isə həmin sənədlərin başı üzərində asılan "ABŞ "Damokl qılıncı"ndan" çox asılıdır. **Dördüncü** ola biləcək **həmlənin** (Azərbaycanla "qaz danışıqları"nın) perspektivi də hələlik bir o qədər real və ümidverici görünmür).

Türkiyə-Ermənistan protokollarının yaratdığı siyasi-diplomatik ab-havada aparılan Bakı-Ankara danışıqları bir çox məqamları ilə diqqəti cəlb edir. Dövlətlərarası qaz anlaşmasının olmasına baxmayaraq hazırda qazın yeni qiymətlər əsasında alqı-satqısı barədə müzakirələr aparılır. Bu **danışıqların** və onların ətrafında cərəyan edən **proseslərin başlıca cəhətləri** sırasında bunlara diqqət yetirilməsi lazım gəlir.

1-cisi, rəsmi hesablamalardan bəlli olur ki, Azərbaycan minimal qiymətləndirmələrə əsasən 2 trilyon kubmetr, orta hesabla götürülən dəyərləndirmələrə görə isə, 5 trilyon m^3 qaz ehtiyatlarına malikdir. Hazırda o, stabil qaz ixrac etməyə imkanı və iradəsi olan ölkə imicini qazanmışdır. Bunlar Azərbaycan-Türkiyə qaz danışıqlarının uğurunda ciddi rol oynaya biləcək amillərdən hesab olunur.

2-cisi, Azərbaycan hökumətinin 2009-cu ilin yanvar-sentyabr aylarında sosial-iqtisadi inkişafın yekunlarına həsr olunan müşavirəsində (16.X.2009) dövlət başçısının qazın nəqli marşrutlarının şaxələndirilməsinə dair irəli sürdüyü təklif və planların reallaşdırılmasına başlanılmışdır. **"Türkiyəsiz şaxələndirmə"** Azərbaycanın Rusiyaya, İrana və Gürcüstan vasitəsilə Qara dəniz sahilləri ilə Avropaya qaz nəqlini nəzərdə tutur. **Üçüncü marşrutun** Rumıniya ilə müzakirəsinin davam etdirildiyi və Bolqarıstanla da bu sahədə əməkdaşlığın mümkünlüyü bildirilir. Bunu İ.Əliyevin Rumıniyaya (28.IX.2009) və Bolqarıstana (13.XI.2009) səfərləri təsdiqləyir. Bolqarıstandakı danışıqların nəticəsində "ARDNŞ" ilə "Bulqarqaz" arasında 2011-ci, yaxud 2012-ci ildən etibarən ildə 1mlrd. m^3 qaz alqı-

satqısına dair anlaşma Memorandumu imzalanıbdır. Azərbaycan rəsmiləri Aİ-üzvü olan Bolqarıstanla imzalanan bu sənədi qazın İttifaqın özünə birbaşa satılması—onunla yaxınlaşma təki dəyərləndirirlər. Bolqarıstan prezidentinin fikrincə isə, həmin anlaşmanı "Nabucco"nun bir hissəsi hesab etmək olar. Çünki Bolqarıstan gələcəkdə Avropanın bir neçə ölkəsi üçün qaz paylayıcı məntəqə rolunu oynamalıdır.

Hələ müşavirədən iki gün öncə (14.X.2009) "ARDNŞ" ilə "Qazprom" Azərbaycan qazının alqı-satqısı barədə *müqavilə* bağlamışdılar (Bu saziş onlar arasında 2009-cu ildə əldə olunan 3-cü anlaşmadır). "ARDNŞ" İran Milli Qaz İxrac şirkəti ilə də anlaşma Memorandumu bağlayıbdır (14.XI.2009). Rusiya və İranla anlaşmalar 2010-cu il yanvarından başlayaraq Azərbaycanın onların hərəsinə ildə 500 mln. m^3 qazın tranzit ölkələrsiz və dünya bazar qiymətləriylə satılmasını nəzərdə tutur. (Sonrakı razılaşmalara əsasən hər iki ölkəyə satılacaq qazın həcminin artırılacağı ehtimal olunur. Məsələn, artıq Rusiyaya ixrac olunacaq qazın həcminin 1 mlrd. kubmetr təşkil edəcəyi bəllidir. Hətta "Şahdəniz-2" qazının Rusiyaya satılmasında həcm məhdudiyyəti qoyulmayacağı da danışılıbdır). İİR-in dövlət şirkəti ilə olan qaz anlaşması rəsmi Tehranla aparılan müvafiq danışıqların Azərbaycanın siyasi manevri olmadığını da təsdiqlədi. Yəni AR-in ABŞ-dan çəkinərək İranla qaz sövdələşməsinə getməyəcəyinə dair gümanlar özünü doğrultmadı. ABŞ-ın İranı sıxışdırmaqda davam etdiyi bir şəraitdə Azərbaycanın ona qaz satması Qərbə (öncəliklə də Ağ Evə) "meydan oxumaq" anlamına da gəlir (ABŞ İrana 1979-cu il noyabrın 14-dən tətbiq etdiyi sanksiyaların müddətini daha bir illiyə uzatmışdır).

Belə bir **Türkiyəsiz diversifikasiya** rəsmi Ankara ilə qaz danışıqlarının dalana dirənməsi və Azərbaycanın artıq onun üçün ucuz qaz mənbəyi ola bilməyəcəyi üzündən əlavə bazarlar axtarışı zərurətiylə əsaslandırılır. Azərbaycan rəhbərliyi **qazın** elan olunan **üç istiqamətdə nəqli** barədə müzakirələrə rəsmi

Bakının təşəbbüsü ilə deyil, tərəfdaşların təklifləri əsasında başlanıldığını da bildirir. Ancaq bəzi diplomatik dairələr və ekspert-mütəxəssislər bu halı **Türkiyənin "erməni açılımı" siyasətinin Azərbaycanın "enerji (qaz) kartı" ilə cabvablandırılması** kimi səciyyələndirirlər.

Azərbaycan qazının ixracı marşrutları ilə bağlı yeni bir variant da bu yaxınlarda ortaya çıx(arıl)ıbdır. "ARDNŞ"-in prezidenti R.Abdullayev qazın Çinə nəqlinin də nəzərdən keçirildiyini bildirmişdir. Bunun da Qazaxıstanın Azərbaycana Çinə qaz ixracı layihəsinə qoşulması təklifi əsasında baş verdiyi məlum olmuşdur. Məlumdur ki, Qazaxıstan Çin istiqamətində inşa olunan ilk qaz kəmərini 2009-cu ilin sonunda istifadəyə vermək niyyətindədir. "AGP" olaraq tanınan bu layihəyə əsasən ümumi uzunluğu 1304,5 km olan iki paralel kəmər tikilməlidir. Həmin xətlər də öz növbəsində Türkmənistan qazının Özbəkistan və Qazaxıstan ərazisi ilə Çinə nəqlinə hesablanan Mərkəzi Asiya Qaz Kəməri (CAGP) şəbəkəsinin bir hissəsi sayılır.

3-cüsü, Bakı-Ankara qaz müzakirələri Qərbin (xüsusilə də, Aİ-nin) enerji təhlükəsizliyi məsələsinə həddsiz önəm verdiyi və diqqət yetirdiyi bir şəraitdə gedir. Bu taleyüklü strateji səciyyəli məsələdə ABŞ üçün əsas prioritet enerjidaşıyıcılarının dünya bazarlarına çatdırılmasıdırsa, Aİ-dən ötrü başlıca üstün yönü elə karbohidrogen ehtiyatlarının mənbələrinin tapılması, müəyyənləşdirilməsi və qətiləşdirilməsi təşkil edir. Aİ ən çox "Nabucco" layihəsinin həyata keçirilməsində maraqlı və israrlıdır.

R.Morninqstar da buna eyham vuraraq bildiribdir ki, Qafqaz və Mərkəzi Asiya dövlətləri öz karbohidrogen ehtiyatlarını müxtəlif marşrutlarla dünya bazarına çıxarmaqla öz müstəqilliklərini gücləndirə bilərlər. ABŞ-ın AR prezidentini "ölkəsinin neft və qazının Avropaya çatdırılmasının həm təchizatçı, həm də tranzit potensialı barədəki öz strateji düşüncələrini davam etdirməyə" səslədiyini söyləyən amerikalı diplomat bunları da vurğulamışdır: boru kəmərləri əlaqə yaradan bağlardır və

Azərbaycan qazının "Cənub dəhlizi" yolu ilə ("Nabucco" kəməri nəzərdə tutulur) Avropa ölkələrinə satılması AR ilə Qərbi bir-birlərinə möhkəm bağlayar; Türkmənistan da öz qazını Avropa istehlakçılarına catdırmağa yardım etməyədəvət olunur.

Azərbaycanın diplomatik xidmətlərinin 90 illiyi münasibətilə **Nyu-Yorkda keçirilən (XI.2009) "XXI əsrdə AR-in perspektivləri və tələbləri" adlı konfrans**da çıxış edən ABŞ Dövlət katibinin keçmiş müavini, professor S.Sistanoviç də belə bir cəhəti vurğulayıbdır: əgər Azərbaycan dünyanı enerji ehtiyatları ilə təmin etməkdə öz rolunu davam etdirəcəksə, hökmən Avropa dövlətləriylə əməkdaşlığa əlavələr etməlidir; həmçinin Qərbin Orta Asiya və Rusiya ilə də əməkdaşlığı güclənməlidir. Aİ-nin Enerji komissarı A.Piebalqis 2009-cu ilin sentyabrında həmin kəmərin reallaşması üçün gərəkən siyasi problemlərin artıq həllini tapdığını vurğulasa da, kommersiya məsələlərinin hələ də qaldığını söyləyibdir: Aİ-nin AR-dən qaz alacağı aydın məsələdir, ancaq öncə risklər azaldılmalıdır və layihədə iştirak bütün tərəflər üçün sərfəli olmalıdır.

Azərbaycan rəhbərliyi isə Aİ ilə münasibətlərdə enerji amilinin önəminə üstünlük verməklə yanaşı Avropaya qaz ixracı ilə bağlı bu mövqedən çıxış edir: "Enerji ehtiyatlarının şaxələndirilməsi həm istehsalçılar, həm də istehlakçılar üçün vacibdir; tranzit ölkələrlə beynəlxalq təcrübəyə əsaslanan müqavilələr bağlanarsa, Azərbaycan qazı 2010-cu ildən Avropa (Aİ) bazarına çıxarıla bilər. AR-in də qaz satışı mənbələrinin müxtəlifləşdirilməsi xəttinə tərəfdar olması Avropanın bir sıra böyük dövlətlərini onunla əməkdaşlığa sövq etdirir".

"Şahdəniz-2" yatağının Avropanın enerji gündəmində möhkəm yer tutması Böyük Britaniya hökumətinin də gözünü Xəzərə (Azərbaycana) dikməsinə əsas olmuşdur. 2008-2009 illərin qışında Rusiyanın verdiyi "qaz dərsi"ndən nəticə çıxaran İngiltərə Kremldən asılı olmayan kəmərin — cənubdan uzanan dəhlizin yaradılması üçün ciddi səylər göstərir. Onun Enerji naziri lord C.Hantın Türkiyə və Azərbaycana səfəri (IX.2009)

bu cəhətdən maraq doğurmuşdur. Aİ ilə koordinasiya olunan həmin səfərdə məqsəd Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsi yönündə danışıqlar aparmaq olmuşdur. Sadəcə Avropada hələ ki, "Nabucco"yla bağlı tam razılaşdırılmış vahid strategiya olmadığından Fransa və b. Rusiya ilə qaz əməkdaşlığına gedir, buna üstünlük verirlər. Rəsmi Paris Kremlin "Cənub axını" və "Şimal axını" qaz kəmərləri layihələrinin reallaşdırılmasında iştiraka razılıq vermişdir. "Qazprom"un "Elektricite de Franse" ("EdF") şirkəti ilə müqavilə bağlayıb ona "Şimal axını"nda 10 faizlik pay ayırması gözlənilir).

"Nabucco"nun iqtisadi baxımdan sərfəliliyinin şübhəli göründüyü və siyasi amilin daha da önə çıxdığı, yəni Avropanın hər vəchlə özünü qeyri-sabit davranışlı Rusiyadan ayırmağa çalışdığı şəraitdə **Türkiyə-Azərbaycan-Ermənistan arasındakı üçtərəfli münasibətlərin gələcəyinin həlledici** rolu məsələsi xeyli aktuallaşır. Bəzi təhlillərə görə, "Nabucco"ya həm də Cənubi Qafqaza birmənalı sahiblənmək imkanı və vasitəsi kimi yanaşan Qərb artıq onun təsiri altında olan Gürcüstandan rahatsızlıq keçirmədiyindən başlıca diqqəti Azərbaycana və Ermənistana yönəldir. Qərbin bir sıra elmi mərkəzləri "Nabucco"ya **Ankara-Bakı-İrəvan üçbucağındakı** münasibətlərin gələcəyini müəyyənləşdirə biləcək layihə kimi baxırlar.

Azərbaycanın işğal edilən ərazilərini azad etdiyi təqdirdə kəmərin Ermənistandan keçməsi variantının da nəzərdən keçirildiyi barədə məlumatlar vardır. Ancaq məlum üçbucağın tərəfləri arasındakı münasibətlərin çağdaş durumu və dumanlı perspektivi şəraitində Ermənistanın "Nabucco"da iştirakı əsla mümkün deyil. Bu cəhət NATO-nun Avratlantik Tərəfdaşlıq Şurasının Astanada "Enerji təhlükəsizliyi: Xəzər və Qara dəniz regionunda əməkdaşlıq" mövzusunda keçirdiyi (VI.2009) toplantıda özünü Azərbaycan və Ermənistan nümayəndələrinin "söz dueli"ndə açıqca göstərdi. Rusiyanın əngəllərindən qayğılanan Qərb (Aİ) kəmərin çəkilməsini sürətləndirməyə çalışır və

bu məqsədlə də Türkiyə-Ermənistan yaxınlaşmasını ehtiyat variant olaraq saxlayır.

Bu kontekstdə də çoxlu sayda ekspertlər və enerji mütəxəssisləri **Azərbaycan ("Şahdəniz-2") qazının diversifikasiyasında ən optimal variant** kimi onun müəyyən hissəsini (müasir dünya bazar qiymətləri ilə) Rusiyaya, daha çoxunun da Avropaya ixracına üstünlük verirlər. Avropaya nəqlinsə Türkiyə vasitəsilə gerçəkləşdirilməsi başlıca şərt hesab edilir. Eyni zamanda Azərbaycanın qaz alqı-satqısında ən yaxşı variant Türkiyə ilə sövdələşmə sayılır. "Türkiyə enerji sahəsində regional əməkdaşlıqda lider olmalıdır" deyən R.Morninqstar habelə "Bakının Ankaranın qaz tələbatını dərk etməli" olduğunu vurğulayıbdır. Bu məqam ABŞ-ın siyasətinin başlıca xətlərindən (prinsiplərindən) biri olaraq Energetika nazirinin müavininin Bakı və Astanada apardığı danışıqlarda (X.2009) da özünü açıqca biruzə veribdir.

Ağ Evin də regionun enerjidaşıyıcılarının dünya bazarlarına nəqlinin şaxələnməsini—marşrutların alternativlərini qəbul etdiyini bildirən nazir müavini həmçinin bunların üzərində dayanmışdır: Bizim məqsədimiz "Cənub dəhlizi" vasitəsilə Xəzər hövzəsinin enerji ehtiyatlarına birbaşa çıxışı təmin etməkdir və indi əsas diqqəti məhz "Nabucco"ya yönəltmişik; ancaq bu layihə Dağlıq Qarabağ münaqişəsindən asılı olmadan, kommersiya və bazar şərtləri əsasında həyata keçirilməlidir; nüvə məsələsində beynəlxalq öhdəliklər yerinə yetirməyən İran bu layihədə iştirak edə bilməz və onun Avropa üçün qaz təchizatçısına çevrilməsi barədə danışmaq tezdir (Göründüyü kimi, bu fikirlərlə həm Dağlıq Qarabağ münaqişəsinin həllinin "Nabucco" ilə, dolayısı yolla da Türkiyə-Ermənistan-Azərbaycan üçbucağındakı münasibətlərlə əlaqələndirilməməsi istənilir. Həmçinin rəsmi Bakıya İranla enerji əməkdaşlığına dair fəaliyyətlə bağlı işarə edilir).

4-cüsü, bütün bu kimi məsələlərin müstəvisində **Azərbaycan-Türkiyə qaz anlaşmasının perspektivi** olduqca diqqətçəkicidir. Ekspertlərin çoxu belə hesab edir ki, qazın yeni qiymətləri ilə bağlı problemin həllinin xeyli uzanması siyasi problemlərdən qaynaqlanmır. Bu, sırf iqtisadi məsələdir və danışıqların uzanmasının əsas səbəbi, hələlik anlaşmaya müvəffəq olunmamasına başlıca əngəl isə yalnız kommersiya maraqlarıdır. Yəni bazar münasibətləri şəraitində genetik yaxınlığın və qardaşlıq prinsiplərinin yerinə iqtisadi maraqların önə çıxması halları da olur. Ancaq beynəlxalq proseslər və regiondakı reallıqlar, dövlətlərimiz arasındakı strateji tərəfdaşlıq (təbii müttəfiqlik) qaz anlaşmasının tezliklə ərsəyə gəlməsini zəruri və tələb edir. Bu zərurət də **bəzi ciddi və mühüm məqamların** mütləq nəzərə alınmasına olan ehtiyacdan irəli gəlir:

a) Neft-qaz mütəxəssislərinin bir qismi belə hesab edir ki, **Qara dəniz sahillərindən (Türkiyədən yan keçməklə) Avropaya qaz nəqli üçün yeni infrastrukturlar** və İrana ixracdan ötrü də ən azından əvvəlki müəyyən avadanlıq və s. təzələnməsi lazım gəlir. Yəni Qara dəniz sahilləri ilə Avropaya nəql ediləcək qazın Azərbaycan üçün yeni— indiyədək heç vaxt həyata keçirmədiyi formada sıxılmış şəkildə tankerlər vasitəsilə daşınması nəzərdə tutulduğundan Gürcüstanda 600 km-lik əlavə (təzə) infrastrukturlara ehtiyac yaranacaqdır. Habelə qazın sonradan maye halına salınması üçün müvafiq məntəqələrdə zavodların inşası, tankerlər və s. lazım gələcəkdir. İrana nəql üçünsə Astaradakı qaz kompressor stansiyalarının yenilənməsi və mövcud kəmərlərin təmiri tələb olunur. Bunlar da əlavə maliyyə xərclərinə və habelə xeyli vəsait hesabına başa gələn Bakı-Tiflis-Ərzurum qaz kəmərinin boş dayanmasına səbəb ola biləcəyindən əsla məqbul deyil;

b) fikrimizcə, ekspertlər özlərinin bu qənaətində də haqlıdırlar: Rusiya və İran dünyanın irihəcmli qaz ehtiyatlarına malik dövlətləridirlər. Buna görə də onların Azərbaycanı uzunmüddətə qane edəcək şəkildə, yəni 25-30 mlrd.m^3 "mavi yanacaq" almaqda maraqlı olmayacaqları bəribaşdan bəllidir. Bu baxımdan, qaz nəqlinin şaxələndirilməsinə üstünlük verilməsi

düzgün və sərfəli siyasət olsa da, qazın müəyyən hissəsinin əvvəl razılaşdırılan həcmdə (500 mln. m^3) və dünya bazar qiymətləri ilə Rusiyaya, çoxunun isə Türkiyədən ötürülməklə Avropa ölkələrinə ixracı daha səmərəli variant sayılır;

c) bu önəmli məqamın da mütləq nəzərə alınması lazım gəlir: Türkiyə və Gürcüstanla eyni regionda yerləşən və onlarla birgə qaz kəmərinə (BTƏ-yə) malik olan Azərbaycanın dünya bazar qiymətlərini bölgəyə diqtə etməyə çalışması siyasi və strateji cəhətlərdən sərfəli deyil. Çünki onun Qara dəniz vasitəsilə Avropaya çıxışının alternativləri (Gürcüstansız və Türkiyəsiz) olmadığından regiona təklif etdiyi qiymətləri dünya bazar qiymətləri səviyyəsinə qaldırması problemlidir. Dünya bazarlarına qaz çıxarmaq imkanlarının yoxluğu (ifrat məhdudluğu) bunu şərtləndirir (Bu cür coğrafi imkansızlıq şəraitində Azərbaycanın "Nabucco"ya qoşulmasının da Türkiyədən asılılığı məsələsi önə çəkilir);

ç) beynəlxalq ekspertlər bu vacib məqamı da unutmamağı tövsiyə edirlər: 1,2 trilyon m^3 qaz ehtiyatı olan "Şahdəniz-2" yatağında hasilat işləri üçün lazım gələn 20 mlrd. dollar sərmayənin oraya yatırılmayacağı təqdirdə Azərbaycanın son zamanlarda imzaladığı bütün qaz anlaşmaları-memorandumları havadan asılı qalacaqdır. Yəni onlar hazırda qaz nəqlini təmin edən real müqavilələr olmayıb, sadəcə ixracın diversifikasiyası üçün zəruri infrastrukturu yaratmağı nəzərdə tuturlar. Bunu da qeyd etmək lazım gəlir ki, adıçəkilən yataqda işlərin 2010-cu ildə başlayacağı halda qazın iri həcmdə hasılatı və nəqli yalnız 2015-ci ildə mümkün ola biləcəkdir. Ondan sonra isə yataq üzrə müqavilənin müddətinin başa çatmasına cəmi 10 il qaldığından və 1,2 trilyon m^3 qazın həmin vaxt ərzində istismarı mümkünsüz olduğundan "Şahdəniz-2" üzrə xarici tərəfdaşlar və investorlar çox tələsirlər. Və burada məsələ yenə də gəlib Türkiyə-Azərbaycan qaz anlaşmasına dirənir. R.Morninqstarın da qeyd etdiyi kimi, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının Avropaya nəqli sahəsindəki işlərin çoxu Türkiyə və

Azərbaycanın "Şahdəniz" qazının etibarlı, nəzərdə tutulan qiymətlərlə və həcmdə ixracı barədə razılığa gəlmələrindən asılıdır (Onun belə bir məlumatı da maraq doğurur: Xəzərin şimal bölgəsində neft hasilatı qarşıdakı beş il ərzində gündə 2 mln. barrelə qədər artacaqdır);

d) Türkiyənin isə onsuz da yüksək tranzit tarifləri hesabına xeyli mənfəət götürəcəyi heç bir şübhə doğurmur. Beynəlxalq ekspertlər həmçinin "Nabucco" layihəsinin gerçəkləşdirilməsinin vacib şərtlərindən birinin həllində, yəni Azərbaycanla Türkmənistanın "arasının düzəlməsi"ndə rəsmi Ankaranı ən uğurlu və real vasitəçi kimi görürlər.

Azərbaycanın Türkiyəyə satdığı qazın yeni qiymətləri ilə əlaqədar danışıqlarda 2009-cu ilin sonları üçün yaranan **vəziyyət və müzakirələrin perspektivləri tərəflərin mövqeləri** və **təkliflərinə** əsasən bu cür səciyyələndirilə bilər. Rəsmi Bakı Türkiyə ilə 2002-ci ildə bağlanan 16 illik qaz alqı-satqısına dair kommersiya sazişinə əsasən ona "mavi yanacaq" ixracını davam etdirdiyini bildirir. Ancaq qazın qiymətinə və tranzit tariflərinə yenidən baxılmasını istəyir və bunu zəruri hesab edir. Azərbaycan tərəfi Türkiyənin onun qazını dünya bazar qiymətlərindən xeyli aşağı qiymətlərlə alıb azı iki dəfə baha qiymətə satmağa çalışması ilə razılaşmır. Bütün bunlara və başqa səbəblərə görə, qazın nəqlinin şaxələnməsinə üstünlük verir. Türkiyə ilə qaz anlaşmasına nail olunacağına əminliyini dəfələrlə təkrarlayan İ.Əliyev hökumətin müşavirəsində (16.X.2009) danışıqlarda problemlər yaradan kommersiya məqamlarını açıqlayıbdır.

Həmin problemlərə isə bunlar aid edilir: qazın Türkiyəyə bir neçə ildir ki, dünya bazar qiymətinin 1/3-nə (30 faizinə) satılması; rəsmi Ankaranın regionda mövcud olan tranzit tariflərindən 70% baha tarif təklif etməsi. "ARDNŞ"-in "BOTAŞ"la çoxraundlu indiki danışıqlar prosesində Azərbaycan "Şahdəniz-2" yatağının qazının əsas alıcısı (gələcəkdə ildə 10-12 mlrd.m^3) kimi nəzərdə tutulan Türkiyəyə min kubmetri indikindən iki

dəfə baha, yəni 230-250 dollara satmaq niyyətini açıqlamışdır (Hazırda qazın Avropa bazarlarındakı qiyməti 350-400 dollar arasındadır). Habelə bu qiymətin 2008-ci il aprelin ortalarından bəriyə alınıb-satılan qazın həcminə də aid edilməsi istənilir. Türkiyə mətbuatı bunu "İ.Əliyevin qaz həmlələri" olaraq səciyyələndirsə də, "ARDNŞ" rəhbərliyi 250 dollarlıq qiyməti güzəştli davranış kimi dəyərləndirir.

Azərbaycan prezidentinin "Nabucco"ya dair hökumətlərarası sazişin bağlanması mərasiminə qatılmayaraq rəsmi səfərə getdiyi İngiltərədə Ankara ilə təbii qaz anlaşması "yalnız ədalətli və beynəlxalq bazar şərtlərinə uyğun qiymətlərlə mümkün ola bilir" kimi mövqeyi ilə yanaşı "Türkiyəyə güzəştlər olmalıdır" təki yanaşmalar da vardır. Belə hesab olunur ki, Türkiyənin ölkəmizə siyasi-hərbi dəstəyi, beynəlxalq təşkilatlarda mövqeyimizi ardıcıl müdafiə etməsi, Ermənistanla indiyədək diplomatik və digər əlaqələr qurmaması, ən başlıcası da, sərhədləri hələ də açmaması, onun iqtisadi problemləri və s. nəzərə alaraq qazla ticarətdə ona güzəştlər edilməlidir. Qazın Rusiyaya 350 dollara, Türkiyəyə isə 230-250 dollar həddində (bazar qiymətindən 50-100 dollar aşağı; burada 20-30 dollarlıq tranzit xərci də nəzərə alınmaqla) satılacağının planlaşdırılmasının elə güzəşt olduğunu iddia edənlər də yox deyil).

Türkiyə tərəfinin Azərbaycanla qaz anlaşmasına dair hazırkı məsləhətləşmələrdə səsləndirdiyi müddəalar və tutduğu mövqe (təklifləri) də diqqətçəkicidir. Rəsmi Ankara qazın son vaxtlaradək ucuz alınıb satılmasına dair iradlarla razılaşmır. "BOTAŞ"-ın şərhinə görə, "ARDNŞ"-in ona qaz satışında tətbiq etdiyi tariflərin guya kommersiya prinsiplərinə müvafiq olmaması qənaəti yanlışdır. Çünki onlar arasında bağlanan 2002-ci ildə 16 illik qaz anlaşmasın da bütün dünyada ikitərəfli müqavilələri və qiymətləri tənzimləyən səmərəli formul əsasən hazırlanmışdır. Həmin formulsa neftin və mazutun mövcud dünya bazar qiymətlərini əsas götürür (Bir kvt saat elektrik enerjisinin alınması üçün sərf edilən mazut qədər də, qaz işlədilir).

Enerji naziri T.Yılmaz AR rəhbərliyinin Türkiyəyə qazı "üç ildir dünya bazar qiymətlərinin 1/3-nə satması" və rəsmi Ankaranın yüksək tranzit tarifləri tətbiqinə dair açıqlamalarının onun yanlış məlumatlandırılmasından irəli gələ bilməsini də mümkün sayıbdır. T.Yılmazın təkzib səciyyəli açıqlamalarına görə, dövlətlərarası qaz alqı-satqısı barədə müqavilə yalnız 2007-ci ildə qüvvəyə mindiyindən Türkiyə cəmi 10 ay ərzində köhnə qiymətlə qaz alıbdır və qiymətlərə yenidən baxılması üçün də 2008-ci ilin aprelində təklif vermişdir. Buna əsasən də alqı-satqının anlaşmanın razılaşdırıldığı çağın kommersiya qiymətləri ilə müəyyənləşdirildiyi məlumdur. (Sözgəlişi, Neft Araşdırmaları Mərkəzinin rəhbəri İ.Şabanın təhlillərinə görə, qaz Gürcüstana da 120 dollara satılmır. O bildirir ki, Azərbaycan qazı-onun karbohidrogen ehtiyatlarının nəqli üçün əsas tranzit ölkələrdən olan-Gürcüstana əslində üç qiymətə satılır: sosial-məişət qazı. Qonşu dövlət özünün 29 qaz paylayıcı şəbəkəsini "ARDNŞ"-ə pulsuz istifadəyə verdiyindən Azərbaycan da dünya bazarındakı qiymətlərdən asılı olmayaraq qazın min m^3-ni ona 120 dollardan satır; qonşu dövlətin sənaye obyektlərinə isə qazın 1000 m^3-i 149 dollara verilir; daha böyük həcmdə qazsa kommersiya qiymətləri ilə, yəni min kubmetri 268 dollara satılır).

"Tranzit haqlarını digər ölkələrlə müqayisədə Azərbaycan üçün aşağı tariflə müəyyən etdiyimiz də bəllidir" söyləyən nazir belə bir faktı da qeyd etmişdir: Rusiya qazın min kubmetrinin tranziti üçün 100 km-ə 26 dollar istədiyi halda, Türkiyə Azərbaycana 2,36 dollarlıq tarif təklif edir. "BOTAŞ" habelə "Şahdəniz" qazının min kubmetrini 180-200 dollara almağa razılığını da bildiribdir. Onun fikrincə, Türkiyə qazla əlaqədar məsələlərdə də Azərbaycanın maraqlarını nəzərə alır.

Qaz danışıqlarının — Türkiyə Baş nazirinin Bakıya səfərinin (V.2009) ardınca başlayan — birinci mərhələsi nəticəsiz oldu. T.Yılmazın "ARDNŞ" (eyni zamanda AFFA) prezidenti R.Abdullayevlə Qayseridə bu iki ölkənin milli futbol komanda-

larının oyununu (burada Türkiyə prezidenti **A.Gülün "futbol diplomatiyası"** yada düşür) seyr etdikdən sonra apardıqları "qaz müzakirələri"ndə (2.VI.2009) qarşılıqlı təkliflər nəzərdən keçirilibdir. "ARDNŞ" və "BOTAŞ" təmsilçilərinin Naxçıvandakı görüşü (17.VII.2009) də bu yöndə olubdur. Rəsmi Ankaranın Bakıda keçirilən 16-cı Beynəlxalq Xəzər neft-qaz sərgisində (VI.2009) AR-in isə İKT İqtisadi və Ticarət Əməkdaşlığı Komitəsinin (İSEDAK-ın) İstanbulda keçirilən (XI.2009) toplantısında yüksək səviyyədə deyil, nazir müavinləri ilə təmsil olunmaları, habelə digər məqamlar "Şahdəniz-2" qazının Azərbaycan-Türkiyə münasibətlərində davam etməkdə olan soyuqluğu hələ də isidə bilməməsindən xəbər verir (Türkiyə evsahibi olaraq İ.Əliyevi də tədbirə qatılmağa dəvət etmişdi).

Yeni razılaşmanın ləngiməsi Türkiyədə hökumətin Azərbaycanla bağlı, o cümlədən də qaz nəqli siyasətinə dair müxtəlif dəyərləndirmələri ortaya çıxarmışdı. Bəzi siyasi çevrələr və mətbuatın müəyyən hissəsi Azərbaycanın mövqeyini Türkiyənin Ermənistanla yaxınlaşma xəttini və protokollar imzalamasını "qaz kartı" ilə cavablandırması kimi baxırlar. Bir sıra özəl iqtisadi- kommersiya qurumları, enerji mütəxəssisləri və başqa dairələrsə Türkiyənin düzgün siyasət apara və oyunu yaxşı qura bilməməsi üzündən Azərbaycan qazı ilə bağlı qiymət təşəbbüsünün Rusiyaya keçməsini vurğulayırlar. Bu kontekstdə Türkiyə iqtidarı prosesi idarə edə, "Nabucco"dan gözlənilən dividentləri ala, qaz boru xəttinin böyük bir hissəsinin keçəcəyi tranzit bir ölkə olmaqdan irəli gedə bilməməkdə qınanır. Habelə "təkcə tranzit ölkə olmayacağıq, bu layihə sayəsində həm də dünya enerji oyununun önəmli bir aktyoru halına düşəcəyik" kimi iddianın və məqsədin özünü doğrultmadığı xüsusilə diqqətə yetirilir.

Ən son məlumatlara, yəni T.Yıldızın İİR-in XİN-i M.Mottəki ilə görüşdən sonra (II.2010) verdiyi açıqlamaya əsasən Azərbaycanla Türkiyə arasında qazın qiymətində razılaşma əldə edilmişdir, ancaq rəsmi anlaşma hələ ki, olmayıbdır. Bu

razılaşmaya əsasən Türkiyə ildə 6 mlrd. kubmetr qaz aldığı Azərbaycana 2010-cu ildə 720 mln. deyil, 1,8 mlrd. dollar ödəyəcəkdir. Bu halda qazın min kubmetri Türkiyəyə 300 dollara başa gələcəkdir. Qaz alqı-satqısındakı əvvəlki qiymət fərqinin aradan qaldırılması üçün ödəniləcək vəsait, yəni borc isə 1,7 mlrd. dollar həcmində razılaşdırılıbdır.

Bütövlükdə isə, ekspertlər və mütəxəssislər Türkiyənin "15 faiz tələbi"ndən geri çəkilməsinin həmin ölkənin prezidenti və Baş nazirinin dəfələrlə təkrarladıqları belə bir bəyanatla müşayiət olunması da "Nabucco"nun gerçəkləşməsinə ümidləri artıran amillərdən hesab edilə bilər: "Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını azad etməyənədək onunla sərhədlərin açılması əsla mümkün deyildir".

Rusiyanın "Nabucco" ilə bağlı mövqeyi layihənin gerçəkləşməsinə imkan verməməkdən, heç olmazsa, kəmərin çəkilməsinin xeyli ləngiməsinə nail olmaqdan ibarətdir. Kreml özünün iqtisadi-diplomatik-hərbi təzyiq resurslarının mühüm bir hissəsini bu istiqamətə yönəltmişdir. Məqsədə yetişmək üçün də müxtəlif vasitələrdən və üsullardan istifadə olunur. "Nabucco" əleyhinə fəaliyyətin əsas yönlərindən birini kəmərin qeyri-real və ya azsəmərəli olmasına yönəlik təbliğatın aparılmasıdır.

Rəsmi Moskvanın "Nabucco" siyasəti"nin formalaşmasına xidmət edən bir sıra elmi mərkəzlərin və ekspertlərin fikrincə, layihə iddialı görünsə də onun reallaşmasına 4 əmma (əngəl) mövcuddur: **1)** Kəmərin qazla doldurulması problemlidir. **2)** Onun inşasına pul çatışmır. **3)** Layihənin iştirakçılarının siyasi həmrəyliyi yoxdur. **4)** Kəmər bir neçə "qaynar nöqtələr"dən keçməlidir.

Bütün bunlara görə və Avropanın Rusiyadan olan kəskin qaz asılılığı üzündən rəsmi Moskva "Nabucco" ilə bağlı hələ ki, bir o qədər rahatsızlıq keçirmir. Habelə öz variant və layihələrini təklif edir. Rusiyanın "Nabucco"nun reallaşmasına yönəlik tədbirləri sırasında kəmərin qazla təchizatını əngəlləmək və bu məqsədlə də başlıca təminatçı ölkələri neytrallaşdırmaq səy-

ləri mühüm yer tutur. Bu səbəbdən də Kreml Türkmənistan-Azərbaycan qarşıdurması və s. faydalanmağa çalışır. Moskvadakı MDB ölkələri institutu Mərkəzi Asiya şöbəsinin araşdırmalarından irəli gələn qənaətə görə, hazırda Rusiyanın sakit razılığı ilə Xəzərə müəyyən gərginlik gətirilir. Və, Kreml üçün ən başlıcası, hazırkı gərginlikdə və Xəzərdəki yeni təhlükəsizlik sistemində aparıcı vasitəçi, əsas oyunçu olmaqdır. Digər yandan da, rəsmi Aşqabadın Azərbaycan əleyhinə tədbir və bəyanatlarından müəyyən rahatlıq duysa da, Türkmənistanın Xəzərin hərbiləşdirilmsinə yönəlik addımlarını bəyənmir.

Rəsmi Moskva Xəzərin hərbiləşdirilməsində əsla maraqlı deyil. Çünki Türkmənistanın silahlanması Azərbaycanla Qazaxıstanın da Xəzəri hərbiləşdirmək səylərini şərtləndirə bilər. Bu da Rusiyanın Xəzərdəki hazırkı ən güclü tərəf statusunu saxlaması üçün əlavə tədbirlər görməsi zərurətini yaradar. Bundan ötrü tələb olunan irihəcmli maliyyə vəsaiti problemi, Xəzərdəki hər hansı bir (kiçicik də olsa) hərbi münaqişənin NATO (ABŞ) və digər qüvvələri hövzəyə gətirməsi təhlükəsi Rusiyanı əsla qane etmir. Rusiya hökumətinin 2009-cu ilin avqustunda Həştərxanda Xəzər məsələlərinə dair keçirdiyi müşavirədəki çıxışında D.Medvedyev "kənar ölkələrin hövzənin işlərinə qarışmasını yolverilməz" sayaraq regiondakı təhlükəsizliyə yalnız sahilyanı ölkələrin cavabdeh olduqlarını vurğulayıbdır (Müəyyən siyasi-diplomatik çevrələr Türkmənistanın Xəzərdə silahlanmasında İranın daha maraqlı olduğunu və bəzi təhrikçilik işlər gördüyünü qeyd edirlər).

Kremlin "Nabucco"nu əngəlləmək səciyyəli tədbirlərindən biri də öz ifadəsini Rusiyanın Azərbaycanın bütün qazını dünya qiymətləri ilə almaq barədə 2008-ci ildə etdiyi təklifdə və 2009-cu ildə bağlanan müqavilələrdə tapmışdır. "Qazprom"un "Şahdəniz" qazının hamısını alması üçün razılaşma əldə olunması naminə səylərini intensivləşdirməsini Türkmənistanın "Nabucco" layihəsində iştiraka razılıq verməsi ilə əlaqələndirən yanaşmalar da mövcuddur. Digər mövqelərə görə, bu da kəmər

üçün yetərli olmayacaqdır. Çünki Rusiyanın – kəməri ilkin mərhələdə doldurmalı olan — "Şahdəniz"qazını ala bilməsi layihənin gerçəkləşməsini yenə də sual altında qoyur.

Ekspertlərin bir qrupu isə "Şahdəniz" qazının alğı-satqısına dair Rusiya-Azərbaycan anlaşmasının Kremlin "Dağlıq Qarabağ problemi"nin ədalətlə həllində fəal iştirakından daha çox asılı olduğunu önə çəkirlər. Ölkə politoloqlarından R.Musabəyov və b. fikrincə, Azərbaycanın öz qazının hamısını Rusiyaya satması mümkünsüzdür; AR "Nabucco"da iştirakdan qaçası deyildir, sadəcə sərfəli qiymətlərlə satışa, kəmərlərin çoxşaxəliliyinə, rəqabətdən faydalanmağa üstünlük verir.

Rusiyanın "Nabucco"nu əngəlləmək səylərindən biri də özünün layihələrini gerçəkləşdirməkdən, yəni işlək kəmərlərin davam etdirilməsinə, ələlxüsus da, yenilərinin çəkilməsinə çalışmaqdan ibarətdir. Bu zaman, bir yandan, qaza ehtiyacı olan Avropa dövlətləri, digər yandan da, təchizatçı-tranzit ölkələr arasında nifaqyaratma, parçalanma xətti yürüdülür. Bununla bağlı da müxtəlif vasitə və üsullara əl atılır. Onlardan birini də "Nabucco"ya başlıca alternativ olaraq nəzərdə tutulan "Cənub axını" qaz kəmərinin işə salınması təşkil edir. "Nezavisimaya qazeta"nın analitik yazılarından bəlli olur ki, Rusiya "Nabucco"ya rəqib saydığı "Cənub axını"nı reallaşdırmaq üçün başlıca ümidini məhz Xəzərin bölgüsü məsələsinin həll edilməməsinə bağlayıbdır.

Ekspertlərin fikrincə, Azərbaycanla Türkmənistan arasındakı gərgin mübahisələr "Nabucco"nun həyata keçirilməsini, daha dəqiqi, onun bir hissəsi olaraq nəzərdə tutulan "Transxəzərin çəkilməsini ən azından ləngidəcəkdir. Ən çoxu isə bu mübahisə "Nabucco"nun mənbələri-təchizatçılarının sayını İraq və Azərbaycanla məhdudlaşdıra bilər. Əksmövqedən çıxış edən bəzi politoloqlara görə isə, Türkmənistanın demarş səciyyəli addımları (onlar az öncə sadalanır) "Nabucco" ilə bağlı proseslərə həlledici təsir göstərə bilməz: "Çünki bu layihənin taleyi Türkmənistan-Azərbaycan münasibətlərindən asılı olan məsələ

deyil".

"Cənub axını" qaz kəmərinin Novorossiyskdən - (uzunluğu 3,7 km, illik ötürmə qabiliyyəti isə 31-47 mlrd. m^3 olacaq bu kəmərin 20 mlrd. dollara başa gələcəyi güman edilir) Qara dənizin dibi ilə Bolqarıstanın Varna limanınadək çəkilməsi və oradan da iki istiqamətə ayrılaraq Balkanlardan keçməklə -İtaliya və Avstriyaya qədər uzadılması planlaşdırılır. Kreml, inşasının 4 ildən sonra başa çatdırılması gözlənilən layihənin reallaşdırılmasına bir çox dövlətlərin də qoşulmasına çalışır. Belə cəhdlərdən biri də "Nabucco"nun həyata keçməsində çox maraqlı olan Bolqarıstanla bağlı edilmişdir. "Qazprom" və "Bulqarqaz" öz aralarında "Cənub axını"na dair saziş imzalanması barədə razılığa gəlmişlər. Bu hal "Nabucco"nun qəti əleyhdarı olan V.Putinin Sofiya enerji sammitinə qatılmamasına təsir göstərmişdi.

Qərbin Enerji xartiyasını imzalamayan (buna əsla zərurət olmadığını birmənalı bildirən) Rusiya 2009-cu il mayın 15-də Soçidə İtaliya, Bolqarıstan və Serbiya ilə "Cənub axını" kəmərinin tikintisinə dair müqavilə bağladı. Bolqarıstandakı son parlament seçkilərinin nəticəsində hakimiyyətə gələn yeni siyasi qüvvə ölkəsinin "Cənub axını"nda iştirakının şərtlərinə təzədən baxılmasını istəyir. "Qazprom"un İtaliyanın "ENİ", habelə adları çəkilən digər dövlətlərin enerji şirkətləri ilə imzaladıqları bu sazişə görə Rusiya qazı Avropaya çatdırılmalıdır. Rəsmi Moskva-Türkiyə və Yunanıstan təmsilçilərinin də iştirak etdikləri-"Soçi görüşü"nün nəticələrinin (müqavilə bağlanması və s.) "Nabucco" layihəsinə dair Praqa sammitinə (bəyannaməsinə) cavab olmadığını bildirmişdir. Kreml hətta "Azərbaycanın öz enerji diversifikasiyası siyasəti çərçivəsində istənilən layihədə iştirak etmək hüququna malik olması"nı bildirsə də, proseslər başqa mətləblərdən xəbər verir.

Yəni proseslər hələ ki, **Rusiyanın Avropaya "qaz təhdidi"** axarında gedir. Bunu rəsmi Moskvanın Avropaya (Aİ-yə və ayrı-ayrı dövlətlərə) lap son vaxtlarda dalbadal edilən (təkrarlanan) xəbərdarlıqları da yetərincə təsdiqləyir. Belə bir təhdid-xəbərdarlıq "Rusiya-Aİ: Energetika üzrə tərəfdaşlıq" Daimi Şurasının iclasında (V.2009) edilmişdir. İclasda tərəflərin təmsilçiləri (İ.Seçinlə A.Piebalqis) arasında kəskin mübahisələr getmişdir. Müzakirələrdə ikincinin "Rusiya ilə Avropa arasında enerji xartiyası dəyişdirilə bilməz" qənaəti Kreml təmsilçilərinin (Baş nazirin Enerji məsələləri üzrə müavini İ.Seçinlə enerji naziri S.Şmatkonun) bu kimi hədələri ilə qarşılandı:

"Enerji xartiyası ölü doğulan uşaqdır"; buna görə də, onun həyat qabiliyyəti yoxdur və müzakirəsinə də ehtiyac qalmır; "əgər Avropa Rusiyanın enerji maraqları ilə hesablaşmazsa, bu qış (2008/2009-cu illərdəki – İ.M.) yaşanan qaz faciəsi daha fəlakətli şəkildə davam edəcəkdir;" "Azərbaycan nefti Odessa-Brodı kəməri ilə nəql olunsa, fəlakətlə üzləşəcəksiniz"; "Aİ Ukrayna ərazisində qaz anbarının tikintisini Rusiya ilə birlikdə maliyyələşdirməlidir" və s. Bütün bunlarsa, Rusiyanın Avropaya faktiki olaraq elan etdiyi "yeni qaz müharibəsi"nin tələbləri və konturları sayıla bilər. Ümumi xülasə-nəticə isə belədir: Rusiya Ukraynadan ötürülməklə nəql etdiyi qazına tam nəzarətə sahib olmağa çalışır və onun yalnız Aİ ilə birlikdə ixracı Avropanı başağrılarından qurtarardı.

Rusiya bu iclas-müzakirələrdə də Avropanın enerji (qaz idxalı və s.) tərəfdaşlığını pozmağa səylər göstəribdir. Kreml rəsmiləri Almaniya və Fransanın mövqelərini nəzərdə tutaraq Avropanın bəzi dövlətlərinin qlobal enerji təhlükəsizliyinin mexanizmlərinə aid yeni sənəd hazırlamağa hazır olduqlarını açıqlamışlar. Bununla da həmin dövlətlərin Rusiyanın enerji siyasətinə loyal yanaşmalarına və "Qazprom"un Avropa bazarlarındakı inhisarçı mövqeyinin zəiflədilməsinə yönəlik planlara birmənalı dəstək verməmələrinə, bu işdə çox da maraqlı olmamalarına işarə edilir. Aİ-Rusiya əməkdaşlığı çərçivəsində keçirilən (Xabarovsk, V.2009) təhlükəsizlik, ticarət və enerji sammitində də Avropa dövlətlərinin rəsmiləri yenidən Kremlin "qaz təhdidləri" ilə üzləşiblər. Sammitdə çıxış edən prezident

D.Medvedyev Aİ-ni "Şərq Tərəfdaşlığı Təşəbbüsü" ilə Avropa daxilində "yeni parçalayıcı sərhədlər cızmaqda" ittiham edərək qitənin başı üzərindəki "Rusiya "Damokl qılıncı"-nı bir daha "qınından çıxarıbdır". Yəni Avropaya "qazsızlıqla dondurulma" təhlükəsi xatırladılıbdır. Və, belə bir təhlükənin siqnalları çox da ləngidilmədən verilibdir.

"Qazprom" 2009-cu ilin iyununda Aİ-yə sərt xəbərdarlıq ünvanlayaraq Rusiya qazının alınması və nəqlinə dair mövqeyini birmənalı bildirməsini istədi. Şirkət sədrinin müavini A.Medvedyevin açıqlamalarına görə, "hazırda dünyanın yalnız üç ölkəsi (Rusiya, İran, Qətər) uzunmüddətli qaz təchizatçısı ola bilər. Yenidən yol ayrıcında olan Avropa bizim qazımızla bağlı ehtiyacı barədə qəti qərara gəlməlidir. Əgər cavab "yox" olarsa, onda biz qazı satmağa başqa yollar taparıq". "Qazprom"un bu hədəsi Qərbdə müəyyən ciddi rahatsızlıqlar yaratmışdır. Harvard universitetinin tanınmış neft ekspertlərindən M.Qoldman Rusiya şirkətinin əhatə dairəsinin genişlənməsinə, yəni diversifikasiya imkanlarının çoxalmasına diqqət çəkərək bunları bildirmişdir: "Qazprom" Rusiya hökumətinin alətidir və enerjidən siyasi silah kimi istifadə edilir... Rusiya indi özünün enerji silahı ilə, əsas silahının atom bombası olduğu "soyuq müharibə dövründəkindən, daha qüdrətlidir... Moskvanın silahı qazdır. Qaz kəməri ilə bağlılığı olan və Rusiya qazından asılı qalan hər bir kəs həqiqətən də Kremlin mərhəmətindən asılı olur". Ekspertlər belə bir məsələdə də həmrəydirlər ki, Rusiya "Cənub axını" layihəsinin reallaşmasını sürətləndirməyə çalışaraq Avropanın enerji (qaz) təchizatını öz məngənəsində saxlamaq imkanlarını artırmaq istəyir.

Rusiyanın enerji (qaz) siyasəti Türkiyənin də "Nabucco" layihəsində iştirakdan yayınmasını (imtinasını) nəzərdə tutur. Bu işdə də Türkiyənin Rusiyadan olan çox kəskin qaz asılılığından yararlanmağa çalışılır (Türkiyə qaza ehtiyacının təxminən ¾ hissəsinə (65-67%-nə) yaxınını "Mavi axın" müqaviləsi vasitəsilə Rusiyanın hesabına ödəyir. Təkcə 2008-ci ildə

"Qazprom"dan 24 mlrd. m^3 (daxili tələbatın 63-64 faizi həcmində) "mavi yanacaq" alınmışdır. Neftə tələbatın 30-40%-i də Rusiyanın hesabına ödənilir). V.Putin Ankaraya rəsmi səfərinin sonunda R.Ərdoğanla birgə brifinqdə ölkələrarası iqtisadi əməkdaşlıqdan və ticarət əlaqələrindən məmnun olduğunu vurğulayaraq belə bir faktı qeyd etmişdi: **"Rusiya Türkiyənin birinci, Türkiyə isə Rusiyanın 5-ci ticarət ortağıdır"**. Ancaq Türkiyənin "Nabucco"ya lobbiçilik etməsi və bu kəmər üçün başlıca tranzit ölkə olmağa hazırlaşması Rusiya tərəfindən "Cənub axını" layihəsinə ciddi zərbə kimi dəyərləndirilir.

Buna görə də Kreml rəsmi Ankaranı "Nabucco"dan aralayaraq "Cənub axını"na tərəfdaş etməyə çalışır. Məqsədə nail olunması üçün də Türkiyəyə bir sıra konkret təkliflər edilir və şirnikləndirici, cəlbedici vədlər verilir. **İlkin** təklif-vədlərdən biri kimi ortaq variant, yəni "Cənub axını" kəmərinin Rusiyaya tez-tez başağrısı (problemlər) yaradan Ukraynanın dəniz dayazlığından deyil, nisbətən daha uzun marşrut olan Türkiyə şelfindən keçməklə çəkilməsi məsləhət bilinir. **İkincisi,** Türkiyə üçün çox cəlbedici görünən "Mavi axın-2" layihəsinin tezliklə həyata keçirilməsinə çalışılır. **Üçüncüsü,** Türkiyənin Xarici İşlər və Enerji nazirlərinin (Ə.Davudoğlu ilə Y.Tanerin) 2009-cu il iyulun əvvəlində Moskvada apardıqları danışıqlarda rəsmi Ankaraya "Cənub axını" qaz layihəsinə qoşulmaq və onun inşasında iştirak etmək təklif olunmuşdur.

Rusiyanın Türkiyəni "Cənub axını"na qoşmaq planı "Nabucco" ideyasını (layihəsini) həmişəlik dəfn etmək məqsədi güdür. **Kremlin rəsmi Ankaranı "Nabucco"dan aralamaq səylərində** isə bu kimi amillərə istinad edilir:

a) Türkiyənin Aİ-yə qəbulunun əngəllənməsi;

b) "Nabucco" layihə-kəməri ilə bağlı Türkiyənin məlum şərtləri üzündən Aİ və Azərbaycanla enerji əməkdaşlığında yaşanan problemlər;

c) Rusiya ilə Azərbaycan arasında bağlanan yeni qaz müqaviləsi (Bakı, 29.VI.2009) və s.

Sadalananlardan sonuncunun Türkiyənin mövqelərini sarsıdan amil kimi rəsmi Ankarada müəyyən rahatsızlıq yaratması və onun Rusiya ilə enerji əməkdaşlığını daha da genişləndirmək istəyinə təsirsiz ötüşməməsi də gözönündədir. Rusiya ilə Türkiyə arasındakı – az öncə qeyd edilən-Moskva danışıqları və digər məqamlar rəsmi Ankaranın "Nabucco" ilə "Cənub axını"nda eyni dərəcədə iştirakı, habelə birinci layihənin "Mavi axın"larla uzlaşdırılması və başqa məsələləri nəzərdən keçirdiyini əsla inkar etmir. Türkiyə, bir tərəfdən, "Nabucco"ya Aİ-yə üzvlüyün ən önəmli və əlverişli vasitələrindən biri təki yanaşaraq həm onun, həm də BTC-nin "açarları"nı özündə saxlayan yeganə ölkə olmaq iddiasındadır. Digər yandan da, Rusiya ilə qaz əməkdaşlığından yetərincə hərtərəfli yararlanmaq niyyətindədir.

Rusiya və Türkiyənin iqtisadi naraqların qarşılıqlı dolğun təminatı xətti onlar arasında-Kremlin təşəbbüsü ilə-bəzi anlaşmalarla nəticələndi. Belə ki, V.Putinlə R.Ərdoğanın "Soçi görüşün"dəki (V.2009) müzakirələr Rusiya Baş nazirinin Türkiyəyə qısamüddətli səfəri zamanı (6.VIII.2009) davam etdirildi. Səfərdə əsas məqsəd Türkiyə ilə qaz anlaşmalarına çalışmaqdan ibarət olubdur. Rəsmi Ankaraya açıqlanan "təkliflər paketi"ndə bunlar özünə yer almışdı:

1.İşlək **"Mavi axın"** kəmərinin uzadılması və onun vasitəsilə (Türkiyədən keçməklə) Avropaya qaz nəql edilməsi.

2.Bir hissəsi Türkiyənin ərazi sularından keçməsi istənilən (planlaşdırılan) **"Cənub axını"**na onun da qoşulması.

3.Samsun-Ceyhan **(SC) neft kəmər**inin çəkilməsi.

Təkliflər ətrafındakı danışıqlar tərəflərin neft və qaz sahələrində əməkdaşlığı haqqında sənədin imzalanması ilə yekunlaşmışdır. Sənədə əsasən də "Cənub axını" kəmərinin Türkiyənin Qara dəniz sularının dibi ilə çəkilməsi və Samsun-Ceyhan neft boru kəmərinin inşasına dair niyyət protokolları imzalanıbdır. Qaz kəməri Novorossiysk limanından başlamaqla Qara dənizin dibiylə Bolqarıstanın Varna limanına qədər çəkilməlidir. Sonradan da onun bir qolunun (xəttinin) Balkan yarımadasından keçməklə İtaliya və Avstriyaya qədər uzadılması nəzərdə tutulmuşdur. Onun çəkilməsi üçün şərtlərin təminatı, tikintinin başlama vaxtı, marşrutun konkret xətləri və s. məsələlər hələ dəqiqləşdirilməyibdir.

Neft kəmərinə aid anlaşma (niyyət protokolu) ilə Rusiya neftinin tankerlərlə Samsun limanına daşınması və oradan isə boru xəttilə Ceyhana (gündə 1,5 mln.barrel) nəqli, habelə Ceyhanda neftayırma zavodunun tikilməsi razılaşdırılmışdır (Tərəflər kəmərin zavodda neft məhsullarının birgə ticarətinin təşkilini də qərara alıblar). Qara və Aralıq dənizlərini birləşdirməli olan bu neft boru kəməri Rusiyanın Enerji naziri S.Şmatko tərəfindən "bölgədə neft ehtiyatlarının uzunmüddətli balansının təhlili ilə bağlı ciddi işin nəticəsi-neft nəqlinin cazibədar alternativ yolu" kimi səciyyələndirilmişdir.

Enerji məsələləri üzrə ekspertlərin bəziləri (M.Krutixin və b.) isə SC kəmərinin Rusiya üçün sərfəli olmadığını vurğulayır və onun sadəcə Kremlin böyük enerji oyununun (ssenarisinin) bir hissəsi sayırlar. Onların fikrincə, Türkiyə və İtaliya şirkətlərinin inşa edəcəyi SC kəməri ilə əsasən Rusiya nefti deyil, Xəzər boru konsorsiumunun genişləndirilməsindən sonra Qara dənizə çatdırılacaq Qazaxıstan nefti nəql olunacaqdır; Rusiyanın özünün Qara dənizdə neft ixracını artırması gözlənilmir. Əksəriyyət mütəxəssis-analitiklərin qənaətinə görə isə, bu anlaşmalar tərəflərin qarşılıqlı güzəştlərinin, yəni Türkiyənin "Cənub axını"nda iştirakının əvəzində Rusiyanın da SC layihəsinə qoşulmasının nəticəsidir.

Samsun-Ceyhan neft boru kəməri layihəsini Kremlin uzaqgedən (uzunmüddətli) plan və maraqlarının tərkib hissəsi də hesab edirlər. Layihənin həyata keçəcəyi şəraitdə Kremlin Qazaxıstanla Azərbaycanı da nefti Rusiya vasitəsilə Qara dənizə ixraca razı salacağı düşünülür. Bu halda Rusiya "boğazlar problemi"ndən qurtulmuş olacaqdır (Kreml neçə illərdir ki, boğazlardan yan keçilməsinə hesablanan Burqas-Aleksandropolis

layihəsinə dair təklifini gerçəkləşdirə bilmir. SC xəttinin alınması ilə artıq Rusiyanın bu layihəyə ehtiyacı qalmır). Mütəxəssislər reallaşacağı təqdirdə bu neft kəmərinin BTC ilə ciddi rəqabət aparacağını da ehtimal edirlər. Danışıqların nəticəsi olaraq imzalanan digər bir anlaşmaya əsasən Rusiya Türkiyənin inşasını planlaşdırdığı iki AES-in tikintisində də iştirak etməlidir.

Bütövlükdə isə, bu razılaşmaların rəsmiləşdirilməsi və reallaşması Rusiyanın Türkiyəni "Nabucco"da iştirakdan kənarlaşdırmaq planının uğuru, başqa sözlə, böyük "enerji müharibəsi"ndə qələbəsi demək olardı. Və, bu yöndəki israrlı səylərini intensivləşdirən Kreml müvafiq cəhdlərindən birini də 2009-cu ilin oktyabrında edibdir. "Cənub axını"nın digər ucundakı İtaliyanın Baş naziri S.Berluskonu "şəxsi səfərlə" Sankt-Peterburqa gələrək orada rusiyalı həmkarı V.Putinlə və telekonfrans vasitəsilə danışıqlara qatılan R.Ərdoğanla müzakirələr aparmışdır. "Üzbəüz-telekonfrans müzakirələri" diplomatik dairələrin və media təhlillərinin bir qismində "Nabucco" "Cənub axını"nı öldürür" kimi qənaəti yaratmışdır. Tərəflər "Cənub axını"nın reallaşdırılmasının sürətləndirilməsi (hətta "Şimal axını"ndan da tez çəkilməsi) məsələsində həmrəylik göstəriblər.

R.Ərdoğan tezliklə Moskvaya rəsmi səfər edərək az öncə Ankarada razılaşdırılan anlaşmaları rəsmiləşdirəcəyini bildirdi. Analitiklər bunu Türkiyənin **Ankara ilə İrəvan arasındakı "Yol xəritəsi"**ni soyuq qarşılayan Rusiyanın onların yaxınlaşması prosesini əngəlləmədiyinə əmin olması və Kremlin "yaşıl işığı"nın qarşılığı kimi qiymətləndirirlər. Bununla da Rusiya "Nabucco"nun başlıca tranzit ölkəsini alternativ layihəyə cəlb edir. Habelə Azərbaycanla bağladığı qaz müqaviləsi ilə "Nabucco"nu eyni zamanda iki yöndən əngəlləməyə çalışır. N.Nazarbayevin Ankaraya rəsmi səfəri zamanı (X.2009) Qazaxıstanın öz qazını Rusiya vasitəsilə Türkiyə enerji dəhlizindən nəql etmək istəməsini və Samsun-Ceyhan neft kəmərini dəstəkləməsini bildirməsi də Rusiyanın xeyrinə işləyən amillər olmuşdur.

Rusiyanın "Nabucco"nu əngəlləmək tədbirləri sırasında özünü açıq-aşkar biruzə verən iqtisadi təhdid, hərbi ekspansiya və s. də mühüm yer tutur. Buna Ukraynanın bir neçə dəfə qazsızlıqla "boğulması" cəhdləri və 2008-ci ilin yayında Gürcüstana hərbi müdaxilə misal ola bilər. Kreml Gürcüstanın Xəzərin karbohidrogen ehtiyatlarının Avropaya nəqlində davamlı və etibarlı tranzit ölkə statusunda çıxış etməsi ilə əsla razılaşa bilmir. Gürcüstanı zərərsizləşdirməyə çalışan rəsmi Moskva özünün yaratdığı Abxaziya, Cənubi Osetiya, Cavaxetiya "problemləri"ndən faydalanır. Rəsmi Tiflisin Qərbə interqrasiyada ardıcıl mövqeyi, NATO ilə daha sıx əməkdaşlığı (tezliklə ona üzv olmaq istəyi), **üç nəhəng layihədə (BTC, BTƏ, BTQ)** aparıcı tranzit ölkələrdən birinə çevrilməsi, "Nabucco"ya ciddi dəstəyi Gürcüstanı 2008-ci ildə Rusiyanın hərbi təcavüzünə məruz qoydu.

2008-2009-cu illərin qovuşuğundakı qışda Rusiya "bir gülləyə iki dovşan vurmağa", yəni birbaşa Ukraynanı qazsızlıqla "boğmağa", dolayısı yolla da Avropanı "dondurmağa" cəhd göstərdi (Avropaya ixrac edilən Rusiya qazının təxminən 80%-i Ukrayna üzərindən nəql olunur). Rusiya "qızım (Ukrayna) sənə deyirəm, gəlinim (Avropa) sən də eşit" prinsipini əsas tutaraq birinciyə qarşı qaz şantajına ("müharibəsi"nə) başladı, ikincini isə açıqcasına təhdid etdi. Rəsmi Kiyevin müstəqil beynəlxalq siyasətini, xüsusilə də tezliklə NATO üzvü olmaq planını, habelə Gürcüstanı hərtərəfli dəstəkləməsini və s. əsla həzm edə bilməyən Rusiya Ukrayna ilə yeni "qaz müharibəsi"nə başlamaqla, bir növ, onu cəzalandırmaq istədi.

Bunlarla yanaşı Rusiya həm də Ukraynanın "etibarsız tranzit ölkə" imicini yaratmağa və bu yolla da "Şimal və Cənub axınları"nın zəruriliyini əsaslandırmağa çalışır. Ukraynanı oyundankənar vəziyyətə salmaqla "Cənub axını"nın üzləşdiyi problemləri aradan qaldırmaq və onun tranzit ölkələri kimi nəzərdə tutulan Bolqarıstan, Türkiyə, Rumıniya ilə dil tapmağa cəhdlər göstərir. Bu layihənin gerçəkləşməməsi rəsmi Moskva-

nı Avropa yönündəki əsas tranzit ölkədən (Ukraynadan) möhkəm yapışmağa vadar edəcəkdir. Başqa bir ehtimala görə isə Kreml Ukraynanın tranzit dəyərini yaxşı bildiyindən onun boru xətlərini ələ keçirmək məqsədini güdür (Hələ L.Kuçmanın prezidentliyi dönəmində "Qazprom"un iştirakıyla nəhəng qaz nəqli konsorsiumu da yaradılmışdı. Ancaq sonralar bu sahədə elə bir ciddi irəliləyiş (nəticə) olmadı. Bu da Ukraynanın tarnzit xətlərinin köhnəlməsi, sərmayə qoyuluşu problemi və s. irəli gələn "tranzit riski" ilə şərtlənir).

Rusiya Ukraynada vaxtaşırı yaratdığı siyasi sabitsizlik və onun qlobal maliyyə böhranının təsirindən ciddi ziyan çəkməsi şəraitindən faydalanaraq əlavə təzyiq vasitəsi kimi "qaz borcu məsələsi"ni qaldırdı. Ardınca da bunu bəhanə edərək 2009-cu il yanvarın 1-dən etibarən Ukraynaya qaz nəqlini dayandırdı. Habelə "Qazprom"un Ukraynanın tranzit kəmərlərdən qaz oğurlaması iddiasına əsasən Avropaya qaz ixracına ara verdi və bununla da qitənin 15-dək ölkəsində böhranlı vəziyyət yaratdı. **"Qazprom"un 2,4 mlrd. dollarlıq "qaz borcu" iddiası** Ukraynanın "Naftoqaz" şirkəti tərəfindən təkzib edildi. Ukraynaya yeganə qaz idxalçısı sayılan "Rusukurenerqo" şirkətinə (50 faizi "Qazprom"a məxsus) 1 mlrd. 270 mln. borcun olduğu bildirildi. Bu "qaz müharibəsi"nə qədər mavi yanacağın 1000 kubmetrini Ukraynaya 179,5 dollara satan Rusiya həmçinin 2011-ci il yanvarın 1-dən alğı-satqının dünya qiymətləri səviyyəsinə (1 min.m^3=400-450 dollar) qaldırılacağını bəyan etdi. Bu isə 2009-cu ildə Rusiyadan 55 mlrd. m^3 qaz almağı planlaşdıran və illik istehlakı 69-75 mlrd. m^3 olan Ukrayna üçün "ölüm-dirim" məsələsi deməkdir.

Rusiya-Ukrayna (Avropa) "qaz müharibəsi"nin genişlənməsinin daha irimiqyaslı fəsadlar yarada biləcəyi ehtimalı Aİ-ni özünün vasitəçilik səylərini artırmağa vadar etdi. Aİ-nin sədri (Çexiyanın o vaxtkı Baş naziri) M.Topolanekin təqdim etdiyi protokolun Rusiya, Aİ, Çexiya və Ukrayna rəsmiləri tərəfindən imzalanmasıyla gərginlik aradan qaldırıldı. Bu sənədə

əsasən Rusiya qazının Ukrayna ərazisindən tranzitinə üçtərəfli komissiyanın nəzarət edəcəyi, müxtəlif məntəqələrdə qazın təzyiqinin daima yoxlanılacağı, qaz oğurluğunun təkrarlanması şəraitində Avropaya "mavi yanacaq" nəqlinin dayandırılacağı və s. məsələlər razılaşdırıldı (Razılaşmaya nail olunmasında "Qazprom"un Avropaya qaz nəqlinin dayandırılmasından gündə 120 mln. dollar itirməsi və bir sıra siyasi amillər də təsirli rol oynadı). Aİ-nin bu, vasitəçilik missiyası "Cənub axını"nın Avropanı da qane etməsi ilə əlaqələndirilir. Qərbdə bəziləri "Nabucco" ilə "Cənub axını"nı rəqib deyil, bir-birini tamamlayan layihələr kimi görürlər. Türkiyənin də "Cənub axını"na qoşulmasıyla "Nabucco" öldü" kimi yanaşmalar tam yetərli əsaslara malik deyildir. Aİ sadəcə Rusiya qazının Qara dəniz (Türkiyə) üzərindən deyil, Ukraynadan keçməklə Avropaya nəqlini istəyir.

Ukrayna ilə Rusiya arasındakı **"qaz borcu böhranı"**nın aradan qaldırılmasının gedişində və , ümumiyyətlə, "Nabucco" prosesi"ndə Aİ tərəfindən "Qazprom"un da həmin layihəyə cəlb edilməsinə səylər göstərildi. Belə bir şəraitdə "Nabucco" layihəsinin ortaqlarından bəziləri ilə "Qazprom" arasında müəyyən anlaşmaların da əldə edildiyi bəllidir. Məsələn, Avstriyanın "OMV" şirkəti ilə ortaq Avropa qaz birjasının təşkili barədə razılaşma mövcuddur. Həmin anlaşma "Nabucco" ilə nəql olunacaq qazın "Qazprom"la birgə satılması mənasını verir. Həmçinin bunu da nəzərə almaq lazım gəlir ki, "OMV" özünün törəmə şirkəti olan Orat Avropa Qaz Mərkəzinin səhmlərinin 50 faizini "Qazprom"a satıbdır. Həmin şirkətsə "Nabucco" qazının vurulacağı sistemi də işlədir. Beləliklə, "Qazprom" habelə "OMV" ilə ortaq olaraq Baumqarteni Avropanın ən böyük qazpaylama mərkəzi kimi daha da genişləndirmək niyyətindədir. (Buna görə də orada iki yeni anbarın inşası və digər işlərin görülməsi nəzərdə tutulur).

"Qazprom" rəsmilərinin açıqlamaları şirkətin "Nabucco"da iştiraka dəvət olunmasını da təsdiqləyir. Onun sədr müavini A.Medvedyev bildirmişdi ki, "Nabucco"dan fərqli olaraq

"Cənub axını" layihəsi gerçəkləşdirilmə üçün bütün imkanlara (qaza, bazara, texniki şəraitə) malikdir; "bizi də "Nabucco"ya dəvət etmişdilər". Rusiya ("Qazprom") sözdə "Nabucco"ya xor baxmadığını" bildirsə də nəinki ona qoşulmaq fikrinə düşməmişdir, əksinə, bütün imkan və vasitələrlə layihənin gerçəkləşməsini əngəlləməkdə davam edir.

"Nabucco" layihəsinin zəif tərəflərini xeyli qabardan Rusiya kəmərin qazla doldurulması problemini önə çəkərək "İran amili"ndən də möhkəm yapışmışdır. Kremlin Aİ-dəki daimi nümayəndəsi V.Çijovun 2009-cu ilin martındankı açıqlamalarına görə, "bu layihənin reallaşması İranın iştirakı olmadan mümkün deyil. Nə Azərbaycan, nə də Türkmənistan qazı "Nabucco" kəmərini doldurmayacaq. Odur ki, Qərb ya İranı bombalamaq, ya da onun qazını almaq barədə bir qərara gəlməlidir" (Yeri gəlmişkən, "Nabucco" ilə "Cənub axını"nın iqtisadi-texniki göstəricilər baxımından müqayisəsi ikincinin daha çox zəif tərəflərə malik olduğunu təsdiqləyir. Belə ki, "Nabucco"nun icra sürəti digər layihəninkindən üstündür. 3300 km-lik "Nabucco" kəmərinin tikintisinə ilkin hesablamalara görə 7 mlrd. 900 mln. avro tələb olunur. "Cənub axını"nın inşası üçünsə minimum 10 mlrd. avro lazım gələcəkdir və onun 1000 km-ə yaxın hissəsi dənizin iki min metrlik dərinliyindən keçməlidir).

Ancaq hazırkı proseslərin gedişindən göründüyü kimi, **Qərb (Aİ) İranla siyasi dialoqa və enerji (qaz) əməkdaşlığına daha meyllidir.** Bu cəhətdən İranın da gələcəkdə "Nabucco"ya qoşulmasına ümidlər vardır. Son vaxtlar Aİ-nin İranla "Nabucco" ilə bağlı danışıqlar apardığı aşkara çıxıbdır. "Tehran Times"in İranın "Milli Qaz İxrac Şirkəti"nə istinadən verdiyi məlumata görə, Avropanın bəzi adları açıqlanmayan kompaniyaları Aİ adından rəsmi Tehranla müzakirələr açıblar. Burada məqsəd İran qazının "Nabucco" ilə nəql imkanlarını öyrənməkdən ibarətdir. Bunun da "Nabucco"nun təchizatçıları və tranziti olaraq düşünülən dövlətlərlə (Azərbaycan, İraq, Türkmənistan və Türkiyə ilə) kəmərə dair qəti razılıqların hələlik əldə edilməməsindən irəli gəldiyi bildirilir. İİR rəsmilərinin açıqlamalarında bu fikir bir daha vurğulanır ki, "Nabucco" kəməri İran qazı olmadan işləyə bilməz və buna görə də bəzi Avropa şirkətləri ilə onun arasında qeyri-formal danışıqlara başlanılıbdır.

Danışıqlar əvvəllər İranın "Nabucco"ya qoşulmasına qismən razı olmayan Aİ və buna qarşı qətiyyətlə çıxan ABŞ-ın mövqelərindəki dəyişiklik məsələsini gündəmə gətiribdir (Ağ Evin mövqeyi əsasən dövlətlərarası uzunmüddətli kəskin qarşıdurma və son vaxtlar daha çox hallandırılan İranın "nüvə siyasəti" ilə əlaqədardır). "Nabucco" ilə bağlı ABŞ ilə İİR arada çoxdan müəyyən gizli təmasların olduğu da aydınlaşıbdır. (Təmasların İranın dini rəhbəri, ayətullah Ə.Xamneyinin oğlu ilə Türkiyənin araçılığıyla Türk-Erməni Biznes Şurasının sədri, ABŞ vətəndaşı olan türkiyəli erməni iş adamı K.Soyakın əlaqələriylə qurulduğu bildirilir). Habelə ABŞ-ın Türkiyə-İran enerji sövdələşməsinə (27.X.2009) də "xeyir-dua" verdiyi məlumdur. Ekspertlərin qənaətinə görə, Aİ ilə İİR-in "Nabucco" barədə razılığa gəlmələri İran üçün öz qazını Türkiyə vasitəsilə Avropaya nəql etməkdən ötrü nadir imkan qazancı ola bilər. Azərbaycan üçünsə belə bir hal regionda gedən uzunmüddətli, mürəkkəb "enerji (neft-qaz) davası"nda mövqelərin itirilməsi demək olardı. (Yeri gəlmişkən, AR-in öz qazının nəqli marşrutları sırasında İranı da görməsini elan etməsi Aİ və ABŞ-a özünəməxsus mesaj kimi də qiymətləndirilir).

Rəsmi Moskva Ukraynanı (Avropanı) **Odessa-Brodı neft kəməri** ilə bağlı da təhdid edir. O, kəmərin əksistiqamətdə işə salınmasına qarşı çıxır və adıçəkilən layihənin reallaşdırılacağı halda Avropaya qazla yanaşı, neft də satmayacağını bildirir. Bizim ölkənin neftinin Şərqi Avropaya nəqlini nəzərdə tutan bu layihə (kəmər) barədə artıq üçtərəfli (Aİ-Ukrayna-Azərbaycan) müzakirələr aparılmaqda və müvafiq tədbirlər görülməkdədir. Ukrayna prezidenti kəmərin əksistiqamətdə işə salınmasına dair fərman vermişdir. Azərbaycan isə kəmərə bir neçə yüz min barrel texnoloji neft vurmuşdur. Hazırda Rusiya neftini

nəql edən (Qara dəniz limanlarına axıdan) bu kəmərin istiqamətinin dəyişdirilməsinə dair layihənin texniki-iqtisadi əsaslandırılması da təsdiqlənibdir (24.IV.2009). Gerçəkləşəcəyi təqdirdə Gürcüstanın Supsa limanından tankerlərlə daşınacaq Azərbaycan və Qazaxıstan neftini Avropaya nəql etməli olan həmin kəmərin Polşa və Litvaya uzadılması, yəni Odessa-Brodı-Plotsk-Qdansk marşrutu edilməsi də planlaşdırılır. Bu məqsədlə artıq "Sarmatiya" adlı müştərək şirkət də yaradılmışdır (Odessa-Brodı ilə hələlik ildə 9 mln.ton neftin nəqli nəzərdə tutulur).

Odessa-Brodı kəmərinə dair yeni layihənin önlənməsi üçün "Rusiya-Aİ: Energetika üzrə tərəfdaşlıq" Daimi Şurasının iclasında (V.2009) Kreml təmsilçiləri tərəfindən, az öncə qeyd edilən, məlum hədələr səsləndirilmişdi. Sözügedən layihənin Rusiyanın maraqlarına birbaşa zidd olduğunu bildirən Kreml nümayəndəsi təhdid ahəngli belə bir açıqlama vermişdi: "Odessa-Brodı kəmərinin əks istiqamətdə işlədilməsi Rusiya neftinin Slovakiya, Çexiya və Macarıstanın neftayırma zavodlarına nəqlinin yolunun bağlanmasını istəmək deməkdir. Bu zaman Rusiyadan Avropaya enerji daşıyıcılarının nəqlində problemlər qaçılmaz olacaqdır. Rusiya üçünsə həmin kəmərlə nəql olunan 10 mln.ton neftin başqa istiqamətə yönəldilməsi problem deyil" (Ukraynada 2010-cu ilin əvvəlində keçirilən seçkilərin nəticəsi, yəni **"Rusiyanın adamı"nın prezident olması** Odessa-Brodı kəmərinin yeni layihəsinə və hətta "Cənub axını"na ehtiyac qalmayacağına dair qənaətlərə əsas vermişdir).

Rusiya Baş nazirinin müavini İ.Seçinsə A.Piebalqisə "əgər Azərbaycan nefti Odessa-Brodı kəməri ilə nəql olunsa, onda Avropa qazsız və neftsiz qalaraq fəlakətlə üzləşəcəkdir" xəbərdarlığını etmişdi. Diplomatik dairələrdə yayılan məlumatlara görə, Rusiya Azərbaycanı bu layihədə iştirakdan yayındırmağa yönəlik tədbirlərə əl atıbdır. Ekspert təhlilləri Azərbaycanın son vaxtlarda Rusiya vasitəsilə neft nəqlini artırmasının da bu kimi təzyiqlərdən irəli gəldiyi qənaətindədir. Belə ki, Azərbaycanın Türkiyə (BTC) vasitəsilə nəql etdiyi neftin həc-

minin azaldılması və, əksinə, Bakı-Novorossiysk kəməri ilə ixracınsa artdığı məlum olmuşdur. Açıqlanan rəsmi statistikaya BTC işə salındıqdan sonra "Şimal marşrutu" ilə neft ixracı azalsa da, 2008-ci ildən başlayaraq gözəçarpan artım müşahidə edilməkdədir. Bunun da AR-in neftin nəqlinin həcmini artırmaq barədə Rusiya qarşısındakı öhdəliyi ilə əlaqədar olduğu bildirilir ("Şimal marşrutu" ilə ixracın tranzit xətləri BTC-ninkindən xeyli çoxdur).

"BOTAŞ"-ın neftin qiymətinin BTC kəmərinin səmərəliliyinə təsir etməsi ilə bağlı iddiası da Azərbaycan tərəfindən qəbul olunmadı. AR-in Energetika və sənaye naziri N.Əliyev bildirdi ki, Türkiyə və Gürcüstan tranzit haqqı alır, neftin bir barrelinə həmişə müvafiq ödəniş var və o da qiymətdən asılı olmayaraq icra edilir. Bu kontekstdə Türkiyənin BTC kəmərindən gələn qazancından narazılığına dair də məlumatlar dolaşmaqdadır. Türkiyə tərəfinin şərhlərinə görə, bu ölkənin BTC-dən əldə edilən qazancının həcmini azalıb və o, maliyyə itkisi ilə üzləşibdir. BTC-nin Türkiyədən keçən hissəsinin operatoru "BOTAŞ"ın hökumətə təqdim etdiyi hesabatda qeyd edilir ki, Türkiyə 3 il ərzində 900 mln. dollar mənfəət əldə etmək əvəzinə 210 mln. dollar zərərə düşmüşdür. Bunun səbəbi isə sabit tranzit haqqında görülür. Yəni neftin qiymətindən asılı olmayaraq bir barrel üçün 35 sent tranzit haqqı və 20 sent vergi alındığı, qazanılanın da texniki xərclərə (nasosların işləməsi və s.) getdiyi bildirilir (Bütün bunlara görə də, ölkə mətbuatı **"Əsrin müqaviləsi"nin Türkiyə üçün "Əsrin xətası"na çevrildiyini** yazır). Həmin məlumatlar kəmərin işə salındığı (13.VII.2006) vaxtdan 2009-cu il mayın ortalarınadək tranzit tariflərinin hesabına Türkiyə xəzinəsinə 382 mln. dolların daxil olduğundan xəbər verir (Onun da 7 mln. dollarının mənfəət olduğu bildirilir). Bununla razılaşmayan Azərbaycan ekspertləri, bir yandan, bu rəqəmləri dəqiqləşdirilməmiş məlumatlar sayırlar. Digər tərəfdən də, hətta bu halda belə onların kifayət qədər sanballı göstəricilər olduğunu bildirirlər. İlkin hesablamalara görə, 30

ildə "Azəri", "Çıraq" və "Günəşli" yataqlarından 200 mlrd. manat gəlir əldə olunması planlaşdırılır. Bu da ildə 200-250 mln. man. gəlir deməkdir. Buna əsasən də, mütəxəssislər BTC neft borusunu regionda ən çox qazancla işləyən kəmər hesab edirlər.

"Nabucco"nun həyata keçirilməsinin ona yarada biləcəyi problem-fəsadları (Avropaya qarşı istifadə etdiyi ən güclü təzyiq-təhdid vasitələrinin birindən mərhumolma; Azərbaycan, Türkmənistan və digər MDB ölkələrinin Kremlin təsir dairəsindən birdəfəlik çıxması; enerji (qaz) inhisarçısı statusunu itirmə) yaxşı görən və nəzərə alan Rusiya son vaxtlarda daha təcili və təsirli tədbirlər görməyə başlamışdır. Onlardan ən başlıcalarını Azərbaycanla qaz alğı-satqısına dair təxminən dördillik uzunuzadı və son birillik intensiv müzakirələrin nəticəsində 2009-cu ildə imzalanan sənədlər təşkil edir: "Azərbaycan qazının Rusiyaya ixracını nəzərdə tutan qarşılıqlı anlaşma Memorandumu" (27.III.2009) və "Azərbaycan qazının alqı-satqısı ilə bağlı əsas prinsiplər haqqında saziş"(20.VI.2009).

Rusiya prezidentinin AR-ə işgüzar səfəri (blits-turnesi) zamanı bağlanan bu müqaviləyə əsasən "Qazprom" şirkəti "Şahdəniz" yatağının ikinci fazasından potensial qaz alıcıları siyahısına salınmışdır. Tanınmış iqtisadçı-ekspert Q.İbadoğlunun təhlillərinə görə, həmin saziş kommersiyadan çox, siyasi xarakterli anlaşmadır. Onun fikrincə, bu anlaşma "Şahdəniz"in ikinci fazasının mənimsənilməsi prosesinə "giriş müqaviləsi"dir və daha uzunmüddətli strateji enerji əməkdaşlığı üçün baza sənədi ola bilər. Ekspertin belə bir müddəası da diqqətçəkicidir: bu saziş Rusiyanın Azərbaycan qazını nəql etməyə çalışan kəmərlərin (layihələrin) sıradan çıxarılmasına hesablanan planıdır.

Sonuncu fikrin əsaslandırılmasına dair bəzi dəlillər mövcuddur: Azərbaycanda 2009-cu ildə 27 mlrd. kubmetr qazın istehsalı və onun 7 mlrd.m^3-nin ixracı planlaşdırılmışdı. AR-in ikinci böyük enerji layihəsi sayılan "Şahdəniz" yatağının işlənməsi prosesində qaz ixracının həcminin 30-35 mlrd. kubmetrə

çatması da gözlənilir. Bu ilki nəql həcmindən 4-5 dəfə çox ola biləcək gələcək qaz ixracının illik ötürmə gücü 25 mlrd. m^3 olan Bakı-Ərzurumla reallaşdırılması mümkün deyil. Belə bir şəraitdə də, ayrı-ayrılıqda hərəsi 10 mlrd.m^3 Azərbaycan qazını almağa və Türkiyə vasitəsilə ("Nabucco", "Transadriatik", Türkiyə-Yunanıstan-İtaliya kəmərləri ilə) nəql etməyə yönəlik imanlar (layihələr) vacib bilinir. Amma Rusiya ilə bağlanan bu qaz müqaviləsi onları oyundankənar duruma salır və sıradan çıxarmış olur.

Müqavilə ilə bağlı bir sıra müxtəlifyönlü dəyərləndirmələr də var. Rusiya prezidenti həmin sazişin imzalanması ilə nəticələnən səfərini "qısamüddətli, ancaq sıxgündəmli, tərəfləri əməkdaşlığın yeni formatına çıxara bilən, dövlətlərarası münasibətlərin strateji xarakterindən xəbər verən" missiya kimi səciyyələndirmişdir. "Qazprom"un icraçı direktoru A.Millerlə "ARDNŞ" prezidenti R.Abdullayevin imzaladıqları qaz alğı-satqısı sazişi Xəzərin enerji ehtiyatlarına nəzarət uğrundakı geosiyasi mübarizənin hazırkı dönəmində Rusiyanın qələbəsi təki qiymətləndirilir.

Həmin müqaviləyə əsasən Rusiya 2010-cu ilin yanvarından başlayaraq 500 mln.m^3 Azərbaycan qazını almaq imkanı qazandı. Qazın 1000 kubmetrinin 350 dollara, yəni A.Millerin ifadəsi ilə desək, "Azərbaycan üçün ən sərfəli qiymət dəhlizi formulu"na əsasən alınıb-satılması razılaşdırılmışdır. Qarşılıqlı razılığa əsasən "Qazprom" ***Orta Asiya respublikalarından "mavi yanacaq" alınmasına dair sxemi*** Azərbaycanla olan alğı-satqıya da tətbiq edəcəkdir. Yəni bu zaman qazın qiyməti neftin dünya bazarındakı qiymətlərindən asılı olaraq müəyyənləşdiriləcəkdir. Daha konkret isə, neftin qiymətinin 2010-cu ildə də əvvəlki ildəki kimi qalacağı təqdirdə qazın 1000 kubmetrinə 220-230 dollar ödənilmiş olacaqdır.

Qiymət formulasına bu cür yanaşma düzgün hesab olunur. Çünki hazırda dünya bazar qiyməti yetərincə həssas (dəyişkən) olduğundan bəribaşdan hansısa sabit qiymət müəy-

yənləşdirmək mümkünsüzdür (Qiymətlərin rüblük olaraq təyin edilməsi ilə bağlı təkliflər də vardır). Azərbaycanda qaz istehsalı artdığı halda, neft və onun məhsullarının sürətli qiymətdəyişməsi və s. üzündən bir çox dövlətlər hətta "mavi yanacaq" istehsalını azaldırlar. Məsələn, elə Rusiyada 2008-ci ildə 550 mlrd.m^3 qaz istehsal edildiyi halda, 2009-cu ildə onun həcminin 500 (hətta 450) mlrd. kubmetrə qədər azaldılması gözlənilir. (Sözgəlişi, qazın Rusiyaya hazırda Türkiyəyə tətbiq edilən "qiymət dəhlizi"nə uyğun, yəni min kubmetrinin 120 dollara satılması da ehtimal olunur).

Bu müqavilə əsasında alınacaq qaz mövcud Hacıqabul-Mozdok boru kəməri ilə (onunla ildə ən azı 5 mlrd. kubmetrlik nəql mümkündür) Rusiyaya ixrac ediləcəkdir. Rusiya həmin qazı ölkənin cənubunun (Dağıstan və s.) tələbatına sərf etməklə Avropaya nəql üçün əlavə "mavi yanacaq" qazanacaqdır. Qarşılıqlı sərfəli iqtisadi şərtlərli və ikitərəfli xarakterli bu müqavilə Rusiyaya ixrac olunacaq qazın "ARDNŞ" vasitəsilə tədarük ediləcəyini nəzərdə tutur. Həmin qazsa, işlənilməsinin 2010-cu ildə başa çatdırılacağı planlaşdırılan "Şahdəniz-1" və gələcəkdə isə "Şahdəniz-2", habelə digər yataqlardan hasil ediləcəkdir.

Müqavilənin şərtləri "Qazprom"un Azərbaycandan alacağı qazın həcminin artırılmasını da istisna etmir. Məlumdur ki, "Qazprom" hələ müzakirələrin gedişində bir sıra təkliflər irəli sürmüşdü. O, "Şahdəniz" yatağının ikinci fazasından hasil olunacaq qazın hamısını (ildə 14-16 mlrd. m^3) almaq istəmişdi. A.Millerin açıqlamasından da göründüyü kimi, enerji daşıyıcılarının nəqlində "çoxşaxəlilik variant"na üstünlük verən AR rəhbərliyi qazın hamısının Rusiyaya satılması təklifi ilə razılaşmamışdır.

Nəticədə bir qədər sonra **"ARDNŞ" ilə "Qazprom" arasındakı ilk anlaşma memorandumunun prinsipləri** və habelə iki ölkəni birləşdirən qaz kəmərləri infrastrukturunun həcmi nəzərə alınmaqla ilkin mərhələdə ildə 1 mlrd. kubmetrlik alğı-

satqını ehtiva edən razılaşma da əldə olunmuşdur (Sözgəlişi, prezident İ.Əliyevin açıqlamalarına görə, isbat olunmuş qaz ehtiyatları 2 trilyon kubmetrə çatan AR yaxın gələcəkdə müvafiq hasilatı ildə 27-30 mlrd. m^3-ə qədər artırmaq niyyətindədir). Tanınmış neft-qaz mütəxəssislərinin fikrincə, 500 mln. və ya 1 mlrd.m^3 dünyanın nəhəng inhisarçılarından olan "Qazprom" üçün əslində "dənizdə bir damla"dır və beynəlxalq enerji biznesində çox da böyük həcm-məbləğ deyildir.

Amma Rusiyanın bununla kifayətlənməyəcəyi də şübhə doğurmur. Çünki əkshalda 4 illik israrlı müzakirələrin, Azərbaycana edilən təzyiqlərin məntiqi (mənası) başa düşülmür. Əslində alt qatda "Qazprom"un Avropanın qaz təminatındakı inhisarçı mövqeni saxlamaqda Azərbaycan qazından yararlanmaq məqsədi dayanır. Artıq ən son razılaşmalarla həcmdə məhdudiyyətin olmaması da mümkün sayılıbdır. Yəni hasilat artdıqca, ixracın həcmi də çoxala bilər. Belə bir qərarı isə rəsmi Bakının "geopolitik maraqlarının ifadəsi" sayan yanaşmalar da mövcuddur.

Bir sıra ekspert və politoloqlar həm də belə hesab edirlər ki, qaz alğı-satqı müqaviləsi Rusiyadan ötrü daha çox geosiyasi məna və önəm daşıyır. Burada Kremlin başlıca məqsədi "Nabucco"nu tam əngəlləmək, yəni birdəfəlik gün-dəmdən çıxarmaqdır. "East European Gas Analysis" mərkəzinin direktoru M.Korçemkinin fikrincə, Azərbaycan qazı Rusiya istehlakçıları üçün çox bahalıdır və onu ancaq reeksporta yönəltmək olar; "Qazprom" həmin anlaşma ilə məqsədyönlü ziyana gedir və bu işdə məqsədi "Cənub axını" layihəsinə rəqib olaraq gördüyü "Nabucco"nu sıradan çıxartmaqdan ibarətdir. Buna görə də "Qazprom" Azərbaycanla müqaviləyə yalnız qiymət baxımından yanaşmır və burada ən vacib məsələ onun dünya qaz bazarındakı inhisarçı mövqeyini saxlamağa müvəffəq olmasıdır.

Aİ üzvü olan dövlətlərin "mavi yanacaq"a tələbatının 46 faizini (Mərkəzi və Şərqi Avropa ölkələrindən bəzilərininsə hətta 100%-ni) ödəyən "Qazprom", Qərbin elmi mərkəzlərinin

qənaətincə," dünyaya qazla hökm etmək istəyir". ABŞ-da nəşr edilən nüfuzlu "The Wall Stree Journal"ın analitik yazılarından birində belə bir fakt (fikir) vurğulanır: "Qazprom" Nigeriyanın qaz şirkəti ilə 8 mlrd.500 mln. dollarlıq müştərək müəssisə yaratmaq barədə müqavilə imzalamaqla (VI.2009) Avropaya "mavi yanacaq" daşınması yollarının hamısını bağlamağa çalışır. Həmin məqalədə Rusiya-Azərbaycan qaz anlaşmasında "Qazprom"un məqsədinin heç də "qazanc götürmək deyil, "Nabucco"ya badalaq vurmaq"dan ibarət olduğu yazılır; əksər səhmləri dövlətin əlində olan, qlobal maliyyə böhranı ucbatından anbarlarında xeyli iri həcmdə qazı qalan şirkət siyasi təşkilatdır və o, Rusiyanın geostrateji mövqelərinin müxtəlif regionlarda, xüsusilə də Cənubi Qafqazda möhkəmlənməsinə xidmət edir (Onun fəaliyyətini və dəyərini İngiltərənin 1600-1858-ci illərdə mövcud olan məşhur **"Ost-Hind" şirkəti ilə müqayisə etmək olar**).

Digər bir elmi qurumun ("Heritağe Fondu"nun) Rusiya, Avrasiya və Beynəlxalq Enerji Təhlükəsizliyi üzrə Mərkəzinin eksperti A.Koen "Qazprom"-"ARDNŞ" qaz anlaşmasını "Nabucco" ilə "Cənub axını"nın qarşıdurmasında ikincinin uğuru təki qiymətləndiribdir. Ekspert bunu həm də birinciyə dair razılaşmanın əldə olunmasının çətinliyi və Azərbaycanın Türkiyəyə bir siqnalı kimi səciyyələndiribdir. Müqavilə habelə Rusiyanın Avropaya növbəti hədəsi kimi də nəzərdən keçirilir. Bunu "Qazprom"un icraçı direktoru A.Millerin anlaşmanın ərsəyə gəldiyi dövrə təsadüf edən bir açıqlaması da təsdiqləyir: "Rusiyanı kənara qoyaraq birbaşa Orta Asiya və ya Yaxın Şərqdən qaz almaq etibarlı yol deyil. Çünki bu regionlarda siyasi sabitsizlik mövcuddur və eyni zamanda qaz təchizatında onların təcrübəsi azdır".

Bütövlükdə isə, **Rusiya-Azərbaycan qaz anlaşması ilə əlaqədar olaraq aşağıdakı qənaətlərin** nəzərə alınması lazım gəlir:

1) Rusiya ("Qazprom") Azərbaycanla ilkin olaraq, yəni

digərlərindən əvvəl müqavilə bağlamışdır. Bununla da rəsmi Moskva, bir yandan, "Nabucco"-"Cənub axını" yarışında irəli çıxmışdır, digər tərəfdən də, "Şahdəniz-2" yatağından hasil olunacaq qazın alıcıları sırasında yer tutmaq imkanı qazanmışdır. Rusiya prezidentinin Bakıya blits-turnesi (29.VI.2009) zamanı dövlət başçıları tərəfindən Xəzərin hüquqi statusu barədə Birgə Bəyannamənin imzalanması da nəzərdən qaçırılmamalıdır.

2) D.Medvedyevdən az öncə Bakını tərk edən İsrail prezidenti Ş.Peresin də "Şahdəniz-2" yatağından "qaz payı istəyi" Azərbaycanın karbohidrogen ehtiyatlarının nəqli məsələsinə yeni (əlavə) çalarlar gətirmişdir.

3) Azərbaycanın ucuz qazının əldənçıxma ehtimalı Türkiyəni xeyli rahatsız etmişdir. Adıçəkilən dövlətin Enerji naziri Y.Taner belə bir yanaşma ilə razılaşmasa da, Türkiyə parlamentinin o vaxtkı sədri K.Toptan mediaya açıqlamasında bunu üstüörtülü də olsa etiraf etmişdir. Beynəlxalq qaz siyasətində "Qazprom"-"ARDNŞ" anlaşması ilə bağlı yaranan yeni vəziyyət rəsmi Ankaranı "Nabucco" layihəsinə aid müqavilənin bağlanmasının sürətləndirilməsi yönündəki səylərini artırmağa vadar etmişdir.

4) Avropa (Aİ) "Nabucco" kəmərinin taleyi ilə bağlı daha ciddi şəkildə əndişələnmişdir. Aİ və "Nabucco"nun gerçəkləşməsində ən çox maraqlı olan dövlətlər də kəmərin inşasına dair sazişin imzalanmasının sürətləndirilməsi üçün intensiv tədbirlər görürlər. Habelə Azərbaycan qazının rekord qiymətlə (1000 kubmetri 450 dollara) alınmasına dair əvvəlki təkliflər yenidən səslənməkdədir. Çünki Azərbaycanın öz qazını qitəyə "Qazprom" vasitəsilə satması Avropa üçün əsla arzuolunan deyil. Rusiya-Azərbaycan qaz anlaşması "Nabucco"nun reallaşmasına çox ciddi zərbədir. Hesablamalara görə, "Nabucco"ya lazım olan qazın 1/3-ni ilkin mərhələdə Azərbaycan verməli idi. Yeni vəziyyət "Nabucco"kəmərini doldurmağa qaz olacaqmı?" kimi taleyüklü sualı və ona cavabı kəskinliyi ilə ortaya qoymuşdur.

5) ARDNŞ-in "Qazprom"la qaz anlaşması Azərbaycan

üçün, bəzi ekspertlər tərəfindən, "rusiyameyllilik və AR-i "Nabucco"dan kənarda saxlayan" akt kimi də dəyərləndirilir. Digər mütəxəssis təhlillərinə görə isə, məlum müqavilə belə bir anlaşmanı xeyli yubadan Azərbaycanın balanslaşdırılmış siyasəti olaraq da səciyyələndirilə bilər (Yeri gəlmişkən, Rusiya ilə qaz alğı-satqısına dair danışıqlar prosesində Azərbaycan maraqlı bir təkliflə də çıxış etmişdir. Həmin təklif Azərbaycanın Rusiyanın əvəzindən İrana qaz verməsini və əvəzində isə "Qazprom"un eyni həcmdə qazı Avropada, ya da Türkiyədə AR-ə verməsini nəzərdə tuturdu. Bu variant tərəflər üçün sərfəli sayılırdı. Çünki bu zaman qazın nəqlinə lazım gələn tranzit haqqı ödənilmirdi. Azərbaycan həm də bir-birilə qonşu ölkələrin (özünün, Gürcüstanın, Türkiyənin, Rusiyanın, İranın) qaz infrastrukturundan birgə istifadəyə, yəni kəmərlərin birləşdirilməsinə normal və iqtisadi faydalı proses kimi yanaşır. "ARDNŞ"-in bu təklifindən beynəlxalq təcrübədə artıq çoxdan faydalanılır. Məsələn, hazırda elə Rusiya ilə İran arasında qaz alğı-satqısına dair belə bir anlaşma var. "Qazprom" İranın şimal əyalətlərini qazla təmin etməlidir, İransa eyni həcmdə qazı Fars körfəzində Rusiyaya verməlidir).

Ancaq Azərbaycanın bu təklifi "Qazprom"un "Mərhələ-2" layihəsinin, yəni "Şahdəniz-2" yatağının bütün qazını almaq istəyində israrı üzündən reallaşmadı. Bəzi iqtisadçı-ekspertlərə və politoloqlara görə, Rusiyaya qaz satmaq Azərbaycan üçün də yalnız iqtisadi deyil, habelə siyasi əhəmiyyət kəsb edir. Burada da Kremlin "Dağlıq Qarabağ problemi"nin ədalətli həllinə təsir imkanlarından yararlanma nəzərdə tutulur. Məlum qaz anlaşmasının iqtisadi səmərəsi də əsla danılmazdır. Yəni yaxın illərdə 10 mlrd.m^3 həcmində qazın qaneedici qiymətlə Rusiyaya satılması ehtimal olunur. (Bəzi ekspertlər ölkə daxilində əhaliyə qazın 1000 kubmetrinin 100 manata satılmasına başlanılmasını xaricə nəql ediləcək "mavi yanacaq"ın həcminin artırılması istəyi ilə də əlaqələndirirlər).

Rusiya ilə qaz anlaşması Azərbaycanın "Nabucco"dan

birdəfəlik imtinası anlamına gəlmir. Bunu İ.Əliyevin Rusiyanın RTR kanalının "Vesti subbota" proqramına verdiyi müsahibədə (25.VI.2009) açıqlanan fikirlərdən də aydın şəkildə görmək olur: "Əslində "Nabucco" ideyası ortaya çıxanda Azərbaycan təminatçı yox, tranzit ölkələrdən biri kimi nəzərdən keçirilirdi. Lakin müəyyən səbəblər üzündən əvvəlcədən nəzərdə tutulan təchizatçılarla müqavilə bağlamaq mümkün olmadı. Bununla əlaqədar olaraq da Azərbaycan artıq təkcə tranzit deyil, iri həcmdə qaz hasil edən təchizatçı ölkələrdən birinə çevrildi. Biz, öz qaz potensialımızı tam reallaşdırmaqda qərarlıyıq. Ehtiyatlar böyükdür, öz infrastrukturumuzu yaratmışıq, yeni qaz kəmərlərinin tikintisinə ehtiyac görmürük. Lakin əlavə tranzit imkanları yaranarsa, Azərbaycan bundan uduzmur. Əgər "Nabucco" kəməri tikilsə və bizə kommersiya baxımından yaxşı şərtlər təklif olunsa, bundan, şübhəsiz ki, istifadə edəcəyik. Ancaq bu prosesin təşəbbüskarı və maliyyəçisi kimi çıxış etmək niyyətimiz yoxdur. Rusiya ilə imzalanan müqavilə Azərbaycan üçün qaz nəqlində tam diversifikasiyanı təmin etmək imkanıdır. **Qərb bazarı kimi Rusiya da Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir".**

Gürcüstan dövlətinin də "Nabucco" layihəsinin reallaşması ilə bağlı maraqları və mövqeyi elmi təhlili lazım gələn məsələlərdəndir. Məlumdur ki, Gürcüstan Azərbaycanın karbohidrogen ehtiyatlarının Avropaya nəqlində tranzit ölkə rolunu oynayır. Bu, qonşu dövlət "Nabucco"nun təhlükəsizliyinə təminat məsələsi baxımından da diqqət mərkəzindədir. Həmin kəmərin qəti əleyhdarı olan Rusiyanın Gürcüstanı birbaşa hədəfə alması (ona 2008-ci ildəki hərbi təcavüz, ölkədə siyasi sabitliyin pozulması səyləri, millətlərarası ədavətin qızışdırılması və s.) layihənin gerçəkləşməsinə ciddi problemlər yaratmışdır.

Bütün bunlara baxmayaraq Qərblə hərtərəfli əməkdaşlıqda daha da qətiyyətli olan Gürcüstanın hazırkı rəhbərliyi **(prezident M.Saakaşvili) "Nabucco"ya dair Praqa sammitinin bəyannaməsini imzalamışdır**. Bununla da Gürcüstanın

Avropaya qaz nəqli işində əsas tranzit ölkəyə çevrilməsi təkrarən təsdiqlənmişdir. Öz növbəsində "Nabucco"nun başlıca təşəbbüskar və müdafiəçilərindən olan ABŞ Gürcüstanın bu kəmər üçün əsas tranzit ölkəyə çevrilməsi ilə əsla razılaşmayan Rusiyanın zərərsizləşdirilməsinə çalışır. Prezident B.Obamanın Moskvaya rəsmi səfəri zamanı (VII.2009) Gürcüstanın mövqeyi dəstəklənmişdir. Çünki kəmərin keçəcəyi bu ölkədə vaxtaşırı təkrarlanan qeyri-stabil durum layihənin işləməsinin risk dərəcəsini xeyli artırır. Belə bir hal arada *hətta kəmərin Gürcüstanın əvəzinə Ermənistandan keçməsi məsələsini* də gündəmə gətirmişdi. Nəticə etibarı ilə bu variantın reallaşması da yenə Rusiyadan asılı olduğundan mümkünsüz sayıldı.

Beləliklə, hələ də **"ac və silahlı"** olan, habelə beynəlxalq maliyyə böhranı ucbatından daha da aqressivləşən Rusiyanın Gürcüstanı təhdid etməsinin dəf olunması "Nabucco"nun həyata keçməsinin mühüm şərtlərindən biri anlamına gəlir. Bu işdə Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığı, enerji təhlükəsizliyi və s. həlledici rolu vardır. Bakıdan Ceyhanadək uzanan neft (BTC), Ərzuruma qədər olan qaz (BTƏ) kəmərlərinin və Qarsa çəkilən dəmir yolunun (BTQ) Gürcüstandan-Tiflisdən keçməsi "Nabucco" layihəsi üzrə əməkdaşlıq üçün də möhkəm özül sayıla bilər.

İran da geosiyasi səviyyəli "beynəlxalq qaz oyunun"da, başqa sözlə, "Nabucco" dilemması və pünhanları dairəsində olan dövlətlərdəndir. Belə ki, "Nabucco" layihəsi ideyasının müəllifinin (Aİ-nin) planlarına görə, bu kəmərlə birinci mərhələdə Azərbaycan və Türkmənistan, ikincidə — Şimali İraq, üçüncüdə isə — hətta Rusiya və İran qazı da Avropaya nəql olunmalıdır. Aİ-nin Vahid Xarici və Təhlükəsizlik siyasəti üzrə komissarı X.Solananın fikrincə, İran "Nabucco" layihəsi üçün fundamental əhəmiyyət kəsb edir. Buna görə də "Nabucco"nun əksər tərəfdarları İranın layihənin reallaşmasına qatılacağına ümidlidirlər və bu sahədə ciddi səylər göstərirlər. Bu məsələdə Aİ ilə ABŞ arasında müəyyən fikir müxtəlifliklər olsa da Av-

ropa İranla hərtərəfli dialoqda , xüsusilə də qaz alğı-satqısına dair əməkdaşlıqda çox maraqlıdır.

Bununla bağlı belə bir məqam da olduqca düşündürücüdür: nüfuzlu "Financial Times" qəzetinin bir analitik yazısında (II.2009) **Xəzər qazının Avropaya nəqlində ("Nabucco"nun gerçəkləşməsində) əsas siyasi maneə kimi İran deyil, Rusiya və Türkiyə görülür**. "Avropa Xəzər qaz kəmərinə nəzarəti itirir" başlıqlı məqalədə bu da vurğulanır ki, Aİ tez hərəkətə keçməsə — "Nabucco" vasitəsi ilə Azərbaycan qazını almağa tələsməsə çox itirəcəkdir. Çox maraqlıdır ki, "Nabucco"nun qəti əleyhdarı kimi dəyərləndirilən Rusiya (onun Aİ-dəki təmsilçisi V.Çijov) da bu layihənin İranın iştirakı olmadan əsla baş tutmayacağı qənaətindədir.

Öz növbəsində İran da son vaxtlarda "Nabucco"nun həyata keçməsində iştiraka biganə olmadığını biruzə verir. Analitiklər bunu İranın iqtisadi maraqlarının təminatıyla yanaşı, onun "nüvə siyasəti" ilə bağlı aparılan diplomatik danışıqlarda mövqelərini möhkəmlətmək, xüsusilə də ABŞ-Aİ fikir ayrılıqlarını dərinləşdirmək məqsədilə izah edirlər. Heç də təsadüfi deyil ki, Rusiya-Ukrayna "qaz müharibəsi" zamanı İran ləngimədən özünü Avropa üçün potensial təchizatçı kimi göstərməyə çalışdı. O, "Nabucco" kəməri ilə ildə 10 mlrd. m^3 qaz nəqlinə hazır olduğunu bildirmişdir.

Tanınmış "İnternational Herald Tribune" qəzetinin "Təcrid olunmuş İran Avropaya təbii qaz təchizatı təklif edir" başlıqlı məqaləsində (II.2009) rəsmi Tehranın "qaz amili kartı"ndan siyasi alət kimi faydalanmaq istəyi açıqlanırdı. Buna görə də Vaşinqtonda və Avropa paytaxtlarında "dara düşəndə İrandan qaz almaq olarmı və buna dəyərmi?" sualına cavablar axtarılmaqdadır. Bununla bağlı Aİ-nin Enerji məsələləri üzrə komissarının sözçüsü F.Taradellos belə bir açıqlama vermişdi: "Tehranın nə istəməsi Avropanın mövqeyini dəyişə bilməz. İran qazı, necə deyərlər, Avropanın dərdinə məlhəm deyil". Lakin Avropanın bu məsələyə dair mövqeyinə hələlik qərbli eks-

pertlərin belə bir xülasəsini əlavə etmək olar: "Əgər günlərin bir günü İran ətrafındakı beynəlxalq mübahisələr, məsələn, uranın zənginləşdirilməsi məsələsi həll olunarsa, onda əlbəttə ki, bu ölkə ilə əməkdaşlıq istisna olunmur. Lakin belə bir gün gəlməyə də bilər".

Son vaxtlar İİR-in **ABŞ ilə Aİ-nin arasını vurmaq üçün "Pars qaz kəməri" ideyasını** ortaya atdığı da bildirilir. 4 mlrd. dollarlıq kəmərin ildə 37 mlrd. m^3 qaz nəql edə bilmə imkanı vurğulanmaqla onun Rusiyaya alternativ enerji mənbəyi olması qabardılır. Almaniya mətbuatı isə İranın "qaz siyasəti"nin "A" və "B" planlarından bəhs edən məlumatlar yaymışdır. "A" planı İİR-in "Nabucco"ya qoşulmasına üstünlük verir. "B" variantı isə "Qüds" briqadasının Almaniya ilə Rusiya arasında Baltik dənizinin dibindən çəkiləcək yeni kəmərə qarşı təxribatları nəzərdə tutur.

"Nabucco"da iştirak üçün İranın öz "nüvə siyasətindən vaz keçməsi də lazım gəlir. Bu məqam Qərbin diplomatik dairələrində tez-tez gündəmə gətirilir. Böyük Britaniyanın ölkəmizdəki xanım səfiri (K.Braun) da AR prezidenti yanında Strateji Araşdırmalar Mərkəzində keçirilən debatda (VIII.2009) çıxışı zamanı bildirmişdir ki, İranın "Nabucco"da iştirakı daha çox rəsmi Tehrandan asılıdır və onun nüvə silahı hazırlayacağı halda bu mümkün deyil.

İranın "Nabucco"ya qoşulmasına onun Azərbaycanla münasibətlərinin xarakterinin, xüsusilə də Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsində uzlaşma və s. də mühüm təsiri ola bilər. Lakin İranın Azərbaycana qarşı vaxtaşırı "neft-qaz kartı"ndan istifadəyə çalışması, rəsmi Tehranın həm təhdidlərə üstünlük verməsi, həm də AR-ə işgüzar təkliflər etməsi kimi ziddiyyətli mövqeyi müəyyən problemlər yaradır. Sözgəlişi, İran bir arada "Şahdəniz"in ikinci fazasının işlənməsinə 1,7 mlrd. dollarlıq sərmayə ayırmağa hazır olduğunu bildirmişdi. Əvəzində isə adıçəkilən qaz yatağının 1,2 trilyon kubmetrlik ehtiyatından 10 faizlik pay almaq istənilirdi. Anıma Avropa ölkələri "Nabucco" layihəsinin reallaşmasında əsas ümidlərini

Azərbaycanın ən böyük təbii qaz yatağına ("Şahdəniz"ə) bağladıqlarından İranın bu təklifinə müsbət yanaşmırlar (Baxmayaraq ki, 10 faizlik pay "Şahdəniz"də hasilatın İranın inhisarına keçməsi demək deyil və qonşu dövlətin həmin yatağın işlənməsində, onun qazının nəqlində hegemonluğuna əsla imkan vermir). Onlar yalnız İran qazının "Nabucco" ilə nəqlinə maraq göstərirlər.

"Nabucco"ya qoşulmaqda maraqlı olan İİR layihə ilə bağlı müəyyən **diplomatik demarşlar** da edir. Belə bir demarş İİR-in ölkəmizdəki səfiri M.Bəhraminin Bakıda keçirdiyi (16.IX.2009) mətbuat konfransında ifadə olunmuşdur: "İranın bu layihəyə qoşulmasına maneə olan düşmən dövlətlər bilməlidirlər ki, onun iştirakı reallaşmayınca, "Nabucco" gerçəkləşən deyil". Səfirin bu xəbərdarlığı "İran "Nabucco" layihəsini poza bilərmi?" sualını doğurmuşdur. Bu məsələ ətrafındakı diplomatik-politoloji təhlillərdən görünür ki, "Nabucco"nun başlıca resurs mənbəyi olmaq istəyən İran diplomatik gediş edir. Yəni o, Aİ-nin kəməri qazla doldura bilmək problemindən faydalanmağa, yəni beynəlxalq izolyasiyadan çıxmağa çalışır. İranın bu demarşı psixoloji təsir vasitəsi, ABŞ-ın Xəzər hövzəsinə nüfuz etməsinin əngəllənməsinə yönəlik nəticəsiz səylərin davamı olaraq da səciyyələndirilir (Xəzərdə Rusiya ilə birgə keçirilən hərbi təlimlər də ABŞ-ı regiona buraxmamaq siyasətinin göstəricisi hesab olunur). Ancaq çağdaş beynəlxalq və məhəlli geosiyasi proseslər İranın daha da təcrid olunması (hətta çöküşü) ilə də nəticələnə bilər. Bunu nəzərə alan İİR "Nabucco"ya xoş münasibət göstərməyə başlamışdır.

"Neft –qaz diplomatiyasi"nin ilkin nəticələri: baxışlar və mövqelər

Azərbaycanın "neft-qaz diplomatiyası"nın ilkin nəticələri və ölkəmizin neft perspektivi də çox mühüm elmi-siyasi maraq doğuran məsələlərdəndir. AR-in "neft və qaz siyasəti"nin baş-

lıca ilkin **nəticələrinə aid əsas dəyərləndirmələr (tezislər)** sırasında bunları önə çəkmək olar:

- ölkəmizin neft tarixində yeni-üçüncü mərhələnin başlanması;
- "Əsrin müqaviləsi", habelə digər çoxlu neft və qaz sazişlərinin bağlanması;
- Azərbaycanın karbohidrogen ehtiyatlarının çoxşaxəli nəqli və Əsas İxrac Neft Kəmərinin (BTC-nin) işə salınması;
- neft və qazın nəqlinin diversifikasiyası əsasında böyük dövlətlər və regional güclər arasında tarazlı (balanslaşdırılmış) siyasət yürüdülməsinə çalışılması və s.

AR-in "neft və qaz diplomatiyası"nın **ilkin yekunları** ilə bağlı digər, yəni **fərqli yanaşmalar** da mövcuddur:

- çoxlu neft-qaz kontraktlarının bağlanmasına, yəni "müqavilələr bolluğu"na, başqa sözlə, ölkənin karbohidrogen ehtiyatlarının, demək olar ki, hamısının yaxın vaxtlarda satılmasına əsla ehtiyacın olmaması;
- neft və qaz gəlirlərindən tam da səmərəli istifadə edilməməsi;
- "Dağlıq Qarabağ problemi"nin ədalətli həllində "neft və qaz amili"ndən yetərincə faydalanılmaması və s.

Bütün bu cür dəyərləndirmələr Azərbaycanın gələcəyində neftin və başqa enerji ehtiyatlarının yeri məsələsinin nəzərdən keçirilməsini də şərtləndirir. Bu cəhətdən neftə əsaslanan inkişaf modelləri və Azərbaycanın gələcək inkişafı ilə bağlı məsələlər də diqqəti xüsusilə cəlb edir. Həmçinin ölkənin neft-qazdan əldə olunan gəlirlərindən milli maraqlar (iqtisadi inkişaf, hərbi potensialın gücləndirilməsi, ərazi bütövlüyümüzün təminatı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi, beynəlxalq aləmdə yetərli tanınma, diplomatiyamızın qüdrəti) naminə səmərəli istifadə böyük əhəmiyyətə malikdir.

"Neftə əsaslanan inkişaf variantları və Azərbaycanın seçimi" problemi ilə əlaqədar olaraq da bəzi məqamların önə çəkilməsi lazım gəlir. Buna görə də öncəliklə həmin modellər haqqında müəyyən məlumatlara və yanaşmalara diqqət yetirilməlidir. **Neftə əsaslanan başlıca inkişaf modelləri** bunlardır:

"Norveç fenomeni", "Küveyt çiçəklənməsi", "Nigeriya faciəsi", "Holland xəstəliyi (sindromu)", "İran təcrübəsi" və s. Onlar bir sıra fərqli xüsusiyyətlərə malikdir. Modellərin əsas cəhətlərini tezisvarı belə səciyyələndirmək mümkündür.

"Norveç fenomeni": həcmi az olan (4 mlrd.ton) və emalı (nəqli) "dəniz texnologiyası"na görə nisbətən baha başa gələn neft ehtiyatlarından əldə olunan gəlirlərdən səmərəli istifadə. Yataqların qənaətlə mənimsənilməsi. Tranzit üçün açıqlıq və inkişaf etmiş (neft istehlakçısı) olan ölkələrlə əhatənin gəlir artımına təsiri. Neft gəlirlərindən qazanılan maliyyə vəsaitlərinin ilk növbədə neftlə əlaqədar olan emal, maşınqayırma və kimya sənayesinə qoyulması. 4,4 mln. nəfər əhalisi olan ölkənin strateji inkişaf proqramlarında dünya neft bazarındakı qiymət dəyişmələrinin vaxtında və düzgün qiymətləndirilməsi. Gəlirlərin xeyli hissəsinin ölkənin gələcəyinə, xüsusilə də təhsilə ayrılması və s.

"Küveyt çiçəklənməsi": böyük həcmdə neft ehtiyatlarına malikolma və əhalinin sayının azlığı. Son 40-50 ildə ölkədə 5,4 mlrd. ton (adambaşına-3000 ton) neft çıxarılıbdır. Minilliklərin qovuşuğunda illik istehsal 102 mln. ton (adambaşına-60 ton.) təşkil edibdir. Mövcud ehtiyatlar 13,3 mlrd. tondan (adambaşına 8000 ton.) ibarətdir. Gəlirlərin xeyli hissəsi sülaləyə çatsa da, qeyri-neft sektoruna (ən çoxu da turizm və s.), habelə sosial xərclərə sanballı vəsait ayırmaları ölkənin inkişafı, "Küveyt çiçəklənməsi" ilə nəticələnmişdir.

"Nigeriya faciəsi": son 20 ildə təqribən 400 mlrd. ton neftin qazancı əldə edilsə də, karbohidrogen ehtiyatlarına malik ölkələr sırasında ən ağır (acınacaqlı) vəziyyətdə olanıdır. İxrac (satış) həcmi son vaxtlarda ildə 150 mln. ton təşkil edir. Bu ölkədə və **"Nigeriya qrupu"**na daxil edilən dövlətlərdə (İraq, Liviya və digərlərində) neft gəlirləri yalnız hakim elitanın ixtiyarındadır və tamamilə ona sərf olunur. Neft gəlirlərinə nəzarət uğrunda şiddətli mübarizə bir sıra hallarda vətəndaş müharibəsi - "petrol savaşları" ilə nəticələnmişdir. Araşdırmaçı və eks-

pertlərin (H.Quliyev, N.Nəsibli) qənaətinə görə, "afrika perspektivləri"-ənənəvi resurslarlı (neftli) ölkələrin əksəriyyətinin acı təcrübəsi-hakim elitanın mühüm bir hissəsinin zənginləşməsi ilə cəmiyyətin dəhşətli yoxsulluqda olması variantıdır. "Nigeriya (Afrika) perspektivləri" mənfi imkanların, yəni kölgə iqtisadiyyatı"nın çiçəklənməsinin reallaşması, ölkənin yoxsulluq və risk vəziyyətində saxlanması, onun neft strategiyasının qeyri-müəyyənliyi deməkdir.

"Holland xəstəliyi (sindromu)": Niderland iqtisadiyyatında 1960-1970-ci illərdə başverən neqativ proseslərin ifadəsidir. Bu sindrom neft gəlirləri şəraitində qeyri-enerji bölməsinin zəifləməsi, iqtisadiyyatın digər önəmli sahələrinin inkişafının unudulması, əhalinin sosial problemlərinin əsasən ilkin neft gəlirlərinin hesabına "həll edilməsi" kimi xüsusiyyətlərə malikdir. Nəticə isə neft gəlirlərinin təbii və başqa səbəblər üzündən azalmasına görə sosial sahəyə ayrılan xərclərin də azalması, ictimai narazılıqların artması və s. ibarətdir.

Əksər mütəxəssislərin qənaətinə görə, "Holland sindromu" enerji ehtiyatlarının xammal şəklində satışından əldə olunan çoxlu gəlirlərin milli valyitanın deflyasiyasına gətirib çıxarması və xarici ticarət əlaqələrində balansın pozulması ilə nəticələnən iqtisadi fenomendir. Onun ilkin mərhələsindəortaya çıxan şirnikləndirici proses – milli valyutanın deflyasiyası, yəni onun öz çəkisini ağırlaşdırması, bəzən hətta dolları və s. üstələməsi sonra müəyyən fəsadlar verə bilir. Bu sindromdan bəhs edərkən Hollandiyanın o xəstəlikdən tezliklə qurtula bilməsinə də diqqət yetirmək lazım gəlir. Hazırda o, adi inkişaf göstəricilərinə görə ilk yerlərdə gedən 10-15 ölkə sırasındadır. Bu ölkə 2008-ci ildə kənd təsərrüfatı məhsullarının ixracına görə ABŞ-dan sonra ikinci yerə çıxmışdır.

"İran təcrübəsi": 1970-ci illərin ortalarında neft gəlirlərinin qəfil və kəskin artımının şahlığın iqtisadi siyasətini reallıqlardan uzaqlaşdırması. Neft gəlirlərinin ucuz idxala münbit şərait yaratmasının ölkədaxili ənənəvi iqtisadiyyat sahələrini

(xüsusilə də kənd təsərrüfatı və s.) tənəzzülə uğratması, hətta onların bəzilərini tamamilə sıradan çıxarması. Bütün bunlarınsa sosial bərabərsizliyi artırması və nəticədə ictimai ziddiyyətləri dərinləşdirməsi, beləliklə də, "neft amili"nin İran "İslam inqilabı"nın katalizatoruna çevrilməsi. İİR dönəmində neft gəlirlərinin böyük bir hissəsinin lüzumsuz müharibəyə (İraqla) sərf olunması. Həmçinin gəlirlərin müəyyən qisminin də rejimin sosial bazasının genişləndirilməsinə və teokratik hakimiyyətin ömrünün uzadılmasına ayrılması (2009-cu ilin prezident seçkiləri artıq bunun işə yaramadığını göstərdi).

Göründüyü kimi, **neftə əsaslanan inkişaf modelləri kəskin fərqli (təzadlı) nəticələrə** malikdirlər. Heç də təsadüfi deyil ki, Almaniyanın "Henrix Böl Fondu" tərəfindən 2005-ci ilin aprelində "Neft gəlirləri və neft bəlaları" adlı beynəlxalq konfransda belə bir dəyərləndirmə müzakirələrin mərkəzi mövzusuna çevrilmişdi: neftə görə - **a)** "çiçəklənən ölkə" və **b)** "sərvət lənətinə düçar ölkə" olmaq mümkündür Bu, tarixi dilemma kontekstində "Azərbaycanın "neftli gələcəyi" necə olacaqdır və hansı yollarla gedir-gedəcəkdir?" kimi taleyüklü sualın cavabları da birmənalı deyildir. İstər Azərbaycanda, istərsə də xaricdə bu məsələ ilə əlaqədar **elmi-siyasi dairələrdə: 1)** ölkəmizin "Norveç fenomeni"ni təkrarlayaraq Küveyt təki "çiçəklənəcəyi"ni, **2)** əksinə, "Holland xəctəliyi"nə yoluxa, hətta "Nigeriya faciəsi" ilə üzləşə biləcəyini iddia edənlər vardır.

Birinci yanaşmanın, yəni Azərbaycanın Norveçlə Küveytin "neftlə inkişaf yolu"nu getdiyinə (gedəcəyinə) dair **dəlilizahlar** sırasında bunları qeyd etmək olar:

a) ölkənin karbohidrogen ehtiyatlarının nəqlinin diversifikasiyası və Xəzərin hüquqi statusu məsələlərində məqsədyönlü, düzgün tarazlaşdırılmış siyasət aparılması;

b) neft gəlirlərinin müəyyən hissəsinin yüksək faizlərlə xarici banklarda saxlanması hesabına xeyli maliyyə vəsaitinin qazanılması;

c) son 5 ildə (2004-2009) Azərbaycanda Ümumi Daxili

Məhsulun 5,8 dəfə (illik 15 faizlik çoxalma) artması və nəticədə 2006-2008-ci illərdə AR-in iqtisadiyyatın inkişaf sürəti cəhətdən **dünyada analoqu olmayan ölkəyə** çevrilməsi. 1997-ci ildən etibarən respublikada iqtisadi inkişafın sabitləşməsi prosesi başlamışdır. 1990-cı ildən başlayaraq ÜDM-in aşağıdüşmə meyli ilk dəfə olaraq 1996-cı ildə 1,3 faiz artımla dayandırılmışdır. İqtisadi inkişafın zirvəsi olan 2004-cü ildən sonra ölkə iqtisadiyyatı 30-35% artımla dünyada ilk yerlərdən birini tutur. AR Nazirlər Kabinetinin 2009-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında (18.I.2010) prezidentin açıqladığı məlumata görə, 2009-cu ildə ÜDM 9,3 % artmışdır (Müqayisə üçün, Ermənistanda isə iqtisadi inkişaf 16% geriləyibdir). Güclü inflyasiya 1997-ci ildə 3,7%-ə endirilmişdir. Onun səviyyəsi sürətli iqtisadi inkişafın istehlak qiymətlərinin artmasına təsiri və dünyada neftin qiymətinin kəskin artımı üzündən 2008-ci ildə 21% təşkil etmişdir. Ancaq 2009-cu ildə 1,5% olmuşdur. 2010-cu il üçünsə 3 faizlik həddə nəzərdə tutulmuşdur (Digər hesablamalara görə isə, gələn il inflyasiya 5-7% həddində olmaqla insanların həyat səviyyəsini minimum 7 dəfə pisləşdirəcəkdir). 2009-cu ildə sənaye istehsalı 8,6 %, kənd təsərrüfatı isə 3,5 % artmışdır. Ölkədə 50 mln.t. neft və 25 mlrd. m^3 qaz istehsal olunmuşdur. 2009-cu ilin büdcəsinin 2003-cü ilinkindən 10 dəfə çox olduğu bildirilir. 2003-2009-cu illərdə 840 min iş yerinin açıldığı, yoxsulluğun səviyyəsinin 2003-cü ildəki 50 faizə yaxından 2009-cu ildə 11,0 %-ə endiyi vurğulanır (Real göstəricinin 44% olduğunu iddia edən iqtisadçı-ekspertlər də vardır). BMT-nin İnkişaf Proqramının araşdırmalarının nəticələrinə əsasən hazırlanan "Human Development report 2009" adlı hesabatına görə, Azərbaycan həyat səviyyəsinin indeksi cəhətdən son bir ildə 2 pillə irəliləyərək 86-cı yerdə qərarlaşıbdır. (182 ölkəni əhatə edən bu təhqiqatın nəticələri dünyada ən yüksək həyat səviyyəsinin Norveçdə və ən aşağı həyat səviyyəsinin isə Nigeriyada olduğunu müəyyənləşdiribdir. **"Neft ölkələri"nin inkişaf səviyyəsinin kəskin**

fərqini bu müqayisədən də yaxşı görmək olur). Hesablamalara əsasən Azərbaycanda valyuta ehtiyatları fondu yarandığı vaxtlarda orada cəmi 12 mln. dollar olmuşdur. 1995-ci ildə bu rəqəm 250 mln. dollar təşkil etmişdir ki, onun da 80-90 faizi beynəlxalq maliyyə qurumlarından alınan kreditlərin hesabına idi. Dünya maliyyə böhranı başlayanda ölkənin valyuta ehtiyatları 17 mlrd. dollar idi. Onun 2009-cu ilin sonunda 20,4 mlrd. dollara çatadığı bildirilir.

ç) büdcədən ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsinə **(hərbi xərclərə) ayrılmaların** artırılması üçün maliyyə əsasının təmin edilməsi. (2010-cu ilin dövlət büdcəsində müdafiə xərclərinə 1.205.827.744,0 man.ayrılması nəzərdə tutulur. Bu da 2009-cu ildəkinə nisbətən 0,7 faiz çoxdur və büdcə xərclərinin 10,7%-i deməkdir);

d) tikinti sektorunun sürətli inkişafı, abadlıq işlərinin görülməsi, yol və körpülərin salınması imkanlarının çoxalması və s.

İkinci mövqenin, yəni Azərbaycanın "neft və qaz strategiyası"nın ən yaxşı halda "Holland xəstəliyi, daha pis halda isə "Nigeriya faciəsi"ilə yekunlaşa biləcəyini ehtimal edənlərin **dəlil-dəyərləndirmələrindən** bunlar qeyd oluna bilər:

1.Azərbaycan tarixən **"Odlar ölkəsi"**, başqa sözlə, neft sivilizasiyası və texnologiyasının beşiyi sayılsa da heç vaxt öz neftinin sahibi ola bilməyib və yaxın gələcəkdə də olmayacaqdır.

2.XX əsrin əvvəlində dünya neft sivilizasiyasının **"nəhəng mərkəzi"** olan (dünya neftinin az qala hamısını verən) **Bakı hazırda Yerin enerji xəritəsində "kiçik nöqtə"**dir. Dünyada çıxarılan neftin yalnız 0,3 faizi onun payına düşür. Azərbaycanın 10 mlrd. tondan çox neft ehtiyatına malik olduğu bildirilsə də, bunu "resurs əfsanəsi" sayanlar həmin göstəricinin 4 mlrd. ton. təşkil etdiyini vurğulayırlar).

3.AR-in neft ehtiyatlarının həcmi **("resurs əfsanəsi") ölkənin "küveytləşməsi"nə əsla əsas verm**ir. Küveytin başlıca neft göstəriciləri ilə müqayisədə Azərbaycanla bağlı belə bir mənzərə yaranır: orada adambaşına düşən ehtiyatlar 8000 ton,

ölkəmizdə isə 500 ton təşkil edir. Bu ərəb ölkəsi ildə 102 mln. ton neft çıxarırsa, AR strateji plana görə ildə 70 mln.ton. "qara qızıl" çıxarmağı nəzərdə tutur.(Orada adambaşına real surətdə 60 ton və bizdə isə, yenə də planlaşdırılana əsasən 9 ton).

4."Kölgə çiçəklənməsi" Azərbaycanın "Norveç fenomeni"ni təkrarlamasını, yəni "Vesternizasiya (qərbləşmə) əfsanəsi"ni də qətiyyətlə rədd edir. Araşdırmaçı-ekspertlərdən H.Quliyev və digərləri belə hesab edirlər ki, "Norveç fenomeni" üçün Azərbaycanda yalnız "gözəl əfsanə" perspektivi, "vikinq neft təcrübəsi"nin görüntüsünün yaradılması mümkün ola bilər. Onların qənaətinə görə, "Statoyl"un Azərbaycanın karbohidrogen ehtiyatlarının istismarındakı möhkəm mövqeyinə, hər iki ölkənin eyni həcmdə (4 mlrd.ton.) neft ehtiyatına malik olmasına, onların "dəniz texnologiyası" amili ilə yaxınlıqlarına, məşhur tarixçi T.Heyerdalın Bakıya səfəri zamanı (V.1999) "qədim vikinqlərin və azərbaycanlıların sıx etnik qohumluqları "barədə" irəli sürdüyü fərziyyəyə baxmayaraq AR-in də **"Norveç neft uğuru"nu qazanması** mümkün deyil. Çünki ölkələrin etibarlılıq indeksi, yəni yüksək siyasi risk zonasında yerləşmə göstəricisi kəskin fərqlidir. (Norveç yüksək etibarlılıq indeksinə (95) malik olduğu halda, Azərbaycanın bu göstəricisi hazırda 20-dir. İkincinin yaxın müddətə bunu heç olmazsa, 60-70-ə çatdırması real sayılmır). Burada habelə əhalinin sayındakı fərq (Norveçdə 5 mln., Azərbaycanda isə 9 mln.), birincinin "tranzitə açıqlığı" və neft istehlakçısı olan inkişaf etmiş ölkələrlə əhatəsi, ikincininsə "tranzitə qapalılığı" və dünya bazarlarından uzaqlığı, neft gəlirlərindən istifadə yolları, formalarındakı məqamlar və s. digər amilləri də diqqətdən kənarda saxlamaq olmaz.

5.Neft gəlirlərindən ölkə daxilində düzgün səmərəli istifadə olunmaması və qeyri-neft sektorunun yetərincə inkişaf etdirilməməsi. Rəsmi məlumatlara görə, təkcə 2009-cu ilin 9 ayında iqtisadiyyatın 6 faizdən çox artması ilə yanaşı qeyri-neft sektorunda artım 4,1 faiz olubdur. Digər yandan da, ölkədə

qeyri-neft sektorunun inkişaf sürəti və perspektivi əsla qənaətbəxş sayılmır. Bunu qeyri-neft sektoruna cəlb olunan xarici investisiyaların, həmin sahələrdən büdcəyə daxilolmaların həcmi və s. bağlı statistika göstəricilərinin də təsdiqlədiyi iddia edilir. Belə ki, qeyri-neft sektoruna xarici sərmayə qoyuluşu 2008-ci ildə 494,1 mln., 2009-cu ilin birinci yarısında isə 350 mln. dollar təşkil edibdir.

2010-cu ildə büdcəyə qeyri-neft sektorundan 3 mlrd. 570 mln.man. vəsaitin daxil olması gözlənilir. Bu da 2009-cu ildəki 4 mlrd. 570 mln. manatdan 1 mlrd. man. (22%) azdır. Neft hasilatı və gəlirlərinin zirvə dövrünün və bu göstəricilərin azalma perspektivinin gözönündə olduğu bir şəraitdə enerji ehtiyatlarından (onların mənfəətindən) istifadənin və büdcə xərclərinin səmərəliliyi də çox önəmlidir. 2009-cu ilin sentyabrında edilən **"Neft gəlirlərinin idarə edilməsi: şəffaflıq və səmərəlilik prinsipləri" adlı təqdimat**da açıqlanan bir fakt çox diqqətçəkicidir: ölkənin indiyədək qazandığı neft gəlirlərinin təxminən 40 faizi (gözlənilən ümumi gəlirlərin 4%-i) artıq xərclənibdir (Parlamentdəki büdcə müzakirələrində 4 mlrd. manat vəsaitin qeyri-şəffaf xərclənməsi faktından bəhs olunubdur).

Bunun da çox hissəsinin **Nəqliyyat nazirliyinin xərcləri** tərəfindən "udulduğu" bildirilir. Xeyli miqdarda vəsait hesabına başa gələn yeni avtovağzal bir o qədər də səmərəli layihə hesab olunmur. Həcminə və sərnişin dövriyyəsinə görə Avropada 2-ci və MDB-də isə 1-ci sayılan bu avtovağzal səmərəliliyi və zəruriliyindən çox, ordakı ticarət və digər obyektləri ilə diqqəti cəlb edir. Bu nazirliyin təklif etdiyi daha üç layihənin reallaşdırılması üçün üst-üstə 5,5 mlrd. man. tələb olunur: on milyonlarla manat vəsait hesabına 2006-cı ildə təmir edilib təhvil verilən dəniz limanının indi də Ələtə köçürülməsi üçün 450 mln. dollar lazım gəlir; Bakı-Tiflis dəmiryolunun yenidən qurulması və s. 3 mlrd. dollara başa gələ bilər; Bayıldan Zığa dənizüstü 14,5 km-lik avtomobil körpüsü salınmasına dair ilkin smeta dəyəri 1,6 mlrd. dollarlıq (baha da ola bilər) layihə də

birmənalı qarşılanmır (Bununla bağlı 2009-cu ilin dekabrında Koreya şirkəti ilə protokol imzalanmışdır). BTC neft boru kəməri səviyyəsində ola biləcək həmin layihənin səmərəliliyi mübahisəli görünür.

Bir çox neft və büdcə mütəxəssislərinə görə, dünya maliyyə böhranının davam etməkdə olduğu bir dövrdə enerji ehtiyatlarının satılmasından gələn gəlirlərin hesabına bəzi məsrəflərin artırılması məqsədəmüvafiq deyildir. Prezident Administrasiyasının xərclərinin 2010-cu ildə 4,9% artırılması düzgün sayılmır. (Hüquq-mühafizə orqanlarının saxlanmasına az qala büdcənin 1/5-i xərclənir, halbuki inkişaf etmiş ölkələrdə ən yaxşı halda bu rəqəm 1/10-i təşkil edir). Habelə bunların qarşılığında 2010-cu ilin əmək haqları və pensiyaların artırılması baxımından "sakit il" ola bilməsinin, təhsil xərclərinin 75 mln. manat (5,6%) azalmasının, elmə cəmi 101.203.217,0 manat, yəni 2009-cu ildəkindən 7,1% az vəsait ayrılmasının sosial-liberalizm xətti ilə uzlaşmadığı da vurğulanır. Bu uyğunsuzluğu elə Bakı-Quba-Rusiya avtomobil yolunun 300 km-nin tikintisi və təmirinə 445 mln. manat ayrılması, "Ramstore" dairəsindəki körpünün 96 mln. manata tikilməsi -təxminən 2010-cu ildə elmə ayrılan xərclərə bərabər olması da təsdiqləyir.

6. Dövlət büdcəsinin neft gəlirlərindən, yəni əsasən "Azərbaycan Respublikası Dövlət Neft Fondu"nun **("ARDNF"-in) vəsaitlərindən asılılığı.** Həm də bu asılılığın azalmaq əvəzinə getdikcə artması. Burada öncə AR prezidentinin fərmanı (29.XII.1999) ilə təsis edilən "DNF"-in fəaliyyəti ilə bağlı bəzi məqamları qeyd etmək lazım gəlir. Fondun "Əsasnaməsi"nə görə onun başlıca vəzifələri ölkənin xarici şirkətlərlə birgə işlədilən neft yataqlarından qazanılan mənfəət neftindən əldə edilən valyuta vəsaitlərinin, digər gəlirlərin toplanması və onların səmərəli idarə olunması, öncə də mühüm dövlət əhəmiyyətli layihələrin reallaşdırılmasına yönəldilməsindən ibarətdir. Dünya təcrübəsində suveren fondların üç qrupu (büdcə, yəni rezerv, stabilləşdirmə və gələcək nəsillər) mövcuddur. "ARDNF"

isə onların hər üçünü özündə ehtiva edən maliyyə qurumu sayılır. Fondun maliyyə ehtiyatlarından dövlət başçısının 511 saylı fərmanı (19.VI.2001) ilə təsdiqlənən "ARDNF"-in valyuta vəsaitlərinin saxlanması, yerləşdirilməsi və idarə edilməsi qaydalar"ına ("İnvestisiya təlimatı"na) əsasən istifadə olunur.

"DNF"-in gəlirlərinin ilbəil artmaqda davam etməsi qeyd olunmalıdır. Belə ki, onun aktivləri 2001-ci ildəki 164,9 mln. manatdan artaraq 2008-ci ildə 11.864,0 mln. man. çatıbdır. Fondun aktivləri 2009-cu ildə 12 mlrd. man. təşkil edibdir. 2009-cu ilin yanvar-sentyabr aylarında fondun büdcəsinin gəlirləri 5.465,2 mln. man., çıxarları isə 3.954,1 mln. man. təşkil edibdir. Mütəxəssislərin bir qisminin dəyərləndirmələrinə görə, hazırkı dünya maliyyə böhranı da "DNF"-in yaradılmasının vaxtında atılan düzgün addım olduğunu təsdiqləyir. Həmçinin fondun 10 illik fəaliyyəti də bir sıra neft ekspertləri tərəfindən müsbət qiymətləndirilir. Buna sübut olaraq həm də ARDNF-in "Linaburq-Meduel şəffaflıq indeksi" cədvəlində 45 belə fond arasında 10 balla səkkiz ölkə (ABŞ-"Alyaska", Norveç-"GRF", Sinqapur-"Temasek" və s.) ilə birlikdə birinci pillədə yer tutması göstərilir. (Bu indeks 10 meyardan ibarətdir və hər meyar 1 balla qiymətləndirilir).

Ekspertlərin başqa bir qrupu isə **neft-qaz hasilatının** 2010-cu ildə **ən yüksək səviyyəyə** (2009-cu ildəki 44 mln. tondan 15% artaraq 53,1 mln. tona) çatacağının və 2013-cü ildən də aşağı enəcəyinin nəzərə alınmasını vacib sayırlar. Buna görə də karbohidrogen ehtiyatlarının satılmasından gələn gəlirlərin uzunmüddətli idarə olunması strategiyası əsasında xərclənməsi məsləhət bilinir. Bu isə dövlətin sosial maraqları ilə yanaşı infrastrukturun yeniləşdirilməsini, xüsusilə də qeyri-neft sektorunun vaxtında və səmərəli inkişaf etdirilməsini tələb edir.

Həmçinin hazırkı məsrəflərlə gələcək nəsillər üçün saxlanılmalı olan enerji ehtiyatları gəlirlərinin nisbətinin düzgün müəyyənləşdirilməsi çox zəruridir. Fondun ehtiyatlarının xərclənməsində "insan kapitalı"nın inkişafı məsələlərinin önə çə-

kilməsi uzunmüddətli strategiyada mərkəzi yerlərdən birini tutmalıdır. "DNF"-in indiyəqədərki xərcləri arasında BTC kəmərinin çəkilməsində Azərbaycanın iştirak payının maliyyələşdirilməsi (297,9 mln. man.), qaçqınların və məcburi köçkünlərin sosial-iqtisadi problemlərinin həlli (512,6 mln. man.), dövlət büdcəsinə transfertlər (9.035,0 mln. man.) və s. qeyd etmək olar.

"ARDNF konsepsiyası"nı yanlış sayan və onun 10 illik fəaliyyətini qeyri-qənaətbəxş, **özünü doğrultmayan beynəlxalq maliyyə eksperimenti olaraq dəyərləndirilən baxışlara** da rast gəlinməkdədir. Bu zaman başlıca dəlillərdən biri kimi fonda toplanan neft pullarının idarə olunmasından gələn gəlirlərin büdcə və onun özünün "Əsasnaməsi"ndə göstərilən digər istiqamətlər üçün istifadə prinsipinin (sisteminin) işlənməməsi göstərilir. Fakt olaraq da son iki ildə "DNF"-yə daxil olan vəsaitlərin bütünlüklə büdcəyə ayrılması vurğulanır. 2009-cu ildə **"DNF"-dən büdcəyə transfert** 4,9 mlrd. manat olubdur. (Təxminən bir o qədər də 2010-cu il üçün proqnozlaşdırılır; bu da büdcə gəlirlrinin yarısını təşkil edir).

Yenə də bu qəbildən olan yanaşmalara görə, AR-in beynəlxalq neft müqavilələrinin bağlandığı dövrdə dünyada nüfuzlu maliyyə qurumlarının tövsiyəsi ilə yaradılan "DNF" dövlətlərarası model kimi təbliğ olunmasına, mükafatlar almasına, yerlər tutmasına baxmayaraq hazırkı maliyyə böhranı bu tip modelin səmərəsizliyini təsdiqləmişdir. 2010-cu ilin büdcəsinin parlamentdəki müzakirələrində millət vəkillərindən P.Hüseyn ABŞ-dakı Federal Ehtiyat Fonduna uyğun bir fondun yaradılmasını və "DNF" kimi maliyyə qurumlarının da ona birləşdirilməsini təklif etmişdir.

Hazırda rahatsızlıq doğuran məsələlərdən birini **də dövlət büdcəsinin neftdən asılılığının xeyli artması** təşkil edir. Yenə də mütəxəssis rəylərinə görə, ölkə büdcəsi **ənənəvi (klassik) "əlverişli iqtisadi mühit-vergi gəlirlərinin çoxalması- sanballı büdcə artımı" sxemindən tədricən uzaqlaşaraq daha çox varlı ərəb və digər neft ölkələrinə xas olan "qeyri/vergi**

gəlirlərindən ayırmalar – büdcə artımı" modelinə uyğunlaşmaqdadır. Bəzi iqtisadçıların fikrincə, "qara qızıl" Azərbaycanı inkişafdan saxlayıb və bütün qeyri-neft sektorunu sıradan çıxarıbdır; neft-qaz olmasaydı insanlar özləri məcburən digər sahələrə daha çox diqqət yetirərdilər. "Büdcədə neftin izi olmayan vəsait tapmaq mümkün deyil" qənaətində olan maliyyə ekspertləri belə hesab edirlər ki, qeyri-enerji sektorunda əhəmiyyətli dəyişikliklərin yaranmayacağı təqdirdə, petrolgəlirlərinin 2013-cü ildən etibarən azalmağa başlaması, neft sektorunun dominant rolunun zəifləməsi ölkə iqtisadiyyatında tənəzzülü şərtləndirə bilər.

Bu kontekstdə habelə **büdcədə vergi gəlirlərinin payında və xarici sərmayə yatırımında artıq özünü göstərən azalmalar** vurğulanır. İnkişaf etmiş ölkələrdə vergi gəlirlərinin büdcədəki payı 80-85 təşkil edir. Ölkəmizdə isə büdcəyə daxilolmalarda vergi gəlirlərinin xüsusi çəkisi 2005-ci ildə 74% olduğu, 2009-cu il üçün 51,9% nəzərdə tutulduğu halda, 2010-cu ildə bu göstəricinin 45,9% təşkil edəcəyi proqnozlaşdırılır; onun da 38,5%-i neft sektorunun payına düşür. Dövlət Gömrük Komitəsinin rəsmi məlumatlarına görə, 1996-cı ildən bəri ilk dəfə olaraq büdcəyə gömrük daxilolmaları 2009-cu ildə kəsirlə (təxminən 86%) yerinə yetirilibdir. 2009-cu ildə büdcəyə gömrük daxilolmaları 1 mlrd. 112,7 mln. manat təşkil edibdir. Ötən il respublikanın ticarət dövriyyəsi 1 mlrd. manatdan çox həcmdə azalıbdır. Büdcədə neft transfertlərinin çoxluğu şəraitində vergi gəlirlərinin payının azaldılması və qeyri-neft sektorundan gələn aktivlərin aşağı salınması təhlükəli büdcə strukturu sayılır. 2010-cu ildə büdcəyə 6 mlrd. 445 mln. manat neft gəlirlərinin daxil olması nəzərdə tutulur. Onun da 4 mlrd. 915 mln. manatı neft transferti, 1 mlrd. 530 mln. manatı isə xarici və dövlət neft şirkətlərinin hesabına olacaqdır.

Ölkə iqtisadiyyatına sərmayə yatırılmasının, o cümlədən də **xarici investisiya qoyuluşunun azalması da "neft siyasəti"ndə bəzi məqamların nəzərə alınmasını** şərtləndirir. Mütəxəssis-ekspert rəyləri və hesablamalarına görə, neft sektoruna

maksimum kapital qoyma dövrü 2006-2008-ci illəri əhatə etməklə artıq arxada qalmışdır. 2000-ci ilin əvvəlindən neft sektoruna qoyulan xarici sərmayə 2006-cı ildən etibarən azalmağa meyllidir. Bu göstərici 2006-cı ildə 3,7 mlrd., 2008-ci ildə 2,6 mlrd., 2009-cu ildə isə 2,4 mlrd. dollar təşkil etmişdir. Bu, bir tərəfdən, obyektiv səbəblərdən, yəni **"Hasilatın Pay Bölgüsü" sazişinə əsasən nəzərdə tutulan investisiyaların, yataqların işlənmə prosesinin başa çatmasından** və mənfəət qazanma dönəminin başlanmasından irəli gəlir. Digər yandan, birbaşa sərmayələrin həcminə qlobal maliyyə böhranının təsiri də inkar edilə bilməz. Elə investisiyaların azalmasının özü böhranın ciddi təsirlərindən sayıla bilər. Böhranın kapital qıtlığı yaratması, investorları ehtiyatlı davranmağa məcbur etməsi və s. mübahisə doğurmur.

Hərçənd ki, bəzi ekspertlər 2008-ci ildə AR-in dövlət büdcəsinin 1/6-ni və ÜDM-in isə təxminən yarısını formalaşdıran xarici şirkətlərin işlədiyi neft sektoruna investisiya axınının azalmasının dünya maliyyə böhranına dəxli olmasını istisna edirlər. Onların fikrincə, ölkəmizdə xarici sərmayələrə əsaslanan müəssisələr şəbəkəsinin nə ÜDM-dəki, nə də büdcə və məşğulluğun formalaşmasındakı payı çox deyil (Xarici şirkətlərdə 100 min nəfərdən az adamın çalışdığı bəllidir). Bu kontekstdə də xarici sərmayələrin azalmasının subyektiv səbəbləri də, yəni Azərbaycanın biznes mühitinin əsla yaxşılaşmaması-investorların riskli ölkələrə maliyyə vəsaiti yönəltmək istəməməsi, mülkiyyət hüquqlarının pozulmasının kütləvi səciyyə daşıması, rəqabət imkanlarını xeyli məhdudlaşdıran inhisarlaşmanın və korrupsiyanın yüksək səviyyəsi önə çəkilir.

Xarici investisiyaların əsasən neft-qaz sektoruna yönəldilməsi və ötən illərdə qeyri-neft bölməsinə sanballı sərmayə yatırımının olmaması da danılmazdır. 2009-cu ildə qeyri-neft sektoruna xarici maliyyə qaynaqlarından cəmi 322 mln. dollar kapital qoyulmasıehtimal olunurdu. Xarici kapital qoyuluşunda Türkiyənin payının azalması, əvəzində isə ingilis və rus mənşəli sərmayə yatırımının artması da diqqətçəkicidir. Bütün bunlara

əsasən də yaxın 3 ildə sərmayə yatırımında daxili qaynaqlara üstünlük veriləcəyi gözlənilir. 2009-cu ildə AR-in iqtisadiyyatına 9,2 mlrd. dollar sərmayə qoyulmuşdur ki, onun da 7,3 milyardı daxili sərmayələrdir. 2010-2012-ci illərdə ölkə iqtisadiyyatına daxili mənbələr hesabına təxminən 23 mlrd. dollara yaxın vəsait qoyulması planlaşdırılır (Orta illik göstərici 7,8 mlrd. dollar təşkil edir). Daxili mənbələr ("ARDNF", "ARDNŞ" və s.) hesabına investisiya qoyuluşunda da azalmalar özünü göstərir. Qeyri-neft sektoruna daxili mənbələrdən ayrılmalar 2009-cu il üçün cəmi 1,2 mlrd. manat planlaşdırılıbdır.

Neft gəlirlərinin büdcədəki payı 2005-ci ildə 51 faiz təşkil etdiyi halda, 2007-ci ildə 58,4%-ə çatıb, 2008-ci ildə 60%-i keçibdir və 2010-cu ildə isə onun 70%-ə yüksələcəyi gözlənilir (Sözgəlişi, neft sektorunda ölkənin işlək əhalisinin cəmi 2%-i çalışır. Aqrar sektorda bu göstərici 40% təşkil edir). Əvvəlki illərlə müqayisədə "DNF"dən büdcəyə transfert 500 mln. manatdan 2008-ci ildə 3 mlrd. 800 mln. manata çatmaqla 650 faiz təşkil etmişdir. 2009-cu ilin 12,177 mlrd. manatlıq büdcə gəlirlərinə də "ARDNF"-dən 4 mlrd. 915 mln. man. transfert nəzərdə tutulmuşdu. İqtisadçı ekspertlərin araşdırmalarına görə, hazırda dövlət büdcəsi gəlirlərinin təxminən 2/3-i (60%-dən çoxu) neft sektorunun payına düşür. Belə ki, 2009-cu ildə dövlət büdcəsinə neft sektorundan birbaşa daxilolmalar təqribən 7 mlrd. 595 mln. man. təşkil edibdir; onun da 2 mlrd. 680 mln. man. birbaşa vergi ödənişləri və 4 mlrd. 915 mln. man. isə "ARDNF"-in transfertindən ibarətolmuşdur.

7. Ekspert H.Quliyevin fikrincə, Azərbaycanın hazırkı iqtidarı ilə **ölkəyə "nüfuz edən (etdirilən) qərb neft elitası"** arasında cəmiyyəti **AR-in neft strategiyasının inkişafının real gedişi** ilə bağlı məlumatsızlıq şəraitində saxlamağa dair özünəməxsus centlmen (gizli) saziş vardır. Bu halın da neft gəlirlərindən istifadə və digər sahələrdə irimiqyaslı korrupsiyaya münbit şərait yaratması, qeyri-şəffaflığa imkan verməsi danılmazdır. Məsələn, hələ 1993-cü ilin yanvarında "ARDNŞ" Baş

Geofizika idarəsinin rəisi, prof. K.Kərimov "Amoko" təmsilçilərini "Azəri" yatağındakı neft ehtiyatlarının həcmini az göstərmək cəhdində ittiham etmişdi (Şirkət nümayəndələri yataqda cəmi 318 mln.ton. neftin olduğunu iddia etmişdilər. K.Kərimovsa bu rəqəmin 100 mln.ton. azaldıldığını, yəni nəticədə 10 mlrd. dollarlıq gəlirin gizlədildiyini bildirmişdi). Mübahisə "ARDNŞ" ekspertinin "Amoko"nun inadına əsasən Qərb şirkətləriylə danışıqlardan kənarlaşdırılması ilə yekunlaşmışdı.

1994-cü ilin əvvəlində AR Nazirlər Kabinetinin "neft danışıqları"ndakı baş eksperti M.Manafovun rəsmi Bakının əlverişli şərtlərlə müqavilə bağlaması əvəzində xarici şirkətlərdən 300 mln. dollar rüşvət tələb etməsi faktı aşkarlandı. "Əsrin müqaviləsi" layihəsi üzrə danışıqlardakı ekspertlər qrupuna 1993-cü ilin yayından başçılıq edən M.Manafov həmin ilin payızında rüşvətxorluqda ittiham edilsə də, çox rahatlıqla ölkədən "çıxaraq" xaricdə futbol biznesi ilə məşğul olmağa başladı. 1998-ci ilin əvvəlində isə Milli Məclisin keçmiş sədri R.Quliyev "kölgə neft maqnatı" kimi 70 mln. dolların mənimsənilməsində ittiham olundu. 1996-cı ilin sonlarında ABŞ-a mühacirət edən ekspiker də öz növbəsində Azərbaycan rəhbərliyinə qarşı analoji "neft ittihamı" ilə çıxış edərək onun irimiqyaslı korrupsiyaya qurşandığını bildirdi.

Yenə də bəzi ekspert təhlillərinə görə, neft strategiyası daxilindəki bu və digər "kölgə oyun"ları isə "hakimiyyətin korrupsiyalaşması miqyasına görə ölkələrin müxtəlif reytinqləri"ndə Azərbaycanın Nigeriya ilə qonşuluqda, yəni ilkin yerlərdən birini tutmasına əsas vermişdir. Təsadüfi deyil ki, Dünya Bankının prezidenti C.Vulfenson hələ 1999-cu il mayın 31-də Bakıda keçirdiyi mətbuat konfransında demişdi ki, "neft müqavilələrindən pulların daxilolmağa başladığı yaxın illər Azərbaycan üçün taleyüklü olacaqdır. Belə ki, bir tərəfdən, neft gəlirləri və digər yandansa, məşğulluq və yoxsulluq problemləri arasında disbalans vardır. Adamların neft gəlirlərinin hara yönəldildiyini və necə xərclənildiyini görmələri üçün vaxtilə biz "Azərbaycan Neft Fondu"nu yaratmağı təklif etmişdik. Ancaq "şəffaf" hakimiyyətdə belə fondun təşkilinə ehtiyac qalmır. Azərbaycan rəhbərliyi islahatları davam etdirmək və korrupsiya ilə mübarizə aparmaq niyyətindədir, çünki korrupsiyalaşmış hakimiyyətdə dayanıqlı inkişaf yoxdur. Pis idarəçilik və korrupsiya-inkişafı ləngidən amillərdir".

"Transparency İnternational" Beynəlxalq Şəffaflıq Təşkilatının açıqlamasına (17.XI.2009) görə, Azərbaycan korrupsiyanın səviyyəsi cəhətdən **180 ölkə arasında 143-cü yer**dədir. Bu göstəriciyə görə Filippin, Nepal, Nigeriya və s. ilə "qonşu" olan Azərbaycan korrupsiyanın yüksək səviyyəsi baxımından Qafqazda liderdir (Ermənistan bir qədər geriləsə də, Azərbaycandan yuxarıda, yəni 120-ci yerdədir. Gürcüstansa AR-dən iki dəfəyə qədər yuxarı pillədə (66-cı yerdə) dayanır. Rusiya isə ölkəmizdən üç pillə geridə, yəni 146-cı sıradadır). Adıçəkilən təşkilatın qənaətincə, əvvəlki illə müqayisədə 2009-cu ildə Azərbaycanda korrupsiya şəraitinin cüzi də olsa yaxşılaşması baş veribdir. Bununsa ölkədə biznes mühitinin yaxşılaşdırılması və korrupsiyaya qarşı zəif də olsa aparılan mübarizə sahəsində görülən işlərlə əlaqədar olduğu bildirilir.

Ancaq Dünya Bankının (DB-nın) 183 ölkəni əhatə edən **"Biznesin araşdırılması" ("Doing Business-2010") hesabatından (IX.2009)** göründüyü kimi, Azərbaycan biznes mühiti sahəsində də 5 pillə geriləyərək 33-cü yerdən 38-ci sıraya düşübdür. (Gürcüstan 11-ci, Ermənistansa 43-cü yerdə bərqərar olublar). Halbuki bu maliyyə qurumunun ötənilki hesabatında AR-in 2007-ci ildəki 99-cu yerdən xeyli (66 pillə) irəliləməsi qeyd olunmuşdu (Sözgəlişi, DB-nin bir çox rəsmilərinin özləri Azərbaycanı korrupsiyalaşmış ölkə sayaraq burada biznes mühitinin yaxşılaşması qənaətini gülünc hesab etmişdilər). Habelə Azərbaycan ən islahatçı ölkə elan edilmişdi. Bu zaman da biznes mühitinin yaxşılaşdırılması sahəsində ən böyük uğur sayıla biləcək addım, yəni biznesin qeydiyyatında vahid pəncərə sisteminə keçid əsas götürülmüşdü. Bütövlükdə isə, 2008-

ci ilə dair hesabat qalmaqal yaratdı və onu hazırlayan ekspertlərin ölkəmizə "isti münasibəti" ilə əlaqələndirildi, bu sahədə "Azərbaycan təcrübəsi" anlayışını formalaşdırdı.

Neft gəlirləri ilə bağlı qeyri-şəffaflıq özünü daha çox "ARDNF"-in statusu və fəaliyyətiylə əlaqədar məsələlərdə göstərir. Yeri gəlmişkən, AR prezidentinin 240 saylı fərmanı (29.XII.1999) ilə "ARDNF" yaradılmış və onun digər-üzü nömrəli fərmanıyla isə (29.XII.2000) **"ARDNF"-in "Əsasnaməsi"** təsdiqlənmişdir. H.Əliyevin 2001-ci il 19 iyun tarixli (511 saylı) fərmanı ilə "Neft fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında" qaydaların təsdiqindən sonra onun əməli fəaliyyətinə rəvac verilmişdir. Ancaq "ARDNF"-in fəaliyyətinə dair hansısa bir proqramın indiyədək ictimaiyyətə təqdim edilməməsi, qurumun büdcəsinin Milli Məclisin müzakirə və təsdiqinə verilməməsi onun fəaliyyətindəki qeyri-şəffaflıq barədə rəylər yaratmışdır.

Tarixi neft ölkəsində **"Neft qanunu"nun hələ də qəbul olunmaması, həmçinin Neft Fondu haqqında qanunun yoxluğu,** onun gəlirləri və xərcləri məsələlərinin prezident sərəncamları ilə müəyyənləşdirilməsi, yəni monoidarəçilik, ARDNF-dən xərcləmələrlə bağlı problemlər də müəyyən fərqli yanaşmaları ortaya çıxarmışdır. Azərbaycan Neftçilərinin Hüquqlarını Müdafiə Komitəsi ekspert qurupunun araşdırmaları "ARDNF"-dən xərcləmələrin xeyli artmasını, onun gəlirlilik səviyyəsinin enməsini, qurumun investisiya portfelinin idarə olunmasında problemlərin və digər xoşagəlməz halların çoxalmasını göstərir. Ekspert hesablamalarından da göründüyü kimi, "mənfəət neftinin xərclənməsi" dövrünün başlanmasından (2001-ci ildən) 2009-cu il yanvarın 1-dək olan müddətdə "ARDNF"-ə yığılan maliyyə vəsaitinin təqribən 7 mlrd. 45,4 mln. manatı (təxminən 9 mlrd. ABŞ dolları), yəni fonda ümumi daxilolmaların 42,4 faizi sərf edilmişdir. 2009-cu ildə isə daha 5 mlrd.319,5 mln. manatın, yəni 6,5 mlrd. dolların xərclənməsi nəzərdə tutulurdu. Halbuki neftin dünya bazar qiymətinin 1 barrel=40 dollar ətrafında olacağı təqdirdə fondun 2009-cu ildə vur-tut 8 mlrd. manata yaxın gəlir əldə edə biləcəyi ehtimal olunurdu. "ARDNF"-in investisiya portfelində vəsaitlərin 94 faizinin hazırkı dünya maliyyə böhranı şəraitində dəyərdən düşən qiymətli kağızlara yerləşdirilməsi də anlaşılmazdır və neft pullarını risk altına qoyur.

Həmçinin Neft fondu heç də gəlirli qurum sayılmır. Belə ki, onun vəsaitlərinin orta gəlirliliyi 2007-ci ildə 4,5 faiz olmuşdusa, 2008-ci ildə bu göstərici 3,8%-ə düşməklə, ümumiyyətlə, 1-2 faiz ətrafındadır ("Norveç Neft Fondu"nun bu göstəricisi isə təxminən 4 faizə yaxındır). Fondun icraçı direktoru Ş.Mövsümovun açıqlamalarına görə, qurumun vəsaitləri daha çox xarici dövlətlərin qiymətli kağızlarının, xüsusilə də ABŞ bondlarının alınmasına yönəldilir; onların da gəlirlilik səviyyəsi olduqca (2 faizdən də) aşağıdır. 2009-cu ildə ilk dəfə olaraq "ARDNF"-in xərcləri gəlirlərini üstələyibdir, yəni artıq yığıma vəsait yönəldilməsi çətinliklə üzləşibdir. Dövlət səviyyəsində inhisarçılıq üzündən dünya maliyyə böhranı şəraitində xaricdəki valyuta ehtiyatlarından 2,5 mlrd.manatın ölkəyə gətirilərək banklara və real sektora yönəldilməsi də baş tutmadı. Beynəlxalq maliyyə böhranı üzündən Milli Bankın manatın məzənnəsinin (kursunun) sabit saxlanması üçün etdiyi müdaxilələrin bu sürətlə və qayda ilə davamının çox baha başa gələcəyi gözlənilir. (2009-cu ildə buna 1,2-1,6 mlrd. man. xərcləndiyi bildirilir).

Fondun neft gəlirlərinin idarə edilməsi ilə bağlı yetərincə əsaslandırılmış və kompleks şəkildə işlənmiş strategiyası-proqramının olmaması da rahatsızlıq yaradır. Halbuki vaxtilə Dünya Bankı, BVF, Yaponiyanın sərmayə strukturları və digərləri tərəfindən müxtəlif təkliflər də olmuşdu. Məsələn, yaponlar hələ 1996-cı ildə ilk **mənfəət neftinin gəlirlərinin toplanacağı qurumun** təşkilini, onların xərclənməsinə dair qısamüddətli (5 ilədək), orta müddətli (15-20 ilədək), uzunmüddətli (30 ilədək) hökumət proqramlarının hazırlanmasını və onlara müvafiq olaraq da ölkənin gələcək inkişafının prioritet sahələrinin müəyyənləşdirilməsini tövsiyə etmişdilər. Habelə neft gəlirlərindən

səmərəli istifadə və onların ədalətli bölgüsü məsələlərində vətəndaş cəmiyyətinin (ictimaiyyətin) rolunun artırılması da lazım bilinmişdi. Hətta Azərbaycan hökumətinə Nigeriya, Anqola, İndoneziya (Suxarto ailəsinin 37 mlrd. dollar dövlət vəsaitini mənimsəməkdə ittiham olunması) "modellərinin fəsadları-acı nəticələri də xatırladılmışdı.

8.Neft və digər enerji gəlirləri həm də gələcək nəsillər üçün nəzərdə tutulur və onların ümid yeri olmalıdır.Büdcə xərclərinin artırıldığı bir şəraitdə infrastrukturun yetərli genişlənməməsi, qeyri-neft sektorunun zəif inkişafı və sosial problemlərin həllini tapmaması ciddi rahatsızlıq yaradır. Dünya neft bazarında qiymətlərin kəskin düşməsi (1 barrelin 2008-ci ilin yayındakı 147-150 dollardan azalaraq 2009-cu ildə 40-60 dollar həndəvərində dolaşması), qlobal böhranın təsiri və s. üzündən büdcəyə bütün (xüsusilə də neft gəlirlərindən) daxilolmaların xeyli azalması gözlənilməndir. Belə bir arzuolunmaz perspektivə dövlətin xarici borclarının artmasının əlavə olunması xoşagəlməz, bəlkə də ağır iqtisadi durum vəd edir. Hazırda xarici dövlət borcunun həcmi təxminən 7,179 mlrd. dollardır. Onun da yalnız 3,072 mlrd. dolları dövlət təminatlıdır. Dövlətin xarici borcu ÜDM-in 21,3%-ni təşkil edir. Bu halda da adambaşına xarici borcun 320 dollara çatdığı məlum olur. Dövlət təminatlı borcların qaytarılmasına sərf olunan valyuta ehtiyatlarının həcmi 2002-ci ildəki 50 mln. dollardan xeyli artaraq 2008-ci ildə 174 mln. dolları təşkil etmişdir.

Digər yandan da, ölkə daxilində "Azərsu", "Azəriqaz" və "Azərenerji"nin dövlət büdcəsinə hazırda təxminən 2,7 mlrd. man. borclu qalması da məqbul sayıla bilməz. (Sözgəlişi, prezidentin sərəncamı ilə əhalinin "Azəriqaz"a borcları silinmişdir). Öz növbəsində əhalinin də həmin strukturlara sanballı məbləğdə borclu qalması və neft ölkəsi sayılan Azərbaycanda 1 litr benzinin 46 sent (halbuki digərlərində, məsələn, Türkmənistanda - 2, Venesuelada-3, İranda-9, Liviyada-13, Səudiyyə Ərəbistanında-16 sent və s.) olması da müsbət hal deyildir. (Xaricə

1 ton benzinin 341,8 dollara, dizel yanacağınınsa 443,75 dollara satıldığı halda, daxili satışda bu qiymətlər müvafiq olaraq 908 və 598 dollar təşkil edir).

Azərbaycanın **"neft-qaz diplomatiyası"nın ilkin nəticələri və perspektivləri** məsələlərinin təhlilinə xülasə verərkən bu kimi **qənaətlərə** gəlmək mümkündür:

Birincisi, AR-in neft strategiyasının reallaşdırılmasının indiki mərhələsində və hazırkı mövcud durumunda **ölkəmizin "neft qərbləşməsi (norveçləşməsi)" və ya "küveytləşməsi" imkanları** olduqca azdır. Bu şəraitdə hələlik başlıca iş "neft illüziyaları"ndan uzaq duraraq **"Holland xəstəliyi"**nə yoluxmaqdan və **"Nigeriya faciəsi"**ni yaşamaqdan yayınmaqdan ibarət olmalıdır.

Bir çox ekspert-iqtisadçıların rəylərinə görə 2010-cu ilə dair dövlət büdcəsinin bəzi göstəriciləri xeyli rahatsızlıq yaradır. Onların fikrincə, **müstəqil AR-in ilk büdcəsinin qəbulundan (1993-cü ildən) sonra hökumət ilk dəfə olaraq izafi gəlirlərin necə bölüşdürülməsinin çətinliyi ilə deyil, yüksək artıma meylli olan büdcə xərcləmələrində vəsait çatışmazlığı problemiylə üzləşibdir.** Belə ki, adətən, artımla proqnozlaşdırılan büdcənin ilk dəfə kəskin azalma ilə müəyyənləşdirilməsi müxtəlif rəylər yaratmışdır. (2010-cu ilin dövlət büdcəsinin gəlirləri 10 mlrd. 15 mln. manat və xərcləri isə 11 mlrd. 264 mln. man. olaraq təsdiqlənmişdir. Büdcə kəsirinin yuxarı həddi 1.249.000,0 man. hesablanmışdır). Son illərin bir qayda olaraq artan büdcə imkanları şəraitində bu cür **kəskin azalmalar ölkənin sosial-iqtisadi həyatı üçün ciddi siqnal** kimi də səciyyələndirilir.

Bu azalmalar əsasən ümumi konyukturun pisləşməsi, yəni dünya iqtisadi maliyyə böhranı və 2010-cu ilin büdcəsində neftin qiymətinin 45 dollar səviyyəsində hesablanması ilə əlaqələndirilir (2008-ci ilin ikinci yarısı və 2009-cu ildə isə dünya qiyməti 45-50 dollar olduğu halda 70 dollar götürülmüşdü). Bəzi iqtisadçılar 2010-cu ildə 53-55 mln. ton neft hasilatını və

"Azəri-Çıraq-Günəşli" mənfəət neftinin bölünməsinin ilboyu 80-20 nisbətində qalacağını əsas tutaraq neftin 50 dollardan (bəziləri hətta 55 dollardan) hesablanmasını və bu halda büdcənin gəlir hissəsinin 12 mlrd. man. səviyyəsində saxlanmasını mümkün sayırlar (Müqayisə üçün, Rusiyanın 2010-2012-ci illərdə 54-57 dollar civarında hesablamaya üstünlük verəcəyi məlum olubdur).

İkincisi, müasir neft strategiyasının ölkənin gələcəyi və milli maraqlar kontekstində nəzərdən keçirilməsi lazım gəlir. (Onun hətta **"konservləşdirilməsi"**ni zəruri hesab edən baxışlar və mövqelər də mövcuddur). Bu zaman "neft müqavilələri bolluğu"na son qoyulması, bir sıra neft-qaz yataqlarının ölkənin gələcəyi üçün saxlanılması və digər taleyüklü məqamlar önə çəkilməlidir. Bu zaman **Beynəlxalq Enerji Agentliyinin (BEA-nın)** "qlobal yanacaq ehtiyatları tükənir, yaxın beş ildə dünyada böyük neft qıtlığı yarana, bu da dünya maliyyə-iqtisadi böhranını daha uzunmüddətli edə bilər" xəbərdarlığının nəzərə alınması vacibdir. Dünyadakı 800 aparıcı neft yatağının və ya qlobal ehtiyatların ¾-nün vəziyyətini təfərrüatlarıyla dəyərləndirirən BEA-nın qənaətləri belədir: dünyanın əsas neft yataqlarında istehsal özünün ən yüksək nöqtəsini keçibdir; neft hasilatı iki il əvvəlkinə nisbətən iki dəfə çox sürətlə aşağı düşməkdədir; başlıca problemlərdən biri neft istehsal edən ölkələrin bu sahəyə lazım olan sərmayələri yatırmamasıdır; bu isə yaxın beş ildə neft böhranına səbəb ola və qlobal iqtisadi sağlamlaşmağa ciddi ziyan vura bilər; ümumiyyətlə isə, **"neft bizimlə üzülüşməmiş, gərək biz onunla üzülüşək,"** çünki iqtisadi-sosial sistemlər əsasən neft üzərində qurulduğundan (dayandığından) onların dəyişməsinə çoxlu vəsait və xeyli zaman tələb olunacaqdır.

Ekspertlər həmçinin "qara qızıl"ın qiymətində davamlı artımlar olacağına ümid bəsləməyə də yetərli əsaslar görmürlər. Bunu neftin qiymətində 2008-2009-cu illərdə baş verən "oynamalar, yəni kəskin enmələr-sıçrayışlar" da təsdiqləyir (Belə ki, neftin qiyməti qısa müddətdə qalxdığı 149 dollardan az vaxt

ərzində 37 dollara düşmüş və yenidən 79 dollar həddinə çatmışdı). Ümumiyyətlə, **neftin qiyməti son dönəmlərdə ən kəskin olaraq** 1973-1974-cü və 1979-1980-ci illərdə artıbdır. 2008-ci ilin ortaları üçün olan artım 150% idisə, 1975-1984-cü illərdə bu göstərici 250% olmuşdur. 1980-ci illərin əvvəlində kəskin şəkildə enən qiymətlər 2000-ci illərədək qalxmamışdı. Bəzi təhlillər neftin qiymətinin uzun müddət aşağı olmasını SSRİ-nin dağılmasını sürətləndirən amillərdən biri kimi səciyyələndirməyə əsas verir.

Üçüncüsü, neft gəlirlərinin ölkədə kütləvi rüşvətxorluq və irimiqyaslı korrupsiyanın deyil, hərbi qüdrətin və ona dayanan diplomatik gücün təşəkkülünə, ərazi bütövlüyümüzün təminatına, iqtisadiyyat, təhsil, elm, mədəniyyət, sosial həyat və b. sahələrin çiçəklənməsinə xidmət etməsi **başlıca prioritet istiqamət** olmalıdır.

Dördüncüsü, ölkədə inkişaf ilə yoxsulluq arasındakı disbalansın tezliklə və ağrılarsız aradan qaldırılmasına, təbii sərvətlərin (karbohidrogen ehtiyatları və s.) **"korrupsiyalaşmış elita"**nı daha da zənginləşdirməsi yollarının qətiyyətlə bağlanmasına, bununla da əsl hüquqi dövlətin-vətəndaş cəmiyyətinin qurulmasına nail olunmasına çalışılmalıdır..

Beşincisi, bəşəriyyətin **"neft beşikləri"**ndən olan Azərbaycanın **çağdaş dünyanın qlobal neft mərkəzlərindən birinə** çevrilməsinin təmin edilməsi dövlətimizin **başlıca vəzifəsi** olaraq önə çəkilməlidir. **Bu məqsədlə** də çoxsaylı əngəllərin aradan qaldırılması, neft gəlirlərindən ən optimal istifadə yollarının seçilməsi, daha çox yanacaq-enerji ehtiyatlarının deyil, onların məhsullarının satılmasına çalışılması, bu kontekstdə də qeyri-neft sektorunun ixracatının heç olmazsa 40%-ə çatdırılması, neft maşınqayırma sənayesi sahəsində heç olmazsa, əvvəlki imkanların, habelə Bakının keçmişdəki "Neft akademiyası" statusunun bərpası, neft mənfəətlərinin insan kapitalının, intellektual potensialın inkişafına, **gələcək nəsillərin etibarlı təminatına** yönəldilməsi çox zəruridir.

DÖRDÜNCÜ BÖLÜM

AZƏRBAYCAN RESPUBLİKASININ QƏRB DÖVLƏTLƏRİ İLƏ MÜNASIBƏTLƏRI

Respublikamızın beynəlxalq siyasətində Qərb dövlətləri ilə münasibətlər xüsusi yer tutur. AR-in xarici siyasətində Qərb istiqamətinə xüsusi önəm verilməsi **bir sıra amillərlə** şərtlənir. **Onlardan başlıcaları** Azərbaycanın qloballaşma və Transatlantika məkanına inteqrasiya poseslərində labüd iştirakı, "köhnə" və "yeni" dünyaların beynəlxalq həyata ciddi təsiri, ölkəmizin üzləşdiyi problemlərin (ərazi bütövlüyünün təminatı və digər) həllində Qərblə hərtərəfli əməkdaşlığın üstünlüklərindən istifadə və s. ibarətdir.

Azərbaycanın xarici siyasətinin **Qərb istiqamətinin əsas aparıcı xətləri** sırasında isə Transatlantika məkanındakı proseslərə qatılma, Avropanın enerji təhlükəsizliyinin təminatında iştirak, Güney Qafqazda etnik-ərazi münaqişələrinin ədalətli şəkildə tənzimlənməsi və demokratiyanın daha da inkişafı sahələrində çoxşaxəli əməkdaşlıq, Qərbin ayrı-ayrı dövlətləri ilə hərtərəfli əlaqələrin yaradılması (genişləndirilməsi) önə çəkilə bilər. Qərb ölkələri ilə münasibətlərdə Avropa dövlətləri və ABŞ-la əlaqələr böyük əhəmiyyətə malikdir.

Böyük Britaniya ilə münasibətlər: əsas istiqamətlər və nəticələr

Avropa dövlətləri ilə münasibətlərdə "köhnə dünya"nın qədim, nüfuzlu ölkələrindən və beynəlxalq siyasətin çoxəsrlik sözsahiblərindən sayılan Böyük Britaniya ilə əlaqələrin ayrıca yeri vardır. Təxminən altı yüzillik bir tarixə malik olan Azərbaycan-İngiltərə qarşılıqlı əlaqələri çağdaş dönəmdə də zərurət

təşkil edir və bir sıra amillərlə şərtlənir. Araşdırmaçılardan E.Məmmədli və b. da qeyd etdikləri kimi, **İngiltərə ilə çoxşaxəli əməkdaşlığa böyük önəm verən AR bunları nəzərə alır:**

- Birləşmiş Krallığın dünyanın iqtisadi cəhətdən yüksək səviyyədə inkişaf etmiş dövlətlərdən biri kimi tanınması;
- İngiltərənin müasir beynəlxalq siyasətdə aparıcı dövlətlərdən sayılması və Ermənistanın ölkəmizə hərbi təcavüzünün aradan qaldırılmasına təsir imkanlarına malik olması;
- ölkəmizin "Avropa evi"nə inteqrasiyası, beynəlxalq təşkilatların fəaliyyətinə qatılması, dünyada öz nüfuzunu daha da artırması, respublikamızda demokratiyanın, parlamentçilik ənənələrinin inkişafı və s. sahələrdə Böyük Britaniyanın dəstəyi və təcrübəsindən faydalanma.

Öz növbəsində Azərbaycanla münasibətlərin genişləndirilməsində Birləşmiş Krallığın da **üstünlük verdiyi və önə çəkdiyi** məqamlar vardır:

- "Odlar yurdu"nun zəngin karbohidrogen ehtiyatlarından yararlanma;
- ölkəmizin geostrateji mövqeyindən faydalanma;
- Azərbaycanın timsalında özünə regional tərəfdaş qazanma və s.

Bütün bu kimi qarşılıqlı maraqlar da dövlətlərarası münasibətlərin qurulmasına çox güclü təkan olmuşdur. Azərbaycanla birbaşa əlaqələrə dəyər verən ingilis diplomatiyası hələ ölkəmizin şimalında dövlətçiliyin yenidən bərpası ərəfəsində müəyyən "kəşfiyyat tədbirləri" gördü. Belə ki, İngiltərənin SSRİ-dəki səfiri R.Breytveyt Bakıya gələrək (3.III.1991 respublikanın prezidenti A.Mütəllibovla bir sıra müzakirələr apardı. Azərbaycanın dövlət müstəqilliyi – daha yeddi postsovet respublikası ilə birlikdə-İngiltərə tərəfindən tezliklə (31.XII.1991) tanındı. Forin Ofisin başçısı D.Hoqqun AR-ə rəsmi səfəri (11.III.1992) və respublikanın o vaxtkı rəhbərləri (Y.Məmmədov, H.Həsənov) ilə danışıqlar aparması, dövlətlər arasında diplomatik münasibətlərin qurulmasına dair Memorandum imzalanması qarşılıqlı əlaqələrə rəvac verdi. Həmin Memorandum ikitərəfli

diplomatik münasibətlər üçün hüquqi baza rolunu oynadı.

Tezliklə (15.VII.1992) İngiltərənin Rusiyadakı səfiri B.Foll əvəzçiliklə akreditə edildi. 1993-cü ilin fevralında isə Azərbaycanda səfirlik açıldı (Sözgəlişi, Böyük Britaniya bu dövrdə Gürcüstanda və Ermənistanda hələ öz səfirliklərini açmamışdı). Bir qədər sonra (23.IX.1992) AR MM-i (sədri İ.Qəmbər) Azərbaycanın İngiltərədə diplomatik nümayəndəliyinin açılması barədə qərar qəbul etdi. Bu məsələ bir qədər sonra, yəni dövlət başçısı H.Əliyevin Londona rəsmi səfərinin (II.1994) gedişində qətiləşdirildi. M.Məmmədquliyev həmin **böyük elçiliyin ilk başçısı** oldu (30.III.1994).

Azərbaycan-Böyük Britaniya **dövlətlərarası əlaqələrinin ilkin çağları** bir sıra mühüm hadisələrlə yadda qaldı. Onlardan biri, yəni Birləşmiş Krallığın keçmiş Baş naziri, baronessa, **"dəmir xanım" M.Tetçerin ölkəmizə qeyri-rəsmi səfəri (IX.1992)** dövlətlərarası əlaqələrdə mühüm mərhələ sayıla bilər. Bu və sonrakı müxtəlif səpkili qarşılıqlı səfərlər Qərb ölkələrində Azərbaycana etimadın artması və möhkəmlənməsinə ciddi təsir göstərən vasitə kimi də dəyərləndirilir. M.Tetçerin, **prezident Ə.Elçibəyin dəvəti** əsasında alınan, bu missiyası İngiltərənin Azərbaycana və, xüsusilə də onun neftinə göstərdiyi böyük marağın ifadəsi idi (Yeri gəlmişkən, 1990-cı ilin qanlı yanvar hadisələri zamanı **"dəmir xanım"**ın "Qorbaçovun əmrini bəyənməsi"ndən təəssüfləndiyini bildirən Ə.Elçibəy sabiq Baş nazir tərəfindən "hələ soyuq müharibə dövründə dünyanın düzəlməsi üçün həyatları bahasına mübarizə aparan adam" olaraq dəyərləndirilmişdi).

Onun səfərində başlıca məqsəd təmsil etdiyi "Britiş Petroleum" neft şirkətinin Azərbaycanla sıx əlaqələrini yaratmaqdan ibarət idi. Və buna da nail olundu. Belə ki, o, Azərbaycan hökumətiylə "BiPi"/"Statoyl" alyansı arasında "Çıraq" yatağında və perspektivli "Şahdəniz" sahəsində ehtiyatların müəyyənləşdirilməsi və hazırlıq işlərinin aparılması barədə sazişin imzalanması mərasimində iştirak etdi. Həmin müqavilə Azərbaycanın müasir dövrdə xarici dövlətlərlə (şirkətlərlə) **neft əməkdaşlığı sahəsində ilk ən ciddi addımı və İngiltərənin ölkəmizin müstəqilliyinə verdiyi güclü siyasi-mənəvi dəstək idi.**

Ölkələrarası əməkdaşlığın şaxələnməsi və intensivləşməsinə Birləşmiş Krallığın ticarət və sənaye naziri (İngiltərə Ticarət Şurasının prezidenti) M.Hezeltaynın Bakıya gəlişi (IX.1992) və AR-in Baş naziri P.Hüseynovun Londona rəsmi səfəri (V.1993) də önəmli təsir göstərdi. Birincinin səfəri zamanı hökumətlərarası iqtisadi əməkdaşlıq haqqında bəyannamə imzalandı. İkincinin missiyası da ölkələr arasında ticarət-iqtisadi əməkdaşlığa və investisiyaların müdafiəsinə dair razılaşmalarla nəticələndi. Qarşılıqlı diplomatik uzlaşma əsasında hətta Ə.Elçibəyin 1993-cü il iyulun sonu üçün İngiltərəyə rəsmi səfəri də planlaşdırılmışdı. Amma Azərbaycanın xarici və daxili düşmənlərinin qiyamı onun reallaşmasına imkan vermədi. Bununla bağlı elmi mərkəzlərin və siyasi dairələrin belə bir qənaəti də olmuşdu: həmin səfərin baş tutması, onun gedişində və az sonra bir sıra beynəlxalq neft kontraktlarının bağlanması ilə milli-demokratik qüvvələrin iqtidarı öz mövqelərini xeyli möhkəmləndirmək və proseslərin dönməzliyini təmin etmək imkanları qazanardı.

H.Əliyev də Böyük Britaniya ilə münasibətlərin inkişafında çox maraqlı idi və buna səylər göstərirdi. Onun prezident statusunda qəbul etdiyi (12.X.1993) **ilk xarici dövlət adamı** da ingilis baş diplomatı D.Hoqq oldu.(D.Hoqq AR-ə bu səfəri zamanı azərbaycanlı həmkarı H.Həsənovla hökumətlərarası Memorandum və iki ölkə XİN-ləri arasında münasibətlərə dair Bəyannamə imzaladı). H.Əliyev özünün xarici dövlətlərə ilkin rəsmi səfərlərindən birini də İngiltərəyə etdi (22-25.II.1994). Səfərin gedişində Böyük Britaniya rəsmiləri (Baş nazir C.Meycor və b.), işgüzar dairələrin təmsilçiləri ilə çoxsaylı görüşlər keçirildi. Habelə ölkələr arasında "Dostluq və əməkdaşlıq haqqında birgə Bəyannamə" (23.II.1994), iqtisadi əməkdaşlığa və mədəni əlaqələrə aid memorandumlar, investisiyaların qorun-

ması barədə saziş imzalandı.

Onun Birləşmiş Krallığa işgüzar (XI-XII.1995) və ikinci rəsmi (VII.1998) səfərləri də qarşılıqlı əlaqələrin daha da genişlənməsi və beynəlxalq aləmdə sıx əməkdaşlıq baxımından çox faydalı oldu. İşgüzar səfərdə başlıca məqsəd Adam Smit institutunun "Azərbaycanda investisiya imkanları" mövzusunda keçirdiyi birinci beynəlxalq elmi konfransda iştirak etmək idi. Həmin səfərin mühüm bir nəticəsi Azərbaycan-Böyük Britaniya Ticarət və Sənaye Şurasının təşkili barədə Memorandum imzalanması oldu. Bu zaman həm də AR-in İngiltərədəki diplomatik nümayəndəliyinin yeni binasının açılışı mərasimi keçirildi.

İkinci rəsmi səfərin də **faydalı nəticələri** oldu: **1.** Baş nazir T.Bleyer Azərbaycanın İngiltərənin strateji müttəfiqi olduğunu bildirdi. **2.** Ölkəmizin müstəqilliyi və ərazi bütövlüyünün İngiltərə tərəfindən dəstəkləndiyi təkrarlandı. **3.** Böyük Britaniyanın neft şirkətləri ilə müqavilələr bağlandı. **4.** Prezidentin kraliça II Yelizaveta ilə **ilk rəsmi görüşü** baş tutdu və Şotlandiyaya da səfər edildi. **5.** "Azərbaycanda biznes" mövzusunda beynəlxalq konfrans, İngiltərə-Azərbaycan Cəmiyyətinin toplantısı oldu və s. (Sözgəlişi, 1997-ci ilin noyabrında yaradılan bu cəmiyyət **Azərbaycanın dünyadakı ilk lobbi təşkilatlarından** hesab olunur. Bir xeyli tanınmış, nüfuzlu dövlət və iş adamlarını, 50-dən çox şirkəti özündə birləşdirən cəmiyyətə rəhbərlik ilk vaxtlarda M.Məmmədquliyev və sabiq ingilis baş diplomatı D.Hoqq tərəfindən həyata keçirilirdi; onun sədrləri isə energetika üzrə keçmiş Dövlət naziri T.Eqqar, lord Freyzer və b. olmuşlar).

Azərbaycan Respublikası-Birləşmiş Krallıq münasibətlərinin inkişafında ikincinin XİN-i M.Rifkindin Bakıya rəsmi səfəri (I.1996), İngiltərə təmsilçilərinin tarixi İpək yolunun bərpasına dair beynəlxalq Bakı konfransında (IX.1998) iştirakı, ikitərəfli təhlükəsizlik dialoqunun ilk raundu (London, VII.1999), "Azərbaycan: XXI əsrə doğru" seminarı (London, XII.1999) kimi tədbirlərin xüsusi önəmi danılmazdır. Dövlətlərarası əla-

qələrdə hərbi sahədə əməkdaşlığa da (əsasən hərbi təcrübənin öyrənilməsi, hərbi təhsil və digər istiqamətlərdə) diqqət yetirilir. Azərbaycan beynəlxalq təşkilatlara daxil olarkən də Böyük Britaniya diplomatiyasının dəstəyini almışdır.

Ölkələrimizin çoxşaxəli əməkdaşlığının aparıcı xətlərindən birini də parlamentlərarası əlaqələr təşkil edir. Çoxəsrlik tarixə, ənənələrə və təcrübəyə malik olan **İngiltərə parlamenti ilə rəsmi əlaqələrimizin başlanğıcı** 1993-cü ilin may-iyun aylarına təsadüf edir. Həmin dövrdə İngiltərə parlamentarilərinin bir qrupu AR-ə rəsmi səfərə gələrək dövlətimizin rəhbərləri (Ə.Elçibəy, İ.Qəmbər və b.) ilə müzakirələr aparmışdılar. Parlamentlərarası əlaqələrin təkmilləşdirilməsi məqsədilə müəyyən strukturlar da təşkil edildi. Birləşmiş Krallığın qanunverici hakimiyyət orqanında Britaniya-Azərbaycan Parlament Qrupu, Azərbaycan Milli Məclisində isə İngiltərə ilə dostluq qrupu yaradıldı. Böyük Britaniya parlamentinin İcmalar Palatasında aparılan müzakirələrdə (19.V.1994) ölkəmizin ərazi bütövlüyü ilə əlaqədar məsələ qaldırıldı. Britaniya-Azərbaycan Parlament Qrupunun üzvü, lord Klənvilyam öz hökumətinə ABŞ-ın "Azadlığı Müdafiə Aktı"na "907-ci düzəliş"in ləğvi sahəsində göstərdiyi fəaliyyətlə bağlı sorğu göndərdi (13.X.1999).

Birləşmiş Krallığın parlamentariləri AR-in NATO PA-nın assosiativ üzvlüyünə qəbulu sahəsində də müəyyən səylər göstərdilər. Azərbaycan MM-in müxtəlif strukturları və ayrı-ayrı üzvləri **"Cənubi Qafqaz Parlament Təşəbbüsü"** layihəsi çərçivəsində də Böyük Britaniya qanun yaradanlarıyla əməkdaşlıq edirlər. Ölkə parlamentinin spikeri M.Əliəsgərovun başçılıq etdiyi nümayəndə heyəti 2003-cü ilin martında İngiltərədə rəsmi səfərdə oldu. Çoxsaylı görüşlər və müzakirələrlə səciyyələnən bu səfər zamanı Güney Qafqazdakı münaqişələrin həlli yolları, qanunvericilik təcrübəsinin qarşılıqlı şəkildə öyrənilməsi kimi mühüm məsələlər nəzərdən keçirildi. İki dövlətin parlamentləri arasındakı əlaqələr inkişaf etməkdə və faydalılıq əmsalını artırmaqdadır.

Azərbaycan-İngiltərə münasibətlərinə Böyük Britaniyanın rəsmi dairələri və ictimaiyyətinin "**Dağlıq Qarabağ problemi"nin həlli ilə bağlı mövqeyi** də ciddi təsir göstərir. AR Birləşmiş Krallıqla diplomatik əlaqələr yaradıb münasibətlər qurduğu vaxtlardan etibarən İngiltərə hökumətini və cəmiyyətini Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, hərbi təcavüzü barədə ətraflı və obyektivcəsinə məlumatlandırmağa çalışdı. Bu məsələ müxtəlif səpkili çoxsaylı danışıqların və müzakirələrin başlıca obyektinə çevrildi.

"İngiltərənin əbədi dostları və əbədi düşmənləri yoxdur, əbədi maraqları vardır" (Palmertson) prinsipinə daima sadiq qalan Böyük Britaniya dövləti yenə də özünün mənafelərindən (ən çox da ölkəmizin karbohidrogen ehtiyatlarından maksimum faydalanmaqla bağlı) çıxış edərək bu məsələdə əsasən ədalətli mövqe tutur. Bunu təsdiqləyə biləcək faktlar ortadadır:

1. Birləşmiş Krallıq hökumətinin 1993-cü il aprelin 14-də, iyulun-27-də, oktyabrın 29-da verdiyi bəyanatlarda Ermənistanın Azərbaycan torpaqlarının işğalını davam etdirməsi qətiyyətlə pislənilirdi və tutulan ərazilərin dərhal boşaldılması istənilirdi.

2. C.Meycorun Ə.Elçibəyə məktublarında (IX.1992 və 6.IV.1993) Böyük Britaniya hökumətinin belə bir yanaşması aşıqlanırdı: "...Dağlıq Qarabağın rəsmi statusu məsələsi müzakirə mövzusu ola bilməz-bu, Azərbaycan ərazisidir".Baş nazirin məktublarında habelə münaqişənin ATƏM-in "Minsk prosesi" çərçivəsində sülh-danışıqlar yolu ilə tənzimlənməsinə üstünlük verildiyi vurğulanırdı. **H.Əliyevlə aparılan danışıqlarda** da Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olması dəfələrlə bildirilmiş və ona hər hansı bir statusun, yəni siyasi, mədəni muxtariyyət və ya xüsusi iqtisadi hüquqların verilməsi AR-in öz (daxili) işi sayılmışdı. Həmçinin Azərbaycan prezidentinin **"nə sülh, nə də müharibə" vəziyyətinin** yaramazlığı (davamlı ola bilməyəcəyi) qənaəti ilə razılaşılmışdı.

3. BMT-nin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair məlum qətnamələri dəstəklənmişdi. Təşkilatın Təhlükəsizlik Şurasının daimi üzvü kimi 822 və 853 saylı qətnamələrin qəbuluna xüsusilə çalışılmışdı.

4. "Dağlıq Qarabağ Respublikası"nda keçirilən "prezident və parlament seçkilərinin nəticələri" tanınmamışdı. İngiltərə XİN-in həmin seçkilərlə əlaqədar verdiyi bəyanatlardan birində (IX.1997) "DQR"-in beynəlxalq aləm tərəfindən tanınmaması, oradakı seçkilərin hüquqi əsasının olmaması və bölgənin statusunun Minsk Qrupunun danışıqları prosesində müəyyənləşdirilməsi önə çəkilmişdi.

5. Böyük Britaniya mətbuatındakı ("İndependent", "Times", "The Daily Telegraph") analitik yazılarda, agentliklərin ("Röyters" və digər) məlumatlarında, jurnalist araşdırmaları və elmi tədqiqatların nəticələri kimi nəşr edilən kitablarda (məsələn, T.Valın "Qarabağ: Ermənistan və Azərbaycan sülh və hərbdə") münaqişə ilə bağlı ədalətli (həmişə olmasa da) mövqe tutulmaqdadır.

Böyük Britaniya hökumətinin Ermənistan-Azərbaycan münaqişəsi ilə **bağlı mövqeyindəki tərəddüdləri** də bir kənara qoymaq olmaz. Belə ki, tərəflər arasında dostluq və əməkdaşlıq haqqında Bəyannamədə (II.1994) məlum münaqişədən əsla bəhs olunmurdu. BMT-nin Baş Məclisində "BMT və ATƏT arasında əməkdaşlıq" haqqında qətnaməyə AR-in ərazi bütövlüyü və Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin iştirakçısı olmasını əks etdirən düzəlişin qəbulu ilə bağlı səsvermədə - İngiltərə nümayəndəsi tərəfsiz qalmışdı.

Həmçinin AŞ PA-nın "erməni soyqırımı"nın tanınması ilə bağlı 320 saylı bəyanatını imzalayan 63 parlamentaridən 11-i (o cümlədən Terri Devis) İngiltərə təmsilçiləri idi. Başqa bir (əks) halda, yəni AŞ PA-nın "Ermənilər tərəfindən Azərbaycan əhalisinə qarşı törədilən soyqırımının tanınması haqqında" bəyanat imzalayan 29 nəfərdənsə vur-tut ikisi (biri yenə də T.Devis) Böyük Britaniya parlamentarisi olmuşdu (Göründüyü kimi, T.Devis həm qondarma "erməni genosidi"nə, həm də ermənilərin azərbaycanlıları soyqırımına məruz qoymalarına səsver-

məklə **ikili standart**dan çıxış etmişdi. O habelə AŞ-nin Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçisi statusunda Bakıda keçirdiyi (IV.2003) mətbuat konfransında "Dövlətlərin ərazi bütövlüyü prinsipini dəstəkləyirsinizmi?" sualını cavablandırmamışdı. O bir ara Britaniya-Ermənistan Parlament Qrupunun üzvü olmuşdur).

"Böyük Britaniya və Dağlıq Qarabağ münaqişəsi məsələsi"ndə bir **"baronessa Koks mövzusu"nun ("amilinin")** olması da bəllidir (Xanım Kerolayn Koks Lordlar Palatası spikerinin müavini, "Beynəlxalq Xristian Həmrəyliyi" ("BXH") Parlament təşkilatının rəhbəri, Britaniya-Ermənistan Parlament Qrupunun sədri olmuşdur). Dağlıq Qarabağa **ilk "humanitar missiyası"nı** hələ 1991-ci ilin mayında gerçəkləşdirən baronessa "Beynəlxalq xristian həmrəyliyi" devizi ilə indiyədək oraya 50-yə yaxın (özü də Bakıdan deyil, İrəvandan keçib getməklə) səfər etmişdir.

Xanım K.Koks "əzabkeş xalqa xidməti özünə peşə edərək" Azərbaycan əleyhinə təbliğat aparır və münaqişənin kökləri, mahiyyəti ilə bağlı məsələləri saxtalaşdırır. Bilavasitə onun təşəbbüsü ilə Lordlar Palatasında "Ermənistan və Dağlıq Qarabağ-Blokada" mövzusunda müzakirələr keçirilmişdir (X.1994). "Erməni vurğunu və cəfakeşi" həmçinin "Dəyişikliklər naminə" ("For A Change") jurnalı, "İnternational Herald Tribune" qəzeti və s. mətbuat orqanlarında çıxan çoxlu məqalələrində, "BXH" sədrinin köməkçisi C.Eybnerlə birlikdə yazdıqları "Etnik təmizləmə davam edir: Dağlıq Qarabağda müharibə" kitabında tarixi həqiqətləri və mövcud gerçəklikləri insafsızcasına təhrif etmişdir (İstər Ermənistanda, yəni Qərbi Azərbaycanda, istərsə də ölkəmizin Dağlıq Qarabağ mahalında və digər işğal olunan ərazilərində kimlərin "etnik təmizləmə"-"yandırılmış torpaq" siyasəti aparmaları, azərbaycanlı qaçqınlar və məcburi köçkünlər ordusunun yaranmasına baiskar olmaları dünya ictimaiyyətinə yaxşı məlumdur).

Baronessa Koksun beynəlxalq hüququn norma və prin-

siplərini kobudcasına pozan, İngiltərə-Azərbaycan əməkdaşlığı ilə əsla uzlaşmayan hərəkətləri **("ermənipərəstliyi")** hər iki dövlətin rəsmi dairələri, ictimaiyyətləri tərəfindən pisləniliir və rədd edilir. Böyük Britaniyanın hökumət başçıları, Forin Ofisin rəhbərləri dəfələrlə bildirmişlər ki, Koksun Dağlıq Qarabağ münaqişəsinə yanaşması və baxışı İngiltərə dövlətinin rəsmi mövqeyi sayıla bilməz. Avropa Şurası üzvü olmayan dövlətlərlə əlaqələr Komitəsinin sədri, Böyük Britaniya parlamentinin üzvü D.Atkinson hələ 1994-cü ildə Azərbaycana və Ermənistana səfərlərindən sonra K.Koksa ünvanladığı məktubunda (21.XI.1994) bunları vurğulamışdı: Dağlıq Qarabağın müstəqilliyi qeyri-realdır; o, yalnız – maksimum Azərbaycanın daxilində muxtariyyətə ümidli ola bilər; Azərbaycandakı qaçqınların vəziyyəti Ermənistan və Dağlıq Qarabağdakılarınkından qat-qat ağırdır və s. (Sözgəlişi, D.Atkinson da "BXH" missiyasının tərkibində hələ 1992-ci ilin iyulunda Dağlıq Qarabağda olmuşdu; o, "BXH"-nın ömürlük vitse-prezidentidir).

Böyük Britaniyalı xanım parlamentarinin "Dağlıq Qarabağ siyasəti" Azərbaycan rəhbərliyini və cəmiyyətini əsla qane edə bilməz.Və onun Azərbaycan əleyhinə fəaliyyətinə qarşı zaman-zaman müvafiq kəskin etirazlar edilmişdir. Azərbaycan Milli Məclisinin və XİN-in rəhbərliyi tərəfindən Böyük Britaniyanın parlamentinə, digər dövlət qurumlarına göndərilən sənədlərdə baronessanın mövqeyinin və xüsusilə də onun Dağlıq Qarabağa səfərlərinin həm münaqişənin həlli prosesinə, həm də dövlətlərarası münasibətlərə xələl gətirdiyi qeyd olunurdu. Hətta H.Əliyev İngiltərəyə ilk rəsmi səfəri zamanı diplomatik gediş (jest) edərək parlamentdə K.Koksla görüşmüş və həqiqəti, reallıqları öyrənib bilməsi üçün onu ölkəmizə dəvət etmişdi.

Son vaxtlarda özünün Qafqaz siyasətini canlandırmağa çalışan İngiltərə Ermənistanla əlaqələrini intensivləşdirmişdir. ***İlk dəfə olaraq*** Ermənistan prezidenti 2010-cu ilin fevralında bu ölkəyə rəsmi səfərə dəvət olunubdur. Xüsusi əhəmiyyət kəsb edən bu səfər zamanı Dağlıq Qarabağ münaqişəsinə dair də

müzakirələr aparılıbdır.Prezidentlə birlikdə erməni katolikosu II Qaregin də Londona dəvət edilibdir.

Azərbaycan-Böyük Britaniya əlaqələrinin aparıcı sahələrindən birini də **iqtisadi və humanitar sahələrdəki əməkdaşlıq** təşkil edir. Ölkələrarası iqtisadi əlaqələrdə isə ticarət, energetika, maliyyə və digər sahələrdə işbirliyi önə çıxmışdır. Rəsmi statistikaya görə, XXI əsrin əvvəllərində respublikamızda 100-dən çox ingilis şirkəti fəaliyyət göstərirdi. Böyük Britaniyanın AR-dəki xanım səfiri K.Braunun açıqlamasına görə, İngiltərə ölkəmizdə ən iri investor sayılır. Hazırda Azərbaycanda 3 min britaniyalı işləyir. İkitərəfli ticarət dövriyyəsində mənfi saldo yaransa da bu sahədə əməkdaşlıq qaçılmazdır. Çağdaş dünyanın ən qüdrətli maliyyə sistemlərindən birinə malik olan Birləşmiş Krallıq **Azərbaycana ixrac kreditləri vermiş ilk Qərb dövlətidir.** Dövlətlərarası maliyyə əməkdaşlığında "Remko" şirkəti tərəfindən Bakıda keçirilən (I.2000) "Azərbaycana Qərb investisiyalarının cəlb olunması imkanları" mövzusunda simpoziumunun və Azərbaycan Beynəlxalq Bankının Londonda nümayəndəlik açmasının (XII.2000) böyük əhəmiyyəti olmuşdur.

Ölkələrimiz arasında nəqliyyat, rabitə, tikinti, kənd təsərrüfatı və digər sahələrdə də əməkdaşlıq fayda verməkdədir. Buna da bir sıra müvafiq saziş, memorandum, niyyət protokolu və s. imzalanması da müsbət təsir göstərmişdir. İngiltərənin bir şirkəti və Azərbaycan Ticarət- Sənaye Palatasının təşkil etdikləri (VI.1997) "Xəzər hövzəsi ölkələrinin ərzaq və kənd təsərrüfatı məhsulları" beynəlxalq sərgisi də faydalı olmuşdur.

Böyük Britaniyanın Azərbaycanla iqtisadi əməkdaşlığında **ölkəmizin zəngin karbohidrogen ehtiyatlarından yararlanmaq** ön sıralarda dayanır. İngiltərə hazırda Şimal dənizinin ona aid sektorunda dənizdəki ümumi neft ehtiyatlarının 1/3-nə malikdir və qaz istehsalına görə dünyada beşinci yerdədir. O, karbohidrogen ehtiyatlarını həm istehsal, həm də idxal edir. Azərbaycanın karbohidrogen ehtiyatlarının işlənməsinə maraq göstərən xarici şirkətlər sırasında Birləşmiş Krallığın "Ramco", "Şell" və "Britişh Petroleum" kompaniyaları fərqlənirlər. Onlar ölkəmizin müxtəlif neft yataqlarının istismarı ilə əlaqədar olaraq yaradılan beynəlxalq konsorsiumlara daxildirlər.

AR ilə Böyük Britaniya arasında energetika sahəsində əməkdaşlığın genişlənməsinə bunlar böyük təsir göstərmişdir: "Energetika sahəsində əməkdaşlıq haqqında hökumətlərarası saziş"(II.1994); Böyük Britaniya şirkətləri ilə neft kontraktları; İngiltərənin neft və qaz sənayesi texnologiyasına həsr edilən seminar (V.1993); Bakıda 1994-cü ildən etibarən təşkil olunan "Xəzərneftqaz" hasilatı beynəlxalq konfrans-sərgiləri və s. Azərbaycanın karbohidrogen ehtiyatlarının istismarı sahəsindəki səmərəli əməkdaşlıq dövlətlərarası ikitərəfli münasibətlərin möhkəm və əsas özüllərindəndir.

Ölkələrimiz arasındakı münasibətlərdə **humanitar, yəni təhsil, elm və mədəniyyət sahələrindəki əlaqələrin** də xüsusi yeri vardır. Bu əlaqələr də müəyyən diplomatik-hüquqi əsaslara (əməkdaşlığa dair müqavilələrə) dayanır. 1994-cü ilin fevralında bağlanan saziş bu cəhətdən xüsusi əhəmiyyət kəsb edir. Həmin baza (ana) saziş əsasında isə AMEA ilə London Kral Cəmiyyəti arasında anlaşma Memorandumu imzalanmışdır. **Humanitar sahədə əlaqələrin** qurulmasında və qarşılıqlı faydalı əməkdaşlığın inkişafında aşağıdakılar xüsusilə qeyd olunmalıdır:

- Xəzərin karbohidrogen ehtiyatlarının öyrənilməsi üçün birgə geoloji ekspedisiyaların təşkili;
- AR Təhsil nazirliyi, AMEA, BDU və digər qurumların Birləşmiş Krallığın müvafiq strukturları ilə çoxşaxəli əlaqələri;
- **Avropanın neft paytaxtı sayılan Aberdin** şəhərindəki Kral universitetində təşkil olunan "Azərbaycan günü" (XII.1992), "Odlar diyarı" sərgisi (London, II.1994);
- Böyük Britaniyada Azərbaycan mədəniyyəti günləri (XI.1994);
- Londonda Azərbaycan Mədəniyyət Mərkəzinin açılışı (6.V.1995);
- Respublikamızda "Azərbaycan və Böyük Britaniya –yeni minilliyə doğru" devizi altında keçirilən İngiltərə həftəsi (X.1999);

- Bakıda yaradılan (III.2000) Azərbaycan-Böyük Britaniya Gənclər cəmiyyəti. Həmçinin Böyük Britaniyada yaşayan soydaşlarımızın "Azərbaycan Dayaqçıları Cəmiyyəti", "Azərbaycana Yardım Fondu", "Britaniya-Azərbaycan Cəmiyyəti" kimi qurumların fəaliyyəti;
- Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin dəstəyi ilə gerçəkləşdirilən "Keçid dövrü" layihəsi və London sitinin meri A.Yan Luderin Bakıya səfəri (VII.2009) və s.

AR-in ABŞ, Rusiya, Fransa ilə münasibətlərindən fərqli olaraq Birləşmiş Krallıqla əlaqələri, bütövlükdə, normal və hamar olubdur. Ancaq dövlətlərarası münasibətlərdə **bəzi problemlərin və anlaşılmazlıqların** mövcudluğu da danıla bilməz. Onların bir qismi aşağıdakılardan ibarətdir:

1-cisi, Krallığın bəzi dövlət və iş adamlarının qənaətinə görə, Azərbaycanda hələ də əlverişli biznes şəraitinin formalaşmaması. Bunu isə hakimiyyət strukturlarındakı rüşvətxorluq, korrupsiya, süründürməçilik hallarının və habelə özəl sektorun yetərli inkişaf etməməsinin, qanunun aliliyinin tam şəkildə təmin olunmamasının şərtləndirməsi. Bu səbəbdən də bir sıra ingilis şirkətlərinin ölkəmizi tərk etmələri və respublikamızla bağlı layihələrinin reallaşdırılmasını təxirə salmaları (ümumiyyətlə, dayandırmaları).

"Remko" şirkəti özünün bəzi layihələrinin həyata keçirilməsindən imtina etdi və 2000-ci ildə "Əsrin müqaviləsi"ndən çıxaraq özünün 2,08 faizlik payını ABŞ-ın bir kompaniyasına satdı. (Baxmayaraq ki, o, **Azərbaycan neftinə müasir dövrdə nüfuz edən xarici şirkətlərin "qaranquşu"** sayılırdı və Birləşmiş Krallıqda ölkəmizin çoxşaxəli maraqlarının lobbiçiliyi məqsədilə 1998-2000-ci illərdə gerçəkləşdirilən "Tərəfdaşlıq siyasəti" layihəsinə sponsorluq etmişdi, 1998-ci ildə "ARDNŞ" ilə saziş bağlamışdı. Sözgəlişi, "ARDNŞ" rəsmiləri onu "kiçik Şotlandiya şirkəti" kimi səciyyələndirmişdilər). "Britişh Petroleum" da İranın Azərbaycanın bəzi neft yataqları ("Araz"və s.) ilə bağlı yaratdığı münaqişə üzündən orada aparılan kəşfiyyat

işlərini problemin həllinədək dayandırmışdır.

2-cisi, son vaxtlarda Böyük Britaniyanın yüksək səviyyəli dövlət və hökumət rəsmilərinin (nümayəndə heyətlərinin) respublikamıza səfərlərinin ləngiməsi müşahidə olunmaqdadır. Belə bir hal 1977-ci ildən etibarən yaranmışdır. Ənənəvi (illik) "Xəzərneftqaz" sərgilərində iştirak istisna edilərsə, son vaxtlarda **İngiltərənin yüksək səviyyəli rəsmilərinin ölkəmizə elə mühüm səfərləri olmamışdır.**

3-cüsü, E.Məmmədlinin araşdırmalarından bəlli olduğu kimi, Böyük Britaniyanın "Sandi Tayms" qəzetində dərc edilən (26.III.2000) məqalədə "BiPi"nin Ə.Elçibəy hakimiyyətini devirən və H.Əliyevin hakimiyyətə gəlməsini təmin edən hərbi qiyamı dəstəkləməsinə dair iddia da dövlətlərarası münasibətlərdə müəyyən gərginlik yarada bildi (Şirkət bunu **"böyük böhtan"** kimi dəyərləndirdi).

4-cüsü, Birləşmiş Krallıq hökumətinin Ermənistanın Azərbaycana hərbi təcavüzünə və onun nəticələrinin aradan qaldırılmasına yanaşmasında da ziddiyyətli məqamlara, anlaşılmazlıqlara rast gəlinir. Bunlardan bəziləri az öncə vurğulandığından burada yalnız bir mühüm cəhəti əlavə etməyə ehtiyac vardır. Belə ki, Rəsmi Londonun da Dağlıq Qarabağ münaqişəsinin-Azərbaycan üçün təslimçilik, tələ sayılan "Madrid prinsipləri" əsasında-tənzimlənməsindən ötrü AR rəhbərliyinə təzyiq göstərənlər sırasında olması da məlumdur.

Bütün bu və digər problemlərə, çətinliklərə, anlaşılmazlıqlara baxmayaraq Azərbaycan-İngiltərə münasibətlərinin gələcəyinin normal olacağı ehtimal edilir. Dövlətlərarası əlaqələrin ümidverici perspektivlərə malik olması isə bir sıra strateji amillərlə şərtlənir. Bu zaman Böyük Britaniyanın Azərbaycana Mərkəzi Asiya və Qafqaz regionunun **"açar ölkəsi"** kimi yanaşması önə çəkilir. Habelə Birləşmiş Krallığın ölkəmizin karbohidrogen ehtiyatlarının istismarı və nəqlində hədsiz dərəcədə maraqlı olması vurğulanır. Digər yandan da, AR-in də **Avropanın üç aparıcı dövlətindən biri sayılan İngiltərə** ilə hər-

tərəfli sıx əməkdaşlıqda yetərincə maraqlı olması danılmaz və qaçılmazdır. Bunu isə İ.Əliyevin prezident olaraq "dumanlı Albiona" etdiyi rəsmi və işgüzar səfərlər də təsdiqləyir.

İ.Əliyevin 2005-ci ildəki rəsmi səfəri zamanı imzalanan bəyanatda ölkələrarası münasibətlərin uğurları və perspektivləri vurğulanırdı. Onun 2009-cu ilin iyulundakı rəsmi səfəri isə qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsinə yönəlik çoxlu tədbirlərlə səciyyələnir. Səfərin gedişində Baş nazir Q.Braunla aparılan danışıqlarda Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" layihəsi, enerji təhlükəsizliyi, Dağlıq Qarabağ münaqişəsinin həlli və digər məsələlərin müzakirəsi aparılmışdır.

Müzakirələr Birləşmiş Krallığın, yəni neft və qaz layihələri hesabına **Azərbaycanda ən böyük həcmdə investisiyaları olan** bu dövlətin ölkəmizlə münasibətlərinin əsasən enerji maraqları üzərində qurulduğunu bir daha göstərdi. Danışıqların nəticəsində Böyük Britaniyanın enerji nəhəngi "BiPi" ilə "ARDNŞ" arasında yeni neft anlaşması imzalandı (13.VII.2009). Anlaşma memorandumu Xəzərin Azərbaycana aid hissəsində "Şəfəq" və "Asiman" perspektiv strukturlarının birgə geoloji kəşfiyyatını və işlənməsini nəzərdə tutur (Həmin struktur-blok Bakıdan təxminən 125 km (78 mil) cənub-şərqdə yerləşir və təxminən 1100 km^2 ərazini əhatə edir; orada suyun dərinliyi təqribən 650-800 metrdir). "BiPi-Azerbaijan" şirkətinin "Röyter" agentliyi vasitəsilə yayılan məlumatına görə, bu memorandum "BiPi"yə həmin blokun geoloji kəşfiyyatı və işlənməsi üzrə danışıqlar aparmağa müstəsna hüquq verir.

Bəzi ekspertlər və analitiklər **İngiltərənin Azərbaycanda demokratiya və insan haqları ilə bağlı problemlərə olduqca loyal yanaşmasını**, əslində, göz yummasını da bununla əlaqələndirirlər. Onların qənaətinə görə, rəsmi London Xəzər hövzəsinin önəmli enerji mənbələrindən olan Azərbaycanın daxili problemlərinə qarışmağı özünün maraqları baxımından prioritet hesab etmir. Qərbin digər dövlətlərinin diplomatik nümayəndəliklərindən fərqli olaraq Böyük Britaniyanın Azərbaycandakı

səfirliyinin vətəndaş cəmiyyəti ilə təmasları məhdudlaşdırması, hətta "Forin Ofis"in İngiltərənin çox nüfuzlu təsisatlarından sayılan "BBC" radiostansiyası ilə bağlı qalmaqala (onun ölkəmizdə FM tezliyində yayılmasına icazə verilməməsinə) münasibət bildirməyə ehtiyac belə görməməsi buna sübut sayıla bilər.

Londondakı ikitərəfli danışıqlarda və habelə İ.Əliyevin Beynəlxalq Strateji araşdırmalar üzrə Kral institutundakı çıxışında Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə yönəlik birgə səylərə də toxunulubdur. Həmin çıxışda "Dağlıq Qarabağa müstəqillik vəd edən sülh planı heç vaxt baş tuta bilməz", "Siyasi səylərə baxmayaraq, problemin hərbi yolla həllini istisna etmək də mümkün deyil" və digər bəyanatlar səsləndirilibdir.

Ümumiyyətlə, çağdaş dövlətlərarası münasibətlərdə strateji tərəfdaşlığa nail olmaq xəttinə üstünlük verən Azərbaycan və Böyük Britaniya bu hədəfə yetişilməsi üçün əsaslı potensiala malikdirlər. Əsas vəzifə isə həmin potensialın səmərəli şəkildə reallaşdırılmasından ibarətdir.

Fransa və Almaniya ilə münasibətlər: problemlər və əməkdaşlıq

Azərbaycan Respublikasının xarici siyasətinin Qərb (Avropa) istiqamətinin aparıcı xətlərindən birini də Fransa və Almaniya ilə münasibətlər təşkil edir. "Avropa İqtisadi Birliyi"nin (hazırkı **Avropa İttifaqının) lokomotivləri** sayılan bu iki dövlətlə əlaqələrə xüsusi önəm verilməsinin yetərli əsasları vardır.

Fransa ilə hərtərəfli əlaqələr və çoxsahəli əməkdaşlıq bir sıra tutarlı səbəblər-amillərlə sıx əlaqəlidir. Çağdaş Fransa: **a)** Avropanın üç aparıcı dövlətindən biridir; **b)** "Böyük səkkizlər"in və "Nüvə klubu"nun üzvüdür; **c)** Minsk Qrupunun həmsədrlərindəndir; **ç)** güclü iqtisadi potensiala malikdir; **d)** beynəlxalq siyasətə ciddi təsir göstərə bilir və s. Azərbaycan isə özünün geosiyasi mövqeyinə, iqtisadi imkanları-təbii ehtiyatlarına görə

Fransanın maraq dairəsindədir. Bunu Xarici İşlər naziri Erve de Şarett də AR-ə rəsmi səfəri zamanı (X.1996) vurğulamışdı: "Fransa üzünü ayrı-ayrı xalqların qüvvələr nisbətində xüsusi yer tutan strateji bir ölkə kimi Azərbaycana çevirir".

Maraqların qarşılıqlı çulğalaşması-hələ klassik feodalizm dövründən müəyyən əlaqələrə malik olan-bu iki dövlətin çağdaş dünyada daha möhkəm münasibətlər yaratmasını zəruri edir. Bu zəmində də öncə diplomatik əlaqələrin bərpası təmin olundu. Belə ki, Fransa hökumətinin AR-in dövlət müstəqilliyini tanımasından (3.I.1992) az sonra **ölkələr arasında diplomatik münasibətlərin yaradılması barədə Bakıda protokol (21.II.1992)** imzalandı. Bu diplomatik akt Fransanın dövlət rəsmilərindən B.Kuşnerin Bakıya səfəri zamanı gerçəkləşdirildi. Tezliklə Fransanın Bakıda (16.III.1992) və müəyyən səbəblərə görə bir qədər sonra (20.X.1994) isə Azərbaycanın Parisdə diplomatik nümayəndəlikləri fəaliyyətə başladı. (İlk səfirlər J.Perren və E.Hüseynova oldular).

AR ilə FR arasında həm diplomatik əlaqələrin qurulması, həm də bu və digər zəmində dövlətlərarası siyasi münasibətlərin inkişafı müəyyən **əngəllər və çətinliklərlə** üzləşməli oldu. Maneələr əsasən Fransada güclü mövqeləri olan erməni diasporası və lobbisinin Azərbaycana qarşı fəaliyyəti ilə bağlı idi. Çətinliklərsə ən çox AR-in diplomatiya təcrübəsinin yetərsizliyi. maddi imkansızlıq və s. üzündən yaranırdı. Fransanın müəyyən səbəblərdən "erməni dostu" və "türk düşməni" kimi tanınması AR-in rəsmi-siyasi dairələrinin və ictimaiyyətinin mövqelərinə təsir göstərməyə bilməzdi (Buna görə də ölkəmizin araşdırmaçı-ekspertlərindən bəzilərinin dövlətlərarası münasibətlərdə ilkin çağlarda özünü göstərən qarşılıqlı soyuqluq və incikliyin, guya ki, rəsmi Bakının Fransaya ögey münasibət bəsləməsinin günahını Azərbaycanın o vaxtkı iqtidarlarının yanlış siyasət yürütməsində görmələri (axtarmaları) düzgün deyildir. Çünki Fransanın ermənipərəst mövqeyi əsla danıla bilməz və bunu elə onun Minsk Qrupunun həmsədr ölkələrindən biri kimi göstərdiyi fəaliyyət də təsdiqləyir).

Ancaq strateji maraqların qarşılıqlı təminatına üstünlük verən tərəflər "erməni hasarı"nı aşmağa və siyasi münasibətlər qurmağa müvəffəq ola bildilər. Dövlətlərarası rəsmi siyasi əlaqələrə H.Əliyevin Fransaya səfəri (XII.1993) ilə rəvac verildi (Bu səfər onun **prezident statusunda xaricə ilk rəsmi səfəri** hesab olunur. İ.Əliyev də prezident olaraq ilk rəsmi səfərini Fransaya etmişdir). H.Əliyevin rəsmi səfərindən öncə (XI.1993) AR XİN-i H.Həsənov Fransada oldu və Parisdə YUNESKO-nun 27-ci sessiyasında, Beynəlxalq Diplomatiya Akademiyasında çıxışlar etdi, habelə bir sıra digər tədbirlərə qatıldı. Bunlarsa prezidentin rəsmi səfərinin hazırlanması baxımından çox faydalı oldu.

Azərbaycanın dövlət başçısının Fransaya ilk rəsmi səfəri zamanı keçirilən **"Yelisey görüşləri"ndə** müzakirə edilən məsələlər sırasında ölkələrarası əməkdaşlıq, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi, Xəzərin karbohidrogen ehtiyatlarının istismarı və nəqli xüsusi yer tutdu. Səfər müddətində AR "Yeni Avropa üçün Xartiya"ya qoşuldu-"Paris Xartiyası"nı imzaladı və Fransa ilə "Dostluq, əməkdaşlıq və qarşılıqlı anlaşma haqqında müqavilə" bağladı (20.XII.1993). "Paris xartiyası"na qatılma Azərbaycanın Avropanın ümumi təhlükəsizlik sistemində iştirakına doğru **ilk böyük addımı** kimi də səciyyələndirilir. Müqavilə isə dövlətlərarası əməkdaşlığın çoxlu sahələrini əhatə etməklə mühüm önəmə malik idi.

Elmi-siyasi ədəbiyyatda Azərbaycan prezidentinin Fransaya ilk rəsmi səfərinə dair bu kimi **dəyərləndirmələr** (Ə.Həsənov, H.Hüseynova və b.) də mövcuddur: AR-in Avropaya çıxışının məhz Fransadan başlanması; Fransada ölkəmizə yeni münasibətin formalaşması; dövlərlərarası siyasi dialoqların yolunun açılması; erməni diaspora və lobbisinin Fransadakı inhisarına son qoyulması; beynəlxalq erməni diaspora və lobbisinin, habelə Ermənistan Respublikasının "Dağlıq Qarabağ problemi" və "erməni soyqırımı məsələsi" ilə bağlı Azərbaycan

ətrafında yaratdıqları informasiya blokadasının dağıdılması; Fransada "Azərbaycan lobbiçiliyi"nə rəvac verilməsi (Senatın Aşağı Palatasında, yəni Milli Assambleyada Azərbaycan-Fransa dostluq qrupunun təşkili; prezident F.Milyeranın Dağlıq Qarabağ münaqişəsinin həllinə ədalətli yanaşması və s.).

Azərbaycan-Fransa dialoqunun inkişafında dövlətlərin rəsmilərinin qarşılıqlı **müxtəlifyönlü səfərləri** çox müsbət təsir göstərdi. H.Əliyev faşizm üzərində qələbənin 50 illiyinə dair tədbirlərə (V.1995), "Azərbaycanın investisiya imkanları" adlı beynəlxalq konfransa (XII.1995), F.Mitteranın dəfn mərasiminə (I.1996) qatıldı, Fransaya növbəti rəsmi (I.1997) və işgüzar (III.1997) səfərlərə getdi. Arada (X.1996) Fransa XİN-i E.de Şarett AR-ə rəsmi səfərə gələrək geniş diapozonlu müzakirələr apardı. Bu səfər zamanı Bakıda Fransa səfirliyinin yeni binasının açılışı oldu və respublikamıza səyyar hospital hədiyyə edildi.

Bakı ilə Paris arasındakı səmərəli əməkdaşlıq **beynəlxalq aləmdə siyasi-diplomatik həmrəylikdə** də özünü göstərir. Bunu Fransanın Aİ ilə AR arasında əməkdaşlığa dair müqaviləni (IV.1996) dəstəkləməsi və Azərbaycanın AŞ-də "xüsusi qonaq" statusunu almasında fəallıq göstərməsi və s. də sübut edir. Həmçinin bir sıra beynəlxalq təşkilatların Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair səyləri də rəsmi Paris tərəfindən müdafiə olunmuşdur (Doğrudur, Fransa Minsk Qrupunun həmsədr ölkələrindən biri kimi heç də həmişə birmənalı və ədalətli mövqe tutmur. Fransa parlamenti Aşağı Palatasının Osmanlı dövlətində ermənilərin türklər tərəfindən "soyqırımına məruz qalmaları"nı tanıması Türkiyə ilə yanaşı Azərbaycanla münasibətlərdə də izsiz ötüşmədi).

Ölkələrarası çoxşaxəli əlaqələrdə **iqtisadi-ticarət və humanitar-mədəni sahələrdə əməkdaşlıq** genişlənməkdədir. Azərbaycan Fransanın Qafqazda birinci ticarət tərəfdaşıdır. İkitərəfli iqtisadi əlaqələrdə aparıcı xətlərdən ən başlıcasını fransız şirkətlərinin Azərbaycanın beynəlxalq neft kontraktla-

rında iştirakı təşkil edir. Azərbaycanın "neft diplomatiyası" Fransa şirkətləri ilə yaxından əməkdaşlığa həm də dövlətimizin üzləşdiyi siyasi problemlərin (Dağlıq Qarabağ münaqişəsi) həlli imkanlarından biri kimi yanaşırdı. Öz növbəsində Fransa da Xəzər (Azərbaycan) neftinin istismarı və nəqlində iştirak sahəsində ABŞ, İngiltərə və Norveçdən geriqalmasını aradan qaldırmağa çalışırdı. Qarşılıqlı ciddi səylər AR-in beynəlxalq neft müqavilələrindən beşincisinin ("Lənkəran-dəniz"/"Talış-dəniz") bağlanması (13.I.1997) ilə nəticələndi. Azərbaycanın beynəlxalq neft kontraktının **ilk dəfə olaraq xaricdə, yəni Parisdə imzalanması** AR-FR münasibətləri baxımından da müəyyən məna daşıyırdı. Bu müqavilə "ARDNŞ" ilə fransız şirkətləri, yəni maliyyə vəsaitlərinin dövriyyəsinə görə dünya neft kompaniyaları arasında beşinci yeri tutan "Elf-Agiten"və "Total" arasında bağlanmışdı (İnvestisiya dəyəri 1,5 mlrd.dollar olan bu saziş 350 mln. barrel neft çıxarılmasını nəzərdə tuturdu).

Azərbaycan-Fransa iqtisadi enerji əməkdaşlığında **"Xəzərneftqaz" sərgilərinin və "Azərbaycanda investisiya imkanları" beynəlxalq konfranslarının** da önəmi danılmazdır. Belə beynəlxalq toplantılardan biri də 25 ölkənin 200 təmsilçisinin iştirakı ilə Parisdə keçirilmişdi (XII.1995). Burada Qərb sərmayəsinin Azərbaycan iqtisadiyyatına sərfi məsələləri, yəni müəyyən layihələr və s. nəzərdən keçirilmişdi. Bu müzakirələrdə başlıca yeri fransız şirkətlərinin Azərbaycan neftinin işlənməsi və nəqlində iştirakı tuturdu. H.Əliyevin Fransaya ikinci rəsmi səfəri zamanı Parisdəki Beynəlxalq münasibətlər institutunda "Azərbaycan və Qafqaz XXI əsrin astanasında" mövzusundakı çıxışında siyasi məsələlərlə yanaşı iqtisadi əlaqələrə də geniş yer ayrılmışdı.

İkitərəfli iqtisadi-ticarət əlaqələrinə "Azərbaycan-Fransa Ticarət Assosiasiyası"nın yaradılması (I.1997), Bakı-Paris hava xəttinin açılması və işgüzar dairələrin qarşılıqlı səfərləri də geniş imkanlar yaratdı. Fransanın 1,5 mln. müəssisəsini əhatə edən Sahibkarların Milli Şurası tərəfindən işgüzar dairələrin

geniş tərkibli nümayəndə heyətinin (45 iri şirkət və bankın 70 nəfər təmsilçisinin) Bakıya səfəri (IX.1997) təşkil olundu (O dövr üçün Fransa AR-ə belə böyük nümayəndə göndərən **yeganə Avropa dövləti** idi). Bunlar da fransız şirkətləri və banklarının Azərbaycanda müxtəlif layihələri gerçəkləşdirmələrinə imkan verdi. Məsələn, Bakıda qaz anbarının tikilməsi və oftalmoloji xəstəxananın yaradılması, Naxşıvanda beynəlxalq hava limanının inşası və s.

Dövlətlərarası çoxtərəfli əlaqələrdə **humanitar – mədəni sahələrdəki əməkdaşlığın** da özəl yeri vardır. Bunu nəzərə alan tərəflər ölkələrimiz arasında hava əlaqələrinin daha da genişləndirilməsinə dair Niyyət potokolunu, "Mədəni əlaqələr haqqında Birgə Bəyannaməni" (14.I.1997) və s. sənədləri imzalamışlar. Təhsil sahəsindəki əməkdaşlıqda BDU-nun Nitsa və Qrenobl universitetləri ilə intensiv əlaqələri diqqəti cəlb edir. Hər iki ölkənin KİV-lərində dövlətlərarası əlaqələrə dair materialların çoxalması da müsbət meyllərdən hesab oluna bilər.

İ.Əliyevin prezident statusunda Fransaya etdiyi çoxlu rəsmi və işgüzar səfərlərdə də dövlətlərarası əlaqələrin inkişafına xüsusi diqqət yetirilir. **İndiyədək 8 belə səfər olmuşdur.** Prezident olaraq o da, H.Əliyev kimi, xaricə rəsmi səfərlərinə Fransa ilə başlayıbdır. Səkkizinci səfər 2009-cu ilin dekabrında həyata keçirilibdir. Bu danışıqlarda Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına dair müzakirələrin durumu və perspektivi, İranın nüvə proqramı, ikitərəfli iqtisadi əlaqələr nəzərdən keçirilibdir. Tərəflər diplomatik pasportu olan şəxslərin qısamüddətli səfərlər üçün vizadan qarşılıqlı azad edilməsi və vergi sahəsində texniki əməkdaşlıq barədə sazişlər imzalayıblar.

Hazırda normal axarda davam etməkdə olan münasibətlərin daha əlverişli perspektivlərinə **bir sıra amillərin təsiri** də qaçılmaz və danılmazdır. Həmin amillərin sırasındansa Fransanın Dağlıq Qarabağ münaqişəsinin həllində ermənipərəstliyi deyil, ədalətli mövqe tutması və Türkiyənin Aİ-yə qəbulunu əngəlləməkdən vaz keçməsi daha da önə çıxır.

Almaniya ilə münasibətlər də AR-in xarici siyasətinin Qərb istiqamətinin aparıcı xətlərindən birini təşkil edir. Azərbaycan diplomatiyası çağdaş beynəlxalq siyasətdə xüsusi yeri və rolu olan Almaniya ilə münasibətlərə mühüm önəm verir. Hətta bəzi ekspert və analitiklər Azərbaycan-Avropa əməkdaşlığında **Almaniya ilə əlaqələrə daha da üstünlük verilməsi** qənaətindədirlər.

AR-AFR rəsmi münasibətləri birincinin ikinci tərəfindən tanınması (12.XII.1991) və dövlətlərarası diplomatik əlaqələrin qurulması (2.II.1992) ilə başlamışdır. Bu da ilk növbədə səfirliklərin yaradılmasına imkan verdi. Azərbaycanın Almaniyada (Bonnda) səfirliyi 1992-ci ilin iyununda açıldı və sentyabrda da H.Sadıxov ona başçı təyin olundu. Müəyyən vaxtdan sonra (6.II.1996) isə M.Şmunk AFR-in AR-dəki səfiri təyin edildi (O, bir müddət müvəqqəti işlər vəkili statusunda, yəni Gürcüstandakı alman səfirinin rəhbərliyi altında fəaliyyət göstərmişdi).

Azərbaycanla-onu tanıyan **ilk Qərbi Avropa dövləti**-Almaniya arasındakı **çağdaş münasibətləri** səciyyələndirərkən aşağıdakılar önə çəkilə bilər:

- AR-in Avropa qurumlarına qatılmasına AFR-in yardımı;
- Azərbaycanın ərazi bütövlüyünə dəstək;
- parlamentlərarası əlaqələrin qənaətbəxş durumu;
- ölkələrimizdəki müvafiq etnik (alman və türk) icmalara qayğı;
- iqtisadi-mədəni əlaqələrdə müəyyən ləngimə;
- faydalı əməkdaşlıqdan strateji tərəfdaşlığa doğru və s.

Azərbaycanın Avropaya (Qərbə) və onların təşkilatlarına inteqrasiyası xətti Almaniya tərəfindən razılıqla qarşılanmışdır. Həmçinin AFR ölkəmizin ərazi bütövlüyünü birmənalı dəstəkləyən və Ermənistanın Azərbaycana hərbi təcavüzünə son qoyulmasına ciddi çalışan dövlətlərin sırasındadır. (Heç də təsadüfi deyil ki, Azərbaycan diplomatiyası AFR-in həmsədr dövlətlərdən biri olmasına çalışmışdı). Bütün bunlarsa hər iki dövlətin rəsmilərinin qarşılıqlı səfərləri zamanı aparılan danışıqlarda mərkəzi yeri tutan məsələlərdən olmuşdu.

AFR rəsmilərinin ölkəmizə **ilk səfəri** (XII.1995) Xarici İşlər naziri K.Kinkel səviyyəsində olmuşdur. Həmin missiya diplomatik ədəbiyyatda Almaniyanın Azərbaycana münasibətində **yeni xətt (mərhələ)** kimi də dəyərləndirilir. Bunu "Azərbaycan-Almaniya qarşılıqlı münasibətlərinin əsaslarına dair Birgə Bəyanat"dan (22.XII.1995) da görmək olur. Almaniya baş diplomatının Bakıya səfərinin gedişində bir sıra digər mühüm sazişlər və memorandum və imzalanmışdı.

Almaniyanın Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi, AR-in beynəlxalq aləmdə tanınmasına çalışması və s. **H.Əliyevin Bonna ilk rəsmi səfəri** (VII.1996) zamanı da AFR rəsmiləri tərəfindən bir daha açıqlandı. K.Kinkelin Bakıda söylədiyi Azərbaycan "Almaniyanın simasında dosta və tərəfdaşa malikdir" fikri prezident R.Hersoq tərəfindən "Almaniyanın simasında Azərbaycan etibarlı dost və vəkil əldə etmişdir" şəklində ifadə olundu.

"Bonn danışıqları"nda Almaniyanın Qafqazdakı maraqları, İkinci Dünya müharibəsindən sonrakı "alman möcüzəsi" təcrübəsi, AR-AFR tərəfdaşlığının perspektivləri və dövlətlərarası dialoqda fasiləsizlik, "Böyük İpək Yolu"nun bərpası, beynəlxalq iqtisadi-humanitar layihələrdə əməkdaşlıq, "Dağlıq Qarabağ problemi"nin ədalətli həlli yolları ətrafındakı səmərəli müzakirələr diqqəti çəkir. H.Əliyevin AFR prezidenti R.Hersoqla Davosda (I.1995), kansler H.Kol ilə Moskvada (V.1995) və Xarici İşlər naziri K.Kinkerlə Nyu-Yorkda (X.1995), Lüksemburqda (IV.1996) keçirdiyi görüşlər də dövlətlərarası əlaqələrin inkişafına müsbət təsir göstərdi.

Dövlətlərarası münasibətlərin ən vacib və önəmli yollarından biri də **parlamentlərin qarşılıqlı faydalı əlaqələrindən** keçir. Bu əlaqələr hələ 1993-cü ilin martında, yəni AFR bundestaqı Almaniya-Qafqaz parlament qrupunun (Qafqaz üzrə komissiyasının) üzvü D.Şperlinqin Bakıya gəlişi ilə yaranmışdı. Qrupun (Komissiyanın) sədri V.Vimmerin AR-ə rəsmi səfəri (XII.1993) isə parlamentlərarası əlaqələrin inkişafında yeni

mərhələ açdı. Onun "sərhədləri zorla dəyişmək istəyənlər bilməlidirlər ki, Almaniya onları dəstəkləmir" kimi açıqlaması Bakıdakı danışıqlara öz möhürünü vurmuş oldu. Parlamentarilərin sonrakı qarşılıqlı səfərləri müvafiq əlaqələri xeyli təkmilləşdirdi.

AR-AFR arasında normal münasibətlər olmasını birincidə **alman** (təxminən 3 min nəfər) və ikincidə isə **azərbaycanlı** (200 min nəfərdən çox) **icmalarının** mövcudluğu da tələb edir. (Anadolu türklərinin artıq 3 mln. nəfəri ötüb keçən icması da nəzərə alınarsa, Almaniya hələlik türk etnosunun belə üstünlüyə malik olduğu **tək Avropa ölkəsidir**). Almaniyada əsasən İkinci Cahan hərbinin nəticələri ilə bağlı olaraq formalaşan türk (azərbaycanlı) icması ölkədə müəyyən nüfuza malikdir. İcma AFR-də Azərbaycanın lobbiçiliyinin yaradılması, ölkəmizin AFR-də tanıdılması və s. sahələrdə xeyli iş görməkdədir. Bunda da Azərbaycan türklərinin çoxsaylı mədəniyyət mərkəzlərini özündə birləşdirən böyük konfederasiyanın təşkili (Bonn-VI.1996) mühüm rol oynamışdır. AFR rəhbərliyinin Dağlıq Qarabağ münaqişəsinin ədalətli qaydada tənzimlənməsinə dair obyektiv və dəyişməz mövqe tutmasına oradakı icma-diasporamızın təsiri də danılmazdır. Öz növbəsində Azərbaycan hökuməti də ölkəmizdə yaşayan alman mənşəli vətəndaşlarımızın çoxşaxəli ənənələrinin yaşamasına yetərli təminat verir. Tərəflər alman hərbi əsirlərinin Azərbaycanda- İkinci Dünya müharibəsi zamanından qalan-məzarlıqlarının mühafizəsi barədə saziş də imzalamışlar.

Dövlətlərarası **iqtisadi-mədəni-humanitar əlaqələr** də çoxşaxəli olmaqla genişlənməkdədir. Bəzi ekspert-mütəxəssis təhlillərinə görə, Almaniya XX əsrin sonlarında Qafqaza (Azərbaycana) nüfuz edən dövlətlərin sırasında yubananlardan sayılmalıdır. Bu mülahizə ən çoxu da AFR-in Azərbaycanla iqtisadi əlaqələrinə, xüsusilə də alman şirkətlərinin Xəzər neftinin istismarı və nəqli prosesinə cəlb olunmasına şamil edilir. Belə ki, alman kapitalı AR-in yalnız beşinci beynəlxalq neft mü-

qaviləsində tərəf ola bilmişdi. ("Demineks" şirkəti həmin kontraktdan 10 faizlik pay əldə etmişdi).

Bütövlükdə isə, dövlətlər arasındakı ilkin ticarət əlaqələri, maliyyə sahəsində əməkdaşlıq və s. hələ 1992-ci ildə başlamışdı. İlk vaxtlarda, məsələn, 1995-ci ildə ölkələrarası mal mübadiləsi 98,4 mln. marka təşkil etmişdi. Qarşılıqlı ticarət dövriyyəsində isə Azərbaycan mənfi saldoya malik olmuşdu. AR Milli Bankı ilə "Doyçe Bank" arasında hələ 1992-ci ildən başlanan danışıqlar "İxrac əməliyyatlarının maliyyələşdirilməsi haqqında Memorandum"un imzalanması ilə (XI.1997) yekunlaşdı. Bu və digər sənədlərə əsasən alman banklarının Azərbaycan iqtisadiyyatına 50 mln. marka kredit ayırmaları nəzərdə tutulurdu. Almaniyanın müxtəlif firmaları ölkəmizin iqtisadiyyatının müxtəlif sahələrində müəyyən işlər görməyə başladılar.

Azərbaycanın iqtisadiyyatına hələ XIX əsrin ortalarında nüfuz edən "Simens", habelə "Folksvagen","Doyçe",-"Tissen" və digər şirkətlər ölkəmizin dağ-mədən sənayesində, Bakının su təchizatı sisteminin yenidən qurulmasında, Abşeronda elektrik stansiyalarının tikilməsində fəallıq göstərirlər. Hazırda Azərbaycanda Almaniyanın 100-dən çox şirkəti iş qurmuşdur. AR prezidentinin **46-cı Münhen konfransıyla bağlı AFR-ə səfəri zamanı (II.2010)** ölkə rəhbərliyi ilə danışıqları olmuşdur. AFR-in Baş naziri görüşdən sonrakı mətbuat konfransında Almaniya-Azərbaycan əməkdaşlığını hər iki tərəf üçün "Qələbə-qələbə" formulası ilə səciyyələndirmişdir.

Azərbaycanla Almaniya **humanitar-mədəni sahələrdə də əməkdaşlıq** edirlər. Bu iş əsasən qardaşlaşmış şəhərlər hərəkatında iştirak (Maynts-Bakı, Lüdviqshafen-Sumqayıt), təhsil sahəsində qarşılıqlı mübadilə, mədəniyyət işçilərinin qarşılıqlı səfərləri, Almaniyanın A.Humbolt və F.Naumann fondlarının tədbirləri vasitəsilə həyata keçirilir.

Dövlətlərarası əlaqələrin perspektivlərinə gəldikdə burada qarşılıqlı faydalı əməkdaşlığın strateji tərəfdaşlığa qədər yüksəldilməsi xətti götürülmüşdür. AFR rəsmilərinin (K.Kinkel,

R.Hersoq, H.Kol və b.) çoxsaylı açıqlamaları, beynəlxalq siyasət məsələlərindəki anlaşma və uzlaşma, prezident İ.Əliyevin Almaniyaya səfərləri (2004, 2009 və s.), digər hadisə-proseslər də bunu söyləməyə əsas verir.

Belçika və Norveç krallıqları ilə əlaqələr

Belçika krallığı da Azərbaycanın normal münasibətlərə malik olduğu dövlətlərdən biridir. NATO və Aİ-nin üzvü olan krallıq həm də **Avropanın aparıcı siyasi-maliyyə və informasiya şəbəkəsi mərkəzlərindəndir.** Azərbaycan MDB məkanında Belçika ilə diplomatik münasibətlər yaradan **ilk dövlət** olmuşdur. Buna ilk təşəbbüss 1992-ci ilin fevralında, yəni AR-in Baş naziri H.Həsənovun Brüsselə rəsmi səfəri zamanı göstərilmişdir. Ölkələr arasında birbaşa əməkdaşlığın inkişafı məsələlərini müzakirə edən tərəflər diplomatik və konsul əlaqələrinin yaradılması barədə saziş imzalamışlar. Azərbaycanın hərbi təcavüzə məruz qalması, ölkədaxili siyasi gərginlik və bir müddət dalbadal baş verən iqtidar dəyişiklikləri üzündən sazişin həyata keçirilməsi ləngidi. 1995-ci ilin fevralında Bakıda və martında isə Brüsseldə diplomatik nümayəndəliklər açıldı.

H.Əliyevin Belçikaya rəsmi, işgüzar və digər səciyyəli **səfərlərinin** (V.1994, IV.1995, V.1996) **faydalı nəticələri** oldu. Onların başlıcalarından dostluq və əməkdaşlıq haqqında sazişin bağlanması, Ermənistanla münaqişədə Azərbaycanın ədalətli mövqeyinin krallıq tərəfindən dəstəklənməsi, AR-in NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulması barədə sənədin imzalanması, diplomatik nümayəndəliklərin yaradılmasına rəvac verilməsi, Avropada yaşayan soydaşlarımızın ayrı-ayrı ölkələrdə güclü diasporalar yaratmalarına çalışılması, dövlətimizin Şimali Atlantika alyansı ilə əməkdaşlığına dair prezentasiya sənədinin təqdim edilməsi xüsusilə qeyd olunmalıdır. Azərbaycan-Belçika əməkdaşlığına İ.Əliyevin prezident

olaraq Brüsselə etdiyi səfərlər zamanı da mühüm diqqət yetirilmişdir.

Norveç krallığı ilə münasibətlərin inkişafı da AR-in xarici siyasətinin prioritet yönlərindən sayılır. NATO-nun qurucularından olan krallıq çağdaş dünyanın ən demokratik və iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərindəndir. O, **Avropanın ən güclü neft istehsalçılarından** biridir, dünyada gəmi tonnajına görə 3-cü və balıq məhsulları istehsalı sahəsində isə 2-ci yeri tutur. Qədim elm və mədəniyyət ölkəsidir. Bütün bunlar Azərbaycanın onunla da sıx əlaqələrdə olmasını şərtləndirən amillərdir. Dövlətlərarası diplomatik əlaqələr Norveçin AR-i tanıması ilə qurulmuşdur. AR 1996-cı ilin noyabrında Norveç krallığında diplomatik nümayəndəlik açmışdır. İngiltərədəki böyük elçi M.Məmmədquliyev həm də Azərbaycanın krallıqdakı səfiri təyin olunmuşdu.

Azərbaycan-Norveç əlaqələri əsasən **iqtisadi əməkdaşlıqdan** başlamışdır. Krallığın məşhur "Statoyl" şirkəti hələ ötən əsrin 90-cı illərinin əvvəlində Azərbaycan neftinə xüsusi maraq göstərirdi. Həmin davamlı maraq şirkətin "Əsrin müqaviləsi"ndə aparıcı mövqe tutması, sonrakı bəzi neft sazişlərində təmsil olunması və "Şahdəniz-2" qaz yatağının işlənməsi və nəqli üçün yaradılan konsorsiumun operatoru statusunu qazanması ilə nəticələndi. "Statoyl"un ölkəmizdəki fəaliyyəti dövlətlərarası çoxtərəfli əlaqələrin qurulması və inkişafı üçün əsas oldu. Respublikamızla krallıq arasında energetika sahəsində əməkdaşlıq haqqında Memorandumun imzalanması (XI.1994), norveçli tanınmış **alim-səyyah T.Heyerdalın ölkəmizə gəlişi** elmi və mədəni əməkdaşlığın da sürətlənməsinə rəvac verdi.

H.Əliyevin Norveçin Baş naziri H.Brundtland ilə Moskvadakı görüşündə (V.1995) və Krallığa səfəri (IV.1996) zamanı ölkələrarası münasibətlərin durumu və perspektivləri müzakirə edildi. Bu müzakirələrin ən önəmli cəhətlərindən birini AR-in Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesində tutduğu ədalətli mövqenin Norveç tərəfindən birmənalı dəstəklənməsi təşkil edir. Krallığın rəhbərliyi hətta məlum münaqişə ilə bağlı ATƏT-in sülhməramlı qüvvələrinin yaradılacağı halda öz hərbi kontingentini onun tərkibinə verməyə hazır olduğunu da bildirdi. Rəsmi səfərin gedişində "ARDNŞ" ilə "Statoyl" arasında saziş də imzalandı (25.IV.1996).

"Şirkət" habelə "Şahdəniz" perspektiv neft yatağının istismarı barədəki müqaviləyə (4.VI.1996) qoşularaq böyük paya (25,5%) sahib oldu. Azərbaycanın karbohidrogen ehtiyatlarının işlənməsi və nəqlində Norveçin Şimal dənizinin statusu ilə bağlı mövqeyinə dair tarixi təcrübə də nəzərə alındı. Krallıq 1960-cı illərdə öz **iqtisadiyyatının "ürəyi" sayılan Şimal dənizi** ilə əlaqədar olaraq problemlə üzləşmişdi. Buna görə də o vaxt Norveç tərəfi dənizin sektor bölgüsünə dair BMT qətnaməsinin qəbuluna nail ola bilmişdi. **Norveçin bu modeli (BMT qətnaməsi)** AR-in Xəzərin statusu ilə bağlı mövqeyinə uyğun gəldiyindən krallığın öz maraqlarından çıxış edərək beynəlxalq aləmdə Azərbaycanın tərəfini tutmasına əsas verir. Hər iki ölkənin irihəcmli karbohidrogen ehtiyatlarına malik olması, Norveçin demokratik dövlət qurmaq təcrübəsi, krallığın Azərbaycanın tam müstəqilliyində (ərazi bütövlüyündə) maraqlı olması və digər taleyüklü məqamlar qarşılıqlı faydalı əməkdaşlıq perspektivini vəd edir.

Mərkəzi və Şərqi Avropa dövlətləri ilə əməkdaşlıq: qarşılıqlı maraqlar və işbirliyi

Azərbaycanın xarici siyasətinin qərb istiqamətində **Mərkəzi və Şərqi Avropa dövlətləri** ilə münasibətlərin ayrıca yeri vardır. Onlarla əməkdaşlığı bu kimi **amillər** şərtləndirir:

- qarşılıqlı geosiyasi səmərəlilik (bağlılıq);
- keçmişdəki iqtisadi-mədəni əlaqələr və gələcək qarşılıqlı maraqlar;
- strateji mənafelər birliyi və beynəlxalq durumlarındakı oxşarlıq;
- vahid nəqliyyat-kommunikasiya problemi ilə üzləşmə;

• oxşar daxili problemlərin həlli zərurəti.

Ölkəmizin həmin dövlətlərlə əlaqələri əsasən aşağıdakı **formalarda (yollarla)** həyata keçirilir:

• ikitərəfli qarşılıqlı münasibətlər;
• üzv olduqları beynəlxalq və regional təşkilatlarda anlaşma;
• dövlətlərarası proqramlar çərçivəsində əməkdaşlıq və s.

Tarixi və çağdaş Avropanın aparıcı siyasi-mədəni mərkəzlərindən hesab olunan **Avstriya** ilə Azərbaycan arasında diplomatik əlaqələr 1995-ci ildə yaradılmışdır. AR-in Avstriya ilə münasibətlərindəki əsas məqsədlərdən birini Avropaya inteqrasiyada onun imkanlarından səmərəli istifadə təşkil edir. **Polşa** ilə zəngin tarixi əlaqələr onunla müstəqil dövlətlər səviyyəsində münasibətlər yaradılmasında əsaslı rol oynamışdır. O, AR-in müstəqilliyini ilkin tanıyanlardan olsa da, dövlətlərarası diplomatik əlaqələr bir qədər gec (1997-ci ildə) qurulmuşdur. AR-PR münasibətlərinin inkişafında dövlət başçılarının çoxsaylı rəsmi səfərlərinin önəmi əvəzsizdir.

Rumıniya—Azərbaycan Respublikasının müstəqilliyini tanıyan (11.XII.1991) **ikinci və ilk Avropa dövlətidir.** Respublikalararası rəsmi münasibətlər 1994-cü ildə yaradılmışdır. Dövlət başçılarının **ilk rəsmi görüşü** ATƏT-in Budapeşt sammiti çərçivəsində baş tutmuşdur. Onların digər görüşləri isə 1995-ci ilin martında Kopenhagendə və mayında Parisdə keçirilən Ümumavropa (dünya) səviyyəli tədbirlərin gedişində olmuşdur. Həmin görüşlər zamanı aparılan ilkin, ümumi, qısamüddətli müzakirələrin başlıca leytmotivini Avropanın enerji təhlükəsizliyində AR-in iştirakı, ikitərəfli münasibətlərin vəziyyəti və perspektivləri, "Dağlıq Qarabağ problemi"nin ədalətli həlli, habelə digər məsələlər təşkil etmişdir. Rəsmi Buxarest Azərbaycanın ərazi bütövlüyünü birmənalı müdafiə edir.

Dövlət başçılarının **qarşılıqlı rəsmi səfərləri** ölkələrarası çoxtərəfli əməkdaşlığın genişlənməsinə geniş imkanlar açmışdır. H.Əliyevin Buxarestə rəsmi səfəri zamanı (VII.1995) aparılan danışıqların sonunda iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətləri haqqında Bəyannamə və habelə iqtisadi-humanitar əlaqələrin inkişafına yönəlik bir sıra hüquqi-normativ sənədlər imzalandı. Rumıniya prezidentinin AR-ə səfərləri (III.1996, VI-VII.1998) də ölkələrarası əməkdaşlığı xeyli genişləndirdi. Buna dostluq və əməkdaşlığa dair dövlətlərarası müqavilənin, həmçinin turizm, nəqliyyat və digər sahələrlə bağlı konvensiyaların imzalanması mühüm təsir göstərdi. Azərbaycanla çoxşaxəli iqtisadi əlaqələrə malik olan Rumıniya Xəzər neftinin işlənməsi və nəqlinə qoşulmaq yönündə də müəyyən səylər göstərir. Rumıniya Bolqarıstanla birlikdə "Nabucco" layihəsi çərçivəsində də AR ilə əməkdaşlıqda maraqlıdır. Bütövlükdə, Rumıniya Azərbaycanın Transqafqaz nəqliyyat-kommunikasiya sistemi vasitəsilə Qərbi Avropaya çıxışının təmin edilməsi cəhətdən əlverişli geosiyasi məkandır.

Azərbaycan, 2000-ci ildən NATO-nun və 2007-ci ildən isə Aİ-nin üzvü olan, Rumıniya ilə **beynəlxalq və regional təşkilatlar çərçivəsində də səmərəli əməkdaşlıq** edir. Yaradılmasında T.Ozalın və Ə.Elçibəyin böyük əməyi olan Qara Dəniz Hövzəsi Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatındakı işbirliyi bu baxımdan daha səciyyəvidir. AR Milli Məclisi üzvlərinin Qara dəniz ölkələri Parlament Assambleyasında iştirakı, BDU-nun bu region dövlətlərinin universitetləri ilə əməkdaşlığı və s. iki(çox)tərəfli beynəlxalq münasibətlərin inkişafına fayda verir.

Dövlətlərarası əlaqələr prezidentlərin son vaxtlardakı qarşılıqlı səfərləri sayəsində daha da sıxlaşmışdır. İ.Əliyevin Rumıniyaya **ilk rəsmi səfəri** (X.2004) və 2009-cu ilin sentyabrında Buxarestdə apardığı danışıqlar səmərəli olmuşdur. Axırıncı səfər zamanı aparılan danışıqlarda Avropanın enerji təhlükəsizliyi, Xəzər neftinin Bakı-Konstansa marşrutu ilə nəqli, Azərbaycan-Rumıniya qaz əməkdaşlığı və digər məsələlər mühüm yer tutmuşdur. Sonda strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalandı. Rumıniya prezidenti T.Baseskunun AR-ə rəsmi səfəri (X.2006) də ikitərəfli əməkdaşlığın genişləndirilməsi

üçün faydalı olmuşdur.

Bolqarıstanla diplomatik əlaqələr 1992-ci ildə qurulmuşdur. Dağılan sosializm sisteminin demokratik inkişaf yoluna keçən **ilk dövlətlərindən olan** Bolqarıstan kənd təsərrüfatı, turizm, təhsil, elm və digər sahələrdə inkişafı ilə fərqlənir. Dövlətlərarası rəsmi təmaslara **ilk səy** Bolqarıstan tərəfindən –Baş nazirin müavininin ölkəmizə gəlişi (IX.1993) ilə göstərilmişdir. Prezidentlərsə **ilk dəfə** ATƏT-in Budapeşt Zirvə görüşündə bir araya gələrək fikir mübadiləsi etmişlər. Onlar sonralar Kopenhagendə keçirilən (III.1995) "Sosial inkişaf naminə" Ümumdünya konfransında iştirak edərkən, habelə Davos (I.1995), Paris (V.1995) və Nyu-Yorkda (X.1995) gerçəkləşən beynəlxalq tədbirlər zamanı görüşüb müəyyən müzakirələr aparmışlar.

H.Əliyevin Bolqarıstana rəsmi səfəri (VI.1995) zamanı onun bolqar həmkarı J.Jelevlə danışıqlarında ikitərəfli əlaqələrin daha da genişləndirilməsi razılaşdırılmışdı. Bu məqsədlə də "Dostluq münasibətləri və əməkdaşlıq barədə müqavilə", həmçinin iqtisadi-ticarət və elmi-texniki sahələrdə işbirliyinə dair sazişlər bağlandı. Danışıqlarda Bolqarıstan tərəfi ATƏT-in Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına yönəlik səylərini dəstəklədiyini və AR-in haqlı mövqeyini dəstəklədiyini bildirdi.

Tərəflər **QDİƏT çərçivəsində** həyata keçirilən layihələr, tədbirlər və s. ilə bağlı da lazımı uzlaşmaya müvəffəq ola bilmişlər. Bunu QDİƏT-in Moskva (X.1996) və digər sammitlərində prezidentlər arasında keçirilən ayrıca görüşlərdən də görmək olur. Bolqarıstan hökuməti Azərbaycanın karbohidrogen ehtiyatlarının Avropaya nəqli ilə əlaqədar təkliflər irəli sümüşdür. O, müxtəlif yönlərdən respublikamızla da bağlı olacaq "Nabucco" layihəsinin gerçəkləşməsində maraqlı və israrlıdır.

Bolqarıstan prezidenti G.Pırvanovun ölkəmizə işgüzar səfərinin (III.2008) gedişində qarşılıqlı əlaqələrin genişləndirilməsinin perspektivləri nəzərdən keçirildi. İ.Əliyev Belarusa səfərinin ardınca Bolqarıstana gedərək (XI.2009) orada danışıqlar apardı. Danışıqların nəticəsində bağlanan müqavilə 2011-2012-ci illərdən etibarən Bolqarıstana Azərbaycan qazının nəqlini nəzərdə tutur. Perspektivdə hazırda kiçik həcmdə Azərbaycan qazını Avropaya nəql edən **Türkiyə-Yunanıstan kəmərinin İtaliyaya qədər uzadılması** planlaşdırılır.

ABŞ-la münasibətlərin xarakteri və perspektivləri

ABŞ ilə münasibətlər AR-in xarici siyasətində **ən aparıcı** istiqamətlərdən biridir. Bu iki dövlət arasında normal münasibətləri və onların çoxtərəfli əməkdaşlığını şərtləndirən **amillər** yetərincədir. AR-in çağdaş dünyanın fövqəldövləti tərəfindən tezliklə tanınması (25.XII.1991) ölkələrarası münasibətlərin qurulması və inkişafına mühüm təsir göstərdi. ABŞ-ın o vaxtkı Dövlət katibi C.Beykerin AR-ə işgüzar səfərindən (II.1991) az sonra dövlətlər arasında rəsmi diplomatik münasibətlər yaradıldı (18.III.1991). Təxminən bir il sonra, yəni 1993-cü ilin aprel-may aylarında Bakıda və Vaşinqtonda diplomatik nümayəndəliklər fəaliyyətə başladı.(H.Paşayev
və R.Mayls **ilk səfirlər** təyin edildilər).

1992-ci ildə ABŞ rəsmiləri Azərbaycanı öyrənmək **səciyyəli "kəşfiyyat missiyaları"** ilə Bakıda oldular. Həm bu səfərlər zamanı, həm də Dövlət Departamenti tərəfindən (19.V.1992 və s.) verilən açıqlamalarda ABŞ rəhbərliyi AR üçün çox dəyərli olan belə bir məqamı vurğulayırdı (təkrarlayırdı): O, "...hər hansı bir ərazinin statusunun zorakılıq əsasında birtərəfli qaydada dəyişdirilməsi ilə razılaşmayacaq"dır.

Azərbaycanda 1992-ci ilin may-iyun aylarında **gerçəkləşən hakimiyyət dəyişikliyi** və, xüsusilə də Ə.Elçibəyin **prezident seçilməsi** ABŞ ilə münasibətlərin inkişafına müsbət təsir göstərdi, Ağ Evin ölkəmizə göstərdiyi maraq və diqqəti xeyli artırdı. Prezident C.Buş (ata) Ə.Elçibəyin Azərbaycan dövlətinə

başçılıq etməyə başlamasından dərhal sonra (19.VI.1992) R.Maylsı ABŞ-ın AR-dəki səfiri vəzifəsinə təyin etdi. Ağ Evin başçısı AR prezidentinə həmin ilin iyulunda göndərdiyi təbrik məktubunda yazırdı: "Azərbaycanda demokratiya və azad bazar münasibətləri yaratmaq işinə sədaqətinizi alqışlayıram".

ABŞ-ın bu mərhələdəki Azərbaycan siyasəti bir sıra **anlaşılmaz və ziddiyyətli məqamlarla** da səciyyələnir. Bu özünün açıq ifadəsini Konqresin **"Azadlığı Müdafiə Aktı"na edilən "907-ci düzəliş"**də tapmışdır. 1992-ci ildə C.Buş administrasiyası postsovet məkanı respublikalarının demokratiya, bazar iqtisadiyyatı, açıq cəmiyyət yolunda irəliləmələri məqsədilə onlara göstərilən maliyyə, texniki və digər yardımları qaydaya salaraq sistemləşdirməyi qərara aldı. Həmin ilin yayında bununla bağlı qanunun, yəni "Azadlığı Müdafiə Aktı"nın layihəsi hazırlandı."Akt"ın Ağ Ev tərəfindən konqresə təqdim olunan layihəsinə Nümayəndələr Palatasının Xarici İşlər üzrə komitəsindəki müzakirələr zamanı Azərbaycana yardımın qadağan edilməsi barədə xüsusi bölmə salındı.

Sənədin Senatın Xarici İşlər üzrə komitəsindəki müzakirəsində Massaçuzets statından olan demokrat senator Kerrinin təklifi ilə həmin bölmə Konqresin yuxarı palatasının qanun layihəsinə də daxil edildi (4 senator, yəni R.Luqar və b. əleyhinə olmaqla). Qanun layihəsinə daxil edilən bu bölmə ilə əlaqədar məsələ nə Nümayəndələr Palatasında, nə də Senatda və habelə onların nümayəndələrindən ibarət uzlaşdırıcı komissiyanın 1992-ci ilin sentyabrında keçirilən iclasında müzakirəyə çıxarılmadı. C.Buş 1992-ci ilin oktyabrında **907 saylı bölmənin ("Kerri düzəlişi"**nin) də daxil edildiyi "Azadlığı Müdafiə Aktı"nı imzaladı.Sənəd 1993-cü ilin yanvarında qüvvəyə mindi. Bununla da Azərbaycanın Ermənistanı və Dağlıq Qarabağı blokadaya alması bəhanəsilə ölkəmizə yardım qadağan edildi.

AR-ABŞ münasibətlərində ciddi problemlər yaradan **"907-ci düzəliş məsələsi"** ölkəmizdə və xaricdə müxtəlif **rəylər** doğurmuşdur. Ən çoxu da **düzəlişin səbəbləri** ilə bağlı

fərqli yanaşmalar ortaya çıxmışdır. Əksər araşdırmaçılar (F.Rzayev və b.), ekspertlər bunun ABŞ-dakı təxminən 1mln nəfərlik erməni diasporasının və onun lobbisinin işi (böyük qələbəsi) qənaətində həmrəydirlər. (Bu zaman Ağ Evin 1920-ci ildə Ermənistanın müstəqilliyini de-fakto tanıması və eyni zamanda AXC-ni tanımaqdan imtina etməsini də xatırlamaq lazım gəlir). Yəni erməni diasporasının neçə illərdən bəri ABŞ-da da sistemli şəkildə antitürk – Azərbaycana qarşı təbliğatı apardığı yaxşı məlumdur. Təsadüfi deyil ki, ABŞ-ın siyasətçi və media təmsilçiləri bunu **"siyasi təbliğat və lobbiçilik nümunəsi" kimi** qiymətləndirirdilər.

Digər yandan, ölkəmizdə bəzi tədqiqatçılar (Ə.Həsənov və b.) "907-ci düzəliş"in ABŞ-dakı güclü erməni diasporası və lobbisinin təsiri sayəsində qəbul olunması qənaəti ilə həmrəylik bildirsələr də bunu əsasən AR-in o vaxtkı iqtidarının (Ə.Elçibəy hökumətinin) yarıtmaz xarici siyasətinin nəticəsi sayırlar. Fikrimizcə, belə bir yanaşma elə AbŞ-ın yüksək vəzifəli, nüfuzlu dövlət adamlarının açıqlamaları ilə daha sanballı təkzib olunur. Belə ki, o zamankı Müdafiə naziri "907-ci düzəliş"lə bağlı demişdi ki, bu, nadan siyasətdir, Ağ Evin regiondakı maraqları baxımından mənasızdır, ABŞ-ın **daxili siyasəti** (seçdirmə bizimdir-İ.M.) nəticəsində, yəni Konqres üzvlərinin öz seçiciləri (ermənilər nəzərdə tutulur – İ.M.) ilə münasibətlərinin nəticəsi olaraq qəbul edilmişdir.

Həmin vaxtlar ABŞ-ın yeni müstəqil dövlətlərə yardım üzrə koordinatoru vəzifəsində işləyən-ölkəmizin siyasi və elmi ictimaiyyətinə yaxşı tanış olan – R.Armitac 1994-cü ilin fevralında Konqresin komitələrindən birindəki dinləmələrdə bildirmişdi ki, biz qabiliyyətsizliyimiz nəticəsində bu qanunvericilikdən Bakı hökumətinə və Azərbaycana hər hansı bir təsir *imkanını* ***özümüz*** *(seçdirmə bizimdir – İ.M.) özümüzün əlindən aldıq. Dövlət Departamentinin* nümayəndəsi C.Rubin söyləmişdi ki, *mən* Buş Administrasiyasında bu dəhşətli bölmənin senat tərəfindən necə hazırlanmasında iştirak etmişəm və biz sadəcə

nə etdiyimizi başa düşmürdük, Administrasiyanın əl-qolunu və onun regionda sülhə təsir göstərməsi yollarını bağlamışdıq.

"907-ci düzəliş" **mahiyyəti və qəbuluna dair "dəlilləri"** cəhətdən də olduqca ədalətsiz və mübahisəlidir. F.Rzayev və b. təhlilləri bunu söyləməyə yetərli əsas verir. Sənəd və reallıqlar **fərqli məqamları** ortaya qoyur:

a) hərbi təcavüzə məruz qalan Azərbaycan həmin düzəlişlə təcavüzkar hesab olunur. Sənəd ABŞ parlamentarilərinin Ermənistan-Azərbaycan münaqişəsinin kökləri, ölkəmiz üçün törətdiyi faciəli nəticələr (ərazilərimizin işğalı, qaçqınlar problemi, Xocalı soyqırımı və s.) barədəki məlumatsızlığı, naşılığı, biganəliyi, qərəzliliyi, tərəfkeşliliyi və sairədən xəbər verir;

b) Ermənistanın ərazi iddiaları və təcavüzü üzündən onunla müharibə şəraitində olan Azərbaycanın işğalçı ilə ticarət-iqtisadi əlaqələrə girməsi, təbii ki, mümküncüzdür. (Necə ki, ABŞ özü Pyorl Harboru bombalayan və onunla müharibə edən Yaponiya ilə haqlı olaraq bu cür əlaqələr qurmamışdı). Digər tərəfdən də, Ermənistan İran və Gürcüstan vasitəsilə xaricə yetərli çıxış (hətta hərbi ləvazimat, döyüş sursatı və s. daşımaq) imkanlarına malik olduğundan onun blokadaya alınmasından əsla söhbət gedə bilməz;

c) ABŞ-ın müəyyən siyasi dairələri və dövlət strukturları ölkədəki erməni icmasının maraqlarını ümummilli mənafelərdən üstün tutmaqla Ağ Evin Dağlıq Qarabağ münaqişəsinin həlli prosesindəki obyektiv və qərəzsiz vasitəçi imicinə ciddi xələl gətirmişlər. 4 senatorun (R.Luqar və digərlərinin) 907 saylı bölmənin Akta daxil edilməsinə qarşı verdikləri birgə bəyanatda vurğulandığı kimi, "bu düzəlişlər tarixi kökləri olan münaqişələrdə tərəf seçmə təki potensial təhlükəli presedent yarada bilər; biz düzəlişin hər hansı bir müsbət səmərəsinin ola biləcəyinə sadəcə inanmırdıq".

Yuxarıda qeyd olunanlardan aydın şəkildə göründüyü kimi, "907-ci düzəliş" **üç məqamın (amilin) üst-üstə düşməsi** sayəsində qəbul oluna bilmişdi:

1-cisi, və ən başlıcası, ABŞ-dakı erməni diaspora və lobbisinin güclü təsiri, təzyiqi.

2-cisi, Azərbaycan hökuməti və ictimaiyyətinin ABŞ-ın hakimiyyət dairələrini, cəmiyyətini "Dağlıq Qarabağ problemi" barədə yetərincə məlumatlandıra bilməməsi.(Burada müəyyən obyektiv çətinliklərin mövcudluğunu da unutmaq olmaz).

3-cüsü, ABŞ-ın bir sıra dövlət adamlarının, xüsusilə də parlamentarilərinin Azərbaycanın demokratiya və Qərbə inteqrasiya yolundakı fəaliyyətini, ölkəmizlə bağlı bəzi məqamları nəzərə almamaları. Məsələn, ata C.Buşun da təqdir etdiyi prezident seçkisi (VI.1992), AR-in xarici siyasətdə ABŞ-a və onun regiondakı müttəfiqi sayılan Türkiyəyə açıq meyllənməsi, Ağ Evin əleyhdarlarından olan qonşu İranla Azərbaycanın münasibətlərində rəsmi Tehranın mövqeyindən irəli gələn gərginlik və s.

"907-ci düzəliş", təbii olaraq, Azərbaycan tərəfindən əsla təqdir oluna bilməzdi. Bu məqam elə B.Klintonun – Dövlət Katibinin yeni müstəqil dövlətlər üzrə köməkçisinin müavini S.Talbott vasitəsilə – Ə.Elçibəyə çatdırılan (14.V.1993) məktubunda da ifadə olunmuşdu: "Azadlığı Müdafiə Aktı çərçivəsində Azərbaycana yardım göstərilməsi üzərində məhdudiyyətdən ("907-ci düzəliş"dən – İ.M.) Azərbaycan xalqının məyusluğunu başa düşürəm. Buna baxmayaraq, ümid edirəm ki, Dağlıq Qarabağ ətrafında münaqişənin dincliklə aradan qaldırılması tezliklə (?!-İ.M.) bu müddəanı gərəksiz bir şeyə çevirəcəkdir".

Konqresin Azərbaycana vurduğu **ağır zərbə** kimi səciyyələndirilən bu düzəlişlə AR postsovet məkanında ABŞ-ın hökumət yardımından qanunvericilik yolu ilə məhrum edilən **yeganə dövlət oldu.** (Halbuki, Ağ Ev tərəfindən sonralar "şər üçbucağı"na salınan Şimali Koreya belə ABŞ-ın müvafiq yardımını alırdı). Belə bir vəziyyət, yəni dövlətlərarası sıx münasibətlər üçün əlverişli perspektiv vəd etməyən durum həm ABŞ, həm də AR tərəfindən düzəlişin ləğvinə, heç olmazsa, ondan irəli gələn qadağaların yumşaldılmasına yönəlik səylərə rəvac verdi. Buna müəyyən proseslər və məqamlar da şərait yaratdı

"Əsrin müqaviləsi"nin bağlanması, ABŞ-ın bir sıra iri şirkətlərinin bu sazişdə, həmçinin AR-in digər beynəlxalq neft kontraktlarında xeyli böyük paylar əldə etmələri proseslərə öz təsirini **iki yöndə** açıqca biruzə verdi:

1) ABŞ-ın transmilli korporasiyaları ümumdövlət maraqlarını da nəzərə alaraq Ağ Evin Azərbaycan siyasətində praqmatizmin güclənməsinə çalışdılar.

2) Bu da öz növbəsində erməni diasporasının və onun lobbiçilərinin uzun müddət ərzində ABŞ-ın ictimai-siyasi həyatının müxtəlif sahələrindəki şəriksiz inhisarında 1994-1996-cı illərdə müəyyən çatların yaradılmasını təmin etdi. **H.Əliyevin də dəqiq ifadə etdiyi kimi, ABŞ-dakı erməni diasporası və lobbisi ABŞ-ın iri neft şirkətlərindən güclü ola bilməzlər.**

Belə bir əlverişli şəraitdə Azərbaycan rəhbərliyi və ABŞ-ın müəyyən siyasi çevrələri, dövlət rəsmiləri, siyasi xadimləri, politoloqları tərəfindən müvafiq qarşılıqlı addımlar atılmasına başlanıldı. Məlum düzəlişin AR-ə qarşı haqsızlıq olması elə onun qəbulundan dərhal sonra Ağ Evin diqqətinə çatdırıldı. Ə.-Elçibəyin R.Mayls ilə görüşlərində, AR XİN-i T.Qasımovun BMT Baş Məclisinin sessiyasında (IX.1992) iştirak etmək məqsədilə ABŞ-da olarkən Ağ Ev rəsmiləri ilə danışıqlarında "907-ci düzəliş"lə əlaqədar məsələlər də nəzərdən keçirildi.

ABŞ səfirinin Azərbaycanın-Ermənistan tərəfindən blokadada saxlanılan-Naxçıvan bölgəsinə səfəri (II.1993) və orada Ali Məclisin sədri H.Əliyevlə görüşü oldu. H.Əliyevin böyük elçini, onun da Ağ Ev rəhbərliyini bölgədəki durumla bağlı ətraflı məlumatlandırmaları sayəsində ABŞ hökuməti" 907-ci düzəliş"ə rəğmən Naxçıvana müəyyən humanitar yardım göstərdi. H.Əliyevin ABŞ rəhbərlərindən B.Klintona, vitse-prezident A.Qora və Konqresin spikeri T.Foliyə məktublarında (IX.1993) "907-ci düzəliş"in ləğvindən ötrü tədbirlər görülməsi istənildi. ABŞ prezidentinin – S.Talbott tərəfindən rəsmi Bakıya çatdırılan-cavab məktubunda məlum düzəliş qüvvədə saxlanılmaqla AR-ə QHT-lər vasitəsilə yetərli yardım ediləcəyi

vəd olunurdu.

Ümumiyyətlə isə, ABŞ müxtəlif qeyri-hökumət təşkilatları və şəxsi (xüsusi) könüllü qurumlar vasitəsilə **AR-ə də humanitar yardımlar** etdi. Ancaq həmin təşkilat və qurumlara da dövlət strukturları ilə hər hansı səviyyədə əlaqələr qurulması qəti qadağan edilirdi. Buna görə də Azərbaycanda o zaman özəl sektorun yenicə inkişafa başlaması və infrastrukturun əsas hissəsinin dövlət bölməsinə aidiyyatı yardımların səmərəliliyinə mənfi təsir göstərir və bu durumdan yalnız ayrı-ayrı vasitəçilərin qazanmalarına imkan yaradırdı. Digər yandan, AR-ə göstərilən humanitar yardımlar Güney Qafqazın digər respublikalarına edilənlərlə müqayisədə ölçüyəgəlməz dərəcədə az idi.

Dövlət Departamentinin yeni müstəqil dövlətlərə yardım üzrə koordinatorunun müavini C.Xerbst Konqresin Nümayəndələr Palatasının Xarici İşlər üzrə Komitəsində çıxış edərkən (30.VII.1996) açıqladığı məlumatlar da bunu təsdiqləyir: müstəqilliklərini elan etmələrindən sonra Ermənistana 612 mln., Gürcüstana 420 mln., Azərbaycana isə vur-tut 80 mln. dollar yardım edilmişdi; adambaşına düşən ABŞ yardımına görə Ermənistan **postsovet məkanında birinci və dünyada isə İsraildən sonra ikinci yeri** tuturdu. "Vaşinqton post" qəzetinin (1.III.1997) "Ermənistana yardım" başlıqlı məqaləsində ABŞ Dövlət Departamentinə istinadən yazılırdı ki, 1997-ci ilin martı üçün ABŞ Ermənistana 619 mln., Gürcüstana 443 mln., Azərbaycana isə 92 mln. dollar yardım göstərmişdi. (Məqalədə də qeyd edildiyi kimi, Gürcüstan və Ermənistandakıların cəmindən daha çox qaçqınlara və daxili köçkünlərə malik olan Azərbaycan xeyli az yardım alırdı).

Belə bir şəraitdə Konqresin Azərbaycanla bağlı səhvinin düzəldilməsinə **yönəlik cəhdlər** edildi. Lakin **ilk səylər uğursuz** oldu. Ölkəmizə humanitar yardımlar göstərilməsini nəzərə alan **"Xelms layihəsi"** 1995-ci ilin mayında Konqresdəki erməni lobbisinin güclü müqaviməti üzündən qanun qüvvəsi ala bilməyərək təxirə salındı. Amma az sonra (I.1996) "Azərbaycana

birbaşa humanitar yardım göstərilməsi haqqında" mühüm sənəd, yəni **"Vilson düzəlişi"** qəbul olundu. Erməni lobbisinin onu ciddi cəhdlərlə əngəlləməsinə baxmayaraq "Vilson qanunu" prezident tərəfindən təsdiqləndi. "Vilson düzəlişi/qanunu" AR-ə tətbiq edilən qadağaların yumşaldılması yolunda **ilk sanballı tədbir** hesab olunur.

"Vilson düzəlişi" çox tezliklə **"Porter əlavəsi"** ilə üzləşdi. Belə ki, 1997-ci maliyyə ili üçün xarici əməliyyatlar barədə qanun layihəsi Nümayəndələr Palatasında müzakirə edilərkən ermənipərəst konqresmenlər tərəfindən problemlər yaradıldı. İllinoys ştatından olan demokrat konqresmen C.Porter Azərbaycana və Dağlıq Qarabağa 7:1 nisbətində yardım göstərilməsinə dair bəndin sənədə salınmasını təklif etdi. Bənd (təklif) AR-dəki qaçqınlara ABŞ-ın dövlət strukturları tərəfindən yardımlar edilməsinə icazə verilməsi cəhətdən müsbət dəyərləndirilə bilər. Ancaq onun qəbulu ABŞ-ın Dağlıq Qarabağı AR-in tərkib hissəsi kimi tanımaması anlamına gəldiyindən ölkəmizin ərazi bütövlüyünün təminatı və təcavüzkar Ermənistanın daha da həvəsləndirilməsi baxımından olduqca təhlükəli idi. Buna görə də Azərbaycan rəhbərliyi Bakıdakı amerikalı səfirə (R.Kozlariçə) "Porter əlavəsi"nin qəbul ediləcəyi təqdirdə AR-ABŞ münasibətlərinin ciddi təhlükə ilə üzləşə biləcəyini bəyan etdi.

"Porter əlavəsi" 1996-cı ilin yay-payızında Konqresdə ermənipərəst və azərbaycanyönümlü parlamentarilərin qızğın müzakirələrinə səbəb oldu. AR rəhbərliyinin əlavə ilə bağlı mövqeyi Ağ Ev, Dövlət Departamenti, konqresmenlərdən G.Vilson, Q.Laflin və digərləri tərəfindən dəstəkləndi. Ağ Ev Administrasiyasının bəyanatında (12.VI.1996) Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin ABŞ tərəfindən müdafiə olunması vurğulanmaqla qanun layihəsinin bu mətndə ("Porter əlavəsi"ilə) qəbulunun yolverilməzliyi bildirilirdi. Habelə Azərbaycana yardım göstərilməsinin onsuz da ("907-ci düzəliş" ucbatından) çətinliklərlə üzləşdiyi qeyd edilirdi. Dövlət katibinin yeni müstəqil dövlətlərə yardım məsələləri üzrə xüsusi

müşaviri R.Morninqstar Nümayəndələr Palatasının Xarici İşlər üzrə Komitəsində çıxışı (13.VI.1996) zamanı Administrasiyanın Azərbaycana humanitar və başqa yardımlar göstərilməsinə əngəl olan "907-ci düzəliş"in aradan qaldırılmasında israrlı olduğunu söyləmişdi.

Nəticədə qanun layihəsinin yuxarı palatada (Senatda) müzakirəsi zamanı **"Porter əlavəsi"nə ciddi dəyişikliklər** edildi: **a)** 7:1 nisbətində yardım göstərilməsi formulası rədd olundu; **b)** "Azərbaycan və Dağlıq Qarabağ" ifadəsi "Dağlıq Qarabağ da daxil olmaqla Azərbaycan" cümləsi ilə əvəzləndi. Uzlaşdırıcı komissiyanın sənədin mətninin dəqiqləşdirilməsi üçün keçirilən iclasında (IX.1996) yardıma dair bəndin senat layihəsi təsdiqləndi və o, tezliklə (30.IX.1996) prezident tərəfindən imzalandı.

XX əsrin sonuna doğru ABŞ-ın AR-ə marağının daha da artması ölkəmizə qarşı qadağalarda **növbəti-yeni yumşaldılmalara** gedilməsini şərtləndirdi. Ağ Evin Azərbaycana **diqqət və marağının artması** isə əsasən bunlarla əlaqədardı:

- ABŞ şirkətlərinin Azərbaycanın (Xəzərin) karbohidrogen ehtiyatlarının istismarı və nəqlinə daha geniş şəkildə və fəal cəlb olunmaları (Hasil olunan neftin təxminən 70 faizindən faydalanma. Buna görə də Ağ Evin rəsmilərindən biri hətta "biz neft emalı artımının əsas mənbəyi kimi Fars körfəzinə az əsaslanmaq istərdik" fikrini söyləmişdi);
- Ağ Evin Güney Qafqaz siyasətinin onun geostrategiyasının prioritet yönlərdən birinə çevrilməsi və bu kontekstdə də Azərbaycana xüsusi önəm verilməsi (Məhz bu və digər amillərlə sıx əlaqədar idi ki, P.Qobl ABŞ rəhbərliyini Cənubi Qafqaz respublikalarına münasibətdə ayrı-seçkiliyə son qoyulmasına, Qafqaz regionuna himayəyə hazırlığa, həmçinin Ağ Evin siyasətini yeniləşdirməyə çağırırdı);
- Aİ və ABŞ tərəfindən mühüm əhəmiyyət verilən Böyük İpək Yolunun bərpasına ("Şərq-Qərb" nəqliyyat dəhlizinin yaradılmasına) dair taleyüklü layihənin gerçəkləşdirilməsində Azər-

baycanın "açar ölkə"lərdən biri olması və s.

Məhz bu kimi tarixi reallıqların nəzərə alınmasının nəticəsi idi ki, Dövlət katibi M.Olbrayt senatın Xarici yardımlar üzrə Komitəsində çıxış edərkən (22.V.1997) demişdi: "Administrasiya ABŞ-ın Qafqaz regionunda və Azərbaycanda siyasətini, çevik təsirini sarsıdan 907-ci bölməyə qarşı qətiyyətlə çıxır". Təsadüfi deyil ki, tezliklə (VI.1997) həmin Altkomitə ABŞ hökumətinə öz fondları (qurumları—bank, agentlik, korporasiya) vasitəsilə siyasi islahatlar aparılması üçün Azərbaycana yardım göstərilməsinə icazə verilməsi barədə qərar çıxardı. H.Əliyevin ABŞ-a ilk rəsmi səfərinin (VII-VIII.1997) gedişində qəbul edilən (1.VIII.1997) ABŞ-AR münasibətləri haqqında Birgə Bəyannamədə də "907-ci düzəliş"in ölkələrarası əməkdaşlığı xeyli məhdudlaşdırdığı və Ağ Evin onun ləğvinə çalışdığı vurğulandı.

Bütün bu kimi açıqlamalar, tədbirlər və s. qadağaların yumşaldılmasına müəyyən təsir göstərsə də yetərli olmadı. Konqresin 1998-ci ilə dair xarici əməliyyatlar barədəki qanununa görə, Gürcüstana 92,5 mln., Ermənistana 87,5 mln. (iki il əvvələ nisbətən xeyli azalma ilə), "Qarabağ münaqişəsinin qurbanlarına" (ermənilərə - İ.M.) isə 12,5 mln. dollar ayrıldı. Azərbaycana isə üç qurum vasitəsilə yardım göstərilməsinə icazə verildi. Bu yöndəki ikili yanaşma son vaxtlaradək davam etməkdədir. ABŞ Konqresi 2010-cu maliyyə ilində Azərbaycana 22 mln., Ermənistana 41mln. və habelə separatçı Dağlıq Qarabağ rejiminə 8 mln. dollar həcmində yardım ayrılması barədə qərar qəbul etmişdir. Azərbaycana ayrılan vəsait həcmi cəhətdən Konqresin yardımları arasında 6-cı hesab olunur. Ermənistana yardımın əvvəl nəzərdə tutulan 75 mln. dollardan 41 mln. dollara endirilməsi qərara alınıbdır.

Ağ Evin və Dövlət Departamentinin rəsmiləri Ermənistanla müqayisədə Azərbaycana təxminən yarıbayarı az yardım ayrılmasını **birincinin ağır maddi vəziyyəti və ikincinin "qonşuları ilə müqayisədə iqtisadiyyatının çiçəklənməsi" –**

yetərli iqtisadi imkanlara malik olmasıyla əlaqələndirirlər. Azərbaycanın ərazi bütövlüyü və suverenliyini daima dəstəklədiyini bəyan edən ABŞ-ın AR-dəki səfirliyinin əməkdaşı T.Devidson "DQR"-in müstəqilliyini və belə bir adda hökumət tanımadıqlarını , yardımınsa ona yox, insanlara ayrıldığını və humanitar səciyyə daşıdığını bildiribdir.

ABŞ-ın bu hərəkəti Azərbaycanın haqlı və əsaslı etirazına səbəb olmuşdur. Bununla bağlı da Azərbaycanda bir sıra **dəyərləndirmələr** (V.Quluzadə, Ə.Həsənov,Q.Hüseynli və b.) ortaya çıxmışdır. Onların bir qismini tezisvari belə ifadə etmək olar:

- arxasında bütün Qafqaza yiyələnmək niyyəti dayanan addım;
- AR-in ərazi bütövlüyünün tanınmasıyla yanaşı **"DQR"- in müstəqilliyi ilə üstüörtülü olsa da razılaşma;**
- Dağlıq Qarabağda etnik separatizmin dəstəklənməsinə, güclənməsinə xidmət göstərən və münaqişənin nizamlanmasına mənfi təsir edən akt;
- Azərbaycanın suverenliyinə məhəl qoymayan və **ABŞ-ın "ədalətli, tərəfsiz vasitəçi" imicinə ciddi zərbə** vura biləcək hərəkət;
- sülhyaratmada və xalqlara münasibətdə universal yox, sırf xristian dəyərlərindən çıxışetmə;
- ABŞ-ın " DQR"-i tanımasına yolaçan (aparan) tədbir;
- ölkəmizdə antiAmerika təbliğatına rəvac verəcək vasitə və s.

Dağlıq Qarabağda maddi ehtiyacı olanlara yardım göstərilməsinin əleyhinə çıxılmadığını bildirən Azərbaycan tərəfi Ermənistanın işğalı üzündən köçkünlərə çevrilən və daha ağır vəziyyətdə yaşayan azərbaycanlıların da unudulmamasını tələb edir. Yəni belə bir yardımın Dağlıq Qarabağın azərbaycanlı icmasına da edilməsi istənilir. Bütün bunlar da Milli Məclisin ABŞ Konqresinə ünvanladığı müraciətdə və AR XİN-in Dövlət Departamentinə notasında öz əksini tapmışdır. Milli Məclisin müraciətində B.Obamanın bu qərara veto qoyacağına ümid ifadə olunubdur.

Notada isə Ermənistanın işğal etdiyi ərazilərdə rəsmi Bakı ilə məsləhətləşmədən hansısa proqram və s. həyata keçirilməsinin AR-in ərazi bütövlüyü və suverenliyi barədəki bütün bəyanatlara zidd olduğu qeyd edilir. AR rəsmilərindən ADA-nın rektoru, XİN-in müavini H.Paşayev bütün bunların lobbiçilərin fəaliyyətinin nəticəsində baş verdiyini və "separatçılara pul ayrılmasının ABŞ-ın özünün maraqlarına zidd" olduğunu bildirmişdir. Notanı alan (18.XII.2009) ABŞ-ın ona cavabı yubandı. AR-in ABŞ-dakı səfirliyinin müşaviri X.İbrahim bunu çox da inandırıcı olmayan səbəblə əlaqələndirdi: "Vaşinqtonda yağan güclü qar və ölkənin bayram ərəfəsində olması cavabı ləngidir ".

AR XİN-in rəsmisi E.Poluxov "notaya cavab məsələsi" ilə bağlı bunları bildiribdir: "İl yenicə başlayıbdır. Adətən belə vaxtlarda dövlət orqanları daha çox ölkədaxili işlərlə məşğul olur, ötən ilin hesabatını hazırlayır. Diplomatic qaydalara görə, notaya cavab verilməsi mütləq deyil. ABŞ-ın dövlət strukturları da sadəcə " nota ilə tanış olmaqla kifayətlənə bilərlər".

ABŞ-ın separatçı rejimə maliyyə yardımı ayırmasına qarşı etirazlar dalğası birmənalı başa düşülmür və bununla bağlı da müxtəlif yanaşmalar diqqəti cəlb edir. Ekspertlərin təhlillərində "əvvəlki illərdə də "DQR"-ə yardımlar ayrılırdı", "belə qərarlar, demək olar, hər il qəbul edilir", "bu məsələ müzakirə olunsa da, kampaniya səciyyəsi daşımırdı", **"Ermənistana 800 mln. dollarlıq silah-sursat verən Rusiyaya niyə etiraz edilmir?"** və s. önə çəkilir. Gəlinən qənaətsə belədir ki, əslində fəallaşan antiqərb qüvvələr tərəfindən ABŞ-a qarşı bir "idarəolunan kampaniya" aparılır və "DQR"-ə yardım ayrılması da buna bəhanədir. Dövlət rəsmiləri antiAmerika təbliğatının aparılmadığını bildirirlər. Ölkəmizin siyasi-elmi dairələrində ortaq məxrəcli mövqe isə belədir: ABŞ (Qərb) tənqid edilsə də, ona qarşı kampaniya aparılmamalıdır; çünki bu, təhlükəli siyasətdir.

Bu da qeyd olunasıdır ki, ABŞ-ın özündə də məlum qərara münasibət fərqlidir. Məsələn, Hopkins univarsitetinin pro-

fessoru F.Starın fikrincə, **"bu qərar uğursuz səhvdir, erməni lobbisinin təsiri ilə edilən bir jestdir".** O habelə maliyyə vəsaitinin ayrılması və hesaba köçürülməsini mümkünsüz hesab edir. Belə bir məqam da diqqəti çəkir ki, ABŞ Abxaziya və Cənubi Osetiya kimi separatçı rejimlərə yardım ayırmır və tanınmamış Şimali Kipr Türk Cumhuriyyətinə ŞKTC-yə də, neçə illərdir ki, eyni münasibət göstərir. ŞKTC-nin ilk (artıq sabiq) prezidenti **R.Denktaşın** belə bir ibrətamiz xatırlaması çox şey deyir: **"1964-dən 1974-dək qan qusduq. Amma Amerika bizə bir qəpik də yardım etmədi. Əksinə, təslim olmağımızı istədi".** AR-dəki səfirlik ABŞ-ın azərbaycanlı köçkünlərə də yardım ayırdığını və minalardan təmizləmə layihələrinə, onlar üçün məktəblər tikintisinə və s. dəstək verdiyini bildirmişdir. Səfirliyin açıqlamasında (XII.2009) ABŞ hökumətinin müvafiq təlimatından sonra azərbaycanlı köçkünlərə yardımla bağlı da bəyanatın olacağını qeyd edilmişdir. Konqresmen M.Makoan "Dağlıq Qarabağa yardım münaqişənin nizamlanmasına yönəlib" kimi əcaib açıqlama veribdir: "Qərarda bu vəsaitin yalnız etimadın və sülhün bərqərar olunmasına sərf edilməsi yazılıbdır".

ABŞ Dövlət Departamentinin AR-in etiraz notasına rəsmi cavabı 2010-cu il yanvarın 26-da verilibdir. Cavabda ABŞ Administrasiyasının Dağlıq Qarabağ adında qurumu tanımadığı bəyan edilibdir. Habelə ABŞ-ın DQ-də həyata keçirilən bütün proqramlarla bağlı AR-in açıq formada məlumatlandırılması prinsipinə sadiq qaldığı bildirilmişdir (Son vaxtlar bəlli olan məlumata görə, AR-in ABŞ-a notası rəsmi sənədlə deyil, Azərbaycanın Vaşinqtondakı səfirinin Dövlət Departamentinə gedərək məsələ ilə bağlı şifahi etiraz bildirməsi formasında verilmişdir).

Burada belə bir məqamı da qeyd etmək lazım gəlir. Belə ki, AR XİN-i Rusiyaya da nota veribdir (1. 2010). Bu nota isə Dövlət Dumasının vitse-spikeri V.Jirinovskinin bəyanatları, xüsusilə də Latviya mətbuatına açıqlamasında söylədiyi "əgər Dağlıq Qarabağ müstəqilliyini élan eləsə, Rusiya onun müs-

təqilliyini tanımalıdır" fikri ilə bağlıdır. (AR-in Naxçıvan bölgəsini və DQ-ni Ermənistan ərazisi kimi təqdim edən xəritələrlə bağlı Gürcüstana və Misirə də notalar verilmişdir).AR-in həm ABŞ-a, həm də Rusiyaya notalar verməsi **"böyük güclərlə nota ritorikası təhlükəlidirmi?" məsələsini** gündəmə gətiribdir. Politoloq – diplomatların əksəriyyəti belə hesab edir ki, təhlükə və risk notaların cavablandırılmaması və ya onlara sərt cavablar verilməsi halında mümkündür. Başqa sözlə, diplomatiyada nota normal haldır və konkret şəraitdə Azərbaycanın haqqıdır.

Bu kimi halların yaranmasına bədnam " 907-ci düzəliş"in təsiri də danılmazdır. Qeyd etmək lazımdır ki,1998-ci ildə "907-ci düzəliş"in ləğvinə xeyli yaxınlaşıldı. Belə ki, o vaxtkı Dövlət katibi M.Olbrayt və onun köməkçilərindən S.Talbott, xarici siyasət idarəsinin sabiq başçılarından C.Beyker, ayrı-ayrı prezidentlərin milli təhlükəsizlik məsələləri üzrə keçmiş köməkçilərindən Z.Bzejinski, B.Skoukroft, habelə konqresmen-senatorlardan P.Saymons, R.Luqar, Q.Lafli və b. bu düzəlişin ləğvinə yönəlik səylərini artırdılar. Eyni zamanda ABŞ-ın neft şirkətləri və oradakı yəhudi lobbisi özlərinin bu sahədəki fəallıqlarını gücləndirdilər. Birləşmiş səylər sayəsində Nümayəndələr Palatasının Xarici yardımlar üzrə Komitəsinin iclasında (10.IX.1998) o vaxtkı spiker R.Livinqstonun təşəbbüsü ilə Azərbaycana yardıma qadağanı ləğv edən xüsusi düzəliş qəbul edildi (Bu işdə M.Olbraytın Komitə üzvlərinə məktubla müraciəti də mühüm rol oynadı).

Ancaq məsələnin Nümayəndələr Palatasında müzakirəsinin nəticələri Azərbaycanın xeyrinə olmadı. "907-ci düzəliş"in ləğvinə 182, onun qüvvədə saxlanmasına isə 231 konqresmen səs verdi. Bəzi analitiklərin qənaətinə görə, buna müxalifətçi qüvvələrin Bakıda keçirdikləri böyük və güclü mitinqin (12.IX.1998) zorla dağıdılması da müəyyən təsir göstərmişdi. Yəni bu akt parlamentarilərin öz mövqelərini müəyyənləşdirmələrində rol oynamış və ermənipərəst konqresmenlərin

Azərbaycanda insan haqlarının ciddi şəkildə pozulması barədəki təbliğatına əlavə rəvac vermişdi. R.Livinqstonun təşəbbüsü alınmasa da, 1999-cu ilə dair xarici əməliyyatlar qanununa əsasən AR-ə ABŞ-ın Xarici ticarət xidməti vasitəsilə yardım edilməsi razılaşdırıldı.

"907-ci düzəliş"in ləğvinə yönəlik bir cəhd də Kanzas ştatından olan və "bu maddə mütləq dəyişdirilməlidir" mövqeyində dayanan respublikaçı senator S.Braunbək tərəfindən edildi. Senatın Xarici İşlər üzrə Komitəsi 1999-cu il martın 23-də onun təklif etdiyi **"İpək Yolu strategiyası haqqında Akt" adlı qanun layihəsini** təsdiqlədi. Həmin sənəd Güney Qafqazla Orta Asiyadakı 8 ölkəyə siyasi-iqtisadi və b. yardımlar göstərilməsini planlaşdırırdı. Onun AR üçün ən önəmli məqamlarından biri də bundan ibarət idi: qanun prezidentə "907-ci düzəliş"i faktiki olaraq ləğv etmədən onun fəaliyyətini dayandırmaq imkanı verirdi. Bu və habelə digər imkanlar prezident C.Buşun (oğul) 2002-ci ildən etibarən "907-ci düzəliş"in fəaliyyətini ilbəil dayandırmasına şərait yaratdı.(Sözgəlişi, AR hökumətinin "İkinci körfəz savaşı" zamanı tutduğu düzgün və obyektiv mövqe də nəzərə alındı). Həmin ildə ABŞ AR-ə silah satışına qoyulan qadağanı da ləğv etdi.

Ancaq "907-ci düzəliş" hələ də tam qüvvədən salınmayıb, yəni ləğv olunmayıbdır. Bu hal da "ABŞ onu niyə birdəfəlik ləğv etmir?" kimi təbii sualı ortaya çıxarmışdır. Sualın fərqli cavabları vardır. Bir çoxları "907-ci düzəliş"in ermənilərin və onların lobbiçilərinin maraqlarından çox, ABŞ-ın özünün geostrateji mənafelərinə xidmət etməsi qənaətindədir. Araşdırmaçı və diplomatların bir qismi onu ABŞ-ın Azərbaycana davamlı və təsirli təzyiq vasitəsi kimi səciyyələndirirlər. Belə hal da onun ləğvi işinin Ağ Evlə Konqres arasında "ötür-ötür" oyununa çevrilməsini və əslində isə ABŞ-ın dövlət qurumlarının manevr etmə imkanı qazanmalarını təmin etmişdir.

Bunu ABŞ rəsmilərinin çoxsaylı açıqlamaları da yetərincə təsdiqləyir: B.Klinton, M.Olbrayt, R.Armitac və başqalarının az

öncə qeyd olunan fikirləri; "biz konqres ilə işləməliyik" (Ağ Evin mətbuat katibi M.MakKerri – VIII.1997); konqresmen S.Kallahen və ABŞ-ın AR-dəki Müvəqqəti işlər vəkili L.Piasek (VIII.1997): "erməni-azərbaycanlı münaqişəsi nə qədər tez həll edilərsə, "907-ci düzəliş"də bir o qədər tez ləğv olunar" və Ermənistanla sülh müqaviləsinin bağlanmasınadək "907-ci düzəliş"in ləğvi ehtimalı çox azdır; R.Morninqstar (XI.1997): "Bu qanunu ("907-ci düzəliş"i – İ.M.) Konqress qəbul etmişdir, o da ləğv etməlidir".

Düzəlişin tətbiqi növbəti dəfə dayandırılıbdır. Konqresmen M.Makoan onun "köhnəlmiş və mübahisəli" olduğunu, ləğv ediləcəyini bildirir. O da bunun Qarabağ münaqişəsinin nizamlanması və Ermənistan-Türkiyə münasibətlərinin normallaşması nəticəsində baş verəcəyi qənaətindədir.

AR-ABŞ münasibətlərini Ağ Evin Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı tutduğu **mövqe kontekstində** də səciyyələndirmək olar. Burada çıxış nöqtəsi kimi ABŞ-ın AR-i mövcud sərhədləri daxilində, yəni onun ərazi bütövlüyü ilə tanıması götürülə bilər. Dövlət Departamenti özünün hələ ilkin bəyanatlarından birində (19.V.1992) "hər hansı bir ərazinin statusunun zorakılıq əsasında birtərəfli şəkildə dəyişdirilməsi ilə razılaşmayacağını" bəyan etmişdi. Bir qədər sonra (I.1993) isə ABŞ və Rusiya prezidentləri Ağ Evin təşəbbüsü ilə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı birgə bəyanat verdilər. Həmin sənəddə ATƏM-in Minsk Konfransının çağırılması təklifi dəstəklənirdi.

AR rəhbərliyinin ABŞ-ın diqqətini Ermənistanın Azərbaycana təcavüzünə və Ağ Evi münaqişənin ədalətlə həlli prosesində fəal iştiraka cəlb etməyə çalışması **Elçibəy-Klinton məktublaşmasından** da aydın görünür. Birincinin ikinciyə prezident seçilməsi münasibətilə göndərdiyi məktubda (3.II.1993) məlum münaqişə ilə bağlı bir sıra **ciddi məsələlərə** toxunulurdu: hazırda davam etməkdə olan münaqişə Ermənistanın ölkəmizə qarşı ərazi iddiasıyla törətdiyi ilk müharibə deyildir; bundan əvvəlki təcavüz Zəngəzurun Azərbaycandan ayrılması ilə nəticələnibdir; indiki respublikamızın hökuməti BMT Nizamnaməsinə və ABŞ Dövlət Departamentinin əsas tutduğu prinsiplərə (mövcud sərhədlərin toxunulmazlığı və s.) hörmətlə yanaşaraq əzəli torpaqlarımızın qaytarılması məsələsini qaldırmır; hazırkı təcavüz Yuxarı Qarabağın ölkəmizdən qoparılması məqsədini güdür; Ermənistanın təcavüzkarlığının pislənilməməsinin rahatsızlıq yaratması. ABŞ prezidentinin cavab məktubu (10.II.1993) AR-in münaqişə ilə bağlı mövqeyilə həmrəylik ahəngində olmuşdu.

Həmin dövrdə **H.Əliyevin B.Klintona məktubunda** (I.1993) da ABŞ hökumətinin "Dağlıq Qarabağ problemi"nin həllinə yönəlik səylərini, o cümlədən də Naxçıvanın Ermənistanın blokadasından çıxarılmasına dair tədbirlərini gücləndirməsi istənilmişdi. Bu, **diplomatik yazışmalar prosesində** (3.II.1993) BMT-nin AR-dəki nümayəndəsi Mahmud əs-Səid və R.Mayls Naxçıvana gedərək H.Əliyevlə görüşmüş və bölgənin durumu ilə tanış olmuşdular.

Rusiyaya arxalanan Ermənistanın Kəlbəcəri tutması AR rəhbərliyinin ABŞ ilə diplomatik təmaslarını daha da genişləndirdi. Ə.Elçibəy B.Klintona xüsusi məktub göndərərək (14.IV.1993) Ermənistanın Kəlbəcəri işğal etməsinin **Dağlıq Qarabağ münaqişəsində yeni şərait** yaratdığını, ABŞ hökumətinin müvafiq təsir görməsinin zəruriliyini onun diqqətinə çatdırmışdı. Azərbaycan prezidentinin hərbi işğal aktı ilə əlaqədar məktubunu BMT Baş katibi B.Qaliyə çatdıran AR-in həmin təşkilatdakı Daimi nümayəndəsi H.Həsənov həmçinin ABŞ-ın müvafiq siyasi və diplomatik çevrələrini də məlumatlandırdı.

Ağ Ev də öz növbəsində Ermənistana iki rəsmi təqdimat yollayaraq bu təcavüzkar hərəkəti pisləmiş, hərbi əməliyyatların dayandırılmasını tələb etmiş və yaranmış vəziyyətdən rahatsızlığını həm rəsmi İrəvanın ali rəhbərliyinə, həm də Dağlıq Qarabağ ermənilərinin təmsilçilərinə bildirmişdi. Dövlət Departamenti də işğal faktını pisləyən bəyanatla çıxış etmişdi (Doğ-

rudur, orada Kəlbəcərə Ermənistanın deyil, "etnik erməni qüvvələrinin hücum etdiyi" yazılmışdı).

ABŞ Dövlət Departamentinin Dağlıq Qarabağ problemi üzrə danışıqlardakı təmsilçisi C.Mareska və S.Talbott 1993-cü ilin may-iyun aylarında xüsusi missiya ilə Bakıya gəldilər. Ə.Elçibəylə görüşdə S.Talbott **B.Klintonun məktubunu** (14.V.1993) da ona çatdırdı. B.Klinton öz məktubunda Azərbaycan prezidentini demokrat və fəal islahatçı kimi tanıdığını qeyd edirdi. Orada habelə Ağ Evin başçısının Kəlbəcər rayonunun sakinlərinə başsağlığı əks olunmuşdu. B.Klinton həm də Kəlbəcərin etnik erməni qüvvələri (yenə də "Ermənistan" ifadəsi işlənmir-İ.M.) tərəfindən işğalının münaqişənin daha da güclənməsinə gətirib çıxaracağından rahatsız olduğunu bildirmişdi. O, ABŞ hökumətinin bu hücumu pisləyiini diqqətə yetirmiş və qoşunları Kəlbəcər rayonundan dərhal çıxarmağa çağırmışdı (Müraciətin konkret olaraq kimə ünvanlandığı bilinmir – İ.M.).

B.Klinton bu məktubu vasitəsilə Azərbaycan hökumətinə bəzi tövsiyə və mülahizələrini də çatdırmışdı: Azərbaycanın hərbi qisas yolları axtarmaması və, əksinə, münaqişənin ATƏM çərçivəsində, dincliklə aradan qaldırılmasında ABŞ ilə işləməyi davam etdirməsi; ABŞ-ın, demokratiya və bazar iqtisadiyyatı yolunda addımlar atan, Azərbaycanla əlaqələrinin genişləndirilməsini davam etdirmək arzusunda olması; bu münaqişənin qurtarması yollarının axtarışına və əməkdaşlığın reallığa çevrilməsi üçün bütün blokadaların (Ermənistan və Dağlıq Qarabağ nəzərdə tutulur – İ.M.) götürülməsi.

Bu tövsiyə və mülahizələr mahiyyət etibarı ilə **ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin həllinə yanaşma prinsiplərini** əks etdirirdi. Onlar elə həmin vaxtlarda **3+1 formatı** üzrə, yəni Rusiya (V.Kazimirov), ABŞ (C.Mareska), Türkiyə (V.Vural) və ATƏM (M.Rafaellinin təmsilçisi) arasındakı **dördtərəfli Moskva danışıqlarında** da özünə yer almışdı. B.Klintonun təklif və müddəaları əslində ABŞ-ın Azərbaycanı Ermənistana hərbi müqavimət göstərməməyə və Ermənistanla

Dağlıq Qarabağın olmayan blokadalarını götürməyə söz verməsinə çağırış idi (Bunlar "907-ci düzəliş"in ləğvinin də Azərbaycandan gözlənilən – istənilənlərdən asılılığını bir daha təsdiqləmiş olurdu). Azərbaycan rəhbərliyi, həmin mülahizələri nə tövsiyələri razılıqla qarşılamadı. Baxmayaraq ki, Naxçıvan Ali Məclisi Azərbaycan hökuməti ilə razılaşdırmadan AR-in bu bölgəsi ilə Ermənistan arasında atəşkəsin saxlanılması barədə niyyət protokolu imzaladı (14.V.1993) (Bu aktı Naxçıvanın təhlükəsizliyi baxımından məqbul sayan yanaşmalar da istisna deyil).

ABŞ özünün geostrateji maraqlarından çıxış edərək Ermənistan-Azərbaycan münaqişəsinin həlli prosesində aparıcı rolun Rusiyadan ATƏM-ə keçməsinə və Ümumavropa təhlükəsizliyi müstəvisinə çıxarılmasına çalışdı.Bu cəhətdən ATƏM-in Budapeşt sammitində görülən işlərin əhəmiyyəti vardır. Belə ki, amerikalı diplomatların (M.Olbrayt və C.Kollinzin) səyi ilə həmin toplantıda Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirildi. ABŞ-ın təmsilçilərinin vasitəsilə sammitdə həmçinin ATƏM-in Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair AR-in maraqlarını təmin edən bir qətnaməsi qəbul olundu. Həmin sənədə əsasən münaqişənin həlli prosesi Rusiyanın inhisarından çıxarılaraq ATƏT-in ixtiyarına verilir və münaqişə bölgəsində tək adı çəkilən dövlətin deyil, beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsi planlaşdırılırdı.

ABŞ-ın Z.Bjezinski, P.Qobl və digər politoloqları münaqişənin nizamlanmasına yönəlik müəyyən tövsiyə və təkliflər irəli sürmüşdülər. P.Qobl Azərbaycanla Ermənistan arasında ərazi mübadiləsinə dair planla çıxış etdi. **"Qobl planı"** Ermənistanla Dağlıq Qarabağın arasındakı ərazinin (əsasən Laçın rayonunun) bir hissəsi ilə - Naxçıvanın Azərbaycanın digər torpaqlarıyla coğrafi birləşməsi üçün-Mehri rayonunun müəyyən qisminin (Araz boyu, İranla sərhəddə) əvəzlənməsini nəzərdə tuturdu. Azərbaycan tərəfi bu təklifə birmənalı olaraq "hə" demədi. Həm də "plan-təklif" yaranışdan uğursuzluğa məh-

kumdu. Çünki Ermənistanın himayədarlarını (Rusiya və İranı) əsla qane etmirdi.

ABŞ, Rusiya və Fransa prezidentlərinin Dağlıq Qarabağ münaqişəsinə dair birgə **Denver bəyanatının** (20.VI.1997) qəbulunda da Ağ Evin müəyyən əməyi oldu. Rəsmi Vaşinqton Rusiyanın Ermənistana silah satışı ilə bağlı rahatsızlığını və bunun regiondakı dövlətlərarası münasibətləri xeyli gərginləşdirəcəyini, həmçinin "Dağlıq Qarabağ problemi"nin həlli prosesində əlavə problemlər yaradacağını, çətinlikləri artıracağını da dəfələrlə bildirmişdi. ABŞ Senatının "Avropada adi silahların məhdudlaşdırılması haqqında müqavilənin cinah sənədinin təsdiqlənməsinə dair qətnamə"si (V.1997) bu cəhətdən xüsusilə fərqlənir və çox dəyərlidir. Regiondakı sürətlə silahlanmanın ABŞ və AR-i rahatsız etməsinin ifadəsi olan həmin sənəddə "Azərbaycandakı separatçı hərəkatın", yəni "DQR"-in Ermənistan ərazisi vasitəsilə silahlandırılması və s. məqamlar özünə yer almışdı.

"Dağlıq Qarabağ Respublikası"nda vaxtaşırı keçirilən "prezident seçkiləri" də ABŞ tərəfindən tanınmamış və bütün bu kimi hallarda AR-in ərazi bütövlüyü ilə suverenliyinin Ağ Ev tərəfindən müdafiə olunması dəfələrlə təkrarlanmışdır. ABŞ Minsk Qrupunun **üç həmsədrindən biri** olduqdan sonra Ağ Evlə Dövlət Departamentinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi sahəsindəki fəaliyyəti əsasən bu qurum çərçivəsində aparılmışdır (Bu barədə dərsliyin 2-ci bölümündə ətraflı bəhs olunur).

AR-ABŞ münasibətlərində diplomatik əlaqələr, beynəlxalq siyasətdə əməkdaşlıq və dövlət rəsmilərinin qarşılıqlı səfərləri də mühüm yer tutur. Dövlətlərarası əlaqələrin qurulduğu **ilk vaxtlarda** prezidentlərin (Ə.Elçibəyin ata C.Buşla və B.Klintonla) diplomatik yazışmaları diqqətçəkicidir. H.Əliyevin ABŞ-ın dövlət başçıları, siyasi xadimləri, diplomatları, politoloqları (B.Klinton, ata və oğul C.Buşlar, A.Qor, M.Olbrayt, U.Kristofer, H.Kissincer, S.Talbott, Z.Bjezinski, P.Qobl,

Q.Laflin, K.Şnayder (yəhudi icmasının başçısı), R.Mayls, C.Kollinz, S.Braunbək, R.Kozlariç) ilə Bakıda və Vaşinqtonda, habelə müxtəlif beynəlxalq tədbirlər çərçivəsində Ankarada, Qahirədə, Londonda, Nyu-Yorkda, Budapeştdə apardığı müzakirələr AR ilə ABŞ arasındakı çoxtərəfli əlaqələrin inkişafı baxımından xeyli faydalı olmuşdur. Onun erməni lobbisi tərəfindən xeyli əngəllənən ilk **rəsmi səfəri** (VII-VIII.1997) zamanı Ağ Evdə B.Klinton və digərləri ilə olan danışıqları, "Amerika-Azərbaycan münasibətləri haqqında" **Birgə Bəyanat** *(1.VIII.1997)* bir çox məqamlarıyla diqqəti cəlb edir.

Bəyanatda AR ABŞ-ın strateji tərəfdaşı elan edilirdi. Sənəddə habelə ABŞ-ın Azərbaycan siyasətinə aid **bir sıra məsələlər** önə çəkilmişdi: Azərbaycanın dövlət müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və s. davamlı olaraq dəstəklənəcəyi; Dağlıq Qarabağ münaqişəsinin ATƏT çərçivəsində sülh yolu ilə tezliklə nizamlanmasına ciddi səylər göstəriləcəyi; "907-ci maddə"nin ləğvinə var-qüvvə ilə çalışılacağı; Azərbaycanın beynəlxalq və regional təhlükəsizliyinin himayə olunacağı; ölkəmizdə demokratik inkişafa, bazar iqtisadiyyatının qüvvətləndirilməsinə və çoxşaxəli islahatlara hərtərəfli yardım göstəriləcəyi; Xəzərin karbohidrogen ehtiyatlarının istismarı, nəqlində ABŞ şirkətlərinin yetərli iştirakına və enerji təhlükəsizliyi məsələlərində rəsmi dialoqa üstünlük veriləcəyi; Azərbaycanı da əhatə edən Avropa-Asiya nəqliyyat və kommunikasiya dəhlizinin yaradılmasının, ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyasının, bu kontekstdə də onun ÜTT-yə üzvlüyə qəbulunun daima himayə olunacağı və s.

Bütün bunlar, təbii, çox ciddi bəyanatlar idi və AR-ABŞ münasibətlərinin daha da yaxşılaşdırılması üçün sanballı özüllər kimi də dəyərləndirilə bilər. Amma onlar da bəzi tədqiqatçıların (Ə.Həsənov və b.) "Azərbaycan xalqının Amerikanın beynəlxalq himayəsi altına alınması" təki qənaətləri ilə tam razılaşmağa əsas vermir. Sonrakı proses və hadisələr göstərdi ki, ABŞ nəinki Azərbaycanı, heç-onun geostrategiyasına tamamilə uy-

ğun siyasət yeridən-Gürcüstanı belə yetərincə himayə etmir. (Yaxud da istəmir. Onun Rusiya ilə **"beş günlük müharibə"**sini burada xatırlamaq kifayətdir). Ağ Ev "Dağlıq Qarabağ problemi"nin həllində Azərbaycanın haqlı tələblərinin təsirli, ədalətli nəticələr verməsinə də kifayət qədər çalışmır və bədnam "907-ci düzəliş"in ləğvinə nail olmur (Və ya hələlik bunu da istəmir). Belə bir halsa AR hökumətini müəyyən manevrlərə, hətta arada bəzən Rusiyaya meyllənməyə sövq etdirir. (Yeri gəlmişkən, bəzi politoloqlara görə burada başlıca məsələ Rusiyanın Azərbaycana meyl edib-etməyəcəyindən ibarətdir).

Azərbaycan-Amerika siyasi dialoqu İ.Əliyevin ABŞ-a rəsmi və işgüzar səfərləri ilə inkişaf etdirilmişdir. Onun ABŞ-a ilk **rəsmi səfəri** (IV.2006.) AR-dəki 2003-cü il prezident seçkilərinin Ağ Ev rəhbərliyi tərəfindən birmənalı qarşılanmaması ucbatından bir xeyli ləngidi. Həmin səfər zamanı C.Buşla (oğul) və digər dövlət adamları ilə aparılan danışıqların prioritet məsələləri isə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair səylərin intensivləşdirilməsi, Xəzərin neft-qaz ehtiyatlarının işlənməsi və nəqli, Azərbaycanda demokratik proseslərin inkişafı və s. oldu.

AR-ABŞ çoxtərəfli əlaqələrində **iqtisadi və mədəni sahələrdə səmərəli əməkdaşlıq** da aparıcı yerlərdən birini tutur. Bu sahədə **görülən işləri və əldə edilən nəticələri** səciyyələndirərkən aşağıdakıların vurğulanmasına lüzum vardır:

- Azərbaycanın "neft siyasəti"ndə ABŞ şirkətləri ilə əməkdaşlığa xüsusi önəm verilməsi. Öz növbəsində ABŞ-ın Xəzərin karbohidrogen ehtiyatlarına hədsiz maraq göstərməsi və **uğurlu "neft-qaz kəmərləri diplomatiyası"**nı gerçəkləşdirməsi. Bunlarla bağlı da "ARDNŞ"-in ABŞ-ın neft şirkətləri ilə çoxlu (8 mlrd.dollarlıq) neft kontraktını, onların "Əsrin müqaviləsi"ndə layiqli təmsil olunmaları, Ağ Evin BTC-ni əngəlləyən qüvvələri (faktorları) dəf edə bilməsi, "Nabucco"nun reallaşmasına çalışması önə çəkilə bilər;
- dövlətlərarası iqtisadi-ticarət əlaqələrinin yüksələn xətlə inki-

şaf etməsi. Bu işdə də hər iki dövlətin müvafiq strukturlarının rəsmilərinin qarşılıqlı səfərləri, Azərbaycanda ABŞ Ticarət Palatasının açılması (XII.1996) və s. böyük əhəmiyyəti oldu. Son vaxtlar bir sıra layihələrin reallaşdırılması sahəsində əməkdaşlıq da genişlənməkdədir. AR hakimiyyətinin ABŞ-dakı lobbiçilərindən biri olaraq bilinən "Caspian Energy Consalting" şirkətinin prezidenti S.Sübhaninin "The Washington Times" qəzetindəki məqaləsindən bunlar məlum olur: Azərbaycan hökuməti ölkənin şərqi ilə qərbini birləşdirəcək nəhəng yolun inşasını bütünlüklə ABŞ şirkətlərinə təklif etmək niyyətindədir. Azərbaycanda **" 21-ci əsrin şossesi"** olacaq bu layihənin ilkin dəyərinin 2,6 mlrd. dollar təşkil etdiyi bildirilir (Burada habelə B.Obamanın İ.Əliyevi ABŞ-a rəsmi səfərə dəvət etməsinə təsir imkanlarının da diqqətə alındığı vurğulanır);
- mədəni, humanitar, təhsil və elm sahələrində əməkdaşlıq çoxtərəfli əlaqələr sisteminin önəmli komponentlərindən birinə çevrilməkdədir. Bu sahədə də yenə qarşılıqlı səfərlərin, birgə tədbirlərin, tələbə və mütəxəssis mübadiləsinin, ABŞ-ın müxtəlif qurumlarının ölkəmizə texniki yardımı, Bakıda bir müddət "Amerika universiteti"nin fəaliyyət göstərməsi qeyd olunmalıdır.

Dövlətlərarası münasibətlərin bir sıra məsələləri **"Azərbaycan-ABŞ: 11-ci təhlükəsizlik dialoqu" (XI.2009)** çərçivəsində müzakirə edilmişdir. **Ənənəvi təhlükəsizlik dialoqları** 1996-cı ildən keçirilir. Dialoqun XİN müavini A.Əzimovun və Dövlət katibinin siyasi-hərbi məsələlər üzrə köməkçisi E.Şapironun həmsədrliyi ilə keçirilən bu raundunda Azərbaycan tərəfi ABŞ-a Dağlıq Qarabağ münaqişəsinin hüquqi məqamlarına aid hesabat təqdim edibdir. Hesabatla tanış olan Dövlət Departamentinin hüquq ekspertləri **münaqişənin "ərazi bütövlüyü prinsipi" əsasında nizamlanmasının lazım gəldiyi**ni bildirmişlər. Azərbaycan tərəfi Dağlıq Qarabağın erməni icmasının statusunun müəyyənləşdirilməsinə razı və hazır olduğunu, an-

caq bunun yalnız bölgədən didərgin salınan azərbaycanlı əhalinin iştirakı ilə mümkünlüyünü bəyan etmişdir. Həmçinin Türkiyə-Ermənistan sərhədlərinin açılmasının Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə bağlı olmadığına dair yanaşma yanlış sayılmışdır.

Dialoqun müzakirə etdiyi məsələlər dairəsi geniş olmuşdur. Burada regionda kütləvi qırğın silahlarının və narkotik maddələrin dövriyyəsinin yayılmasının əngəllənməsi, Xəzər hövzəsində və energetika sahəsində *təhlükəsizliyin möhkəmləndirilməsi*, ABŞ-ın bölgədəki maraqları və s. ətrafında fikir mübadiləsi aparılmışdır. Başlıca diqqətsə bu yönlərdəki ikitərəfli əməkdaşlığın genişləndirilməsinə yönəldilmişdir.

"AR-ABŞ: 11-ci təhlükəsizlik dialoqu" ilə yanaşı Nyu-Yorkdakı Kolumbiya universitetində dövlətimizin diplomatik xidmətinin yaradılmasının 90 illiyi ilə bağlı konfrans da keçirilmişdir. "XXI əsrdə Azərbaycanın perspektivləri və tələbləri" mövzusundakı bu konfransda AR-ABŞ münasibətlərinin çağdaş durumu və gələcəyinə dair məsələlər də araşdırılıbdır. Daha bir konfrans isə Corcstaun universitetində "ABŞ-Azərbaycan: strateji tərəfdaşlıq yeni ikitərəfli və regional ölçülər" mövzusunda olubdur. **Dialoqda və konfranslarda** Azərbaycan tərəfi ABŞ-a bəzi **iradlarını** da bildirmişdir:

- diplomatik demarş kimi görünsə də, dövlətlərarası münasibətlərdə balansın olması istənilibdir. AR ilə ABŞ arasındakı "strateji müttəfiqlik qarşılıqlı münasibət tələb edir. Azərbaycanın səyləri Amerikanın səylərindən qat-qat yüksəkdir";
- iki əsr ərzində Azərbaycana qonşu dövlətlərin ağalıq etdiyi bir regiona buraxılması ABŞ üçün şans (yuxu) kimi dəyərləndirilmişdir. **"1992-ci ildə ABŞ-a şans verildi.** 1992-1994-cü illərdə ABŞ-ın maraqlarını bütövlüklə Azərbaycana gətirməsi onun bu ölkədə mövcudluğuna verilmiş şans idi";
- bu kontekstdə ABŞ-ın regionda yeritdiyi siyasətin ardıcıl olmaması və Dağlıq Qarabağ münaqişəsiniun nizamlanmasında passiv mövqe tutması vurğulanıbdır;

- ABŞ-ın uzun müddətdir ki, AR-ə yüksək vəzifəli dövlət xadimlərini səfərə göndərməməsinin də normal diplomatik əlaqə olmadığı xatırladılıbdır;
- ABŞ-ın AR-ə **yeni səfir göndərməsinin xeyli ləngiməsindən** (2009-cu ilin iyulundan etibarən) təəssüf diqqətə yetirilibdir (Bu hal ABŞ tərəfindən Azərbaycana xüsusi münasibət kimi deyil, ümumi hal kimi dəyərləndirilibdir. 30-40 ölkədəki diplomatik nümayəndəliyin hələlik səfirsiz qaldığı bildirilir. Bəzi şərhlərə görə, həmin dövlətlər ABŞ üçün çox da böyük önəm kəsb etmirlər).

Ümumiyyətlə, bəzi ekspertlərə görə, AR-ABŞ münasibətlərində son 20 ildə görünməyən soyuqluq müşahidə olunur. Dövlətlərarası **"soyuq qış" dönəmi**nə dəlalət edən amil və faktlar sırasında bunlar önə çəkilir:

- B.Obama prezidentliyə başladıqdan sonra AR prezidenti ilə cəmi bir dəfə, yəni 2009-cu ilin aprelində İstanbulda olarkən əlaqə saxlayıb-telefonla təmas yaradıbdır;
- ABŞ xeyli müddətdir ki, Azərbaycana səfir göndərmir;
- AR XİN-i E.Məmmədyarov 2009-cu ilin mayından bəri xanım H.Klintonla birbaşa görüşə bilməyibdir. Hətta Əfqanıstana dair beynəlxalq konfransda (Londan, 28.I.2010) Ermənistan XİN-i ilə görüşən Dövlət katibi AR-in baş diplomatı ilə təmas qurmayıbdır. Xanım H.Klintonun gənc azərbaycanlı bloggerlərin azadlığa buraxılmasına dair xahişinin eşidilməməsi də proseslərə öz təsirini göstəribdir;
- ABŞ-ın əvvəlki dövlət başçısı C.Buş (oğul) və hazırkı vitse-prezident C.Bayden Gürcüstana rəsmi səfərlər etsə də, **Azərbaycana gəlməyiblər**. Habelə ABŞ Dövlət Katibinin birinci müavini C.Steynberq 2010-cu ilin fevralında Cənubi Qafqaza turnesi zamanı İrəvanda və Tiflisdə dövlət başçıları ilə danışıqlar aparsa da, Bakıya gəlməyibdir. Onun AR prezidenti ilə görüşü isə 46-cı Münhen konfransı zamanı baş tutubdur;
- **birinci dəfədir** ki, hazırda ABŞ-a rəhbərlik edənlərin **ilk**

dördlüyü (B.Obama, C.Bayden, H.Klinton, Nümayəndələr Palatasının spikeri N.Pelosi) **"erməni dostları"** sayılırlar. (Onlardan **ilk üçü** senator olarkən "Erməni dəstək qrupu"nda idilər). Uzun illərdən bəri ilk dəfədir ki, ermənilər eyni vaxtda Ağ Evdə, Dövlət Departamentində, Konqresin palatalarında təsirli imkanlara malikdirlər;

- şirkətləri hasil edilən Azərbaycan neftinin təqribən 70%-dən faydalanan ABŞ öz büdcəsindən Dağlıq Qarabağın erməni separatçılarına birbaşa maliyyə yardımı ayıran yeganə dövlətdir;
- ABŞ ilə münasibətlərdə belə bir durumun yaranması bu və ya digər dərəcədə AR hökumətinin fəaliyyəti ilə də əlaqədardır.

Belə bir şəraitdə ABŞ-ın Ermənistanla bağlı Türkiyə və Azərbaycana təzyiqlər etməsi, Ağ Evin rəsmi Bakını tək qoyması (küncə sıxışdırması) və **bəzi beynəlxalq təşkilatların ölkəmizdən getmələri** (bu niyyətə düşmələri) diqqəti çəkməklə yanaşı, müəyyən rahatsızlıq da yaradır. Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməkdən ötrü hərbi yola əl atmaq məcburiyyətində qalmasına dair vaxtaşırı səsləndirilən rəsmi xəbərdarlıqlar "müharibə başlasa, ABŞ "DQR"-i tanıyacaq" kimi yanaşmalarla qarşılaşır. Hərçənd ki, siyasi-elmi çevrələrdə "Azərbaycan müharibə etməsə də, ABŞ "DQR"-in müstəqilliyini tanımış kimidir" fikirlər də dolaşmaqdadır.

Təşkilatlarla bağlı məsələyə gəldikdə isə Beynəlxalq Respublikaçılar institutunun 1998-ci ildə Bakıda açılan ofisinin bağlandığı elan edilmişdir. Beynəlxalq Seçki Sistemləri Fondunun (İFES-in), Açıq Cəmiyyət İnstitutu Yardım Fondunun (SOROS fondunun) Azərbaycandan getməyə hazırlaşdıqları da bildirilir. Bu kimi halları həm siyasi səbəblərlə bağlayan, həm də iqtisadi amillərlə (ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD-in) vəsait ayırmaması və s.) əlaqələndirən izah-şərhlər vardır.

Bütövlükdə isə hazırkı **qlobal Amerika sisteminin perspektivlərinə dair pessimist baxışlar** bir çox dövlətləri ABŞ ilə münasibətlərinin xarakteri və səviyyəsini nəzərdən keçirmək ehtiyacı üzərində düşündürür. Elə ABŞ-ın kəşfiyyat xidmətinin 2025-ci ilə qədərki qlobal duruma dair yeni hesabatında özünə yeralan bəzi məqamlar da buna rəvac verir. Hesabatdan bəlli olur ki, yaxın 20 il ərzində **ABŞ-ın qlobal miqyasdakı tək və tam dominantlığı zəifləyəcəkdir**. Yeni çoxqütblü dünya şəraitində beynəlxalq aləmdə rolu artacaq Çin, Hindistan, Rusiyanın geostrategiyası ABŞ-ın fövqəldövlət olmasını, təkqütblü dünya siyasətini və qlobal üstünlüyünü böyük sual altına salacaqdır.

Bununla da ABŞ **"bərabər ölkələr arasında birinci ölkə"** durumuna düşəcəkdir. İslam dünyasından Türkiyə, İran, İndoneziyanın aparıcı ölkələr sırasına çıxa biləcəyi şəraitdə Avropa İttifaqı müxtəlif səbəblər üzündən özünün iqtisadi qüdrətini "diplomatik-hərbi əzələ"yə çevirə bilməyən **"zəif nəhəng"** olaraq qalacaqdır. Bu cür mövqe ABŞ-ın büdcə kəsirinin hazırda 1 trilyon 400 mlrd. dollara yaxınlaşması, 120-dən çox müxtəlif proqramların bağlanması və digər amillərlə əsaslandırılır. Bunların qarşılığında isə 2010-cu ildə Müdafiə nazirliyinə 700 mlrd. dollardan çox vəsait ayrılması planlaşdırılır.

B.Obamanın BMT Baş Assambleyasının 64-cü illik sessiyasında "dünyanın yükünü və məsuliyyətini birlikdə daşımağa" dair **çağırışı** da təsadüfi olmayıb qlobal Amerika sisteminin artıq görünməkdə olan sonunun dərk edilməsindən irəli gəlir (Yeri gəlmişkən, vaxtilə prezident **C.Kennedi də "bərabər tərəfdaşlıq" platforması** ilə çıxış edərək Avropanı vahid birlik halını alaraq ABŞ- la birlikdə dünya liderliyinin yükünü və məsuliyyətini daşımağa çağırmışdı). Beynəlxalq siyasətdə çoxlu problemlər və çətinliklərlə üzləşən yeni prezidentin ciddi reytinq böhranı yaşaması da diqqətçəkicidir. ABŞ tarixində ***hələ heç bir prezident*** hakimiyyətinin ilk ilində bu səviyyədə nüfuzdan düşməyibdir (B.Obamanın **Nobel mükafatına layiq görülməsi** də reytinqinin xeyli zəifləməsini dayandıra bilmə-

yibdir. Mükafat ona beynəlxalq diplomatiyada və xalqlar arasında yeni əməkdaşlıq mühiti yaratdığına görə verilsə də, bu akt dünyada birmənalı qəbul olunmayıbdır). Bunlar da beynəlxalq siyasətdə gözlənilən **"Obama dönəmi"nin** uğuruna inamı xeyli sarsıtmışdır. "Sülh və demokratiya məsələsi"ndə düzgün xətt tutmamaqda qınanan B.Obamanın iqtidara gəlişinin ABŞ-ın "Dağlıq Qarabağ problemi"ndə Azərbaycan və Türkiyəyə təzyiqinin güclənməsi ilə müşayiət olunduğu da iddia edilir.

AR-ABŞ əməkdaşlığının və qarşılıqlı əlaqələrinin **indiyəqədərki nəticələri** və **perspektivləri** ilə bağlı bəzi məqamları qeyd etmək lazımdır. İlkin nəticələr sırasında bunların xüsusi yeri vardır: 1. Münasibətlərin strateji tərəfdaşlıq perspektivinin mümkünlüyü. **2.** Qarşılıqlı çoxşaxəli əməkdaşlığın siyasi və hüquqi bazasının mövcudluğu. **3.** Beynəlxalq enerji təhlükəsizliyi sahəsində səmərəli işbirliyi. **4.** Parlamentlərarası əlaqələrin ümidverici durumu. **5.** Erməni diasporası və lobbisinin mövqelərinin zəiflədilməsi, Azərbaycan lobbisinin formalaşdırılması. **6.** Bədnam "907-ci düzəliş"in ləğvi yolunun açılması. **7.** ABŞ kapitalının ölkəmizə nüfuz etməsi. **8.** Beynəlxalq siyasətdə yetərli anlaşma. **9.** Yüksələn xətli iqtisadi-mədəni və humanitar əməkdaşlıq. **10.** Ölkəmizin Transatlantika məkana inteqrasiyasında əlavə imkanlar qazanılması. **11.** Azərbaycanın Qərb yarımkürəsində tanınmasının reallaşması və s.

Azərbaycanın geostrateji hədəfləri onun çağdaş dünyanın tək fövqəldövləti ilə hərtərəfli əməkdaşlığını tələb edir. Öz növbəsində ABŞ-ın strateji maraqlarının, xüsusilə də Qafqaz və Orta Asiya siyasətinin bəzi aparıcı xətləri Azərbaycanla tərəfdaşlıq münasibətlərindən keçir. Bu, tarixi və taleyüklü işlərin gerçəkləşdirilməsi zərurəti isə AR-ABŞ münasibətlərinə əlverişli perspektivlər vəd edir və münbit zəmin yaradır.

BEŞİNCİ BÖLÜM

AZƏRBAYCAN POSTSOVET MƏKANI DÖVLƏTLƏRARASI ƏLAQƏLƏR SİSTEMİNDƏ

SSRİ-nin dağılması prosesi və süqutu Rusiyanın müstəmləkələrinin öz dövlətçiliklərini bərpa etmələri ilə nəticələndi (Bununla da **postsovet geosiyasi məkanı anlayışı** da yarandı). Və həmin məkanın əhatə etdiyi dövlətlərin aralarındakı münasibətlər məsələsi gündəmə gəldi. Azərbaycan Respublikası da postsovet məkanında bərqərar olan ölkə kimi bu dövlətlərarası münasibətlər sisteminin bir tərəfinə çevrildi.

AR-in MDB-yə qəbulu prosesi

Rusiya imperiya təfəkkürü və iddialarına sadiq qalaraq keçmiş müstəmləkələrini-yeni müstəqil dövlətləri öz təsir dairəsində saxlamağa çalışır. Bu məqsədlə də müxtəlif vasitə və üsullardan istifadə olunur. Onlardan birini də Rusiyanın geostrategiyasına, yəni imperiyanı bu və ya digər formada bərpa etmək planına əsasən Müstəqil Dövlətlər Birliyinin yaradılması təşkil edir (Onun təşkili prosesi dərsliyin birinci bölümündə qısaca nəzərdən keçirilmişdir).

Azərbaycanın MDB-yə qoşulması ilə bağlı **baxışlar və mövqelər** fərqli olmuşdur. Belə ki, açıq Rusiyapərəst mövqeyi ilə tanınan prezident A.Mütəllibov AR-in MDB-də iştirakına dair müəyyən beynəlxalq sənədləri imzalamışdı. (Alma-Ata, 21.XII.1991). Rusiya AR-i MDB-nin **"Kollektiv təhlükəsizlik haqqında" Daşkənd müqaviləsi**nə (18.V.1992) "soxmaq" üçün hətta hakimiyyətdən salınmış A.Mütəllibovu yenidən iqtidara gətirməyə uğursuz cəhd (14.V.1995) də göstərdi.

Ə.Elçibəyin prezidentliyi dönəmində isə Milli Məclisin

"MDB haqqında saziş barədə" qərarı ilə (7.X.1992) həmin sənəd təsdiq edilməmişdi. Bu diplomatik akt dövlətin xarici siyasətindəki o zamankı dəyişikliklə, yəni MDB-yə qəbuldan imtina və Qərbə inteqrasiya, başqa sözlə, NATO və Türkiyə ilə daha tez və sıx yaxınlaşmaqla əlaqədar idi. AR-in o vaxtkı rəhbərliyi habelə MDB üzvü olan dövlətlərin əksəriyyəti ilə birbaşa əlaqələrə üstünlük verilməsi xəttini yeridirdi. MDB-də üzvlükdən imtina edilsə də AR-in nümayəndələri onun toplantılarında (Bişkek, X.1992) və digər tədbirlərində müşahidəçi statusu ilə təmsil olunurdular.

Ancaq H.Əliyevin Azərbaycanın rəhbərliyinə qayıtmasından dərhal sonra **Milli Məclis AR-in MDB-yə qatılması barədə qərar (20.IX.1993)** qəbul etdi. Həmin qərar Azərbaycan xalqının ali maraqlarının rəhbər tutulması, AR-in MDB-yə üzv dövlətlərlə tarixi əlaqələrinin olması və onlarla siyasi, iqtisadi-mədəni, elmi-texniki əməkdaşlığının inkişaf etdirilməsinin zəruriliyi kimi dəlillərlə əsaslandırıldı. AR MDB-yə üzv olsa da, amma "Kollektiv təhlükəsizlik haqqında" müqaviləyə qoşulmadı. Birlikdaxili fəaliyyət əsasən onun sammitlərindəki "müzakirələrə" qatılma və az öncəki iqtisadi-ticarət əlaqələrinin saxlanılması, inkişaf etdirilməsi yönlərində aparıldı. MDB-nin Parlamentlərarası Assambleyası yaradıldıqdan sonra deputatlarımız onun da "fəaliyyəti"ndən kənarda qalmadılar.

Rusiyanın MDB-nin təşkilindəki məqsədləri, habelə Birliyə daxil olan dövlətlərin çoxu arasındakı problemlər, xüsusilə də etnosiyasi münaqişələr və s. onu "gələcəyi olmayan amorf qurum", "ölü doğulan uşaq" kimi səciyyələndirən mülahizə və baxışların düzgünlüyünü tezliklə təsdiqlədi. MDBdaxili səmərəli iqtisadi inteqrasiya, ticarətin inkişafı və s. ilə bağlı gözləntilər də özünü doğrultmadı. MDB ölkələri ilə ticarətdə mal dövriyyəsinin həcmi 1990-cı ilə nisbətən 1995-ci ildə elə Rusiyanın özü üçün 57%-dən 22%-ə endi. Bu göstərici Ukrayna üçün 78% və 57%, Azərbaycan üçünsə 84% və 37% oldu.

B.Yeltsinin MDB-ni Rusiyanın "həyati maraqları zonası"

elan etməsi (1993) onun daxilində müxtəlifyönlü meyllənmələrə, qütbləşmələrə, yəni birlikdaxili təşkilatların yaradılmasına təkan oldu. Kreml özünə daha yaxın saydığı mdbçilərdən (Belarus, Ermənistan və s.) ibarət **Birlikdaxili miniblok yaratmaq planlarını** işə saldı. Hələ indiyədək də tam formalaşdırıla və rəsmiləşdirilə bilməyən Rusiya-Belarus ittifaqının təşkili barədə razılığa gəlindi.

GUAM: məqsədlər, problemlər, perspektivlər

Rəsmi Moskvanın MDB-ni öz geostrategiyasını gerçəkləşdirmək aləti kimi ərsəyə gətirməsi və bunu getdikcə daha da qabartması onun daxilində **"Qafqaz evi", Baltik-Qara-Xəzər dənizləri hövzəsi ölkələrinin birliyi ideyalarının** yaranmasını (bərpasını) şərtləndirdi. Habelə "**Avrasiya İqtisadi Birliyi"nin və GUAM**-ın təşəkkülünü şərtləndirdi. "Gürcüstan-Ukrayna-Azərbaycan-Moldova" alyansının təşəkkülü **müxtəlif rəylər** yaratdı:

- Rusiya ilə Avropa və Asiya ilə Rusiya arasında **"bufer qurşaq" — "sanitar kardon";**
- Avropa-Qafqaz **(AvroQaf) evinə** aparan **yol;**
- Rusiyanın Qafqazda qalmaq səylərinə cavab;
- "Yeni İpək Yolu"nun yaradılması, yəni **"Böyük İpək Yolu"nun bərpası vasitəsi;**
- "Avrasiya dəhlizi" çərçivəsində əməkdaşlıq forması;
- Azərbaycan (Xəzər hövzəsi) neftinin Avropa-dünya bazarına çıxarılmasının qarantı;
- ABŞ tərəfindən MDB daxilində **Rusiyaya qarşı** yaradılan **plasdarm;**
- regional təbii inteqrasiyanın nəticəsi;
- **"daha bir ölü doğulan uşaq";**
- Rusiya-Ermənistan-İran tərəfdaşlığının **alternativi;**
- "Qafqaz Evi" ilə "Avropa Evi"ni birləşdirən **"qızıl körpü"** və s.

GUAM-ın yaradılması prosesinin **inkişaf dinamikası** da diqqətçəkicidir. Belə ki, vaxtilə ATƏM-in Paris sammitində NATO ilə Varşava Müqaviləsi Təşkilatı (VMT) arasında "Avropada Adi Silahlı Qüvvələr haqqında" ("AASQ") müqavilə bağlanmışdı (19.XI.1990). Dünya sosializm sisteminin çöküşü, SSRİ-nin süqutu və VMT-nin dağılması nəticəsində Avropada yaranan yeni geosiyasi durum və silahlı qüvvələr nisbəti **"AASQ" müqaviləsinin** nəzərdən keçirilərək yeniləşdirilməsini şərtləndirdi. Bununla bağlı aparılan yeni danışıqlarda Rusiyanın tutduğu mövqe və irəli sürdüyü "cinah problemi" məsələsi kəskin mübahisələr doğurdu.

Kremlin Rusiyanın cinah zonalarında (Qafqaz, Moldova, qismən Ukrayna) "AASQ" müqaviləsində nəzərdə tutulandan xeyli artıq həcmdə qoşun, hərbi texnika-sursat saxlamaq və bunu da **"cinah sazişləri"** ilə qanuniləşdirmək istəyi postsovet dövlətlərinin bir qisminin ciddi etirazı ilə qarşılaşdı. Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova "AASQ" müqaviləsinə dair beynəlxalq Vyana konfransında (V.1996) Rusiyanın "cinah sazişləri"nə qarşı çıxdılar. Qərb (ATƏT, ABŞ, NATO) Rusiyaya müqavilədən çıxmaq üçün imkan -bəhanə verməməkdən ötrü "Dördləri" "Cinah məhdudiyyətləri haqqında" müqaviləni ("Cinahlar paketi"ni) imzalamağa razı sala bildi. Bu zaman həm də "Cinahlar paketi"nin onların ərazilərinin müəyyən hissəsinin Rusiyanın nüfuz (təsir) dairəsinə verilməsi demək olmadığı bildirildi.

Amma bütün bunlar "Dördlər"-Rusiya münasibətlərinə təsirsiz qalmadı. Məhz bu vaxtlardan (1996-cı ilin əvvəllərindən) etibarən "GUAM" anlayışı ortaya çıxdı. Tezliklə (III.1997) E.Şevardnadzenin Ukrayna və Azərbaycana rəsmi səfərləri zamanı **Bakı-Kiyev-Tiflis geosiyasi üçbucağı ("Üçlük")** formalaşdırıldı və onun beynəlxalq hüquqi bazası yaradıldı. Moldovanın da "Üçlük"ə qoşulmaq niyyəti **GUAM birliyinin** yaranması ilə nəticələndi. Belə ki, həmin dövlətlərin prezidentləri və Xarici İşlər nazirlərinin Strasburqda keçirilən geniş

əhatəli danışıqlarının gedişində (10.X.1997) "Dördlər qrupu", yəni GUAM-ın yaradılması rəsmiləşdirildi. MDBdaxili yeni inteqrasiya birlikdən təzə imperiya (başqa bir SSRİ) yaratmağı planlaşdıran Rusiyanı və onun Qafqazdakı satellit "tərəfdaşı" Ermənistanı xeyli qayğılandırdı.

Belə bir geosiyasi şəraitdə GUAM-ın qurucuları onun MDB-yə, yaxud da hansısa bir dövlətə qarşı olmadığını vurğulamaqla yanaşı ehtiyat tədbiri kimi NATO ilə əməkdaşlığı intensivləşdirmək xəttini tutdular. **"Dördlər alyansı"** prezidentlərinin Bakı görüşündə (XII.1997) və onun ərəfəsində aparılan məsləhətləşmələrdə yeni birliyin bütün dövlətlər (hətta Rusiya) üçün də açıq olduğu qeyd edilsə də, **"16 +4 formulu" (NATO+GUAM formatı)** səviyyəsində əməkdaşlıq zəruri sayıldı. **"Bakı görüşü"ndə** GUAM ölkələrini birləşdirən amillər, yəni tale yaxınlığı, qarşılaşdıqları problemlərin eyniliyi (məqsədli törədilən və dondurulan etnosiyasi münaqişələr), habelə digərləri təkrarən açıqlandı və müzakirəyə çıxarıldı.

Tərəflər bir daha GUAM-ın **"Qafqaz-Avropa evi"nin** qurulmasının ən mühüm (əlaqələndirici) vasitələrindən olmasını önə çəkməklə onu Avrasiya inteqrasiya proseslərinin etibarlı təminatçısı kimi səciyyələndirdilər. Sonrakı müzakirələrdə isə təşkilatın strukturu, fəaliyyət mexanizmi, BMT-nin mandatı ilə 400-450 nəfərlik "Sülhyaratma batalyonu"nun yaradılması və digər mühüm məsələlər nəzərdən keçirildi. Aİ-nin 1993-cü ilin mayında elan edilən **"Brüssel Bəyannaməsi"** və "Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi **(TRACECA) proqramı"**, habelə Böyük İpək Yolunun bərpasına dair beynəlxalq konfransda (Bakı, IX.1998) qəbul edilən "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafına dair beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli saziş", **"Bakı Bəyannaməsi" (8.IX.1998)** də GUAM-ın qismən də olsa möhkəmlənməsinə yardım göstərdi.

Bir ara **GUAM-ın** hətta **müvəqqəti genişlənməsi** də baş verdi. 1999-cu ilin aprelində NATO-nun Vaşinqtonda keçirilən sammitində ona qoşulan Özbəkistan 2002-ci ildə ondan ayrıldı.

Bu dövrdə Rumıniya ilə Bolqarıstanın, habelə Türkiyənin də "Dördlər alyansı"na qatılmalarına dair müəyyən baxışlar ortaya çıxdı. Rəsmi Ankara hətta **"Böyük İpək Yolu Birliyi"nin** yaradılmasını təklif etdi. GUAM-ın Nyu-York (2000) və Yalta (2001) sammitləri onun fəaliyyətinin təsirliliyi məsələlərini gündəmə gətirdi. **"Yalta Xartiyası"nda** GUAM-ın başlıca vəzifələri və perspektivləri ilə əlaqədar məsələlər ifadə olundu. 2000-ci ildə Nyu-Yorkda keçirilən **"Minilliyin sammiti"** çərçivəsində baştutan **minisammitdə** GUAM-ın beynəlxalq təşkilata çevrilməsi qərara alındı.

"Yalta Xartiyası" təşkilatın məqsədlərini açıqladı: sosial-iqtisadi inkişafa yardım; ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi; bütün sahələrdə regional təhlükəsizliyin möhkəmləndirilməsi; quruma üzv ölkələrin nəqliyyat-kommunikasiya magistrallarının onların maraqları naminə səmərəli istifadəsi və inkişaf etdirilməsi; təhsil, elm, mədəniyyət və humanitar sahələrdə əməkdaşlığın səmərəliliyinin artırılması; beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyət; beynəlxalq terrorçuluq, narkobiznes və mütəşəkkil cinayətkarlığa qarşı mübarizə.

"Dördlər"in-Rusiya və onun əlaltılarının ucbatından-üzləşdikləri başlıca problemin, yəni etnosiyasi münaqişələrin (Azərbaycanda Dağlıq Qarabağ, Ukraynada Krım, Moldovada Dnestryanı, Gürcüstanda Abxaziya, Cənubi Osetiya, Cavaxetiya) ədalətli həlli, kənardan idxal olunan və qızışdırılan separatçılığın dəf edilməsi yönündə birgə səylər göstərilməkdədir. Bununla əlaqədar olaraq GUAM ölkələrində "dondurulmuş münaqişələr" məsələsinə dair Beynəlxalq **Bakı konfransı (IV.2008)** xüsusilə qeyd edilməlidir. "GUAM dövlətlərinin ərazilərində münaqişələrin həllinin prinsipial əsasları" mövzusunda leçirilən bu Beynəlxalq konfransa birliyə üzv dövlətlər də daxil olmaqla 15 ölkənin təmsilçiləri qatılmışdılar. Konfransda nəzərdən keçirilən məsələlər sırasında bunlar diqqəti çəkir: münaqişələrin ölkələrin ərazi bütövlüyü çərçivəsində nizamlanması; konfliktlərin həllinə dair ortaq mövqenin mövcudluğu; Avropa ilə Asiya arasında "təbii dəhliz" təşkil edən GUAM ölkələrinin xalqlar-dövlətlər arasında normal dialoqun, ticarət və s. inkişafına əngəl olan sədlərin götürülməsində mühüm önəm daşıması.

"GUAM ölkələrində dondurulmuş münaqişələr haqqında" məsələ BMT Baş Assambleyasının 64-cü sessiyasının (IX.2009) gündəliyinə də salınıbdır. Hələ əvvəlki sessiyada müzakirəyə çıxarılmalı olan bu məsələ ilə bağlı qətnamə layihəsi GUAM üzvləri tərəfindən təqdim olunmuşdu. Bu sessiya çərçivəsində (dönəmində) GUAM dövlətləri XİN-lərinin növbəti iclası keçirilmişdir. Habelə "GUAM+ABŞ", "GUAM+Yaponiya", "GUAM+Polşa" formatında görüş-tədbirlər də təşkil edilmişdir.

2008-ci ildə Bakıda keçirilən daha **iki beynəlxalq konfrans** da GUAMdaxili inteqrasiya cəhətdən faydalı və səmərəli sayıla bilər. Onlardan biri apreldə keçirilmişdi. "Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat-GUAM/Tranzit" mövzusundakı bu toplantı birliyin dünya birliyinə inteqrasiyasının göstəricisi kimi də səciyyələndirilir. Konfransda GUAM-a üzv dövlətlərin tranzit dəhlizinin hazırkı durumu və onun potensialının gücləndirilməsinə beynəlxalq dəstək və sərmayənin cəlb olunması kimi vacib məsələlər ətrafında fikir mübadiləsi aparılmışdı. Həmin ilin mayında keçirilən digər beynəlxalq konfransda isə **"GUAM-ın inkişaf strategiyası"** müzakirə obyekti olmuşdur. Müzakirələrdə başlıca diqqət GUAM-ın rolunun artırılması, regional qruplaşmadan tamhüquqlu beynəlxalq təşkilata çevrilmə prosesi, qlobal enerji təhlükəsizliyinin təminatı, demokratik dəyərlərin birlikdə inkişafı kimi məsələlərə yönəldilmişdi. GUAM-ın Baş katibi (Gürcüstan təmsilçisi) həm də birliyin silahlı qüvvələrinin təşkili üzərində düşünməyin vaxtının çatdığını bildirdi.

GUAM-ın perspektivlərinə aid yanaşma və mövqelər də fərqlidir. Onu "ABŞ-ın Rusiyaya qarşı istehkamı" və postsovet məkanının "daha bir ölü doğulan uşağı (birliyi)" kimi

səciyyələndirənlər az deyildir. Onlar GUAM-ın heç bir gələcəyinin olmadığını bildirirlər. Bu zaman, bir yandan, Özbəkistanın təşkilatı tərk edərkən gətirdiyi dəlilə, yəni "GUAM-ın inteqrasiyasının səmərəli səviyyəsinə nail ola bilməməsi" fikrinə dayanılır. Digər tərəfdən də, qurumdaxili siyasi və hərbi həmrəyliyin də formal-sırf görüntü olduğunu vurğulayan ekspertlər öz mövqelərini Rusiyanın Gürcüstanla **"beşgünlük müharibə"**si zamanı GUAM-ın digər üzvlərinin dəsti-xətti ilə əsaslandırırlar (Ukrayna prezidenti V.Yuşşenkonun qətiyyətli dəstəyi, yəni Gürcüstana silah və hərbi sursat satışı, hadisələrin qızğın vaxtında Tiflisə səfər və s. çıxılarsa, başqa üzvlərin sükutu).

Bu məqamla bağlı açıqlanan bəzi baxışlara görə isə "Azərbaycanla Moldovanın Gürcüstanın arxasında dayanmamaları" Rusiyanı daha da qəzəbləndirməməklə yanaşı həmçinin **Qərbin (ABŞ ilə Aİ-nin) "tərəddüdlü, sürüşkən, ikili" hərəkətlərin**dən irəli gəlmişdi. Bunu Polşa qəzeti "Dziennik"in "beşgünlük müharibə"nin ildönümünə həsr olunan siyasi oçerkində (VIII.2009) qələmə alınan bir sıra ciddi məsələlərdən və, xüsusilə də V.Yuşşenkonun bu kimi açıqlamasından da aydın görmək olur: "Ən azından indi biz bilirik ki, Qərb həmrəyliyi nədir və təcavüz zamanı hansı köməyə arxalanmaq olar". **Ukraynada 2010-cu ilin fevralında baş verən hakimiyyət dəyişikliyi** "GUAM-Demokratiya və İqtisadi İnkişaf təşkilatı"nın gələcəyinə şübhələri müəyyən qədər artırmışdır. Buna yeni prezident V.Yanukoviçin hələ seçkiqabağı kampaniyada GUAM-ın öz aktuallığını itirməsi və buraxılmasının zəruriliyinə dair bəyanatları da əsas verir.

Amma bu kimi arzuolunmaz hallara baxmayaraq GUAM ölkələrinin beynəlxalq durumu və üzləşdikləri məlum problemlərin tezliklə həlli zərurəti, Rusiyanın imperiya iddiaları onların birlikdə olmalarını tələb edir. Fikrimizcə, qurumun gələcəyi (möhkəmlənməsi, yaxud dağılması) həm də və ən çoxu postsovet məkanındakı proseslərin axarının mahiyyəti və sürətindən asılı olacaqdır.

Azərbaycan-Rusiya münasibətləri yeni tarixi şəraitdə: problemlər və perspektivlər

Postsovet məkanı — MDBdaxili dövlətlərarası münasibətlərdə məlum səbəblərə görə **Azərbaycanın Rusiya ilə əlaqələri** önə çıxır. Təxminən 150 ildən bir az artıq müddətdə Rusiyanın müstəmləkəsi olan Şimali Azərbaycanın onunla münasibətləri hazırda yeni tarixi-siyasi şəraitdə cərəyan etməkdədir. AR-RF münasibətləri hələ ki, Rusiyanın yaxın keçmişdəki müstəmləkəasılılıq sistemini bərpa etmək strategiyası ilə Azərbaycanın onunla bərabərhüquqlu əməkdaşlığa nail olmaq siyasətinin üzləşməsi müstəvisindədir. Geostrateji maraqlarının üz-üzə gəlməsinə baxmayaraq tərəflər zəmanənin reallıqlarını nəzərə alaraq öz aralarınında diplomatik əlaqələr yaratmışlar (4.IV.1992). (RF-nin Azərbaycandakı **ilk səfiri gürcü əsilli** V.Şoniya və AR-in Rusiyadakı ilk böyük elçisi isə H.Hacızadə oldu). Dövlətçiliyimizin yenidən bərpasının lap əvvəlində, yəni A.Mütəllibovun prezidentliyi dönəmində Azərbaycanın Rusiya siyasəti əsasən Kremlin arxasınca getmək səciyyəsi daşıyırdı. İmperiya təfəkkürlü və iddialarlı Rusiyaya qarşı olan Ə.Elçibəy dövlət başçısı kimi dövrün gerçəkliklərindən çıxış edərək onunla bərabərhüquqlu münasibətlərin yaradılmasına böyük önəm verirdi. Heç də təsadüfi deyildi ki, onun prezident olaraq xarici dövlətlərə **ilk rəsmi səfəri** (X.1992) üçün məhz Rusiya seçilmişdi.

Geniş tərkibli bir nümayəndə heyəti ilə Moskvaya gedən Ə.Elçibəy çoxlu müzakirələr aparmışdı. Onun B.Yeltsinlə danışıqlarında Qafqazda yaranan yeni geosiyasi şərait, Ermənistan-Azərbaycan münaqişəsi və s. başlıca məsələlər idi. Prezidentlərin müzakirələri ilə bağlı yayılan məlumatlardan bəllidir ki, B.Yeltsinin Xəzərin statusu, Azərbaycanda rus hərbi bazalarının yaradılması, rus sərhədçilərinin ölkəmizdə saxlanılması, Xəzərdə birgə balıq ovu, karbohidrogen ehtiyatlarının yalnız Rusiya şirkətləri tərəfindən emalı və nəqli barədə danışıqlar

apararaq müqavilələr bağlanılmasına çalışması milli maraqlarımıza zidd olduğundan Ə.Elçibəy tərəfindən qətiyyətlə rədd edilmişdi.

Bütövlükdə isə, danışıqlar "AR ilə RF arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə" bağlanması (12.X.1992) ilə nəticələndi. (Bu, Elçibəy hakimiyyəti dönəmində bağlanan birinci dövlətlərarası müqavilədir). Müqaviləni imzalayan prezidentlər onu Rusiya-Azərbaycan münasibətlərini tarixdə **ilk dəfə müstəqil dövlətlərin əlaqələri kimi tənzimləyən sənəd** olaraq dəyərləndirdilər. Sazişi Ə.Elçibəy "demokratik Rusiya ilə Azərbaycan arasında münasibətlər yaratmaq sahəsində ilk addım" və B.Yeltsinsə "Rusiyanın Azərbaycanla çoxillik münasibətləri tarixində belə miqyaslı ilk müqavilə" kimi səciyyələndiriblər.

Müqavilədə tərəflərin suverenliklərinin qarşılıqlı tanınması, ölkələrin demokratik inkişaf xətlərinin dəstəklənməsi, insan haqları və milli azlıqların hüquqlarına əməl olunmasına dair öhdəliklər, gərgin siyasi vəziyyətdə dövlətlərin bir-birinin köməyinə gələ bilməsi, müvafiq məsləhətləşmələrin davam etdirilməsi məsələləri öz əksini tapmışdı. Ümumiyyətlə isə, bu müqavilə **postsovet məkanı respublikalarının Rusiya ilə bağladıqları sazişlərin ilk bərabərhüquqlusu** sayılır. Ə.Elçibəy sonralar bildirmişdi: "...müqaviləni bağlayarkən çalışdıq ki, şərtlər dünya səviyyəsində və müstəqil dövlətlər arasında bağlanan kimi olsun, çünki bu, çox çətin idi və biz yuxarıdan baxış psixologiyasını da qırmalı idik. Rusiya bizimlə Ali tərəf və müstəqil dövlət kimi müqavilə bağladı".

Dövlətlərarası Moskva danışıqları prosesində **parlamentlərarası əlaqələrin** yaradılması məsələsi də gündəmə gətirildi. Millət vəkillərinin "Dəyirmi stolu" keçirildi və parlamentlərin əməkdaşlığı haqqında protokol imzalandı (X.1992). Müzakirələrdə qarşılıqlı faydalı iqtisadi-ticarət əlaqələrinin qurulması (davam etdirilməsi) və elmi-mədəni əməkdaşlığın genişləndirilməsi mühüm yer tuturdu.

AR-RF münasibətlərində bir sıra **ciddi problemlər yaradan məsələlərdən biri** Azərbaycandakı keçmiş sovet (sonrakı Rusiya) **4-cü ordusu və onun ölkəmizdən çıxarılması** ilə bağlı idi. Bu məsələ Ə.Elçibəyin B.Yeltsinlə Moskvadakı görüşü zamanı Azərbaycan tərəfindən rəsmi şəkildə qaldırılmışdı. Rusiya prezidenti öncə bununla razılaşmasa da, sonra bu işin mədəni formada, yəni tələsik-qarşıdurmayla deyil, heç olmazsa bir-iki il ərzində görülməsini istəmişdi. Azərbaycan iqtidarının səyləri (xüsusilə də Ə.Elçibəyin şəxsi qəti mövqeyi) Rusiya qoşunlarının 1993-cü ilin mayında ölkəmizdən çıxarılmasıyla nəticələndi. Bununla da AR Rusiya ordu hissələrini öz ərazisindən çıxaran **ilk və o dövr üçün yeganə postsovet** dövləti oldu.

Ancaq Rusiya qoşunlarının Azərbaycandan tezliklə çıxarılması, ABŞ-ın AR-dəki səfiri R.Maylsın da xəbərdarlıq etdiyi kimi, Ə.Elçibəy hökumətinə (bütövlükdə isə dövlətçiliyimizə) baha başa gəldi. AR-in MDB-yə qoşulmaması, Qərbyönümlü siyasət yürütməsi, Rusiyanın Qafqaza qayıtmasını əngəlləməsi və sairənin qoşunların çıxarılması ilə tamamlanması 1993-cü ilin "4 iyun qiyamı" — hərbi çevrilişi ilə Azərbaycanda hakimiyyət dəyişikliyini şərtləndirdi. Rusiyanın ssenarisi ilə, başqa sözlə, bilavasitə onun və İranın yardımı ilə ölkəiçi hərbi və siyasi müxalifət tərəfindən gerçəkləşdirilən bu qiyamdan sonrakı iqtidar əvəzlənməsi AR-in xarici siyasətində də ciddi dəyişikliklərə səbəb oldu.

Azərbaycan-Rusiya münasibətlərində, bir tərəfdən, **müəyyən gərginlik** yaradan və, digər yandan da, **uzlaşma-anlaşma tələb edən problemlərdən birini** də Dağlıq Qarabağ münaqişəsinin, həlli təşkil edir. "Dağlıq Qarabağ problemi" əslində Rusiyanın imperiya təfəkküru-siyasətinin və bundan irəli gələn ermənipərəst mövqenin nəticəsidir. Azərbaycan diplomatiyası münaqişənin həlli yolunun hələlik elə onu törədənin özündən (yəni Rusiyadan) keçdiyini nəzərə alaraq Ermənistanın ölkəmizə təcavüzünə son qoyulması sahəsində Kremllə anlaşmağa

çalışır. Eyni zamanda müxtəlif vasitələrlə Rusiyanın bu yöndəki "inhisarı"nın aradan qaldırılmasına səylər göstərir.

Hələ Elçibəyin B.Yeltsinlə Moskvadakı danışıqları zamanı Azərbaycan prezidenti Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair danışıqların **"daha yüksək səviyyəli şəxslərin iştirakıyla", yəni C.Buş (ata), F.Mitteran, H.Kol** və digər görkəmli siyasi xadimlərin müzakirələr prosesinə cəlb edilməsi ilə aparılmasını təklif etmişdi (Rusiya prezidenti də bununla razılaşmışdı. Sözgəlişi, B.Yeltsin hələ A.Mütəllibovun hakimiyyəti vaxtı Qazaxıstan prezidenti N.Nazarbayevlə birlikdə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində vasitəçilik missiyası ilə Cənubi Qafqazda, o cümlədən də Azərbaycanda olmuşdu).

Rusiya Azərbaycanın ərazi bütövlüyü və suverenliyini əngəlləmək üçün yaratdığı problemlərdən maksimum faydalanmağa çalışırdı və həmin siyasəti indi də davam etdirməkdədir. Kreml, digər postsovet dövlətləri kimi, **Azərbaycanı da Rusiya "demokratik, federativ respublikası" imperiyasına qatmaq, onu özünün "muxtar qurumları"ndan birinə çevirmək planlarından** əl çəkməmişdir. Ancaq çağdaş dünyanın reallıqlarını və müasir beynəlxalq prosesləri nəzərə almaq məcburiyyətində qaldığından hələlik ilkin (mümkün) variant kimi Azərbaycanı da öz təsir-nüfuz dairəsində saxlamağa və ölkəmizin karbohidrogen ehtiyatlarından əvvəlkitək yararlanmağa çalışır. Buna da tam nail ola bilmədiyindən AR-i Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sıxışdırmaqla və ona müəyyən vədlər verməklə rəsmi Bakıdan çoxlu güzəştlər əldə etmək istəyir (Və hələ ki, buna müvəffəq olur).

Kreml bu kimi niyyətlərini gerçəkləşdirmək üçün bir sıra tədbirlərə də əl atır. Belə ki, o, Ermənistan qoşunlarının Kəlbəcərdən çıxarılması, cəbhə bölgəsində atəşkəsə nail olunması və münaqişənin ATƏM çərçivəsində tənzimlənməsinə dair **üçtərəfli (ABŞ-Türkiyə-Rusiya) müzakirələrin** (IV-VI.1993) həmmüəlliflərindən biri oldu. Rusiya AR-in də MDB-yə qo-

şulmasıyla əlaqədar onunla münasibətlərə təshihlər edilməsi ilə bağlı "silahlı münaqişəyə son qoymaq və onun nəticələrini ləğv etmək haqqında" sazişin layihəsini təklif etdi (18.II.1994).

Rusiya diplomatiyası Ermənistan-Azərbaycan müharibəsində atəşkəs elan edilməsi ilə əlaqədar aparılan Bişkek danışıqlarında və **"Bişkek protokolu"nun** (12.V.1994) imzalanmasında vasitəçi oldu. Kreml bunun ardınca, yəni "Bişkek protokolu"nun mürəkkəbi hələ qurumamış, başqa bir sənədi ərsəyə gətirdi. Həmin sənəd V.Kazimirovun uğursuz "sülhyaratma missiyası"nın nəticəsi sayılan **"Böyük Siyasi Saziş"ə ("BSS"-yə)** dair "Moskva protokolu" (16.V.1994) idi. (Sözgəlişi, "BSS" "doğulmadan öldü", yəni ortaya çıxa(rıla) bilmədi). Bişkek danışıqları və protokolu da Azərbaycanın rəsmi dairələrinin müəyyən kəsimi, aparıcı siyasi qüvvələri və ictimaiyyəti tərəfindən birmənalı qarşılanmadı. Bunu Milli Məclisin vitse-spikeri A.Cəlilovun "Bişkek protokolu"nu imzalamaqdan imtinasına və həmin prosedurun parlamentin sədri R.Quliyev vasitəsilə icra edilməsinə dair məlumatlardan da görmək olur.

Rəsmi Moskva isə bu kimi "humanist missiyaları" ilə Azərbaycanı daha bir güzəştə, yəni Rusiya qoşunlarının yenidən ölkəmizə qaytarılmasına razı salmaq ümidində idi. Hakimiyyət öncə "atəşkəs, yəni "nə müharibə, nə sülh" əvəzinə rus qoşunlarının qayıtması" sövdələşməsiylə razılaşsa da, xalqın və milli siyasi qüvvələrin kəskin etirazı-Milli Müqavimət Hərəkatında birləşməsi-Azərbaycan dövlətinin suverenliyinə ciddi zərbə ola biləcək bu halın qarşısını aldı.

Öz planlarını gerçəkləşdirməkdə israrlı olan Kreml Dağlıq Qarabağ münaqişəsinin "həlli"nə dair **"2+2 sammiti** və birgə **ABŞ-Rusiya planı"** ideyası ilə çıxış etdi. "2+2"sammiti Ermənistanla Azərbaycanın Rusiya ilə ABŞ-ın vasitəçiliyi hesabına bir araya gəlmələrini nəzərdə tuturdu. Ekspert və politoloqlar rəsmi Moskvanın ABŞ-la birlikdə vasitəçiliyə razılaşmasını (bir növ, riskə getməsini) həmin vaxtlarda Rusiyanın danışıqlar prosesinə əslində təklikdə nəzarət etməsi və ATƏM-in Minsk

Qrupundakı iki həmsədrindən (Finlandiya ilə yanaşı) biri kimi üstün mövqelərə malik olmasıyla əlaqələndirirlər (Rusiyanın həmsədr dövlət kimi fəaliyyəti 2-ci bölümdə ətraflı təhlil olunur).

Rusiya Azərbaycanı Qərbdən "ayırmaq" məqsədilə ona göstərdiyi təzyiqlərin vasitə və üsullarını təkmilləşdirirdi. Rusiya-Ermənistan-İran qütbləşməsinə (tərəfdaşlığına) göstərilən səylər bu cəhətdən çox diqqətçəkicidir. Həmçinin **Ermənistanla müqavilələr bağlanması** (16.III.1995; 29.VIII.1997) və **onun silahlandırılması,** siyasi-diplomatik cəhətdən dəstəklənməsi də Azərbaycanı sıxışdırmağa yönələn, AR-RF münasibətlərində problemlər yaradan hərəkətlər sayıla bilər. "Xocalı soyqırımı"nın ideoloqlarından O.Esayanın Ermənistanın Rusiyadakı yeni səfiri kimi qəbul olunması (II.2010) da qarşılıqlı münasibətlərə mənfi təsir göstərən diplomatik akt təki dəyərləndirilə bilər.

Dövlətlərarası münasibətlərdəki problemlərin bir qisminin aradan qaldırılmasında H.Əliyevin Rusiyaya ilk rəsmi səfərinin (VII.1997) mühüm əhəmiyyəti oldu. Səfərin gedişində aparılan çoxşaxəli danışıqlarda bəzi məsələlər üzrə mövqelərdə yaxınlaşma özünü göstərdi. Xüsusilə də Cənubi Qafqazda təhlükəsizlik, ərazi-etnik münaqişələrin nizamlanması, Xəzərin hüquqi statusu və onun karbohidrogen ehtiyatlarının istismarı-nəqli və digər mübahisəli məsələlərdə müəyyən uzlaşma əldə edildi. Bütün bunlar da öz ifadəsini "AR ilə RF arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında" **müqavilədə** (3.VII.1997) tapdı. Bu səfər Azərbaycanın RF-nin Tatarıstan, Başqırdstan kimi subyektləri və Saratov vilayəti ilə birbaşa əlaqələr yaratmasına müsbət təsir göstərməsi baxımından da faydalı oldu.

Rusiya prezidenti **V.Putinin AR-ə rəsmi səfəri** (9-10.I.2001) də müəyyən nəticələri ilə yadda qaldı. Səfər müddətində aparılan iki(çox)tərəfli danışıqlarda RF prezidentinin **"Qafqaz dördlüyü forumu"**na, yəni Cənubi Qafqaz dövlətləri

ilə Rusiyanın birgə toplantısına dair təklifi müzakirə edildi. Bununla əlaqədar, həmçinin iqtisadi-ticarət əlaqələrinin və mədəni əməkdaşlığın inkişafı barədəki danışıqlar **iki önəmli sənədin** imzalanması ilə yekunlaşdı: "Bakı Bəyannaməsi" və "Xəzərdə əməkdaşlıq prinsiplərinə dair Birgə Bəyannamə".

Rusiya **Xəzər hövzəsinin karbohidrogen ehtiyatları uğrunda mübarizə**nin də əsas iştirakçılarından biridir. (Bu məsələnin 3-cü bölümdə daha əhatəli izahını nəzərə alaraq burada yalnız AR-RF münasibətləri kontekstində bəzi müvafiq məqamların qısaca nəzərdən keçirilməsi yetərli hesab olunur). Rusiya Azərbaycanın neft və qaz ehtiyatlarından faydalanmağı davam etdirməkdə çox maraqlıdır. Öz növbəsində Azərbaycan da həm iqtisadi mənafelərini, həm də bəzi siyasi mülahizələri əsas tutaraq Rusiyanın nəhəng şirkətlərindən "LUKoyl"un AR-in beynəlxalq neft müqavilələrindən bəzilərində iştirakına lazımi şərait yaratmışdır. Beynəlxalq sazişlərə əsasən emal edilən **ilkin neftin nəqli** Rusiyanın istəyinə uyğun olaraq Bakı-Novorossiysk kəməri vasitəsilə həyata keçirilmişdir. Dövlətlər-şirkətlər ("ARDNŞ" və "Qazprom") arasında bağlanan sazişə əsasən "Şahdəniz" yatağının 2-ci fazasından çıxarılacaq qazın bir hissəsinin ölkəmizin şimal qonşusuna satılması razılaşdırılmışdır.

Azərbaycan diplomatiyası Kremlin BTC Əsas İxrac Neft kəmərini əngəlləmək siyasətinin dəf olunmasına yönəlik **beynəlxalq səylərdə də** fəallıq göstərmişdir. "Nabucco"ya qarşı olan və onun gerçəkləşməsindən ötrü bütün arsenalını işə salan Rusiya bu məsələdə AR-i də özünə tərəf çəkməyə çalışır. Rusiyanın təzyiqi ilə "Nabucco" üçün yalnız tranzit ölkə ola biləcəyini bildirən (hələlik) Azərbaycanın bu Avrasiya qaz kəmərinin sanballı təchizatçısına çevriləcəyi də gözlənilməndir.

Dövlətlərarası iqtisadi əlaqələrin sərhədləri təkcə karbohidrogen ehtiyatlarının işlənməsi və nəqli sahəsindəki işbirliyi ilə məhdudlaşmır. Ticarət dövriyyəsinin genişləndirilməsi də qarşılıqlı maraqlar dairəsindədir. **Mədəni-elmi əməkdaşlıq** sa-

həsində yaxın keçmişə aid təcrübədən faydalanılır. Son vaxtlarda keçirilən **iki böyük tədbir,** yəni Rusiyada "Azərbaycan ili" (2005) və AR-də "Rusiya ili" (2006) humanitar-mədəni sahələrdəki qarşılıqlı səmərəli əlaqələr üçün yaxşı zəmin olmuşdur. Dövlətlərin bir-birlərində keçirdikləri "Mədəniyyət günləri", AR-in paytaxtında A.Puşkinə və Sankt-Peterburqda isə N.Gəncəviyə heykəllər qoyulması, MDU-nun Bakıda filialının açılması da diqqətəlayiqdir. Son dönəmin önəmli tədbirləri arasında Bakıda keçirilən (I.2009) Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumu xüsusilə diqqətəlayiqdir.

Azərbaycan-Rusiya münasibətlərinin **inkişaf perspektivlərinə dair araşdırmalar və proqnozlar** belə bir suala cavab axtarışındadırlar: "bərabərhüquqlu əməkdaşlığa, yoxsa qarşıdurmaya doğru?" Son dönəmlərdə dövlət başçıları (İ.Əliyev və D.Medvedyev) arasında intensivləşən görüşlər və onların gedişində aparılan danışıqlarda əldə olunan müəyyən anlaşmalar proseslərin hələ ki, birinci istiqamətdə getdiyini göstərir. (Təkcə 2009-cu ildə İ.Əliyev 4 dəfə Rusiyada səfərdə olmuşdur və D.Medvedyevsə Bakıda danışıqlar aparmışdır). Prezidentlərin qarşılıqlı rəsmi və işgüzar səfərlərinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair məlum **"Moskva Bəyannaməsi"**nin qəbulu və dövlətlərin aparıcı şirkətləri ("ARDNŞ" və "Qazprom") arasında müqavilənin bağlanması kimi nəticələri də tərəflərin səmərəli əməkdaşlıqda maraqlı olmalarını təsdiqləyir.

Moskva Karnegi Mərkəzinin eksperti, politoloq A.Ryabovun açıqlamalarına görə, Rusiya Ermənistanla rəsmi hərbi müttəfiqlik etsə də, **Azərbaycanla neft-qaz ticarəti və enerji tranziti üzrə tərəfdaş**dır. Onun qənaətincə bu və digər səbəblər üzündən Kreml rəsmi Bakı ilə münasibətlərin gərginləşdirilməsində çox da maraqlı ola bilməz. Ekspertin "Qarabağda yeni müharibə başlarsa, Moskva tərəflərdən heç birini birtərəfli şəkildə dəstəkləməyəcəkdir" mülahizəsi, bizcə, tam inandırıcı olmasa da, hər halda Rusiyanın Azərbaycanla gələcək

münasibətlərdə uzlaşmağa çalışacağına dəlalət edir (SSRİ-nin dağılmasının Rusiyanı zəiflətməsi, onun hazırkı dünya maliyyə böhranı ilə bağlı üzləşdiyi ciddi problemlər, ölkə(imperiya)daxili demoqrafik şəraitin rusların xeyrinə olmaması və Qərbin hələlik müəyyən həddədək olan təzyiqləri üzündən əvvəllərdəki qüdrətini itirən **Kremlin "hər yerdə hamıya qarşı çıxmaq (savaşmaq)" xəttindən vaz keçmək məcburiyyətində qaldığına** aid fikirləri də bir kənara qoymaq olmaz).

Əksmövqeli yanaşmalara görə isə dövlətlərarası qarşıdurmanın birmənalı istisnası da mümkünsüzdür. Buna səbəb ola biləcək **amillər** isə Rusiyanın:

- Qafqazdan birdəfəlik çıxmaq istəməməsi (heç buna hazırlaşmaması);
- bu üzdən də Azərbaycanın dövlətçiliyinə və ərazi bütövlüyünə müəyyən təhlükə yaratması;
- Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həllində daima AR-in haqlı mövqeyinə qarşı dayanması;
- Xəzərin hüquqi statusu məsələsində və karbohidrogen ehtiyatlarının nəqlində Azərbaycanla tam (axıradək) anlaşmada maraqlı olmaması və s. ibarətdir.

Xüsusilə də Rusiya rəhbərliyinin son vaxtlarda elan etdiyi **konsepsiya və qərarlar** ciddi rahatsızlıq yaradır. D.Medvedyevin ATƏT-ə üzv dövlətlərin başçılarına **Avropada yeni təhlükəsizlik modelinə dair sənəd** yollaması və Ali Baş Komandana parlamentin icazəsi olmadan silahlı qüvvələrdən xarici ölkələrdə operativ istifadəyə səlahiyyət verən **qanun layihəsini** Federasiya Şurasına göndərməsi bu baxımdan diqqətçəkicidir. 14 bəndlik sənəd-plan ATƏT XİNŞ-nin Afinada keçirilən illik toplantısında (1.XII.2009) da müzakirə olunubdur. Qərb diplomatlarının fikrincə, Kremlin planı Avropada təhlükəsizlik mexanizmlərinin gücləndirilməsi zərurətinin dərk olunduğu bir şəraitdə **"köhnə dünya"da NATO ilə ATƏT-in rolu və önəminin xeyli azaldılmasına** hesablanıbdır. Belə bir təhlükəsizlik modelini dəstəkləyənlər çox azdır və planın qəbulunda həlledici

mövqe ABŞ-la Avropa dövlətlərinə məxsusdur. Onlar da belə hesab edirlər ki, Avropada yeni (Rusiya) təhlükəsizlik modeli ATƏT-lə NATO-nun rol və funksiyalarını təkrarlayan bir mexanizmi nəzərdə tutduğundan paralel qurumlara (strukturlara) ehtiyac qalmır. Bütün bu cür dəlillərsə D.Medvedyevin təkliflər paketinin qəbuluna imkan vermir.

Silahlı qüvvələrdən xarici ölkələrdə operativ istifadəyə səlahiyyət verən sensasiyalı qanun layihəsi də geniş əks-səda doğurmuşdur. Sənəd **"Rusiyanın maraqlarının müdafiəsi üçün" silahlı qüvvələrdən sərbəst şəkildə, yəni Federasiya Şurasından icazə almadan istifadə**ni nəzərdə tutur. Müasir beynəlxalq münasibətlərdə tam sözsahibi olmaq imkanları getdikcə tükənməkdə olan Rusiyanın yaxın qonşularına təsir etmək üçün hazırda cəmi iki əsas yolu qalır: neft-qaz kəmərləri və silahlı qüvvələr (MDB ölkələrindən onun ərazisinə işləməyə gələn milyonlarla adamın ölkədən çıxarılması da təsir vasitəsi kimi düşünülür). Kreml enerjidaşıyıcıları vasitəsilə diplomatik təzyiqləri xaricə qəfil qoşun göndərmək imkanı ilə tamamlamağı planlaşdırır. Prezident və generalitet hələ bir müddət əvvəl qanunvericiliyə xüsusi düzəlişi təsdiqlətdirməklə silahlı qüvvələrdən xaricdə istifadəni xeyli genişləndirən və önləyici səciyyəli hərbi müdaxilələrə yetərli imkan verən səlahiyyətlər qazanmışlar. Yeni qanun layihəsi isə çeşidli bəhanələrlə xarici dövlətlərə silahlı qüvvələr yeridilməsindən ötrü qanunvericilik bazasını tamamlayır.

Rusiya qanunvericiliyindəki son "təkmilləşdirmələr"in Kremlin təsir dairəsindən bu və ya digər dərəcədə çıxmağa çalışan postsovet respublikalarını hədəfə aldığı mübahisə yaratmır. Bəzi ekspertlərə görə, bu cür "hüquqi" baza belələrini (yaxın qonşuları) daimi təhdid altında saxlamaq üçün yaradılır. Onların sırasında isə Rusiyadan birmənalı olaraq aralanmağa çalışan Gürcüstanla (o, inişil artıq belə bir hərbi müdaxiləyə məruz qalmışdır) Ukraynanın və həmçinin Moldova ilə Azərbaycanın yer aldığı iddia edilir.

Ukrayna Kremlin onunla apardığı **"qaz müharibəsi"**ni unutmayıbdır və yeni təxribatlardan (Krım, Donetsk və s. ilə bağlı) rahatsızdır. Bunlara görə də Qərbdən möhkəm yapışmağa çalışır. Və 2008-ci ilin hərbi müdaxiləsini Rusiyaya bağışlamayan, Kremlin Abxaziya və Cənubi Osetiyanı "udması" ilə razılaşmayan Gürcüstan NATO-ya üzvlükdən ötrü, demək olar ki, son prosedurları keçməkdədirlər. Moldovanın yeni (qeyri-kommunist) hökuməti Rusiya qoşunlarının Dnestryanı bölgədən çıxarılmasına çalışır. Azərbaycan Kremli özünün strateji tərəfdaşı adlandırsa da, Rusiyanın "Dağlıq Qarabağ problemi"ni hələ ki, həll etmək istəməməsi və b. məqamlar rəsmi Bakını da ondan uzaqlaşdıra bilər. Və, bununla o da Rusiyanın qəfil hərbi müdaxilə obyektinə (hədəfinə) çevrilə bilər.

Rusiyanın özünün **"yaxın xarici"**i üçün yaratdığı təhlükə şəraitində Kiyevdəki Beynəlxalq Araşdırmalar Mərkəzinin direktoru S.Tolstev Avropa İttifaqı ilə NATO-nun Rusiya prezidentinin son təşəbbüsləri ilə bağlı ciddi və operativ düşünmələri qənaətindədir. Onun baxışlarını tamamlayan bir çox yanaşmalara görə isə GUAM dövlətlərinin Aİ-nin yeni-"Şərq Tərəfdaşlığı" təşəbbüsünə ümidi Rusiyanın qəfil hərbi müdaxilələrindən müdafiə olunmağa təminat vermir.

Bu məsələlərlə bağlı məqamlar ABŞ-ın özəl kəşfiyyat araşdırmaları mərkəzinin "Mossad"la da bağlılığı olan "Stratfor mərkəzi"nin 2010-cu ilə dair dəyərləndirmələrində də özünə yer almışdır. Mərkəzin proqnozlarına əsasən 2010-cu ildə Rusiya dünya nəhəngi kimi yenidən özünü təsdiqləyəcəkdir. Buna da İraq və Əfqanıstan müharibəsinin ABŞ-ın bütün hərbi potensial resurslarını, demək olar ki, udması və Ağ Evin diqqətinin həm də "İran məsələsi"nə yönəlməsinin şərait yaratdığı bildirilir. Mərkəzin təhlilləri və qənaətləri Rusiyanın 2010-cu ildə Qərbin postsovet respublikaları və hətta Türkiyə üzərindəki təsirinə son qoyulacağı iddiasındadır. Kremlin postssri məkanında yeni siyasi ittifaqın əsasını qoya biləcəyi də ehtimal olunur.

Diplomatik-politoloji təhlillərdə bu cür rəylərə də rast gəlinir: Rusiyanın yeni qanunvericilik aktlarının əməli zəminə keçməsi müşkül görünür və onlar yalnız uzunmüddətli təhdid (şantaj) vasitəsi kimi düşünülmüşdür. Başqa sözlə, Rusiyanın fəsadlarından hələ də qurtara bilmədiyi **"Gürcüstan variantı"-nı təkrarlayacağı** bir o qədər də gözlənilən deyil. Qlobal maliyyə böhranının ciddi təsirinə məruz qalan Rusiyanın belə bir şəraitdə Qərblə münasibətləri birdəfəlik və tam şəkildə korlamasını (pozmasını) düşünmək də sadəlövhlük olardı. Bütövlükdə isə, Rusiyanın yenidən superdövlətə (qlobal gücə) çevrilməsi inandırıcı görünmür.

Bunlarla yanaşı son vaxtlar yenə də rahatsızlıq yaradan başqa bir **versiyadan (səbəbdən)** bəhs olunur. Və, burada Rusiyanın ABŞ-la geosiyasi sövdələşməyə müvəffəq ola bilməsi məsələsi önə çəkilir. Konkret olaraqsa, **Kremllə Ağ Evin – Avropa İttifaqının iştirakıyla -Güney Qafqazdan ötrü "Qlobal sülh" planını** hazırladıqları bildirilir. Bir çox təhlillərdən çıxış edərək həmin planın (strateji sövdələşmənin) bu kimi element-detallarını qeyd etmək olar: Gürcüstanın əsasən ABŞ-la Rusiyanın birgə mövqelərindən asılı olan bir addım atması, yəni "NATO üzvlüyü" kimi istəyindən əl çəkərək özünü tərəfsiz elan etməsi; Ermənistanın da özünü neytral elan etməsi və Rusiyanın öz hərbi bazasını oradan çıxarması; arasında protokolların imzalanmasına (sərhədlərin açılması məsələsinə) əvvəlcə soyuq münasibət bəsləyən Rusiyanın indi bu prosesi dəstəkləməsi və s.

"Qlobal barış" planının **B.Obamanın** BMT Baş Assambleyasının 64-cü sessiyasında (IX.2009) açıqladığı **"birqütblü dünya strategiyasından imtina"** mövqeyi ilə əlaqədar olduğu iddia edilir. Bu zaman onun həmçinin bir çox regionlarda, o cümlədən də Cənubi Qafqazda Rusiya ilə nüfuz bölgüsünə razılığa işarə vurduğu da qeyd olunur. Ekspertlərin bunlarla bağlı əsaslandıqları dəlillər sırasında ABŞ-ın yeni prezidentinin Adminstrasiyasının rəsmi Tiflisi əvvəlki kimi himayə etməməsi,

bu kontekstdə hətta M.Saakaşvilinin ABŞ-a səfəri zamanı onunla görüşə bilməməsi, Ağ Evin Rusiyanın Gürcüstana hərbi təcavüzünü "unutması" və s. diqqətçəkicidir. Ağ Evin Türkiyə-Ermənistan yaxınlaşmasındakı fəallığı da bu qəbildən olan dəlillərdəndir.

Rusiyanın ABŞ ilə "Qlobal sülh" planı əsasında mümkün ola biləcək sövdələşməsinin real nəticələr verməyəcəyi qənaətində olanların da yanaşma-dəlilləri maraqlı və düşündürücüdür. Yəni Gürcüstanın indiki iqtidarı dönəmində onun NATO-dan imtinası mümkün sayılmır. ABŞ habelə alternativ qüvvələrin zəifliyi üzündən xaos yaranması ehtimalına görə iqtidar əvəzlənməsində maraqlı deyil. **Ermənistanın Rusiyanın dəstəyindən imtinası (məhrum olması) ermənilər üçün "Qarabağın Azərbaycana qaytarılması" anlamındadır.** Moskvanın Vaşinqtonla Güney Qafqazla bağlı sövdələşmə ehtimalı ("Qlobal sülh" planı) Azərbaycan üçün yaxşı heç nə vəd etmir. Çünki onların Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına dair mövqeləri ölkəmizin maraqlarını təmin etmir.

Bütövlükdə isə, belə bir sövdələşmə və bu əsasda Rusiyanın ABŞ-ı Cənubi Qafqazdan sıxışdırması ağlabatan sayılmır. Hazırda regionda nüfuz dairəsi uğrunda mübarizədə orta vəziyyət mövcuddur: nə Rusiya Cənubi Qafqazdan tamamilə çıxıbdır, nə də ABŞ tam olaraq bölgəyə gəlibdir. Gürcüstanda mövqeyi çox zəif olan Rusiya bu ölkəyə hərbi müdaxiləsi ilə bütün regionda mövqelərini möhkəmləndirmək (bərpa etmək) sahəsində revanş götürə bilibdir. Əksyöndə gürcüstanda nüfuzu güclü olan ABŞ-ın Azərbaycan və Ermənistanla əlaqələri genişlənməkdədir.

Sadəcə regionda incə xətt yeridən ABŞ Rusiyanın bölgədəki həssas maraqlarına qarşı açıq və birbaşa siyasət yürütmür. Həm də onunla əməkdaşlığa müsbət yanaşır. ABŞ-ın regionda zahirən zəif və passiv görünən fəaliyyətinin daha ciddi səbəbləri də diqqətdən qaçırılmamalıdır. Belə ki, başlıca səylər onun çağdaş xarici siyasətinin iki başlıca hədəfinin reallaş-

masına yönəlmişdir: 1.Avropanın nəzarətdə saxlanması. 2.Çinin çoxşaxəli və uzaqgedən ekspansiyasının əngəllənməsi. Aİ ilə NATO-nun genişlənmələrinə fərqli (birincininkinə soyuq, ikincininkinə isə müsbət) yanaşan ABŞ, bir yandan, Avropadaxili proseslərin tənzimlənməsində fəal iştirakdan kənarda qalmır. Digər tərəfdən də "Böyük Çin səddinin belinə möhkəm kəmər" bağlamağa çalışır.

Qərbin bir sıra araşdırma mərkəzlərinin təhlillərində ABŞ və İngiltərə maliyyəçilərinin **hazırkı "qlobal gizli iqtisadi müharibə"**ni məqsədli olaraq və əsasən də Çinə qarşı başlatmaları müddəası özünə yer almışdır. Bu işdə əsas niyyət indiki dünya maliyyə böhranı şəraitində ÜDM-un 7,3 faiz artımına nail olan Çini çökdürməkdən ibarətdir. Qərb (ABŞ) **Çinin "dünya iqtisadiyyatının lokomotivi"nə çevrilməsi**ni əngəlləməyə çalışır. Başqa bir yanaşmaya görə isə, Ağ Ev "əl- Qaidə" ilə mübarizə adı altında Asiya üzərində təsir imkanlarını artırmağa və bu axarda da öncəliklə, ələlxüsus, qlobal miqyasda özünün başlıca rəqibinə çevrilən Çini sıxışdırmaq istəyir. Buna görə də Pentaqonun Yəməndə "əl-Qaidə"nin fəallaşmasını əsas tutaraq oraya qoşun yeritmək planı ortaya çıxmışdır. ABŞ Yəmən sahilindəki Ədən körfəzində hərbi iştirakı ilə Çinə apatan əsas ticarət yollarını nəzarətə götürmək iddiasındadır.

Bu cür qlobal hədəflərin yanında bəzən Güney Qafqaz sanki, bir növ, "unudulmuş" kimi görünür. Ancaq hələlik geosiyasəti geoiqtisadiyyatla əvəzləyə bilməyən ABŞ təbii resurslar və strateji mövqelər (bölgələr) uğrunda gedən qlobal mübarizə şəraitində zəngin karbohidrogen ehtiyatları və tranzit dəyərli Qafqaz-Xəzər regionuna diqqəti artırmaqdadır. Bunun üçünsə **"Asiya NATO"su**nun yaradılması niyyəti də sezilməkdədir. Əfqanıstan da daxil olmaqla Mərkəzi Asiyada möhkəmlənmə (hərbi iştirak və s.) İranı sıxışdırma, Hindistanla alyans, Azərbaycanla çoxşaxəli əməkdaşlıq və digər hallar bu prosesin elementləri sayıla bilər.

Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığı və "Qafqaz Evi" problemi

AR-in MDB (postsovet məkanı) dövlətləri ilə münasibətləri sistemində Rusiya, Ukrayna və digərləriylə yanaşı **Gürcüstanla əlaqələr** də aparıcı istiqaməti təşkil edir. Tarixboyu dəfələrlə (o cümlədən, 1918-1920-ci illərdə) olduğu kimi, çağdaş dövrdə də Azərbaycanla Gürcüstanın **strateji maraqları** kəsişmişdir və onlar yenə **oxşar daxili problemlərlə** üzləşmişlər. Onlardan bəzilərini aşağıdakı tərzdə ifadə etmək olar:

- dövlətçiliyə və ərazi bütövlüyünə xaricdən və xüsusilə də Rusiyadan gələn təhlükə-təhdidlərdən müdafiə;
- Qafqazda davamlı və təminatlı sabitlik;
- strateji maraq və ehtiyacların qarşılıqlı ödənilməsi. (Yəni Gürcüstanın Xəzər neftinə, Azərbaycanınsa Qara dəniz vasitəsilə Avropaya (Qərbə-dünyaya) çıxışı);
- Rusiya tərəfindən törədilən etnosiyasi münaqişələr;
- Qərbin (Aİ və ABŞ-ın) Güney Qafqaz siyasətindəki "ikili standart"dan irəli gələn rahatsızlıq;
- "Qafqaz Evi"nin qurulması-"Qafqaz Birliyi"nin yaradılmasındakı eyni məqsədlər və s.

Bütün bu kimi **taleyüklü məqamlar** AR ilə GR arasında tezliklə diplomatik əlaqələr yaradılmasını və qarşılıqlı münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə çatdırılmasını zəruri edirdi. Diplomatik əlaqələr tezliklə (1992-ci ildə) qurulsa da, ilk vaxtlar ölkələrimizin arasındakı münasibətlərdə bəzi problemlər yaşandı və anlaşılmazlıqlar özünü biruzə verdi. Bu hal da əsasən qonşu dövlətdəki Qamsaxurdiya iqtidarının ifrat milli ayrı-seçkilik siyasəti və orada yaşayan soydaşlarımızı sıxışdırması ilə əlaqədar olaraq yarandı.

Ancaq Gürcüstanda hakimiyyət dəyişikliyi və orada yenidən iqtidara gələn E.Şeverdnadzenin AR-ə rəsmi səfəri (II.1993) dövlətlərarası problem və anlaşılmazlıqların bir qismi-nin aradan qaldırılmasına imkan verdi. E.Şevardnadze ilə

Ə.Elçibəyin danışıqlar nəticəsində "AR ilə GR arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə" bağlandı (3.II.1993). Bu müqavilədə hər iki dövlətdəki milli azlıqların hüquqlarının müdafiəsi də özünə yer almışdı. Tərəflər 20-dən çox saziş, o cümlədən də parlamentlərarası əlaqələrə dair müqavilə imzaladılar.

H.Əliyevin də Azərbaycanda hakimiyyətə qayıdışı, "köhnə-Siyasi Büro dostları"nın baxış və mövqelərindəki yaxınlıq və onların tez anlaşmaları dövlətlərarası münasibətləri keyfiyyətcə yeni mərhələyə adlatdı. Azərbaycan prezidentinin GR-ə (III.1996, III.2000) və E.Şevardnadzenin AR-ə (II.1997) rəsmi səfərləri zamanı çoxlu məsələlər müzakirə edildi: qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi; ərazi-etnik münaqişələrin ədalətlə tənzimlənməsi; Xəzərin neft-qazının Gürcüstandan keçməklə nəqli; Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi və s. Belə müzakirələrin və, bütövlükdə, qarşılıqlı faydalı əməkdaşlığın tarixi nəticələri, yəni BTC, BTƏ və BTQ **"layihələri üçlüyü"**nün gerçəkləşməsi gözönündədir (Bunlar barədə 3-cü bölümdə ətraflı bəhs olunur).

AR-GR tərəfdaşlığının möhkəmlənməsində Türkiyənin təşəbbüsü və təmsilçiliyi ilə keçirilən **Trabzon sammiti** (IV.2002) də mühüm rol oynadı. Üç dövlətin prezidentlərinin bu Zirvə görüşündə imzalanan terrorçuluğa və s. qarşı mübarizə haqqında müqavilə strateji müttəfiqlərin Güney Qafqazda hərtərəfli sabitliyin təmin olunması, taleyüklü iqtisadi (enerji, nəqliyyat və s.) layihələrin reallaşdırılması və digər sahələrdə səmərəli işbirliyi üçün **daha bir hüquqi** baza rolunu oynadı.

Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığı "Qafqaz Evi"nin qurulmasında **əsas ağırlıq mərkəzi və başlıca özül** kimi də səciyyələndirilir. Qafqazdakı milli-azadlıq hərəkatının XX əsrin sonlarına təsadüf edən yeni (növbəti) mərhələsi **"Qafqaz Birliyi" ideyası və hərəkatını** da bərpa etmişdir."Qafqaz Evi-Birliyi" ideyası hələ 1915-ci ildə Ə.Topçubaşı və b. tərəfindən irəli sürülərək əsaslandırılmışdı. 1918-1920-ci illərdə onun

gerçəkləşdirilməsinə müəyyən cəhdlər edilsə də, dövrün beynəlxalq siyasəti və Rusiya ilə ermənilərin planları buna imkan verməmişdi. Məlum ideya qafqazlı siyasi mühacirlərin xaricdəki fəaliyyətində və müzakirələrində daima mərkəzi yerlərdən birini tutmuşdur. Regionda yeni müstəqil dövlətlərin yaranması, çeçen və b. xalqların Rusiya əsarətindən qurtulmaq naminə mübarizəsi, Kremlin imperiya iddiaları "Qafqaz Evi məsələsi"ni açıq şəkildə təkrarən gündəmə gətirdi. Bir sıra təşkilati hərəkətlərə və tədbirlərə rəvac verildi.

Çox maraqlı və önəmlidir ki, 1917-1918-ci illərdə olduğu kimi, bu dəfə də **ilkin əməli təşəbbüs və təkliflər** Şimali Qafqaz xalqları tərəfindən edildi. (Sözgəlişi, buna Güney Qafqaz xalqlarının öz dövlətlərini bərpa etdikləri halda, "şimallılar"ın hələ ki, müstəqilliklərinə qovuşa bilməmələrinin də təsir göstərdiyini söyləmək olar. Onlar 1918-ci ildə Cənubi Qafqaz xalqlarının hamısından daha əvvəl (11.V.1918) öz dövlətlərini, yəni Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikasını—"Dağlılar Respublikası"nı yaratmışdılar). Belə ki, öncə Suxumidə Qafqaz Dağlı Xalqları Assambleyası yaradıldı (VIII.1989) və tezliklə (XI.1991) o, Konfederasiyaya çevrildi.

"Qafqaz Evi" adlı qurumun 1992-ci ilin sentyabrında Qroznıda keçirilən "Dəyirmi stol"unda regionun xalqlarına **Müraciət və Bəyannamə** qəbul edildi. Həmin sənədlərdə Qafqaz dövlətləri Konfederasiyasının qurulması ideyasından bəhs olunurdu (Dağlı xalqlarının ictimai-siyasi xadimləri hələ 1918-ci ilin mart-aprel aylarında keçirilən Trabzon konfransında Qafqazda ümumi dövlətin yaradılmasını təklif etmiş və bununla bağlı israrlı mövqe ortaya qoymuşdular). 1992-ci ilin sentyabrında isə,sədri Çeçenistan prezidenti C.Dudaev olan, **"Qafqaz Evi" Beynəlxalq Forumu**nun yaradıldığı elan edildi. Qafqaz din xadimlərinin həmin ilin oktyabrında Qroznıda və noyabrında isə Bakıda keçirilən toplantılarında region xalqlarının birliyi məsələləri nəzərdən keçirildi.

"Qafqaz Evi"nin ideyadan gerçəkliyə çevrilməsinə aid

məsələlər Qərbin və Rusiyanın elmi mərkəzləri, ayrı-ayrı politoloqları tərəfindən sərf-nəzər edilməkdədir. Vaxtılə **P.Qobl** da bu ideyanı Qafqazdaxili inteqrasiya prosesləri şəklində (kontekstində) araşdıraraq **bəzi qənaətlərə** gəlmişdi. O, Qafqazdaxili inteqrasiyanı şərtləndirən bu kimi **amilləri** önə çəkmişdi: neft və qaz kəmərlərinin infrastrukturu; etnosiyasi münaqişələr; MDB və Rusiya ilə münasibətlərdə ortaq strategiya və s. ABŞ politoloqu habelə "Qafqaz Evi"nin qurulmasını hədəfə alan inteqrasiya proseslərinin başlıca istiqamətləriniin müəyyənləşdirilməsinə diqqət yetirmişdi. Onun və bir sıra analitiklərin fikrincə, regionda balanslaşdırılmış təhlükəsizlik və sabitlik sisteminin yaradılması "Qafqaz Birliyi"nə aparan əsas yollardan biridir.

Azərbaycanla Gürcüstan və məlum səbəblər üzündən Rusiyanın Şimali Qafqaz siyasətinin mərkəzində dayanan Çeçenistan Qafqazdaxili inteqrasiya naminə **siyasi-iqtisadi-humanitar səciyyəli tədbirlər** görə bildilər. Regional inteqrasiyanın və "Qafqaz Evi"nin ayrı-ayrı sahələr üzrə müxtəlif **variant və modelləri** nəzərdən keçirildi. "Qafqaz Evi"nə dövlətlərarası səviyyədə **ilk dəfə** Ə.Elçibəyin E.Şevardnadze ilə (C.Dudayevin də iştirakıyla) Bakıda apardığı danışıqlarda (II.1993) açıq münasibət bildirildi. AR ilə GR arasında müqavilə və sazişlərin imzalanmasından sonra keçirilən mətbuat konfransında Ə.Elçibəy "bu gün "Qafqaz Evi" yaratmaq üçün bünövrə qoyulduğunu" bildirmişdi. Prezidentlərin **"üçlü görüşü"**ndə C.Dudayev Ə.Elçibəyin "Qafqaz Evi"nin ağsaqqalı və özünün də hərbi məsələlərə məsul şəxs olmasını təklif etmişdi. Ancaq AR prezidentinin dövri sədrlik təklifi bəyənilmişdi.

Qarşılıqlı razılaşmalara əsasən E.Şevardnadze B.Yeltsinlə C.Dudayevi barışdırmalı və çeçen lideri də L.Ter-Petrosyanı "Qafqaz Evi"nə qoşulmağa razı salmalıydı (Bəzi məlumatlara görə, Ermənistan prezidenti öncə öz razılığını bildirsə də, Rusiyanın təzyiqi ilə bundan imtina etmişdi. Bununla da, ermənilər əvvəllərdə olduğu kimi, Rusiya ilə birlikdə "Qafqaz

Birliyi"ni əngəlləməyə üstünlük verdilər. B.Yeltsinsə nəinki C.Dudayevlə barışdı, əksinə, Rusiya Çeçenistanla – hələlik onun müvəqqəti də olsa susdurulması, sakitləşdirilməsiylə nəticələnən – iki böyük müharibə apardı).

Qafqazdaxili inteqrasiya məsələləri H.Əliyevin Gürcüstana rəsmi səfəri zamanı (III.1996) E.Şevardnadze ilə apardığı danışıqlarda da müzakirə obyekti oldu. Tərəflər "Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq haqqında Birgə Bəyannamə" qəbul etdilər. Bu sənəd, yəni **"Tbilisi Bəyannaməsi"** "Qafqaz Evi"nin baş əleyhdarı olan Rusiyanı fəallaşdırdı. "Qafqaz Birliyi" ideyası və hərəkatını özünün əsl mahiyyəti və məqsədindən (**"Azad Qafqaz"**dan) yayındırmağa çalışan Kreml diplomatiyası önləyici (pozucu) tədbirlərə əl atdı. B.Yeltsin **"Qafqaz görüşü" təklifi** ilə çıxış etdi. Rusiyanın da iştirakı ilə Güney Qafqaz respublikalarının başçıları və Şimali Qafqaz xalqları rəhbərlərinin **"Birinci Kislovodsk" görüşü** keçirildi (3.VI.1996). Müzakirələrin sonunda "Qafqazda əmin-amanlıq, sülh, iqtisadi və mədəni əməkdaşlıq uğrunda Bəyannamə" qəbul edildi. **"Kislovodsk Bəyannaməsi"** əslində Rusiya ilə Ermənistanın az öncəki "Tbilisi Bəyannaməsi"nə, bir növ, gecikmiş cavabı (reaksiyası) idi.

Rusiya Qafqazda törətdiyi ərazi-etnik münaqişələrin ədalətli həllinin onun regiondan həmişəlik getməsinin və "Qafqaz Evi"nin reallaşmasının təsirli vasitələrindən biri olmasını yaxşı bilir. Buna görə də **Qafqazdaxili inteqrasiyaya ("Qafqaz Birliyi"nə) "humanist müdaxilə"** ilə öncəliklə regiondakı **münaqişə və problemlərin "konservləşdirilməsi"**nə çalışılır. Bu və digər məqsədlərlə də Kremlin **"Qafqaz dəyənəyi"** işə salınır, yəni Ermənistan həvəsləndirilir və hərtərəfli himayə olunur. Onlar arasındakı "Dostluq, əməkdaşlıq və qarşılıqlı yardım paktı" (29.VIII.1997) buna misal ola bilər.

Rəsmi Moskvanın çoxşaxəli əngəllərinə baxmayaraq Qafqazdaxili inteqrasiyanın mühüm məqamı sayılan Cənubi Qafqaz-Rusiya tarazlığının yollarının axtarışı davam etdirildi.

"İkinci Kislovodsk görüşü" (31.V.1997) bu cəhətdən müstəsna əhəmiyyət kəsb edir. Kreml rəhbərliyinin təmsil olunmadığı həmin toplantıda "Qafqaz Evi"nin qurulması işində "Tbilisi Bəyannaməsi"nin önəmi vurğulandı. Burada habelə regiondaxili inteqrasiyaya yönəlik **müxtəlif təkliflər** səsləndirildi. Çeçenistan nümayəndəsi (o vaxtkı Baş nazir M.Uduqov) Ümumqafqaz Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ÜTƏT, bir növ, **"Qafqaz ATƏT"**-i) yaratmağı tövsiyə etdi. ATƏT-in İstanbul sammitində (XI.1999) S.Dəmirəl və H.Əliyev Güney Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının təşkili ilə bağlı təklif irəli sürdülər. 2000-ci ildə **"Qafqazda Sabitlik Paktı"** adlandırılan bir sənəd də ərsəyə gətirildi.

"Qafqaz Evi" naminə çalışmalarda **parlamentlərarası əlaqələrin** də mühüm rol oynaya biləcəyi nəzərə alınaraq bəzi **təklif və təşəbbüslər** oldu: **a)** Ümumqafqaz Parlament Birliyi-Qafqaz Parlamentlərarası Məclisinin yaradılması ideyası ortaya çıxarıldı; **b)** Qafqaz Parlamenti vasitəsilə Avropa Parlamentinə inteqrasiyanın perspektivi nəzərdən keçirildi; **c)** Qafqaz Parlament Assambleyasının təşkili ilə bağlı Mahaçqalada razılıq əldə olundu (21.VI.1997); **ç)** onun Təsis Qrupu Qafqaz parlamentlərinə xüsusi Müraciət yaydı və s.

"Qafqaz Evi"nin iqtisadi modelinə dair müəyyən baxışlar və təkliflər də vaxtaşırı gündəmdə özünə yer almışdır. Regionun Avratlantika iqtisadi məkanına inteqrasiyası yolundakı problemlər və çətinliklər (siyasi-hərbi sabitsizlik, ərazi-etnik münaqişələrin "konservləşdirilməsi", kapital-maliyyə imkansızlığı, Rusiya və başqalarının əngəlləri), onların aradan qaldırılması yolları nəzərdən keçirilmişdir. Qafqaz Maliyyə Mərkəzinin, Ümumqafqaz Bazarının, həmçinin bir sıra **regional iqtisadi qurum-strukturların** (Sərmayə Fondu, İnvestisiya Bankı, Gömrük İttifaqı, Neft və Qaz İttifaqı) təşkilinə dair təkliflər irəli sürülmüşdür. Ümumqafqaz Bazarı ilə əlaqədar məsələlər hətta **Kran-Montana** (İsveçrə,VI.1997) **beynəlxalq forumunda** geniş müzakirə olunmuşdu. Həmin forumda Avrasiya-Qafqaz Ümumi Bazarının maliyyələşdirilmə strukturu işlənib hazırlanmışdı. Layihə AR və GR-i Qafqaz Bazarının təşkilatçıları və tam müstəqil olduğu halda Çeçenistan-İçkeriya Respublikasının, Dağlıq Qarabağ münaqişəsinin həllindən sonra isə Ermənistanın ona üzvlüyünü nəzərdə tuturdu.

"Qafqaz Birliyi"nə nail olunmasına yönəlik fəaliyyətdə **humanitar tədbirlərin** də mühüm əhəmiyyəti var. Bu sahədə görülən işlərdən bəziləri xüsusilə qeyd olunmalıdır. Hələ 1992-1994-cü illərdə "Qafqaz Evi" qurumu nəzdində **"Humanitar Şura"** fəaliyyət göstərmişdi. Azərbaycanın təşəbbüsüylə Qafqaz xalqları Qırmızı Xaç və Aypara cəmiyyətinin Tiflisdə konfransı keçirildi (XII.1992). Bakı 1993-cü ilin yanvarında "Qadınlar "Qafqaz Evi"ndə sülh uğrunda" beynəlxalq konfransına evsahibliyi etdi. Tezliklə (X.1993) qafqazlı xanımların **"Ağ örpək" təşkilatı** fəaliyyətə başladı.

Regional KİV-lər Qafqazdaxili əməkdaşlıq sahəsində səylərini artırdılar. Gürcüstanın "dördüncü hakimiyyəti" Cənubi Qafqaz Vahid İnformasiya Məkanı yaradılmasını təklif etdi (II.1997). Bu məqsədlə də Güney Qafqaz Jurnalistləri Mərkəzi təşkil edildi. 1997-ci ilin avqustundan etibarən Bakıda "Kavkaz" jurnalı nəşrə başladı. Son dönəmlərdə Bakıda və Tiflisdə media təmsilçilərinin görüşləri və müzakirələri keçirilmişdir. 2009-cu ilin noyabrında Tiflisdə aparılan müzakirələrdə regionda sabitlik, demokratiyanın inkişafı və digər sahələrdə mətbuatın əməkdaşlığının əhəmiyyəti xüsusilə qeyd edildi.

Qafqazdaxili inteqrasiyaya dair çoxlu **baxış və mövqelərin qarşılaşmasında da tarixi-taleyüklü bir sual** mərkəzdə dayanır: "Qafqaz Evi" — əfsanə, yoxsa gerçəklikdir?". Hazırda elmi-siyasi dairələrdə belə bir mövqe üstünlük təşkil edir ki, "Qafqaz Evi" ideyasının gerçəkləşməsi əfsanədir. Onların nəzər nöqtəsinə görə, "Qafqaz Evi" naminə artıq bir əsrə yaxın müddətdə aparılan mübarizə əməli nəticə verməmişdir. Bu nəticəsizlik isə əsasən Rusiyanın imperiya təfəkkürü və iddialarından irəli gəlir və regiona onun hərbi-diplomatik, habelə digər

ekspansiyalarının hesabınadır.

Rusiyanın 2008-ci ilin avqustunda Gürcüstana hərbi təcavüzü bunları yetərincə təsdiqləmişdir. Almaniya – ABŞ Marşall Fondunun Brüssel şöbəsinin rəhbəri R.Asmusun **"Dünyanı silkələyən kiçik müharibə**: Gürcüstan, Rusiya və Qərbin gələcəyi" kitabı Moskva – Tiflis hərbi qarşıdurmasının bir sıra qaranlıq məqamlarını açıqlamışdır. O, Qərb dövlətləri və Gürcüstanın rəsmi mənbələrindən əldə edilən sənədli materiallar əsasında yazılmışdır. Müəllifin mülahizə və qənaətləri sırasında diqqətçəkici detallar çoxdur: Kremlin ABŞ ilə Avropa arasındakı ziddiyyətlərdən faydalanaraq Gürcüstanı ələ keçirmək üçün cəhd göstərməsi; Rusiyanın hərbi müdaxiləsinin Ağ Ev rəhbərliyində SSRİ-nin Kubaya raketlər yerləşdirməsi zamanı yaşanan şoku təkrarlatması; Pentaqonun məhdud səciyyəli hərbi əməliyyatlar aparılması (Roksk tunelinin bombalanması və s.) variantından "beşgünlük müharibə"nin dördüncü günündə imtina edilməsi; o vaxtkı Administrasiyanın "şahinlər"indən vitse-prezident D.Çeyninin C.Buşun (oğul) yumşaqlıq göstərərək Rusiyaya Gürcüstana müdaxilə üçün mesaj verməsindən rahatsız olması və onlar arasında gərginliyin yaranması.

R.Asmusun Kremlin o zamankı rəhbəri V.Putinlə Gürcüstan prezidentinin sonuncu görüşünün (Soçi, II. 2008) – ABŞ rəhbərliyinin əlinə keçən – stenoqramının təhlilinə əsasən gəldiyi qənaət də maraq doğurur: **"beşgünlük müharibə"** digər potsovet dövlətlərə də regionda sözsahibinin hələ ki, kim olduğunu bir daha göstərdi və Rusiyadan üz döndərib Ağ Evə yönəlmənin fəsadlarını xatırlatdı. Bu zaman V.Putinin belə bir fikrinə istinad olunur ki, əbəs yerə amerikalılara etibar edə bilərsiniz və onların sizə köməyə gələcəyinə inanırsınız: "Məndən başqa heç kimə etibar etmək olmaz". ABŞ-ın Gürcüstanı tam süqutdan qurtarmaq üçün dəstəklədiyi Fransa prezidentinin vasitəçilik missiyası Tiflisdə təslimçi atəşkəs aktının imzalanması ilə yekunlaşdı. Belə bir aktsa N.Sarkozinin "amerikalılar sizi xilas etməyə gəlməyəcəklər, heç avropalılıar da gələsi

deyil" xəbərdarlığının qarşılığında təbii sayılmalıdır.

ABŞ-ın vitse-prezidenti C.Baydenin də vurğuladığı kimi, "dünyada vəziyyət dəyişir, ruslar isə dönməz keçmişə köklənir". Rusiyanın Gürcüstana 2008-ci ildəki təcavüzü və Kremlin başçısı D.Medvedyevin **"beşgünlük müharibə"**də atəşkəsə vasitəçilik edən Fransa prezidenti N.Sarkoziyə məktubunda (VIII.2009) rəsmi Tiflisi yeni savaşla hədələməsi Rusiyanın Güney Qafqazı yenidən tam nəzarətə götürmək planlarından əl çəkmədiyini göstərir. Hazırda Kreml "xarici təhlükəni dəf etmək və digər ölkələrdə yaşayan vətəndaşlarının müdafiəsi" adı altında özünün təcavüzkar siyasətinə **"qanunvericilik bazası"** yaradır.

Qərbdə "oyuncaq prezident" imici formalaşan D.Medvedyevin Dövlət Dumasına təqdim edilən (VIII.2009) yeni qanun layihəsi Rusiya ordusundan ölkə xaricində istifadənin "səbəbləri" sırasını genişləndirir. Bu da haqlı olaraq Rusiyanın **"yaxın xaric"**i üçün ciddi təhlükə sayılır. Gürcüstan, Ukrayna və digər ölkələrin əhalisinin bir hissəsinə Rusiya "vətəndaşlığı" pasportlarını paylayan Kreml bu yolla xaricdəki "təbəələri"nin sayını artırır və onların "müdafiəsi üçün səbəblər" yaradır. (Məsələn, Abxaziya və Cənubi Osetiya əhalisinin 80-90 faizinin Rusiya vətəndaşlığını "qəbul etməsi" artıq təşkil olunmuşdur).

Rusiyalı politoloq, Moskva Beynəlxalq institutunun əməkdaşı V.Yevseyev öz həmkarı A.Ryaborun, az öncə qeyd edilən qənaətinin əksinə olaraq bildirir ki, Qarabağda müharibə başlasa Rusiya Ermənistanı müdafiə etməlidir. Ancaq elə onun özü də çevik qüvvələrdən Qarabağ münaqişəsində istifadə olunmasına şübhə etdiyini gizlətmir. Həmin politoloqun qənaətinə görə, Qazaxıstan və Belarusun bölgəyə hərbi qüvvə göndərməsi əsla ehtimal olunmur. Bu halda Kreml çevik qüvvələrdən nəzəri baxımdan bir **"hüquqi örtük"** kimi faydalana bilər. Ancaq Qarabağ Azərbaycan torpağı olduğundan və çevik qüvvələrin yalnız KTMT-yə üzv ölkələrə göndərilə bilməsi şərti üzündən

məsələ çox problemlidir. V.Avseyevin fikrincə, Rusiya üçün **mövcud status-kvo, yəni münaqişənin "dondurulmuş durumu"** daha əlverişlidir. Çünki **"yeni Qarabağ müharibəsi"** nəticəsində Kremldən ötrü Azərbaycanın qələbəsi Ermənistanın və, əksinə, İrəvanın uğuru AR-in itirilməsi demək olardı. Moskvalı hərbi ekspert A.Qolts da Rusiyanın Ermənistan-Azərbaycan münaqişəsində çevik qüvvələrdən istifadə etməyin nəticələrini yetərincə dərk etdiyini yazır: "Çevik qüvvələrin artıq mövcudluğu hərbi münaqişənin yenidən alovlanmasına qarşı preventiv amil kimi qəbul oluna bilər".

Rəsmi Tiflisin Kremlin yeni hərbi təcavüzünü önləmək üçün yeritdiyi **"profilaktik diplomatiya"**ya baxmayaraq, "Beynəlxalq Böhran Qrupu"nun proqram direktoru L.Şitsin qənaətinə görə, "Gürcüstanın Rusiyaya savaş açması hərbi cəhətdən onun intiharı olardı". Gürcüstan Milli Təhlükəsizlik Şurasının katibi E.Tkelaşvilinin fikrincə isə, ölkəsinin Rusiyaya hərbi məğlubiyyəti Azərbaycanın tam mühasirədə qalması deməkdir .Ekspert təhlillərinə görə, C.Baydenin Tiflisə səfəri, ondan bir qədər sonra M.Saakaşvili ilə telefon əlaqəsi yaratması və Pentaqon rəhbərinin müavini A.Verşbounun "Rusiya qoşunlarını 2008-ci ilin avqustundan əvvəlki mövqelərə çəkməlidir" tələbi, ABŞ-ın casus peyklərinin Gürcüstana tuşlanması çox şey deyir.

"Qafqaz Evi"nin qurulacağına və, beləliklə, "Azad Qafqaz"a nail olunacağını əsaslandırmağa çalışan **yanaşma və səylər** də mövcuddur. Politoloq-araşdırmaçılardan X.İbrahimli də Qafqazın tezliklə tam azad ola biləcəyini gözləməyi sadəlövhlük saysa da bildirir ki, Qafqazda ümumi təhlükəsizlik sisteminin yaradılması tarixi zərurətdir və onun bərqərar olmasının başlıca qarantını regionun bütövlüyü təşkil edir. Onun fikrincə, habelə regionda **"kənar güc amili"** aradan qaldırılmalıdır. Bunun üçünsə öncəliklə **törədəni-baiskarı tərəfindən də "konservləşdirilən" və vaxtaşırı qızışdırılan etnik münaqişələr ədalətli həllini tapmalıdır.** Çünki regiondaxili problemlər və etnik qarşıdurmalar kənar güclərin, xüsusilə də Rusiyanın

daimi müdaxilələrinə (ona sığınanları müdafiə və s. bəhanələrlə) zəmin yaradır, əsas verir.

Münaqişəyə cəlb edilənin də kənar güc axtarışı Qafqazı iki və daha çox qüvvə mərkəzlərinin təsir dairəsində saxlayır. (Sözgəlişi, Qafqaz xalqları problem və anlaşılmazlıqları **"üçüncü tərəf"in atbitrajlığı olmadan** da həll etmək təcrübəsinə malikdirlər. Gürcüstanla Azərbaycan və Çeçenistanla İnquşetiya öz aralarındakı ərazi mübahisələrini dinc yolla, yəni "üçüncü"nün iştirakı olmadan nizamlamışlar. Zaman-zaman müxtəlif böyük dövlətlərin əlaltısı olan və onlardan faydalanan ermənilərsə tamamilə fərqli mövqedədirlər). Bu yolverilməz halın hazırda regionda mövcud olmasına baxmayaraq müasir beynəlxalq proseslər, güc mərkəzlərinin dəyişməsi meyli və perspektivi, uzunömürlü kənar qüvvənin tədricən geri çəkilməsi kimi amillər Qafqazın öncə bütöv **iqtisadi-mədəni və sonda isə siyasi məkana çevrilməsinə** səmərəli şərait yaradır. Qafqaz xalqlarının əksəriyyəti bu tarixi-nadir imkandan zamanında və yetərli faydalanmaq qənaətindədirlər.

"Qafqaz Evi"nin qurulacağına inamı bu **prosesin lokomotivi sayılan Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığı** da xeyli artırır. M.Saakaşvili 2009-cu ilin noyabrında Qurban bayramı münasibətilə Marneuli rayonunun türk müsəlman əhalisi ilə görüşündə bu fikri xüsusi olaraq vurğulayıbdır: **Gürcüstanın Azərbaycan təki ikinci bir strateji tərəfdaşı yoxdur.** Həmin strateji tərəfdaşlıq **"Şərq-Qərb dəhlizi"nin "açar"**larından biridir. AR-GR strateji müttəfiqliyi **Qafqazın Güneyi ilə Quzeyinin inteqrasiyasının** da təməli sayılır. Qafqazdaxili belə inteqrasiya və Qara dəniz hövzəsində **dördbucaqlı (Azərbaycan-Gürcüstan-Türkiyə-Ukrayna) əməkdaşlıq** Rusiyanın regionun hegemon dövlətindən bərabərhüquqlu tərəfdaş səviyyəsinə enməsini də təmin edər. Bu da **"Qafqaz Evi"-"Azad Qafqaz"ın gerçəkləşməsinin** aparıcı prinsiplərindən biri hesab olunur.

NATO-nun öncə Gürcüstan, sonra da böyük ehtimalla

habelə Azərbaycan vasitəsilə regiona gəlməsi onun eyni güc mərkəzinin (Qərb-ABŞ) təsir dairəsində olmasına və Rusiyanın burada sıxışdırılmasına şərait yaratmaqla Qafqazın bütün bölgələri arasında inteqrasiyanı təmin edə bilər. (Yeri gəlmişkən, NATO-nun yeni Baş katibi A.Rasmussen özünün təzə postunda keçirdiyi ilk mətbuat konfransındaca (VIII.2009) Kremlə bəzi ismarıclar ünvanlamışdır. O, Rusiyanın alyansa və Qərbə inteqrasiyada maraqlı olan "yaxın xaric"ə qarşı hədə və şantaj siyasətini qəbul etmədiyini bildirmişdir).

Bütün bu və digər önəmli məqamlar AR-GR siyasi dialoqunun indiki mərhələsində də başlıca mövzulardandır. Dövlət başçılarının (İ.Əliyevlə M.Saakaşvilinin) Tiflisə və Bakıya çoxsaylı qarşılıqlı rəsmi və işgüzar səfərləri zamanı aparılan danışıqlarda onların müzakirəsinə də geniş yer ayrılmışdır (Diplomatik qaynaqların məlumatına görə, M.Saakaşvilinin 2009-cu ilin mayındakı səfəri zamanı Azərbaycan prezidentinin Gürcüstan-Rusiya qarşıdurmasının aradan qaldırılmasında vasitəçilik etməsi də nəzərdən keçirilmişdir).

AR-in Ukrayna, Moldova və Baltikyanı postsovet respublikaları ilə ikitərəfli əlaqələri

Azərbaycanın postsovet-MDB məkanı dövlətləri ilə münasibətlərinin mühüm bir istiqamətini də **Ukrayna və Moldovayla, habelə Baltikyanı respublikalarla əlaqələr** təşkil edir. Adları çəkilən ilk iki dövlətlə münasibətlər GUAM birliyi daxilindəki əməkdaşlıqla yanaşı birbaşa çoxşaxəli əlaqələri də nəzərdə tutur. Azərbaycan Respublikası Ukrayna, Moldova, Litva, Latviya və Estoniya ilə 1992-ci ildə diplomatik əlaqələr qurmuşdur. Dövlətlərarası əlaqələrdə beynəlxalq təşkilatlar çərçivəsində anlaşma və uzlaşmanın böyük əhəmiyyəti vardır.

AR-in **Ukrayna və Moldova** ilə tərəfdaşlıq - həmrəyliyində onların üçünə də kənardan (Rusiyadan) sırınan etnosi-

yasi münaqişələrin həlli amili mühüm rol oynayır. Azərbaycan-Ukrayna əlaqələrinin strateji əməkdaşlıq səviyyəsinə doğru getməsinə müstəqilliyin möhkəmləndirilməsi, enerji təhlükəsizliyi, Avratlantik məkana ardıcıl inteqrasiya xətti ciddi təsir göstərir. Xüsusilə də Ukraynanın Rusiya tərəfindən daha çox sıxışdırılması rəsmi Kiyevin postsovet məkanında da tərəfdaşlarını çoxaltmasını və Azərbaycanla səmərəli əməkdaşlığı genişləndirməsini şərtləndirir. Kreml hətta bir ara "Rusiyaya dost olmayan ölkəyə çevrilən Ukrayna"ya (D.Medvedyev) "qaz müharibəsi" elan edərək onu"qazsızlıqla dondurmaq planı"nı işə salmışdı.

Ukraynanın NATO üzvlüyünə israrlı can atması da rəsmi Moskvanı əsla qane etmir. "Hərbi-siyasi alyanslara xalqın iradəsi nəzərə alınmadan üzvlüyü düzgün saymayan " Kreml Ukraynanın NATO-ya daxil olmasının da yalnız referendum yolu ilə müəyyən edilə biləcəyi şərtini irəli sürür. (Halbuki Kreml Rusiyanın **antiNATO bloku** kimi formalaşdırmağa çalışdığı Kollektiv Təhlükəsizlik Müqaviləsinə üzvlükdə heç bir referendum şərtini qoymamışdır). Rusiya Ukraynanın Gürcüstanı "beşgünlük müharibə" vaxtı və,ümumiyyətlə, hərtərəfli dəstəkləməsindən və, ələlxüsus da, ona silah -hərbi sursat satmasından xeyli qayğılanmışdır. Dövlətlərarası diplomatik əlaqələrdə hətta "səfir qalmaqalı" yaranmışdır. Rusiya prezidenti Ukraynada yeni səfir vəzifəsinə təyin olunan M.Zurabovun Kiyevdə fəaliyyətə başlamasını təxirə salmışdır.

Azərbaycan-Ukrayna strateji əməkdaşlığının yaranması və inkişafında dövlət başçılarının qarşılıqlı səfərləri (1992, 1995, 1997, 2000, 2005, 2009 və s.) əvəzsiz rol oynayır. AR ilə Moldova arasında dostluq və əməkdaşlıq haqqında Bakıda 1997-ci il noyabrın 27-də imzalanan müqavilə qarşılıqlı normal münasibətlərə təsirli yardım göstərdi. İ.Əliyevin MDB sammitində iştirak üçün getdiyi Kişinyovda Moldova rəsmiləri ilə apardığı ikitərəfli danışıqlar (X.2009) faydalı oldu. Ölkəmizin **Baltikyanı postsovet respublikaları** ilə əlaqələri əsasən iqtisadi-ticarət və elmi-mədəni sahələrdə əməkdaşlığı ehtiva edir.

Qarşılıqlı əlverişli münasibətlərdə həmin dövlətlərdəki azərbaycanlı icmalarının da xüsusi yeri vardır. Latviya prezidenti V.Zatlersin AR-ə səfəri zamanı (VIII.2009) Azərbaycanla əlaqələrin inkişafının yaxşı perspektivlərə malik olması vurğulanmışdır. Çoxlu latviyalı və azərbaycanlı iş adamının iştirakı ilə keçirilən biznes-forum, prezidentin ölkəmizin bir sıra bölgələrinə işgüzar səfəri və digər tədbirlərin dövlətlərarası iqtisadi-mədəni əlaqələrin inkişafına təkan verəcəyi şəksizdir.

MDB-nin gələcəyinə dair baxışlar və mövqelər

Postsovet-MDB məkanında dövlətlərarası münasibətlər perspektivləri və Azərbaycanın onda iştirakının gələcəyinə dair məsələlərin təhlilini yekunlaşdırarkən aşağıdakı məqamlar vurğulana bilər:

1-cisi, postsovet məkanı dövlətləri və xalqlarının böyük əksəriyyəti Rusiyanın asılılığı və təsirindən həmişəlik qurtulmaqda maraqlı və israrlıdırlar.

2-cisi, imperiya təfəkkürlü, iddialı Rusiya özünün nüfuz dairələrini itirməklə əsla razılaşmır və bir çox regionlardan, o cümlədən də Qafqazdan birdəfəlik çıxmaq istəmir. Ancaq onun çarlıq Rusiyasının və SSRİ-nin hüdudlarını bərpa edə bilməsi böyük ehtimalla mümkünsüzdür.

3-cüsü, Rusiyanın Qafqazı yenidən və tam olaraq özünün nəzarətinə götürə bilməsinin aparıcı xətlərindən biri Azərbaycandan keçir. O habelə ölkəmizin zəngin karbohidrogen və digər ehtiyatlarından əvvəlkitək faydalanmağa inadla çalışır.

4-cüsü, bu və digər səbəblərdən Kreml var gücü ilə Azərbaycanı da öz təsir dairəsində saxlamağa çalışır. Buna görə də **AR-in MDB-də "ilişib qalması"**na səylər göstərir və hətta onu Kollektiv Təhlükəsizlik Müqaviləsinə (KTM-ə) sürükləməyə cəhdlər edir. Rusiyanın Müdafiə naziri A.Serdyukovun Bakıya səfəri (VIII.2009) və Qəbələ RLS-i "ziyarət" etməsi də

bunlardan xəbər verir.

5-cisi, MDB-yə gəldikdə isə bir sıra analitik və ekspertlər onun perspektivsizliyi qənaətindədirlər. MDB ilə bağlı bunları görməmək mümkünsüzdür:

- **Gürcüstan** artıq təşkilatı tərk etmişdir və regionda Qərbin hərbi bazasıdır;
- **Türkmənistan** özünün neytrallığını elan edərək Birliyin "fəaliyyəti"ndə iştiraka bir o qədər də həvəs göstərmir;
- **Qazaxıstan** ölkəiçi problemləri ("rus əhalisi amili" və s.) üzündən MDB-ni "yola verir";
- **Azərbaycan və Moldova** Rusiyanın "desantları", yəni Kremlin həmin ölkələrə sırıdığı etnosiyasi münaqişələr və s. ucbatından MDB-yə "dözürlər";
- Orta Asiya dövlətləri təşkilatda "baş girələməyə məhkumdurlar".
- Ukraynanı da artıq MDB-nin üzvü saymamaq mümkündür Rəsmi Moskvanın SSRİ-nin başqa formada bərpasında böyük ümidlər bəslədiyi Ukraynanın da Gürcüstanın ardınca qurumdan çıxması gözlənilməndir. D.Medvedyevin V.Yuşşenkonun hakimiyyətdə qalacağı müddətdə Kiyevə səfir göndərilməyəcəyi şərti Ukrayna prezidentinin bir daha MDB sammitlərinə qatılmamaq qərarı ilə cavablandırılmışdır. Bununla da MDB üzvlərinin sayının 10-a düşməsi ehtimal olunur. Rusiyalı analitiklərə görə, Ukrayna formal da olsa təşkilatda qalacaqdır.(Sözgəlişi, Kreml Ukrayna və Gürcüstanda hakimiyyət dəyişikliklərinə müəlliflik etməklə birincini MDB-də saxlamağa, ikincinisə ona qaytarmağa çalışacaqdır);
- Kremlin qurumla əlaqədar başlıca ümidi **Ermənistana və Belarusa** qalmışdır. Onlar da son vaxtlar bir sıra məsələlərdə Rusiya ilə məsafə saxlayır və ondan "gen gəzirlər".

MDB-nin elə yaranmasından başlanan çöküşünü onun bəzi **son "toplantıları"** da təsdiqləyir. Belə ki, Rusiya prezidentinin MDB-yə üzv dövlətlərin başçılarının at yarışına

baxmaq adı altında keçirmək istədiyi qeyri-formal sammit baş tutmadı. Moskvada 2009-cu ilin iyulunda keçirilən at yarışına MDB-nin üzvü olan ölkələrdən cəmi 6 dövlətin başçıları, **"oyuncaq liderlər"**-abxaz S.Baqapş və osetin E.Kokoyta, habelə Çeçenistan "prezidenti" R.Kadırov da tamaşaçılar arasında olmuşlar (Sözgəlişi, bu yarışın ümumi mükafat fondu 7 mln. rubl idi. R.Kadırovun 11, Azərbaycanınsa "Leyk Post" ləqəbli atının və b. iştirak etdikləri bu yarışda Rusiyanın "Monomax" adlı ayğırı qalib gəlibdir).

Moskva ippodromundakı at yarışında aparılan "Atüstü müzakirələr"ə qatılmayan dövlət başçılarının müvafiq dəvətə müsbət cavab verməmələri üzdə **müxtəlif maraqlı və gülməli "izahlar"**la əsaslandırılıbdır. Belə ki, Belarus prezidentinin (A.Lukaşenkonun) "atlarla arası olmaması", Türkmənistanın dövlət başçısının "qohumunun xəstəliyi", Qırğızıstanda Q.Bakiyevin "başının prezident seçkilərinə qarışması", bundan öncə MDB-nin Sank-Peterburqda keçirilən iqtisadi forumuna da qatılmayan Ukrayna liderininsə "Karpat dağlarına qalxması" nəzərə alınıbdır. (Özbəkistan rəhbərliyi isə heç izahat da verməyibdir). Əslində isə bu, **"diplomatik demarşlar"ın alt qatda başqa səbəbləri** olmuşdur:

- **A.Lukaşenkonun** bundan əvvəl KTMT-nin sammitini də boykot etməsi Moskva ilə Minsk arasında son vaxtlarda yaşanan gərginliklə əlaqələndirilir. Belə ki, dünya maliyyə böhranını ötüşdürmək üçün Rusiyadan kredit ala bilməyən Belarus prezidenti Qərbin yardımını qəbul etməyə məcbur olmuşdu;
- **Q.Berdımuhammedovun** "at yarışına baxmaqdan vaz keçməsi" Rusiyadan asılılığı azaltmaqda və "Nabucco"ya qoşulmaqda maraqlı olan Türkmənistanın Kremlin təzyiqi ilə üzləşməsindən irəli gəlmişdi;
- **Q.Bakiyev** "ev işləri" ilə məşğul olmağa, yəni prezident seçkilərinə hazırlaşmağa üstünlük vermişdi;
- **V.Yuşşenko** Ukrayna ilə Rusiya arasında kifayət qədər

problemlərin olduğu bir şəraitdə ikitərəfli görüş və müzakirələrə yetərincə vaxt ayrılmadığından ümumi söhbətlərəsadəcə at yarışına tamaşaya lüzum görməmişdi;
- **İ.Kərimov** isə Rusiyanın Mərkəzi Asiyada hərbi bazalar yaratmaq planlarının doğurduğu rahatsızlığı biruzə vermişdi.

Prezidentlərin bu **"tamaşa-toplantısı"** müddətində **iki(üç)tərəfli müzakirələr** də aparılıbdır. (Azərbaycan və Ermənistan dövlət başçılarının öncə ikilikdə, sonra da Rusiya prezidentinin iştirakı ilə keçirilən **"ziyafət diplomatiyası" şəraitindəki "Qarabağ müzakirələri"**ndən 2-ci bölümdə bəhs olunur). Belə ki, D.Medvedyevlə N.Nazarbayev MDB-nin Gömrük İttifaqının yaradılması, "Böyük səkkizləri"in sammiti və B.Obamanın Rusiyaya səfəri ilə əlaqədar məsələləri nəzərdən keçiriblər.

MDB-nin **Kişinyov Zirvə toplantısı** (X.2009) da müxtəlif **elmi-siyasi rəylər** yaratmışdır. Bəzilərinin "tələsik qərarıhökmü", digərlərinin isə real yanaşması kimi səciyyələndirilən həmin rəylərin **başlıca xülasə-tezisləri** isə bunlardır: MDB "ölməkdə olan qoca qarı" (Moldova parlamentinin spikeri M.Qimpu), "Orta Asiyasız birlik", "Ölü təşkilat" və s. kimi dəyərləndirilir. Kişinyov sammiti "MDB-nin dəfn mərasimi" də adlandırılır.

"Yarımçıq sammit" kimi də qiymətləndirilən bu toplantıda Rusiyanın KTMT-dəki 4 orta asiyalı tərəfdaşının iştirak etməməsi diqqətdən yayınmayıbdır. Sammitə Orta Asiyadan təkcə son vaxtlar Rusiya ilə yaxınlaşan Qırğızıstan prezidenti K.Bakiyev qatılıbdır. Onun da başlıca məqsədi Kişinyovda D.Medvedyevlə ikitərəfli görüş keçirməkdən ibarət olubdur. Əslində Rusiya ilə Qırğızıstan arasında da müəyyən qarşılıqlı inciklik vardır: birinci vəd etdiyi 1,7 mlrd. dollarlıq krediti vaxtında ayırmır; ikinci də Kremlin ölkədəki ABŞ hərbi bazasını birdəfəlik bağlamaq tələbinə əməl etmir.

Sammitdə **təmsil olunmayan dövlətlərin mövqelərinə** gəldikdə isə:

- **Qazaxıstan** Rusiyanın ÜTT-yə Belarusla birlikdə daxil olmaq niyyəti və qərarından inciyibdir;
- **Tacikistan** Kremldən gözlədiyi iqtisadi yardımı ala bilmədiyindən rahatsızdır;
- **Özbəkistan** Rusiyanın Orta Asiyada hərbi iştirakını (potensialını) gücləndirmək xəttinə etirazını davam etdirir;
- **Türkmənistan** özünün enerji siyasətinin "Qazprom" tərəfindən vaxtaşırı əngəllənməsinə narazılığını göstərir;
- **Ukrayna** Rusiya rəhbərliyi ilə yalnız ikitərəfli danışıqlarda maraqlıdır. D.Medvedyevin "V.Yuşşenko Rusiyaya qarşı düşmənçilik siyasəti yürütdüyündən onunla bir daha münasibətlər qurmayacağı"na dair bəyanatı ikitərəfli təmaslara imkan vermir.

Zirvə görüşündə **iştirak edən prezidentlərin başçılıq etdiyi ölkələrdənsə:**

- **Azərbaycanla Ermənistan** aralarındakı münaqişənin nizamlanmasının xeyli dərəcədə Kremlin siyasətindən asılılığının fərqindədirlər. (Bu məsələ 2-ci bölümdə təhlil edilir);
- **Belarus** prezidenti sammitə qatılsa da, onun D.Medvedyevlə ikitərəfli görüşü keçirilməyibdir. Qərbli ekspertlərin qənaətinə görə, hazırda Belarus "yeddi millik addımlarla Avropaya doğru gedir";
- **Moldova** uzun müddətdir ki, "Rusiya-ABŞ seçimi"ndə tərəddüd (manevr) etsə də, onun əsasən Qərbyönümlü koalisiya kimi tanınan hazırkı iqtidarı MDB-yə üzv dövlətlərin ünvanlı iqtisadi yardımlarına ehtiyac duyur. Hazırda parlamentdə ölkə prezidentini kommunistlərin dəstəyi olmadan seçə bilməyən koalisiya qüvvələrinin hakimiyyəti "ölmək üzrə olan qoca qarı"nın, yəni MDB-nin ölkələri ilə sıx əlaqələrin-iqtisadi əməkdaşlığın yeni mexanizmlərinə üstünlük verilməsinin tərəfdarıdır və birlikdən çıxmağa müsbət yanaşmır. Sammitin keçirilməsini **"vəzifə borcu"** sayan Moldova (MDB-nin o vaxtkı sədri) rəhbərliyi Kremlin başçısı ilə görüşdə Rusiya qoşunlarının Dnestryanı bölgədən çıxarılması məsələsini də

qaldırıbdır.

Belə bir, yetərincə mürəkkəb, şəraitdə MDB-nin perspektivi (taleyi) ilə bağlı məsələlər yenidən gündəmi zəbt etmişdir. Alman diplomatı A.Rarın qənaətinə görə, artıq təkcə Qərbyönümlü respublikaların deyil, habelə Rusiyanın KTMT-dəki əsas hərbi-siyasi tərəfdaşlarının iştirak etmədikləri halda **"bu təşkilatın sammiti barədə yox, dəfni haqqında danışmaq olar".**

Sammit ərəfəsində bəzi analitiklər MDB-nin artıq tam "ölü təşkilat"a çevrildiyini əsas gətirərək onun buraxılmasının vaxtının çatdığını (hətta keçdiyini) söyləmişdilər. Onlar belə hesab edirlər ki, "MDB-ni diriltmək" üçün vaxtaşırı göstərilən çoxsaylı səylər nəticə verməyibdir. Yəni Birlikdaxili inteqrasiya təşəbbüsləri, vahid iqtisadi-gömrük zonası ideyası və s. özünü doğrultmayıbdır. Moskvadakı Karneği mərkəzinin ekspertləri hətta D.Medvedyevin sammiti təxirə salmasını daha yaxşı variant saymışdılar. (Ancaq sammitin keçirilməsi MDB-nin hazırkı sədri Moldovanın səllahiyyəti-"vəzifə borcu" olduğundan onun təxirə salınması mümkün deyildi).

MDB-dəki çağdaş durumun Kremli də əsla qane etmədiyi bəllidir. Rusiyalı diplomatların sırasında da indiki vəziyyətlə razılaşmağı və yeni regional inteqrasiya modelləri axtarışını məqbul sayanlar çoxdur. Bəziləri isə **"MDB-nin dəfni"nə tələsməməyi** məsləhət bilirlər. Onların fikrincə, Birliyə daxil olan ölkələrin Rusiya ilə müəyyən iqtisadi-humanitar bağlılığı təşkilatın hələ bir müddət də qalacağını söyləməyə əsas verir: "MDB o vaxt öləcək ki, bu barədə Moskva elan edəcəkdir".

Bunu MDB-nin "yarımcan" Almatı sammiti (XII.2009) də təsdiqlədi. Bu toplantıya Azərbaycan, Ukrayna və Özbəkistan prezidentləri qatılmayıblar. Sammitdə təhlükəsizlik məsələləri və iqtisadi inteqrasiya modellərinin müzakirələri aparılıbdır. D.Medvedyev qış kurort kompleksində keçirilən toplantıda MDB-nin qeyri-formal görüşlərinin ənənə halını aldığını vurğulayıbdır (Bu dəyərləndirmə "özünə təskinlik vermə" və

təşkilatın yararsızlığını pərdələmək səyi kimi də başa düşülə bilər).

Ermənistan və Tacikistan prezidentləri daha çox təhlükəsizlik məsələləri üzərində dayanıblar. S.Sərkisyan KTMT çərçivəsində zəifləyən hərbi-texniki əməkdaşlığın qüvvətləndirilməsini istəyibdir. İ.Rahmonun rahatsızlığı isə qonşu Əfqanıstanda vəziyyətin gərginləşməsi və ölkəyə tiryək axınının artması ilə əlaqələndirilir. D.Medvedyev, A.Lukaşenko və N.Nazarbayev **üç ölkə arasında iki il ərzində vahid iqtisadi məkanın yaradılmasına** dair bəyanatla çıxış ediblər. Bu yöndə öncəliklə 2010-cu il yanvarın 1-dən onlar arasında vahid gömrük tariflərinin tətbiqi və iyuldan etibarən isə Rusiya-Belarus sərhədlərində gömrük nəzarətinin tamamilə ləğvi nəzərdə tutulur.

Sammiti dəyərləndirən ekspertlər bu cür inteqrasiya modellərinin əslində SSRİ-nin yeni (başqa) formada bərpasına xidmət etdiyi qənaətindədirlər. Rusiya-Belarus İttifaqının prezidenti P.Borodin üç dövlətin öz aralarındakı gömrük nəzarətini ləğv etməsinə **"misli olmayan inteqrasiya modeli"** kimi yanaşır. Onun fikrincə, gələcəkdə Ukrayna, Gürcüstan və digər dövlətlər də vahid iqtisadi məkana qoşulacaqlar. P.Borodin habelə Rusiyadakı Oktyabr sosialist inqilabının 100 illiyinin tamam olduğu **2017-ci ildə SSRİ-nin hansısa formada bərpasına əminliyini** də ifadə edibdir. Bütün bu kimi təbliğati-ideoloji və s. səciyyəli proqnozlara baxmayaraq MDB-nin süqutu prosesi çoxdan gözönündədir.

6-cısı, KTM də özünü doğrultmur. Belə ki, tam formalaşmadığı bir halda **onda da çatlar əmələ gəlibdir**. Kremlin MDB üzvlərindən NATO-ya alternativ hərbi alyans (Varşava Müqaviləsi Təşkilatı kimi) yaratmaq və bu niyyətlə də ilkin olaraq KTM-in ordusunu (çevik qüvvələr adı altında) təşkil etmək, habelə Qırğızıstan və s. respublikalarda hərbi baza qurmaq planları bəyənilmir. KTM-ə daxil olan ölkələrin, yəni Rusiya, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistanın Bişkekdə keçirilən (VII.2009) qeyri-formal sammiti də bunları bir daha təsdiqləmiş oldu.

Rusiyanın ssenarisinə uyğun olaraq KTMT hətta BMT-yə müraciət edərək rəsmən tanınmaq və habelə NATO ilə rəsmi münasibətlər qurmaq istəyini açıqlayıbdır. KTMT-nin xüsusi qərarı (4.II.2009) ilə yaradılan **Kollektiv Çevik Qüvvələr** hazırda 10 batalyondan (5-i Rusiyanındır) və Kremlin Qırğızıstandakı "Kant" hərbi bazasından ibarətdir. Bu qüvvələrin yaradılması barədəki müqaviləyə əsasən onlar KTMT-ə üzv ölkələrin ərazi bütövlüyünü, suverenliyini və təhlükəsizliyini təmin etməlidir. Dinc dövrdə onlar öz dövlətlərindəki dislokasiya yerlərində yerləşirlər. Əlahiddə-fövqəladə şəraitdə isə KTMT üzvlərinin prezidentlərinin qərarı ilə onlardan istifadə oluna bilər.

Kremlin KTMT-ni NATO-ya qarşı hərbi alyans kimi formalaşdırmaq və onun çevik qüvvələrinə beynəlxalq status almaq səyləri hələlik elə bir əməli nəticə verməyibdir. KTMT beynəlxalq aləmdə ciddi hərbi blok kimi qəbul olunmur. Həmçinin KTMT üzvləri də vaxtaşırı Rusiyanın məqsədlərinin əksinə hərəkət edirlər. Bunu Özbəkistan və Belarus prezidentlərinin Çevik Reaksiya Qüvvələrinin oktyabrda keçirilən **"Qarşılıqlı təsir-2009" adlı təlimlərinə** qatılmamasından da sezmək olur. (Təlimlərdə əsasən Rusiya hərbi kontingenti rus generalının komandanlığı ilə iştirak edibdir. Ermənistandan 105, Tacikistandan isə cəmi 3 hərbçi təlimlərə qatılıbdır).

Özbəkistanla Belarusun təlimlərdə iştirakdan yayınmaları onların Rusiya ilə münasibətlərdə son vaxtlarda özünü göstərən bəzi problemlərlə əlaqələndirilir. Bu məsələdə Özbəkistanın tutduğu mövqe xüsusilə maraq doğurur. Ekspertlər Kremlin Mərkəzi Asiyada iki hərbi baza (onunla sərhəddə və habelə Qırğızıstanda daha birini) yaratmaq planından Özbəkistanın rahatsız olduğunu önə çəkirlər. Bununla regionda hərbi balansın pozula biləcəyini iddia edən Özbəkistan KTMT-də fəaliyyətini məhdudlaşdırmaqla da kifayətlənmir. Son məlumatlara görə, rəsmi Daşkənd ABŞ-ın Orta Asiyada hərbi iştirakına yenidən

şərait yaratmağa meyllidir. Yəni Ağ Evin "Əndican qırğını"nı pisləməsi üzündən ABŞ-ın oradakı hərbi bazasını ləğv etdirən Özbəkistan rəhbərliyi onun bərpasına icazə verə bilər. Bunu ABŞ Mərkəz Komandanlığının rəisi, general D.Petrensin 2009-cu ilin avqustunda Daşkənddə Özbəkistan rəhbərliyi ilə hərbi əməkdaşlıq məsələlərini müzakirə etməsinə əsasən bildirirlər.

Belarus prezidenti A.Lukaşenko təlimlərlə yanaşı hətta KTMT-nin Moskvada keçirilən sammitini (VII.2009) də boykot etmişdi. (Bu mövqenin səbəbləri az öncə açıqlanmışdır).

7-cisi, belə bir şəraitdə Rusiya MDB və KTM ilə bağlı Ukrayna və Gürcüstanla yanaşı Azərbaycana da vaxtaşırı təzyiqlər edir. Moskvadakı MDB institutu Qafqaz şöbəsinin müdiri, ermənipərəst politoloq M.Aleksandrov Rusiyanın dövlət siyasətini ifadə edən açıqlamasında (V.2009) **Azərbaycana "özünü sakit aparmağı və MDB-də qayığı yırğalamamağı"** məsləhət bilmişdir. O habelə belə bir xəbərdarlıq etmişdir ki, Azərbaycan Qarabağda hərbi əməliyyatlara başlasa, KTM-in yaranmaqda olan çevik qüvvələri bunun qarşısını alacaqdır.

Vaxtılə Kremlin siyasi texnoloqu olan M.Kolerovun rəhbərlik etdiyi "Regnum" informasiya agentliyinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Birləşmiş Qərargahına istinadən yaydığı (VIII.2009) məlumata görə, Rusiya Krasnodar vilayətinin Daqomıs məntəqəsində **(Dağıstanda) – Azərbaycanla həmsərhəd ərazilərində Ermənistanın (?! – İ.M.) iki hərbi bazasının qurulmasına** şərait yaradacaqdır (Burada söhbət KTMT üzvlərinin Kollektiv Çevik Qüvvələrin təşkilinə dair qərarına (4.II.2009) əsasən dünya nəqliyyat infrastrukturunun mühafizəsi məqsədilə məhdud hərbi kontingentin yerləşdirilməsindən gedir). Bununla da Azərbaycanın Rusiya ilə birbaşa quru nəqliyyatı vasitəsilə əlaqəsi erməni silahlı qüvvələrinin nəzarətinə verilərək adları çəkilən bölgələrdən keçmiş olacaqdır. Bu isə AR ilə RF arasındakı strateji tərəfdaşlıq sazişinə (VII.2008) ziddir. Çünki həmin saziş tərəflərdən birinin öz ərazisindən digərinə qarşı istifadəyə yol verilməməsini nəzərdə

tutur. Erməni təəssübkeşliyi aydın hiss olunan agentlik məlumat verir ki, həm də bu sövdələşmənin baş tutacağı halda Rusiya öz satellitinin "ərazisin"də daha bir hərbi baza yarada bilər.

Hələlik Kremlin və rəsmi İrəvanın hərbi-diplomatik qurumları (çevrələri) tərəfindən şərh olunmayan bu məlumatlar hərbi ekspertlər tərəfindən ciddiyə alınmır və dezinformasiyadan daha çox Azərbaycana qarşı psixoloji təzyiq vasitəsi kimi səciyyələndirilir. Ekspertlərin bəziləri isə belə hesab edirlər ki, **Şimali Qafqazda "qurulacaq erməni hərbi bazaları"** daha çox təxribat, terror və casusluq mərkəzləri kimi fəaliyyət göstərə bilərlər. Erməni tərəfinin bununla həm də Azərbaycanın-Dağıstanla sıx iqtisadi və digər əlaqələr saxlayan-azsaylı xalqlarından istifadə edə bilməsi ehtimal olunur. Rusiyanın Şimali Qafqazda və Dağıstanda erməni hərbi bazaları yaratmaqda güddüyü **konkret niyyətlərə** gəldikdə isə bunlar önə çəkilir: **1)** Şimali Qafqazda yerli xalqlarla hərtərəfli əlaqələr quran çoxsaylı erməni diasporasından Azərbaycanda yaşayan azsaylı xalqları dövlətimizə qarşı qaldırmaq üçün istifadə olunması. Ölkəmizdə yaşayan azsaylı xalqların bəzi separatçı "təmsilçiləri"nin ermənilərin təhriki və dəstəyi ilə 2009-cu ildə Moskvada yaratdıqları "Azərbaycanda antiTuran Hərəkatı" və s. buna misal ola bilər. "Federal Azərbaycan" planını həyata keçirməyə çalışan həmin təşkilat və onun Rusiyadakı himayədarları AR-ə qarşı pozuculuq fəaliyyətləri ilə məşğuldurlar. **2)** Rusiyaya qarşı Şimali Qafqazda vuruşan silahlı dəstələrin tərkibindəki Azərbaycan vətəndaşlarının ermənilər vasitəsilə ölkəmizin əleyhinə yönəldilməsi.

Bu məqam da çox maraqlıdır ki, Ermənistan son vaxtlarda (XII.2009) **"KTMT üzrə müttəfiqlərimiz Azərbaycanla separat hərbi əməkdaşlıq edir" kimi irad-ittihamlar** səsləndirir. Burada Rusiya və Azərbaycan Müdafiə nazirlərinin iki dövlət arasında 2010-cu ildə hərbi-texniki əməkdaşlıq barədə saziş bağlamalarına və birlikdə Peterburq hərbi dairəsinə baş çəkmələrinə işarə olunur. Ermənistan rəsmilərinə görə, "hərbi

mütəffiqimiz olan dövlət bizə qarşı daima davakar bəyanatlar səsləndirən ölkə ilə ayrıca hərbi əməkdaşlıq edə bilməz". Bu, Ermənistanın Rusiya-Azərbaycan hərbi əməkdaşlığına belə açıq şəkildə ilk rəsmi etirazıdır. İrəvanın rahatsızlığının başlıca mənbəyini isə son zamanlar intensivləşən çoxyönlü Moskva-Bakı təmasları prosesində Azərbaycanın Qarabağda uğurla lokal hərbi əməliyyatlar aparmağa Rusiyanın razılıq verməsinə (neytral qalmasına) çalışması ehtimalı təşkil edir.

8-cisi, Gürcüstanın Rusiyanın təcavüzünə etiraz olaraq MDB-dən çıxması Azərbaycanın elmi və siyasi dairələrində onun qurumdakı üzvlüyü ilə bağlı davam edən diskussiyaları yenidən və bu dəfə **"Gürcüstan nümunəsi"** ətrafında qızışdırmışdır. Mövqelərdəki əvvəlki **haçalanma** yenə də qalmaqdadır: bir sıra ekspertlər ölkəmizin MDB-yə üzvlüyünə və ona münasibətinə AR-in Rusiya siyasətinin bir istiqaməti (hissəsi) kimi yanaşırlar. Onlar belə hesab edirlər ki, Rusiya da MDB vasitəsilə Azərbaycanı qaytarmağa, ən azı orada nüfuzunu bərpa etməyə və mövqelərini möhkəmləndirməyə çalışır. Politoloq İ.Məmmədov və b. qənaətincə, Kreml "Dağlıq Qarabağ problemi"nin ədalətli həllinə yardım göstərməyib bunu əngəlləyərsə, Azərbaycan işğalçı Ermənistanla bir təşkilatda olmağın qeyri-mümkünlüyünə əsaslanaraq MDB-dən çıxmaq üçün addımlar atmalıdır;

a) müəyyən fərqli mövqe tutan bəzi politoloqlar da MDB-nin tezliklə dağılacağına şübhə etmirlər. Ancaq Azərbaycanla Gürcüstanın eyni şəraitdə olmadıqlarını əsas götürərək MDB-yə münasibətdə fərqli hərəkət və addımları mümkün sayırlar. Z.Əlizadəyə görə, MDB (yəni Rusiya-İ.M.) zorakılıq siyasəti ilə özünü məhv edib və Kremlin təcavüzü üzündən Gürcüstanın onun tərkibində itirməyə daha heç nəyi qalmayıbdır. Onun fikrincə, rəsmi Tiflisin MDB ilə vidalaşması qurumun dağılmasına-siyasi ölümünə doğru daha bir ciddi addım olacaqdır. V.Quluzadənin qənaətləri isə bunlardan ibarətdir: MDB əslində yoxdur və o çoxdan çökübdür; Gürcüstanın bu təşkilatdan çıxması onun Rusiya ilə toqquşmasının (2008-ci ildəki müharibənin) və hazırda Kremllə heç bir əlaqəsinin olmamasının nəticəsidir və həm də rəsmi Tiflis haqlıdır; Azərbaycan MDB-dən çıxmaqla heç nə itirmir, orada qalmaqla da heç nə uduzmur; varlığı ilə yoxluğu bilinməyən həmin təşkilatdan ölkəmizin hansısa bəhanəylə və nümayişkaranə çıxmasına ehtiyac yoxdur, çünki, bu Rusiyada onun əleyhinə hərəkət kimi təbliğ oluna bilər; AR təmkinli siyasət yeridib Rusiyanın süqutunu gözləməlidir; Azərbaycanın təzyiqlər yolu ilə KTM-ə üzv edilməsi mümkün deyil. Belə ki, rəsmi Bakının yazılı şərtinə əsasən Azərbaycan torpaqları Ermənistanın işğalından azad edilməyənədək o, KTM-ə qoşula bilməz. (Sözgəlişi, bəzi deputatlar 2009-cu ilin payızında AR parlamentində bununla bağlı müəyyən fikirlər səsləndiriblər: Rusiya AR-in Dağlıq Qarabağ üzərində suverenliyini tanıyarsa, onda Azərbaycan KTMT-yə daxil olmağa, sərhədləri də birgə qorumağa razılaşar və hətta Kreml ölkəmizdə hərbi baza qura bilər).

9-cusu, Azərbaycan GUAM-da səmərəli fəaliyyətlə, MDB dövlətləriylə (ələlxüsus da, Rusiya ilə), Baltikyanı ölkələrlə birbaşa qarşılıqlı faydalı əlaqələrlə postsovet məkanındakı beynəlxalq münasibətlərdə iştiraka üstünlük verir və buna da çalışır.

ALTINCI BÖLÜM

AZƏRBAYCANIN TÜRK DÜNYASINA İNTEQRASİYASI PROSESİ

Sovetlər İttifaqının süqutu ilə Avrasiya geosiyasi məkanında yeni beynəlxalq şərait yarandı. Onun başlıca və önəmli səciyyəvi cəhətlərindən birini də bəzi türk dövlətlərinin bərpası və türk topluluqları arasında sıx əlaqələr qurulması imkanının qazanılması təşkil edir.

Türk dünyası çox böyük bir coğrafiyanı (geniş əraziləri) əhatə etməklə yetərincə güclü iqtisadi potensiala, karbohidrogen ehtiyatlarına, insan kapitalına və yüksək elmi-mədəni inkişafa (irsə) malikdir. Onun əhatə etdiyi ərazi təxminən 11 mln.km^2 olmaqla üç Avropaya bərabərdir. Hazırda türk dünyası təxminən 300 milyona yaxın insanı əhatə edir. Minilliklərin qovuşuğunda 6 türk dövləti (Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan) dünya üzrə ümumi daxili məhsulun 1,44 faizini, sənaye məhsulununsa 1,29%-ni istehsal edirdi. Yer kürəsinin 45 mln.km^2-lik neftli-qazlı sahəsinin 6,6%-i (o cümlədən də 23113,3 mln.ton neft) həmin ölkələrin payına düşür. Bütün bu və digər imkanlar türk dünyası daxili inteqrasiya üçün əlverişli özül ola bilər.

Mustafa Kamal Atatürk vaxtılə SSRİ-nin gələcəyinə (çökəcəyinə) və **postsovet ümumtürk həmrəyliyinə dair çox əsaslı mülahizələr söyləmiş, özünü yetərincə doğruldan proqnozlar** vermişdi. O, Türkiyə Cümhuriyyətinin 10 illiyi ilə əlaqədar söylədiyi **nitqində (X.1933)** gələcəyə aid **müfəssəl bir proqram** irəli sürmüşdü. Həmin proqram səciyyəli nitqdə vuqğulanan **başlıca və prinsipial müddəalar** tezisvarı belə ifadə oluna bilər:

- bu gün Sovetlər Birliyi dostumuz, qonşumuz, müttəfiqimizdir və bu dostluğa ehtiyacımız vardır;

- fəqət sabah nə olacağını kimsə deyə bilməz. O da Osmanlı, Avstriya-Macarıstan kimi parçalana, kiçilə bilər və indi əlində möhkəm tutduğu millətlər ovuclarından qaça bilərlər. Dünya yeni bir düzən ala bilər;
- Türkiyə bu zaman nə edəcəyini bilməlidir. (Sözgəlişi, Böyük Atatürkün tarixi öngörmə-xəbərdarlığına baxmayaraq Türkiyə göstərilən beynəlxalq köklü dəyişikliklərə, xüsusilə də SSRİ-nin dağılması kimi yeni şəraitə tam hazır görünmədi). Bu dostumuzun idarəsində dili, inancı, özü (kökü) bir qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq;
- hazır olmaq, susub yalnız o günü gözləmək deyildir. Mənəvi körpüləri möhkəm (əsas) tutaraq hazırlanmaq lazımdır. Dil, inanc və tarixsə bu körpülərdir;
- **köklərimizə enməli və olayların böldüyü tariximizin içində bütövləşməliyik.** (Seçdirmə bizimdir-İ.M.);
- onların (Türkiyə xaricindəkilərin) bizə yaxınlaşmasını gözləməməliyik. Bizim onlara yaxınlaşmağımız gərəkdir.

Çağdaş dünyada gedən qloballaşma və inteqrasiya prosesləri sırasında türk dünyasıdaxili işbirliyinə və həmrəyliyə nail olunması tarixi zərurətdir. **Türk dünyasıdaxili inteqrasiyanı şərtləndirən** amillərdən dünya birliyinə qovuşma, Avrasiya məkanında sülh və sabitlik, enerji təhlükəsizliyi, tarixi-milli köklərə qayıdış, siyasi-mənəvi birlik, qarşılıqlı iqtisadi tərəqqi, mədəni yüksəliş xüsusilə qeyd olunmalıdır.

Türk dövlətləri və topluluqlarının **inteqrasiyasına rəvac və təkan verən vasitələr** arasında dövlət başçılarının Zirvə toplantıları və türk xalqlarının ənənəvi illik "Dostluq, qardaşlıq və işbirliyi" qurultayları özünəməxsus yer tutur. Zirvə toplantıları əsasən türk dövlətlərinin müstəqilliklərinin möhkəmləndirilməsi, beynəlxalq və regional təhlükəsizlik, iqtisadi-mənəvi inteqrasiyanın aparıcı xətləri, prinsipləri və s. müəyyənləşdirilməsinə, onların gerçəkləşdirilməsi yolundakı əngəllərin aradan qaldırılmasına, bu sahədəki fəaliyyətin təkmilləşdirilməsinə xidmət edir.Sammitlərlə bağlı müstəqilliyə, suverenliyə, ərazi

bütövlüyünə hörmət və bir-birinin daxili işlərinə qarışmamaq, habelə bərabərhüquqluluq və s. prinsiplər əsas tutulur.

Türk dövlət başçılarının Zirvə görüşləri

Zirvə toplantılarının keçirilməsi təşəbbüsü S.Dəmirələ məxsusdur. O, Türkiyənin Baş naziri statusunda Azərbaycana və Orta Asiyaya rəsmi turnesi zamanı (V.1992) belə bir təşəbbüslə çıxış etmişdi. Azərbaycan rəhbərliyi (Ə.Elçibəy) bu təklifi dəstəkləmişdi və respublikamız Zirvə toplantılarının fəal, daimi iştirakçılarındandır. 2010-cu ilədək olan müddətdə 9 sammit keçirilmişdir.

I Zirvə toplantısı (Ankara, X.1992) aşağıdakı məqamlarıyla diqqəti çəkir:

1. Prezidentlər öncə (29.X.1992) Türkiyə Cümhuriyyətinin yaradılmasının 69-uncu ildönümü şənliklərində iştirak etdilər. Ə.Elçibəylə T.Özalın çoxdan gözlədikləri **ilk görüş** də məhz həmin gün (29.X.1992) baş tutdu. Sammit müddətində (30-31.X.1992) və AR prezidentinin ondan dərhal sonra (1.XI.1992) Türkiyəyə başlayan rəsmi səfərinin gedişində (2.XI.1992) bütün türk dövlətləri Ankarada öz səfirliklərini açdılar.

2. Əsasən iqtisadi əlaqələrə həsr edilən bu toplantının başlıca məqsədi həm də siyasi-mənəvi birliyin yaradılmasına çalışmaqdan ibarət idi.

3. Türk dövlətçiliyinin tarixində çox önəmli bir hadisə baş verdi, yəni 6 respublikanın (Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan) prezidentləri bu toplantı vasitəsilə **ilk dəfə** (30.X.1992) bir araya gəldilər.

4. Səmərəli müzakirələr zamanı bu kimi maraqlı və əhəmiyyətli fikirlər söylənildi və işgüzar təkliflər irəli sürüldü:

- **T.Özal** çoxtərəfli və qarşılıqlı əlaqələrin olduqca vacibliyini vurğuladı;
- **N.Nazarbayev** dövlətlərimiz arasında yaranan yaxınlaşma

prosesinin-qorxudan deyil, diplomatik nəzakət naminə-çox böyük ehtiyatla, digər ölkələrin mənafelərinə toxunmadan aparılmasını və Ankara görüşündə bütün bunların nəzərə alınmasını məsləhət bildi. (Onun mövqeyini digər prezidentlər də dəstəklədilər);

- **Ə.Elçibəy** türk dilinin (ümumi razılığa əsasən Anadolu türkcəsinin) **BMT-nin işlək dili** olması məsələsini qaldırdı. (Qazaxıstan prezidenti bu məsələnin türk ölkələrinin BMT-dəki Daimi nümayəndələrinə və XİN-lərinə həvalə olunmasını daha düzgün hesab etdi. Azərbaycan prezidenti də "Daimi nümayəndələrin dövlət başçılarından daha tez-tez görüşmələrini və bu məsələni daha asanlıqla yoluna qoya biləcəklərini" söyləyərək qazax həmkarıyla razılaşdı. Məsələnin baş diplomatların ayrıca toplantısında müzakirəyə çıxarılması qərara alındı);
- **Qazaxıstan prezidenti** həmçinin Dağlıq Qarabağ münaqişəsinin müzakirəsini məqbul saymışdı. Ancaq ölkəmizin sülhsevərliyini vurğulayan Ə.Elçibəy bunun "müsəlman-türk dövlətlərinin bir yerə yığışıb dindaşlarını müdafiə etmələri" kimi başa düşüləcəyini (qəbul ediləcəyini) bildirərək həmin müzakirənin əleyhinə olmuşdu (Buna baxmayaraq sammitdə o barədə müəyyən fikir mübadiləsi edilmişdi).

5. Yekun — "Ankara Bəyannaməsi"nin qəbulu dövlətlərimiz arasındakı əlaqələrin inkişafı yolunda mühüm irəliləyiş və böyük bir addım oldu. Bununla gələcək inteqrasiyaya və növbəti Zirvə toplantılarına təkan verildi.

Növbəti sammitin 1993-cü ilin mayında Bakıda keçirilməsi razılaşdırılmışdı. Ancaq bu toplantı əvvəlcə təxirə salındı, sonra da onun vaxtı 1994-cü ilin yanvarına dəyişdirildi. Ümumiyyətlə isə, bir qədər gec baş tutdu və həm də Bakıda keçirilmədi. Buna da B.Yeltsinin həmin Zirvə toplantısının Bakıda keçirilməsinin MDB-yə üzv dövlətlərin, yəni Ermənistanla Mərkəzi Asiyanın türk respublikalarının münasibətlərini gərginləşdirə biləcəyi bəhanəsi (təzyiqi) səbəb oldu. T.Özalın

vəfatı, Rusiyanın "əsəri — 4 iyun qiyamı" və Azərbaycanın siyasi burulğana düşməsi də Bakı sammitinin alınmamasına ciddi təsir göstərdi.

Bu arada Bakı türk dünyasıdaxili inteqrasiya prosesinin aparıcı mərkəzlərindən birinə çevrilmək yönündəki səylərini artırdı. Belə ki, türk dövlətlərində bazar iqtisadiyyatına keçid və demokratik cəmiyyətin təşəkkülü problemlərinə dair **beynəlxalq Bakı Simpoziumu** keçirildi (XI.1992). Prezident Ə.Elçibəy-ABŞ və Almaniya alimlərinin, dövlət xadimləri və iş adamlarının da qatıldıqları-simpoziuma təbrik məktubunda yazırdı ki, imperiya siyasəti nəticəsində parçalanmış Türk Birliyi (dünyası) yeni mərhələyə qədəm qoymuşdur və oyanmaqda, dirçəlməkdədir; **Türk Dünyasının Qərbi ilə Şərqi arasında Azərbaycan körpü rolunu oynaya bilər.**

1992-ci ilin noyabrında Bakıda daha bir önəmli tədbir, yəni 6 türk dövlətinin və habelə Şimali Kiprlə Tatarıstanın Mədəniyyət nazirlərinin görüşü keçirildi. Burada ümumtürk tərəqqisinə-mənəvi birliyinə, xüsusilə də təhsil, elm və mədəniyyətin inkişafı sahəsində səmərəli əməkdaşlığa nail olunması məsələləri müzakirə edildi.

II Zirvə toplantısı (İstanbul, X.1994) iki(çox)tərəfli əlaqələrin səviyyəsini qənaətbəxş saydı. Həmçinin dövlətlərarası sərhədlərin zorla dəyişdirilməsinin yolverilməzliyini vurğuladı və Ermənistan-Azərbaycan münaqişəsini, Kipr, Bosniya və Herseqovina məsələlərini müzakirə etdi, Xarici İşlər nazirlərinin müvafiq məsləhətləşmələrini məsləhət bildi.

III sammit (Bişkek,VIII.1995) – Türkiyə xaricində baş tutan ilk Zirvə görüşü – Qırğızıstanda keçirildi. Dövlət başçıları öncə qırğızların "Manas" dastanının 1000 illiyinə həsr olunan-55 ölkənin təmsilçilərinin də iştirak etdikləri-şənliklərə qatıldılar. Zirvə görüşündəki müzakirələrin mərkəzində mədəni-humanitar əlaqələrin inkişafı, Xəzər neftinin dünya bazarlarına nəqli, etnosiyasi münaqişələrin nizamlanması və s. məsələlər dayanırdı. Danışıqlardan sonra **"Bişkek Bəyannaməsi"** imzalandı. Görüşsonrası mətbuat konfransında çıxış edən H.Əliyev Avrasiya məkanında reallaşmaqda olan regional (ümumtürk) əməkdaşlığının önəmini vurğuladı və başlıca diqqəti AR-in üzləşdiyi problemlərə, "nə müharibə, nə sülh" şərtinin ona yaratdığı çətinliklərə yönəltdi.

IV Zirvə toplantısına (X.1996) Özbəkistan-Daşkənd evsahibliyi etdi. Prezidentlər sammitdən əvvəl Əmir Teymurun anadan olmasının 660 illiyinə həsr edilən mərasimlərdə oldular. **Daşkənd görüşü — Bəyannaməsin**də nəzərdən keçirilən və önə çəkilən **məqamlardan** bunları vurğulamaq olar:

- Türk dövlətlərinin tarixindəki əlamətdar günlərin birlikdə qeyd edilməsi və Böyük Türk Xaqanlığının 1450 illiyinə aid birgə tədbirlər planının hazırlanması;
- TÜRKSOY təşkilatı vasitəsilə gerçəkləşdirilən mədəni-humanitar inteqrasiyanın qüvvətləndirilməsi;
- TRACECA layihəsinin həyata keçirilməsi çərçivəsində Transqafqaz dəhlizindən istifadə barədəki **Sərəxs sazişlərinə** (1996; onlar Azərbaycan, Gürcüstan, Özbəkistan və Türkmənistan arasında bağlanmışdır) Qırğızıstanla Qazaxıstanın da qoşulmalarına dair müzakirələr aparılması;
- "Şimal-Cənub" nəqliyyat dəhlizinin bir hissəsi kimi Hind okeanına çıxmaqla "Mərkəzi Asiya-Əfqanıstan-Tacikistan" yolunun yaradılmasının dəstəklənməsi;
- Türk dövlət başçılarının görüşlərinin Katibliyinin təşkilinə dair razılığa gəlinməsi və s.

V sammit (Astana,VI.1998) Zirvə toplantılarının artıq ənənəvi hala çevrilməsini və onların qəbul etdikləri bəyannamələrdəki varisliyi təqdir etdi. Bu görüşdə Ermənistan-Azərbaycan münaqişəsinin BMT TŞ-nin məlum qətnamələri və ATƏT-in "Lissabon prinsipləri"əsasında həllinin dəstəkləndiyi bildirildi. Barəsində əvvəlki sammitdə razılığa gəlinən Katibliyin yaradılması (mənzil-qərargahı Türkiyədə olmaqla) qərara alındı. Sözgəlişi, hələ 1992-ci ilin əvvəllərində Türkiyədə XİN-in Xüsusi idarəsi və bir qədər sonra isə türk cümhuriyyətləri ilə

iş üzrə Dövlət nazirliyi yaradılmışdı. Bu qurumlar türk respublikalarıyla əməkdaşlıq sahəsindəki çoxşaxəli fəaliyyəti əlaqələndirir, onların Türkiyənin dövlətçilik və diplomatiya təcrübəsindən faydalanmalarına çalışırlar.

VI Zirvə toplantısı (VI.2000), nəhayət ki, **Bakının evsahibliyi** ilə ərsəyə gəldi. Bu toplantı öncəsi paytaxtımızda qardaş dövlətlərin başçılarının iştirakıyla "Dədə Qorqud dastanı"nın 1300 illik yubileyi keçirildi. Sammitdə görülən diqqətəlayiq işlərdən birini dövlət başçılarının görüşləri sisteminin strukturlaşdırılmasına aid tədbirlər təşkil edir. **"Bakı Bəyannaməsi"**ndə isə ilk toplantıdan keçən müddətdəki fəaliyyətin uğurları və çatışmamazlıqları qeyd olundu.

VII Zirvə görüşü (İstanbul, IV.2001) də türk dövlətlərinin çoxşaxəli əməkdaşlığına ciddi təsir göstərdi. Müəyyən səbəblər üzündən bu görüşdən sonra bir xeyli müddət növbəti toplantı keçirilmədi.

VIII sammit (Antalya, VIII.2006) xeyli gec keçirilsə də, türk dünyasının üzləşdiyi çoxsaylı problemlərin həlli yollarının axtarışı baxımından diqqətçəkici oldu. Bu toplantının başlıca yekunlarından biri də Türkdilli Ölkələrin Parlament Assambleyasının yaradılmasına dair Qazaxıstanın təklifinin müzakirəsi əsasında çıxarılan qərardan ibarətdir.

IX Zirvə görüşü (Naxçıvan, X. 2009) nəticələri etibarı ilə **türk dövlətlərinin sammitlərinin ən məhsuldarı** sayılır. Sammit başlıca **məqamları** və **yekunları** cəhətdən belə səciyyələndirilə bilər:

1. Sammitdə dörd dövlət (Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan) ən yüksək səviyyədə, yəni prezidentlərlə təmsil olunmuşdular. Türkmənistan prezidenti toplantıya qatılmayaraq Naxçıvana Nazirlər Kabineti sədrinin müavini (X.Saparılıyevi) göndərmişdi. (Q.Berdımuhammedovun bu demarşı Azərbaycan-Türkmənistan münasibətlərində Xəzərlə bağlı mübahisələrdən irəli gələn soyuqluğun davam etməsi ilə yanaşı, habelə İ.Əliyevin dörd sahilyanı dövlətin başçılarının Aktaudakı toplantısından (IX.2009) sonra onun ölkəsinə səfərə gəlmək təklifini qəbul etməməsiylə izah olunur). Özbəkistansa, ümumiyyətlə, sammitə qatılmamışdı. Bunlara görə də xeyli müddət ləngiyən və, nəhayət ki, Naxçıvanda keçirilən bu Zirvə görüşünü **"yarımçıq türk sammiti"** kimi qiymətləndirənlər də olmuşdur.

2."Naxçıvan sammiti" 1992-ci ildə keçirilən ilk zirvə görüşündən ötən 17 ildə türk dövlətləri və topluluqlarının iki(çox)tərəfli əlaqələrinin və əməkdaşlığının genişlənməsində əsaslı dəyişikliklərin baş verdiyini qeyd etmişdir. Toplantının gündəliyinə iştirakçı ölkələr arasında dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi həmçinin beynəlxalq və regional problemlərlə əlaqədar məsələlər çıxarılmışdı. Müzakirələrdə türk dövlətləri arasındakı əlaqələrin və əməkdaşlığın əsas istiqamətləri (sahələri) olaraq iqtisadiyyat, mədəni-humanitar, ekoloji təhlükəsizlik, Avropa və Asiya (Avrasiya) ölkələri ilə münasibətlər, müxtəlifyönlü təhlükələrdən birgə müdafiə və s. qeyd olunmuşdur.

3. Bu Zirvə görüşü həm də türk dövlətlərinin **Azərbaycanda keçirilən ikinci sammitidir** (Birinci 2000-ci oldə Bakıda olmuşdu). IX sammitin Naxçıvanda keçirilməsi olduqca diqqətçəkici hadisə sayılır. Həmin tədbir diplomatik-siyasi baxımdan çox uğurlu gediş hesab olunur. Bununla ilk dəfə idi ki, Naxçıvan türk dövlətlərinin böyük birgə tədbirinin keçirildiyi məkana çevrilirdi. Belə bir mötəbər sammitin Naxçıvanda keçirilməsinə həm də onun beynəlxalq sənədlərlə (məsələn, Moskva və Qars müqavilələriylə) təsbit olunmuş statusunun xeyli möhkəmləndirilməsi kimi baxılır. Sammitdə bəzi sənədlərin, xüsusilə də **"Naxçıvan Bəyannaməsi"**nin qəbulu onu imzalayan dövlətlərin müəyyən öhdəlikləri, yəni tarixi türk yurdu olan bu bölgəmizin növbəti qarantı kimi çıxış etmələri anlamına da gəlir. Həmin sənədi Azərbaycan və onun tarixi tərkib hissəsi olan **Naxçıvan üçün "ikinci bir Qars müqaviləsi"** olaraq dəyərləndirən politoloji təhlillərə də rast gəlinir. Bir çox

ekspertlər ABŞ, Rusiya və Türkiyə arasında Dağlıq Qarabağla bağlı da belə bir tarixi sənədin, yəni **"Qars müqaviləsi–3-ün"** imzalanmasının vaxtının çatdığı qənaətindədirlər.

4. Bu toplantının bir özəlliyi (əhəmiyyəti) də onun **"rus-dilli türk sammitləri"** qınağı-məsxərəsini aradan götürməsi təşkil edir. Yəni bu Zirvə görüşlərinin tarixində **ilk dəfə olaraq rus dilində heç bir çıxış edilmədi.** Əcnəbi dilin sammitin danışıq dili olmaması tədbirin mahiyyətini müəyyənləşdirən hadisə (hərəkət) sayılır və türk dövlətlərinin əməkdaşlığının yeni mərhələsinin başlanmasından, başqa sözlə, onun yeni məzmun və məna kəsb etməsindən xəbər verir. Toplantı iştirakçıların öz (türk) dillərində danışmaları türk dünyasına aidiyyatın göstəricisi olaraq dəyərləndirilir.

5. Sammitdə tərəflər bir sıra müddəa və təkliflərlə çıxış etdilər:

- **İ.Əliyev** Azərbaycanın ümumtürk birliyinə dair mövqeyini açıqlayarkən bu kimi fikirləri önə çəkdi: xalqlarımızı birləşdirən müştərək tarix və eyni kök-mədəniyyət; Azərbaycanın Türkiyə ilə yeganə həmsərhəd bölgəsi **tarixi "Duz yolu"**nun da keçdiyi Naxçıvandır; əzəli torpağımız Zəngəzurun Ermənistana verilməsi ilə böyük türk dünyası coğrafi cəhətdən parçalanmışdır; türk dünyasının birləşərək bir qüvvə təki fəaliyyət göstərməsi bu gün reallıqdır və həqiqətdir; bir-birini tamamlayan və bir-birilə rəqabət aparmayan iqtisadiyyatlarımızın qüdrətli inkişafı zərurəti; səviyyəsi heç də qaneedici olmayan ticarət dövriyyəsinin genişləndirilməsinin önəmi; qarşılıqlı investisiya layihələrində iştirak; **"TÜRKSOY fondu"**nun təşkili və onun yetərli maliyyə təminatı; neft-qaz sahəsində səmərəli əməkdaşlığın əməli nəticələri, yəni bütün bölgəyə fayda gətirən **BTC neft marşrutu,** böyük uğurumuz olan və Avropa-Asiya əlaqəsi üçün strateji əhəmiyyət kəsb edən **BTƏ qaz kəməri,** inşası davam etməkdə olan **BTQ dəmir yolu;** Xəzərin karbohidrogen ehtiyatlarının nəqlində diversifikasiya prosesləri; beynəlxalq təşkilatların Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli — ölkəmizin ərazi bütövlüyünün təmin olunması sahəsindəki səylərinin nəticəsizliyi; bu "problem"in **regional əməkdaşlığı əngəlləyən ən başlıca amilə** çevrilməsi; **Türk PA-nın yaradılması** çox böyük mənası olan bir hadisədir; türkdilli ölkələr beynəlxalq müstəvidə öz mövqelərini müdafiə etmək və möhkəmləndirmək üçün bütün imkanlara (əlverişli coğrafi yerləşmə, güclü iqtisadiyyatlar, zəngin neft-qaz qaynaqları, insan kapitalı, siyasi iradə, intellektual potensial və s.) malikdirlər;
- **N.Nazarbayev** Qazaxıstanın da türkdilli xalqların birliyi ideyasının reallaşdırılması mövqeyindən çıxış etdiyini vurğulayaraq diqqəti aşağıdakı məsələlərə yönəltdi: türk dövlətləri arasındakı siyasi əlaqələrin zamanın tələblərinə uyğun olaraq yeni mərhələyə qədəm qoymasının vacibliyi; türklərin yaratdığı tarixi-böyük dəyərləri və zəngin mədəni sərvəti dünyaya tanıtmağın vaxtının çatması; TÜRKSOY-un nəzdində bir fondun qurulması və onun çərçivəsində — **türk dünyasının çox müqəddəs torpağı olan Türküstanda,** yaxud da Astanada — **Türkdilli Akademiyanın** təşkili; Mərkəzi Asiya ilə Avropa arasında **çox vacib bir körpü rolunun** oynanılması; ATƏT, İKT, İƏT, "Asiyada qarşılıqlı fəaliyyətə və etimad tədbirlərinə dair **Müşavirə"** ilə sıx əməkdaşlıq və onlarda eyni mövqe nümayişi; Müşavirədə sədrliyi gələn ildən Türkiyəyə verəcək və 2010-cu ildə ATƏT-də, 2011-ci ildə isə İKT-də sədrlik edəcək Qazaxıstanın bir sıra yeni təşəbbüslər irəli sürməsi ehtimalı; türk dövlətlərinin birliyinin üçüncü ölkələrə qarşı çevrilməyəcəyi şübhəsidir; qlobal sakitliyə və beynəlxalq miqyasda silahsızlaşdırmaya olan hədə və təhdidlərə qarşı birgə mübarizə; sabitliyin pozulduğu Qafqazda qardaş Azərbaycan xalqının əzab-əziyyətlərinə şəriklik; Ermənistan-Azərbaycan münaqişəsinin dinc yolla həlli;
- **K.Bakiyev** Qırğızıstanın "türkdilli ölkələr arasında həlli mümkün olmayan məsələ yoxdur" qənaətini açıqladı. O habelə ümumtürk birliyi üçün yetərli potensial təcrübə, imkan

və s. olduğunu bildirdi: qloballaşma və çağdaş dinamik proseslər şəraitində qarşılıqlı faydalı əməkdaşlıq zərurətdir; türk dünyası beynəlxalq siyasətdə mühüm rol oynamalıdır; **Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının** yaradılmasına dair saziş dövlətlərimizin birliyi üçün **nadir şans** verir; əlaqələrimiz strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir; Türk PA parlamentlərarası əlaqələrin inkişafına sübutdur; TÜRKSOY-un fəaliyyəti qənaətbəxş və rolu müsbətdir; terrorçuluq, dini ekstremizm, narkotiklərin qanunsuz dövriyyəsi (narkobiznes) kimi transsərhəd təhdidlərə qarşı birgə mübarizə vacibdir;

ç) A.Gülə görə, Türkiyə ümumtürk birliyi yolundakı bütün səyləri və çəkilən zəhməti yüksək dəyərləndirir. Onun fikrincə: **"dünyanın görüntüsü" mənasını verən Naxçıvan** Azərbaycan qədər Türkiyə üçün əziz doğmadır və sammitin də burada keçirilməsi çox önəmlidir; Türkiyənin Azərbaycanla Naxçıvan bölgəsindəki 10-12 km-lik sərhəd xətti böyük əhəmiyyətə malikdir və onun türk respublikaları ilə coğrafi birliyini də əlaqələndirən **çox rəmzi bir keçiddir;** türk dövlətləri başçılarının Zirvə görüşlərinin davam etməsi təqdirəlayiqdir; bu görüşlər mühüm **həmrəylik və məsləhətləşmə platforması** olaraq qardaş ölkələr arasındakı münasibətləri və qlobal problemləri müzakirə etmək imkanı verir; **"Naxçıvan Bəyannaməsi"** dövlət başçılarının sammitlərini təşkilatlandırmaq sahəsində çox qiymətli və tarixi addımdır; türklər böyük bir coğrafiyaya yayılmışlar və hazırda ayrı-ayrı müstəqil dövlətlərimizin olması çox böyük xoşbəxtlikdir; **TÖPA-nın yaradılması və onun Bakıda artıq ilk plenar iclasının** keçirilməsi olduqca dəyərli hadisələrdir; TÜRKSOY ilə bağlı mülahizə və təkliflər dəstəklənir; BTQ dəmir yolu layihəsi önəmlidir; Olimpiya oyunlarına bənzər **ənənəvi türk idman növləri** üzrə tədbir-yarışların keçirilməsi təklif edilir; Güney Qafqazdakı bütün münaqişələrin — bölgə ölkələrinin ərazi bütövlüyü çərçivəsində — birdəfəlik həllinin vaxtı çatmışdır; Qarabağ problemi dialoq, müzakirə və diplomatiya yolu həll ediləcəkdir və bununla da

bütün Qafqazda sülh təmin olunacaqdır; Türkiyənin xarici siyasətinin ilham qaynağı **türkçülüyün ənənəvi anlayış** və **dəyərlərinə** söykənməkdir; ilham qaynaqları isə mehriban qonşuluq, qarşılıqlı hörmət, xeyirxahlıq prinsipləridir və onlar türk dünyasının formalaşdırdığı **ortaq dəyərlərin əsasını** təşkil edir;

- **X.Saparlıyev** Türkmənistan rəhbərliyinin də dövlətlərimizin əlaqələrinin inkişafında maraqlı olduğunu qeyd etdi. Onun nəzər nöqtəsinə görə, bu sammit türkdilli xalqların yeni tarixində mühüm yer tutacaqdır. "Biz eyni köklərə malikik və bizim eyni taleyimiz vardır" deyən türkmən rəsmisi əsrlərboyu formalaşan dostluq və qardaşlıq ənənələrinin qorunub saxlanmasının çox vacib olduğunu vurğuladı.

Naxçıvan sammiti öz işini Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması barədə **sazişin** və **"Naxçıvan Bəyannaməsi"**nin imzalanması ilə başa çatdırmışdır. Yekunları baxımından onu **səmərəli və məhsuldar Zirvə görüşü** hesab etmək mümkündür. Belə ki, Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması ilə onların çoxtərəfli əməkdaşlığı **ilk dəfə olaraq dövlətlərarası qurum vasitəsilə** tənzimlənəcəkdir. Birgə fəaliyyəti — qarşılıqlı əlaqələri və əməkdaşlığı koordinasiya etməkdən ötrü yaradılacaq təşkilatın İstanbulda yerləşəcək **Daimi katibliyinin formalaşdırılması** nəzərdə tutulur. Bütövlükdə, çoxtərəfli əməkdaşlıq mexanizmlərinə malik olan regional təşkilatın ərsəyə gəlməsi gözlənilir. Növbəti Zirvə görüşünün 2010-cu ilin avqustunda Qırğızıstanda keçirilməsi razılaşdırılmışdır.

Türk dövlətləri və topluluqlarının ənənəvi (illik) "Dostluq, qardaşlıq və işbirliyi" qurultayları

Ümumtürk həmrəyliyi və birliyinə yetişilməsində türk dövlət və topluluqlarının ənənəvi (illik) "Dostluq, qardaşlıq və işbirliyi"qurultaylarının hədsiz önəmi vardır. **İndiyədək 12-si**

keçirilən həmin **qurultaylardan birincisi** 1993-cü ilin martında **Antalyada** oldu. Ə.Elçibəyin qurultay iştirakçılarına təbrik məktubunda deyilirdi ki, böyük türk fikir adamlarının yolu ilə gedəcək və onların arzularını həyata keçirəcəyik. **"Uzunmüddətli məcburi ayrılıqdan sonrakı ilk böyük görüş"** kimi də səciyyələndirilə biləcək bu qurultayda ümumtürk birliyinin tarixi zərurət olması və türk dünyasındakı inteqrasiyanın məqsədləri, istiqamətləri, vasitələri, üsulları müzakirə edildi.

Ayrılıqda bütün bu qurultaylar **"Ümumtürk Evi"**nin qurulması işinə özlərinin sanballı töhvələrini vermişlər. Ancaq onlardan **üçünü (VII,X,XI)** xüsusilə fərqləndirmək lazımdır. 1999-cu ilin iyulunda **Türkiyədə (Dənizlidə) keçirilən VII qurultayda** Milliyyətçi Hərəkat Partiyasının başqanı D.Bağçalı ümumtürk birliyi yolunda sözdən işə keçilməsinə və əməli addımlar atılması mərhələsinə başlanılmasına dair **çağırış** etdi. Onun və digərlərinin çıxışlarında **türk dünyasıdaxili inteqrasiya** ilə bağlı aşağıdakılar təklif olundu:

- mənəvi bağların daha da möhkəmləndirilməsi üçün ortaq-dil, əlifba, televiziya və radio, Elmlər Akademiyasının yaradılması, **ümumtürk YUNESKO-su**nun təşkili;
- Avropa İttifaqına bənzər **ortaq türk bazarının** yaradılması;
- Avropa Parlamentinə oxşar **ümumtürk Məclisinin** qurulması.

X qurultayda (Antalya,IX.2006) Türkiyənin Baş naziri R.Ərdoğan türk dövlətlərinin ortaq xarici siyasətindən bəhs edərək inteqrasiyanı əngəlləyən müəyyən məqamları açıqladı. Onun türk dövlətləri və topluluqlarından "bəzilərinin özünə - qapanaraq təcridolunma xəttini yeritmələri bizi aralayır" qənaəti diqqətçəkici oldu.

XI qurultay 2007-ci ilin noyabrında **Bakıda** keçirildi. Bu, **Türkiyədən kənarda keçirilən ilk belə qurultaydı.** 30 ölkədən 800-ə yaxın nümayəndənin qatıldığı qurultayda İ.Əliyev, R.Ərdoğan, S.Dəmirəl, Quzey Kipr Türk Cümhuriyyətinin prezidenti Ə.Tələt və digər tanınmış dövlət adamları iştirak edirdilər. **Azərbaycanın dövlət başçısı** geniş çıxışında bu məsələlərə daha çox diqqət yetirilməsini vacib saydı: **a)** türk diasporalarının gücləndirilməsi; **b)** erməni lobbisinə qarşı mübarizənin qüvvətləndirilməsi; **c)** "Dağlıq Qarabağ problemi"nin ədalətli həlli məsələsinin daha da qabardılması; **ç)** BTC-nin Türkiyə və Azərbaycanın enerji təhlükəsizliyini təmin etməsi; **d)** ümumtürk tarixinin yazılması və s.

Qurultayda bir sıra **təkliflər** irəli sürüldü və **tövsiyələr** verildi:

- Türk dövlətləri birliyinin yaradılması konsepsiyasının işlənməsi;
- Dağlıq Qarabağ və Kiprlə əlaqədar "problemlər"in həllinə dair vahid mövqedən çıxış edilməsi;
- Azərbaycan və Türkiyə **diaspora təşkilatları rəhbərlərinin I Forumunun (Bakı-III.2007)** qərarına əsasən onların fəaliyyət strategiyasının hazırlanması;
- Türk xalqlarının coğrafi məkanında **Avrasiya siyasi-iqtisadi birliyinin** yaradılması və Gürcüstanla Tacikistanın da ona qoşulmasına nail olunması;
- Ahıska türklərinin Vətənə (Gürcüstana) qayıtmalarına və orada yaşayan azərbaycanlılarınsa ölkə cəmiyyətinə tam inteqrasiyasına çalışılması;
- "erməni soyqırımı" və antitürk təbliğatına qarşı fəaliyyətin gücləndirilməsi;
- Türk dünyası **Elmlər Akademiyasının** və **Elmi kitabxanasının** təşkili;
- **ortaq türk tarixi və ədəbiyyatının** yazılması;
- Türk xalqlarının "internet millət" olmağına səylər göstərilməsi;
- Domen adlar məsələsi;
- Türk dünyası **"Bələdiyyələr Birliyi"**nin işinin təkmilləşdirilməsi;
- Türk dövlətlərinin **Parlament Assambleyasının** təşkili;
- Dünya **"Türk Gəncləri Birliyi"**nin fəaliyyətinin qüvvətlən-

dirilməsi;

- Türk ölkələrinin iqtisadi birliyinin (**"ümumtürk OPEK-i"**-nin) yaradılması. XI qurultayda **iki mühüm sənəd** qəbul edildi: 1915-ci il hadisələri ilə əlaqədar "erməni soyqırımı iddiaları"yla bağlı **Bəyanat** və qurultayın **"Yekun hesabatı"**. Onlardan **birincisində** ermənilərin 1915-ci ildə Osmanlı dövləti hüdudlarında öz ucbatlarından köçürülmələrinin onların soyqırımına məruz qalmaları kimi səciyyələndirilməsi tarixi həqiqətlərin saxtalaşdırılması hesab olunur. Bu sənəddə habelə ermənilərin Anadoluda və Azərbaycanda türk-müsəlmanları məqsədli, kütləvi şəkildə qırmaları qeyd edilir və Xocalı faciəsi xüsusilə vurğulanır.

"Yekun hesabatı"nda isə türk dünyasını rahatsız edən problemlər önə çəkilir. "Dağlıq Qarabağ məsələsi"nin, "Kipr problemi"nin ədalətli həlli və İraqda, Əfqanıstanda yaşayan türklərin durumu və Ahıska türklərinin öz tarixi torpaqlarına qayıtmaları kimi məqamlara mühüm diqqət yetirilir. Fikrimizcə, bu kontekstdə Çin türklərinə (uyğurlara) yaradılan problemlərin də sənəddə ifadə olunması lazım gəlirdi. (Yeri gəlmişkən, XI qurultaya Azərbaycanın aparıcı müxalifət qüvvələrinin təmsilçilərinin (hətta deputatların belə) dəvət olunmaması adi həmrəylik toplantısı olan tədbirə yaraşan hal deyildi).

Türk dünyasıdaxili inteqrasiyanın aparıcı yönləri və ilkin nəticələri

Türk dünyasıdaxili inteqrasiya prosesində iqtisadi, mənəvi və siyasi (dövlətçilik) sahələrindəki əməkdaşlığa dair fəaliyyətin, birgə tədbirlərin xüsusi əhəmiyyəti olmuşdur. **İqtisadi inteqrasiyada** Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi və nəqli **("Transxəzər" — "Nabucco" qaz kəmərləri layihələrinin** gerçəkləşməsi və s.) sahəsində əməkdaşlıq daha güclü potensiala malikdir (Azərbaycan, Türkiyə, Qazaxıstan, Türk-

mənistan və b. bu yöndəki əlaqələri, mövcud problemlərin həlli yolları 3-cü bölümdə ətraflı təhlil edilmişdir).

Mənəvi-humanitar inteqrasiyada Türk Mədəniyyət və Sənətləri Ortaq İdarəsi (**"TÜRKSOY"**) başlıca vəsilələrdən hesab olunur. Onun yaradılması ilə (19.I.1993) əslində **mənəvi inteqrasiyada yeni bir mühüm mərhələ** başlamışdır. Türk dünyasında **mədəni əməkdaşlığa və mənəvi birliyə təkan verən** birgə tədbirlər sırasında eposlarımızın yubileylərinin ("Manas"ın 1000, "Kitabi Dədə Qorqud"unsa 1300 illiklərinin) təntənələrlə keçirilməsinin xüsusi yeri vardır. M.Füzulinin 500 və Əmir Teymurun 660 illik yubileylərinin birlikdə qeyd edilməsi çox faydalı olmuşdur. Türk dünyası **xanımlarının Bakıda keçirilən (IV.2000) beynəlxalq konfransı** da humanitar əlaqələrin genişlənməsi baxımından diqqətçəkicidir.

Dövlətçiliyin inkişafına dair əlaqələrin möhkəmləndirilməsi yolundakı **ən ciddi uğurlardan birini** Türkdilli Ölkələrin Parlament Assambleyasının (**TÖPA**) yaradılması təşkil edir. Türk birliyinin reallaşması yönündə çox böyük addım sayılan TÖPA 2008-ci ilin noyabrında İstanbulda ərsəyə gətirildi. Onun bu (birinci) konfransında Azərbaycan, Türkiyə, Qırğızıstan parlamentlərinin sədrləri və Qazaxıstan parlamenti senatının sədr müavini TÖPA-nın yaradılması barədə **Bəyannamə** imzaladılar. TÖPA-ya, ona daxil olan dövlətlərin hərəsindən, 6 nəfər (parlamentlərin spikerləri və 5 deputat) daxildir. Bəyannamə digər türk dövlətlərinin (Özbəkistanla Türkmənistanın da ona qoşulmaları üçün açıqdır. Arada Parlament Assambleyasının tərkibinin müəyyənləşdirilməsi, onun katibliyinin yaradılması və s. ilə bağlı işlər görüldü. Onun iclaslarının ildə bir dəfə və növbəti görüşünsə 2009-cu ilin payızında Bakıda keçirilməsi qərara alındı.

Həmin razılığa sasən də 2009-cu il sentyabrın 29-da **Bakıda TÖPA-nın birinci plenar iclası** keçirildi. Özbəkistan və Türkmənistan çıxılmaqla, digər **4 türk dövləti** iclasda parlament sədrləri səviyyəsində təmsil olunmuşdular. Özbəkistan və

Türkmənistan parlamentarilərin toplantıya qatılmamaları birincinin Türkiyə və ikincinin də Azərbaycanla münasibətlərindəki anlaşılmazlıqlarla, problemlərlə izah olunur. Onların belə demarşı habelə bu təşkilata qoşulmanı hansısa öhdəlik götürmə kimi dəyərləndirmələri ilə əlaqələndirilir.

Türk PA-nın **ilk plenar iclasını məhsuldar** saymaq olar. Öncəliklə bir sıra təşkilati məsələlər öz həllini tapdı. Belə ki, Nizamnamə və Katibliyin Əsasnaməsi qəbul olundu. Qurumun 4 illik müddətə **Baş katibi** və onun assambleyaya üzv ölkələrin hərəsindən bir nəfər olmaqla 3 müavini seçildi. Ölkələr üzrə əlifba sırası qaydasına əsasən **ilk Baş katiblik Azərbaycana verildi** (Həmin postu isə YAP Gənclər Təşkilatının sədri R.Həsənov tutdu). 6 nəfərdən ibarət tərkibdə işləyəcək, üç komissiyası olacaq və illik xərci 300 min avro təşkil edəcək **Baş katibliyin Bakıda** yerləşməsi razılaşdırıldı.

Bəzi müzakirələrin rus dilində aparıldığı və əksər çıxışların tərcümə edildiyi bu iclasın sonunda **"Bakı Bəyannaməsi"** qəbul edildi. Bəyannamədə TÖPA parlamentlərarası əməkdaşlığın keyfiyyətcə **yeni mərhələsi** və mühüm addımı, **parlament diplomatiyasının** və dövlətlərarası siyasi dialoqun təsirli vasitəsi, regional və qlobal təhlükəsizliyin qorunmasına yönəlik **təşəbbüslər üçün əlverişli meydan** kimi səciyyələndirilirdi. Plenar iclasda həmçinin Türkmənistanla Özbəkistanın da Türk PA-da təmsil olunmalarına çalışılmasının vacibliyi vurğulandı. Onun növbəti sessiyasının 2010-cu ilin oktyabrında Astanada keçirilməsi qərara alındı. Sonrakı sessiyalarınsa rotasiya qaydası ilə assambleyaya daxil olan digər ölkələrdə keçirilməsi məsləhət bilindi. Bu toplantıda və digər məsləhətləşmələrdə Rusiyanın tərkibindəki türk muxtar qurumlarının, habelə Krım tatarlarının, qaqauzların, uyğurların parlament təmsilçilərinin Türk PA-nın işinə cəlb edilmələrinin mümkünlüyü nəzərdən keçirilibdir.

Türk PA-nın sammiti çərçivəsində həm də bu ölkələrin parlamentlərində **akkreditə olunmuş jurnalistlərin toplantısı**

keçirilibdir. Burada isə **Türkdilli Ölkələrin Parlament Jurnalistlər Assambleyası** yaradılıbdır. (Azərbaycanı bu qurumda E.Eyvazlı təmsil edəcəkdir). Azərbaycanın bir neçə qəzetinin baş redaktorunun Türkiyəyə səfəri zamanı (XII.2009) **Türk Dünyasının Mətbuat Birliyinin** yaradılması qərara alınıbdır. TÖPA-nın Bakı sammitində həmçinin **ortaq türk televiziyasının** yaradılması məsələsinə də baxılmışdır. Hazırda "TRT-Avaz", "TRT-Türk" kanalları fəaliyyət göstərir. Ancaq ortaq türk televiziyası bütün türk dünyasının televiziya siyasəti olmalı və türk xalqlarının hamısının maraqlarını əhatə etməlidir. **Ortaq türk televiziyasının da Bakıda yaradılması** ehtimal olunur. 2009-cu ilin dekabrından etibarən Türk Musiqi Birliyi (**TMB**) fəaliyyətə başlayıbdır.

İnteqrasiyada mühüm diqqət yetiriləsi (önəm veriləsi) məsələlərdən biri də hələlik öz **dövlətçiliklərinə malik olmayan türk topluluqlarının** da çoxtərəfli əməkdaşlıqda fəal iştiraklarına müvəffəq olunmasından ibarətdir. Bu baxımdan Rusiya Federasiyasının türk muxtar qurumlarının (Tatarıstan, Başqırdıstan, Çuvaşiya və s.), Çindəki uyğurların, Güney Azərbaycan türklərinin, Balkanlardakı müvafiq etnosların, habelə digərlərinin inteqrasiya proseslərinə cəlb olunmaları çox vacibdir. **Dağlı türk xalqları Assosiasiyasının** yaradılması (XI.1991), **Türk Xalqları Assambleyasının** (sədri Ə.Elçibəy) təşkili, AR-in Tatarıstan və s. ilə birbaşa çoxtərəfli əlaqələri, Türkiyənin Kipr və Balkan türklərinə hərtərəfli dəstəyi ümumtürk birliyinə yaxınlaşma cəhətdən diqqətçəkicidir.

Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı: uğurlar, problemlər, perspektivlər

Türk dünyasının inteqrasiyasında bu millətin dövlətlərinin bir-birləri ilə **qarşılıqlı ikitərəfli əlaqələri** aparıcı istiqaməti təşkil edir. Bu istiqamətdə isə bir sıra önəmli qollar ayrılır:

Azərbaycan—Türkiyə strateji tərəfdaşlığı; AR-in Mərkəzi Asiyadakı dövlətlərimizlə əlaqələri; Türkiyə—Orta Asiya respublikaları münasibətləri; Mərkəzi Asiyanın türk dövlətləri arasındakı münasibətlər. Ümumtürk birliyində həlledici rol oynaya biləcək qarşılıqlı (ikitərəfli) münasibətlər sırasında isə, **S.Dəmirəlin "türk dünyasının iki ulduzu" adlandırdığı Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı** real əsaslara görə önə çıxır (Elmi-siyasi çevrələrdə türk dünyasıdaxili inteqrasiyanın Qazaxıstan-Özbəkistan əməkdaşlığının dominantlığı zəminində gedə bilməsinə dair də baxışlar mövcuddur).

Azərbaycan-Türkiyə münasibətlərinin inkişafı, əməkdaşlığın strateji tərəfdaşlıq həddinədək yüksəlişi və digər amillər bu iki ölkənin qarşılıqlı əlaqələrinin **türk dünyasının inteqrasiyasının lokomotivi** ola biləcəyinə əminlik yaradır. Yəni ümumtürk həmrəyliyi və birliyinə nail olunması Azərbaycan-Türkiyə münasibətlərinin səviyyəsindən birbaşa və çox asılıdır. Buna görə də hər iki dövlətin strateji maraqları və ümumtürk birliyi onların **müttəfiqlər səviyyəsində münasibətlərə** malik olmasını tələb edir.

Azərbaycanla Türkiyənin strateji tərəfdaşlığı bir sıra **amillərlə** şərtlənir:

1. Dünya siyasətində XX əsrin sonlarında baş verən məlum köklü və sanballı dəyişikliklər **türk millətinin bu iki dövlətinin** beynəlxalq və regional proseslərə təsirini xeyli artırmışdır. Ölkələrimizin əlverişli geosiyasi mövqeləri, yəni Avrasiyadakı coğrafi yerləşmələri və sivilizasiyaların kəsişməsində bərqərar olmaları onları bütün dünya, qloballaşma, inteqrasiya üçün **mühüm məkana** çevirmişdir. Bunlar da öz növbəsində onların strateji tərəfdaşlığına **ilkin təbii özüllər** olmuşdur.

2. Azərbaycanın Türkiyə üçün 50 milyonluq **türk-müsəlman dünyasının "giriş qapısı"** və Türkiyəninsə ölkəmizdən ötrü **"Avropa qapılarının açarı"** sayılması:

- **elmi-siyasi dairələrdə** bu cür yanaşma ilə **razılaşmayanlar** (S.Ruintən və b.) vardır. Onlar belə bir halın müəyyən zaman

kəsiyi, yəni AR-in müstəqilliyinin ilk çağlarında Türkiyə ilə qurulan əlaqələr dönəmi üçün özünü doğrultduğunu qeyd edirlər. Hətta bəzi **qərbli tədqiqatçılar** həmin fikri yanlış sayaraq onu indi Azərbaycanın Avropaya inteqrasiyasını əngəlləyən (ləngidən baxış) kimi səciyyələndirirlər. Onların **dəlilləri:** Azərbaycan-Avropa əlaqələrinin birbaşa, başqa sözlə, vasitəçilərsiz qurulması daha uğurlu olardı; AR Türkiyənin Avropaya inteqrasiyasının irəliləməsində ona yardımçı ola bilər; Azərbaycan özü hələ Mərkəzi Asiyanın türk dövlətləri ilə yetərli, istənilən səviyyədə münasibətlər qurammadığından Türkiyə üçün müsəlman-türk dünyasına "giriş qapısı" ola bilməz;

- fikrimizcə isə, tərəflərin bir-birləri üçün **"giriş qapısı"** və **"qapıların açarı"** olmalarına dair **baxışların** da müəyyən **ciddi əsasları** vardır. Belə ki, burada öncəliklə təbii (coğrafi) amil mütləq nəzərə alınmalı və əsla unudulmamalıdır. Digər yandan, Türkiyə yenə də Avropada (Qərbdə) Azərbaycanın tərəfini tutan və onun sözünü deyən tək dövlətdir. O, AR-in Transatlantik məkana qovuşmasında, xüsusilə də NATO və digər qurumlarla münasibətlərinin qurulması və inkişafında mühüm rol oynamışdır. Həmçinin Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin ədalətlə nizamlanmasına dair mövqeyinin Avropada az-çox dəstəklənməsində əvəzsiz xidmətlər göstərmişdir və bu missiyasını sürdürməkdədir. Azərbaycanınsa hələ sovet dönəmində Orta Asiya respublikaları (habelə Rusiya Federasiyasının türk muxtar qurumları) ilə əlaqələrə və zəngin enerji ehtiyatlarının istismarı, nəqlində onlarla müəyyən uzlaşmalara malik olması da Türkiyənin ölkəmiz vasitəsilə Xəzəryanı müsəlman-türk dövlətlərinə çıxışını təmin etməyə imkan verir.

3. Azərbaycan nəhəng **neft (BTC)-qaz (BTƏ) kəmərlərinin** və nəqliyyat vasitələri, yəni dəmir yolu xəttinin **(BTQ) başlanğıcı, Türkiyə isə onların sonucudur.** Ölkələrimiz həmçinin **"Nabucco"** qaz kəməri üçün də böyük əhəmiyyət (Azər-

baycan istehsalçı-tranzit, Türkiyə isə istehlakçı-tranzit ola bilməklə) kəsb edirlər.

4. Ölkəmiz Gürcüstan və Mərkəzi Asiyanın türk dövlətləri ilə birlikdə-Rusiyanı Yaxın və Orta Şərqdəki müttəfiqlərindən ayıran – bir sərhəd divarını təşkil edir; Türkiyə də həmin **"sərhəd divarı"nın "NATO qarantı"** sayılır. (Düzdür, "NATO qarantı" hələ ki, özünü tam da doğrultmur. Bunu Rusiyanın 2008-ci ilin avqustundakı hərbi təcavüzü zamanı Gürcüstanın yetərincə müdafiə olunmaması da təsdiqləyir).

5. AR Avropa-Qafqaz-Asiya beynəlxalq ticarət **"Yeni İpək yolu"nun əsas əlaqələndiricisidir. Türkiyə** isə TRACECA-nın Avropaya başlıca çıxış yollarının **ən aparıcılarındandır.**

6. Türkiyə və Azərbaycan **təbii strateji tərəfdaş**dırlar. Bu, çoxşaxəli tərəfdaşlıqsa hər iki tərəfin maraqlarına uyğundur.

7. Ermənistanın Azərbaycana təcavüzünə son qoyulmasına ən çox çalışan və dövlətimizin haqlı mövqeyini diplomatik-mənəvi-hərbi müstəvidə hərtərəfli, ardıcıl himayə edən **tək dövlət** də **Türkiyə**dir. Respublikamız da ermənilərin və müxtəlif beynəlxalq-regional güclərin (maraqların) "erməni soyqırımı" və antitürk təbliğatına qarşı mübarizədə Türkiyəni heç vaxt tək qoymur və onu daima dəstəkləyir.

8. Güney Qafqazdakı mövcud **zəruri (habelə kövrək) qüvvələr düzəni**nin saxlanması **güclü Türkiyə**siz və **güclü Azərbaycan**sız mümkün deyil, onlarsız davamlı ola bilməz.

Sovet ictimai quruluşu və xarici siyasətinin imkan verdiyi hüdudlarda münasibətlərdə malik olan Azərbaycan və Türkiyə SSRİ-nin süqutu ərəfəsində qarşılıqlı əlaqələrini genişləndirməyə başladılar. Şimali Azərbaycanda dövlətçiliyin bərpası uğrunda **mübarizənin növbəti mərhələsi** Türkiyə tərəfindən dəstəkləndi. Müxtəlif səviyyəli və səpkili qarşılıqlı səfərlər baş tutdu. AR-in hökumət nümayəndə heyəti Türkiyəyə səfər etdi (I.1990). Prezident **T.Özal SSRİ-yə rəsmi səfəri** (III.1991) çərçivəsində ölkəmizdə oldu. Bu səfərlər zamanı, xüsusilə də

Bakıda respublika prezidenti **A.Mütəllibovla** aparılan danışıqlar nəticəsində iqtisadi-ticarət əlaqələri və elmi-mədəni mübadiləyə dair 20-dək protokol, digər sənədlər imzalandı. Onları **dövlətlərarası gələcək çoxtərəfli əməkdaşlığın hüquqi bazası** da hesab etmək olar.

Azərbaycanın şimalında müstəqilliyin bərpası onun Türkiyə ilə əlaqələrinin dövlətlərarası münasibətlər səviyyəsinə qaldırılmasına **siyasi-hüquqi əsaslar** verdi. AR-i müstəqilliyini rəsmən tanıyan **ilk** (1918-ci ildə olduğu kimi) **dövlət Türkiyə** oldu. O, AR-in dövlət müstəqilliyini tanımaqla (9.XI.1991) Azərbaycanın dünya birliyinə qatılması üçün, bir növ, **"pəncərə" açа bildi** (Baxmayaraq ki, ABŞ rəsmi Ankaranın bu diplomatik gedişini "SSRİ-nin mövcudluğu şəraitində beynəlxalq gərginliyi artıra biləcək **tələskənlik"** kimi dəyərləndirmişdi. Buna görə də Xarici İşlər naziri S.Gəray xüsusi bəyanatla çıxış etməli oldu).

Dövlətlərarası diplomatik əlaqələr yeni yaradılma kimi deyil, **bərpa olunma müstəvisində** quruldu. Diplomatik münasibətlərin bərpası haqqında **protokola** (14.I.1992) əsasən Bakıda və Ankarada səfirliklər açılması razılaşdırıldı. (Türkiyə hələ 1991-ci ilin dekabrında Bakıdakı Baş konsulluğunu səfirliyə çevirmək barədə qərar qəbul etmişdi). Tezliklə (29.I.1992) Baş konsul A.Karamanoğlu **Türkiyənin AR-dəki ilk səfiri** təyin olundu. O həmçinin ölkəmizdəki diplomatik korpusun **ilk dua-yeni** idi. Baş nazir **S.Dəmirəlin Azərbaycan Respublikasına ilk rəsmi səfəri**nin (V.1992) gedişində Bakıda Türkiyə səfirliyinin açılışı oldu. Türkiyə Naxçıvanda konsulluq yaratdı (Sonralar, yəni 2009-cu ildə daha bir konsulluq Gəncədə açıldı).

Öz növbəsində AR prezidenti 1992-ci ilin avqustunda M.Əliyevi **Türkiyədə ilk səfir,** A.Abdullanı (Hacaloğlunu) isə **İstanbulda ilk Baş konsul** təyin etdi. (Hazırda **Qars** şəhərində də konsulluğumuz var). Ə.Elçibəyin Türkiyəyə rəsmi səfəri zamanı (XI.1992) Ankarada AR-in səfirliyi rəsmən açıldı. Prezident T.Özal mərasimdəki çıxışında **Azərbaycanın Türkiyə-**

dəki ilk diplomatik nümayəndəliyinin Atatürk tərəfindən açıldığını vurğuladı.

Türkiyə hökuməti AR XİN-in fəaliyyətinin təşkili (kadr hazırlığı, səfirliklər açılması və s.) üçün ölkəmizə 15 mln. dollar yardım göstərilməsini qərara almışdı. Belə bir diplomatik faktı da vurğulamağa dəyər ki, ilk vaxtlarda 25 dövlət Azərbaycanda **Türkiyədəki səfirləri vasitəsilə** təmsil olunmuşdu.AR baş diplomatı T.Qasımovun türkiyəli həmkarı H.Çətinlə Ankaradakı danışıqlarının (VIII.1992) nəticəsində iki dövlətin XİN-ləri arasında əməkdaşlıq və məsləhətləşmələr haqqında saziş, habelə konsul konvensiyası və protokolu imzalandı. Bu sənədlər də **dövlətlərarası diplomatik xidmətin təkmilləşdirilməsi** işi üçün fayda verdi.

Azərbaycanla Türkiyə arasında diplomatik əlaqələrin bərpası və səfirliklərin açılması onların **çoxtərəfli əməkdaşlığına əlverişli şərait** yaratdı. S.Dəmirəl Türkiyə parlamentindəki çıxışlarından birində (XII.1991) qeyd etmişdi ki, "SSRİ-nin dağılması və Avropadakı dəyişikliklər şəraitində türk-müsəlman sovet respublikaları ilə əməkdaşlıq zəruridir. 1992-ci il ərəfəsində Türkiyənin qarşısında əsasən Mərkəzi Asiya və Qafqaz istiqamətində geniş, öz əhəmiyyətinə görə böyük perspektivlər açılır". O, Davos Dünya İqtisadi forumlarından birində (1992) türk dövlətlərinin başçıları ilə görüşlərində və onun ardınca ABŞ-a etdiyi rəsmi səfər vaxtı (II.1992) postsovet türk-müsəlman ölkələri üçün **"Türkiyə inkişaf modeli"**ni məsləhət bilmişdi. Bunun həm də Türkiyənin həmin dövlətlərdə "təkbaşına nüfuz sahibi olması və adları çəkilən regionlarda təsir dairəsi naminə mübarizədə iştirakı" (Xarici İşlər naziri H.Çətin) kimi başa düşülməməsi bəyan edilmişdi. Rəsmi Ankara **"bu böyük qardaşımız da bizi məyus etdi olmasın"** deyə (S.Dəmirəl), "SSRİ-nin süqutu şəraitində təhrikçilik siyasətindən imtina edilməsi" kimi yanaşmanı əsas tutdu.

"Bir millətin iki dövləti"nin strateji tərəfdaşlığa doğru irəliləməsinə ölkələrin rəhbərlərinin qarşılıqlı səfərləri çox

müsbət təsir göstərdi. Dövlətlərarası **səviyyədə ilk rəsmi səfər** Türkiyə ilə münasibətlərdə ehtiyatlı xətt yürüdən prezident A.Mütəllibovun Ankaraya gəlməsi (I.1992) ilə baş tutdu. Danışıqlar tərəflərin dostluq, əməkdaşlıq və mehriban qonşuluq haqqında müqavilə, hərbi əməkdaşlığa dair saziş və s. sənədlərin imzalanması ilə yekunlaşdı. Prezidentlər (A.Mütəllibov və T.Özal) müqaviləni ikitərəfli münasibətlər tarixində **yeni mərhələ və gələcək əməkdaşlığın bünövrəsi** kimi qiymətləndirmişdilər.

S.Dəmirəlin Baş nazir statusunda müstəqil Azərbaycana ilk səfəri də (V.1992) bir çox cəhətlərdən diqqəti cəlb etdi (O. Türkiyənin Baş naziri kimi Azərbaycana birinci dəfə hələ 1967-ci ildə gəlmişdi). Azərbaycan parlamentində çıxış edən Baş nazir **"böyük türk dünyası reallığa çevrildi"** deyərək AR-TC əlaqələrini "qardaş xalqların münasibətləri" kimi səciyyələndirdi. Səfər müddətində Bakıda Türkiyə səfirliyinin açılış mərasimi oldu. Habelə S.Dəmirəl türk xalqlarının həmrəylik gününə həsr olunan mitinqdə çıxış edərək belə bir tədbirin hər il keçirilməsi ideyasına tərəfdar oldu.

Türkiyə ilə münasibətlərdə həmişə və hər şeydən öncə qardaşlığa üstünlük verən Ə.Elçibəy QDİƏT-in toplantısında (İstanbul,VI.1992) iştirakla əlaqədar orada olarkən Ankaraya işgüzar səfər edib müəyyən danışıqlar aparmışdı. Onun **Türkiyəyə rəsmi səfəri** (XI.1992) isə ikitərəfli münasibətlərin inkişafında **həlledici rol** oynamışdı. Hər iki tərəf, xüsusilə də rəsmi Ankara bu səfərə böyük önəm verirdi. Bunu təsdiqləyən çoxlu diplomatik və s. səciyyəli faktlar mövcuddur:

AR prezidentinin uçağının Türkiyənin qırıcı təyyarələri tərəfindən müşaiyət edilməsi; Ə.Elçibəyin türk dövlət başçılarının I Zirvə toplantısına gələn digər prezidentlərdən fərqli qəbulu (təntənəli qarşılanma, Ankarada "Hilton" otelinin "Kral dairəsi"ndə yerləşmə — digər prezidentlər "Şeraton"da qalırdılar); İstanbulda "Çırağan" otelinin "Bəy sarayı"nda qalması və **"Dolmabağça"da son on ildə verilən ikinci ziyafətin** (bi-

rincisi ata C.Buş üçün olub) məhz onun şərəfinə (600 nəfərin iştirakıyla) təşkil edilməsi; rəsmi səfərin, yəni 115 nəfərdən ibarət nümayəndə heyətinin bütün xərclərinin T.Özalın şəxsi büdcəsindən ödənilməsi; T.Özalın Ə.Elçibəyi şəxsən müşaiyət etməsi; AR prezidentinə T.Özalın məzunu olduğu Kayseri Erciyəz universitetinin fəxri doktoru adının verilməsi; bütövlükdə isə, T.Özalın da vurğuladığı kimi, Ə.Elçibəyin səfərlər vaxtı keçirdiyi görüşlərin **"Türkiyə üçün əsl bayram"**a çevrilməsi.

Azərbaycan prezidenti rəsmi səfəri çərçivəsində Atatürkün və M.Rəsulzadənin məzarlarını ziyarət etdi. Anıtqəbri ziyarəti zamanı "Xatirə kitabı"na Atatürkə xitabən **"Sizin əsgəriniz Əbülfəz Elçibəy"** cümləsini də yazdı. Ankarada səfirliyimizin açılışı mərasimində (2.XI.1992) həmin vaxtadək birbirlərilə küsülü olan T.Özalla S.Dəmirəlin əllərini birləşdirərək onları barışdırdı. Bu mərasimdə Azərbaycan Milli Mərkəzinin sədri M.Kəngərli M.Rəsulzadənin ömrünün axırınadək özüylə gəzdirdiyi və vəfat edərkən onun cənazəsi üzərinə sərilən bayrağımızı da AR prezidentinə təqdim etdi.

Səfər müddətində aparılan danışıqlar nəticəsində Xarici İşlər nazirləri (H.Çətin və T.Qasımov) Türkiyənin Azərbaycana 250 mln.dollar kredit verməsi və az sonra bir o qədər də vəsait ayırması barədə müqavilə imzaladılar. Gələcəkdə iki dövlət arasında hərbi münasibətlərin qurulmasına dair də ilkin müzakirələrin aparıldığı çoxşaxəli danışıqların sonunda bir xeyli diplomatik sənəd (müəyyən sahələrdə əməkdaşlıq barədə protokollar və s.) razılaşdırıldı.

Dövlət başçılarının qarşılıqlı səfərləri təcrübəsinin zənginləşməsində **T.Özalın AR-ə rəsmi səfəri** (12-14.IV.1993) də önəmli rol oynadı. Bu səfər onun Mərkəzi Asiyanın postsovet respublikalarına və Azərbaycana 11 günlük **rəsmi turnesi** çərçivəsində gerçəkləşdirildi. AR-ə 3 günlük səfər diplomatik qaynaqlarda-çevrələrdə Ə.Elçibəyin səfərinə cavab və, ən başlıcası da, müəyyən güclərə Ermənistanla münaqişədə Azərbaycanın tək olmadığının nümayişi kimi səciyyələndirilir. **"Bakı müza-**

kirələri"nin başlıca mövzusunun Ermənistanın respublikamıza təcavüzünün qarşısının alınmasından ibarət olduğunu açıqlayan Türkiyə prezidenti Azərbaycanı da **özünün dövləti sayaraq** xəbərdarlıq etdi: "Müstəqil dövlətimizin parçalanması yolverilməzdir. **Türk millətinin səbri zorlanmamalıdır... Türkiyə Azərbaycanın yanındadır".**

Ölkəmizə Türkiyənin 110 ən iri şirkətinin təmsilçiləri ilə birlikdə gələn T.Özal hər iki dövlətin iş adamlarıyla görüşdü. Ona **M.Rəsulzadə adına BDU-nun fəxri doktoru** adının verilməsi ilə bağlı universitetdə mərasim keçirildi. Türkiyə dövlət başçısı "Zuğulba" pansionatında məskunlaşan qaçqınlara 10 min dollar yardım etdi. Onun səfəri vaxtı ölkəmizə Türkiyədən 500 min ton buğda gətirilməsinə başlanıldı. T.Özalın **"çox sevdiyi türk dünyasına vida səfəri"**ndən (Ə.Elçibəy) az sonra vəfat etməsi (18.IV.1993) üzündən Azərbaycanın prezidenti, habelə digər dövlət xadimləri (Naxçıvan Ali Məclisinin sədri H.Əliyev və b.) Türkiyəyə getdilər. (Ə.Elçibəyin sonralar (7.XI.1998) verdiyi açıqlamalara görə, H.Əliyevin özü S.Dəmirələ zəng edərək onun da dəfn mərasiminə dəvət olunmasını istəmişdi. Və prezident Ə.Elçibəydən əvvəl Türkiyəyə gələrək S.Dəmirəllə birlikdə onu qarşılayanlar arasında olmuşdu).

"XXI yüzil türk əsri olacaq" fikrinin müəllifi, Türkiyədəki **"iqtisadi möcüzələrin atası"** sayılan T.Özalın ölümü **ümumtürk dünyasının əvəzolunmaz itkisi** və **ümumtürk birliyinə ciddi zərbə** oldu. AR prezidenti **"yas diplomatiyası"** çərçivəsində-dəfn mərasimində iştirak üçün Türkiyəyə gələnbir sıra dövlət başçıları və rəsmiləri (E.Şevardnadze, M.Snequr (Moldova), ABŞ Dövlət katibi C.Beyker və b.) ilə, habelə S.Dəmirəlin, Gürcüstan və Ukrayna rəhbərlərinin (xüsusilə də, çox hörmət bəslədiyi L.Kravçukun) əvvəllərdə dəfələrlə etdikləri xahişlərini nəzərə alaraq **Ermənistan prezidenti L.Ter-Petrosyanla da görüşüb** müəyyən müzakirələr apardı.

Azərbaycan-Türkiyə münasibətlərinə təsiri baxımından belə bir **diqqətçəkici məqamı** da qeyd etmək lazımdır. Bu dəfn

mərasimi T.Özal-S.Dəmirəl gərginliyinin, onların 1992-ci ilin noyabrında Ankarada Ə.Elçibəyin vasitəçiliyi ilə "barışmaları"nın uzun sürməməsinin bəzi nüanslarını da üzə çıxardı. Mərasimlə bağlı tədbirlərdə bəzi çevrələrin (T.Özalın partiyadaşları və b.) S.Dəmirələ göstərdikləri sərt münasibəti Baş nazir yenə də AR prezidenti vasitəsilə yumşaltmağa çalışmışdı. Əksəriyyətin Ə.Elçibəyə başsağlığı verməsi, onun mərhumun cənazəsini son mənzilədək (məqbərəyə qədər) yola salması və S.Dəmirəlin yalnız bundan sonra dəfndə axıradək iştirak etməsi də müxtəlif söz-söhbətlərə şərait yaratmışdı. Ekspert-analitiklərin belə bir qənaəti də diqqətçəkicidir: T.Özaldan sonra Ə.Elçibəy iqtidarının Türkiyənin rəsmi dairələrindəki dəstəyi xeyli azalmışdı. Əslində onun hakimiyyəti və tərəfdaşları Rusiya ilə İran, habelə onlarla əlbir-həmrəy olan daxili hərbi və siyasi müxalifət qarşısında tək qalmışdılar.

1993-cü ilin yayında **"köhnə dostlar"**ın, yəni **H.Əliyevlə S.Dəmirəlin** Azərbaycanda və Türkiyədə rəhbərliyə gəlmələri (birincinin qayıdışı, ikincisininsə ən ali məqama yüksəlməsi) dövlətlərarası münasibətlərdə yeni şərait yaratdı. Yeri gəlmişkən, H.Əliyevin məlum **"Gəncə hadisələri" ("4 iyun qiyamı")** zamanı və Azərbaycandakı hakimiyyət dəyişikliyi ilə bağlı tutduğu mövqe S.Dəmirəl tərəfindən birmənalı dəstəklənmişdi. Türkiyə mətbuatının bəzi açıqlamalarından, o cümlədən tanınmış qəzetçi C.Çandarın bir yazısından ("Azerbaycan", 2000, №7-8) məlum olur ki, T.Özal Bakıdan qayıdarkən təyyarədə ona bunları söyləmişmiş: **"Elçibəy getsə (yəni hakimiyyətdən-İ.M.) qorxuram təkcə Azərbaycan deyil, Türkiyənin Orta Asiya ilə bağlantıları da gedər".** Qəzetçi həmin fikrə belə bir əlavə edir: "Əcəba **"Yeni Ankara"nın niyyətlərini** sezmişdimi?".

Yenə də Türkiyə mətbuatı məlum dəfn mərasimi prosesində S.Dəmirəllə H.Əliyevin prezident Ə.Elçibəyi hava limanlarında birlikdə qarşılayıb yola salmalarını xüsusilə vurğulamışdı. Ə.Elçibəy özü isə sonralar (7.XI.1998) belə bir məqamı

xatırlatmışdı: T.Özalın dəfn mərasimi ilə bağlı Türkiyədə olarkən H.Əliyev ondan AR-ə veriləcək kreditdən Naxçıvana 10 deyil, 20 mln. ayrılmasına icazə istəmişdi. Prezidentin "bu, çoxdur" cavabı qarşısında Naxçıvan Ali Məclisinin sədri bölgənin hərbi müdafiəsi məsələlərini nəzərə almağı lazım bilmişdi. "Mən S.Dəmirəldən xahiş etdim ki, 20 mln. oradan götürün. Onlar da 20 milyonu götürüb bizi yıxdılar".

Azərbaycan-Türkiyə münasibətlərinin **T.Özal-Ə.Elçibəy cütlüyü** və **S.Dəmirəl-H.Əliyev tandemi** şəraitindəki xarakteri, durumu və nəticələri diplomatik təhlillərin başlıca mövzularındandır. Bəzi **elmi-siyasi dairələrdə** Azərbaycan Xalq Cəbhəsi-"Müsavat" iqtidarı, ələlxüsus da Ə.Elçibəyin özü **"ifrat Türkiyəpərəst siyasətə"** və qatı türkçülüyə görə tənqid olunur. (Digər yandan da, T.Özalın türk dövlətlərinə münasibətdə ayrıseçkiliyə yol verməsi və guya Azərbaycanı daha çox əzizləməsi qabardılır).Onların fikrincə,bu hakimiyyətin xarici siyasətində Türkiyəyə böyük önəm verilməsi, onunla münasibətlərin prioritet sayılması Rusiya ilə İranı, hətta Qərbin bəzi dövlətlərini (məsələn, İngiltərə, Fransa və s.) xeyli qıcıqlandırmışdı.

Bu cür yanaşma ilə tam da razılaşmaq olmur. Çünki sonrakı dönəmdə Azərbaycanın onları, xüsusilə də İranla Rusiyanı əsla qıcıqlandırmadığı, özünə dost və tərəfkeş saydığı halda belə Kreml və rəsmi Tehran AR-in müstəqilliyini, ərazi bütövlüyünü, iqtisadi-mədəni inkişafını əngəlləməyə çalışırlar. Bir sözlə, **onların "çaldıqları havaya oynamağımızda"** israrlıdırlar. Ə.Elçibəy iqtidarı həm də bir sıra çevrələr tərəfindən dövləti idarəetmədə təcrübəsizlik, səriştəsizlik və s. ucbatından Türkiyə ilə əlaqələrin Azərbaycana verdiyi üstünlük və imkanlardan faydalana bilməməkdə, yumşaq desək, qınağa məruz qalır.(Bunun hətta qəsdən edildiyini bildirənlərə də rast gəlinir).

H.Əliyev-S.Dəmirəl tandemi dönəminin Azərbaycan-Türkiyə münasibətlərinə gəldikdə isə əksər diplomat və araşdırmaçılar belə bir qənaətdə həmrəydirlər: strateji tərəfdaşlıqda növbəti, yəni 1993-cü ilin yayından hesablanan **yeni mərhələ**

də o vaxtadək görülən birgə işlərin bazasında başladılmışdı. Başqa sözlə deyilərsə, **H.Əliyevin "Türkiyə siyasəti"** ondan əvvəlki hakimiyyətinkindən çox da fərqlənmirdi. Yəni Türkiyə istiqaməti yenə də AR-in xarici siyasətində üstün yön olaraq saxlanılırdı. Ancaq AR-in üçüncü prezidenti habelə Türkiyəyə münasibətdə "hər şey olmaz" prinsipini də üstün tuturdu.

Türkiyə hökumətinin də **"Azərbaycan yönümlü"** siyasəti davam etdirilirdi. AR rəhbərliyi bu zaman regionda **qüvvələr tarazlığının yaradılmasını və balanslaşdırılmış xarici siyasət** yeridilməsini önə çəkirdi. (Əslində belə yanaşma Ə.Elçibəy hökumətinin xarici siyasətində də özünü göstərirdi. Belə ki, Rusiya-Ermənistan-İran qütbləşməsinin Qərb (ABŞ)-Azərbaycan-Türkiyə (buraya Gürcüstanla Ukraynanı da əlavə etmək olar) strateji tərəfdaşlığı ilə zərərsizləşdirilməsinə çalışılırdı. Sadəcə, **"qısa iqtidar ömrü"** buna imkan vermədi).

Türkiyənin beynəlxalq siyasətdəki yeri və rolunu yetərincə dəyərləndirən H.Əliyevin qənaəti belə idi ki, bütün ölkələrlə əməkdaşlıq etmək istəyən Azərbaycanı Türkiyə ilə xüsusi münasibətlər bağlayır: eyni kökdən boyatma; ümumi cəhətlərimiz; birliyimizi möhkəmləndirmə zərurəti; iki ölkədə yaşayan bir (eyni) millət olmağımız. (Sözgəlişi, sonuncu fikirdən **qismən geriçəkilmə**, yəni 1995-ci ilin noyabrında AR Konstitusiyasının qəbulu zamanı dövlət dilinə əlaqədar dəyişiklik **("türk dilinin Azərbaycan dili ilə əvəzlənməsi")** Türkiyədə müəyyən rahatsızlığa səbəb oldu. Bu dəyişiklik həmçinin **"bir (eyni) millətin iki dili problemi"ni** ortaya çıxardı).

H.Əliyevin Türkiyəyə **prezident statusunda etdiyi ilk rəsmi səfər** (II.1994) faydalı oldu. O hələ Naxçıvan Ali Məclisinin sədri olarkən də Türkiyəyə səfərlər etmiş və həmçinin Ankara rəsmiləri ilə Naxçıvanda müəyyən müzakirələr aparmışdı. Ankaraya səfər zamanı (III.1992) Türkiyə ilə Naxçıvan (?!-İ.M.) arasında hərtərəfli əməkdaşlıq haqqında protokol da imzalanmışdı. Bu sənəd iqtisadiyyat, təhsil, nəqliyyat və rabitə sahələrində əməkdaşlığı, Türkiyənin Araz çayı üzərində körpü

salınmasına dair öhdəliyini və onun iş adamlarına Muxtar respublikaya sərmayə qoyuluşunda imtiyazlar verilməsini nəzərdə tuturdu.

H.Əliyevin Naxçıvan Ali Məclisinin sədri olaraq Türkiyə və İrana səfərləri zamanı apardığı danışıqlar da birmənalı səciyyələndirilmir. Bəziləri bu cür hərəkətləri **"ikihakimiyyətlilik"**, respublikanın mərkəzi hakimiyyəti ilə **hesablaşmamaq** kimi qiymətləndirirlər. Ancaq belə bir halın mövcudluğu və həmin işlərin Azərbaycan rəhbərliyinin icazəsi və xəbəri olmadan gerçəkləşdirilməsi məsələsi **Ə.Elçibəy tərəfindən təkzib edilmişdi.**

AR prezidentinin Türkiyəyə ilk bu rəsmi səfəri bir çox uğurlu nəticələri ilə seçilir. Danışıqlar 16 mühüm sazişin imzalanması, "Dostluq, qarşılıqlı anlaşma və hərtərəfli əməkdaşlıq haqqında" **onillik müqavilənin** bağlanması ilə başa çatdı. **Səfərin səmərəli yekunları** "Əsrin müqaviləsi"nə dair danışıqlara vüsət verdi, **"Bişkek protokolu"**nun imzalanmasına və AR-in NATO-nun "SNT" proqramına qoşulmasına təsir göstərdi. Fransaya rəsmi səfərdən (XII.1993) sonra Türkiyədə aparılan danışıqlar Qafqazda sabitlik və təhlükəsizlik baxımından da səmərəli oldu. Həmçinin Azərbaycanda "4 iyun qiyamı" nəticəsindəki iqtidar əvəzlənməsindən sonra bir müddət müəyyən "sarsıntılar"a uğrayan dövlətlərarası münasibətlərimiz də "böhran"dan çıxmağa başladı. Qardaş ölkənin bəzi siyasi çevrələrində **AR-in yeni rəhbərliyinin "Türkiyə siyasəti"** ilə bağlı yaranan rahatsızlıq və şübhələr yavaş-yavaş aradan qalxdı.

S.Dəmirəl prezident statusunda AR-ə rəsmi səfərini (XII.1995), başqa sözlə, Azərbaycana isə **3-cü gəlişini** gerçəkləşdirməklə dövlətlərarası tərəfdaşlığın davam etməkdə olduğunu bir daha təsdiqləməyə çalışdı. Prezidentlərin müzakirələrində vurğulanan **"Azərbaycan xalqı öz tarixinin ən çətin dövrlərində Türkiyənin dəstəyini almışdır" (H.Əliyev)** və "millətimizə, Azərbaycan dövlətinə və demokratiyasına inam yaradılmalıdır" (S.Dəmirəl) kimi fikirlər də qarşılıqlı faydalı

əməkdaşlığın inkişafına xidmət edirdi. Türkiyə prezidenti Azərbaycanın qonşu dövlətlərlə normal münasibətləri şəraitinin onun ölkəsi üçün də çox faydalı olmasını önə çəkmişdi.

Dövlət başçılarının qarşılıqlı səfərləri getdikcə daha da çoxaldı. H.Əliyev belə çoxsaylı görüşləri -əlaqələri **"başqa dövlətlər arasında olmayacaq"** hal kimi dəyərləndirirdi. Onun Türkiyəyə etdiyi sonrakı səfərlər (V.1997, II.1998, IV.1998, XI.1999, III.2001 və s.) səmərəli işgüzar müzakirələr, çoxlu sənədlərin imzalanması, beynəlxalq və regional siyasətdə uzlaşma ilə səciyyələndirilə bilər. Sənədlər sırasında AR ilə TC arasında "Strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında **Bəyannamə"** (IV.1997) ayrıca qeyd olunmalıdır. Bu səfərlər zamanı, habelə Türkiyə, Azərbaycan və Gürcüstanın dövlət başçılarının **Trabzon sammitlərində** (IV.1998,IV.2002) nəzərdən keçirilən bir mühüm məqam da diqqəti cəlb edir: Türkiyə-Qafqaz əlaqələri və Gürcüstanın da bir millətin iki dövləti arasındakı strateji tərəfdaşlıq dövriyyəsinə cəlb olunması. Türkiyə diplomatiyası bunu əsas tutaraq Azərbaycan və Gürcüstan prezidentlərinin imzaladıqları **"Tbilisi Bəyannaməsi"**ni (8.III.1996; onu **"Dinc Qafqaz Bəyannaməsi"** də adlandırırlar) dəstəklədi.

Hətta S.Dəmirəl Qafqazda *sabitlik* paktının yaradılmasına dair təklif irəli sürdü (I.2000). Paktın təşkili və fəaliyyəti ATƏT-in prinsiplərinə əsaslanmalı idi. S.Dəmirəl həmçinin **Qafqaz üçün "3+2+2" formulunu** təklif edərək, Azərbaycan, Gürcüstan, Ermənistan+Türkiyə, Rusiya+ABŞ və Aİ **formatında paktın** yaradılmasını da mümkün sayırdı. Sonralar İranın da ona qoşulmasıyla **"Qafqaz səkkizliyi"**nin ərsəyə gətirilməsi düşünülürdü. "Qafqazda sabitlik yollarının axtarışı" mövzusundakı beynəlxalq konfransda (İstanbul, II.2001) **"8-lər paktı"**na dair məsələlər də nəzərdən keçirilmişdi.

Türkiyə prezidenti **Ə.Sezərin** Orta Asiya türk cümhuriyyətlərinə **rəsmi turnesi** (X.2000) və **AR-ə səfərləri** ümumtürk birliyinə nail olunması yolunda görülən təsirli tədbirlərdən sayıla bilər. Onun 2001-ci ilin martında Ankarada H.Əliyevlə keçirdiyi görüşdə ikitərəfli əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi edilmişdi. Yeni dövlət başçılarının (İ.Əliyevlə A.Gülün) qarşılıqlı rəsmi səfərləri, habelə Türkiyənin Baş naziri R.Ərdoğanın ölkəmizə çoxsaylı işgüzar missiyaları strateji tərəfdaşlığımızın möhkəmlənməsinə müxtəlif tərəflərdən törədilən maneələrin aradan qaldırılmasına müsbət təsir göstərir. Prezidentlərin dövlət başçısı statusundakı xarici səfərləri seriyasında bir-birlərinin ölkələrinə gəliş-gedişlər önə çəkilmişdir.

Azərbaycan-Türkiyə strateji tərəfdaşlığında **"Dağlıq Qarabağ problemi"nin ədalətli həllinə yönəlik birgə fəaliyyət** aparıcı xətlərdən biri hesab olunur. Bununla əlaqədar olan bir çox məsələlər, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində müvafiq əməkdaşlıq, **Türkiyə-Avropa İttifaqı münasibətlərində "Azərbaycan amili",** rəsmi Ankaranın Ermənistanla sərhədlərin açılmasına dair mövqeyi ilə bağlı məqamlar dərsliyin 2-ci bölümündə ətraflı təhlil edilmişdir. Buna görə də burada əsasən Türkiyənin münaqişənin tənzimlənməsinə dair mövqe təklifləri, Bakı və Ankaranın Ermənistanın Azərbaycana təcavüzünə son qoyulmasıyla bağlı göstərdikləri **birgə səylər** barədə bəhs olunur.

Türkiyə diplomatiyası Rusiya tərəfindən idarə olunan və İran tərəfindən yönləndirilən Ermənistanın Azərbaycana təcavüzünə (**"yeni Dağlıq Qarabağ problemi"**nin yaradılmasına) **qlobal antitürk siyasətinin bir hissəsi** kimi yanaşır. T.Özal AR-ə rəsmi səfəri zamanı (IV.1993) xəbərdarlıq səciyyəli bir açıqlamasında bildirmişdi ki, "Azərbaycan torpaqlarının işğalı qəbul edilə bilməz. Erməni buradan çıxmasa, çıxarılacaq...". Rəsmi Ankaranın **"Ermənistan siyasəti"ndə "Azərbaycan amili"** də özünə yer almışdır. Türkiyə müxtəlifyönlü təzyiqlərə baxmayaraq indiyədək Ermənistanla diplomatik münasibətlər qurmamış və onunla sərhədlərini açmamışdır. Belə bir mövqe tutulmasına isə Ermənistanın Türkiyəyə qarşı ərazi iddiaları və "erməni soyqırımı" təbliğatı ilə yanaşı Dağlıq Qarabağ münaqişəsinin hələ ki, ədalətlə tənzimlənməməsi də həlledici təsir

göstərmişdir.

Türkiyə Ermənistanın Azərbaycana təcavüzünə son qoyulması ilə bağlı məsələdə həmişə AR-in haqlı mövqe və tələblərini müdafiə edir. Qardaş dövlətin rəsmiləri zaman-zaman Azərbaycan rəhbərliyinə müəyyən tövsiyələr verərək bir sıra təkliflər də irəli sürmüşlər:

1-cisi, hələ T.Özal-A.Mütəllibov görüşündə (Ankara, II.1992) Türkiyə tərəfi **hərbi əməkdaşlıq,** öncəliklə də hələlik **"hərbi təhsil səviyyəsində"** işbirliyi məsələlərinin müzakirəsini məsləhət bilmişdi.

2-cisi, H.Çətin Türkiyənin baş diplomatı olarkən "ermənilər işğal etdikləri ərazilərdən çıxmalıdırlar" tələbini dəfələrlə səsləndirmişdi. O, Azərbaycan XİN-i T.Qasımovla Ankarada (VIII.1992) və Bakıda (III.1993) Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələlərinə həsr olunan müzakirələrdə **"Rusiya amili"**nin nəzərə alınmasını vurğulamışdı. (Bununla bağlı o, Rusiya XİN-i A.Kozırevlə də "problem"in dinc yolla həlli mexanizminin hazırlanması barədə məsləhətləşmələr aparmışdı).

3-cüsü, Ermənistanın ölkəmizə qarşı təcavüzünün genişlənməsinə və onun Qars müqaviləsinin ləğvinə çalışaraq Naxçıvana da ərazi iddiaları sürməsinə qarşı sərt mövqe nümayiş etdirən T.Özalın AR-ə rəsmi səfəri zamanı (IV.1993) Ə.Elçibəylə **"Bakı danışıqları"** zamanı **müştərək müdafiə müqaviləsinin** imzalanması da gözlənilirdi. Ancaq o, həmin dövrki beynəlxalq reallıqları nəzərə alaraq, hərbi ittifaq yaradıb problemi zorla həll etməyi mümkünsüz və həmçinin münaqişəni daha da genişləndirən, Qafqazda, Yaxın və Orta Şərqdə böyük müharibə törədə biləcək hərəkət saydı; münaqişənin **ATƏM çərçivəsində siyasi-dinc yolla həlli** variantına üstünlük verildi.

Həm onun, həm də S.Dəmirəlin bu məsələdəki **oxşar mövqe-yanaşması** Türkiyənin siyasi-hərbi dairələrinin müəyyən hissəsində **"ürkək siyasət"** kimi səciyyələndirilmişdi. Hərbi ittifaq müqaviləsinin bağlanmasına **tərəfdar olan baxışlar**

Azərbaycanda da üstünlük təşkil edir. Rusiya ekspertlərinin bəzilərinə görə də, Türkiyə Azərbaycanın mövqeyini dəstəkləməsinə baxmayaraq **hərbi ittifaqdan (müttəfiqlikdən) çəkinir və yayınır.** Müəyyən **əksməzmunlu yanaşmalar** isə **"Türkiyə amili"** olmasaydı Azərbaycanın siyasi elitası kompromislərə daha da meyllənə bilərdi" iddiasındadır.

4-cüsü, Baş nazir T.Çillər ABŞ-da B.Klintonla apardığı müzakirələrdən sonra (15.X.1993) belə bir qənaətini açıqlamışdı: "Qafqazda sülhün bərqərar edilməsi sahəsindəki birtərəfli səylər qeyri-məqbuldur. O, habelə Ermənistanın Azərbaycana təcavüzünün qarşısının alınması üçün BMT TŞ-yə müraciət edilməsini və iki ölkənin sərhədlərində BMT-nin sülhməramlı qüvvələrinin yerləşdirilməsini lazım bilmişdi. Bu təklifləri Azərbaycanda Türkiyənin "onun adından danışması" və AR rəhbərliyinin səlahiyyətlərinə müdaxiləsi kimi dəyərləndirənlər də olmuşdu. BMT-yə müraciətsə AR tərəfindən razılıq alınmaması üzündən baş tutmamışdı.

5-cisi, Ə.Sezərin H.Əliyevlə Ankarada apardığı müzakirələrdə (III.2001) tərəflər münaqişənin ədalətlə həllində **Türkiyənin "real köməyinin vaxtının çatdığı"** qənaətində həmrəy oldular. Türkiyə tərəfi sərhədlərin zorla dəyişdirilməsinə qarşı olduğunu bir daha vurğuladı. Habelə Minsk Qrupu ilə həmsədr dövlətlərin Azərbaycanın tək olmadığını hiss edərək bununla hesablaşmaları məsələsinə toxunuldu.

6-cısı, A.Gül ilə R.Ərdoğan Türkiyənin Ermənistanla münasibətlərində Dağlıq Qarabağla əlaqədar şərt-tələbdən imtina ediləcəyinə və sərhədlərin aşılacağına dair məsələrlə bağlı mövqelərini açıqlayarkən bir sıra fikirlər söyləmişlər. Onlar İ.Əliyevlə çoxlu danışıqlarında "Ermənistan Azərbaycana təcavüzü aradan qaldırmayana qədər Türkiyə ilə münasibətlər qura bilməz" müddəasını dəfələrlə vurğulayıblar.

Ancaq son vaxtların bir proses-hadisəsi, yəni Türkiyə ilə Ermənistan XİN-lərinin imzaladıqları (10.X.2009) **Sürix** protokolları Ankara-Bakı münasibətlərində və, bütövlükdə, beynəl-

xalq siyasətdə yeni durum yaratmışdır. Tərəflər həmsədr dövlətlərin baş diplomatlarının (H.Klinton, S.Lavrov və B.Kuşnerin) iştirakı ilə **2 protokol** imzalayıblar: **1.**Türkiyə Cümhuriyyəti və Ermənistan Respublikası arasında diplomatik əlaqələrin qurulmasına dair. **2.** Ermənistan Respublikası və Türkiyə Cümhuriyyəti arasında münasibətlərin inkişafı.

Üzdən sadə görünən, əslində isə çox mürəkkəb olan və ətrafında istənilən diplomatik manevrlər edilə biləcək **protokolların əsas məqamları (tezisləri)** bunlardır:

- iki ölkə arasında və regionda sülh-təhlükəsizliyin möhkəmləndirilməsinə yardım edəcək etibarlı mühitin yaradılması və qorunması;
- təhdid və güc tətbiqindən çəkinmə;
- münaqişələrin sülh yolu ilə həll olunmasının inkişaf etdirilməsində qətiyyətlilik;
- yaxşı qonşuluq münasibətlərinin qurulması;
- siyasi, iqtisadi, mədəni və digər sahələrdə qarşılıqlı əməkdaşlığın inkişafı;
- səbəbindən asılı olmayaraq terrorçuluğun bütün formalarının, zorakılıq və ekstremizmin qınanması, onlara qarşı birgə mübarizə və s.

Protokollara dair çoxtərəfli maraqlar, sənədlərin başlıca məqamları, nəticələri və perspektivləri ilə bağlı xeyli fərqli siyasi-elmi dəyərləndirmələr var. BMT-nin Nizamnaməsinə, Helsinki "Yekun Aktı"na, "yeni Avropa üçün Paris Xartiyası"na, "Diplomatik Əlaqələrə dair" Vyana konvensiyasına (1961) istinadən tərtib olunan **protokolları təqdir edən baxış və mövqelərin başlıca müddəalarından** bunlar qeyd oluna bilər:

1.Protokolların təsdiqlənməsi əsasında baş verə biləcək Türkiyə-Ermənistan yaxınlaşması Güney Qafqazda həlli müşkülə çevrilən problemlərin çözülməsi prosesində müsbət irəliləyişə təkan olardı. Müəyyən riskləri və yeni imkanlarla bağlılığı da inkar edilə bilməyən bu hal düşündürücü hesab olunur. Türkiyənin bölgədəki yüksək fəallığı və region dövlətlərinin

hamısı ilə sıx əməkdaşlığı onun məhəlli güc kimi özünü təsdiq etməsi deməkdir. Türkiyənin güclənməsinin onun strateji tərəfdaşı olan Azərbaycanın maraqlarını təmin etməsi şübhə doğurmur.

2.Bu sənədlərin ratifikasiyasının milli kimliyini mifoloji baxış-mövqelər ("Böyük Ermənistan" xülyası, "erməni soyqırımı məsələsi" və s.) təşkil edən ermənilər daxilində parçalanmanı dərinləşdirməsi və qarşıdurmanı gücləndirməsi də ehtimal olunur.

3.Rəsmi Ankaranın "protokolların təsdiqlənməsi yalnız Ermənistanın tutduğu Azərbaycan torpaqlarını azad etməsindən sonra mümkün ola bilər" tələbi "Dağlıq Qarabağ problemi"nin daha qəti şəkildə beynəlxalq gündəmə daşıyır. "Dağlıq Qarabağ məsələsi" elə Türkiyənin də problemidir, tutulan ərazilər bizim də torpaqlarımızdır" kimi yanaşma münaqişənin ədalətli həllində onun sözsahibi olmaq imkanlarını artırır.

4. ABŞ və Aİ Türkiyənin Ermənistanla yaxınlaşmasına (onların protokollar imzalaması və təsdiqləməsinə) çalışmaqla Rusiyanın daha da zəiflədilməsi və regiondan çıxarılması məqsədini güdür. Bu yolla Ermənistanın tamamilə Qərbin təsiri altına düşməsi və Dağlıq Qarabağ münaqişəsinin həlli, Azərbaycan torpaqlarının işğaldan qurtarması ehtimal edilir. (Sözgəlişi, bəzi ekspertlərin fikrincə, Azərbaycan hökuməti bunların Türkiyənin hesabına baş verməsinə (onun adı ilə bağlanmasına) bir o qədər də həvəs göstərmir).

Protokollara dair mənfi yanaşmaların əsas mülahizə-tezisləri isə aşağıdakılardır:

1-cisi, "erməni açılımı"nın Azərbaycanın əleyhinə olmadığına dair iddialar əsassızdır. Ermənistanla sərhədlərin açılmasına razılıq və "Qarabağ şərti"ndən geri çəkilmə Türkiyə-Azərbaycan strateji tərəfdaşlığına ciddi zərbə ola bilər (Qardaş dövləti 9-cu prezidenti S.Dəmirəlin bir açıqlama-xatırlatmasında deyilir ki, "SSRİ-nin dağılmasından sonra Türkiyə Ermənistanın müstəqilliyini tanımışdı. Bir müddətdən sonra Azərbaycan

torpaqlarının müəyyən hissəsini tutduğundan onunla sərhədlər bağlandı". "Sərhədlərin bağlanmasının səbəbi aradan qalxdımı?" sualından çıxış etməyi məsləhət bilən S.Dəmirəl həmçinin "protokollarla siyasi manevrin, yəni "sənədlər imzalanır, ancaq təsdiqlənmir və sərhədlər yenə də bağlı qalır" sxemi-taktikasının təhlükəli olduğunu da nəzərə almağı vacib sayır. Belə ki, hazırkı iqtidarın sərhədlərin açılması ilə bağlı beynəlxalq çevrələrə və bəzi dövlətlərə verdiyi vədin reallaşmamasının Türkiyəni ciddi problemlərlə üzləşdirməsi də istisna deyil).

2-cisi, protokolların ratifikasiyası və sərhədlərin açılması üzündən Azərbaycanla strateji tərəfdaşlıq münasibətlərində yarana biləcək gərginlik rəsmi Ankaranın bütün türk dünyası ilə əlaqələrində soyuqluğa səbəb olar. Habelə Türkiyənin qoşulduğu bir sıra strateji önəmli layihələr də təhlükə altında qalar.

3-cüsü, Türkiyə-Ermənistan protokollarının həyata keçirilməsinin onlar arasındakı münasibətləri normallaşdırmaqla yanaşı həm də sonuncunun regional iqtisadi layihələrdə iştirakına yol açdığını güman etmək sadəlövhlük olardı. Başqa sözlə, Ermənistanın bu yolla razı salınması və nəticədə Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllini tapması çağdaş regional reallıqlar xaricindədir. Özünün təcavüzkar siyasəti və Rusiyanın aləti olması üzündən **"BTC qatarı"ndan qalan Ermənistan**ın BTQ dəmiryolu, İran-türkiyə qaz kəməri, hətta "Nabucco" layihələrində iştirakının gerçəkləşməsi hazırkı şəraitdə inandırıcı görünmür.

Ancaq protokollardan birində Türkiyə-Ermənistan enerji əməkdaşlığı barədə müddəa da özünə yer alıbdır. Burada söhbət Azərbaycanın iştirakı nəzərdə tutulmayan əməkdaşlıqdan gedə bilər. Artıq müxtəlif səviyyələrdə müəyyən müzakirələrin aparıldığı haqda məlumatlar yayılmaqdadır. Həmin müzakirələrdən birində Türkiyə ilə Aİ-nin "Nabucco"nun İran və Ermənistandan keçməsini nəzərdən keçirdikləri bildirilir. Həmçinin Rusiya qazının Türkiyəyə və eyni həcmdə İran qazının Ermənistana nəqli, sonuncunun da İİR-ə elektrik enerjisi verməsinə dair

məsləhətləşmələrin getdiyi qeyd edilir. Digər bir məlumatsa Ermənistandan keçməklə İran-Türkiyə qaz kəmərinin çəkilməsini açıqlayır. Ermənistanın Türkiyəyə elektrik enerjisi satması üçün sonuncunun "Unit" şirkəti ilə danışıqlara girişildiyi də məlumdur. Rusiyanın "Kommersant" qəzeti Ermənistanın "Armros qazprom" şirkətinin digər əlaqələrindən bəhs edir.

Regional enerji mərkəzinə çevrilməyi hədəfə alan Türkiyə Rusiyanın **"Cənub axını" və "Mavi axın-2" layihələrinə** qoşulmaq təklifinə müsbət yanaşır. Habelə Rusiya öz neftini Türkiyə vasitəsilə Ceyhan limanına nəql etməkdə maraqlıdır. Eyni vaxtda İran da öz qazını Türkiyədən ötürülməklə Avropa bazarına çıxarmaq istəyir. Yuxarıda sadalananların hamısını üstüstə gəldikdə enerji ehtiyatlarına malik olmayan Ermənistanın belə çoxşaxəli əməkdaşlıqdan xeyli qazana bilməsi mümkündür. Məlum səbəblərə görə, mövcud layihələrdə iştirak edə bilməyən Ermənistan gələcəkdə "Azərbaycansız enerji əməkdaşlığı"na cəlb oluna bilər. Bunun da sayəsində o, Rusiya-İran-Türkiyə arasında çoxşaxəli enerji dəhlizinə çevrilər.

Ermənistanın regional iqtisadi layihələrdə iştirakına aid təkliflərdən biri də Avropa İttifaqı XİN-lərinin toplantısında (İsveçrə, 6.IX.2009) irəli sürülmüşdür. Burada söhbət Bakı-Dağlıq Qarabağ-Laçın-Ermənistan-Naxçıvan-Türkiyə (Ədirnə) quru yolunun çəkilməsindən gedir. **Ə.Davudoğlunun "Sülh yolu" adlandırdığı təklif** əslində yeni bir ideya deyil. O, vaxtilə çəkilməsinə başlanılan yolun tikintisinin davamına səy hesab edilir. Hələ SSRİ dönəmində olan iki quru yolu (Bakı-Qazax-İcevan-Naxçıvan və Bakı-Yevlax-Ağdam-Dağlıq Qarabağ-Laçın-Ermənistan-Naxçıvan) ölkəmiz üçün çox əlverişsiz idi. Xüsusilə ikinci yol qışda bağlanırdı və həmçinin onun 200 km-i Ermənistandan keçirdi. Sovet hökumətinin 1981-ci ildə qəbul edilən qərarına əsasən digər marşrutun, yəni Bakı-Zəngilan-Mehri-Naxçıvan yolunun çəkilməsinə başlanılmışdı. 50 km-ə yaxın hissəsi Ermənistandan keçən həmin yolun çəkilişi onun sərhədinə çatdıqda ermənilərin etirazı üzündən dayandırılmışdı.

Ermənilər Zəngilan-Mehri-Naxçıvan quru yoluna Azərbaycan-Türkiyə strateji dəhlizi kimi yanaşırdılar. SSRİ hökumətinin 1985-ci il qərarına əsasən çəkilişi davam etdirildi. Hətta Naxçıvanla İqdırı birləşdirən körpü salındı. Araz çayı üzərindən dəmiryol körpüsü də tikilməkdəydi. Ancaq yolun inşası Ermənistanın Azərbaycana təcavüzü üzündən yarımçıq qaldı. Türkiyənin mərhum Baş naziri B.Ecevit bu layihəni "Türk yolu" adlandırmışdı. Azərbaycan mütəxəssisləri mətbuat vasitəsilə Ə.Davudoğluna böyük hissəsi ermənilərin nəzarəti altında ola biləcək yeni (**"Sülh yolu**"nun) tikilməsindənsə, Azərbaycan-Türkiyə strateji dəhlizi ilə çəkilən köhnə (**"Türk yolu**"nun) bərpasına çalışılmasını məsləhət bilirlər.

4-cüsü, Türkiyənin protokollarla Avropa İttifaqına üzvlük yolunda daha bir maneəni aradan qaldıra biləcəyinə dair gözlənilənlər də ümidverici deyildir. AB-nin Türkiyə ilə bağlı daima sistemli və məqsədli olaraq əsas tutduğu **"ikili standart"** ın aradan qaldırılacağını söyləməyə yetərli əsaslar yoxdur.

5-cisi, protokolların "təhdid və gücdən istifadədən çəkinmə" kimi məqamları ilə Türkiyə Ermənistanla Azərbaycan arasında mümkün ola biləcək hərbi və s. qarşıdurmada avtomatik şəkildə kənarda qalır. Həm də nəzərə alınmalıdır ki, artıq Rusiya-Ermənistan-İran blokunun formalaşdığı bir şəraitdə Türkiyə ilə Azərbaycan arasında yetərli hərbi müttəfiqlik (müqavilə və s.) belə yoxdur. Bu kontekstdə "Sürix sənədləri"nin Azərbaycanın Naxçıvan bölgəsini təhlükəyə salmasına dair də xəbərdarlıqlar edilməkdədir. Belə bir məsələni isə ilk dəfə Türkiyənin ABŞ-dakı keçmiş böyük elçisi, hazırda millət vəkili olan, peşəkar diplomat Ş.Ələkdağ açıqlamışdır. Onun fikrincə, **protokolların ratifikasiyası ilə Qars müqaviləsi (13.X.1921) qüvvədən düşə bilər. Bu halda "Naxçıvanın statusunun dəyişdirilməsi" ehtimalı və imkanı yaranmış olur**. "Həyəcan təbili" çaldığını bildirən Ş.Ələkdağ Türkiyənin də qarantı olduğu **"Naxçıvanın statusu və təhlükəsizliyi məsələsi"nin protokolda açıq qadığı** qənaətindədir. V.Quluzadəyə görə, **"dövlət deyil, Rusiyanın bir quberniyası" və böyük güclərin "ərköyün övladı" olan Ermənistan** ilk əlverişli imkanı qazanan kimi həmin bölgəmizi işğal edər: "Sərhədlər açılsa da, heç bir erməni türkə olan düşmənçilik və nifrət hissini itirməyəcəkdir".

Bəzi ekspertlərsə, məlum protokolların təsdiqlənməsinin Qars müqaviləsini qüvvədən düşürəcəyini və bununla da Ermənistanın yeni iddiaları üçün əsas verəcəyini güman etmirlər. Bu zaman ərazi müqavilələrinin hüquqi-siyasi statusunu itirməsinin torpağın üçüncü dövlət üçün mənsubiyyətinə əsas yaratmadığı bildirilir. Habelə vaxtılə Azərbaycanın İrəvanı və Zəngəzuru Ermənistana verməsinə dair mövcud olan sənədlər xatırladılır. Ş.Ələkdağ da daxil olmaqla bir çox diplomatlar və analitiklər protokolların təsdiqlənməsinin (Qars müqaviləsinin qüvvədən düşməsinin) Ermənistanla sərhədlər məsələsini gündəmə gətirməklə Türkiyənin özü üçün problemlər yaradacağını vurğulayırlar. Çünki **Qars müqaviləsində Türkiyə-Ermənistan sərhədləri də təsbit olunubdur.**

Qars müqaviləsi ilə edilən belə bir təsbitləməyə və Naxçıvanın statusunun müəyyənləşdirilməsinə baxmayaraq Ermənistan həm Türkiyəyə, həm də adıçəkilən bölgəmizə qarşı ərazi iddialarını davam etdirməkdədir. (Burada 1921-ci ildə bağlanan Moskva və Qars müqavilələrinin incələnməsi zamanı aşkarladığımız bu **vacib məqamı** da diqqət önünə çəkmək lazım gəlir. Belə ki, Moskva müqaviləsinin 3-cü maddəsində yazılan "protektoratı (Naxçıvan vilayətini – İ.M.) Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi" şərti Qars anlaşmasının məlum 5-ci maddəsində öz əksini tapmamışdır).

Ekspertlərin fikrincə, protokolların təsdiqlənəcəyi təqdirdə Türkiyə Ermənistan konstitusiyasında ona qarşı irəli sürülən ərazi iddiaları barədə də məsələ qaldırmalıdır. Çünki protokollarda tərəflərin bir-birinin ərazi bütövlüyünü tanıdığı da qeyd edilibdir. Əslində Türkiyə Ermənistanın müstəqilliyini tanımaqla onun ərazi bütövlüyü ilə də hesablaşmışdı. Əksinə Ermənistanın müstəqillik Aktında və Konstitusiyasında isə Türkiyə ilə

Azərbaycanın ərazi bütövlükləri tanınmırdı. **"Sürix sənədləri"**nin imzalanması Ermənistan üçün habelə Türkiyəyə qarşı irəli sürdüyü ərazi iddialarından geri çəkilməyə qol qoyulması mənasındadır. Protokolların təsdiqlənəcəyi halda bu, dövlətlərarası hüquqi-siyasi halın Konstitusiyada mütləq təsbit olunması zərurəti gündəmə gəlir.

6-cısı, "Sürix protokolları" Qərbin layihəsi və "Nobel mükafatı tələsi" olaraq da səciyyələndirilir. **"Ermənistanın avropalı dostları" qurumu**nun rəhbəri M.Kembekin açıqlamasına görə, Türkiyə ilə Ermənistan arasında anlaşma əldə ediləcəyi və sərhədlərin açılacağı halda Ərdoğanla Sərkisyana Nobel Sülh mükafatı veriləcəkdir (Bunu **növbəti "erməni təxribatı"** sayanlar, mükafatın B.Obamaya verilməsi ilə bağlı yaranan rəngarəng mövqelər axarında mümkün hesab edənlər də yox deyil). Ekspertlərin çoxu "Türkiyə-Ermənistan münasibətlərinin indiki durumunda Nobel mükafatına əsas verəcək bir məqam yoxdur" mövqeyindədirlər. Həmçinin ortalıqda Qərbin Sərkisyanla Ərdoğanın kompromislərə getmələri üçün Nobel Sülh mükafatı ilə şirnikləndirilmələri planının olması vurğulanır. Bunlarla bağlı Azərbaycan, Türkiyə və Rusiya mətbuatında bir sıra obrazlı ifadələrlə səsləndirilən düşündürücü mülahizə və müddəalara rast gəlinir: **"Türkiyəyə Ənvər Sadat lazımdırdımı?", "Ərdoğan ikinci Sadat, ikinci Pamuk olmaq istəyirsə:", "Bəlkə Putinə də Nobel mükafatı vəd edilsin?"** və s.

Protokolların Ermənistanda da müxtəlif rəylər yaratdığı müşahidə edilir. Türkiyə ilə "Yol xəritəsi"ni, yəni onunla yaxınlaşma və anlaşmanı bəyənənlərə rast gəlinir. Bütövlükdə isə, ölkədə **"Sərkisyan Qarabağı satıb"** ab-havası hakimdir. Yəni ermənilərin əksəriyyəti əvvəlki ampluasındadır. Əsas narazılıq və etirazların Ermənistan ordusu və "DQR"-in siyasi dairələrinin bir hissəsi tərəfindən edildiyi bildirilir. Separatçı rejimin rəhbərliyi türk-erməni barışıq prosesini dəstəkləsə də, Ermənistan-Azərbaycan münaqişəsinin həllində Dağlıq Qarabağın

tərəf kimi iştirakını tələb edir. Münaqişənin tənzimlənməsinə dair Afinada keçirilən (30.XI-1.XII.2009) danışıqlarından sonra Ermənistanda rəsmi İrəvanın məğlubiyyəti barədə diskussiyalar çoxalıbdır. Hərçənd ki, E.Nalbəndyan Afinada qəbul edilən sənədi erməni diplomatiyasının uğuru hesab edir: **"Azərbaycan ilk dəfə olaraq** xalqların öz müqəddəratını təyinetmə hüququnun Qarabağ münaqişəsinə tətbiqinə razılıq veribdir" (?!-İ.M.).

Türkiyə-Ermənistan yaxınlaşması S.Sərkisyanın istefası (hətta onun öldürülməsi) çağırışlarını gücləndirmişdir. (Bunun **növbəti "erməni gedişi"** olması da deyilir). Beynəlxalq dairələrdə (elə Azərbaycanda da) bəzi siyasətçilər və ekspertlər Ermənistanda Türkiyə və Azərbaycana qarşı daha barışmaz qüvvələrin hakimiyyətə gələ bilməsi ehtimalından qayğılanırlar. S.Sərkisyan isə diasporadan dəstək almaq səylərini artırmışdır. Bu sırada onun Paris və Moskvaya səfərləri (X.2009) diqqətçəkicidir. Paris görüşündə **75 faizi diasporadan ibarət olan ermənilər**in Avropanın 27 ölkəsində fəaliyyət göstərən 100-dən çox təşkilatının təmsil olunduğu bəllidir. Amma İtaliyanın "La Stampa" qəzetinin məlumatına görə, **"diasporaya qarşı çıxmağa cəsarət edən ilk dövlət başçısı"** nın bu, ümumerməni turnesi uğursuz olmuşdur.

Erməni diaspora və lobbisi **"tənha adam"ın (S.Sərkisyanın)** Türkiyə ilə anlaşmaq xəttinə "xeyir-dua" vermədi. Moskva səfərində isə erməni diasporasından pul toplanmasının mühüm yer tutduğu məlumdur. Bu işdə də əsasən 1992-ci ildə yaradılan və indiyədək "DQR"-ə 200 mln. dollardan çox yardım edən "Hayastan" fondunun imkanlarından yararlanmağa çalışılmışdı. Ancaq məlum protokolların bu missiyaya da müəyyən kölgə saldığı bildirilir.

Diasporanın təzyiqləri Sərkisyan-Nalbəndyan cütlüyünün protokollarla bağlı mövqeyində, yəni Türkiyə ilə anlaşma məsələsində bəzi gedişlərini şərtləndiribdir. Belə ki, Dağlıq Qarabağın danışıqlar prosesinə qoşulması şərti israrla irəli sürülübdür: "münaqişənin dinc yolla həllinin ən real yolunu Dağ-

lıq Qarabağın danışıqlarda iştirakı təşkil edir". Müdafiə naziri S.Ohanyan KTMT-nin yardımına bel bağladıqlarını gizlətməyərək Azərbaycanı "daha dəhşətli hərbi əks-zərbələr"lə hədələyibdir. Baş diplomatsa rəsmi İrəvanın Qarabağ məsələsində güzəştlərə getməyəcəyini vurğulayaraq bildirib ki, **"Dağlıq Qarabağ münaqişəsi və Ermənistan-Türkiyə münasibətləri iki müxtəlif prosesdir.** Bu, yalnız Ermənistanın deyil, habelə beynəlxalq ictimaiyyətin mövqeyidir. Türkiyə ilə danışıqlar fevralda (2009-cu ildə - İ.M) qurtarıb".

Türkiyə-Ermənistan münasibətlərinin **normallaşması təşəbbüsünü Ankaranın deyil, İrəvanın irəli sürdüyü**nü açıqlayan E.Nalbəndyanın fikrincə, "protokollar çoxtərəfli yox, ikitərəflidir və onların ratifikasiyasını başqa dövlətə bağlamaq beynəlxalq təcrübəyə ziddir". Ermənistan rəhbərliyi Türkiyə ilə danışıqlar mərhələsinin artıq başa çatdığını və qarşıda isə protokolların tezliklə təsdiqlənməsi əsasında diplomatik münasibətlərin qurulması, sərhədlərin açılması məsələsinin dayandığını bəyan edir. Hətta İrəvanın Ankaraya 2010-cu ilin martınadək vaxt verdiyi və əks halda münasibətlərin yenidən korlanacağına dair xəbərdarlıq etdiyi barədə rəsmi məlumatların yayılması da bəllidir".

Məlum protokolların Türkiyə-Azərbaycan strateji tərəfdaşlığına kölgə saldığı gözönündədir. İki qardaş dövlət arasındakı münasibətlərdə əsən **"soyuq ruzgarlar"** hələlik üzə qarşılıqlı **"bayraq böhranları"**nı və s. çıxarmışdır. **Alt qatda – pərdəarxasında** isə Azərbaycan qazının nəqli ilə bağlı anlaşmanın hələ də razılaşdırılmaması, Bakı ilə Ankara arasında "BTC çəkişməsi", Türkiyə ilə viza rejiminin ləğvinin ləngiməsi və digər məsələlərlə bağlı qeyri-müəyyənliklər (mübhəmlər) qalmaqdadır. Ekspertlər "ARDNŞ"-in 2010-cu il yanvarın 1-dən Rusiyaya satılacaq qazın həcminin 2 dəfə artırılması (500 mln. kubmetrdən 1 mlrd. m^3-ə çatdırılması) qərarının AR XİN-i E.Məmmədyarovun Türkiyəyə rəsmi səfərinin (XII.2009) ardınca verilməsini heç də təsadüfi saymırlar. **("BTC çəkişməsi"** barədə 3-cü bölümdə ətraflı bəhs olunur).

Viza anlaşmasının da açıqlanmayan tərəflərinin olduğu önə çəkilir. Ankarada Türkiyə XİN-ə ayrılan yeni iqamətgahda ilk xarici qonaq kimi qəbul edilən (25.XII.2009) E.Məmmədyarov həmkarı Ə.Davudoğlu ilə az öncə qeyd edilən danışıqlardan sonra viza rejiminin ləğvinə dair sazişin imzalanmamasını **"texniki problemlər – prosedurlar"**la əlaqələndiribdir: "Bu məsələ ilə bağlı Türkiyə tərəfindən hər şey hazırdır. Lakin Azərbaycanın bəzi prosedurları keçməsi lazımdır. Onlar başa çatandan sonra viza rejiminin ləğvi barədə protokol imzalanacaqdır". Viza protokolunun imzalanmaması Türkiyənin bəzi çevrələrində və mətbuatında "daha bir kriz", "Şok xəbər" kimi dəyərləndirilmişdir.

Ancaq bu işdə müəyyən **ciddi səbəblərin** də rol oynadığı bildirilir. Azərbaycanın vizasız gediş-gəlişin **pkkçıların sərbəst hərəkətinə**, ölkəyə qaçaq miqrant axınına, insan alveri ilə məşğul olanların fəallaşmasına gətirib çıxaracağından rahatsızlığı önə çəkilir. Son məlumatlarsa əsas narazılığın tələbələrə viza verilməsi üstündə yarandığından xəbər verir. Azərbaycan tərəfi tələbələrin viza məsələsinin bu sazişə daxil edilməməsini istəyibdir. Türkiyə isə buna daha sonra baxılması ilə razılaşıbdır. E.Məmmədyarovun səfərindən öncə viza rejiminin ləğvinə dair razılıq əldə olunsa da, son anda bu alınmayıbdır. (Türkiyə viza rejiminin qarşılıqlı ləğvini hələ 1995-ci ildə təklif etmişdir. Onun XİN-i Azərbaycana qarşı viza rejiminə 2009-cu il iyulun 30-dan etibarən son qoyubdur. Buna əsasən də Azərbaycan vətəndaşları vizasız 1 ay Türkiyədə qala bilərlər. İmzalanması hələlik baş tutmayan protokol isə, iki ölkənin vətəndaşlarının bir-birində 3 ay icazəsiz yaşamalarına imkan verir).

Protokolların Türkiyə-Azərbaycan münasibətlərində yaratdığı **soyuqluq (inciklik) və İrəvanın Ankaraya qarşı dəmarşları** R.Ərdoğanın ABŞ rəhbərliyi ilə Vaşinqtonda apardığı danışıqlara (XI.2009) bilavasitə və dolayısı yolla təsir göstərdi. Danışıqlar zamanı Obama ilə Ərdoğanın çağdaş beynəlxalq

həyatın ən vacib problemlərini (Əfqanıstan və İraqda vəziyyət, Yaxın Şərq sülh prosesi, Kipr münaqişəsinin həlli, İranın "nüvə proqramı" və s.) müzakirə etmişlər. Bu, çoxşahəli müzakirələrdə Türkiyə-Ermənistan yaxınlaşması və Dağlıq Qarabağ münaqişəsinin nizamlanması da mühüm yer tutubdur.

Obama-Ərdoğan danışıqları barədə rəsmi açıqlamalar və yayılan məlumatlar müzakirələrin belə bir axarını təxmin etməyə əsas verir:

- bir sıra məsələlərdə ABŞ-a verilən Türkiyə dəstəyini yüksək qiymətləndirən 44-cü prezident Baş nazirdən Ermənistanla imzalanan protokolların tezliklə ratifikasiyasını istəyibdir. Obama Ərdoğanı protokolların 2010-cu ilin aprelinədək təsdiqlənməyəcəyi təqdirdə Konqresin "erməni soyqırımı"nı tanıya bilməsi təhlükəsi barədə xəbərdar (buna təhdid də demək olar) edibdir. Bu isə Konqresin "təsirinə məruz qalan" prezidentin Türkiyəyə təzyiqləri artıracağı anlamına gəlir. Belə bir vəziyyətdə Ağ Evin Ankaraya "Sürix sənədləri"nin təsdiqlənməsinə (Türkiyə-Ermənistan yaxınlaşmasına) Dağlıq Qarabağ münaqişəsinin nizamlanması şərtini əlavə etməməsini "məsləhət görməsi" də *bəlli olubdur*;
- Vaşinqtonda qəti mövqe nümayiş etdirən Baş nazir isə bildiribdir ki, "Dağlıq Qarabağ ətrafındakı tutulan rayonlar Azərbaycana qaytarılmasa protokolların ratifikasiyası mümkün olmayacaqdır".O, işğal olunan ərazilərin **"5+2" sxemi üzrə, yəni 5 rayon+Laçın, Kəlbəcər ardıcıllığı** ilə boşaldılmasının lazım gəldiyini önə çəkibdir. Göründüyü kimi, protokolların taleyinin Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həllindən birbaşa asılılığı qənaəti tam açıqlanıbdır (Bu şərt, yəni məsələnin belə qoyuluşu Türkiyənin "Qarabağ problemi"nin bütövlükdə həllinə deyil, yalnız tutulan rayonların bir qisminin qaytarılması ilə Ermənistanla sərhədləri açmağa (yaxınlaşmağa) çalışdığına dair söz-söhbətlərə də rəvac veribdir).

Türkiyə-ABŞ danışıqlarından sonra rəsmi Ankara Ermə-

nistanı təmkinli olmağa çağırıbdır. Ə.Davudoğlunun fikrincə, "protokolların imzalanması və təsdiqlənməsi bir prosesdir və bu cür hallarda hər kəs konstruktiv ssenarilərlə hərəkət etməlidir". "**Konstruktiv ssenari**"ni isə o, protokolların qüvvəyə minməsi və bütün Qafqazda genişmiqyaslı sağlam normallaşma prosesinin başladılması, bunların da Qarabağ münaqişəsinin həlli vasitəsilə mümkün ola biləcəyi kimi açıqlamışdır. Ermənistanın Konstitusiya məhkəməsində incələnən protokolların ratifikasiyası məsələsində Türkiyə parlamenti üçün vaxt məhdudiyyətinin olmadığı bildirilir. Həmçinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair hansısa sənədin 2010-cu ilin yanvarında elan ediləcəyi barədə də məlumatlar ortaya çıx(arıl)ıbdır. Onun "problem"in tam həllinə dair razılaşma deyil, yalnız Türkiyənin protokolları təsdiqləməsini asanlaşdıracaq bir sənəd olacağı da qeyd edilir.

Ermənistan Konstitusiya Məhkəməsinin protokollara müəyyən düzəliş və şərtlərlə "xeyir-dua verməsi" vəziyyəti yenidən kəskinləşdiribdir. Rəsmi İrəvanın Türkiyənin şərq vilayətlərini yenidən "Qərbi Ermənistan kimi qələmə verməsi" və "erməni soyqırımı" iddialarından vaz keçməməsi qarşılıqlı anlaşmanın perspektivinə ümidləri xeyli azaldıbdır. Hətta qarşılıqlı münasibətləri yenidən kəskinləşdirən davamlı hallar ortaya çıxıbdır.

AKP iqtidarı Ermənistan Konstitusiya Məhkəməsinin qərarının ardınca protokolları Türkiyə Böyük Millət Məclisinə yollasa da, hökumətin **"erməni açılımı"** iflas təhlükəsi ilə qarşılaşıbdır. Parlamentdə **"protokol mübahisələri"ni yaşayan Türkiyə** həmçinin müxtəlif yönlərdən təzyiqlərlə üzləşibdir. Prosesə Ermənistana öncə **"Edik, idi podpişi" və sonra da "Edik, ni podpişi" göstərişini verən Rusiya**nın ciddi təsiri gözönündədir. E.Nalbəndyanın Ermənistanın Türkiyə ilə münasibətlərdə və Azərbaycanla münaqişənin həllində güzəştlərə getməyəcəyinə dair bəyanatı (22.I.2010) buna əyani sübutdur. Kremldə eyni vaxtda hər iki türk dövlətinə qarşı tələ qurul-

duğunu iddia edən yanaşmalar çoxalmaqdadır.

Ə.Davudoğlunun amerikalı həmkarı H.Klintonla apardığı **telefon müzakirəsi** də (22.I.2010) əməli nəticələr verməyibdir. Əksinə ABŞ-ın, dolayısı ilə də olsa, **Ermənistan Konstitusiya Məhkəməsinin qərarını dəstəklədiyi** aşkarlanıbdır. Həmin telefon danışığında "Sürix protokolları"nın ratifikasiyasının sürətləndirilməsinin **"bütün şahidlər"**in (ABŞ, Rusiya, Fransa və İsvaeçrə) iştirakı ilə təmin olunması qərarına gəlibdir. Türkiyə XİN-i öz təmsilçisini Ermənistanla **gizli dnışıqların memarı** hesab olunan İsveçrə diplomatı M.Ambulla danışıqlar üçün Cenevrəyə göndərmişdir. Digər tərəfdən, *erməni lobbisi* B.Obamaya təzyiqləri artırmışdır və ABŞ Konqresinin "soyqırım qətnaməsi"ni səsverməyə çıxarmağa hazırlaşdığı barədə də məlumatlar yayılmaqdadır.

Bütövlükdə isə, Ermənistan sənədlərdən geri çəkilməyə çalışır və bununla da "**protokol böhranı**" dərinləşir. Bunu Ermənistanda sənədlərdəki imzanın ləğvi üçün prezidentə səlahiyyət verən qanun layihəsinin hazırlanması da təsdiqləyir. Əfqanıstana dair Beynəlxalq konfransdan (London, 28.I.2010) bir gün əvvəl orada H.Klintonla 15 dəqiqəlik müzakirələr aparan **Ə.Davudoğlunun "protokol böhranı"ndan sonra ilk dəfə olaraq görüşdüyü E.Nalbəndyanla danışıqları kəskin mübahisələr şəraitində keçibdir**. Türkiyə-Ermənistan protokollarının **"dəfn olunma"ehtimalı**nın artdığı bir şəraitdə Azərbaycan rəhbərliyinin mövqeyi belə bir fikirlə ifadə edilibdir: "Ermənistan Dağlıq Qarabağ bölgəsi daxil olmaqla işğal etdiyi bütün əraziləri geri qaytarmayınca, Türkiyə bu protokolları təsdiqləməyəcək".

Son dönəmin bir diplomatik aktı, yəni Rusiyanın Baş naziri V.Putinin Türkiyəyə səfəri (VIII.2009) **"Ankara-Bakı-Moskva-İrəvan dördbucağı"**nda cərəyan edən proseslərlə bağlı müəyyən diskussiyaları (mübahisələri) ortaya çıxardı. Bütövlükdə, bu səfər diplomatlar və analitiklərdə **fərqli rəylər** yaratmışdır. Məsələn, "tarixi strateji düşmən-rəqiblərin dost görüntüsü", "Türkiyənin Qərbə (ABŞ və Aİ-yə) gözdağı-acıq verməsi", "Rusiya-Türkiyə münasibətlərinin yaxşılaşması Azərbaycanın maraqlarına uyğundur", "Türkiyə-Rusiya yaxınlaşmasında Ermənistan arxa plandadır", "Türkiyə (NATO üzvü) ilə Rusiya (antiNATO dövləti) arasında yaxınlaşma yoxdur və bu mümkün deyil".

Əsasən **biznes-enerji əməkdaşlığı** məsələlərini ehtiva edən bu danışıqlarla bağlı diqqətçəkici **başqa bir məqam**dan da bəhs olunur. O da Türkiyə ilə Rusiyanın bu, mübahisəli yaxınlaşmasının rəsmi **Ankaranın "Ermənistan siyasəti"**nin dəyişməsinə təsir göstərə bilməsi və öncəliklə də sərhədlərin açılmasıyla əlaqədardır. Vaşinqtondakı Corctaun universiteti Türk Araşdırmaları institutunun direktoru D.Kuthclin qənaətinə görə, dövlətlərarası münasibətləri yaxşılaşdırmaqla Rusiya Qafqaz regionuna və onun postsovet respublikalarına *nəzarəti* Türkiyə vasitəsilə saxlamağa çalışır; Türkiyə də Ermənistanla münasibətlərini normallaşdırmaq siyasətini Rusiya ilə uzlaşdırmağa *səy göstərir. Amerikalı araşdırmaçının fikrincə*, Ermənistanla münasibətlər yaradılmasını Dağlıq Qarabağ münaqişəsinin həlli ilə sıx başlayan Türkiyə Rusiyanın rəsmi İrəvana *təsir etməsini istəyir.*

Digər təhlil və yanaşmalarda "Kreml Türkiyə ilə münasibətləri yalnız öz geostrateji maraqları üzərində qurur" mülahizəsinə üstünlük verilir. Buna görə də Türkiyə ilə münasibətlər Ermənistanın maraqlarıyla uzlaşdırılmır. Və bu kontekstdə də **Putin-Ərdoğan danışıqları**nda Ermənistanla əlaqədar məsələlərin arxa plana keçməsi və sərhədlərin açılmasının müzakirə edilmədiyi iddia olunur (Daha bir maraqlı məqam: Kreml Ermənistanın sərhədlərin açılmasıyla, yəni Türkiyə vasitəsilə Qərbə asan çıxış əldə etməsində əsla maraqlı deyil). **Başqa bir amerikalı politoloq**-Hayfa universitetinin professoru B.Şeyfer də **"Qarabağın açarı Rusiyadadır"** fikrini söyləməsinə baxmayaraq, Türkiyənin münaqişənin Kremlin Ermənistana təsiri yolu ilə həllinə ümidli olmasına əsas görmür; çünki Kreml hələ

ki, bu münaqişəni sona çatdırmaqda maraqlı deyil, **"nə hərb, nə sülh"** vəziyyətinin saxlanmasında israrlıdır.

Putin-Ərdoğan danışıqlarının "daha bir mövzüsu" ilə əlaqədar Ermənistanda yayılan və Türkiyə-Azərbaycan münasibətlərinin korlanmasına hesablanan dezinformasiya səciyyəli məlumatlar da müəyyən rahatsızlıq və mübahisələr yaratmışdır. İrəvandakı Strateji və Milli Araşdırmalar Mərkəzinin rəhbəri R.Kirakosyan danışıqlarda Rusiyanın Türkiyə hava məkanı vasitəsilə özünün Ermənistandakı Gümrü hərbi bazasını təchiz etməsi barədə müzakirələr aparıldığını və məxfi razılaşma imzalandığını bildirmişdir. Erməni politoloqu bunu Rusiyanın Gürcüstanla müharibədən sonra bazanın təchizatı işində üzləşdiyi çətinliklərlə əlaqələndirmişdir.

Bu cür iddialar Türkiyə XİN-in rəsmisi B.Özügərgin tərəfindən təkzib edilmişdir. Türkiyə diplomatı belə bir müzakirə-razılaşmanın olmadığını və adıçəkilən bazaya ölkəsinin hava məkanı ilə yalnız qeyri-hərbi ləvazimatın daşınmasına icazə verilə biləcəyini söyləmişdir. O da bu məlumatın məqsədli yayıldığını və Türkiyə-Azərbaycan münasibətlərinin zədələnməsinə hesablandığını təsdiqləmişdir. Rusiya tərəfi isə vaxtılə Gürcüstandakı hərbi bazalarının texnika, sursat və s. Gümrüyə daşındığını xatırladaraq əlavə təchizata ehtiyac olmadığını bəyan etmişdir.

Ölkəmizdə rəsmi dairələr bunu təxribat kimi səciyyələndirmişlər. Ekspert-analitiklərin yanaşmalarına gəldikdə bəzilərinə (Q.Hüseynliyə) görə, "mülki aviasiya sistemi kimi Türkiyə hava məkanından istifadə" barədə razılaşma istisna deyil, ancaq "Ankaranın bu siyasəti bir sıra (qaz və s.-İ.M.) məsələlərdə Azərbaycanın Türkiyəyə dirəniş göstərməsinə cavab reaksiyasıdır". Digərləri ("Respublikaçı Alternativ" Birliyinin həmtəsisçisi İ.Məmmədov) məxvi razılaşmanın və, ümumiyyətlə, ona heç ehtiyacın da olmadığını bildirirlər: "Rusiya Ermənistana Türkiyə üzərindən də, Azərbaycan üzərindən də uçur". R.Musabəyovsa "NATO dövləti olan Türkiyə istəsə də buna gedə

bilməz" qənaətindədir. Bütövlükdə, yekdil rəysə bunun **"növbəti erməni təxribatı"** olmasından və Türkiyənin AKP iqtidarının "xəyanəti" kimi dəyərləndirilməməsindən ibarətdir.

Azərbaycan-Türkiyə münasibətlərində **hərbi sahədə əməkdaşlıq** məsələləri də böyük əhəmiyyət kəsb edir. Bu kimi əlaqələrdə əsasən yüksək rütbəli hərbçilərimizin görüş-məsləhətləşmələri, hərbi quruculuq, BMT-nin sülhməramlı qüvvələrinə, NATO təlimlərinə qatılmaq və s. yönlərdə (sahələrdə) həyata keçirilir. Hələ A.Mütəllibovun Türkiyəyə rəsmi səfəri zamanı hərbi əməkdaşlıq məsələləri gündəmə gəlmişdi. Bu barədə müqavilə bağlanması zərurətinə münasibət bildirən Türkiyə Milli Müdafiə naziri N.Ayaz hərbi sahədəki əməkdaşlığın öncəliklə **"hərbi təhsil səviyyəsində"** aparılacağını qeyd etmişdi.

Ölkələrin yüksək rütbəli hərbçilərinin görüş-məsləhətləşmələri 1993-cü ilin əvvəlindən etibarən başladı. İlkin görüşlərdən biri 1993-cü ilin fevralında Ankarada baş tutdu. Sonralar Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisləri D.Güreş, İ.Qaradayı, H.Kıvrıkoğlu, Y.Böyükanıt, İ.Başbuğ və b. AR-ə rəsmi səfərlərə gəldilər. İ.Qaradayı Azərbaycanda olarkən (VI.1996) ordumuzun ümumi vəziyyəti ilə maraqlandı və danışıqların gedişində hərbi sahədə əməkdaşlığın davam etdirilməsi proqramının işlənib hazırlanması razılaşdırıldı. H.Kıvıkoğlunun Bakıya səfəri zamanı (VI.1998) Rusiyanın Ermənistana silah verməsi ilə bağlı bəzi məqamlar müzakirə edildi. Türkiyə-Ermənistan sərhədlərinin açılacağına dair məlumatların yayıldığı bir dönəmdə AR-ə rəsmi səfərə gələn (2008) İ.Başbuğ Azərbaycanla hərbi əməkdaşlığın perspektivləri barədə ölkəmizin rəhbərliyi ilə danışıqlar apardı. AR-in Müdafiə naziri S.-Əbiyevin Türkiyəyə etdiyi çoxlu rəsmi səfərlər də strateji tərəfdaşımızın ordu quruculuğu təcrübəsindən faydalanma baxımından əhəmiyyətlidir.

Dövlətlərarası hərbi əməkdaşlıqda Türkiyənin müvafiq ali məktəblərində Azərbaycan ordusu üçün komanda heyətinin

hazırlanması sahəsində işlər görülür. Türkiyə tərəfindən ordumuzun təchizatına yardımına xüsusi diqqət verilir. AR ordusunun NATO standartlarına yaxınlaşdırılması məqsədilə Türkiyədəki tarixi hərbi quruculuq təcrübəsindən yararlanılması davam etdirilir. Azərbaycan da öz imkanları (karbohidrogen ehtiyatlarının istismarı və nəqli) daxilində Türkiyənin güclü ordusunun qüdrətinin daha da möhkəmlənməsinə xidmət göstərməyə çalışır.

Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı məsələləri son vaxtlar diplomatik-politoloji diskussiyaların başlıca mövzularından birinə çevrilibdir. Yəni **Rusiya-Ermənistan hərbi müttəfiqliyinə alternativ olaraq Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlığa üstünlük verilməsi ətrafında fərqli dəyərləndirmələr** ortaya çıxmışdır. Dövlət rəsmisi Ə.Həsənov məsələnin Azərbaycanın istəyindən asılı olmadığını vurğulayaraq Türkiyənin də bu cəhətdən müstəqil hərəkət edə bilmədiyini bildiribdir. Onun fikrincə, Avratlantik blokun üzvü olan Türkiyə alyansın müəyyənləşdirdiyi öhdəliklər və məhdudiyyətlərlə bağlı indiyə qədər Azərbaycana heç bir ciddi yardım göstərməyib və bunu etmək niyyətində də deyil: "Biz istəsək belə, Türkiyə ilə ciddi hərbi əməkdaşlığa nail ola bilmərik".

Məsələyə belə bir yanaşma dərhal **opponent mövqelərlə** qarşılaşıbdır. Politoloq və hərbçi-ekspertlərin əksbaxışları bu kimi dəlillərə söykənir: AR ilə hərbi müqavilə bağlayan Türkiyənin onunla hərbi əməkdaşlığı dərinləşdirməkdən imtinası inandırıcı deyil; rəsmi Ankaranın Azərbaycana hərbi sahədə köməklik göstərməməsi fikri də reallıqdan uzaqdır; AR-in hərbi təhsil sistemindəki irəliləyiş Türkiyənin hesabınadır və ordumuza texniki-metodiki dəstək yetərlidir. **Türkiyə-Azərbaycan Konfederasiyasının yaradılması** və birincinin AR-də hərbi bazalarını yerləşdirməsi təklifini irəli sürən V.Quluzadəyə görə, ordumuzun güclənməsində qardaş dövlətin misilsiz xidmətləri olub və var. XX əsrdə Azərbaycana "aprel işğalı", "Dağlıq Qarabağ problemi", "20 yanvar", "Xocalı soyqırımı" və s.

miraslar "hədiyyə edən" Rusiya ilə **Bakını, Naxçıvanı Azərbaycana qaytaran Türkiyə**nin mövqelərinin müqayisəsi burada çox yerinə düşür.

Azərbaycanla Türkiyə arasında **iqtisadi-ticarət əlaqələrinin** inkişafı və **elmi-mədəni əməkdaşlığın** genişləndirilməsi sahəsində də məqsədyönlü fəaliyyət göstərilir (Qarşılıqlı iqtisadi əməkdaşlığın aparıcı sahəsini təşkil edən **neft-qaz emalı və nəqli üzrə işbirliyi** barədə dərsliyin 3-cü bölümündə ətraflı bəhs olunur). Dövlətlərarası iqtisadi-ticarət əlaqələrinin **ilkin hüquqi bazası** hələ ötən əsrin 90-cı illərinin lap əvvəlində yaradıldı. 1990-1991-ci illərdə dəniz və çay yükdaşımaları, Araz üzərində körpü salınması və buraxılış məntəqəsinin açılması haqqında sazişlər, energetika sahəsində əməkdaşlığa, sərhədyanı ticarətin inkişafına dair **protokollar** imzalandı.

Tezliklə iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi sahəsində müəyyən **ilkin işlər** görüldü. Belə ki, Araz çayı üzərində **Sədərək körpüsü** açıldı (29.X.1991; "onu dövlətlərarası münasibətlərdə də körpü" sayaraq Naxçıvan bölgəsi üçün **"Həyat körpüsü"** adlandırırlar). Bir qədər sonra (28.V.1992) isə Sədərək-Dilucu **"Ümid" körpüsü** işə salındı. Türkiyənin Azərbaycana 250 mln. dollar kredit verməsi barədəki müqavilə (2.XI.1992) əhalimizin müəyyən sosial-iqtisadi ehtiyaclarının ödənilməsi işinə yaradı.

Digər bir sazişlə (3.V.1992) ticarət əlaqələri tənzimləndi. **Ölkələrarası ticarətin həcmi** 1997-ci ildə 250 mln. dolları ötmüşdü. 1992-1997-ci illər ərzində Azərbaycanda Türkiyənin 800-ə yaxın şirkəti fəaliyyət göstərirdi; onların yerli şirkətlərlə gerçəkləşdirdikləri **layihələrin ümumi dəyəri** isə 650 mln. dollar təşkil edirdi. Həmin müddətdə Azərbaycanın iş adamları Türkiyədə hələlik 42 şirkət qura bilmişdilər. Bakı-Tiflis-Qars dəmir yolu xəttinin işə salınması həm ikitərəfli ticarət əlaqələrinin inkişafına mühüm təkan, həm də **regional vahid iqtisadi məkanın** yaradılmasına ciddi kömək olacaqdır. Hazırda qardaş dövlətin 1267 şirkəti ölkəmizdə qeydiyyatdan keçibdir.

Müsbət haldır ki, Azərbaycanda **türk investisiyaları qeyri-neft sektorunda ilk yerlərdədir.** 2009-cu ilin yanvar-sentyabr aylarında Türkiyənin müxtəlif şirkət və təşkilatları tərəfindən Azərbaycanda əsas kapitala yönəldilən investisiyaların həcmi 37,423 mln. manat olmuşdur. Digər bir məlumata görə isə, türkiyəli investorların iqtisadiyyatımıza 2009-cu ilin 9 ayı ərzində qoyduqları sərmayənin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,3 dəfə azalıbdır. **Dövlətlərarası narazılıq və soyuqluq** türk şirkətlərinin Azərbaycandan çıx(arıl)ması ilə nəticələnərsə ölkəmiz hazırda fəaliyyətdə olan 500-dən artıq şirkətin 3 mlrd. dollarlıq sərmayəsindən və 50 mindən çox iş yerindən məhrum ola bilər.

Dövlətlərarası **elmi-mədəni-humanitar əlaqələr** də artıq fayda gətirməkdədir. Bu sahədəki çoxşaxəli əməkdaşlığa isə elmi-mədəni mübadilə haqqında **protokolla** (I.1990) rəvac verildi. M.Rəsulzadə tərəfindən 1949-cu ildə yaradılan **"Azərbaycan Kültür Dərnəyi"** də yeni tarixi şəraitdə ölkələrarası elmi-mədəni əməkdaşlığın **ağırlığını daşıyan başlıca qurumlar**dandır. Onun ilkin tədbirlərindən biri 1991-ci ilin yazından etibarən M.Füzulinin 500 illik yubileyinin keçirilməsinə başlanması oldu. Latın qrafikalı Azərbaycan əlifbasının bərpası (XII.1991) ümumtürk elm-mədəniyyətinin inkişafına və Türkiyə ilə müvafiq əlaqələrin genişlənməsinə müsbət təsir göstərdi. **"TÜRKSOY" çərçivəsində sıx əməkdaşlıq** Azərbaycanla Türkiyənin elmi-mədəni əlaqələrinin hüdudlarını genişləndirdi. imkanlarını artırdı. Füzulinin 500 illiyi münasibətilə keçirilən çoxlu birgə tədbirlər **"yaranmaqda olan türk dünyasına müraciət"** (S.Dəmirəl) rolunu oynadı. "TÜRKSOY"-un 2009-cu ilin oktyabrında keçirilən iclasında o, **Türk Mədəniyyətinin Beynəlxalq Təşkilatı** adlandırıldı. Onun işçi qrupuna Qaqauzun sədrliyi razılaşdırıldı.

Qarşılıqlı faydalı elmi-mədəni əməkdaşlığın çox zəruri və aparıcı yönlərindən birini də **təhsilin inkişafına yönəlik birgə səylər** təşkil edir. Bu sahədə düzgün olaraq **tələbə mübadi-**

ləsinə üstünlük verilir. Hələ 1992-ci ildə Elçibəy hökuməti xeyli gəncin Türkiyənin universitetlərində və hərbi akademiyalarında ali təhsil almağa başlamalarına müvəffəq olmuşdu. T.Özal Türkiyə dövlətinin hər il Azərbaycandan 2 min tələbə qəbul edərək onların təhsil xərclərini ödəyəcəyini vəd vermişdi. 1990-cı illərin ortalarına olan məlumata görə, Türkiyədə 1871 azərbaycanlı və ölkəmizdə isə 2500-ə yaxın türkiyəli tələbə təhsil alırdı. Hökumət xəttiylə, vəqflər və s. vasitəsilə Azərbaycanda çoxlu türk litseyləri, **Bakıda "Qafqaz" universiteti** açılmışdır. Hələ 1993-cü ilə aid dövlət büdcəsində təhsilə 64 trilyon lirə (müqayisə üçün müdafiə xərclərinə isə 43 trilyon lirə; o vaxt 9 min lirə 1 dollardı) vəsait ayıran Türkiyə hökuməti Azərbaycana da müəyyən yardımlar göstərmişdi.

Kütləvi informasiya vasitələrinin fəaliyyətinin əlaqələndirilməsi sahəsində də müəyyən addımlar atılmışdır. Türk dövlətləri KİV-lərinin konfransında (Ankara,XI.1992) ortaq qurumun yaradılması qərara alındı. Türk Dövlətləri Agentliklərinin Birliyi təşkil edildi. Azərinformun Baş direktoru V.Rüstəmov onun ilk sədri seçildi. AR ilə TC arasında televiziya yayınları sahəsində əməkdaşlığa dair müqavilə (XII.1995) qarşılıqlı əlaqələrin genişlənməsini təmin etdi. 2008-ci ildə türk dövlətlərinin ortaq televiziyasının ("TRT-Avaz") yaradılmasında Azərbaycan və Türkiyənin müvafiq qurumlarının (TRT-1, AzTV, İTV və b.), mütəxəssislərinin böyük əməyi oldu.

AR-TC münasibətlərinin inkişafını **əngəlləyən amillər və çətinləşdirən səbəblər** də mövcuddur. Onlar müxtəlif mənbələrdən qaynaqlanır.Əsasən **iki mənbədən** söhbət gedə bilər:

1) Azərbaycan-Türkiyə strateji tərəfdaşlığından rahatsız olan bəzi beynəlxalq güclər və onların satellitləri sayılan bir sıra qonşu dövlətlər.(Bu barədə əvvəlki bölümlərdə yeri gəldikcə bəhs olunmuşdur).

2) Bilavasitə dövlətlərimizin özləriylə bağlı olan və ölkəiçi durum-siyasətdən irəli gələn məqamlar. Onları da qısaca (tezisvarı) belə ifadə və şərh etmək olar:

a) Azərbaycanda "4 iyun qiyamı" vasitəsilə həyata keçirilən **hakimiyyət dəyişikliyi**nin və ölkəmizdə **dövlət çevrilişlərinə** (X.1994,III.1995) **cəhdlərdə** Türkiyənin bəzi siyasi çevrələrinin, dövlət adamlarının dolayısı yolla iştirakının qarşılıqlı münasibətlərdə müəyyən soyuqluq yaratması;

b) iqtisadi əməkdaşlığın ilkin çağlarında Azərbaycan tərəfinin yetərli **müvafiq hüquqi bazanı** təmin edə bilməməsi. (Bu sahədə artıq müəyyən işlər görülsə də, bu iki qardaş ölkə arasındakı iqtisadi əlaqələrin səviyyəsinin arzulanan və gözlənilən səviyyədə olmamasıyla da razılaşmaq lazımdır);

c) Türkiyə iş adamlarının Azərbaycandakı **genişmiqyaslı korrupsiya və rüşvətxorluq halları** (nüfuzlu "Transparency İnternational" beynəlxalq təşkilatının hesabatlarına görə, Azərbaycan korrupsiyanın səviyyəsi cəhətdən 2006-cı ildə 163 dövlət arasında 130-cu, 2007-ci ildə 179 ölkə arasında 150-ci, 2008-ci ildə isə 180 ölkə arasında 158-ci yeri tutub və **Nigeriya, Venesuela, Zimbabve ilə "qonşuluq" edib)** və qeyri-qanuni gömrük, sərmayə yatırma, biznes xərcləri üzündən ölkəmizdə iqtisadi fəaliyyət göstərməkdə maraqlı olmamaları (Bütün bunlar barədə dövlət başçılarının iştirakı ilə keçirilən çoxsaylı biznüs-forumlarda və digər tədbirlərdə dəfələrlə məsələlər qaldırılmışdır. "Barmek" və onun prezidenti ilə əlaqədar baş verənlər ciddi türk iş adamlarını Azərbaycanda biznes qurub, oraya sərmayə qoymaqdan xeyli çəkindirmişdir. Çoxlu sayda azərbaycanlı sahibkarın və hətta oliqarxların da Türkiyədə, habelə digər ölkələrdə biznes qurmağa üstünlük vermələri həm də az öncə sadalanan hallarla sıx bağlıdır);

ç) AR-in Konstitusiyasında (1995) dövlət diliylə əlaqədar edilən dəyişikliyin ("türk dili"nin "Azərbaycan dili" ilə əvəzlənməsinin) **"bir millətin iki dili"** və ya **"iki dilli türk milləti"** kimi **"problem"** yaratması;

d) Türkiyə dövlətini təhdid edən **PKK kimi terrorçu təşkilatın** və **nurçular təriqətinin** müxtəlif vasitə və üsullarla Azərbaycana nüfuz etməsinin ölkəmizdə də müəyyən **xoşagəlməz hallara və mənfi proseslərə** rəvac verməsi. (Son vaxtlarda ölkəmizə məqsədli **"kürd köçləri", PKK-çı tələbələrin** universitetlərimizdə bəzi pozucu fəaliyyətləri, **nurçuların təbliğatının** fəsadları və s. göz önündədir).

AR-in Mərkəzi Asiyanın türk dövlətləri ilə münasibətləri: əsas məqamlar və problemlər

Azərbaycan Respublikasının xarici siyasətində **Mərkəzi Asiyanın türk dövlətləri ilə** münasibətlər də mühüm yer tutur. Regionun 4 türk dövləti ilə münasibətlər saxlanılması və inkişaf etdirilməsi bir sıra **amillərlə** şərtlənir. (Həmin amillər ayrı-ayrı dövlətlərlə əlaqələr kontekstində nəzərdən keçirilir).

Qazaxıstanla müstəqil dövlətlər səviyyəsində tanınma 1991-ci il dekabrın 21-də **onun təşəbbüsü** ilə baş vermişdir (Bu türk dövlətinin müstəqilliyi AR-inkindən bir həftə sonra, yəni 1991-ci il oktyabrın 25-də elan olunmuşdur). Dövlətlərarası diplomatik əlaqələr qurulduqdan (27.VIII.1992) sonra Azərbaycanda (X.1993) və Qazaxıstanda (IV.1997) səfirliklər fəaliyyətə başlamışlar.

Tərəflər hələ Sovet dövründəki mümkün mövcud əlaqələrini **dövlətçiliklərinin bərpası öncəsi** genişləndirməyə çalışırdılar. Bu mərhələdə atılan qarşılıqlı addımlardan A.Mütəllibovun Qazaxıstana rəsmi səfərini (30.IX-2.X.1991) və onun gedişində bağlanan "Dostluq, əməkdaşlıq və mehriban qonşuluq haqqında müqavilə"ni qeyd etmək olar. 10 illiyə bağlanan və problem olmadıqda növbəti 10 illik müddətə də uzadılacağı razılaşdırılan müqavilədə bunlar nəzərdə tutulurdu: suverenlik və ərazi bütövlüyünün qarşılıqlı tanınması; bir-birlərinə səlahiyyətli nümayəndəliklərin göndərilməsi və müvafiq idarələrin təşkili; qarşılıqlı ən əlverişli fəaliyyət rejiminin yaradılması; ola biləcək fikir ayrılıqları və mübahisələrin məsləhətləşmələrlə yoluna qoyulması və s. Bu müqavilə ta 1996-cı ilə qədər, yəni

ikitərəfli qarşılıqlı əlaqələrin intensiv inkişafının başlanmasınadək **dövlətlərarası münasibətləri tənzimləyən başlıca sənəd** sayılır.

Prezident N.Nazarbayevin AR-ə **ilk rəsmi səfəri** ilə (IX.1996) iki dövlətin münasibətlərində **keyfiyyətcə yeni** və daha səmərəli əməkdaşlıq, beynəlxalq- regional problemlərə yanaşmada uzlaşma ilə səciyyələnən **mərhələ** başladı. Azərbaycanla Qazaxıstan bir-birilərilə normal siyasi münasibətlərə və faydalı iqtisadi əməkdaşlığa böyük önəm verirlər. Yeri gəlmişkən, Qazaxıstan sanballı iqtisadi potensiala, zəngin təbii ehtiyatlara malikdir. O, habelə müasir beynəlxalq siyasətə, regional təhlükəsizliyə, Avrasiya məkanındakı inteqrasiya proseslərinə təsir göstərmək iqtidarına və imkanlarına malik olan dövlətlərdəndir. 2010-cu ilin yanvarından etibarən ATƏT-ə sədrliyi Qazaxıstanın XİN-i K.Sandabayev edir.

Qazaxıstan müxtəlif səpkili **qütbləşmə proseslərində** də fəal iştirak edir. O, MDB-nin (KTMT-nin) və **"Şanxay beşliyi"nin təşəbbüskarlarından** hesab olunur. N.Nazarbayev həm də **"Avrasiya İttifaqı" ideyasının müəllifidir.**1994-cü ilin yazında formalaşdırılan həmin ideya postsovet məkanının konfederasiya əsasında iqtisadi reinteqrasiyasını və yeni növ birliyin ("Avrasiya İttifaqı"nın) yaradılmasını nəzərdə tuturdu. Z.Bjezinskiyə görə,o, "Avrasiya ittifaqı" ideyasından tam imtina etmədən regional inteqrasiya tərəfdaşlarını dəstəkləmişdir. Bu da 1993-cü ildə yaradılan **Orta Asiya iqtisadi ittifaqının** fəaliyyətinin tədricən canlanmasına rəvac vermişdir.

N.Nazarbayev **"5+5+BMT" formatında**, yəni beş nüvə dövləti, Mərkəzi Asiyanın beş respublikası və BMT çərçivəsində regionun **nüvə silahından azad zonaya** çevrilməsinə yönəlik tədbirlərin də təşkilatçılarındandır (Bunun qarşılığında ABŞ və Rusiya prezidentləri, habelə İngiltərənin Baş naziri ATƏT-in Budapeşt sammitində təhlükəsizliyin təminatları haqqında **Memorandum** imzaladılar. Həmin sənədlə Qazaxıstanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə verilən tə-

minatlara dair öhdəliklər bir daha təsdiqlənirdi. Həmçinin atom silahı zərbəsi (yaxın hədəsi) ilə üzləşdikdə onun **nüvə silahının yayılmaması haqqında Müqavilənin iştirakçısı olan dövlət kimi** müdafiə ediləcəyi bildirilirdi. Çin hökuməti də Qazaxıstana təhlükəsizlik təminatlarının verilməsinə dair bəyanatla (II.1998) çıxış etdi). Onun Asiyada qarşılıqlı fəaliyyət və etimad tədbirləri üzrə **Müşavirə** kimi strukturun formalaşdırılmasına təşəbbüs göstərməsi də məlumdur.

Bütün bunlar da Qazaxıstanın **milli-hərbi-siyasi təhlükəsizlik məsələlərinə** böyük önəm verməsindən irəli gəlir. Bu sahədəki müəyyən **ciddi problemlər, qayğılar və rahatsızlıqlar** isə bir sıra **amillərlə (qaynaqlarla)** əlaqədardır:

a) bütün Mərkəzi Asiyanın **"əfqanlaş(dırıl)ması": "İslam fundamentalizmi"nin** regiona, o cümlədən də Qazaxıstana **"sıçra(dıl)ması".**" (Ötən əsrin sonları üçün qazaxların 78,8%-nin, qırğızların 95%-nin, özbəklərin 90%-dən çoxunun müsəlman olmasının buna şərait yaratması qənaətinə gələn ekspertlər də vardır). Bir çox ekspertlər belə hesab edirlər ki, əgər **Qərb (ABŞ) Əfqanıstanda uğursuzluğa düçar olarsa,** oradakı radikal islamçı qüvvələrin Mərkəzi Asiyaya və oradan da birbaşa Rusiya sərhədlərinə çıxması problem olmayacaqdır. Qazaxıstanın KTMT-nin Çevik Reaksiya qüvvələrində maraqlı olmasını bu, mümkün və xoşagəlməz perspektivin önlənməsi zərurəti ilə əlaqələndirən baxışlar da mövcuddur. (Bütün bunlara görə də, B.Obamanın qərarına əsasən Əfqanıstandakı 68 min nəfərlik hərbi qüvvəyə daha 30 min əsgərin əlavə edilməsi nəzərdə tutulur);

b) "Orta Asiya amili"-Mərkəzi Asiyadan **(içdən) təhlükə**: Qazaxıstanın ərazisi (2713,3 min km^2) Orta Asiyanın digər respublikalarının **birlikdə götürülmüş ərazisindən** (1277,1 min kv. km) 2,1 dəfə çoxdur. Amma əhali artımı baxımından regionun digər dövlətləri ilə müqayisədə vəziyyət heç də məqbul deyildir. Ümumiyyətlə, Mərkəzi Asiya respublikaları (xalqları) XX əsrin ortalarından etibarən **demoqrafik partlayış**

həddinə yetişiblər. Onların əhalisinin təbii artımı **dünyada ən yüksək göstəricilərdən birini** təşkil edir. (Məsələn, Avropadakından 2-3 dəfə çox). Əhalinin təbii artım nisbəti minilliklərin qovuşuğunda belə olmuşdur: hər min nəfərə Qazaxıstanda – 11,8, Türkmənistanda – 27,0, Özbəkistanda – 26,6, Qırğızıstanda – 21,4 nəfər (Türk dövləti olmayan Tacikistanda isə bu rəqəm 25,6-dır). Qazaxıstan əhalisi ildə 200-300 min nəfər azalır. Regionun digər türk dövlətləri ilə ərazi-sərhəd və resurslar (su, enerji ehtiyatları) üzündən SSRİ rəhbəri **"N.Xruşşovdan qalma sərhəd davası"**, Türkmənistanın Manqışlaqa gözlənilə biləcək iddiası da Qazaxıstanın üzləşdiyi problemlərdəndir.

c) Çin təhlükəsi: Qazaxıstan dünyanın **əhali cəhətdən ən böyük dövləti** ilə 40-dan çox hökumətlərarası sazişlər bağlasa da, qarşılıqlı etimadsızlıq şəraiti qalmaqdadır. Hətta **"Şanxay beşliyi"**ndə (1996-cı ilin aprelində yaradılıbdır) olmaq belə Qazaxıstanı Çinin çoxşaxəli, öncəliklə də iqtisadi ekspansiyasının başlıca hədəflərindən birinə çevrilməkdən yayındıra bilmir. **"Uyğur problemi"** də ikitərəfli münasibətlərə təsir göstərməkdədir. (Uyğurlar türkdürlər. Onların təqribən 80 mln. nəfəri Çinin şərqində-Uyğurstanda yaşayır. Qazaxıstan, Özbəkistan və Qırğızıstanda da icmaları vardır. Vaxtılə Şərqi və Mərkəzi Asiyanın tarixində müstəsna rola və önəmə malik olublar. İmperiya yaradan xalq səviyyəsindən müxtəlif ölkələrdə etnik azlıq durumuna eniblər. 1940-cı ildə müstəqillik əldə edən Şərqi Türküstan Uyğur Respublikası Çinlə konfederasiya qurmaq istədi. Ancaq Çin hökuməti siyasi gediş edərək öz tərkibində Sincan Uyğur Muxtar Vilayətini yaratdı. Hazırda muxtarlıq yalnız onun adında qalmışdır. Yəni neft, qaz, metallar və s. zəngin olan Uyğurstanın türk əhalisi Çin hökuməti tərəfindən dəhşətli repressiyalara məruz qoyulur. Xanlar (çinlilər) onların ərazisində məskunlaşdırılır. Bütün bunlar da uyğurların haqlı etirazları ilə qarşılanır. Onların milli mücadiləsi regiondakı vəziyyətə və dövlətlərarası münasibətlərə də təsir edir);

ç) Rusiya ilə münasibətlər (qonşuluq): **"Rus mentaliteti"** Saratov və Çelyabinsk vilayətlərini sərhəd kimi təsəvvür edə bilmir. Qazaxıstan **"rus əhalisi və kazaklar problemi"**ndən qurtulmaq yollarını arayır. Paytaxt dəyişməsinin də əhalinin əksəriyyətinin ruslardan ibarət olduğu yerlərə qazaxların axınını təşkil etmək məqsədindən irəli gəldiyi müşahidə olunur.

Milli təhlükəsizliyi belə təhdidlərlə üzləşən Qazaxıstanın müxtəlif yollarla tarazlaşdırılmış siyasət yürütməsi və özünə dostlar axtarıb tapması, bu kontekstdə də **Azərbaycanla həmişə normal münasibətlər** saxlamağa çalışması başa düşülən və arzuolunandır. AR-QR münasibətlərinin **ən yaxın keçmişi, hazırkı durumu və perspektivləri** nəzərdən keçirilərkən aşağıdakıların önə çəkilməsi lazım gəlir:

1-cisi, dövlət başçılarının **qarşılıqlı səfərlər**inin ikitərəfli əlaqələrə, faydalı əməkdaşlığa münbit və möhkəm özül yaratması. Müstəqil dövlətlərin prezidentləri səviyyəsində **ilk görüş** H.Əliyevin Çinə rəsmi səfərdən dönərkən yolüstü Almatıda dayanması zamanı (III.1994) keçirilmişdir. Azərbaycan prezidenti görkəmli qazax mütəfəkkiri A.Kunanbayevin anadan olmasının 150 illiyi münasibətilə Almatıda keçirilən tədbirlərdə iştirakı (VIII.1995) və İKT-nin Zirvə toplantısı (Aşqabad,-V.1996) zamanı N.Nazarbayevlə müzakirələr apardı. Həmin görüş-müzakirələrdə ölkələrimizi birləşdirən tarixi köklər və hazırda yaxınlaşdıran şərtlər, faydalı əməkdaşlığı təmin edəcək hüquqi sənədlərin hazırlanması, Xəzər dənizindən qarşılıqlı yararlanma və digər məsələlər nəzərdən keçirildi.

Prezidentlərin **ilk rəsmi səfərləri** isə dövlətlərarası münasibətlərin daha davamlı və sabit inkişafını təmin edən diplomatik aktlar sayılmalıdır. N.Nazarbayevin-dövlətlərarası münasibətlərdə yeni mərhələ açan -səfərinin nəticəsi olaraq 13 sənəd imzalandı. Onun gedişində tərəflərin beynəlxalq təşkilatlardakı fəaliyyət, Xəzərin enerji ehtiyatlarından səmərəli istifadə və s. sahələrdə uzlaşmaya nail olunduğu vurğulandı. Azərbaycan tərəfi Qazaxıstanın da **Sərəxs sazişlərinə** (13.V.1996) qoşul-

masını təqdir etdiyini bildirdi (Türkmənistanın Sərəxs şəhərində imzalanan 2 sənəddən ibarət bu sazişlər tranzit yük daşınmalarının tənzimlənməsi sahəsində əməkdaşlığı və dəmiryol nəqliyyatının fəaliyyətinin əlaqələndirilməsini əhatə edir. O, Azərbaycan, Gürcüstan, Özbəkistan və Türkmənistan respublikaları arasında bağlanmışdır). H.Əliyevin səfəri zamanı imzalanan 17 sənəd arasında ticarət-iqtisadi əməkdaşlığa, nəqliyyat-kommunikasiya əlaqələrinə, Xəzər neftinin nəqlinə dair bəyannamə, memorandum və s. diqqəti çəkir. Azərbaycan prezidenti Qazaxıstanın **yeni paytaxtının təqdimatı mərasimində** (V.1998) iştirakı çərçivəsində də qazax həmkarı ilə müəyyən məsləhətləşmələr apardı.

Qazaxıstan prezidentinin AR-ə sonrakı rəsmi və habelə bir sıra işgüzar səfərləri də münasibətlərin perspektivlərinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyətli sayıla bilər. Onun 2009-cu il oktyabrın lap əvvəlindəki rəsmi səfəri xüsusilə əhəmiyyətli olmuşdur. Danışıqların nəticəsində ölkələrarası enerji əməkdaşlığının dərinləşdirilməsi, 1992-1993-cü illərdəki ticarət-iqtisadi əlaqələrlə bağlı yaranan borcların ödənilməsi, kənd təsərrüfatının inkişafı sahəsində işbirliyi, iki dövlətin vətəndaşlarının vizasız səfərləri barədə saziş, memorandum və Aktau ilə Sumqayıt şəhərlərinin qardaşlaşması haqqında **Birgə Bəyannamə** imzalanıbdır.

İki ölkənin **neft şirkətləri ("SOCAR"la "Kazmunaygaz")** arasında "Qazaxıstan neftinin nəqli üçün Azərbaycanın infrastrukturlarından istifadə haqqında" saziş, Bakı-Qara dəniz neft marşrutunun yaradılması və Qazaxıstan neftinin ixracı üzrə "Transxəzər" layihəsinin texniki-iqtisadi göstəricilərinin işlənib hazırlanmasına dair memorandumlar yüksək qiymətləndirilir. Bu sənədlərin əsasında Qazaxıstan neftinin Azərbaycandan keçməklə Bakı-Ceyhan və Bakı-Supsa kəmərləri, habelə dəmiryolu ilə dünya bazarlarına nəqli dayanır. İ.Əliyev də Qazaxıstan dövlət başçısı ilə danışıqlara və ora rəsmi səfərlərə böyük önəm verərək dəfələrlə Astanaya (Akmolaya) getmişdir. Bu səfərlər

zamanı aparılan danışıqların başlıca mövzularını Qazaxıstan neftinin BTC ilə nəqli, "Transxəzər" qaz layihəsinin reallaşdırılması, Dağlıq Qarabağ münaqişəsinin həlli və s. ibarət olmuşdur.

2-cisi, Qazaxıstanın Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı mövqeyi də AR-in xarici siyasətində daima diqqət mərkəzində saxlanılan məsələlərdəndir. **"Dağlıq Qarabağ problemi"**nin həlli ilə əlaqədar tutduğu **mövqeyi** və **gördüyü işlərə** gəldikdə isə **Qazaxıstan:**

- Azərbaycanın ərazi bütövlüyünü ardıcıl olaraq dəstəkləyir;
- Rusiya ilə birlikdə (Nazarbayev-Yeltsin missiyası səviyyəsində) 1991-1993-cü illərdə iki dəfə vasitəçilik etmişdir;
- ilk vasitəçilik missiyasının yekunları barədə **Jeleznovodskda qəbul edilən birgə rəsmi məlumat**dakı razılaşmalara əsasən müvəqqəti əməli müşahidəçilər qrupunun qazaxıstanlı səlahiyyətli nümayəndələrini müəyyənləşdirmişdir;
- Azərbaycanın, Ermənistanın və özünün Xarici İşlər nazirlərinin **üçtərəfli danışıqlarına** (Almatı,VIII.1992) **evsahibliyi** etmişdi (Görüşdə 1991-ci il sentyabrın 1-dən etibarən hərbi əməliyyatların dayandırılması barədə qəbul olunan **Memorandum** da məlum səbəblərdən nəticəsiz qaldı);
- Minsk Qrupunun işində müşahidəçi statusu ilə iştiraka hazır olduğunu bildirmişdir və s.

3-cüsü, dövlətlərarası münasibətlərin **"onurğa-sütun problemləri"**ndən birini də **Xəzərin hüquqi statusu** və onun karbohidrogen ehtiyatlarının **dünya bazarlarına nəqli** məsələlərində tərəflərin tutduqları **mövqelər** və birgə fəaliyyətləri ilə bağlı **məqamlar** təşkil edir.(Dərsliyin 3-cü bölümündə bu barədə ətraflı bəhs olunur).

Bütövlükdə isə, Azərbaycan-Qazaxıstan münasibətlərinin ötən dövrdəki sabit inkişaf dinamikası, dövlətlər arasında **80-dən çox sənədin** (saziş, protokol və s.) imzalanması və daha 15 sənədin hazırlanması **qarşılıqlı faydalı əməkdaşlıq perspektivinə ümidli** olmağa əsas verir. Bu habelə tərəflərin indiyədək

nümayiş etdirdikləri **qarşılıqlı təmkinli diplomatik davranışın** və **reallıqların nəzərə alınması təcrübəsi**nin davam etdirilməsindən çox asılıdır.

Özbəkistan və Azərbaycan respublikaları arasında **diplomatik əlaqələr** 1992-ci il yanvarın 4-də qurulubdur. Ancaq səfirliklər səviyyəsində münasibətlərsə 1996-cı ildən etibarən yaradılmışdır. Öncə (VI.1996) Daşkənddə və 1998-ci ildə isə Bakıda diplomatik nümayəndəliklər açılmışdır. Bu, müstəqil **AR-in Mərkəzi Asiyada ilk səfirliyi** sayılır. Başlanğıcda ona A.Əzimbəyov rəhbərlik etmişdir. İndiki səfir isə N.Abbasovdur.

Bu iki türk ölkəsi arasında da **hələ sovet dövründə** müəyyən əlaqələr, əsasən iqtisadi əməkdaşlıq (xüsusilə də, neftçıxarma, pambıqçılıq və s. sahələrdə) mövcud olmuşdur. Həmin növ əlaqələr **müstəqilliklərin bərpası ərəfəsində** isə daha da intensivləşmişdir. Azərbaycan nümayəndə heyətinin Özbəkistana rəsmi səfəri (X.1990) bu iki sovet, türk respublikası arasında *1991-1995*-ci illərdə və sonrakı dönəmdə iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında **hökumətlərarası sazişin** bağlanması ilə yekunlaşmışdı.

Müstəqilliklərin bərpası **ölkələrarası əlaqələrin yeni keyfiyyət halına keçməsi**ni, yəni dövlətlərarası münasibətlər səviyyəsinədək yüksəlməsini təmin etdi. Bunda da **dövlət başçılarının rəsmi səfərlərinin** xidməti danılmazdır. **İlk belə rəsmi səfər** 1991-ci il oktyabrın 19-da baş tutdu. Yəni A.Mütəllibov dövlətçiliyin yenidən bərpasının elanının sabahı günü Özbəkistana rəsmi səfərə getdi. Bu,çağdaş müstəqil dövlətçiliyimizin tarixində **ilk rəsmi səfər** hesab olunur. Səfər və danışıqlar **iki mühüm sənədin** imzalanması, yəni "AR ilə ÖR arasında dövlətlərarası münasibətlərin prinsipləri haqqında Müqavilə"nin və "1992-ci ildə ticarət-iqtisadi əməkdaşlığın prinsipləri barədə Saziş"in bağlanması ilə başa çatdı.

Hər iki sənəddə ifadəsini tapan **prinsiplərdən** bunları qeyd etmək olar: dövlət müstəqilliklərinin və ərazi bütövlük-

lərinin qarşılıqlı tanınması; bir-birilərinin daxili işlərinə qarışmamaq; mübahisələrin barışdırıcı missiyalarla nizamlanması; suveren dövlətlərin iqtisadi birliyinin və kollektiv təhlükəsizlik sisteminin yaradılması istəyi, bu razılaşmaların üçüncü tərəflərə qarşı yönəlməməsi. Burada bir nonsens- məqamı da qeyd etməyə ehtiyac yaranır. Fikrimizcə, **dövlətlərarası** (seçdirmə bizimdir – İ.M.) münasibətlərin prinsiplərinə dair müqavilə əslində qarşılıqlı rəsmi tanınma kimi də qəbul oluna bilər. Bu halda **AR-i ilk tanıyan dövlət** Özbəkistan hesab olunmalıdır. Amma sənədlərin təsdiqlənməsi ilə bağlı müəmmalar buna əsas vermir. (Bu barədə bir qədər irəlidə ətraflı şərh verilir).

Dövlət başçılarının rəsmi səfərləri sırasında Özbəkistan prezidenti İ.Kərimovun Azərbaycana və H.Əliyevinsə Daşkəndə **ilk diplomatik missiyaları** qarşılıqlı əlaqələrə müsbət təsir baxımından yüksək qiymətləndirilməlidir. Birincinin bu səfərinin (V.1996) gedişindəki müzakirələrdə əsas mövzulardan biri Mərkəzi Asiyanı Qara dəniz sahilləri ilə birləşdirəcək kommunikasiyaların məsələsi oldu. Bu kontekstdə Özbəkistan **dördtərəfli Sərəxs müqaviləsini** onun iştirakçılarının yalnız iqtisadi mənafelərinin deyil, habelə siyasi maraqlarının ifadəsi kimi səciyyələndirdi. Səfər 19 sənədin imzalanması, o cümlədən də "ÖR və AR arasında dostluq və əməkdaşlıq haqqında müqavilə"nin bağlanması ilə nəticələndi.

Bu arada (X.1996) Əmir Teymurun yubileyi münasibətilə Daşkənddə keçirilən tədbirlərə qatılan H.Əliyev az sonra **Özbəkistana ilk rəsmi səfərini** (VI.1997) etdi. Müzakirələrin sonunda imzalanan 9 sənəddən biri də "Özbəkistanla Azərbaycan arasında əməkdaşlığın inkişaf etdirilməsi, dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi haqqında Saziş" idi. Tərəflər habelə əməkdaşlıq üzrə **hökumətlərarası müştərək komissiya**nın yaradılmasını qərara aldılar. Onun **ilk iclasları** Bakıda (II.1998) və Daşkənddə (IX.1998) keçirildi.

Prezidentlərin qarşılıqlı səfərləri təcrübəsi davam etdirilir. İ.Əliyev də Özbəkistana rəsmi səfərlərdə olmuşdur. İ.Kərimov-

la çoxşaxəli danışıqlarda MDB çərçivəsində əməkdaşlıq və Özbəkistanın Xəzərin enerji ehtiyatlarının nəqlinə dair layihələrdə iştirakı məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır. (AR-dən fərqli olaraq Özbəkistan MDBdaxili Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT-də) iştirak edir. Ancaq o da Belarusla birlikdə (7 üzvdən ikisi) KTMT-nin Çevik Qüvvələrinin yaradılması barədəki sazişə qoşulmayıblar. Yeri gəlmişkən, Azərbaycan **Özbəkistanın GUAM-a üzv olduğu müddətdə** (1998-2002) həmin təşkilat çərçivəsində onunla əməkdaşlıq etmişdir).

Azərbaycan və Özbəkistan müstəqil respublikaları arasında bəzi **anlaşılmazlıqlar və gərginlik halları** da olmuşdur. Onlar da özünü ən çox keçən əsrin 90-cı illərinin əvvəlində göstərmişdi. Tərəflər arasındakı soyuqluq, gərginlik müxtəlif səbəblərdən irəli gəlmiş və bir sıra hallarda özünü açıq-aşkar biruzə vermişdir. Bu cür hallardan biri barələrində az öncə bəhs edilən sənədlərlə bağlı yaranmışdı. Belə ki, 5 illik müddətə bağlanan və, problem olmazsa, sonrakı beş illiyə də vaxtı uzadılması razılaşdırılan müqavilənin təsdiqnamələrinin mübadiləsi Bakıda icra edilməliydi. AR-in rəsmi dövlət mətbuatının ("Xalq qəzeti", 21.XII.1991) məlumatına görə, Daşkənddə imzalanan sənədlər Azərbaycan Milli Şurası tərəfindən təsdiqlənmişdi (19.XII.1991). İ.Kərimovun **AR-ə ilk rəsmi səfəri zamanı** (V.1996) verdiyi açıqlamadan isə "Dövlətlərarası münasibətlərin prinsipləri haqqında Müqavilə"nin təsdiqlənmədiyi bəlli olur. Habelə "1992-ci ildə ticarət-iqtisadi əməkdaşlığın prinsipləri barədə"ki sazişin bir xeyli müddətə AR-ÖR münasibətlərini tənzimləyən yeganə sənəd olduğu aydınlaşır.

Özbəkistan tərəfinin bu cür **diplomatik davranışının səbəbini** dövlətlərarası münasibətlərdə Ə.Elçibəy hakimiyyətinin yanlış hərəkətləri üzündən yaşanan siyasi gərginliklə əlaqələndirən **mövqelər** vardır. Bu cür mövqelərə görə, Azərbaycan rəhbərliyinin (xüsusilə də, Ə.Elçibəyin) Özbəkistandaxili siyasi problem və proseslərə (iqtidar-müxalifət qarşıdurmasına) mü-

daxiləsi, yəni münasibət bildirməsi rəsmi Daşkənd (əsasən də, İ.Kərimov) tərəfindən ciddi narazılıqla qarşılanmışdı. (Prezidentlər olaraq Ə.Elçibəylə İ.Kərimov yalnız bir dəfə - o da ATƏM-in Helsinki sammitində (VII.1992) ayaqüstü görüşmüşdülər). Özbək müxalifətinin Azərbaycan və Türkiyə tərəfindən dəstəklənməsini (liderlərə siyasi sığınacaq verilməsi və s.) əsas tutan, əslində isə bəhanə edən İ.Kərimov iqtidarı hər iki dövlətə qarşı sərt tədbirlər gördü. (Türkiyəyə qarşı münasibətdən az sonra bəhs olunur). **Azərbaycanla bağlı görülən tədbirlərə** gəldikdə:

- barəsində az öncə şərh verilən "sənədlərin təsdiqlənməməsi müəmması-qalmaqalı" yaradıldı;
- müxalifət liderlərinin qaytarılması tələb edildi;
- özbək ictimaiyyəti və müxalifətinin yaratdığı **"Qarabağa yardım komitəsi" ləğv olundu** və könüllü mücahid dəstələrinin Azərbaycana gəlmələri əngəlləndi;
- ölkələrarası mövcud hava yolları bağlanıldı;
- AR-in ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı, münaqişənin sülh yolu ilə həllinə çalışılması vurğulansa da, Ermənistanla yalnız səfirliklər səviyyəsində rəsmi münasibətlər saxlanıldığı bildirilsə də, **təcavüzkar tərəf kimi onun adı indiyədək çəkilmədi** və s.

Belə bir **vacib məqam** da mütləq qeyd edilməlidir ki, Özbəkistan tərəfinin (İ.Kərimov hakimiyyətinin) dövlətlərarası münasibətlərdəki pozulma və gərginlik hallarının yalnız Azərbaycanın (Ə.Elçibəyin) təqsiri ucbatından baş verməsi **iddiası əsassız**dır. Çünki Özbəkistan o vaxtlar və hətta indinin özündə belə bir sıra beynəlxalq və regional qurumlar tərəfindən insan hüquqlarının daha çox pozulduğu ölkələr sırasına daxil edilir. Problemin tədqiqatçılarından S.Ruintən və b. qənaətinə görə də, bu türk dövlətlərinin münasibətlərindəki **qısamüddətli korlanma** elə tərəflərin hər ikisinin hərəkətləri üzündən baş vermişdi. Bizcə, bu məsələdə Rusiyanın təsir dairəsindən çıxmağa çalışan, buna görə də MDB-yə yaxın durmayan Azərbaycana

(Ə.Elçibəy iqtidarına) Kremlin həmçinin İ.Kərimovun avtoritar rejimi vasitəsilə təzyiq göstərmək planları da rol oynamamışdı.

Ümumiyyətlə isə, dövlətlərarası münasibətlərdəki narazılıq və gərginliyin aradan qaldırılması və əsasən normal məcraya yönəldilməsi **perspektivdə problemlərsiz əməkdaşlığın davam etməsinə inam** yaradır. Tərəflərin bağladıqları **40-dan çox** müqavilə, protokol və s., iqtisadi maraqların qarşılıqlı təminatı və MDBdaxili proseslərlə bağlı müəyyən uzlaşma da çağdaş türk dövlətçiliyinin bu aparıcı qolları arasında anlaşmanın saxlanmasına müsbət şərait yaradır.

Qırğızıstan AR-in dövlət müstəqilliyini 1991-ci ilin sonlarında **tanıyıbdır**. Bişkekdə imzalanan protokola (9.X.1992) əsasən dövlətlər arasında diplomatik əlaqələrə başlanılıbdır. Səfirliklərsə 1998-ci ildə açılmışdır. Müstəqil dövlətlər səviyyəsində münasibətlər **ilkin çağlarda** əsasən beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq kimi səciyyələndirilə bilər.

İkitərəfli əlaqələrin ən önəmli vasitələrindən biri **dövlət başçılarının görüşləri** və rəsmi səfərlərindən ibarətdir. Prezidentlərin (H.Əliyevlə Ə.Akayevin) **ilk belə görüşü** *MDB-nin* Aşqabad sammiti (XII.1993) zamanı keçirilmişdir. Görüş-söhbətdə ölkələmiz (xalqlarımız) arasındakı tarixi bağlar müasir dövlətlərarası münasibətlər üçün möhkəm özül olaraq dəyərləndirildi. Dövlət başçılarının rəsmi səfərlərinə gəldikdə isə **ilk belə təşəbbüs** H.Əliyev tərəfindən göstərilmişdi. Həmin səfərin (VIII.1995) gedişindəki danışıqlar əsasən Xəzər hövzəsi dövlətlərinin iqtisadi inteqrasiyasının genişləndirilməsi ətrafında aparıldı.

Ə.Akayev Azərbaycana rəsmi səfərinin (IV.1997) başlıca məqsədini "qardaş türk elləri arasında dostluq və əməkdaşlığı daha da genişləndirmək və dərinləşdirməkdə" gördüyünü bildirdi. Danışıqlarda tərəflər öz mövqelərini belə ifadə etdilər: "Azərbaycan bundan sonra da bütün sahələrdə Qırğızıstan üçün çox etibarlı tərəfdaş olacaq" və "Qırğız xalqı Azərbaycan xalqı

ilə həmrəydir". Müzakirələrdə Qırğızıstanın da **Transqafqaz magistralı barədə** yaxın vaxtlarda imzalanacaq **dördtərəfli sazişə** qoşulmaq niyyəti açıqlandı. Səfər-danışıqların yekunu olaraq tərəflər 13 sənəd imzaladılar: dostluq və əməkdaşlıq haqqında müqavilə; investisiyaların qarşılıqlı həvəsləndirilməsi və qorunması; elmi-pedaqoji kadrların attestasiyası; turizm, zəhmətkeş miqrantların əmək fəaliyyəti və sosial müdafiəsi, habelə digər sahələrdə əməkdaşlığa dair sazişlər.

AR-in xarici siyasətində və ayrı-ayrı dövlətlərlə münasibətlərində **məhək daşına çevrilən** "Dağlıq Qarabağ problemi"nə yanaşma məsələsində **Qırğızıstanın mövqeyi** də xüsusi maraq doğurur. Dövlət başçılarının və digər rəsmilərin danışıqlarının materiallarından da bəlli olduğu kimi, Qırğızıstan Ermənistan-Azərbaycan münaqişəsinin sonuncunun ərazi bütövlüyü çərçivəsində, dinc yolla tənzimlənməsinə tərəfdardır. "Lissabon sənədini (prinsiplərini)" dəstəkləyən Qırğızıstan rəhbərliyi, Ermənistanla Azərbaycan arasında atəşkəsə dair **"Bişkek Protokolu"**nun (12.V.1994) ərsəyə gəlməsində xeyli fəallıq göstərmişdir.

Bütün bunların əhəmiyyətinin vurğulanması ilə yanaşı Qırğızıstan hökumətinin, şəxsən **Ə.Akayevin ümumtürk birliyinə** və eyni zamanda Azərbaycanla münasibətlərə **xələl gətirə biləcək bəzi anlaşılmaz hərəkətləri** də olmuşdur. 1997-ci ilin aprelində AR-ə elə Ermənistana rəsmi səfərdən sonra gələn Ə.Akayevin İrəvanda "erməni soyqırımı" abidəsini ziyarəti yolverilməz diplomatik addım sayıla bilər (Buna bir qədər sonra əhatəli toxunulur). Bununla bağlı Azərbaycan tərəfinin də müəyyən **prinsipsizlik-loyallıq** göstərdiyi qeyd olunmalıdır. Belə ki, qırğız prezidentə ümumtürk həmrəyliyinə zidd davranışının ardınca isti-isti Bakıda Dövlət universitetinin **(BDU-nun) fəxri doktoru** diplomu verilmişdi. Qırğızıstan dövləti səviyyəsində olmasa da ölkənin bir özəl şirkətinin təcavüzkar Ermənistana hərbi sursat satması da qarşılıqlı münasibətlərə təsirsiz ötüşmədi.

Bakı-Bişkek münasibətlərinin hazırkı vəziyyəti müəyyən sahələrdə qarşılıqlı məqbul əməkdaşlıqla səciyyələnir. Təxminən **20-yə** yaxın müqavilə və digər diplomatik anlaşmalar əsasında aparılan bu əməkdaşlıq **əlaqələrin sonrakı normal inkişafını** təmin edə bilmək gücündədir. Prezidentlərin müxtəlif müstəvilərdəki görüşləri və qarşılıqlı səfərləri ilə yanaşı dövlətlərin **parlamentlərinin işgüzar əlaqələrə** malik olması da faydalıdır.

Qırğızıstan parlamenti sədrinin hələ 1997-ci ilin martında AR-ə səfəri və Azərbaycan Milli Məclisinin spikeri ilə apardığı müzakirələr və imzaladığı saziş diqqətçəkicidir. MDB, İKT və digər təşkilatların Parlament Assambleyaları **çərçivəsindəki işbirliyi** də müəyyən səmərə verir. Qırğızıstanın hazırkı prezidentinin AR-in dövlət başçısı ilə çoxsaylı görüşləri zamanı aparılan danışıqlarda dövlətlərarası münasibətlərin perspektivlərinə xüsusi diqqət yetirilir. Bir sözlə, bir millətin bu iki dövlətinin də **ümumtürk birliyinə yönəlik birgə fəaliyyəti** arzuolunandır və mümkündür.

Türkmənistanla Azərbaycan arasında müstəqil dövlətlər olaraq **bir-birilərini tanıma** 1991-ci ilin sonunda baş tutubdur. Dövlətlərarası dipölomatik əlaqələr 1992-ci ilin iyununda quruldu. Amma səfirliklər səviyyəsində münasibətlərin yaradılmasına isə gec, yəni 1997-ci ildən başlanıldı.Buna iki dövlətin baş diplomatlarının (H.Həsənovla B.Şıxmuradovun) Aşqabadda keçirilən danışıqlarının (VI.1996) nəticəsində imzalanan "Xarici İşlər nazirlikləri arasında əməkdaşlıq haqqında **protokol"** da müsbət təsir göstərdi.

Azərbaycan tərəfi Türkmənistanda diplomatik nümayəndəliyin təsisi barədə 1997-ci ilin aprelində qərar qəbul etsə də, dövlətlər arasındakı anlaşılmazlıq və gərginlik üzündən səfirin fəaliyyətə başlaması yalnız 2000-ci ildə mümkün oldu. Türkmənistan 1998-ci ildə ölkəmizdə öz səfirliyini açsa da, tezliklə maliyyə çatışmazlığı bəhanəsiylə-əslində isə Xəzərin statusu ilə bağlı narazılıqlar ucbatından-diplomatik nümayəndəsini

tezliklə geri çağırdı. Lakin sonradan səfirliyin bərpası bildirilsə də, o hələlik əməli fəaliyyət göstərmir.

Dövlətlərarası münasibətlər yaradıldığı vaxtlardan etibarən **bir məsələdə ciddi problemlərlə** üzləşilmişdir. Bu da **Xəzərin hüquqi statusu** və həmin kontekstdə onun **karbohidrogen ehtiyatlarının istismarı məsələlərinə fərqli yanaşma** ilə əlaqədar olaraq yaranmışdır. (Həm bu problemlər, həm də Türkmənistanın **"Transxəzər"-"Nabucco" qaz kəmərləri layihələri** ilə bağlı mövqeyinə aid məsələlər 3-cü bölümdə yetərincə təhlil olunur).

Bütövlükdə mürəkkəbliyi və gərginliyi ilə **fərqlənən** Azərbaycan-Türkmənistan münasibətləri əsasən iqtisadi əlaqələr qurulması, xüsusilə də enerji ehtiyatlarının işlənməsi və nəqli sahəsində anlaşma əldə olunması yönündədir. Dövlətlərarası ikitərəfli əlaqələrin qurulmasında Türkmənistan prezidenti **S.Niyazovun AR-ə ilk və yeganə rəsmi səfəri** (III.1996) müəyyən rol oynadı. H.Əliyevlə aparılan danışıqlarda diqqəti cəlb edən məqamlardan biri də tərəflərin Rusiya Dövlət Dumasının **"Belovej sazişi"nin ləğvinə** dair qərarına (15.III.1996) **birmənalı münasibət** bildirmələri oldu.

Hər iki ölkənin müstəqilliyi onların xalqlarının referendumlarla təsdiqlənən iradəsi kimi dəyərləndirildi. Dövlətçiliyin və müstəqilliyin dönməzliyi ilə əlaqədar mövqe bir daha nümayiş etdirildi. Danışıqların nəticəsində 10-dan çox sənəd, o cümlədən yekun protokolu **("Bakı Bəyannaməsi")** və dövlətlər arasında dostluq, əməkdaşlıq barədə müqavilə bağlandı. Həmçinin azad ticarət, beynəlxalq hava yolları, sosial-elmi-mədəni əməkdaşlıq, Milli Təhlükəsizlik qurumlarının əlaqələri və s. aid sazişlər, konsul konvensiyası imzalandı.

Prezidentlər İƏT-in Aşqabad (V.1996) və İKT-nin Tehran (XII.1997) **sammitləri çərçivəsində** də ikitərəfli görüşlər keçirmişlər. Bu zaman aparılan **məsləhətləşmələrdə** Sərəxs sazişi bəyənildi, beynəlxalq-məhəlli təşkilatlarda işbirliyinə diqqətin artırılması və parlamentlərarası əlaqələrin qurulması vurğu-

landı. Rəsmi və işgüzar səfər-görüşlər prosesində Türkmənistan rəhbərliyi **Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyini** də dəfələrlə açıqlamışdır. Özünü **tərəfsiz** elan edən Türkmənistanın mövqeyi də Mərkəzi Asiyanın digər dövlətlərinin yanaşmalarından **əsla fərqlənmir,** bütövlükdə, üst-üstə düşür. Həmin mövqeni səciyyələndirən **cəhətlərsə** bunlardır:

- Azərbaycanın ərazi bütövlüyünün tanınması və sərhədlərinin toxunulmazlığının istənilməsi;
- münaqişənin sülh yolu ilə həlli;
- Ermənistana **ehtiyatlı yanaşma** və **onun təcavüzkar kimi tanınmaması;**
- **"ikili standart",** yəni Azərbaycanla olduğu təki Ermənistanla da iki(çox)tərəfli münasibətlər saxlanması;
- beynəlxalq və regional qurumların münaqişənin nizamlanmasına dair sənədlərinin imzalanması və s.

Türkmənbaşı da qırğız həmkarı Ə.Akayev kimi Ermənistan-Azərbaycan münaqişəsinin **incəliklərini, mənəvi tərəflərini və həssaslığını tam da nəzərə ala bilməmişdi.** Bunu onun AR-dən sonra Ermənistana etdiyi rəsmi səfərinin (III.1996) **bir detalı** da təsdiqləyir. Belə ki, S.Niyazov Qaraqoyunlu türkmən əmirinin mavzoleyini ziyarəti vaxtı Ermənistan prezidenti L.Ter-Petrosyanın orada birgə arxeoloji tədqiqatlar aparılması təklifi ilə razılaşmışdı (Amma o, Qırğızıstan prezidentindən fərqli olaraq, **İrəvanda "erməni soyqırımı" abidəsini ziyarət etməmişdi).**

Azərbaycan-Türkmənistan münasibətlərinin hazırkı məlum vəziyyətinin qarşılıqlı faydalı əməkdaşlıq səviyyəsinə yüksəlməsi perspektivi öncəliklə və daha çox onların özlərinin **"Qordi düyünü"**nü açmaq bacarığından asılı olacaqdır. Yəni tərəflərin Xəzərin hüquqi statusu və "mübahisəli" neftli ərazilər barədə anlaşa bilməsi münasibətlərin tam düzəlməsinin **"açarı"** sayıla bilər. Bunu nəzərə alan **prezidentlər** (İ.Əliyev və Q.Berdımuhamedov) **iki(çox)tərəfli məsləhətləşmələrlə** mövcud problemlərin aradan tezliklə qalxmasına çalışırlar.

AR-in Mərkəzi Asiyanın türk respublikaları ilə münasibətlərinə aid təhlilləri yekunlaşdırarkən bu **tezisvarı müddəaları** qeyd etmək olar: **Qazaxıstanla** sabit və normal əməkdaşlıq; **Özbəkistan və Qırğızıstanla** vaxtaşırı ortaya çıx(arıl)an və aradan qaldırılmasına müvəffəq olunan narazılıqlar (anlaşılmazlıqlar); **Türkmənistanla** həlli hələlik müşkülə çevrilən problemlər (Xüsusilə də, Xəzərin hüquqi statusuyla əlaqədar olaraq); reallaşdırılmağa doğru yönləndirilməkdə olan **güclü əməkdaşlıq –istifadə edilməmiş imkanlar potensialı** və s.

Türk dünyasıdaxili inteqrasiyanı əngəlləyən səbəblər və Ümumtürk birliyinin gələcəyinə dair baxışlar

Sonda türk dünyasının **inteqrasiyasını çətinləşdirən problemlərə-əngəlləyən amillərə** və **ümumtürk birliyinin perspektivlərinə** qısaca nəzər salmaq da gərəkir. Ümumtürk həmrəyliyinə nail olunmasını ləngidən və əngəlləyən **problem-amillər** xülasə formasında aşağıdakı kimi formulə edilə bilər:

1-cisi, siyasi coğrafiyanın yarımçıqlığı. Burada türklərin yaşadırları əraziləri əhatə edən vahid dövlətin olmaması nəzərdə tutulur. Digər yandan, ümumtürk coğrafiyasında hələ də öz **dövlətçiliklərini bərpa edə və ya yarada bilməyən çoxlu topluluqlar** qalmaqdadır. Bütün bunlar, başlıcası da **ümumtürk coğrafi məkanında vahid dövlətin olmaması** digər amillərlə birlikdə xalqlarımız və topluluqlarımız arasında işbirliyi, həmrəylik və s. ərsəyə gəlməsinə, şübhəsiz, öz mənfi təsirini hiss etdirir. Ümumtürk dövləti niyyəti və planının gündəmdə olmadığı (hazırkı dünya reallıqlarında ümumiyyətlə mümkün sayılmadığı) bir şəraitdə belə türk dünyasının inteqrasiyası prosesinə **"pantürkçülük", "turançılıq"** və digər ittihamlar irəli sürülür, damğalar vurulur.

Türk dövlətləri və topluluqlarının bir araya gəlməsinin onların **siyasi birliyi ilə nəticələnə biləcəyi ehtimalı** müəyyən

beynəlxalq və regional çevrələrdə **əndişə** yaradır. Türkiyənin **Avropa İttifaqına** yaxın buraxılmaması həm də elə bu kimi "qayğı"lardan qaynaqlanır. (Vaxtılə Avropaya hərblə gələn və oradan elə müharibələrlə də çıxarılan türkün **"köhnə dünya"**ya siyasi və sivil yollarla qayıdışı əsla istənilmir). **Rusiya** post-sovet türk respublikalarını MDB (KTMT) və s. ilə öz təsiri altında saxlamaqla habelə taleyüklü **türk həmrəyliyini əngəlləməyə çalışır. ABŞ-ın "Böyük Orta Şərq" layihəsi** də türk dünyasına yaxşı perspektivlər vəd etmir. **Regional gücdən "dünya dövləti"**nə çevrilməyi və tarixi "orta şahlığı" bərpa etməyi hədəfə alan **Çin** bunların gerçəkləşməsi yolundakı maneələrdən biri kimi ümumtürk birliyini görür. Bütövlükdə, türk dünyası coğrafiyasındakı siyasi yarımçıqlıq ümumtürk birliyini əngəlləyən başlıca amillərdəndir.

2-cisi, iqtisadi inkişafda fərqli durum. Bu, özünü həm Türkiyə ilə Azərbaycanın, həm də onların Mərkəzi Asiyanın türk dövlətləriylə, habelə Xəzərin şərqindəki türk respublikalarının öz aralarındakı iqtisadi inkişaf səviyyəsində aydın şəkildə biruzə verir. Məsələn, Xəzər hövzəsinin aparıcı türk dövlətləri sayılan Qazaxıstanla Özbəkistanın XXI əsrin başlanğıcında iqtisadi inkişaf səviyyəsindəki fərqi açıqlayan bir fakt-məlumat: Qazaxıstan xarici dövlətlərə 7,5 mlrd.dollar borclu olduğu halda, cəmi 1,7 mlrd.dollarlıq qızıl-valyuta ehtiyatlarına malik idi. Özbəkistansa 6 mlrd.dollarlıq qızıl-valyuta ehtiyatlarına sahiblik etməklə xarici dövlətlərə borclu deyildi.

3-cüsü, Ümumtürk milli şüurunun tam yetişməməsi (formalaşmaması). Bunu müasir türk dövlətlərinin münasibətlərində vaxtaşırı özünü göstərən narazılıqlar, ixtilaflar və s. də təsdiqləyir. Bəzi dövlət başçıları bütün türk dünyası üçün taleyüklü səciyyə daşıyan, həssaslıq tələb edən məsələlərdə çeviklik və praqmatizm nümayiş etdirmirlər. Məsələn, Ə.Akayevin İrəvanda **"erməni soyqırımı" abidəsinə əklil** qoyması. Fikrimizcə, onun bu kimi davranışından daha çox **öz "diplomatik gedişi"nə verdiyi "izah"** xeyli düşündürücü və rahatsızlıq doğurucudur: "...harada, hansı ölkədə baş verməsindən, kim tərəfindən törədilməsindən asılı olamayaraq soyqırımına bəraət qazandırmaq olmaz". (Göründüyü kimi, **erməni uydurmasına "həqiqət donu"** geyindirilir-İ.M.).

Ə.Akayevin bu "izah"ında yəni Ermənistandan sonra Azərbaycana etdiyi rəsmi səfərin (IV.1997) yekunlarına həsr olunan mətbuat konfransındakı açıqlamasında apardığı müqayisə də əsassız və qüsurludur. Belə ki, o, Bakıdakı Şəhidlər xiyabanını ziyarət edərkən də "Xatirə kitabı"na təxminən eyni sözləri yazmışdı. Habelə AFR-in kansleri V.Brandtın Varşavada diz üstə çökərək almanların yəhudilərə qarşı törətdiyi soyqırımı pisləməsini nümunə sayan Ə.Akayevin bununla öz hərəkətinə haqq qazandırmağa çalışması və "erməni genosidi" ilə qüsurlu paralellər aparması məqbul sayıla bilməz. Bizcə, bir türk dövlətinin (Qırğızıstanın) prezidentinin yanlış davranışının digər bir türk məmləkətində (Azərbaycanda) başqa təəssüf doğurucu aktla tamamlanması da ümumtürk həmrəyliyinə qovuşmanın tam dərk olunmamasıyla əlaqədir. (Burada söhbət Ə.Akayevə **BDU-nun fəxri doktoru diplomunun təqdimatın**dan gedir. Bu hal, yəni məlum abidəni ziyarəti ilə "erməni soyqırımı"nı tanımış olan dövlət başçısının AR-də bu səviyyədə şərəfləndirilməsi, ən yumşaq halda, ermənilərin antitürk təbliğatına qarşı biganəlik, güzəştə getməkdir).

Dövlətlərarası münasibətlərdə müəyyən mümkün olan və düzəldilə bilən anlaşılmazlıqlar, narazılıqlar, problemlər üzündən İ.Kərimovun Türkiyəyə və Azərbaycana qarşı gördüyü bəzi sərt tədbirlər də əslində (alt qatda) **ümumtürk milli şüurunun tam formalaşmamasına dəlalət** edir: Özbəkistanın Türkiyədəki səfirliyinin bir müddətə bağlanması; Türkiyədə ali təhsil alan özbək tələbələrin geri çağırılması hədəsi; Ahıska türkləri ilə bağlı Ankara və Bakıya təzyiq; "Qarabağa yardım komitəsi"nin ləğvi və s.

Müəyyən **analoji addımlar** qismən də **Türkmənbaşı** tərəfindən atıldı: AR-dəki diplomatik nümayəndəlik fəaliyyətsiz

hala gətirildi; Ermənistandakı türkmən abidəsinin öyrənilməsi məqsədilə birgə arxeoloji tədqiqatlara razılıq verildi; Azərbaycanın Xəzərdəki neftli sahələrinə əsassız ərazi iddiaları irəli sürüldü. **Qazaxıstan-Özbəkistan-Qırğızıstan üçbucağında yaşanan ərazi-sərhəd mübahisələri** də ümumtürk həmrəyliyinə təsirsiz ötüşmür.

Özlərinin-hazırda digər dövlətlərin tərkibindəki-tarixi ərazilərində yaşayan Güney Azərbaycan türklərinin (İranda), uyğurların (Çində) və b. beynəlxalq prinsip və normalara əsaslanan hüquqlarının əsla tanınmamasına türk dünyası səviyyəsində yetərli etirazların olmaması da **ümummilli dərkin çatışmamazlığı** kimi başa düşülməlidir. Digər yandan, Türkiyə rəsmiləri və ictimaiyyətinin uyğurların problemlərinə diqqət yetirdikləri (onların 2009-cu ildə məruz qaldıqları repressiyalara qarşı çıxdıqları) halda, Güney Azərbaycandakı soydaşlarımızın sıxışdırılmalarına, bir növ, biganə qalmaları da **fərqli yanaşma nümunəsidir**. Mərkəzi Asiya türk dövlətlərinin təmsilçiləri və ictimaiyyətlərinin belə hallara münasibətdə **susması isə ənənəvi haldır.**

Bu kimi məsələlər 2009-cu ilin noyabrında Almatı şəhərində **"Türk dünyasının hazırkı aktual problemləri" beynəlxalq elmi-praktik konfransında** da müzakirə edilmişdir. **"7 dövlət-1 millət"** Kültür və Dayanışma Dərnəyinin, habelə bir çox digər qurumlarının təmsil olunduqları konfransı **Türk Xalqları Mədəniyyətləri Fondu (Vəqfi)** təşkil etmişdi. Konfransa 15 ölkədən 150-yə qədər nümayəndə gəlmişdi. **"Bəziləri türk dünyasını parçalamaq və ona hökm etmək istəyirlər" müddəasının** xüsusilə qabardıldığı bu toplantıda Qarabağla, Güney Azərbaycanla, uyğurlarla, Batı Trakya və b. ilə əlaqədar problemlər müzakirəyə çıxarılmışdı.

4-cüsü, Rusiya təsiri-sovet təfəkküründən asılılığından qurtula bilməyən dövlət başçıları və rəsmiləri məsələsi. Bu məqam, demək olar ki, özünü bütün postsovet türk dövlətlərində göstərir. Həmin respublikaların bəzi rəsmilərinin **"rusdilli**

türk sammitləri"nə ehtiyatlı münasibəti, adi görünsə də, **"türk dövlətləri" ifadəsi əvəzinə "türkdilli dövlətlər" sözlərinin** işlətmələri, Avrasiya məkanındakı beynəlxalq münasibətlərdə zaman-zaman **Rusiyanın tərəfinin tutulması** və s. misallar çoxdur.

5-cisi, Türkiyədaxili əsas siyasi qüvvələrin (Z.Bjezinskinin təsnifatına görə modernistlər, islamçılar və millətçilərin) **fərqli yönümlərini** də ümumtürk həmrəyliyini zəiflədən və türk dünyasının inteqrasiyasını ləngidən amillərdən saymaq olar. Yəni **modernistlərin** Türkiyəni bir Avropa dövləti kimi görmək istədiklərindən əsasən Qərbə meyllənməsi, islamçıların Yaxın və Orta Şərqə-müsəlman cəmiyyətlərinə üz tutmaları ("Cənuba boylanmaları"), millətçilərinsə keçmişə (tarixə) qayıdış edərək Xəzər hövzəsiylə Orta Asiyanın türk xalqlarına üstünlük verməklə Doğuya baxmaları ümumtürk birliyi naminə fəaliyyətdə **anlaşılmazlıqlara** səbəb olur.

Son vaxtlar Qərbdə Türkiyədəki AKP iqtidarının radikal islama meylli ölkələrə yönəlməsi barədəki qənaətlər artıbdır. "Washington Post" Türkiyə Baş nazirinin ABŞ-a səfəri (XII.2009) öncəsi yazırdı: " Ərdoğan və AKP bir vaxtlar ABŞ-da **dindar müsəlmanların demokratik siyasət yürütməsinin nümunəsi** sayılırdı. Ancaq bu imic sürətlə korlanır. Türkiyənin Baş naziri **müsəlman diktatorlara qucaq açır**". Rəsmi Ankaranın **xarici siyasətindəki dəyişikliyin əlamətləri** sırasında bunlar önə çəkilir:

- Qərbin "**mötədil islam**"a söykənən demokratik dövlət, **NATO-nun "şərqli (asiyalı) sütunu**", ayrı-ayrı qonşuların çeşidli siyasi radikalizminə (kommunist, islamçı və digər) qarşı möhkəm sədd kimi qəbul etdiyi və görmək istədiyi Türkiyə Aİ və ABŞ üçün lazım gələn **qırmızı xətti keçməyə** başlayıbdır;
- AKP iqtidarı dönəmində Türkiyənin Yaxın Şərqin və Afrikanın müsəlman ölkələri ilə ticarət dövriyyəsinin həcmi 7 dəfə artaraq 31 mlrd. dollar təşkil edibdir;

- R.Ərdoğanın və **"yeni Osmanlı" düşüncəli** Ə.Davudoğlunun ərəb dünyasındakı nüfuzu xeyli artıbdır;
- hazırkı rəsmi Ankara İran, Suriya, Sudan və digər dövlətlərlə münasibətləri yaxşılaşdırmaq və əməkdaşlığı genişləndirmək xəttini götürübdür (Hərçənd ki, Türkiyə bunu bütün yaxın qonşularla **"sıfır problem" strategiyası**nın ifadəsi kimi dəyərləndirir);
- Türkiyənin indiki hökuməti nəinki Fələstin yönümlüdür, habelə radikal "Həmas"a rəğbət göstərməyi (hətta onu tanımağı) lazım bilibdir. **Ərəb-müsəlman dünyasında sözsahibi olmağın (nüfuz qazanmağın) "açar"ının**, yəni ən sadə yolunun Fələstini dəstəkləməkdən və İsrailə qarşı mövqeni sərtləşdirməkdən ibarət olduğunu nəzərə alır (Türkiyənin bu siyasəti ərəb dünyasında böyük ümidlər yaradır. Bu hal habelə, bir tərəfdən, onu İranın rəqibinə çevirir, digər yandan da, İsrailə qarşı çıxmaqla rəsmi Tehranla yaxınlaşdırır);
- bütün bunlar da **"Türkiyə Qərbi tərk edirmi?" sualını** ortaya qoyubdur.

Qərbdəki bu kimi nəzəri müddəalar və siyasi təhlillər həmçinin bir sıra konkret fakt və dəlillərlə də əsaslandırılır. Bu zaman Türkiyənin bütün müsəlman dövlətlərinə yanaşması-rəğbətindəki fərqli məqamlar: antiQərb **mövqeli rejimlərlə (İran, Sudan və b.ilə) həmrəylik** və Misir, İordaniya, Tunis kimi **Qərbyönümlü islam ölkələrinə yetərsiz diqqət** önə çəkilir. " Türkiyənin gələcəyini Qərb tərəfdaşının quyruğunda deyil, müsəlman dünyasının başında olmaqda görən AKP iqtidarı İranla enerji əməkdaşlığına, onunla sərhəddə azad iqtisadi-ticarət zonası yaratmağa (bəzi məlumatlara görə hətta Ermənistanı da bu işə qoşmağa) üstünlük verdiyi də bildirilir.

Türkiyənin indiki dövlət və hökumət başçılarının müsəlman ölkələrinə ardıcıl səfərlərinin Cənubi Qafqaz ətrafında Pakistanla İranı da əhatə edəcək bir **"müsəlman qövsü"nün yaradılmasına və Osmanlı ideologiyası əsasında yeni geopolitik durum formalaşdırılmasına** xidmət etdiyi iddia olunur

(**Sonuncu ideyanın F.Gülənə məxsus** olduğu məlumdur. Bu ideyanın gerçəkləşməsi çağdaş Türkiyənin potensialı və dünyanın güc mərkəzlərinin ona qarşı çıxması üzündən mümkünsüz hesab olunur). Qərbin bəzi siyasi dairələrində "islam aləminə liderlik iddiasında olan **Türkiyənin Avropa Birliyinə alternativ – yeni müsəlman birliyi yaratması"**ndan müəyyən əndişə də özünü göstərməkdədir. Türkiyənin guya "Osmanlının hüdudlarının bərpasını" hədəfə aldığına dair baxışın sahibləri dəlil-sübut kimi rəsmi Ankaranın İran, İraq, Suriya, Pakistan və digərləri ilə viza rejimini ləğv etməsini qabardır, habelə Güney Qafqaz ətrafında da bir "müsəlman qövsü"nü yaratmağa çalışdığını vurğulayırlar. Bu kimi fikirlərsə Türkiyə tərəfindən bütün yaxın qonşularla "sıfır problem" və səmərəli ikitərəfli əməkdaşlıq təki antitezislə cavablandırılır.

Politoloji-analitik dövriyyədə olan **digər bir versiyaya (müddəaya)** görə, xristian dünya gücləri (ABŞ, Rusiya, Avropa) arasında Avrasiyada qlobal təhlükəsizliyə dair anlaşma mövcuddur. Cənubi Qafqazı da əhatə edən bu **plan – layihənin yeganə müsəlman ölkəsi (aktoru) isə Türkiyədir**. Rəsmi Ankaranın region dövlətləri ilə təmasları gücləndirməsi də bu anlaşma-planın tərkib hissəsidir və "müəyyən çərçivəli belə bir missiya" Türkiyəyə məqsədli olaraq, razılıq (konsensus) əsasında tapşırılmışdır. Bu müddəa da hazırda Qərbdə Türkiyə ilə əlaqədar olaraq vaxtaşırı səsləndirilən ziddiyyətli fikirlərlə uyuşmur. Belə ki, **Qərbdə (Aİ və ABŞ-da) Türkiyə, bir tərəfdən** "Troya atı", "ağır tarixi miras", "köhnə dünya" ilə təzadlarlı region", "Avropanın baş ağrısı", "əbədi Osmanlı xofu", "Qərbin müsəlmanlaşması", "etimad göstərilməsi mümkün olmayan millət", "radikal islama meyllənmə" və digər yanaşma-tezislər kontekstində görünür, səciyyələndirilir. Məhz bu cür mövqe-baxışların ifadəsi olaraq "Xristian klubu"nun (Aİ-nin) bəzi "şahin dövlətləri" və kardinal İ.Ratzinger (indiki **Papa XVI Benedikt) "Türkiyə gedib ərəblərə liderlik etsin"** kimi fikirləri səsləndirir, çağırışlar edirlər.

Digər yandan da, Türkiyə "regiona ox ölkə", "sivilizasiyaları qovuşduran bölgə", L.Qumilyovun "slavyan-türk birliyi" ideyasını gerçəkləşdirmə potensialı, "etibarlı məhəlli güc", "islam dünyası üçün model", "Orta Şərqdə sayılan demokratiya", "Yaxın Şərqdə "dayaq dövlət" roluna ən uyğun gələn ölkə" və s. kimi də dəyərləndirilir, nəzərdən keçirilir. Bu kimi dəyərləndirmələr şəraitində də Türkiyə qarşısında çox ağır şərtlər qoyulur. Məsələn, S.Hantinqton Yaxın Şərqdə "dayaq dövlət" roluna ən uyğun gələn ölkə" olan **Türkiyənin kamalçı idarəçilikdən vaz keçməsi,yəni "Atatürkün mirasından" – Rusiyanın Leninin mirasını rədd etdiyindən də artıq səviyyədə - uzaqlaşması lazım gəlir" müddəasını** irəli sürmüşdür. Son vaxtlar AKP iqtidarının buna yönəlik bir sıra cəhdlər etməsi görünməkdədir. Ancaq, bütövlükdə, belə bir işin baş tutması mümkünsüzdür. Sözgəlişi, hətta Ç.Buşun (oğul) Türkiyəni "islam dünyası üçün bir model olaraq görmək istədikləri" fikri o vaxtkı prezident Ə.Sezər tərəfindən **"ölkəmiz dünyəvi dövlətdir, islam modeli deyildir"** kimi qənaətlə qətiyyətlə rədd edilmişdi.

Qərbin Türkiyənin müsəlman dünyasına yönəlik yeni siyasətinə barədəki dəlilləri sırasında rəsmi **Ankaranın Sudanla sıx münasibətləri və onun prezidenti Ö.Əl-Bəşirə rəğbəti** də özünə yer alıbdır. Məsələ burasındadır ki, Beynəlxalq Cinayət Məhkəməsi (BCM) Ö.Əl-Bəşiri ölkəsinin **Darfur bölgəsində** 200 min insanın vəhşiliklə öldürülməsində və 2,5 mln. nəfərinsə qaçqın düşməsində ittiham edir. Belə bir şəraitdə Türkiyə Baş nazirinin Sudana səfəri, İsrailin Qəzzada törətdiklərindən fərqli olaraq Darfurda qırğının törədilmədiyini iddia etməsi "Əl-Bəşir müsəlmandır, heç müsəlman da soyqırım törədər?" mülahizəsi Qərbdə birmənalı qarşılanmayıbdır. Bunlar azmış kimi barəsində BCM tərəfindən həbs qərarı çıxarılan Sudan prezidentinin İKT-yə üzv ölkələrin İqtisadi Əməkdaşlıq Daimi Komitəsinin (İSEDAK-ın) İsatnbuldakı toplantısına (XI.2009) dəvət olunması Aİ-də və hətta Türkiyədə etirazlar yaradıbdır. Rəsmi Ankara dəvətin onun deyil, İSEDAK-ın tərəfindən edildiyini bildirmişdir. Bu diplomatik qalmaqal Ö.Əl-Bəşirin toplantıya qatılmaqdan son anda imtina etməsiylə sakitləşmişdir.

2009-cu ilin yanvarında Davosda Türkiyə Baş naziri ilə İsrail prezidenti arasında yaşanan mübahisədən sonra qəlizləşən dövlətlərarası münasibətlər də rəsmi Ankaranın xarici siyasətində dəyişiklik kimi səciyyələndirilir (Son vaxtlaradək Türkiyə İsraillə normal münasibətləri olan çox az müsəlman dövlətlərindən biri idi). Bu hadisədən sonra iki dövlətin münasibətlərində 2009-cu ilin sonuna yaxın baş verənlər gərginliyi daha da artırdı. Öncə Türkiyə İsrail hərbi təyyarələrinin də iştirakı əvvəlcədən planlaşdırılan təlimləri ləğv etdi. Bu hərəkət "ölkə ictimaiyyətinin rəyinin nəzərə alınması", yəni Türkiyə əhalisinin Qəzzada baş verənlərə kəskin etiraz bildirməsi ilə əlaqələndirildi. Daha sonra Türkiyənin dövlət telekanalı (TRT-1) ilə nümayiş etdirilən film tərəflər arasında "körpüləri yandırmaq" təsiri bağışlayıbdır. Yəhudi əsgərlərinin "körpə qatili" təki təsvir edildiyi serial İsrail rəsmiləri tərəfindən "açıq düşmənçilik" adlandırılıbdır (R.Ərdoğan da **"Davos – "One minute" – qalmaqal"**ında Ş.Peresi və İsraili "qatil" kimi səciyyələndirmişdi).

"Hərbi təlim böhranı" və "dizi krizi" rəsmi Ankaranın İran-İsrail qarşıdurmasında birincinin tərəfini tutması ilə tamamlandı. Türkiyə Baş nazirinin " İsrailin İrana müdaxilədən ötrü onun hava məkanından istifadə edəcəyi halda Təl-Əvivə "zəlzələ təki" cavab veriləcəyini açıqlaması da dövlətlərarası əlaqələri xeyli zədələdi. Bunların da qarşılığında İsrail Türkiyəyə hərbi təyyarələri satmaqdan imtina etdi. Yəhudi diplomatiyası rəsmi Ankaranın son hərəkətlərini, habelə Fələstin problemi ilə bağlı sərt mövqeyinin və canfəşanlığının sadəcə " müsəlman təəssübkeşliyi" deyil, Türkiyənin Ərəb-İslam aləmində sözsahibi olmaq, ona liderlik etmək planı kimi səciyyələndirməkdədir. Belə bir planın əngəlləşməsindən ötrü müəyyən tədbirlərə də əl atıldığı barədə məlumatlar yayılmaqdadır.

Həmin məlumatlarda 2009-cu ilin yayında Bakıda gizli Ərəb-İsrail danışıqlarının aparılmasından bəhs olunur. Danışıq-

ların ərəb dövlətlərinin geniş dairəsini (Misir, Səudiyyə Ərəbistanı, Suriya, Livan, BƏƏ və digərlərini) əhatə etdiyi bildirilir. ABŞ-ın patronajlığı ilə baş tutmuş müzakirələr Yaxın Şərq məsələsində Ağ Evin artıq Türkiyəyə etibar etmədiyinin, vasitəçi kimi Azərbaycana üstünlük verdiyinin ifadəsi sayılır. Bəzi təhlilçilər isə bu cür məlumatların İsaril tərəfindən məqsədli şəkildə yayıldığı və öncəliklə Türkiyə-Azərbaycan münasibətlərindəki soyuqluqdan yararlanmaq vasitəsi olması qənaətindədirlər.

Eyni zamanda Təl-Əvivlə Ankaranın münasibətlərin gərginləşməsinin **"qırmızı xətti" keçməməsi**ndə maraqlı olmalarının əlamətləri də bir ara özünü göstərdi. Bunu R.Ərdoğanın hələ 2009-cu ilin sentyabrında BMT Baş Assambleyasının 64-cü sessiyasına qatılmaq üçün getdiyi Nyu-Yorkda keçirdiyi bəzi görüşlər də təsdiqləyir. Nüfuzlu yəhudi təşkilatlarının rəhbərlərinin təşəbbüsü ilə keçirilən belə bir görüş dövlətlərarası münasibətlərin düzəldilməsi məqsədini güdmüşdü. Diplomatlar səviyyəsində bəzi danışıqlar aparılmaqla ölkələrin dövlət və hökumət başçılarının qarşılıqlı rəsmi səfərlərinin hazırlanması da istisna edilmir.

Ancaq ən son vaxtlarda baş verənlər dövlətlərarası münasibətləri daha da gərginləşdirmişdir. Qarşılıqlı hərəkətlər üzündən yaranan yeni gərginlik hələ də səngiməyibdir. Növbəti "diplomatik toqquşma"da R.Ərdoğanın "yenə də Qəzzadan danışması", **"ikinci serial böhranı", yəni "Qurdlar vadisi" filmi** ilə əlaqədar narazılıq, Türkiyənin Təl-Əvivdəki böyük elçisinə qarşı yüksək vəzifəli yəhudi diplomatı tərəfindən **"alçaq kürsü təxribatı"** və s. mühüm rol oynadı. Türk səfirə münasibətdə diplomatik etiketin kobudcasına pozulması İsrailin koalision hökumətindəki ixtilaflarla da əlaqələndirilir. Yəni bu halın Xarici İşlər və Müdafiə nazirlərinin (A.Libermanla E.Barakın) "yola getməməsinin ifadəsi olduğu da bildirilir". **"Səfir böhranı-qalmaqalı"**nın da E.Barakın Ankaraya rəsmi səfərinin nəticəsizliyi üçün düşünüldüyü önə çəkilir. Onun səfəri alınsa da, Türkiyənin dövlət və hökumət başçıları tərəfindən qəbul

edilməməsi Ankara ilə Təl-Əviv münasibətlərinin gərgin olaraq qalmasından xəbər verir.

İsrailin ən son anda üzrxahlıq səciyyəli iki bəyanatı və Türkiyədən rəsmən üzr istəməsi də dövlətlərarası gərginliyi səngitməyibdir. Türkiyə Baş nazirinin İsraili Qəzza əməliyyatlarına görə "dünya barışı üçün təhlükə" adlandırması, "Qurdlar vadisi – Fələstin" seriyasının çəkiləcəyi anonsu və s. **"XİN müavini (D.Ayalon) – səfir (O.Çelikkol) qalmaqalı"**nın qarşılıqlı münasibətlərə təsirinin davam etdiyini göstərir. Görünür Türkiyə hələ XVI əsrdə sultan S.Qanuninin İspaniyadan "yəhudinin hər birini qızıl pula almaqla 600 min cühudu Qərbin repressiyalarından xilas etməsi"nin qarşılığında üzləşdiyi bağışlanılmaz halla razılaşmaq istəmir. Bir çox ekspertlərsə İsrail-Türkiyə münasibətlərinin korlanmasının alt qatlarında müəyyən ciddi məqamların olduğunu zənn edirlər.

Türkiyənin hazırkı iqtidarının xarici siyasətinin bu kimi yeni çalarlarının türk dünyası daxili inteqrasiyaya və həmrəyliyə təsir etməsi də müəyyən rahatsızlıq yaradır. Ölkədaxili siyasi qüvvələrin çox kəskin qarşıdurması və xarici siyasətdəki yeni yönlər digər türk dövlətlərində də ciddi şəkildə nəzərdən keçirilir.

Türk dünyasının inteqrasiyasının və hərtərəfli ümumtürk birliyinin **perspektivləri** məsələsinə münasibətdə də **mövqe və baxışlar fərqli, haçalanmış** vəziyyətdədir: ***bədbin*** və ***nikbin*** ahəngli (ruhlu) **yanaşmalar** mövcuddur. **Birincilər** perspektivlərin heç də uğurlu olmayacağı qənaətindədirlər. Bu da **türk dünyasıxaric qüvvələrin geostrategiyası** və habelə **iç problemlərlə-türk dövlətləri arasındakı anlaşılmazlıqlarla** şərtləndirilir. **İkincilərsə** perspektivlərin normal gələcəyini gözlənilən hesab edirlər. Belə bir nəticəyə gəlməyə isə **çağdaş dünya prosesləri** (qloballaşma kontekstində ümumtürk həmrəyliyi və s.), həmçinin türk dünyasının güclü insan-iqtisadi-mədəni ***potensiala*** malik olması əsas verir. Ən azından Avrasiyada yeni bir (zaman-zaman da qismən mövcud olan) **iqtisadi-mənəvi məkanın formalaşması** ehtimal edilə bilər.

YEDDİNCİ BÖLÜM

AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNİN ASİYA İSTİQAMƏTİ

AR-in beynəlxalq siyasətinin **Asiya yönümü** də yetərincə **çoxşaxəlidir.** Bu istiqamətə-sistemə əsasən qonşu İranla və Orta Şərqin digər ölkələri ilə münasibətlər, İsraillə və ərəb dünyasıyla əlaqələr, Pakistan və Hindistanla müxtəlif səciyyəli təmaslar, Doğu Asiyanın nəhəngləri sayılan Yaponiya və Çinlə işbirliyi daxildir. Belə bir **çoxtərəfli diplomatiyada** isə **qonşu ölkə ilə münasibətlər** bəzi **təbii amillər** və **obyektiv səbəblər** üzündən daha da **önə çıx(arıl)**ır.

Azərbaycan Respublikası-İran münasibətləri: əlaqələrin xarakteri, problemlər, perspektivlər

İranla münasibətlərin AR-in xarici siyasətində prioritet istiqamətlərdən biri olmasını şərtləndirən **amillər (səbəblər)** çoxdur:

Birincisi, İran İslam Respublikası (İİR):

- qonşu-**həmsərhəd** (təkcə elə quruda 618 km) dövlətdir;
- Orta Şərqdə, Xəzər hövzəsində və Qafqazda **nüfuz (təsir) dairəsi qazanmaqda** çox maraqlıdır;
- **regional gücə çevrilmək** iddiasındadır, qüvvətli iqtisadi potensialı və **güclü ordusu** var, **nüvə silahının istehsalı**na çalışır; ərazisinə görə (1mln.640 min km^2) dünyanın 12-ci dövlətidir;
- **əhalisi** 70 mln. nəfərdən çoxdur.
- 2009-cu ilin yayında aşkarlanan nəhəng neft yatağının imkanları da (9 mlrd. barrel) daxil olmaqla hazırda **138 mlrd. barellik ehtiyatl**ara malikdir. Səudiyyə Ərəbistanından sonra

dünyada **ikinci zəngin ehtiyatlarlı neft ölkəsi**dir və "mavi yanacaq" satışından ildə 20 mlrd. dollar gəlir qazanır.

İkincisi, Azərbaycanın Arazdan cənubdakı **əraziləri** (təxminən 280 min kv. km.) İran dövlətinin tərkibindədir. Ölkə əhalisinin təqribən 35 milyonunu Azərbaycan türkləri təşkil edir. (Belə bir demoqrafiq şərait **"İranın türkləşməsi təhlükəsi"** kimi baxışlara yol açmışdır və İİR-in rəhbərliyində ciddi rahatsızlıq yaratmışdır). Bu da AR-in xarici siyasətində **"İran amili"**nin önə çəkilməsini şərtləndirir.

Üçüncüsü, Şimali Azərbaycan da regional gücə iddia edən **İranın geostrategiyasının hədəfi**ndədir. İİR **"Ümumdünya islam dövləti"** qurmağı özünün ali məqsədlərindən biri olaraq müəyyənləşdirmişdir. Bu kontekstdə də AR **"İslam inqilabının ixracı" planlarında ilkin "obyekt ölkə"**lərdən sayılır. "Ümumdünya islam dövləti" və "islam inqilabının ixracı" kimi xarici siyasət doktrina-prinsipləri İİR-in yaranmasının və AR-in müstəqilləşməsinin ilk vaxtlarında daha da qabardılırdı. Başqa sözlə, "Ümumdünya islam dövləti"nə **aparan "yollar"-dan biri**nin də **Quzey Azərbaycandan "salınması"** planlaşdırılmışdı.

Nəticədə İİR-in geosiyasətində **"Şimali Azərbaycan qədim İran torpağıdır" kimi iddia** və **yanaşmalar** dominant səciyyə daşımağa başladı. Bu kimi məqsəd və siyasət çağdaş dünyanın reallıqları, İranın öz planları ucbatından üzləşdiyi problemlər, Azərbaycan Respublikasının mövqelərinin tədricən də olsa möhkəmlənməsi üzündən xeyli dərəcədə səngisə də, ondan tamamilə imtina edilməmişdir. Bir sözlə, İİR-in xarici siyasətinin mərkəzinə gətirilən məsələlərdən biri, yəni **"Azərbaycan amili"** də digər məqamlarla birlikdə **AR-in "İran siyasəti"**ni formalaşdıran komponentlərdəndir. Bütövlükdə isə, bütün bunlar AR ilə İİR arasında xüsusi, özünəməxsus münasibətləri şərtləndirir.

Quzey Azərbaycan hələ çarlıq Rusiyası və SSRİ-nin İranla münasibətləri müstəvisində qonşu dövlətlə **çərçivəli**

(icazəli) əlaqələrə malik olmuşdur. İİR rəhbərliyi "şeytanlar" saydığı ABŞ-a və Sovetlər İttifaqına münasibətdə **"parlaq təcridolunma"** doktrinasından çıxış etsə də ikincinin çökməsində bir o qədər maraqlı olmamışdı. Çünki SSRİ-nin süqutu ilə Avrasiyada yaranacaq yeni geosiyasi durum, yəni Xəzər hövzəsində, onun sərhədləriboyu türk dövlətçiliklərinin bərpası İİR-i əsla qane edə bilməzdi. (Başqa bir elmi-siyasi yanaşmaya görə isə, SSRİ-nin dağılmasıyla bərpa edilən türk dövlətləri **"müsəlman faktoru"** zəminində İran "islam inqilabının ixracı"nın əlverişli plasdarmları (Azərbaycanda və Mərkəzi Asiyada) imkanını yaratmış olurdu).

Rəsmi Tehranın Sovetlər İttifaqının süqutu prosesindən rahatsızlığı İİR parlamentinin sədri (sonralarsa prezidenti) Ə.Rəfsəncaninin SSRİ-yə rəsmi səfəri zamanı da (1989) özünü göstərmişdi. Yolüstü **Bakıda da müəyyən müzakirələr** aparılmışdı. SSRİ-nin İranla sərhədlərinin ölkəmizdən keçən hissəsinin **("Azərbaycanın Berlin hasarı"**nın) dağıdılması regionda yeni geosiyasi şəraitin formalaşmasının **"qaranquşları"**ndan oldu. Şimali Azərbaycanda türk dövlətçiliyinin yenidən (XX əsrdə ikinci dəfə) bərpası İİR-in rəsmi dairələrini həyəcanlandırdı.

İranın siyasi çevrələri, bir tərəfdən, güclü Sovet Konfederasiyasının yaradılmasının zəruriliyinə dair diplomatik mövqe (XİN-in açıqlaması, XI.1991) ortaya qoydular. Digər yandan da, İİR-in bəzi rəsmiləri Şimali Azərbaycanın **"qədim İran torpağı"** kimi **ona birləş(diril)məsini** tövsiyə etdilər. Belə bir dolaşıq və mürəkkəb şəraitdə **A.Mütəllibov** müstəqil dövlət başçısı kimi **ilk rəsmi səfərini** məhz İrana etdi (XII.1991). Danışıqlar nəticəsində ölkələrarası iqtisadi əlaqələrin inkişafı, AR-in Naxçıvan bölgəsində azad iqtisadi zonanın yaradılması və digər məsələlər barədə sənədlər (**Memorandum** və s.) imzalandı. Ermənistanın hərtərəfli blokadaya aldığı Naxçıvan Muxtar Respublikası ilə İran ərazisi vasitəsilə əlaqələr saxlanılması razılaşdırıldı.

AR müstəqil dövlət elan edildikdən bir qədər sonra (25.XII.1991) İİR tərəfindən **rəsmən tanındı** və tezliklə onlar arasında **diplomatik əlaqələr** quruldu (12.III.1992; sözgəlişi, Qacarlar İranı isə AXC-ni xeyli gec, özü də süqutu ərəfəsində de-yure tanımışdı). Qarşılıqlı olaraq diplomatik nümayəndəliklər təşkil olundu: İranın Bakıdakı konsulluğu səfirliyə çevrildi; AR də İranda səfirliyini yaratdı. İİR eyni zamanda Naxçıvanda çox tezliklə Baş Konsulluq yaratdığı halda, AR-in Təbrizdə konsulluq açmasını xeyli əngəllədi və ləngitdi. O, 2004-cü ildə təşkil olundu.

Diplomatik əlaqələr (normalar və etiket) cəhətdən başqa bir diqqətçəkici məqam da var. Belə ki, rəsmi (hətta Milli Məclisin iqtidar deputatları səviyyəsində) və qeyri-rəsmi xeyli etirazlara baxmayaraq Tehran İİR-in AR-dəki (paytaxtdakı) səfirliyinin binası üzərindəki müvafiq lövhənin yazısını dəyişdirmirdi. Beynəlxalq diplomatik normalara sığmayan və qərəzli niyyətin inadlı nümayişi olan bu lövhədə "İİR-in Bakıdakı diplomatik nümayəndəliyi" yazılmışdı. Diplomatik normalara və dünya təcrübəsinə görə isə, bir dövlətin səfirliyi yalnız digər dövlətdə ola bilər. (Ta onun paytaxtı və ya hansısa şəhərində yox). Son vaxtlar lövhədə dəyişiklik edilərək sadəcə "İİR-in diplomatik nümayəndəliyi" yazılmışdır.

AR XİN-i mətbuat xidmətinin hazırkı rəhbəri E.Poluxovun şərhinə görə ölkəmizdəki səfirliklərin binası onların təmsil etdikləri dövlətlərin ərazisi sayılır və dövlətçiliklə bağlı bütün işlər özlərinin protokol qaydaları ilə tənzimlənir; səfirlik binalarının üzərindəki yazılarsa onların səlahiyyətlərinə aid məsələdir. Diplomatımızın fikrincə "lövhənin üzərində "Azərbaycan" sözünün yazılmaması böyük qəbahət hesab olunmur". Necə deyərlər, burada artıq əlavə şərhə ehtiyac qalmır. Amma bunu da qeyd etmək lazımdır ki, İranın AR-dəki digər qurumlarının (konsulluq, mədəniyyət mərkəzləri və başqa) binalarının üzərindəki lövhələrdə də "Azərbaycan" sözü işlədilmir. Bütün bunlar da ölkəmizin cənubu ilə yanaşı şimalında da "Azər-

baycan" anlayışının aradan çıxarılmasına və yaddaşlardan silinməsinə hesablanıbdır.

Dövlətlər arasında rəsmi tanınmaya baxmayaraq elə diplomatik əlaqələrin qurulması işinin lap əvvəlində İİR tərəfindən AR-ə qarşı **müəyyən demarşlar** oldu. 1991-ci ilin dekabrında latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında qanunun qəbulu İranın kəskin etirazları ilə qarşılaşdı. Ərəb əlifbasına keçməyi "tövsiyə" edən rəsmi Tehran həm də AR əleyhinə genişmiqyaslı əkstəbliğat kampaniyası başlatdı. Hətta A.Mütəllibovun İrana növbəti, yəni "islam inqilabı"nın ildönümü ilə əlaqədar etdiyi işgüzar səfər zamanı AR-in yüksək vəzifəli rəsmilərindən birinin **"Vahid Azərbaycan dövlətinin yaranması imkansızdır" bəyanatı** da yetərli olmadı.

AR-in İranla qarşılıqlı münasibətləri **ölkəmizdəki hakimiyyət dəyişiklikləri,** başqa sözlə, xarici oriyentasiyalarda və diplomatiya meyarlarındakı gəzişmələr üzündən ayrı-ayrı iqtidarların dönəmlərində **fərqli xüsusiyyətlərə** və **nəticələrə** malik olmuşdur. Onları səciyyələndirən başlıca **ümumi məqamlarsa** qısaca belə ifadə və şərh oluna bilər.

A.Mütəllibovun Sovet Azərbaycanına və sonra da müstəqil AR-ə **rəhbərlik etdiyi dövrdə** (I.1990-III.1992) **İran:**

- Şimali Azərbaycanda özünə lazım olan **geniş əhatəli fəaliyyət** qura bildi;
- AR-i öz **nüfuz (təsir) dairəsinə** salmağa ümidli oldu;
- ölkəmizə məqsədyönlü **"yardımlar"** göstərdi;
- dövlətlərarası münasibətlərdə qarşılıqlı bərabərhüquqluluğu **(pariteti) poza** bildi;
- Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində **"vasitəçi"** donuna büründü və s.

Ə.Elçibəyin prezidentlik müddətində (VI.1992-VI.1993):

a) AR hakimiyyəti özündən əvvəlki və sonrakı iqtidarlardan **çox (kəskin) fərqli "İran siyasəti"** yeritdi. Həmin vaxt AR-in İİR-də səfiri olan, araşdırmaçı N.Nəsiblinin qənaətlərinə görə, öncə pozulmuş paritetin bərpasına, Azərbaycanın varlığının İranda tanıdılmasına və etirafına, İranın ölkəmizin şimalında əldə etdiyi üstünlüklərin aradan qaldırılmasına çalışıldı;

b) rəsmi **Bakının "İran siyasəti" paritet əsaslarla əlaqələr prinsipi (xətti), hücumçu, siyasi-psixoloji təzyiq səciyyəsi** (Ə.Elçibəyin məlum bəyanatları və s. vasitəsilə) daşıdı. Bu da bəzi **əməli nəticələr** verdi: **Qarabağ** Müsəlmanlarına Xalq **Yardım Cəmiyyətinin** yaradılması və onun fəaliyyəti əngəllənmədi; Tehran unuversiteti **türk tələbələrinin** Azərbaycan məsələlərinə aid seminarı keçirildi; Güney Azərbaycanda və İranın digər yerlərində **Kəlbəcərin işğalına etirazlar** oldu; Təbriz universitetində yeni dərs ilində tədrisin **Azərbaycan türkcəsi ilə** aparılacağı **bir fakültənin açılmasına** razılıq verildi; İİR mətbuatında gedən bəzi yazılarda və elmi araşdırmaların bir qismində **Ermənistanın təcavüzkar olması** kimi obyektiv fikirlər özünə yer aldı və s. Nəticə etibarı ilə bunlar Azərbaycanın güneyində **milli hərəkatın yeni mərhələsinə rəvac** verdi və cənublu soydaşlarımız üçün **təşkilatlandırıcı-mənəvi-siyasi stimul (amil)** oldu. Bununla da İİR-in özünə aid etdiyi **"müsəlman dünyasının himayəçisi imici-statusu"** xeyli zədələndi;

c) "İran siyasəti"nin **sırf ideoloji prinsiplər -populist şüarlar** əsasında aparıldığına dair **qənaətlər** də istisna deyil. Bu cür baxışlar Ə.Elçibəyin "Qarabağın qurtuluşunun yolu Təbrizdən keçir" şüarı və s. ilə əlaqələndirilir. **"Xarici siyasətə sırf ideoloji-populist yanaşma"** təki iddialarla tam razılaşmaq olmur. Ə.Elçibəy özündən əvvəlki və sonrakı prezidentlərdən **fərqli** olaraq İrana rəsmi səfərə getməsə də, diplomatiya sahəsindən **başqa ahəngli və məzmunlu faktlar** da məlumdur. Məsələn, Ə.Elçibəyin prezident statusunda qəbul etdiyi **ikinci xarici nümayəndə** məhz İİR-in ölkəmizdəki səfiri Ə.Nəhavəndian olmuşdur (Birinci isə, Türkiyənin səfiri A.Karamanoğlu idi). AR-in Dövlət katibi P.Hüseynov İrana işgüzar səfəri zamanı (IV.1993) **Ə.Elçibəyin prezident Ə.Rəfsəncaniyə məktubunu** çatdırdırmış və İranı "Azərbaycanın yaxın və bö-

yük dostu" adlandırmışdı. Doğrudur, bunlar, İran rəhbərliyi tərəfindən də, sezilən **diplomatik gedişlər** olsa da, Azərbaycanın **atdığı düzgün addımlar** idi. Bizcə, İİR-in AR-ə və Cənubi Azərbaycana qarşı tutduğu **qərəzli və barışmaz mövqenin səbəbləri** yaxşı məlumdur. O vaxt da, indi də biz İranı (habelə Rusiyanı) nə qədər özümüzün **"dost və qardaşımız"** saysaq da onların geostrategiyaları Azərbaycanı **təbii düşmən** seçib;

ç) İkitərəfli iqtisadi əlaqələr üzrə **birgə komissiya** yaradıldı və AR-in xarici ticarətində **birinci** yerə çıxdı;

d) A.Mütəllibov hakimiyyətinin **ifrat Rusiyapərəst və İrana üstünlük verilməsi** xəttinin əksinə olaraq qatı **Türkiyə-Qərb oriyentasiyası** əsas götürüldü. İİR-in lap əvvəllər özünü daha aşkar şəkildə göstərən və son vaxtlar arxa plana keçən **"parlaq təcridolunma"** doktrinasına əsasən İran Avrasiyada nə Qərbin, xüsusilə də, fövqəldövlət ABŞ-ın, nə də regional güclərin (Çinlə Rusiyanın) möhkəmlənməsini istəmir. Axırıncı ikisiylə müəyyən yaxınlaşma, əməkdaşlıq və s. mövcud olsa da, ABŞ-la (Qərblə) isti münasibətlər hələ ki, mümkünsüzdür. Buna görə də AR-in birmənalı şəkildə **Qərbə yönlənməsi rəsmi Tehranı qətiyyən qane etmirdi;**

e) İİR hakimiyyəti iki ölkə vətəndaşlarının bir-birilə ailə qurmalarına maneə olan **antibəşəri və antihumanist,** çağdaş dünya üçün **anaxronizm** sayılan, insan hüquqlarının əlifbasını kobudcasına pozan **qərar** qəbul etməklə və AR tərəfinin buna etirazını qulaqardına vurmaqla ikitərəfli münasibətlərdəki gərginliyi daha da artırdı;

f)AXC-Müsavat hakimiyyətini (şəxsən də Ə.Elçibəyi) özünün geostrategiyası üçün **daha təhlükəli** hesab edən İİR rəhbərliyi Rusiya ilə birlikdə **"4 iyin qiyamı"na həmmüəllif** olmaqla **revanş** götürə bildi. (İİR-in AR-dəki səfirinin dövlət çevrilişinin lap başlanğıcında **"Gəncə hadisələri"ndə** iştirak etməsi beynəlxalq diplomatik normalara zidd olmaqla yanaşı İran hökumətinin Azərbaycan dövlətçiliyinə, ən başlıcası da Ə.Elçibəyin prezidentliyinə qarşı çıxmasından xəbər verirdi).

Rəsmi Tehran bununla həm də, 1920-ci ilin aprelində AXC-nin süqutu zamanı təki olmasa da, rahat nəfəs aldı. AR-dəki hərbi-dövlət çevrilişindən və onun nəticəsində baş verən iqtidar dəyişikliyindən razı qaldı.

H.Əliyevin Şimali Azərbaycana **yenidən rəhbərliyi dönəmində** isə (1993-cü ilin iyunundan etibarən) bir sıra **diplomat-politoloq dəyərləndirmələrinə** görə bunlar olmuşdu:

1-cisi, yeni iqtidar İranın Azərbaycana **"böyük qardaş"** olması iddialarını diplomatikcəsinə **"görməməyə"** üstünlük verərək **"Elçibəy hökumətinin korladığı"** münasibətləri normallaşdıracağını bildirdi. Yeri gəlmişkən, H.Əliyev Naxçıvan Ali Məclisinin sədri olarkən iki dəfə (VIII.1992 və III.1993) İrana rəsmi səfərə getmişdi. Birinci dəfə pezident Ə.Rəfsəncaninin göndərdiyi şəxsi təyyarəylə səfərə çıxan H.Əliyevin Tehrandakı danışıqlarında İrandan Naxçıvana Təbriz-Culfa qaz kəmərinin çəkilməsi müzakirə edilmişdi.

Həmin vaxtlarda onun **"sağ əli"** kimi tanınan keçmiş spikerin (R.Quliyevin) sonralar verdiyi açıqlamalarda bu səfər "səlahiyyət həddinin aşılması və **ölkənin Konstitusiya qaydalarına qiyam qaldırılması"** kimi səciyyələndirilmişdi. Onun qənaətinə görə, səfərdə əsl məqsəd AR-dəki hakimiyyət davasında İranın dəstəyini qazanmaqdan ibarət olmuşdu. Hətta İran tərəfinə iqtidar olarkən AR Konstitusiyasına islam dininin xüsusi statusu haqqında maddə salınacağı və beynəlxalq neft kontraktlarında İİR şirkətlərinin geniş təmsilçiliyinə şərait yaradılacağı vəd olunmuşdu.

Digər mövqelərə görə isə, H.Əliyevin Naxçıvan Ali Məclisinin sədri statusu ilə həm Türkiyəyə, həm də İrana etdiyi rəsmi səfərlərin hüquqi əsası vardı. Belə ki, Konstitusiyaya əsasən Naxçıvan Ali Məclisinin sədri həm də AR Ali Soveti sədrinin müavini sayılırdı. Və, belə bir status, ona bu cür rəsmi səfərlərə getməyə hüquqi əsas vermişdi. Əvvəldə də qeyd edildiyi kimi, Ə.Elçibəy artıq eks-prezident olarkən H.Əliyevin hələ o vaxt Türkiyə və İranla qurduğu əlaqələrlə bağlı demişdi

ki, Naxçıvanın guya sərbəst siyasət yürütməsi və Azərbaycan rəhbərliyi ilə hesablaşmaması barədəki söz-söhbətlər əsassızdır; bölgə rəhbərliyinin respublikada yaranmış vəziyyəti düzgün qiymətləndirib əhalinin təminatı üçün atdığı addımlara qısqanclıqla yanaşmaq əsaslı deyil və onlar təqdir olunmalıdır.

2-cisi, "İranla birtəhər keçinmək" xəttini önə çəkən rəsmi Bakı özü ilə **"Bütöv Azərbaycan" ideyası** arasında **böyük məsafə** saxladı. (Bu ideya **H.Əliyev tərəfindən "Ə.Elçibəyin fantaziyası"** kimi qiymətləndirildi. Amma belə bir **tarixi fakt** da məlumdur ki, həmin "fantaziyaçı" *hələ* H.Əliyev Sovet Azərbaycanına rəhbərlik etdiyi çağda SSRİ-nin *tezliklə* çökəcəyini bildirmişdi) (Sözgəlişi, vaxtılə "Berlin hasarı" çəkilərkən ADR-in, yəni Şərqi Almaniyanın o zamankı lideri E.Honnekker bu, "İkinci Çin səddi"nin ən azından 100 il qalacağını söyləmişdi. Ancaq onun sökülməsindən ötrü heç yarıməsr də gözləmək lazım gəlmədi). Buna uyğun olaraq da İİR rəhbərliyini əslində üzdə "məmnun və qane edən" çoxlu **"protokol effektli"** bəyanatlar verildi.

3-cüsü, lakin yeni hakimiyyətin də tezliklə Moskva-Tehran tandemindənsə, Türkiyə-Qərb (ABŞ) qütbünə meyllənməsi **İranla "düzəl(dil)məkdə" olan münasibətlərə "soyuq duş"** təsirini göstərdi (H.Əliyevin beynəlxalq münasibətlərdəki bu gedişi bəzi analitiklərə görə, **"Ə.Elçibəyin xarici siyasət kursuna qayıdış"** və bir sıra araşdırmaçıların fikrincə isə, **balanslaşdırılmış (tarazlaşdırılmış) diplomatiyaya keçid"** kimi dəyərləndirilir). Bunu AR-in "Əsrin müqaviləsi" ilə əslində Qərbin (xüsusilə də ABŞ-ın) İİR-in sərhədlərinə, yəni Qafqaza və Xəzərə yaxınlaşmasına şərait yaratmasına rəsmi Tehranın sərt reaksiyası da yetərincə təsdiqləyir.

Belə **kəskin reaksiya** özünü **"17 qədim İran şəhəri"**nin İİR-ə birləşdirilməsiylə əlaqədar **kampaniyada,** Azərbaycan İslam partiyasının məqsədyönlü dəstəklənməsində, Xəzərin statusuyla bağlı **Rusiya ilə birlikdə və birtərəfli qaydada AR-ə təzyiqlərdə,** məlum **beynəlxalq neft müqavilələrində paya**

nail olmaq səylərində, ölkəmizin ABŞ və İsraillə əlaqələrini kəsməsinə dair **"məsləhət"-çağırışlarında** ifadə etdirdi. Azərbaycan tərəfi isə İİR-in bu, çoxşaxəli aqressivləşməsini qismən də olsa zərərsizləşdirmək məqsədilə özünün bəzi **beynəlxalq neft kontraktlarında** – ABŞ tərəfindən "Əsrin müqaviləsi"nə yaxın buraxılmayan – İran şirkətlərinin **iştirakına** imkan verdi.

4-cüsü, prezidentlərin **qarşılıqlı rəsmi səfərlərindəki** danışıqlarda müəyyən **uzlaşma (sövdələşmə) sahələrinin axtarışı** da diqqət mərkəzində oldu. Ə.Rəfsəncaninin səfəri zamanı (X.1993) Bakıda imzalanan "İİR ilə AR arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında **Memorandum"** və H.Əliyevin Tehrandakı danışıqlarının (VII.1994) nəticəsində qəbul edilən ölkələrarası dostluq münasibətlərinin inkişafına dair **Birgə Bəyanat** bu baxımdan səciyyəvidir. Həmin sənədlərlə habelə dövlətlərarası əlaqələrin müəyyən **hüquqi-diplomatik bazası** yaradılmış oldu. H.Əliyevin İrana sonrakı rəsmi səfərlərində (V.1996, V.2002) və İKT, İƏT sammitlərində İİR prezidentləri ilə apardığı ikitərəfli danışıqlar sayəsində iqtisadi səciyyəli razılaşmalar əldə olundu. (Onun İİR-ə sonuncu gedişi **"dost ölkəyə səfər"** kimi də qiymətləndirildi).

Qarşılıqlı səfərlərin gedişində İran tərəfi **diplomatik normalara sığmayan bəzi hərəkətlərə** də yol verdi. Belə ki, H.Əliyevlə M.Hatəmi arasındakı Tehran görüşlərinin birində ikincinin Xəzəri **"Mazandaran dənizi"** adlandırması anındaca AR prezidentinin sərt reaksiyasıyla qarşılaşdı. Habelə M.Hatəminin N.Gəncəvinin məqbərəsini ziyarəti zamanı "Xatirə kitabı"na **"farsın böyük şairi" ifadəsini** yazması da diplomatik nonsens idi. İrandakı bir sıra danışıqlar zamanı Azərbaycan bayrağının dəfələrlə tərsinə asılması halları da olmuşdur.

İ.Əliyevin prezident olaraq İrana rəsmi səfəri vaxtı (I.2005) iqtisadi və humanitar səciyyəli məsələlərə (sərhədboyu ərazilərin əhalisi üçün sadələşdirilmiş gediş-gəliş rejimi, İİR-in AR-ə 1mln. dollarlıq qrant ayırması, Təhsil və Səhiyyə nazirlikləri arasında əməkdaşlıq, Araz çayının hidroenergetika po-

tensialından birgə istifadə) dair sənədlər, yəni saziş və memorandumlar imzalandı. Həmin səfər həm də AR-in dövlət başçısının Azərbaycanın **"paytaxtlar şəhəri"nə (Təbrizə)** getməsi ilə də diqqəti cəlb edir. (Bir il öncə isə, nəhayət ki, AR-in Təbrizdə Baş Konsulluğunu açmaq mümkün olmuşdu).

Son vaxtlar ikitərəfli iqtisadi əməkdaşlığın müəyyən qədər genişlənməsi də müşahidə edilir. Ölkələrarası ticarət dövriyyəsi 1998-ci ilə nisbətən 6 dəfə artaraq hazırda 670 mln. dollar həcminə çatmışdır. İran onun 1 mlrd. dollara çatdırılması niyyətindədir və buna yetərli potensialın olduğunu bildirir. **"Şimal-Cənub" qlobal nəqliyyat layihəsi** çərçivəsində İİR-in müvafiq kreditlərlə sərmayə ayırmaları çoxalmışdır. Naxçıvan bölgəsinin enerji daşıyıcıları ilə təminatı – müxtəlif yollarla əvəzlənməklə – İran vasitəsilə gerçəkləşdirilir və s. İran Nazirlər Kabineti AR ilə viza rejiminin birtərəfli qaydada ləğvi barədə 2009-cu ilin noyabrında qərar qəbul edibdir. Yeni qayda 2010-cu il fevralın 1-dən tətbiq olunur. Hələlik 1 aylıq müddət müəyyənləşdirilmişdir. Bu təcrübənin müsbət nəticə verəcəyi halda vaxtın 3 aya kimi uzadılması da planlaşdırılır. Ancaq yeni viza rejiminin jurnalistlərə şamil edilməməsi müəyyən diskussiyalara səbəb olubdur. Türkiyə ilə də viza rejimini aradan qaldıran İİR hökumətinin Azərbaycanla bağlı müvafiq qərarı xüsusi maraq doğurur və birmənalı deyil, müxtəlif yönlərdən dəyərləndirilir. İİR-in bu, diplomatik aktı:

- Azərbaycan üçün **faydalı** sayılır və **müsbət** qiymətləndirilir. (AR-in də analoji tədbiri görməsi məsləhət bilinir. İİR ilə AR arasında vizasız gediş-gəlişin Azərbaycanın cənubu ilə şimalının və **ikiyə bölünmüş xalqımızın ən azından mənəvi-humanitar bütövləşməsinə** yararlı ola biləcəyi vurğulanır);
- regionda sürətlə dəyişməkdə olan **geosiyasi vəziyyətin**, bu əsasda gedən dövlətlərarası yeni **qütbləşmə prosesinin nəzərə alınmasının ifadəsi** və çoxtərəfli münasibətləri inkişaf etdirmək yoluna aid **xoşməramlı addımdır;**
- artıq xeyli köhnəlmiş olan **"parlaq təcridolunma" doktrinasından uzaqlaşmağa yönəlik** səylərin və yeni münasibətlər sisteminə dair **siyasi düşüncənin nəticəsidir;**
- yeni kommunikasiya sistemlərindən-layihələrdən **kənarda qalmamaq istəyi** və onların **"açarı"** sayılan AR ilə münasibətləri sahmanlamağa yönəlik **diplomatik gediş** kimi də başa düşülür;
- Türkiyə ilə Azərbaycan arasında hazırda mövcud olan soyuqluq üzündən yaranan **boşluğu doldurmaq, planı** və gələcəyə hesablanan **ciddi siyasi xəttin təzahürüdür;**
- Azərbaycanla İsrailin normal əlaqələrinin və səmərəli əməkdaşlığının **yaddan çıxarılmamasıdır;**
- İİR ilə AR-in qaz anlaşmasının və Azərbaycanın Türkiyədən yan keçəcək "Cənub dəhlizi" qaz kəmərini mümkün saymasının **adekvat qarşılığıdır;**
- ölkələrarası vizasız rejim İİR-in AR-də dini-ideoloji yönümlü təxribatları, casusluq fəaliyyətləri (fizik alimlərin axını və s.), nəticə etibarı ilə İrandan Şimali Azərbaycana **"İslam inqilabının ixracı" üçün əlverişli şərait** yarada bilər. O, İranın Cənubi Qafqaz ətrafında "müsəlman qövsü" yaratmaq planının bir hissəsi kimi də qəbul olunur;
- **Qərbdə rəğbət yaratmayacaq tədbirdi** və s.

Rəsmi Bakı İİR hökumətinin bu qərarı ilə əlaqədar hələlik geniş açıqlama verməyibdir. Ümumilikdə bunu normal qarşılayan AR tərəfi məsələyə milli maraqlarımıza uyğun olaraq baxılacağını, yəni Azərbaycanın da viza rejimi ilə bağlı məqamları nəzərdən keçirəcəyi bildirilir.

AR-İİR münasibətlərinin əhatə etdiyi bir xeyli məsələlər E.Məmmədyarovun İrana səfəri (XII.2009) zamanı da ətraflı müzakirə edilibdir. Həmin məsələlər sırasında aşağıdakılar diqqəti daha çox cəlb etmişdir: Xəzəryanı ölkələrin hazırlanan - gözlənilən Bakı sammiti; Avropanı Rusiya, Azərbaycan və İrandan keçməklə Asiya ilə birləşdirəcək dəmir yolu xətti layihəsi; bu kontekstdə Astara-Astara dəmir yolunun inşası; vizasız gediş-gəliş rejiminin ikitərəfli ləğvi; qarşılıqlı ticarət dövriy-

yəsinin həcminin artırılması; İranda Azərbaycan Mədəniyyət günlərinin keçirilməsi və s.

Danışıqlarda enerji əməkdaşlığı, Dağlıq Qarabağ münaqişəsinin həlli, İranın "nüvə proqramı", Azərbaycan-İsrail əlaqələri və başqa məsələlərlə əlaqədar məqamlar da nəzərdən keçirilmişdir. İran Azərbaycan vasitəsilə MDB enerji sisteminə qoşulacağını vəd edibdir. Rəsmi Tehran habelə Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasından ötrü hər cür köməklik göstərməyə hazır olduğunu vurğulayıbdır. M.Mottaki Azərbaycandan Fars körfəzinə və əks istiqamətdə daşınan malların həcminin artırılacağını qeyd edibdir. Həmçinin Naxçıvandan Azərbaycanın digər hissələrinə İran vasitəsilə gediş-gəlişin davamlı təminatı bir daha qətiləşdirilibdir.

E.Məmmədyarovun İİR prezidenti ilə danışıqlarında M.Əhmədinejad iki ölkə arasındakı əməkdaşlığın çoxlu sahələrinin və güclü potensialının olduğunu, qarşılıqlı faydalı əlaqələrin həm də bölgənin xeyrinə işlədiyini diqqətə yetiribdir: "Azərbaycanın inkişafı İran xalqını sevindirir". M.Əhmədinejad Azərbaycanın MAQATE-də İrana qarşı qərar layihəsinə səsverməyə qatılmamasını "qardaşlığın göstəricisi" adlandırmış və təşəkkürünü izhar etmişdir. AR-in baş diplomatı isə beynəlxalq təşkilatlarda İran əleyhinə qərarlara dəstək verməyəcəklərini vurğulayıbdır. Azərbaycan tərəfi habelə uzun illərdən sonra ilk dəfə "Qarabağ məsələsi"ni İranla yenidən müzakirə etməyə hazır olduğunu dilə gətiribdir. Bütövlükdə isə, bu səfər və Tehranda aparılan danışıqlar dövlətlərarası münasibətlərin inkişafı baxımından faydalı sayıla bilər.

AR-İİR münasibətlərində hazırda da yaşanmaqda olan **bir sıra problemlər** mövcuddur. Onların bir qismi bilavasitə bu iki dövlət arasındakı münasibətlər müstəvisindədir: **Xəzərin hüquqi statusu** və İranın AR-in bəzi neftli ərazilərinə iddiaları; **"Güney Azərbaycan məsələsi"** və rəsmi Tehranın əsasən üstüörtülü, qismən də açıq şəkildə **Şimali Azərbaycanı da öz torpaqları sayması;** İİR-in Ermənistan-Azərbaycan **münaqişəsində** tutduğu **mövqe** və s. Dövlətlərarası əlaqələrə İranın ABŞ və İsraillə qarşıdurmasından irəli gələn **məqamların da mənfi təsiri** yetərincədir. (Xəzərin hüquqi statusu və onun karbohidrogen ehtiyatlarının istismarı və Qərb bazarlarına nəqli məsələlərindəki AR-İİR qarşıdayanmasının geniş təhlili dərsliyin 3-cü bölümündə verilmişdir).

İranın **"Azərbaycan siyasəti" başlıca olaraq iki yöndə** nəzərdən keçirilə bilər: **"Cənubi Azərbaycan problemi"** və **AR-ə münasibət**. Rəsmi Tehran qəbul etmək və yaxına belə buraxmaq istəməsə də, vaxtaşırı hətta beynəlxalq münasibətlərin gündəminə çıx(arıl)an "Güney Azərbaycan məsələsi"nin mövcudluğu əsla danıla bilməz. İrandakı "islamçı" rejimin dövlət qurumları və müxtəlif qruplaşmaları (qolları) da -şahlıq dönəmində olduğu kimi – belə bir yekdil mövqedədirlər: **"İranda Azərbaycan məsələsi yoxdur";** "Güney Azərbaycan problemi" Pəhləvilər sülaləsi zamanı **SSRİ-nin** və çağdaş teokratik İranda isə **ABŞ-ın təxribatı** hesab olunur.

Azərbaycanın cənubundakı milli-demokratik hərəkatdan da zaman-zaman İrandaxili qüvvələr tərəfindən müxtəlif siyasi proseslərdə və böyük dövlətlər tərəfindən beynəlxalq siyasətdə bir "kart" kimi istifadə olunur. Məsələn, Sovetlər İttifaqıyla Birləşmiş Ştatların "21 Azər hərəkatı" prosesində, Xomeyninin "İslam inqilabı" ərəfəsində, M.Hatəminin və M.Əhmədinejadın isə prezident seçkiləri öncəsi Güney Azərbaycan (bütün İran) türklərinə verdikləri-sonradan təbii ki, gerçəkləş(diril)məyən-vədlər buna misal ola bilər.

Çağdaş İranda siyasi elitanın bütün qrup, qol və təmayüllərinin, başqa sözlə, sərt xətt tərəfdarları (radikal "islamçı"lar), islahatçılar, solçular, farspərəst şahçılar (liberallar, məşrutəçilər, demokratlar, qatı monarxiyaçılar) və digərlərinin Güney Azərbaycan türklərinə münasibətdəki **mövqeləri** təxminən cynidir:

- İran dövlətçiliyinin və onun ərazi bütövlüyünün sərt mərkəziyyətçiliklə saxlanılması. Bu zaman **"millət" anlayışı** qəbul

edilmir və önə çəkiln **"islam ümməti" baxışı** altında isə irançılıq-farsçılıq təbliğ olunur;

- **"İranın türkləşməsi"**ndən vahiməyə düşən iqtidariçi müəyyən qüvvələr "türk" adını və onun tarixi ərazilərini qəbul etmirlər. Ancaq onların islahatçı qanadının az bir qismi azərbaycanlılardan yararlanmaq məqsədilə aldadıcı **"federalizm"**süarına cəlbedici amil təki yanaşırlar;
- mövcud rejimə qarşı **müxalif** olan, amma mübarizəni **ölkənin bütövlüyü müstəvisində** aparmağı üstün tutanlar da (2009-cu ildəki prezident seçkilərində M.Musəvi və b.) fəaliyyətlərini **irançılıq və "İran milləti" anlayışı** əsasında aparırlar. Onların fikrincə, ölkədə "İran milləti"ndən savayı millət yoxdur və bu milləti isə parçalamaq olmaz ("İran milləti" anlayışı isə **"sovet xalqı"yla** təxminən **eynidir**);
- paniranizm kimi, "ümmətçiliy"in də yaramadığını və artıq çürüməkdə olduğunu düşünənlərsə İranın ərazi bütövlüyünü qorumaq üçün **yeni sistemin-ideologiyanın yaradılmasının** vacibliyi qənaətindədirlər. (M.Hatəminin prezidentkən yürütdüyü **"mədəni cəmiyyət"** qurmaq siyasəti və, bütövlükdə, hayküylə aparılan**"mədəni toplum", "islami vətəndaş cəmiyyəti", "islam demokratiyası"** təbliğatı da bu qəbildən hesab olunur).

Güney Azərbaycanla bu və ya digər dərəcədə bağlılığı olan **çağdaş siyasi-milli proseslərə** gəldikdə isə **tezisvarı bunları vurğulamaq** mümkündür:

1) Güney Azərbaycan İranda milli hərəkat cəhətdən qeyri-farsların və sosial-demokratik mübarizə baxımındansa bütün ölkə əhalisinin ümid yeridir. **"Təbriz bütün İrana nicat verəcəkdir"** qənaəti hələ də davam etməkdədir.

2) Milli mücadilə və demokratik hərəkatın **sosial bazası** yetərsizdir. Milli burjuaziya zəifdir, ziyalılar rejimin təbliğat-repressiya maşınının təzyiqləri üzündən ümumi şəkildə fəal deyillər (**"çəkindirmə amili"** öz rolunu oynamaqdadır), zəngin türklər **əvvəllərdəki mübarizənin nəticələrindən (təcrübəsindən)** çıxış edərək proseslərə lazımi maliyyə dəstəyini vermirlər və s.

3) Diaspora təşkilatlanmaqdadır. Amma həm diaspora, həm də bütün hərəkatçılar arasında **parçalanma** gözönündədir: **a)** istiqlalçılar (ərazi-milli muxtariyyəti) və **b)** kültürəlçilər (mədəni-milli muxtariyyət).

4) Azərbaycanın şimalında dövlətçiliyin **növbəti dəfə bərpası** onun güneyindəki çoxşaxəli proseslərə də **ciddi təsir** göstərmişdir.

"Güney (Bütöv) Azərbaycan məsələsi"nə münasibət ölkəmizin şimalında da (AR-də) **fərqli yanaşma və mövqelər** doğurmuşdur. Yəni bunu **təxribat, "Ə.Elçibəyin fantaziyası"** (H.Əliyev) və s. kimi səciyyələndirən baxışlar mövcuddur. Ermənistanın təcavüzünə məruz qaldığımız bir şəraitdə belə bir məsələnin ortaya atılmasını tamamilə **yersiz sayan yanaşmaları** da diqqətdən kənar tutmaq mümkünsüzdür.

Hətta bu cür **bəsit bir "qənaət"**ə də rast gəlinir: İran türklərinin milli-demokratik hərəkatının haçansa nəticə verəcəyinə ümid bəsləmək sadəlövhlükdür. Başqa sözlə, Güney Azərbaycandan nəsə gözləmək mümkün deyil, çünki orada müstəqil dövlətçilik ruhu, yetərli mübarizə əzmi və s. yoxdur. Tamamilə əks mövqelərə görə isə **"Güney Azərbaycan məsələsi"** çağdaş tarixi proseslər kontekstində **vaxtaşırı qabar(dıl)acaqdır.** Habelə Güneyli soydaşlarımızın mübariz olmamaqda günahlandırılması da əsassızdır. Çünki elə XX əsrdə Azərbaycanın şimalında iki dəfə qüvvətli (dövlətçiliyin bərpasıyla nəticələnən) milli hərəkat baş verdiyi halda **Güneydə dörd güclü milli-demokratik mübarizə mərhələsi** yaşanmışdır. (Amma onlar beynəlxalq güclərin və İran rejimlərinin sistemli, çoxşaxəli əngəlləri üzündən **uğursuzluqla** nəticələnmişdir).

Digər tərəfdən, çağdaş beynəlxalq və regional proseslər, xüsusilə də İranla ABŞ arasındakı qarşıdurma da **"Bütöv Azərbaycan məsələsi"**ni təkrarən müxtəlif yönlərdən **müzakirə obyektinə** çevirmişdir. **Z.Bjezinski** yazır ki, "əgər Azərbaycan

sabit siyasi və iqtisadi inkişafa nail olarsa, yəqin ki, İran azərbaycanlıları arasında Böyük Azərbaycan ideyası möhkəmlənəcəkdir". AR-in İİR-dəki keçmiş səfiri, araşdırmaçı N.Nəsiblinin qənaətinə görə, "Güney Azərbaycanın müstəqilləşməsi və Quzey Azərbaycanla bütövləşməsi problemi yoxdur. Problem bu işin konkret nə vaxt həyata keçməsidir. Gec-tez bu baş verəcək". Bu məsələlər AR-dəki bir sıra siyasi partiya və təşkilatların, xüsusilə də Ə.Elçibəyin **"Kələki sürgünü-ev dustaqlığı"**ndan qayıtdıqdan sonra yaratdığı (1998) Bütöv Azərbaycan Birliyinin (**BAB-ın**) diqqət mərkəzindədir.

İİR rəhbərliyinin "Güney Azərbaycan problemi"ndən və "Bütöv Azərbaycan perspektivi"ndən rahatsızlığı gözönündədir. Bunu prezident M.Əhmədinejadın son vaxtlardakı bir sıra diplomatik gedişlərindən də görməmək mümkün deyil. Bu baxımdan Güney Azərbaycanı "razı salmağa" yönəlik bəzi tədbirlər diqqətçəkicidir. Belə ki, Şərqi Azərbaycan ostanına (Güneyə) 3-cü dəfə səfər edən (XI.2009) prezidentin söylədikləri fikirlər düşündürücüdür: "Mən İranın ən yaxşı xalqının, yəni Təbriz xalqının xidmətinə gəlmişəm" (Millətin adı çəkilmir – İ.M.); "Təbriz şiə dünyasının birinci paytaxtıdır" (Sırf, məqsədli teokratik yanaşma – İ.M.); "keçən 400 il ərzində İranı daxildən və xaricdən hədələyən təhlükələrin qarşısı azərbaycanlılar tərəfindən alınıb" (Burada da əvvəlki dövrlər "unudulur" – İ.M.); İran millətinin Şəhriyar, Saib Təbrizi (digərləri sadalanır – İ.M.) kimi azərbaycanlılara ehtiyacı var" və s. Bu cür "sakitləşdirici-ələalıcı" fikirlər söyləyən M.Əhmədinejad türklərin (azərbaycanlıların) mədəni və digər hüquqları məsələlərindən əsla bəhs etməyibdir. Onun prezidentin Şərqi Azərbaycan ostanına əvvəlki iki səfəri zamanı icrasına söz verdiyi 464 layihədən yalnız 33 faizinin reallaşdırılmasının səbəblərinə də açıqlama gətirilməyibdir. Əyalət rəhbərliyinin onun təntənəli qarşılanmasına dair göstərdiyi səylər də diqqətdən yayınmayıbdır.

İranın "Azərbaycan siyasəti"nin **başqa bir mühüm qolunu (sahəsini) AR-ə münasibət** təşkil edir. Rəsmi Tehran

AR-i də **"İslam inqilabı"nın ixracının başlıca hədəflərindən** biri olaraq müəyyənləşdirmişdir. İİR-in bəzi dövlət rəsmiləri və ideoloqlarının "təhlilləri"nə görə "Azərbaycan Respublikası yaşamaq (mövcud olmaq) potensialına malik olmayan **süni dövlət qurumudur"** (Bu zaman Azərbaycan Xalq Cümhuriyyətinin aqibətinə istinad edilir). Ancaq tarixi gerçəkliklər, yəni Şimali Azərbaycanda dövlətçiliyin çətinliklə və tədricən də olsa möhkəmlənməsi, davamlı olması bunun əksini söyləməyə əsas verir. Ən son dönəmin beynəlxalq tədbirlərindən birində, yəni "SSRİ-nin dağılmasından sonra İran-Azərbaycan əlaqələri " mövzusunda Tehranda keçirilən konfransda Ə.Begdillinin "İİR-in Qafqaz siyasətində Azərbaycanın yeri" mövzusundakı məruzəsində vurğulanan bu fikir də diqqətçəkicidir: **"Biz Azərbaycanı öz siyasətimizə uyğunlaşdıra bilməmişik".**

İİR-in müəyyən siyasi dairələri vaxtaşırı **AR-ə qarşı ərazi iddialarını** dilə gətirirlər. Bir sıra elmi mərkəzlər və araşdırmaçılar da onları "əsaslandırmağa" çalışırlar. İran əvvəllər də dəfələrlə bu cür istək və tələblərə müəlliflik etmişdir. Hələ Paris Sülh konfransında (1919) Qafqazın və Orta Asiyanın 578 min km^2 ərazisinə **"tarixi hüquqla" iddia** irəli sürülmüşdü. Son zamanlarda "17 İran şəhəri"nin qaytarılmasına dair çağırışlar da dəfələrlə səsləndirilmişdir. İran, ümumiyyətlə, **"Azərbaycan ölkəsi" anlayışı** ilə razılaşmır. Buna görə də Pəhləvilər dönəmində Şimali Azərbaycan "qədim İran torpağı olan Şirvan", son dönəmlərdə isə "Aran Respublikası" və s. kimi ifadə olunur(du).

Habelə Qafqazdakı "Azərbaycan" ölkəsinin mövcudluğunu İran əhalisindən gizlətməyə çalışırdılar. "4 iyun qiyamı"nın hərtərəfli dəstəklənməsi, AR-dəki İslam partiyasına himayəçilik, qaçqınlara "yardım" adı altında (vasitəsilə) Azərbaycan əleyhinə təbliğat, Xəzərdəki neftli sahələrimiz və hətta qurudakı ərazilərimiz üzərində hərbi təyyarələrlə **"əzələ nümayişi"** və s. hallar da məlumdur. "Bütöv Azərbaycan" ideyasına qarşı çox kəskin mövqe tutulur. (İİR-in AR-dəki keçmiş səfiri Ə.Sü-

leymani **"Bütöv Azərbaycanı yuxuda görərsiniz"** kimi hədə ahəngli açıqlama da vermişdi. Sözgəlişi, o, Quzey Azərbaycanda siyasi elmlər namizədi alimlik dərəcəsi almışdır).

İran rəhbərliyi son vaxtlar guya **"sivilizasiyaların dialoqu" əsasında "balanslaşdırılmış siyasət"** yürütdüyünü bildirsə də,onun bir sıra dövlətlərlə ciddi problemləri vardır. Bu cəhətdən onun **hazırkı fövqəldövlət** ABŞ ilə və Orta Şərqin **regional güclərindən sayılan** İsraillə qarşıdurması daha da diqqətçəkicidir. Və, bu, **"İran-ABŞ-İsrail üçbucağı"**nda cərəyan edən proseslər müəyyən səbəblərdən Azərbaycanın da maraqları və mövqeyi ilə əlaqədar məqamları əhatə edir. "İslam inqilabı sayəsində **qapı arxasına atılan"** (Xameneyi) ABŞ-ın İranla münasibətləri daha da pozularaq qarşıdurma həddinə yetişmişdir. İrandan qovulan və oraya dönməyə çalışan Ağ Ev bir müddət rəsmi Tehranla **"yola getmək –hələlik bir təhər keçinmək"**, onu gec-tez Qərb dəyərlərinə və oriyentasiyasına **yönəltmək (qaytarmaq) xəttinə** üstünlük verirdi.

ABŞ zəmanənin reallıqlarıyla hesablaşmaq məcburiyyətində qalaraq İİR-in daxili işlərinə qarışmamağa dair **Əlcəzair razılaşmasını** (1981) məqbul saydı. O vaxtkı Dövlət katibi A.Heyq "Vaşinqton post"a müsahibəsində (13.XI.1981) bildirdi ki, "bizim mənafelərimizə görə İranla münasibətlər müasir taktiki mülahizələrə əsasən deyil, **tarixi perspektivlər nəzərə alınmaqla** qurulmalıdır... Xaosdan yararlanmaq niyyəti və xətti uzunmüddətli məqsədləri təhlükə altında qoya bilər". Bu kontekstdə də ABŞ bir müddət İrandaxili sabitlikdə maraqlı idi. İlk baxışda qeyri-adi görünən və anlaşılmaz olan belə mövqe isə bu kimi **qənaət və mülahizələrlə** əlaqədardı:

a) İrandakı sabitliklə Yaxın və Orta Şərqdəki sülhyaratma prosesi (dinc vəziyyət) arasındakı sıx bağlılıq;

b) İrandakı sakitliklə dünya (əsasən də neft) bazarındakı durumun üzvi əlaqəsi;

c) xaos şəraitində "islamçı" iqtidarın solçuların hakimiyyəti ilə əvəzlənməsi və nəticədə dolayısı yolla İranın SSRİ-nin

təsir dairəsinə keçməsi ehtimalı və s.

Sonuncu müddəa Ağ Evin qlobal strategiyasında İrana ayrılan yerlə, yəni prezident C.Karterin **"neoqlobailizm doktrinası"**na əsasən Fars körfəzinin ABŞ-ın **"həyati maraq dairəsi"** elan olunmasıyla əsla uyuşmurdu. (Bu doktrina habelə "səbatsızlıq zonasında hərbi hazırlığın-iştirakın gücləndirilməsini" də nəzərdə tuturdu).

Ağ Ev, Dövlət Departamenti və Pentaqonun müəyyən dairələrində **"X gününə"** bəslənilən ümidlərin özünü doğrultmaması, yəni Xomeyninin vəfatı ilə rejimin dəyişəcəyi, yaxud da varislərin onu yumşaldacağına dair gözlənilənlərin gerçəkləşməməsi **ABŞ-ın "İran siyasəti"**ni nəzərdən keçirməsini şərtləndirdi. Bu nəzərdən keçirmə isə Nikson adına Araşdırma Mərkəzi, Vaşinqtondakı Yaxın Şərq Tədqiqat institutu, Amerikanın "Orta Şərq" jurnalı əməkdaşlarının XX əsrin lap sonuna aid **təhlilləri və qənaətlərinin** aşağıdakı **tezislərində** öz ifadəsini tapmışdı:

- Xameneyi və Hatəmi ABŞ-ı Ərəb körfəzindən çıxartmaq istəyirlər;
- İran **regional təhlükədir**;
- İİR-in ABŞ-ın Qərbdəki müttəfiqləriylə əməkdaşlığına əsla imkan verilməməlidir;
- İranın **nüvə silahı** istehsal etməsinin qarşısı mütləq alınmalıdır;
- ötən müddətdə İranla bağlı elə bir ciddi iş görülməyib və **"baş qatmaq diplomatiyası"** özünü doğrultmayıbdır;
- **"SSRİ-nin dağıdılması təcrübəsi"**ndən faydanılmaqla İrandakı teokratik rejimin demokratik quruluşla əvəzlənməsinə çalışmaq lazımdır və s.

İrandakı mövcud **quruluşu daxildən çökdürmək** məqsədilə tövsiyə edilən **tədbirlər** də diqqətçəkici idi:

1) ABŞ dollarının İİR-də möhkəmlənməsi, yəni **dünya pulu ilə iqtisadiyyata nüfuzetmə.**(Bu kimi cəhdlər ciddi əməli nəticələr vermədi).

2) Peyk antennasıyla **şüurlara və qəlblərə hakim kəsilmə**, başqa sözlə, ölkəni informasiya blokadasında saxlamaqda zorluğa düşülməsi (Bu yöndə diqqəti cəlb edən hallar çoxalmaqdadır).

3) İslamın siyasətə çevrilməsiylə onun **gözdən salınması** (Teokratik rejimin təzyiq-təqibləri və insanların dini inancları üzərindən siyasət qurması ucbatından müəyyən **fəsadlar** yaşanmaqdadır).

4) **Demokratik proseslərin** İran sərhədlərinə yaxınlaş(dırıl)ması (Amma onun bir sıra qonşularında da antidemokratik və avtoritar idarəetmə sistemlərinin mövcudluğu gözönündədir, öz işini görməkdədir).

5) İİR-in ABŞ ilə **müxtəlif əlaqələrə girməsinə** müvəffəq olunması "islamçı" rejimin çökməsini təmin edə bilər. Yəni İranda ABŞ-a qarşı düşmənçilik təbliğatının dayandırılması və **"1 saylı şeytan"**, habelə digər şüarların aradan götürülməsi "İslam inqilabı"nın nəticələrinin ləğvi demək olardı.

Törədilməsinin təşkilatçıları və motivləri məsələsi xeyli mübahisəli olan məşhur **"11 sentyabr hadisələri"**ndən (2001) az sonra **"Şər üçbucağı"na** İran da daxil edildi. Bu isə İİR-in regional təhlükə qaynağına çevrilməsi, nüvə silahına canatmaya inad göstərməsi, beynəlxalq terrorçuluğu hərtərəfli dəstəkləməsi və s. ilə izah olundu. Eyni zamanda prezident C.Buş (oğul) və o vaxtkı Dövlət katibi K.Rays **ABŞ-ın "son 60 ildə Yaxın və Orta Şərqdə demokratiyanı sabitliyə (əslində neftə – İ.M.) qurban verməsi"** müddəası ortaya atıldı. Həmçinin ABŞ Xarici Siyasət Araşdırmaları institutunun "Amerikanın siyasətinin bəzi məqamları region ölkələrində **islam fundamentalizminə yol açır"** kimi mövqeyi diqqətə yetirildi. (Örnək olaraq İrandakı "İslam inqilabı" ərəfəsi göstərilir. Azərbaycan Respublikası ilə bağlı da müəyyən ehtimallar səsləndirilir).

ABŞ-ın belə bir şəraitdə ortaya çıxarılan (2004) **"Böyük Orta Şərq layihəsi"**ndə də İranla bağlı bəzi məqamlar önə çəkilmişdi. Yeri gəlmişkən, bu sənəd (layihə) də birmənalı qəbul

olunmayaraq **müxtəlif rəylər** doğurmuşdur. Belə ki, ABŞ-ın o zamankı rəhbərliyinin, xüsusilə də K.Rays və digərlərinin yanaşmasına görə həmin layihə – **a)** Orta Şərqdə **demokratik dəyişikliklər** və **b)** Yaxın Şərqin yenidən **doğuluşu (qurulması) proqramı** idi. **Əksqütüblü mövqelərsə** onu: **1) güc yolu ilə qurulan** "demokratiya" və **2) "idarə olunan islam"** vasitəsi kimi dəyərləndirirdilər. (Sonuncu iki halla İranla bağlı məsələlər də nəzərdə tutulurdu).

Dövlət Departamentinin dünyada terrorçuluq və ona qarşı mübarizəyə dair 2007-ci ilə aid hesabatında İran terrorun **"1 saylı sponsoru"** sayılırdı (Hesabatdan bəlli olur ki, terror halları əvvəlki illərlə müqayisədə azalsa da, 2007-ci ildə 22685 nəfərin ölümü ilə nəticələnən 14449 belə hadisə baş vermişdir; onların da 60%-i İraqda törədilmişdi). İİR "Həmas" və "Hizbullah"ı hərtərəfli dəstəkləməkdə, habelə "Qüds briqadası"nın "Mehdi ordusu"nu (sədri Müqtəda əs-Səda) himayə etməkdə ittiham olunur.

İranın **hərbi xarakterli nüvə fəaliyyətlərini** davam etdirməsi ilə bağlı israrlı mövqeyi və bununla da vəziyyəti dalana dirəməsi onun ABŞ ilə münasibətlərindəki gərginliyi zirvəyə yüksəltmişdir. İİR-in **"nüvə siyasəti"** ətrafındakı qarşıdurmaya (hələlik diplomatiya müstəvisində) qoşulması və ya cəlb olunması beynəlxalq şəraiti daha da mürəkkəbləşdirmişdir. İran, bir tərəfdən, onun nüvə fəaliyyətlərinin hərbi səciyyə daşımadığını və yalnız dinc məqsədlərə, müdafiəyə yönəldiyini iddia edir. Digər yandan da, rəsmi Tehran Ağ Evə **"nüvə silahı pisdirsə sizdə niyə var, yaxşıdırsa bizdə neyçün olmasın?"** (M.Əhmədinejad) kimi ritorik sual ünvanlamaqla yanaşı ona qarşı **əksittiham** da irəli sürür: "ABŞ bəşəriyyətə qarşı nüvə silahı işlədən **ilk** və hələ ki, **tək dövlətdir".** İran rəhbərliyi ABŞ-ı öz maraqlarına uyğun olaraq İsraili və digərlərini də "nüvə dövləti" etməkdə günahlandırır.

ABŞ-la İsrailin iddialarına və Qərb mətbuatında ("The Daily Teleqraf", "The Times") yayılan məlumatlara görə, İran

əsasən Rusiyanın və qismən də Çinin hesabına nüvə silahının istehsalı üçün gərəkən bütün texnologiyaları və zənginləşdirilmiş uranı əldə edibdir. Hərbi xarakterli nüvə proqramı **Natanz şəhəri** yaxınlığındakı yeraltı obyektdə **fizik M.Fəxrizadənin** rəhbərliyi altında **"Amad" xüsusi gizli qurumu** tərəfindən gerçəkləşdirilmək üzrədir. Artıq 1-2 nüvə başlığı üçün kifayət edən tondan çox **zənginləşdirilmiş uran** (30 kq plutonium) əldə olunmasının və onların tezliklə də **"Sahab-3" ballistik raketində** yerləşdirilməsinin mümkünlüyü barədə xəbərlər getdikcə artmaqdadır. Bunun müddəti ilə bağlı proqnozlara gəldikdə isə kəşfiyyatlar 2009-cu ilin yayında **fərqli müddətlər** göstərirlər: MKİ 2-3 il, "Mossad" -1 il, BND (Almaniya)-6 ay.

Arada (XII.2007) MKİ-nin İranın hələ 2003-cü ildə nüvə silahı proqramının həyata keçirilməsini dayandırdığına dair məlumatları müxtəlif çevrələrə sızdırıldı. **"Geri çəkilmə, yoxsa diplomatik manevr?"** sualını doğuran bu kəşfiyyat tədbiri inandırıcı səslənmədi (ABŞ-ın BMT-dəki sabiq təmsilçisi C.Bolton **"kəşfiyyat hesabatı siyasi sifarişdir"** qənaətini açıqladı). Çünki tezliklə (V.2008) Ağ Ev İİR-ə ultimatum səciyyəli xəbərdarlıq etdi və nüvə fəaliyyətinin dayandırılması tələbini irəli sürdü. B.Obamanın 2009-cu ilin ortalarında etdiyi təklifə əsasən İranın zənginləşdirilmiş uran istehsalından imtina etməsinə dair çoxtərəfli danışıqlara başlamağa sentyabrın 20-nə qədər razılıq verməsi istənildi.

Yeri gəlmişkən, arada (IX.2009) Fransa XİN-i **MAQATE**-nin direktoru M.əl-Baradeyini İranın hərbi xarakterli nüvə fəaliyyətlərinə aid məlumatları BMT-dən gizlətməkdə və bununla bağlı bildiyi vacib faktları rəhbəri olduğu qurumun idarə heyətinə açıqlamamaqda ittiham etmişdir. **Fransa diplomatiyasının ittihamı** İİR-in Avropanı vurmaq imkanlı ballistik raketlərə malik olmasına (Çinin yardımıyla) dair fikirlərin yayılması ilə də əlaqələndirilir. Öz növbəsində direktor agentliyin Vyanada yerləşən mənzil-qərargahında keçirilən toplantıda bunları özünə qarşı qərəzli, siyasi səciyyəli ittiham və

MAQATE-nin beynəlxalq nüfuzunu zədələyən hərəkət kimi qiymətləndirmişdir.

Son vaxtlar "artıq nüvə silahına yiyələnmək üzrə olan İranı nəzarətdə saxlamaq yolları barədə düşünmək lazımdır" çağırışları çoxalmaqdadır. Bu kontekstdə də ABŞ və İsrailin İranla bağlı müxtəlif planları, ehtiyat tədbirləri və s. bəhs edilməkdədir. Onların **"İsraili İranın hücumlarından qorumaq"** məqsədilə hazırlandığı vurğulanır (Belə əsaslandırmada İİR-in indiki prezidentinin **"İsrail Yer üzündən silinməlidir!"** və digər çağırışları önə çəkilir). Hazırda diplomatik-siyasi dairələrdə və elmi təhlil-qənaətlərdə **ABŞ-ın İranla əlaqədar planlarının** aşağıdakı **variantlarından** bəhs olunur:

Birincisi, teokratik rejimin amerikanpərəst hakimiyyətlə əvəzlənməsi, yəni **İİR-in daxildən çökdürülməsi.** ABŞ-ın rəhbərliyində və dövlət strukturlarında bu xəttə üstünlük verənlər hələ ki, çoxluq təşkil edirlər. Onların fikrincə, İrana hərbi müdaxiləyə dair müəyyən hazırlıqlar aparılsa da, **regionda 3-cü müharibə** (İraq və Əfqanıstanla yanaşı) ABŞ üçün çox ağır olardı. Hərbi güc tətbiqi variantına qarşı çıxanlar müəyyən **dəlillər** gətirməklə bəzi tövsiyələr də verirlər:

- Ağ Evin hədələri İİR-dəki islahatçıların da mühafizəkar islamçılar tərəfinə keçməsini şərtləndirər və İranda ABŞ əleyhinə vahid milli cəbhənin yaranmasına rəvac verər. Buna görə də islahatçıların (vaxtılə **"İranın Qorbaçovu"** olacağı gözlənilən M.Hatəmi, hazırkı müxalifət lideri M.Musəvi və b.) dəstəklənməsi məsləhət görülür;
- mövcud siyasi rejimin dəyişdirilməsi (hətta şahlıq üsul-idarəsinin bərpasına da gedilməklə) naminə monarxistlərlə, o cümlədən hazırda ABŞ-da yaşayan **"vəliəhd"**lə belə işbirliyinin qurulması;
- ruhani rejimi-iqtidarının iqtisadi qüdrətinin sarsıdılması məqsədilə İİR-ə qarşı səmərəli **sanksiyalar** sisteminin **tətbiqi.** Bu yöndə Avropa İttifaqı ilə əlbirliyə müvəffəq olunması;

İrana hərbi müdaxilə Yaxın və Orta Şərqdə (bəzi

analitiklərə görə, hətta Qafqazda və Mərkəzi Asiyada) nəticələri proqnozlaşdırıla bilməyən proseslərə **("Böyük müharibə"yə)** səbəb olar. Bütövlükdə isə, beynəlxalq təhlükəsizliyə çox ciddi zərbə vurular. Belə bir hərbi aktın bütün müsəlman dünyasında antiABŞ ovqatı gücləndirə biləcəyi də ehtimal olunur. Fikrimizcə, B.Obamanın müsəlman ölkələrinə turnesi zamanı (VI.2009) Misirdə islam dünyasına ünvanladığı müraciət heç də təsadüfi səciyyə daşımırdı. Əvvəlcədən düşünülmüş proqramın bir hissəsi olan həmin müraciətin ABŞ-İran münasibətlərinin hazırkı gərgin durumundan irəli gələn məqamlarla bağlılığı da gözönündədir. "Xristian olduğunu, ancaq uşaqkən müsəlman ailəsində böyüdüyünü, azan səsləri ilə oyandığını bildirən B.Obama ölkəsinin "islam düşməni" olmadığına inandırmağa çalışmışdır." O, "Quran"dan kəlamlar ("Rəbbini bil və hər zaman doğrunu söylə") deyərək ABŞ-da 7 milyondan çox müsəlmanın yaşadığını və ölkənin bütün ştatlarında məscidlərin mövcudluğunu xatırlatmışdır: "İslam ABŞ-ın ayrılmaz bir hissəsidir. ABŞ heç vaxt islamla savaş içərisində olmayıb və olmayacaq". İranın da başqa dövlətlər təki dinc nüvə enerjisinə sahib olmaq hüququnun qəbul edildiyini bildirən ABŞ prezidenti həmçinin İİR-in zorakılıq və terrordan, atom silahına yiyələnmək məqsədindən əl çəkməsini istəyibdir.

İkincisi, İranın **parçalanması və ya federallaşdırılması.** ABŞ-a qarşı inadkarlığın İrana hərbi müdaxiləyə və onun parçalanmasına (yaxud federallaşmasına) səbəb ola biləcəyi də güman edilir. Bir sıra elmi mərkəzlərin təhlillərinə görə, qarşıdurmanın hərbi yolla aradan qaldırılmasından sonrakı **(postdinçi) İranın bölünməsi ehtimalları** da istisna olunmur. **"Parçalanmış İran"** variantının gerçəkləşməsi- beynəlxalq və regional maraqlar üzündən – mümkünsüz olarsa **"federallaşma modeli"**nə əl atıla biləcəyi də gözlənilməndir. Parçalanma, yaxud da federallaşmanın regionda yeni geosiyasi vəziyyət yarada biləcəyi (SSRİ-nin dağılmasından sonra olduğu kimi) şübhə doğurmur.

Bu və digər səbəblər, habelə coxlu təhlillərə əsasən belə bir mülahizə yürüdülə bilər ki, İranın bölünməsi beynəlxalq güclərlə region dövlətləri üçün (İsrail istisna olmaqla) **qanedici deyil** və **real görünmür. "Bölünmüş İran":**

- elə **ABŞ-ın** özündəcə birmənalı qəbul edilmir. Ağ Ev İranın- **a)** nüvə silahı istehsalı proqramından imtinasına, **b)** terrorçuluğu dəstəkləməkdən çəkinməsinə, **c)** Yaxın Şərqdə sülh prosesini əngəlləməməsinə çalışır.Hətta ABŞ-ın hələlik indiki rejimin mövcudluğu şəraitində təhlükəsiz və sözə(ələ)baxan bir İranın varlığı ilə razılaşması, bunda maraqlı görünməsi mülahizəsi də yox deyil. Çünki İİR və oradakı indiki rejim regionda Türkiyə və b. daha da güclənməsinin qarşısında dayanan balanslaşdırıcı güc sayılır. Bu isə Ağ Evin "Avratlantik güc mərkəzinə alternativ beynəlxalq qüvvələrin (koalisiyaların) olmaması" strategiyasına uyğundur. (Bir çox analitiklər Yaxın və Orta Şərqin siyasi xəritəsinin geosiyasi durumunun dəyişdirilməsinə ehtiyac yaranacağı təqdirdə, bunun **"parçalanmış İran amili" hesabına deyil, "kürd kartı" vasitəsilə** gerçəkləşdirilməsinə üstünlük verilə biləcəyi qənaətindədirlər. ABŞ-ın regiona dair siyasətində də **"kürd amili"**nin önə çəkilməsi açıqca sezilməkdədir);
- **İraqa** da lazım deyil. Çünki o da **"bölünmüş İran"= kürd dövlətinin yaranması"** formulasından çox rahatsızdır. Yəni özünün bölünməsi təhlükəsindən yayınmağa çalışır (Sözgəlişi, İraqda keçirilən son seçkilərdə şiələrin qələbəsi, yəni səslərin 65-68 faizini toplaması heç İrandakı hazırkı birşiəməzhəbli islamçı rejimin də onun üçün qənaətbəxş olmadığını göstərir);
- **Türkiyəni** də qane etmir. Bu geosiyasi hal: **1) "Kürd dövlətçiliyi"**nə yol açmaqla onun da ərazi bütövlüyünü təhdid edə bilər, **2)** ABŞ-a **"Türkiyə ilə təkmüttəfiqlik** şəraitindən asılılıqdan qurtulmağa" imkan yaradar;
- **Ermənistana** əsla lazım deyil. İranın bölünməsiylə Ermənistan: **1. Daha bir türk dövlətiylə** (Güney Azərbaycanla) həm-

sərhəd-qonşu ola bilər. **2.** Bununla da elə təkcə "iki-üç günlüyə bağlanmasıyla **onu çökdürə biləcək nəfəslikdən"** (L.Ter-Petrosyan; **"Mehri dəhlizi"** vasitəsilə alınan müxtəlif yardımlar nəzərdə tutulur) məhrum olar. **3. "Bütöv Azərbaycan"la** üz-üzə qalar. **4.** Azərbaycanın Naxçıvan bölgəsinin **anklavlıqdan** çıxmasıyla hesablaşar;

- **Gürcüstana** çox da sərf etmir. Azərbaycanın regiondakı **önəmi, rolu və üstünlüklər**ini xeyli artırar;
- **Pakistanla Əfqanıstana** da **"Bəlucistan problemi"** və s. yarada bilər;
- **Rusiyaya** da əl vermir. Yəni: **a)** onun geostrateji maraqlarıyla uyuşmur, **b) "ABŞ-ın əsəri"** ola biləcəyindən fövqəldövlətin regiondakı mövqelərinin daha da möhkəmlənməsinə xidmət edər;
- **Qərbi Avropanın** planlarına da çox yaramır. Çünki – **1) "Köhnə dünya"**nı regional **"Böyük müharibə"**yə sürükləyər, **2)** ABŞ-ın mövqelərini xeyli qüvvətləndirməklə Avropa İttifaqının maraqlarının yetərli təminatına xələl gətirər (Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının Qərb bazarlarına nəqlinə, **"Nabucco"** və s. layihələrin gerçəkləşdirilməsinə, habelə digər problemlərə fərqli yanaşmalar da bəzi məsələlərə aydınlıq gətirməyə əsas verir).
- **Azərbaycan Respublikası** üçün də Güneyin dərhal onun **nəzarətinə veriləcəyi (keçəcəyi) demək deyil.** Habelə **"Bölünmüş İran"=kürd dövləti" formulasının** onun da ərazi bütövlüyünə əlavə problem yarada biləcəyi ehtimalı vardır **("Kürd dövlətçiliyi"**nin Azərbaycan torpaqlarını da əhatə etməsi planları məlumdur).

ABŞ-ın İranın parçalanmasına dair planları ilə bağlı analitik yazılara son vaxtlar Amerika mətbuatında da geniş yer ayrılır. "The Atlantik Month" jurnalında dərc olunan C.Qoldlerqin **"İraqdan sonra"** adlı məqaləsində Yaxın və Orta Şərq regionunun dəyişdiriləcək **siyasi xəritəsinin yeni mənzərəsi (cizgiləri)** belə təsvir edilir: Fələstin dövlətinin yaradılması + Suriya və Livanın bölünməsi+"Kürdüstan"ın qurulması +

İranın parçalanması+ **"Böyük Azərbaycan"ın** təşkili. (Yazıda **"Böyük Azərbaycan"ın müttəfiqləri** kimi ABŞ, Türkiyə, İsrail, Gürcüstan və **rəqibləri** olaraqsa Rusiya, Ermənistan, İranda yaranacaq dövlətlər, Türkmənistan göstərilir).

İranın **federallaşma ehtimalına** gəldikdə isə, bu proses indiki şəraitdə imkansız görünsə də, ABŞ-da bununla əlaqədar olaraq da müəyyən **planlar və layihələr** üzərində işlənildiyi barədə məlumatlar yayılmaqdadır. Əsasən də **iki variant-modeldən** söhbət gedir:

1-cisi, Nikson institutunun layihəsi. O:

- İranın altı muxtar vilayətə (Cənubi Azərbaycan, Bəlucistan, Gilan, Bəndər-Abbas və b.) ayrılmasını nəzərdə tutur;
- onlara özünümüdafiə hüququnun verilməsini (parlament yaradılması və s.) lazım bilir;
- bütün İranda hakimiyyət bölgüsünün paritet əsaslarla, yəni ayrı-ayrı millətlərə və etnoslara mənsub olan əhalinin sayının nisbətinə görə həyata keçirilməsinə üstünlük verir;
- Baş nazir(lər)in parlament(lər)də səs çoxluğu ilə seçilməsini məqbul sayır.

2-cisi, Pentaqonun variantı. O isə:

- İranın dörd böyük və bir mərkəzi (Tehran) əyalətə bölünməsini planlaşdırır;
- parlament(lər)in proporsional seçki sistemi əsasında təşkilini və prezidentə səlahiyyətlər verilməsini (əslində **"Türkiyə modeli"**nin tətbiqini) vacib hesab edir.

Layihələrdən birincisi Güney Azərbaycan üçün məqbul ola bilir (Paritet əsaslarla hakimiyyət bölgüsünə əsasən idarəetmədə müəyyən üstünlüklər qazanılması baxımından). **İkinci variantda** Cənubi Azərbaycan ayrıca əyalət kimi nəzərdə tutulmur. Bütövlükdə isə, İranın federallaşmasının – bu kimi məzmunu və parametrləri üzündən – Azərbaycanın güneyinin də quzeyi kimi (Zəngəzur, Dərbənd, Borçalı və s. ölkəmizdən qoparılması sayəsində) parça-parça edilməsiylə nəticələnməsi mümkündür.

Burada belə bir vacib məqamı da vurğulamağa lüzum var. Belə ki, ABŞ İİR-dəki hazırkı rejimin istənilən (hər hansı bir) formada devrilməsi-dəyişdirilməsinin Güney Azərbaycanın və, ümumiyyətlə, İran türklərinin iştirakı olmadan baş tutmasının müşküllüyünün fərqindədir. Və, hələlik rejimin daxildən çökdürülməsi xəttinə üstünlük verən ABŞ-ın bu mıqsədlə 1,7 mlrd. dollar ayırdığına dair məlumatlar da yayılır. Onlardan biri İİR-in kəşfiyyat xidmətinin rəhbəri H.Mösləhi tərəfindən açıqlanıbdır. O habelə İranda təxribat fəaliyyətləri ilə məşğul olan 80 xarici təşkilatın aşkarlandığını da iddia edibdir. Doğrudur, həmin məlumatlar tam da inandırıcı deyil. Çünki bu çox böyük məbləğdir və onun gizli yolla (Konqressiz) ayrılması mümkünsüzdür. Ekspertlərə görə, bu cür məlumatlar "daha çox daxili auditoriyanın antiAmerika əhval-ruhiyyəsinə hesablanıbdır". Amma hər halda ABŞ-ın İrandakı indiki siyasi sistemi süquta uğratmaq məqsədi və bunun üçün də ölkəni daxildən qarışdırmaq səyləri sirr deyil.

İrandakı **çağdaş rejim** istər kəskin fərqli iqtidar dəyişikliyi, istərsə də parçalanma (federallaşma) perspektivi baxımından **ciddi sınaq** qarşısındadır. İlk baxışdan dayaqları möhkəm görünən (SSRİ-sovet quruluşu, Taliban üsul-idarəsi, Səddam rejimi və s. kimi) teokratik totalitar İİR **ABŞ ilə təkbaşına bacarmayacağının** fərqindədir. Buna görə də o, Ağ Evin hazırkı başlıca rəqibləri olan **Kremllə və Pekinlə** yaxınlaşmağa çalışır. Habelə ABŞ ilə onun Qərbi Avropadakı (NATO üzrə) tərəfdaşları arasında **nifaq** salınmasına cəhdlər göstərilir.Bunu M.Əhmədnejadın qəti antiABŞ mövqeli həmkarı – Venesuela prezidenti U.Çaveslə Tehrandakı danışıqlardan (IX.2009) sonrakı mətbuat konfransında bəyan etdikləri fikirlər də təsdiqləyir:

ABŞ İranın nüvə silahına yiyələnmək istəyi barədə saxta sənədlər hazırlayıb beynəlxalq ictimaiyyəti çaşdırır; İİR dinc nüvə enerjisinə sahib olmaq planlarından geri çəkilməyəcək və tam nüvə texnologiyasını əldə edəcəkdir; rəsmi Tehran Qərb

dövlətləriylə heç bir ilkin şərtlər qoyulmadan, habelə sanksiyalar təhdidi altında aparılmayan danışıqlara hazırdır. Rəsmi Tehranın həm "nüvə siyasəti"ndə israrlı (inadkar) mövqe, həm də ABŞ-ın qarşısında duruş gətirmək üçün **"müttəfiqlər – xarici dayaqlar axtarışı diplomatiyası"** Ağ Evi daha da hərəkətləndirmişdir. İran ətrafındakı "halqa" artıq daral(dıl)maqdadır. **"Şər üçbucağı"**nın, yəni ABŞ-ın qənaətinə görə terroru dəstəkləyən qeyri-demokratik rejimlərin ləğvi kimi tarixi vəzifənin həyata keçirilməsi məsələsində İranın növbəsi çatmışdır.

Proseslərin gedişindən və ABŞ-ın keçmiş rəsmilərinin, sabiq dövlət xadimləri-diplomatlarının (D.Çeyni, K.Pauel, K.Rays və b.) vaxtaşırı açıqlamalarından da göründü ki, İrandakı mövcud rejimin ondan **kəskin fərqli ideoloji-xarici oriyentasiyalı hakimiyyətlə** əvəzlənməsinə dair **qərar** artıq çıxarılıbdır. İndi başlıca məsələ bunun yolları (**dinc-daxildən çökdürmə, yoxsa zorla-hərbi müdaxilə**) arasında qəti **seçim** edilməsindən ibarətdir.

Problemin **hərbi müdaxilə variantında həllinin iki yolu**nun düşünüldüyü də gizli deyildir: **1-cisi,** İsrail vasitəsilə. **2-cisi** isə, bilavasitə ABŞ-ın özü tərəfindən –**a)** nüvə obyektlərinə qəfil zərbələr (**"hava hücumları")** və **b)** İran ərazisinə birbaşa müdaxilə **("quru əməliyyatları")** kimi hərbi taktikalardan istifadə etməklə. Vaxtılə ABŞ-ın siyasi və hərbi dairələrindəki bəzi **"quzğunlar"** "İran məsələsi"nin hərbi yolla həllini uzatmamağa (ləngitməməyə) dair **çağırışlar** etmişlər.

Onlar bunun üçün də **"Ramsfeld doktrinası"** ilə **"İkinci Körfəz savaşının diplomatiyası təcrübəsi"**ndən ibarət olan **eklektik modeldən (variantdan)** yararlanmağı məsləhət bilmişdilər (Keçmiş Müdafiə naziri ilə bağlı olan **doktrina "hərbi amil"in diplomatiya və siyasəti arxa plana keçirməsini** nəzərdə tutur. Ondan artıq istifadə olunmuşdur. Belə ki, **Deyton sülhü** (1995) ciddi əməli nəticə vermədiyindən 1999-cu ildə NATO (ABŞ) qoşunları Serbiyanı bombalayaraq Kosovoda yerləşdilər. Körfəzdəki ikinci savaş zamanı isə Ağ Ev İraqa

qarşı geniş koalisiyaya ehtiyac görmədi və daha çox dövlətin bu prosesə müdaxiləsinə cəlb olunmasına həvəs göstərmədi. Bu zaman da "müdaxilə edənlərin – öz "maraqları olan müttəfiqlərin sayı çoxaldıqca problemin həlli prosesi çətinləşir" **formulasından** çıxış edildi).

K.Pauelin vaxtılə İraqla bağlı söylədiyi "lazım gələrsə ABŞ bu məsələni təklikdə də həll edə bilər" qənaətinin İrana da şamil olunmasını mümkün sayanlar vardır. Fikrimizcə isə, İİR ilə əlaqədar vəziyyət xeyli fərqlidir və **ABŞ-ın** "İran məsələsi"nin həllindəki **davamlı tərəddüdləri,** xüsusilə hərbi müdaxilənin imkan və perspektivlərinin **uzunçəkən müzakirələri** də məhz bununla bağlıdır. Ancaq bunlar ABŞ-ın İrana münasibətinin və, ələlxüsus da, onun hərbi dəyərli nüvə fəaliyyətlərinə dair tutduğu mövqenin dəyişməsi anlamına gəlmir.ABŞ-ın İraqdakı vəziyyətə dair müzakirələr üçün İİR-ə **dialoq təklifi** (IV.2008), özünün bir qeyri-hökumət təşkilatına İranda ofis açmasına icazə verməsi (X.2008) və digər bu cür hərəkətlər münasibət dəyişikliyinə dəlalət etmir.

Əksinə, hədələyici ahəngli xəbərdarlıqlar, təzyiqlər və s. azalmır ki, artır. Belə ki, 2008-ci ilin yanvarında ABŞ İİR-ə nota verdi. Notada İran katerlərinin Hörmüz körfəzində ABŞ donanmasına qarşı təxribatlara yol verdikləri vurğulandı. Pentaqon bununla kifayətlənməyərək körfəzdə təlimlər də keçirdi. Ağ Ev BMT TŞ-nin İrana iqtisadi sanksiyaların tətbiqinə dair **üç qətnaməsinin** tam şəkildə həyata keçirilməsinə çalışır. Hətta C.Buşla (oğul) V.Putinin **"Soçi danışıqları (sövdələşməsi)"** sayəsində Rusiya da 2008-ci ilin mayında həmin sanksiyalara qoşuldu (Sözgəlişi, "Soçi danışıqlar"ında Rusiyanın Qəbələdəki RLS-dən ABŞ-la birgə istifadə təklifi də nəzərdən keçirilmişdi. Başqa sözlə, Moskva ilə Vaşinqton arasındakı **"Qəbələ oyunu"** davam etdirilmişdi).

Halbuki, V.Putin əvvəllər bu qadağaları "manyaklıq" adlandırmışdı. Sanksiyalara qoşulmanın Rusiyaya 8 mlrd. dollarlıq itkiyə başa gəldiyi də məlumdur (Həmçinin bu da maraqlıdır

ki, İran əleyhinə sanksiyaların işləməsi məsələsində ABŞ ilə onun Qərbi Avropadakı müttəfiqləri arasında tam uzlaşma yoxdur). Kremlin İranın "nüvə siyasəti" ilə əlaqədar olaraq arada irəli sürdüyü təklif də diqqətçəkicidir. Rusiyanın baş diplomatı S.Lavrov Tehrana səfəri zamanı (X.2007) **"sensasion təklif"lə** çıxış etdi: İİR-ə uranın zənginləşdirilməsi proqramının dayandırılması və əvəzində Rusiyada İranla birgə müvafiq müəssisə yaradılması məsləhət bilindi (Yenə də maraqlıdır ki, İranın hərbi xarakterli nüvə əməliyyatlarına **hərtərəfli yardım** göstərən də elə Rusiyadır). Amma rəsmi Tehran buna da razı olmadı.

B.Obamanın təklifinin də qəbul edilməyəcəyi, yəni zənginləşdirilmiş uran proqramından imtinaya dair çoxtərəfli danışıqların başlanmasına 2009-cu il sentyabrın 20-nə qədər razılıq verilməyəcəyi təqdirdə İrana qarşı yeni sanksiyaların tətbiqi barədə müzakirələrin gündəmə gətiriləcəyi qətiləşdi. Bu işdə İsrail diplomatiyasının daha çox fəallıq göstərməsinə də diqqət yetirilir. "Hizbullah"a yaxın mən-bələrin açıqlamalarına görə, Təl-Əvivin rəsmiləri ABŞ-da və Avropa ölkələrində Fars körfəzi dövlətlərinin diplomatları ilə müəyyən müzakirələr aparıblar. Müzakirələrdə İsrailin İrana qarşı mümkün hərbi əməliyyatları zamanı onun təyyarələrinə hava dəhlizinin verilməsi nəzərdən keçirilmişdir.

2009-cu il sentyabrın 7-də 14 saatlığa **"yoxa çıxan"** İsrailin Baş naziri B.Nehanyahunun **Moskvada "tapılması"**, yəni onun Rusiyaya gizli səfərinə dair ciddi təxminlər də bəzi məqamları açıqlayır. Məxfilikdən ötrü Rusiya paytaxtına xidməti təyyarə ilə deyil, yəhudi milyonçusu Y.Maymonun şəxsi uçağıyla gələn Baş nazirin **"Moskva danışıqları"nın müzakirə obyekti** böyük maraq yaratmışdır. Bəzi qaynaqlara görə, bu **gizli səfər "Arctik Sea" gəmisi** ilə bağlı olmuşdur. Rusiyaya məxsus olan, 2009-cu ilin yayında İsveç sahillərində qaçırılan və üç həftədən sonra isə Qərbi Afrika sahillərində (ada dövləti Kabo Verdidə) tapılan həmin gəminin İrana "Su-24" qırıcı təyyarələrindən buraxıla bilən, uçuş məsafəsi 3 min km.

olan "X-55" tipli S-300" qanadlı raketləri gizli şəkildə İrana daşıması barədə məlumatlar yayılmışdır.

İzi azdırmaq üçün üstünə Finlandiyada meşə materialları yüklənən raketlər Əlcəzairdə İran hərbçilərinə təhvil verilməliydi. Bu iddianı rəsmən irəli sürən Estoniyanın keçmiş Müdafiə naziri, admiral T.Kutsun şərhinə görə, gəminin tapılması və azad edilməsinə Rusiya hərbi donanmasının (atom sualtı qayıqları daxil) cəlb olunması da məhz onun **"qiymətli yükü"**ylə əlaqədardı. Son onilliklərin bu ən qalmaqallı **"dəniz quldurluğu aktı"** habelə qaçırılan "yük gəmisi"nin xilası üçün keçirilən hərbi əməliyyatın dərəcəsi və miqyası ilə də seçilir. Rusiyanın NATO-dakı Daimi nümayəndəsi D.Roqozin gəmi ilə bağlı bu versiyanı rədd edərək onu sadəcə "dəniz quldurluğu" hadisəsi kimi səciyyələndiribdir. Ancaq azad edilən və Rusiya hərbi donanmasının "Ladnıy" gəmisi tərəfindən müşayiət olunan "Arctik Sea"nın bayrağı altında üzdüyü Maltanın və habelə İspaniyanın limanlarına buraxılmaması da məsələnin ciddiliyindən xəbər verirdi.

İngiltərənin "The Sunday Times" qəzetinin baş məqaləsində (4.X.2009) özünə yeralan mülahizəyə görə, İsrail Baş naziri Kreml rəsmiləri qarşısında rusiyalı nüvə alimlərinin gizli şəkildə İran mütəxəssislərinə atom bombası hazırlamağın yollarını öyrətməsi məsələsini qaldırıbdır. Bu zaman Rusiya rəhbərliyinə konkret sübut-dəlillər (alimlərin siyahısı və s.) təqdim edilibdir. Rusiya alimlərinin İrandakı nüvə fəaliyyətlərinə dair məlumatları MAQATE-nin keçmiş eksperti D.Olbrayt da təsdiqləyibdir.

"The Wall Street Journal" qəzetində irəli sürülən digər bir və daha diqqətçəkən versiyaya əsasən B.Netanyahunun Moskvada konkret kiminlə apardığı tam da bilinməyən (V.Putinlə olması daha çox ehtimal edilən) danışıqlarda başlıca məqsəd İsrailin İrana qəfil zərbələr endirəcəyi ilə bağlı Rusiyanı xəbərdar etməkdən və Kremlin bu durumdakı gözlənilməz reaksiyalarını neytrallaşdırmağa çalışmaqdan ibarət olubdur.

İsrail informasiya agentliklərinin ("Ynet" və s.), habelə Baş nazirin keçmiş müavini B.Briksin açıqlamaları da bu məxfi səfərin yalnız hansısa ekstremal, fors-major şərait (konkret halda İranın nüvə proqramıyla bağlı təhlükə) üzündən ola biləcəyi qənaətindədir.

Dördüncü bir məlumatsa B.Netanyahunun 14 saatlıq **"müəmmalı itməsi"**ni onun Moskvada hansısa ərəb dövlətinin başçısıyla görüşməsi ilə əlaqələndirir. Həmin görüşdə isə ərəb-İsrail münasibətlərinin və Kremlin bununla bağlı Moskvada konfrans keçirmək təşəbbüsünün müzakirə edildiyi bildirilir. Əksər ekspertlərsə bu məxfi səfərin İranla əlaqədar olması versiyasını daha ağlabatan hesab edirlər. Yeri gəlmişkən, həmin səfər rəsmi Təl-Əviv və Moskva tərəfindən əvvəlcə inkar edilsə də, sonradan İsrailin kəşfiyyat və atom enerjisi işləri üzrə naziri D.Merdior səviyyəsində təsdiqlənmişdir. O, "Röyter" agentliyinin müxbiri ilə söhbətində İsrail Baş nazirinin Moskvaya məxfi səfərini etiraf edibdir.

"ABŞ-İsrail-İran üçbucağı"nda rəsmi Tehranın "nüvə siyasəti" ilə əlaqədar proseslərdə **bir məqam** da nəzərdən qaçırılmamalıdır. ABŞ və İsrail İİR-in nüvə silahına yiyələnməsinə qarşı qəti şəkildə çıxış edirlər. Ancaq İranın hərbi xarakterli nüvə əməliyyatlarının əngəllənməsi yollarına **yanaşmada bəzi fərqliliklər** də özünü göstərməkdədir. Hazırda Ağ Ev rəsmi Təl-Əvivin bu yöndəki **ifrat fəallığını** düzgün hesab etmir. MKİ-nin Konqresə (IX.2009) hesabatında bildirilir ki, İranın tezliklə nüvə silahına malik olacağına dair məlumatları uydurmadır və o, bütün dünyanı aldadır; İİR-in 2013-cü ildən tez nüvə silahı texnologiyasına yiyələnə bilməsi qeyri-realdır. Buna görə də B.Obama Administrasiyası İsrailin məlim tələşını və fəallaşmasını əsassız, vaxtsız sayır. (Ağ Evin B.Netanyahu hökumətinə müəyyən təsir göstərməyə çalışdığına və hətta təzyiqlər etdiyinə dair məlumatlar da sızmaqdadır).

Bu kontekstdə artıq bəzi beynəlxalq diplomatik çevrələrdə rəsmi Tehranın **ABŞ-İsrail münasibətlərini korlamağa** mü-

vəffəq olduğu da vurğulanır. Bunu MKİ-nin məlum hesabatı və s. əsasında dəyərləndirən yanaşmalara rast gəlinməkdədir. Hesabat İsrailin müəyyən strukturları və analitikləri tərəfindən **"yəhudi dövlətinin maraqlarının satılması"**, Ağ Evin indiki rəhbərliyinin İrana qarşı sərt tədbirlərə ehtiyac görməməsi və digər yönlərdən səciyyələndirilibdir (Sözgəlişi, C.Buşun (oğul) səkkizillik hakimiyyətinin lap sonlarında ABŞ kəşfiyyatının İİR-in hərbi səciyyəli nüvə fəaliyyətlərini artıq dayandırdığı barədəki hesabatı da rəsmi Tel-Əvivi narazı salmışdı. Bunun İrana qarşı o vaxtadək sərt tədbirlər görülməməsinə haqq qazandırmaq məqsədilə edildiyi dəbildirilir). Digər tərəfdən də, İsrailin bir sıra rəsmiləri, diplomatları, KİV-ləri B.Netanyahu iqtidarını reallıqları nəzərə almağa çağıraraq onu ABŞ-la müttəfiqlik səviyyəsindəki münasibətlərə ciddi xələl gətirməkdə təqsirləndirirlər.

İsrailin məlum məsələdəki mövqeyinə ABŞ-ın xarici siyasətinə güclü təsir göstərən **Pentaqonun baxışı** da önəmlidir. ABŞ ordusu Qərargah Rəisləri Komitəsinin rəhbəri, admiral M.Millen 2009-cu ilin martındakı açıqlamalarında İsraili İrana təkbaşına hücumdan çəkindirməyə çalışmışdır. İsrail silahlı qüvvələrinin Baş Qərargah rəisi, general Q.Aşkenazinin – İrana hücumla bağlı müzakirələrdən ötrü – Vaşinqtona rəsmi səfəri öncəsinə təsadüf edən bu açıqlamada belə bir **əsaslı müddəa** səsləndirilirdi: "İsrailin İrana təkbaşına hücumu region üçün ciddi risk olmaqla Yaxın Şərqdə çox təhlükəli vəziyyət yarada bilər".

M.Millen İranın "nüvə siyasəti"nə yanaşmada ABŞ-la İsrail arasında ziddiyyətlərin olmadığını və kəşfiyyatların qənaətlərinin əsasən üst-üstə düşdüyünü vurğulamışdı o, həmçinin hər iki dövlətin İİR-in tezliklə (2010-cu ildə) nüvə silahı texnologiyasını əldə edəcəyinə şübhə ilə yanaşdıqlarını bildirmişdir (Az öncə də qeyd edildiyi kimi, bu məsələdə fərqli dəyərləndirmənin mövcudluğu inkar edilə bilməz. Yəni MKİ ilə "Mossad"ın məlumatları bir-birilə uyğun gəlmir).

Q.A.Şkenazi isə öz səfəri zamanı, ABŞ-da olmayan M.Millen istisna olmaqla, Vaşinqtonda Pentaqonun digər rəsmiləri (onun müavini C.Kartraytla), prezidentin milli təhlükəsizlik məsələləri üzrə müşaviri, general C.Consla, MKİ-nin direktoru D.Bleyrlə, Dövlət Katibi H.Klintonla və Nyu-Yorkda yəhudi lobbisiylə məsləhətləşmələrində müəyyən məsələlər nəzərdən keçirilmişdir. Bu axarda da İrana təkbaşına hücumun zorluqları, yaradacağı beynəlxalq-regional problemlər (gərginlik) və hərbi taktika məqamları (İraqın hava məkanından istifadə) detallarıyla incələnmişdir.

Pentaqonun başçısı İsrailin İranın nüvə proqramından rahatsızlığını əsaslı sayaraq bununla razılaşdığını da bəyan etmişdir. Hələlik B.Obamanın İİR ilə danışıqlar aparılmasına (**diplomatik həllə-"A"planına**) üstünlük verilməsinə dair mövqeyinə tərəfdar çıxan M.Millen eyni zamanda belə bir xəbərdarlıq etmişdir: "Əgər danışıqlar dalana dirənsə və İran nüvə silahına yiyələnməyə yaxınlaşsa, ABŞ hərbi əməliyyatlara başlamaqdan çəkinməyəcəkdir. Piyada qüvvələrimizin İraq və Əfqanıstana səpələnməsinə baxmayaraq ABŞ-ın hava və dəniz qüvvələrinin çox güclü və strateji ehtiyatları var. Ona görə də Tehran özünün nüvə proqramını inkişaf etdirməzdən əvvəl yaxşıca fikirləşməlidir".

Diplomatiyanın təsirli olmayacağı ("A" planının işləməyəcəyi) təqdirdə İrana qarşı hərbi gücdən istifadənin, yəni **"B" planına** əl atılacağının mümkünlüyünü ABŞ-ın daha bir tanınmış hərbçisi, general Ç.Vald da təsdiqləmişdir. Vaxtilə Əfqanıstana qarşı hava əməliyyatlarına və ABŞ-ın Avropadakı silahlı qüvvələrinə komandanlıq edən Ç.Vald hərbi əməliyyatlarla İranın nüvə texnologiyası qurğularının dağıdılmasını mümkün saymışdır. Çeneralın qənaətinə görə, rəsmi Tehran ona verilən vaxtda danışıqlara başlasa da belə ABŞ İrana hərbi müdaxilə variantını ("B"planını) istisna etməməlidir. Onun fikrincə, diplomatiyanın imkanları tükənsə və yetərli olmasa onda İrana öncə yeni iqtisadi sanksiyalar tətbiq edilməlidir, habelə

ABŞ özünün hərbi potensialının təsiri effektindən yararlanmalıdır.

Ç.Vald ABŞ-ın İranın nüvə obyektlərinə hücum etmədən, yəni hərbi əməliyyatlara başlayacağı barədə ismarıclar göndərməklə də onu "nüvə siyasəti"ndən çəkindirə biləcəyini mümkün sayır. Bunun üçünsə aşağıdakılar təklif və tövsiyə edilir: ABŞ-ın İran sularında təyyarə daşıyan və digər gəmilərin əlavə qruplaşmalarını yerləşdirməsi; regiondakı hərbi müttəfiqlərinin imkanlarının artırılması; bunlar nəticə verməddikdə isə ABŞ-ın donanmasının İİR limanlarını "müharibə aktı" sayılan blokadaya alması; İİR rəhbərliyinin prezident seçkilərindən (2009) sonrakı güclü etirazlar şəraitində öz hərəkətlərinin nəticələri barədə düşünülməyə məcbur edilməsi və s.

ABŞ-ın İrana qarşı hərbi imkanlarının zəifliyi (Pentaqonun silahlı qüvvələrinin xeyli hissəsinin Əfqanıstanla İraqdakı proseslərə cəlb edilməsi) və İİR-in nüvə obyektləri barədə yetərli kəşfiyyat məlumatlarına malik olmaması, onların güclü mühafizəsi barədəki mülahizələrə isə Ç.Vald tərəfindən bu kimi əksdəlillərlə münasibət bildirilir: ABŞ-ın İrana ola biləcək hərbi müdaxiləsində əsas ağırlığın hava və dəniz qüvvələrinin üzərinə düşəcəyi; Pentaqonun İİR-ə qonşu ölkələrdəki (İraqla Əfqanıstandakı) qoşun hissələrinin hərbi əməliyyatlarda əlavə üstünlük yarada biləcəyi; xüsusi təyinatlı və kəşfiyyat bölmələrinin gizli əməliyyatlar üçün asanlıqla irəliləyəcəyi; raketdən müdafiə məqsədilə regionda əlavə qurğuların yerləşdiriləcəyi və mövcud olanlarınsa modernləşdiriləcəyi .

İranın "nüvə siyasəti"nə münasibətdə ABŞ-la İsrailin **əsasən uzlaşan və qismən uyuşmayan mövqeləri** şəraitində rəsmi Tehranın **atılan və gözlənilən addımları** da "üçbucaqdaxili proseslər"in mühüm halqasını təşkil edir. İranın hərbi müdaxilə təhlükəsindən, öncəliklə də İsrailin tezliklə həyata keçirilə bilən hava zərbələrindən rahatsızlığı və təlaşı gözönündədir. Buna görə də İİR-in MAQATE-dəki təmsilçisi Ə.Soltaniyə 2009-cu ilin avqustunda agentliyin rəhbəri M.Əl-Baradeiyə xüsusi məktubla müraciət etmişdir. Məktubda MAQATE-nin nüvə enerjisindən dinc məqsədlə istifadə edən obyektlərə hücumlara qadağa qoyan qətnaməsinin (1990) yenilənməsi vacib sayılır. İsrailin gözlənilən hücumundan müdafiə üçün BMT-dən kömək istəyən rəsmi Tehran habelə onun Baş Assambleyasını bu məsələni təcili müzakirə etməyə çağırır.

Rəsmi Tehran 2009-cu il sentyabrın əvvəllərində "İranın nüvə məsələsi"nə dair **"Altılar" qrupuna** öz təkliflərinin ifadəsi olan **sənəd** təqdim etmişdir (Bu qrupa, yəni **"5+1" formatına** beş ilkin – aparıcı nüvə silahı dövləti, yəni ABŞ, Rusiya, İngiltərə, Çin, Fransa və habelə Almaniya daxildir). "Dünya siyasəti, təhlükəsizlik və iqtisadi problemlər haqda hərtərəfli təkliflər" kimi təmtəraqlı başlıqlı bu sənəddə bir çox problemlərdən bəhs olunsa da Qərbin (ABŞ-ın) İrandan istədiklərinə müsbət cavab verilməyibdir. Yəni beynəlxalq birliyin, konkret olaraqsa "Altılar"ın başlıca şərtinə – uranın zənginləşdirilməsi proqramlarının dayandırılması və əvəzində isə sərfəli əməkdaşlıq imkanlarının qazanılması tələbinə – İranın cavabı məyusedici, qeyri qənaətbəxş sayılıbdır.

ABŞ Dövlət Departamentinin rəsmisi F.Kroulinin müvafiq açıqlamasında qeyd edilir ki, İİR-in təklifləri bizim nüvə proqramları ilə bağlı rahatsızlığımızı aradan qaldırmır. "Heç bir işə yaramayan təkliflər"ə münasibətin "Altılar"ın baş diplomatlarının **videotelefon konfransında** müzakirəsi və 2009-cu il oktyabrın əvvəlində **"5+1" formatının İstanbul sammitinin** keçirilməsi də nəzərdə tutuldu. BMT Baş Assambleyasının sessiyasında (IX.2009) iştiraka hazırlaşan M.Əhmədinejadın "onun ölkəsinin nüvə məsələsini artıq qapanmış hesab etmək olar və Tehran bu məsələdə geri addım atmaq, yəni öz qanuni haqlarını müzakirəyə çıxarmaq fikrində deyil" kimi gurultulu bəyanatı problem ətrafındakı qarşıdurmanı xeyli artırmışdır. Eyni zamanda o, İranın ABŞ-la və digər Qərb dövlətləri ilə danışıqlara qarşı olmadığını da bildirmişdi.

Bu arada İranın Atom Enerjisi Agentliyinin istefa verən

sədri Q.Ağazadəni əvəz edən Ə.Salahi də nüvə məsələsində Qərblə anlaşmanın zamanının yetişdiyini bildirdi. "Son altı ildə davam edən fikir ayrılıqlarının aradan qaldırılmasını mümkün sayan təzə sədrin bu açıqlaması və təşkilata 12 il başçı olan Q.Ağazadənin əvəzlənməsi **İİR-in yeni xətt seçimi** kimi də dəyərləndirildi. Ancaq bu **tələsik qənaət** idi. Belə ki, İİR prezidentinin M.əl-Baradeyiyə ünvanladığı məktub dünyada, xüsusilə **"Böyük 20-lər"**in ABŞ-da keçirilən sammitində (Pitisburq, IX.2009) əsl **"bomba partlayışı-şok" effekti** yaratdı.

Məktubda İranın Qum şəhəri yaxınlığında ikinci zənginləşdirilmiş uran zavoduna malik olması barədə məlumat açıqlandı (İranda ilk belə zavod 2002-ci ildə Natanzda qurulmuşdu). İranın **2-ci uran zavodu məsələsi** "Böyük 20-lər"in sammitinə qatılan dövlət və hökumət başçılarını ciddi rahatsızlıq və müxtəlif rəylər doğurdu. B. Obama İİR-in bu hərəkətini "nüvə silahının yayılmamasına dair beynəlxalq öhdəliklərə qarşı açıq-aşkar çağırış" kimi qiymətləndirdi. O habelə beynəlxalq ekspertlərin dərhal məxfi obyektə buraxılmalarını tələb etdi. Q.Braun Tehranın dünyanı aldatmasının "beynəlxalq birliyi hiddətləndirdiyini və sarsıtdığını" bildirdi. N.Sarkozi İrana sərt ifadələrlə xəbərdarlıq ünvanladı. D.Medvedyev "yeni (qapalı) obyekti bütün ölkələr üçün gözlənilməz" sayaraq İİR-in 2009-cu il oktyabrın 1-nə qədər öz nüvə proqramının dinc xarakter daşıdığına dair sübutlar təqdim etməli olduğunu açıqladı.

BMT Baş katibi Ban Ki Mun İran prezidenti ilə görüşündə "yeni məxfi obyekt" xəbərinin yaratdığı əndişəni dilə gətirdi. M.Əhmədinejadsa Nyu-Yorkda keçirdiyi (IX.2009) mətbuat konfransında Qərb liderlərinin məsələ ətrafındakı hay-küyünü **"əsassız qalmaqal"** adlandıraraq ölkəsinin "nüvə siyasəti"nin, o cümlədən də yeni obyektin (2-ci uran zavodunun) yalnız dinc məqsədlərə xidmət edəcəyini bəyan etdi. Onun fikrincə, hələ 6 ay sonra işə salınacaq obyekt barəsində indi açıqlama verilməsi beynəlxalq qaydalara zidd deyil (Mövcud beynəlxalq qaydalara görə, nüvə obyektinin varlığı barədə

xəbərdarlıq ən geci onun işə düşməsindən 180 gün əvvəl edilməlidir). Zavodla bağlı hay-küy qaldıranların səhv etdiklərini və peşman olacaqlarını söyləyən İİR prezidenti bunu da bildirdi ki, cənab Obama nüvə eksperti deyil, BMT ilə MAQATE öz işini görsün və obyektin təftişinə etirazınız yoxdur, heç nədən qorxmuruq.

M.Əhmədinejadın bu demarşı ABŞ-a (Qərbə) qarşı bir sıra təhdid və tələblərlə də müşayiət olundu. Rəsmi Tehran İranda törədilən (X.2009) güclü partlayışa görə ABŞ-la Pakistanı ittiham etdi: "B.Obama İranla qurmaq istədiyi körpüləri yandırıb" (İİR parlamentinin sədri Ə.Laricani). İranın hərbi gəmisi Fars körfəzində – Bəhreyndən Dubaya gedərkən onun ərazi sularına girdikləri adı altında – ingilis yaxtasını 5 dənizçi ilə birlikdə girov götürdü (2007-ci ildə də Böyük Britaniyanın 15 hərbi dənizçisi əsir alınmışdı). Daha sonra İran həmçinin BMT-dən kompensasiya istəyəcəyini bəyan edibdir. Bu barədə məsələ İİR prezidenti tərəfindən **"İqlim sammiti"ndə (Kopenhagen, XII.2009)** qaldırılıbdır. Onun iddiasına əsasən SSRİ, ABŞ və İngiltərə İkinci Dünya müharibəsi vaxtı İranın ərazisi və infrastrukturundan istifadə etməklə ölkəyə böyük ziyan vurublar: "Bu dövlətlər Almaniya üzərində qələbədən sonra ondan kompensasiya alıblar. İran isə neft sənayesinin milliləşdirilməsini əngəlləməkdən ötrü. ABŞ-ın müharibədən 10 il sonra təşkil etdiyi hərbi çevrilişdən başqa heç nə almayıbdır". İİR rəhbərliyi dəyən zərərin hesablanmasından sonra BMT Baş katibinə xüsusi məktubla müraciət ediləcəyini də bildirmişdir. Hərçənd ki, az öncə sadalanan hərəkətlər, habelə bu tələb Qərbdə ciddi qəbul olunmur və İİR-in "xox gəlməsi" hesab edilir.

Bir çox ekspertlər və mütəxəssislər belə hesab edirlər ki, İİR-in avadanlıqları müasir olmayan Natanz zavodunu gücləndirməklə paralel sürətlə gizli nüvə proqramını reallaşdırması barədə şübhələr çoxdan vardı. Və, buna görə də, İran Qərbin açıqlamasını gözləmədən onu qabaqlamaq istəmişdir. Müqəddəs Qum şəhəri ətrafında-İranın İnqilab Keşikçiləri Korpusu-

nun bazalarından birinin ərazisində – inşa edilən bu zavodun mövcudluğunun Qərbə məlum olmasını İİR rəhbərliyi 2009-cu ilin mayında bilibdir. İsrail XİN-i A.Liberman İranın "məxfi zavoda dair etirafının onları təəccübləndirmədiyini" və bunun İİR-in nüvə fəaliyyətlərinin aparıldığı yeganə obyekt olmaya biləcəyini vurğulayıbdır. Qərbdəki mənbələrin qənaətinə görə, hətta B.Obama da bu, məxfi obyekt barədə xeyli əvvəl məlumatlandırılıbdır.

Mütəxəssislərin izah və şərhlərindən bəlli olduğu kimi, dinc məqsədlər, yəni elektrik enerjisi istehsalı üçün inşa edildiyi bildirilən zavod atom bombasının hazırlanmasından ötrü yetərli imkanlara malikdir. İransa zavodda hazırlanacaq zənginləşdirilmiş uranın aşağı faizliliyiu üzündən nüvə başlıqlarından ötrü yetərli olmadığını iddia edir. Ekspertlər belə düşünürlər ki, zavodun Tehrandan 100 km məsafədə-Qum şəhəri ətrafında, dağlar arasında, özü də İnqilab Keşikçiləri Korpusu bazasının yaxınlığında – böyük vəsait hesabına tikilməsi və hava hücumundan etibarlı müdafiə sistemləri ilə qorunması onun "dinc məqsədlərli" təyinatına ciddi şübhələr yaratmışdır. Qənaətsə budur ki, İİR-in 2004-cü ildən etibarən bərpa edilən hərbi səciyyəli nüvə fəaliyyətləri *çox təhlükəlidir* (Sözgəlişi, ABŞ kəşfiyyatı İranın 2007-ci ildən başlayaraq bu növ fəaliyyətlərini dondurduğuna dair prezidentə hesabat da təqdim etmişdi).

"Məxfi obyekt məsələsi"nin ortaya çıxması ilə təxminən eyni vaxtda İran mütəxəssislərinin uzaq Venesuelada (M.Əhmədnejadın yaxın dostu U.Çavesin ölkəsində) uran ehtiyatlarını aşkarlamasına və oradan İİR-ə uran ixracına dair məlumatlar yayıldı. Son vaxtların məlumatları İranın təmizlənmiş uran filizi almaq üçün Qazaxıstanla razılığa gəlmək üzrə olduğundan xəbəbr verir. Bu məlumatın ABŞ-ın "Associated Press" agentliyi tərəfindən MAQATE üçün hazırlanan gizli sənədə istinadən yayıldığı bildirilir (Bunun ABŞ-ın xüsusi xidmət orqanlarının "işi" olduğu da güman edilir).

Məlumatdan Qazaxıstanın İrana 450 mln. dollar dəyərində 1350 ton təmizlənmiş uran konsentratı satmağa hazırlaşdığı bəlli olur (Bu həcmdə uranla 150-yə yaxın nüvə başlığı hazırlana bilər). ABŞ Dövlət Departamenti belə bir müqavilənin bağlanması ehtimalını İİR-ə qarşı BMT sanksiyalarının kobud çəkildə pozulması kimi səciyyələndiribdir. Ekspertlər rəsmi Tehranın "uran axtarışı"nı xeyli intensivləşdirdiyini də bildirirlər. Çünki hazırda İrandakı nüvə obyektləri (2 zavod və s.) XX əsrin 70-ci illərində Cənubi Afrikadan gətirilən xammalla işləyir. 2008-ci ilə aid məlumatlara görə, həmin ehtiyatların 2/3-sindən artıq istifadə edilibdir.

Belə bir mürəkkəb vəziyyətdə Cenevrədə 2009-cu il oktyabrın 1-də BMT TŞ-nin beş daimi üzvü və Almaniya ilə **("Altılar"la) İran arasında** sonuncunun nüvə proqramına dair xeyli vaxt ərzində dondurulan danışıqlara start verildi. (Bu da maraqlıdır ki, həmin danışıqlar prosesi çərçivəsində-son 30 ildə **ilk dəfə** olaraq ABŞ və İran rəsmiləri arasında **birbaşa görüş** baş tutub və müzakirələr aparılıbdır. Yəni ABŞ Dövlət Katibinin müavini U.Bernslə İİR Atom Enerjisi Agentliyinin başçısı S.Cəlili ayrıca bir araya gələrək məsləhətləşiblər). İranın 2-ci uran zavoduna malik olmasının etirafı dönəmində və bunun ardınca da *ballistik raketlərin* sınağının ərəfəsindəki Cenevrə danışıqları gərgin keçmişdir. Bu danışıqlara İranın nüvə fəaliyyətlərinə dair qarşıdurmaya **diplomatik yolla son qoyulması şansı** kimi yanaşılırdı.

Cenevrə danışıqları dialoqun davam etdirilməsi barədə razılaşma ilə sona yetdi. Bu da **"üçlü təklif"**ə (ABŞ, Rusiya və Fransanın istəyinə) İİR-in xoş məram göstərməsi əsasında alınıbdır. İran "üçlərin" enerji istehsalı üçün nüvə yanacağını xaricdən almağa və reaktorlara lazım olan uranı ölkədən kənarda zənginləşdirməyə, daxildəki müvafiq fəaliyyətləri dondurmağa dair təklifinə öncərazılıq verdi. İranla onun nüvə proqramı ilə bağlı danışıqların başlanğıcının konstruktiv olduğunu bildirən B.Obama rəsmi Tehrandan işgüzar addımlar gözlənildiyini də vurğulamışdır: "Yalnız danışmaq xatirinə

danışıqlar bizi maraqlandırmır və qane etmir. Əgər İran yaxın gələcəkdə öz öhdəliklərinin yerinə yetirilməsi istiqamətində addımlar atmasa, ABŞ ucu-bucağı görünməyən danışıqları davam etdirməyəcəkdir. Bu addımlar atılarsa, onda Birləşmiş Ştatlarla daha yaxşı münasibətlərə, İranın beynəlxalq icmaya daha sürətli inteqrasiyasına və bütün iranlılar üçün yaxşı gələcəyə cığır açılacaq".

ABŞ prezidenti MAQATE ilə əməkdaşlığa razılaşan İİR-in Agentliyin ekspertlərini ən uzağı iki həftə ərzində Qum yaxınlığındakı müəssisəyə buraxılmalı olduğunu da önə çəkdi. 2-ci uran zavodundakı zənginləşdirici qurğu ilə əlaqədar əməkdaşlığa razılaşan İran 2009-cu il oktyabrın lap əvvəlində M.əl-Baradeyi ilə Tehranda müzakirələr apardı. Burada İranın uranının xaricdə zənginləşdirilməsinə dair **"üçlü təklif" barədəki danışıqların planı** hazırlandı. İran rəsmisi Ə.Salahi bildirdi ki, ölkəsi artıq tam nüvə zəncirinə və lazımi enerjini əldə etməkdən ötrü bütün zəruri texnologiyaya malikdir. "İran uranı hasil edə, emalını həyata keçirə, yüksək faizlə zənginləşdirə və onun tullantılarını zərərsizləşdirə bilər. Uranı zənginləşdirməyə cəhd etmirik və məqsədimiz uranın sənaye istehsalına *nail* olmaq, gələcək üçün yanacaq ehtiyatı tədarükü görməkdir". Növbəti görüş-müzakirələrin oktyabrın 19-da Vyanada keçirilməsi razılaşdırıldı.

Ancaq həmin görüşərəfəsi bəzi açıqlamalar **İİR-in ikili oyunlarından** xəbər verirdi. Belə ki, İranın müvafiq strukturunun rəsmilərindən bəziləri bildirdilər ki, xaricdən nüvə yanacağı alınmasına etirtaz olunmur, ancaq uranın ölkə daxilində zənginləşdirilməsi də davam etdiriləcəkdir. Yəni uranın zənginləşdirilməsindən ötrü xaricə göndərilməsindənsə onun daxildə əldə edilməsi üstün tutulurdu. Habelə Vyana danışıqlarında kompromisin əldə olunmayacağı təqdirdə, uranın xaricdən alınmasından imtina ediləcəyi və daxili imkanlardan yararlanmağa üstünlük veriləcəyi bildirilirdi.

"Altılar"la İranın Vyana danışıqlarında (19.X.2009)

Cenevrədəki razılaşmanın detalları müzakirə edildi. Müzakirələrin sonunda **İrana təklif edilən Qərb sxeminə** görə, İran özü uranı yalnız 3,5% həddində zənginləşdirə bilər. Sonra isə Rusiyaya ixrac edilərək orada 19-20% həddində zənginləşdirilə biləcək həmin uran Fransaya aparılaraq Amerika texnologiyası əsasında nüvə yanacağına çevrilib ölkəyə qaytarılmalıdır. (Nüvə reaktorları dayandırıldıqdan sonra yanacağın tullantıları yenidən Rusiyaya aparılmalıdır). Göründüyü kimi, İran bununla tədqiqat reaktorunda işlətməkdən ötrü kifayət qədər yanacaq ala bilsə də, nüvə silahı hazırlamaqdan ötrü yetərli urana malik olmur. Qərbin bu planı İİR-in zənginləşdirilmiş uran ehtiyatlarının xeyli azaldılmasına hesablanıbdır. Başlıca məqsədsə Qərb mənbələrinə görə, İranın hazırda malik olduğu 3,6 ton uranın hamısının, o cümlədən də 1200-1400 kq zənginləşdirilmiş hissəsinin 2009-cu ilin sonunadək ölkədən çıxarılması imkanı qazanmaqdan, beləliklə də, onun nüvə silahına yiyələnməsinə yolverməməkdən ibarət idi.

M.əl-Baradeyi tərəfindən **"böyük əhəmiyyəti olan bir görüş"** sayılan Vyana danışıqlarında İran üçün təkliflərə yeni cavab müddəti (oktyabrın 23-ü) müəyyənləşdirildi. İran tərəfi isə cavabı xeyli ləngidərək uzun müddət ərzində faydalandığı uğurlu və sınanmış taktikaya əl atdı. İİR **diplomatiyasının** sxemi belədir: vaxtı uzatmaq — təkliflərə təşəbbüs və təvsiyələrlə cavab vermək-danışıqlar prosesini yenidən dalana dirəndirmək — Qərbin yeni təkliflərini almaq və s. Vyana danışıqlarında qoyulan vaxt bitdikdən az sonra sxem işə salındı. İranın rəsmi çevrələrində "zənginləşdirilmiş uranın 1 kiloqramını da kiməsə verməyə hazırlaşmırıq, Qərb əməkdaşlıq üçün yeni variant tapmalıdır" kimi xəbərdarlıq-çağırışlar səsləndirildi. Xarici İşlər naziri M.Mottəkinin MAQATE-yə (BATENA-ya) "Qərbin uranın zənginləşdirilməsinə dair təklifinə cavabla əlaqədar əlavə dəlillər təqdim ediləcəkdir" açıqlamasının ardınca 2009-cu il oktyabrın 29-da rəsmi Tehranın təklifləri ortaya çıx(arıl)dı.

Qərbin təkliflərinə **"hə, amma..."**, **yəni şərtlərli müsbət cavab** əslində MAQATE-nin planından imtina deməkdir. **"Təkliflərə təkliflərlə cavab"la** İran özünün zənginləşdirilmiş uranının bir dəfəyə yox, hissə-hissə xaricə göndərilməsinə razılıq istədi. Bununla həm Qərbdən nüvə yanacağı almaq, həm də zənginləşdirilmiş az uranı xaricə ixrac etmək, beləliklə, sinxron mübadilə olan bu iki prosesin eyni vaxtda həyata keçirilməsi məqsədi güdülür. Göründüyü kimi, İranın israrla yayındığı başlıca məsələ öz uranını xaricə göndərməməkdən ibarətdir. Uranın Rusiyaya az hissələrlə daşınmasını təklif edən İİR rəhbərliyi habelə nüvə yanacağı mübadiləsi planına Çinin də qoşulmasını məsləhət bilmişdir.

Rəsmi Tehranın təkliflərinə münasibətini ABŞ "İran mövqeyini aydınlaşdırmalı və söz oyununa son qoymalıdır", Avropa İttifaqı isə "İİR-in nüvə proqramını inkişaf etdirməsi və beynəlxalq öhdəliklərindən davamlı olaraq imtina etməsi dərin narahatlıq yaradır" kimi yanaşmalarla bildirmişlər. Aİ-dən Fransa və Almaniya İranın yeni təklif-tələblərinin anlaşmaya yetişilməsini əngəlləyəcəyinə işarə ediblər (Yeri gəlmişkən, Azərbaycan MAQATE-də İrana qarşı qərar layihəsi ilə bağlı keçirilən səsverməyə qatılmayıbdır. Bu, diplomatik akt-gediş M.Əhmədinejadla E.Məmmədyarovun Tehrandakı danışıqlarında (XII.2009) İİR prezidenti tərəfindən "qardaşlığın göstəricisi" kimi dəyərləndirilib və təşəkkürlə qarşılanıbdır). ABŞ mətbuatı **"Əhmədinejadın məqsədi Obamaya kələk gəlməkdir"** yazmaqla İrana münasibətin sərtləşdirilməsinə çağırmışdır. İİR prezidenti isə Qərbin İranla qarşıdurmadan əl çəkərək əməkdaşlığa hazır olduğunu bildirmişdir: "Öncə onlar nüvə proqramının dayandırılmasını tələb edirdilər, indi isə nüvə yanacağının mübadiləsinə, AES-lərin tikintisində əməkdaşlığa razıdırlar".

"Altılar"la İran arasında qarşılıqlı etimadsızlığın gedərək artdığı bir məqamda **M.əl-Baradeyi** 2009-cu ilin noyabrında **yeni (növbəti) bir təklif** irəli sürübdür. Bu təkliflə İranın 1200

(1400) kq zənginləşdirilmiş uranının Türkiyədə nüvə yanacağına çevrilməsi məsləhət görülür. "Altılar"ın da əleyhinə olmadığı həmin gözlənilməz təklifə İranın müsbət yanaşması ehtimalı onun Rusiya və Fransadan daha çox Türkiyəyə etimad göstərməsinə hesablanıbdır (Bəzi mənbələr bu təklifin elə Türkiyəyə məxsus olduğunu iddia edirlər. Məsələnin Ə.Davudoğlunun 2009-cu ilin noyabrında İİR-ə səfəri zamanı nəzərdən keçirildiyi təsdiqlənmişdir). Nəticəsi məlum olmayan-açıqlanmayan bu danışıqlardan sonrakı proseslər Türkiyənin səylərinin də nəticəsizliyinə dəlalət edir.

M.əl-Baradeyi vəzifəsini tərk etməzdən az öncə bir daha İranı beynəlxalq birliyin son təklifini qəbul etməyə səsləyibdir. Uranın xaricdə emalını və sonra da mülki istifadə üçün İrana qaytarılmasını nəzərdə tutan təklif – planı **"qarşılıqlı faydalı anlaşma üçün hazır, lakin əldən çıxa bilən imkan"** kimi dəyərləndiribdir. O, **"Altılar"ın Brüsseldəki məsləhətləşməsi**nin də ümidsizlik şəraitində keçdiyini etiraf etmişdir.

İranın nüvə fəaliyyətləri ətrafında yaranan son durum bir çox ekspertlər tərəfindən **"müharibə riskinə yaşıl işığın güclənməsi"** təki səciyyələndirilir. ABŞ hökumətinə yaxınlığı ilə tanınan "The Wachington Times" İranın nüvə fəaliyyətlərini hərbi səciyyəli və onunla müharibəni qaçılmaz sayaraq yazır ki, **Ağ Evin iki variantı var:** "ya İsrailə İrana zərbə endirmək üçün sanksiya vermək, ya da Tehranın nüvə silahına malik olması ilə barışmaq". Qəzetin mövqe və qənaətinə görə, İrana hərbi zərbələr təhlükəli nəticələrə (Qərbdə iqtisadi böhranın dərinləşməsi, neftin barrelinin 300 dollara qədər bahalaşması və s.) səbəb ola bilər. Digər yandan da, İranın nüvə silahına yiyələnməsi daha dəhşətli və dağıdıcı regional müharibəyə yol açar.

Bu kimi çağırışlara baxmayaraq, B.Obama hökuməti hələlik İrana daha sərt və təsirli sanksiyaların tətbiq edilməsinə üstünlük verilməsinin tərəfdarıdır. Müdafiə naziri R.Geyts CNN telekanalına müsahibəsində (IX.2009) bildirib ki, İrana qarşı bütün variantlar, o cümlədən hərbi gücdən istifadə

prezidentin masası üzərindədir. Ancaq **diplomatiya və sanksiyalar ən təsirli variant** sayılır: "Reallıq budur ki, İrana hərbi zərbə vaxt udmaqdan başqa heç nə verməyəcək. İran indi digər dövlətlər qarşısında çox pis mövqedədir, çünki hamını aldadıb. Bu da yeni beynəlxalq sanksiyalar üçün ciddi əsas verir".

Qərbdə yayılan məlumatlara görə, İranın nüvə proqramından imtina etməyəcəyi və Ağ Evlə dialoqa getməyəcəyi təqdirdə ona qarşı **xüsusi plan** işə düşəcəkdir. ABŞ konqresi tərəfindən **"C" planı** kimi təsvir edilən bu **tədbirlər toplusu** hələ 2009-cu ilin yayında hazırlanmışdır. Həmin planın bəzi məqamları konqresin Xarici Əlaqələr Komitəsinin sədri H.Bermanın Nümayəndələr Palatasında İranla bağlı dinləmələrdə verdiyi (VII.2009) bəyanatında özünə yer alıbdır. Bəyanatsa 260 parlamentarinin dəstəyini alan **"Neft Sanksiyalarının Tətbiqinə dair Akta"** əsaslanır. İrana qarşı tədbirlər planında həmin Akta düzəliş edilməsi və onun İrana neft məhsullarının ixracında iştirak edən, yaxud da 20 mln. dollardan artıq sərmayə qoyan şirkətlərə (şəxslərə) qarşı yönəldilməsi istənilir. (İİR əsas neft ixracatçılarından olsa da, neftayırma imkanlarının məhdudluğu üzündən iri həcmdə benzin idxal edir)."C" planı İranın Mərkəzi bankına qarşı sanksiyaları da əhatə edir.

Bəzi ekspertlər ABŞ-ın İrana tətbiq edəcəyi ehtimal olunan sanksiyaların Azərbaycana da təsir göstərəcəyini düşünürlər. Belə ki, artıq Konqresin Nümayəndələr Palatasında 412 səslə qəbul edilən sanksiyalar paketinin Senatda təsdiqlənməsi və prezident tərəfindən imzalanmasından sonra İrana benzin satan şirkətlər də müvafiq müqavilələri ləğv etmək məcburiyyətində qalacaqlar. Əks halda onların cəza tədbirləri ilə üzləşəcəyi məlumdur (ABŞ-ın İranla əməkdaşlıq edən bir çox iri kompaniyaları cəzalandırması faktları mövcuddur). (Yeri gəlmişkən, İran özü dünyanın çox böyük həcmdə neft ixrac edən dövlətlərindən olsa da, neft məhsullarına tələbatını daxili yerli istehsal hesabına ödəyə bilmir. Ölkəyə lazım olan benzin və dizel yanacağının 40 faizi, yəni təxminən 10 milyonlarla ton

neft məhsulları idxal edilir. Arada özünü göstərən qıtlıqla bağlı başverən etirazlar "benzin üsyan"ı da adlandırılırdı).

Bu kontekstdə "ARDNŞ" ilə bağlı da problemlərin ortaya çıxması istisna olunmur. Məsələ burasındadır ki, o, Kanadanın "East Energy" şirkəti ilə müqaviləsinə əsasən ayda İrana 20-30 min ton benzin satır. Bu hal həm də Azərbaycanın BMT TŞ tərəfindən İrana tətbiq olunan qadağalara indiyədək qoşulmamasına dəlalət edir. AR həmçinin həmin sanksiyalarla İranın nüvə proqramını maliyyələşdirən dövlət banklarının xarici filiallarına qoyulan qadağalara baxmayaraq "Bank Melli İran"ın Bakı ofisinin fəaliyyətinə əngəl törətmədi. Bütün bunların AR-in İranın daha sərt təhdidlərinə məruz qalmaması üçün elə ABŞ-ın özünün xeyir-duası ilə edildiyini düşünənlər də çoxdur. Ağ Evin İranla bağlı dövriyyəyə çıxarmaq istədiyi qadağalara Azərbaycanın da cəlb ediləcəyini gözləməyənlər də kifayət qədərdir. Bu hal isə, əvvəlki izahla yanaşı, ABŞ-ın sıxışdırdığı AR-in Rusiyaya meyllənməsini sürətləndirə bilməsi qayğısı ilə də əlaqələndirilir. Belə vəziyyət-perspektivsə öncə elə ABŞ-ın öz maraqlarına zərbə olar.

Son məlumatlara görə, ABŞ Senatı prezidentə İrana yeni sanksiyalar tətbiq etmək səlahiyyəti verən qanunu təsdiqləyibdir. Həmin sanksiyalar İİR-ə benzin satan xarici şirkətlərin ABŞ-dakı biznes fəaliyyəti qurmalarına yol verilməyəcəyini, onların bank hesablarına həbs qoyulacağını və s. nəzərdə tutur. Sanksiyalarla İranı ciddi iqtisadi böhranla üzləşdirib geri çəkilməyə vadar etmək məqsədi güdülür. İran isə sanksiyaların fəsadlarından yayınmaqdan ötrü tədbirlər görür (Venesueladan iri həcmdə benzin idxalı barədə anlaşmanın imzalanması, ölkədə xeyli neftayırma zavodlarının inşasına başlanılması və s).

ABŞ-ın İrana qarşı sanksiyalarının yalnız İsrailin İranla müharibəyə başlamayacağı və bununla Ağ Evi də öz arxasınca **"təhlükəli, böyük müharibə"**yə çəkməyəcəyi təqdirdə işləyəcəyi də önəmli məsələdir. B.Netanyahu artıq İranın nüvə silahına yiyələnmək təhlükəsini önləmək üçün ona hava zərbələri

endirilməsindən başqa çıxış yolunun qalmadığını düşünür. (Yeri gəlmişkən, ABŞ-ın vitse-prezidentlərindən D.Çeyni (əvvəlki) və C.Bayden (indiki) İsrailin İrana hava zərbə endirmələrinə qarşı çıxmayan dövlət rəsmilərindəndirlər. Birinci vaxtılə demişdi ki, "İsrail İranın nüvə obyektlərinə qabaqlayıcı zərbələr endirmək barədə qərar qəbul etsə, Vaşinqton Tel-Əvivə mane olmayacaq". İkincinin qənaətinə görə isə, İsrail İrana nüvə zərbəsi endirməkdə müstəqildir, çünki bu onun suveren hüququdur").

Ağ Ev İrana sanksiyaların tətbiqi məsələsində əsasən Rusiyanın və qismən də Çinin mövqelərini də nəzərə almaq məcburiyyətindədir. Rusiyanın bu məsələdəki mövqeyi xeyli məqsədli və tərəddüdlü görünür. D.Medvedyevlə V.Putin bir dönəm bu tədbirin əleyhinə mövqe nümayiş etdiriblər. Prezidentin fikrincə, sanksiyalar proseslərin daha neqativ yönlərdə inkişafına səbəb ola bilər və İranın müəyyən qədər konstruktiv münasibət göstərməsilə çox şeyə nail olmaq mümkündür.

Kreml İranı MAQATE-nin təkliflərini qəbul etməyə çağırmaqla yanaşı, onunla diplomatik yolla davranılmasını istəyir. Bu məsələlər ABŞ prezidentinin Milli təhlükəsizlik məsələləri üzrə köməkçisi C.Consun Moskvada Rusiya rəsmiləri ilə apardığı danışıqlarda (X.2009) mühüm yer tutmuşdu. Həmin müzakirələrdə rəsmi Moskva ABŞ-ın İrana qeyri-diplomatik yolla təsir etmək ehtimalını bəyənmədiyini bildirmişdi. Rusiya həmçinin İrana "S-300" raket komplekslərini vermədiyini də bəyan etmişdi.

İrana sanksiyalar tətbiqinə dair ABŞ-Rusiya məsləhətləşmələri Asiya-Sakit Okean Hövzəsi Ölkələrinin (**APEC-in**) 2009-cu ilin noyabrında **Sinqapurda** keçirilən **sammiti** çərçivəsində də aparılıbdır. Görüşdən sonra "Prezident Medvedyev ABŞ-la münasibətlərə daha konstruktiv, açıq və ağıllı yanaşır" söyləyən B.Obamanın Rusiyanı da İrana qarşı gözlənilən sanksiyalara qoşulmağa razı sala bildiyi məlum olubdur. İranın bu dəfə də , yəni 2009-cu ilin sonunadək dialoq-əməkdaşlıqdan

yayınması halında ona qarşı yeni "üzücü" sanksiyaların tətbiqi razılaşdırılıbdır və onlar istənilən (lazım olan) vaxt dərhal elan edilə bilər. İİR-in daha 10 zənginləşdirilmiş uran zavodu tikmək niyyətini açıqlaması **Rusiyanın "dilini qısa edibdir".** Onun diplomatlarından biri "biz sanksiyalarsız ötüşməyə üstünlük verərdik, lakin danışıqlar yenə dalana dirənib və başqa yol qalmaya bilər. Ona görə də İran bizdən kömək gözləməsin "açıqlamasının ardınca (XII.2009) Rusiya MAQATE-nin İİR-lə bağlı qətnaməsini dəstəkləyibdir.

Dövlət Departamentinin (H.Klintonun) arada İranı müharibə ilə hədələməsinə, "hərbi qüdrətimiz buna imkan verir" kimi açıqlamasına və Pentaqonun (admiral M.Millenin) "nüvə silahına yiyələnən İran İsrailin mövcudluğu, bütün region üçün təhlükə olardı" təki xəbərdarlığı da nəzərə alınmaqla, bütövlükdə, B.Obama hakimiyyəti hələlik gözləməyə üstünlük verir. Ən son məlumatlara görə isə, ABŞ qəti qərara gəlməkdən ötrü İrana 2010-cu il yanvarın 22-dək daha bir möhlət (şans) vermişdir. Ağ Ev bundan sonra, nəhayət ki, İİR-in vaxtı yenə də uzatmasına və "söz oyunu" ilə məşğul olmasına dözməyəcəkdir. İİR-in nüvə proqramının 2010-cu il yanvarın ortalarında BMT TŞ-də müzakirəyə çıxarılacağı da gözlənilir.

İranın atom silahını sınaqdan keçirməyə hazırlaşdığı barədə 2009-cu il dekabrın ortalarında üzə çıx(arıl)an məxfi sənəd yeni beynəlxalq qalmaqala səbəb olmuşdur. Böyük Britaniyanın "The Times" qəzetinə daxil olan məxfi sənədin 2007-ci ildə hazırlandığı bildirilir. Sənəddə atom bombasının mühüm komponenti sayılan və nüvə başlığını partlatmaqdan ötrü quraşdırılan neytran detanatorunun sınaqdan çıxarılmasına dair dördillik plandan bəhs olunur. MAQATE sənədin onun müşahidəçiləri tərəfindən əldə edildiyi iddiasındadır ("The Sunday Telegraph" isə 6 ay əvvəl şübhəli şəkildə yoxa çıxdığı güman edilən iranlı tanınmış fizik Ş.Əmirinin 2009-cu il dekabrın əvvəlində Frankfurt hava limanında BMT müfəttişlərinə bəzi məxfi sənədlər verərək ölkəsinə uçduğunu yazır). Məxfi sənə-

din BMT TŞ-də İrana qarşı sanksiyaların tətbiqi barədə aparılacaq müzakirələrin ərəfəsində "peyda ol(un)ması" da təsadüfi deyil. Ekspertlərə görə, məxfi sənəddəki faktın təsdiqlənməsi İİR-ə qarşı müharibəyə ciddi əsaslar verə bilər.

Proseslərin axarından görünür ki, İranın "şıltaqlığı" uzun sürə və daimi ola bilməz. İrana qarşı hərbi əməliyyatların lənginəsinin müəyyən səbəbləri var. Əslində, bir növ, İraqa tətbiq olunan taktika yeni şəraitdə İrana qarşı hazırlanır. Belə ki, vaxtılə İraqa da müxtəlif qadağalar qoyulmuşdu, Ağ Evin rəsmiləri Səddam Hüseynin də ünvanına sərt ittihamlar səsləndirirdilər, ona dəfələrlə ciddi xəbərdarlıqlar edilmişdi. Və, ABŞ-ın yalandan hədə-qorxu gəldiyinin düşünüldüyü halda müharibəyə qərar verildi; bununla da problem əsasən həllini tapdı. Belə bir proses-hadisəni İranın da yaşadığı gözönündədir. İranın İraq olmadığını yaxşı bilən ABŞ-ın ehtiyatlı davranması da başadüşüləndir.

Eyni zamanda müəyyən önləyici tədbirlər də görülməkdədir. İranın raket hücumlarına qarşı müdafiə işləri gücləndirilir. Onların uğurla zərərsizləşdirilməsi məqsədilə 2010-cu ilin yanvarında hərbi təlimlərin keçirilməsi planlaşdırılırdı. Təlimlərə Kaliforniya və Alyaskadakı raketdən müdafiə bazaları və ABŞ-ın Fars körfəzindəki hərbi gəmiləri cəlb edilməli idi. Müvafiq tədbirlər sırasında ABŞ-ın uran qaçaqmalçılığını əngəlləməkdən ötrü Gürcüstanın Azərbaycan və Ermənistanla sərhədlərində radioaktiv maddələrin aşkarlanması üçün dəyəri 50 mln. dollar olan bahalı elektron qurğu yerləşdirməsi də xüsusilə qeyd edilməlidir.

"İran-ABŞ-İsrail üçbucağı"nda İİR-in "nüvə siyasəti" müstəvisində və habelə Tehranın Vaşinqtonla, Tel-Əvivlə münasibətləri kontekstində **Azərbaycanın maraqları və mövqeyi** məsələləri də olduqca önəmli, diqqətçəkicidir. ABŞ-ın "İran siyasəti"nin hər hansı bir formada (istər orada rejimin daxildə ciddi gərginlik yaratmaqla dəyişdirilməsi, istərsə də ölkənin federallaşması və ya parçalanması səviyyəsində) həyata keçirilməsində **"Azərbaycan amili"** gündəmə gələ bilər. İran-ABŞ qarşıdurmasının istənilən mümkün qaydada həllində Azərbaycanın həm cənubu, həm də şimalı ilə əlaqədar ciddi məsələlərin ortaya çıxma ehtimalı böyükdür.

Teokratik hakimiyyətin daxili sosial və milli hərəkatlar sayəsində əvəzlənməsi variantında **"Güney Azərbaycandan bəhrələnmə təcrübəsi"** yenidən işə yaramış olar. İranda baş tuta biləcək gərgin ictimai-siyasi mübarizə axarında Güney Azərbaycanda yenidən yüksəlməsi istisna edilməyən milli hərəkatdan bir daha istifadə – özü də yalnız mövcud rejimin devrilməsindən o tərəfə keçməməklə mümkündür (Cənubi Azərbaycanda milli mücadilənin məhz dünya şərtlərinin dəyiş-(diril)məsi fonunda baş verməsinə dair yaxın keçmişin təcrübəsi (faktları) da bunu söyləməyə əsas verir). "İranın nüvə siyasəti məsələsi"nin onun federallaşması və ya parçalanması sonluğu ilə yekunlaşması ehtimalı da Güney Azərbaycanla bağlı bir sıra məqamların önə çıxmasını şərtləndirə bilər. (Bu zaman, xüsusilə də federallaşma halında Azərbaycanın şimalı kimi cənubunun da parça-parça edilməsi perspektivi ilə əlaqədar **layihə və modellər** az öncə nəzərdən keçirilmişdir).

ABŞ-İran qarşıdurmasının, yuxarıda qeyd olunan formalarda, ələlxüsus da, hərbi müdaxilə yolu ilə aradan qaldırılması prosesinin **Azərbaycan Respublikasını da əhatə edəcəyi** istisna olunmur. ABŞ generalı Ç.Valdın İranın "nüvə siyasəti"nin əngəllənməsinə dair dəyərləndirmələrində "Azərbaycan və Gürcüstan kimi regional tərəfdaşların silahlı qüvvələrinin modernləşməsinə, güclənməsinə yardım etmək lazımdır" təki məsləhəti də özünə yer alması heç də təsadüfi deyildir. ABŞ hərbi aviasiyasının İrana müdaxiləsi şəraitində İraq və Əfqanıstanla yanaşı, AR-in hava məkanından istifadənin yollarının da nəzərdən keçirilməsi barədə məlumatlar yayılmaqdadır. Burada söhbət ABŞ-ın İİR-ə Şimali Azərbaycandan girməsi, yəni aviasiyanın İranın müqavimətini qırması, Xəzərdən müdaxilə-"məhdud hava zərbələr"iylə hərbi əməliyyatlar və s. gedə bilər.

İrana ABŞ və ya hazırkı şəraitdə daha çox İsrail tərəfindən endirilə biləcək hava zərbələri məsələsi **Rusiyanın Müdafiə naziri A.Serdyukovun Azərbaycana rəsmi səfəri** (VIII.2009) ilə bağlı olaraq yenidən diqqət mərkəzinə çıx(arıl)dı. Səfərə aid qısa rəsmi məlumatda onun gedişində yalnız ikitərəfli hərbi-texniki əməkdaşlıq məsələlərinin müzakirə edildiyi vurğulanırdı. Amma onun azərbaycanlı həmkarı S.Əbiyevlə birlikdə **Qəbələ RLS-ində** olması və səfərdən dərhal sonra verdiyi bəyanatda stansiyanın yaxın üç ayda döyüş hazırlığı vəziyyətinə gətiriləcəyini, yəni Yaxın Şərqdə (İran da daxil) bütün raket buraxılışlarına nəzarət ediləcəyini bildirməsi digər izahlara əsas vermişdir. A.Serdyukovun səfəri-bəyanatının və onun 2009-cu ilin oktyabr-noyabrında yeni güclü transformatorların quraşdırılmasıyla Qəbələ RLS-in döyüş hazırlığı vəziyyətinə gətirilməsinə dair qərarının İranla əlaqədar şəraitin gərginləşməsi çağına təsadüf etməsi bir sıra suallar və qənaətlər yaratmışdır.

Bu RLS Sovetlər İttifaqının Raketdən Müdafiə Kompleksinin (sisteminin) 8 stansiyasından biri olub və 1984-cü ildə işə salınıb, 1985-ci ilin fevralındansa döyüş növbəsinə keçirilibdir (Layihəsinin müəllifinin erməni xanım mühəndisi olduğu iddia edilən həmin stansiyanın öncə Qəbələ şəhərində qurulması planlaşdırılmışdı. Müəyyən etiraz ahəngli tövsiyələrdən sonra onun Qəbələ rayonu ərazisində inşası razılaşdırılmışdı). SSRİ-nin süqutundan sonra Azərbaycanın mülkiyyətinə keçən stansiya hazırda Rusiyanın icarəsinə verilibdir.

RLS son vaxtlar minimal həcmdə işləmiş və passiv rejimdə saxlanılmışdır. Bunun AR hakimiyyətinin istəyi ilə, yəni bölgə əhalisinə və ətraf mühitə çox mənfi təsir göstərməsi üzündən edildiyi söylənilir. Habelə buna Qəbələ rayonunun yüksək vəzifəli şəxslərin yay və qış istirahət zonasına çevrilməsinin də təsir etdiyi diqqətə yetirilir. Digər yandan, intensiv rejimdə xeyli elektrik enerjisi, su istifadə edildiyindən və Rusiya bunların pulunu da ödəməli olduğundan stansiya adətən

10 faizlik gücü ilə işlədilir. O yalnız gərgin beynəlxalq və regional durumlarda gücləndirilmiş iş rejiminə keçirilir.

Bütövlükdə isə, RLS son zamanlarda cəmi iki dəfə, yəni Birinci və İkinci körfəz müharibələri zamanı tam gücü ilə işə salınmışdır. Rusiya hərbçiləri bu yolla Yaxın Şərqdəki savaşları izləyə bilmişlər. Hazırda Rusiya Kosmik qoşunlarının komandanlığına tabe olan Qəbələ RLS-in radar sistemləri bir sıra mühüm texniki göstəricilərə malikdir:texniki parametrlərinə görə dünyada analoqu yoxdur; 6 min km radiusdakı məsafəni nəzarətdə saxlamaq gücündədir; bu isə Yerin Cənub yarımkürəsində, yəni İrandan Hind okeanı və Afrikayadək uzanan əraziləri izləməyə imkan verir; İrandan buraxılan raketləri dərhal (bir neçə saniyə sonra) qeydə ala bilər; İsrail aviasiyasının İrana mümkün hücumlarını da izləmək gücündədir; 3 min km. məsafədən beysbol topu böyüklükdə obyekti aşkarlamaq iqtidarındadır.

Ancaq stansiya İrana endirilə biləcək hava zərbələri xəbərini ona çatdırmaq imkanına malik deyil. Bu RLS yalnız hədəfləri izləyir və raketlərin buraxılmasını qeydə alır. Ancaq RLS hədəflərin raketlə vurulmasını nəzərdə tutmur, yəni raket əleyhinə raketləri yönəltməkdə bu obyektdən istifadə imkanı yoxdur. Hələlik bu cür raketlərlə vurulmalı olan hədəf-obyektlər də yoxdur. Deməli, stansiyadan nə İrana qarşı, nə də onun xeyrinə istifadə mümkünsüzdür.

Stansiyanın gücləndirilmiş iş rejiminə keçirilməsi qərarı **İran-İsrail qarşıdurmasının zirvə həddinə yüksəlməsi** ilə də əlaqələndirilir. İİR-in İsraili dövlət kimi tanımadığını, onu yer üzündən siləcəyini bildirdiyi və ikincinin də birincini terrorçu dövlət saydığı bir vəziyyətin gec-tez hərbi münaqişəyə gətirib çıxara biləcəyi ehtimalı çoxdur. "CNN Türk" telekanalının Küveytin "Əl-Cəridə" qəzetinin məlumatlarına əsasən verdiyi xəbərə görə, İsrail hətta İranda 2009-cu ildəki prezident seçkilərindən sonra yaranan qarışıqlıqdan yararlanaraq onun nüvə obyektlərini vurmaq üçün ABŞ-dan izn istəmişdir.(Prezident

Ş.Peresin də imzaladığı və Baş nazir B.Netanyahu tərəfindən B.Obamaya çatdırılan məktubdakı istəyə reaksiya isə mənfi olmuşdu).

Başqa bir versiyaya görə isə Rusiya Qəbələ RLS-i döyüş hazırlığı vəziyyətinə gətirməklə onun önəmini, yəni Yaxın Şərqi və İranı izləmək üçün ən səmərəli texniki vasitə olduğunu ABŞ-a bir daha nümayiş etdirmək istəyir. Bunun **alt qatında dayanan başlıca məqsədsə** ABŞ-ın Polşa və Çexiyada raketdən müdafiə sistemləri qurmaq planlarını Qəbələ RLS-in Rusiya ilə birlikdə istifadəylə əvəzlənməsinə nail olmaqdan ibarətdir. Və, artıq demək olar ki, Kreml öz məqsədinə çatmaq üzrədir. Belə ki, B.Obama Administrasiyası əvvəlki prezident C.Buş hökumətinin ən strateji səciyyəli hərbi layihə planlarından birindən, yəni 2012-ci ildən başlayaraq Şərqi Avropada raketdən müdafiə sistemlərini yerləşdirməkdən rəsmən imtina barədə müəyyən müzakirələr aparmışdır.

Bu məsələ ötən yaxın illərdə **ABŞ-Rusiya münasibətlərində ciddi gərginlik yaradan** başlıca məqamlardan biri olubdur. İndi Ağ Ev ABŞ kəşfiyyatının "İran Avropanı və Amerikanı vura biləcək orta və uzaq mənzilli ballistik raketlərə malik deyil, nüvə silahı proqramının həyata keçirilməsini dayandırıb və yaxın gələcəkdə ondan təhlükə gözlənilmir" kimi məlumatqənaətlərinə əsaslanaraq İİR raketlərinə qarşı Şərqi Avropada müdafiə sistemləri quraşdırmaq planından rəsmi imtinaya hazırlaşır. Həmin planın Pentaqonun **"dördmərhələli tədbirləri"**ylə **-"eşelonlaşdırılmış təsnifat"** proqramıyla əvəzlənəcəyi bildirilir. Bu tədbirlər-proqram 2011, 2015, 2018 və 2020-ci illərdə görüləcək müəyyən işlər sistemini nəzərdə tutur.

Ağ Evin Şərqi Avropada raketdən müdafiə sistemlərini yerləşdirməkdən imtinasının cizgilərinin hələ B.Obamanın rusiyalı həmkarı D.Medvedyevə 2009-cu ilin yayında yollanılan (diplomatik dairələr tərəfindən tam da təsdiqlənməyən) məxfi məktubunda, habelə ABŞ-ın dövlət başçısının Çexiyanın Baş naziri ilə telefon müzakirəsində (17.IX.2009) özünə yer aldığı

iddia olunur Polşa və Çexiya rəsmilərinin, habelə digərlərinin məlumatları müvafiq rəsmi imtinadan xəbər verir.

ABŞ-ın bu hərəkəti Şərqi Avropanın adıçəkilən ölkələrində **"satqınlıq"** və Ağ Evin Kremllə münasibətləri qaydaya salmaqdan ötrü onların maraqlarını **qurban verməsi** kimi dəyərləndirilir. Rusiya və hətta NATO tərəfindən isə "qarşılıqlı münasibətlərin, faydalı əməkdaşlığın inkişafı, öncəliklə də strateji nüvə silahlarının ixtisarı üçün yeni imkanlar açan" tədbir olaraq səciyyələndirilir. B.Obama iqtidarının 9 aylıq təhlillərdən sonra Rusiyaya etdiyi bu ciddi güzəşt ABŞ-ın **"öz sifətini saxlamaqla geri çəkilməsi"** kimi də qiymətləndirilir. Bu zaman Rusiyanın Əfqanıstan məsələsində ABŞ-a yardım göstərdiyi, yəni özünün hava məkanını Pentaqonun hava qüvvələrinə açmağa razılığı da nəzərə alınmışdır. Burada **digər bir nüans enerji siyasətilə** sıx əlaqədardır. Belə ki, bir yandan, ABŞ OPEK-də sözsahibidir və, digər tərəfdən də, neftin dünya bazarındakı qiymətləri **Amerikanın "mavi yanacaq" xəzinəsindən** asılıdır. Bunlar da Ağ Evə neftin qiymətlərini idarə etmək imkanı verir. Mütəxəssislər qlobal raket sipəriylə bağlı Rusiya ilə ABŞ arasındakı ilkin uzlaşmanın neftin qiymətlərində yaranan sabitliklə əlaqəsinə də diqqət yetirirlər. Ağ Evin Kremlə raketlərlə əlaqədar güzəştinin İrana qarşı sərt tədbirlərdə, xüsusilə də onun nüvə proqramının dayandırılmasında Rusiyanın ABŞ-a ciddi dəstək verməsi şərtilə edildiyi vurğulanır.

Artıq B.Obama və Müdafiə naziri R.Geyts tərəfindən də rəsmən təsdiqlənən bu imtina ABŞ-ın xarici və hərbi siyasətində **böyük dəyişiklik, yeni rəhbərliyin ehtiyatlı xətti** kimi görünür. Bu qərardan məmnun qalan Rusiyada onu qələbə sayırlar. **"İmtina qərarı"nın** bir məqama görə Qərbdə müəyyən rahatsızlıq yaratdığı ekspertlərin diqqətindən yayınmayıbdır. Qərbdə belə hesab edirlər ki, ABŞ-ın öz strateji plan-layihəsindən geri çəkilməsinin Rusiyada **"sərt siyasət yetərli lazımi hörmət və uğur qazandırır"** kimi qiymətləndirilməsi gələcəkdə Kreml daha da aqressivləşdirə bilər. Bu proqnozun özünü

doğrultması da çox çəkməyibdir. Elə ABŞ-ın məlum imtinası günlərində Rusiyanın NATO-dakı Daimi nümayəndəliyinin başçısı D.Roqozin alyansı MDB-nin KTMT-ni tanımağa və qarşılıqlı əməkdaşlıq barədə onunla saziş bağlamağa çağırıbdır.

Buna görə də Qərbdə və Azərbaycanda bəzi politoloq-ekspertlər belə hesab edirlər ki, Sovetlər İttifaqı təki çökməkdə olan Rusiyanın özünü xilas üçün ABŞ-a yardım göstərmək yolunu seçməsinə imkan verilməsi düzgün deyildir. Onların fikrincə, dünyaya nəzarəti artıran ABŞ-la NATO-nun zəif Rusiya ilə **ortaq qlobal raket sipərinə** ehtiyac yoxdur. Qat-qat güclü peyk-radar sistemləri ilə Rusiyanı, Cənubi Qafqazı və s. izləmək imkanları olan ABŞ-a heç Qəbələ RLS də gərəkli görünmür.

Vaşinqtonun Moskva qarşısında "geri çəkilməsi" ətrafındakı ajiotaj Pentaqonun şefi R.Geytsi iki gündə iki dəfə brifinq keçirərək ABŞ-ın raketdən müdafiə sistemləri ilə bağlı planları barədə mətbuata **açıqlamalar** etmək məcburiyyətində qoymuşdur. Açıqlamalardan göründüyü kimi ABŞ:

- raketdən müdafiə sistemləri qurmaq planlarından heç də imtina etmir və əsla geri çəkilmir,sadəcə, yeni şəraiti nəzərə alaraq onlara müəyyən düzəlişlər edir. (Bir çox ekspertlər bu məsələlərdə görünməyən tərəflərin olduğunu qeyd edirlər. "Geri çəkilmə"ni Ağ Evin Kreml qarşısında **"ağ bayraq qaldırması"** kimi qəbul etmək sadəlövhlük olardı. Bu kontekstdə Rusiyanın qarşıda ABŞ-ın hansısa sürprizlərilə üzləşəcəyinə də işarələr olunur. Oğul C.Buşun Rusiya ilə bağlı doktrinasından imtina edən B.Obamanın bu qərarının mövcud şəraitə uyğun gələn nisbi səciyyəli qənaət olduğunu söyləyənlər də vardır. Onlar "soyuq müharibə" dönəmində kosmosla əlaqədar ABŞ-SSRİ əməkdaşlığını xatırlatmaqla Rusiya-Amerika əlaqələrində belə halları mümkün sayırlar);
- əksinə, həmin sistemin arxitekturasının dəyişdirilməsini, başqa sözlə, özünün Avropadakı müttəfiqlərinin və hətta Rusiyanın imkanlarının birləşdirilməsi hesabına onun daha mükəmməl və əlverişli hala salınmasını istəyir;
- raket sipərinin ən müasir texnologiyalar əsasında yaradılmasına, yəni onun qurğu və elementlərinin dənizlərdə (gəmilərdə) yerləşdirilməsinə çalışır (Hərbi ekspertlərə görə, belə bir sistem Avropanı raket hücumlarından qorumağa imkan verən, "Soyuq müharibə" dövründəkinə uyğun, lakin bir qədər məhdud imkanlı müdafiə sipəri ola bilər);
- Rusiyanın radarlarının da özünün məlum sisteminin tərkibinə daxil olmasını nəzərdə tutur.

ABŞ son vaxtlar həmişə özünün raketdən müdafiə planlarının yalnız İran və Şimali Koreya ilə bağlı olduğunu iddia edir. Lakin bu planın bir qolunun da **Rusiya ilə əlaqədar olması** əsla danıla bilməz. Elə Şərqi Avropada quraşdırılmalı olan sistemin Rusiyanın ərazisinin böyük bir hissəsini izləyəcəyi və onun Avropayla Amerikaya ballistik raketlərlə zərbə imkanlarını azaldacağı nəzərdə tutulurdu. Və, belə bir fürsət-imkandan imtinanın, yəni **Rusiyaya böyük güzəştin havayı olmayacağı** da düşünülür.

Bu kontekstdə də ABŞ-ın İranın nüvə proqramlarına xitam verməsində Rusiyadan yetərli dəstək istəyəcəyi güman edilir. Bütün bu, **"imtina oyunu-qalmaqalı"**nın da BMT-nin İrana qarşı daha sərt sanksiyaların tətbiqini nəzərdə tutan qətnaməsinin müzakirəsi (24.IX.2009) ərəfəsində ortaya çıx(arıl)ması əsla təsadüfi deyildi. Yəni Ağ Ev yubanmadan özünün bu antiİran aktının Kreml tərəfindən bəyənilməsinə çalışır. ABŞ ilkin digər addımlardan biri kimi habelə Rusiyanın İrana "S-300" tipli zenit-raket sistemlərini verməkdən imtinasını istəyir.

ABŞ-ın məlum "güzəşti"nin qarşılığında Rusiyadan gözlədiklərinə dair təhlillər məsələyə **fərqli baxışların** olduğunu da aşkarlamışdır. Moskvalı politoloq V.Yarixin ABŞ-ın "imtina aktı"nı **sövdələşmə və ya qarşılıqlı güzəştlər** sayaraq iki fövqəldövlətin kompromisə gələ bilməsinin mümkün (yerində) və konstruktiv olduğunu bildirmişdir (O, Əfqanıstana təyyarələrin enib-qalxmasını vurğulamaqla Rusiyanın artıq öz tərəfindən

müvafiq addım atdığını qeyd etmişdir). Rusiyanın NATO-dakı Daimi nümayəndəsi D.Roqozinsə, əksinə, diqqəti ABŞ ilə heç bir sövdələşmənin olmadığına yönəltməyə çalışmışdır. Onun qənaəti belədir ki, Rusiya ABŞ-a raketdən müdafiə planlarında dəyişikliklər etməsinə (**səhvini düzəltməsinə**) görə nəsə ödəməyə borclu deyil. İsrailin kəşfiyyatla yaxınlığı ilə tanınan "Debka.file" saytı isə hərbi qaynaqlara istinadən yazırdı ki, Obamanın "raket sipəri planı"nda dəyişikliklər-təshihlər etməsi Ağ Evlə Kremlin Təl-Əvivin İrana qarşı hərbi (hava) əməliyyatlarının qarşısının alınmasına yönəlik birgə səylərinin bir hissəsidir. Bu fonda Rusiyanın İrana münasibətdə İsraili sakitləşdirə biləcək BMT qətnaməsini dəstəkləməsi mümkün sayılırdı.

Ağ Evin "raket sipəri planı"nda geri çəkilməsi ABŞ-ın İranla "Altılar çərçivəsində, yəni **"5+1"**(BMT TŞ-nin beş daimi üzvü üstəgəl Almaniya) **formatında** danışıqlara başlamağa (İstanbul, 1.X.2009) hazırlaşdığı bir vaxtda baş verirdi. Danışıqlar ərəfəsi çağ isə ABŞ-da İranla müharibə çağırışlarının əsla səngimədiyi və İsrailin İİR-ə hava zərbələri endirmək təhlükəsinin daha da artdığı bir şəraitlə səciyyələnirdi.

Vaşinqtondakı nüfuzlu ikipartiyalı siyasət Mərkəzinin işçi heyətinin üzvlərindən, o cümlədən sabiq senatorlardan demokrat Ç.Robb və respublikaçı D.Konts, habelə Hərbi Hava Qüvvələrinin təqaüdçü generalı Ç.Valdın **"Möhlət bitir" başlıqlı hesabatı** bu cəhətdən çox maraq doğurur. 2009-cu ilin sentyabrında açıqlanan hesabatda B.Obamanın İİR-lə diplomatik təmaslar yaratmaq səyləri təqdir olunsa da, İranın "nüvə siyasəti"nin əngəllənməsi məsləhət bilinir. Hesabatda yazılırdı ki, "vaxt daralır. Tehran gələn ilədək azı bir atom bombası istehsal etmək imkanına malik olacaq. Biz nüvə silahlı İranın və ya İsrailin ona hücumunun qarşısını almaq üçün düzgün strategiya müəyyənləşdirməliyik. Diplomatiya təcili sərt sanksiyalara və hərbi qüvvəyə söykənməlidir".

Bu sənədi dəstəkləyən digər bir amerikalı qanunverici-senator C.Liberman "ABŞ-ın İrana münasibətdə hərbi müda-

xiləyə əl atmaq məcburiyyəti (seçimi) qarşısında qala biləcəyi aydın və inandırıcı şəkildə rəsmi Tehrana çatdırılmalıdır" qənaətindədir. Senator C.Kil öncə İranın bank və enerji sektorlarına yönəlik...çevik, səmərəli sanksiyaların tətbiqini və bunların tezliklə əməli nəticələr verməyəcəyi təqdirdə isə İİR-ə hərbi müdaxilənin gündəmə gətirlməsini vacib sayır.

"İranın nüvə bombası əldə etmək cəhdləri finala yaxınlaşır" iddiasında və "hərəkət etmək üçün cəmi bir neçə ay vaxt qalır" mövqeyində olan **İsrailin siyasi-hərbi isteblişmenti** isə İİR-ə hava zərbələrinin endirilməsi məsələsində əsasən həmrəydir. Onların qənaətinə görə, Rusiyanın İrana "S-300" raketləri verməsi hərbi müdaxiləni tezləşdirə bilər. İsraillə İran həmsərhəd olmadığından onlar arasında hələ ki, təxribat səciyyəli münaqişə baş verməyibdir. Amma İranın "nüvə siyasəti məsələsi"nin bir amil rolunu oynadığı və ABŞ-ın da İsraili dəstəkləyəcəyi şəraitdə Ön Asiyanın bu iki dövləti arasında müharibə mümkün görünür.

İranın "nüvə siyasəti"ndən ciddi rahatsızlıq duyan və onu bir çox məsələlərdə ittiham edən İsrailin özü MAQATE-nin sərt ahəngli qərarıyla üzləşibdir. 18 illik fəaliyyəti ərzində **qurum ilk dəfə olaraq İsraili kəskin tənqid** edibdir. Təşkilatın Vyanadakı toplantısında (IX.2009) qəbul olunan qərarda İsrail özünün "nüvə fəaliyyətləri" barədə BMT-ni məlumatlandırmamaqda qınanmışdır. Qərarda habelə onun nüvə silahına malik olmasına dair ciddi şübhələrin də yarandığı göstərilir. Ən başlıcası isə İsrailin "nüvə fəaliyyətləri"nin Yaxın Şərqdə kütləvi qırğın silahları əldə etmək yarışını sürətləndirdiyi vurğulanır. Sonda onun öz nüvə obyektlərini BMT agentlərinə açması istənilir. İsrail tərəfindən qəzəblə qarşılanan bu qərar ona qarşı **açıq düşmənçilik və ərəb dövlətlərinin təzyiqi ilə qəbul edilən sənəd** kimi qiymətləndirilibdir.

2009-cu ilin yayı və payızında İsraillə İran arasında qarşılıqlı "əzələ nümayişi" aktları oldu. İyunda İsrailin nüvə başlıqları ilə təchiz olunan qanadlı raketlər daşıya bilən iki

"Dolfin" sualtı qayığı Süveyş kanalından keçərək Fars körfəzinə girdi. İyul ayında isə ilk dəfə olaraq İsrailin iki raketdaşıyan gəmisi Misirin icazəsi ilə Süveyş kanalı vasitəsilə Qırmızı dənizə daxil oldu. Habelə İsrailin onlarla hərbi təyyarəsi 3 min km məsafədəki (təxminən bu iki ölkə arası qədər) hədəflərə zərbələr endirməkdən ötrü Hibraltar boğazı üzərində təlimlər keçdi. Bütün bunlar İİR-ə xəbərdarlıq (mesaj) olaraq dəyərləndirilir.

Ancaq İrana qarşı hərbi əməliyyatlara başlamaq üçün hələlik ABŞ-dan icazə ("xeyir-dua") ala bilməyən İsrailin İİR-in nüvə fəaliyyətlərini zəiflətməkdən ötrü gizli tədbirlər gördüyü də məlumdur. Bu cür tədbirlər barəsində, yəni İranın Türkiyə və hətta Azərbaycan vasitəsilə izlənməsi, İİR-in "nüvə alimləri"nə sui-qəsdlər törədilməsi və s. dair vaxtaşırı məlumatlar yayılmaqdadır. Habelə müəyyən gərginliyə baxmayaraq İsrailin Türkiyəyə pilotsuz kəşfiyyat təyyarələri satmaq üzrə olması və Azərbaycanda bu növ uçaqların (silahların) istehsalı üçün zavod tikməyə hazırlaşması da yayılan məlumatlar arasındadır.

İran prezidentinin ən son açıqlamalarından biri (24.1.2010) də İsrailin hərbi hazırlıqlarını gücləndirməsinə rəvac vermişdir. M.Əhmədinejad İİR parlamentində mətbuat nümayəndələrinə uranın 20% zənginləşdirilməsi və digər uğurlar barədə məlumat veribdir. Onun "ölkə əhalisi nüvə proqramına dair nailiyyətlər barədə rəsmi məlumatlar-xoş xəbərlər eşidəcək" müddəasına Fransa prezidenti tərəfindən belə bir xülasə verilibdir: "Əgər İran nüvə fəaliyyətlərini bu cür davam etdirsə, o zaman İsrail əllərini yanına salıb oturmayacaq".

Son vaxtlar İsraillə İranın bir-birlərinə hücum edəcəklərinə dair sensasiyalı məlumatlar da yayılmaqdadır. Yəhudi mənşəli S.Vaknın ABŞ-ın "The Global Politician" yurnalındakı məqaləsində Misir və Səudiyyə Ərəbistanından tam dəstək alan İsrailin 2009-cu il iyulun sonu, yaxud da avqustun əvvəlində İranın nüvə obyektlərinə zərbələr endirəcəyi yazılırdı. Nüfuzlu

amerikalı politoloq, ultramühafizəkar dairələrə və keçmiş prezident C.Buşun (oğul) yaxın ətrafına bağlı olan B.Lyuis isə "Wall Street Journal"dakı məqaləsində İranın 2009-cu il avqustun 22-də İsraili "vuracağı" bildirilirdi (Yazıda həmin günün təsadüfi seçilmədiyi də qeyd edilirdi. Belə ki, o gün həm "nüvə məsələsi"nin danışıqlar yolu ilə həlli üçün Vaşinqton tərəfindən İİR-ə verilən təklifin vaxtı tamam olurdu; zatən təklifin rədd ediləcəyi də bəlli idi. Həm də Ramazan ayı başlayırdı və İsraili yer üzündən silməyi hədəfə alan İİR həmin gündən faydalana bilərdi).

Öz növbəsində İran 2009-cu il sentyabrın 28-nə keçən gecə ballistik raketləri sınaqdan keçiribdir. İrimiqyaslı təlimlərin yekunu olan bu sınaqlarda "Sahab" və digər (ABŞ ilə İsrailin Yaxın Şərqdəki hərbi bazalarını vura biləcək) raketlər yoxlanıbdır. Rusiya hərbçilərinin Qəbələ RLS-i vasitəsilə izlədikləri bu sınaqların uğurla keçdiyi qeyd edilməklə yanaşı, onlar və, bütövlükdə, İranın son təlimləri təxribat, həmçinin beynəlxalq birliyə meydan oxumaq kimi səciyyələndirilir. İİR-in habelə radardan yayına bilən raketləri vurmaq imkanı olan silahlar sistemini də inkişaf etdirdiyi bəllidir.

Iran habelə 2009-cu ildə Hərbi-Dəniz Qüvvələrinin 5-ci operativ qrupunu onun Fars körfəzi sahillərindən 3 min km aralıdakı sulara göndəribdir. Bu qrup İsrailin hərbi-strateji üstünlüyü sayılan "Dolfin" sualtı qayıq donanmasının yerləşdiyi Ədən körfəzində döyüş növbəsi çəkəcəkdir (Bu, İranın belə uzaq məsafəyə hərbi gəmilər göndərməsinə dair ilk hal-fakt sayılır). İsrail "Dolfin"ləri də ilk dəfə olaraq 2009-cu ildə Sveyiş kanalı vasitəsilə Fars körfəzinə daxil olmuşdular. Hazırda Ədən körfəzində NATO və ABŞ-ın da hərbi gəmilər qrupları vardır. Onların Ədən körfəzini nəzarətdə saxlayaraq İrana və Çinə aparan dəniz yollarında mövqelərini möhkəmləndirməyə çalışdıqları bildirilir.

İran **"İsraili yer üzündən silmək"**dən ötrü onun birinci olaraq hücum etməsini gözləyir. İsrailin darmacal durumda

(fors-major şəraitdə) olması da bildirilir. Çünki atom silahına yiyələnəcək İranın kiçik İsraili "yox etməsi" problem deyil, yəni bunun üçün 1-2 nüvə başlığı da kifayət hesab olunur. Buna görə də müharibə hazırlıqlarını gücləndirən İsrailin hərbi gəmilərin Süveyş kanalından keçməsini Misirlə və hava məkanından istifadəni isə Səudiyyə Ərəbistanıyla razılaşdırdığı da bildirilir. Bir varianta görə də, İsrail öncə Livanın cənubunda-İranın müttəfiqi – "Hizbullah"a qarşı yeni hücuma başlayacaq və bununla da İİR-i böyük müharibəyə cəlb edəcəkdir.

Yaxın və Orta Şərqdəki müharibə ab-havasında dövriyyəyə girən erməni diplomatiyası **İranla Azərbaycanın münasibətlərini korlamaq** məqsədilə təxribata əl atıbdır. "News.am" erməni xəbər portalının yaydığı (XII.2009) məlumata görə, guya İsrail İrana qarşı hərbi əməliyyatlardan ötrü Azərbaycandan dəstək istəyibdir. Həmin məsələnin ATƏT XİN-lərinin 2009-cu il dekabrın əvvəlində Afinada keçirilən illik toplantısında E.Məmmədyarovla yəhudi həmkarı A.Liberman arasındakı görüşdə gündəmə gəldiyi bildirilir. Erməni saytının həmin xəbərini təkrarən yayan İsrail mənbələri həm də onun təxribat səciyyəsi daşıdığını vurğulayıblar. Azərbaycan və İsrail rəsmiləri ermənilərin bu hərəkətini "növbəti təxribat" və Bakı ilə Tel-Əviv arasındakı normal münasibətlərdən rahatsızlanma kimi dəyərləndiriblər. Ermənilərin bu gedişi həm də hazırda Türkiyə ilə İsrail arasındakı böhrandan faydalanmağa hesablanıbdır. Ümumiyyətlə, hazırda kifayət qədər problemlərli bir durumda olan AR-in İrana qarşı planlarda yer almasını iddia etmək məntiqi və inandırıcı görünmür (Ermənilər İranın raket sınaqlarının Azərbaycanı da təhdid etməsindən yazmaqla daha bir təxribata gedirlər).

İsrailin—"Mossad"a yaxınlığı ilə tanınan—"Debka.file" saytında isə **Türkiyə-ABŞ münasibətlərinin pozulmasına** yönəlik məlumat yayılıbdır. Həmin məlumatla R.Ərdoğanın 2009-cu ilin payızında İrana rəsmi səfəri zamanı guya dövlətlərarası gizli hərbi sövdələşmə imzalaması iddia olunur. Sövdələşməyə

uyğun olaraq da İsrailin mümkün hücumu vaxtı Türkiyənin öz hava qüvvələri və digər hərbi yardımlarla İİR-ə dəstək verəcəyi ehtimal edilir. İsrailin kəşfiyyat və başqa mənbələri bu faktın təsdiqlənəcəyi halda ABŞ-ı "şoka salacağı" qənaətindədirlər. Müəyyən təhlillərdə Türkiyənin İranla hərbi işbirliyinə gedə bilməsi ehtimalının R.Ərdoğanın İİR-in "nüvə siyasəti" ilə bağlı mövqeyindən irəli gəlməsi də düşünülür.

Bu zaman Baş nazirin Qərbi İrana münasibətdə ədalətsiz mövqe tutmaqda qınaması, "dinc məqsədli nüvə proqramı hamının haqqıdır" müddəasını söyləməsi İranın nüvə silahına yiyələnməsi barədə deyilənləri dedi-qodu sayması və dünyanın diqqətinin artıq nüvə silahına malik olan İsrailə yönəldilməsinə çağırması əsas tutulur. Hazırda özü birbaşa nüvə proqramına malik olmayan və buna yönəlik səylərini davam etdirən Türkiyə İranın nüvə yanacağı ilə təminatı üçün təklif də irəli sürmüşdür. Yəni İranın zənginləşdirilmiş uran ehtiyatlarının bir hissəsinin Türkiyədə saxlanılmasını məqbul hesab etmişdir. Bütün bunları nəzərə alan Türkiyə İranla hər hansı bir gizli anlaşmaya (sövdələşməyə) gedilmədiyini və bu məlumatın təxribat olduğunu bildirmişdir.

ABŞ-la İsrailin İranla qarşıdurması və onlardan hər hansı birinin qonşu dövlətə hərbi müdaxiləsi şəraitində Azərbaycan Respublikasının **tutduğu mövqe və ata biləcəyi addımlarla bağlı yanaşmalar** da fərqlidir. Şimali Azərbaycanda bəzi **elmi-siyasi dairələr** ABŞ-ın İrana hərbi müdaxiləsini **iki yöndən** dəyərləndirirlər:

1-cisi, ABŞ-ın bu cür hərəkəti **"tarixi fürsət"** hesab olunur. Yəni "Güney Azərbaycan məsələsi"nin həlli və AR-in İranın sistemli, çoxtərəfli təzyiqlərindən qurtulma imkanı kimi nəzərdən keçirilir.

2-cisi, belə bir beynəlxalq və regional qarşıdurmada (Qərbin İrana qarşı siyasətində) AR-in **təmkinli və ehtiyatlı davranışa** üstünlük verməsi və açıq şəkildə iştirakçı olmaması məsləhət bilinir. Bununla bağlı həmçinin ABŞ-ın "İran si-

yasəti"ni hərbi yolla həlli etməsinin Azərbaycan üçün verə biləcəyi **arzuolunmaz nəticələrə** istinad olunur:

- Pentaqonun AR-in hava məkanından yararlanmaqla İrana zərbələr endirməsini münasib fürsət kimi gözləyən İİR silahlı qüvvələrinin Şimali Azərbaycanı, xüsusilə də strateji yaşayış məntəqələrini və obyektlərini (**Bakı şəhəri, BTC kəməri və s.) bombalaması**;
- Vətəndən Vətənə, yəni Azərbaycanın Güneyindən Quzeyinə qaçqın axınının AR-də sosial və iqtisadi vəziyyəti gərginləşdirməsi;
- ABŞ-ın geostrateji maraqlarına uyğun olaraq İranın federallaş(dırıl)ması və ya bölünməsi şəraitində **Güney Azərbaycanın parça-parça edilməsi;**
- hər bir halda regionda gərginliyin artmasının Azərbaycan üçün **əlavə təhlükə və riskləri** çoxaltması.

Bir çox ekspert və analitiklər Azərbaycanın qarşıda gözlənilən təhlükəli proseslərdən daha az ziyanla çıxması üçün praqmatik siyasət yürütməsini və müvafiq tədbirlər görməsini məsləhət bilirlər. Bununla əlaqədar olaraq da "regionda stabillik elə Azərbaycanda sabitlik deməkdir", "ABŞ-ın Qafqaza və Orta Asiyaya gəlişi ölkəmizin xeyrinədir" və s. müddəalardan çıxış edənlər AR-in Ağ Evin tərəfini tutmasını faydalı sayırlar. Bu məsələdə də **"balanslaşdırılmış siyasət"** yeridilməsi və İranla ABŞ arasında manevr edilməsi variantını önə çəkənlərsə **"qızıl orta" mövqeyində** dayanmağa üstünlük verirlər. Onların fikrincə, İrana hərbi müdaxilənin olacağı təqdirdə onu pisləməklə və qınamaqla kifayətlənərək daha da irəliyə gedilməməlidir. Yəni, bir növ, elə İranın Dağlıq Qarabağ münaqişəsindəki taktikasından yararlanmaq lazım gəlir: rəsmi Tehran Ermənistanın işğalçılıq hərəkətlərini pisləsə də, onunla tərəfdaşlıq həddinə çatdırılan sıx münasibətlərə malikdir.

ABŞ-İran hərbi qarşıdurması halında AR-in manevr edib **tərəfsiz görünə bilməsi** də çox çətin və **mübahisəlidir.** Belə ki, münaqişə tərəflərinin ondan birmənalı seçim etməsini

istəyəcəkləri şəksizdir. İranın hələ indidən özünü göstərən təzyiq və təhdidləri də bunu təsdiqləməkdədir. AR-in BMT-nin İİR-ə qarşı sanksiyalarına qoşulmamasına və ABŞ-İran qarşılıqlı münasibətlərinə qarışmamasını dəfələrlə bəyan etməsinə baxmayaraq rəsmi Tehranın ölkəmizə qarşı müxtəlif təzyiq və hədələri vaxraşırı özünü göstərir. İran hərbi təyyarələrinin Azərbaycanın Xəzərdəki neft yataqları və hətta quru əraziləri üzərində bir neçə dəfə **"əzələ nümayişi"** səciyyəli uçuşları, AR MTN-nin "Səidin dəstəsi" ilə bağlı əməliyyatları və bəzi iddiaları ilə əlaqədar olaraq **Bakının Tehrana üzrxahlıq etməsi tələbi** (XII.2007), ABŞ-ın "Bank Melli İran"ın "Əl-Qüds" terrorçu briqadasını maliyyələşdirməsinə görə onun Bakıdakı ofisinə sanksiyalar tətbiq edilməsi istəyindən hiddətlənib "hirsini Azərbaycanın üstünə tökməsi" bu kimi faktlar çoxdur.(Yeri gəlmişkən, AR tərəfi bankın Bakı ofisinə əngəllər törətmir). İİR-in AR-dəki indiki səfiri M.Bəhraninin təyinatından az sonra ölkəsinə gələrək iki aydan çox bir müddətdə Bakıya dönməməsi də diplomatik təcrübədə nonsensdir, İranın Azərbaycana qarşı hörmətsizliyidir.

İİR-in AR-ə qarşı açıq hədələrinin və onun xarici siyasətinə **kobud müdaxilə hallarının** ən başlıcalarından biri də İsrailin prezidenti Ş.Peresin ölkəmizə rəsmi səfərə dəvət olunmasıyla bağlı baş vermişdir. 2009-cu ilin iyununda olan bu səfər İranın Azərbaycan dövlətinə qarşı beynəlxalq diplomatik qayda və normalara əsla uyğun gəlməyən hərəkətlərə yol verməsi ilə də yadda qaldı. "Fars" agentliyinin yaydığı məlumata əsasən İran ordusunun Baş Qərargah rəisi, general H.Firuzabadi hələ səfər öncəsi AR rəhbərliyini bu dəvətə görə sərt tənqid etdi. Tələbələrlə görüşdə çıxışı zamanı "Ş.Peresin Bakıya dəvət edilməsi müsəlmanlara qarşı xeyirxahlıq deyil" fikrini səsləndirən general bunun AR-in İİR-lə dostluq (?! – İ.M.) münasibətləri ilə ziddiyyət təşkil etdiyini bildirmişdir. O habelə "Qüdsü tutan, Fələstin xalqına zülm edən və islama qarşı çıxan sionist rejimin hər hansı bir müsəlman ölkəsi ilə münasibətini

xoşagəlməz fakt" kimi səciyyələndirmişdir.

Ş.Peresin AR-ə rəsmi səfərə dəvət olunmasına İranın hikkəli münasibəti onun Baş Qərargah rəisinin Azərbaycan və Türkmənistanı İsrailin **səfirliklərini bağlamaq çağırışında** da ifadə olunubdur. General İsrailin AR-dəki səfirliyini "İran vətəndaşlarına qarşı qəsdlər hazırlayan casuslar məskəni" adlandırdı. Məlum səfəröncəsi İsrailin Bakıdakı diplomatik korpusuna qarşı hazırlanan terrorun qarşısı alındı. Belə ki, "Hizbullah"ın iki livanlı agentinin İsrail səfirliyini partlatmasına imkan verilmədi. Səfər dönəmində "Mossad" Bakıda çox mühüm təhlükəsizlik tədbirləri gördü (Bu dövlətin qanunlarına görə, İsrailin yüksək vəzifəli dövlət rəsmilərinin xarici səfərləri zamanı onların təhlükəsizliyini "Mossad" təmin edir).

Bu məsələdə ən diqqətçəkici məqamlardan biri **"iransayağı diplomatiya"**dan istifadə olunmasıdır. Yəni siyasi-diplomatik səviyyədə edilə biləcək narazılıq-etirazın general vasitəsilə çatdırılmasıdır. Bu, **"hərbçi diplomatiyası"**nı eyni zamanda AR-in İranın maraqlarına zidd hərəkətinə daha sərt yanaşıla biləcəyinin ifadəsi də saymaq olar. İranın bu cür davranışı nəinki diplomatik normalara və sağlam məntiqə sığışmır, hətta adi insani münasibətlərə belə yaraşmır. Çünki Ş.Peresin Bakıya gəlişindən az öncə İİR rəhbərliyi Ermənistanın prezidenti S.Sərkisyanı Tehrana rəsmi səfərə dəvət edərək onu yüksək səviyyədə qəbul etmişdi (IV.2009). Habelə İsrail prezidentinin AR-ə səfərindən dərhal sonra digər bir Ermənistan rəsmisi-Xocalı qətliamının əsas icraçılarından biri (Müdafiə naziri S.Ohanyan) da Tehrana dəvət olunmuşdu.

İİR bunları və, ümumiyyətlə, Ermənistanla sıx əməkdaşlığını özünün bütün qonşularla normal münasibətlər saxlanılması siyasətinin ifadəsi kimi sırımağa çalışır. Rəsmi Tehranın İsrailin yüksək vəzifəli çoxlu dövlət adamının Türkiyəyə dəfələrlə səfərlər etməsinə mənfi reaksiya verməməsi və qıcıqlanıb rahatsızlıq duymamasına **yanaşması** ("izahı") da özünəməxsus tərzdədir: **"Azərbaycan şiə ölkəsidir".** Əslində burada

həqiqət İİR-in Türkiyənin güc və sanbalını bilməsində, Azərbaycanı isə zəif görməsindədir. Bütövlükdə, "öz gözündə tiri görməyən" (müsəlman Azərbaycanın torpaqlarını işğal edən Ermənistanı və onun terrorçu prezidentlərini, "Xocalı qətliamı"nın təşkilatçısı S.Sərkisyanı əsla qınamayan) İran "başqasının gözündə tük axtarır", yəni AR-i və b. **"sionist rejim"lə əlaqələr** qurmaqda ittiham və təhdid edir.

"İransayağı diplomatiya", yəni general vasitəsilə təhdid Şimali Azərbaycanın bir sıra ictimai-siyasi və elmi dairələrində **kəskin etirazlara** səbəb oldu. AR-in rəsmiləri isə məsələ ilə bağlı təmkinli mövqe tutdular. Rəsmi açıqlamalarda AR-in beynəlxalq birliyə inteqrasiya olunan müstəqil dövlət kimi ayrı-ayrı ölkələrlə münasibətlər qurmaqda sərbəst hərəkət hüququ vurğulandı. İ.Əliyev Rusiyanın RTR telekanalına müsahibəsində (VII.2009) bəyan etdi ki, "tərəfdaşlarımızın və ya dostlarımızın (İsraillə İran nəzərdə tutulur – İ.M.) öz aralarında problemi varsa, Azərbaycan onların münasibətlərini ayırd etməsi üçün məkan ola bilməz". Onun başqa bir qənaətinə görə isə, "öz aralarında yaxşı münasibətlər olmayan iki ölkə ilə eyni vaxtda normal əlaqələr yaratmağın mümkünlüyünü Azərbaycanın timsalında görmək olar" (Sözgəlişi, İran da bir-birləri ilə müharibə vəziyyətində olan Ermənistan və Azərbaycanla normal münasibətlər saxladığını iddia edir. Fikrimizcə, İranın Ermənistanla Azərbaycana münasibətindəki kəskin fərq gözönündədir və əlavə şərhə ehtiyacı olmayan məsələdir).

Azərbaycan ABŞ-ın **"raket sipəri planı"**nda edəcəyi dəyişikliklərə görə də İranın təzyiqlərinə məruz qala bilər. Yeri gəlmişkən, Ağ Evin məlum qərarının ardınca İİR rəhbərliyinin (M.Əhmədinejadın) gəldiyi yeni qənaətə görə, "İran nüvə silahına malik olmağa daha ehtiyac görmür. Dünyadakı yeni vəziyyət üzündən İranın ideyaları nüvə silahı olmadan da həyata keçəcəkdir" (Bu fikri "İslam inqilabından sonrakı ilk illərdə ortaya atılan "biz öz inqilabımızı bütün dünyaya yayacağıq", "bütün dünya islama üz tutur və ümid edir" kimi müddəaların

davamı,bir daha xatırladılması da saymaq olar).

Onun "NBC" telekanalına müsahibəsində səsləndirdiyi bir sıra digər fikirlərin birmənalı qəbul edilməsi də çətindir: "İran kimisə arxayın etmək üçün dinc nüvə enerjisinə malik olmaq hüququndan geri çəkilməyə-uranın zənginləşdirilməsi proqramından imtinaya hazırlaşmır; bu məsələ artıq müzakirə obyekti ola bilməz və uranın dinc məqsədlərlə zənginləşdirilməsi işi İranda heç vaxt dayandırılmayacaqdır" və s. Prezidentin açıqlamaları gələcəkdə İranı nüvə silahına yiyələnməyə vadar edəcək şərtlərlə bağlı şəraitə (məsələyə) də aydınlıq gətirməyibdir.

İİR prezidentinin ziddiyyətli açıqlamaları *məsələnin* həllini tapmasını xeyli əngəlləyir. Onun "Kaşvoqar-3" raketinin sınağı ilə bağlı Qərbdə artan şübhələrlə əlaqədar olaraq son açıqlamalarından birində – dövlət televiziyasıyla çıxışında (I.2010) bunlar bildirilmişdir: İİR aşağı dərəcəli (3,5 faizlik) zənginləşdirilmiş uranı xaricə göndərməyə və əvəzində daha yüksək dərəcəli (20 faizlik) nüvə yanacağı almağa razıdır. "Verilən uranın əvəzinin ödənilməməsi" ehtimalına münasibət bu cürdür: "Onsuz da uran istehsal edirik, qaytarmasalar nə olacaq? Haqlı olduğumuz üzə çıxacaq və Beynəlxalq Atom Enerjisi Agentliyinin isə etibarsızlığı məlum olacaq. Bundan sonra özümüzə güvənmək hüququna malik olacağıq".

İranın BMT planına etirazından sonra ortaya çıxan belə qəfil mövqe dəyişməsi də birmənalı qarşılanmayıb və növbəti dəfə çoxlu suallar doğurubdur. İİR prezidentinin "yeni mövqeyi"nə ehtiyatla yanaşan ABŞ eyni zamanda rəsmi Tehranın BMT-nin təkliflərinin qəbul etməsini təşkilata bildirməsini vacib saymışdır. ABŞ İranın nüvə fəaliyyətlərinə dair danışıqların davam etdirilməsində artıq bir o qədər də maraqlı görünmür. Bu hal, bir tərəfdən, onun İİR-ə qarşı yeni sanksiyalara dair qanunu qəbul etməsi ilə əlaqələndirilir. (Sanksiyaların ilkin nəticələri də vardır. Belə ki, İsveçrənin illik dövriyyəsi 112 mlrd. dollar olan – dünyanın ən iri əmtəə treyderlərindən biri –

"Glencore Aç" şirkəti İİR ilə ticarət əlaqəsini kəsibdir). Digər yandan da, Pentaqon rəsmiləri 2010-cu ilin başlanğıcında yenə də İrana dair hərbi variantların aktuallığı barədə dalbadal bəyanatlat veriblər. M.Millen və D.Petreus son diplomatik səylərin də nəticə verməyəcəyi halda "iki ən pis variantdan daha az pis olanı"na üstünlük verəcəklərini bəyan ediblər. Habelə İrana qarşı hərbi əməliyyatların bir neçə planının mövcudluğu da gizlədilməyibdir.

Təxminən eyni vaxta təsadüf edən çoxlu qərarların ortaya çıxdığı və məlumat-xəbərlərin yayıldığı bir axarda Rusiya dövlət başçısının bu açıqlaması da diqqəti çəkir: "Ş.Pereslə fikir mübadiləsindən İsrailin İrana hücum etmək planının olmaması aydınlaşır" (Bu da çox maraqlıdır ki, ABŞ-ın əvvəlki rəhbərliyinin (oğul C.Buşun) vaxtılə "Şər üçbucağı"na daxil etdiyi İranın ardınca – nüvə silahının istehsalına çox yaxınlaşan — Şimali Koreyanın da inadlı mövqeyində yumşalma hiss olunur. Onun lideri Kim Çen İr 2009-cu ilin ortalarında Çin rəsmiləriylə görüşündə bəyan etmişdir ki, Pxenyan Koreya yarımadasının nüvə silahından azad olması ideyasını dəstəkləyir və bununla bağlı çoxtərəfli danışıqların yenidən başlamasına hazırdır. Yaponiya mətbuatı bunu ABŞ-ın hazırkı rəhbərliyinin Şimali Koreyaya nüvə silahına yiyələnməkdən imtinanın qarşılığında verdiyi vədlərlə (təkliflərlə) əlaqələndirir. Həmin təkliflərə Ağ Evin əvvəlki Adminstrasiyasının Şimali Koreyaya vermək istəmədiyi təhlükəsizlik təminatının vəd olunması da daxildir. İranla Şimali Koreyanın nüvə silahına yiyələnməklə əlaqədar yeni qərarlarında nə qədər ardıcıl və səmimi olacaqlarını yaxın gələcək göstərəcəkdir.

İran rəhbərliyinin yeni açıqlamalarına baxmayaraq, az öncə də qeyd edildiyi kimi, ABŞ daha mükəmməl və əlverişli "raketdən müdafiə sipəri" yaratmaqda maraqlı və israrlıdır. Dövlət katibi H.Klintonun Müdafiə naziri R.Geytsin brifinqlərinin ardınca gündəmə gələn izahatında ABŞ-ın məlum qərarının onun Avropadakı müttəfiqlərinin təhlükəsizliyinə zərbə

olmadığı bir daha təkrarlanıbdır. Baş diplomat, bir yandan, Şərqi Avropada raketdən müdafiə sistemlərinin, yəni ancaq yeni layihəyə əsasən mobil "Standart-3" və "Petriot" zenit raketlərinin yerləşdiriləcəyinə əminlik yaratmağa çalışıbdır. Digər tərəfdən də, o, əvvəlki Administrasiyanın "raket sipəri proqramı"nın bahalı və mürəkkəb olduğunu vurğulayaraq yeni sistemin ABŞ-ın Avropadakı bazalarını (müttəfiqlərini) İranın raket hücumlarından daha yaxşı qruya biləcəyini söyləmişdir.

Göründüyü kimi, yenə də İranın orta və kiçik radiuslu ballistik raketləri ilə mümkün ola biləcək hücumları məsələsindən bəhs edilir. Yeni sistemin ABŞ-ın maraqlarının müdafiəsinə yetərli imkanlar yaratdığını bildirən H.Klinton onun lap tez quraşdırıla və İranın müvafiq hücumlarını effektivcəsinə zərərsizləşdirə biləcəyini mümkün saymışdır. Məlum "imtina qərarı"yla bağlı ilk açıqlamasında B.Obama da bunun **"Rusiya qarşısında geriçəkilmə"** kimi qiymətləndirilməsi ilə razılaşmadığını bildiribdir. O da yeni "raketdən müdafiə sipəri"nin qurulacağını təsdiqləmiş, amma konkret təfərrüatlara (sistemin elementlərinin yerləşdiriləcəyi yeni ərazilər və s.) varmamışdır (Sözgəlişi, Şimali Atlantika alyansının Baş katibi A.Rasmussen **üçlü, yəni NATO+ ABŞ+Rusiya** raket müdafiə sistemləri yaradılması ideyasını ortaya atmışdır).

ABŞ-ın raketdən müdafiəyə dair yeni sistemi Şərqi Avropaya alternativ olacaq ərazilər məsələsini də gündəmə gətirmişdir. Amerika rəsmi mətbuatının məlumatlarına görə, Pentaqon ekspertləri Türkiyə, Rumıniya və İsraili təklif etmişlər. ABŞ-ın Türkiyəni raketdən müdafiə sisteminə qoşmaq istəyi (təklifi) Obama - Ərdoğan danışıqlarında (Vaşinqton, XII.2009) rəsmən açıqlanmışdır. Ancaq rəsmi Ankaranın təklifə ehtiyatla yanaşdığı məlumdur. Bu da bir sıra səbəblərdən irəli gəlir. Belə ki, təklifə müsbət rəyi (cavabı) halında Türkiyə:

- İran və Rusiya ilə münasibətlərini korlayar;
- ehtimal olunan ABŞ-İİR və İsrail-İran hərbi qarşıdurmasında istər-istəməz irimiqyaslı konflikt tərəfinə çevrilər (Çünki

ərazisində raketdən müdafiə sistemlərinin quraşdırılacağı halda o, İranın cavab zərbələrinin hədəfi seçilər);
- orta mənzilli İran raketlərinin kosmosda vurulması şəraitində onların ölkə ərazisinə düşməsi təhlükəsi ilə üzləşər.

ABŞ silahlı qüvvələri Qərargah Rəisləri Komitəsi başçısının müavini, general C.Kartrayt yeni sistemin elementlərinin **"Qafqaza yaxın yerdə"** yerləşdiriləcəyini bildirmişdir. Ekspertlərin fikrincə isə, burada söhbət Qafqaza yaxın sularda ABŞ-ın raket əleyhinə sistemlərlə təchiz olunan gəmilərinin dayandığı Gürcüstandan gedir. Təl-Əvivin hərbi dairələrinə istinadən yayılan məlumatlarsa ABŞ-ın **"yeni raketdən müdafiə sipəri planı"n**da İsraillə yanaşı **Azərbaycanın da yer alacağın**dan xəbər verir.

"Debka.file" saytına açıqlama verən bir İsrail hərbçisi də Qəbələ RLS-in Pentaqonun yeni layihələrində yer aldığını və hazırda çox yaxşı işlədiyini qeyd etmişdir. Bu cür yanaşma Pentaqonun yeni sistemə Rusiyanı da daxil etmək planı ilə əsaslandırılır. Yəni ABŞ-ın ən azından Rusiyanın Armavir radar stansiyası ilə Qəbələ RLS-in imkanlarını nəzərdən keçirdiyini açıqlayan mənbələr də bir sıra dəlilləri önə çəkirlər. Məsələn, Pentaqonun diqqəti Qəbələ RLS-ə yönəltdiyini, başqa sözlə, onun da bəxtinin, nəhayət ki, açıldığını bildirənlər Müdafiə naziri R.Geytsin brifinqdə bu stansiyadan Rusiya ilə birgə istifadə məsələsi üzərində dayandığına işarə edirlər.

Ancaq Rusiya ilə ABŞ-ın raketdən müdafiə sistemləri məsələsində əməkdaşlığa və onların Qəbələ RLS-i birlikdə işlətmələrinə şübhə edənlər də yox deyil. ABŞ-ın hərb alimlərindən M.Tsipkin, S.Blank və b. 2009-cu ilin yayında Hudson institutunda keçirilən müzakirələrdə bu məsələlərlə bağlı bəzi nüansları qeyd etmişlər. Onların qənaətinə görə, Ağ Evlə Kreml arasında bu sahədə əməkdaşlıq çox çətin məsələdir, hərbi-siyasi baxımdan mümkün deyil və ona dair təkliflər sadəcə diplomatik gedişlərdir.

Həmin alimlərin mövqelərini əsaslandırmaq gətirdikləri

dəlillər sırasında bunlar diqqəti cəlb edir: Rusiya raketdən qlobal müdafiə sisteminin qurulmasını öz təhlükəsizliyi üçün təhlükə sayır; Pentaqon Rusiyanın Qəbələ RLS-dən birgə istifadə təklifinə müsbət yanaşsa da, onu özünün raketdən müdafiə sistemi üçün alternativ olaraq qəbul etmir; Azərbaycandakı radar stansiyası buraxılan raketlərin hərəkətini izləyə bilməməsi və s. üzündən ABŞ-ın planlarının reallaşdırılmasına texniki cəhətdən yaramır; dövlətlərarası "etinasızlıq problemi" əməkdaşlığı əngəlləyir; Ağ Ev raketdən müdafiə əməkdaşlığı çərçivəsində Kremlin vetoları üzündən öz planlarının pozulmasından ehtiyatlanır; Rusiya raketdən qlobal müdafiə sisteminə qoşulmaqla özünü İrana qarşı qoymaqdan yayınır; ABŞ müəyyən siyasi səbəblərə görə və məlumatların satılmasıyla əməkdaşlıq çərçivəsində əldə olunan informasiyaların üçüncü tərəfə ötürülməsindən qayğılanır; ölkələrarası raketdən müdafiə əməkdaşlığı rus generallarının təfəkküründə dəyişməsi ilə mümkün ola bilər.

ABŞ Dövlət katibinin sabiq müavini D.Kremer "Trend" agentliyinə verdiyi açıqlamada bildirmişdir ki, Pentaqonun planlarında aparılan dəyişikliklər Azərbaycanın geostrateji önəmini artırmışdır. Onun fikrincə, yeni raket sipərinin elementlərindən birinin həm ABŞ-ın ən yaxın tərəfdaşlarından olan, həm də Cənubi Qafqazın **ərazisində radar kompleksi yerləşən yeganə ölkəsi,** habelə İranla həmsərhəd Azərbaycanda quraşırılması mümkündür. Bu kontekstdə Qəbələ RLS ABŞ-ın planlarında müxtəlif yönlərdən nəzərdən keçirilməkdədir. ABŞ-Azərbaycan **illik təhlükəsizlik dialoqunda** (Vaşinqton, XI.2009) və Pentaqonun rəsmisi S.Uolanderin AR-ə səfəri zamanı (XI.2009) stansiya ilə bağlı məsələlər də ciddi müzakirə edilmişdir. Dialoqda AR-i təmsil edən XİN müavini A.Əzimovun açıqlamalarında bu məqamlar özünə yer almışdır: RLS texniki baxımdan Azərbaycana lazım deyil və hazırda o, stasionar mərkəzə çevrilibdir; Rusiya ilə ABŞ-ın ondan birgə istifadəsi yalnız mülkiyyətçinin (AR-in) proseslərdə iştirakı və razılığı ilə

mümkün ola bilər; birgə istifadə hərbi obyektin önəmini artırardı, ancaq bu sahədəki **üçlü** (ABŞ-Rusiya-AR arasında) **əməkdaşlıq** ölkəmizə müəyyən təhlükə yaradar.

ABŞ Müdafiə nazirliyinin rəsmisi S.Uolanderin Bakıda apardığı danışıqlarda isə RLS-in Rusiya tərəfindən istismarının (icarəsinin) 2012-ci ildən sonra dayandırılması məsələsi önə çəkilibdir. ABŞ-ın bu mövqeyi onun həmin stansiyaya Rusiyanın bölgədə hərbi iştirakı (mövcudluğu) vasitəsi kimi yanaşması ilə əlaqələndirilir. Hazırda Rusiya-ABŞ-Azərbaycan **üçbucağında** başlıca strateji müzakirə obyekti mövzularından birini təşkil edən **"Qəbələ RLS-i məsələsi"** barədə Bakı ilə Vaşinqton arasında 2010-cu ildə konkret nəticələrə gəlinəcəyi də güman edilir. Hələlik ABŞ-dan Qəbələ RLS-lə əlaqədar AR rəhbərliyinə rəsmi müraciət olmayıbdır. Amma AR Müdafiə naziri S.Əbiyevin Moskvaya səfərinin (IX.2009) gedişində RLS-dən istifadənin yeni imkanları məsələsinin də müzakirə edildiyi ehtimal olunur. Bütün bunlar, ən azından da, Qəbələ RLS-in Rusiya və ABŞ-ın birgə istifadəsinə verilməsi rəsmi Bakını çətin vəziyyətə sala bilər. Çünki indiki halda stansiyanın birlikdə işlədilməsi, yəni heç olmazsa texniki baxımdan modernləşdirilməsi ilə bağlı elə bir ciddi problem qalmayıbdır.

Ən başlıcası isə, Azərbaycan təbii səbəblər üzündən mütləq **RLS-ə aid yeni müqavilə**nin iştirakçısı olacaqdır. Bu halda İranla digər sahələrdə də (Xəzərin statusu və s.) problemləri olan Azərbaycanın rəsmi Tehranın yeni (əlavə) təzyiq-təhdidləri ilə qarşılaşması gözlənilməndir. Yəni Qəbələ RLS-in Bakı ilə Tehranlı üz-üzə qoya biləcəyi ehtimalı özünü doğrulda bilər. Stansiyanın İİR-in hədəfinə çevrilməsi də gözlənilməndir. Bunu "Hizbullah"ın RLS-in partladılmasına dair təlimatının 2008-ci ildə aşkarlanmasından da görmək mümkündür.

"Qəbələ RLS-in Azərbaycana başağrısı ola bilməyəcəyini" qeyd edən ekspertlərsə İranda qıcıq yaradacaq halın ortaya çıxmayacağı qənaətindədirlər. Onların fikrincə, bu stansiya XX əsrin 70-ci illərinin texnologiyası əsasında qurulmuşdur və

həmçinin xeyli köhnəlmişdir; İranın raketlərinin qarşısını almaq üçün yararlı deyildir. Buna görə də, ABŞ-ın Rusiyanın iştirakı ilə quraşdırmağı planlaşdırdığı raket əleyhinə qlobal sistemdə yalnız Qəbələ RLS-in deyil, Rusiyadakıların da məlumatlarını toplayacaq müştərək mərkəzin yaradılmasına üstünlük veriləcəkdir. Başqa sözlə, stansiya ilə bağlı qərarın tezliklə qəbul olunacağı və ABŞ-ın Qəbələ RLS-də hansısa işlər görəcəyi, bununla da İranın qıcıqlanacağı istisna edilir.

Başqa bir qrup mütəxəssis-ekspertsə belə hesab edir ki, **"həm bizim olan, həm də bizim olmayan" Qəbələ RLS-i** probleminin həllinin ən rahat və sadə yolu **onun sökülməsindən** ibarətdir. Bu mövqe belə əsaslandırılır: RLS ölkəmizə siyasi, ekoloji və s. baxımdan xeyli başağrısı gətirə bilər; icarə vaxtı bitdikdən, yəni 2012-ci ildən sonra Rusiya stansiyanı heç kəsə verə bilməz və yenidən təklikdə istifadə etmək istəyər; bu halın ABŞ-ın maraqlarına uyğun gəlməməsi üzündən yarana biləcək **Ağ Ev-Kreml "Qəbələ RLS-i qarşıdurması"**na Azərbaycan da cəlb edilər. Bunu da qeyd etmək lazımdır ki, RLS-in sökülməsi üçün xeyli vəsait də lazımdır və Rusiya onu vermək niyyətində deyil. V.Quluzadə belə hesab edir ki, artıq **"metal yığıntısı"**na çevrilən bu stansiya heç Rusiyaya da lazım deyil, o daha güclü RLS-lər tikir və icarə müqaviləsinin vaxtı bitəndə obyekt bağlana bilər.

Qəbələ RLS-lə bağlı **ən son uzlaşma məqamı** isə yenə də ondan birgə istifadə variantı üzərində dayanılmasıdır. ABŞ buna hələlik razılaşmasa da, verməsə də, onun Şərqi Avropa ilə əlaqədar planlarından imtina edərək Rusiya ilə əməkdaşlığa qərar verməsi məlumdur. Raketdən müdafiəyə dair qlobal sistemlərin qurulmasına müsbət yanaşan **Rusiya** son vaxtlar daha bir **(yeni) təkliflə** çıxış edibdir. Həmin təklif ABŞ-la Rusiyanın ortaq olacağı belə bir sistemin Türkiyədə qurulmasını nəzərdə tutur. Rusiyanın Türkiyədəki səfiri V.İvanovski vasitəsilə gündəmə gətirilən bu layihəyə görə, Qəbələ RLS-in Türkiyəyə köçürülməsi də faydalı və mümkün ola bilər. Qlobal raket sipəri

barədə ABŞ, NATO və Rusiya arasında intensiv danışıqların və Rusiya-NATO Şurasında müzakirələrin getdiyini bildirən V.İvanovski həmçinin "sistem kimə və hansı təhdidlərə qarşıdır?" sualını verərək "İranın Avropaya hücum edə biləcəyinə inanmadığını" vurğulayıbdır.

Hərbi-diplomatik çevrələrdən mediaya sız(dırıl)an məlumatlara görə, İranın 2009-cu il sentyabrın 28-nə keçən gecə keçirdiyi ballistik raketlərin sınağı Rusiyanın Raket Hücumlarından Xəbərdarlıq Sistemi tərəfindən (Qəbələ RLS-i vasitəsilə) izlənmişdir. Bu barədə həmin sistemin keçmiş komandanı, Qəbələ RLS-in döyüş növbəsinə qaytarılması işinə rəhbərlik edən, general N.Rodionov məlumat vermişdir. Onun şərhinə əsasən Rusiyanın Armavir radar stansiyası hələlik döyüş növbəsində deyil və təcrübə-sınaq mərhələsində olduğundan məlum izləmə prosesi Qəbələ RLS-i vasitəsilə həyata keçirilmişdir. İİR-in son raket sınaqlarının izlənməsinin açıqlanması ilə Qəbələ radarının işlək durumu nümayiş etdirilibdir.

Rusiyanın Qəbələ RLS-in Türkiyəyə köçürülməsi təklifinə Azərbaycan tərəfi "stansiya-radar bizə gərək olmasa da, ona dair bütün təkliflər (birgə istifadə və s.), məsələlər AR ilə razılaşdırılmalıdır" cavabını vermişdir. AR diplomatları hələlik nə birgə istifadəyə dair ABŞ-dan, nə də radarın köçürülməsi barədə Rusiyadan rəsmi təkliflərin gəlmədiyini bildirirlər. Bütün bu cür məsələlərinsə yalnız Azərbaycanın milli maraqlarının təminatı şərti ilə razılaşdırılacağı bəyan edilir.

Raketdən qlobal müdafiə sipərinin qurulması və bu kontekstdə Qəbələ RLS-i ilə bağlı məsələlər 2009-cu il dekabrın lap sonuna yaxın yenidən "anlaşılmaz vəziyyətlə üzləşdi". Buna isə Rusiya Baş nazirinin açıqlamaları səbəb olmuşdu. O, Şərqi Sibir-Sakit okean neft xəttinin açılışından sonra keçirdiyi mətbuat konfransında ciddi və geniş beynəlxalq əks-səda yaradan fikirlər söyləmişdir. Onların başlıca tezisləri aşağıdakılardır: Rusiya ABŞ ilə strateji balansı saxlamalıdır; ABŞ-ın qurmaqda olduğu Raketdən Müdafiə sistemi səmərəliliyini

təsdiqləməyibdir; beynəlxalq strateji balansın saxlanması üçün iki (Rusiya və ABŞ) güc sistemləri olmalıdır; Pentaqon raketdən qlobal müdafiə sipərinə dair planlarının təfərrüatlarını açıqlamalıdır, əks halda Kreml də öz hücum silahlarını təkmilləşdirəcəkdir; ABŞ-ın bu planları "Soyuq müharibə" dövrünün atom silahı cəbbəxanasının azaldılması barədəki razılaşmaya başlıca əngəldir və tərəfləri hazırkı nüvə danışıqlarında ciddi nəticələrə nail olmaqdan yayındıra bilər və s.

Ağ Ev və Pentaqon V.Putinin hədə ahəngli açıqlamalarından əndişəsini gizlətmədən onlara kəskin etirazını bildirmişdir. ABŞ rəhbərliyi bu cür yanaşmanın Ağ Evlə Kreml arasında nüvə tərksilahı barədə 1991-ci ildə bağlanan və 2009-cu ilin dekabrında müddəti başa çatan müqavilənin təzələnməsinə dair Cenevrə danışıqlarına xələl gətirə biləcəyi qənaətindədir. ABŞ-dakı (Qərbdəki) təhlillərə görə, Baş nazirin "nüvə siyasəti" prezident D.Medvedyevin mövqeyi ilə səsləşmir. Prezident ABŞ ilə strateji anlaşma tərəfdarıdır. Kopenhagendə keçirilən (XII.2009) "İqlim sammiti" çərçivəsində nüvə tərksilahı və raketdən qlobal müdafiə sipəri barədə B.Obama ilə danışıqları da o aparıbdır. Qərbli analitiklər **Rusiyadakı bu "ikitirəliyin"** rəsmi Vaşinqtonu çaşdırdığını və Moskvada kiminlə (prezidentlə, yoxsa Baş nazirlə) dialoq aparmaq problemi ilə üzləşdiyini vurğulayırlar. ABŞ-ın "Foreign Policy" jurnalının baş redaktoru M.Naimin qənaətinə görə isə, V.Putinin bu demarşı onun Rusiyada əsas sözsahibi olduğunu xatırlatması kimi başa düşülməli və qəbul edilməlidir. Bəziləri bunu Rusiyanın "keçmiş prezidenti – hazırkı Baş naziri – gələcək dövlət başçısının Kremlin indiki rəhbərinə xəbərdarlığı təki səciyyələndirirlər. Digərləri isə bunun Putin-Medvedyev tandeminin növbəti "oyunu"ndan başqa bir şey olmadığı və ABŞ-a təzyiq vasitəsi kimi düşünüldüyü qənaətindədirlər.

Azərbaycan-İran münasibətlərində **məhək daşı** sayılan başlıca məqamlardan birini də rəsmi **Tehranın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tutduğu mövqe** təşkil edir. İİR-in

mövqeyi Ermənistanın Azərbaycana təcavüzünü sözdə pisləməkdən, işdə isə himayə etməkdən ibarətdir. Belə bir mövqe İranın bu kimi **maraq və məqsədlərindən** irəli gəlir:

- Qafqazda **böyük müharibədən** ehtiyatlanma;
- münaqişənin davamlılığı -"dondurulmasıyla" **Azərbaycanın başını qatması** və onun üçün bir "Damokl qılıncı"na çevrilməsi;
- bölgədə gedən **proseslərə nəzarət** və burada böyük, təsirli **nüfuza sahibolma;**
- Naxçıvanın blokadada qalmasından **AR-ə təsir vasitəsi** kimi faydalanma;
- ermənilərlə münaqişə üzündən Azərbaycanın "Güney məsələsi"ndə **İrana təzyiq imkanlarının yetərsizliyi**ndən yararlanma;
- konfliktin həllinin AR ilə yanaşı Ermənistanın da **Qərbə inteqrasiyasını sürətləndirməsi perspektivlərin**dən Rusiya ilə birlikdə ciddi rahatsızlıq və s.

Bu kimi plan-niyyətlərdən çıxış edən İİR diplomatiyası Ermənistan-Azərbaycan münaqişəsinin **ilkin çağlarında** onun həlli üçün **uğursuz "vasitəçilik"** də etmişdi. **İlk** belə bir **"vasitəçilik missiyası"** 1992-ci ilin fevralında "baş tutdu". Azərbaycan və Ermənistan dövlət başçılarının İİR prezidentinin iştirakı ilə Tehranda keçirilən danışıqlarında **atəşkəs barədə sənəd** imzalandı. Ancaq Ermənistan silahlı qüvvələrinin Rusiyanın 366-cı alayı ilə birlikdə atəşkəs sazişinin mürəkkəbi qurumadan, yəni 1992-ci il fevralın 25-26-da Xocalı şəhərini tutaraq orada XX əsrin ən dəhşətli soyqırımlarından birini törətmələri İİR-in **"barışdırıcılıq missiya"sına** kölgə saldı. Rəsmi Tehranın sonrakı (ikinci; 7-8.V.1992) **"vasitəçilik səyi"** də sözdə, yəni kağız üzərində müvəffəqiyyətli (yenə də atəşkəs haqqında yeni növbəti sənədin protokolun imzalanması) və əməldə isə uğursuz **(Şuşa şəhərinin işğalı)** oldu.

İranın bu. **"vasitəçilik missiyaları"** bir çox **nəticələri** ilə diqqəti cəlb etdi: **a)** Xocalı faciəsi və Şuşanın işğalı ilə Ermə-

nistanın (Rusiyanın) Azərbaycana **hərbi təcavüzünün gedişində yeni mərhələ** başladıldı; **b)** Azərbaycan arzuolunmaz **"kənar qüvvələr"in (İranın) "vasitəçiliyi"**nə üz tutduğu üçün Kreml tərəfindən cəzalandırıldı; **c)** Rusiya habelə İrana **regiondakı yerini** göstərdi; **ç)** Azərbaycan cəmiyyətində İranın ölkəmizlə bağlı siyasətinə olan **mənfi rəy (reaksiya)** artdı; **d)** KİV-lərdə ermənilərlə İİR rəhbərliyinin **birgə razılaşdırılmış hərəkətləri** barədə məlumatlar yayıldı və s.

Ermənilərlə İİR rəhbərliyinin birgə razılaşdırılmış fəaliyyəti də diqqətçəkici məsələlərdəndir. Məlumdur ki, İran Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə əlaqədar danışıqlar prosesi barədə Ermənistan vasitəsilə sistemli məlumatlandırılır. Məsələn, hətta çox məxfi səciyyəli Ki-Uest danışıqları zamanı tərəflərin anlaşmaya yaxın olmaları İİR-ə rəsmi İrəvan tərəfindən çatdırılmışdı. Xüsusilə də həmin danışıqlarda Naxçıvana İran sərhədləri boyu uzanan nəqliyyat dəhlizinin verilməsi məsələsi İran – Ermənistan məsləhətləşmələrində özünə yer almışdı.

Sülh danışıqlarının gedişi barədə vaxtaşırı məlumatlandırılan İran diplomatiyası zaman-zaman *münaqişənin həllini* önləyici (əngəlləyici) tədbirlər də görməkdədir. Belə ki, lap son dönəmlərdə Rusiyanın vasitəçiliyi ilə aparılan müzakirələr prosesində Ermənistanın sabiq prezidenti R.Köçəryanın Tehrana səfəri (I. 2010) düşündürücü rəylər yaratmışdır. Həmin səfərdə güdülən məqsədlərlə bağlı versiyalar onun yenidən hakimiyyətə qayıdışına yardım etmək və bununla da Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına imkan verməmək kimi məqamları önə çəkir (R.Köçəryanın hakimiyyətə qayıdışıyla bağlı Rusiyadan dəstək almaq niyyətinin boşa çıxdığı məlumdur). Ekspertlərin qənaətinə görə, o vaxtkı prezident L.Terpetrasyan 1997-ci ildə münaqişənin mərhələli həllinə dair plana razılıq verəndə R.Köçəryanın yaxın adamı olan "DQR"-in "Müdafiə naziri" S.Babayanın Tehrana səfəri sonrakı hadisələrə təsir göstərən amillərdən olmuşdu. Bu kontekstdə Azərbaycan, Ermənistan və

Rusiya prezidentlərinin Soçi görüşünün (25.1.2010) ardınca İran XİN-i M.Mottəkinin İrəvana səfəri də düşündürücüdür

Proses və hadisələrin inkişafı İranın nəinki təkcə Dağlıq Qarabağ münaqişəsində Ermənistanı hərtərəfli himayə etdiyini və hətta onunla münasibətlərini tərəfdaşlıq səviyyəsinə yüksəltdiyini təsdiqləyir. Ermənistanın Rusiya ilə yanaşı həm də İranın **"forpostu"na** çevrilməsi göz önündə olan və danıla bilməyən faktdır. İran prezidentlərindən M.Hatəmi **"sivilizasiyaların dialoqu"nu** önəmli hesab edərkən öncəliklə də **İran-Rusiya-Ermənistan əlaqələrinin zəruriliyini** xüsusilə qeyd etmişdi. Heç də təsadüfi deyil ki, Ermənistan **dörd qonşusundan yalnız birinin,** yəni İranın ərazi bütövlüyünü rəsmən tanıyır (Belə bir dövlətlərarası hal **İİR-i,** digər məqamlarla yanaşı, habelə "Güney Azərbaycan məsələsi"ylə əlaqədar çox **qane** edir).

İİR **"Moskva-İrəvan-Tehran üçbucağı"nda** (bloklaşmasında) da özünə möhkəm yer tutmaqdadır. İranın Ermənistana hərtərəfli himayəsi hər iki dövlətin liderləri, araşdırmaçıları və diplomatları tərəfindən də dəfələrlə etiraf olunmuş, təsdiqlənmişdir. Azərbaycanla Türkiyəyə düşmən və İİR-lə Rusiyaya isə dost dövlətin (Ermənistanın) eks-prezidentlərindən L.Ter-Petrosyanın **"İran bizimçün nəfəslik rolundadır,** bu nəfəslik 2-3 günlüyə bağlanarsa, **Ermənistan boğular (çökər)"** söyləməklə əsla yanılmayıbdır. "İran həmişə Ermənistanın dar günündə onun köməyinə gəlib" fikri isə hazırkı dövlət başçısına (S.Sərkisyana) məxsusdur. İİR-in Ermənistandakı səfirlərindən S.Saqalianın **"İran daima Ermənistanın yanında olub və bundan sonra da olacaqdır"** açıqlaması qiymətli etiraf-təsdiqləmə sayıla bilər. İran Dövlət Qaz Şirkətinin nümayəndəsi V.Dininin açıqlamasından (XI.2009) bəlli olur ki, ilin əvvəlindən etibarən 110 km-lik kəmərlə hər gün Ermənistana 2 mln.m^3 qaz nəql edilmişdir (Bu həcmin 10 mln.m^3-ə artırılmasının mümkünlüyü də bildirilmişdir).

Erməni politoloq və ekspertləri **İrəvan-Tehran tərəfdaşlığını** nəinki inkar etmir, əksinə, təsdiqləməklə onun daha da

gücləndirilməsini lazım bilirlər. Bunu vaxtılə (V.1999) İrəvanda keçirilən **"Rusiya-Ermənistan-İran: sivilizasiyaların dialoqu"** beynəlxalq konfransında səsləndirilən müddəa və mülahizələr də yaxşı açıqlayır. İrəvandakı Qafqaz İranşünaslıq Mərkəzinin "Daşnaksütyun"un yaxından yardımı ilə təşkil etdiyi konfransa üç ölkənin diplomatları, siyasətçiləri, alimləri və b. qatılmışdılar.

Konfransda bir sıra **məqamlar** xüsusilə qabardıldı: bu, **üç xalqın** mənəvi cəhətdən və ruhən **yaxınlığı** (?!-İ.M.); Rusiya və İranın tarixən həmişə **Ermənistanın stabilliyinin qarantı** olaraq çıxış etmələri; onların hazırda Ermənistanın **başlıca strateji tərəfdaşları** olmaları; həmin iki qüdrətli qonşunun ermənilərin **müstəqilliyinə təhlükə yaratmamaları;** Rusiya ilə İranın stabilliyi və çiçəklənməsinin Ermənistanın mövcudluğuna, **tərəqqisinə mühüm yardım** göstərəcəyi və s. İranla Rusiyanın Ermənistandakı səfirləri (M.Koleyni və A.Dryukov) diplomatcasına çıxış edərək söhbətin "kiməsə qarşı olan hansısa **Moskva-İrəvan-Tehran təşkilatının** yaradılmasından deyil, məhəlli problemlərin həlli və regionun iqtisadi inkişafının təminatı məqsədilə belə bir **oxun** yaradılması zərurətindən" getdiyini bildirdilər.

İran-Rusiya əməkdaşlığında **tərəflərin bir-birlərindən gözlədiklərinə** aid açıqlamalarda da **Azərbaycanla bağlı məsələlər** özünə yer almışdı. **Çoxsaylı qarşılıqlı gözləntilər** sırasında **İranın Rusiyadan umduqları** maraq doğurur: Qarabağ münaqişəsinin tənzimlənməsinə yenidən qoşulmaq cəhdlərinin dəstəklənməsi; NATO-nun Güney Qafqaza doğru genişlənməsinin və Qərb dövlətlərinin sülhməramlı qüvvələr adı altında regiona gəlmələrinin əngəllənməsinə dair səylərin koordinasiyası; Xəzərin statusunun müəyyənləşdirilməsi, onun enerji ehtiyatlarından istifadə və s. məsələlərdə birgə mövqedən çıxış edilməsi.

Yeri gəlmişkən, rəsmi Tehran Ermənistan və Azərbaycanla (?!-İ.M.) normal münasibətlər qurduğunu iddia edərək onlar arasındakı münaqişənin nizamlanmasında **yenidən**

vasitəçi olmaq istəyir.(Belə bir istək 2010-cu ilin əvvəlində Bakıda səfərdə olan İran XİN-in müavini H.Qaşqari tərəfindən yenidən dilə gətirilibdir: "İran bu münaqişənin ədalətli həllinə tərəfdardır və tərəflərə qarşılıqlı anlaşmaya gələ bilmək üçün öz köməyini göstərməyə hazırdır".) Bu, təbii olaraq, mümkünsüzdür. Çünki ermənilər Türkiyə ilə Azərbaycanın siyasi-hərbi əməkdaşlığını əsas götürərək Türkiyənin Dağlıq Qarabağ münaqişəsində **tərəfsiz vasitəçi** ola bilməyəcəyini bildirirlər. Bu məntiqlə də rəsmi Bakının İİR-in Ermənistanla tərəfdaşlığını əsas tutaraq onun vasitəçiliyini qəbul etməməyə haqqı çatır.

Moskvanın Tehrandan gözlədiklərinin sırasına salınan məsələlərdən isə Rusiyanın Ermənistandakı dominant rolunun və Cənubi Qafqazda öz təsirini saxlamağa yönəlik səylərinin İran tərəfindən tanınması, qəbul edilməsi qeyd oluna bilər. **İran-Ermənistan əməkdaşlığına** dair məsələlərə də konfransda mühüm diqqət yetirilmişdi. Bir tərəfdən, İran-Ermənistan qaz kəmərinin çəkilməsinin ləngiməsinin və Türkmənistan qazının İran vasitəsilə Ermənistana nəqli barədəki **üçtərəfli sazişin** (1996) kağız üzərində qalmasından doğan rahatsızlıq vurğulanmışdı. Digər yandan da, Ermənistanın öz siyasəti ucbatından kənarda qaldığı (saxlanıldığı) bir sıra beynəlxalq və regional layihələrə qatıla bilməsinin yolları nəzərdən keçirilmişdi. **"Böyük İpək Yolu"nun bərpası layihəsinin** həyata keçirilməsində iştiraka dair niyyətlərini gizlətməyən ermənilər olduqca **qeyri-mümkün təkliflər** irəli sürürdülər.

Onlar hələ strateji yolların və digər kommunikasiyaların variantlarına dair **Balkan konfransında** Batum-İrəvan-Naxçıvan-İran dəmiryolunun bərpası barədə təkliflə çıxış etmişdilər. İrəvandakı bu konfransda isə bərpası mümkün olacağı təqdirdə Rusiyanın da özünün Qara dəniz donanması vasitəsilə həmin marşruta qoşulması məsləhət bilinirdi. Habelə bununla da İranla Ermənistanın Rusiyanın avropa hissəsiylə və qitənin digər ölkələri ilə ticarətini təmin etmələri faydalı sayılırdı.

Toplantıda daha bir və ilk baxışda çox gülməli görünən

"erməni təklifi" gündəmə gətirilmişdi. Belə ki, erməni ticarət gəmilərinin İranın Fars körfəzindəki limanlarından birində "qeydiyyata alınması ikitərəfli əməkdaşlığın perspektivli istiqamətlərindən biri kimi" qiymətləndirilirdi. Təklifin **"əsaslandırılması"** bunları nəzərdə tuturdu: Ermənistanla Rusiya qonşu olmamaları və Cənubi Qafqaz yollarının məlum səbəblərə görə bağlanması üzündən öz aralarında nəqliyyat əlaqəsini Xəzər vasitəsilə, konkret olaraqsa, Həştərxan-Ənzəli (İran) marşrutu ilə saxlaya bilərlər. Bu isə Ermənistana nəinki Fars körfəzində, habelə Xəzərdə öz gəmilərinə malik olmaq imkanı verər. Nəticədə də Ermənistan İran ərazisiylə Rusiyaya, Mərkəzi Asiyaya, Çinə, Hind okeanı hövzəsinə, habelə İran Ermənistan vasitəsilə Qara dəniz ölkələrinə və Rusiya isə dənizlərlə (Qara və Xəzər) Ermənistana çıxış imkanları qazanarlar.

Təcavüzkar Ermənistanla onun xilaskarı özünü bütün **dünya müsəlmanlarının "himayəçisi"** elan edən İran arasındakı əməkdaşlıq qonşuluq əlaqələrindən çox-çox uzaqlara gedən münasibətlər səviyyəsindədir. **"İslam təəssübkeşi"**nin Rusiyanın silah-sursatının Ermənistana və oradan da Dağlıq Qarabağ separatçılarına ötürülməsində tranzit ölkə rolunu oynadığı da məlumdur. Hazırda Rusiyanın hərbi texnikasının Ermənistana çatdırılmasının yeganə yolu İrandır. Gürcüstana hərbi təcavüzündən sonra İrəvanı silah-sursatla təchiz etmək imkanları xeyli məhdudlaşan və onu Ermənistanla bağlayan yeganə quru (dəmiryolu) keçidini itirən Rusiya İran marşrutuna üstünlük verir. Azərbaycanın hərbi ekspertlərinin təhlillərinə görə, bu marşrutun qollarının Xəzərdən və Qazaxıstanla Tacikistandan keçməsi də mümkündür (Rusiya silahının İran-Ermənistan sərhədindəki Mehri rayonunun və Azərbaycanın işğal edilən rayonlarının bəzilərinin ərazilərindən keçirilməsi də ehtimal olunur).

Ermənistanla Dağlıq Qarabağa Gürcüstan və Azərbaycan vasitəsilə hərbi sursat ötürülməsinin mümkünsüzlüyü və hava nəqliyyatı ilə silah daşımanın baha başa gəlməsi **"Xəzər marşrutu"** üzərində dayanmağa əsas verir. Bu hal Xəzəryanı ölkələrin dənizdən bir-birlərinə qarşı istifadə etməmək haqqındakı öhdəliyinə ziddir və Azərbaycanın bununla bağlı Rusiya ilə İrana etiraz etmək hüququ vardır. Burada problem Rusiya silahı və hərbi texnikasının Xəzər-İran marşrutu ilə Ermənistana göndərilməsinin inkar edilməsindədir. Rusiya bu versiyanı, ümumiyyətlə, yaxına buraxmır. İransa tranzit ölkə olaraq gəmilərlə nələrin daşınması barədəki **"təbii məlumatsızlığı"**nı əsas gətirir. Çətinlik həm də konkret hal-faktların sübuta yetirilməsinin, yəni silah daşıyan gəmilərin saxlanılmasının mümkünsüzlüyü ilə əlaqədardır (Buna gedilməsi beynəlxalq qalmaqala, Rusiya və İranla münasibətlərin gərginləşməsinə səbəb ola bilər).

Son vaxtlar İran Ermənistanı **yanacaqla təmin etməsini** daha da intensivləşdirmişdir. İranın neft məhsulları istehsalı və satışı şirkətinin rəsmisi S.Kazımzadənin açıqlamasından bəlli olur ki, Təbrizdəki "Şəhriyar" neftayırma zavodunda əldə ediləcək yanacaq Mərkəzi Asiya dövlətləri ilə yanaşı, Ermənistana da satılacaqdır. Zavodun neftlə təminatı üçün oraya sonradan Ermənistana qədər uzadılacaq yeni kəmərin inşası da planlaşdırılır. Hazırda Ermənistanın xarici ticarət dövriyyəsində 2-ci yeri tutan İranın dövlət və özəl şirkətləri hətta Dağlıq Qarabağla iqtisadi əlaqələr qurmuşlar, oraya qaz nəqli və s. ilə məşğuldurlar.

İranın Ermənistanla sıx iqtisadi-ticarət əlaqələrinə (işbirliyinə) malik olması və onun şirkətlərinin Dağlıq Qarabağa sərmayə yatırmaları, qaz nəql etmələri İİR rəsmiləri tərəfindən əsassız şəkildə danılır. İİR-in AR-dəki səfiri M.Bəhraminin Bakıda ("Trend" mətbuat mərkəzində) **"İranla Azərbaycan əlaqələrində yeni səhifələr"** mövzusunda keçirdiyi (15.IX.2009) mətbuat konfransında bu baxımdan çox maraqlı nüanslar olmuşdur. Xeyli müddət davam edən sükutunu pozan səfir bu mətbuat konfransıyla İranın müasir xarici siyasətinin **prioritet mövzu və problemlərinə** tezisvarı münasibət bildirmişdir: dünya dəyişmə ərəfəsindədir və islama üz tutmaqdadır; müsəl-

man ölkələrinin vəhdəti gücləndirilməlidir; "Nabucco" layihəsi İranın iştirakı olmadan həyata keçməyəcəkdir; Xəzərin statusunun İransız müzakirəsi mümkünsüzdür; İranda seçkisonrası durum qənaətbəxşdir və s.

Səfirin açıqlamalarında İran-Azərbaycan münasibətlərinin bir sıra **köklü məsələlərinə** də yer ayrılmışdı. Onun həm bu, həm də 2009-cu ilin noyabrında keçirdiyi mətbuat konfransında "Dağlıq Qarabağ problemi"nin həllinə dair **mülahizə və müddəaları** diqqətçəkicidir:

- Qarabağ münaqişəsi **regionu parçalayan və zəiflədən bir məsələdir**. İran münaqişənin sülh yolu ilə Azərbaycanın xeyrinə həllini istəyir. "Erməni işğalçı qoşunlarının Azərbaycandan çıxarılması Ermənistanın özünün də xeyrinədir".
- İran Qarabağın **işğalını həmişə pisləyib** və pisləməkdə davam edir (Sözgəlişi, E.Məmmədyarovun 2009-cu ilin dekabrında Tehranda İİR-in prezidenti və XİN-i ilə apardığı danışıqlarda Azərbaycan tərəfi **uzun illərdən bəri ilk dəfə** Dağlıq Qarabağ münaqişəsini İranla müzakirə etməyə hazır olduğunu bildiribdir);
- problem Azərbaycanın **ərazi bütövlüyü çərçivəsində** *həll* olunmalıdır ("Ümidvaram ki, yaxın dövrlərdə Qarabağın Azərbaycanın qucağına qayıtmasını birlikdə (?! – İ.M.) bayram edəcəyik");
- münaqişə region dövlətlərinin (İran nəzərdə tutulur – İ.M.) iştirakı olmadan tənzimlənə bilməz. **Kənar dövlətlər** yalnız öz mənfəətlərini güddüyündən (guya ki, İİR AR-in maraqlarını düşünür – İ.M.) Minsk Qrupunun fəaliyyətinin nəticəsi yoxdur və onlar münaqişənin nizamlanmasında 17 ildir heç bir irəliləyişə nail ola bilmirlər;
- dünyanın islama üz tutduğu bir şəraitdə -əhalisi təxminən 1.5 mlrd. nəfərə çatan və planetin əsas enerji payına sahib olan müsəlman ölkələrinin vəhdəti güclənərsə **Qarabağ** və s. **işğaldan azad olunar**.

M.Bəhraminin heç bir real əsaslara dayanmayan "müsəlman ölkələrinin vəhdəti güclənərsə, Qarabağ da işğaldan azad olar" kimi müddəa-"kəşfi" elə "islam birliyi"nə çağıran İranın Ermənistanı hərtərəfli himayəsi ilə təkzib edilir. Hərçənd ki, səfir əsla inandırıcı olmasa da, İİR-in Azərbaycana zərər vurmaq üçün deyil, məhz Qarabağ münaqişəsinin dinc yolla həlli məqsədi ilə Ermənistanla əlaqələr qurduğunu bildirmişdir. O həmçinin "Azərbaycanın inkişafı, irəliləməsi, tərəqqisi İranın tərəqqisi deməkdir, Azərbaycanın gələcəyi və təhlükəsizliyi İranın gələcəyi və təhlükəsizliyi ilə bağlıdır" kimi digər bir absurd, qeyri-təbii, diplomatik söz yığnağı səciyyəli fikir də söyləmişdir.

Azərbaycanla İranın iqtisadi əlaqələrinin genişləndiyini vurğulayan səfir **ölkələrarası ticarət dövriyyəsi**nin 2008-ci ildə 670 mln. dollara çatması faktını önə çəkmişdir. O, İranın Bakıda 25 mərtəbəli binanın inşası üçün 60 mln. avro sərmayə ayırdığını qeyd etməklə yanaşı, ölkəsinin şirkətlərinin **Dağlıq Qarabağla iqtisadi-ticarət əlaqələri** qurmaları fikri ilə qismən razılaşmışdır. Səfir yalnız özəl şirkətlərin oraya sərmayə yatırdıqlarını mümkün saymışdır. Dövlət şirkətləri tərəfindən görüləcək belə bir işi də **Azərbaycanın əleyhinə olmayan (?!-İ.M.) fəaliyyət** kimi dəyərləndirmişdir. İrandan Dağlıq Qarabağa qaz nəqli isə tamamilə inkar edilmişdir.

Ermənistanla tərəfdaşlıq səviyyəsindəki münasibətləri özünün "balanslaşdırılmış"-**Azərbaycana qarşı "çevrilməyən"** siyasətinin ifadəsi kimi qələmə verən İİR rəhbərliyi, bunlar azmış kimi, rəsmi Bakını İsrailin təsiri altına düşməkdə qınayır. Hazırda rəsmi Tehran "İİR-AR münasibətlərini korlayan İsrail barmağı" tezisindən möhkəm yapışmışdır. Bu kontekstdə hətta bəzi **təxribatçı-təhrikçi hərəkətlərə** yol verilmişdir. Artıq bir ildir ki, azərbaycanlı alim-fizik, BDU-nun əməkdaşı R.Əliyev casusluqda ittiham edilərək ETTELAAT-in sərt rejimli "Evin" zindanında saxlanılır. Onun guya ABŞ və İsrail kəşfiyyatına işləməsi iddia olunur. Sözgəlişi, son vaxtlar AMEA və BDU-da iranlı aspirantların, dissertantların sayının xeyli artması müşa-

hidə olunur və diqqəti cəlb edir. Xüsusilə də iranlı fiziklərin ölkəmizə "axını" maraq doğurur. AMEA-da 2009-cu ilə dair verilən hesabatlardan birində qeyd edilir ki, onun fizika institutundakı dissertantların 15 nəfəri (40 faizi) iranlılardır. Belə bir axını AR-də müxtəlif qeyri-qanuni yollarla dissertasiyalar müdaiə etməyin xeyli asan olması ilə əlaqələndirənlər də yox deyil. Amma burada İİR-in Xüsusi Xidmət orqanlarının maraqlarının önə çıxması və üstünlük təşkil etməsi də şübhə doğurmur. Başqa bir məlumata görə isə, ABŞ kəşfiyyat orqanları tərəfindən İran agenti Ə.Ərdəbili ələ keçirilmişdir. Onun ABŞ istehsalı olan radar komponentlərini Gürcüstandan və AR-dən keçirməklə İrana aparmağa çalışdığı aşkarlanıbdır.

İran Milli Teleradio Şirkətinin və ona məxsus "Səhər" telekanalının rəsmi saytlarında yerləşdirilən (4.X.2009) videoçarxda və məqalədə, bir yandan, Azərbaycanın dövlət bayrağı təhrif olunub, digər tərəfədn də, dövlət məmurlarımız və parlamentarilərimiz sionizmdə ittiham ediliblər. Belə ki, bayrağımızda səkkizguşəli ulduzun yerinə 6 güşəli "Davud ulduzu", yəni **yəhudilərin milli simvolu** çəkilmişdir. Materiallarda isə Azərbaycan rəsmilərinin İsrailin Mesav kurslarında iştirak etmələri, sionizmə qulluq göstərmələri və s. özünə yer almışdır. Bütün bunlarla bağlı AR XİN-i tərəfindən İİR-ə rəsmi nota verilmişdir.

İran diplomatiyası Azərbaycan-Türkiyə münasibətlərində son vaxtlarda özünü göstərən arzuolunmaz və ötəri boşluqdan (əsən soyuq ruzgarlardan) da yararlanmağa çalışır. Bu şəraitdə Ermənistan prezidentinin İrana dəvət olunması və **bu, ilk rəsmi səfərin** tezliklə baş tutması, bir çox ekspertlər tərəfindən haqlı olaraq, Tehranla İrəvanın Türkiyə və Azərbaycana "strateji əməkdaşlıq bax belə olar" ismarıcı-dərsi kimi də səciyyələndirilir.

Azərbaycanın sözdə **"müsəlman-şiə qardaşlığı"**nı və işdə isə qriqoryan təəssübkeşliyini açıqca nümayiş etdirən qonşu İranla münasibətlərinin perspektivlərinin bir çox müs-

təvilərdə gedən proseslərin nəticələri ilə bağlılığı danılmazdır. Həmin **müstəvi-prosesləri** səciyyələndirərkən aşağıdakıların nəzərə alınması və önə çəkilməsi lazım gəlir:

1. İkitərəfli qarşılıqlı münasibətlər müstəvisində:

- bir-birinə **tam bərabərhüquqlu dövlət** baxımından yanaşılması. Bu kontekstdə AR tərəfindən elə bir problemlər olmadığından İİR-in ona qarşı vaxtaşırı yol verdiyi müxtəlif səciyyəli **demarş-təzyiq-təhdidlərə son qoyması** dövlətlərarası əlaqələrə normal perspektivlər açar.
- habelə İran dövlətinin **Güney Azərbaycan türklərinin** çağdaş sivilizasiyanın və beynəlxalq hüququn tələblərinə uyğun **azadlıqlarını** tanıması və təmin etməsi;
- İİR-in Ermənistanın ölkəmizə hərbi təcavüzünə son qoyulması-Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində AR-in ədalətli və haqlı mövqeyi ilə **birmənalı razılaşması.**

2. Regional əməkdaşlıq çərçivəsində:

- Xəzərin hüquqi statusu və onun karbohidrogen ehtiyatlarından səmərəli istifadə olunması sahəsində **əsassız iddialardan (inaddan)** əl çəkilməsi. Azərbaycanın yanaşması bu məsələdə də beynəlxalq hüquqla, norma və qaydalarla tam uzlaşdığından İranın öz mövqeyini nəzərdən keçirməsinə ehtiyac vardır. Yəni onun da Xəzəryanı dövlətlərin artıq qətiləşməkdə olan vahid mövqeyini (Türkmənistanın bəzi istək-şərtləri istisna edilməklə) **dəstəkləməsi** çox faydalı olar. Belə bir perspektiv AR-İİR əlaqələrinə də **əlverişli gələcək təmin edə biləcək vasitələr**dən sayılır;
- tərəflərin bir-birlərinin nəhəng iqtisadi layihələrdə iştirakını **əngəlləməmələri.** Bu cəhətdən İİR şirkətlərinin AR-in **beynəlxalq neft kontraktlarına qoşulmasının** təmin olunması təqdirəlayiqdir. Hər iki dövlətin **"Nabucco"** layihəsinin həyata keçirilməsində istehsalçı ölkə olaraq iştirakının təmin edilməsi qarşılıqlı əlaqələrin və etimadın möhkəmləndirilməsi ilə yanaşı **beynəlxalq-regional iqtisadi inteqrasiyaya da müsbət** təsir göstərər (Əlbəttə, Qərbin və ən başlıcası da, ABŞ-ın

buna razı salınmasına müvəffəq olmaqla).

3. **Beynəlxalq siyasət sahəsində:**

- öz geostrateji maraqlarının təmin olunması naminə regional sabitliyin pozulmasına və gərginliyin artmasına rəvac verilməməsi;
- ABŞ-İİR münasibətlərinin-arzuolunan və qismən də gözlənilən – **normallaşmasının** Azərbaycanla İranın əməkdaşlığının genişlənməsinə şərait yaratması. (Sözgəlişi, rəsmi Tehran hazırda AR-i Ağ Evlə çox yaxınlıq etməkdə qınayarkən ABŞ-İran münasibətlərinin **düzəlməsi ehtimalı-perspektivinə** və bu zaman Azərbaycanın düşə biləcəyi duruma da üstüörtülü işarələr verməkdədir. Buna əks bir məqam (tezis) isə **ABŞ-Rusiya münasibətlərinin yaxşılaşacağı şəraitdə** İranın nələr edəcəyi məsələsini aktuallaşdırır. Bütövlükdə isə, bizcə, ABŞ-İran qarşıdurmasının aradan qalxmasının regiondakı sabitlikdə ciddi rol oynaması və habelə AR-İİR münasibətlərindəki bəzi problemlərin həllinə mühüm təsir etməsi şəksizdir);
- **ABŞ-ın** Rusiyanın qarşısında geri çəkilməsinin ardınca **İranın da qabağından qaçmasının** (necə ki, B.Obama BMT Baş Assambleyasının 64-cü sessiyası çərçivəsindəki tədbirlərdə M.Əhmədinejadla üz-üzə gəlməkdən belə yayınırdı) **Bakı-Tehran münasibətləri** üçün təsirsiz ötüşməyəcəyi də gözlənilməndir;
- Tehranla Vaşinqton arasındakı uzunmüddətli gərginliyin aradan qalxması **Yaxın Şərqdə sülhyaratma prosesini** də sürətləndirə bilər. Yəni ABŞ-ın İranı, nəhayət ki, **"yola gətirə bilməsi"** Yaxın və Orta Şərqdəki çoxşaxəli proseslərin başlıca aktorları olan **İİR-lə İsrailin də "dil tapmaları"**na imkan verər. Ancaq (M.Əhmədinejadın BMT Baş Assambleyasının 64-cü sessiyasındakı çıxışında İsraili Fələstinə qarşı siyasətinə görə tənqid edərək onun ünvanına üstüörtülü kəskin ifadələr işlətməsi hələlik belə bir **"diltapma"nın yaxın olmadığını** göstərir). Öncəliklə tərəflərin bir-birlərinə ünvanladıqları ittiham və hədələrdən imtinaları baş tutar. Belə ki, İran "İsraili yer üzündən silmək" planından və yəhudi soyqırımını tanımamaqdan əl çəkər. İsrail də İrana hava zərbələri endirmək və s. planlarını bir kənara qoyar. Bütün bunlarsa dolayılı yolla olsa da, **Azərbaycan-İran münasibətlərindəki bəzi arzuolunmaz halların** aradan qaldırılmasına öz təsirini göstərər. Eyni zamanda Azərbaycan-İsrail əlaqələrindəki müəyyən süni problemlər də aradan qalxmış olar.

Azərbaycan-İsrail əlaqələri: qarşılıqlı maraqlar və perspektivlər

İsraillə münasibətlər də AR-in xarici siyasətində **özünəməxsus yeri** olan istiqamətlərdəndir. Dövlətlərarası rəsmi əlaqələr 1992-ci ildə yaradılmışdır. İsrail Azərbaycanın müstəqilliyini **ilkin tanıyan** dövlətlərdəndir. O ölkəmizdə çoxdan öz səfirliyini açsa da, AR İranın və bəzi ərəb dövlətlərinin mənfi reaksiyasını nəzərə alaraq hələ ki, orada özünün **diplomatik nümayəndəliyini təsis etməyib**dir. Bu halı həmçinin yəhudi lobbisinin Dağlıq Qarabağ münaqişəsinin ədalətlə nizamlanmasına yetərli yardım göstərməməsi ilə əlaqələndirən ekspertlərə də rast gəlinir. Çoxsaylı dəvətlərə baxmayaraq Azərbaycandan yüksək vəzifəli dövlət rəsmiləri, diplomatlar və b. hələlik İsrailə səfərə getməyiblər. İsrail tərəfdənsə Baş nazir B.Netanyahu 1999-cu ildə yolüstü Bakıda-prezidentin Zağulbadakı iqamətgahında – H.Əliyevlə görüşərək müəyyən müzakirələr aparmışdır.

Yəhudi dövlətinin 86 yaşlı prezidenti və 61 illik siyasi staja malik Ş.Peresin MDB-yə üzv olan müsəlman ölkələrinə turnesi çərçivəsində AR-ə rəsmi səfərə dəvət edilməsivə onun baş tutması (VI.2009) ilə ikitərəfli münasibətlərdə ciddi addım atılmışdır. Bu dəvət-səfər Azərbaycanın İsraillə **siyasi əlaqələri genişləndirmək qənaəti** kimi də səciyyələndirilir. Az öncə də

qeyd edildiyi kimi, Ş.Peresin bu səfəri İranı hiddətləndirmişdi və bundan narazılıq **"general diplomatiyası"** ilə ifadə olunmuşdur.

Bu narazılığın yersizliyi və əsassızlığına dair əvvəldə göstərilən dəlillərə əlavə olaraq bunları da vurğulamaq lazım gəlir: İsrail Ermənistanla geniş əlaqələrə malik deyil və tərəflər bir-birlərində hətta diplomatik nümayəndəliklər belə açmayıblar; "bəzi qonşularımız (AR nəzərdə tutulur – İ.M.) sionistlərə xidmət edir və İsrailin dünyada öz hegemonluğunu təmin etməsinə yardımçı olur" (M.Əhmədinejad) bəyanatını verən İİR **"Ermənistanın xilaskarı"**na çevrildiyini və Azərbaycanın torpaqlarını yəhudilərin deyil, ermənilərin tutduğunu "unudur".

Azərbaycan İsrailin fələstinlilərlə bağlı siyasəti ilə tam razılaşmayıb rəsmi Tel-Əvivlə əlaqələrdə ehtiyatlı davransa da, dövlətlərarası münasibətlər həmişə normal olubdur. Buna görə də ölkəmizin yəhudi dövləti ilə əlaqələri genişləndirmək niyyəti və səylərinin İsrailin Azərbaycanı **"əməkdaşlıq və birgə fəaliyyət" adı altında siyasi nəzarətə almasına** yardım göstərilməsi kimi qələmə verilməsi düzgün olmazdı. Bu kontekstdə Ş.Peresin məlum səfərinin regional sülhə təhlükə yaratması mülahizəsi də inandırıcı səslənmir. Bəzi ekspertlərin İsrailin Azərbaycanın qonşu ölkələrlə yaxınlaşmasını əngəlləməyə, öz enerji təhlükəsizliyini Azərbaycan vasitəsilə Xəzərin neft-qazının böyük hissəsinə yiyələnməklə təmin etməyə çalışması və digər fikirlər də **çağdaş reallıqların fonunda yetərincə əsassız** görünür.

Ermənistanı **"Qafqazın İsraili"** kimi dəyərləndirərək onların Azərbaycana dair siyasətlərini eyniləşdirmək də məntiqsizdir (Səfərdən sonra İsrailin hətta Azərbaycana hərbi dəstək verəcəyinə dair məlumatların ortaya çıxması, yəhudi lobbisinin bir çox məsələlərdə AR-in haqlı mövqeyini dəstəkləməsi də Tel-Əvivlə İrəvanın ölkəmizə dair siyasətləri arasında bərabərlik işarəsi qoyulmasını istisna edir). Ş.Peresin AR-ə səfərinin onunla R.Ərdoğan arasında Davos Ümumdünya İqtisadi Forumunda (2009) yaşanan və **"One minute"** adı ilə tanınan mübahisədən bir qədər sonraya təsadüf etməsi də müəyyən söz-söhbətlərə rəvac veribdir (R.Ərdoğan BMT Baş Assambleyasının 64-cü sessiyasında da İsraili fələstinlilərlə əlaqədar siyasətinə görə kəskin tənqid etmişdir. O habelə jurnalistlərə açıqlamasında nüvə məsələsində İrana edilən təzyiqləri ədalətsizlik sayaraq demişdir ki, "yatıb-durub" İran deməkdənsə Yaxın Şərqdə nüvə silahına malik ölkədən-İsraildən bəhs etmək lazımdır. İsrailin artıq nüvə silahına malik olduğunu və 2008-ci ildə Qəzzada dinc əhaliyə qarşı fosforlu bombalardan istifadə etdiyini vurğulayaraq "Bəs bunlar niyə müzakirəyə çıxarılmır?" sualına da cavab verilməsinin istənildiyini bildirmişdir).

Yəni İsrail prezidentinin Azərbaycana rəsmi səfərə dəvət olunmasını Türkiyənin Ermənistanla apardığı bəzi müzakirələrə reaksiya-cavab olaraq qiymətləndirən yanaşmalara da rast gəlinməkdədir. Ancaq, bizcə, bu iki proses-hadisə arasında üzvi əlaqə yoxdur və Azərbaycanın strateji tərəfdaşı olmaqda Türkiyəni əvəzləyəcək hər hansı bir dövlət hələ ki, yaxın perspektivdə, üfüqdə görünmür. Digər yandan, onların strateji maraqlarının gerçəkləşməsi zərurəti xeyli müddətdən bəri formalaşmaqda olan **"Türkiyə-Azərbaycan-İsrail üçbucağı"**nın da tezliklə və asanlıqla çat verməsini istisna edir.

Dövlətlərarası iqtisadi-ticarət əlaqələri (dövriyyəsi) durmadan inkişaf etməkdədir.Ölkəmiz faktiki olaraq yəhudi dövlətinin **müsəlman dünyasındakı əsas iqtisadi tərəfdaşlarından** birinə çevrilibdir. Azərbaycan İsrailə neft ixracında Rusiyadan sonra **ikinci yeri** tutur. İsrailin neft idxalının təxminən 20 faizi BTC kəməri vasitəsilə həyata keçirilir. İsrail 2008-ci ildə Azərbaycandan 3,5 mlrd. dollarlıq mal alıbdır. 2009-cu ildə Azərbaycan İsraillə mal dövriyyəsini artıran **yeganə MDB dövlətidir**. Humanitar əlaqələrin genişlənməsi də diqqətəlayiqdir. Azərbaycan yəhudi vətəndaşlarına **tolerantlıq** göstərilməsinin yüksək səviyyəsi cəhətdən də **dünyanın ən öncül** ölkələrindəndir.

Son vaxtlarda, yəni ikitərəfli münasibətlərin xeyli yaxınlaşmaqda olduğu bir vaxtda qarşılıqlı əlaqələrdə müəyyən xırda problem də yaşandı. İsrail hökuməti öz vətəndaşlarının təhlükəsizliyi ilə bağlı **paytaxtlararası təyyarə reysi barədə məsələ** qaldırdı. Yəni Almaniyada, Rusiyada və Asiya ölkələrinin bir çoxunda olduğu kimi, Bakı hava limanında da təhlükəsizlik tədbirlərinin özünün məxvi xidmət orqanları tərəfindən təmin edilməsini istədi. Azərbaycan tərəfi haqlı olaraq bununla razılaşmadı. Çünki həmin təklifin qəbulu İran və digər dövlətlərdə də analoji istəklər yarada bilər. AZAL-ın aviareysləri əvvəlki qaydalar əsasında (müsəlman ölkəsi Türkiyəyə uçuş şərtləri dəyişmədiyi kimi) təşkil etməsi lazım bilindi. Təl-Əvivdən Bakıya sərnişin aviareysinin bağlanması AR XİN-i tərəfindən texniki (yəni AZAL-a aid) məsələ kimi dəyərləndirilir və onun tezliklə həllini tapacağı gözlənilir.

Bunu İsrailin AR-dəki keçmiş səfiri A.Lenki əvəzləyən yeni böyük elçisi M.Lavon-Lotun açıqlamalarından (VIII.2009) da duymaq olur. Səfirin **"Azərbaycan strateji kəsişmə xəttində yerləşir** və bunu nəzərə almamaq mümkün deyil", **"Azərbaycan İsrailin əsl dostu ola bilər"** kimi fikirləri diqqəti cəlb edir. O həmçinin aviareyslər məsələsi ətrafında qalmaqal yaratmağa əsas olmadığını vurğulamışdır. Yeri gəlmişkən, səfir İranla qonşuluqda yerləşən AR-in strateji əhəmiyyətini önə çəkməklə yanaşı, Bakının Tehranla münasibətləri gərginləşdirmək istəməməsinin **başadüşülən** olduğunu qeyd etmişdir: "Vəzifəm heç bir halda suveren ölkəni öz qonşuları ilə münasibətlərini necə qurmağı öyrətməkdən ibarət deyil, İsraillə Azərbaycanın böyük potensiala malik olan əlaqələrini inkişaf etdirməkdir".

Azərbaycan-İsrail münasibətlərinin durumu və perspektivləri məsələləri baş diplomatların ATƏT XİNŞ-in Afina görüşü (I.XII.2009) çərçivəsindəki danışıqlarında da müzakirə edilibdir. **E.Məmmədyarovla A.Libermanın danışıqlarının** səmərəli olduğu açıqlanıbdır. Tərəflər bir-birlərini qarşılıqlı səfərlərə dəvət ediblər. AR-in Xarici İşlər nazirinin İrana səfərinin (XII.2009) ardınca İsraillə təmaslarda da fəallaşma müşahidə edilir. Ekspertlər bunu rəsmi Bakının "xarici siyasət ziqzaqları", balanslaşdırma xəttinin ifadəsi kimi səciyyələndirirlər.

Bütövlükdə, Azərbaycan-İsrail münasibətlərinin **yüksələn xətt üzrə yaxşılaşması** gözönündədir. İkitərəfli iqtisadi əlaqələr, xüsusilə də enerji ehtiyatları ticarəti sahəsində əməkdaşlıq qarşılıqlı faydalılıq əsasında davam etdirilir. Ən başlıcası da, İsrail Ermənistanın ölkəmizə təcavüzünə son qoyulmasına dair tutduğu **ədalətli mövqedə israrlı və ardıcıldır**. ABŞ-dakı yəhudi lobbisinin bədnam "907-ci düzəliş"in ləğvinə yönəlik **sistemli dəstəyi** də danılmazdır və təqdirolunasıdır. Bütün bunlar və hər iki dövlətin strateji maraqları onlar arasındakı normal münasibətlərə arzuolunan perspektivlər vəd edir.

Azərbaycanın ərəb və Afrika dövlətləri ilə əməkdaşlığı: başlıca məsələlər və istiqamətlər

Azərbaycanın **ərəb dünyası** ilə əlaqələri də müasir beynəlxalq münasibətlərdə özünəməxsus yer tutur. AR islam aləminin mühüm bir hissəsini əhatə edən **Yaxın və Orta Şərqin ərəb ölkələri ilə çoxşaxəli əməkdaşlığa** böyük əhəmiyyət verir. Buna regionun əlverişli coğrafi yerləşməsi, zəngin enerji ehtiyatları, müsəlman ölkələrindən (İsraili çıxmaqla) ibarət olması və s. ciddi təsir göstərir.

Ölkəmizin **ərəb-islam dünyasının** (Yaxın və Orta Şərqin) **aparıcı dövlətlərindən** biri olan **Misir Ərəb Respublikası (MƏR)** ilə münasibətləri xeyli inkişaf etməsi ilə seçilir. 1992-ci ilin martında diplomatik əlaqələrin qurulmasından bir qədər sonra açılan səfirliklər (Bakıda-III.1993; Qahirədə-IX.2004; bu, həm də AR-in Afrika dövlətlərində yaratdığı **ilk elçilikdir**) qarşılıqlı münasibətləri xeyli yaxşılaşdırdı. Azərbaycan-Misir əməkdaşlığının **başlıca yönlərini** və **ilkin nəticələrini** aşağıdakılar yetərincə səciyyələndirir:

a) AR-in ərazi bütövlüyünü tanıyan və onun Dağlıq Qarabağ münaqişəsinin ədalətlə həllinə dair haqlı mövqeyini BMT, İKT kimi təşkilatlarda dəstəkləyən **ilk ərəb dövlətlərindən biri** də Misir olmuşdur. (Sözgəlişi, onun BMT Baş Assambleyasının 59-cu illik sessiyasında AR-in "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət barədə" məsələnin müzakirəsinə dair təşəbbüsü ilə əlaqədar keçirilən səsvermədə (29.X.2004) **tərəfsiz qalması** da məlumdur);

b) dövlətlərin rəsmilərinin çoxlu qarşılıqlı səfərləri olmuş və onlar arasında səmərəli danışıqlar aparılmışdır. Hələ 1992-ci ilin noyabrında AR XİN-i **T.Qasımovun Misirə rəsmi səfəri** baş tutdu (Prezident Ə.Elçibəyin MƏR-ə *həmin ilin sonlarına* planlaşdırılan rəsmi səfəri isə ARdaxili problemlər üzündən alınmadı). Dövlətimizin digər başçısı H.Əliyev **BMT-nin Əhali və İnkişaf üzrə beynəlxalq toplantısında** iştirakı (IX.1994) çərçivəsində MƏR prezidenti H.Mübarəklə müzakirələr apardı. AR-lə MƏR-in dövlət və hakimiyyət strukturlarının rəhbərlərinin, parlamentarilərinin, elm və mədəniyyət xadimlərinin çoxsaylı qarşılıqlı **səfər-dialoqları** ikitərəfli münasibətlərin inkişafı üçün mühüm səmərə vermişdir. *İ.Əliyevlə* H.Mübarəkin müxtəlif beynəlxalq tədbirlər çərçivəsindəki təmasları faydalı olmuşdur;

c) indiyədək dövlətlərarası xeyli **(15-dən artıq) sənəd** imzalanmışdır. Bunlara AR-dən MƏR-ə neftçıxarma avadanlıqlarının göndərilməsi haqqında müqavilə, ölkələrarası təhlükəsizliyə dair əməkdaşlıq, investisiyaların qarşılıqlı qorunması, informasiya-mədəniyyət mərkəzlərinin təsisi barədə sazişlər, Ticarət-Sənaye palatalarının razılaşması və s. misal ola bilər.

AR-in müsəlman-ərəb aləminin dövlətləri ilə münasibətlərində **Səudiyyə Ərəbistanı Krallığıyla** əlaqələri xüsusi çəkisiylə fərqlənir. Bunu H.Əliyevin müsəlman ölkələri arasında **üçüncü** (Türkiyə ilə İrandan sonra) və ərəb dövlətləri sırasında isə **ilk səfərinin** məhz həmin ölkəyə olmasından da görmək mümkündür. Onun rəsmi səfəri ilə (VII.1994) ölkələrarası

əlaqələrə rəvac verildi. Həmin səfər-danışıqların nəticəsi olaraq 5 saziş və Birgə Bəyanat imzalandı.

AR postsovet müsəlman dövlətləri arasında **birinci olaraq** Krallıqda səfirlik açmışdır (IV.1994). Səudiyyə Ərəbistanının da Azərbaycanla diplomatik nümayəndəlik yaratması (VI.1999), AR XİN-i E.Məmmədyarovun Krallığa rəsmi səfəri zamanı ikitərəfli siyasi məsləhətləşmələrə dair **Anlaşma Memorandumunun** imzalanması və digər tədbirlər dövlətlərarası münasibətlərin daha da inkişafına çox müsbət təsir göstərdi.

Rəsmi Ər-Riyadın "Dağlıq Qarabağ problemi"nin həlli ilə bağlı mövqeyi **qəti birmənalıdır:** münaqişə nizamlanmayanadək Ermənistanla heç bir əlaqə olmayacaqdır. İkitərəfli əlaqələrdə **iqtisadi əməkdaşlıq daha üstün imkanlara** malikdir. Bunu həmin sahəyə dair bağlanan çoxlu müqavilələr, Müştərək Komissiyanın fəaliyyəti, Krallığın AR-ə sanballı həcmdə kreditlər (məsələn, təkcə elə 2002-ci ildə 35,7 mln. rial həcmində) ayırması, onun rəsmi təmsilçisinin BTC kəmərinin təməlqoyma mərasiminə (IX.2002) qatılması və s. təsdiqləyir.

Krallıq Azərbaycana **humanitar yardımlar göstərilməsi** istiqamətində də öncüllük edən dövlətlərdəndir. Buna Qafqaz müsəlmanları İdarəsinin (QMİ-nin) İki Müqəddəs Ocağın (Məkkə və Mədinənin) dini qurumları ilə sıx əməkdaşlığı da əlavə imkanlar yaradır (Humanitar yardım adı altında **vəhhabiliyin təbliğatı** və onun Azərbaycanda yayılması niyyətlərinin olması faktları da məlumdur). Ümumiyyətlə isə, AR ilə Krallıq arasındakı münasibətlərin irəliləməsi üçün elə bir **ciddi problemlər** yoxdur.

Suriya ilə münasibətlərdə AR tərəfindən yeridilən siyasət BMT, İKT və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq etməklə yanaşı, **ikitərəfli əlaqələrə də üstünlük verməkdən** ibarətdir. Ölkələr arasında diplomatik əlaqələr qurulduqdan (III.1992) sonra qarşılıqlı münasibətlərdə dövlət rəsmilərinin səfərləri, onların diplomatik yazışmaları və s. artmağa başladı. AR-in **Dəməşqdə səfirliyinin təsisi** (IV.1997) diplo-

matik əlaqələri və iqtisadi əməkdaşlığı müəyyən qədər canlandırdı. Suriyadakı **erməni diasporasının antitürk fəaliyyəti**, rəsmi Dəməşqin Orta və Yaxın Şərqdə gedən proseslərə təsir imkanları və digər məqamlar Azərbaycanın onunla əlaqələrini daha gücləndirməsini şərtləndirir.

İraqla münasibətlər saxlanılması da Azərbayan üçün gərəklidir. C.Buş (oğul) administrasiyası tərəfindən **"Şər üçbucağı"**na daxil edilən və sonra da tutulan Səddam İraqı ilə diplomatik əlaqələr onun AR-in müstəqilliyini tanımasından (I.1992) dərhal sonra, yəni həmin ilin mart ayında yaradılmışdı. İraqın Bakıda hələ 1974-cü ildən fəaliyyət göstərən Baş Konsulluğunun səfirliyə çevrilməsinin (1992) ikitərəfli əlaqələrin genişlənməsinə müəyyən təsiri oldu.

Azərbaycan İraqla münasibətlərdə onun yaxın keçmişdə və indiki-işğal şəraitində də **regional proseslərə və ərəb-islam aləmindəki ictimai rəyə təsir imkanlarını** nəzərə alır. Bununla bağlı da ermənilərin ərəb dünyasında apardıqları antitürk-Azərbaycan əleyhinə təbliğatın zərərsizləşdirilməsinə yönəlik fəaliyyətdə **İraqın mövqeyindən faydalanmağa** çalışılır. İraq Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq qurumlarda (BMT, İKT və b.) müzakirəsi və müvafiq sənədlərin qəbulu zamanı rəsmi Bakının əsaslı mövqeyini **tərəddüdsüz müdafiə** edir. Rəsmi Bağdad hazırkı, yəni Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı şəraitdə onunla diplomatik əlaqələr qurulmasını mümkün saymadığından İrəvanın səyləri hədər gedir.

İki ölkə arasında tarixən mövcud olan **mədəni əlaqələr** mümkün imkanlar şəraitində davam etdirilməkdədir. İqtisadi və mədəni əməkdaşlığa dair bir sıra **sazişlər** bağlanmışdır. AR ordusunun məhdud hərbi kontingenti bir ara beynəlxalq birliyin **İraqda sülhyaratma prosesində iştirak** etmişdir. Qarşılıqlı rəsmi və işgüzar səfərlər, diplomatik yazışmalar dövlətlərarası əlaqələrin saxlanılmasında mühüm formalardır. ABŞ qoşunlarının İraqdan çıxma perspektivi, onun ərazi bütövlüyünün

təminatı, ölkədə sabitliyin tam bərqərar olması və s. şəraitində Azərbaycan-İraq münasibətlərinin **inkişafı gözlənilməndir** və tərəflər, habelə region üçün faydalı hesab olunmalıdır.

İordaniya Hasimiyyə Krallığının AR-i rəsmən tanıması (XII.1991) onların arasında diplomatik münasibətlərin yaradılmasına (II.1993) **hüquqi əsas** olmuşdur. Dövlət başçıları (prezident H.Əliyevlə kral II Abdullah) İKT-nin Kasablanka sammitində (XII.1994) və Davos Ümumdünya İqtisadi Forumunda (I.2000) bir araya gələrək **ikitərəfli əlaqələrin inkişafını** müzakirə etmişlər. Respublikamızla Krallığın rəsmilərinin qarşılıqlı səfərləri dövlətlərarası əlaqələrdə mühüm əhəmiyyətə malikdir. İordaniyanın ölkəmizə təyin olunan səfiri 2000-ci ilin mayından etibarən fəaliyyətə başlamışdır.

İqtisadi-mədəni əməkdaşlığın inkişafı sahəsində imkanlar yetərincədir. Bunu İordaniya kralı II Abdullahın Bakıya (2002) və prezident İ.Əliyevinsə Əmmana (X.2009) səfərləri bir daha təsdiqlədi. Əmmanda kral II Abdullahla aparılan danışıqlarda bu kimi **məqamlar (məsələlər)** vurğulandı: ölkələrarası əlaqələrin uğurlu inkişafı; yüksək səviyyəli qarşılıqlı səfərlərin mühüm önəmi; hökumətlərarası iqtisadi komissiyanın səmərəli fəaliyyəti; konkret layihələrlə bağlı faydalı müzakirələr və s. Ölkəmiz arasındakı humanitar əlaqələrin inkişafında **"Bakı-islam mədəniyyətinin paytaxtıdır"** tədbirləri çərçivəsində Azərbaycanda keçirilən İordaniya mədəniyyəti həftəsi xüsusilə qeyd olunmalıdır.

Azərbaycanla **Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ)** öz aralarında diplomatik münasibətlər yaratdıqdan (IX.1992) sonra ikitərəfli əlaqələri genişləndirmişlər. **Dövlət başçılarının** İKT-nin Kasablanka sammiti zamanı (XII.1994) keçirilən **ilk görüşü** də qarşılıqlı faydalı əməkdaşlığa stimul olmuşdur. AR-BƏƏ əlaqələri əsasən iqtisadi-ticarət sahələrini əhatə edir. **İqtisadi-ticarət əməkdaşlığını** səciyyələndirən işlər sırasında BƏƏ-nin respublikamıza humanitar yardımını, ölkəmizdə gerçəkləşdirilən bəzi layihələri maliyyələşdirməsini, Dubay-Bakı

hava xəttinin açılmasını və müəyyən müvafiq sənədlərin imzalanmasını xüsusilə qeyd etmək lazımdır.

AR-in Əbu-Dabidə öz səfirliyini açması (VI.2001) bir çox sahələrlə yanaşı humanitar-mədəni əlaqələrin genişlənməsinə də mühüm təsir göstərdi. BƏƏ-də keçirilən **Azərbaycan Mədəniyyəti günləri** (IV.2004) qarşılıqlı mədəni əlaqələrə əlverişli perspektivi təmin etdi. Parlamentarilərin və diplomatların qarşılıqlı səfərləri, ələlxüsus da AR XİN-i E.Məmmədyarovun Əbu-Dabidəki danışıqları dövlətlərarası siyasi münasibətlərin inkişafına və beynəlxalq təşkilatlarda əməkdaşlığa **yeni imkanlar** yaratdı. Hər iki dövlətin istək və səyləri əlaqələrin normal axarda inkişafına ciddi əngəllərin yarana biləcəyini söyləməyə əsas vermir.

Qətərin ölkəmizlə əlaqələrində **dövlət rəsmilərinin səfərləri** diqqəti daha çox cəlb edir. Belə ki, dövlətlərin bir-birlərilə diplomatik münasibətlər yaratmasının (IX.1994) ardınca prezident İ.Əliyev bu ölkəyə rəsmi səfərə getmişdir (XI-XII.2004). Müxtəlif vaxtlarda AR-in Xarici İşlər, Milli Təhlükəsizlik və Müdafiə nazirləri paytaxt **Dohada** Qətərin müvafiq qurumlarının başçılarıyla səmərəli danışıqlar aparmışlar. AR prezidentinin fərmanı ilə (28.IX.2002) respublikamızın Səudiyyə Ərəbistanındakı böyük elçisi ölkəmizi həm də Qətərdə və Oman sultanlığında təmsil etməyə başlamışdır.

AR **Oman Sultanlığı və Yəmən Respublikası** ilə də normal münasibətlər saxlayır. **Birinci** dövlətimizi tezliklə tanıyaraq (XII.1991) onunla diplomatik əlaqələr qurmuşdur (VII.1992). **İkinci** ilə diplomatik münasibətlərsə 1992-ci ilin fevralında yaradılmışdır. Hər iki dövlət Ermənistan-Azərbaycan münaqişəsinin həllində xalqımızın **mövqeyini haqlı sayır və onu daima dəstəkləyir.** Yəmənin Türkiyədəki səfiri 2002-ci ilin martından etibarən ölkəsini habelə AR-də təmsil edir. Rəsmi Bakı həm Omanla, həm də Yəmənlə əlaqələrdə qarşılıqlı səfərlərə və işgüzar müzakirələrə diqqət yetirir. Azərbaycanın baş diplomatının Omana səfəri zamanı (IV.2005) Xarici İşlər

nazirlikləri arasında imzalanan **Anlaşma Memorandumu** bir çox sahələrdə əməkdaşlığa şərait yaradır. AR-in Yaxın və Orta Şərqin digər dövlətləri kimi bu iki ölkə ilə də **münasibətlərinin perspektivi ümidvericidir.**

Azərbaycan **Afrika qitəsinin** Misirlə yanaşı Əlcəzair, Liviya, Mərakeş, Sudan, Tunis, Anqola, Nigeriya, CAR və **digər dövlətləri** ilə də müəyyən **əlaqələr** saxlayır. Hələlik çox da genişəhatəli olmayan bu əlaqələr əsasən **aşağıdakılarla səciyyələnir:**

- dövlətlərarası rəsmi tanınma;
- ilkin diplomatik əlaqələr (Bu münasibətlər əsasən AR ilə həmin dövlətlərin Türkiyə və Rusiyadakı səfirlikləri vasitəsilə saxlanılır);
- əsasən BMT, müəyyən qədər də İKT çərçivəsində əməkdaşlıq;
- dövlət rəsmilərinin qarşılıqlı səfərləri;
- çeşidli sahələrdə əməkdaşlığa dair sazişlər. (Onların arasında Liviya, Sudan və b. bağlananlar çoxluq təşkil edir) .

Bütövlükdə isə, **"qara qitə"nin** yetərli əməkdaşlıq potensialı, onun dövlətlərinin beynəlxalq qurumlarda çoxluq təşkil etməsi, habelə xeylisinin müsəlman ölkəsi olması və s. Azərbaycanın Afrika ilə çoxşaxəli əlaqələr saxlamasını şərtləndirir. Dövlətlərarası münasibətlərin daha da inkişafı üçün indiyədək yaradılan siyasi-hüquqi bazaya dayanaraq **iki(çox)tərəfli əlaqələrin** genişləndirilməsinə çalışılması lazım gəlir.

AR-in Cənubi və Şərqi Asiya dövlətləri ilə əlaqələri: əsas məqamlar və perspektivlər

Azərbaycanın xarici siyasətində **Cənubi Asiya dövlətləri** ilə münasibətlərə böyük önəm verilməsi təqdirəlayiqdir. Bu regionun ölkələri iqtisadi-hərbi potensialları, coğrafi yerləşmələri, beynəlxalq və məhəlli proseslərə təsir imkanları baxımından

dövlətlərarası münasibətlər üçün xeyli yararlı hesab olunurlar. Region dövlətləri arasında **Pakistan** AR ilə **ən tez** və **daha sıx əlaqələr** yaratması ilə diqqəti çəkir. Qarşılıqlı tərəfdaşlıq səviyyəsinə yüksəlməyə doğru getməsi dövlətlərarası münasibətlərin **əsas səciyyəvi cəhətlərindən** biri sayıla bilər.

Şimali Azərbaycanın müstəqilliyini tanıyan (13.XII.1991) **üçüncü dövlət** Pakistan olmuşdur. Diplomatik əlaqələrin qurulmasıyla (VI.1992) dövlətlərarası münasibətlərin inkişafına yol açılmışdır. Səfirliklərin təşkili isə (Bakıda-III.1993 və İslamabadda – 1997) ölkələrin **çoxşaxəli əməkdaşlığını** daha da intensivləşdirmişdir. Qarşılıqlı əlaqələrin mühüm bir hissəsi **çoxtərəfli diplomatiya müstəvisində** BMT, *İKT, İƏT kimi* təşkilatlarda əməkdaşlıq vasitəsilə həyata keçirilməkdədir.

Burada tərəflərin bir-birlərini birmənalı dəstəkləmələri, xüsusilə də **Dağlıq Qarabağ və Kəşmirlə bağlı haqlı mövqelərini** müdafiə etmələri diqqətçəkicidir (BMT TŞ-nin Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasıyla bağlı **822 saylı qətnaməsi Pakistanın sədrliyi ilə** keçirilən iclasda qəbul olunmuşdur). Pakistan Azərbaycan torpaqlarını işğal etdiyinə görə hələ də **Ermənistanla diplomatik münasibətlər yaratmayıbdır.**

İkitərəfli əlaqələrin genişlənməsinə **dövlət başçılarının təsiri** böyükdür. Prezidentlərin –Əhməd xan Leqari (X.1995) və P.Müşərrəfin (VII.2004) Bakıya, H.Əliyevlə (IV.1996) İ.Əliyevin (IV.2005) İslamabada rəsmi səfərləri zamanı imzalanan **30-dan çox sənəd** ölkələrarası münasibətlərin özülünü daha da möhkəmləndirmişdir. Pakistanın Azərbaycana **hərbi** sahədə də **əməkdaşlıq etmək təklifi strateji tərəfdaşlığın göstəricilərindən biri** olaraq səciyyələndirilir. Dost dövlətin **TRACECA layihəsində müşahidəçi statusunda iştirakı** ölkələrimizin, hələlik zəif olan, iqtisadi-ticarət əməkdaşlığını gücləndirəcək amillərdən sayılmalıdır. Pakistanın islam dünyasındakı nüfuzu və müsəlman ölkələrinə bəzi məsələlərlə bağlı təsir göstərə bilmə imkanları da Azərbaycanın onunla **tərəfdaş olmasını stimullaşdıran məqamlardandır.**

Hindistan da Azərbaycan Respublikasının normal münasibətlər yaratmağa müvəffəq olduğu dövlətlər cərgəsindədir. Onun tezliklə AR-i rəsmən tanıması (26.XII.1991) və ölkələr arasında yubadılmadan diplomatik əlaqələrin yaradılması (II.1992) münasibətlərin sonrakı gedişinə təsirsiz qalmadı. Səfirliklərin gec, yəni Bakıda 1999-cu və Dehlidə isə 2004-cü ildə açılmalarına baxmayaraq dövlətlərarası əlaqələrin müxtəlif sahələrində müəyyən işlər görüldü.

1998-ci ildə imzalanan iqtisadi-texniki əməkdaşlıq haqqında saziş və Xarici İşlər nazirlikləri arasında əməkdaşlıq barədə protokol qarşılıqlı əlaqələri genişləndirməyə imkan yaratdı. Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi və "İpək Yolu" **layihələrinin** gerçəkləşdirilməsi sahəsindəki **işbirliyinə** gedilməsi faydalı olmuşdur. Hazırda **dünyada ən çox yanacaq idxalçılarından olan** Hindistan Azərbaycanın beynəlxalq miqyaslı enerji layihələrinin reallaşdırılmasına qatılmaqda maraqlıdır. Onun neft-qaz sənayesi naziri M.Aiyar Bakıda keçirilən "Caspian Oil gas-2005" beynəlxalq konfransında ölkəsinin **BTC kəməri** vasitəsilə nəql edilən "mavi yanacaq"ın alıcılarından olmaq istəyini açıqlamışdır.

Lap son vaxtlarda Hindistan **"Qara dəniz-Qırmızı dəniz" adlı neft layihəsini** təklif edibdir. Layihə iki dənizi birləşdirəcək neft kəmərinin çəkilməsini faydalı sayır. Bu kəmər çəkilərsə, onunla ildə 120 mln.ton neft Ceyhan limanından Qırmızı dənizin İsrailə aid Eliat limanına və oradansa yerüstü xətlə Hindistana nəql edilə bilər. Həmin kəmərlə Azərbaycanla Rusiya neftinin nəqli düşünülür. Neftin dənizlər vasitəsilə tankerlərlə daşınmasını planlaşdıran bu layihə hələ **konsepsiya (ideya)** şəklindədir və onun iqtisadi səmərəliliyi öyrənilməkdədir. Layihənin həyata keçirilməsi üçün Türkiyə ilə İsrail arasında müvafiq anlaşma əldə olunması vacibdir. Mütəxəssislərin qənaətinə görə, qarşılıqlı maraqların təminatı şəraitində İsrailin Eliat limanından Səudiyyə Ərəbistanı, İran və İraq neftinin də Hindistana ixracı mümkündür. Hazırda əsas diqqət tərəflərin

qarşılıqlı şəkildə **reallaşdırılmamış güclü iqtisadi əməkdaşlıq potensialından** səmərəli istifadəyə yönəldilməlidir.

Dağlıq Qarabağ və **Kəşmir** "problemləri"nin həlli istiqamətində Azərbaycanla Pakistan tərəfindən tutulan haqlı həmrəy mövqe AR-in Hindistanla münasibətlərinə **təsirsiz ötüşmür**. Bunu Hindistanın BMT Baş Assambleyasının son illərdəki sessiyalarında "AR-in işğal olunmuş ərazilərində vəziyyətə dair" məsələnin müzakirəyə çıxarılmasına və qəbul edilən sənədlərə münasibəti də təsdiqləyir. Onun təmsilçisi 2008-ci il martın 14-də qəbul edilən məlum qətnamənin əleyhinə səs vermişdir (**Pakistansa** İKT-nin mövqeyini ifadə etməklə sənədin qəbulunu ciddi şəkildə **dəstəkləmişdir**). Hindistan şirkətinin Azərbaycanın Ermənistan tərəfindən işğal edilən Kəlbəcər rayonundakı **"Zod" qızıl yataqlarını işlətməsi** halı da ölkələrarası normal münasibətlər üçün məqbul sayıla bilməz. Bu və digər məsələlər iki dövlətin rəsmilərinin Bakıya və Dehliyə səfərləri zamanı müzakirə edilmişdir.

Göründüyü kimi, işğalçı Ermənistanla bağlı məqamlar nəzərə alınmazsa, Azərbaycanın Hindistanla əlaqələri qarşılıqlı əlverişli axarda davam etdirməsi **problemsizdir**. Bu zaman Hindistan-Pakistan münasibətlərinin **gələcəyinin** onların hər ikisinin ölkəmizlə əlaqələrinin səviyyəsinə (müsbət və mənfi yönlərdə) **təsiri** də nəzərə alınmalıdır.

Azərbaycan son onilliklərdə ciddi, faciələrlə dolu nəticələrli problemlərlə üzləşən **Əfqanıstanla** da diplomatik əlaqələrə malikdir. Əfqanıstan da AR-in müstəqilliyini **ilk olaraq tanıyan** (21.XII.1991) dövlətlərdəndir. Ölkələr arasında 1994-cü ilin noyabrından başlayan diplomatik əlaqələr hələlik AR-in Pakistandakı və Əfqanıstanın Rusiyadakı səfirlikləri vasitəsilə tənzimlənir. Qarşılıqlı əlaqələrin müxtəlif məsələləri dövlət başçılarının (H.Əliyevlə H.Kərzayın) BMT, İKT və İƏT-in toplantılarında iştirak çərçivəsində müzakirə edilmişdir. İqtisadi əlaqələr və ticarət *zəif olsa da*, **Kabil-Bakı birbaşa hava xəttinin açılması** və **əfqanıstanlı miqrantlara ölkəmizdə**

şərait yaradılması diqqətçəkicidir (ABŞ hərbi təyyarələrinin AR-in hava məkanından istifadə etməklə Əfqanıstana uçmalarına da imkan saxlanılır). **"Əfqanıstan problemi"nin** də tezliklə öz həllini tapmasının, bu ölkənin tam dincliyə və sabitliyə qovuşmasının onun Azərbaycanla münasibətlərinin inkişafına da müsbət təsir göstərəcəyi mümkündür.

Çinlə-çağdaş dünyanın ən böyük və nüfuzlu dövlətlərindən biri ilə-normal münasibətlərə nail olunmasının AR-in xarici siyasətinin **prioritet istiqamətlərindən** sayılması aksiomadır. O, yaxın perspektivdə **"regional güc"dən "dünya dövləti"nə çevrilmək** iddiasındadır. Hazırda **qlobal Amerika sisteminə qarşı** güclü dirəniş göstərən dövlətlərdəndir. İndiki **"təkqütblü dünya"** ilə və **ABŞ-ın hegemonçuluğuyla**, beynəlxalq siyasətə diqtə etməsiylə razılaşmayan Çin onlara son qoyulmasına çalışır.

Hələ ki, ABŞ-la bilavasitə qarşıdurmadan çəkinən və yayınan rəsmi Pekin dünyanın müxtəlif regionlarına **iqtisadi ekspansiya**, siyasi-diplomatik yollar, **qütbləşmə səyləri ("Şanxay beşliyi"** və digərləri) ilə onu sıxışdırmağı, mövqelərini zəiflətməyi planlaşdırır. Sözgəlişi, Z.Bjezinski və b. Çinin yaxın vaxtlarda dünyanı yenidən **"iki(çox)qütblü" düzənə** salacağını (qaytaracağını) və bu kontekstdə də qlobal Amerika sisteminin aradan qalxmasına nail olacağını mümkün və inandırıcı saymırlar.

Hərçənd ki, **B.Obama** BMT Baş Assambleyasının 64-cü sessiyasındakı çıxışında ABŞ-ın SSRİ və sosializm sisteminin çökməsindən sonra yeritdiyi **"təkqütblü dünya" strategiyasından imtina** etdiyini bildirmişdir. Onun qənaətinə görə, Ağ Evin əvvəlki administrasiyalarının ABŞ-ın dünyanı təklikdə idarə etməsinə dair **yanaşma-mövqeləri refleksif olaraq anti-amerikançılığı** gücləndirmişdir. İndiki prezidentin fikrincə, ABŞ-ın yeni rəhbərliyi qlobal problemlərin təkbaşına həllini mümkünsüz sayır və **beynəlxalq əməkdaşlığın yeni erasını** başladır: "İndi bizim hər birimizin üzərinə məsuliyyət payı

götürməsinin vaxtı çatıb və dünyanın problemlərinə görə hər kəs məsuliyyət daşıyır".

Belə bir beynəlxalq şəraitdə AR-ÇXR münasibətləri mühüm əhəmiyyət kəsb edir. AR-in dövlət müstəqilliyi Çin tərəfindən **ləngidilmədən tanındıqdan** (27.XII.1991) az sonra ölkələr arasında diplomatik əlaqələr (2.IV.1992) yaradıldı. 1992-ci ilin yayında Bakıda və sonrakı ilin payızında isə Pekində səfirliklər açıldı.

Azərbaycan-Çin əlaqələrində **öncəliklə qarşılıqlı faydalı iqtisadi əməkdaşlığa geniş yer** ayrıldı. Çin ölkəmizlə çoxşaxəli iqtisadi əlaqələrdə və ticarətdə yetərincə maraqlıdır. Azərbaycan son zamanlar ildə xaricdən 100 mln. tondan artıq neft alan və dünya maliyyə böhranı şəraitində **iqtisadi buma müvəffəq** olan (ÜDM-in 7,3 faizlik artımı və s.) Çin üçün də başlıca təchizatçılardan ola bilər. Tərəflərin qarşılıqlı maraqları və birgə səyləri sayəsində onlar arasındakı **ticarət dövriyyəsi** yarım milyard dollarlıq həcmi ötüb keçmişdir. Güney Qafqazda **Çinin əsas iqtisadi tərəfdaşı** sayılan Azərbaycana onun şirkətləri tərəfindən indiyədək yarım milyard dollarlıq investisiya qoyulmuşdur.

"Böyük İpək Yolu"nun bərpasına yönəlik fəaliyyət sahəsində işbirliyi də təqdirolunasıdır. Çin Xəzər neftinin **"Asiya marşrutu"yla** nəqlinə maksimum səylər göstərir. Bu yöndə özünün də təşəbbüskarı olduğu **"Transqafqaz neft və qaz layihəsi"nin (enerji dəhlizinin)** həyata keçirilməsini və, ən başlıcası isə, Azərbaycanın da ona qoşulmasını hədəfə almışdır. Belə bir **enerji təhlükəsizliyi strategiyası** Xəzər hövzəsinin karbohidrogen ehtiyatları ətrafında özünü açıqca göstərən **Vaşinqton-Moskva-Pekin rəqabətində uduşa** hesablanmışdır.

Çin Şərqi Asiyanın **digər bir "regional gücü" sayılan Yaponiyanın** Xəzər hövzəsinə və Cənubi Qafqaza göstərdiyi hərtərəfli maraqdan, xüsusilə də onun Azərbaycandakı sanballı iqtisadi-maliyyə-ticarət layihələrindən də ciddi rahatsızlıq keçirməkdədir. Xəzər, Qara və Aralıq **dənizlərarası regionda**

güclü iqtisadi maraqları olan ÇXR Bakı-Axalkalaki-Qars dəmiryolunun çəkilməsinə sərmayə yatırmağa razılıq verməklə TRACECA çərçivəsindəki **"Şərq-Qərb nəqliyyat dəhlizi"ndə iştiraka** da önəm verir. Habelə o, Azərbaycanın da **Qərbi Çinlə Xəzər hövzəsini birləşdirəcək dəmiryolu layihəsinə** maraq göstərməsinə cəhdlər edir.

Dövlətlərarası münasibətlər onların rəsmilərinin qarşılıqlı səfərləri, müxtəlif səviyyəli görüşlər-danışıqlar, çoxsaylı sazişlər və s. ilə də səciyyələnir. AR prezidentlərinindən **ata və oğul əliyevlərin ilk rəsmi səfərlərə getdikləri ölkələrin sırasında** Çinin də olması çox diqqətçəkicidir. H.Əliyevin səfəri *(III.1994)* gedişində müzakirə edilən məsələlər arasında iqtisadi əlaqələr, qarşılıqlı faydalı ticarət, beynəlxalq və regional proseslərə münasibət, Ermənistan-Azərbaycan münaqişəsinin həlli yolları xüsusi yer tutmuşdu.

İ.Əliyevin səfəri (III.2005) isə dövlətlərarası münasibətlərin yaradılmasından ötən müddətdə görülən işlərin dəyərləndirilməsi, əlaqələrin perspektivlərinin nəzərdən keçirilməsi və digər cəhətlərdən əhəmiyyətli olmuşdur. Bunlar da öz ifadəsini danışıqların nəticəsində imzalanan **Birgə Bəyanatda** tapmışdır. AR və ÇXR-in hakimiyyət strukturlarının rəhbər işçilərinin, habelə parlamentarilərin qarşılıqlı səfərləri və məsləhətləşmələrinin intensivləşməsi gözönündədir.

Azərbaycanın qarşılaşdı(rıl)ğı **"Dağlıq Qarabağ problemi"** və Çinin üzləşdiyi **"Şərqi Türküstan", Tibet, Tayvan məsələləri** də tərəflər arasında bu kimi proses-hadisələrə yanaşmada müəyyən **uzlaşmanı** şərtləndirmişdir. BMT TŞ-nin **beş daimi üzvündən biri** olan Çin həmişə AR-in ərazi bütövlüyünə və onun sərhədlərinin toxunulmazlığına tərəf çıxmışdır. (Arada, yəni 1999-cu ildə ÇXR-in Ermənistana 8 ədəd "Tayfun" tipli raket kompleksini satması halı da olmuşdur). Öz növbəsində rəsmi Bakı Çinin adıçıkilən problemlərinə münasibətdə onun mövqeyini müdafiə etmişdir. (Doğrudur, Azərbaycan cəmiyyətində ÇXR-in **uyğurlara qarşı** son vaxtlardakı **repres-**

siyalarına kəskin etirazlar da bildirilmişdir).

Bütövlükdə isə, beynəlxalq siyasətin yaxın perspektivdəki axarı, Çinin özünün hazırkı **başlıca rəqibi** ABŞ-la və həm **müttəfiqi**, eyni zamanda **rəqibi Rusiya** ilə, **"regional güc alternativi" Yaponiyayla** münasibətlərinin gələcəyinin onun Azərbaycanla əlaqələrinə bu və ya digər şəkildə təsiri şübhə yaratmır. Ancaq tərəflərin iqtisadi maraqlarının qarşılıqlı təmin olunması zərurəti, Azərbaycanın **ÇXR-in geostrateji planlarında işə yarama** ehtimalı və AR-in **BMT-dəki sözsahiblərinin** biri olan Çindən faydalanmaq xətti onlar arasında qarşılıqlı faydalı əməkdaşlıq-normal münasibətlər perspektivini istisna etmir, əksinə, şərtləndirir.

Yaponiya ilə də səmərəli işbirliyi, beynəlxalq siyasət məsələlərində anlaşma və s. Azərbaycan üçün (elə onun özündən ötrü də) olduqca əhəmiyyətlidir. O, Şərqi Asiyadan ölkəmizlə sıx əlaqələrə malik olan **ikinci dövlətdir**. Rəsmi Tokio AR-in dövlət müstəqilliyini 1991-ci il dekabrın 28-də tanımışdır. Tərəflər arasında **diplomatik əlaqələr xeyli ləngidilmədən** qurulsa da (IX.1992) **səfirliklərin açılması** bir qədər **yubandı**: 2000-ci ilin yanvarında AR-də və 2002-ci ilin oktyabrında isə Yaponiyada böyük elçiliklər fəaliyyətə başladı; AR-dəki diplomatik nümayəndəliyi onun Güney Qafqaz dövlətlərində hələ ki, **yeganə səfirliyidir.**

Hələ İkinci Cahan hərbindən sonrakı ilk çağlarda Baş nazir tərəfindən elan olunan **"Yosida doktrinası"**, Xiquti Komissiyasının 1994-cü ildə dərc edilən ("Yapon təhlükəsizliyinin **üç sütunu"nu** müəyyənləşdirən) və elə həmin ildə Odzava Komissiyası tərəfindən hazırlanan"Yeni Yaponiya üçün proqram: **millətin yenidən dərkolunması"** məruzələri, 1995-ci ildə açıqlanan "Hərtərəfli təhlükəsizlik sistemi" planı, 1996-cı ildə ortaya çıxarılan "Asiya-Sakit Okean regionunda təhlükəsizlik sisteminin imkanları və rolu" sənədi, 1997-ci ildə R.Haşimoto hökumətinin ərsəyə gətirdiyi **"Avrasiya diplomatiyası" konsepsiyası** ilə Yaponiya öz beynəlxalq siyasətinin bu kimi

başlıca məqsəd və prinsiplərini müəyyənləşdirmişdi:

- ölkənin **iqtisadi tərəqqisi;**
- beynəlxalq **münaqişələrdə iştirakdan yayınma;**
- ABŞ-ın **hərbi himayəsi** və onunla xüsusi münasibətlər;
- **ideologiyasızlaşdırılmış diplomatiya;**
- təhlükəsizliyə dair çoxtərəfli **Asiya dialoqu** və s.

Z.Bjezinskinin "Böyük şahmat lövhəsi"ndə müxtəlif yönlərdən incələnən Yaponiya son dönəmlərdə özünün beynəlxalq siyasətində **bəzi dəyişikliklər** və ona **müəyyən düzəlişlər** etməyə israrlıdır. O, tarixi "Böyük İpək Yolu" boyu **"Avrasiya siyasəti"ni** yeritməyi hədəfə almışdır. **Avrasiya Uzaq Şərqindəki** proseslərdə fəallaşan (**Avrasiya Uzaq Qərbində** isə Almaniya) Yaponiya ayrı-ayrı regionlarda özünün iqtisadi və digər maraqlarının təmin olunmasına üstünlük verir və buna da çalışır. Bu kontekstdə də bərpasına çalışılan **"Böyük İpək Yolu"nun "ən şərq nöqtəsindəki Yaponiya ilə onun ortasındakı Azərbaycan"**ın iqtisadi əməkdaşlığı zərurət təşkil edir.

İndiki vaxtda Yaponiya enerji ehtiyatlarına tələbatının 55 faizini **xaricdən idxal edilən neftin** hesabına ödəyir; onun da 85%-i **daimi gərginlik regionu** olan Yaxın Şərq ölkələrindən satın alınır. Bunların üzündən **gündoğar ölkənin** Azərbaycanın karbohidrogen ehtiyatlarından yararlanmağa maraq göstərməsi olduqca məntiqidir. Qarşılıqlı iqtisadi maraqlar **yapon şirkətlərinin ölkəmizə axınını** şərtləndirdi: "İtoçu" və "MİTSUİ" **AR-in 16-cı beynəlxalq neft müqaviləsində** (yeni konsorsumda) iştirakçı oldular. Azərbaycanda fəaliyyət göstərən **yapon şirkətlərinin sayı** son vaxtlarda **15-i ötüb** keçmişdir.

Hazırkı dünya maliyyə böhranı şəraitində 3.7 faizlik artım qeydə alındığıYaponiyanın dövlət və özəl kompaniyaları **Azərbaycan iqtisadiyyatına sərmayə qoyulmasında** da fərqlənirlər. Onlar AR-in neft maşınqayırması sənayesinə texniki yardım üçün 13 mln. dollarlıq birbaşa vəsait ayırmışlar. Habelə Şimal DRES-in yenidən qurulmasından ötrü hökumət tərəfindən 160 mln. və kimya sənayesinin bir qisminin modern-

ləşdirilməsinə isə "Eksimbank"ın 90 mln. dollar həcmində kredit verməsi razılaşdırılmışdır.

İkitərəfli əlaqələrdə **dövlət rəsmilərinin qarşılıqlı səfərləri** və onların gedişində aparılan danışıqların nəticəsində bağlanan sazişlər, imzalanan Birgə bəyanatlar və s. çox əhəmiyyətlidir. AR prezidentinin Tokioya **ilk rəsmi səfəri** (II.1998) bu baxımdan xüsusilə qeyd olunmalıdır. Bu səfər-danışıqlar 3 Birgə bəyanat, 3 kredit sazişi, protokol və s. çoxlu sənədlərin imzalanmasına görə **məhsuldar** sayıla bilər. Həmçinin AR-in Baş naziri A.Rəsizadə və digər rəsmiləri vaxtaşırı Yaponiyaya gedərək iqtisadi-ticarət və təhsil-elm-mədəniyyət sahələrində əməkdaşlığa dair müzakirələr aparmışlar. Öz növbəsində Yaponiyanın dövlət rəsmiləri-**"İpək Yolu Enerji Missiyası"**nın başçısı (XİN-in müavini) və digərləri ölkəmizə gələrək müxtəlif səpkili razılaşmalar imzalamışlar.

Azərbaycan-Yaponiya **siyasi əlaqələri** də inkişaf etməkdədir. Bu müstəvidəki münasibətlər əsasən tərəflərin bəzi məsələlərdəki **haqlı mövqelərinin qarşılıqlı dəstəklənməsində** ifadə olunur. Belə ki, rəsmi Tokio Azərbaycanın ərazi bütövlüyünü birmənalı tanımaqla Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə öz münasibətini bildirmişdir. Ermənistanın ölkəmizə təcavüzü üzündən qarşılaşdığı çətinlikləri nəzərə alaraq indiyədək AR-ə təxminən 450 mln. dollarlıq yardım göstərilmişdir. Məcburi köçkünlərimizə edilən yardım 7 mln. dollardan çox olmuşdur. Öz növbəsində Azərbaycan-**BMT büdcəsinin 20 faizini ödəyən**-Yaponiyanın bu təşkilatın **Təhlükəsizlik Şurasına daimi üzv seçilməsinə dair haqqını** ardıcıl müdafiə edir.

Dövlətlərarası siyasi-diplomatik münasibətlərdəki uzlaşma **çağdaş beynəlxalq həyatın bir sıra köklü məsələlərinin həllinə yanaşmada** da özünü göstərir. Siyasi əlaqələrdə Yaponiya-Azərbaycan Parlamentlərarası Dostluq Assosiasiyası, AR MM-in gündoğar ölkənin qanunyaradanları ilə əməkdaşlıq üzrə xüsusi deputat qrupu və s. qurumların fəaliyyəti səmərəlidir.

Bir sözlə, Azərbaycanla Yaponiyanın çoxşaxəli əlaqələri-əməkdaşlığının hazırkı, demək olar ki, problemlərsiz və normal durumu **qarşıda daha yaxşı münasibətlərin ola biləcəyinə dəlalət** edir.

Azərbaycan Respublikası **Cənub-Şərqi Asiyanın** İndoneziya, Avstraliya, Vyetnam, Malayziya və digər dövlətləri ilə də müxtəlif səviyyəli münasibətlərə malikdir. **İndoneziya** ilə diplomatik əlaqələr 1992-ci ilin sentyabrında yaradılmışdır. O ölkəmizdə özünün Türkiyədəki səfiri vasitəsilə təmsil olunur. AR isə 2004-cü ilin aprelində orada öz diplomatik nümayəndəliyini təsis etmişdir.

AR-in İndoneziya ilə əlaqələrinin səviyyəsi hələlik **qaneedici** deyildir. Bunu tərəflər arasında imzalanan sənədlərin azlığı, dövlət başçıları səviyyəsində qarşılıqlı rəsmi səfərlərin yoxluğu və s. də görmək mümkündür. Mövcud əlaqələr əsasən BMT və İKT-nin tədbirləri çərçivəsindəki görüş- müzakirələrlə və din xadimlərinin təmaslarıyla həyata keçirilir. AR İndoneziya ilə Cənubi Afrika Respublikasının Cakartada keçirdikləri **"Asiya-Afrika: 2005" Zirvə toplantısında** (IV.2005) da təmsil olunmuşdur. Ölkələrarası iqtisadi işbirliyi, ticarət əlaqələri də arzuolunan səviyyəyə çatmayıbdır. (Qarşılıqlı ticarət dövriyyəsi 2004-cü ildə 131 mln. dollar olmuşdur). Tərəflərin qarşılıqlı çoxşaxəli əlaqələr üçün imkanları yetərlidir.

Azərbaycanın Cənub-Şərqi Asiyanın yuxarıda adları çəkilən digər ölkələri və burada qeyd olunmayan bəzi dövlətləri ilə münasibətlərini **səciyyələndirən başlıca göstəricilərsə** bunlardan ibarətdir: qarşılıqlı diplomatik tanınma; səfirliklərin təsisinin natamamlığı; ikitərəfli yüksək səviyyəli səfərlərin yoxluğu; çoxlu mühüm sənədlərin azlığı və s.

İçindəkilər

Səh.

Ön söz 5

Giriş 7

Birinci bölüm. Şimali Azərbaycanın beynəlxalq və regional inteqrasiya proseslərinə qoşulması 14

Beynəlxalq inteqrasiya proseslərinə qatılmanı şərtləndirən amillər. – AR-BMT əlaqələri: əsas məqamlar və nəticələr. – AR-ATƏT əməkdaşlığı: problemlər və perspektivlər. – AR-NATO əməkdaşlığının xarakteri və gələcəyi. – Azərbaycan-Avropa Şurası əlaqələri: mərhələlər, çətinliklər, nəticələr. – Azərbaycan Respublikası və Avropa İttifaqı: münasibətlərin durumu və perspektivləri. – AR və İKT: əməkdaşlığın istiqamətləri, nəticələri –Azərbaycanın beynəlxalq və regional iqtisadi qurumlarla işbirliyi

İkinci bölüm. Ermənistan – Azərbaycan münaqişəsinin nizamlanmasına dair beynəlxalq səylər 109

BMT-nin münaqişənin tənzimlənməsi sahəsində fəaliyyəti. – ATƏT-in konfliktin həllinə dair səyləri. – Avropa Şurasının strukturlarında "Dağlıq Qarabağ müzakirələri". – Avropa İttifaqı və Ermənistan-Azərbaycan münaqişəsi. – NATO və "Dağlıq Qarabağ problemi". – Dağlıq Qarabağ münaqişəsi və İKT-nin mövqeyi

Üçüncü bölüm. Azərbaycanın "neft-qaz diplomatiyası": problemlər, ilkin nəticələr, perspektivlər 258

Beynəlxalq enerji təhlükəsizliyi problemi və neft tariximizin qısa səciyyəsi. – Xarici şirkətlərlə ilkin danışıqlar: problemlər və nəticələr. – AR-in ilk beynəlxalq neft müqaviləsi ("Əsrin kontraktı") və sonrakı sazişlər. – Xəzərin hüquqi statusu ətrafında diplomatik çəkişmələr. – Azərbaycan (Xəzər) neftinin Avropaya nəqli (marşrutları) problemi. – "Nabucco" layihəsi: maraqlar, problemlər, perspektivlər. – "Neft-qaz diplomatiyası"nın ilkin nəticələri: baxışlar və mövqelər

Dördüncü bölüm. Azərbaycan Respublikasının Qərb dövlətləri ilə münasibətləri 476

Böyük Britaniya ilə münasibətlər: əsas istiqamətlər və nəticələr.–Fransa və Almaniya ilə münasibətlər: problemlər və əməkdaşlıq.– Belçika və Norveç krallıqları ilə əlaqələr. – Mərkəzi və Şərqi Avropa dövlətləri ilə əməkdaşlıq: qarşılıqlı maraqlar və işbirliyi.– ABŞ-la münasibətlərin xarakteri və perspektivləri

Beşinci bölüm. Azərbaycan potsovet məkanı dövlətlərarası əlaqələr sistemində 535

AR-in MDB-yə qəbulu prosesi. –GUAM: məqsədlər, problemlər, perspektivlər. – Azərbaycan-Rusiya münasibətləri yeni tarixi şəraitdə: problemlər və perspektivlər. – Azərbaycan-Gürcüstan tərəfdaşlığı və "Qafqaz Evi" problemi. – AR-in Ukrayna, Moldova və Baltikyanı postsovet respublikaları ilə ikitərəfli əlaqələri. – MDB-nin gələcəyinə dair baxışlar və mövqelər

Altıncı bölüm. Azərbaycanın Türk dünyasına inteqrasiyası prosesi 582

Türk dövlət başçılarının Zirvə görüşləri.–Türk dövlətləri və topluluqlarının ənənəvi (illik) "Dostluq, qardaşlıq və işbirliyi" qurultayları. – Türk dünyasıdaxili inteqrasiyanın aparıcı yönləri və ilkin nəticələri. – Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı: uğurlar, problemlər, perspektivlər – AR-in Mərkəzi Asiyanın türk dövlətləri ilə əlaqələri. –

Türk dünyasıdaxili inteqrasiyanı əngəlləyən səbəblər və Ümumtürk birliyinin gələcəyinə dair baxışlar

Yeddinci bölüm. Azərbaycanın xarici siyasətinin Asiya istiqaməti 664

Azərbaycan Respublikası-İran münasibətləri: əlaqələrin xarakteri, problemlər, perspektivlər. – Azərbaycan-İsrail əlaqələri: qarşılıqlı maraqlar və ilkin nəticələr. – Azərbaycanın ərəb və Afrika dövlətləri ilə əməkdaşlığı: başlıca məsələlər və istiqamətlər. –AR-in Cənubi və Şərqi Asiya dövlətləri ilə əlaqələri: əsas məqamlar və perspektivlər.

Çapa imzalanmışdır: 17.02.2011.
Kağız formatı 60x84 1/16. Həcmi 48,5 ç.v. Sayı 500.

«Bakı Universiteti» nəşriyyatı.
Bakı ş., AZ 1148, Z.Xəlilov, 23.